İdarəetmənin başqa bir vacib aspekti logistik və gömrük prosedurlarının düzgün təşkili ilə bağlıdır. Çünki avadanlığın bir ölkədən digərinə daşınması üçün tələb olunan sənədlər, idxal-ixrac şərtləri və vergi güzəştləri əməliyyatın ümumi effektivliyinə birbaşa təsir edir.

Texniki və əməliyyat məsələlərindən əlavə, beynəlxalq lizinq əməliyyatlarının uğurla idarə olunması üçün informasiya sistemləri, rəqəmsal platformalar və avtomatlaşdırılmış hesabatlılıq sistemlərindən istifadə də zəruridir. Bu alətlər risklərin monitorinqinə, müqavilə öhdəliklərinin

icrasına və tərəflər arasında şəffaf əlaqələrin qurulmasına xidmət edir.

Beynəlxalq lizinq əməliyyatlarının idarə olunması mürəkkəb, lakin strateji əhəmiyyətli bir prosesdir. Onun uğurla həyata keçirilməsi üçün hüquqi uyğunluq, maliyyə sabitliyi, texniki səmərəlilik və effektiv koordinasiya zəruridir. İdarəetmə prosesində hər bir tərəfin risklərinin balanslaşdırılması, müqavilə şərtlərinin aydın və qarşılıqlı anlaşmaya əsaslanması, həmçinin beynəlxalq standartlara uyğunluq önəm daşıyır. Lizinq bazarının qloballaşması şəraitində rəqabətə davamlılıq və maliyyə sabitliyi üçün bu əməliyyatların peşəkar səviyyədə idarə olunması daha da aktual xarakter alır.

ƏDƏBİYYAT

1. "Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
2. Azərbaycan Respublikasının Beynəlxalq Maliyyə qurumları ilə əlaqələrinin müasir vəziyyəti. AR İqtisadi İnkişaf Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu. Bakı, 2004
3. Hümbətov M., Əkbərova X. Azərbaycanda lizinq bazarı // Strateji Təhlil
4. Трушкевич Е.Н., Трушкевич С.В. Лизинг. Учебное пособие. Минск: Амалфея, 2001

Сахиб Сехлиман оглы Муршудов
магистрант,
Айгюн Эльдар кызы Гулиева
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Особенности управления международными лизинговыми операциями

Резюме

В условиях глобализации и расширения международных экономических отношений международные лизинговые операции становятся одним из важных финансовых инструментов для бизнес-субъектов. Эти операции служат эффективным механизмом финансирования и использования основных фондов (оборудование, техника, транспортные средства и т.д.). Управление международным лизингом требует точной координации множества правовых, финансовых и логистических аспектов. Эффективное управление в этой сфере предполагает балансировку рисков между сторонами лизинга, прозрачность договоров и соблюдение нормативных требований в трансграничных операциях.

Sahib Sehliman Murshudov
master,
Aygun Eldar Guliyeva
doctor of economic sciences, professor,
Azerbaijan Cooperation University

Features of the management of ınternatıonal leasıng operatıons

Summary

In the context of globalization and the expansion of international economic relations, international leasing operations have become one of the key financial instruments for business entities. These operations serve as an effective mechanism for financing and utilizing fixed capital assets such as equipment, machinery, and vehicles. The management of international leasing requires the proper coordination of multiple legal, financial, and logistical aspects. Successful management in this area necessitates balancing risks between the leasing parties, ensuring contract transparency, and complying with regulatory standards in cross-border transactions.

İnarə Namiq qızı ƏLİYEVA
magistrant,
Anar Əli oğlu ƏZİZOV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA ƏMƏK BAZARININ FORMALAŞMASI VƏ İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNDƏ SOSİAL AMİLLƏRİN ROLU

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi dəyişikliklərin başlıca məqsədi əmək bazarı iqtisadiyyatına əsaslanır. İqtisadi rayonlarda regional bərpa və inkişaf siyasətinin tərkib hissəsi kimi, ümumiləşdirilmiş bir sıra amillər nəzərə alınır və tədbirlər görülür. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının resurs potensiallarından səmərəli istifadə, ölkə iqtisadiyyatının dayanıqlığını gücləndirən əsas istiqamətlərdəndir.

Əhalinin təhsil səviyyəsi, demoqrafik göstəricilər, miqrasiya, peşə bacarıqları və gender bərabərliyi kimi məsələlər sosial amillərin göstəriciləridir.

Təhsil səviyyəsinə vəsaitlərin qoyulması, fasiləsiz təhsil sisteminin inkişaf etdirilməsi, Azərbaycanda təhsil səviyyəsinə uyğun olaraq məşğulluq problemi öz mahiyyətinə görə sosial təsirlərdə başlıca xarakter daşıyır. Əhalinin ərazi strukturunun xüsusiyyəti müəyyən regionlara və rayonlara görə bölünməsində əhəmiyyət daşıyır. Xüsusən də kadrlar arasındakı fərqlər və onların müəyyən sahədə rolunda özünü geniş şəkildə göstərir. Peşə əlamətləri üzrə mühəndislərin, müəllimlərin, həkimlərin, iqtisadçıların və digərlərinin fərqlənməsidir. Burada əsas məqam təhsil səviyyəsinin əmək bazarında keyfiyyəti, rəqiblərin arasında rəqabəti mövcud etməsidir.

Demoqrafik amilərin təsirində başlıca məqamlar, ölkə əhalisi arasında xəstəliklərin artması (COVİD-19); əhali tərəfindən istehsal edilən ərzaq məhsullarında keyfiyyət və satış problemləri; ekoloji tarazlığın pozulması və bununla da insanların yaşayış tərzində müəyyən dəyişikliklərin baş verməsi və s. ciddi təsir göstərmişdir. Demoqrafik əlamətlərə yaşlı işçilərin əmək bazarı üçün yüksək peşə ustalığı və böyük iş təcrübəsinin yansıması da aiddir. Eyni zamanda yüksək ixtisaslı kadrların çox olması əmək bazarında məhsuldar iş mühitinin yaranmasına vasitəçi rolu oynayır. Hətta Azərbaycan dövləti əmək bazarında miqrasiyanın sosial təsirlərini yumşaltması məqsədilə bir sıra proqramlar həyata keçirmişdir. Bunlar miqrasiya proseslərinin idarə olunması və əmək resurslarının effektiv istifadəsində özünü göstərmişdir. Regional inkişaf proqramı da Qarabağ regionunda məşğulluğun artırılması və miqrasiyanın qarşısının alınması məqsədi daşıyır.

Miqrasiya prosesi Azərbaycan cəmiyyətinə ümumi olaraq birbaşa təsir edən amildir. 1990-cı illərin əvvəllərindən etibarən ölkədə baş verən sosial-iqtisadi dəyişikliklər, regional münaqişələr prosesi bu amili gücləndirmişdir. Qarabağ və Şərqi Zəngəzur rayonlarında əmək resurslarının azalması və ya artmasında, xüsusən də iqtisadi adaptasiya yönümlərində özünü göstərmişdir. Rayon və kənd yerlərində gənc və fiziki cəhətdən aktiv insanların azalmasına və işçi çatışmazlığına qədər, bu kimi problemlərə gətirib çıxarır. Müsbət tərəfini vurğulamaq lazımdırsa bu, miqrantların geri qayıtmasıdır. Onların qazandığı təcrübə və bacarıqlar daxili əmək bazarına müsbət keyfiyyət gətirir.

Gender bərabərliyi əmək bazarında sosial amil kimi insan resurslarında əksini tapır. Həmçinin əmək bazarında sosial münasibətlərin formalaşmasına da mühüm təsir göstərir Bunu iqtisadi səmərəliliyin artırılması kimi də qəbul etmək olar. Sosial amil kimi bir neçə istiqamətdə özünü göstərir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, qadınların əmək bazarındakı payı ümumi məşğul əhalinin yarısından azını təşkil edir. İnsan kapitalının inkişafında qadınlar təhsil və məşğulluq sahələrində mühüm rol oynayır. Bu, insan potensialının keyfiyyətini artırır, yaradıcılıq və innovasiya imkanlarını genişləndirir.

Əmək bazarında gender balansının qorunması gəlir fərqlərinin azalmasına, yoxsulluğun səviyyəsinin enməsinə və ümumi sosial rifahın artmasına səbəb olur. Azərbaycanda bu sahədə bir sıra qanunvericilik sənədləri və dövlət proqramları da lazımi qədər mövcuddur: "Gender (kişi və

qadınların) bərabərliyinin təminatları haqqında" Qanun (2006-cı il); Həmin sənədlərdə gender bərabərliyi davamlı inkişafın əsas istiqamətlərindən biri kimi vurğulanır.

Bu günün reallıqları sadalanan amillərin təsiri və insan resursları sisteminin ölkənin sosial-iqtisadi inkişafının məqsəd və vəzifələrinə uyğun şəkildə əsaslı surətdə yenidən formalaşdırılmasını zəruri edir. Bununla bərabər Qarabağ və Şərqi Zəngəzur bölgələrində müharibədən təsirlənmiş insanların əmək bazarına uyğunlaşması, dövlət siyasətinin əsas sosial istiqamətlərindən biri kimi müəyyən olunur. PES bu qrupa, xüsusilə də əlilliyi olan şəxsləri vurğulayaraq, "əmək bazarında həssas mövqeyə malik olan" fərdlər kimi istinad edir (The Social Dynamics of Labor Market Inclusion).

Azərbaycanda insan resurslarının qarşılıqlı inteqrasiyası və əməkdaşlığı gücləndirməklə əmək bazarının formalaşmasında rolu kəskin formada artırmaq mümkündür. Həmçinin insan resurslarının əmək bazarına çıxış imkanları, onların bu prosesdəki rolu və istiqamətləri kifayət qədər mövcuddur. Bunlar həmçinin Azərbaycanda sosial amillərin təsirində özünü göstərir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əmək bazarının formalaşması çoxölçülü və sistem xarakterli bir proses kimi qiymətləndirilə bilər. Bu yanaşma, eyni zamanda, regionda ekoloji balansın qorunması və dayanıqlı məşğulluğun təşviqi üçün "yaşıl iqtisadiyyat" prinsipinə əsaslanır. Ərazilərdə tətbiq edilən "ağıllı kənd" və "ağıllı şəhər" təşəbbüsləri regional idarəetmənin sosial yönümlü inkişafını təmin etməyə kömək edir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilmiş ərazilərinə qayıdan, həmçinin 2026-cı ilədək qayıdacaq əhalinin məşğulluğunun təmin edilməsi dövlət proqramının əsas hədəf istiqmətlərindən biri kimi müəyyən edilmişdir. Əmək bazarının sosial amillərə təsirinin nəticəsi insan resurslarında özünü göstərir.

Uzunmüddətli inkişaf baxımından insan resurslarının gücləndirilməsi və keyfiyyətinin artırılması, ekoloji dayanıqlığın qorunması və sosial inteqrasiyanın bərpası Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının müasir, rəqabətədavamlı və inklüziv əmək bazarına transformasiyasının əsas strateji istiqamətlərini təşkil edir(Azərbaycan 2021-2030). Bu istiqamətlər üzrə ardıcıl siyasət və institusional mexanizmlərin tətbiqi regionların iqtisadi potensialının tam reallaşmasına, bilik və innovasiyaya əsaslanan əmək bazarının formalaşmasına, həmçinin sosial-iqtisadi sabitliyin möhkəmlənməsinə şərait yaradacaqdır.

Nəticə etibarilə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əmək bazarının inkişafı dayanıqlı regional idarəetmə, inklüziv sosial siyasət və ekoloji məsuliyyətlilik prinsiplərinə əsaslandıqda, bu regionlar təkcə ölkədaxili iqtisadi inteqrasiyanın deyil, həm də beynəlxalq əməkdaşlıq və investisiya axınlarının cəlb edilməsi baxımından strateji əhəmiyyətli mərkəzlərə çevrilə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. (2022). "Böyük Qayıdış" proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişaf Konsepsiyası. Bakı: İqtisadiyyat Nazirliyi nəşri. – 105 s.
2. Lena Strindlund – The Social Dynamics of Labor Market Inclusion
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 11 fevral 2004-cü il
4. Yaşıl Dünyanın Qarabağ Modeli (2024)
5. Dünya Bazarı İstiqamətləri. Bakı (2005) –81 s.
6. Telman İman oğlu İmanov – Müasir İqtisadi Şəraitdə İstehsal Vasitələri Bazarının Formalaşması və İnkişaf Problemləri
7. Məmmədov R. (2020). İnsan resurslarının idarə edilməsinin müasir istiqamətləri. Bakı: "Qanun" Nəşriyyatı. – 210 s.

Инара Намиг кызы Алиева
магистрант,
Анар Али оглы Азизов
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Роль социальных факторов в формировании рынка труда и управлении человеческим потенциалом в Карабахском и Восточно-Зангазурском экономических районах

Резюме

При формировании рынка труда в Азербайджане, в рамках политики восстановления и развития, учитывается ряд обобщенных факторов и принимаются меры. Подробно рассматриваются такие вопросы, как уровень образования населения, демографические показатели, миграция, профессиональные навыки и гендерное равенство, поясняется каждый из показателей социальных факторов. Целенаправленное использование возможностей Карабахского и Восточно-Зангезурского экономических районов рассматривается как важный фактор, обеспечивающий устойчивое развитие экономики страны.

В этих направлениях отражена суть государственной программы, которая создаст условия для полной реализации экономического потенциала регионов, формирования рынка труда, основанного на знаниях и инновациях, а также укрепления социально-экономической стабильности.

Inara Namig Aliyeva
master,
Anar Ali Azizov
doctor of economic sciences, professor,
Azerbaijan Cooperation University

The role of social factors ın the formatıon of the labor market and human resources management ın the Karabakh and Eastern Zangazur economıc regıons

Summary

In the formation of the labor market in Azerbaijan, as part of the recovery and development policy, a number of generalized factors are taken into account and measures are taken. Issues such as the level of education of the population, demographic indicators, migration, professional skills and gender equality are explained in detail, each of the indicators of social factors is explained. The purposeful use of the opportunities of the Karabakh and East Zangezur economic regions is discussed as an important factor ensuring the sustainable development of the country's economy.

The essence of the state program, which will create conditions for the full realization of the economic potential of the regions, the formation of a labor market based on knowledge and innovation, as well as strengthening socio-economic stability, is reflected in these directions.

Vəli Canpolad oğlu BUDAQOV
magistrant,
Fazil Həşim oğlu ABBASOV
iqtisad üzrə fəlsəfə doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQROBİZNESİN TƏŞKİLİNİN İQTİSADİ MEXANİZMLƏRİ HAQQINDA

Giriş

İşğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi regionlarında yeri və rolunun müəyyənləşdirilməsi və bu sahədə aqrobiznesin inkişaf etdirilməsi ölkə iqtisadiyyatının dayanıqlı inkişafında mühüm rola malikdir. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021-ci tarixli fərmanına müvafiq olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması bu ərazilərin sosial - iqtisadi inkişafının sürətləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. ("Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı 07 iyul 2021-ci il). İşğaldan azad edilmiş ərazilərdə aqrobiznes fəaliyyətinin təşkili çevik iqtisadi mexanizmlərin tətbiqini özündə əks etdirir.

Aqrobiznes fəaliyyəti geniş və çoxşaxəli kateqoriya olub klasterial inkişafın mühüm tərkib hissəsi kimi çıxış edir. Aqrobiznes fəaliyyətinin təşkili çevik iqtisadi mexanizmlər əsasında sürətlənə bilər. Aqrobiznesin təşkilinin iqtisadi mexanizmləri güzəştli kredit sisteminin yaradılmasına daxili və xarici investisiyaların cəlb edilməsi ilə bağlı çevik stimulların formalaşdırılmasına, ünvanlı subsidiyalaşdırmanın tətbiqinə əsaslanır.

Aqrobiznesin ərzaq təminatındakı rolu ilk növbədə kənd təsərrüfatı məhsullarının istehsalı, bölgüsü, mübadiləsi, emalı, marketinqi və istehlakı mərhələlərində müxtəlif resurslar və ehtiyatlardan effektiv istifadə, onların səmərəli coğrafi və sosial bölgüsünün təmin edilməsi ilə bağlıdır. Bu, kənd təsərrüfatında istehsal olunan ərzaq məhsullarının əlçatanlığı baxımından yekun nəticəni müəyyən edir. Sosial və iqtisadi baxımdan kənd təsərrüfatı məhsullarının istehsal və istehlak səviyyəsi, rəqabət və digər iqtisadi fəaliyyətlər arasında bir-birini tamamlayan şərtlər mövcuddur.

Aqrobiznes qabaqcıl texnologiyaların istehsalda istifadəsini asanlaşdırmaqla bir sıra vacib xidmətlərin – təhsil, elmi-tədqiqatlar, maliyyə, konsultasiya, informasiya və s. əlçatanlığını da təmin edir. Bu xidmətlər ərzaq təhlükəsizliyi strategiyasının ən mühüm aspektlərini əhatə edir. Aqrobiznes fəaliyyəti, eyni zamanda, dəyər zəncirləri vasitəsilə istehsalçılarla istehlakçıları əlaqələndirir, məhz dəyər zənciri hesabına ərzaq məhsulları istehlakçılara əlçatan olur. Ərzaq məhsullarının əlçatanlığına müxtəlif növ ticarətçilərin fəaliyyəti (topdan və pərakəndə ticarət), istehsalın təşkili üsulları (fərdi şəxslər, kooperativlər, müqavilə üzrə istehsal), bazar infrastrukturu (real və ya virtual nəqliyyat (avtomobil, dəmir yolu, hava və su nəqliyyatı), logistika informasiya sistemləri, pərakəndə ticarətin quruluşu (kiçik mağazalar, supermarketlər, hipermarketlər), dəyər zəncirinin müxtəlif mərhələlərindəki rəqabət səviyyəsi ciddi təsir edir.

Ərzaq məhsullarının yerli istehsalı kifayət qədər olmadıqda, ərzaq təchizatının digər mənbəyi idxal hesab edilir. Bu baxımdan. aqrobiznesin qlobal ərzaq sistemindəki yeri danılmazdır. Ona görə də aqrobiznes fəaliyyətində beynəlxalq ərzaq bazarlarının vəziyyətinin nəzərə alınması və təhlükəsizlik şəbəkələrindən istifadə edilməsi zərurətə çevrilir. (Əmrahov V. və b. "Aqrobiznes" (dərs vəsaiti). Bakı-2021, s.178, s.151,152)

Müəllifin qeyd etdiklərindən belə qənaətə gəlmək olar ki, işğaldan azad edilmiş ərazilərdə aqrobiznes fəaliyyyətinin təşkili iqtisadi mexanizmlərlə yanaşı institusional mexanizmlərlə də dəstəklənmlidir. İşğaldan azad edilmiş ərazilərdə aqrobiznes fəaliyyətinin təşkilinin iqtisadi mexanizmləri ərzaq təhlükəsizliyinin təmin edilməsinə də əlverişli şərait yarada bilər.

Bunlarla bərabər, bölgədə aparılan sosial-iqtisadi inkişaf layihələrinin daha tez və səmərəli reallaşdırılması məqsədilə lizinq xidmətlərinin təşkilini, kənd təsərrüfatı texnikası və avadanlıqlarının lizinq qaydasında fiziki və hüquqi şəxslərə güzəştli şərtlərlə verilməsini və geniş çeşiddə

kənd təsərrüfatı xidmətləri şəbəkəsinin yaradılmasını təmin etmək lazımdır. İstehsalda müasir texnoloji proseslərdən istifadə fermer təsərrüfatları üçün sahələrarası əlaqələrin inkişafına və kooperativ strukturlarının formalaşmasına töhfə verməlidir.

Qarabağın ərazilərinin əlverişli təbiəti, mülayim iqlimi, münbit torpaqları və zəngin su ehtiyatları bu regiona xas sahələri, o cümlədən gülçülük, qeyri-ənənəvi meyvə-tərəvəz növlərinin becərilməsi, quşçuluq və s. sahələri inkişaf etdirməyə imkan verir. Regionun əlverişli coğrafi mövqeyini, eləcə də yaxın gələcəkdə bütün kommunikasiyaların açılması imkanlarını nəzərə alaraq, burada istehsal olunan məhsulların geniş bazara malik olacağını güman etmək olar. (Quliyev E.A. "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu". (monoqrafiya) Bakı – 2023, s.319, s.207) . Müəllifin qeyd etdiyi kimi, işğaldan azad edilmiş ərazilərin coğrafi şəraiti və təbii iqlim potensialı aqrobiznesin təşkili üçün böyük imkanlar açır.

İşğaldan azad edilmiş ərazilərdə aqrobiznes fəaliyyətinin təşkilinin iqtisadi mexanizmləri qeyri-neft sektorunun inkişafında da mühüm rola və yerə malikdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafı ilə bağlı dövlət tərəfindən silsilə tədbirlər həyata keçirilir. Belə ki, "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili İstehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2018-ci il tarixli sərəncamına müvafiq olaraq ölkədə istehsal edilməyən yeni rəqabətqabiliyyətli məhsullar istehsalının təşkili üçün Azərbaycanda ilk (First in Azerbaijan) investisiya təşviqi mexanizmi; mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının dəstəklənməsi məqsədi ilə daxili bazar araşdırmalarına dövlət dəstəyi mexanizmi; mikro, kiçik və orta sahibkarlıq subyektlərinin istehsal fəaliyyətinin dəstəklənməsi üçün onların kadr potensialının artırılmasına dövlət dəstəyi mexanizmi; ölkədə istehsal olunmayan və daxili istehsalda istifadə edilən xammalın idxalına gömrük güzəştlərinin tətbiqi mexanizmlərinin formalaşdırılması məqsədəuyğun hesab edilmişdir. (Abbasov A.F. "İqtisadi inişafın müasir meylləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər" (monoqrafiya) Bakı – 2024, s.573, s.295).

Hesab edirik ki, aqrobiznes fəaliyyətinin təşkilinin çevik iqtisadi mexanizmlərinin yaradılması işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata reinteqrasiyasında əhəmiyyətli təsir gücünə malik olacaqdır.

ƏDƏBİYYAT

1. Əmrahov V. və b. "Aqrobiznes" (dərs vəsaiti) . Bakı-2021, s.178, s.151,152
2. Quliyev E.A. "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. (monoqrafiya) Bakı – 2023, s.319, s.207
3. Abbasov A.F. "İqtisadi inişafın müasir meylləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər" (monoqrafiya) Bakı – 2024, s.573, s.295).

Вели Джанполад оглы Будагов
магистрант,
Фазиль Хашим оглы Аббасов
доктор философии по экономике, профессор,
Азербайджанский Университет Кооперации

Об экономических механизмах организации агропромышленного комплекса на освобожденных территориях

Резюме

Агропромышленная деятельность на освобожденных территориях играет важную роль в надежном обеспечении населения продуктами питания. Поскольку агропромышленная деятельность играет важную роль в доставке сельскохозяйственной и продовольственной продукции от производителей к потребителям, создание благоприятной среды для организации этой деятельности на освобожденных территориях имеет важное значение с точки зрения защиты стратегических интересов государства. В статье рассматриваются

экономические механизмы организации агропромышленной деятельности на освобожденных территориях: благоприятная инвестиционная и кредитная политика, политика субсидирования, ценовые механизмы.

Veli Janpolad Budagov
master,
Fazil Hashim Abbasov
doctor of philosophy in economics, professor
Azerbaijan Cooperation University

On economıc mechanısms of organızıng agrıbusıness ın the occupıed terrıtorıes

Summary

Agribusiness activity in the liberated territories plays an important role in the reliable provision of food products to the population. Since agribusiness activity plays an important role in the delivery of agricultural and food products from producers to consumers, creating a favorable basis for the organization of this activity in the liberated territories has an important role and place in terms of protecting the strategic interests of the state. The article discusses the economic mechanisms of organizing agribusiness activity in the liberated territories - favorable investment and credit policies, subsidy policies, and price mechanisms.

Lamiyə Əskər qızı AZADLI
magistrant,
e-mail: azadli.lamiya@gmail.com,
Rövşən Ağahüseyn oğlu HƏSƏNOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
e-mail: rh767986@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN İQTİSADİ POTENSİALININ REALLAŞDIRILMASININ AZƏRBAYCAN RESPUBLİKASININ MAKROİQTİSADİ İNKİŞAFINA TƏSİRİ

İşğaldan azad edilmiş ərazilərin Azərbaycan Respublikasının makroiqtisadi inkişafına təsiri çoxşaxəli xarakter daşıyır və bir neçə istiqamətdə özünü göstərir. Bu proseslər həm infrastrukturun yenidən qurulması, həm də yeni istehsal və xidmət sahələrinin yaradılması vasitəsilə milli iqtisadiyyatın strukturunda köklü dəyişikliklərə səbəb olur. Ərazilərin iqtisadi dövriyyəyə tam daxil edilməsi nəticəsində formalaşan iqtisadi dinamika regional inteqrasiyanı gücləndirir, enerji və aqrar-sənaye potensialının istifadəsi dayanıqlı inkişafı təmin edir, məşğulluq və sosial rifah göstəriciləri isə nəzərəçarpacaq dərəcədə yaxşılaşır. Ümumilikdə aparılan təhlillər göstərir ki, işğaldan azad olunmuş torpaqların iqtisadi potensialının reallaşdırılması və onların ölkə iqtisadiyyatına inteqrasiyasının üç əsas mərhələdən ibarət olduğunu demək olar.

1. İnfrastrukturun Bərpası və Regional İnteqrasiyanın İqtisadi Təsirləri

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının reallaşdırılmasının ilk və ən mühüm mərhələsi infrastrukturun bərpası və regionların milli iqtisadi dövriyyəyə inteqrasiyasıdır. İnfrastruktur hər bir iqtisadi sistemin "əsas dayağı" olmaqla istehsal və xidmət sahələrinin inkişafı, ticarət dövriyyəsinin genişlənməsi və sosial rifahın yüksəlməsində həlledici rol oynayır. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı infrastruktur layihələri bu ərazilərin sürətli inteqrasiyasını təmin etməklə yanaşı, Azərbaycanın iqtisadi mövqelərini də gücləndirir. Hazırda avtomobil yollarının çəkilməsi, dəmir yolunun bərpası və beynəlxalq hava limanlarının inşası bu istiqamətdə görülən işlərin miqyasını göstərir. Məsələn, Horadiz–Ağbənd dəmir yolu həm ölkədaxili, həm də

beynəlxalq bazarlara çıxışı təmin etməklə Azərbaycanın tranzit imkanlarını genişləndirəcək və regionu logistik mərkəzə çevirəcək. Zəngilan, Füzuli və Laçın hava limanları isə turizm və yük daşımalarında yeni imkanlar yaradaraq investisiya cəlbediciliyini artırır. Eyni zamanda, yol-nəqliyyat və sosial infrastrukturun bərpası kənd təsərrüfatı məhsullarının bazara çıxışını sürətləndirir, istehsalçıların gəlirlərini artırır və əhalinin həyat keyfiyyətini yüksəldir. Məktəb, xəstəxana və ictimai xidmət obyektlərinin istifadəyə verilməsi isə regiona qayıdış prosesini stimullaşdırır. Beləliklə, infrastrukturun bərpası yalnız iqtisadi fəallığın artmasına deyil, həm də Azərbaycanın regional və beynəlxalq əlaqələrinin möhkəmlənməsinə, ölkənin tranzit və iqtisadi mərkəz kimi mövqelərinin güclənməsinə mühüm töhfə verir. Bu səbəbdən, məhz infrastruktur mərhələsi işğaldan azad olunmuş ərazilərin potensial imkanlarının milli iqtisadiyyata inteqrasiyası üçün baza funksiyasını daşıyır.

2. Yaşıl enerji və aqrar-sənaye kompleksinin inkişaf perspektivləri

İnfrastruktur mərhələsindən sonra əsas istiqamətlərdən biri işğaldan azad edilmiş ərazilərdə yaşıl enerji və aqrar-sənaye kompleksinin inkişafıdır. Region zəngin təbii resursları ilə seçilir və Azərbaycanın enerji siyasətində strateji dönüş nöqtəsi hesab olunur. Qarabağ və Şərqi Zəngəzurun "Yaşıl enerji zonası" elan edilməsi təsadüfi deyil, çünki burada günəş, külək və hidroenerji ehtiyatları ölkənin enerji balansında mühüm paya malikdir. Hesablamalara görə yalnız günəş enerjisi potensialı 7 200 MVt-dan çoxdur, bu isə alternativ enerji istehsalında Azərbaycanın mövqeyini gücləndirir və ixrac imkanlarını genişləndirir. Araz çayı üzərində inşa edilən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları elektrik istehsalını artırmaqla yanaşı, suvarma imkanlarını genişləndirərək kənd təsərrüfatı məhsuldarlığının yüksəldilməsinə və ərzaq təhlükəsizliyinə töhfə verir [4,s.180-200]. Bu layihələr həm də "yaşıl keçid" strategiyasının tərkib hissəsi olaraq karbon emissiyalarının azaldılmasına və ekoloji təhlükəsizliyin güclənməsinə xidmət edir. Qeyd olunanlar ilə yanaşı aqroparkların yaradılması, müasir suvarma və innovativ texnologiyaların tətbiqi məhsuldarlığı artırır. Xüsusilə Zəngilanda həyata keçirilən "ağıllı kənd" layihəsi kənd təsərrüfatının rəqəmsallaşmasını, sosial infrastrukturun inkişafını və səmərəli idarəetməni təmin edir. Bununla yanaşı, aqrar-sənaye kompleksinin inkişafı emal sənayesinin gücləndirilməsini, ixrac yönümlü məhsulların artırılmasını və klaster tipli iqtisadi modelin formalaşmasını nəzərdə tutur. Üzümçülük, taxılçılıq və pambıqçılıq kimi ənənəvi sahələrin emal sənayesi ilə inteqrasiyası xarici bazarlara rəqabətqabiliyyətli məhsul çıxarışını təmin etməklə yanaşı, qeyri-neft ixracının genişlənməsinə və iqtisadiyyatın şaxələndirilməsinə mühüm dəstək verir [2,s.25-30; 6,s.137-155].

3. Məşğulluq, makroiqtisadi sabitlik və idarəetmə mexanizmləri

Üçüncü mərhələ iqtisadiyyatın sosial müstəvisinə və makroiqtisadi sabitliyə təsirlərlə bağlı olub, azad edilmiş ərazilərin potensialının reallaşdırılmasının davamlılığını təmin edir. Qısamüddətli dövrdə bərpa və tikinti işləri minlərlə iş yeri yaradır, orta və uzunmüddətli mərhələdə isə xidmət, turizm, kənd təsərrüfatı və sənaye sahələrinin inkişafı dayanıqlı məşğulluq və sosial rifahı gücləndirir. Bu, sahibkarlıq mühitinin genişlənməsinə, infrastrukturun inkişafına və əhalinin bölgəyə qayıdışına şərait yaradır. Makroiqtisadi baxımdan, investisiyaların artması ÜDM-in yüksəlməsinə, büdcə gəlirlərinin genişlənməsinə və fiskal dayanıqlığın möhkəmlənməsinə səbəb olur. Qeyri-neft ixracı xarici ticarət balansını şaxələndirir, qlobal şokların təsirini azaldır [5,s.123-142]. Uğurlu nəticə isə yalnız resursların səfərbər olunmasından deyil, həm də səmərəli idarəetmə, şəffaflıq və ekoloji standartlara əməl edilməsindən asılıdır. Dövlət-özəl tərəfdaşlığı, resursların optimal bölgüsü və davamlı monitorinq uzunmüddətli inkişafın əsas şərtləridir [1,s.12-18].

Qeyd olunanlara əsasən demək olar ki, işğaldan azad edilmiş ərazilərin Azərbaycan Respublikasının iqtisadi dövriyyəsinə inteqrasiyası milli inkişaf gündəliyinin strateji hədəfləri ilə üst-üstə düşən çoxşaxəli bir prosesdir. Bu inteqrasiya yalnız regional bərpa layihələrinin uğuru ilə məhdudlaşmır, eyni zamanda ölkənin makroiqtisadi göstəricilərinə, sosial rifahına və beynəlxalq rəqabətqabiliyyətliliyinə təsir edən fundamental amil kimi çıxış edir [7,s.1455-1460]. Təhlillər göstərir ki, proses üç əsas mərhələ ilə xarakterizə olunur: birinci mərhələ – infrastrukturun bərpası – regionların milli iqtisadi sistemə qoşulmasını təmin edir; ikinci mərhələ – yaşıl enerji və aqrar-sənaye kompleksinin inkişafı – iqtisadiyyatın diversifikasiyasını və Azərbaycanın enerji və ərzaq bazarlarında mövqelərini möhkəmləndirir; üçüncü mərhələ – məşğulluq və makroiqtisadi sabitlik –

sosial rifahın yüksəlməsini və davamlı inkişafı təmin edir. Nəticə etibarilə, Qarabağ və Şərqi Zəngəzurun resurslarının tam səfərbər olunması Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasına şərait yaradır və ölkənin uzunmüddətli dövrdə dayanıqlı, inklüziv və rəqabətədavamlı inkişaf modelinə keçidini təmin edən strateji istiqamət hesab olunur [3, s.56-61].

ƏDƏBİYYAT

1. Əliyev T.N. "Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın mütərəqqi menecment formaları əsasında inkişaf istiqamətləri". Bakı, AR ETN İqtisadiyyat İnstitutu, İqtisadi Artım və İctimai Rifah, 2021, №1, səh.10-19.
2. Əsədzadə Z.Ə. "Rəqabətqabiliyyətli istehsal davamlı inkişafı şərtləndirir". Bakı, "Kooperasiya" jurnalı, №1(72), 2024, səh.23-31.
3. Əsədzadə Z.Ə. "Şərqi Zəngəzurda əlverişli aqrar biznes mühitinin formalaşdırılması istiqamətləri". Bakı, AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası 2023, №1, səh. 55-62.
4. Quliyev E.A. "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu". Monoqrafiya, "Kooperasiya" nəşriyyatı, Bakı, 2023. – 320 s.
5. Quliyeva A.E. "Azərbaycanda regionların perspektiv inkişafı və maliyyə təminatının gücləndirilməsi problemləri". Bakı, "Kooperasiya" nəşr., 2021, 308 səh.
6. Qasımlı V.Ə. "Aqrar sahənin modernləşdirilməsinin iqtisadi problemləri (Azərbaycan Respublikası timsalında)". Bakı, İqtisad üzrə elmlər doktoru e.d. almaq üçün dissertasiya işi, 2018, 283 səh.
7. Dvorsky J., Kliestik T. and etc. "The influence of some factors of competitiveness on business risks". Journal of Business Economics and Management, 2020, Volume 21 Issue 5, pp.1451–1465.
8. https://stat.gov.az/

Ламия Аскар гызы Азадлы
магистрант,
e-почта: azadli.lamiya@gmail.com
Ровшан Агахусейн оглы Гасанов
доктор философии по экономике, доцент,
e-почта: rh767986@gmail.com
Азербайджанский Университет Кооперации

Влияние реализации экономического потенциала освобожденных территорий на макроэкономическое развитие Азербайджанской Республики

Резюме

Экономический потенциал освобожденных Карабахского и Восточно-Зангезурского регионов является важным направлением долгосрочного устойчивого развития Азербайджана. Помимо восстановления региональной активности, он способствует модернизации экономики, созданию новых отраслей и повышению конкурентоспособности. Процесс укрепляет качество роста – диверсификацию, эффективность, инклюзивность и устойчивость, а также расширяет бюджетные доходы, социальную защиту и внешнеторговый баланс. Интеграция проходит три этапа: I. восстановление инфраструктуры и выход на международные рынки; II. развитие зеленой энергетики и агропромышленности; III. занятость и макроэкономическая стабильность. Таким образом, мобилизация ресурсов Карабаха и Восточного Зангезура является решающим фактором формирования инклюзивной и конкурентоспособной траектории развития Азербайджана.

Lamiya Asgar Azadli
master,
e-mail: azadli.lamiya@gmail.com
Rovshan Aghahuseyn Hasanov
doctor of philosophy in economics, associate professor,
e-mail: rh767986@gmail.com
Azerbaijan Cooperation University

The ımpact of realizing the economic potential of the liberated territories on the macroeconomic development of the Republic of Azerbaijan

Summary

The economic potential of the liberated Karabakh and Eastern Zangazur regions is a key pillar of Azerbaijan's long-term sustainable development. Beyond restoring regional activity, it drives modernization of the national economy, creation of new industries, and competitiveness. This process strengthens growth quality – diversification, efficiency, inclusiveness, sustainability – while boosting budget revenues, social security, and foreign trade diversification. Integration follows three stages: 1. Infrastructure restoration, linking regions to the economy and global markets; 2. Green energy and agro-industrial development, expanding diversification and exports; 3. Employment and macroeconomic stability, ensuring jobs, welfare, and fiscal resilience. Thus, resource mobilization in these regions is decisive for shaping Azerbaijan's inclusive and competitive growth trajectory.

Məleykə Fərman qızı MOLLAYEVA
Magistrant
Nazim Tofiq oğlu QƏNİZADƏ
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TƏBİİ VƏ İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNDƏ İQTİSADİ METODLARIN ROLU VƏ DAYANIQLI İNKİŞAFDAKI TƏSİRİ

Giriş

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yerli strateji əhəmiyyəti olan regionlardır və hökumətin ümumi iqtisadi strategiyasının istiqamətlərindən biri də bu regionlarda davamlı artımın təmin edilməsidir. Təxminən otuz ildir ki, ərazi işğal altında olduğu müddətdə ərazinin təbii sərvətlərindən istifadə edilmədi, ekoloji proseslər pozuldu və sosial və sənaye infrastrukturu məhv edildi. 2020-ci ildə ərazilərin azad edilməsindən sonrakı illərdə bu ərazilərdə bərpa və meliorasiya prosesi təkcə fiziki infrastrukturun deyil, həm də təbii və insan resurslarının daha da səmərəli idarə olunmasını tələb edirdi. İqtisadi artımın uzunmüddətli canlılığına gəldikdə, bir tərəfdən təbii sərvətlərdən səmərəli istifadə və digər tərəfdən insan kapitalının idarə olunması prosesi bir-biri ilə sıx bağlıdır. Bu baxımdan planlaşdırma, təşviq, qiymətləndirmə və proqnozlaşdırmanı əhatə edən iqtisadi prosedurlar müzakirə olunan sahənin sosial-iqtisadi dirçəlişinin əsas vasitələri hesab olunur. Qarabağ və Şərqi Zəngəzurun təbii və insan resurslarının idarəsi kontekstində bu yanaşmaların düzgün həyata keçirilməsi ətraf mühitin sabitliyinin təmin edilməsində, iş yerlərinin yaradılmasında və iqtisadiyyatın səmərəliliyində mühüm rol oynayır.

Təbii resursların idarə edilməsində iqtisadi metodların rolu

Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın ən yüksək təbii potensiala malik yerlər kateqoriyasına aid iki regionudur. Bu ərazilər torpaq, su, meşələr və mineral ehtiyatlarla zəngindir. Bu mənbələrdən səmərəli və məqsədyönlü istifadəni təmin etməyin yeganə yolu elmi əsaslı iqtisadi

idarəetmə metodlarından istifadə etməkdir. Müasir iqtisadi nəzəriyyələrə görə həm bazar səmərəliliyini, həm də ətraf mühitin davamlılığını təmin edən əsas vasitələr resursların idarə edilməsinin iqtisadi üsullarıdır. Bu üsullara qiymət mexanizmləri, vergi tənzimlənməsi, subsidiyalar, vergi güzəştləri və ekoloji vergilər daxildir (Abbasov, 2023:1).

Optimallaşdırma və tarazlıq ilə bağlı anlayışlar təbii ehtiyatların idarə sistemində iqtisadi yanaşmaların funksiyasının böyük ölçüdə əsaslandığı əsasdır. Bu yanaşmalar həm mənbələrin istehsal proseslərinə daxil edilməsini, həm də tükənməsinin qarşısını alır. Bir tərəfdən, bu üsullar resursların cəlb edilməsini təmin edir. Məsələn, su idarəçiliyi kontekstində suya qənaət edən texnologiyaların tətbiqi güzəştləri, çoxşaxəli əməkhaqqı sistemləri və su qiymətlərinə subsidiya metodları kimi iqtisadi təşviq yanaşmaları mənbələrdən səmərəli istifadənin davranış modelini yaradır. Bu baş verərkən, meşə təsərrüfatında ekoloji cərimələr, xilasetmə fondlarına töhfələr və "ətraf mühit xidmətləri haqları" kimi tədbirləri əhatə edən iqtisadi məsuliyyət mexanizmləri təbiətin bərpasına və ətraf mühitin qorunmasına kömək edir. Eynilə, meşə sənayesindəki iqtisadi məsuliyyət mexanizmlərinə xilasetmə fondlarına ödənişlər və ətraf mühitin pozulmasına görə cərimələr kimi vasitələr daxildir. Üstəlik," ekoloji xidmətlər üçün ödəniş " təbiətin bərpasına və ekoloji tarazlığın qorunmasına kömək edir. Bu tədbirlər təkcə inzibati nəzarətə deyil, həm də iqtisadi maraqların qorunmasına kömək edir. Resurs istifadəsinə gəldikdə məsuliyyətli davranışları təşviq edirlər. Bu paradiqma daxilində əsas şərt iqtisadi fəaliyyətlə ətraf mühitin sabitliyi arasında əlaqə yaratmaqdır(Məmmədova,2023:4).

Buna görə də Qarabağ və Şərqi Zəngəzurda uzunmüddətli perspektivdə ekoloji sabitliyi və iqtisadi səmərəliliyi təmin etmək üçün təbiətin idarə edilməsinə iqtisadi əsaslarla nəzarət etmək lazımdır. Həm təbii ehtiyatların bərpası, həm də regionda sosial-iqtisadi artımın dayanıqlığı iqtisadi metodların məqsədyönlü tətbiqi ilə təmin edilir ki, bu da onların daha geniş milli iqtisadi sistemə inteqrasiyasını yaxşılaşdırır. Bu nəticə iqtisadi metodların vacibliyini vurğulayır.

İnsan resurslarının idarə edilməsində iqtisadi metodların əhəmiyyəti

İnsan kapitalının yığılması iqtisadi sistemlərin dinamik inkişafını təmin edən əsas amildir. Xüsusilə, bu, davamlı iqtisadi inkişafı təmin edən əsas amildir. Müasir iqtisadi nəzəriyyələrə uyğun olaraq iqtisadi inkişafın keyfiyyət göstəriciləri təkcə maliyyə və maddi ehtiyatların həcmi ilə deyil, həm də insan kapitalının inkişaf dərəcəsi və idarəetmənin səmərəliliyi ilə müəyyən edilir. Bu, mənbələrin maddi və ya maliyyə olmasından asılı olmayaraq doğrudur. Qeyd etmək vacibdir ki, iqtisadi inkişaf dərəcəsi bu meyarların hər ikisindən çox asılıdır. Qarabağ və Şərqi Zəngəzur regionlarında bərpa və inkişaf proseslərinin səmərəli həyata keçirilməsini təmin etmək üçün yüksək bilik səviyyəsinə malik, dəyişən iqtisadi şəraitə uyğunlaşa bilən və çevik düşünməyə qadir kadr hazırlamaq lazımdır (Əliyev, 2022:2).

Bu proses kontekstində fərdi göstəricilərə əsaslanan əməkhaqqı, əməkhaqqı fərqi və sosial təminat paketlərini əhatə edən firmada əmək məhsuldarlığının artırılması üsulları idarəetmə mexanizmi və təşviq vasitəsi kimi xidmət edir. Maliyyə təşviq sistemləri müəssisələrdə işçilərin məhsuldarlığını artırmaq üçün istifadə olunan ən vacib iqtisadi vasitələrdir. Bu sistemlərə iş nəticələrinə əsaslanan fərdi kompensasiya, əməkhaqqı fərqi və sosial təminat paketləri daxildir. Bu strategiya işçilərin istehsal prosesinə marağını artırır və şirkətin ümumi səmərəliliyini artırır. Məsələn, biznes nəticələrinə əsaslanan ödənişlər, innovasiyaların təşviqi mexanizmləri və ekoloji mükafatlar daxil olan iqtisadi motivasiya sistemləri Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən "ağıllı kənd" və "ağıllı şəhər" layihələrində iştirak edən peşəkarların fəaliyyətində böyük əhəmiyyət kəsb edir. Bu metodlar işçilərin məsuliyyətini və məhsuldarlığını artırmaqla yanaşı, sosial məsuliyyəti və iqtisadi mənbələrin idarə edilməsinin yeni bir yolunu da təşviq edir(OECD,2021:7).

Dövlət-özəl tərəfdaşlığı və iqtisadi metodların sintezi

Münaqişədən sonrakı dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında resursların idarə edilməsində dövlət-özəl tərəfdaşlıq (PPP) modeli dayanıqlı inkişafa nail olmaq üçün mühüm iqtisadi vasitə kimi fəaliyyət göstərir. Dövlətin tənzimləyici və strateji rolu, habelə özəl sektorun maliyyə və ixtiraçılıq potensialı bu strategiyada birləşdirilərək iqtisadi proseslərin səmərəliliyinin artmasına səbəb olur. Beynəlxalq tədqiqatlar göstərdi ki, dövlət-özəl tərəfdaşlıq (PPP) mexanizmi, xüsusən də münaqişələrdən hələ də qurtulmayan ölkələrdə iqtisadi bərpa prosesini sürətləndir-

məyin ən yaxşı yollarından biridir (UNDP, 2023:8).

Maliyyə və inzibati yardım göstərməklə yanaşı, dövlət bu model daxilində tənzimləyici və institusional bazanın yaradılmasından məsuldur. Bundan əlavə, dövlət dəstək verməkdən məsuldur. Hökumətin vəzifələrinə vergilər və subsidiyalar vasitəsilə özəl sektorda fəallığı təşviq etməklə investisiyalar üçün sabit şəraitin təmin edilməsi daxildir. Pul vəsaitlərinin səfərbər edilməsi və innovasiya potensialı sayəsində özəl sektor istehsalın modernləşdirilməsinə, yeni texnologiyaların tətbiqinə və resurslardan istifadənin səmərəliliyinin artırılmasına da öz töhfəsini verir. Bu cür qarşılıqlı təsir nəticəsində iqtisadi idarəetmə sisteminin çevikliyi artır və bu da resursların səmərəli bölüşdürülməsini təmin edir. Xüsusilə, Qarabağ və Şərqi Zəngəzurda dövlət-özəl tərəfdaşlığı (PPP) təhsil, kənd təsərrüfatı, bərpa olunan enerji və ekoturizm də daxil olmaqla mühüm sektorlarda xüsusilə nəzərə çarpır. Bu konsepsiyanın uğurla həyata keçirilməsinin nümunəsi Zəngilan rayonunda həyata keçirilən "ağıllı kənd" layihəsidir. Layihə ictimai infrastrukturun və enerji təchizatının təmin edilməsindən məsuldur, özəl müəssisələr isə ekoloji cəhətdən təmiz texnologiyalara, suvarma sistemlərinə və rəqəmsal idarəetmə platformalarına investisiya qoymuşdur. Bu birləşmə sayəsində həm yerli icma üçün mövcud iş imkanlarının sayı, həm də təbii ehtiyatlardan istifadənin səmərəliliyi artdı (Qasımov,2022:5).

Bundan əlavə, dövlət və özəl sektor arasında bərpa olunan enerji sahəsində əməkdaşlıq (məsələn, Zəngəzur və Cəbrayıl rayonlarında günəş və külək enerjisi layihələri) iqtisadi strategiyaların həyata keçirilməsi üçün çox vacibdir.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzurda resursların idarə edilməsi sahəsində dövlət-özəl tərəfdaşlığının yaradılması həm praktiki, həm də hüquqi səviyyədə iqtisadi proseslərin səmərəliliyinin artırılmasına kömək edir.

Nəticə

Bu səbəbdən Qarabağ və Şərqi Zəngəzurun iqtisadi rayonlarında davamlı artıma zəmanət verən iqtisadi tədbirlərin görülməsi həm təbii sərvətlərin idarə olunması, həm də insan resurslarının idarə edilməsi baxımından strateji əhəmiyyətə malikdir. Bu səbəbdən Qarabağ və Şərqi Zəngəzurun iqtisadi rayonlarında davamlı artıma zəmanət verən iqtisadi tədbirlərin tətbiqi həm təbii ehtiyatların idarə olunması, həm də insan resurslarının idarə olunması üçün strateji əhəmiyyətə malikdir. Bu strategiyaların həyata keçirilməsi resurslardan səmərəli istifadəni təmin edir, əmək məhsuldarlığını artırır, ekoloji tarazlığı qoruyur və iqtisadi sabitliyi gücləndirir. Regionun ekoloji, sosial və iqtisadi sistemlərinin uyğunlaşmasını təşviq etmək, eləcə də Azərbaycanın dayanıqlı inkişafının ümumi məqsədlərinə nail olunmasında iştirak etmək üçün təbii və insan resurslarının idarə edilməsində iqtisadi metodlardan düzgün istifadə etmək vacibdir. Təbii və insan resurslarının idarə edilməsinin iqtisadi metodlarını düzgün formalaşdırmaqla ekoloji, sosial və iqtisadi sistemlərin uyğunlaşdırılmasına töhfə vermək mümkündür.

ƏDƏBİYYAT SİYAHISI

1. Abbasov N.R. (2023). Postmünaqişə dövründə dövlət-özəl əməkdaşlığının iqtisadi əhəmiyyəti. İqtisadi İslahatlar və tədqiqatlar, 11(4), s. 101–118.
2. Əliyev İ. (2022). Postmüharibə dövründə Qarabağ iqtisadi rayonunun inkişaf strategiyası. Bakı, s. 45–67.
3. Hacıyeva S. M. (2024). İnsan resurslarının idarə edilməsində innovativ iqtisadi mexanizmlər. Marketinq və idarəetmə jurnalı, 6(2), s. 80–96.
4. Məmmədova L. (2023). İqtisadi idarəetmə metodlarının regionların dayanıqlı inkişafında rolu. Azərbaycan iqtisadiyyatı jurnalı, 17(2), s. 55–70.
5. Qasımov Ə. (2022). Qarabağ və Şərqi Zəngəzurda təbiətdən istifadənin sosial-iqtisadi aspektləri. Turizm və region inkişafı, 5(1), s. 33–50.
6. Quliyev T., Hüseynov, A. (2022). Azərbaycanın azad edilmiş ərazilərində əmək bazarının formalaşma dinamikası. İqtisadiyyat və biznes, 10(2), s. 25–44.
7. OECD. (2021). Regional Development Policy Review: Promoting Sustainable Services in Post-Conflict Areas. Paris: OECD Publishing, pp. 55–83.

8. UNDP. (2023). Sustainable Resource Management in Post-Conflict Regions: The Karabakh Experience. Baku: UNDP Azerbaijan, pp. 22–41.
9. State Statistical Committee of the Republic of Azerbaijan. (2024). Regional Development Indicators: Karabakh and East Zangezur Economic Regions. Bakı: SSC Press, s. 12–29.

Малейка Фарман кызы Моллаева
магистрант,
Назим Тофиг оглы Ганизаде
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Роль экономических методов в управлении природными и человеческими ресурсами и их влияние на устойчивое развитие в Карабахском и Восточно-Зангезурском экономических районах

Резюме

Целью данной статьи является изучение роли экономических методов в обеспечении устойчивого развития, а также изучение использования экономических методов в управлении природными и человеческими ресурсами в экономических регионах Карабаха и Восточного Зангезура. В дополнение к социально-экономическим и экологическим элементам экологического менеджмента проводится анализ для определения влияния эффективного управления человеческими ресурсами на развитие экономики. Результаты исследования показывают, что устойчивое развитие возможно не только при наличии ресурсов, но и при эффективном управлении этими ресурсами и правильном использовании экономических методов управления. Эта статья посвящена путям, с помощью которых социально-экономическое возрождение Карабаха и Восточного Зангезура может быть осуществлено посредством реализации нескольких стратегий, включая управление окружающей средой, экономические стимулы, государственно-частное партнерство и использование творческих ресурсов.

Maleyka Farman Mollayeva
master,
Nazim Tofig Ganizada
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

The role of economic methods in the management of natural and human resources and their impact on sustainable development in the Karabakh and East Zangezur economic regions

Summary

The purpose of this article is to study the role of economic methods in ensuring sustainable development, as well as to study the use of economic methods in the management of natural and Human Resources in the economic regions of Karabakh and East Zangazur. In addition to the socio-economic and environmental elements of Environmental Management, an analysis is carried out to determine the impact of effective human resource management on the development of the economy. The results of the study show that sustainable development is possible not only with the availability of resources, but also with the effective management of these resources and the correct use of economic management methods. This article is devoted to the ways in which the socio-economic revival of Karabakh and East Zangazur can be realized through the implementation of several strategies, including environmental management, economic incentives, public-private partnerships and the use of creative resources.

Ülviyyə Hümbət qızı MƏMMƏDOVA
magistrant,
Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA KİÇİK VƏ ORTA BİZNES SUBYEKTLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Ölkəmizdə iqtisadi inkişaf strategiyasında regionların bərabər inkişafı mühüm yer tutur. 2020-ci ildə Qarabağ və Şərqi Zəngəzur bölgələrinin işğaldan azad olunması ilə ölkənin iqtisadi xəritəsində yeni imkanlar yarandı. Bu aparılan bərpa və yenidənqurma işləri çərçivəsində kiçik və orta biznesin (KOB) formalaşması və inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab olunur. Dövlətin əsas hədəfində işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda infrastrukturun yaradılmasıdır. Yeni avtomobil və dəmir yolları, hava limanları, enerji və rabitə xətləri, su və qaz təminatı sistemi regionda sahibkarlıq fəaliyyətinin bərpası üçün yeni bazarlar yaradır. Eyni zamanda "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyaları müasir texnologiyaların tətbiqi ilə biznes fəaliyyətinin rəqəmsallaşdırılmasına şərait yaradır.

Kiçik və orta biznesin inkişafında dövlətin dəstəyi böyükdür. Prezidentin fərmanı ilə 2017-ci ildə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılıb. Kiçik və Orta biznesin inkişafının dəstəklənməsi, ölkə iqtisadiyyatında rolunun artması, onların maraqlarının müdafiəsi, KOB-lara vahid məkan prinsipi və xidmətlərin göstərilməsi, dövlət və özəl qurumların bu sahədə fəaliyyətinin əlaqələndirilməsi qurumun başlıca fəaliyyət istiqamətləridir.

KOBİA-nın köməkliyi ilə artıq sahibkarların xidmətinə bir sıra dəstək mexanizmləri verilmişdir. Kiçik orta biznesin inkişafının səmərəli olması üçün müxtəlif layihələr həyata keçirilib. Halhazırda ölkəmizdə kiçik və orta biznesin inkişafı üçün "Kiçik və Orta Biznesin Dostu", qısaca desək KOB Dostu belə mexanizmlərdəndir. Respublika üzrə 12 rayon və şəhərlərdə 14 "KOB Dostu" sahibkarlara xidmət edir. Ölkənin bütün bölgələrində kiçik və orta biznes subyektlərinin inkişafına dəstək Qarabağ və Şərqi Zəngəzurda da dövlət başçısının xüsusi diqqətindədir. Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət göstərən sahibkarlara geniş dəstək proqramları təqdim edilir. Sahibkarlığa təqdim olunan əsas mexanizmlər, vergi və gömrük güzəştləri sənədləri alan müəssisələr bir sıra vergilərdən azad edilir.

KOBİA-nın dəstəyi ilə kiçik və orta biznesin inkişafı agentliyi təlimlər və onların inkişafı üçün məsləhət xidmətləri təqdim edirlər. Kredit və maliyyə resurslarına çıxış , güzəştli kreditlər və dövlət zəmanətləri vasitəsilə yeni bizneslərə şərait yaradılır və stimullaşdırır.

Kiçik və orta biznesə dövlət tərəfindən göstərilən qayğı və görülən tədbirlər sahibkarlıq risklərini azaldır, regiona investisiyaların cəlb edilməsini asanlaşdırır. Qarabağ və Şərqi Zəngəzurun təbii-iqlim və coğrafi potensialı sahibkarlıq fəaliyyətinin müxtəlif sahələri üzrə biznes qurmaq üçün əlverişlidir. Bu sahələr aşağıdakılardan ibarətdir:

1. Kənd təsərrüfatı- Üzümçülük, taxılçılıq, tərəvəzçilik, arıçılıq və heyvandarlıq üçün geniş imkanlar mövcuddur.

2. Turizm- Ekoturizm, mədəni və sağlamlıq turizmi (Şuşa, Hadrut, Laçın, Zəngilan) istiqamətləri üzrə Qarabağ mədəni irsinin bərpası və bunun əsasında turizm marşrutlarının formalaşdırılması. Eyni zamanda qonaqlıq, restoran, nəqliyyat, bələdçilik xidmətləri kimi sahələr ekoturizm etmək kiçik orta biznesin inkişaf istiqamətinə yeni yollar açır.

3. Sənaye və emal- Kənd təsərrüfatı məhsullarının emalı, tikinti materiallarının istehsalı. Yerli xammal potensialından istifadə (dağ-mədən, tikinti materialları, ağac emalı və s.). Kiçik və orta bizneslər üçün istehsal klasterlərinin yaradılması, eyni zamanda yaşıl enerji layihələri, bərpa olunan enerji istehsalı və texnologiyalarının yaradılması.

4. Logistika və nəqliyyat xidmətləri-logistika mərkəzlərinin və yeni yol-nəqliyyat infrastrukturunun qurulması (Zəngəzur dəhlizi, hava limanları, magistral yolların təşkil olunması kiçik və

orta biznesin inkişafına köməklik edir.

5. Rəqəmsal iqtisadiyyat və innovasiya-startap ekosistemin yaradılması, rəqəmsal xidmətlər, elektron ticarət, İT və təlim mərkəzləri. KOB-ların rəqəmsallaşdırılması və elektron idarəetmə sistemlərinin tətbiqi.

Azərbaycanda KOB-ların inkişafı üçün aparılan işlər həm dövlətin, həm də özəl sektorun əməkdaşlığı ilə davam etdirilir. Gələcəkdə bu sahədə daha çox beynəlxalq təcrübələrin tətbiqi və rəqəmsal iqtisadiyyatın imkanlarının genişləndirilməsi gözlənilir. Qeyd edək ki, KOB-ların Rəqəmsallaşma Proqramı onların rəqəmsal alətlərdən və qabaqcıl texnologiyalardan faydalanaraq, rəqabət qabiliyyətini artıracaq və bazar imkanlarını genişləndirəcək.

Nəticə

Qarabağ və Şərqi Zəngəzurda Kiçik və Orta biznesin inkişafı Azərbaycan iqtisadiyyatının inkişafına müsbət təsir göstərəcək. Regionun dayanıqlı iqtisadi artımını təmin edəcəkdir. İşğaldan azad olunmuş ərazilərə qayıdan əhaliyə yeni iş yerləri yaradılmasına köməklik edəcək. Kiçik və orta biznesin inkişafı ilə əhali yerli istehsala və xidmət sahələrinə cəlb ediləcəkdir, eyni zamanda kiçik və orta biznesin inkişafında yerli gəlirlərin artmasına köməklik edəcəkdir.

ƏDƏBİYYAT

1. Əliyev Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Jurnal “Geostrategiya”, Bakı, 2021, №4. – s. 67-72.
2. Fikrətzadə F.F., Hacıyeva S.İ. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpasi istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması // Kənd təsərrüfatının iqtisadiyyatı, 2020. № 4 (34),s.23-37.
3. Quliyev E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Monoqrafiya. Bakı, “Kooperasiya”, 2020, 464 s.
4. Азербайджан 2030: Национальные Приоритеты о социально-экономическом развитии. Утверждено с распоряжением Президента АР от 02.02 2021 г., Баку.
5. Алиев Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана// «Вопросы Истории» (Москва), № 6, 2022. – с. 148-155.

Ульвия Гумбат кызы Мамедова
магистрант,
Эльдениз Мазахир оглы Магеррамов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Направления развития малого и среднего бизнеса в Карабахском и Восточно-Зангезурском экономических районах

Резюме

Карабахский и Восточно-Зангезурский экономические районы являются регионами стратегического значения на новом этапе социально-экономического развития Азербайджана. Одним из основных приоритетов восстановления этих территорий после войны, организации заселения и экономического возрождения является развитие малого и среднего бизнеса (МСП).

Ulviyya Humbat Mammadova
master,
Eldeniz Mazahir Maharramov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Development directions of small and medium-sized businesses in the Karabakh and East Zangezur economic regions

Summary

The Karabakh and East Zangezur economic regions are regions of strategic importance in the new stage of socio-economic development of Azerbaijan. One of the main priorities for the restoration of these territories after the war, the organization of settlement and economic revival is the development of small and medium-sized businesses (SMEs).

Murad Zeynal oğlu ZEYNALLI
magistrant,
Şakir Oruc oğlu SƏFƏROV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN NƏQLİYYAT - LOGİSTİKA ƏLAQƏLƏRİ

Giriş

Bir çox Qərb siyasətçilərinin belə bir fikri ilə tam razılaşmaq olar ki, Azərbaycan İkinci Qarabağ müharibəsindəki qələbəsi ilə Qərbə və Şərqə çıxışın qovşağında yerləşən və əzəli torpağı olan Qarabağı azad etməklə qonşu ölkələr sırasında özünün geosiyasi və geoiqtisadi kursunu daha çox dəqiqləşdirmək imkanı qazandı. Bütün bunlar bütövləşən Azərbaycana nəinki regional və hətta daha çox beynəlxalq səviyyədə kifayət qədər iqtisadi, siyasi və hətta sosial-mədəni üstünlüklər qazandırmaqla yanaşı, həm də iki böyük Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin qovşağında yerləşməsi Azərbaycanın qarşısına nəinki Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqazda, habelə Orta Asiya və Yaxın Şərqdə məqsədyönlü geoiqtisadi fəaliyyət göstərmək kimi məsuliyyətli tələblər qoydu.

Hazırda Qarabağ regionu kimi geoiqtsadi dəyərlərə malik olan ərazinin regional və beynəlxalq perspektivliyini yüksəldən, yaxın və uzaq xarici ölkələrlə əməkdaşlıq əlaqələrinə müsbət təsir göstərən amilləri daha çox regionun təbii mineral ehtiyatları, şimalla-cənub, qərblə-şərq arasındakı mövcud nəqliyyat-kommunikasiya və tranzit imkanları ilə bağlıdır. Bu gün Azərbaycan işğaldan azad etdiyi Qarabağ regionunun iqtisadi potensialını və milli təbii resurslarını həqiqi sahibi olan Azərbaycan xalqına qaytarmaqla Cənubi Qafqazın çox güclü ölkəsinə çevrilmişdir. Belə ki, hazırda Azərbaycan Cənubi Qafqazın insan resurslarının 60 %-nə, yanacaq-enerji, dağ-mədən, təbii mineral və münbit torpaq resurslarının 90 %-nə, iqtisadi potensialın isə 80 %-nə malik olmuşdur.

Bütün bunlar bir daha əsaslandırır ki, Qarabağ regionu da daxil olmaqla bütün Azərbaycanı müasir, mütərəqqi sənaye və aqrar istehsalla yanaşı, çox əhəmiyyətli logistika və ticarət qovşağına çevirmək imkanları daha da artmışdır. Ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə etməklə tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması, Qarabağ bölgəsində də logistika və ticarət mərkəzlərinin yaradılması ilə bölgənin və bütünlükdə ölkənin ictimai həyatının bütün sahələrinin cəlbediciliyini artıracaqdır.

Daha vacibi odur ki, Qarabağ regionunun nəqliyyat-kommunikasiya sistemini yenidən qurmaq üçün hazırlanmaqda olan nəqliyyat-logistika layihəsində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə (Mehri dəhlizi ilə) əlaqələndirmək və bununla da Türkiyə ilə Azərbaycan arasında birbaşa dəmir

və şosse yolunun çəkilişi kimi strateji əhəmiyyətli işə başlanılmışdır. Bu yolun strateji əhəmiyyəti, ilk növbədə, şimal-cənub və şərq-qərb istiqamətindən dəhlizlər vasitəsilə Azərbaycana daxil olan yük axınları Bakı Beynəlxalq Dəniz limanında cəmləşərək buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə (bu yolun yeni bir marşrutu Qarabağdan keçməklə Mehri dəhlizi ilə Naxçıvana və Türkiyəyə, daha sonra isə Avropaya) Avropa istiqamətini və yaxud gəmilər vasitəsilə şərq istiqamətini təmin edən səmərəli logistika zəncirini formalaşdırmaqdan ibarətdir. Birinci marşrut üzrə Qarabağ ərazisində bərpa ediləcək və yaxud yenidən qurulacaq nəqliyyat-logistika sistemi və bu sistemin çoxcəhətli sxemi diqqəti daha çox cəlb etməlidir.

Nəzərə almalıyıq ki, dəmir yolu və şosse yolunun üstünlük təşkil edəcəyi Qarabağ regionunda yolların aşağıdakı üç istiqamətdə bərpa olunması və yenidən qurulması daha səmərəli sayıla bilər: Bakı – Yevlax – Bərdə – Ağdam – Xankəndi – Şuşa; Bakı – Yevlax – Ağdam – Füzuli – Cəbrayıl – Zəngilan – Mehri – Culfa – Naxçıvan; Bakı – Yevlax – Gəncə – Goranboy – Kəlbəcər – Laçın. Bütün bunlarla yanaşı, Qarabağın strateji əhəmiyyətli ayrı-ayrı inzibati-ərazi vahidlikləri arasında ikitərəfli şosse və yaxud dəmir yolunun çəkilişi də məqsədəuyğun sayılır. Məsələn, hazırda Füzuli rayonu ilə Şuşa səhəri arasında müasir tələblərə cavab verən 4-6 zolaqlı şosse yolunun çəkilişi başa çatmaq üzrədir.

Fikrimizcə, dünyanın bir çox qabaqcıl ölkələrinin yerüstü nəqliyyat çəkilişinə dair təcrübəsindən müəyyən nəticə çıxarmalı, şosse yolu ilə müqayisədə dəmir yolunun çəkilişində yolun keçdiyi yaşayış məntəqələrinin coğrafi və strateji əhəmiyyəti daha çox nəzərə alınmalı, daha üstün mövqeyə malik məntəqələr nəqliyyat qovşağı və yaxud paylaşdırıcı yol ayırıcıları kimi qurulmalıdır. Qarabağ regionunun bütün ərazisini əhatə edəcək dəmir və şosse yollarının çəkilişi ilə əlaqədar yuxarıda göstərilən üç istiqamətdə öz ifadəsini tapan nəqliyyat-dayanacaq məntəqələri sırasında nəqliyyat-qovşaq və yaxud paylaşdırıcı dayanacaq stansiyaları ayrılaraq böyük hərflərlə yazılmış yaşayış məntəqələri hesab edilir ki, bunlar: Bakı, Yevlax, Gəncə, Füzuli, Culfa və Naxçıvan hesab edilir. Culfa və Naxçıvan qovşaq stansiyalari regiondaxili nəqliyyat yollarının ayırıcısı kimi deyil, daha çox beynəlxalq nəqliyyat dəhlizi ilə yük və sərnişin daşımalar üzrə formalaşan qovşaqlar hesab edilir. Naxçıvan dəmir yolu və şosse yolu Türkiyəyə, oradan isə Avropaya, Culfa qovşağı isə İrana, oradan isə şərqə doğru istiqamət götürəcəkdir.

Qarabağ regionunun təbii iqlim, sosial-iqtisadi füsunkarlığının cəlbediciliyi bölgənin iqtisadi quruculuğu ilə yanaşı, müasir nəqliyyat-logistika infrastrukturunun yaradılması layihəsinə hava limanlarının tikintisi də daxil edilmişdir.

Qarabağ regionundan keçərək Zəngəzur dəhlizi ilə Naxçıvanın Culfa nəqliyyat-logistika qovşağı ilə Azərbaycandan İrana, oradan isə şərqə doğru və əksinə, Avropaya doğru hərəkət marşrutu Azərbaycan üçün ikinci beynəlxalq əhəmiyyətli marşrut Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi ilə birləşəcəkdir. İranla əlaqələnən, şərqə doğru və əksinə, Avropaya doğru istiqamətlənən və uzun illərdir ki, işləyən birinci beynəlxalq əhəmiyyətli nəqliyyat-logistika marşrutu, Bakı – Astara (Azərbaycan) – Astara (İran) – Rəşt – Qəzvin marşrutudur ki, bu yol öz əhəmiyyətini saxlamaqdadır.

Azərbaycanı Gürcüstan vasitəsilə Türkiyə ilə əlaqələndirən, oradan da Avropaya və əksinə istiqamətlənən Bakı – Tbilisi – Ceyhan neft, Bakı – Tbilisi – Ərzurum qaz və Bakı – Tbilisi – Qars dəmir yolu marşrutları Azərbaycan üçün önəmli olan üçüncü beynəlxalq əhəmiyyətli nəqliyyat-logistika marşrutu hesab edilir. Hər üç marşrutun dünyamiqyaslı beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulmalarının bütün obyektiv maddi-texniki və sosial-iqtisadi əsasları yaradılmış və bundan sonra da yaradılacaqdır.

Şimal – Cənub və Şərq – Qərb kimi iki böyük beynəlxalq nəqliyyat dəhlizinə Azərbaycan ərazisinin çıxış imkanları ərazinin coğrafi mövqeyi və strateji əhəmiyyəti ilə bağlı olsa da, bütün hallarda hər iki beynəlxalq nəqliyyat dəhlizinin qədim İpək yoluna əsaslanması öz nəticəsini vermiş və bu gün bütün reallığı ilə özünü göstərir. Bütün tarixi reallıqlar çox qiymətlidir, lakin daha qiymətlisi iqtisadiyyatla bağlıdır. Dəhlizlərlə yük və sərnişin daşımalarında nəqliyyat-logistika əlaqələrinin səmərəliliyinin yüksəldilməsi, dəmir yolu, avtomobil yolu, hava yolu nəqliyyat xidmətləri ilə beynəlxalq daşımaların həcminin artırılması, vaxtın qısaldılması, tranzit daşımaların dəyərinin minimuma endirilməsidir.

ƏDƏBİYYAT

1. T.İ.İmanov. “Logistikanın əsasları”
2. Logistika. “Kənd təsərrüfatı məhsullarının saxlanılması üzrə logistika mütəxəssisi” ixtisası üçün peşə hazırlığı modulu
3. “Unecekspert” 2021

Мурад Зейнал оглы Зейналлы
магистрант,
Шакир Орудж оглы Сафаров
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Транспортно-логистические связи Восточно-Зангазурского экономического района

Резюме

Географическое положение освобожденного от оккупации Азербайджана Карабахского региона и увеличение реальных возможностей выхода с территории в Европу и Азию еще больше усилит активное участие Азербайджана в международных транспортно-коммуникационных и коридорных проектах. Эта ситуация еще больше усилит экономическое и политическое влияние Азербайджана как стратегического и надежного государства Каспийско-Черноморского бассейна и Южного Кавказа.

Murad Zeynal Zeynalli
master,
Shakir Oruj Safarov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Transport and logistics relations of the Eastern Zangazur economic region

Summary

The geographical position of the Karabakh region liberated from the occupation of Azerbaijan and the increase in real opportunities for access from the territory to Europe and Asia will further strengthen Azerbaijan's active participation in international transport, communication and corridor projects. This situation will further strengthen the economic and political influence of Azerbaijan as a strategic and reliable state of the Caspian-Black Sea basin and the South Caucasus.

Suğra Vilayət qızı İMAMƏLİYEVA
magistrant,
Şakir Oruc oğlu SƏFƏROV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA SOSİAL-İQTİSADİ MƏSƏLƏLƏRİN HƏLLİ İMKANLARI

Azərbaycan işğaldan azad edilmiş ərazilərdə yalnız öz iqtisadi gücünə arxalanaraq böyük işlər görür. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafın və əhalinin yüksək səviyyəli həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması çərçivəsində şəhər və kəndlərin, təhsil və səhiyyə obyektlərinin, hava limanlarının bərpası və

tikintisi istiqamətində işlər davam etdirilir, eyni zamanda müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılır.Bu məsələni həll etmək, ölkənin gələcək inkişafını təmin etmək üçün bir sıra iqtisadi rayonlar yaradılmışdır.

Qarabağ iqtisadi rayonunun tərkibinə aşağıdakı rayonlar aid edilib: Xankəndi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa,Tərtər rayonu.

Şərqi Zəngəzur iqtisadi rayonu - Azərbaycanın 14 iqtisadi rayonundan biridir. Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarını əhatə edir.

Şərqi Zəngəzur iqtisadi rayonunun bərpası prosesi bir sıra çətinliklərlə müşahidə olunur. Ən başlıca problem minalanmış ərazilərin çoxluğudur. Bu, kənd təsərrüfatının bərpasını və infrastrukturun qurulmasını ləngidir.

Digər tərəfdən, uzun illər insan fəaliyyətindən kənarda qalmış ərazilərdə ekoloji tarazlığın bərpası, təbii ehtiyatların səmərəli idarə olunması və əhalinin sosial adaptasiyası diqqət tələb edir. İnvestorlar üçün vergi güzəştləri və dövlət dəstəyi mexanizmlərinin daha da genişləndirilməsi də vacibdir.

Şərqi Zəngəzur iqtisadi rayonunun bərpası təkcə iqtisadi layihə deyil, həm də "tarixi ədalətin bərpası və sosial dirçəliş proqramıdır". Bu ərazilərin inkişafı ölkənin ümumi iqtisadi artımına, regionlararası bərabərliyin təmin olunmasına və əhalinin rifah səviyyəsinin yüksəlməsinə xidmət edir.

Dövlətin həyata keçirdiyi strateji layihələr, "yaşıl enerji" və "ağıllı kənd" konsepsiyaları sayəsində Şərqi Zəngəzur yaxın illərdə Azərbaycanın ən müasir və ekoloji cəhətdən davamlı iqtisadi regionlarından birinə çevriləcəkdir.

Azad edilmiş bölgələrdə işlər planlı şəkildə həyata keçirilir və orada ən yüksək standartlar tətbiq edilir. Ölkəmizin artan maliyyə imkanları ilk növbədə azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin daha da genişləndirilməsinə ciddi təkan verib. Ölkə başçısı dövlət və icmal büdcələrində proqnozdan daha çox gəlirlərin əldə edildiyini nəzərə alaraq, artan gəlirlərin bir hissəsinin işğaldan azad olunmuş torpaqlarda quruculuq işlərinin görülməsinə yönəldilməsi ilə bağlı tapşırıq verib.

İşğaldan azad olunan ərazilərdə rekord müddətdə istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı, bu gün təkcə nəqliyyat qovşağı deyil, həm də Qarabağ regionunun əlçatanlıq və inkişaf simvoludur. Bu hava limanı Zəfər Yolunun qapısı və Şuşa şəhərinə gedən əsas nəqliyyat qovşaqlarının açarıdır.Füzuli aeroportu, qısa müddət ərzində bir çox hökumət başçılarını, dövlət və xarici beyin mərkəzlərinin yüzlərlə nümayəndəsini qəbul etmişdir ki, bu da onun strateji əhəmiyyətini və regionun gələcək inkişaf perspektivlərini vurğulayır.

Kəlbəcərdə 2026-cı ilədək 1-i şəhər, 1-i qəsəbə, 13-ü kənd olmaqla ümumilikdə 15 yaşayış məntəqəsinin bərpası həyata keçiriləcəkdir.

Laçın rayonunda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, camaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaqdoldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur.

İşğaldan azad edilən ərazilərə yollanan dövlət başçısı İlham Əliyev hər dəfə burada yaşayış məntəqələrinin təməlini qoyur, yeni açılışlar edir, əzəli yurdlarına qayıdan sakinlərə açarlarını təqdim edir, onları öz evlərində ziyarət edir, qayıdış sevinclərini bölüşür.

2024-cü ildə İlham Əliyev Cəbrayılda Böyük Mərcanlı kəndinin təməlini qoydu. Bildirildi ki, Böyük Mərcanlının baş planına əsasən, kəndin ümumi sahəsi 362 hektar təşkil edir. 2040-cı ilədək 6230 nəfər kənd əhalisi üçün 1074 fərdi ev və bir neçə mərtəbəli yaşayış binaları layihələndirilib. 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi 41 hektardır. Bu mərhələdə Böyük Mərcanlıya 542 nəfərin köçürülməsi üçün 149 fərdi ev tikiləcək. 2040-cı ilədək kəndin layihələndirilən ərazisi 313 hektar təşkil edir və bu müddət ərzində 4428 sakin üçün 940 fərdi ev və bir neçə mərtəbəli

bloklu evlərin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulur.Sözügedən tarixdə həmçinin dövlət başçısı rayonun Sarıcallı və Maşanlı kəndlərinin də təməllərini qoydu.

Baş planda Sarıcallı kəndinin ümumi sahəsi 330 hektar təşkil edir. 2040-cı ilədək 4740 nəfər əhali üçün 1185 fərdi evin və bir neçə mərtəbəli bloklu binaların layihələndirilməsi nəzərdə tutulur.

2040-cı ilədək Maşanlı kəndinin layihələndirilən ərazisi 157,54 hektar olacaq. Həmin müddətdə kənddə 2360 sakin üçün 590 fərdi evin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulmuşdur. Böyük Qayıdışın təmin edilməsi üçün ərazilərin minalardan təmizlənməsi ilə paralel, ilkin mərhələdə baza və sosial infrastrukturun qurulması prioritet məsələdir və bu istiqamətdə işlər sürətlə davam edir. Belə ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə cəmi uzunluğu 513,1 km 10 avtomobil yolunun layihəsinin icrasına başlanılmışdır ki, bunlardan da 4-ü artıq tamamlanıb. Həmçinin uzunluğu 157,5 km olan 2 dəmir yolu layihəsi də həyata keçirilir. Bundan başqa, Tərtər rayonunun Suqovuşan qəsəbə tam orta məktəbində bərpa işləri yekunlaşmış, Talış kənd tam orta məktəbi və uşaq bağçası isə artıq istifadəyə verilib. Ağdam şəhərində 2, Füzuli şəhərində isə 1 uşaq bağçası üzrə layihələndirmə işləri aparılır.Yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. İyulun 13-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 23 ailə - 85 nəfər köçürülüb. Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bununla da Laçın şəhərində 93 ailə, yəni 351 nəfərin daimi məskunlaşması təmin edilib.

Erməni vandalizminin qurbanı olan tarixi və dini abidələrimizin, məscidlərimizin bərpası istiqamətində də işlər uğurla həyata keçirilir. Həmin abidələrin yenidən qurulub ərsəyə gəlməsində Heydər Əliyev Fondu yaxından iştirak edir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə Fondun reallaşdırdığı layihələrin əhatə dairəsi olduqca genişdir.

Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurun böyük su ehtiyatları var. Bu ərazilərdə Azərbaycanın su ehtiyatlarının 20-25 faizinin toplandığı təxmin olunur. İşğal dövründə çaylarımız, su anbarlarımız da düşmənin əsarətində idi və Ermənistan bundan Azərbaycana qarşı bir silah kimi istifadə edirdi. Yay aylarında çayların qarşısını kəsir, qışda isə açırdı. Hərbi təcavüz nəticəsində Ermənistan tərəfindən Azərbaycanın on minlərlə hektar ərazisini su ilə təmin edən suvarma kanalları şəbəkəsi, kollektor və drenajlar, artezian quyuları, hidrotexniki tikinti obyektləri, su-elektrik və nasos stansiyaları dağıdılıb, yararsız hala salınıb. Mövcud su anbarlarının qəsdən məhv edilməsi də Ermənistanın Qarabağda dağıdıcı fəaliyyətinin nəticəsidir. Köndələnçay su anbarları buna bariz misaldır. Bütün bunların nəticəsində on minlərlə hektar əkinəyararlı torpaq sahələrinin suvarılmaması faktiki olaraq bu sahələrin təsərrüfat dövriyyəsindən çıxarılmasına səbəb olmuşdu.

Vətən müharibəsinin nəticəsi olaraq, Şərqi Zəngəzurun və Qarabağın su ehtiyatları da işğaldan azad oldu. Bununla həm də Ermənistan üzərində mühüm hidroqələbə qazanıldı. Qələbədən sonra dərhal başlanan bərpa işlərinin bir istiqamətini də azad edilmiş ərazilərin su ehtiyatlarından səmərəli istifadə təşkil edir. Bunu ötən il Laçın və Kəlbəcərdə su-elektrik stansiyalarının inşası da təsdiq edir. Bu il isə daha bir neçə su-elektrik stansiyası tikiləcək. Bununla yanaşı, hazırda işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 9 su anbarı inşa olunur. Şərqi Zəngəzurun və Qarabağın zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması bütövlükdə bu ərazilərin iqtisadi inkişafına və aparılan bərpa-yenidənqurma işlərinə böyük töhfə verəcək, o cümlədən aqrar sahənin yüksəlişində mühüm rol oynayacaq.

Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu və bu yolun üzərindəki tunellər inşa olunub. Qeyd edək ki, bu yolun əsas önəmlərindən biri Zəngəzur dəhlizinin magistralı ilə birləşməsindədir. Hazırda yolboyu 7 tunelin tikintisi aparılır. Bir neçə tuneldə qazma işləri artıq tamamlanıb, digərlərində isə qazma, partlatma və qırma üsulları ilə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam edir. Bundan başqa, tunellərdə havalandırma və izolyasiya sistemləri də quraşdırılır. Bu yol istifadəyə verildikdən sonra Şuşaya avtomobillə daha tez və rahat çatmaq mümkün olacaq.

Cəbrayıl rayonunda tikiləcək "Şəfəq" (Sunrise) günəş elektrik stansiyasının tikinti layihəsi

2025-ci ilin sonunadək həyata keçiriləcək.240 MVt gücündə olan elektrik stansiyasının tikintisi layihəsi SOCAR, Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) və BP ilə birlikdə həyata keçiriləcək. "Şəfəq" stansiyasında istehsal olunan elektrik enerjisi ilə Səngəçal terminalı təmin ediləcək və nəticədə ildə 260-330 min ton miqdarında karbon dioksid (CO_2) ekvivalentində emissiyasının azaldılmasına imkan yaradacaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 4 yanvar tarixli Fərmanı ilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı təsdiq edilmişdir. Sərəncamın icrası istiqamətində aşağıdakı güzəşt və azadolmalar təsdiq olunmuşdur:Vergi və gömrük güzəştləri:işğaldan azad edilmiş ərazilərin rezidentlərinin 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq, sadələşdirilmiş vergidən azad edilməsi;işğaldan azad edilmiş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirlərinin 10 il müddətində vergidən azad edilməsi;müvafiq sahələr üzrə idxal olunan avadanlıqların 10 il müddətinə ƏDV və gömrük rüsumlarından azad olunması;müvafiq sahələr üzrə idxal olunan xammal və materialların 10 il müddətinə ƏDV və gömrük rüsumlarından azad olunması aiddir. Laçın və Kəlbəcər rayonlarında hazırda su-elektrik stansiyalarının bərpası işləri gedir. Cənab Prezidentin səfəri çərçivəsində Cəbrayıl yarımstansiyası da istifadəyə verilib. Eləcə də, ilk çoxmənzilli yaşayış məhəlləsinin, rayon Mərkəzi Xəstəxanasının, akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməli qoyulub. Dövlət başçısı Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını da edib. "Araz Vadisi İqtisadi Zonası"nın yaradılması bütün regionun, o cümlədən Cəbrayıl rayonunun inkişafı üçün önəmli hadisədir. Sözügedən layihə 200 hektarı əhatə edən böyük bir layihədir. Artıq Sənaye Parkının rezidentlərinin sayı 12-yə çatıb. Eləcə də, Cəbrayıl rayonunun elektrik təchizatı artıq var. Cəbrayıl yarımstansiyasının istifadəyə verilməsi bu baxımdan vacibdir. Bu rayonun elektrik təchizatının artıq demək olar ki, bütün işləri görülüb. Yolnəqliyyat infrastrukturu da ciddi şəkildə qurulur. Belə ki, Cəbrayıla 4-6 zolaqlı yol çəkilir. Bu rayona gələn vətəndaşlar rahat gələcək və buradan keçən Zəngəzur dəhlizindən istifadə edəcəklər.

Bundan başqa, Laçın şəhərinin özündə, Zabux və Sus kəndlərində yaşıl texnologiyalar istifadə edilir.

Şuşa şəhərində də Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzində "yaşıl" enerji texnologiyaları tətbiq edilib. Mərkəzin ərazisində elektromobillərin enerji ilə doldurulması üçün qurğular və günəş enerjisi ilə çalışan panellər quraşdırılıb.

Xocalıda isə "Smartflower" günəş enerjisi qurğusu quraşdırılıb. Qurğu 2,5 kVt gücə malikdir və illik 6500 kVt-saat "yaşıl" enerji istehsal edir.

Kəlbəcərdə 8,6 meqavatlıq "Aşağı Vəng" və 8,8 meqavatlıq "Nadirxanlı" stansiyaları tikilib. Bu stansiyaların su təminatı üçün Lev və Tutqu çaylarının Tərtər çayına qovuşduğu ərazilərdə suqəbuledicilər yaradılıb, ümumilikdə 9,3 kilometr uzunluğunda derivasiya borusu çəkilib. Hər iki stansiyada çay balıqlarının ekosistemdə qorunması üçün müasir hidrotexniki qurğular quraşdırılıb.

Qarabağ və Şərqi Zəngəzurda 38 su-elektrik stansiyası istifadəyə verilib, ümumi gücü 307 MVt-a çatdırılıb. Bu stansiyalar 1,5 milyard kVts yaşıl enerji istehsal edib, 335 milyon kubmetr qaz qənaəti və 620 min ton karbon qazının atmosferə atılmasının qarşısını alıb. Azsulu dövrdə 80 MVt, bolsulu dövrdə isə 200 MVt-dan artıq güc ilə 24 saat fasiləsiz enerji istehsalı təmin edilir.

Azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də, Naxçıvan bölgəsi Azərbaycanda "yaşıl enerji" zonaları elan edilib. İşğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji"yə keçid Azərbaycan üçün mühüm strateji məqsədlərdəndir. İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı qarşıya qoyulan vəzifələrin icrası məqsədilə Yaponiyanın TEPSCO şirkəti ilə müqavilə imzalanıb. Regionun enerji təminatını həyata keçirmək məqsədilə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyası və Baş plan mövcuddur.

İşğaldan azad olunmuş Ağdam rayonunun əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları, yük axınlarının gələcək təmərküzləşməsi və digər mühüm logistika potensialının mövcudluğu nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 28 may tarixli Fərmanı ilə 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılmışdır.

Cəbrayıl rayonunda logistika mərkəzinin, müxtəlif xidmət və innovativ sənaye sahələrinin, o

cümlədən tikinti materialları istehsalı müəssisələrinin yaradılması imkanları nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 4 oktyabr tarixli Fərmanı ilə 200 hektar ərazidə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılmışdır. Sənaye parklarının rezidentləri qeydiyyata alındığı tarixdən 10 il müddətinə mənfəət vergisi, əmlak vergisi, torpaq vergisi, idxal olunan avadanlıqlara görə ƏDV və gömrük rüsumlarından azad olunur.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması istiqamətində tədbirlərə başlanılmışdır. Sərəncamın icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli Sərəncamı ilə prioritet isitqamətləri özündə ehtiva edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı" təsdiq edilmişdir. "Yaşıl enerji" zonasının yaradılması çərçivəsində işğaldan azad edilmiş ərazilərdə enerji təchizatı infrastrukturunun qurulması, bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisinin istehsalı, enerji səmərəliliyinin təmin edilməsi, yaşıl texnologiyaların tətbiqi, bu sahədə dövlət-özəl sektor tərəfdaşlığının təşviqi kimi tədbirlər nəzərdə tutulmuşdur.

Ümumilikdə Şərqi Zəngəzur və Qarabağın "yaşıl enerji" potensialı (günəş, külək və su) 10 min meqavat gücündə qiymətləndirilir. Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir.

Eyni zamanda, 2023-cü il 27 dekabr tarixində Türkiyənin "Demirören Yatırım Holding A.Ş." şirkəti, "Arges Enerji Team" MMC şirkəti və "Azərbaycan İnvestisiya Şirkəti" ("AİŞ") ASC arasında "Birgə iştirak müqaviləsi" imzalanmış və müqaviləyə əsasən Kəlbəcər və Laçın rayonlarında Həkəri və Tərtər çayları üzərində yerləşən 5 kiçik su-elektrik stansiyasının bərpa edilərək istismara verilməsi nəzərdə tutulub.

Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisinin texniki potensialının olması müəyyən edilmişdir. Bununla bağlı həmin ərazilərdə külək elektrik stansiyası layihəsinin reallaşdırılması planlaşdırılır.

"Qaşqaçay", "Elbəydaş" və "Ağduzdağ" filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismara verilməsi ilə bağlı ("Eti Bakır A.Ş." və "Artvin Maden A.Ş." şirkətləri ilə) müqavilələr imzalanmışdır.

Ağdam rayonunda yerləşən "Şahbulaq" daş karxanasının istismarına başlanılmışdır.Hazırda istehsal olunmuş mişar daşları işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə istifadə olunur.Füzuli rayonunda yerləşən "Dövlətyarlı" əhəngdaşı (mişar daşı) yatağı hərraca çıxarılmış və qalib şirkət müəyyən olunmuşdur.Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə digər yataqların da hərraca çıxarılması istiqamətində işlər aparılır. Belə ki, Qubadlı və Laçın rayonlarında mişar daşı və tikinti daşı yataqlarının hərraca çıxarılması planlaşdırılır.

Təhsil infrastrukturu: Hazırda işğaldan azad edilmiş ərazilərdə bir sıra təhsil müəssisələri istifadəyə verilmişdir. Özbəkistan Respublikasının maliyyə vəsaiti hesabına Füzulidə 960 şagird yerlik Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbi, Qazaxıstan Respublikasının "Bİ-Industrial" şirkətinin maliyyə vəsaiti hesabına Füzuli şəhərində 600 şagird yerlik "Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzi" istifadəyə verilmişdir. Bundan başqa, Qırğızıstan Respublikasının maliyyə vəsaiti hesabına Xıdırlı kənd tam orta məktəbinin tikintisi həyata keçirilir.

Yol-nəqliyyat infrastrukturu: İşğaldan azad edilmiş ərazilərdə hazırda ümumi uzunluğu 2200 km-dən çox avtomobil yolu layihələri həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) bütün tələblərinə uyğun olaraq inşa edilən Füzuli Beynəlxalq Hava Limanı, Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə verilmiş və hazırda həmin tələblərə cavab verəcək Laçın Beynəlxalq Hava Limanının tikinti işləri davam etdirilir. Regionda nəqliyyat və logistik baxımından mühüm əhəmiyyət daşıyan Bərdə – Ağdam və Horadiz – Ağbənd dəmir yolu xətlərinin tikintisi, Ağdam – Xankəndi və Ağbənd – Salamməlik dəmir yolu xətlərinin layihələndirilməsi işləri həyata keçirilir.

Eyni zamanda, dövlət tərəfindən "məşğulluq proqramları", "sahibkarlığın inkişafına dəstək fondları" və "peşə təhsili mərkəzləri" yaradılaraq qayıdan əhalinin iqtisadi fəallığı təmin edilir.

Əminliklə demək olar ki, dövlət başçısının rəhbərliyi, güclü iradəsi, qətiyyəti və xalqımızın

birliyi, həmçinin ölkəmizin iqtisadi qüdrəti sayəsində Azərbaycan bütün dağıdılmış şəhərlərimizi, kəndlərimizi yenidən quracaq, Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirəcək.

ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti
2. Baku.tv
3. President.az
4. ikisahil.az › post › 443254-cebrayilda-berpa-quruculuq
5. economy.gov.az
6. https://report.az/
7. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli Fərmanı – "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında".
8. "Azərbaycan Respublikasında Böyük Qayıdışa dair I Dövlət Proqramı" (2022).
9. İqtisadiyyat Nazirliyi – "Şərqi Zəngəzur iqtisadi rayonunun sosial-iqtisadi inkişaf strategiyası" (rəsmi hesabatlar, 2023).
10. Əliyev İ. (2023). "Regional inkişaf siyasəti və postmünaqişə dövründə iqtisadi dirçəliş". Bakı: İqtisad Universiteti Nəşriyyatı.
11. Dövlət Statistika Komitəsi – "Regionların sosial-iqtisadi göstəriciləri", 2024.
12. oxu.az/cemiyyet

Сугра Вилаят кызы Имамалиева
магистрант,
Шакир Орудж оглы Сафаров
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Возможности решения социально-экономических проблем в Карабахском и Восточно-Зангазурском экономических регионах

Резюме

Можно с уверенностью сказать, что благодаря лидерству главы государства, его сильной воле, решимости и единству нашего народа, а также экономической мощи нашей страны, Азербайджан восстановит все наши разрушенные города и села, превратит Карабах и Восточный Зангезур в рай.

Sugra Vilayat Imamaliyeva
master,
Shakir Oruj Safarov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Possibilities for solving socio-economic problems in the Karabakh and Eastern Zangazur economic regions

Summary

Work in the liberated areas is being carried out in a planned manner and the highest standards are being applied there. The increasing financial capabilities of our country have given a serious impetus to the further expansion of reconstruction and reconstruction work, primarily in the liberated areas.

It can be said with certainty that, thanks to the leadership of the head of state, his strong will, determination, and the unity of our people, as well as the economic power of our country, Azerbaijan will rebuild all our destroyed cities and villages, and turn Karabakh and East Zangezur into paradise.

Nicat Elşən oğlu HÜMMƏTOV
magistrant,
Turan Tofiq qızı ASLANOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Memarlıq və İnşaat Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA TƏBİİ EHTİYATLARDAN İSTİFADƏNİN İQTİSADİ PROBLEMLƏRİ VƏ BƏRPA PROSESİ

Qarabağ və Şərqi Zəngəzur iqtisadi coğrafiyası zəngin təbii ehtiyatlara malik olmaqla yanaşı, bu ehtiyatların səmərəli istifadəsini məhdudlaşdıran çoxsaylı iqtisadi, ekoloji və sosial problemlərlə üz-üzədir. Regionun təbii potensialı (kənd təsərrüfatı üçün münbit torpaqlar, meşə ehtiyatları, faydalı qazıntılar (xüsusilə mis, qızıl və digər qiymətli metallar), su resursları və ekoturizm imkanları) onun iqtisadi inkişafı üçün mühüm baza təşkil etsə də, uzunmüddətli münaqişə, minalanma, infrastruktur dağıntıları və demoqrafik dəyişikliklər bu potensialdan tam istifadəni çətinləşdirir. Əhali strukturundakı dəyişiklik regionun iqtisadi fəaliyyətinə birbaşa təsir göstərir. 2023–2024-cü illərdə Qarabağa köçən yerli xalqın statistikası ilə bağlı məlumatlara görə, 10 mindən çox şəxs işğaldan azad olunmuş ərazilərə köçürülüb və yeni evlərlə təmin edilib. Bu barədə "Qafqazinfo" xəbər verir ki, Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatında əksini tapmış məlumatlara görə, respublikanın 63 şəhər və rayonu ərazisində məskunlaşmış 2615 ailə olmaqla 10 233 nəfər Füzuli, Cəbrayıl, Zəngilan, Laçın, Şuşa, Ağdərə və Xocalı rayonlarına köçürülüb (Daxilqızı N., 2025). Bu köç regionda iqtisadi fəaliyyətin bərpasına kömək edə biləcək müsbət bir addım olsa da, təbii sərvətlərin səmərəli istifadəsi baxımından həm faydalar, həm də çətinliklər yarada bilər. Bir tərəfdən yeni sakinlərin ərazilərə yerləşməsi işğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatı və ekosistem xidmətlərinin bərpasına təkan verə bilər. Bu, torpaq istifadəsinin optimallaşdırılmasına, su ehtiyatlarından daha səmərəli istifadə edilməsinə və meşə ehtiyatlarının qorunmasına imkan yarada bilər. Digər tərəfdən, köçürülən əhalinin sayı və yerləşməsi ətraf mühitə müəyyən təzyiqlər yarada bilər. Bölgəyə yerləşən əhalinin artırılması, meşə sahələrinin azaldılmasına, su resurslarının daha intensiv istifadəsinə və kənd təsərrüfatının genişlənməsinə səbəb ola bilər. Bu, həmçinin ekosistem balansını pozaraq yerli flora və faunanın təbii inkişafını məhdudlaşdıra bilər.

Onu da qeyd edək ki, işğaldan azad edilmiş rayonlarda bərpa prosesi sürətli şəkildə davam etsə də, infrastrukturun, o cümlədən suvarma sistemləri, anbarlar, yollar və enerji təchizatının ciddi şəkildə zədələnməsi kənd təsərrüfatı və sənaye fəaliyyətinin bərpasına mane olur. Ərazinin iqtisadi inkişafına ən böyük təsir edən amillərdən biri geniş minalanmış sahələrdir. Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatına əsasən, 2020–2023-cü illər ərzində azad edilmiş ərazilərdə yüz minlərlə mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. 2022-ci ilin avqustuna olan məlumata görə, təkcə Laçın və Kəlbəcər rayonlarında 3,166 ədəd Ermənistan istehsalı mina aşkar olunub (UN Mine Action Service, 2022). Ümumilikdə, beynəlxalq "Mine Action Review" hesabatına görə, Qarabağ və Şərqi Zəngəzurda 1,000 km²-dən artıq ərazi mina və digər partlayıcı sursatlarla çirklənmiş hesab olunur. Minalanma nəticəsində minlərlə hektar kənd təsərrüfatı torpağı, su mənbələri və otlaq sahələri istifadəsiz vəziyyətdə qalır, bu isə həm qida təhlükəsizliyinə, həm də regionun ümumi iqtisadi dövriyyəsinə mənfi təsir göstərir.

Minalardan təmizlənmə prosesinin iqtisadi yükü də çox yüksəkdir. 1 km² ərazinin tam təmizlənməsi üçün orta hesabla 25-30 min ABŞ dolları tələb olunur. Beləliklə, yalnız 2024-cü ilin planlaşdırılmış 1000 km² təmizlənmə hədəfi üzrə ümumi xərclər 25–30 milyon dollar aralığında qiymətləndirilir (ANAMA, 2024). Bu xərclər dövlət büdcəsi ilə yanaşı, beynəlxalq donorların və özəl sektorun iştirakını da tələb edir.

Minalanmanın iqtisadiyyata dolayı təsiri də ciddi ölçülərdədir, belə ki, minalanma torpaqdan istifadə hüquqlarının məhdudluğu, investisiya risklərinin artması və əhalinin məskunlaşma prosesinin yubanması kimi amillər ümumi iqtisadi məhsuldarlığın azalmasına gətirib çıxarır.

Regionun meşə və su ehtiyatları da uzun illər ərzində ciddi şəkildə zərər görüb. Global Forest Watch-un 2024-cü il məlumatlarına görə, Azərbaycanın ümumi meşə sahəsi 962 min hektardır və son illərdə ölkə üzrə təbii meşə itkisi 155 hektar təşkil edib. Qarabağ və Şərqi Zəngəzurda bu proses daha kəskin müşahidə olunur, çünki müharibə dövründə qeyri-qanuni ağac kəsimləri, yanğınlar və torpaq eroziyası biomüxtəlifliyin azalmasına gətirib çıxarıb. Meşə ekosistemlərinin bərpası yalnız ekoloji baxımdan deyil, həm də iqtisadi baxımdan strateji əhəmiyyət daşıyır: su mənbələrinin qorunması, torpaq məhsuldarlığının yüksəldilməsi və ekoturizm potensialının artırılması bu sahəyə yatırılan sərmayələrin əsas motivləridir. Faydalı qazıntılar baxımından Qarabağ və Şərqi Zəngəzur bölgələri Azərbaycanın ən potensiallı geoloji zonalarından hesab olunur. Dövlət şirkəti "AzerGold" QSC-nin 2024-cü ildə yayımladığı məlumata əsasən, bölgədə aparılan geoloji tədqiqatlar nəticəsində mis, qızıl və polimetal yataqlarının sənaye miqyasında işlənməsi üçün ilkin ehtiyatlar müəyyən edilib.

Lakin minalanma infrastrukturunun zəifliyi və ekoloji qiymətləndirmə proseslərinin ləngiməsi bu sahədə investisiyaların həyata keçirilməsini çətinləşdirir. Məsələn, 273 km²-lik planlaşdırılmış geoloji tədqiqat sahəsinin yalnız 57 km²-i təhlükəsiz hesab edilərək işlərə açılıb (AzerGold QSC, 2024). Bu isə layihələrin rentabelliyini azaldır və investisiya dövrlərini uzadır. İnfrastrukturun bərpası istiqamətində Azərbaycan hökuməti "Böyük Qayıdış" proqramı çərçivəsində genişmiqyaslı layihələr həyata keçirir. "Invest in Karabakh and Eastern Zangezur" mərkəzinin məlumatına görə, Şərqi Zəngəzur iqtisadi regionunda həyata keçirilən layihələr ölkə ÜDM-inə 4%-ə qədər artım potensialı yarada bilər. Lakin bu potensialın reallaşması üçün yalnız fiziki infrastrukturun deyil, həm də torpaq mülkiyyəti, ekoloji idarəetmə, yerli icmaların reinteqrasiyası və insan kapitalının inkişafı kimi məsələlərin paralel şəkildə həll olunması vacibdir.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzurda təbiətdən istifadənin iqtisadi problemləri çoxsəviyyəli və bir-biri ilə sıx bağlıdır. Əsas problemlər kimi minalanmış torpaqlar, əhali və əmək resurslarının azalması, təbii ehtiyatların bərpasında idarəetmə çətinlikləri, infrastrukturun natamamlığı və ekoloji deqradasiya çıxış edir. Hər bir problemin arxasında həm konkret maliyyə yükü, həm də strateji iqtisadi məhdudiyyət dayanır. Bu səbəbdən bölgədə təbiətdən istifadənin səmərəliliyini artırmaq üçün inteqrə olunmuş yanaşma, yəni ekoloji, sosial və iqtisadi siyasətlərin uzlaşdırılması əsas şərt kimi qəbul edilməlidir.

Nəticə

Qarabağ və Şərqi Zəngəzurda təbiətdən istifadənin qarşısında duran çətinliklər, iqtisadi inkişafın sürətləndirilməsi üçün böyük əngəllər yaradır. Regionun təbii ehtiyatları və geoloji potensialı böyük imkanlar təqdim etsə də, minalanma, infrastruktur çatışmazlıqları və ətraf mühitin zədələnməsi bu potensialdan səmərəli istifadəni çətinləşdirir. Əhali köçləri və təbii sərvətlərin istifadəsi baxımından həm müsbət, həm də mənfi təsirlər mövcuddur. Bu səbəbdən Qarabağ və Şərqi Zəngəzurun davamlı iqtisadi inkişafı üçün ekoloji, sosial və iqtisadi yanaşmaların uzlaşdırılması vacibdir.

ƏDƏBİYYAT

1. Daxilqızı N., (2024, yanvar 20). "Qarabağa köçən və işləyənlərin sayı məlum oldu" Qafqazinfo. https://qafqazinfo.az/news/detail/qarabaga-kocen-ve-isleyenlerin-sayi-melum-oldu-464552
2. AzerGold QSC. (2023, mart 13). "AzerGold" QSC Şərqi Zəngəzurda geoloji tədqiqatları davam etdirir. https://azergold.az/media/press-relizler/azergold-qsc-serqi-zengezurda-geoloji-tedqiqatlari-davam-etdirir
3. Global Forest Watch. (2024). Azerbaijan Deforestation Rates & Statistics. https://www.globalforestwatch.org/dashboards/country/AZE
4. Mine Action Review. (2024). Clearing the Mines 2024: Azerbaijan Country Profile. https://www.mineactionreview.org/country/azerbaijan/anti-personnel-mines
5. UN Mine Action Service. (2022). Annual Report 2022. https://www.unmas.org/sites/default/files/unmas_ar_2022.pdf

Ниджат Эльшан оглы Гумматов
магистрант,
Туран Тофик кызы Асланова
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Архитектуры и Строительства

Экономические проблемы природопользования и процессы восстановления в Карабахе и Восточном Зангазуре

Резюме

В статье рассматриваются экономические проблемы природопользования в Карабахском и Восточно-Зангезурском регионах. Рассматриваются богатые природные ресурсы региона, включая плодородные земли, лесные ресурсы, полезные ископаемые и водные ресурсы, а также экономические, экологические и социальные препятствия, препятствующие эффективному использованию этих ресурсов. Рассматриваются вопросы ограничения использования этих ресурсов горнодобывающей промышленностью и разрушением инфраструктуры, а также влияние миграции населения на экономическую деятельность региона и восстановление экосистемных услуг. В статье также подчеркивается экономическое значение минерального потенциала региона и восстановление лесных экосистем.

Nijat Elshan Hummatov
Master's student,
Turan Tofig Aslanova
doctor of philosophy in economics, associate professor,
Azerbaijan University of Architecture and Construction

Economic problems of natural resource use and the recovery process in Karabakh and Eastern Zangazur

Summary

The article discusses the economic problems of nature use in the Karabakh and East Zangezur regions. The rich natural resources of the region, including fertile lands, forest resources, minerals and water resources, are examined, and the economic, ecological and social obstacles to the effective use of these resources are examined. The issues of how mining and infrastructure destruction limit the use of these resources, the impact of population migration on the economic activity of the region and the restoration of ecosystem services are highlighted. The article also emphasizes the economic importance of the mineral potential of the region and the restoration of forest ecosystems.

Ruqiyyə Elşad qızı RZAYEVA
magistrant,
Aydın Ehtibar oğlu BƏHRƏMOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ İQTİSADİ RAYONUNDA SƏNAYELƏŞMƏ STRUKTURUNUN FORMALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

İstehsal üçün daha əlverişli şərait yaratmaq, yeni müəssisələrin sayını artırmaq və xarici tərəfdaşlarla münasibətlər qurmaq vacibdir. İqtisadiyyatı xarici təlatümlərdən qorumaq üçün sənayenin inkişafının başqa yollarını tapmaq lazımdır [Daşsalahlı R.2021].Sənayeləşmənin əsas məqsədləri iş imkanlarını genişləndirmək, işsizliyin azaldılması və insanların həyatını yaxşılaşdırmaqdır.

Azərbaycanda sənayeləşmə iki müxtəlif sənaye növünə əsaslanır. Sənaye növlərindən biri xarici investisiyalara, digəri isə daxili istehsal proseslərinə əsaslanır. Azərbaycanın işğaldan azad edilmiş rayonlarında material, texnika və işçi qüvvəsinin çatışmazlığı bu problemin həlli üçün effektiv tədbirlərin görülməsini tələb edir [Abdulla N.2021]. Azərbaycanda sənayeləşmə xarici investorların maraqlarını dövlətin maraqları ilə birləşdirən mürəkkəb prosesdir. Sənayeləşmə əhəmiyyətli maliyyə mənbələri tələb edir. Sənayeləşmə prosesi xarici investorlara qarşı dövlət siyasətindən başlayır. Azərbaycanın sənayeləşməsinin əsas mərhələləri aşağıdakılardır [Məmmədova P.2021:62]:

1. Böyük layihələr və əhəmiyyətli iqtisadi investisiyalar da daxil olmaqla dövlət tərəfindən prosesin inkişafı.

2. Yeni investisiya və inkişaf layihələrinin strateji planlaşdırılması, müxtəlif sektorlarda böyük müəssisələrin yaradılması, xarici tərəfdaşlarla birgə müəssisələrin yaradılması da daxil olmaqla bir sənayeləşmə səviyyəsindən digərinə keçid.

3. Aydın iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi və iqtisadi artımın stimullaşdırılması da daxil olmaqla bir sənayeləşmə səviyyəsindən digərinə keçid.

4. Regional ehtiyaclara cavab verən regional inkişaf proqramları əsasında ölkənin müxtəlif sənaye və sektorlarında istehsal proseslərinin səmərəliliyinin monitorinqi və qiymətləndirilməsi.

Beləliklə, innovativ texnologiyaların inkişafı yeni texnologiyaların inkişafına təkan verir ki, bu da elm və texnologiya sahəsində gələcək elmi tədqiqatlar üçün müasir istehsal mərkəzlərinin yaradılmasına imkan verir. Nəticədə yenilik həm də elm və texnologiyanın inkişafına kömək edir və sosial-iqtisadi sistemdəki təkamül dəyişikliklərinə təsir göstərir. Təbii ehtiyatların məhdud təbiətindən danışırıqsa, bilik kimi mənbələr məhdudiyyətsiz olaraq xarakterizə edilə bilər və bu səbəbdən yeni mənbələrin meydana gəlməsi ilə dəyişikliklərin mümkünlüyünü nəzərə alaraq mənbələrin doldurulmasını nəzərdən keçirə bilərik [Sarıyeva İ.2021:10]. Bununla birlikdə iqtisadiyyatın müxtəlif sahələrində innovativ imkanlardan səmərəli istifadə etmək üçün ilk növbədə, yeni biliklərin yaradılması və qiymətləndirilməsi sahəsində proqnozlaşdırma metodologiyasından başlamalıyıq.

Cədvəl 1.

Regionlar üzrə sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, min manat

	2015	**2016**	**2017**	**2018**	**2019***	**2020***
Şərqi Zəngəzur iqtisadi rayonu	1205	1122	4442	2823	2991	2543
Cəbrayıl rayonu	556	560	3910	2171	2251	2050
Kəlbəcər rayonu	274	251	225	253	248	224
Qubadlı rayonu	4	-	35	-	-	-
Laçın rayonu	320	253	214	376	492	268
Zəngilan rayonu	51	59	58	22	-	-
Qarabağ iqtisadi rayonu	**44700**	**57148**	**85860**	**97485**	**125603**	**114680**
Ağcabədi rayonu	9475	15202	29752	38438	62330	52357
Ağdam rayonu	6841	7111	12693	12609	13731	13105
Bərdə rayonu	11617	13156	14368	14301	19525	23946
Füzuli rayonu	10298	11726	17324	16494	19575	18225
Xocalı rayonu	-	-	-	-	-	-
Xocavənd rayonu	352	346	381	225	598	648
Şuşa rayonu	12	17	7	8	8	15
Tərtər rayonu	6105	9590	11334	15411	9836	6385

Mənbə: Azərbaycanın sənayesi,Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/industry/, 2021.

Cədvəl 1-də azad edilmiş ərazilərdə istehsal olunan malların, xidmətlərin və iş yerlərinin xərcləri müvafiq bölgələrdə faktiki qiymətlərlə göstərilir. 2015-ci ildən Kəlbəcər rayonunda iyul ayında su təchizatı, tullantıların təmizlənməsi və təkrar emalı üzrə tədbirlər keçirilir. Kəlbəcərdə bu tədbirlər təxminən 1475,4 min manat təşkil edib. Bundan başqa, Laçın rayonunda emal sə-

nayesinin fəaliyyətinə başlanılıb. Statistik məlumatlara görə, 2018-2020-ci illərdə sənaye istehsalı 361,7 min manat, geyim istehsalı isə 294,2 min manat təşkil edib. Bundan başqa, iyul ayında Qubadlı rayonunda su təchizatı, çirkab suların təmizlənməsi və sənaye emalı üzrə tədbirlər keçirilib. Bu sektorun ümumi gəliri 2015-ci ildə təxminən 4,1 min manat, 2017-ci ildə isə 34,9 min manata çatıb. Statistikaya görə, 2015-2018-ci illər arasında Zəngilan rayonunda 4662 yataq dəsti istehsal olunub. Nəhayət, 2015-2020-ci illər ərzində onun paylanmasına əsasən, təxminən 8437,3 min kubmetr su, 2015-2018-ci illər ərzində isə təxminən 5842 ədəd yataq dəsti və 1460 ədəd ətək və şalvar istehsal edilmişdir.

Azərbaycanın işğaldan azad edilmiş rayonlarında sənaye inkişafının, yeni sənaye istehsalı üçün müəssisələrin yaradılmasının və onların inkişafının müxtəlif aspektləri müəyyən edilmişdir. Buna görə də bu ərazilərdə planlı inkişafı təmin etmək üçün aşağıdakı prosesləri izləmək tövsiyə olunur:

Regionda mövcud olan resurslardan səmərəli istifadə olunmalı, sənaye sahibkarlığı yaradılmalıdır.

Yerli sakinlərin həyat keyfiyyətinin bərpası və yaxşılaşdırılması üçün maliyyə ehtiyatları və imkanları müəyyən edilməlidir.

Ehtiyat torpaq fondlarının qorunub saxlanılmasını, həmçinin bölgədə aqrosənaye kompleksinin inkişafını və bu torpaqlardan səmərəli istifadəni təmin etmək lazımdır.

Nəticə

Azərbaycanın işğaldan azad olunmuş rayonlarında sənayenin inkişafı mümkündür. Bu sahədə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi məqsədilə, yeni iqtisadiyyat quruculuğu şəraitində sənaye parklarının yaradılması işi beynəlxalq təcrübədən irəli gəlir. Belə parkların yaradılması təcrübəsi artıq ölkəmizdə mövcuddur. Bu təcrübələr əsasında məhz işğaldan azad olunmuş ərazilərdə sənaye parklarının yaradılması regionun gələcək inkişafında əhəmiyyətli rol oynayacaq.

ƏDƏBİYYAT

1. Abdulla N. Regional sosial-iqtisadi inkişaf: problemlər və reallıqlar //525-ci qəzet. 2021, 14 oktyabr - https://525.az/news/178046-regional-sosial-iqtisadi-inkisaf-problemler-ve- realliqlar
2. Baxşəliyev E. 2022 -ci ildə də sosial-iqtisadi inkişaf davam edəcək. “Azərbaycan” qəzeti, 2021. 10 sentyabr. s.1-4.
3. Bayramov V. İqtisadi inkişaf sosial rifahın əsas amilidir. “Xalq qəzeti”, 2022,
4. Daşsalahlı R. Qarabağ - inkişaf, tərəqqi meydanı // Azərbaycan müəllimi, 2021,
5. Məmmədova P. Azərbaycanda sənaye müəssisələrinin investisiya potensialının formalaşması və qiymətləndirilməsi // Kooperasiya - elmi-praktiki jurnal. №3. 2020, s. 61-68.
6. Sarıyeva İ., Qarabağ turizmi - bölgələrin sosial-iqtisadi inkişaf mənbələrindən biri.Bakı Xəbər. 2021, 28 dekabr, s.10.
7. Azərbaycanın sənayesi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022 https://www.stat.gov.az/source/industry/.
8. Allahverdiqızı F. Azad edilən ərazilər yerli və xarici investorlar üçün cəlbedici olacaq. 2020, 10 dekabr https://vergiler.az/news/economy/11072.html

Ругия Ельшад кызы Рзаева
магистрант,
Айдын Этибар оглы Бахрамов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Направления формирования структуры индустриализации Карабахского экономического региона

Резюме

В статье всесторонне анализируется значение индустриализации для экономики страны, раскрываются различные аспекты промышленного освоения освобожденных районов, создания предприятий нового промышленного производства и их развития.

Ruqiyya Elshad Rzayeva
master,
Aydin Ehtibar Bahramov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Directions for forming the structure of industrialızation of the Karabakh economıc regıon

Summary

The article comprehensively analyzes the importance of industrialization for the country's economy, identifies various aspects of industrial development in the liberated regions, the creation of enterprises for new industrial production, and their development.

Kəmalə Arif qızı MƏMMƏDOVA
magistrant,
Afiq Cavanşir oğlu NƏSİBOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR SAHƏDƏ BEYNƏLXALQ BİZNESİN FORMALAŞDIRILMASININ BƏZİ MƏSƏLƏLƏRİ

Giriş

İşğaldan azad edilmiş ərazilərdə aqrar sahədə beynəlxalq biznesin inkişaf etdirilməsi kənd təsərrüfatı və qida sənayesinin davamlı inkişafından, nəqliyyat və logistika infrastrukturlarının formalaşdırılmasından, Zəngəzur nəqliyyat-logistika dəhlizinin açılmasından bilavasitə asılıdır. Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış I Dövlət Proqramı"nda qeyd edilir ki, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, əhalinin təhlükəsizliyinin təmin edilməsi, bu ərazilərdə yeni iş yerlərinin yaradılması və infrastrukturun formalaşdırılması regionda istehsal edilən məhsulların dünya bazarlarına çıxarılmasına əlverişli şərait yaradacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi məhsulların xarici bazarlara ixrac edilməsi ilə bilavasitə bağlı olduğundan aqrobiznes mühitinin yaxşılaşdırılması mühüm strateji əhəmiyyət kəsb edir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları tarixən geniş və çoxşaxəli aqrobiznes potensialına malik olmuşdur. Bu baxımdan akademik Z.Səmədzadə qeyd edir ki, ötən ərin 60-80-cı illərində regionda sənayenin inkişafı üçün xeyli işlər görülmüşdür. Həmin dövrdə regionda sənaye məhsullarının həcmi 26 dəfə, o cümlədən, maşınqayırma və metal emalı 26 dəfə , yüngül sənaye 12 dəfə, yeyinti sənayesi 13 dəfə artmışdır. (Səmədzadə Z.Ə. "Qarabağ iqtisadiyyatı 100 ildə" V cild, Bakı-2022. s.856, s.704). İşğaldan azad edilmiş ərazilərdə beynəlxalq aqrobiznes mühitinin formalaşdırılması aşağıdakı amillərdən bilavasitə asılıdır:

- İstehsal edilən aqrar ərzaq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi;
- İstehsal edilən məhsulların keyfiyyətinin yüksəldilməsi;
- İşğaldan azad edilmiş ərazilərə xarici investisiyaların cəlb edilməsi;
- İşğaldan azad edilmiş ərazilərdə nəqliyyat-logistika infrastrukturlarının yaradılması;
- İşğaldan azad edilmiş ərazilərlə ölkənin milli iqtisadiyyatını və beynəlxalq bazarları birləşdirən dəhlizlərin yaradılması.

Bunlara əsaslanaraq Qarabağ və Şərqi Zəngəzurda regional innovasiya sistemlərinin və ərazi klasterlərinin yaradılmasının nə qədər əhəmiyyətli olacağını söyləmək olar. Digər tərəfdən, Qarabağ və Şərqi Zəngəzur üzrə daha bir mühüm məsələ nəqliyyat-logistika infrastrukturunun hərtərəfli inkişafı ilə bağlıdır. Dünyanın əksər ölkələrində beynəlxalq hava limanlarında və nəqliyyat

qovşaqlarının kəsişmələrində AİZ-lər yaradıldığından bu ərazilərdə malların intensivliyini və dövriyyəsini sürətləndirmək, idxal və ixracı təmin etmək baxımından nəqliyyat-logistika infrastrukturlarının yaradılması önəmlidir. Xarici iqtisadi əlaqələrin şaxələndirilməsi, idxal və ixrac əməliyyatlarının daha da sadələşdirilməsində AİZ-lərin rolu göz qabağındadır. Sərhədyanı ərazilərdə, nəqliyyat qovşaqlarında, ölkənin perspektivli rayonlarında, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda AİZ-lərin fəaliyyəti iqtisadi inkişaf proseslərinin sürətləndirilməsində kifayət qədər üstünlüklər verə bilər. AİZ-lərin təşkili mövcud resursların maliyyə-təsərrüfat dövriyyəsinə, istehsal proseslərinə əlavə resursların cəlb edilməsinə, ÜDM-in artımına və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafı məqsədilə əlavə artım mənbələrinin formalaşmasına gətirib çıxarar. (Quliyev E.A. "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Bakı – 2023, s.319, s.186).

İşğaldan azad edilmiş ərazilərdə beynəlxalq aqrobiznes mühitinin formalaşdırılması dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasət və xarici ticarət siyasətindən də bilavasitə asılıdır. Beynəlxalq aqrobiznes mühitinin inkişaf etdirilməsi işğaldan azad edilmiş ərazilərdə güzəştli kredit siyasətinin reallaşdırılması xarici ticarət güzəştlərinin tətbiqi ilə də sıx bağlıdır. Fikrimizcə, işğaldan azad edilmiş ərazilərdə bu güzəştlərin tətbiqi regionda beynəlxalq aqrobiznes mühitinin əlverişliliyinin artmasına, istehsal edilən məhsulların "Qarabağ Brendi" altında dünya bazarlarına ixracında əhəmiyyətli rol oynayacaqdır.

ƏDƏBİYYAT

1. Səmədzadə Z.Ə. "Qarabağ iqtisadiyyatı 100 ildə" V cild , Bakı-2022. s.856, s.704
2. Quliyev E.A. "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Bakı – 2023, s.319, s.186

Камала Ариф кызы Мамедова
магистрант,
Афиг Джаваншир оглы Насибов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Некоторые вопросы формирования международного бизнеса в аграрном секторе на освобожденных территориях

Резюме

Освобожденные территории находятся в экономической сфере Азербайджана, создавая благоприятные условия для развития агропродовольственного комплекса. Восстановление освобожденных территорий также играет важную роль в ускорении процесса реинтеграции в национальную экономику страны. Международный агробизнес предполагает расширение возможностей выхода на международные рынки сельскохозяйственных товаропроизводителей, действующих в агропродовольственном комплексе, независимо от форм собственности. Поскольку международная агропромышленная среда тесно связана с процессом вывода на международный рынок экологически чистой продукции в современных условиях, она также включает в себя результаты зеленой революции. Деятельность агробизнеса также предполагает создание благоприятных условий для повышения эффективности производственного процесса и увеличения возможностей сбыта продукции. Расширение международного агробизнеса на освобожденных территориях может создать благоприятные условия для экспорта продукции, произведенной в Карабахе и Восточном Зангезуре, на крупные рынки под «карабахским брендом». В этой связи в статье отражены вопросы, связанные с формированием международного агробизнеса на освобожденных территориях.

Kamala Arif Mammadova
master,
Afig Javanshir Nasibov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Some issues of forming international business in the agricultural sector in the liberated territories

Summary

The liberated territories are in the economic sphere of Azerbaijan, creating favorable conditions for the development of the agrarian food complex. The restoration of the liberated territories also plays an important role in accelerating the process of reintegration into the national economy of the country. International agribusiness involves expanding the opportunities for agricultural commodity producers operating in the agrarian food complex, regardless of their ownership, to access international markets. Since the international agribusiness environment is closely related to the process of introducing environmentally friendly products to the international market in modern conditions, it also includes the results of the green revolution. Agribusiness activity also involves creating favorable conditions for increasing the efficiency of the production process and increasing product sales opportunities. The expansion of international agribusiness in the liberated territories can create favorable conditions for the export of products produced in Karabakh and East Zangezur to large markets under the "Karabakh brand". In this regard, the article reflects the issues related to the formation of international agribusiness in the liberated territories.

Nərmin Mahir qızı TAĞIYEVA
magistrant,
Aydın Ehtibar oğlu BƏHRƏMOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAF POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

İşğaldan azad edilmiş ərazilər öz ekoloji-təbii zənginliyi ilə fərqlənir. Burada çoxlu təbii abidələr, nadir bitki və heyvan növləri geniş yayılmışdır. Bu ərazilərdə 460 növdən artıq yabanı ağac və kol bitkisi bitir. Onlardan 70-dən çoxu endemik növlərdir və dünyanın heç bir yerində təbii halda inkişaf edə bilmir.İşğal altında olmuş Azərbaycan ərazilərində kifayət qədər şirin su ehtiyatına malik olan irili-xırdalı 7 relikt göl, böyük müalicə əhəmiyyəti olan 120-dək müxtəlif tərkibli mineral su yataqları mövcuddur.Uzun müddət işğal altında qaldığına görə texniki qurğularına lazımi xidmət göstərilmədiyi üçün Sərsəng su anbarı hazırda qəzalı vəziyyətdədir ki, bu da anbardan aşağıda yerləşən ərazilərin yarım milyondan artıq əhalisi üçün olduqca təhlükəlidir. Bu azmış kimi ermənilər anbardan suyu kənd təsərrüfatında suvarmaya ehtiyac olmayan qış dövründə buraxır və nəticədə xeyli torpaq sahəsi su altında qalır, yollar, suvarma sistemləri, müxtəlif infrastruktur sahələri dağılır, güclü sel axınları baş verirdi. Təbii ki, bu da kənd təsərrüfatına ciddi ziyan vurub, əkin sahələrinin suvarılmasında və torpaqların səmərəli istifadə edilməsində problemlər yaradıb, təbii landşaft məhv olub, regionda təhlükəli ekoloji gərginlik yaranıb. [Мамедов Г.Ш. 1978].

İşğalda olan ərazilərdə ümumi həcmi 674 milyon kubmetrə bərabər olan 5 su anbarından, 7296 hidrotexniki qurğudan, 62 su nasosu və suvarma aqreqatından, 36 müasir nasos stansiyasından, 26 suvarma sistemi və 18 ədəd suvarma sistemlərinin baş qurğularından ibarət 1203 kilometrlik irriqasiya infrastrukturu və su kommunikasiya sistemi tamam dağıdılıb məhv edilmişdir. Bunun

nəticəsində hətta işğal altında olan ərazilərin hüdudlarından kənardakı 5 rayonda 120 min hektardan artıq torpaq sahəsi suvarılmadığına görə demək olar ki, təsərrüfat dövriyyəsindən çıxarılmışdır. Ümumilikdə isə 1 milyon hektardan artıq torpaq sahəsi, o cümlədən 127,7 min hektar suvarılan sahə, 34,6 min hektardan artıq üzüm və meyvə bağları yararsız hala düşdüyündən istehsal prosesinə cəlb edilməmişdir [Süleymanov E.,2013,176].

Məlumdur ki, Ermənistan tərəfindən Azərbaycanın 20%-ə qədər, yaxud 1670,3 min hektar ərazisi işğal edilmişdi. Bu ərazilərin 680,8 min hektarı kənd təsərrüfatına yararlı torpaqlar, 10,7 min hektardan çoxu həyətyanı sahələrdən (bu torpaqlar da kənd təsərrüfatına yararlıdır), 247,3 min hektarı meşəliklərdən ibarətdir. Bunlardan başqa 234 min hektardan artıq sahə sair torpaqlardır və əminik ki, yerquruluşu qaydasında bu torpaqların yerdə uçotu aparılsa, kənd təsərrüfatı dövriyyəsinə cəlb etmək üçün kifayət qədər yararlı torpaq müəyyən etmək mümkün olacaq.

İşğal altında qalan kənd təsərrüfatına yararlı torpaqların 207,0 min hektarı (30,4%) əkinçilikdə, 54,7 min hektarı (8,0%) çoxillik əkmələr altında, 380 min hektardan çoxu (55,9%) heyvandarlığın inkişafı üçün mühüm əhəmiyyətə malik örüş-otlaq sahələri kimi istifadə oluna bilərdi. Bu torpaqların əksəriyyəti yay otlaqlarından ibarət idi. Çoxillik əkmələr altında olan torpaqların 37,8 min hektarı kənd təsərrüfatının gəlirli sahələrindən biri olan üzümlüklərdən, 2 min hektardan çoxu meyvə bağlarından, qalanı isə baramaçılığın inkişafı üçün olduqca əhəmiyyətli rola malik tut çəkilliyindən və digər çoxillik əkmələrdən ibarət idi. Kənd təsərrüfatına yararlı torpaqların 128,2 min hektarı, əkin torpaqlarının 80,5 min hektarı, çoxillik əkmələrin 38,2 min hektarı suvarılan olub [Велиев А.Г.1981]. İşğaldan azad olunan ərazilər Azərbaycan iqtisadiyyatında önəmli yer tutan iri kənd təsərrüfatı regionudur. Əlverişli torpaq-iqlim şəraitinə malik olması ərazidə kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrinin inkişafına geniş imkanlar yaradır. İşğala qədər burada kənd təsərrüfatının müxtəlif sahələri - taxılçılıq, üzümçülük, tütünçülük, yemçilik, kartofçuluq, tərəvəzçilik, pambıqçılıq, heyvandarlıq daha geniş inkişaf etdirilirdi. Respublikada istehsal edilən taxılın 14,3%-i, üzümün 31,5%-i, ətin 14,5%-i, südün 17,1%-i, yunun 19,3%-i, baramanın 17,0%-i Yuxarı Qarabağın payına düşürdü. Həm də bu rayonlarda ekoloji cəhətdən təmiz və keyfiyyətli kənd təsərrüfatı məhsulları yetişdirilirdi. Bu ərazilərdə üzümçülüyün və tütünçülüyün inkişafı çox qədim tarixə malikdir [Süleymanov E.,2013].

Araşdırmalar göstərir ki, işğaldan azad edilmiş torpaqların əksər hissəsi keyfiyyət xüsusiyyətlərinə görə respublikanın digər ərazilərinin torpaqlarına nisbətən daha münbit torpaqlardır. Bunu respublikanın ümumi torpaq örtüyünün, o cümlədən kənd təsərrüfatına yararlı torpaqların keyfiyyətcə qiymətləndirilməsinə dair aparılan tədqiqatların nəticələri də sübut edir. Müəyyən edilmişdir ki, respublikada I keyfiyyət qrupuna daxil olan torpaqların ən çoxu Yuxarı Qarabağ (16,8%) İqtisadi Rayonuna, ən az isə Abşeron İqtisadi Rayonuna (0,2%) məxsusdur.

Kənd təsərrüfatına yararlı torpaqların aqroistehsal qruplarına görə bölgüsünə diqqət yetirsək, burada da I və II keyfiyyət qrupuna aid olan torpaqların üstünlük təşkil etdiyinin şahidi olarıq ***(Cədvəl 2.)***. Göründüyü, kimi işğal altında olan ərazilərin bu keyfiyyət qruplarına aid yaxşı və yüksək keyfiyyətli torpaqları kənd təsərrüfatına yararlı torpaqların 489,0 min hektarına və ya 71,8%-nə bərabərdir. III qrup - orta keyfiyyətli torpaqlar 163,4 min hektar (24,0%), IV qrup - aşağı keyfiyyətli torpaqlar 27,1 min hektar (4,0%), V qrup - şərti yararsız torpaqlar cəmi 1,3 min hektar.

İşğal altında olmuş və kənd təsərrüfatına yararlı torpaqların keyfiyyətinin nisbətən yüksək olması burada əsas kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının da digər sahələrə nisbətən yüksək olmasını şərtləndirmişdir. Araşdırmalar göstərir ki, 1970 -1990-cı illərdə respublikanın digər əraziləri üzrə taxılın orta məhsuldarlığı 12-24 sen/ha, kartofun orta məhsuldarlığı 78-85 sen/ha, tərəvəzin orta məhsuldarlığı 125-200 sen/ha, bostan məhsullarının orta məhsuldarlığı 130-169 sen/ha, meyvənin orta məhsuldarlığı 21-28 sen/ha, üzümün orta məhsuldarlığı 47-77 sen/ha arasında tərəddüd etdiyi halda, işğal altında olmuş ərazilərdə həmin bitkilərin orta məhsuldarlığı müvafiq olaraq 30-35 sen/ha, 90-120 sen/ha, 180-240 sen/ha, 160-220 sen/ha, 60-80 sen/ha, 95-120 sen/ha arasında olmuşdur[Süleymanov E.,2013].

İşğal altında olmuş və kənd təsərrüfatına yararlı torpaqların keyfiyyətinin nisbətən yüksək olması burada əsas kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının da digər sahələrə nisbətən yüksək olmasını şərtləndirmişdir. Araşdırmalar göstərir ki, 1970-1990-cı illərdə respublikanın digər

əraziləri üzrə taxılın orta məhsuldarlığı 12-24 sen/ha, kartofun orta məhsuldarlığı 78-85 sen/ha, tərəvəzin orta məhsuldarlığı 125-200 sen/ha, bostan məhsullarının orta məhsuldarlığı 130-169 sen/ha, meyvənin orta məhsuldarlığı 21-28 sen/ha, üzümün orta məhsuldarlığı 47-77 sen/ha arasında tərəddüd etdiyi halda, işğal altında olmuş ərazilərdə həmin bitkilərin orta məhsuldarlığı müvafiq olaraq 30-35 sen/ha, 90-120 sen/ha, 180-240 sen/ha, 160-220 sen/ha, 60-80 sen/ha, 95-120 sen/ha arasında olmuşdur.

Cədvəl 1.

İşğal altında olmuş kənd təsərrüfatına yararlı torpaqların keyfiyyət qruplarına görə bölgüsü (min ha)

Torpaqların keyfiyyət (aqroistehsal) qrupları	Əkin və dinc	Çoxillik əkmələr	Biçənək	Örüş-otlaqlar			Həyətyanı (kənd təsərrüfatına yararlı)	Kənd təsərrüfatına yararlının cəmi
				Kəndyanı örüşlər	Qış otlaqları	Yay otlaqları		
I qrup.	68,3	8,9	13,2	65,4	23,1	80,9	5,6	265,4
Yüksək keyfiyyətli torpaqlar	31,6	16,3	70,2	42,8	18,9	76,5	52,3	39,0
	25,7	3,4	5,0	24,6	8,7	30,5	2,1	100.0
II qrup.	76,7	37,5	3,5	39,1	46,3	15,6	4,9	223,6
Yaxşı keyfiyyətli torpaqlar	35,6	68,6	18,6	25,6	37,9	14,7	45,8	32,8
	34,3	16,8	1,6	17,5	20,7	6,9	2,2	100,0
III qrup.	64,5	7,5	1,8	32,7	47,4	9,3	0,2	163,4
Orta keyfiyyətli torpaqlar	29.9	13,7	9,6	21,4	38,7	8,8	1.9	24.0
	39.5	4.6	1,1	20,0	29,0	5,7	0,1	100,0
IV qrup.	6,3	0,8	0,3	14,3	5,4	--	--	27,1
Aşağı keyfiyyətli torpaqlar	2,9	1,4	1,6	9,4	4,4	--	--	4,0
	23,2	3,0	1,1	52,8	19.9	--	--	100,0
V qrup.	--	--	--	1,2	0,1	--	--	1,3
Şərti yararsız torpaqlar	--	--	--	0,8	0,1	--	--	0,2
	--	--	--	92,3	7,7	--	--	100,0
Cəmi	**215,8**	**54,7**	**18,8**	**152,7**	**122,3**	**105,8**	**10,7**	**680,8**
	100,0	**100,0**	**100,0**	**100,0**	**100.0**	**100,0**	**100,0**	**100,0**
	31,7	**8,0**	**2,8**	**22,4**	**18,0**	**15,5**	**1,6**	**100.0**

Mənbə: [Салаев М.Э. 1966 329].

Yuxarıda göstərilən məhsuldarlıq səviyyəsinə və əsas kənd təsərrüfatı məhsullarının mövcud satış qiymətinə uyğun hesabladıqda işğal altında olmuş ərazilərin yalnız kənd təsərrüfatına yararlı torpaqlarından istifadə imkanı olmadığından hər hektardan ildə külli miqdarda maliyyə vəsaitinin itirildiyini görərik. Beləliklə, aparılan hesablamalar göstərir ki, ildə taxıl altında hər hektardan 935 manat, kartof altında 5988 manat, tərəvəz altında 4176 manat, bostan məhsulları altında 4334 manat, üzüm altında 4332 manat, meyvə altında isə 6664 manat vəsait itirilir. Torpaqların işğal altında olduğu müddəti (illəri) nəzərə almaqla və həmin bitkilərin işğal altındakı ümumi əkin sahələri üzrə hesabladıqda itirilən vəsaitin nə qədər böyük məbləğdə olduğunu görmək olar. Onu da qeyd etmək lazımdır ki, işğal altında olan ərazilərin torpaqlarının potensial məhsuldarlıq imkanları göstərilən məhsuldarlıq səviyyəsindən daha yüksəkdir.

Nəticə

Aparılan araşdırmalar göstərir ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın işğal edilmiş ərazilərində olan çoxlu endemik bitki növləri, Azərbaycan Respublikasının Qırmızı

Kitabına daxil edilmiş xeyli heyvan və bitki növləri, geniş əraziyə malik təbiət qoruqları, yasaqlıqları talançılığa və məhvə məruz qalmışdır.

İşğal edilmiş ərazilərdə olan bir çox müxtəlif tərkibli və müalicə əhəmiyyətli mineral su yataqları, suvarma əkinçiliyinin inkişafını təmin edən böyük həcmli su anbarları, suvarma sistemləri və qurğuları dağıdılmışdır. Bu səbəbdən müxtəlif kənd təsərrüfatı bitkiləri altında olan qiymətli suvarılan torpaq sahələri kənd təsərrüfatı istehsalına yararsız hala düşmüşdür.

Hesab edirik ki, ümumi torpaq fondunun istifadəsi baxımından bütün faktorlar nəzərə alınarsa, işğal nəticəsində torpaq istifadəçiliyindən məhrumolma səbəbindən ölkəmizə vurulmuş maddi zərərin miqdarı daha böyükdür.

ƏDƏBİYYAT

1. Велиев А.Г. – Агроэкологические особенности и бонитировка почв агроценозов Ленкоранской области и их рациональное использование. Автореф. дис. канд. с.х. наук. Баку, 1981, 25 с.
2. Мамедов Г.Ш. - Агроэкологическая характеристика и бонитировка пастбищных земель западной части Мильской равнины. Автореф. дис. канд. с.х. наук. Баку, 1978, 28 с.
3. Салаев М.Э. – Почвы Малого Кавказа. Баку, 1966, 329 с.
4. Süleymanov E., Süleymanov V. – Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı, 2013, 176 s.

Нармин Махир кызы Тагиева
магистрант,
Айдын Этибар оглы Бахрамов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Оценка потенциала развития сельского хозяйства Карабахского и Восточно-Зангазурского экономических районов

Резюме

В статье дана классификация сельскохозяйственных угодий по качественным показателям и проведено сравнение их качества с другими экономическими районами. Приведен соответствующий расчет финансовых ресурсов, потерянных из-за неиспользуемых сельскохозяйственных угодий в результате оккупации.

Narmin Mahir Taghiyeva
master,
Aydin Ehtibar Bahramov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Assessment of the development potential of agriculture in the Karabakh and Eastern Zangazur economic regıons

Summary

The article provides a breakdown of agricultural lands according to their quality indicators and compares their quality level with other economic regions. An appropriate calculation is made of the financial resources lost due to the unused agricultural lands as a result of the occupation.

Aydan Fərman qızı ASLANOVA
doktorant,
ORCİD İD: http://orcid.org/0009-0009-7643-9021
aydan.aslanova.1991@bk.ru,
Azərbaycan Kooperasiya Universiteti

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN AQRAR POTENSİALINDAN İSTİFADƏ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ

Giriş

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin əhalisi işğaldan əvvəl kənd təsərrüfatı istehsalı ilə məşğul olmuşdur. Uzunmüddətli işğal dövründə bu ərazilərin aqrar infrastrukturu ciddi dağıntılara məruz qalmış, torpaqlar minalarla çirklənmiş, suvarma sistemləri dağıdılmış və əkin sahələri istifadəsiz qalmışdır. Hazırda bu ərazilərin bərpası və yenidən qurulması prosesi davam etməkdədir. Bu kontekstdə aqrar sektorun inkişafı həm əhalinin məşğulluğunun təmin olunması, həm də regionun iqtisadi dirçəlişi üçün əsas amillərdən biri kimi çıxış edir. Bu potensialdan maksimum səmərəlilik əldə etmək üçün müasir elmi yanaşmaların və innovativ texnologiyaların tətbiqi, eləcə də kompleks inkişaf strategiyalarının hazırlanması və reallaşdırılması zəruridir.

İşğaldan azad olunmuş ərazilərin aqrar potensialından istifadə prosesində bir sıra problemlər mövcuddur. Uzunmüddətli istifadəsizlik nəticəsində torpaqların münbitlik səviyyəsi aşağı düşmüş, mina və partlamamış hərbi sursatlarla çirklənmə eroziya proseslərini gücləndirmişdir. Bundan əlavə suvarma və meliorasiya sistemlərinin dağıdılması, yol infrastrukturunun olmaması və ya yararsız vəziyyətdə olması, anbarların və saxlama qurğularının olmamasını qeyd etmək lazımdır. Sözügüedən ərazilərə əhalinin qayıdışının mərhələli xarakteri, müasir kənd təsərrüfatı texnikalarının, toxum, gübrə və digər istehsal vasitələrinin əldə edilməsi üçün əhəmiyyətli miqdarda investisiyaların zəruriliyi, həmçinin iqlim dəyişikliyi və bioloji müxtəlifliyin pozulması kimi təsirli amillərin də nəzərə alınması qaçılmazdır.

Qeyd olunanların uçotu ilə hesab edirik ki, hər bir rayonun torpaq-iqlim şəraitinin, su ehtiyatlarının və aqrar potensialının ətraflı qiymətləndirilməsi, mövcud infrastruktur, insan və maliyyə resursları məhdudiyyətlərinin müəyyənləşdirilməsi, retrospektiv məlumatların təhlili və ərazinin keçmiş iqtisadi göstəricilərinin öyrənilməsi, mövcud mina təhlükəsinin qiymətləndirilməsi və təhlükəsiz əkinə yararlı sahələrin müəyyənləşdirilməsi müstəvisində SWOT təhlilin aparılması böyük elmi-təcrübi əhəmiyyət kəsb edə bilər.

İşğaldan azad edilmiş ərazilər müxtəlif aqrar-iqlim zonalarını əhatə edir və fərqli kənd təsərrüfatı potensialına malikdir. Region əsasən qara, qara-qəhvəyi və dağ-çəmən torpaqlarla təmsil olunur. Düzənlik ərazilərində əkin sahələrinin, dağlıq ərazilərdə isə əsasən heyvandarlıq və meyvəçiliyin yaradılması üçün əlverişli şərait mövcuddur, Tarixən bu ərazilərdə taxılçılıq, üzümçülük, meyvəçilik, tərəvəzçilik və heyvandarlıq inkişaf etmişdir. Regional xüsusiyyətlər nəzərə alınmaqla bu sahələrin bərpası və müasir tələblərə uyğun inkişafı mümkündür. Füzuli rayonunda 2024-cü ildə 5 540,1 hektar sahədən 131 575,8 ton məhsul yığılmışdır ki, bu da orta hesabla 28,9 sentner/hektar məhsuldarlıq deməkdir. Buğda üzrə 32 250,9 ha sahədən 87 399,9 ton, arpa üzrə isə 13 167,7 ha sahədən 43 321,7 ton məhsul əldə edilmişdir. Arpa üzrə məhsuldarlıq 32,9 sentner/hektar təşkil etmişdir [7]. Araşdırmalardan aydın olur ki, 2023-cü ildə Ağdam rayonunda 15200 hektar payızlıq taxıl sahəsi mövcuddur və fermer təsərrüfatları 9926,5 hektar sahədən 40 min 10 ton məhsul əldə edib, hər hektarın məhsuldarlığı orta hesabla 40,3 sentner təşkil edir [6].

İşğaldan azad edilmiş ərazilərdə mülayim continental iqlimin mövcud olması bu ərazilərdə kənd təsərrüfatının müxtəlif istiqamətlərinin inikşafı üçün əlverişli imkan yaradır. Belə ki, bu bölgədə illik yağıntıların miqdarının 400–600 millimetr arasında dəyişməsi suvarma sistemlərinin tətbiqini zəruri edir. Lakin kənd təsərrüfatının məhsuldarlığının və davamlılığının artırılması məqsədilə suvarma sistemlərinin tətbiqi zəruridir. Bölgədə Tərtərçay, Həkəriçay, Bərgüşad və digər

çaylar regionun suvarma potensialını təmin edir və onların sularından səmərəli istifadə kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına geniş imkanlar yaradır. Məhz 2023-cü ildə Füzuli və Ağdam rayonlarında suvarılan ərazilərin sahəsi artdığı üçün, kənd təsərrüfatı məhsullarının məhsuldarlığında diqqət çəkəcək artım müşahidə olunmuşdur. Belə ki, Füzuli rayonunda suvarma altında olan torpaqların sahəsi 18 000 hektara çatmış, 2024-cü ilin ilk yarısında isə bu rəqəm 20 000 hektara yaxınlaşmışdır ki, bu da məhsuldarlıq göstəricilərində 30-40% artımın yaranmasına səbəb olmuşdur. Bu isə aqrar sahədə iqtisadi səmərəliliyin artmasına birbaşa təsir edir [5;6].

Lakin yuxarıda qeyd olunanlara baxmayaraq, suvarma sistemlərinin inkişafı və modernləşdirilməsi sahəsində əlavə tədbirlərin görülməsi zəruridir. Belə ki,suvarma infrastrukturu təkmilləşdirilməli, damcı suvarma və digər innovativ texnologiyalar tətbiq edilməlidir

Aqrar potensialdan istifadə səmərəliliyinin artırılması istiqamətləri. Qarabağ və Şərqi Zəngəzur bölgələrində kənd təsərrüfatında torpağın münbitliyinin qorunması və artırılması mühüm prioritetliyi torpaqların relyefi, iqlim şəraiti və təbii resursların xüsusiyyətləri ilə sıx bağlıdır. Bu zonalarda mütəmadi olaraq üzvi və mineral gübrələrin tətbiqi ilə yanaşı, torpaq strukturunu yaxşılaşdıran şumlanma sistemlərinin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Bu metodlar isə torpağın, suyun və havanın keçiriciliyini artıraraq, məhsuldarlığın davamlı yüksəlməsinə şərait yaradır. Bölgənin relyef xüsusiyyətləri nəzərə alınaraq kontur və zolaqlı əkin üsullarının tətbiqi torpaq eroziyasının qarşısını almağa kömək edir. Xüsusilə dağlıq və yamaclı ərazilərdə bu üsullar torpağın yuyulmasını minimuma endirərək uzunmüddətli torpaq münbitliyini təmin edir. Eyni zamanda, eroziya ilə mübarizə tədbirlərinin həyata keçirilməsi - məsələn, bəndlər və ya digər eroziya əleyhinə infrastruktur elementlərinin qurulması - bölgənin kənd təsərrüfatı potensialının səmərəli istifadəsinə xidmət edir.

GPS texnologiyaları, dronlar və sensor sistemləri vasitəsilə əkin sahələrinin davamlı monitorinqi gübrə və pestisidlərin optimal istifadəsinə, eləcə də məhsuldarlığın yüksəldilməsinə şərait yaradır. Suvarma sistemlərində damcı və yağış tipli metodların tətbiqi su resurslarına 40-60 faiz qənaət təmin edir və İoT əsaslı avtomatlaşdırılmış suvarma sistemləri torpağın rütubət səviyyəsini davamlı nəzarətdə saxlayır.

Enerji mənbələrinin alternativləşdirilməsi, yəni suvarma nasoslarının və anbarların işıqlandırılması üçün bərpa olunan enerji mənbələrinin tətbiqi iqtisadi səmərəliliyi artırmaqla yanaşı, ekoloji təmiz istehsalın inkişafına təkan verir.

İşğaldan azad olunmuş ərazilərin regional xüsusiyyətlərinin nəzərə alınması kənd təsərrüfatı sektorunun ixtisaslaşması və klasterləşdirilməsi üçün də zəmin yaradır. Belə ki, Füzuli-Cəbrayıl zonasında üzümçülük və şərabçılıq, Zəngilan zonasında isə heyvandarlıq və arıçılıq klasterlərinin formalaşdırılması regional iqtisadiyyatın canlanmasına və yerli resursların optimal istifadəsinə səbəb olacaqdır. Kiçik və orta fermer təsərrüfatlarının kooperativləşməsi isə texnika və resursların səmərəli istifadəsinə, istehsal xərclərinin azaldılmasına kömək edir.

Regionda elmi-tədqiqat fəaliyyətlərinin gücləndirilməsi və regional xüsusiyyətlərə uyğun sınaq stansiyalarının yaradılması yeni sort və hibridlərin inkişaf etdirilməsi, toxum istehsalının artırılması və yerli şəraitə adaptasiya olunmuş məhsuldar texnologiyaların tətbiqini təmin edir. Bu da uzunmüddətli perspektivdə kənd təsərrüfatının davamlı inkişafına əsas yaradır [8].

Ekiloji təmiz kənd təsərrüfatının təşkili təmiz ekoloji şəraitə malik ərazilərdə ixrac potensialını artırmaqla yanaşı, yerli bazarda yüksək keyfiyyətli məhsulların istehsalına şərait yaradır. Beynəlxalq sertifikatlaşdırma standartlarına uyğun istehsal isə məhsulların qlobal bazarlarda rəqabət qabiliyyətini artırır

Dövlət tərəfindən subsidiya, güzəştli kreditlər, vergi güzəştləri və lizinq mexanizmlərinin inkişaf etdirilməsi aqrar sahibkarlığın stimullaşdırılmasına mühüm töhfə verir. Eyni zamanda, kənd təsərrüfatı risklərinə qarşı sığorta mexanizmlərinin yaradılması fermerləri təbii fəlakətlər və digər risklər qarşısında qoruyur. Rəqəmsal bankçılıq xidmətləri vasitəsilə maliyyə resurslarına çıxışın asanlaşdırılması isə fermerlərin dayanıqlı fəaliyyətini təmin edir.

Kənd təsərrüfatı sektorunda davamlı inkişafın təmin edilməsi üçün risklərin idarə olunması mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, təbii fəlakətlər və digər gözlənilməz hallara qarşı fermerlərin müdafiəsini təmin edən sığorta mexanizmlərinin yaradılması vacibdir. Eyni zamanda,

fermerlərin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi məqsədilə rəqəmsal bankçılıq alətlərinin tətbiqi onların maliyyə resurslarına daha çevik və əlçatan şəkildə çıxmasına şərait yaradır.

İşğaldan azad olunmuş ərazilərdə aqrar potensialın reallaşdırılması isə ölkənin iqtisadi və sosial inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Bu istiqamətdə atılacaq addımlar bir sıra mühüm nəticələrə səbəb olacaq:

- ✓ Kənd təsərrüfatının Ümumi Daxili Məhsuldakı payının artması;
- ✓ İxrac imkanlarının genişlənməsi və valyuta axınlarının çoxalması;
- ✓ Yeni iş yerlərinin yaradılması və məşğulluq səviyyəsinin yüksəldilməsi;
- ✓ Regional iqtisadi fəallığın artması və infrastrukturun müasirləşdirilməsi;
- ✓ Kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması və rifahın yüksəlməsi;
- ✓ Kənd yerlərində sosial-iqtisadi dirçəlişin təmin edilməsi;
- ✓ Ətraf mühitin qorunması, ekoloji tarazlığın bərpası və bioloji müxtəlifliyin zənginləşdirilməsi;
- ✓ Təbii şəraitdə yetişdirilən, sağlam və ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı.

Nəticə

İşğaldan azad olunmuş ərazilərin aqrar potensialının səmərəli istifadəsi Azərbaycanın uzunmüddətli iqtisadi inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi və regional sabitliyin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyətə malikdir. Bu məqsədə nail olmaq məqsədilə sistemli və kompleks yanaşmanın tətbiqi zəruridir. Xüsusilə aşağıdakı istiqamətlər üzrə məqsədyönlü fəaliyyətlərin həyata keçirilməsi vacib hesab olunur:

- ✓ Əsas infrastrukturun (nəqliyyat, enerji, su təchizatı və s.) bərpası və müasirləşdirilməsi;
- ✓ Pilot layihələrin icrası və ilkin mərhələdə investisiyaların cəlb olunması;
- ✓ Resurslardan səmərəli istifadəni təmin edən müasir suvarma sistemlərinin qurulması;
- ✓ Aqrar klasterlərin təşkili və onların dayanıqlı inkişafı;
- ✓ Kənd təsərrüfatı məhsullarının dəyər zəncirində əlavə dəyər yaradan emal müəssisələrinin yaradılması;
- ✓ Aqrar sahədə innovativ texnologiyaların və rəqəmsal həllərin geniş tətbiqi;
- ✓ Beynəlxalq bazarlara çıxış imkanlarını genişləndirən ixrac yönümlü strategiyaların hazırlanması və icrası.

Bu ərazilərin aqrar inkişaf potensialından maksimum səmərəlilik əldə etmək üçün dövlət qurumları, özəl sektor nümayəndələri, elmi-tədqiqat institutları və beynəlxalq tərəfdaşlar arasında institusional əməkdaşlığın formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, müasir texnoloji yanaşmaların tətbiqi, innovasiyaların stimullaşdırılması və davamlı inkişaf prinsiplərinin inteqrasiyası işğaldan azad olunmuş əraziləri Azərbaycanın aqrar sektorunun avanqard regionlarından birinə çevirməyə real zəmin yarada bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il, №1386. https://president.az/az/articles/view/52389
2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərmanı. Bakı şəhəri, 29 yanvar 2019-cu il, №500.
3. Azərbaycan Respublikası Prezidentinin "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsinin təsdiq edilməsi haqqında" Fərmanı. Bakı şəhəri, 4 iyul 2022-ci il, №2148.
4. Azərbaycan Respublikası Prezidentinin "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsinin təsdiq edilməsi haqqında" Fərmanı. Bakı şəhəri, 4 iyul 2022-ci il, №2150.
5. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. (2022). Aqrar sektorun inkişafına dair

illik hesabat. Bakı.. https://agro.gov.az
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2023). Kənd təsərrüfatı məhsullarının istehsalı üzrə statistik göstəricilər. https://www.stat.gov.az
7. https://azadmedia.az/cemiyyet/112111-fuzuli-rayonunda-2024-cu-ild-knd-tsrrufatnn-yekunlarna-dair-statistik-qiymtlndirm.html?utm_source=chatgpt.com
8. Jones, P., et al. (2017). Development and Testing of New Crop Varieties for Sustainable Agriculture. Crop Science, 57(5), 2403-2411.

Айдан Фарман кызы Асланова
докторант,
aydan.aslanova.1991@bk.ru,
Азербайджанский Университет Кооперации

Вопросы повышения эффективности использования сельскохозяйственного потенциала оккупированных территорий

Резюме

Военная операция, начавшаяся в сентябре 2020 года и продолжавшаяся в течение 44 дней, завершилась восстановлением территориальной целостности Азербайджанской Республики и освобождением Карабахского и Восточно-Зангезурского экономических районов. Эти события ознаменовали собой начало нового этапа социально-экономического развития страны. Освобождение указанных территорий актуализировало необходимость их эффективной реинтеграции в национальную экономику, включая вовлечение в хозяйственный оборот богатых природных ресурсов и значительного аграрного потенциала. В данном контексте рассматриваемые регионы приобретают стратегическое значение с точки зрения обеспечения продовольственной безопасности, устойчивого расселения населения и стимулирования регионального экономического роста.

В этой связи изучение аграрного потенциала освобождённых территорий, оценка уровня их инвестиционной привлекательности, а также определение механизмов повышения эффективности их использования представляют собой приоритетное направление научных исследований. В настоящей научной статье предпринята комплексная оценка возможностей и перспектив рационального освоения аграрного потенциала данных регионов, с акцентом на внедрение инновационных подходов и обеспечение устойчивого развития.

Aydan Farman Aslanova
doctoral student,
aydan.aslanova.1991@bk.ru,
Azerbaijan Cooperation University

Issues of increasing the efficiency of using the agricultural potential of the occupied territories

Summary

The military operation that began in September 2020 and lasted for 44 days resulted in the restoration of the territorial integrity of the Republic of Azerbaijan and the liberation of the Karabakh and Eastern Zangezur economic regions. These events marked the beginning of a new stage in the country's socio-economic development. The liberation of these territories has underscored the urgent need for their effective reintegration into the national economy, particularly through the utilization of their abundant natural resources and substantial agricultural potential. In this context, the mentioned regions have acquired strategic importance in terms of ensuring food security, promoting sustainable resettlement, and stimulating regional economic revitalization.

In this regard, the study of the agricultural potential of the liberated territories, the assessment

of their investment attractiveness, and the identification of mechanisms to enhance the efficiency of their utilization represent a priority direction of scientific inquiry. The present research article provides a comprehensive evaluation of the opportunities and prospects for the rational development of the agricultural potential of these regions, with a particular focus on the implementation of innovative approaches and the promotion of sustainable development.

Fidan Namiq qızı MƏHƏRLİ
magistrant,
Telli Xələf qızı HACIYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARİNDA DAYANİQLİ İNKİŞAFİN TƏMİN EDİLMƏSİNDƏ KADR POTENSİALİNİN FORMALAŞDİRİLMASİ VƏ İDARƏ OLUNMASİ MƏSƏLƏLƏRİ

Giriş

Azərbaycanın iqtisadi inkişaf siyasətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına üstünlük verilir. Uzun müddət davam edən işğaldan sonra bu ərazilər hazırda sosial və iqtisadi infrastrukturun köklü şəkildə yenidən qurulması prosesindədir. Reabilitasiya prosesi təkcə fiziki infrastrukturun bərpasını deyil, həm də insan kapitalının inkişafını əhatə edir. Bu termin müasir bilik və bacarıqlara sahib olan və bölgənin sosial-iqtisadi sistemi daxilində fəaliyyət göstərə bilən insan resurslarının formalaşmasına aiddir. İdarəetmə, təhsil, ikoloji düşüncə və sosial məsuliyyət prinsiplərinə əsaslanan insan resurslarının inkişafı davamlı inkişafa nail olmaq üçün vacibdir. Bu, iqtisadiyyatda maddi istehsal sahəsinin böyüməsinə əlavə olaraq nəticədə Qarabağ və Şərqi Zəngəzurda bərpa işlərinin əsas istiqamətləri məşğulluq məsələləri, kadr siyasətinin həyata keçirilməsi və insan resurslarının region iqtisadiyyatına cəlb olunmasıdır.

Kadr potensialının dayanıqlı inkişafdakı rolu

Müasir iqtisadi inkişaf konsepsiyasına gəldikdə, insan kapitalı kritik bir komponent olaraq bənzərsiz bir mövqeye sahibdir. Dünya təcrübəsi göstərir ki, bir ölkənin və ya bölgənin iqtisadi tərəqqisi yalnız mövcud təbii ehtiyatlardan deyil, həm də bu mənbələri səmərəli idarə edə bilən və düşünülmüş ixtiraçılıq proseslərinə sahib olan insan resurslarından da asılıdır. Dünya Bankı və Birləşmiş Millətlər Təşkilatı tərəfindən nəşr olunan araşdırmalara görə, insan kapitalı sənayeləşmiş ölkələrin ümumi milli sərvətinin altmış ilə yetmiş faizini təşkil edir (Əliyeva,2023:4).

Başlamaq üçün hazırda bölgədə kənd təsərrüfatı, turizm və xidmət sektoru da daxil olmaqla sənayelərin yenidən təşkili var. Bu müəssisələri canlandırmaq üçün bizə müasir texnologiyalarla təchiz olunmuş yüksək ixtisaslı işçi qüvvəsi lazımdır.

İkincisi, qabaqcıl rəqəmsal idarəetmə sistemlərinin istifadəsi onlara xidmət edən işçilərdən müasir biliklər əldə etmələrini tələb edir. Üçüncüsü, yerli əhali üçün iş yerlərinin açılmasının əsas səbəbləri regionda sabitliyin qorunması və yerli əhalinin sosial rifahının artırılmasıdır.

Beləliklə, insan resurslarının yaradılması və bu resursların elmi əsaslarla səmərəli idarə olunması dayanıqlı iqtisadiyyatın qurulmasında, resurslardan səmərəli istifadənin təmin edilməsində və bölgənin sosial rifahının yüksəldilməsində mühüm rol oynayır. Yüksək ixtisaslı, vətənpərvər və məsuliyyətli mütəxəssislərin hazırlanması təkcə bu rayonların iqtisadi müstəqilliyinin artırılmasına kömək etmir, həm də Azərbaycanın ümumi inkişaf planına metodiki töhfə verir (Məhərrəmov, 2022:7).

Regionda kadr potensialının formalaşdırılması istiqamətləri

İnsan resurslarına gəldikdə, potensialından maksimum yararlanmaq üçün əmək bazarında təhsil və bacarıqların tələb olunması vacibdir. Bu məqsədə çatmaq üçün dövlət və özəl sektor əsasında əməkdaşlıq kontekstində regional məşğulluq təşəbbüslərinin hazırlanması vacibdir. Yeni firmaların yaradılmasına gəldikdə, bu tədbirlər yerli işçilərin çoxluq təşkil etməsini təmin etmək

məqsədi daşıyır. Məsələn, Laçın və Şuşada bərpa olunan turizm və xidmət obyektlərində yerli gənclərin məşğulluğu "yerli kadr – yerli inkişaf" konsepsiyasının real nümunəsi ola bilər. Buraya yerli icmadan olan uşaqların məşğulluğu daxildir. Bu üsul bölgə sakinlərinin sosial rifahını yaxşılaşdırır və daxili iqtisadi fəaliyyətini artırır ki, bu isə öz yerində ərazi daxilində baş verən iqtisadi dövriyyəni dəstəkləyir(Əliyeva,2023:4).

İndi Qarabağda və Şərqi Zəngəzurda reallşadırılan "ağıllı kənd" və "ağıllı şəhər" təşəbbüsləri yeni nəsil peşəkarların formalaşması üçün əhəmiyyətli perspektivlər açır. Onların əhəmiyyəti müasir iqtisadi artımın rəqəmsallaşma və yeniliklə sıx əlaqəli olması ilə əlaqədardır. Azərbaycanda ilk Smart Village layihəsi Zəngilan-Ağalı kəndindəki Smart Village layihəsidir. Bu layihədə bir sıra tərəfdaşlar, o cümlədən "Azrenergy", "Aztelecom", "Kənd Təsərrüfatı Nazirliyi" və "UNDP Azerbaijan"iştirak edir. Bu layihə çərçivəsində kənd təsərrüfatında rəqəmsal texnologiyalar, Alternativ enerji sistemləri və intellektual idarəetmə tətbiq olunur. Bu təşəbbüs işçilərə rəqəmsal və yaradıcı təcrübələr öyrətmək üçün canlı laboratoriya rolunu oynayır. Təşəbbüs 2022-2025-ci illər üçün nəzərdə tutulmuş "azad olunmuş ərazilərdə yaşıl enerji zonası" planına tabedir (OECD,2021:11). Bu təşəbbüs Masdar (Birləşmiş ərəb əmirlikləri), Aqua gücü (Səudiyyə Ərəbistanı) və BP kimi beynəlxalq investorlarla əməkdaşlığı əhatə edir. Bu əməkdaşlıq böyük əhəmiyyətə sahibdir, çünki o, insanların yaşıl iqtisadiyyat üzrə təlimini beynəlxalq təşkilatların təcrübəsinə daxil etməyə imkan verir. Regionda gənclər üçün sosial proqramların və məşğulluq imkanlarının təbliğinə gəldikdə, "Qarabağın dirçəlişi" Fondu ilə ASAN könüllüləri arasında əməkdaşlığın xüsusi əhəmiyyəti və dəyəri var. Sosial Məsuliyyət və könüllülük ideyalarına əsaslanan insan kapitalının yaradılmasının Praktik nümunəsi insan kapitalının formalaşması nümunəsi kimi qəbul edilən bu təcrübədir. Rəqəmsal texnologiya, analitik düşüncə və adaptiv idarəetmə qabiliyyətinə sahib olan işçilər bu təşəbbüsləri effektiv şəkildə həyata keçirmək üçün vacibdir (UNDP, 2023:10).

Bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq insan resurslarının inkişafına mühüm töhfə verən digər mühüm amildir. Xüsusilə, BMT-nin İnkişaf Proqramı (BMTİP) və Avropa İttifaqı (Aİ) "Vocation4reıntegration" (2023-2025) adlı layihə üzərində münaqişə nəticəsində zərər çəkmiş Qarabağ əhalisinə iş yerləri və təlim imkanları təqdim etməklə insan kapitalının bərpası məqsədi ilə əməkdaşlıq edirlər(UNDP,2023:10).

Qarabağ ərazisində peşə təhsili müəssisələrinin yaradılması və yerli əhalinin əmək bazarına uyğunlaşdırılması BMTİP və Avropa İttifaqı (Aİ) tərəfindən dəstəklənən bu təşəbbüsün həyata keçirilməsi sayəsində mümkün olub. Dünya Bankı tərəfindən maliyyələşdirilən "Azərbaycanda məşğulluğa dəstək layihəsi (2022-2026)" layihəsi ölkənin müxtəlif regionlarında məşğulluq və peşə hazırlığı proqramlarının maliyyələşdirilməsini təmin etmək məqsədi güdür. Bu layihənin məqsədi insan resursları potensialını inkişaf etdirmək və davamlı məşğulluq yaratmaq üçün gənclər və qadınlar üçün mövcüd olan təlim imkanlarının sayını artırmaqdır. Davamlı böyümənin əlavə bir vacib komponenti insan resurslarının idarə edilməsində sosial və ekoloji məsuliyyət konsepsiyalarının tətbiq edilməsidir (Azərbaycan Respublikasında “Digital informasiya və innovasiyalar” strategiyası, 2021:2).

Qarabağ və Şərqi Zəngəzurda aparılan kadr siyasətinə ekoloji yönümlü iqtisadiyyat, resurslardan səmərəli istifadə və ekoloji savadlılığın inkişafı ideyaları daxil edilməlidir. Bərpa olunan enerji layihələrində iştirak edən mütəxəssislər üçün ekoloji təhlükəsizlik, tullantıların idarə edilməsi və enerji səmərəliliyi təlimlərinin təşkili ilə bu mütəxəssislərin ekoloji şüur və peşə məsuliyyətinin artırılması arasında əlaqə mövcuddur. Beləliklə, bölgənin uzunmüddətli və davamlı inkişafı üçün əsas təhsil islahatları, məşğulluq təşəbbüsləri, texnoloji yeniliklər və sosial məsuliyyət prinsiplərinə əsaslanan idarəetmə modelidir. Bu islahatlar və innovasiyalar insan resurslarının inkişafı üçün Qarabağ və Şərqi Zəngəzurun iqtisadi bölgələrində tətbiq olunacaq.

Dövlət-özəl tərəfdaşlığının rolu

Həm Qarabağda, həm də Şərqi Zəngəzurda hazırda öz regionlarında əməkdaşlıq konsepsiyalarının praktiki həyata keçirilməsi müşahidə olunur. Məsələn, Qarabağda gənclərin ixtisasartırma kurslarına cəlb olunması peşə təhsili mərkəzlərinin və biznes sektorunun birgə yaradılması hesabına təmin edilir. Sonuncu məqsədə "Azəriqaz", "ARDNŞ" və "Azercell"kimi müəssisələrin

təcrübə proqramları vasitəsilə nail olunur. Hazırda Qarabağ bölgəsində energetika və İnformasiya texnologiyaları sahəsində fəaliyyət göstərən firmaların peşəkar təhsil müəssisələri ilə birgə təhsil proqramları həyata keçirilir. Bu proqramlar dövlət-özəl əməkdaşlıq çərçivəsində həyata keçirilir. "Azersun Holding" və "Agroservis" firmaları ilə əməkdaşlıqda yaradılan Zəngilan və Füzuli Kənd təsərrüfatı və aqroparkları yeni iş yerlərinin yaradılmasına cavabdehdir. Yerli əhalinin potensialının artırılmasına və yeni kənd təsərrüfatı bacarıqlarının inkişafına gəldikdə, aqropark modelləri vacib bir platforma rolunu oynayır (Hacıyev,2022:5).

Region gəncləri innovativ mərkəzlərin və startapların yaradılmasına, həmçinin sosial məsuliyyət prinsiplərinə əsaslanan müasir korporativ mühitin yaradılmasına töhfə verən belə əməkdaşlıq sayəsində öz praktiki bilik və bacarıqlarını genişləndirə bilərlər. Buna misal olaraq, tələbələrin Qarabağ və Şərqi Zəngəzurun təmir-tikinti müəssisələri, eləcə də ətrafdakı təhsil müəssisələri arasında yaranmış münasibətlər sayəsində real istehsal təcrübəsi əldə edə bilmələrini göstərmək olar. Bu əmekdaşlıq tələbələrin əmək bazarında çevik şəkildə inteqrasiya olunmasını təmin edir (Səfərov,2021:8).

Nəticə

Qarabağ və Şərqi Zəngəzurda davamlı inkişafa nail olmaq üçün insan resurslarının səmərəli formalaşdırılması və idarə olunması strateji əhəmiyyətə malikdir. Bu yerlərdə iqtisadi artıma səbəb olan amillərdən biri də infrastrukturun mövcudluğudur, lakin digər bir amil də yüksək ixtisaslı və ixtiraçı işçi qüvvəsinin hazırlanmasıdır. Bu prosesin əsası təhsil və peşə hazırlığı sisteminin modernləşdirilməsi, gənclərin əmək bazarına cəlb edilməsi və dövlət və özəl sektor arasında əməkdaşlıqdır. "Ağıllı kənd", "yaşıl enerji zonası" və ekoturizm kimi çoxsaylı təşəbbüslər insan kapitalının inkişafının bölgənin gələcək illərdə daha da canlı olmasını təmin etmək üçün vacib bir komponent olduğunu göstərdi.

Mövzuyla bağlı aşağıdaki təklifləri nəzərə ala bilərik:

- Qarabağ və Şərqi Zəngəzurda regional xarakterli insan kapitalı strategiyası hazırlanaraq cəmiyyətə təqdim edilməlidir.
- Mikro-kredit və startap tipli dəstək proqramları əhalinin əmək bazarına inteqrasiyası naminə daha da genişləndirilməlidir.
- Həm rəqəmsal bacarıqlar, həm də ekoloji savadlılıq ilə bağlı peşə təhsili mərkəzlərinin bünövrəsi qoyulmalıdır.
- Həm dövlət, həmdə özəl sektor əməkdaşlığına istinad edən praktiki xarakterli təlim laboratoriyaları (Smart Labs) yaradılmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında Məşğulluq Strategiyası (2019-2030).
2. Azərbaycan Respublikasında “Dijital informasiya və innovasiyalar” Strategiyası, 2021.
3. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı-“İnsan resurslarının idarə edilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında”,2020.
4. Əliyeva Ş.T.(2023) İnsan kapitalının idarə olunması və rəqəmsal iqtisadiyyatda yeni yanaşmalar.Bakı: ADİU Nəşriyyatı, 198 s.
5. Hacıyev R. İ. (2022) Regionlarda məşğulluq və insan resurslarının inkişafı strategiyası. Bakı: İqtisad Universiteti,240 s.
6. İsmayılov Ç., Abdullayev Ə., Qurbanova G. (2021) Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi (Azərbaycan modeli).Bakı: Elm və Təhsil, 212 s.
7. Məhərrəmov E. M. (2022) İnsan resurslarının idarə edilməsi: dərs vəsaiti. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti Nəşriyyatı, 276 s.
8. Səfərov V. N. (2021) İnsan resurslarının idarə edilməsində innovativ idarəetmə mexanizmləri. Bakı: Tədris Mərkəzi, 205 s.
9. Zeynalova E., İsmayılov Ç., Abdullayev Ə., Qurbanova G., Hüseynova X., Nağıyev F., Seyidzadə M., Həsənov A. (2018) Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli. Bakı, 252 səh.

10. UNDP. (2023). Sustainable Human Capital Development in Post-Conflict Regions: The Case of Karabakh. Baku: UNDP Azerbaijan, pp. 12–38.
11. OECD. (2021). Regional Development Policy Review: Promoting Sustainable Services in Post-Conflict Areas. Paris: OECD Publishing, pp. 55–83.

Фидан Намиг кызы Махарли
магистрант,
Телли Халаф кызы Гаджиєва
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Формирование и управление кадровым потенциалом в обеспечении устойчивого развития в Карабахском и Восточно-Зангезурском экономических районах

Резюме

В контексте карабахской и Восточно-Зангезурской экономических зон в этой статье рассматривается важность создания и управления человеческими ресурсами для обеспечения устойчивого экономического роста. Анализ проводится с целью оценки социально-экономического характера процессов реабилитации и реконструкции, особенностей рынка труда и качественных показателей человеческого капитала. Согласно информации, представленной в статье, одним из важнейших условий устойчивого роста является создание высококвалифицированных и изобретательных человеческих ресурсов, а также эффективное использование природных ресурсов. Для достижения этой цели необходимо провести крупномасштабные реформы в области образования, занятости и управления, а также улучшить сотрудничество между государственным и частным секторами.

Fidan Namig Maherli
master,
Telli Khalaf Hajiyeva
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Formation and management of human resource potential in ensuring sustainable development in the Karabakh and East Zangezur economic regions

Summary

In the context of the Karabakh and East Zangazur economic zones, this article examines the importance of creating and managing human resources to ensure continued economic growth. The analysis is carried out in order to assess the socio-economic nature of the rehabilitation and reconstruction processes, the characteristics of the labor market and the quality indicators of human capital. According to the data presented in the article, one of the most important conditions for sustainable growth is the rational use of natural resources, as well as the creation of highly qualified and inventive human resources. To achieve this goal, large-scale reforms should be carried out in the areas of education, employment and management, and cooperation between the public and private sectors should be improved.

Aysel Məhərrəm qızı İLYASOVA
magistrant,
Şakir Oruc oğlu SƏFƏROV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

LOGİSTİKADA İNNOVASİYALARIN TƏTBİQ EDİLMƏSİNİN ŞƏRQİ ZƏNGƏZURUN İQTİSADİ İNKİŞAFINDA ROLU

Giriş

Hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Prezident İlham Əliyev hər dəfə bu və ya digər rayona səfər edərkən görülən işlərlə tanış olur, hazır obyektlərin açılışını edir, yenilərinin təməlini qoyur.

Azərbaycan iqtisadiyyatının davamlı inkişafı innovativ müəssisələrin sayını artırmağa və ölkənin sosial inkişaf səviyyəsini yüksəltməyə yönəlmişdir. İnnovativ potensialı reallaşdırmaq üçün axın (nəqliyyat-tranzit, boru) proseslərinin səmərəli təşkili ölkə iqtisadiyyatının inkişafı üçün prioritet sahələrdən biridir. İqtisadiyyatın innovativ tipinin inkişafı istehsalın səmərəli fəaliyyətini artıran elm sahəsində yeniliklərin tətbiqinə əsaslanır. Bu gün elm və texnologiyanın böyük imkanlarını nəzərə alsaq, qlobal kompüterləşmə, ən yüksək texnologiyalar, yeniliklər müasir sivilizasiyanın inkişafında əsas vektordur. Azərbaycan iqtisadiyyatının davamlı innovativ inkişafına ehtiyac ölkənin əsas xüsusiyyətləri ilə müəyyən olunur. Buna uyğun ölkəmizin iqtisadi siyasəti innovativ müəssisələrin sayını artırmağa və ölkənin sosial inkişaf səviyyəsini yüksəltməyə yönəlmişdir. Son illərdə çoxtərəfli əməkdaşlığın, daxili və beynəlxalq ticarətin genişlənməsi, habelə Azərbaycanın qlobal dünya bazarına inteqrasiyası innovativ logistikaya ehtiyac yaradır.

İnnovativ logistikanın dərki. İnnovativ logistika, müştəri xidmətinin keyfiyyətinin yüksəldilməsinə, logistika proseslərinin səmərəliliyinin artırılmasına və müxtəlif xərclərin azaldılmasına yönəlmiş müxtəlif yeniliklərin istifadəsi ilə əlaqədar olaraq logistika proseslərinin idarəetmə səviyyəsinin yüksəldilməsi yolunu tutur.

İnnovativ logistika idarəetməni səmərəliləşdirərək, əlavə ehtiyatları müəyyənləşdirmək və istifadə etmək üçün istehsalda və digər strukturlarda axın proseslərinin cari və strateji idarəetməsinin təşkilində mütərəqqi innovasiyalara ehtiyacı və onların tətbiqi imkanlarını araşdırır.

İnnovativ logistika hər hansı bir axın prosesini rasional təşkil etməyə, idarəetmənin səmərəliliyini təhlil etməyə və qiymətləndirməyə, ehtiyatları müəyyənləşdirməyə və istifadə etməyə imkan verir və bununla da fəaliyyətin səmərəliliyinin artırılmasına kömək edir. Logistikanın bu istiqamətindən aşağıdakı vəzifələr meydana çıxır:

- yeni elmi ixtiraların tətbiqi ilə strateji idarəetmə və axın proseslərinin idarə olunması sahəsində yeni yanaşma və fikirlərin tədqiqi və inkişaf etdirilməsi;
- ölkələrin özünəməxsus iqtisadi xüsusiyyətləri nəzərə alınmaqla, innovativ logistikanın öyrənilməsində dünya təcrübəsindən istifadə;
- logistika sahəsində innovasiyalardan istifadənin metodoloji mexanizminin işlənib hazırlanması;
- logistika strukturları üçün standartların, o cümlədən yeni logistika sistemlərinin yaradılması əsasında müxtəlif proqramların hazırlanması;
- müxtəlif məqsədlər üçün logistik sistemlərin yeni formalarının tətbiqi.

İnnovativ logistik konsepsiyanın əsas müddəaları aşağıdakılardır:

- axın proseslərinin optimallaşdırılması vahid bir sistem və inteqrasiya olunmuş sistem dəsti mövqeyindən həyata keçirilir;
- innovativ istehsalın axın (qeyri-maddi, maddi, maliyyə və məlumat) prosesləri logistikada tədqiqat və transformasiya obyektləridir;
- tədqiqat və inkişafın hədəf funksiyası, inkişafın səmərəliliyini artırmaq üçün mövcud ehtiyatların axtarışı və maksimum dərəcədə səfərbər edilməsi yolu ilə müvafiq axınların optimallaşdırılmasını nəzərdə tutur.

İnnovativ logistikanın tətbiqi. Logistika sahəsinə innovasiyanı gətirmək deyil, həm də innovativ logistikanı inkişaf etdirmək lazımdır.

Bu hədəflərə çatmaq üçün innovasiyaların tətbiqi bir sıra əsas vəzifələri həll etməlidir:

1. Mütərəqqi idarəetmə sistemlərinin tətbiqi ilə logistika sistemlərinin idarəetmə səviyyəsinin artırılması və mürəkkəbliyinin azaldılması;
2. Logistika infrastrukturunun keyfiyyətinin daimi olaraq artırılması;
3. Yüksək səviyyəli və səmərəli logistika infrastrukturunun yaradılması;
4. Müştərilərə xidmət səviyyəsinin daimi olaraq yüksəldilməsi;
5. Həm sabit, həm də dəyişən logistika xərclərinin azaldılması;
6. İnzibati xərclərin optimallaşdırılması;
7. Kadrların inkişafı üçün müasir mütərəqqi metodların tətbiqi.

Logistikada innovasiyaların təcrübi tətbiqi müəssisə və təşkilatlarla yanaşı, məhsul və xidmətlərinin rəqabət qabiliyyətini artırmaq üçün güclü bir vasitə halına gəlir.

İnnovativ logistikanın idarə olunması məqsədilə müasir vasitələrin tətbiqi üçün əsas amil mənbələrin mövcudluğu deyil, onlardan istifadənin səmərəliliyidir ki, bu da çoxtərəfli əməkdaşlıq şəklində dövlət və biznes strukturlarının qarşılıqlı əlaqəsi ilə mümkündür. Buna görə də çoxtərəfli əməkdaşlığın inkişafı üçün şərtləri və istiqamətləri müəyyənləşdirməyə ehtiyac var.

Çoxtərəfli əməkdaşlıq logistikasının həyata keçirilməsində mühüm və perspektivli istiqamət müasir logistik metodların və innovasiyayönümlü texnologiyaların tətbiqi, innovativ layihələrin ekspertizası, xərclərin ekspert qiymətləndirilməsi və funksional nəqliyyat vasitələrinin optimallaşdırılması, onların iqtisadi monitorinqi, iqtisadi və texnoloji risklərin səviyyəsinin proqnozlaşdırılması və qiymətləndirilməsidir. Hal-hazırda, müasir logistik metodlar məlumatların saxlanması və işlənməsi üçün inteqrasiya olunmuş yanaşma tələb edir.

İnnovativ logistika idarəetməni rasionallaşdırmaq (optimallaşdırmaq) yolu ilə əlavə ehtiyatları müəyyən etmək və istifadə etmək üçün axın proseslərinin cari və strateji idarə edilməsinin təşkilinə mütərəqqi yeniliklərin tətbiqi ehtiyacını və imkanlarını öyrənmək üçün nəzərdə tutulmuş logistik fəaliyyətin ən aktual komponentidir.

Azərbaycan üçün logistikada innovasiyanın tətbiqi bir neçə səbəbə görə vacibdir:

- maddi-texniki fəaliyyət inteqrasiya olunur, çünki resurs axını istehsal yerindən hazır məhsulların istehlakına qədər mövcuddur;
- lazım olan məlumatları idarə etmək mümkündür;
- qeyri-maddi axınlar logistikaya daxil edilir ki, bu da onun innovativ proseslərə tətbiq olunmasının mümkünlüyünü müəyyənləşdirən əsas məqamdır.

Logistika innovasiyaları bütün inteqrasiya olunmuş və uyğunlaşdırılmış logistika kompleksində innovasiyaları nəzərdən keçirir və bununla əlaqədar olaraq mövcud olan vasitələrin (metodların, meyarların, göstəricilərin) əlavə edilməsini və inkişaf etdirilməsini təmin edir. Buraya maddi istehsalın və xidmətlərin təşkili, idarə edilməsində istifadə olunan maddi-texniki təchizat və onun struktur elementlərinin metodiki təminatı sahəsi, habelə logistika biznes proseslərində istifadə olunan əməliyyatların, fəaliyyətlərin və prosedurların təkmilləşdirilməsi daxildir.

Eyni zamanda, texniki vasitə və avadanlıqların mütəmadi olaraq yenilənməsi ehtiyacını yaşayan logistika innovasiyaları elmi-texniki tərəqqinin inkişafına fəal təsir göstərir ki, bu da istifadə olunan yeni texnika, texnologiya və materiallar sahəsində elmi-tədqiqat və təcrübə-konstruktor işlərini stimullaşdırır.

Logistikada tətbiq edilən texnologiyalar. Hazırda informasiya texnologiyalarının inkişafı və yayılması sosial-iqtisadi və istehsal-təsərrüfat fəaliyyətinin demək olar ki, bütün sahələrini, o cümlədən təhsil, peşəkar logistika mütəxəssislərinin hazırlanmasını əhatə edir.

Logistikada istifadə olunan informasiya texnologiyalarına daxil olan 3PL provayderinin praktikaya tətbiq edilməsi kifayət qədər effekt verir. Azərbaycanda da bunun tətbiqi həyata keçirilməkdədir. 3PL provayderi və ya logistik xidmətlərin provayderi (operatoru) müştərilər üçün hərtərəfli logistika xidmətləri göstərən təşkilatdır: daşıma, ekspeditorluq, anbar, gömrük rəsmiləşdirilməsi və s. 3PL abreviaturası "Üçüncü Tərəf Logistikası" deməkdir. Bu logistika funksiyalarının bir hissəsinin və ya hamısının logistik xidmət təminatçısı olan üçüncü tərəfə ötürülməsi deməkdir.

Çox vaxt nəqliyyat xidmətləri logistika provayderlərinə verilir. Adi yükdaşıyıcılardan fərqli olaraq, 3PL provayderləri müxtəlif növ nəqliyyat xidmətlərini sadəcə təmin etmirlər. Onlar malların göndərilməsi, qəbulu, göndərilməsi və anbarlarda saxlanması, malların sığortası, gömrük rəsmiləşdirilməsi, malların köçürülməsi və s. daxil olmaqla, tədarük zəncirində malların təşviqi üçün tələb olunan bütün işləri yerinə yetirirlər. Ən ciddi logistika operatorları beynəlxalq daşımalarda ixtisaslaşmışdır. Onlar şirkətdən təcrübə və xüsusi bilik tələb edir. 3PL ilə yanaşı, digər terminlər də fərqlənir: 1PL, 2PL, 4PL və hətta 5PL. Təbii ki, bu provayderlərin xidmət keyfiyyəti də fərqlənir.

Lakin 3PL istisna olmaqla, bütün səviyyələrdə logistik xidmət təminatçılarını ayırmaq məqsədə müvafiq hesab olunmur. Çünki 3PL sadəcə üçüncü tərəf logistikasıdır. Yəni, iki əsas tərəf - istehsalçı və istehlakçı ilə yanaşı, üçüncü - ilk ikisinə logistik xidmət göstərən şirkət var. Logistika xidmətləri bazarının tədqiqi göstərir ki, bir sıra ölkələrdə 3PL operatorları artıq işləyir, lakin əsasən FMCG sahəsində fəaliyyət göstərirlər.

Logistikada yeniliklərin başqa bir nümunəsi, yükün yerini və ya məzmununu izləməyə kömək edən RFID etiketləridir. Bu texnologiyaların istifadəsi logistika və gömrük rəsmiləşdirilməsi daxil olmaqla, xərclərin əhəmiyyətli dərəcədə azalmasına nail olmağa imkan verir.

RFID unikal texnologiya olmaqla malları müəyyən etmək və markalamaqda əvəzsiz yardımçıdır. RFID teqlərindən istifadə potensialı xüsusilə sənaye və anbar logistikasının təchizat zəncirlərinə nəzarət etmək üçün müəssisəyə böyük strateji faydalar gətirə bilər. Bununla belə, bu innovativ məhsulun tətbiqi sürəti Azərbaycanda hələ də azdır.

Əvvəla, qeyd etmək lazımdır ki, RFID-dən istifadə müəyyən, aydın şəkildə müəyyən edilmiş fəaliyyət sahəsi daxilində obyektlərin hərəkətinin monitorinqində xüsusilə effektivdir. Belə istifadənin canlı nümunəsi müəssisənin geri qaytarıla bilən qablaşdırmasının müəyyən edilməsidir. Bu zaman kompüter sistemləri avtomatik olaraq konteynerlərin sərfiyyatı və qaytarılmasının uçotunu aparır, halbuki istənilən vaxt obyektin hərəkətinin bütün mərhələlərini və onun müxtəlif daşımalarda iştirakını izləmək mümkündür. Hərəkət və emal mərhələlərinin keçməsi haqqında məlumat həm etiketin özündə, həm də müəssisə məlumat bazasında saxlanıla bilər. Obyektin keçdiyi ərazinin ölçüsünün əhəmiyyəti yoxdur: bu, ya ayrıca bir emalatxana, ya da bütövlükdə ölkə ola bilər. İstənilən halda, sistem qapalı qalır və geri dönmə vasitələri tam dövriyyədən keçərək başlanğıc nöqtəsinə qayıdırlar. Müəssisənin müəyyən bir ərazisində və ya kənarda nə qədər məhsulun olduğunu hər zaman təxmin etmək olar. Eyni zamanda malların dövriyyə sürəti, o cümlədən markalanmış əşyaların normal dövriyyə müddətindən artıq qaldığı barədə də təhlil aparıla bilir.

RFID identifikasiyası ilə vaxta qənaət bu yeniliyin yeganə faydası deyil. Real vaxt rejimində malların hərəkəti haqqında məlumatların alınması istehsal və logistika proseslərinin auditini keyfiyyətcə yeni səviyyədə təşkil etməyə imkan verir. Şirkət rəhbərliyi fəaliyyətin taktikasının qiymətləndirilməsində və onun yenidən nəzərdən keçirilməsində və tənzimlənməsində bu unikal imkanlardan faydalana bilir.

İstehsalın və logistikanın radiotezlik identifikasiyası ilə təchiz edilməsi yolunda bəzi maneələr kimi müəyyən tezlik diapazonundan istifadəyə icazə verən milli qanunvericiliyin uyğunsuzluğunu göstərmək olar. Hazırda RFID istifadəsində anbar logistikasında iki əsas standart üstünlük təşkil edir: 868 MHz-dən istifadə edən və Afrika, Avropa və o cümlədən Azərbaycanda istifadə olunan Avropa standartı və 915 MHz-ə hesablanan Amerika, Asiyada istifadə edilən Amerika standartı.

Mütərəqqi ictimaiyyət tərəfindən ciddi şəkildə irəli sürülən istehsalın modernləşdirilməsi ideyasına baxmayaraq, təəssüf ki, ölkəmizdə radiotezlik identifikasiyasından istifadə hələ də geniş yayılmayıb. RFID teqlərinin istifadəsi üzrə pilot layihələrin həyata keçirilməsi təcrübəsi göstərir ki, bizim sahibkarlar, bir qayda olaraq, hər hansı yeniliyin tətbiqindən heyrətamiz nəticələr gözləyirlər.

Araşdırmalar göstərir ki, bir çox tanınmış şirkətlər nəinki bu yeniliyi tətbiq edir, həm də onu özləri yaratmağa çalışırlar. Bu da fəaliyyətin spesfikliyi ilə bağlı olaraq daha çox effekt verir. Məsələn, Fransanın Savoye şirkəti qutuların məzmununa uyğun olaraq istənilən hündürlüyünü hesablayan və onları möhürləyən E-Jivaro qablaşdırma maşını hazırlayıb. Yeniliyi ilk təqdim edən Avropada fotoşəkillərin surətinin çıxarılması və internetdə saxlanması sahəsində nailiyyətləri ilə tanınan Photobox şirkəti olub.

Avstraliyanın Quattrolifts şirkəti emalatxanalarda, anbarlarda və tikinti meydançalarında şüşələri daşıya və yerləşdirə biləcək bir robot buraxıb. Bu cihazdan çəkisi 400 kq-a qədər və uzunluğu 4500 mm olan təbəqə şüşələrini daşımaq üçün istifadə etmək, həmçinin onu 4,5 m hündürlüyə qaldırmaq mümkündür. Ondan istifadə etmək üçün bir və ya iki işçi tələb olunur. Şüşə birbaşa yük maşınının rəfindən boşaldıla, daşına və pəncərə açılışlarında quraşdırıla bilər. Bundan əlavə, robotun özünü sökmək və yenidən quraşdırmaq asandır.

Hər bir anbar, hər bir istehsal və ya logistik proses və tədarük zənciri bir çox ümumi cəhətlərinə baxmayaraq, yalnız ona xas olan unikal xüsusiyyətlərə malik olan unikal canlı orqanizmdir. Yalnız yüksək texnoloji sistemlərin uğurla həyata keçirilməsində təcrübəyə malik həqiqi səriştəli mütəxəssislərlə məsləhətləşmələr şirkətə innovasiyalardan rəqabət üstünlüyü verə bilər.

Nəticə

Nəqliyyat-tranzit sektorunda, yük və sərnişin daşınması sahəsində innovativ logistikaya olan tələb bu daşımaların səmərəliliyi və optimallaşdırılması, nəqliyyat prosesinin informasiyalaşdırılması proseslərinin intensivləşdirilməsi vəzifələrinin artan mürəkkəbliyi ilə üzvi şəkildə əlaqəlidir. Ona görə də Azərbaycanda logistikanın texniki təchizatında innovativ texnologiyaların tətbiqi zəruridir. Logistika sahəsində innovativ texnologiyalar dünyada sürətlə inkişaf edir. Logistika xərclərini optimallaşdırmaqla şirkətlərin bazarda rəqabət qabiliyyətini artırmaq zərurəti ilə əlaqədar olaraq bu sahəyə investisiyaların həcminin artması gözlənilməndir. Apardığımız araşdırmalardan belə nəticəyə gələ bilərik ki, bir çox sahələr üçün innovativ logistika ölkəmizin iqtisadi potensialının artmasında mühüm amil kimi çıxış etməlidir. Azərbaycanda logistika sənayesinin innovativ inkişafı bu istiqamətin yüksək perspektivini nümayiş etdirə bilər. Bu sahədəki problemlərin aradan qaldırılması və ən yeni texnologiyaların maksimum istifadəsi Azərbaycanın qlobal innovativ logistika sənayesində aparıcı yerlərdən birini tutmasına imkan verəcəkdir. Bu proseslər xüsusi əhəmiyyətə malikdir və məhsulların keyfiyyətinə, dövlətimizin iqtisadi siyasətinin yaxşılaşdırılmasına və davam edən iqtisadi islahatların səmərəliliyinə birbaşa təsir göstərir.

ƏDƏBİYYAT

1. Mahmudova L.F. İnnovativ logistikanın ölkə iqtisadiyyatının inkişafına təsirinin qiymətləndirilməsi, Bakı, 2020, 380 s.
2. Воронов В.И., Воронов А.В. Основные элементы эволюции элементов цепи поставок в международной логистике ЛОГИСТИКА. Проблемы и решения. Международный украинский научно-практический журнал. 2013. 2. Украина. Харьков.
3. Петухов Д.В. Теоретические основы разработки стратегии развития национальной системы управления логистикой. Контроль. 2015.

Айсель Мухаррам кызы Ильясова
магистрант,
Шакир Орудж оглы Сафаров
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Роль внедрения инноваций в логистике в экономическом развитии Восточного Зангазура

Резюме

В статье рассматривается ведущая роль логистики в экономике, связанная с инновационной деятельностью. Обоснована необходимость применения инновационной логистики и изучены проблемы ее управления. Было отмечено, что каждый склад, производственный или логистический процесс и цепочка поставок представляют собой живой организм со своими уникальными характеристиками. Поэтому консультации с квалифицированными специалистами по применению высокотехнологичных систем могут дать

предприятию конкурентное преимущество в использовании инноваций.

Инновационные технологии в сфере логистики уже сейчас стремительно развиваются в мире. В Азербайджане повысить конкурентоспособность компаний на рынке можно за счет оптимизации логистических затрат. Инновационное развитие логистической отрасли в нашей стране может свидетельствовать о высоких перспективах этого направления. Поэтому в статье также рассматриваются вопросы оказания различных видов транспортных услуг провайдерами 3PL. В то же время еще одним примером инноваций в логистике является изучение RFID-меток, которые помогают отслеживать местонахождение или состав товара, возможности применения, преимущества.

Aysel Muharram Ilyasova
master,
Shakir Oruj Safarov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

The role of implementation of innovations in logistics in the economic development of Eastern Zangazur

Summary

The article discusses the leading role of logistics in the economy, associated with innovation. The necessity of using innovative logistics is substantiated and the problems of its management are studied. It was noted that each warehouse, production or logistics process and supply chain is a living organism with its own unique characteristics. Therefore, consultations with qualified specialists in the application of high-tech systems can give an enterprise a competitive advantage in the use of innovations.

Innovative technologies in the field of logistics are already rapidly developing in the world. In Azerbaijan, it is possible to increase the competitiveness of companies in the market by optimizing logistics costs. The innovative development of the logistics industry in our country may indicate high prospects for this direction. Therefore, the article also discusses the provision of various types of transport services by 3PL providers. At the same time, another example of innovation in logistics is the study of RFID tags, which help track the location or composition of goods, application possibilities, and benefits.

Aysun Zaur qızı NAĞIYEVA
magistrant,
Telli Xələf qızı HACIYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNDA RƏQABƏT MÜHİTİ VƏ DÖVLƏT TƏNZİMLƏMƏSİNİN TƏSİRİ

Azərbaycan Respublikası Şərqi Zəngəzur iqtisadi rayonunu (Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan və Cəbrayıl daxil olmaqla) 2021-ci ildə qüvvəyə minmiş yenidən işlənmiş iqtisadi regional bölgüyə uyğun olaraq yaradıb və ölkənin sosial-iqtisadi inkişafı üçün mühüm strateji əhəmiyyətə malikdir.Bu rayonun əsas məqsədi azad edilmiş regionlarda davamlı iqtisadi fəallığın bərpası, sahibkarlığın stimullaşdırılması və rəqabətli bazar mühitinin yaradılmasıdır.Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş Böyük Qayıdışa dair I Dövlət Proqramı (2022–2026) bu sahədə irimiqyaslı təşəbbüslər üçün zəmin yaradır. Dövlətin iqtisadi tənzimləmədə iştirakı infrastrukturun yenidən qurulması, investisiyaların cəlb edilməsi və bu proqram çərçivəsində biznes mühitinin formalaşdırılması üçün vacibdir.

Şərqi Zəngəzur iqtisadi rayonunun iqtisadi potensialı və struktur xüsusiyyətləri

Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın yeni iqtisadi-coğrafi bölgüsünə uyğun olaraq yaradılmış strateji əhəmiyyətli ərazidir. Bölgənin coğrafi mövqeyi, təbii ehtiyatların potensialı, iqlim xüsusiyyətləri və sosial-iqtisadi perspektivləri onu ölkənin iqtisadi inkişafına əhəmiyyətli töhfə verən prioritet zonaya çevirir. Bölgədəki iqtisadi fəaliyyət müxtəlifdir və təbii ehtiyatlardan istifadə etmək və yeni idarəetmə strategiyalarını tətbiq etmək üçün əhəmiyyətli potensiala malikdir.

Kənd təsərrüfatı və heyvandarlıq Şərqi Zəngəzur iqtisadi bölgəsinin ənənəvi və potensial davamlı sahələri hesab olunur. Şərqi Zəngəzur iqtisadi bölgəsi əkinçilik və heyvandarlığı ənənəvi və potensial olaraq davamlı sahələr hesab edir.

Kəlbəcər və Laçın rayonlarında filiz, qızıl və digər resurslar şəklində olan mineral sərvətlər regionun sənaye inkişafı üçün mühüm iqtisadi zəmin yaradır. Eyni zamanda, zəngin su ehtiyatları və dağ çayları hidroenerji istehsalını artırmaq üçün əhəmiyyətli perspektivlərə malikdir. Hidroenerji potensialından səmərəli istifadə ekoloji cəhətdən təmiz elektrik enerjisinin istehsalına və bölgədə "yaşıl iqtisadiyyat" modelinin tətbiqinə kömək edir (KOBİA,2023:4).

Üçüncü əsas sektor turizm və ekoturizmdir. Şərqi Zəngəzur təbii mühiti və mədəni irsi ilə fərqli bir bölgədir. Kəlbəcərin mineral bulaqları, Laçın dağ landşaftları, Qubadlı və Zəngilanın yaşıl rayonları ekoturizm və sağlamlıq turizmi üçün geniş imkanlar təklif edir. Bu azad edilmiş torpaqlarda milli irsin bərpası və mədəni turizm marşrutlarının yaradılması iqtisadi gəlir əldə etmək və milli kimliyin təşviqi üçün vacibdir.

Turizm brendlərinin inkişafına ("Yaşıl Zəngəzur", "Qarabağa səfər") və onların inteqrasiyasına diqqət yetirilir. Bu kontekstdə turizm brendlərinin ("yaşıl Zəngəzur", "Qarabağa səfər et") inkişafına və regionun dünya turizm sənayesinə daxil edilməsinə xüsusi diqqət yetirilir (“Azərbaycan 2030: sosial-iqtisadi inkişaf strategiyası”, 2021:1).

Dördüncü istiqamət nəqliyyat və logistika sistemlərinin inkişafına aiddir. Zəngəzur dəhlizinin yaradılması və bu rayonu ölkənin əsas iqtisadi mərkəzləri ilə birləşdirən yeni avtomobil yollarının inkişafı Şərqi Zəngəzuru Cənubi Qafqazda mühüm tranzit qovşağına çevirərdi. Bu inkişaf yalnız bölgənin xarici bazarlara çıxışını genişləndirməyəcək, həm də ticarətin artmasına yardım edəcəkdir.

Şərqi Zəngəzur iqtisadi rayonunda rəqabət mühitinin formalaşma mərhələsi və ona təsir edən amillər

Şərqi Zəngəzur iqtisadi regionunda rəqabət mənzərəsi bərpa və institusional aktivləşmə prosesindədir. Bölgənin iqtisadi quruluşunun əsas məqsədləri müharibədən sonrakı dövrdə iqtisadi fəaliyyətin canlandırılması, infrastrukturun bərpası və sahibkarlıq ekosisteminin yaradılmasıdır. Mövcud rəqabət mühiti bazar iqtisadiyyatının əsas prinsiplərinə deyil, hökumətin rəhbər və tənzimləyici siyasətinə əsaslanır.

Rəqabət mühitinin formalaşmasında rolu olan əsas elementləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

1. Dövlət həlledici rola sahibdir. Münaqişədən sonrakı dövrdə bölgənin iqtisadiyyatının bərpasında dövlətin iştirakı vacibdir. Hal-hazırda infrastruktur layihələri, sənaye parklarının yaradılması və kənd təsərrüfatı və sosial obyektlərin bərpası kimi iqtisadi fəaliyyətlərin əksəriyyəti dövlət proqramları və dövlət maliyyəsi (məsələn, ilk dövlət proqramı "böyük gəlir", KOM-lar, Sahibkarlığın İnkişafı Fondu və s.) vasitəsilə həyata keçirilir (KOBİA, 2024: 4).

2. Özəl sektorun fəaliyyəti məhduddur. Özəl sektorun investisiyalara marağının azalmasının səbəbləri kapital dövriyyəsinin aşağı səviyyəsi, bazarın açıqlığının tam olmaması və hüquqi və institusional tipli bazanın kifayət qədər inkişaf etməməsidir. Dövlət güzəştli kreditlərdən, vergi güzəştlərindən və azad iqtisadi zonaların, xüsusən Araz Vadisi iqtisadi zonasının yaradılmasından biznesi cəlb etmək üçün əhəmiyyətli stimul kimi istifadə etmişdir.

3. İnnovasiya və texnologiya mühüm rol oynayır. Müasir iqtisadi mühitdə rəqabət üstünlükləri ilk növbədə texniki nailiyyətlərin tətbiqi, rəqəmsal həllərin yayılması və yeni idarəetmə paradiqmalarının tətbiqi ilə təmin edilir. Şərqi Zəngəzurda bir neçə yeni şirkət "yaşıl enerji", "ağıllı kənd" və "ağıllı şəhər"prinsiplərinə uyğun olaraq rəqəmsal və ekoloji cəhətdən davamlı texnologiyaların tətbiqinə başlayıb.

4. Əmək bazarında ciddi dəyişikliklər baş vermişdir. Bölgədəki insanların uzun müddətli məşğulluğu və məcburi hərəkəti ixtisaslı işçi çatışmazlığına səbəb olmuşdur. Əmək bazarının struktur yenidən qurulması zamanı əsas məqsəd həm texniki, həm də idarəetmə səlahiyyətlərinə malik işçilər yetişdirmək idi. Dövlət və ticarət sektorları üçün birgə peşə təhsili proqramları bu sahədə çox vacibdir. Kadr potensialının artması rəqabət mühitinin keyfiyyətinə birbaşa təsir göstərir və istehsalın səmərəliliyini artırır (Kotler, Keller, 2016: 5).

Şərqi Zəngəzur iqtisadi zonasında rəqabət mühitinin yaradılması uzun və mürəkkəb bir prosesdir. Əvvəlcə dövlətin tənzimləyici rolu üstünlük təşkil edir, ardınca sonrakı mərhələlərdə stimullaşdırıcı və istiqamətləndirici funksiya gəlir. Bu metodologiya nəticədə bölgənin iqtisadi sabitliyini artıracaq, sahibkarlığı təşviq edəcək və Davamlı İnkişaf Planının həyata keçirilməsini asanlaşdıracaqdır.

Şərqi Zəngəzur iqtisadi rayonunda dövlət tənzimləməsinin funksiyaları və inkişaf istiqamətləri

Hal-hazırda dövlətin tənzimləyici fəaliyyəti həm iqtisadi proseslərin koordinasiyasına, həm də bazar mexanizmlərinin bərpasına kömək edir, eyni zamanda özəl sektorun böyüməsi üçün institusional əsaslar yaradır. Dövlət tənzimlənməsinin əsas mexanizmləri aşağıdakı sahələrə yönəldilmişdir.

1. İnfrastruktur siyasəti. Şərqi Zəngəzur iqtisadi zonasında iqtisadi yüksəlişin ilkin mərhələsi infrastrukturun inkişafı ilə ayrılmaz şəkildə bağlıdır. Yolların, elektrik xətlərinin, rabitə və su infrastrukturunun yenidən qurulması bölgənin iqtisadi inteqrasiyasının əsasını təşkil edir. Kənd təsərrüfatı infrastrukturunun - anbarların, emal güclərinin, logistika mərkəzlərinin yaradılması istehsal və bazar arasında səmərəli əlaqənin inkişafına kömək edir.

2. İnvestisiya strategiyası bölgənin iqtisadiyyatını canlandırmaq üçün çox vacibdir. Dövlət tərəfindən verilən vergi güzəştləri, azad xarakterli iqtisadi zonaların yaradılması və Araz Vadisi iqtisadi zonası kimi dövlət tərəfindən dəstəklənən layihələrin həyata keçirilməsi investorlar üçün daha əlverişli bir iqlimin yaradılmasına kömək edir.

3. Maliyyə və kredit yardımı. Dövlət iqtisadiyyatın idarə edilməsi vasitəsi kimi maliyyə institutları vasitəsilə sahibkarlığın maliyyələşdirilməsindən istifadə edir. Kiçik və Orta Müəssisələrin İnkişafı Agentliyi (KOB), Sahibkarlığın İnkişafı Fondu və Azerinvest platforması regiondakı müəssisələrə güzəştli kreditlər verir.

4. Sahibkarların təlimi və innovasiyaların stimullaşdırılması. Hökumət həmçinin startapları və innovativ kommersiya müəssisələrini tanıtmaq üçün texniki, metodoloji və tədris yardımı təklif edir. Bu məqsədlə sahibkarlar üçün bir neçə təlim proqramı, mentorluq təşəbbüsləri və innovasiya mərkəzləri mövcuddur (Əliyev, Quliyev, 2020:3).

İşğal olunmuş ərazilərdə iqtisadi mühitin bərpası uzun illər ərzində bir sıra obyektiv problemlər arasında aşağıdakı məhdudiyyətlər xüsusi diqqətə layiqdir:

1. İnfrastrukturu tam bərpa edə bilməmək və bəzi kənd təsərrüfatı bölgələrinin hərəkətsizliyi;
2. Özəl investisiyaların və xarici kapitalın davamlı aşağı səviyyəsi;
3. Yerli sahibkarlar arasında rəqabət mədəniyyətini və etik iş təcrübələrini inkişaf etdirə bilməmək;
4. Müasir rabitə və informasiya sistemlərinin natamam tətbiqi ilə birlikdə rəqəmsal və texnoloji infrastrukturun olmaması;
5. İqtisadi tənzimləmə ilə bazar mexanizmləri arasında tam şüurlu tarazlığın olmaması (Kotler, Keller, 2016:5).

Bu problemlərin tədricən həllinə yönəlmiş dövlət tənzimləməsinin əsası bərpa mərhələsindən stimullaşdırma mərhələsinə keçid olmalıdır. Bu strategiya bazar iqtisadiyyatına xas olan prosesləri qoruyarkən davamlı və rəqabətli bir iqtisadi sistem yaratmağa kömək edəcəkdir.

Nəticə

Məqsədyönlü dövlət nəzarəti gənc statusuna baxmayaraq Şərqi Zəngəzur iqtisadi zonasının rəqabət mənzərəsini kökündən formalaşdırır. İnfrastrukturun bərpası, investisiyaların təşviqi və sahibkarlığa kömək bölgədəki iqtisadi fəaliyyətin canlanmasına kömək edir. Uzunmüddətli

perspektivdə iqtisadi davamlılıq və rəqabət qabiliyyəti yalnız özəl sektorun iştirakı, bazar prinsiplərinin möhkəmləndirilməsi və yeni idarəetmə metodlarının tətbiq olunması vasitəsilə əldə edilə bilər. Buna görə də, növbəti mərhələdə dövlət tənzimləməsinin funksiyası nəzarət deyil, rəhbərlik və stimullaşdırma olmalıdır.

Şərqi Zəngəzur iqtisadi bölgəsində rəqabət mühitinin davamlı inkişafı üçün aşağıdakı sahələrin prioritetliyi üçün rəqəmsal iqtisadiyyatın tətbiqi və elektron xidmətlərin təkmilləşdirilməsi, xüsusən idarəetmə və bazar proseslərinin rəqəmsallaşdırılması, yaşıl enerji layihələrinin həyata keçirilməsi və bərpa olunan enerjidən istifadə etməklə regional enerji bazarının yaradılması, bölgənin beynəlxalq iqtisadi münasibətlərə inteqrasiyasını sürətləndirmək üçün turizm və logistika qruplarının inkişafı, kiçik və orta müəssisələr sektorunun (KOB) genişləndirilməsi və innovativ sahibkarlığın təşviqi, xarici investorlar üçün ədalətli rəqabət şəraitinin təmin edilməsi və hüquqi və institusional bazanın sabitləşdirilməsi şərtdir.

Nəticə etibarilə, dövlət tənzimlənməsi tədricən strateji istiqamətləndirici funksiyadan dəstəkləyici və stimullaşdırıcı rola keçəcək, Şərqi Zəngəzurun sosial-iqtisadi inkişafında balanslaşdırılmış bazar münasibətlərinin qurulmasına töhfə verəcəkdir.

ƏDƏBİYYAT

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf strategiyası". Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiqlənmiş sənəd, 2021.
2. "Böyük Qayıdışa dair I Dövlət Proqramı (2022–2026)". Azərbaycan Respublikası Nazirlər Kabineti, 2022.
3. Əliyev Ə., Quliyev Q. *Regional iqtisadi inkişaf və idarəetmə problemləri*, Bakı, 2020.
4. KOBİA illik hesabatı, 2024.
5. Kotler P., Keller, K. *Marketing Management*, Pearson Education, 2016.

Айсун Заур кызы Нагиева
магистрант,
Телли Халаф кызы Гаджиєва
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Конкурентная среда и влияние государственного регулирования в Восточно-Зангезурском экономическом районе

Резюме

В статье рассматривается формирование существующей конкурентной среды в Восточно-зангезурской экономической зоне и влияние государственного регулирования в этой области. В статье рассмотрен экономический потенциал региона, пути его восстановления и роста, а также то, как государство может способствовать установлению рыночных отношений. Полученные результаты показывают, что меры государственного регулирования в постконфликтный период создают благоприятную среду для конкуренции, но для развития стабильной и беспрепятственной конкуренции очень важно активное участие частного сектора.

Aysun Zaur Naghieva
master,
Telli Khalaf Hajiyeva
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Competitive environment and the impact of government regulation in the East Zangezur economic region

Summary

The article examines the formation of the existing competitive environment in the East Zangezur Economic Zone and the impact of government regulation in this area. The article examines

the economic potential of the region, the ways of its recovery and growth, as well as how the state can promote the establishment of market relations. The results show that government regulatory measures in the post-conflict period create a favorable environment for competition, but the active participation of the private sector is very important for the development of stable and unhindered competition.

İsgəndər Müşviq oğlu İMANOV
magistrant,
Mehrəli Məmməd oğlu FƏRZƏLİYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Memarlıq və İnşaat Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA İNVESTİSİYA LAYİHƏLƏRİNİN XİDMƏT SEKTORUNA TƏSİRİ

Giriş

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın yeni sosial-iqtisadi inkişaf mərhələsinə daxil olub. Azad edilmiş ərazilərdə həyata keçirilən iri miqyaslı investisiya layihələri regionun iqtisadi strukturunun formalaşmasında mühüm rol oynayır. Xüsusilə xidmət sektorunun – turizm, nəqliyyat, logistika, ticarət və kommunal xidmətlərin – dirçəlişi bu layihələrin səmərəliliyindən asılıdır. Dövlət tərəfindən qəbul edilmiş "Böyük Qayıdış" proqramı, infrastrukturun bərpası və investorlar üçün yaradılan vergi güzəştləri regionun iqtisadi aktivliyini artırır.

***

İnvestisiya layihələri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi dirçəlişinin əsas hərəkətverici qüvvəsidir. Azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri yalnız fiziki infrastrukturun deyil, həm də xidmət sektorunun dayanıqlı inkişafını təmin etməyə yönəlmişdir. Bu baxımdan, dövlət tərəfindən reallaşdırılan infrastruktur layihələri – avtomobil və dəmir yollarının çəkilməsi, hava limanlarının istifadəyə verilməsi, enerji və rabitə xətlərinin bərpası – xidmət sektorunun digər sahələrinə də güclü təkan verir.

Xidmət sektorunun ən sürətlə inkişaf edən istiqamətlərindən biri turizmdir. Qarabağ və Şərqi Zəngəzurda yerləşən təbii və tarixi məkanlar – Şuşa, Hadrut, Laçın, Kəlbəcər və Zəngilan – böyük turizm potensialına malikdir. İnfrastrukturun bərpası və təhlükəsizliyin təmin olunması nəticəsində bölgəyə daxili və xarici turist axınının artacağı gözlənilir. Dövlət Turizm Agentliyinin məlumatına əsasən, 2025–2030-cu illər üzrə strateji plan çərçivəsində regionda ekoturizm, dağ turizmi və mədəni irs turları üzrə xüsusi proqramların hazırlanması nəzərdə tutulur. Bu, xidmət sektorunda minlərlə yeni iş yerinin açılmasına və əhalinin sosial rifahının yüksəlməsinə şərait yaradacaq.

Nəqliyyat və logistika sahəsində aparılan işlər də regionun iqtisadi strukturunun formalaşmasında mühüm əhəmiyyət daşıyır. Xüsusilə, Zəngəzur dəhlizi kimi strateji layihə Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya sistemində rolunu gücləndirəcək və xidmət sektoruna yeni investisiyaların cəlb edilməsini stimullaşdıracaq. Bu dəhliz vasitəsilə Azərbaycan Türkiyə, İran və Mərkəzi Asiya ölkələri ilə birbaşa əlaqə əldə edəcək ki, bu da ticarət və logistika xidmətlərinin həcmini əhəmiyyətli dərəcədə artıracaq.

Maliyyə və bank xidmətlərinin inkişafı da regionun iqtisadi fəallığı üçün vacib amildir. Yeni iqtisadi zonalarda fəaliyyət göstərən sahibkarlar üçün kreditləşmə, sığorta və konsaltinq xidmətlərinin genişləndirilməsi investisiya mühitini daha cəlbedici edir. Dövlət-özəl tərəfdaşlığı modeli çərçivəsində bu sahədə bir sıra layihələr həyata keçirilir. Məsələn, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə yaradılan "Qarabağ İnvestisiya Fondu" xidmət sektoruna yönəlmiş layihələrin maliyyələşdirilməsində mühüm rol oynayır.

Kommunal və sosial xidmətlərin inkişafı da regionun həyat keyfiyyətini müəyyən edən əsas amillərdəndir. Elektrik enerjisi, su təchizatı, təhsil, səhiyyə və sosial infrastrukturun müasirləş-

dirilməsi həm əhalinin yaşayış səviyyəsini yaxşılaşdırır, həm də xidmət sahəsində yeni biznes imkanları yaradır. Bu prosesdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin xüsusi rolu vardır. Bu konsepsiyalar çərçivəsində rəqəmsal texnologiyaların tətbiqi nəticəsində xidmətlərin göstərilmə keyfiyyəti artır, idarəetmə xərcləri azalır və səmərəlilik yüksəlir.

Eyni zamanda, xidmət sektorunun inkişafı regionda iqtisadi diversifikasiyanın təmin edilməsinə xidmət edir. Neft-qazdan asılılığın azaldılması istiqamətində atılan addımlar, xüsusilə turizm, ticarət, informasiya texnologiyaları və təhsil kimi sahələrin stimullaşdırılması Qarabağ və Şərqi Zəngəzuru Azərbaycanın yeni iqtisadi inkişaf mərkəzinə çevirə bilər.

Nəticə

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən investisiya layihələri regionun xidmət sektorunun bərpası və inkişafı üçün mühüm iqtisadi baza yaradır. İnfrastrukturun müasirləşdirilməsi, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və turizm potensialının artırılması nəticəsində regionun uzunmüddətli iqtisadi dayanıqlığı təmin olunacaq.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (2024). Böyük Qayıdış proqramı üzrə hesabat.
2. Dövlət Statistika Komitəsi. (2023). Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi göstəriciləri.
3. Əliyev, İ. (2022). Post-münaqişə dövründə regional inkişaf strategiyası. Bakı: Elm nəşriyyatı.
4. World Bank (2024). Post-conflict regional development in South Caucasus. Washington, D.C.
5. OECD (2023). Public-Private Partnerships for Regional Growth.

Искандер Мушвиг оглы Иманов
магистрант,
Мехрали Мамед оглы Фарзалиев
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Архитектуры и Строительства

Влияние инвестиционных проектов в Карабахе и Восточном Зангезуре на сферу услуг

Резюме

В статье рассматривается влияние инвестиционных проектов, реализуемых в экономических районах Карабах и Восточный Зангезур, на сферу услуг. Анализируется развитие туризма, транспорта, логистики и торговли в условиях послевоенного восстановления. Особое внимание уделено роли государственно-частного партнёрства в обеспечении устойчивого экономического роста региона.

Isgander Mushvig Imanov
master,
Mehrali Mammad Farzaliyev
doctor of philosophy in economics, associate professor,
Azerbaijan University of Architecture and Construction

The impact of investment projects in Karabakh and Eastern Zangazur on the service sector

Summary

This article analyzes the impact of investment projects implemented in the Karabakh and East Zangezur economic regions on the service sector. It examines the dynamics of development in tourism, transport, logistics, and trade sectors during the post-conflict reconstruction period. The paper highlights the contribution of public-private cooperation to regional economic growth and outlines prospects for sustainable development.

Babək Yalçın oğlu KAZIMOV
magistrant,
Ramil Məhəmmədəli oğlu ƏLİYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Memarlıq və İnşaat Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TƏBİƏTDƏN İSTİFADƏNİN İQTİSADİ VƏ SOSİAL PROBLEMLƏRİ

Giriş

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın strateji və iqtisadi baxımdan əhəmiyyətli bölgələridir. Bu ərazilərdə torpaq, su, meşə və mineral ehtiyatlar yüksək potensiala malikdir. Lakin uzun müddətli münaqişələrdən sonra resursların səmərəli istifadəsi və iqtisadi infrastrukturun bərpası sosial və iqtisadi problemlərlə müşayiət olunur. Həmçinin, yerli əhalinin regiona geri qayıtması və məşğulluq imkanlarının yaradılması əlavə çətinliklər yaradır. (Şabanov, 2018:12)

İqtisadi problemlər: Regionda kənd təsərrüfatı sahələrinin bərpası hələ də çətinliklərlə üzləşir. Torpaq sahələrinin qeyri-bərabər bölgüsü, müasir texnologiyaların olmaması və investisiyaların məhdudluğu məhsuldarlığın aşağı olmasına səbəb olur. Sənaye müəssisələrinin bərpası və yeni iş yerlərinin yaradılması regionun iqtisadi canlanması üçün vacibdir. Eyni zamanda, yerli biznesin dəstəklənməsi və kiçik və orta sahibkarlığın inkişafı uzunmüddətli iqtisadi stabilliyin təminatıdır. (Əliyev, 2020:45)

Sosial problemlər: İqtisadi bərpa ilə yanaşı, sosial problemlər də həlledici rol oynayır. Əhalinin regiona geri qayıtması infrastrukturun kifayət qədər olmaması, təhsil və səhiyyə xidmətlərinin məhdudluğu və məşğulluq imkanlarının çatışmazlığı ilə çətinləşir. Habelə, məcburi köçkünlərin yerləşdirilməsi və sosial dəstək proqramlarının yaradılması sosial stabilliyi qorumaqda əhəmiyyətlidir. Sosial siyasət və yerli icra hakimiyyətlərinin dəstəyi ilə bu problemlərin həlli mümkündür. (Məmmədov, 2019:33)

Nəticə

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı üçün resursların səmərəli istifadəsi, iqtisadi və sosial siyasətlərin inteqrasiyası vacibdir. Yerli və beynəlxalq investisiyaların cəlb edilməsi, infrastrukturun inkişafı, sosial dəstək və məşğulluğun artırılması regionda davamlı inkişafı təmin edə bilər. Bu tədbirlər həm iqtisadi stabilliyi, həm də əhalinin sosial rifahını artırır.

ƏDƏBİYYAT

1. Əliyev R. (2020). Regional iqtisadi inkişaf problemləri. Bakı: Elm.
2. Məmmədov S. (2019). Sosial siyasət və əhali rifahı. Bakı: "Qanun" Nəşriyyatı.
3. Şabanov T. (2018). Azərbaycanın iqtisadi rayonları. Bakı: Nurlan.

Бабек Ялчин оглы Кязимов
магистрант,
Рамиль Махаммедали оглы Алиев
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Архитектуры и Строительства

Экономические и социальные проблемы природопользования в Карабахском и Восточно-Зангазурском экономических районах

Резюме

Статья подробно рассматривает экономические и социальные проблемы в Карабахском и Восточно-Зангезурском экономических районах. Обсуждаются управление ресурсами,

региональное развитие, проблемы занятости и последствия постконфликтного восстановления. Предлагаются практические рекомендации для устойчивого экономического роста и социальной стабильности.

Babek Yalchin Kazimov
master,
Ramil Mahammadali Aliyev
doctor of philosophy in economics, associate professor,
Azerbaijan University of Architecture and Construction

Economic and social problems of nature use in the Karabakh and Eastern Zangazur economic regions

Summary

This article explores in detail the economic and social challenges in the Karabakh and Eastern Zangezur economic regions. It discusses resource management, regional development, employment issues, and the impact of post-conflict recovery. The study provides practical recommendations for sustainable economic growth and social stability.

Lamiyə Mübariz qızı AYDINLI
müəllim,
aydinli.lamiye@bk.ru,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TƏBİƏT VƏ İQTİSADİYYATIN QARŞILIQLI ƏLAQƏSİ

Qarabağ və Şərqi Zəngəzur bölgələri torpaq, su, meşə və faydalı qazıntılar baxımından ölkənin ən zəngin ərazilərindən sayılır. Bu sərvətlərin iqtisadi dövriyyəyə cəlb olunması regionun sosial-iqtisadi inkişafına birbaşa təsir göstərir. Kənd təsərrüfatı üçün münbit torpaqların, enerji istehsalı üçün günəş və külək resurslarının mövcudluğu regionda yaşıl iqtisadiyyat modelinin tətbiqinə imkan yaradır. Bu isə həm istehsalın ekoloji cəhətdən təhlükəsizliyini təmin edir, həm də uzunmüddətli iqtisadi səmərə yaradır.

İqtisadi inkişaf prosesi təbii mühitə təsirsiz ötüşmür. Yeni sənaye obyektlərinin tikintisi, infrastruktur layihələri və torpaqların intensiv istifadəsi ekoloji mühitdə dəyişikliklərə səbəb ola bilər. Buna görə də regionda həyata keçirilən bütün iqtisadi layihələrdə ekoloji tələblərin qorunması, resursların səmərəli idarə edilməsi və davamlı inkişaf prinsiplərinə riayət olunması vacibdir.

Qarabağ və Şərqi Zəngəzurda iqtisadi fəaliyyətin təbiətlə uyğun şəkildə aparılması həm ətraf mühitin mühafizəsinə, həm də iqtisadi dayanıqlığa xidmət edir. Təbiət və iqtisadiyyat arasındakı qarşılıqlı əlaqə təkcə istehsal proseslərində deyil, həm də sosial sahədə özünü göstərir. Regionun təbii potensialı əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə, kənd təsərrüfatının bərpasına, turizmin inkişafına və ümumilikdə sosial rifahın artmasına şərait yaradır.

Müasir dövrdə iqtisadi inkişafla təbiət arasında qarşılıqlı əlaqə dünya ölkələrinin inkişaf siyasətində əsas istiqamətlərdən birinə çevrilmişdir. Təbiət resursları iqtisadiyyatın təməl elementidir. Onlar istehsal prosesinin başlanğıc nöqtəsini təşkil edir, eyni zamanda iqtisadi fəaliyyətin nəticələri təbii mühitə birbaşa təsir göstərir. Azərbaycanın iqtisadi rayonları, xüsusilə Qarabağ və Şərqi Zəngəzur, bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Uzun illər davam etmiş işğal nəticəsində bölgələrin təbii ehtiyat potensialı zərər görsə də, hazırda aparılan bərpa və inkişaf tədbirləri həmin ərazilərdə iqtisadiyyatla təbiət arasındakı tarazlığın bərpasını hədəfləyir. Bu əlaqənin düzgün qurulması həm iqtisadi səmərəlilik, həm də ekoloji təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir. Təbiət iqtisadi inkişafın mühüm hərəkətverici

qüvvəsidir. Torpaq, su, meşə, enerji və faydalı qazıntılar kimi resurslar iqtisadi fəaliyyətin əsas bazasını təşkil edir. Qarabağ və Şərqi Zəngəzur bölgələrinin təbii-iqlim şəraiti kənd təsərrüfatı, sənaye, turizm və energetika kimi sahələrin inkişafı üçün əlverişli zəmin yaradır.

Bu regionlarda torpaq ehtiyatlarının münbitliyi, bol su mənbələrinin mövcudluğu və zəngin flora-fauna potensialı iqtisadi artım üçün vacib amillərdəndir. Eyni zamanda, günəş və külək enerjisi resurslarının mövcudluğu bərpa olunan enerji sektorunun inkişafını stimullaşdırır. Bu da "yaşıl iqtisadiyyat" modelinin tətbiqini asanlaşdırır, ekoloji təmiz istehsal mühitinin formalaşmasına kömək edir.

Təbiət resurslarının düzgün idarə edilməsi regionda kənd təsərrüfatının bərpasına, ekoloji cəhətdən təmiz ərzaq məhsullarının istehsalına, yerli əhalinin məşğulluğunun artmasına və ixrac potensialının yüksəlməsinə şərait yaradır. Bu baxımdan, təbii ehtiyatların idarə olunması təkcə iqtisadi səmərəlilik deyil, həm də sosial sabitlik amilidir. İqtisadi inkişaf prosesində təbiət resurslarından intensiv istifadə ekoloji tarazlığın pozulmasına səbəb ola bilər. İnfrastruktur layihələri, yeni sənaye müəssisələrinin tikintisi, torpaqların əkintiyə cəlb olunması və faydalı qazıntıların hasilatı ətraf mühitdə müəyyən dəyişikliklər yaradır.

Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri zamanı əsas məqsəd bu proseslərin ekoloji dayanıqlıq prinsiplərinə uyğun həyata keçirilməsidir. İnkişaf strategiyalarında "yaşıl enerji zonası", "ekoloji kəndlər", "ağıllı şəhər" konsepsiyalarının tətbiqi bu məqsədə xidmət edir. Təbiət və iqtisadiyyat arasındakı əlaqə təkcə istehsal resursları səviyyəsində deyil, həm də insan həyatının sosial yönlərində özünü göstərir. Təbii resurslardan səmərəli istifadə yeni iş yerlərinin yaradılmasına, kənd təsərrüfatının bərpasına, turizm potensialının artmasına və regionlarda əhalinin rifah səviyyəsinin yüksəlməsinə gətirib çıxarır.

Xüsusilə ekoturizmin inkişafı həm təbiətin qorunmasına, həm də əhalinin gəlir mənbələrinin diversifikasiyasına xidmət edir. Qarabağ və Şərqi Zəngəzurda "yaşıl turizm", "dağ turizmi" və "tarixi-ekoloji marşrutlar"ın yaradılması həm iqtisadi fəallığı artırır, həm də ekoloji maarifləndirməni gücləndirir.

Təbiətdən düzgün istifadə regionun sosial sabitliyinə də müsbət təsir göstərir. Əhali üçün yeni kənd təsərrüfatları, enerji layihələri və xidmət sahələri yaradıldıqca həm məşğulluq səviyyəsi artır, həm də ekoloji məsuliyyət şüuru formalaşır.

Davamlı inkişaf və gələcək perspektivlər

Qarabağ və Şərqi Zəngəzurun bərpa prosesində əsas məqsəd yalnız iqtisadi artımı təmin etmək deyil, həm də bu artımın ekoloji və sosial baxımdan davamlı olmasını reallaşdırmaqdır.

Təbiət və iqtisadiyyat arasında harmoniyanın qorunması uzunmüddətli inkişafın təməlidir. Bunun üçün aşağıdakı istiqamətlər prioritet sayılır:

- Təbii resurslardan istifadənin planlı və elmi əsaslarla idarə olunması;
- Bərpa olunan enerji mənbələrinin iqtisadiyyata inteqrasiyası;
- Ekoloji normativlərin və nəzarət mexanizmlərinin gücləndirilməsi;
- Əhalinin ekoloji maarifləndirilməsi və təbiətin mühafizəsində ictimai iştirakın artırılması;
- Regional iqtisadiyyatın diversifikasiyası və "yaşıl məşğulluq" imkanlarının genişləndirilməsi.

Bu istiqamətlərin həyata keçirilməsi nəticəsində Qarabağ və Şərqi Zəngəzur təkcə iqtisadi baxımdan deyil, həm də ekoloji cəhətdən nümunəvi inkişaf zonalarına çevrilə bilər.

ƏDƏBİYYAT

1. Əsgərov M.M. Azərbaycanın təbii-coğrafi şəraiti və iqtisadi inkişaf istiqamətləri. Bakı, 2021
2. Süleymanov A.İ. Regional inkişaf və təbii resursların səmərəli istifadəsi. Bakı, 2022
3. Rəhimov N.A. Azərbaycanın azad olunmuş ərazilərinin bərpasında ekoloji və iqtisadi prioritetlər. Bakı. 2022
4. Məmmədli T.R. Azərbaycanın iqtisadi coğrafiyası: təbii ehtiyatlar və təsərrüfat sahələri.
5. İsgəndərov E.N. Təbiət və təsərrüfat sistemlərinin qarşılıqlı təsiri. Bakı, 2018.

Ламия Мубариз кызы Айдынлы
преподаватель,
aydinli.lamiye@bk.ru
Азербайджанский Университет Кооперации

Взаимодействие природы и хозяйства в карабахском и восточно-зангезурском экономических районах

Резюме

Одним из основных столпов экономического развития является наличие природных ресурсов и их эффективное использование. Природа играет важную роль как на начальном, так и на конечном этапе хозяйственной деятельности. Восстановительные и восстановительные работы, проводимые в Карабахском и Восточно-Зангезурском экономических районах, являются ярким примером такого взаимодействия. Природно-ресурсный потенциал обоих регионов составляет основу экономического развития, одновременно повышая необходимость поддержания экологической стабильности.

Beləliklə, müasir iqtisadi manasibətlər sisteminin spesifik xüsusiyyətləri konteksindən məhsul və xidmətlər bazarına nəzər yetirsək görərik ki, istehsal, mübadilə və istehlak sferasına mənsub subyektlər sözü gedən bazarlarda optimal nəticələrə yalnız və yalnız məhsulyeridilişinin müxtəlif mərhələlərini vahid sistem çərçivəsində nəzərdən kecirən və reallaşdıran logistik yanaşma nəticəsində nail ola bilərlər (6). Deməli, ağırlıq mərkəzinin istehsal sferasından mübadilə sferasına transformasiya olunduğu bazar münasibətləri sistemində mübadilə sferasının rolunun artması nəticəsində təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətində logistikadan, logistik təminat mexanizmindən istifadə edilməsinə obyektiv zəruriyyət yaranır. Əgər hərəkət trayektoriyası baxımından nəqletmə və anbar əməliyyatlarına məruz qalan məhsulların həcmini bilavasitə istehsal prosesinə cəlb edilən kütlə ilə müqayisə etsək, eləcə də məhsulların müxtəlif logistik mərhələlərdən keçmə vaxtını təhlil etmiş olsaq, belə nəticəyə gəlmək olar ki, hər bir təsərrüfat subyektinin məhsuldarlığı onun nəqliyyat-anbar sisteminin buraxılış qabiliyyəti ilə müəyyən edilir. Məhz belə bir təyinat istənilən firmanın rəqabət qabiliyyətini təmin edən logistik konsepsiyaya keçid ücün obyektiv səbəb hesab olunur.

Sistemlilik, bütövlülük və məcmu xərclərin optimallaşdırılmasına zəmanət verən logistik yanaşma planlaşdırma, təşkil, idarəetmə nəzarət və tənzimləmə prosesləri ilə material və informasiya axınlarının zaman və məkan baxımından yaranma mənbəyindən son təyinat məntəqəsinə qədər hərəkəti arasında üzvi əlaqəni təmin edir. Logistik yanaşma sistemlilik baxımından məhsulyeridilişinin bütün mərhələlərini *(təchizat – istehsal – anbar - bölüşdürmə - nəqletmə - tələb - istehlak)* kompleks əhatə etməyə imkan verir.

Bununla əlaqədar olaraq logistikanın başlıca vəzifəsi firmanın çevikliyinin artırılmasına, bazardan daxil olan siqnallara tez reaksiya vermək qabiliyyətinə, bazar payının artırılmasına və rəqabət üstünlüklərinin əldə edilməsinə köməklik göstərən əsaslandırılmış və rasional təkiflər işləyib hazırlamaqdan ibarətdir.

Logistika bu məsələləri material və informasiya axınları arasında uyğunluq yaratmaqla yüksək keyfiyyətli məhsulgöndərmələri, məhsulların fiziki yerdəyişməsi texnologiyasının təkmilləşdirilməsini, məhsulyeridilişi ilə bağlı əməliyyatların idarə edilməsi metodlarının işlənib hazırlanmasını, yarımfabrikatlar və qablaşdırma üzrə stansdartlaşdırma normalarının müəyyənləşdirilməsini təmin edən inteqrativ (material və informasiya axınlarını tənzimləyən və onlara nəzarət edən) sistemin yaradılması yolu ilə həll edir.

Müasir idarəetmə elmi logistikaya rəqabət üstünlüklərini təmin edən amillərdən biri, eyni zamanda firmanın ümumi strukturunda nəqliyyatın yerinə yetirdiyi kommersiya funksiyasının və maddi-texniki təminat (tədarükat) sisteminin xarakterik olduğu müasir bazar konsepsiyası kimi baxır. Müasir dövrün xarakrerik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, frmanın material resurslarının göndərilməsi və saxlanması, maddi - texniki təminat və nəqletmə ilə məşğul olan struktur bölmələrinin fəaliyyətini istehsal prosesinin ayrılmaz tərkib elementi, hissəsi kimi nəzərdən keçirir. Təbii ki, bu da öz növbəsində təsərrüfat fəaliyyətinin nəticələrini qiymətləndirməyə imkan verən meyarları, eləcə də firmanın iqtisadiyyatı haqqında təsəvvürləri əhəmiyyətli dərəcədə dəyişdirir. Belə ki, istehsal güclərinin tam yüklənməsi məsələsi, dövriyyə vəsaitlərinin müəssisədən keçmə müddətinin mümimumlaşdırılması məsələsi ilə, bazar uğrunda mübarizə metodu kimi maya dəyərinin aşağı salınmasına hədəflənmə tələbin tez ödənilməsinə səylərin artırılması ilə əvəzlənir.

Logistika sahibkarlığın və kommersiya fəaliyyətinin effektiv təşkili metodologiyası hesab edilməklə rəqabət mübarizəsinin müxtəlif inkişaf mərhələlərində təsərrüfat subyektlərinin rəqabət qabiliyyətini müəyyənləşdirən əsas meyarların, eləcə də onların istehsal prosesi və məhsul satışı zamanı tətbiq etdikləri baza konsepsiyalarının bir növ dəyişilməsinə köklənir, bu dəyişikliklərə adekvat cavab verir.

Logistik nəzəriyyə bu və ya digər tarixi dövrdə meydana çıxan iqtisadi və sosial məsələlərə uyğun olaraq inkişaf etmişdir. Qərb iqtisadçılarının elmi-texniki inqilab şəraitində təsərrüfat modelinin dəyişilməsinin qaçılmaz olması, ictimai istehsal və satış proseslərinin mövcud vəziyyətindən asılı olaraq tarixi inkişafın dövrlərə ayrılması haqqında hipotezlərə söykənən konsepsiyaları mövcuddur (5).

20-ci əsrdə istehsalın inkişaf tarixini adətən a) kütləvi istehsal (təqribən 20-ci illərin sonuna qədər), b) kütləvi satış (50-ci ilin ortalarına qədər) və c) istehsal və kommersiya firmalarının fəaliyyətində bazar, marketinq və logistik konsepsiyalara malik dövrləri özündə birləşdirən postindustrial mərhələlərə ayırırlar (4).

Müxtəlif tarixi dövrlərdə mövcud iqtisadi situasiyaları, eləcə də bu və ya digər tarixi şəraitin tələblərindən irəli gələn təsərrüfat fəaliyyətinin məqsəd və vəzifələrini təhlil etməklə belə qənaətə gəlmək olar ki, ətraf mühitin dinamik xarakter kəsb etdiyi müasir şəraitdə firmalara çoxsaylı xarici amillərə çevik və operativ reaksiya vermək baxımından yüksək tələbkarlıq irəli sürülür (1). Bu baxımdan istehsal və satışın elmi təşkili, istehlakçıya yönəlik prinsiplərlə yanaşı, firmanın fəaliyyətinin ekoloji nəticələrini, onun digər firmalarla təsərrüfat əlaqələrini və dövlət oqranları ilə qurulan iqtisadi münasibətlərin xüsusiyyətlərini, firmanın sosial məsuliyyəti kimi spesifik cəhətləri də nəzərə almaq lazım gəlir.

Belə bir şəraitdə:

- resurs faktoru firmanın bazar uğuru qazanması, rəqabətqabiliyyətinin möhkəmlənməsinin başlıca amili kimi çıxış edir;
- obyektiv olaraq məhsulyönümlü marketinq konsepsiyasına konkret istehlakçıya yönəlik prinsipinin əlavə edilməsi məqsədəuyğundur;
- elmi-texniki nailiyyətlərin tətbiqi ümumi xərclər içərisində məhsul istehsalına çəkilən xərclərin xüsusi çəkisinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır.

Nəticə

Ticarət sferaslnda sistemli-logistik yanaşmaların tətbiq zəruriliyi hər şeydən əvvəl, bazar şəraitində mübadilə sferası iştirakçılarının təsərrüfat münasibətlərinin tənzimlənməsi ilə bağlı məsələlərin həll edilməsini nəzərdə tutur. Belə bir şəraitdə logistik sistemin elementi kimi çıxış edən ticarət komplekslərinin qarşısında satış fəaliyyətinin mürəkkəb və dinamik vəziyyəti adekvat əks etdirən logistik konsepsiya və strategiyalarının işlənib hazırlanması və reallaşdırılması mühüm əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Бакаева В. В, Курушина Н.В. Управление размещением торговых предприятий в городе // Вестник Омского университета. Серия: Экономика. 2024. № 1. с. 71-76.
2. Зайцева Г.А., Рождественская М.Г. Особенности сетевого взаимодействия в форме социального партнерства // Мир науки, культуры, образования. 2014. № 3. с. 91-93.
3. Левина А.Б. Логистическая интеграция как фактор повышения конкурентоспособности в экономике торговли // Вестник Южно-Уральского государственного университета. Серия: Экономика и менеджмент. 2022. № 44 (303). с. 191.
4. Литвинов Б.А. Понятие распределительной логистики // Наука сегодня: теоретические и практические аспекты. М.: Перо, 2015. с. 334-338.
5. Шагвалеев А.М. Использование инновационных и интернет-технологий в деятельности торговых предприятий // Вестник Южно-Уральского государственного университета. Серия: Экономика и менеджмент. 2023. № 4. Т. 7. с. 60-64.
6. Шкабарина А.О. Логистизация торгово-технологических процессов в оптовой торговле // Вестник Гомельского государственного технического университета им. П.О. Сухого. 2022. № 1(48). с. 54-61.

Фарид Ифтихар оглы Ахмедов
магистрант,
Тельман Иман оглы Иманов
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Логистические аспекты товародвижения в торговле

Резюме

Развитие экономической системы формирования организаций и отраслей в рамках обострения конкурентной борьбы на национальном и зарубежном рынках требует диверсификации путей товародвижения и минимизации затрат. Основным резервом экономии расходов в период продвижения товарно-материальных потоков является применение на практике хозяйственной функциональности инструментария логистики

Farid Iftikhar Ahmadov
master,
Telman Iman Imanov
doctor of economic sciences, professor,
Azerbaijan Cooperation University

Logistic aspects of the movement of goods in trade

Summary

The author considers logistization as the key link providing competitiveness of goods in the consumer market by means of essential economy of expenses on delivery of goods from the producer to the consumer. Application of a logistization and creation of the modern logistic centers has to be carried out by means of the analysis of the available potential in branch and the region.

Samir Natiq oğlu ƏLİYEV
magistrant,
Telman İman oğlu İMANOV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

LOGİSTİKANIN MÜASİR İQTİSADİYYATIN İNKİŞAFINDA ROLU VƏ TƏSİRLƏRİ

Problemin qoyuluşu. Qlobal dünya iqtisadiyyatında müşahidə edilən tendensiyalar göstərir ki, sivil məhsul və xidmətlər bazarının formalaşması təkcə satıcı bazarının inkişafına gətirib çıxarmır. Həm satıcı, həm də alıcı bazarlarının müasir iqtisadi sistemin tələbləri baxımından formalaşması və inkişafı bir sıra səbəb və amillərin təsiri altında logistik fəaliyyətin optmal təşkilindən asılıdır. Bu zaman müasir iqtisadiyyatın inkişafını təmin edən logistikanın başlıca vəzifəsi məqsəd auditoriyasının tələb etdiyi məhsulları lazımi yerə, lazımi vaxtda və minimum xərclərlə çatdırmaqdan ibarətdir. Ölkə iqtisadiyyatında logistikanın yeri və rolu bir-biri ilə qarşlıqlı əlqəadə olan iqtisadi, təşkilati - iqtisadi, informasiya, texniki və təsərrüfat proseslərinin tənzimlənməsi ilə əlaqədar olaraq spesifik amillərlə müəyyən edilir.

Əsas hissə. İqtisadi kateqoriya olmaqla iqtisadi artım ümumi formada hər bir ölkənin iqtisadi fəaliyyəti ilə bağlı nəticələrinin dəyişilməsini xarakterizə edir və həmişə iqtisadiyyatın əsas inkişaf istiqamətlərindən asılı olaraq onun cari vəziyyəti baxımından tədqiq edilir. Buna görə də ümumi əlamətləri və əmələgəlmə mənbələri nəzərə alınmaqla milli sərvət və milli gəlirin iqtisadi təbiətinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər bu gün də iqtisadi nəzəriyyə ilə məşğul olan

mütəxəssislərin diqqət mərkəzində durur. Məsələn, A.Ştorx *(Rusiya, 1766-1835-ci illər)* iqtisadi artımı xalis gəlirlə istehsal xarakteri daşımayan xərclər arasında müsbət fərq kimi müəyyənləşdirirdi. D.Mil *(Böyük Britaniya, 1806-1873-cü illər)* proqressiv inkişafın təbiətini təhlil edərək belə nəticəyə gəlmişdir ki, inkişaf etmiş ölkələrdə sivil inkişafın özünü doğrultmuş forması sərvətin və ya maddi rifahın artırılmasından ibarətdir (1).

İqtisadiyyatın müəyyən tarixi inkişaf mərhələsində xarici ölkə alimləri sənaye istehsalının təkmilləşdirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi, elmi-texniki tərəqqinin inkişaf tempinin artırılması kimi çoxsaylı yanaşmaları, arqumentləri nəzərə almaqla iqtisadi artımın təbiəti, əlamətləri və ona təsir edən amillərin tədqiqi nəticəsində hal-hazırda mövcud olan iqtisadi artım anlayışını formalaşdırmışlar.

İqtisadi nəzəriyyəçilər iqtisadi artıma təsir edən amilləri əsasən iki: istehsal və institusional (tələb amilləri əsas xərclərin səviyyəsi və istiqamətləri, pul kapitalının mövcudluğu, resursların rasional bölüşdürülməsi; təklif amilləri-təbii resursların varlığı, əmək və kapital resurslarının kəmiyyət və keyfiyyəti, texnologiya) amillərə bölürlər.

Yuxarıda qeyd edilənlərdən başqa iqtisadi artıma aşağıda göstərilən amillər də təsir edir:

- *texniki şərtlər*: iqtisadiyyat təbii resursların çatışmazlığı faktoru ilə üzləşmir. Hesab edilir ki, bütün müəssisələr tam inteqrasiya strukturunun malik olduğu edementləri yarada bilmək, yəni müəssisə son məhsul buraxılışı üçün lazım olan elementləri istehsal etmək qabiliyyətinə malikdir;
- *investisiya siyasəti:* iqtisadiyyatın vəziyyəti və inkişafını xarakterizə edən ümumi iqtisadi göstəricilərin asılı olduğu bazarın daxili və xarici konyunkturası, böhran və artım meylləri müəyyənləşdirilir;
- *əmanətlərin formalaşması şərtləri*: mənfəət və əməkhaqqı;
- *rəqabət şərtləri*: bazar qiymətlərinin formalaşması üsullarını və qiymətlərin bazar tələbinin dəyişilməsinə reaksiya verə bilmək qabiliyyətini təyin edir;
- *maliyyə şərtləri*: faiz dərəcələrinin dəyişilməsi imkanları-kapital qoyuluşlarının səviyyəsi;
- *istehsal-texniki təyinatlı ehtiyatların mövcudluğu*: təsərrüfat sisteminin malik olduğu istehsal imkanlarının səviyyəsini müəyyənləşdirir (2).

Xidmət sferasına aid edilən logistik fəaliyyət milli gəlir və iqtisadi artımı təmin edən əsas amil hesab edilir. Buna görə də milli iqtisadiyyat, maddi istehsal və onun sahələri, eləcə də sənaye müəssisələrinin istehsal-təsərrüfat xarakterli fəaliyyəti və xidmət sferasına mənsub olan təşkilatlar üçün bu fəaliyyət növünün əhəmiyyətini müəyyənləşdirmək məqsədi ilə logistikanın oynadığı rola iqtisadi artımın yuxarıda qeyd edilən göstəricilər prizmasından yanaşmaq daha məqsədəuyğundur. Belə ki, iqtisadi artım göstəricisi kimi milli gəlirin artım tempi bilavasitə məhsulyeridilişinə, yəni material resurslarının və hazır məhsulun fiziki hərəkəti prosesinə logistikanın göstərdiyi xidmətlə bağlıdır. Bu prosesdə logistikanı təşkil edən tədarükat, nəqliyyat və anbar təsərrüfatı, ehtiyatların idarəedilməsi, bölüşdürmə və satış fəaliyyəti kimi bütün tərkib elementlər qarşılıqlı fəaliyyət göstərirlər.

Təbii ki, göstərilən logistik xidmətlərin dəyəri son məhsul istehlakçıları kimi çıxış edən təsərrüfat (yük sahibləri) və ya fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlər tərəfindən ödənilir. Bu zaman göstərilən logistik xidmətin dəyəri ümum milli məhsulun və milli gəlirin tərkibinə daxil edilir.

Obyektiv səbəblərlə əlaqədar olaraq dəyər baxımından logistik xidmətlərin həcmini dəqiq hesablamaq qeyri-mümkündür. Çünki, tara və taraqablaşdırıcı məhsulların istehsal və istehlak həcmi, istehsal və məişət tullantılarının utilizasiya həcmi, müxtəlif növ tullantılardan hazırlanan hazır məhsulların istehsal həcmi və s. bu kimi göstəricilərin uçotu ölkə statistikası tərəfindən aparılmır. Lakin bütün bunlara baxmayaraq aşağıda göstərilən bir sıra məlumatlar logistik xidmətlərin həcmi və əhəmiyyəti haqqında dəqiq mühakimə yürütməyə imkan verir:

- məhsulyeridilişinə çəkilən xərclər içərisində məhz ən yüksək xüsusi çəkiyə material resurslarının nəqledilməsi (46%), anbar əməliyyatlarının yerinə yetirilməsi (26%) və əmtəə-material ehtiyatlarının optimal səviyyədə saxlanılmasına çəkilən xərclər (10%) malikdir;
- məhsulyeridilişinə çəkilən xərclər satış həcminin istehsalçı müəssisələr üçün 13%-i,

distribyüterlər üçün isə 25%-i təşkil edir (5);

- sənayedə maddi məsrəflər bütün xərclərin orta hesabla 50%-dən ibarətdir: anbarda məhsulların saxlanmasına çəkilən xərclər material resurslarının əldə edilməsinə sərf edilən xərclərin 10-15% həddindədir;
- bütün növ maddi-texniki təchizat və satış fəaliyyətinin ümum milli məhsulda payı 15%-ə, ümumi istehsal xərclərində xüsusi çəkisi isə 30%-ə bərabərdir (4);
- müxtəlif qiymətləndirmələrə görə məhsulların nəqledilməsinə çəkilən xərclər ümumi logistik xərclərin 70%-ni, nəqliyyat xərcləri xammal materiallarının qiymətinin 40-60%-ni, tikinti materiallarının qiymətinin isə 80-85%-ni təşkil edir (3).

Beləliklə, o qədər də çoxsaylı olmayan bu məlumatlar logistik fəaliyyətin, xüsusi ilə logistik xidmətin ümum milli məhsul və milli gəlirin həcminə, eləcə də iqtisadi artıma təsirini göstərir.

İqtisadi artım göstəricisi kimi istehsal edilən məhsulun keyfiyyətinin yaxşılaşdırılması ilə əlaqədar qeyd etmək lazımdır ki, məhsulyeridilişi prosesi zamanı məhsulların keyfiyyət parametrlərinin qorunub saxlanılmasına ilk növbədə göstərilən logistik xidmətin keyfiyyəti, spektri, tamlığı və miqyası təsir edir. Burada söhbət təkcə hazır son məhsulun yerdəyişməsindən deyil, istehsal sahələrini xam malla, əsas və köməkçi materiallarla, dəstləşdirici məmulatlarla təmin edən istehsal-texniki təyinatlı məhsullardan gedir. Bu məhsullar təyinat məntəqəsinə qədər hərəkət zamanı öz keyfiyyətlərini nə qədər saxlamış olarsa, bilavasitə hazırlanan məhsulların keyfiyyəti də bir o qədər yüksək olar. Öz növbəsində qeyd etmək lazımdır ki, məhsulyeridilişi prosesində məhsulların keyfiyyətinin qorunub saxlanması istifadə edilən tara-qablaşdırıcı materialların növündən və keyfiyyətindən, məhsulgöndərmə qrafiklərinə riayət edilməsindən, nəqletmə zamanı tələb olunan qaydalara riayət olunmasından asılıdır.

Məhsulgöndərmə qrafiklərinə dəqiq riayət edilməsi, hər şeydən əvvəl logistikanın strateji məqsədi hesab edilir. Makrologistik dövrənin hər hansı bir mərhələsində məhsulgöndərmə qrafikinin pozulması sonrakı mərhələlərdə əks sinergetik effekt verməklə növbəti məhsulgöndərmələrdə gecikmə hallarının yaranmasına səbəb ola bilər. Lakin məhsulgöndərmə qrafiklərinə riayət edilməsi yararlılıq müddəti məhdud olan məhsullar üçün mühüm əhəmiyyət kəsb edir. Məhsulların təyinat məntəqəsinə vaxtında çatdırılması probleminin həll edilməsində optimal yükdaşıyıcıların və rasional nəqliyyat növünün seçilməsi, nəqliyyat vasitələrinin optimal hərəkət marşrutunun müəyyən edilməsi kimi bir sıra logistik alətlərdən istifadə olunur.

İqtisadi artım göstəricisi kimi istehsalın effektivlik dinamikası birbaşa logistika ilə əlaqədardır. Sənayenin tara və taraqablaşdırıcı materiallar istehsal edən sahəsi logistikaya xidmət göstərir. Daha doğrusu, sənaye və kənd təsərrüfatı müəssisələri, eləcə də xidmət sferasında fəaliyyət göstərən təşkilatlar tərəfindən istehsal edilən məhsulların əksər hissəsi praktiki olaraq logistik xidmətə aid edilən qablaşdırma əməliyyatlarına məruz qalırlar.

Logistik fəaliyyətin iqtisadi artım göstəricilərinə təsir edən yuxarıda qeyd olunan istiqamətlərindən başqa, o, ölkənin, regionun və müəssisələrin infrastrukturunun formalaşması və inkişafında təsir göstərir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, istehsal və sosial infrastrukturu təşkil edən təsərrüfat subyektləri logistikanın altsistemi hesab edilən təchizat sistemi vasitəsi ilə müxtəlif təyinatlı istehsal-texniki resurslarla təmin edilirlər.

Nəticə

Müasir şəraitdə logistika ölkəmizdə bazar iqtisadiyyatının potensial inkişafını təmin edən mühüm element olmaqla iqtisadiyyatın mühüm istehsal seqmentini təşkil edir Bu zaman mövcud istehsal güclərindən rasional istifadə edilməsi, dövriyyə vəsaitləri üzrə ehtiyaların həcminin azaldılması, koopersiya və diversifikasiyanın genişləndirilməsi, istehlakçılara logistik xidmətlərin göstərilməsi maddi dəyər yaradır. Göstərilən bütün spektr logistik xidmətlərin dəyəri ümummilli məhsulun və milli gəlirin tərkibinə daxil edilir. Bu da şərtsiz olaraq iqtisadi artıma təsir göstərir.

ƏDƏBİYYAT

1. Аникин Б.А., Родкина Т.А. Логистика и управление цепями поставок. Основы логистики. Теория и практика: учебник. - М.: Проспект, 2012. - 608 с.

2. Аркадьев К.Г. Логистические системы и их роль в современной экономике / К.Г.Аркадьев // Экономика, управление, финансы: материалы V междунар. науч. конф. (г. Краснодар, август 2015 г.). - Краснодар: Новация, 2015. - с. 139-141.
3. Борисов, М.А. Основа для модели совершенствования логистики 4.0 со спецификацией для внутренней логистики / М.А. Борисов, Г.И. Шепелин // Вестник науки. 2022. -Т. 1, № 6(51). -с. 112-118.
4. Старкова Н.О., Саввиди С.М., Сафонова М.В. Тенденции развития логистических услуг на современном мировом рынке // Политематический сетевой электронный научный журнал Кубанского государственного аграрного университета. - 2013. - № 85. - с. 480-490.
5. Терещенко Д.С. Институциональные факторы экономического роста.. *Вестник НГУЭУ*. 2016;(3): с. 299-314.

Самир Натиг оглы Алиев
магистрант,
Тельман Иман оглы Иманов
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Роль и влияние логистики на рост современной экономики

Резюме

В статье рассматривается роль и значение логистически в современной экономике. Изучается сущность логистических систем и их функции в данной сфере.

Samir Natig Aliyev
master,
Telman Iman Imanov
doctor of economic sciences, professor,
Azerbaijan Cooperation University

Role and impact of logistics on growth of modern economy

Summary

The article examines the role and importance of logistics systems in the modern economy. The essence of logistics systems and their functions in this field are studied.

Ariz Elxan oğlu AŞIROV
magistrant,
Telman İman oğlu İMANOV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

MÜƏSSİSƏLƏRDƏ LOGİSTİK XƏRCLƏRİN AZALDILMASINA İSTİQAMƏTLƏNMİŞ STRATEGİYALARIN İŞLƏNİB HAZIRLANMASI

Problemin qoyuluşu. Hər bir təsərrüfat subyekti qarşısına qoyduğu məqsədlərin reallaşdırılması zamanı minimum logistik xərclərlə tələb olunan məhsuldarlığın təmin edilməsini nəzərdə tutan konkret logistik strategiya işləyib hazırlamalıdır. Nəzəri və parktiki baxımdan logistik menecment sahəsində bazar şərtlərinə uğun gələn və optimal hesab edilən kifayət qədər logistik strategiyalar mövcuddur. Bu baxımdan müəssisələrdə logistik xərclərin azaldılmasına istiqamətlənmiş

strategiyaların işlənib hazırlanması aktuallıq kəsb edir.

Əsas hissə. Bazar iqtisadiyyatının mövcud prinsipləri ilə fəaliyyət göstərən hər bir təsərrüfat subyekti özünün bazar mövqeyini möhkəmləndirmək və sabit mənfəət həcminə malik olmaq üçün "məskunlaşdığı", "sakini" olduğu bazar seqmentində mütəmadi olaraq satıcı kimi çıxış etmək niyyətindədir. Bu məqsədlə:

- ✓ bazar konyunkturasına;
- ✓ rəqabətə;
- ✓ malik olduğu xüsusi resurs imkanlarına uyğun olaraq uzunmüddətli fəaliyyət proqramı işləyib hazırlayır. Belə bir proqram firmanın strategiyasını əks etdirir.

Strategiya arzu və istəklərə deyil, firma və ya müəssisənin malik olduğu real imkanlara əsaslanır. Buna görə də strategiya hər şeydən əvvəl firma daxilində və onun xarici mühitində mövcud olan real, obyektiv situasiyanı nəzərə alır, təhlil edir və ona adekvat reaksiyalar verir.

Strategiyanın seçilməsi və onun həyata keçirilməsi perspektiv dövr üçün firmanın inkişafının mahiyyətini təşkil edir. Firmanın gələcək fəaliyyəti və onun əsas istiqaməti məhz seçiləcək strategiyadan əhəmiyyətli dərəcədə asılıdır. Aydındır ki, strateji qərarlar diskret çoxluqlar içərisində əvvəlcədən məlum olan variantdan seçilir. Bu heç də o demək deyil ki, yeni strateji qərarlara görə qəbul edilən digər strateji qərarları həyata keçirmək mümkün olmur. Lakin bir-birilə paralellik təşkil edən belə strateji qərarların yerinə yetirilməsi çox böyük həcmdə resurs sərfi hesabına başa gəlir (5).

Logistik strategiya və taktikanın iqtisadi cəhətdən səmərəli olmasının mühüm şərti istehsal, bölüşdürmə və satış, tədarükat, anbarlaşdırma və nəqletmə kimi ayrı-ayrı logistik elementlər arasında material axınlarının optimal hərəkətinin planlaşdırılmasının təşkilindən ibarətdir. Bu cür təşkilin başlanğıc nöqtəsi tələbin dinamikasının müntəzəm gözlənilməsidir ki, onu nəzərə almaqla hər bir tərkib hissəsi - logistik element üzrə plan parametrləri işlənib hazırlanır.

Logistik strategiyaların hazırlanması aşağıdakı elementlər və parametrlərin: nəqliyyat, yükləmə-boşaltma əməliyyatları və onlara sərf edilən xərclər; ehtiyatların idarə edilməsi; plan və nəzarət sistemləri; istehsal gücləri və əlaqələr; logistik sistemin təşkili xüsusiyyətləri və s. nəzərə alınmasını tələb edir. Logistik strategiyanın işlənib hazırlanması zamanı tətbiq edilən standart texniki üsullardan biri xidmətlərlə xərclər arasındakı adi logistik tarazlığın təhlilidir (4). Bundan başqa strategiyaların hazırlanması üçün üçüncü element kimi çıxış edən təchizat və ehtiyat mənbələrinin sayı, məhsulların nomenklaturası, sifariş - tələbnamə verən və məhsulgöndərən məntəqələrin sayı, mövsümlülük kimi faktorlar diqqətdən kənarda qala bilməz. Bütün bu parametr və elementlərin hamısının nəzərə alınması müəyyən çətinliklərlə yanaşı qeyri-müəyyənlik səviyyəsini də artırır. Ona görə də çox vaxt çalışırlar ki, əməliyyatların çətinliyini azaltmaq (aşağı salmaq) və ya sayını ixtisar etməklə bütün təsərrüfat prosesini sadə və idarə olunan hala salmaq mümkün olsun.

Logistik strategiyanın işlənib hazırlanması prosesi iki mərhələdə həyata keçirilir. *Birinci mərhələdə* firma və ya müəssisənin strateji məqsədləri və perspektiv dövr üçün onun inkişaf istiqamətləri, müəssisənin funksional təsərrüfat sahələrinin cari vəziyyəti, problemləri və zəif cəhətləri aşkar edilir və aşağıdakı məsələlər öyrənilir (1):

- ❖ *Bazar tələbinin dəyişilməsi***.** İstər alış, istərsə də satış bazarını kompleks tədqiq etmək, öyrənməklə həm tədarükat bazarında potensial məhsulgöndərənlər və onların cari, eləcə də potensial imkanları aşkar edilir, həm də əmtəəlik məhsullar üçün konkret məqsəd bazarı seçilir, məhsulların bu bazara çıxarılması imkanları araşdırılır, istifadə olunacaq bölgü kanalları müəyyənləşdirilir;
- ❖ *Logistik tələbin artması***.** Aydındır ki, bazar iqtisadiyyatı inkişaf etdikcə məhsul istehsalçıları arasında bazar üstünlüklərinin əldə edilməsi baxımından mövcud olan rəqabət və onun xarakteri logistik sistemin iştirakçıları qarşısında həll edilməsi əhəmiyyətli olan ümdə məsələlər və bir sıra yeni tələblər qoyur. Bu tələblər hər şeydən əvvəl məhsulların fiziki bölüşdürülməsi kanallarında baş verən dəyişikliklər və onlara tez uyğunlaşmaqdan, məhsul göndərənlərlə alıcılar arasında əlverişli işgüzar münasibətlərin qurulmasından, logistik sistem üzrə ümumi xərclərin azaldılmasından, logistik servis xidmətinin səviyyəsinin yüksəldilməsindən, məhsulgöndərmələrin ahəngdarlığı və etibarlığından, qəbul edilən hər bir sifarişin tələb olunan müddətə yerinə

yetirilməsindən və s.-dən ibarətdir (4).

❖ *Pareto prinsipi üzrə məhsulların paylaşdırılması***.** Əsas axının məhdud sayda əmtəələrin payına düşməsi, bu əmtəələr hesabına təşkil edilməsidən ibarət olan Pareto effektini nəzərə almaq lazımdır.

❖ *Ehtiyatların həcmi və çevik istehsal sistemləri*. Bazar tələbinin dəyişilməsinə reaksiya verən firma və müəssisə çevik istehsal sistemini yaratmalı, ehtiyatların kəmiyyəti optimal olmalıdır.

❖ *Ayrı-ayrı fəaliyyət növlərinə diqqətin artırılması***.** Təkcə adi və xüsusi çeşidli məhsul buraxılışına deyil, həm də markalaşdırma, qablaşdırma, sənaye çeşidindən konkret ticarət çeşidinin formalaşması, məhsul və nəqliyyat vasitələri üzrə uçot-müqavilə vahidlərinin yaradılması kimi spesifik fəaliyyət sahələrinə də diqqət yetirmək lazımdır (2).

❖ *Çeviklik.* Logistik stistem bazarda kəmiyyət və keyfiyyət dəyişkənliyinə qısa müddət ərzində adaptasiya olma-uyğunlaşma qabiliyyətinə malik olmalıdır. Buna görə də strateji istiqamətin çevikliyi mühüm əhəmiyyət kəsb edir.

❖ *Məhsulgöndərmələr üzrə logistik göstəricilərin yaxşılaşdırılması*. Bu, məhsulgöndərmələrlə bağlı müxtəlif tədbirlərin işlənib hazırlanması ilə əlaqədardır.

Bütün bunların əsasında isə konkret fəaliyyət planı işlənib hazırlanır. Həmin planda firma və müəssisənin ümumi strategiyasının təmin edilməsi üçün məqsədlər, resurslar, imkanlar, qarşılıqlı asılılıqlar və müxtəlif təsərrüfat variantları əks olunur. *İkinci mərhələdə* isə birinci mərhələdə nəzərdə tutulan strateji fəaliyyət planı əsasında hərtərəfli, müfəssəl, təfsilləşdirilmiş ümumi təsərrüfat planı hazırlanır və burada aşağıda göstərilən strateji istiqamətlər əks olunur (3):

❖ *məhsul buraxılışını təmin edən istehsal gücləri*. Müasir hesablama texnikası vasitələrindən istifadə edən logistik menecmentlər və ya ayrı-ayrı qruplar istehsal həcminin, məhsul çeşidinin, bazarın, məhsul buraxılışını təmin edən istehsal güclərinin riyazi-iqtisadi modelləşdirməsini həyata keçirməklə istehsal güclərini müəyyən edirlər;

❖ *milli bölgü sistemi.* Milli bölgü sistemində material axınlarının hərəkəti və onların istiqamətlərinin dəyişilməsinin istehsal güclərinə təsir dərəcəsi nəzərə alınmalıdır;

❖ *qaldırıcı-nəqliyyat işləri*. Məhsulgöndərənlərdən istehlakçılara qədər logistik dövrənin bütün hissələri üçün qaldırıcı-nəqliyyat sisteminin səmərəli işi mühüm cəhət hesab edilir;

❖ *xərclər baxımından logistikanın tələbini ödəyən nəqliyyat növlərinin seçilməsi;*

❖ *fəaliyyətin nəticələrini ölçən və nəzarət edə bilən nəzarət sistemləri;*

❖ *məhsulgöndərənlərin təsərrüfat fəaliyyətinin maliyyə nəticələri;*

❖ hər bir funksional sahə üzrə logistika layihələri ilə sıx bağlı olan ümumi təsərrüfat planı. Logistik layihələr hər bir funksional sahənin malik olduğu vahid təsərrüfat planı ilə qarşılıqlı formada əlaqələndirilir. O, özündə tam maliyyə nəticələrinin qiymətləndirilməsi, resursların bölüşdürülməsi, logistik sistemlərin idarə edilməsi və s.-ni birləşdirir.

Nəticə

Firmalarda logistik strategiyanın göstərilən sxem üzrə tərtib edilməsi rəqabət üstünlüklərini təmin edir. Müəssislərdə logistik strategiyaların qeyd edilən istiqamətlər üzrə işlənib hazırlanması istehsal - satış fəaliyyətinin səmərəliliyinə zəmanət verməklə bərabər, logistik sistemin hər bir iştirakçısına bazar uğrunda mübarizədə böyük üstünlüklər qazandırır.

ƏDƏBİYYAT

1. Кимеле Я.К. Роль логистической стратегии в деятельности предприятий // Вестник магистратуры. 2019. № 8–2 (95). - [Электронный ресурс].
2. Умнов В.А., Плюхина А.А. Анализ существующих подходов к логистике в аспекте внешнеэкономической деятельности организаций // Вестник РГГУ. Серия «Экономика. Управление. Право». 2018. № 4 (14). - [Электронный ресурс].
3. Шепелин Г. И. Логистика: учебное пособие / Г. И. Шепелин. - Москва: РУТ (МИИТ), 2019. - 104 с. - [Электронный ресурс].
4. Сток Д.Р., Ламберт Д.М. Стратегическое управление логистикой. М.: ИНФРА-М, 2005. 542 с.

5. Таран С. Логистическая стратегия предприятия. Разработка и реализация. М.: Альфа-Пресс, 2010. 312 с.

Ариз Эльхан оглы Ашыров
магистрант,
Тельман Иман оглы Иманов
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Разработка логистической стратегии предприятия, направленной на снижение логистических затрат

Резюме

В статье рассмотрены проблемы разработки логистической стратегии предприятия, направленной на снижение логистических затрат. Определены этапы построения логистической стратегии предприятия и основные ее характеристики. Предложен процесс оптимизации выбора логистической стратегии предприятия в современных условиях.

Ariz Elkhan Ashırov
master,
Telman Iman Imanov
doctor of economic sciences, professor,
Azerbaijan Cooperation University

Development of the logistic strategy of enterprise focused on reducing logistic costs

Summary

The article considers the problems of developing the logistic strategy of enterprise focused on reducing logistic costs. The stages of building the logistic strategy of enterprise and its main characteristics are determined. The process for optimization the choice of logistic strategy of enterprise in modern conditions is given. редприятия и основные ее характеристики.

Nurlan Nəriman oğlu RAMAZANOV
magistrant,
Nazim Tofiq oğlu QƏNİZADƏ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

MÜASİR DÖVRDƏ DÖVLƏTİN İQTİSADİ SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİNİN XARAKTERİK CƏHƏTLƏRİ

Hər bir cəmiyyətdə mütləq çoxluğun mənafeyini ifadə edən, real təminatlara söykənən dövlətin iqtisadi siyasətinin həyata keçirilməsi davamlı tərəqqinin vacib şərtlərindən biri sayılır. Müasir dövrdə hər bir xalqın milli inkişaf strategiyası özündə həm də ictimaiyyətin müəyyən gözləntilərini, arzu və istəklərini təcəssüm etdirir.

İqtisadi inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsi ümumi məqsəd və strategiyanın reallaşdırılmasına imkan yaradır, habelə modernləşmənin vacib amilinə çevrilir. Bu prizmadan əminliklə söyləmək olar ki, müstəqil Azərbaycanın son illərdə əldə etdiyi böyük makroiqtisadi uğurlar, ilk növbədə, sistemli və ardıcıl şəkildə iqtisadi siyasətin həyata keçirilməsinin nəticəsidir.

Bazar münasibətlərinə söykənən yeni iqtisadi sistemin qurulmasının, vətəndaşların iqtisadi azadlığına, təşəbbüskarlığına geniş meydan verilməsinin, Azərbaycanın zəngin təbii sərvətlərindən

səmərəli istifadə edilməsinin, respublikanın investisiya cəlbediciliyinin yüksəldilməsinin və digər konseptual əhəmiyyətli tədbirlərin nəticəsi olaraq son illərdə Azərbaycan iqtisadiyyatı təkcə sürətli inkişafla deyil, eyni zamanda yeni keyfiyyət parametrləri ilə özünü təsdiqləmişdir.

Azərbaycanda son zamanlarda ölkədaxili iqtisadiyyatda əsasən sənaye və neft sənayesinin üstün tərəqqisi özünü açıq şəkildə göstərdiyi bir şəraitdə qeyri-neft sahəsinin tərəqqi prosesinin aktiv hal alması məqsədilə böyük tədbirlər həyata keçirilmiş, dövlətin bu istiqamətdə apardığı iqtisadi siyasəti daha da gücləndirilmiş, çoxsaylı Prezident Fərmanları və Sərəncamları qəbul olunmuş, Dövlət Proqramları, Strategiyalar və Konsepsiyalar gerçəkləşdirilmişdir.

Yeni iqtisadi siyasətin formalaşması nəticəsində qeyri-neft sektorunun tərəqqi etdirilməsi üzrə bir qrup dövlət dəstəyi mexanizmləri hazırlanmışdır. Əsasən, regionların tərəqqisi, kənd təsərrüfatı məhsullarının istehsalçılarının dəstəklənməsi üçün iri infrastruktur proyektləri təşkil edilmiş, lizinq yolu ilə texniki təminat təşkil olunmuş, gübrələrlə təchizat sistemi yaradılmış, xüsusi anbarlar istifadəyə verilmiş, asfalt yollar salınmış, yeni müəssisələr tikilmiş və s. həvəsləndirici bir çox tədbirlər görülmüşdür.

Bu zaman müasir və gələcək nəsillərin maraq və mənafeləri üçün ekoloji sistemin tarazlığına ziyan vurmadan dövlətin malik olduğu bütün sərvətlərdən xarici mühiti mühafizə etməklə effektiv faydalanaraq, onların hər bir vahidi hesabına ən yüksək nəticə almaqla dözümlü iqtisadi tərəqqi əldə etməsi ölkənin perspektivi üçün təyin olunan sosial-iqtisadi siyasətin və strategiyanın ana xəttini təyin etməlidir.

Ölkənin perspektiv tərəqqi məqsədlərinin və istiqamətlərinin müəyyən edilməsi, onların reallaşdırılması iqtisadiyyatın hazırkı vəziyyətini araşdırmaq və yeni pul strategiyaları və dəyişikliklərinin davamlılığını təmin etmək üçün başqa bir maliyyə inkişaf sistemi qurmaq üçün vacibdir.

Davamlı maliyyə inkişafına zəmanət vermək üçün, pul bazasının qurulmasına xidmət edən kömək bölmələri kimi, iqtisadiyyatın əsas sahələrinin yaxşılaşdırılması metodologiyasını effektiv şəkildə xarakterizə etmək vacibdir.

Qeyd etmək lazımdır ki, maliyyədə makroiqtisadi siyasət əsasən 2 istiqamətdə tətbiq olunur: monetar və fiskal. Bu istiqamətlərin ikisi də iqtisadi sabitliyin, ÜDM-in artım səviyyəsinin və vəsaitlərin tam istifadəsinin qorunub saxlanılması üçün istifadə olunur. Makroiqtisadi sabitləşdirmənin əsas vasitələrindən əhəmiyyətlisi fiskal siyasətdir. Dövlət bu tənzimləməni vergi və xərclərin tempinin artırılması və ya azaldılması yolu ilə həyata keçirir. Dövlət xərcləri hesabına ölkənin saxlanılmasını və satınalmaların maliyyələşdirməsini reallaşdırır.

Fiskal siyasətin əhəmiyyəti də ondan ibarətdir ki, dövlət xərcləri ilə dövlət gəlirləri arasında nisbətin tənzimlənməsində əhəmiyyətli rol oynayır. Makroiqtisadi siyasətin əhəmiyyətliliyi ondan ibarətdir ki, o iqtisadi vəziyyəti yaxşılaşdırsın və ölkənin inkişafına stimul versin. Monetar və fiskal məqsədlərə çatmaq üçün istifadə olunacaq vasitələrin xüsusiyyətləri mövzusunda zaman və yer faktorları ilə sosial və iqtisadi strukturları da diqqətə almaq lazımdır.

Xüsusi vurğulamaq olar ki, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələri fərqləndirmə çərçivəsində mövzunu ələ almaq lazımdır. Geniş aspektdən baxdıqda büdcə-vergi siyasəti, ictimai gəlirlər və ictimai xərcləmələr kimi ictimai-sosial sektorun maliyyə dəyişənlərinin miqdarı və tərkibində iqtisadi siyasi məqsədlərini ərsəyə gətirmək (iqtisadi tarazlıq, gəlir bölgüsünün ədaləti, iqtisadi böyümə və s) üçün istifadə edilən tənzimləmələr formasında ifadə edilə bilər.

Ölkənin öhdəsinə götürdüyü dövlət xidmətlərini yerinə yetirə bilməsi üçün gəlir əldə etməsi və bu gəlirləri dövlətin xidmətlərinin maliyyələşdirilməsi üçün xərcləməsi maliyyə hadisəsini təşkil edir. Məhz buna görə də, dövlət maliyyəsi ölkənin öhdəliklərini yerinə yetirə bilmək üçün elədiyi fərqli növ fəaliyyətləri sosial, iqtisadi və hüquqi tərəfdən araşdıran bir elm sahəsidir. Dövlət maliyyəsi, ölkənin vəzifələrini həyata keçirtmək üçün lazım olan qaynaqların əldə edilməsi və bundan öz məqsədlərinə çatmaq üçün isdifadə etmək məsələsidir.

Dövlət maliyyəsi ancaq dövlət xərclərini və gəlirini araşdıran elm sahəsi deyildir, eyni zamanda maliyyə hadisələrini nəzəri tərəfdən araşdıran iqtisadi və ya maliyyə siyasəti kimi mövzularla bərabər dövlət borcları, vergi nəzəriyyəsi və siyasəti, vergi hüququ, bələdiyyə idarələri maliyyəsi və s. bu kimi mövzular maliyyə sahələrinin əsas özəyini ifadə edir. Ölkə iqtisadi proseslərə makroiqtisadi siyasəti vasitəsi ilə müdaxilə edir. Bu iqtisadi müdaxilə ölkə gəlirlərinin artırılması və

onun təkmilləşdirilməsi niyyəti ilə pulun dövrüyyəsinin stabilləşdirilməsi, əhalinin daimi məşğulluğunun, sürətli, tarazlı artım tempinin, milli iqtisadiyyatın iqtisadi-sosial səmərəliliyinin gücləndirilməsinin gerçəkləşdirilməsi yönündə ərsəyə gələn tədbirlərin ümumi məcmusudur.

Günümüzdə bir çox dövlət qloballaşma ilə paralel olaraq ərsəyə gələn böhran, infilyasiya və durğunluq kimi iqtisadi problemləri həlli qaydasına gətirmək üçün fiskal siyasətin vasitəsi ilə cəhd göstərməktədir. Maliyyə siyasətinin əhatə çərçivəsində olan və ölkələrin xəzinələrinə sözün həqiqi mənasında təsir göstərən vergi-büdcə siyasətinin həyata keçirilməsi maliyyə sahəsinin daralma problemlərini həll edilməsinə təşviq edilmiş tədbirlərin məzmununu ehtiva etməkdədir.

Büdcə siyasətinin tarazlığını qorumaq üçün ölkələr fiskal siyasətin vasitələrinin köməyi ilə makroiqtisadi nizama çatmağı qarşıya məqsəd qoymuşlar. Büdcə-vergi siyasəti tətbiqi ilə birbaşa əlaqəsi olan alətlər müxtəlif növ vergilər, borclanmalar, transfer ödəmələri və hökümət xərcləmələrindən tərtib olunmuşdur. Hökümət bu fiskal vasitələrdən istifadə edərək qloballaşma ilə əlaqədar olaraq mövcudlaşan tsikl dalğalanmalardan təsirlənmələrini minimum dərəcədə kiçiltmək, tam olaraq iqtisadi stabilliyə gəlib çatmaq və gəlirin dəqiq və düzgün şəkildə paylanmasına səy göstərir. Əsasən inkişaf etməkdə olan və nisbətən az inkişaf etmiş ölkələrdə fiskal siyasətin tədbiqini dövrü olaraq reallaşdırırlar. Bunun səbəbi olaraq maliyyə sahələrinin geniş olmaması göstərilir.

Dövlət gəlirləri – Büdcənin gəlirlərdən ibarət təşkil edilən hissəsi ictimaiyyət üçün maliyyə-pul vəsaiti bünövrəsidir. Büdcəyə daxilolmalar vergilərdən (rüsum,yığım) və qeyri-vergi daxilolmalarına (mülkiyyətdən əldə edilən gəlirlər, mal-əmtəə və xidmətlərin satışından daxilolmalar, cərimə və sanksiyalardan əmələ gələn daxilolmalar və könüllü köçürmələr, məqsədli büdcə fondlarının gəlirləri, dövlət əmlakından gəlirlər, xarici ticarətdən,turizimdən,dövlət xidmət və istehsal etdiyi məhsulun xaricə çıxardılıb satılmasından əldə edilən gəlirləri,məqsədli büdcə fondları və özəlləşdirmədən daxilolmalardan) ibarətdir, burada vergilər digər büdcə-vergi siyasəti alətlərindən əhəmiyyətli mövqedə fərqlənir.

Ümumi mənada, vergilər büdcənin tənzimlənməsinin əsas faktorlarından biridir hətda birincisidir. Dövlət tərəfindən əldə edilən vergilər yığılaraq sonradan bölgələr, təşkilatlar və vətəndaşlar arasında yenidən bölüşdürülərək büdcə ödəmələri, xərcləri kimi bu subyektlərə daxil olur.

ƏDƏBİYYAT

1. Nuriyev Ə., "Regional siyasət və idarəetmənin əsasları", Bakı -2011;
2. Mahmudov M.M., Mahmudova İ.M., "Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi", Bakı-2011.
3. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2011. 464 səh.
4. Əliyev T.N. Qeyri – neft sənayəsinin iqtisadiyyəti. Baki. 2018. 267 s.
5. Axundova N.F. Təşkilati davranış Bakı 2014
6. Əliyev R.B., Novruzov N.A., Məmmədov M.A. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı:2003, 432 s.

Нурлан Нариман оглы Рамазанов
магистрант,
Назим Тофиг оглы Ганизаде
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Характерные черты современной государственной экономической политики

Резюме

В статье подчёркивается важность определения перспективных целей и направлений развития страны, а также их реализации через анализ текущего состояния экономики. Особое внимание уделяется характерным чертам современной государственной экономической политики, новым денежным стратегиям и необходимости обеспечения устойчивости изменений посредством эффективных экономических мер.

Nurlan Nariman Ramazanov
master,
Nazim Tofig Ganizada
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Characteristic features of the modern state economic policy

Summary

The article emphasizes the importance of identifying the country's prospective development goals and directions, and implementing them by analyzing the current state of the economy. It highlights the characteristic features of modern state economic policy, the introduction of new monetary strategies, and the necessity of ensuring the sustainability of changes through several effective economic measures.

Fatimə Dəyanət qızı ƏLİYEVA
magistrant,
Nazim Tofiq oğlu QƏNİZADƏ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

MİLLİ İQTİSADİYYATIN İNKİŞAFININ RESURS TƏMİNATI VƏ ONUN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Son illərdə dünyada istehsalın miqyaslarının genişlənməsi nəticəsində ölkələrin təbii-xammal resurslarına olan tələbatlarının artdığı halda onların məhdudluğu, istehsalının getdikcə baha başa gəlməsi qloballaşma şəraitində təşəkkül tapan milli iqtisadiyyatların formalaşması və inkişafında resurs amilinin rolunu kəskin artırdı. Azərbaycan müstəqil dövlətə çevrildikdən sonra ölkənin resurs üstünlüklərindən optimal və səmərəli istifadəyə imkan verən iqtisadi strategiyanın formalaşdırılması və reallaşdırılması milli iqtisadiyyatın inkişafı baxımından müstəsna əhəmiyyətə malik oldu. Belə ki, milli iqtisadiyyatın resurs potensialı onun qarşısında duran sosial-iqtisadi məqsədlərin reallaşmasının mühüm həlledici amili və şərtinə çevrildi. Elmi-texniki tərəqqinin təsiri altında inkişaf etmiş ölkələrdə iqtisadi artımda təbii resurs amillərinin rolu xeyli aşağı düşməsinə baxmayaraq, dünya təcrübəsi göstərir ki, təbii resursların, xüsusən karbohidrogen ehtiyatlarının zənginliyi bir çox hallarda yeni təşəkkül tapan və inkişaf edən milli iqtisadiyyatlar üçün daha çox ilkin potensial və start kapitalı rolunu oynayır.

Ölkəmizin resurs potensialının strukturunda neft ehtiyatlarının çox böyük xüsusi çəkiyə malik olması, müstəqillik illərində onun milli iqtisadiyyatın təşəkkülü və inkişafının təmin edilməsinin lokomotiv rolunu oynaması bu resurslardan istifadənin dövlət tənzimlənməsi problemlərinin sistemli təhlilini və dəyərləndirilməsini tələb edir.

Bu baxımdan ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin aparıcı istiqaməti olan neft strategiyasının reallaşdırılmasının milli iqtisadiyyatın inkişafındakı rolunun araşdırılması, dəyərləndirilməsi, qloballaşma şəraitində davamlı inkişafın prinsiplərinə, tələblərinə uyğun həmin resurslardan səmərəli və optimal istifadəyə imkan verən iqtisadi tənzimləmə mexanizminin işlənib hazırlanması və reallaşdırılmasının konseptual əsaslarının, prioritetlərinin müəyyənləşdirilməsinin nəzəri metodoloji və əməli problemlərinin tədqiqi mühüm əhəmiyyətə malikdir.

Məlumdur ki, təbii resurslar hər bir milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsinin mühüm əsası və amilidir. Son illərdə elmi-texniki tərəqqinin təsiri altında inkişaf etmiş ölkələrdə təbii resurs amillərinin iqtisadiyyata təsiri xeyli zəifləmişdir. Çunki, nəzərdən qaçırmaq olmaz ki, iqtisadi inkişafın potensialının həcminə, keyfiyyətinə təbii resurslarla yanaşı əmək resursları, intel-

lektual potensial, maliyyə potensialı, iqtisadiyyatın optimal sahə, ərazi, təkrar istehsal strukturu və nəhayət milli mentalitetlə şərtlənən amillər də güclü təsir göstərir. Bu baxımdan hər bir milli iqtisadiyyatın resurslar balansından istifadə dərəcəsi nəzərə alınaraq onun malik olduğu resurs üstünlüklərindən optimal və səmərəli istifadəyə imkan verən iqtisadi siyasətin formalaşdırılması və reallaşdırılması onun gələcək inkişafının təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, müstəqillik illərində aparıcı dünya ölkələrinin Azərbaycana maraqlarının formalaşmasında neft amili müstəsna rol oynamışdır. Təsadüfi deyildir ki, neft maraqları ölkənin nəinki daxili, eləcə də xarici siyasətinin prioritetlərinin müəyyənləşdirilməsi və reallaşdırılmasında həlledici əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycanın dünya iqtisadiyyatına fəal inteqrasiya olduğu müasir şəraitdə neft amili nəinki iqtisadi müstəqilliyimizin, eləcə də siyasi müstəqilliyimizin həlledici şərtinə, ümumən ölkədə sosial-iqtisadi inkişafin lokomotivinə çevrilir. Bütün bunlar öz növbəsində neft gəlirlərindən şəffaf və səmərəli istifadə problemini ön plana çıxarır.

Ulu öndər Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizdə milli iqtisadiyyatın inkişafı potensialının yaradılmasının fundamental əsaslarını qoydu. Həmin illərdə formalaşdırılan neft strategiyasına uyğun olaraq Azərbaycan dövləti özünün neft resursuna ancaq onun istehsalının artırılması kimi deyil, ona təkrar istehsal baxımından yanaşaraq həmin ehtiyatların şaxələnmiş istiqamətlərlə dünya bazarlarına çatdırılmasını təmin etmək üçün Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrini reallaşdırıldı. Bütün bunlar Azərbaycanın iqtisadi, siyasi, enerji təhlükəsizliyinin əsasını yaratmaqla ölkəmizin qloballaşma şəraitində beynəlxalq və regional iqtisadi inteqrasiya prosesinə fəal və səmərəli qovuşmasına imkan verdi.

Məlumdur ki, milli iqtisadiyyatın inkişafında resurs amili nə qədər əhəmiyyətli olsa da, davamlı inkişafın təmin olunmasında iqtisadiyyatı modernləşdirməklə innovativ yoluna keçilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan hər bir milli iqtisadiyyatın resurs potensialı son tələbatın mümkün qədər yaxşı ödənilməsi üçün iqtisadiyyatın əmtəə və xidmətlər istehsal etmək qabiliyyətini, imkanını əhəmiyyətli dərəcədə müəyyənlədirir. Bütün bunlar müasir dövrdə sosial-iqtisadi inkişafın amillər üzrə tədqiqinin əhəmiyyətini kəskin artırır. Məlumdur ki, maddi nemətlər və xidmətlərin ictimai istehsalı mahiyyət etibarilə cəmiyyətin sərəncamında olan resursların müəyyən həcm, tərkib və keyfiyyətə malik məhsula çevrilməsidir. Tələbatın inkişaf dinamikasının təhlili və proqnozu iqtisadi məqsədlərin müəyyən edilməsinin ilkin şərti kimi çıxış edir və tələbatla sərəncamda olan resursların müqayisəli təhlili nəticəsində sosial-iqtisadi inkişafın parametrləri müəyyən edilir.

Qeyd etmək lazımdır ki, təbii resurs potensialının tərkib hissəsi kimi təbii- iqlim şərait və mineral-xammal resursları, bioresurslar, su, hava çıxış edir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan zəngin və unikal təbii-iqtisadi potensiala malikdir. Burada həlledici amil karbohidrogen resurslarından səmərəli istifadə konsepsiyasının əsasını qoyan Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən imzalanmış «Əsrin müqaviləsi»ndə neft və qaz yataqlarının işlənməsinə birbaşa xarici investisiyaların, yeni texnologiyaların cəlb olunması, qeyri-neft sektorunun və iqtisadiyyatın inkişafına təkan verməyə imkan yaradan iqtisadi və hüquqi mexanizmlər, o cümlədən hasilatın pay bölgüsü sazişləri, vergi və digər mexanizmlər reallaşdırıldı.

Ümumən, resurs potensialının milli iqtisadiyyatın inkişafındakı rolunun da konkret təhlili bütünlükdə resurs anlayışının öznün xarakterizə edilməsini tələb edir. Resurslar (fransızca ressourses sözündən- köməkçi vasitələrdir) istehsalın təminat vasitəsini, mənbəyini bildirən, iqtisadi nəzəriyyənin fundamental anlayışıdır. Resurs potensialının mahiyyətinin açıqlanması, hər hansı bir iqtisadi hadisənin açıqlanması kimi, onu təşkil edən qarşılıqlı əlaqəli elementlərin təhlili əsasında baş verir. Bunların elementləri arasında münasibətlər sistemi müəyyən iqtisadi kateqoriya ilə iqtisadi münasibətlərin konkret məcmusu ilə ifadə olunur. Bununla əlaqədar olaraq onu qeyd etmək lazımdır ki, resurs potensialı daha geniş, inteqral anlayış olan iqtisadi potensialın bir hissəsidir. Resurs potensialı hakim ictimai-iqtisadi, eləcə də sosial-siyasi münasibətlərin təsiri altında formalaşır və ayrıca müstəqil iqtisadi kateqoriyaya ayrılmasını tələb edir. Potensial anlayışı (latınca potentia – qüvvə sözyndən) ilk əvvəl hansısa bir fiziki hərəkətin yerinə yetiril-

məsi üçün zəruri olan enerjini özündə əks etdirir. İqtisadiyyatda bir şəxsin, şirkətin, regionun və ya tam şəkildə ölkənin müəyyən maraqlarında hər hansı bir planın, müəyyən məqsədin həyata keçirilməsi üçün səfərbər edilən, hərəkətə gətirilən vasitələrin, ehtiyatların, mənbələrin ifadə olunması üçün geniş istifadə olunur.

Qeyd etmək lazımdır ki, resurs potensialına dar mənada, ancaq təbii resurs, əmək, maliyyə, elmi-texnoloji potensialların tərkib elementlərinin məcmusu kimi baxmaq olmaz. Resurs potensialının qiymətləndirilməsinə belə yanaşma ancaq kəmiyyət tərəfdən düzgündür. Təkrar istehsalın intensiv formalarına keçidin müasir şəraitində resurs potensialının birtərəfli kəmiyyət xarakteristikası özünü çox məhdud şəkildə göstərmişdir. Məsələn, əmək potensialının əmək qabiliyyətli və iqtisadi cəhətdən aktiv əhalinin sayı ilə müəyyən olunması onun səviyyəsi haqda heç də tam təsəvvür yaratmır. Keyfiyyət xarakteristikalarını da nəzərə almaq zəruridir: cins, yaş, təhsil, peşə hazırlığı, ixtisas və s. Buna görə də resurs potensialı kəmiyyət və keyfiyyət xarakteristikalarının simbiozudur, həm də təkrar istehsalın intensiv amillərinin rolunun güclənməsi ilə keyfiyyət parametrlərinin rolu artır.

Neft hasilatının artımı və əldə olunan gəlirlərdən istifadənin dövlət tənzimlənməsi sisteminin modelinin xarakterik cəhətlərinin aşkara çıxarılması, dəyərləndirilməsi resursların mənimsənilməsi prosesində dövlətin iştirakı formalarının, yerinin və rolunun müəyyən edilməsi bu sferada tətbiq olunan hüquqi və iqtisadi mexanizmlərin zəngin dünya təcrübəsinin tədqiqini, öyrənilməsini nəzərdə tutur və onların ölkəmizə tətbiqi prinsiplərini əsaslandırmağa imkan verir. Belə təhlilin məqsədyönlülüyü neft sektorunun Azərbaycan iqtisadiyyatı üçün xüsusi əhəmiyyətliliyi, dünya və milli iqtisadiyyatın inkişaf meyllərinə uyğun neft resurslarının istifadəsinin dövlət tənzimlənməsinin işlənib hazırlanması və tətbiqinin zəruriliyi ilə müəyyən olunur. Neft resurslarından istifadənin dövlət tənzimlənməsinin, xarici ölkələrin təcrübəsinin öyrənilməsi göstərir ki, ümumi cəhətlərə baxmayaraq ayrı-ayrı ölkələrdə tətbiq olunan tənzimləmə modellərinin müxtəlifliyi obyektiv olaraq aşağıdakı amil və şərtlərlə izah olunur:

- dövlətlərin iqtisadi-siyasi və təşkilati quruluşunun müxtəlifliyi;
- milli iqtisadiyyatın inkişaf səviyyəsinin fərqli olması;
- regionda gedən geosiyasi proseslərin kəskinliyi;
- dövlətin iqtisadi proseslərə müdaxilə səviyyəsi;
- ölkənin iqtisadiyyatında təbii resurslardan istifadə konsepsiyalarının fərqliliyi;
- neft hasilatının geoloji-coğrafi şəraiti;
- ölkənin dünya iqtisadiyyatına inteqrasiya dərəcəsi və s.

ƏDƏBİYYAT

1. Mahmudov M.M., Mahmudova İ.M., "Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi", Bakı-2011.
2. Əliyev T.N. Qeyri – neft sənayesinin iqtisadiyyatı. Bakı. 2018. 267 s.
3. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt. 2018, 376 s.
4. Məmmədov İ. N., Abbasov A. F. Qeyri-neft sahəsinin inkişaf istiqamətləri, (monoqrafiya) Bakı, Apastroff, - 2016, 248 səh.

Фатима Деянет кызы Алиева
магистрант,
Назим Тофиг оглы Ганизаде
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Ресурсное обеспечение развития национальной экономики и основные направления её государственного регулирования

Резюме

В статье рассматривается роль ресурсного потенциала в обеспечении устойчивого развития национальной экономики в нашей республике. Оценены модели государственного

регулирования использования нефтяных ресурсов, макроэкономическая характеристика ресурсного потенциала экономического развития Азербайджана. Также предпринята попытка определить основные направления и приоритеты совершенствования государственного механизма эффективного использования нефтяных доходов в условиях глобализации.

Fatima Dayanat Aliyeva
master,
Nazim Tofig Ganizada
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Resource provision for the development of the national economy and main directions of ıts state regulation

Summary

The article examines the role of resource potential in ensuring the sustainable development of the national economy in our republic. It evaluates the models of state regulation for the use of oil resources, the macroeconomic characteristics of Azerbaijan's resource potential for economic development, and attempts to identify the main directions and priorities for improving the state mechanism of efficient utilization of oil revenues in the context of globalization.

Kənan İman oğlu QASIMOV
magistrant,
Nazim Tofiq oğlu QƏNİZADƏ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA İNTELLEKTUAL MÜLKİYYƏT OBYEKTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ METODLARI

Ölkədə yerli rəqabətə davamlı məhsul istehsalını təmin edən yeni texnologiyaların geniş tətbiq edilməsi bazar münasibətlərinin sürətlə formalaşmasının vacibliyi ilə əlaqədardır. Bu aspektdə maliyyə və intellektual mülkiyyət münasibəti problemləri daha mürəkkəb və aktual hesab edilir, çünki müəssisələrin innovasiya fəaliyyətindən müsbət son nəticənin əldə olunması imkanı məhz onların həlli dərəcəsindən asılı olur.

Müasir şəraitdə dünya və daxili bazarlarda kəskin rəqabətin inkişafı, yeni aktiv intellektual mülkiyyətin təsərrüfat dövriyyəsinə daxil edilməsi həm ayrı-ayrı təsərrüfat subyektlərinin, həm də bütövlükdə ölkənin bütün xalq təsərrüfatı kompleksinin inkişafı taktikasını və strategiyasını müəyyənləşdirir. Patent - lisenziya fəaliyyətinin islahatlarına baxmayaraq, qiymətləndirmə fəaliyyəti sahəsində bir sıra normativ aktların qəbul edilməsi, innovasiyaların tətbiqinin təsərrüfat dövriyyəsinə daxil edilməsi indiyədək Azərbaycanda kütləvi xarakter daşımır. İlk növbədə bu onunla izah olunur ki, intellektual mülkiyyətin qiymətləndirilməsi və yeniliklərin tətbiqi üçün investisiya mühitinin yaradılması ilə bağlı mürəkkəb problemlər indiyədək həll edilməmiş qalır.

İntellektual mülkiyyətin qiymətləndirilməsi üçün Azərbaycan Respublikasında qiymətləndirmə fəaliyyətinin ilkin mərhələsində yalnız xərc yanaşmasından istifadə olunurdu. Müstəsna hüquqların qiymətləndirilməsi modeli ictimai zəruri əmək xərclərinin ölçüsünə, intellektual məhsulların yaradılması və tətbiqi, həmçinin istifadəsi sahəsində əmək məhsuldarlığına onların təsir dərəcəsinin qiymətləndirilməsinə əsaslanırdı.

Hal-hazırda Azərbaycanda qiymətləndirmə fəaliyyəti dünya təcrübəsinə əsaslanan intellektual mülkiyyətin qiymətləndirilməsinin yerli metodologiyasının hazırlanmasına yönəldilmişdir.

Tamamilə aydındır ki, Azərbaycanda bazar iqtisadiyyatının inkişafı prosesində və onun gələcəkdə dünya iqtisadi birliyinə inteqrasiyası ilə bir çox problemlər həll olunacaq və Azərbaycanın qiymətləndirmə təcrübəsində xarici yanaşma və metodların tətbiqi yolunda maneələrin əksəriyyəti ləğv olunacaq. Artıq bu sahədə dünya təcrübəsinin varisliyi yolunda ilk addımlar atılmışdır, qiymətləndirmə fəaliyyəti prosesində qiymətləndiricilər tərəfindən istifadə edilə bilən əsas yanaşma və metodlar qanunvericiliklə müəyyən edilmişdir. Bununla belə, intellektual mülkiyyətin qiymətləndirilməsi metodologiyası hazırlanmamışdır, çünki bazar iqtisadiyyatının müasir Azərbaycan reallıqlarında xarici yanaşma və metodlardan istifadə zamanı müəyyən çətinliklər mövcuddur. Məsələn, Azərbaycanın maliyyə bazarının, xüsusilə kapital bazarının geriliyi, əksər müəssisələrin səhmlərinin qeyri-likvidliyi müqayisəli (bazar) yanaşmanın tətbiqini çətinləşdirir, ümumi makro-iqtisadi qeyri-stabillik və uzunmüddətli investisiyalarla bağlı risklərin yüksək səviyyəsi isə intellektual mülkiyyətin qiymətləndirilməsində gəlir yanaşmasının əsasını şübhə altına qoyur.

İntellektual mülkiyyətin bazar dəyərinin formalaşdırılması ilə bağlı problemin elmi işlənmə dərəcəsi müəssisələrin fəaliyyətinin maliyyə nəticələrində onun təsirlərini nəzərə alaraq, bazar mühitində yüksək praktiki tələbatı ilə müəyyən edilir. İntellektual mülkiyyətin bazar qiymətinin formalaşması prosesinin tədqiqinin məqsədi aşağıdakılarla şərtlənir:

- iqtisadiyyatın real sektorunun müəssisələrinin məhsullarının (işlərin, xidmətlərin) rəqabət qabiliyyətinin yüksəldilməsinə kömək edən iqtisadiyyat institutu kimi intellektual mülkiyyətin rolunun və yerinin müəyyənləşdirilməsi;
- təsərrüfatçılığın müxtəlif sistemlərində intellektual mülkiyyətin dəyərinin formalaşması modellərinin təhlilinin aparılması;
- Azərbaycanda və xaricdə tətbiq olunan intellektual mülkiyyətin qiymətləndirilməsi yanaşmalarının və metodlarının kompleks tədqiqatı;
- intellektual mülkiyyətin investisiya cəlbediciliyinə əhəmiyyətli təsir göstərən əsas amillərin aşkar edilməsi;
- müəssisənin maliyyə-iqtisadi göstəricilərində onun bazar qiymətinə təsiri nəzərə alınmaqla intellektual mülkiyyətin qiymətləndirilməsi metodologiyasının və praktikasının əsas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi.

Sivil cəmiyyətin əsas göstəricilərindən biri bütün dövrlərdə elmin, mədəniyyətin, texnikanın inkişafına necə diqqət göstərilməsi olub. Cəmiyyətin intellektual potensialının və mədəni inkişaf səviyyəsinin əhəmiyyətliliyi nəticə etibarı ilə onun qarşısında duran iqtisadi problemlərin uğurlu həllindən asılıdır. Öz növbəsində elm, mədəniyyət və texnika yalnız müvafiq şəraitdə, o cümlədən intellektual mülkiyyətin qiymətləndirilməsi və lazımi hüquqi müdafiəsi olduqda inkişaf edə bilər. Müasir bazar iqtisadiyyatı şəraitində firma adları, əmtəə və xidmət nişanları və əmtəənin mənşə yerinin adlandırılması kimi mülkiyyət obyektləri mühüm element hesab edilir.

Hər bir ölkənin iqtisadi potensialı yeni biliklər əldə etmək və texnologiyalar yaratmaqla istehsal sahələrini genişləndirmək, müxtəlif çeşidli yeni məhsullar əldə etmək imkanları ilə təyin olunur. İstehsal sahələrinin genişləndirilməsi isə bilavasitə ayrılan investisiyaların həcmindən və yeni texnologiyaların tətbiqi səviyyəsindən asılıdır. İnvestisiya proseslərində pul vəsaitləri, kreditlər, paylar, səhmlər, məqsədli pul ayırmaları və digər qiymətli kağızlarla yanaşı intellektual mülkiyyət obyektlərinə olan hüquqlardan da istifadə olunur.

İntellektual mülkiyyət geniş mənada əqli mülkiyyətin nəticəsi və ya individuallaşmış vasitələrin qanunla təsbit edilmiş müstəsna hüququdur. "İntellektual mülkiyyət" anlayışından hələ XVIII-XIX əsrlərdə istifadə etməyə başlamışlar, lakin geniş istifadəsi XX əsrin ikinci yarısında 1967-ci ildə Cenevrədə BMT-nin himayəsi altında Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis olunması haqqında Konvensiyanın imzalanması ilə bağlıdır.

Təşkilatın əsas vəsaitləri əsasən, inkişaf etməkdə olan və asılı ölkələrin "məlumatlandırma", "təlim", "qanunların hazırlanmasında yardım" üçün ayrılır. Təşkilatın yanında arbitraj və vasitəçilik üzrə mərkəz fəaliyyət göstərir. 1999-cu ildən Üumdünya Əqli Mülkiyyət Təşkilatı internetdə ən geniş yayılmış və tipik domen adlarının qeydiyyatı və istifadəsi zamanı yaranan mübahisələrin nizamlanması üzrə xidmət göstərir. Qanunda intellektual mülkiyyət anlayışı vahid termin

hesab edilir və ona daxil olan sözləri ayrı-ayrılıqda təfsir etmək mümkün deyil.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının məlumatına görə intellektual mülkiyyət iki kateqoriyaya bölünür:

1) sənaye mülkiyyəti - bura ixtiralar (patentlər), əmtəə nişanları, sənaye nümunələri və coğrafi göstərişlər;

2) müəlliflik hüququ - bura romanlar, pyeslər və şeirlər, filmlər, musiqi əsərləri kimi ədəbi və bədii yaradıcılıq, şəkillər, rəsmlər, heykəltaraşlıq və s. daxildir.

Qeyd etmək lazımdır ki, müəlliflik hüququnun əsas ixtira obyektləri aşağıdakılardır; faydalı modellər; sənaye nümunələri; əmtəə nişanları; firmanın adı; əmtəənin mənşə yerinin adlandırılması; haqsız rəqabətə qarşı müdafiə. elm, ədəbiyyat və incəsənət əsərləri; monoqrafiya; şeirlər; şəkillər; musiqi bəstələri və s. ÜƏMT-nin təsis edilən sənədlərinə əsasən intellektual mülkiyyət obyektlərinə aşağıdakılar aiddir:

- ədəbi, bədii və elmi əsərlər;
- incəsənət nümayəndələrinin ifaçılıq fəaliyyəti, səsyazma, radio və televiziya verilişləri;
- insan fəaliyyətinin bütün sahələrdə ixtiraları;
- elmi kəşflər;
- sənaye nümunələri;
- əmtəə nişanı, xidmət nişanı, firmanın adı və kommersiya təyinatı;
- haqsız rəqabətə qarşı müdafiə.

Hüquqi tənzimlənmənin xüsusiyyətlərindən asılı olaraq intellektual mülkiyyəti 3 əsas hissəyə bölmək olar:

1) patent hüququ ilə qorunan yaradıcılıq fəaliyyətinin nəticələri;

2) müəlliflik hüququ ilə qorunan yaradıcılıq fəaliyyətinin nəticələri;

3) birgə hüquqlara aid edilən yaradıcılıq fəaliyyətinin nəticələri.

Beləliklə, patent hüququ ilə qorunan intellektual mülkiyyət obyektlərinə sənaye mülkiyyət obyektləri, müəlliflik hüququ ilə qorunan intellektual mülkiyyət obyektlərinə mədəniyyət və incəsənət əsərləri aid edilir.

ƏDƏBİYYAT

1. Nuriyev Ə. “Regional siyasət və idarəetmənin əsasları”, Bakı -2011.
2. Allahverdiyev S.S. Azərbaycan Respublikasının müəlliflik hüququ və patent hüququ. Bakı, 2000.
3. Axundova N.F. Təşkilati davranış. Bakı, 2014.
4. "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu. 22 may 2012-ci il
5. Kazımlı.X.H., Ağabəyov.Ş. Əmlakın qiymətləndirilməsi. Bakı: 2011. 384 səh.

Кянан Иман оглы Гасымов
магистрант,
Назим Тофиг оглы Ганизаде
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Методы оценки объектов интеллектуальной собственности в Азербайджане

Резюме

В статье исследуется сущность и классификация интеллектуальной собственности, правовая база оценки объектов интеллектуальной собственности а также изучены методы и условия формирования рынка интеллектуальной собственности в Азербайджане.

Kenan Iman Qasimov
master,
Nazim Tofig Ganızada
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Valuation methods of intellectual property objects in Azerbaijan

Summary

The article explores the essence and classification of intellectual property, the legal framework for the valuation of intellectual property objects, as well as the methods of forming the intellectual property market in Azerbaijan.

Mələk Emil qızı HACIYEVA
magistrant,
Fazil Həşim oğlu ABBASOV
iqtisad üzrə fəlsəfə doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

AQRAR SAHƏDƏ İQTİSADİ-HÜQUQİ TƏNZİMLƏNMƏNİN BEYNƏLXALQ TƏCRÜBƏSİ

Agrar sahədə sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənmə və dövlət tərəfindən dəstəklənməsi sistemi əhalinin və dövlətin maraqlarına uyğun şəkildə yerinə yetirilir. Belə olan halda dövlətin birinci vəzifəsi bazarın şərtlərinə uyğun olaraq sahibkarlıq subyektlərinin səmərəli fəaliyyət göstərməsi üçün iqtisadi və hüquqi tənzimlənmə mexanizmini yaratmaqdan ibarədir. Qeyd etmək lazımdır ki, inkişaf etmiş Qərb ölkələrinin çoxunda kənd təsərrüfatı sistemində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dövlət tərəfindən bir çox güzəştlər edilir. Çünki kənd təsərrüfatı sahəsi cəmiyyətin əksər hissəsinin məşğulluğunu təmin edir və yenilikçi dəyişikliklərin tətbiqinə şərait yaradır. Kənd təsərrüfatında istehsalın miqyasının müntəzəm artımı, artımın nəticələrinin həyat keyfiyyətinə təsiri, iqtisadi sferada cəmiyyətin və dövlətin qarşısında duran problemlərin çətinləşməsi ilə əlaqədar bütün iqtisadi sistemin, bu sistemin ayrı-ayrı sektorlarının və elementlərinin fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi zərurəti artır. Bu sahədə dövlət və bazar tənzimləmə mexanizmlərinin uyğunlaşdırılması nəzərə alınmaqla, dövlət qurumlarının seçilmiş sahibkarlıq subyektləri ilə qarşılıqlı fəaliyyətinin təşkili formaları, habelə idarəetmənin məqsədləri, mexanizmləri əhəmiyyətli dərəcədə dəyişir.

Təcrübədə inkişaf etmiş Qərb ölkələrinin hər birində kənd təsərrüfatı sferasında hüquqi, inzibati və iqtisadi dəstəyin müxtəlif forma və metodlarından istifadə edirlər. Kənd təsərrüfatı sektorunda sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin əsasını bu sektorun inkişafında əlverişli mexanizmin yaradılması, məzmunu isə sahibkarlığın məqsədyönlü inkişafı üçün dövlət orqanları tərəfindən hüquqi və iqtisadi təminat və stimulların verilməsi, eləcə də güzəştli əsaslarla sektora investisiya və maliyyə resurslarının qoyuluşunun təşkilindən ibarətdir. Dövlət tərəfindən stimullaşdırma siyasətinə, hər şeydən öncə, güzəştli kredit proqramlarının işlənib hazırlanmasını və reallaşdırılmasını təmin edən normativ-hüquqi aktlar, güzəştli subsidiyalar, dotasiyalar, birbaşa və zəmanətli kreditlər, vergi güzəştləri, vergi amnistiyaları və maliyyə-iqtisadi dəstəyin başqa formaları daxil edilir. Dövlətin və sahibkarlıq subyektlərinin maraqlarının uyğunlaşdırılması dövlətin tənzimlənmə siyasətinin aşağıdakı istiqamətləri ilə təmin edilir:

- təkrar istehsal prosesinin sürətləndirilməsi ilə sahibkarlıq subyektlərinin iqtisadi gücünü və maliyyə dayanıqlığını yüksəltmək, bazarda daha çox tələb edilən malların layihələndirilməsi və bu layihələrin icrası;
- sektorda təsərrüfat subyektlərinin yüksək texnoloji sahələrdə yeni bazar seqmentlərinin formalaşdırılması, istehsal müəssisələrinin rəqabətədavamlılığının yüksəldilməsini təmin edən innovasion fəaliyyətinin stimullaşdırılması;

- sahibkarlıq subyektlərinin mülkiyyətinin, əmlakının və əmlak hüquqlarının müdafiə edilməsi, bu hüquqların əldə olunması, toplanması və institusional dəyişikliklərin gedişatında uğurlu təkrar istehsala köməyi təmin edən hüquqi bazanın və institusional mexanizmlərin formalaşdırılması və s.

İnkişaf etmiş Qərb ölkələrində kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və stimullaşdırılması üzrə dövlət siyasətinin əsas məqsədləri aşağıdakılardır:

1. kənd təsərrüfatı sektorunun iqtisadi artımı;
2. kommersiya münasibətlərində bərabərhüquqluluğun və rəqabətədavamlılığın qorunması və sahibkarlıq fəaliyyətinin uğurlu inkişafı üçün əlverişli mühitin yaradılması;
3. sektorda rəqabət qabiliyyətinin və məşğulluğun artırılması.

Avropa İttifaqı ölkələrində kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin dövlət tərəfindən maliyyələşdirilməsini və inkişafının tənzimlənməsinin və stimullaşdırılmasın çox mühüm istiqamətini qeyd etmək olar.

Buna misal olaraq sığorta fondlarının və sığorta risklərinin sığortalanması fondlarının dövlət büdcəsi tərəfindən maliyyələşdirilməsi əsasında birbaşa subsidiyalaşdırılması və həm də şəxsi və dövlət əmanətlərinin iştirakı ilə yardım fondlarının formalaşdırılması, kreditlərin qaytarılması üçün zəmanətlərin verilməsi, kreditlərin güzəştli faizlərlə verilməsini əsas tənzimlənmə elementləri kimi qeyd etmək olar.

Almaniya Federativ Respublikasında kənd təsərrüfatı sektorunun ümumi daxili məhsulda payı 2-3%-dən yuxarı qalxmır. Buna əsas səbəb kimi iqtisadi sistemin başqa sahələrinin inkişafı kontekstində bu sahənin istehsal imkanlarının nisbətən kiçik olmasını göstərmək olar. Almaniyada ölkənin iqtisadi inkişafında istehsal sektorlarından asılı olaraq kiçik və orta sahibkarlıq subyektləri əhəmiyyətli töhfələr verir.

Belə ki, kiçik və orta sahibkarlığın daha geniş yayılmış hüquqi forması "məhdud məsuliyyətli cəmiyyət"lərdir və ölkənin qərb hissəsində firmaların 70%-ə qədəri məhdud məsuliyyətli cəmiyyətlərdir, şərq hissəsində isə yeni yaradılmış kiçik və orta sahibkarlıq müəssisələrinin 75%-dən çoxu bu təşkilati-hüquqi formanı seçmişdir. Bu ölkədə kiçik biznesə dövlət dəstəyi mexanizminin qarşısında duran başlıca prinsip kiçik və orta sahibkarlıq müəssisələrinin iqtisadi gücünün artırılmasını stimullaşdıran dəstəyin verilməsidir. Dövlətdən kömək almaq üçün əsas şərt kiçik və ya orta sahibkarlıq müəssisəsinin iri sahibkarlıq firmasının törəmə firması olmaması, kiçik və orta sahibkarlıq müəssisələrinin kapitalında iri firmaların hissəsinin 25%-dən çox olmamasıdır.

Kənd təsərrüfatı sektoru üzrə sahibkarlığa dövlət dəstəyinin Avstriya təcrübəsi sahibkarlıq subyektlərinin ölkədə dayanıqlı və davamlı təsərrüfat inkişafı prinsipinə söykənir. Dövlət qiymət endirimləri haqqında, haqsız rəqabətə qarşı sanksiyalar haqqında, malların hərracda satışı haqqında və s. barədə vaxtında qəbul edilmiş qanunlara və normativ aktlara qeyd-şərtsiz əməl olunması əsasında bazarda ədalətli rəqabəti təmin etmək və antiinhisar siyasəti həyata keçirmək səlahiyyətini öz əlinə cəmləşdirmişdir. Kənd təsərrüfatı sferasında dövlət tərəfindən sahibkarların proteksiya edilməsinə xüsusi diqqət ayrılır. Avstriya hökuməti əsas diqqəti, başlıca olaraq, sahibkarlıq üçün əlverişli ilkin şəraitin yaradılmasına - güzəştli kredit və subsidiyaların, konyunktura və tələbat barədə məlumatların verilməsinə istiqamətləndirmişdir.

- Dövlət tərəfindən rəqabətin mühitin təmin edilməsi özündə dörd əsas istiqaməti birləşdirir: üstünlüklərə sahib olan müəssisələr üzərində möhkəm nəzarəti nəzərdə tutan antiinhisar və rəqabət qanunvericiliyi;
- işgüzar fəallıq, məşğulluq, həmçinin satılan əmtəələrə və xidmətlərə tariflərin qoyulması üçün müəyyən qaydaların və normaların tətbiqi;
- azad sahibkarlıq müəssisələrinin bazara çıxışı normalarının müəyyən qaydada tənzim edilməsi;
- beynəlxalq ticarət əlaqələrinin ardıcıl olaraq liberallaşdırılması.

Cənubi Koreya Respublikasında kənd təsərrüfatı sferasının hüquqi tənzimlənmə mexanizmi və yüksək işgüzar fəallıq bir-biri ilə sıx əlaqədar göstəricilərdir. Vurğulamaq lazımdır ki, Cənubi Koreya ABŞ və Yaponiyada olduğu kimi iqtisadiyyatın potensial imkanı olan bütün sektorları üzrə yüksək iqtisadi artım tempinə sahibdir. Cənubi Koreyada əksəriyyəti hökumət təşkilatı olmaqla, on beş təşkilat iqtisadi fəaliyyət sektorlarına, xüsusilə kənd təsərrüfatında kiçik sahibkarlıq kate-

qoriyasına aid olanlara yardım etməklə məşğuldur. Ölkənin Ticarət və Sənaye Nazirliyində kiçik biznes subyektlərinin fəaliyyəti ilə məşğul olan büro mövcuddur və həmin büro kiçik sahibkarlıq müəssisələrinin yaradılmasını stimullaşdırır, banklar qarşısında zəmanətçi kimi çıxış edərək prosesin yerinə yetirilməsinə dəstək verir, əvəzsiz subsidiyalar verir və müxtəlif administrativ məsələlərdə köməklik göstərir.

Tədqiqatlardan məlum olur ki, inkişaf etmiş ölkələrin praktikasında sahibkarlıq orqanlarının iqtisadi qanunlarlar tənzim edilməsi iqtisadiyyatın digər sferalarından fərqli olaraq bir qədər böyük miqyasa malikdir. Büdcə subsidiyaları başlıca olaraq kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq subyektlərinin zərərlərinin ödənilməsində əhəmiyyətli rola malikdir. Dövlət büdcəsi təfindən verilən maliyyə yardımları eyni zamanda kənd təsərrüfatı məhsulu istehsalçılarının maliyyə nəticələrinin yaxşılaşdırılmasında öz töhfəsini verir.

Bilindiyi kimi, kənd təsərrüfatı sferasında məhsul istehsalçılarının fəaliyyətinin maliyyə nəticələri, başlıca olaraq əldə edilən gəlirlə məhsulun reallaşdırılmasına çəkilən istehsal xərcləri arasındakı fərqdən formalaşır. Keçid iqtisadiyyatı şəraitində mənfəət əslində kənd təsərrüfatı ilə məşğul olan istehsal subyektlərinin təsərrüfat fəaliyyətinin başlıca həvəsləndirici amili kimi xarakterizə edilir və firmanın maliyyə resurslarının formalaşmasının başlıca mənbəyi kimi özünü göstərir.

Qeyd etmək lazımdır ki, əslində kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinin fəaliyyətindən əldə edilən gəlirin səviyyəsi həmçinin məhsul istehsalına çəkilən xərclərin aşağı salınmasından, daha dəqiq desək, məhsul vahidinin maya dəyərinin aşağı salınmasından, həm də məhsuldarlıq səviyyəsinin yüksəldilməsindən bilavasitə asılıdır. Eyni zamanda ölkə bazarında satış qiymətlərinin kənd təsərrüfatın sektorunda fəaliyyət göstərən sahibkarlıq sübyektləri üçün sərf edən olması, son nəticədə isə mənfəətin artımını şərtləndirən başlıca təsir vasitəsi kimi çıxış edir.

İnkişaf etmiş və Qərb ölkələrinin təcrübəsində bir çox hallarda qiymətlərin və tariflərin tənzimlənməsinə istiqamətlənmiş siyasət həyata keçirilir ki, bu da dolayı yolla kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin məhsulun satışından əldə etdikləri mənfəətin artırılmasına münbit şərait yaradır. Bunlardan əlavə məhsul istehsalçılarının məhsulun maya dəyərinə çəkdiyi xərclərinin müəyyən hissəsinin ödənilməsi, o cümlədən maddi resurslara, elektrik enerjisinə, yanacaq və yağlama materiallarına çəkilən xərclərin bir hissəsinin dövlət büdcəsindən kompensasiya edilməsi də kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən istehsalçıların məhsul satışından qazandıqları mənfəətin həcminin artırılmasında da əhəmiyyətli rola malikdir. Bütövlükdə isə dövlət büdcəsi tərəfindən verilən yardımlar həm birbaşa, həm də dolayı yolla kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən sahibkarlıq müəssisələrinin gəlirlərinin yüksəldilməsinə zəmin yaradır. Qərb ölkələrinin, eləcə də inkişaf etmiş ölkələrin kənd təsərrüfatı sektorunda kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına kömək tədbirləri düşünülmüş vergi siyasəti ilə həyata keçirilir. Ölkəmizin kənd təsərrüfatında mövcud olan təsərrüfat subyektləri bu cür tənzimlənmə vasitəsi üzrə nəzərdə tutulan imtiyazlardan istifadə edirlər. Belə ki, hal-hazırda kənd təsərrüfatı məhsulları istehsal edən sahibkarlıq subyektləri torpaq vergisi istisna olmaqla digər bütün vergi növlərindən azad olunmuşdurlar.

Göstərmək lazımdır ki, bu vəziyyət 1999-cu ildən indiyə kimi davam etməkdədir. Ümumiyyətlə beynəlxalq təcrübədə sahibkarlıq subyektlərinə güzəştli vergitutmanın müddəalarına aşağıdakıları göstərmək olar :

1) məhsul istehsalı müəssisələri üçün şirkətin yeni avadanlığa, tikintiyə investisiya qoyuluşları həcmində xərclərdən mənfəət vergisi faizinin ən aşağı səviyyəyə endirilməsi;

2) elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə xərclər hissəsi həcmində– mənfəət vergisi faizinin aşağı endirilməsi;

3) mənfəət hesabına vergiyə cəlb edilməyən xüsusi fondların yaradılmağına– icazənin verilməsi;

4) mənfəət vergisi faizinin mümkün qədər aşağı salınması;

5) mənfəətdən və gəlir vergisində difernsiallaşdırılmış sistemin tətbiq edilməsi;

6) vergiyə cəlb edilməyən xüsusi ehtiyatın yaradılması;

7) sürətləndirilmiş amortizasiya sistemindən istifadə edilməsi.

Göstərmək lazımdır ki, qeyd edilən güzəştlər təkcə kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə deyil, ölkənin "problem rayonlarında" yerləşən və ya iqtisadiyyatın ayrı-ayrı sektorlarına aid olan qruplara da şamil olunur.

Bütün inkişaf etmiş ölkələrdə olduğu kimi güzəştli vergi siyasəti əsasən kənd təsərrüfatı istehsal edən müəssisələrə və iqtisadiyyatın başq sektorlarında fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektləri üçün güzəştli mənfəət vergisi tarifini nəzərdə tutur: Məsələn, Böyük Britaniyada mənfəət vergisi dərəcəsi bütün müəssisələr üçün 35% olduğu halda kiçik sahibkarlıq subyektləri üçün 25%-dir. Buna bənzər güzəştlər Almaniya və Fransada və digər inkişaf etmiş ökələrdə də mövcuddur.

Qeyd edilən təsərrüfat subyektlərinə beynəlxalq iqtisadi əlaqələrin inkişafı məqsədilə dövlət dəstəyi də xüsusi əhəmiyyət kəsb edir. Bu dəstək aşağıdakı göstərilənləri əhatə edir:

1) məhsul ixrac edən müəssisələrə maliyyə və vergi güzəştlərinin edilməsi;

2) xarici iqtisadi fəaliyyətlə məşğul sahibkarlıq subyektlərinə təminatım verilməsi;

3) informasiya-məlumat şəbəkələrinin formalaşdırılması, əmtəələrin və xidmətlərin satış bazarları və bazar strukturunun vəziyyəti barədə düzgün informasiyanın çatdırılması.

Beynəlxalq təcrübədə ixrac olunan mallar əlavə dəyər vergisindən, ixrac edilən məhsullar üçün istifadə edilən idxal malları isə əksər hallarda idxal gömrük rüsumlarından azad edilir. Bu kimi tədbirlər ixracın və istehsalın miqyasından asılı olmayaraq, bütün təsərrüfat subyektlərinin ixrac fəaliyyətinə stimullaşdırıcı təsir göstərir. Sahibkarların da bir sıra xüsusiyyətləri vardır: Birincisi, sahibkarlar bütün ixracatçılara lazım olanından daha çox əlavə köməyə ehtiyac duyurlar; ikincisi, həvəsləndirmənin ünvanlılığını təmin etmək lazımdır.

Bundan başqa, onlara ixrac malının istehsalı ilə bağlı novatorluq fəaliyyətində kömək göstərilir, beynəlxal iqtisadi fəaliyyət sahəsində kiçik sahibkarlara tövsiyələr verilir, ixracın kreditləşdirilməsi və sığortalanması həyata keçirilir, ixtisaslı kadr hazırlığı həyata keçirilir, ixracat sahəsində uğurlar qazanmış kiçik və orta sahibkarlıq müəssisələrinin təcrübəsi istifadə edilir. Kreditləşdirmə ilə birlikdə ixrac kreditlərinin dövlət tərəfindən sığorta olunması da kiçik və orta sahibkarlıq müəssisələrinə əhəmiyyətli dərəcədə kömək göstərir. Sığortanı xüsusi dövlət orqanları, özəl sığorta şirkətləri və qarışıq dövlət-özəl şirkətləri dövlət büdcəsinin vəsaitləri hesabına aparırlar ki, bu zaman da ixrac itkilərinin 80-95%-i kompensasiya edilir. Bu kimi dəstək tədbirləri ona gətirib çıxarır ki, Avropa İttifaqının üzvü olan dövlətlərin sənaye ixracında kiçik və orta sahibkarlıq müəssisələrinin məhsulunun payı bütün ixracın təxminən 30% hissəsini, o cümlədən İtaliyada 31%-ni, Almaniyada 27%-ni, İrlandiyada 56%-ni, Fransada 25%-ni, Belçika və Niderlandda 35-40%-ni təşkil edir. Kiçik müəssisələrin ixrac məhsullarının istehsalında payı Yunanıstanda 60%, Fransada 28%, İrlandiyada 25%, Belçikada 52%-dir. Rusiya Federasiyasında kənd təsərrüfatı sferasında hüquqi tənzimləmə "Aqrar sektorda istehsalın dövlət tənzimləmələri haqqında" Qanuna müvafiq olaraq yerinə yetirilir. Bu qanuna əsasən hüquqi tənzimləmələr bir sıra vacib istiqamətlərə görə müəyyən edilmişdir: kənt təsərrüfatı sektorunda istehsal edilən məhsullara uyğun xammal və ərzaq məhsulları bazarının yaranması və yüksəlişi, kredit təminatı, kənd təsərrüfatında istehsal subyektlərinin maliyyələşmə imkanlarının artırılmasının təmin edilməsi, güzəştli vergiqoyma, beynəlxalq ticarət əlaqələrində kənd təsərrüfatı istehsalçılarının maraqlarının müdafiəsi, sığorta münasibətləri, kənt təsərrüfatı məhsullarının istehsalında elmi fəaliyyətin həyata keçirilməsi və inkişafının təmin edilməsi, kəndlərdə sosial infrastrukturun daha da inkişaf etdirilməsi və s. Ölkəmizdə kənd təsərrüfatı sahibkarlığının hüquqi tənzimlənməsi və dəstəklənməsi istiqamətlərində regional siyasəti xüsusi olaraq vurğulamaq lazımdır ki, bu siyasətin də fərqləndirici cəhəti regionların sənaye cəhətdən iqtisadi inkişaf səviyyəsindən çıxış edərək qanunvericilikdə də nəzərə alınmağıdır.

Kənd təsərrüfatında sahibkarlıq sferasında regional siyasət, başlıca olaraq, istehsalın yüksək texnoloji növlərinin inkişafına, innovativ fəaliyyətə, texnoparkların, digər nəqliyyat, rabitə, kommunikasiya infrastruktur obyektlərinin formalaşdırılmasına, region üçün ənənəvi olan istehsal sahələrinin maliyyə yenidənqurmasına, regional və yerli maliyyə bazarlarının möhkəmləndirilməsinə, istehsal, marketinq xidmətlərinin göstərilməsinə, təhsil sisteminin və mədəniyyət sferasının inkişafına istiqamətləndirilir.

Dövlət tərəfindən vahid regional siyasətin həyata keçirilməsi aşağıdakı formada yerinə yetirilir:

❖ iqtisadi inkişaf səviyyəsinin aşağı və məşğulluğun aşağı olduğu regionların müəyyən edilməsi;

❖ regionlarda artım imkanlarına sahib təsərrüfat subyektlərinin aşkara çıxarılması;

❖ regionların inkişafına dair proqramların işlənib hazırlanması;

❖ hazırlanan proqram və layihələrdə iştirakda marağı olanların əməkdaşlığa cəlb edilməsi üçün təkliflərin hazırlanması.

Kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektləri üzrə regional siyasət milli səviyyədə özündə iki istiqaməti göstərir: mərkəzləşdirilmiş regional planlaşdırma və dövlət büdcəsi resurslarının – ayrı-ayrı rayonların ehtiyacları üçün ayrılması; mərkəzsizləşdirilmiş regional siyasət və regionların özündə lokal səviyyədə tədbirlərin həyata keçirilməsi. Fərz edirik ki, ölkəmizdə qeyri-neft sektorunun inkişafının əsas məqsədlərinin müəyyənləşdirildiyi hazırkı iqtisadi vəziyyətdə iqtisadiyyatın strateji sahələrindən olan kənd təsərrüfatının dayanaqlı və davamlı inkişafını təmin etmək üçün bu istiqamətdə qabaqcıl olan ölkələrin təcrübəsindən istifadə olunması ölkə iqtisadiyyatının yeni mərhələsində mühüm töhfələr verə bilər.

ƏDƏBİYYAT

1. Alıyev İ.H. “Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi”. Bakı, 2020.
2. Qasımov Ə. “Aqrar sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi”. Bakı, 2015.
3. Salahov S.V. “Aqrar sahənin dövlət tənzimlənməsi problemləri”. Bakı, 2019.
4. Əhmədov İ.V. “Kənd təsərrüfatının idarə edilməsinin aktual problemləri”. Bakı, 2022.
5. Hacıyev Ə.H. Aqrar-sənaye kompleksinin iqtisadiyyatı. Bakı, 2019.
6. Abbasov V.H. “Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri”. Bakı, 2022.

Мелек Емиль кызы Гаджиева
магистрант,
Фазиль Хашим оглы Аббасов
доктор философии по экономике, профессор,
Азербайджанский Университет Кооперации

Международный опыт экономико-правового регулирования в сельскохозяйственной сфере

Резюме

В статье обосновывается актуальность международной практики экономико – юридического регулирования в аграрной сфере, характеризуется степень изученности проблемы, ставятся цель и задачи, обосновывается практическая значимость работы, раскрывается научная новизна статьи, а также отражаются сведения о результатах исследования и их внедрении.

Melek Emil Hajiyeva
master,
Fazil Hashim Abbasov
doctor of philosophy in economics, professor,
Azerbaijan Cooperation University

International experience of economic and legal regulation ın the agricultural field

Summary

The article substantiates the relevance of international experience in economic and legal regulation in the agricultural sector, characterizes the degree of study of the problem, defines the goals and objectives, justifies the practical significance of the work, reveals the scientific

novelty of the article, and also reflects information on the results of the research and their application.

Aygül Etibar qızı BABAZADƏ
magistrant,
Nizami Cəlal oğlu QAFAROV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

RESURSLARDAN SƏMƏRƏLİ İSTİFADƏDƏ DAYANIQLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİ

Dayanıqlı inkişaf XXI əsrin iqtisadi və ekoloji siyasətinin əsas amillərindən biridir. Bu anlayış ilk dəfə BMT-nin 1987-ci ildə Brundtland Komissiyasının "Our Common Future" hesabatında formalaşdırılmış və insanların cari tələbatlarını gələcək nəsillərin ehtiyaclarını təhlükə altına salmadan qarşılamaq məqsədi kimi təqdim edilmişdir (World Commission on Environment and Development, 1987).

Azərbaycanın təbii resurs zənginliyi, xüsusilə neft-qaz ehtiyatları, su, torpaq və meşə resursları dayanıqlı inkişafın strateji komponentləri kimi mühüm əhəmiyyət kəsb edir. Resurslardan səmərəli istifadə, eyni zamanda ekoloji balansın qorunması və iqtisadi inkişafın davamlılığını təmin edir.

Resurslardan səmərəli istifadə dayanıqlı inkişafın əsas komponentlərindən biridir. Bu, həm texnoloji modernizasiya, həm də istehlak davranışının ekoloji yönümlü dəyişməsi ilə bağlıdır.

Azərbaycan Respublikasında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" [1] Konsepsiyasında resurslardan səmərəli istifadə və ekoloji tarazlığın qorunması əsas istiqamətlər kimi müəyyən edilmişdir.

Bu konsepsiyanın tətbiqi aşağıdakı istiqamətləri əhatə edir:

- Enerji səmərəliliyi və bərpa olunan enerji mənbələrinin inkişafı;
- Torpaq və su resurslarının ekoloji idarə olunması;
- Meşə və biomüxtəlifliyin qorunması;
- Tullantıların azaldılması və təkrar emalın stimullaşdırılması.

Dayanıqlı inkişaf anlayışı üç əsas komponent üzərində qurulur:

1. İqtisadi davamlılıq – resursların səmərəli istifadəsi ilə iqtisadi artımın uzunmüddətli təmin olunması.
2. Ekoloji davamlılıq – təbii resursların qorunması və ekosistemlərin balansının saxlanması.
3. Sosial davamlılıq – insanların rifahının artırılması, bərabər imkanların təmin olunması və sosial ədalətin qorunması.

Beynəlxalq səviyyədə dayanıqlı inkişafın əsas prinsipləri aşağıdakılardır (UN, 2015) [3]:

- Resurslardan qənaətlə və səmərəli istifadə;
- Ətraf mühitin qorunması və bioloji müxtəlifliyin saxlanması;
- Sosial ədalət və bərabər imkanların təmin olunması;
- Uzunmüddətli iqtisadi strategiyaların formalaşdırılması.

Azərbaycan Respublikasında dayanıqlı inkişaf anlayışı milli səviyyədə 2009-cu ildən etibarən "Azərbaycan Respublikasında Dayanıqlı İnkişaf Strategiyası" çərçivəsində tətbiq olunur [2]. Strateji sənəd iqtisadi, sosial və ekoloji sahələrdə qarşıya qoyulan hədəflərin harmonik şəkildə həyata keçirilməsini nəzərdə tutur.

Ümumilikdə təbii resurslar bir neçə kateqoriyaya bölünür:

1. Yenilənə bilən resurslar: su, meşə, torpaq, hava;
2. Yenilənməyən resurslar: neft, qaz, mineral xammal;
3. Bioloji resurslar: flora və fauna;
4. Enerji resursları: günəş, külək, hidroenerji.

Səmərəli istifadə hər bir kateqoriya üçün fərqli yanaşmalar tələb edir. Məsələn, yenilənə bilən

resurslar davamlı idarəetmə və konservasiya tədbirləri ilə qorunmalı, yenilənməyən resurslar isə qənaətlə istismar olunmalıdır.

Resurslardan səmərəli istifadə yalnız iqtisadi baxımdan deyil, ekoloji cəhətdən də əhəmiyyətlidir. Misal üçün, suvarma üçün istifadə olunan suyun qənaətlə istifadəsi həm kənd təsərrüfatının məhsuldarlığını artırır, həm də torpağın eroziyasının qarşısını alır.

Dayanıqlı və səmərəli resurs istifadəsi üçün texnoloji innovasiyalar mühüm rol oynayır. Azərbaycanda kənd təsərrüfatında damla suvarma sistemləri, günəş və külək enerjisi ilə işləyən avadanlıqlar, enerji səmərəliliyi, yüksək texnologiyaların tətbiqi artıq geniş yayılır.

İqtisadi artımın dayanıqlılığı resursların optimal istifadəsindən asılıdır. İqtisadi modellərdə resurs istehlakı və istehsalın davamlılığı arasında balans təmin olunmalıdır. Məsələn, enerji istehsalında kömürdən qaz və ya bərpa olunan enerji mənbələrinə keçid uzunmüddətli dayanıqlığı təmin edir.

Azərbaycan hökuməti resursların idarə edilməsində bir sıra normativ aktlar qəbul etmişdir [2]:

- "Təbii sərvətlərdən səmərəli istifadə və qorunması haqqında Qanun";
- Ekoloji qiymətləndirmə və təsirə analiz mexanizmləri;
- Sənaye və kənd təsərrüfatında texnoloji modernizasiya proqramları.

Resursların səmərəli istifadəsi və dayanıqlı inkişaf yalnız iqtisadi və ekoloji deyil, həm də sosial aspektləri əhatə edir. İnsanların sağlamlığı, həyat səviyyəsi və bərabər imkanların təmin olunması resursların idarə edilməsində əsas meyarlardan biri sayılır.

Beynəlxalq təcrübə və Azərbaycanda tətbiqi

- Avropa İttifaqı: enerji və su resurslarının idarə edilməsində "Ağıllı Şəbəkələr" və "Circular Economy" (Dairəvi iqtisadiyyat) modelləri tətbiq olunur.
- Yaponiya: bərpa olunan enerji mənbələrinə keçid və ekoloji tənzimləmələr iqtisadi inkişafla harmonik şəkildə birləşdirilmişdir [4].

Azərbaycanın bərpa olunan enerji və suvarma sistemləri sahəsində tətbiq etdiyi layihələr [5]:

- Kür-Araz suvarma sistemində damla suvarma texnologiyalarının tətbiqi;
- Günəş və külək enerjisi stansiyalarının qurulması;
- Ekoloji kənd təsərrüfatı proqramlarının dəstəklənməsi.

Elmi-metodoloji yanaşmalar dayanıqlı inkişaf prinsipləri ilə sıx bağlıdır. Burada əsas məqsəd təbii resursların tükənməsini minimuma endirmək və gələcək nəsillərin ehtiyaclarını təmin etməkdir [6].

- Resursların səmərəli bölgüsü – iqtisadi və ekoloji meyarlar əsasında resursların optimal paylanması.
- Təkrar istifadənin təşviqi – tullantıların və istifadə olunmuş resursların yenidən iqtisadi dövriyyəyə daxil edilməsi.
- İnteqrativ idarəetmə – dövlət, özəl sektor və yerli icmaların resursların idarə edilməsində iştirakını təmin edən yanaşma.

Bu amillərin tətbiqi həm milli, həm də regional səviyyədə resursların davamlı idarə edilməsini mümkün edir.

Beynəlxalq təcrübə göstərir ki, təbii resursların idarə edilməsində elmi-metodoloji yanaşmaların tətbiqi resursların davamlılığını təmin edir, resursların səmərəli istifadəsini artırır, iqtisadi fayda ilə ekoloji dayanıqlığı balanslaşdırır.Eyni zamanda:

- BMT və digər beynəlxalq təşkilatlar – resursların idarə edilməsində standartlar və göstəricilər müəyyən edir;
- iqtisadi və ekoloji göstəricilərin inteqrasiyası – qlobal və regional resurs idarəetmə strategiyalarında əsas prinsip kimi istifadə olunur;
- texnologiyaların tətbiqi – GIS, uzaqdan zondlama və böyük verilənlər analizi resursların idarə edilməsini daha dəqiq və səmərəli edir.

Nəticə

Dayanıqlı inkişaf və resurslardan səmərəli istifadə konsepsiyası Azərbaycanın iqtisadi və ekoloji strategiyasında mühüm yer tutur. Resursların optimal istifadəsi, ekoloji balansın qorunması

və sosial rifahın artırılması uzunmüddətli dayanıqlı iqtisadi inkişafın təminatçısıdır. Gələcəkdə bu sahədə texnoloji innovasiyaların tətbiqi və beynəlxalq təcrübənin öyrənilməsi Azərbaycanın dayanıqlı inkişafını daha da möhkəmləndirəcəkdir. Bunlarla yanaşı:

- təbii resurslardan səmərəli istifadə dayanıqlı inkişafın əsasını təşkil edir;
- ekoloji prinsiplərin iqtisadi qərarların mərkəzinə gətirilməsi vacibdir;
- Azərbaycan kimi resursu zəngin ölkələrdə ekoloji idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi prioritet olmalıdır;
- bərpa olunan resurslardan istifadənin artırılması və texnoloji yeniliklərin tətbiqi təbii ehtiyatların qorunmasına töhfə verir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" 2021.
2. "Azərbaycan Respublikasında Dayanıqlı İnkişaf Strategiyası" 2009.
3. World Commission on Environment and Development, 1987.
4. Stiglitz, J. The Price of Inequality. W.W. Norton & Company, 2015.
5. Nəsirov A.A. Ekoloji iqtisadiyyatın əsasları. Bakı: Elm, 2018.
6. Qafarov N.C.Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri 2023.

Айгуль Этибар кызы Бабазаде
магистрант,
Низами Джалал оглы Гафаров
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Обеспечение устойчивого развития путем эффективного использования ресурсов

Резюме

Богатство природных ресурсов Азербайджана, особенно нефтегазовых, водных, земельных и лесных ресурсов, имеет большое значение как стратегический компонент устойчивого развития. Эффективное использование ресурсов, в свою очередь, обеспечивает сохранение экологического равновесия и устойчивость экономического развития. Это обусловлено как технологической модернизацией, так и экологически безопасными изменениями в потребительском поведении. Эффективное использование ресурсов и устойчивое развитие имеют не только экономико-экологическое, но и социальное значение.

Aygul Etibar Babazade
master,
Nizami Jalal Gafarov
doctor of economics sciences, professor,
Azerbaijan Cooperation University

Ensuring sustainable development through the efficient use of resources

Summary

The richness of Azerbaijan's natural resources, especially oil and gas reserves, water, land and forest resources, is of great importance as strategic components of sustainable development. Efficient use of resources, at the same time, ensures the preservation of ecological balance and the sustainability of economic development. This is due to both technological modernization and environmentally friendly changes in consumer behavior. Efficient use of resources and sustainable development have not only economic - ecological, but also social significance.

Ceyhun Süleyman oğlu MUSAYEV
magistrant,
Yasəmən Əli qızı ƏLİYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

İDARƏETMƏ ORQANLARI ARASINDA MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏ MEXANİZMLƏRİ

İdarəetmə orqanı anlayışı elmi ədəbiyyatda müxtəlif aspektlərdən izah olunur. Geniş mənada idarəetmə orqanı – dövlətin və ya hər hansı təşkilatın idarəçilik səlahiyyətlərini həyata keçirən struktur vahididir. Dar mənada isə bu, hüquqi statusa malik, səlahiyyət və məsuliyyət daşıyan qərar qəbul edən və icra edən subyektdir.

Azərbaycan Respublikasının Konstitusiyası və "Dövlət qulluğu haqqında" Qanununa əsasən idarəetmə orqanları mərkəzi və yerli icra hakimiyyətləri, onların tabeliyində olan idarə, şöbə, xidmət və komitələr kimi təsnif edilir. Hər bir orqan müəyyən funksional istiqamət üzrə fəaliyyət göstərir, lakin dövlətin ümumi idarəetmə sisteminin tərkib hissəsi kimi çıxış edir.

İdarəetmə orqanları arasında münasibətlərin yaranmasının əsas səbəbi, idarəetmənin bölüşdürülmüş xarakterə malik olmasıdır. Məsələn, sosial siyasət, iqtisadi planlaşdırma və ya təhsil kimi sahələrdə qərarların yalnız bir qurum tərəfindən deyil, bir neçə orqan tərəfindən birgə həyata keçirilməsi zəruridir. Bu isə əlaqələndirmə və koordinasiya ehtiyacını doğurur.

İdarəetmə orqanları, adətən, aşağıdakı əlamətlərə malik olur:

- hüquqi statusun mövcudluğu;
- səlahiyyət və məsuliyyət sərhədlərinin müəyyənliyi;
- funksional müstəqillik və tabelilik prinsiplərinin birləşməsi;
- qərar qəbul etmə və icraetmə imkanlarının olması.

Bu xüsusiyyətlər idarəetmə orqanlarının qarşılıqlı münasibətlərində həm əməkdaşlıq, həm də rəqabət elementlərini yaradır.

Azərbaycan Respublikasında da dövlət idarəçiliyi sistemində aparılan islahatlar – "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində göstərildiyi kimi – dövlət orqanları arasında səmərəli koordinasiyanın və şəffaf idarəetmənin təmin edilməsini prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir. Buna görə də idarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsi yalnız hüquqi və inzibati məsələ deyil, həm də strateji idarəetmə problemi kimi qiymətləndirilir.

"Münasibətlərin tənzimlənməsi" idarəetmə elminin əsas kateqoriyalarından biridir. Bu anlayış sistem daxilində müxtəlif subyektlər arasında əlaqələrin hüquqi, təşkilati və davranış mexanizmləri vasitəsilə sabit və məqsədyönlü şəkildə idarə edilməsini ifadə edir.

İdarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsi dedikdə, onların səlahiyyətlərinin aydınlaşdırılması, qarşılıqlı fəaliyyət qaydalarının müəyyən edilməsi, məsuliyyət bölgüsünün tənzimlənməsi və informasiya axınının koordinasiyası başa düşülür.

Bu prosesin əsas məqsədi idarəetmə sisteminin vahid məqsədlərə xidmət etməsini və orqanlar arasında ziddiyyətlərin minimuma endirilməsini təmin etməkdir. Başqa sözlə, tənzimlənmə mexanizmləri – dövlət aparatında "harmoniyanın" saxlanması üçün qurulan idarəçilik alətləridir.

Elmi ədəbiyyatda bu anlayış üç səviyyədə təhlil olunur:

1. Normativ səviyyə – münasibətləri tənzimləyən qanunvericilik və hüquqi normalar;
2. Təşkilati səviyyə – struktur, prosedur və idarəetmə mexanizmləri;
3. Sosial-psixoloji səviyyə – əməkdaşlıq mədəniyyəti, etimad, etik kodekslər və təşkilati davranış.

İdarəetmə orqanları arasındakı münasibətlər də əsasən üç istiqamətdə formalaşır:

1. Vertikal münasibətlər – yuxarı və aşağı instansiyalar arasındakı tabeçilik əlaqələridir (məsələn, nazirlik və yerli şöbələr arasında). Bu münasibətlər səlahiyyət bölgüsünü, hesabatlılığı və nəzarəti təmin edir.

2. Üfüqi münasibətlər – eyni səviyyəli idarəetmə orqanları arasında əməkdaşlıq və koordinasiya əlaqələridir (məsələn, müxtəlif nazirliklər və ya komitələr arasında).

3. Qarışıq münasibətlər – həm vertikal, həm də üfüqi əlaqələrin elementlərini özündə birləşdirən kompleks qarşılıqlı fəaliyyət formasıdır. [2]

Bu münasibətlər arasında balansın qorunması idarəetmə sisteminin sabitliyinin əsas şərtidir.

Vertikal münasibətlərin həddindən artıq güclü olması avtoritar struktur yaradır, üfüqi münasibətlərin çoxalması isə koordinasiya və qərarların icrası prosesində xaotik vəziyyətə səbəb ola bilər.

İdarəetmə elminin tarixi inkişafı göstərir ki, idarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsi anlayışı müxtəlif nəzəri məktəblərin mərkəzi tədqiqat obyektlərindən biri olmuşdur. Əsas nəzəri istiqamətlər aşağıdakılardır:

a) Klassik idarəetmə nəzəriyyəsi

F.Teylor, A.Fayol və M.Veber kimi alimlərin əsərlərində idarəetmə orqanları arasında münasibətlər idarəetmə ierarxiyası və funksional bölgü prinsipləri üzərində qurulur. Burada əsas məqsəd intizamın və səmərəliliyin təmin olunmasıdır. M.Veberin "bürokratik model"ində isə idarəetmə orqanları arasında münasibətlər rəsmi qaydalar və ierarxik asılılıqla tənzimlənir.[6]

b) Yeni İctimai İdarəetmə

1970–1990-cı illərdə inkişaf edən bu yanaşma dövlət orqanları arasında rəqabət, nəticəyönümlülük və performans əsaslı idarəetməni önə çəkir. Burada tənzimlənmə mexanizmləri inzibati nəzarətdən daha çox səmərəlilik və nəticə ölçüləri ilə təmin olunur.

c) Yeni İdarəçilik və Şəbəkə Yanaşmaları

XXI əsrin idarəetmə modeli olan "Governance" anlayışı idarəetməni yalnız dövlət orqanları ilə məhdudlaşdırmır. Burada qeyri-hökumət təşkilatları, özəl sektor və ictimai birliklər də idarəetmə prosesinin iştirakçıları hesab olunur. Bu yanaşma idarəetmə orqanları arasında münasibətlərin kooperativ, şəbəkə və konsensus prinsipləri ilə tənzimlənməsini təklif edir.

d) Agent-Prinsipal nəzəriyyəsi

Bu nəzəriyyə idarəetmədə "tapşıran" (principal) və "icra edən" (agent) münasibətlərini izah edir. Dövlət idarəetməsi kontekstində bir orqan digərinə müəyyən səlahiyyət ötürür, lakin icra prosesində agent öz maraqlarına uyğun davranarsa, "asimmetrik informasiya" problemi yaranır. Bu səbəbdən idarəetmə orqanları arasında hesabatlılıq və nəzarət mexanizmləri xüsusi əhəmiyyət kəsb edir.[7]

Beləliklə, nəzəri baxımdan idarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsi hüquqi, təşkilati, iqtisadi və sosial komponentləri birləşdirən kompleks bir sistemdir. Bu münasibətlərin düzgün tənzimlənməsi dövlət idarəçiliyinin effektivliyini artırır, səmərəsiz xərcləri azaldır və qərarların daha operativ icrasına şərait yaradır.

İdarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsi prosesində qarşıya çıxan çətinliklər və risklər çoxsəviyyəli xarakter daşıyır. Bu problemlər həm daxili institusional uyğunsuzluqlardan, həm də xarici sosial-iqtisadi və texnoloji dəyişikliklərdən qaynaqlanır.

Müasir dövrdə dövlət idarəçiliyi sistemlərinin qarşılaşdığı əsas çağırış – idarəetmə orqanları arasında funksional ziddiyyətlərin, koordinasiya boşluqlarının və informasiya asimmetriyalarının aradan qaldırılmasıdır.

Tənzimlənmədəki çətinliklərin kökündə çox vaxt hüquqi, təşkilati və davranış amilləri dayanır. Bu problemləri düzgün müəyyənləşdirmək və analitik şəkildə təhlil etmək idarəetmə islahatlarının uğuru üçün əsas şərtdir.

Təşkilati çətinliklər idarəetmə sisteminin daxili strukturunda yaranan uyğunsuzluqlarla bağlıdır.

Əsas struktur problemləri aşağıdakılardır:

- Mərkəzləşmə səviyyəsinin yüksək olması: Bütün qərarların yuxarı səviyyədə qəbul edilməsi yerli orqanların təşəbbüskarlığını azaldır.
- Koordinasiya mexanizmlərinin zəifliyi: Nazirlik və komitələr arasında əlaqə mexanizmlərinin səmərəsiz işləməsi məlumat axınında boşluqlar yaradır.
- Səlahiyyət bölgüsündə qeyri-şəffaflıq: Qurumların fəaliyyət sahələrinin sərhədlərinin qeyri-dəqiq müəyyənləşdirilməsi ziddiyyətlərə səbəb olur.

- İdarəetmə kadrlarının qeyri-bərabər hazırlığı: Bəzi orqanlarda kadr potensialının zəif olması ümumi idarəetmə səviyyəsini aşağı salır.

Bu struktur problemlər idarəetmədə səmərəsiz resurs bölgüsü, bürokratik gecikmələr və qarşılıqlı məsuliyyətin aydın olmaması ilə nəticələnir.

Nəticə

İdarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsi müasir dövlət idarəçiliyinin ən mühüm istiqamətlərindən biridir. Bu proses yalnız hüquqi və təşkilati çərçivələrlə deyil, həm də etik, texnoloji və sosial mexanizmlərlə də əlaqədardır.

Tədqiqatın nəticələrinə əsasən aşağıdakı ümumi qənaətlər formalaşdırılmalıdır:

İdarəetmə münasibətləri sistem xarakter daşımalıdır. Orqanlar arasında qarşılıqlı əlaqə və asılılıq dövlət idarəetmə sisteminin funksional bütövlüyünü təmin edir. Bu münasibətlərin balansı idarəetmədə həm sabitlik, həm də çeviklik yaradar.

Tənzimlənmə mexanizmləri çoxsəviyyəli və kompleks olmalıdır. Hüquqi, təşkilati, iqtisadi, informasiya və etik mexanizmlər bir-birini tamamlayır. Onların qarşılıqlı inteqrasiyası idarəetmənin səmərəliliyinin əsas şərtidir.

Koordinasiya və inteqrasiya əsas funksional dayaqlardır. İdarəetmə orqanları arasında münasibətlərin düzgün tənzimlənməsi yalnız mərkəzi tabeçiliklə deyil, həm də üfüqi əməkdaşlıq mexanizmləri ilə təmin edilməlidir.

Rəqəmsal idarəetmə yeni imkanlar açır. Elektron hökumət və vahid məlumat sistemləri orqanlararası əlaqələri şəffaf, sürətli və çevik edir. Bununla yanaşı, kibertəhlükəsizlik və məlumatın etibarlılığı məsələləri də xüsusi əhəmiyyət kəsb edir.

Rəsmi mexanizmlərlə yanaşı, mədəni və psixoloji amillər idarəetmə münasibətlərinin sabitliyinə təsir göstərir. Etik kodekslərin tətbiqi, məsuliyyət və şəffaflıq prinsipləri bu mədəniyyəti möhkəmləndirir.

Azərbaycan Respublikasında idarəetmə sistemi həm mərkəzləşdirilmiş, həm də rəqəmsallaşmış struktura malikdir. "ASAN Xidmət", "Elektron hökumət" və Prezident Administrasiyası kimi institutlar bu sistemin koordinasiya mərkəzləri kimi çıxış edir.

Gələcəkdə idarəetmə münasibətlərinin daha səmərəli olması üçün qanunvericilik sabitliyi, koordinasiya mexanizmlərinin rəqəmsallaşdırılması və etik idarəetmənin inkişafı prioritet olmalıdır.

Ümumilikdə, idarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsi sadəcə bir inzibati məsələ deyil, dövlətin idarəçilik mədəniyyətinin və institusional sabitliyinin göstəricisidir. Bu münasibətlərin optimallaşdırılması nəticəsində dövlət orqanlarının fəaliyyətində şəffaflıq, hesabatlılıq və vətəndaş məmnunluğu səviyyəsi yüksələcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995 (dəyişikliklərlə, 2020).
2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, 2001.
3. "İcra hakimiyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, 1999.
4. Azərbaycan Respublikasının Prezidentinin 2013-cü il 5 sentyabr tarixli Fərmanı – "Elektron hökumətin inkişafı haqqında".
5. Fayol, H. General and Industrial Management. London: Pitman. 1949
6. Weber, M. Economy and Society. University of California Press. 1978.
7. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. Rəqəmsal hökumət strategiyası 2021–2025.

Джейхун Сулейман оглы Мусаев
магистрант,
Ясеман Али кызы Алиева
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Механизмы регулирования отношений между органами управления

Резюме

В современную эпоху надлежащее регулирование отношений между органами государственного управления является одним из важных факторов, обеспечивающих стабильность, эффективность и подотчётность системы государственного управления. В результате развития глобальных моделей управления, сложной структуризации государственного аппарата, а также внедрения цифровой трансформации и электронного управления существенно изменились формы, содержание и методы регулирования межведомственных отношений.

Данная тема важна как с теоретической, так и с практической точки зрения: теоретически она представляет собой одну из центральных категорий науки государственного управления, а на практике эффективные механизмы координации обеспечивают гибкую и целенаправленную деятельность государственного аппарата.

Jeyhun Suleyman Musayev
master,
Yaseman Ali Aliyeva
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Mechanisms for regulating relations between management bodies

Summary

In modern times, the proper regulation of relations between administrative bodies is one of the important factors ensuring the stability, efficiency and accountability of the state administration system. As a result of the development of global governance models, the complex structuring of the state apparatus, as well as the introduction of digital transformation and electronic governance, the form, essence and methods of regulation of inter-agency relations have changed significantly.

This topic is important both theoretically and practically: theoretically, it constitutes one of the central categories of the science of public administration; and practically, effective coordination mechanisms ensure the flexible and purposeful activity of the state apparatus

Osman İlqar oğlu MƏMMƏDOV
magistrant,
Yasəmən Əli qızı ƏLİYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

MÜƏSSİSƏLƏRDƏ MENECMENTİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ KADR POTENSİALININ ROLU

"Menecment" anlayışı tarixən müxtəlif dövrlərdə fərqli izahlarla təqdim olunmuşdur. Ənənəvi olaraq menecment, müəssisənin resurslarının – insan, maliyyə, maddi-texniki və informasiya resurslarının – müəyyən məqsədlərə nail olmaq üçün planlaşdırılması, təşkil olunması, motivasiya edilməsi və nəzarət edilməsidir. Bu anlayış yalnız inzibati idarəetmə ilə məhdudlaşmır, həm də

əməkdaşların potensialından səmərəli istifadə edilməsi, strateji qərarların qəbul olunması və təşkilatın uzunmüddətli inkişafının təmin edilməsini əhatə edir.

Menecmentin mahiyyətində insan amili xüsusi yer tutur. Çünki resursların düzgün bölüşdürülməsi, qərarların qəbul edilməsi və innovasiyaların həyata keçirilməsi məhz insan faktorundan asılıdır. Müasir menecmentin əsas vəzifəsi yalnız cari işlərin idarə olunması deyil, həm də gələcək inkişafın təmin olunması, dəyişən bazar tələblərinə çevik uyğunlaşma, rəqabət üstünlüyünün qorunmasıdır.

Menecmentin səmərəli qurulmaması müəssisənin maliyyə itkisinə, əmək məhsuldarlığının aşağı düşməsinə, bazar payının itirilməsinə və nəticədə fəaliyyətin qeyri-sabitliyinə səbəb olur. Bu baxımdan menecment müəssisənin strateji "ürəyi" hesab edilir. [3. Стулова Е.А.2021.– № 1.120].

Müasir dövrdə sürətlə dəyişən iqtisadi münasibətlər sistemi müəssisələrin idarə olunmasında yeni yanaşmaların tətbiqini tələb edir. Qloballaşma, texnoloji inqilab, rəqabətin artması və əmək bazarındakı dinamik dəyişikliklər menecmentin səmərəliliyini daha da ön plana çıxarmışdır. Bu proseslər fonunda müəssisələrin davamlı inkişafı, bazarda mövqelərinin möhkəmləndirilməsi və rəqabət qabiliyyətinin artırılması birbaşa idarəetmə sistemlərinin keyfiyyətindən asılıdır. Menecmentin səmərəliliyinin yüksəldilməsində isə əsas amillərdən biri müəssisənin kadr potensialıdır.

Kadr potensialı yalnız işçilərin say göstəricisi və ya formal peşə hazırlığı ilə məhdudlaşmır. O, eyni zamanda əməkdaşların intellektual bacarıqlarını, peşəkar təcrübəsini, yaradıcılıq qabiliyyətlərini, təşəbbüskarlığını və innovativ yanaşmalarını əhatə edir. Başqa sözlə desək, müəssisənin uğurunun həlledici şərti insan kapitalından düzgün və məqsədyönlü istifadənin təmin olunmasıdır. Müasir iqtisadi nəzəriyyələrdə insan resursları müəssisənin maddi və maliyyə resurslarından daha üstün strateji amil hesab olunur. Çünki texnologiyanın inkişafı, rəqəmsallaşma və avtomatlaşdırma şəraitində belə, qərar qəbul etmə və innovasiyaların tətbiqi hələ də insan faktorundan asılı olaraq qalır. [1.Akın C.N. 2016, 24 s.]

Bir çox müəssisələrdə idarəetmənin zəifliyi və qeyri-səmərəli qərarların qəbul edilməsi kadr potensialından düzgün istifadə edilməməsi ilə bağlıdır. Azərbaycanda iqtisadiyyatın şaxələnməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi, kiçik və orta sahibkarlığın genişləndirilməsi prosesləri müəssisələrin idarəetmə sistemlərinə yeni tələblər qoyur. Bu tələblərin ödənilməsi üçün yalnız maliyyə və texniki resursların artırılması kifayət etmir; əsasən insan resurslarının səmərəli idarə olunması vacibdir.

Səmərəlilik – əldə olunan nəticələrin sərf olunan resurslara nisbətini ifadə edir. Yəni, müəssisə nə qədər az resurs sərf etməklə daha çox nəticə əldə edirsə, onun fəaliyyətinin səmərəliliyi bir o qədər yüksək hesab olunur.

Müasir dövrdə səmərəliliyin əsas göstəricilərindən biri də insan kapitalından düzgün istifadə etməkdir. Əgər müəssisə yüksək ixtisaslı, motivasiyalı və peşəkar kadrlara malikdirsə, onun idarəetmə səmərəliliyi daha yüksək olur.

Beləliklə, menecment yalnız inzibati idarəetmə deyil, həm də strateji qərarların qəbulunu, resursların optimal bölüşdürülməsini, əməkdaşların potensialının inkişaf etdirilməsini əhatə edən çoxşaxəli bir prosesdir. Səmərəli menecment müəssisənin rəqabət qabiliyyətini təmin edir, bazar payını artırır və uzunmüddətli sabitliyini qoruyur.

Son illərdə insan resurslarının idarə edilməsində yeni yanaşmalar meydana çıxmışdır. Bunlardan ən çox tətbiq olunanları:

- Kompetensiya əsaslı yanaşma – işçilərin bilik və bacarıqlarının müəssisə məqsədlərinə uyğunlaşdırılması.
- Talent menecment – perspektivli işçilərin müəyyənləşdirilməsi və uzunmüddətli inkişafına investisiya yatırılması.
- Agile HR – çevik idarəetmə metodlarının insan resurslarında tətbiqi. (Agile HR, insan mənbələri idarəçiliyinin çevik inkişaf prinsiplərinə əsaslanan müasir yanaşmasıdır).
- HR analitikası – böyük verilənlərin təhlili əsasında işçi performansının qiymətləndirilməsi.
- Uzaqdan iş və hibrid modellər – rəqəmsal texnologiyalar vasitəsilə işin təşkili.

Bu yanaşmaların hər biri müəssisədə kadr potensialının daha səmərəli istifadəsini təmin edir.

Yuxarıda göstərilənlərdən belə nəticə çıxır ki, kadr potensialı müəssisənin əsas strateji

resursudur və onun idarə olunması xüsusi yanaşma tələb edir. İnsan resurslarının düzgün seçilməsi, təlim və inkişaf proqramlarının tətbiqi, işçilərin motivasiyası və müasir HR metodlarının istifadəsi müəssisənin səmərəliliyini artırır.

Müasir dövrdə müəssisələrin uğuru birbaşa **innovasiyaların tətbiqindən** asılıdır. Lakin innovasiyalar texnologiyadan daha çox insan amili ilə bağlıdır. Yaradıcı düşüncə tərzinə malik işçilər yeni ideyalar təklif edir, məhsul və xidmətlərin keyfiyyətini yüksəldir.

İnnovativ idarəetmə üçün tələb olunan əsas şərtlər bunlardır:

- Kadrların davamlı öyrənməsi və inkişafı;
- Açıq və çevik idarəetmə mühiti;
- İşçilərin təşəbbüslərinin dəstəklənməsi;
- Risklərin düzgün idarə olunması.

Bu şərtlərin yerinə yetirilməsi müəssisədə innovativ menecmentin inkişafına, nəticədə isə daha yüksək səmərəliliyə gətirib çıxarır. [2. Ismayılov Ç. və başqaları 2018, 252 s.]

Tədqiqat nəticəsində müəyyən olundu ki, müasir dövrdə müəssisələrin fəaliyyətində menecmentin səmərəliliyi həlledici əhəmiyyət daşıyır. Qloballaşan iqtisadiyyat, rəqabətin artması, texnologiyaların sürətli inkişafı və əmək bazarındakı dəyişikliklər müəssisələrin idarəetmə sistemlərini daim yeniləməsini tələb edir. Bu prosesdə **kadr potensialı** ən strateji resurs hesab olunur.

Tədqiqat əsasında müəssisələrdə menecmentin səmərəliliyini yüksəltmək üçün aşağıdakı təkliflərin məqsədəuyğun olmasını hesab edirəm:

1. İnsan kapitalına strateji yanaşma – müəssisələr kadr potensialını sadəcə əmək resursu kimi deyil, uzunmüddətli inkişafın əsas mənbəyi kimi dəyərləndirməlidir.
2. Korporativ təlim və inkişaf proqramları – əməkdaşların bilik və bacarıqlarının mütəmadi yenilənməsi üçün korporativ təlim mərkəzləri və peşəkar inkişaf kursları təşkil olunmalıdır.
3. Motivasiya sistemlərinin təkmilləşdirilməsi – əməkdaşların maraqlarını artırmaq üçün həm maddi (əməkhaqqı, bonuslar, sosial təminatlar), həm də qeyri-maddi (tanınma, karyera imkanları, psixoloji mühit) stimullar gücləndirilməlidir.
4. Şəffaf kadr siyasəti – işə qəbul, vəzifə yüksəlişi və karyera inkişafı obyektiv və meritokratiya prinsiplərinə əsaslanmalıdır.
5. HR analitikası və rəqəmsallaşma – müasir texnologiyalar və böyük verilənlərin təhlili vasitəsilə işçi performansı, işçi dövriyyəsi və məmnunluğu ölçülməli, idarəetmə qərarları bu təhlillərə əsaslanmalıdır.
6. Uzaqdan iş və hibrid modellərin inkişafı – rəqəmsal transformasiya şəraitində müəssisələr çevik iş modellərinə uyğunlaşmalı, bu sahədə texniki və təşkilati problemləri həll etməlidir.
7. Liderlik və müəssisə mədəniyyəti – rəhbərlərin liderlik keyfiyyətlərinin inkişaf etdirilməsi, komandada sağlam mühitin yaradılması və əməkdaşların dəyərlərə bağlılığının gücləndirilməsi vacibdir.

ƏDƏBİYYAT

1. Akın C.N. Sənaye müəssisələrində heyətin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətləri. Iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2016, 24 s.
2. İsmayılov Ç., Abdullayev Ə., Qurbanova G., Hüseynova X., Zeynalova E., Nağıyev F., Seyidzadə M., Həsənov A. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018, 252 s.
3. Стулова, Е. А. Кадровыи потенциал и пути его совершенствования Вестник Международного института рынка С. – 2021. – № 1. – . 120-124

Осман Ильгар оглы Мамедов
магистрант,
Ясеман Али кызы Алиева
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Роль человеческих ресурсов в повышении эффективности управления предприятиями

Резюме

Неотъемлемой частью системы управления любого предприятия являются его человеческие ресурсы. Человеческие ресурсы являются основной движущей силой и трудовым ресурсом предприятия. Поэтому эффективное использование и управление человеческими ресурсами на предприятии является одной из актуальных проблем. В статье раскрывается сущность человеческих ресурсов на предприятии и оценивается их роль. Обосновывается необходимость управления человеческими ресурсами. Определены основные цели и задачи управления человеческими ресурсами на предприятии. Таким образом, актуальность и важность темы свидетельствуют о том, что в современном мире эффективность управления формируется в зависимости от человеческих ресурсов, а их развитие играет решающую роль в достижении долгосрочных стратегических целей предприятий.

Osman Ilgar Mammadov
master,
Yaseman Ali Aliyeva
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

The role of human resources in improvıng the efficiency of management in enterprises

Summary

As an integral part of the management system of any enterprise, its human resources act. Human resources are the main driving force and labor resource of the enterprise. Therefore, the effective use and management of human resources in the enterprise is one of the current issues. The article explains the essence of human resources in the enterprise and evaluates its role. The necessity of human resources management is justified. The main goals and objectives of human resources management in the enterprise are determined. Thus, the relevance and importance of the topic indicate that in modern times, the efficiency of management is formed depending on human resources, and its development plays a decisive role in achieving the long-term strategic goals of enterprises.

Aygün Zakir qızı ƏHMƏDOVA MİRZƏYEVA
magistrant,
Fariz Qasım oğlu ƏMRAHOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

ÖLKƏ REGİONLARINDA MƏŞĞULLUĞUN TƏNZİMLƏNMƏSİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

İşsizlik cəmiyyətdə yoxsulluğun yaranmasını şərtləndirən ən ilkin amillərdən biri hesab edilir. Bu baxımdan hər bir dövlətin qarşısında duran ən başlıca vəzifə əhalinin məşğulluq səviyyəsini artırmaq, yeni iş yerlərinin açılmasını təmin etmək, mövcud və səmərəli xarakter daşıyan iş

yerlərinin qorunub saxlanılmasına nail olmaqdan ibarətdir. Makroiqtisadi aspektdən yanaşdıqda cəmiyyətdə işsizliyin səviyyəsinin aşağı salınması baxımından dövlətin üzərinə mühüm vəzifə düşür.

Regionlarda işsizlik səviyyəsi və onun azaldılmasında dövlət siyasəti və Azərbaycanda işsizliyin dövlət tənzimlənməsi istiqamətlərinə yönəlmiş tədbirlərin gerçəkləşdirilməsi müasir şəraitdə öz aktuallığını hər zaman saxlamaqdadır.

Cədvəl 1.1.

Azərbycan Respublikasının regionlarında işsizlik səviyyəsi

	2021	***2022***	***2023***	***2024***
Azərbaycan Respublikası	6,0	5,6	5,5	5,3
Bakı şəhəri - cəmi	6,0	5,7	5,4	4,8
Naxçıvan Muxtar Respublikası - cəmi	0,1	0,1	0,4	3,6
Abşeron-Xızı iqtisadi rayonu - cəmi	6,2	5,8	5,6	4,9
Dağlıq Şirvan iqtisadi rayonu - cəmi	5,5	5,1	5,2	4,9
Gəncə-Daşkəsən iqtisadi rayonu - cəmi	7,3	6,8	6,5	5,7
Qarabağ iqtisadi rayonu - cəmi	6,8	6,3	6,2	6,7
Qazax-Tovuz iqtisadi rayonu - cəmi	5,3	5,0	4,8	5,0
Quba-Xaçmaz iqtisadi rayonu - cəmi	7,2	6,7	6,4	6,0
Lənkəran-Astara iqtisadi rayonu - cəmi	6,7	6,2	5,9	5,2
Mərkəzi Aran iqtisadi rayonu- cəmi	7,3	6,8	6,6	6,5
Şəki-Zaqatala iqtisadi rayonu - cəmi	4,7	4,4	4,5	5,5
Şirvan-Salyan iqtisadi rayonu - cəmi	7,1	6,7	6,4	5,7
Şərqi Zəngəzur iqtisadi rayonu - cəmi	8,4	7,9	7,6	7,4

Qeyd olunan cədvəl məlumatlarını təhlil edərkən görürük ki, Azərbaycan Respublikasında və onun ayrı-ayrı iqtisadi regionlarında işsızlik səviyyəsi dəyişərək 2021-2024-cü illər üzrə rəsmi statistik göstəriciləri aşağı düşür. 2024-cü ili 2021-ci illə müqayisə edərkən biz bu müsbət dinamikanı görürük.

Prezident İlham Əliyevin rəhbərliyi altında həm rayon və bölgələrin inkişafı, həm qeyri-neft sektorunun inkişaf etdirilməsi, istehsal sahələrində fəaliyyət istiqamətlərinin genişləndirilməsi və bu sahələrdə çalışan şəxslərin maddi təminatının və sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlər, həyata keçirilən dövlət proqramları işsizlik səviyyəsinin azaldılması və məşğulluğun artırılması baxımından mühim rol oynayır.

Əmək ehtiyyarlarının tərkibində məşğul əhali sayının artmasında "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"-nın həyata keçirilməsinin əvəzolunmaz rolu olmuşdur. Proqramda aşağıda qeyd edilən tədbirlər öz əksini tapmış və həmin illərdə reallaşdırılmışdır: - İşçi qüvvəsi ilə iş yerləri arasında tarazlığın qurulması; - İş axtaran şəxslərin daha tez uyğun iş tapa bilmələrini təmin edə biləcək axtarış-informasiya sisteminin yaradılması; - Peşə-ixtisas hazırlığında müasir metodlardan istifadə edərək, müasir tələblərə uyğun kadr potensialının hazırlanması; - Neft gəlirlərinin müəyyən hissəsinin insan kapitalına yönəldilməsi; - Sahibkarlara kömək, biznes kreditlərinin verilməsi şərtlərinin yüngülləşdirilməsi, iqtisadiyyatın müxtəlif sahələrinə qoyulan investisiyaların artırılması, vergi siyasəti yolu ilə məşğulluğun tam təmininə nail olmaq və s. ("Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər və 2011-2015-ci illər)", Bakı – 2007 və Bakı-2011). Azərbaycanda gənclərin məşğulluğunun təmin olunması da qarşıda duran ən mühüm problemlərdəndir. Belə ki, Dövlət Statistika Komitəsinin son məlumatlarına görə ölkə əhalisinin 28,1%-i gənclərdən ibarətdir. Bu rəqəmi dünya ölkələri ilə müqayisə etdikdə görürük ki, ölkəmizdə demoqrafik vəziyyət qənaətbəxşdir.

Ölkədə həyata keçirilməsi nəzərdə tutulan "Milli Məşğulluq Strategiyası"-nda işsizlik sığortası sahəsində yeniliklərdən biri də torpaq payı alanların işsizlik statusu və müavinəti almaq hüququndan məhrum edilməsidir (bu "Məşğulluq haqqında" olan Qanunda da nəzərdə tutulub). Hal-hazırda qanunvericiliyə əsasən torpaq payı alan şəxslərin bir çox qismi sosial sahədə çalışan

işçilər – həkimlər, müəllimlər, mədəniyyət və incəsənət işçiləri və s. ("Azərbaycan Respublikasının Milli Məşğulluq Strategiyası (2006-2015-ci illər)", Bakı – 26.10.2015) vətəndaşlar üçün torpaq daim əlavə fəaliyyət istiqaməti və qazanc mənbəyi olmuşdur. Bu baxımdan, qanunvericilikdə bu halın qarşısının alınması əmək bazarının qanunauyğunluğunu təmin etməlidir.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, dövlətin məşğulluq siyasətinin effektiv şəkildə reallaşdırılması, əslində yeni iş yerlərinin yaradılması və kifayət qədər perspektivli iş yerlərinin saxlanılmasına istiqamətlənmiş tədbirlərin reallaşdırılmasından bilavasitə asılıdır. Bu tədbirlərin effektiv şəkildə reallaşdırılması məqsədilə, adətən məqsədli proqramlar həyata keçirilir və həmin məqsədli proqramlar aşağıdakı vəzifələrin yerinə yetirilməsinə istiqamətlənir:

- iqtisadi sahələrin inkişafının prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, eləcə də regionların sosial-iqtisadi potensialının səmərəli istifadə edilməsi və məşğulluğun optimal strukturunun müəyyənləşdirilməsi əsasında yeni iş yerlərinin yaradılmasının baş sxeminin hazırlanması;
- yeni iş yerlərinin yaradılması və perspektivli iş yerlərinin saxlanılması məqsədilə zəruri şəraitin formalaşdırılmasına istiqamətləndirilmiş təşkilati və normativ-hüquqi bazanın işlənib hazırlanması;
- istər özəl sektorda, istərsə də dövlət sektorunda yeni iş yerlərinin yaradılması və perspektivli iş yerlərinin saxlanılmasına istiqamətlənmiş tədbirlərin maliyyələşdirilmə mexanizminin təkmilləşdirilməsi və onun informasiya təminatının yaxşılaşdırılması;
- regionların sosial-iqtisadi inkişaf proqramlarının, eləcə də dövlət tərəfindən həyata keçirilən məqsədli proqramların bir qayda olaraq ölkənin regionlarında və iqtisadiyyatın ayrı-ayrı sahələrində məşğulluğun təmin edilməsinə təsirini müəyyənləşdirmək məqsədi ilə məcburi sosial ekspertizaların işlənib hazırlanması və həyata keçirilməsi. Bu zaman başlıca kriteriya – yeni iş yerlərinin yaradılması və perspektivli iş yerlərinin saxlanılması olmalıdır;
- yeni iş yerlərinin yaradılması və perspektivli iş yerlərinin saxlanılması məqsədilə həyata keçirilən tədbirlərin bütün səviyyələrdə kollektiv müqavilələr də daxil olmaqla, sosial partnyorluq praktikasının təkmilləşdirilməsi.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli Fərmanı
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı.
3. "Azərbaycan Respublikasının Milli Məşğulluq Strategiyası (2006-2015-cı illər)", Bakı – 26.10.2015
4. Əmək bazarında işsizlik. "Əmək və Sosial Problemlər" elmi əsərlər toplusu. Bakı- 2009. V buraxılış, səh.152-157.
5. İşsizliyin aradan qaldırılmasında innovasiya texnologiyalarının tətbiqi dövlət siyasətinin prioritet istiqaməti kimi. "Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyanın rolu" mövzusunda III Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı- ELM-2009
6. Azərbaycanın statistik göstəriciləri, Bakı - 2025
7. Ə. Nuriyev. Regional siyasət və idarəetmənin əsasları. Bakı 2011

Айгюн Закир кызы Ахмедова Мирзеева
магистрант,
Фариз Гасым оглы Амрахов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Приоритетные направления регулирования занятости в регионах страны

Резюме

Проблема безработицы, характерная для любого этапа экономического развития, всегда находится в центре внимания государства, следует учитывать, что средства государствен-

ного регулирования безработицы и её последствий эволюционируют вместе с развитием социально-экономических отношений. В последнее время вопросы недопущения роста безработицы и обеспечения занятости в экономике страны всё более остро ставятся на повестку дня. В статье раскрываются возможные приоритетные направления государственного регулирования данной проблемы в регионах Азербайджана.

Aygun Zakir Ahmadova Mirzayeva
master,
Fariz Gasim Amrakhov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Priority directions of employment regulation in the regions of the country

Summary

The problem of unemployment, characteristic of any stage of economic development, is always in the center of the state's attention, it should be taken into account that the means of state regulation of unemployment and its consequences evolve together with the development of social and economic relations. Recently, the issues of preventing the growth of unemployment and ensuring employment in the country's economy are increasingly on the agenda. Possible priority directions of state regulation of this problem in the regions of Azerbaijan are revealed in the article.

Yasin Aydın oğlu QARAYEV
magistrant,
Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

MÜASİR DÖVRDƏ MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARDA BİZNES PROSESLƏRİNİN İDARƏ EDİLMƏSİ

İqtisadiyyatın sürətli inkişafı və rəqəmsal transformasiya müəssisələr qarşısında yeni çağırışlar qoyur. Ənənəvi idarəetmə modelləri artıq müasir bazar tələblərinə tam cavab vermir. Bu səbəbdən təşkilatlarda biznes proseslərinin idarə edilməsi konsepsiyası mühüm əhəmiyyət kəsb edir. BPM müəssisənin bütün fəaliyyət zəncirinin səmərəli işləməsini, resurslardan düzgün istifadəsini və müştəri məmnuniyyətinin artırılmasını təmin edən kompleks idarəetmə yanaşmasıdır.

Biznes proseslərinin mahiyyəti, müasir dövrdə müəssisə və təşkilatlarda biznes proseslərinin səmərəli idarə edilməsi iqtisadi inkişafın və rəqabət qabiliyyətinin əsas şərtidir. Qloballaşma, rəqəmsallaşma və informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində ənənəvi idarəetmə modelləri öz aktuallığını itirir. Bunun əvəzində biznes proseslərinin analizi, optimallaşdırılması və avtomatlaşdırılmasına əsaslanan Biznes Proseslərinin İdarəedilməsi (BPM) yanaşması ön plana çıxır. BPM sistemləri müəssisələrə resurslardan daha səmərəli istifadə etmək, xərcləri azaltmaq, müştəri məmnuniyyətini artırmaq və qərarvermə prosesini təkmilləşdirmək imkanı yaradır. Azərbaycanda bu istiqamətdə müsbət dəyişikliklər müşahidə olunsa da, BPM-in geniş tətbiqi üçün idarəetmə mədəniyyətinin gücləndirilməsi, rəqəmsal savadlılığın artırılması və texnoloji infrastrukturun təkmilləşdirilməsi vacibdir. Ümumilikdə, biznes proseslərinin müasir tələblərə uyğun idarə edilməsi müəssisələrin davamlı inkişafı və rəqabət üstünlüyü əldə etməsində mühüm rol oynayır.

Biznes prosesi müəssisə daxilində məqsədyönlü fəaliyyətlərin ardıcıl icrası nəticəsində əlavə dəyər yaradan sistemdir. Məsələn, istehsal müəssisəsində xammalın alınması, istehsal, keyfiyyətə nəzarət, satış ardıcıllığı tipik biznes prosesini təşkil edir.

Bu proseslərin effektivliyi birbaşa olaraq müəssisənin mənfəətliliyinə və bazar payına təsir edir. Biznes proseslərinin idarə edilməsinin əsas məqsədi müəssisənin strateji hədəflərinə daha az resursla daha yüksək nəticə əldə etməklə nail olmaqdır. Bu proseslərin həyata keçirilməsində əsas amil, biznes proseslərinin idarəetmə mərhələləridir. Biznes proseslərinin idarəedilməsi bir neçə əsas mərhələdən ibarətdir:

1. Modelin qurulması və xəritələndirilməsi – müəssisənin bütün fəaliyyət istiqamətləri və qarşılıqlı əlaqələri müəyyən edilir.
2. Təhlil – proseslərdəki zəif nöqtələr, vaxt və resurs itkisi aşkar olunur.
3. Optimallaşdırma – lazımsız mərhələlərin aradan qaldırılması, resurs bölgüsünün təkmilləşdirilməsi.
4. Avtomatlaşdırma – ERP, CRM, BPM kimi sistemlər vasitəsilə proseslərin rəqəmsallaşdırılması.
5. Monitorinq və təkmilləşdirmə – KPI-lar vasitəsilə proseslərin səmərəliliyi.

Azərbaycan iqtisadiyyatında son illərdə rəqəmsal idarəetmə modellərinə keçid sürətlənmişdir. Xüsusilə bank sektoru, dövlət idarəçiliyi və iri sənaye müəssisələrində ERP və CRM sistemləri geniş tətbiq olunur [1] . Bununla yanaşı, kiçik və orta sahibkarlıq subyektlərində BPM yanaşmasının tətbiqi, Azərbaycan iqtisadiyyatında rəqəmsal idarəetmə modelləri son illərdə dövlətin rəqəmsallaşma strategiyaları, innovativ texnologiyaların tətbiqi və iqtisadiyyatın dayanıqlı inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Rəqəmsal idarəetmə modeli iqtisadiyyatın idarə olunmasında informasiya texnologiyaları, süni intellekt, böyük verilənlər (big data), blokçeyn, bulud texnologiyaları və rəqəmsal platformalar vasitəsilə qərar qəbuletmə və idarəetmənin optimallaşdırılması sistemidir. Azərbaycan iqtisadiyyatında bu modelin tətbiqinin əsas məqsədi aşağıda qeyd edilmişdir.

1. Dövlət idarəçiliyinin şəffaflığını artırmaq.
2. Resurslardan səmərəli istifadəni təmin etmək.
3. Sahibkarlıq mühitini rəqəmsal əsaslarla təkmilləşdirmək.
4. İqtisadi qərarları real vaxt rejimində məlumatlara əsasən qəbul etmək.

Azərbaycan hökuməti 2021–2027-ci illəri əhatə edən rəqəmsallaşma siyasətini formalaşdırıb. Burada əsas məqsəd:

- rəqəmsal iqtisadiyyatın inkişafı,
- elektron xidmətlərin genişləndirilməsi,
- rəqəmsal innovasiyaların dövlət və özəl sektorda tətbiqi.

Müasir dövrdə müəssisə və təşkilatlarda biznes proseslərinin idarə edilməsi xüsusilə informasiya texnologiyaları və informasiya sistemlərində, biznes prosesinin idarəedilməsi mühüm əhəmiyyət kəsb edir, çünki şirkətin həyata keçirdiyi daha çox fəaliyyət informasiya sistemləri tərəfindən dəstəklənir

Nəticə

Müasir dövrdə müəssisə və təşkilatlarda biznes proseslərinin səmərəli idarə olunması onların bazarda rəqabət üstünlüyünü təmin edən amillərdən biridir.

Beynəlxalq poseslərin idarə edilməsinin sistemi yalnız əməliyyatların optimallaşdırılması vasitəsi deyil, həm də strateji idarəetmə alətidir. Rəqəmsal texnologiyaların tətbiqi bu prosesi daha çevik, şəffaf və nəticəyönümlü edir.

Azərbaycan müəssisələrinin beynəlxalq təcrübəyə əsaslanaraq BPM modelini inkişaf etdirməsi ölkə iqtisadiyyatının rəqəmsal transformasiyasına mühüm töhfə verəcəkdir.

ƏDƏBİYYAT

1. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Monoqrafiya. Bakı, “Kooperasiya”, 2017, 536 s.
2. “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.
3. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının təsdiq

edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 22 iyul 2022-ci il.
4. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Jurnal "Geostrategiya", Bakı, 2021, №4. – s. 67-72.

Ясин Айдын оглы Гараев
магистрант,
Эльдениз Мазахир оглы Магеррамов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Управление бизнес-процессами на предприятиях и организациях в современных условиях

Резюме

В современных экономических условиях эффективная деятельность предприятий и организаций напрямую зависит от правильного управления бизнес-процессами. Рост конкуренции, цифровизация и интеграция глобальных рынков ориентируют организации на более гибкие и инновационные методы управления. В статье рассматривается сущность бизнес-процессов, этапы управления, роль современных технологий и их применение в Азербайджане.

Yasin Aydin Garayev
master,
Eldeniz Mazahir Maharramov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Management of business processes in enterprises and organizations in the modern era

Summary

In modern economic conditions, the effective operation of enterprises and organizations directly depends on the correct management of business processes. Increased competition, digitalization and integration of global markets are directing organizations to more flexible and innovative management methods. The article examines the essence of business processes, management stages, the role of modern technologies and their application in Azerbaijan.

Səkinə Vüqar qızı CƏFƏROVA
magistrant,
Çingiz Allahyar oğlu İBRAHİMLİ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

BEYNƏLXALQ TİCARƏTİN İNKİŞAFINDA DÖVLƏTLƏRARASI TƏNZİMLƏNMƏNİN ROLU

Beynəlxalq ticarət qloballaşan dünya iqtisadiyyatının mühüm elementlərindən biridir. Malların, xidmətlərin, kapitalın və texnologiyanın sərhədlərarası dövriyyəsi iqtisadi inkişafın və ölkələrin rifah səviyyəsinin yüksəlməsinin əsas şərtlərindən hesab olunur. Lakin beynəlxalq ticarətin səmərəli fəaliyyəti yalnız bazar mexanizmlərinə əsaslanmır. Bu prosesdə dövlətlərarası tənzimləmə

mühüm rol oynayır, çünki ölkələrarası iqtisadi əlaqələrdə qarşılıqlı etibar, hüquqi zəmanətlər, ticarət standartları və müvafiq qaydalar olmadan qlobal bazar sisteminin stabil işləməsi mümkün deyil.

Prof. A.Ş.Şəkərəliyev qeyd edir: *"Beynəlxalq iqtisadi sistemdə rəqabətin artdığı şəraitdə, öz iqtisadi vəziyyətini yaxşılaşdırmağa çalışan dövlətlər digərləri ilə malların, kapitalın və onlarla bağlı xidmətlərin sərbəst hərəkətini təmin edən sazişlər imzalayırlar. Əksər belə müqavilələr beynəlxalq, dövlətlərarası və ya regional xarakter daşıyır"* [1: 48]

Dövlətlərarası tənzimləmə beynəlxalq ticarətin inkişafını təşviq etməklə yanaşı, həm də müxtəlif siyasi, iqtisadi, hüquqi, ekoloji və s. səbəblərdən qarşıya çıxa biləcək risklərin qarşısını alır. Bu, ticarət əlaqələrində ədalətli, sağlam rəqabət mühitinin yaradılmasına, ayrı-ayrı ölkələrdə baş verə biləcək iqtisadi böhranların minimuma endirilməsinə və beynəlxalq əməkdaşlığın daima möhkəmlənməsinə xidmət edir.

Dövlətlərarası tənzimləmə dedikdə, müxtəlif ölkələr arasında iqtisadi fəaliyyətin, xüsusilə ticarət əməliyyatlarının normativ və institusional çərçivədə nizama salınması başa düşülür. Bu tənzimləmə həm qayda və standartların, həm də protokolların, sazişlərin və müqavilələrin tətbiqini əhatə edir.

Beynəlxalq ticarətdə dövlətlərarası tənzimləmə aşağıdakı istiqamətləri əhatə edir:

- Hüquqi tənzimləmə: gömrük prosedurları, beynəlxalq müqavilələr, ticarət qanunvericiliyi;
- İqtisadi tənzimləmə: vergi siyasəti, ixrac və idxal kvotaları, subsidiyalar;
- Siyasi tənzimləmə: ticarət blokları, diplomatik münasibətlər və regional əməkdaşlıq;
- Standartlaşdırma və sertifikatlaşdırma: məhsul keyfiyyətinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi.

Bu istiqamətlər beynəlxalq ticarət iştirakçılarına eyni və deməli, ədalətli şərtlərlə qarşılıqlı fəaliyyət göstərmək və qlobal bazara inteqrasiya olmaq imkanı yaradır.

Ümumiyyətlə, beynəlxalq iqtisadi təşkilatlar dövlətlərarası tənzimləmədə əsas vasitəçi rolunu oynayır. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

- Ümumdünya Ticarət Təşkilatı (WTO): beynəlxalq ticarət qaydalarının müəyyənləşdirilməsi, mübahisələrin həlli, tarif və qeyri-tarif maneələrinin azaldılması;
- Beynəlxalq Valyuta Fondu (IMF): valyuta sabitliyinin təmin edilməsi və maliyyə risklərinin azaldılması;
- Beynəlxalq Ticarət Palataları və regional təşkilatlar (məsələn, Avropa İttifaqı, ASEAN, NAFTA/Mexico, USMCA): ticarət əlaqələrinin sadələşdirilməsi, sərhəd maneələrinin azaldılması, vahid standartların tətbiqi.

Bununla belə, müasir dövrdə inteqrasiya proseslərinin inkişafı dövlətlərin müxtəlif regional-iqtisadi qruplaşmalarının meydana gəlməsini şərtləndirir. Eyni zamanda, sərbəst qarşılıqlı ticarət əməliyyatlarının həyata keçirilməsinə üstünlük verən ayrı-ayrı ölkələrin iştirakı ilə dövlətlərarası azad ticarət zonaları və dövlətlərarası gömrük ittifaqları yaranır. Odur ki, beynəlxalq ticarətin tədricən və davamlı regionallaşması prosesi gedir. Əlbəttə, əslində bu, bir tərəfdən Ümumdünya Ticarət Təşkilatı sisteminin beynəlxalq ticarətin tənzimlənməsindəki rolunu azaldan amillərdən biridir.

"Beynəlxalq ticarətdəki regionalizmi ifadə edən belə birliklərə aşağıdakıları misal göstərmək olar:

- Avropa Birliyi (AB);
- Avropa Azad Ticarət Assosiasiyası (EFTA);
- Şimali Amerika Azad Ticarət Assosiasiyası (NAFTA);
- Cənubi Ümumi Bazar (MERCOSUR);
- Cənub-Şərqi Asiya Millətlərinin Assosiasiyası (ASEAN);
- Asiya Azad Ticarət Bölgəsi (AFTA);
- Şərqi və Cənubi Afrika Ölkələrinin Ümumi Bazarı (COMESA) və s." [1: 93]

Bu təşkilatlar həm də dövlətlərarası qarşılıqlı faydalı tənzimləmə mexanizmlərini quraraq yekun nəticədə ticarət əməliyyatlarını daha şəffaf, proqnozlaşdırıla bilən və dayanıqlı edir.

Dövlətlərarası tənzimləmə beynəlxalq ticarətin bir neçə aspektdə inkişafını təmin edir:

1. Rəqabət üstünlüyünün təmin edilməsi: dövlətlərarası qaydalar və standartlar ölkələrə beynəlxalq bazarlarda bərabər şərtlər yaradır.

2. Ticarət risklərinin azaldılması: müqavilələr, gömrük prosedurları və beynəlxalq normativlər ticarət əməliyyatlarında riskləri minimuma endirir.

3. İnvestisiya mühitinin yaxşılaşdırılması: aydın və sabit tənzimləmə investorlara uzunmüddətli perspektivdə biznes qurmağa imkan verir.

4. Beynəlxalq əməkdaşlığın güclənməsi: regional ticarət blokları və iqtisadi ittifaqlar ölkələr arasında strateji və iqtisadi əlaqələri möhkəmləndirir.

Məsələn, qeyd edilməlidir ki, Avropa İttifaqında vahid gömrük və ticarət standartlarının tətbiqi bu quruma üzv olan ölkələr arasında ticarət dövriyyəsini xeyli artırmışdır. Həmçinin ASEAN ölkələrində həyata keçirilən vahid ticarət siyasəti regionun ixrac potensialını xeyli yüksəltmişdir.

Bütün bunlar Azərbaycanın inkişaf etmiş ölkələrdə tətbiq olunan dövlətlərarası tənzimləmə təcrübəsindən istifadəni zəruri etmişdir. Qeyd edilməlidir ki, Azərbaycan beynəlxalq ticarətdə dövlətlərarası tənzimləməni aktiv şəkildə tətbiq edir. Ölkəmiz bir neçə beynəlxalq təşkilatın üzvüdür və regional ticarət müqavilələrinə qoşulmuşdur. Bu çərçivədə aşağıdakı tədbirlər həyata keçirilir:

- Gömrük sisteminin modernləşdirilməsi və elektron ticarət platformalarının tətbiqi;
- Beynəlxalq müqavilələr və regional ticarət sazişləri vasitəsilə ixracatçıların qorunması;
- Sərhəd prosedurlarının sadələşdirilməsi və logistika xərclərinin optimallaşdırılması;
- Qanunvericilik və sertifikatlaşdırma standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılması.

Bu tədbirlər Azərbaycanın beynəlxalq ticarət əməliyyatlarında səmərəliliyi artırır və ölkəni regional iqtisadi əməkdaşlığın fəal iştirakçısına çevirir.

Son illər ərzində dünyada gedən rəqəmsallaşma proseslərinin təsiri ilə qloballaşmanın sürətlənməsi ölkənin xarici ölkələrdə iqtisadi-ticarət maraqlarının təmin edilməsi ilə bağlı bir sıra əlavə tədbirlərin də həyata keçirilməsini şərtləndirmişdir. Buna misal olaraq, xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarda ticarət nümayəndələrinin təyin edilməsini göstərmək olar. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 26 yanvar tarixli "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsi haqqında" Fərmanı ilə xarici ölkələrdə ticarət nümayəndələri təyin olunur. [2]

Digər tərəfdən, 2023-cü ilin 20 noyabr tarixində Azərbaycan Respublikası tərəfindən imzalanmış “Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiya” Milli Məclis tərəfindən 31.05.2024-cü il tarixli 1165-VIQ nömrəli Qanunla təsdiq edilmişdir. Çoxtərəfli Konvensiyanın Azərbaycana münasibətdə tətbiqi 01.01.2025-ci il tarixindən baş tutmuş və adıçəkilən tarixdən etibarən Azərbaycan Respublikasının bir sıra dövlətlərlə bağladığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq sazişlərin mətnlərinə müvafiq dəyişikliklər edilmişdir. Bu dəyişikliklər 57 ölkə üzrə həyata keçirilmişdir. [4] Şübhəsiz ki, atılan bu addımlar ölkəmizin beynəlxalq ticarət sistemindəki mövqeyinin daha da möhkəmlənməsinə şərait yaradacaqdır və artıq bu istiqamətdə müəyyən müsbət meyillər müqayisə olunmaqdadır.

Belə ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2025-ci il sentyabr ayına olan məlumatına görə, bu ilin yanvar-iyul aylarında ölkənin hüquqi və fiziki şəxsləri dünyanın 169 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. Bu dövr ərzində ölkənin xarici ticarət dövriyyəsi 28187,3 milyon ABŞ dolları təşkil etmiş, 111 ölkəyə məhsul ixrac, 162 ölkədən məhsul idxal olunmuşdur. Ticarət dövriyyəsinin 51,7 faizini ölkədən ixrac olunmuş məhsulların, 48,3 faizini isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 957,7 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 7,4 faiz artmış, real ifadədə isə 5,1 faiz azalmışdır. İdxal real ifadədə 1,2 faiz artmış, ixrac isə 9,6 faiz azalmışdır.[3]

Beləliklə, beynəlxalq ticarətin inkişafında dövlətlərarası tənzimləmə həyati əhəmiyyətə malikdir. Dövlətlərarası qaydalar, beynəlxalq müqavilələr və iqtisadi təşkilatlar vasitəsilə tətbiq olunan standartlar ticarət əməliyyatlarının şəffaf, dayanıqlı və ədalətli olmasını təmin edir.

Azərbaycan və digər ölkələrin təcrübəsi göstərir ki, dövlətlərarası tənzimləmə olmadan qlobal

bazarlarda rəqabət qabiliyyətinin artırılması, investisiyaların cəlb edilməsi və ticarət risklərinin azaldılması mümkün deyil. 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunan tarixi Zəfər və 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri ölkəmizin hüquqi, siyasi və iqtisadi sahələrdə suverenliyini bir daha təsdiq etdi. Ötən dövr ərzində Cənubi Qafqaz regionunda yeni reallıqlar formalaşdıran Azərbaycan beynəlxalq, regional və ikitərəfli əlaqələrin əsas təşəbbüskarlarından biri kimi çıxış edir. Bu cəhətdən gələcəkdə ölkəmiz tərəfindən həm regional, həm də dövlətlərarası müstəvidə iqtisadi-ticarət əməkdaşlığının daha da gücləndirilməsi və ticarət proseslərinin rəqəmsallaşdırılması onun dayanıqlı inkişafının təminatçısı ola bilər.

ƏDƏBİYYAT

1. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər (Monoqrafiya) Bakı: "İqtisad Universiteti", 2009. 313 s. S. 93.
2. https://www.economy.gov.az/az/page/beynelxalq-elaqeler/ticaret-numayendeleri/azerbaycanin-merkezi-avropada-ticaret-numayendesi
3. https://www.stat.gov.az/news/index.php?lang=az&id=6441
4. https://www.taxes.gov.az/az/page/ikiqat-vergitutmanin-aradan-qaldirilmasina-dair-beynelxalq-sazisler

Сакина Вугар кызы Джафарова
магистрант,
Чингиз Аллахьяр оглы Ибрагимли
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Роль межгосударственного регулирования в развитии международной торговли

Резюме

В тезисе исследуется сущность межгосударственного регулирования, значение осуществления межгосударственного регулирования посредством международных экономических организаций. Также исследуется влияние межгосударственного регулирования на развитие международной торговли. На основе изучения основных особенностей опыта межгосударственного регулирования Азербайджана выдвигается ряд рационализаторских предложений в этом направлении.

Sakina Vugar Jafarova
master,
Chingiz Allahyar Ibrahimli
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

The role of interstate regulation ın the development of international tradee

Summary

The thesis studies the essence of interstate regulation, the importance of implementing interstate regulation through international economic organizations. At the same time, the impact of interstate regulation on the development of international trade is investigated. Based on the study of the main features of the interstate regulation experience of Azerbaijan, a number of rationalization proposals are put forward in this direction.

Nərminə Elxan qızı NƏBİYEVA
magistrant,
Əmirxan Mehralı oğlu BABAŞOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Memarlıq və İnşaat Universiteti

DAVAMLI İNKİŞAFDA SƏNAYENİN İNKİŞAF İSTİQAMƏTLƏRİNİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Giriş

Qloballaşan dünyada sənaye sektorunun rolu iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi kimi mühüm əhəmiyyət kəsb edir. Lakin sürətli sənayeləşmə prosesi təkcə iqtisadi artım deyil, həm də sosial və ekoloji problemləri gündəmə gətirmişdir. Bu səbəbdən son illərdə sənaye müəssisələrinin fəaliyyətində davamlı inkişafa yönəlmiş strategiyalar ön plana çəkilir. Davamlı inkişaf konsepsiyası – iqtisadi artımı, sosial rifahı və ekoloji tarazlığı paralel şəkildə təmin edən bir model olaraq – sənayenin gələcək inkişafında əsas yol xəritəsi kimi qəbul olunur. Bu kontekstdə sənayenin inkişaf istiqamətləri təkcə texnoloji yenilikləri deyil, həm də ətraf mühitin qorunması, resurslardan səmərəli istifadə və sosial məsuliyyət prinsiplərini özündə birləşdirməlidir. Məqalədə sənayenin davamlı inkişafı üçün zəruri olan əsas istiqamətlər - innovasiyaların tətbiqi, "yaşıl" texnologiyaların genişləndirilməsi, istehsal proseslərinin optimallaşdırılması və idarəetmə strukturunun təkmilləşdirilməsi – ətraflı təhlil olunacaq. Məqsəd bu sahələrin sənaye müəssisələrinin dayanıqlı və rəqabətqabiliyyətli fəaliyyətində necə mühüm rol oynadığını göstərməkdir.

Müasir dövrdə sənayenin inkişafı yalnız iqtisadi göstəricilərlə ölçülmür. Sosial məsuliyyət, ekoloji balans və texnoloji yeniliklər də sənaye sektorunun davamlı inkişaf meyarları sırasında yer alır. Sənayenin inkişafında dayanıqlılıq konsepsiyası, həm istehsal proseslərinin təkmilləşdirilməsini, həm də ətraf mühitə və cəmiyyətə təsirlərin minimuma endirilməsini hədəfləyir.

Davamlı inkişaf çərçivəsində sənaye sahələrinin inkişafı bir neçə əsas istiqamət üzrə formalaşır: innovasiyaların tətbiqi, ekoloji cəhətdən təmiz texnologiyaların istifadəsi, istehsal proseslərinin səmərəliliyinin artırılması və idarəetmə mexanizmlərinin yenilənməsi. Bu yanaşmalar sənaye müəssisələrinin rəqabətqabiliyyətini artırmaqla yanaşı, onların sosial və ekoloji öhdəliklərini də ön plana çıxarır.

1. İnnovasiyaların rolu: sənayenin davamlı inkişafı üçün ən vacib elementlərdən biri innovasiyaların istehsalata inteqrasiyasıdır. Müasir texnologiyaların tətbiqi sayəsində məhsuldarlıq artır, xammaldan daha səmərəli istifadə olunur və daha az enerji sərf edilir. Eyni zamanda innovativ yanaşmalar yeni və ekoloji cəhətdən təhlükəsiz məhsulların yaradılmasına imkan verir. Bu isə sənayenin yalnız iqtisadi deyil, ekoloji dayanıqlığını da təmin edir.
2. Yaşıl texnologiyaların tətbiqi: sənayenin ətraf mühitə təsirini azaltmaq məqsədilə "yaşıl" texnologiyaların tətbiqi getdikcə daha geniş vüsət alır. Bu texnologiyalar, tullantıların azaldılması, zərərli qazların emissiyasının minimuma endirilməsi və təbii ehtiyatlardan daha səmərəli istifadə imkanları yaradır. Belə yanaşma sənayenin ekoloji təhlükəsizliyini təmin etməklə yanaşı, uzunmüddətli iqtisadi sabitliyə də şərait yaradır.
3. İstehsal proseslərinin optimallaşdırılması: səmərəli istehsal – sənaye müəssisələrinin iqtisadi dayanıqlığını möhkəmləndirən əsas faktorlardan biridir. İstehsal zəncirində itkilərin azaldılması, texnoloji proseslərin avtomatlaşdırılması və resursların optimal bölgüsü ümumi məhsuldarlığı artırır. Eyni zamanda bu, istehsalın sosial və ekoloji risklərini də azaldır.
4. İdarəetmə strukturunun təkmilləşdirilməsi: davamlı inkişafın həyata keçirilməsində idarəetmə strukturlarının çevik və adaptiv olması xüsusi əhəmiyyət kəsb edir. Sənaye müəssisələrində qərar qəbuletmə mexanizmləri sosial və ekoloji məsələləri nəzərə almalı, eyni zamanda strateji planlamaya əsaslanmalıdır. İdarəetmədə şəffaflıq, məsuliyyət və yeniliyə açıq yanaşma müəssisələrin dayanıqlı inkişaf siyasətini uğurla reallaşdırmasına imkan yaradır.

Nəticə

Davamlı inkişaf konsepsiyası sənayenin gələcək inkişafında əsas yol xəritəsi rolunu oynayır. Bu çərçivədə innovasiyaların tətbiqi, "yaşıl" texnologiyaların genişləndirilməsi, istehsalın optimallaşdırılması və idarəetmə strukturunun təkmilləşdirilməsi sənayenin sosial, iqtisadi və ekoloji sabitliyini təmin edən əsas istiqamətlərdir. Bu strategiyalar sənayenin uzunmüddətli və balanslaşdırılmış inkişafını reallaşdırmaqla, cəmiyyətin rifahına və ətraf mühitin qorunmasına töhfə verir.

ƏDƏBİYYAT

1. Əhmədov, A. (2019). Sənayenin davamlı inkişafında innovasiyaların rolu. Bakı: Elm və Təhsil Nəşriyyatı.
2. Babayeva, S. (2021). Yaşıl iqtisadiyyat və sənaye siyasəti. Bakı: Qanun Nəşriyyatı.
3. Европейская комиссия. (2020). Зеленый курс для Европы. Брюссель. https://ec.europa.eu
4. Kaplan, R. S., & Norton, D. P. (2008). The Execution Premium: Linking Strategy to Operations for Competitive Advantage. Harvard Business Press.
5. OECD. (2021). Green Growth and Sustainable Development Policies. Paris: OECD Publishing. https://www.oecd.org/greengrowth/
6. Porter, M. E., & Kramer, M. R. (2011). Creating Shared Value. Harvard Business Review, 89(1/2), 62–77.
7. Quliyev, R. (2020). İstehsal proseslərinin optimallaşdırılması və resursların səmərəli istifadəsi. Bakı: ADNSU Nəşriyyatı.
8. UNEP. (2019). Global Environment Outlook – GEO-6: Healthy Planet, Healthy People. Cambridge University Press.
9. United Nations Industrial Development Organization (UNIDO). (2020). Industrial Development Report: Industrializing in the digital age. Vienna: UNIDO.
10. Zülfüqarov, M. (2022). Sənaye müəssisələrinin idarə edilməsində davamlılıq meyarları. Bakı: "Azərnəşr".

Нармина Эльхан кызы Набиева
магистрант,
Амирхан Мехрали оглы Бабашов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Архитектуры и Строительства

Характеристика направлений развития промышленности в области устойчивого развития

Резюме

В условиях глобализации промышленность играет ключевую роль в экономическом развитии. Однако быстрые темпы индустриализации порождают не только экономический рост, но и экологические и социальные проблемы. Поэтому в современном мире особое внимание уделяется устойчивому развитию в промышленном секторе. Основой такого подхода является гармоничное сочетание экономического роста, социальной ответственности и охраны окружающей среды. Основные направления устойчивого развития промышленности включают внедрение инноваций, использование экологически чистых ("зелёных") технологий, оптимизацию производственных процессов и совершенствование системы управления.Инновации позволяют повысить эффективность и экологичность производства. "Зелёные" технологии способствуют снижению вредных выбросов и рациональному использованию ресурсов. Оптимизация производства помогает сократить потери и снизить риски, а эффективное управление обеспечивает гибкость и ориентацию на долгосрочную устойчивость. Устойчивое развитие – это стратегический ориентир для будущего промышленности, способствующий не только экономической стабильности, но и защите окружающей среды и улучшению качества жизни.

Narmina Elkhan Nabiyeva
master,
Amirkhan Mehrali Babashov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan University of Architecture and Construction

Characteristic features of the development directıons of the industry in sustainable development

Summary

In the modern global economy, sustainable development has become a key principle guiding industrial growth. The transformation of industry in line with sustainability involves not only economic efficiency but also environmental protection and social responsibility. This paper explores the main directions of industrial development that contribute to sustainable progress, emphasizing four core areas: innovation, green technologies, optimization of production processes, and improvement of management structures. The integration of innovative solutions enhances productivity and energy efficiency, while green technologies minimize environmental pollution and promote resource efficiency. Optimizing production processes reduces material and energy waste, thereby increasing operational sustainability. Additionally, modernizing management systems ensures that industrial enterprises incorporate environmental and social concerns into strategic decision-making. Together, these directions create a foundation for building a competitive, socially responsible, and environmentally conscious industrial sector.

Nigar İqbal qızı ŞƏFİYEVA
magistrant,
Amal Rasim oğlu HƏSƏNLİ
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Memarlıq və İnşaat Universiteti

YÜNGÜL SƏNAYE SAHƏSİNİN XAMMAL BAZALARİ VƏ ONUN GENİŞLƏNDİRİLMƏSİ İMKANLARİ

Giriş

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması və Qarabağ ilə Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad olunması ölkənin iqtisadi inkişaf tarixində yeni mərhələnin başlanğıcını qoymuşdur. Bu bölgələrin bərpası və sosial-iqtisadi inkişafı hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Həyata keçirilən genişmiqyaslı yenidənqurma və abadlıq işləri çərçivəsində sənayenin, xüsusilə də yüngül sənaye sahəsinin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Çünki bu sahə həm yeni iş yerlərinin açılması, həm də regionun ixrac potensialının artırılması baxımından strateji rol oynayır.

Yüngül sənaye kənd təsərrüfatı və digər yerli sahələrə dayanıqlı şəkildə inteqrasiya oluna bilən, nisbətən az sərmayə ilə sürətli iqtisadi effekt verən sektorlardan biridir. Tekstil, geyim, ayaqqabı, dəri emalı və digər bu kimi sahələr regionlarda mövcud olan təbii və kənd təsərrüfatı resursları əsasında inkişaf etdirilə bilər. Bununla yanaşı, xammal bazalarının yaradılması və inkişaf etdirilməsi, yüngül sənaye sahəsinin dayanıqlığı və rəqabətqabiliyyətliliyi baxımından həlledici amillər sırasındadır. Xammal ehtiyatlarının mövcudluğu və onların emala hazır vəziyyətə gətirilməsi yerli istehsalın gücləndirilməsinə, idxaldan asılılığın azalmasına və daxili bazarın təmin olunmasına mühüm töhfə verir.

Lakin bu proses təkcə resurs mövcudluğu ilə məhdudlaşmır. Xammal bazalarının yaradılması və inkişafı həm təbii, həm iqtisadi, həm də institusional amillərlə sıx bağlıdır. İnfrastrukturun yetərsizliyi, kadr çatışmazlığı, emal müəssisələrinin azlığı, müasir texnologiyaların tətbiqindəki

gecikmələr və logistika problemləri bu istiqamətdə qarşıya çıxan əsas çətinliklərdir. Bununla belə, regionun əlverişli coğrafi mövqeyi, zəngin təbii resursları və dövlət tərəfindən göstərilən güclü siyasi və iqtisadi dəstək bu problemlərin mərhələli şəkildə aradan qaldırılması üçün əlverişli şərait yaradır.

Bu məqalədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yüngül sənaye sahəsinin inkişaf perspektivləri, xammal bazalarının formalaşdırılması və istifadəsi, eləcə də bu sahədə mövcud problemlər və həll yolları geniş təhlil ediləcəkdir. Məqsəd, bu bölgələrin iqtisadi potensialından maksimum dərəcədə faydalanmaq üçün elmi əsaslara söykənən yanaşmaları ortaya qoymaq və yüngül sənaye sahəsinin dayanıqlı inkişafına töhfə verəcək təklifləri təqdim etməkdir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilməsindən sonra bu ərazilər Azərbaycanın yeni iqtisadi inkişaf mərkəzlərinə çevrilməkdədir. Regionların iqtisadi potensialı ilk növbədə zəngin təbii sərvətlər, münbit torpaq sahələri, əlverişli iqlim şəraiti və kənd təsərrüfatı üçün geniş imkanlarla müəyyən olunur. Bu rayonlar həm coğrafi mövqeyinə, həm də resurs təminatına görə sənaye, xüsusilə yüngül sənaye üçün əlverişli ərazilər hesab olunur.

Dövlətin bölgəyə yönəltdiyi investisiyalar sənaye və kənd təsərrüfatının paralel inkişafını nəzərdə tutan yanaşmalar, Qarabağ və Şərqi Zəngəzurun Azərbaycanın iqtisadi xəritəsində strateji yer tutmasına zəmin yaradır. "Böyük Qayıdış" proqramı, Ağdam Sənaye Parkı, Araz Vadisi İqtisadi Zonası kimi layihələr bu rayonlarda iqtisadi canlanmanı təmin edən əsas infrastruktur və iqtisadi baza formalaşdırır. Belə şəraitdə yüngül sənaye sahəsinin inkişaf etdirilməsi həm iqtisadi şaxələndirmə, həm də yerli resursların emalı və dəyərə çevrilməsi baxımından önəmlidir.

Yüngül sənaye sektoru kənd təsərrüfatına əsaslanan məhsulların emalını həyata keçirməklə, ölkə iqtisadiyyatında mühüm yer tutur. Bu sahəyə tekstil, geyim, dəri, yun, ayaqqabı və ipək kimi istehsal sahələri daxildir. Qarabağ və Şərqi Zəngəzurda bu sahənin inkişafı bir neçə vacib səbəbdən prioritet hesab olunur.

Əmək tutumlu sahə olması səbəbilə işsizlik probleminin azaldılmasına töhfə verir; region əhalisinin məşğulluğunu təmin etməklə, əhalinin daimi məskunlaşmasını stimullaşdırır; yerli kənd təsərrüfatı məhsullarına əsaslandığı üçün daxili resurslardan səmərəli istifadəni təşviq edir; əl sənətləri, xalçaçılıq, ipəkçilik kimi milli irsi yaşadaraq mədəni dəyərləri qoruyur; emal olunmuş məhsullar vasitəsilə ixrac imkanları yaradır və valyuta gəlirlərini artırır.

Regionda mövcud olan kənd təsərrüfatı sahələri – pambıqçılıq, baramaçılıq, heyvandarlıq, yunçuluq və üzümçülük – yüngül sənaye üçün təbii xammal bazası rolunu oynayır. Bu sahələrin dirçəldilməsi və emal potensialının artırılması sayəsində Qarabağ və Şərqi Zəngəzur özünü təmin edən və ixrac yönümlü istehsal mərkəzinə çevrilə bilər.

Yüngül sənayenin inkişafı üçün əsas şərtlərdən biri davamlı və keyfiyyətli xammal bazalarının formalaşdırılmasıdır. Qarabağ və Şərqi Zəngəzur regionlarında bu baxımdan geniş imkanlar mövcuddur:

Pambıqçılıq – Ağdam, Füzuli, Tərtər və Cəbrayıl rayonları pambıq əkininə və emalına əlverişli şəraitə malikdir. Pambıqdan iplik, parça və geyim istehsalında istifadə edilə bilər.

Baramaçılıq və ipəkçilik – Zəngilan, Qubadlı və Laçın rayonlarında baramaçılıq ənənəsi mövcuddur. Baramanın emalı ilə ipək parçalar, milli geyimlər və lüks tekstil məhsulları istehsal oluna bilər.

Heyvandarlıq və yunçuluq – Dağlıq rayonlarda qoyunçuluq və maldarlıq inkişaf etdirilərək yun və dəri xammalı əldə oluna bilər. Bu isə yun məmulatları, xalçalar və dəri məhsullarının istehsalına imkan verir.

Əl sənətləri və xalçaçılıq üçün resurslar – Yerli boyaq bitkiləri, yun və pambıq xalçaçılığın inkişafı üçün geniş istifadə edilə bilər. Qarabağ xalçası brendi bu sahədə xüsusi yer tutur.

Xammal bazalarının səmərəli şəkildə yaradılması üçün aşağıdakı tədbirlərin görülməsi vacibdir: kənd təsərrüfatı istehsalçılarının kooperativlərə cəlb olunması; ilk emal mərhələlərinin bölgədə qurulması (yun təmizləmə, pambıq çırçır sexləri və s.); xammalın saxlanması, daşınması və emalı üçün logistika sisteminin qurulması; istehsal zəncirinin bölgədə bağlanması – xammal → emal → məhsul → bazar. Mövcud potensiala baxmayaraq, Qarabağ və Şərqi Zəngəzurda yüngül sənaye sahəsinin və xammal bazalarının inkişafı bir sıra problemlərlə qarşılaşır: mina və təhlü-

kəsizlik problemi – Ərazilərin bir qismi hələ də mina və partlayıcılarla çirklənmişdir, bu isə kənd təsərrüfatı və sənaye fəaliyyəti üçün risk yaradır. İnfrastruktur çatışmazlığı – Yol, elektrik, su, internet və digər əsas infrastruktur hələ tam şəkildə qurulmayıb. Bu isə istehsal və emal proseslərini ləngidir. Peşəkar kadrların çatışmazlığı – Regionda texniki biliklərə malik mühəndis, texnoloq və peşəkar işçi qüvvəsi azdır. Bu da sənaye müəssisələrinin effektiv fəaliyyətini çətinləşdirir. Emal müəssisələrinin azlığı – Mövcud xammalın emalını yerində həyata keçirən zavod və sexlər azdır, nəticədə xammal emal olunmadan ucuz qiymətə satılır. Texnoloji gerilik – Yüngül sənaye sahəsində istifadə olunan texnologiyalar əksər hallarda köhnədir və beynəlxalq standartlara uyğun deyil. İnstitusional koordinasiya zəifdir – Sənaye, kənd təsərrüfatı və ticarət strukturları arasında səmərəli əməkdaşlıq və məlumat mübadiləsi zəifdir. Qarabağ və Şərqi Zəngəzurda yüngül sənayenin və xammal bazalarının inkişafı üçün aşağıdakı istiqamətlər üzrə fəaliyyətlərin gücləndirilməsi məqsədəuyğundur: ixtisaslaşmış sənaye parklarının yaradılması – Tekstil, ipəkçilik, yunçuluq və dəri emalı üzrə ixtisaslaşmış müəssisələrin sənaye parklarında cəmləşdirilməsi səmərəliliyi artırar. Peşə təhsili və kadr hazırlığı – Regionda texniki peşə məktəblərinin yaradılması və mütəxəssis hazırlığının təşkili sənayenin davamlı inkişafına xidmət edər. Xammalın yerində emalı – Əlavə dəyər zəncirinin bölgədə bağlanması üçün xammalın ilkin və sonrakı mərhələlərdə emalı bölgənin iqtisadi gücünü artırar. Müasir texnologiyaların tətbiqi – Rəqəmsal idarəetmə sistemləri, avtomatlaşdırılmış istehsal xətləri və ekoloji təmiz texnologiyalar rəqabət qabiliyyətini yüksəldər. Dövlət-özəl tərəfdaşlığı – Yerli və xarici investorların regiona cəlbi üçün vergi güzəştləri, subsidiyalar və investisiya təşviq paketləri tətbiq olunmalıdır. Milli brendlərin yaradılması – "Qarabağ tekstili", "Zəngəzur xalçası" kimi brend məhsulların beynəlxalq bazara çıxarılması təşviq olunmalıdır.

Nəticə

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın bərpa və inkişaf siyasətində xüsusi əhəmiyyət daşıyır. Bu bölgələr təbii resursları və əlverişli iqlimi ilə yüngül sənayenin inkişafı üçün geniş imkanlara malikdir. Kənd təsərrüfatı məhsullarına əsaslanan xammal bazası, tekstil və digər emal sahələrinin qurulmasına əlverişli zəmin yaradır. Hazırda dövlətin həyata keçirdiyi investisiya layihələri və sənaye zonalarının yaradılması bu sahənin inkişafını dəstəkləyir. Bununla belə, mövcud infrastruktur çatışmazlığı, mina təhlükəsi və ixtisaslı kadr qıtlığı kimi problemlər prosesə mane olur. Yüngül sənayenin davamlı inkişafı üçün xammalın yerində emalı, müasir texnologiyaların tətbiqi və kadr hazırlığı kimi istiqamətlər üzrə ardıcıl addımlar atılmalıdır.

ƏDƏBİYYAT

1. Abdullayev, E. (2021). Azərbaycanda sənaye siyasəti və regional inkişaf problemləri. Bakı: "Elm və Təhsil".
2. Ahmadova, S., & Mammadov, R. (2022). Qarabağ iqtisadi rayonunun sənaye potensialı və inkişaf perspektivləri. "İqtisadiyyat və Biznes", №4, s. 45–52.
3. Aliyeva, N. (2023). Yüngül sənayenin xammal təminatı və emal zəncirinin təşkili. Azərbaycan İqtisadi Forumu, №2, s. 33–40.
4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi (2022). Böyük Qayıdış – Qarabağ və Şərqi Zəngəzurda iqtisadi inkişaf strategiyası. Bakı.
5. Balayev, A. (2021). Qarabağ regionunun bərpası və iqtisadi potensialın reallaşdırılması yolları. Regional Tədqiqatlar Mərkəzi.
6. European Bank for Reconstruction and Development (EBRD). (2022). Investment Climate and Opportunities in Karabakh Region. London.
7. FAO – Food and Agriculture Organization. (2023). Opportunities for Sustainable Agriculture and Light Industry in Post-Conflict Regions. Rome: FAO Publishing.
8. Hüseynov, F. (2023). Şərqi Zəngəzurda kənd təsərrüfatı və yüngül sənaye əlaqələrinin inkişafı. Aqrar İslahatlar Jurnalı, №3, s. 12–20.
9. IMF – International Monetary Fund. (2021). Azerbaijan: Economic Recovery and Regional Development Outlook. Washington D.C.

Нигяр Игбал кызы Шафиева
магистрант,
Амал Расим оглы Гасанлы
доктор философии по экономике,
Азербайджанский Университет Архитектуры и Строительства

Сырьевая база легкой промышленности и возможности ее расширения

Резюме

После восстановления территориальной целостности Азербайджана Карабахский и Восточно-Зангезурский экономические районы стали одними из ключевых направлений в программе восстановления и развития. Экономический потенциал этих регионов, их природные ресурсы и стратегическое положение делают их важными зонами для расширения промышленности, особенно лёгкой. Поскольку лёгкая промышленность охватывает переработку сельскохозяйственной продукции, текстиль, швейное производство и изготовление товаров повседневного спроса, она играет значительную роль в социально-экономическом возрождении региона. Одним из приоритетов является создание прочной сырьевой базы и эффективное использование существующих ресурсов. В Карабахе и Восточном Зангезуре возможно формирование начальных сырьевых ресурсов за счёт развития растениеводства и животноводства. Однако определённые трудности, такие как нехватка инфраструктуры, логистические проблемы, кадровый дефицит и экологические риски, могут осложнить этот процесс. В то же время государственные инвестиционные программы, создание промышленных зон и реализация стратегии «Великого возвращения» закладывают прочную основу для развития лёгкой промышленности в регионе. В этом контексте научно обоснованное формирование сырьевой базы и внедрение современных технологий становятся важнейшими условиями для построения устойчивого и конкурентоспособного производства.

Nigar Iqbal Shafiyeva
master,
Amal Rasim Hasanli
doctor of philosophy in economics,
Azerbaijan University of Architecture and Construction

Raw material bases of the light industry sector and possibilities for its expansion

Summary

The development of the light industry sector heavily depends on the availability, diversity, and sustainability of raw material resources. Strengthening the raw material base is essential for ensuring stable production, increasing competitiveness, and supporting innovation within the sector. This paper explores the current state of raw material supply in light industry, highlighting key challenges such as limited local resources, dependence on imports, and quality inconsistencies. Additionally, it examines opportunities for expanding the raw material base through local resource development, improved supply chain management, recycling, and the integration of alternative and eco-friendly materials. Emphasis is placed on the importance of strategic planning and technological advancements to build a more resilient and self-sufficient raw material foundation that can drive sustainable growth in light industry.

Mircəlal Mircavad oğlu İBADOV
magistrant,
Anar Fazil oğlu ABBASOV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ SÜRƏTLƏNDİRİLMƏSİNDƏ İNNOVASİYALARIN ROLU

Giriş

İşğaldan azad edilmiş ərazilərdə qeyri-neft sektorunun inkişaf etdirilməsi innovasiya resurslarının tətbiqinə əsaslanmalıdır. Xüsusilə yaşıl enerjiyə keçid ilə bağlı qlobal çağırışlardan irəli gəlir. Qeyri-neft sektorunun inkişafı neft ixrac edən ölkələr üçün neftdən asılılığın aradan qaldırılması baxımından mühüm rola malikdir. Neft ixracı beynəlxalq bazar konyunkturundan asılılığa gətirib çıxarır.

Məhz belə bir şəraitdə qeyri-neft sektorunun inkişaf etdirilməsi iqtisadi inkişafın dinamik və tarazlı xarakter daşımasına xidmət edir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi eyni zamanda milli iqtisadiyyatın və dövlət büdcəsinin neftdən asılılığının qarşısının alınmasında əhəmiyyətli rol oynayır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi həmçinin regionların sosial-iqtisadi inkişafına və yoxsulluğun səviyyəsinin azaldılmasına da bilavasitə təsir göstərir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi ixracın strukturunda bir məhsulun dominant mövqe tutmasının qarşısını alır, eyni zamanda məhsul ixracının beynəlxalq bazar konyunkturunda baş verən tərəddüdlərdən asılılığının neytrallaşdırılmasına bilavasitə təsir göstərir. (Məmmədov İ. "Qeyri-neft sektorunun inkişaf istiqamətləri Bakı-2012 s.524, s.15)

Qeyri-neft sektorunun inkişaf etdirilməsində innovasiyaların tətbiqi ilə bağlı işğaldan azad edilmiş ərazilərdə geniş enerji resursları ehtiyatı mövcuddur. Bu potensial imkanlar işğaldan azad edilmiş ərazilərin relyefindən, coğrafi xüsusiyyətlərindən, təbii iqlim şəraitindən qaynaqlanır. İşğaldan azad edilmiş ərazilərdə qeyri-neft sektorunun inkişafında innovasiyaların tətbiqi istiqamətində müəyyən təcrübə də əldə edilmişdir. Belə ki, Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd və icmal layihələri" qurulmaqdadır. Digər tərəfdən, istehsal infrastrukturunun yaradılmasına başlanılması, dövlətin bu sahədə çoxşaxəli bir fəaliyyətinin və dövlət siyasətinin bu sahədə olan prioritetlərinin və hədəflərinin ortaya qoyulmasının ifadəsi kimi də baxıla bilər. Böyük Qayıdış ilə qəbul edilmiş I Dövlət Proqramının nə dərəcədə məzmunlu və çoxşaxəli olması və bununla bağlı əlavə tədbirlərin görülməsi istiqamətində proqramın yerinə yetirilməsi proseslərinə başlanılması bir daha onu göstərir ki, Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzurun ən yüksək texnologiyalar əsasında bərpa edilməsində və dirçəldilməsində kifayət qədər israrlıdır və bununla əlaqədar həm siyasi iradə, həm də maliyyə mənbələrinin formalaşdırılmasını təmin etmişdir. (Quliyev E.A. "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu" (monoqrafiya) Bakı -2023 s.320, s.261). İşğaldan azad edilmiş ərazilərdə qeyri-neft sektorunun inkişafında innovasiyaların tətbiqinin sürətlənməsi investisiyaların təşviqindən də bilavasitə asılıdır. Məlum olduğu kimi istər qeyri-neft sektorunda, istəsə də iqtisadiyyatın digər sahələrində innovasiyaların tətbiqi investisiyaların yatırılması olmadığı təqdirdə mümkünsüz görünür.

Fikrimizcə, qeyri-neft sektoruna investisiyaların həcminin artırılması baxımından xarici investisiyaların rolu da yüksək olmalıdır. Bu ilk növbədə onunla izah oluna bilər ki, iqtisadiyyatın qeyri-neft sektoruna yatırılan xarici investisiyalar mütərəqqi texnologiyaların tətbiq edilməsinə istiqamətlənməklə yanaşı, rəqabətə davamlı məhsul istehsalının həyata keçirilməsinə əlverişli şərait yarada bilər, bundan əlavə iqtisadiyyatın qeyri neft-qaz sektorunda istehsal edilən məhsulların xarici bazarlara çıxarılmasına da əlverişli şərait yaratmaq iqtidarındadır. Odur ki, iqtisadiyyatın qeyri-neft-qaz sektoruna xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması diqqət mərkəzində saxlanılmalıdır. Nəzərə almaq lazımdır ki, iqtisadiyyatın qeyri-neft-qaz sektorunun strukturunda kənd təsərrüfatı əhəmiyyətli rol oynayır. Lakin, bununla belə məlum həqiqətdir ki, kənd təsərrüfatı bütövlükdə təbii risklərdən kifayət qədər asılı olur və risklərin sığortalanması baxımından xarici investisiyaların cəlb edilməsi stimullaşdırılmalıdır. (Abbasov A.F.İqtisadi inkişafın müasir meyl-

ləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər (monoqrafiya)- Bakı-2024, s.576,s.293). Qeyri neft sektorunda innovasiyaların tətbiqi ixracın genişləndiirlməsinə də böyük perspektivlər açır. İnnovasiyaların tətbiqi rəqabətqabiliyyətli məhsul istehsalının artırılması deməkdir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, qeyri-neft sektorunun inkişafı həm də ixracın genişlənməsinə və onun çoxşaxəliliyinin təmin edilməsinə əlverişli şərait yaradır. Bu isə hər bir ölkənin beynəlxalq ictimai əmək bölgüsündə yerinin və rolunun artmasına, eləcə də onun dünya birliyinə daha fəal inteqrasiya edilməsinə gətirib çıxarır. Hər bir ölkənin ixrac potensialının genişləndirilməsi, onun xarici bazara daha çox məhsul çıxarmasına səbəb olur.

İxracın genişləndirilməsinə yönəlik fəaliyyətin müvəfəqqiyyətləri bir sıra amillərdən, eləcə də ölkədə həyata keçirilən xarici iqtisadi siyasətin xarakterindən və tipindən bilavasitə asılıdır. Ölkənin strateji maraqlarının qorunması və iqtisadi təhlükəsizliyinin təmin edilməsi daxili bazarın qorunması ilə sıx əlaqəlidir. Bu baxımdan qeyri-neft sektorunun inkişafına yönəldilmiş tədbirlərin uğurla reallaşdırılması üçün bu sahədə istehsalın stimullaşdırılmasına və daxili bazarın qorunmasına ehtiyac vardır. (E.A.Quliyev və b., "Qeyri-neft sənayesinin iqtisadiyyatı" , Bakı-2020, s. 496, s.25)

Qeyri-neft sektorunda innovasiyaların tətbiqi süni intelektlə də bilavasitə bağlıdır. Telekommunikasiyaların, o cümlədən peyk rabitəsi vasitələrinin də işğaldan azad edilmiş ərazilərdə tətbiqi məhsul istehsalına çəkilən xərclərin azaldılmasında əhəmiyyətli rol oynaya bilər. Bu da işğdaldan azad edilmiş ərazilərdə qeyri-neft sektorunda istehsal edilən məhsulun rəqabətədavamlılığının artırılmasına, məhsul vahidinə çəkilən xərclərin aşağı salınmasına əlverişli şəraitin yaradılması deməkdir.

ƏDƏBİYYAT

1. Məmmədov İ. "Qeyri-neft sektorunun inkişaf istiqamətləri Bakı-2012 s. 524, s.15)
2. Quliyev E.A. "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu" (monoqrafiya) Bakı -2023 s.320, s.261
3. E.A.Quliyev və b., "Qeyri-neft sənayesinin iqtisadiyyatı", Bakı-2020, s.496, s.25.

Мирджалал Мирджавад оглы Ибадов
магистрант,
Анар Фазиль оглы Аббасов
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Роль инноваций в ускорении развития ненефтяного сектора

Резюме

Освобожденные территории обладают широким потенциалом для развития ненефтяного сектора. Как известно, ускорение развития ненефтяного сектора имеет важное стратегическое значение с точки зрения расширения альтернативной экспортной деятельности. Государство реализует соответствующие меры по развитию ненефтяного сектора в нашей стране. В Указе Президента Азербайджанской Республики «О дополнительных мерах по поддержке конкурентоспособного отечественного производства в ненефтяном секторе» от 19 сентября 2018 года подчеркивается важность реализации инвестиционных стимулов для развития ненефтяного сектора и поддержки малого и среднего бизнеса.

Mirjalal Mirjavad Ibadov
master,
Anar Fazil Abbasov
doctor of economic sciences, professor,
Azerbaijan Cooperation University

The role of innovations in accelerating the development of the non-oil sector

Summary

The liberated territories have a wide potential in terms of the development of the non-oil sector. As is known, accelerating the development of the non-oil sector is of great strategic importance in

terms of expanding alternative export activities. The state is implementing relevant measures in terms of the development of the non-oil sector in our country. The decree of the President of the Republic of Azerbaijan "On additional measures to support competitive domestic production in the non-oil sector" dated September 19, 2018 emphasizes the importance of implementing investment incentives for the development of the non-oil sector and supporting small and medium-sized businesses.

Nicat Yaşar oğlu HÜSEYNOV
magistrant,
Anar Fazil oğlu ABBASOV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

AQROBİZNESİN STRATEJİ İDARƏ EDİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Giriş

2020-ci ilin sentyabrın 27-də həyata keçirilən 44 Günlük Vətən müharibəsi Azərbaycanın 30 ildən çox erməni işğalında qalmış torpaqlarının azad olunması ilə nəticələnməklə ölkəmizin dövlət suverenliyinin bərpa olunmasına əlverişli şərait yaratdı. Hazırda həmin ərazilərdə dinc quruculuq işləri uğurla davam etdirilməkdədir. İşğaldan azad edilmiş ərazilərin ixtisaslaşma istiqaməti çoxşaxəli olmaqla yanaşı həmin ərazilərdə kənd təsərrüfatı emal sənayesi əhəmiyyətli ixtisaslaşma yükünə malikdir. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı və emal sənayesinin inkişaf etdirilməsi əlverişli aqrobiznes mühitinin formalaşdırılmasından və onun səmərəli şəkildə idarə edilməsindən bilavasitə asılıdır. İşğaldan azad edilmiş ərazilərdə aqrobiznesin inkişaf etdirilməsi dövlət tərəfindən qəbul edilən qanunvericilik aktları vasitəsilə davamlı olaraq dəstəklənməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5 əsas istiqamət müəyyənləşdirilmişdir ki, bunlara da:

- dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
- dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi aid edilir. (Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı)

İdarəetmə konsepsiyası iqtisadi, texniki, bioloji və sosial sistemlərdə tətbiq olunmaqla cəmiyyətin inkişafında həlledici rol oynayır, Ümumi şəkildə idarəetmə, hər hansı bir sistemin obyektiv xüsusiyyətləri və qanunauyğunluqları nəzərə alınmaqla, onu müəyyən bir vəziyyətdə saxlamaq və ya yeni bir vəziyyətə gətirmək istiqaməti də məqsədyönlü bir mexanizm kimi xarakterizə olunur.

İşğaldan azad edilmiş ərazilərdə "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər"də qeyd edildiyi kimi dayanıqlı inkişafın təmin edilməsi aqrobiznes mühitinin strateji idarə edilməsilə də sıx bağlıdır.

İşğaldan azad edilmiş ərazilərdə səmərəli aqrobiznes şəbəkəsinin yaradılması, onun strateji baxımdan düzgün idarə edilməsi kənd təsərrüfatının və qida məhsullarının da istehsalının genişləndirilməsinə əlverişli şərait yaradır. Kənd təsərrüfatında davamlı inkişaf aqrobiznesin inkişafının sürətləndirilməsi ilə bilvasitə bağlı olduğundan aqrobiznes şəbəkələrinin təşkilati-iqtisadi əsaslarının formalaşdırılması da vacibdir. Xüsusi bir fəaliyyət növü kimi aqrobiznesin idarə edilməsi istehsal-satış proseslərinin ictimai əməyə çevrilməsinin obyektiv nəticəsidir. Bu baxımdan əmək bölgüsü ilə müşayiət olunan istehsal münasibətləri konkret subyektin, iqtisadiyyatın müxtəlif sahələrinin və ölkə miqyasında cəmiyyətin fəaliyyət sferalarını koordinasiya etmək üçün obyektiv ehtiyaclarla müşayiət olunur. İdarəetmə məhz bu sferalardakı proseslərin təşkili formalarının əvəzolunmaz elementinə çevrilir. (Əmrahov V.T. və b., "Aqrobiznes", Bakı – 2021,. s.180, s.136 s).

Aqrobiznesin strateji idarə edilməsi iri əmtəə istehsalçılarının, aqroparkların, aqroholdinqlərin yaradıldığı şəraitdə daha çox səmərə verə bilər. Aqroholdinqlər və aqroparklar həm də işğaldan azad edilmiş ərazilərdə klasterial inkişafın başlıca hərəkətverici qüvvəsi kimi çıxış edir. Aqroholdinqlər və aqroparklar iri əmtəə istehsalçıları olub sərəncamında iri həcmli kənd təsərrüfatına yararlı torpaq sahələrini, dayanıqlı maddi-texniki təchizat sistemini, emal sənayesi müəssisələri ilə qarşılıqlı inteqrasiya münasibətlərini özündə birləşdirir.

Xırda əmtəə istehsalçılarının sərəncamında torpaq sahələrinin həcminin az olması növbəli əkin sisteminin tətbiqi imkanlarını məhdudlaşdırır. Bu da strateji idarəetmənin tətbiqi ilə bağlı proseslərdə özünəməxsus çətinliklər doğurur. Odur ki, işğaldan azad edilmiş ərazilərdə aqrobiznesin strateji idarə edilməsi xırda əmtəə istehsalçılarının sayının çox olduğu şəraitdə özünün müsbət nəticələrini verə bilmir.

Aqrotexnoparkın formalaşdırılması və fəaliyyəti bölmələr daxilində və bölmələr arasında iqtisadi münasibətlərin tənzimlənməsindən aqrotexnopark iştirakçılarının töhfəsi və iqtisadi maraqları nəzərə alınmaqla pul gəlirlərinin bölüşdürülməsi mexanizmindən asılıdır. Bununla bağlı pul gəlirlərinin bölüşdürülməsi və aqrotexnopark fondunun formalaşdırlması metodologiyasının hazırlanması zəruridir. (Qafarov N.C.Azərbaycanın aqrosənaye kompleksi: formalaşması və davamlı inkişaf problemləri. (dərs vəsaiti) Bakı-2024 , 464 s., s.263).

İşğaldan azad edilmiş ərazilərdə iri aqroparklar strateji idarəetmənin təşkilati və iqtisadi əsaslarının yaradılması baxımından da faydalıdır. Bu baxımdan inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi işğaldan azad edilmiş ərazilərdə aqrobiznesin inkişafına əlverişli şərait yarada bilər.

ƏDƏBİYYAT

1. Abbasov A.F. İqtisadi inkişafın müasir meylləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər (Monoqrafiya). Bakı-2024, s.576, s.11
2. Əmrahov V.T. və b., "Aqrobiznes" , Bakı – 2021, s.180, s.136
3. Qafarov N.C.Azərbaycanın aqrosənaye kompleksi: formalaşması və davamlı inkişaf problemləri. dərs vəsaiti Bakı-2024, 464 s, s.263.

Ниджат Яшар оглы Гусейнов
магистрант,
Анар Фазиль оглы Аббасов
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Стратегическое управление агробизнесом

Резюме

Развитие агропромышленного комплекса на освобожденных территориях создает благоприятные условия для обеспечения экономического роста, вовлечения потенциала этих территорий в хозяйственный оборот и создания благоприятных условий для эффективного использования экономических ресурсов. В статье отражены особенности развития агропромышленного комплекса на освобожденных территориях и некоторые вопросы стратегического управления агропромышленным комплексом.

Nicat Yashar Hüseynov
master,
Anar Fazil Abbasov
doctor of economic sciences, professor,
Azerbaijan Cooperation University

Strategic management of agribusiness

Summary

The development of agribusiness in the liberated territories creates favorable conditions for ensuring economic growth, releasing the potential of those territories into economic circulation,

and creating favorable conditions for the efficient use of economic resources. The article reflects the specific features of the development of agribusiness in the liberated territories and some issues related to the strategic management of agribusiness.

Vüsal Mehman oğlu FƏTƏLİSOY
magistrant,
Möhübbət Musa oğlu HÜSEYNOV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANIN VƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİNİN GEOİQTİSADİ MÖVQEYİNİN GÜCLƏNDİRİLMƏSİ VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNİ

Müasir dövrdə ölkənin və ya regionun hər bir sahədə inkişafı bilavasitə həmin ölkənin iqtisadiyyatı ilə əlaqədardır. Həmçinin qloballaşan dünyada iqtisadi inkişafın aparıcı ünsürü xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr qurmaqdır. Xarici ölkələrlə iqtisadi əlaqələr qurmaqda isə aparıcı ünsürlərdən biri, heç şübhəsiz, hal-hazırda dünyada bir nömrəli enerji mənbəyi olan neft və təbii qaz ehtiyatlarıdır. Neft və təbii qaz ehtiyatları artıq təkcə enerji sahəsində deyil, eyni zamanda ölkələrin iqtisadi inkişafında da aparıcı ünsür rolunu oynayır.

Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin iştirak etdiyi transmilli layihələr – Orta Dəhliz, Transxəzər nəqliyyat marşrutu, Bakı-Tbilisi-Qars dəmir yolu, TAP, TANAP və "Bir Kəmər, Bir Yol" təşəbbüsü kimi proqramlar regionun geoiqtisadi əhəmiyyətini artırır. Bu layihələr yalnız nəqliyyat və enerji sektorlarını əhatə etmir, eyni zamanda investisiya axınlarını stimullaşdırır, rəqəmsal iqtisadiyyatın inkişafı üçün imkanlar yaradır və regional iqtisadi təhlükəsizliyi möhkəmləndirir.

Eyni zamanda, geosiyasi çağırışların – enerji böhranları, ticarət müharibələri, qlobal iqtisadi qeyri-sabitlik, rəqəmsal təhlükəsizlik və strateji resurslara çıxışla bağlı rəqabətin artması fonunda iqtisadi təhlükəsizlik məsələləri daha da aktuallaşmışdır. İqtisadi təhlükəsizlik yalnız milli iqtisadi sabitliklə deyil, həm də xarici təsirlərə qarşı dayanıqlı olmaq, strateji resursların qorunması və iqtisadi müstəqilliyin təmin olunması ilə sıx bağlıdır.

Azərbaycan və Mərkəzi Asiya ölkələri üçün iqtisadi təhlükəsizliyin təmin olunması aşağıdakı əsas istiqamətlər üzrə aparılmalıdır:

- Enerji təhlükəsizliyinin təmin olunması və resursların diversifikasiyası;
- Ticarət və nəqliyyat marşrutlarının şaxələndirilməsi;
- Regionlararası inteqrasiyanın dərinləşdirilməsi (məsələn, Türk Dövlətləri Təşkilatı çərçivəsində);
- Rəqəmsal iqtisadiyyat və innovasiya sahələrinin inkişafı;
- Yerli istehsalın gücləndirilməsi və idxaldan asılılığın azaldılması;
- Maliyyə sabitliyinin qorunması və xarici borclanmanın nəzarətdə saxlanılması.

Gələcək dövrdə region ölkələrinin geoiqtisadi dəyərlərini maksimum səmərə ilə iqtisadi gücə çevirmək, həmçinin regional və beynəlxalq risklərə qarşı ortaq müdafiə mexanizmləri qurmaq əsas prioritetlərdən biri olacaqdır. Bu baxımdan, Azərbaycan və Mərkəzi Asiya ölkələri üçün koordinasiyalı iqtisadi strategiyaların işlənib hazırlanması və həyata keçirilməsi regional təhlükəsizliyin və davamlı inkişafın əsas təminatıdır.

Dünya iqtisadiyyatının inkişafı zamanı onun məzmununda baş verən dəyişikliklər bu mürəkkəb sistemin ayrılmaz hissələri kimi çıxış edən ölkələrin iqtsiadiyyatında müvafiq dəyişikliklərin aparılmasını şərtləndirir. Xarici iqtisadi əlaqələrin genişlənməsi şəraitində kiçik ölkələrin xarici iqtisadi inkişaf strategiyalarının seçimi daha da aktuallaşır. Çünki, açıq iqtisadiyyat şəraitində böyük ölkələrlə müqayisədə bu ölkələrin iqtisadi həyatında xarici iqtisadi əlaqələr daha böyük rol oynayır.

Milli iqtisadi inkişafın bütün göstəricilərinə və əlamətlərinə görə Azərbaycan Respublikasının

və Mərkəzi Asiya ölkələrinin oxşarlığı həddən artıq çoxdur. Bu baxımdan onların xarici iqtisadi inkişaf strategiyalarının prioritetləri də əksər hallarda oxşarlıq təşkil edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. "Xalq qəzeti". 24 may, 2009-cu il.
2. M.N.Məmmədov., M.I.Bərxudarov. Iqtisadi təhlükəsizlik. Dərslik. Bakı, İqtisad Universiteti nəşriyyatı 2006.
3. Hacızadə E.M., Energetika kompleksi yeni islahatlar ərəfəsində. Bakı: Elm, 2000
4. Dr. Osman Nuri ARAS, Azerbaycanın Hazar Ekonomisi ve Stratejisi, 2. baskı, İstanbul, 2008

Вусал Мехман оглы Фаталисой
магистрант,
Мохуббат Муса оглы Гусейнов
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Усиление геоэкономических позиций и обеспечение экономической безопасности Азербайджана и стран Центральной Азии

Резюме

В условиях углубляющейся глобализации и роста геополитических рисков усиление геоэкономических позиций Азербайджанской Республики и стран Центральной Азии приобретает стратегическое значение. Транспортно-транзитный потенциал, энергетические ресурсы, географическое положение и расширяющиеся международные экономические связи этих государств создают прочную основу для их превращения в более активных участников мировой экономической системы.

Геоэкономика – концепция превращения географического положения в экономическую силу – позволяет Азербайджану и государствам Центральной Азии укреплять статус ключевых партнеров в межрегиональном сотрудничестве.

Vusal Mehman Fatalisoy
master,
Mohubbat Musa Huseynov
doctor of economic sciences, professor,
Azerbaijan Cooperation University

Strengthening the geoeconomic position and ensuring economic security of Azerbaijan and Central Asian countries

Summary

In the modern era, marked by deepening globalization and increasing geopolitical risks, strengthening the geoeconomic position of the Republic of Azerbaijan and Central Asian countries holds strategic importance. The transport and transit potential, energy resources, geographical location, and expanding international economic relations of these regional countries create a solid foundation for their transformation into more active players in the global economic system.

Geoeconomics – understood as the transformation of geographical location into economic power – enables Azerbaijan and Central Asian states to consolidate their status as key partners in interregional cooperation.

Akif Sənan oğlu QARAYEV
magistrant,
Vasif Balaxan oğlu HƏZİYEV
iqtisad üzrə fəlsəfə doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

BİZNES SUBYEKTLƏRİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN İDARƏ OLUNMASI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ MEXANİZMLƏRİ

Giriş

Müasir dövrdə biznes subyektlərinin fəaliyyətinin davamlılığı və rəqabətqabiliyyətliliyi birbaşa olaraq onların iqtisadi təhlükəsizlik səviyyəsindən asılıdır. Qlobal iqtisadi sistemdə baş verən qeyri-sabitliklər, bazar riskləri, maliyyə böhranları, kiber təhlükələr və geosiyasi gərginliklər müəssisələrin iqtisadi təhlükəsizliyinin təmin olunmasını daha da aktual etmişdir. İqtisadi təhlükəsizlik müəssisənin daxili və xarici mühitdə mövcud olan risklərə qarşı dayanıqlığını, maliyyə sabitliyini və resurslardan səmərəli istifadə qabiliyyətini ifadə edir.

İqtisadi təhlükəsizliyin idarə olunması mexanizmləri, ilk növbədə, biznes subyektlərinin iqtisadi maraqlarının qorunmasını, maliyyə risklərinin azaldılmasını, əməliyyat dayanıqlığının təmin edilməsini və strateji inkişafın davamlılığını nəzərdə tutur[Əhmədov, R. 2021]. Bu mexanizmlərin təkmilləşdirilməsi müasir iqtisadi idarəetmənin əsas istiqamətlərindən biridir. Çünki istər iri korporasiyalar, istərsə də kiçik və orta biznes subyektləri bazar şəraitində fəaliyyət göstərərkən müxtəlif təhlükələrlə maliyyə itkiləri, bazar payının azalması, investisiya riskləri, kadr çatışmazlığı və rəqəmsal təhlükələrlə qarşılaşır [Həsənov, A. 2020].

Qloballaşma və rəqəmsallaşma dövründə iqtisadi təhlükəsizliyin idarə olunması yalnız maliyyə göstəricilərinin monitorinqi ilə məhdudlaşmamalı, həm də strateji risklərin proqnozlaşdırılması, informasiya təhlükəsizliyinin qorunması, insan resurslarının davamlı inkişafı və korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətlərini əhatə etməlidir. Bu baxımdan, iqtisadi təhlükəsizlik yalnız iqtisadi kateqoriya deyil, həm də idarəetmə, strateji planlaşdırma və risklərin analitik qiymətləndirilməsi sistemlərinin sintezidir.

Eyni zamanda, ölkə iqtisadiyyatında biznes mühitinin dəyişkənliyi və yeni texnoloji trendlər bu mexanizmlərin yenilənməsini zəruri edir. İnnovativ idarəetmə alətlərinin, rəqəmsal risk analizi sistemlərinin və süni intellekt əsaslı qərar dəstək mexanizmlərinin tətbiqi müəssisələrin iqtisadi təhlükəsizliyinin daha effektiv şəkildə qorunmasına imkan yaradır.

Biznes subyektlərində iqtisadi təhlükəsizliyin idarə olunması və təkmilləşdirilməsi yalnız qısamüddətli risklərin azaldılması deyil, həm də uzunmüddətli dayanıqlı inkişafın təminatı baxımından strateji əhəmiyyətə malikdir. Bu istiqamətdə formalaşan müasir idarəetmə yanaşmaları və iqtisadi modellər müəssisələrin adaptasiya qabiliyyətini, innovasiya potensialını və rəqabət üstünlüyünü artırır [İsmayılova, L. 2022].

Tədqiqatın aparılması zamanı biznes subyektlərində iqtisadi təhlükəsizliyin idarə olunması və onun təkmilləşdirilməsi istiqamətində çoxşaxəli yanaşmadan istifadə edilmişdir. İşin əsas məqsədi müxtəlif fəaliyyət sahələrində fəaliyyət göstərən müəssisələrin iqtisadi təhlükəsizlik sistemlərinin təşkili, idarəetmə mexanizmləri, risklərin azaldılması və maliyyə dayanıqlığının təmin olunması üzrə mövcud təcrübəni araşdırmaq və elmi əsaslarla təkmilləşdirmə təklifləri vermək olmuşdur.

Tədqiqatın empirik bazasını müxtəlif formalarda biznes subyektləri təşkil etmişdir: kiçik və orta sahibkarlıq müəssisələri, iri sənaye şirkətləri, ticarət və xidmət sektoru üzrə fəaliyyət göstərən təşkilatlar. Bu müəssisələrdən əldə olunan məlumatlar tədqiqatda analitik təhlil üçün əsas mənbə kimi istifadə edilmişdir.

İlkin məlumatlar əsasən müəssisələrin maliyyə hesabatları, risk idarəetməsi üzrə daxili qaydalar, strateji inkişaf planları, həmçinin iqtisadi təhlükəsizlik üzrə dövlət tənzimləmələrindən toplanmışdır. Bununla yanaşı, açıq statistik göstəricilər, Dövlət Statistika Komitəsinin illik hesabatları, İqtisadiyyat Nazirliyinin məlumat bazası və beynəlxalq iqtisadi təhlükəsizlik göstəriciləri üzrə mənbələrdən də istifadə edilmişdir.

Metodoloji yanaşma kompleks xarakter daşıyır. Tədqiqatda həm keyfiyyət, həm də kəmiyyət metodları tətbiq olunmuşdur. Keyfiyyət analizləri çərçivəsində iqtisadi təhlükəsizlik anlayışı, onun struktur elementləri, təhdidlərin təsnifatı və idarəetmə modelləri nəzəri baxımdan təhlil edilmişdir. Kəmiyyət metodları isə əsasən göstəricilərin müqayisəli təhlili, iqtisadi səmərəlilik əmsallarının hesablanması, risk dərəcələrinin müəyyənləşdirilməsi və dinamik tendensiyaların öyrənilməsinə yönəlmişdir.

Tədqiqatda SWOT-analiz metodu vasitəsilə biznes subyektlərinin güclü və zəif tərəfləri, iqtisadi təhlükəsizlik üçün mövcud imkanlar və potensial təhdidlər qiymətləndirilmişdir. Ekspert qiymətləndirmə üsulu ilə iqtisadi təhlükəsizliyin təmini sahəsində müəssisə rəhbərlərinin, maliyyə menecerlərinin və müstəqil analitiklərin fikirləri müqayisə olunmuş, nəticələr sistemləşdirilmişdir.

Eyni zamanda, müqayisəli təhlil və statistik modelləşdirmə yanaşmaları tətbiq olunaraq müxtəlif müəssisələrin iqtisadi təhlükəsizlik göstəriciləri üzrə performans fərqləri müəyyən edilmişdir. Bu yanaşma biznes subyektlərində təhlükəsizlik sistemlərinin effektivlik səviyyəsini real vəziyyətlə müqayisə etməyə və risklərin idarə olunmasında optimal mexanizmləri müəyyənləşdirməyə imkan vermişdir.

Tədqiqatın metodoloji əsasını iqtisadi təhlükəsizliyin konseptual prinsipləri – sistemlilik, qabaqlayıcılıq, adaptivlik və davamlılıq prinsipləri təşkil etmişdir. Bu prinsiplər əsasında idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri formalaşdırılmış və elmi əsaslandırılmış nəticələr əldə olunmuşdur.

Aparılmış araşdırmalar göstərmişdir ki, iqtisadi təhlükəsizliyin idarə olunması yalnız maliyyə sabitliyi ilə məhdudlaşmır; bu proses həm də strateji planlaşdırma, risklərin qabaqlayıcı qiymətləndirilməsi, informasiya təhlükəsizliyi, insan resurslarının idarə edilməsi və innovativ idarəetmə texnologiyalarının tətbiqi ilə sıx bağlıdır.

Nəticə

Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, müasir dövrdə biznes subyektlərində iqtisadi təhlükəsizliyin idarə olunması müəssisənin fəaliyyətinin bütün istiqamətlərini əhatə edən kompleks prosesdir. Bu proses yalnız maliyyə sabitliyinin qorunması ilə məhdudlaşmır, həm də strateji planlaşdırma, idarəetmə qərarlarının düzgün istiqamətləndirilməsi, risklərin qabaqlayıcı təhlili, informasiya mühafizəsi və insan resurslarının səmərəli istifadəsini əhatə edir.

Tədqiqat göstərmişdir ki, iqtisadi təhlükəsizlik sisteminin effektivliyi birbaşa olaraq müəssisənin idarəetmə mədəniyyətindən, təşkilati strukturundan, məlumat axınının şəffaflığından və resurs potensialının düzgün bölüşdürülməsindən asılıdır. Əldə edilən nəticələr sübut edir ki, biznes subyektlərində iqtisadi təhlükəsizliyin təmini üçün risklərin vaxtında aşkarlanması və qarşısının alınması əsas prioritetlərdən biri olmalıdır.

Analizlər nəticəsində müəyyən olunmuşdur ki, bir çox müəssisələrdə iqtisadi təhlükəsizlik mexanizmləri yalnız formal xarakter daşıyır və praktiki tətbiq səviyyəsində sistemlilik zəifdir. Bu isə uzunmüddətli inkişaf strategiyasının formalaşmasına və rəqabət qabiliyyətinin artırılmasına mənfi təsir göstərir.

Eyni zamanda, tədqiqat sübut etmişdir ki, iqtisadi təhlükəsizliyin səmərəli idarə olunması üçün müəssisə daxilində inteqrasiyalı idarəetmə modelinin tətbiqi zəruridir. Belə modeldə maliyyə, istehsal, informasiya və kadr resursları bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir və sistemin dayanıqlığını təmin edir.

Aparılan empirik təhlillər göstərmişdir ki, iqtisadi təhlükəsizliyin təmin olunması səviyyəsi müəssisənin adaptivlik qabiliyyəti ilə sıx bağlıdır. Yəni dəyişən bazar şəraitinə, fiskal və monetar siyasətlərə çevik reaksiya verə bilən müəssisələrdə risklər daha effektiv idarə olunur və təhlükəsizlik səviyyəsi yüksək olur.

Tədqiqat nəticəsində aşağıdakı əsas elmi-nəzəri və praktik nəticələr formalaşdırılmışdır:

1. İqtisadi təhlükəsizlik sisteminin idarə olunması yalnız maliyyə göstəriciləri ilə deyil, həm də informasiya, hüquqi və təşkilati təhlükəsizlik amilləri ilə ölçülməlidir.
2. Biznes subyektlərində risklərin qiymətləndirilməsi üçün kompleks yanaşma tətbiq olunmalı, SWOT və ekspert təhlil metodları müntəzəm aparılmalıdır.

3. İdarəetmə proseslərində rəqəmsal texnologiyaların tətbiqi iqtisadi təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır.

4. Dövlət səviyyəsində iqtisadi təhlükəsizlik standartlarının işlənib hazırlanması və müəssisələrdə bu standartlara əməl olunmasına nəzarət mexanizmləri gücləndirilməlidir.

5. Kadr potensialının artırılması və iqtisadi təhlükəsizlik üzrə mütəxəssislərin hazırlanması sistemli şəkildə həyata keçirilməlidir.

Ümumilikdə, aparılan tədqiqatlar göstərir ki, iqtisadi təhlükəsizliyin təmin olunması və təkmilləşdirilməsi müasir biznes idarəetməsinin ayrılmaz tərkib hissəsidir. Bu sistemin düzgün qurulması və effektiv fəaliyyəti müəssisənin davamlı inkişafını, rəqabət üstünlüyünü və milli iqtisadiyyatın sabitliyini təmin edən əsas amillərdəndir.

ƏDƏBİYYAT

1. Əhmədov, R. (2021). *Müasir biznesdə iqtisadi təhlükəsizliyin idarə olunması prinsipləri*. Bakı: İqtisad Universiteti Nəşriyyatı, s. 45–78.
2. Həsənov, A. (2020). *İqtisadi təhlükəsizlik sistemlərinin formalaşdırılması və idarəetmə mexanizmləri*. Bakı: Elm və Təhsil, s. 12–65.
3. İsmayılova, L. (2022). *Biznes subyektlərində risklərin idarə edilməsi və iqtisadi sabitliyin qorunması*. Bakı: AzərNəşr, s. 33–59.
4. Məmmədov, E. (2019). *Müəssisələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsində strateji idarəetmənin rolu*. Gəncə: Qafqaz Universiteti Nəşriyyatı, s. 21–74.
5. Qasımov, T. (2023). *Rəqəmsal iqtisadiyyat şəraitində biznes təhlükəsizliyi və idarəetmə modelləri*. Bakı: Tədris Nəşriyyatı, s. 40–88.

Акиф Санан оглы Гараев
магистрант,
Васиф Балахан оглы Хазиев
доктор философии по экономике, профессор,
Азербайджанский Университет Кооперации

Механизмы управления и совершенствования экономической безопасности в бизнес-субъектах

Резюме

Обеспечение экономической безопасности в бизнес-субъектах является одним из основных условий устойчивого развития и конкурентоспособности предприятий. Совершенствование механизмов управления способствует снижению рисков, более эффективному использованию ресурсов и сохранению финансовой стабильности. В результате исследования установлено, что эффективное функционирование системы экономической безопасности зависит от стратегического планирования и правильных управленческих решений. В современных условиях применение цифровых технологий и интегрированных моделей управления повышает уровень экономической безопасности. Таким образом, комплексный подход в данном направлении выступает важным фактором обеспечения устойчивого развития бизнеса.

Akif Sanan Garayev
master,
Vasif Balakhan Haziyev
doctor of philosophy in economics, professor,
Azerbaijan Cooperation University

Mechanisms of management and improvement of economic security in business entities

Summary

Ensuring economic security in business entities is one of the main conditions for sustainable development and competitiveness of enterprises. Improving management mechanisms contributes

to risk reduction, more efficient use of resources, and the preservation of financial stability. The study revealed that the effective functioning of the economic security system depends on strategic planning and sound decision-making processes. In modern conditions, the application of digital technologies and integrated management models enhances the level of economic security. As a result, a comprehensive approach in this direction acts as a key factor ensuring the sustainable development of business.

Səfqulu Səbuhi oğlu YEDİYAROV
magistrant,
Vasif Balaxan oğlu HƏZİYEV
iqtisad üzrə fəlsəfə doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

MÜASİR MÜƏSSİSƏLƏRDƏ MENECMENTİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

Giriş

Müasir iqtisadi şəraitdə müəssisələrin rəqabətqabiliyyətini qorumaq və dayanıqlı inkişafını təmin etmək üçün menecmentin səmərəliliyi mühüm rol oynayır. Müəssisələrin fəaliyyətində menecment yalnız əməliyyatların təşkil edilməsi və resursların idarə olunması ilə məhdudlaşmır, həm də strateji qərar qəbuletməni, innovasiyaların tətbiqini və insan kapitalının effektiv istifadəsini əhatə edir. Bu baxımdan menecmentin səmərəliliyi, ilk növbədə, təşkilatın məqsədlərinə çatmaq üçün mövcud resurslardan optimal istifadəyə əsaslanır.

Müasir dövrdə müəssisələr çevik və innovativ idarəetmə sistemlərini tətbiq etməyə məcburdurlar. Qlobal bazarda rəqabətin kəskinləşməsi, texnoloji dəyişikliklər və istehlakçı tələblərinin sürətlə dəyişməsi müəssisələrdə menecment proseslərinin daim təkmilləşdirilməsini zəruri edir. Bu isə yalnız klassik idarəetmə yanaşmaları ilə mümkün deyil; müasir menecment konsepsiyaları rəqəmsallaşma, strateji planlaşdırma, çevik qərar qəbuletmə və əməkdaşların motivasiyasına yönəlmişdir [Məmmədov, A. 2019].

Menecmentin səmərəliliyinin artırılması bir neçə istiqamət üzrə həyata keçirilir. İlk növbədə, liderlik və rəhbərlik üslublarının müəssisənin məqsəd və strategiyasına uyğunlaşdırılması vacibdir. Effektiv rəhbərlik işçilərin motivasiyasını yüksəldir, onların potensialını realizə etməyə şərait yaradır və təşkilatın ümumi performansını artırır. İkincisi, innovativ texnologiyaların və rəqəmsal alətlərin tətbiqi menecment proseslərinin sürətini və dəqiqliyini artırır, məlumatlara əsaslanan qərar qəbuletmə mexanizmlərini gücləndirir. Üçüncüsü, insan resurslarının səmərəli idarə olunması, təlim və inkişaf proqramlarının təşkil edilməsi, əməkdaşların bacarıqlarının yüksəldilməsi müəssisənin səmərəliliyinə birbaşa təsir göstərir [Quliyev, T. 2021].

Müasir menecment nəzəriyyələri də göstərir ki, strateji yanaşma, yəni uzunmüddətli məqsədlərə uyğun planlaşdırma və resursların optimallaşdırılması menecmentin səmərəliliyini artıran əsas faktorlardan biridir. Həmçinin, işçi məmnuniyyəti və təşkilati mədəniyyət menecment proseslərinin effektivliyini yüksəldən sosial amil kimi qəbul edilir. Bu yanaşmaların birlikdə tətbiqi müəssisələrin performansını artırmaq, resurs israfını azaltmaq və innovasiyalara daha çevik reaksiya vermək imkanını yaradır.

Müasir müəssisələrdə menecmentin səmərəliliyinin artırılması kompleks və çoxsahəli prosesdir. Bu proses yalnız əməliyyatların optimallaşdırılması ilə məhdudlaşmır, həm də strateji planlaşdırma, liderlik üslubu, rəqəmsallaşma, innovasiya və insan resurslarının səmərəli idarə olunmasını birləşdirir. Aparılan tədqiqatlar göstərir ki, bu yanaşmalar müəssisələrin dayanıqlı və rəqabətqabiliyyətli inkişafına əsas təməl təşkil edir [Rzayeva, S. 2017].

Tədqiqatın əsas məqsədi müasir müəssisələrdə menecmentin səmərəliliyini artırmaq üçün tətbiq olunan strategiyaları və metodları müəyyən etmək, həmçinin onların praktik təsirini sistemli şəkildə öyrənməkdir. Müasir iqtisadi şəraitdə müəssisələrin fəaliyyətinin səmərəli təşkili yalnız

maliyyə və əməliyyat resurslarından effektiv istifadə ilə məhdudlaşmır, eyni zamanda rəhbərlik üslubu, işçi motivasiyası, innovativ yanaşmalar və strateji planlaşdırmanın qarşılıqlı əlaqəsi ilə müəyyən olunur. Bu baxımdan menecmentin səmərəliliyinin artırılması kompleks yanaşma tələb edir və bu yanaşmanın tədqiqi nəzəri və empirik üsulları birləşdirməklə həyata keçirilir.

By adopting the principles of BEM, organizations can transcend conventional performance metrics, fostering a culture of excellence and ensuring long-term sustainability within an increasingly dynamic and competitive environment. This article aims to explore BEM within the context of the relationship between organizational efficiency and sustainability, highlighting how the framework facilitates a balance between performance excellence and responsible resource management.

BEM Indicators and Their Relationship with Core Values

To further elaborate on the implementation of BEM, the following table presents the seven key indicators of the framework and their respective associations with core BEM values (Rochmatullah et al., 2023):

BEM Indicator	Description	Associated BEM Values
Leadership	The role of senior executives in shaping vision and direction	Visionary leadership, ethical governance, strategic foresight
Strategy	The formulation and execution of long-term organizational plans	Strategic adaptability, innovation, goal alignment
Customers	Commitment to understanding and fulfilling customer needs	Customer-centricity, value creation, stakeholder engagement
Measurement, Analysis, and Knowledge Management	Systematic assessment of data to support evidence-based decision-making	Fact-driven management, continuous learning, knowledge dissemination
Workforce	Policies and practices ensuring employee engagement and well-being	Human capital development, inclusivity, organizational culture
Operations	Optimization of processes to enhance organizational performance	Operational excellence, efficiency, sustainability integration
Results	Achievement of performance outcomes across multiple domains	Sustainable success, performance benchmarking, continuous improvement

This table underscores how each of the BEM indicators aligns with fundamental principles that drive excellence and sustainability within organizations. By incorporating these criteria, organizations can ensure that performance measurement is both comprehensive and aligned with long-term value creation.

Conclusion

The Baldrige Excellence Model serves as a powerful instrument for linking organizational efficiency with sustainability through a holistic performance management approach. Its multidimensional structure enables organizations to evaluate not only financial and operational outcomes but also leadership quality, strategic adaptability, workforce engagement, and environmental responsibility. Unlike traditional efficiency-driven models, BEM encourages self-assessment, learning, and continuous development, ensuring that excellence is both measurable and enduring. By embedding sustainability principles into performance evaluation, BEM helps organizations transform efficiency into a long-term strategic advantage. Consequently, adopting the Baldrige framework can lead to improved decision-making, resource optimization, and sustainable value creation–outcomes essential for maintaining resilience and competitiveness in today's dynamic business landscape.

LİTERATURE

1. Rochmatullah, M. R., Rahmawati, R., Probohudono, A. N., & Widarjo, W. (2023). Is quantifying performance excellence really profitable? An empirical study of the deployment of the Baldrige Excellence Measurement Model in Indonesia. *Asia Pacific Management Review*, *28*(3), 287-298.
2. Alda, T. (2021). Performance Measurement Analysis Based on Baldrige Excellence Framework in Palm Oil Company. *Jurnal Sistem Teknik Industri*, *23*(2), 146-154.
3. Thunyachairat, A., Jangkrajarng, V., & Theeranuphattana, A. (2024). Critical Success factor of Malcolm Baldrige National Quality Award (MBNQA), Lean Practice with Thai Automotive Industry. *Pakistan Journal of Life & Social Sciences*, *22*(1).
4. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://baldrigealliance.org/wp-content/uploads/2022/01/Baldrige-Research-Project-White-Paper-WALDEN 211111_FINAL.pdf

Əliyar Xudarəhim oğlu ƏSƏDOV
doktorant,
Azərbaycan Dövlət İqtisad Universiteti

Təşkilati səmərəlilik və davamlılıq arasındakı münasibət kontekstində "Baldric (Baldrige) mükəmməllik modeli" (BEM): konseptual analiz

Xülasə

Bu tədqiqat Baldrige Mükəmməllik Modelinin (BEM) təşkilatların fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi və təkmilləşdirilməsi üçün hərtərəfli idarəetmə çərçivəsi kimi rolunu araşdırır və xüsusilə onun səmərəliliklə davamlılıq arasında tarazlığın təmin edilməsindəki əhəmiyyətinə diqqət yetirir. Tədqiqatda modelin əsas komponentləri – liderlik, strategiya, müştəri yönümlülüyü, ölçmə və biliklərin idarə edilməsi, işçi qüvvəsinin idarə olunması, əməliyyatların təşkili və nəticələrin qiymətləndirilməsi – sistemli şəkildə təhlil edilir. Bu konseptual yanaşma BEM-in təşkilatlara uzunmüddətli mükəmməlliyə nail olmaqda metodoloji və strateji dəstək verdiyini nümayiş etdirir.

Balanslaşdırılmış Hədəflər Sistemi, Əsas Performans Göstəriciləri (KPI) və Altı Siqma kimi ənənəvi performans ölçmə alətlərindən fərqli olaraq, BEM davamlılıq prinsiplərini birbaşa qiymətləndirmə meyarlarına inteqrasiya edir və bununla da ekoloji, sosial və idarəetmə (ESG) aspektlərinin təşkilati qərarvermə prosesinə daxil edilməsini təşviq edir. Analitik nəticələr göstərir ki, BEM yalnız əməliyyat səmərəliliyinin yüksəldilməsinə deyil, həm də rəqabətqabiliyyətli qlobal mühitdə davamlı təşkilati uğurun təmin olunmasına xidmət edir. Bu modelin tətbiqi davamlı təkmilləşdirmə mədəniyyətinin formalaşmasını, maraqlı tərəflərin fəal iştirakını və innovasiyaya əsaslanan idarəetmə yanaşmalarının inkişafını stimullaşdırır.

Алийяр Хударегим оглы Асадов
докторант,
Азербайджанский Государственный Экономический Университет

“Модель совершенства болдриджа” (БЭМ) в контексте взаимосвязи между организационной эффективностью и устойчивым развитием: концептуальный анализ

Резюме

В данном исследовании рассматривается роль Модели совершенства Балдриджа (Baldrige Excellence Model, BEM) как всеобъемлющей управленческой рамки для оценки и совершенствования эффективности деятельности организаций, с особым акцентом на её значение в обеспечении баланса между эффективностью и устойчивостью. В работе системно анализируются основные компоненты модели – лидерство, стратегия, ориентация на клиента, измерение и управление знаниями, управление персоналом, организация операций и оценка результатов.

Концептуальный подход демонстрирует, что BEM обеспечивает организациям методологическую и стратегическую поддержку в достижении долгосрочного совершенства. В отличие от традиционных инструментов измерения эффективности, таких как Сбалансированная система показателей, ключевые показатели эффективности (KPI) и методология «Шесть сигм», BEM интегрирует принципы устойчивости непосредственно в критерии оценки, тем самым способствуя включению экологических, социальных и управленческих (ESG) аспектов в процесс организационного принятия решений.

Аналитические результаты показывают, что применение модели способствует не только повышению операционной эффективности, но и обеспечению устойчивого организационного успеха в конкурентной глобальной среде. Внедрение BEM стимулирует формирование культуры постоянного совершенствования, активное участие заинтересованных сторон и развитие инновационно-ориентированных управленческих подходов.

Məhəmməd Mehman oğlu ƏLİYEV
magistrant,
Rauf Qəzənfər oğlu MƏMMƏDOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MÜHƏNDİSLİK VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN İDARƏ EDİLMƏSİ

Azərbaycan iqtisadiyyatının qarşısında duran başlıca səciyyəvi vəzifələrdən biri davamlı və sabit iqtisadi inkişaf şəraitində Respublikanın iqtisadi təhlükəsizliyinin tam təmin edilməsidir. Beynəlxalq iqtisadi sistemdə baş verən son qlobal hadisələr Azərbaycanın iqtisadi təhlükəsizliyinə təhdid yaradır. Bu baxımdan, iqtisadi təhlükəsizliyin təmin edilməsi daha da aktuallaşır. Bu məqsədlərə nail olmaq üçün bəzi təcili addımlar atılmalıdır.2016-cı il 06 dekabrda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 1138 saylı fərmanı ilə təsdiq edilmiş olan iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına dair “Yol xəritəsi” sənədi ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə qloballaşma şəraitində iqtisadi inkişafda bu prosesin danılmaz olduğunu qeyd etmək lazımdır. Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadiyyatına sürətli inteqrasiyası milli təsərrüfat sisteminin müstəqil, qənaətbəxş, fiziki-coğrafi baxımdan səmərəli fəaliyyət göstərməsini tələb edir.

Müstəqilliyin ilk dövrlərində həll edilməli olan bu problemin həllinə cəhdlərə baxmayaraq,

hələ də iqtisadi təhlükəsizliyi təhdid edən məsələlər vardır.

Ümumi iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində ən mühüm məsələ ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsi idi ki, artıq bu problem də həll edilmişdir. Bu da iqtisadi inkişafı daim təkmilləşdirməklə iqtisadi təhlükəsizliyi təmin etməyi mümkün etmişdir. Bu baxımdan iqtisadi təhlükəsizlik milli maraqları və sosial maraqları tam təmin etməlidir. Uzun illərdir ki, ölkəmiz iqtisadi təhlükəsizlik strategiyalarını formalaşdırmışdır və onun reallaşdırılmasına start vermişdir. Qeyd edək ki,inkişaf etmiş ölkələrdə bu dövr artıq yaşanmışdır.Belə ki, ABŞ hökuməti ilk dəfə 1990-cı ildə iqtisadi təhlükəsizlik strategiyasını işləyib hazırladı. 1999-cu ildən bəri ABŞ hökuməti iqtisadi təhlükəsizliyi ümumi milli təhlükəsizlik strategiyasının əsas məqsədi kimi qəbul etmişdir.

Söhbət milli təhlükəsizliyin təmin edilməsində öz rolu , yeri olan və bütünlüklə milli maraqlara cavab verən sosial-iqtisadi inkişafdan gedir. Ulu öndər Heydər Əliyev öz çıxışlarında qeyd edirdi ki, hər bir ölkənin mövcud olmasının əsas şərti onun iqtisadiyyatıdır. İqtisadi cəhətdən güclü dövlət hər şey edə bilər və bu prizmadan müstəqil Azərbaycanın iqtisadi təhlükəsizliyi ilə bağlı geniş araşdırmalar aparmaq lazımdır. Milli iqtisadiyyat iqtisadiyyatın milli baxımdan təzahürüdür.Sosial iqtisadiyyatın inkişafı ilə indiki əsas problem daxildən və xaricdən mümkün təhlükələrin qarşısının alınmasıdır.

Hər bir ölkənin öz inkişaf xüsusiyyətləri var. Buna görə də sosial-iqtisadi inkişafın ümumi metodologiyasını irəli sürmək, onun doğru və dürüst olduğunu iddia etmək çətindir.

Bu baxımdan hər bir ölkənin iqtisadiyyatı ilk növbədə öz sərhədləri daxilində inkişaf etməlidir. Aydındır ki, iqtisadiyyatın artımı həmişə kütləvi çoxalma yolu ilə baş verir. Ümumi nöqteyi-nəzərdən bu tip xassələrə bütövlükdə baxılır.

Azərbaycanın iqtisadi modeli qarışıq iqtisadi model kimi yaradılmalıdır. Ancaq buna baxmayaraq, sosial-iqtisadi olduğuna inanırıq.

Sosial-iqtisadi inkişafın ətrafındakı halqaları təxminən aşağıdakı kateqoriyalara bölmək olar:

- milli iqtisadiyyat, milli səviyyədə iqtisadi inkişaf;
- milli iqtisadiyyatın, sərvətin, potensialın, səmərəli mövqeləşdirmənin, daxili bazarın və dünya vəziyyətinin müəyyən edilməsi, müdafiə qabiliyyətinin davamlı olaraq gücləndirilməsini təmin etmək;
- dövlətin iqtisadiyyata müdaxiləsinin dərəcəsi, sosial-iqtisadi münasibətlərin kompleks şəkildə formalaşması və artan inkişafı;
- ənənəvi davranışda etibar onun genişlənməsinə mühüm təsir göstərir, hər bir üzvün məsuliyyətini müəyyənləşdirir;
- əsas sosial vəzifələrin həyata keçirilməsini əks etdirmək və diqqəti milli xüsusiyyətlərə yönəltmək.

Hamımıza məlum olduğu kimi, Azərbaycan gözəl təbii iqlimə və geosiyasi şəraitə malikdir, Şərqlə Qərb arasında bir dəhlizdir.

Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra mövcud reallıqlar sübut etdi ki, o, milli təhlükəsizliyin təminatına, dünyada öz yerini tutmaq gücünə malikdir.

Qloballaşma şəraitində iqtisadi təhlükəsizlik məsələsi sivil dövlətlərin daxili və xarici siyasətinin əsas hissəsini təşkil edir və mandatda xüsusi yer tutur. Aydındır ki, dünya qloballaşmasının inkişafı və dərinləşməsi iqtisadi təhlükəsizlik məsələsini daha da aktuallaşdırmışdır.

Bir çox ölkələrdə məhdud təbii ehtiyatların marjinallaşdırılması beynəlxalq həyatın bu nemətlərindən istifadə etmək üçün iqtisadi və siyasi mübarizənin güclənməsi ilə xatırlanır. Bu səbəbdən bir ölkənin və ya bir çox ölkələrin rəqabət qabiliyyətinin hər hansı artımı digər ölkələr tərəfindən onların milli maraqlarını təhdid edən real təhlükə kimi qiymətləndirilir.

Bütövlükdə iqtisadi təhlükəsizlik təkcə milli maraqların təminatı deyil, həm də sosial və iqtisadi maraqların inkişafı və müdafiəsidir.Milli sistemin icra mexanizminin və tədbir sisteminin təmin edilməsi vacibdir. Eyni zamanda elmi, düzgün, dürüst sosial-iqtisadi siyasətin də böyük rolu olub.

Aydındır ki, düzgün və dürüst iqtisadi siyasət aparılmadan ölkənin sosial-iqtisadi münasibətlərinin normal inkişafı mümkün deyil. İqtisadi siyasətin həlledici rolu bazar şəraitində müstəqil

dövlət statusu əldə etmək, müstəqil sosial-iqtisadi strukturların inkişafı ilə vətəndaşların maddi və mədəni həyat keyfiyyətini yüksəltmək, ölkənin müdafiə qabiliyyətini gücləndirməkdən ibarətdir. Ona görə də dövlətin həyata keçirdiyi iqtisadi siyasət, ilk növbədə, ictimai həyatımızın əsasını təşkil edən maddi məhsul istehsalının davamlı yüksəlişi və inkişafının açarıdır. Qloballaşma şəraitində o, istehsalın səmərəliliyini artırmaq üçün intensivləşdirmə amillərindən istifadə etməyi qarşısına məqsəd qoyaraq bazar və sosial-iqtisadi inkişafı hədəfləyir.

İqtisadi siyasət strateji inkişafın ən güclü tənzimləyicisidir. Bunun üçün dövlətin iqtisadi siyasəti bazar prinsiplərinə əsaslanmalıdır. Qloballaşma şəraitində respublikamızın bazar sisteminin birinci mərhələsində bir çox çətin problemləri həll etməsi milli iqtisadi siyasətin əsas məqsədlərini müəyyən edir ki, bu da iqtisadiyyatın inkişafı ilə əlaqədar bəzi gözlənilən və gözlənilməz iqtisadi təhlükələr yaradır. Sosial-iqtisadi inkişaf, iqtisadi təhlükəsizliyin təmin edilməsi yolu birbirini tamamlayan - iqtisadi siyasətin və bütövlükdə iqtisadi təhlükəsizliyin sistemli şəkildə öyrənilməsi unikal elmi-praktik əhəmiyyətə malikdir.

Ümumi təhlükəsizlik - dövlətin, cəmiyyətin, vətəndaş həyat tərzinin, milli-mənəvi dəyərlərin, xarici və daxili təhlükələrin iqtisadi, siyasi, hərbi, informasiya, ekoloji təminatı və mühafizəsini nəzərdə tutur.

Sonrakı illərdə, xüsusən də Rusiyada milli təhlükəsizliyə üstünlük verildi ki, bu da iqtisadi təhlükəsizliyə münasibətin azalmasına səbəb oldu. Yuxarıda göstərilənlərə əsasən, təhlükəsizlik anlayışını aşağıdakı kimi müəyyən etmək olar: Onun strukturunu daxili və xarici təhlükələrdən qorumaq.

Təhlükəsizlik milli və sosial təhlükəsizliyin təmin edilməsi ilə bağlı sosial fəaliyyətin nəticəsidir. Eyni zamanda, tədbirin mövzusu təhdidlər şəklində təhlükədir: hərbi, siyasi, iqtisadi və s. Belə təhlükələrin vektorları sosial-sosial hadisə və proseslərdir.

Təhlükəsizliyin müxtəlif növlərinə dair çoxlu sayda perspektivlər kontekstində onların 3 növə təsnifatı amillərinin tədqiqi geniş yayılmışdır:

- sosial;
- təbii;
- texnoloji.

Hər bir aktiv obyektlə bağlı təhlükəsizlik məsələlərinə kompleks, sistemli yanaşma tələb olunur.

Sistem şaquli olaraq bir-biri ilə əlaqəli üç səviyyədə öyrənilir:

1. Vətəndaşların təhlükəsizliyi;
2. Etibar və təhlükəsizlik;
3. Milli təhlükəsizlik.

İqtisadi təhlükəsizlik respublikamızda Qərblə müqayisədə yeni konsepsiya hesab olunur. İqtisadi təhlükəsizlik kontekstində ölkə suveren inkişaf yolu ilə sosial-iqtisadi qüdrətini davamlı olaraq möhkəmləndirmişdir. Beynəlxalq həyatın uzunmüddətli təcrübəsi göstərir ki, sabit və azad bazar şəraitində inkişaf edən iqtisadiyyatla iqtisadi təhlükəsizliyin təmin edilməsi məsələsi hər bir müstəqil dövlətin ən mühüm vəzifələrindən biri olaraq qalır. Bu baxımdan əsas məsələlərlə bağlı dünya iqtisadçılarının və ölkə nümayəndələrinin fikirlərinin hərtərəfli öyrənilməsi unikal elmi-praktik əhəmiyyətə malikdir.

Qloballaşma şəraitində qloballaşma dünya ölkələri arasında dərinləşən siyasi, sosial və iqtisadi münasibətlərə yeni baxış tələb edir. Xüsusilə vurğulanmalıdır ki, müstəqilliyin bərpasının yeni dövrünü yaşayan ölkələrə, o cümlədən Azərbaycana xarici sərmayədarların cəlb edilməsi bu dövlətlərlə yanaşı, bütün dünya iqtisadiyyatının inkişafına müsbət təsir göstərir. Bu baxımdan, xarici investisiya mühitinə təsir edən amilləri nəzərə alaraq, investisiyalar və onların qiymətləndirilməsi ilə bağlı milli və beynəlxalq institutların rol və funksiyaları gücləndirilməlidir.

Milli iqtisadi siyasət baxımından iqtisadi təhlükəsizlik həmişə iqtisadçıların diqqət mərkəzində olub. Görünür ki, 19-cu əsrdən iqtisadi təhlükəsizliyin təminatı elmi nəzəriyyəsi zamanın qanunlarına uyğun olaraq formalaşmış və təkmilləşmişdir. Xüsusilə dövlətin inkişaf etmiş ölkələrin iqtisadiyyatına müdaxiləsi Keynsin diqqət mərkəzində idi.

ƏDƏBİYYAT

1. Abdullayev A. “İqtisadiyyat və iqtisadi siyasət”. Bakı, “Asiya”, 2003.
2. Allahverdiyev H.B. “Xarici investisiya fəaliyyətinin dövlət təmini məsələləri” jurnal “Nəzəriyyə və praktika” №4- 2004.
3. Allahverdiyev D.İ. “İqtisadi təhlükəsizliyin dövlət təmini məsələləri” avtoreferat. Bakı, 2006.
4. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. «Strateji planlaşdırma» Bakı, 2005. İqtisadiyyat Universitetinin nəşriyyatı.
5. Axundov M.Ə. Strateji idarəetmə. Bakı 2001, İqtisadiyyat Universitetinin nəşriyyatı
6. Cozef Stiqnoz. “Qloballaşma və onun doğurduğu narazılıqlar” Bakı, 2001.
7. “Ekoloji təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2004.

Магомед Мехман оглы Алиев
магистрант,
Рауф Газанфар оглы Мамедов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Проектирование и управление экономической безопасностью в условиях глобализации

Резюме

Важнейшим вопросом укрепления всеобщей экономической безопасности был вопрос восстановления территориальной целостности нашей страны, который к настоящему времени решён. Это позволило обеспечить экономическую безопасность путём постоянного улучшения экономического развития. С этой точки зрения, экономическая безопасность должна полностью отвечать национальным и общественным интересам.

Обеспечение национальной безопасности – это социально-экономическое развитие, которое имеет свою роль и место и полностью отвечает национальным интересам. Великий лидер Гейдар Алиев в своих выступлениях отмечал, что главным условием существования каждой страны является её экономика. Экономически сильное государство способно на всё, и с этой точки зрения необходимо проводить широкомасштабные исследования экономической безопасности независимого Азербайджана. Национальная экономика – это проявление экономики с национальной точки зрения. Основной актуальной проблемой развития общественной экономики является предотвращение возможных внутренних и внешних угроз.

Mahammad Mehman Aliyev
master,
Rauf Ghazanfar Mammadov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Engineering and management of economic security in the conditions of globalization

Summary

The most important issue in strengthening the overall economic security was the issue of restoring the territorial integrity of our country, which has already been resolved. This made it possible to ensure economic security by constantly improving economic development. From this point of view, economic security must fully satisfy national interests and social interests.

Ensuring national security is about socio-economic development, which has its own role and place and fully meets national interests. Great leader Heydar Aliyev noted in his speeches that the

main condition for the existence of each country is its economy. An economically strong state can do everything, and from this perspective, extensive research should be conducted on the economic security of independent Azerbaijan. The national economy is a manifestation of the economy from a national perspective. The main current problem with the development of the social economy is the prevention of possible threats from within and outside.

Elmurad Fəxrəddin oğlu ALLAHVERDİYEV
magistrant,
Əşrəf Rəsul oğlu ƏLƏKBƏROV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANIN XARİCİ-İQTİSADİ ƏLAQƏLƏRİ VƏ ONLARIN İNKİSAF İSTİQAMƏTLƏRİ

Giriş

Azərbaycanın xarici-iqtisadi əlaqələri uzun müddət əsasən enerji sektoru – xüsusilə neft və qaz ixracına söykənmişdir. Lakin son illərdə qlobal iqtisadi çağırışlar və enerji bazarlarında dəyişən konjonktura fonunda ölkədə qeyri-neft sektorunun inkişafına xüsusi önəm verilməyə başlanılmışdır. Xarici ticarət dövriyyəsi illik milyardlarla ABŞ dolları səviyyəsində dəyişir və əsas ticarət tərəfdaşları sırasında Türkiyə, Rusiya, Çin, İtaliya və Avropa İttifaqına üzv ölkələr yer alır.

İxrac strukturuna nəzər saldıqda, xam neft və təbii qaz məhsullarının üstünlük təşkil etdiyi görünür. Bununla yanaşı, kənd təsərrüfatı məhsulları, kimya sənayesi, tekstil və qida məhsullarının ixracında da artım müşahidə olunur ki, bu da iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir. Azərbaycan eyni zamanda xarici investisiyalar üçün cəlbedici mühit formalaşdırmağa çalışır və bu istiqamətdə hüquqi və institusional çərçivələrin təkmilləşdirilməsi məqsədilə mühüm islahatlar həyata keçirilir.

Enerji resurslarından asılılığın azaldılması məqsədilə hökumət iqtisadiyyatın diversifikasiyasını strateji prioritet kimi müəyyən etmişdir. Bu çərçivədə kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları (İKT), yüngül sənaye və logistika kimi sahələrin inkişafı xüsusi diqqət mərkəzində saxlanılır. Dövlət tərəfindən yaradılan sənaye zonaları və azad iqtisadi zonalar (məsələn, Ələt Azad İqtisadi Zonası) vasitəsilə xarici investorlar üçün vergi və gömrük güzəştləri ilə təmin edilmiş əlverişli investisiya mühiti yaradılır.

Qlobal miqyasda sürətlə yayılan rəqəmsallaşma prosesi Azərbaycanın da iqtisadi siyasətində mühüm yer tutur. Ölkə "Rəqəmsal Transformasiya" strategiyası çərçivəsində rəqəmsal iqtisadiyyatın inkişafı üçün konkret addımlar atır. E-ticarət platformalarının qurulması, gömrük proseduralarının elektronlaşdırılması, rəqəmsal ödəniş sistemlərinin tətbiqi və rəqəmsal vergi idarəçiliyi kimi tədbirlər bu sahənin inkişafını stimullaşdırır. Eyni zamanda, ölkənin regional rəqəmsal mərkəzə çevrilməsi istiqamətində innovativ startaplara və texnologiya parklarına dəstək proqramları tətbiq olunur.

Azərbaycan iqtisadiyyatında dayanıqlılıq prinsiplərinin təmin olunması məqsədilə yaşıl iqtisadiyyat modelinə keçid prosesi də sürətlənmişdir. Ətraf mühitin qorunması, bərpa olunan enerji mənbələrinin təşviqi və ekoloji dayanıqlı layihələrin reallaşdırılması bu sahədəki əsas hədəflər sırasındadır. 2024-cü ildə COP29 tədbirinin Bakıda keçirilməsi, ölkənin bu istiqamətdəki səylərinin beynəlxalq səviyyədə tanındığını nümayiş etdirir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaşıl enerji zonaları kimi inkişaf etdirilir. Günəş və külək enerjisinə qoyulan sərmayələrin artırılması bu bölgələri xarici investorlar üçün cəlbedici məkana çevirir.

Azərbaycan ənənəvi ticarət tərəfdaşları ilə yanaşı, iqtisadi əlaqələrini yeni regionlara da yönəltməkdədir. Afrika, Latın Amerikası və Cənub-Şərqi Asiya ölkələri ilə iqtisadi və diplomatik əlaqələrin genişləndirilməsi prioritet istiqamətlərdəndir. Bu bazarlar Azərbaycanın kənd təsərrüfatı, yüngül sənaye və qida məhsulları üçün perspektivli satış məkanları kimi qiymətləndirilir. Yeni

bazarlarda iqtisadi mövcudluğun gücləndirilməsi üçün həmin ölkələrlə diplomatik nümayəndəliklərin açılması və ikitərəfli iqtisadi komissiyaların fəaliyyəti genişləndirilir.

Bununla yanaşı, Azərbaycanın tranzit-logistika potensialı da iqtisadi əlaqələrin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Ölkənin əlverişli coğrafi mövqeyi – Avropa ilə Asiyanı birləşdirən əsas ticarət yolları üzərində yerləşməsi, onu strateji nəqliyyat qovşağına çevirir. Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri bu baxımdan mühüm rol oynayır. Azərbaycanın strateji coğrafi mövqeyi onu regionun əsas logistika qovşaqlarından birinə çevirir. Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub və Şərq-Qərb dəhlizləri bu sahədə mühüm rol oynayır.

Son dövrlərdə diqqət mərkəzində olan Zəngəzur dəhlizi Azərbaycanı Naxçıvanla birləşdirən strateji yol olaraq planlaşdırılır. 2025-ci ilin yayında Vaşinqtonda keçirilən ABŞ–Azərbaycan–Ermənistan görüşündə bu dəhlizin "Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu" adı ilə 99 illik icarəyə verilməsi barədə razılıq əldə olunmuşdur. Bu layihənin reallaşması Azərbaycanın tranzit imkanlarını genişləndirəcək, Orta Asiya və Avropa bazarları ilə birbaşa nəqliyyat əlaqələrini gücləndirəcək. Bu isə həm tranzit gəlirlərinin artmasına, həm də regiondaxili iqtisadi inteqrasiyanın möhkəmləndirilməsinə xidmət edəcək.

Nəticə

Azərbaycanın xarici iqtisadi əlaqələri son illərdə ciddi şəkildə genişlənmiş və çoxşaxəli xarakter almışdır.

Qeyri-neft sektorunun inkişafı, rəqəmsallaşma, yaşıl enerji, yeni bazarlara çıxış və tranzit imkanlarının genişləndirilməsi Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərdə mövqeyini möhkəmləndirir. Qarşıdakı illərdə bu sahədə davamlı strategiyaların həyata keçirilməsi ölkənin iqtisadi suverenliyi və qlobal rəqabətədavamlılığı üçün əsas şərtdir.

ƏDƏBİYYAT

1. Azərbaycanda yaşil enerji inkişafinin bəzi aspektləri. Ələkbərov Ə. ENECO Proceedings of energy economic research center. Multydisciplinary journal. Volume 19 (05) issue 03 2024
2. "Yaşıl Enerji Zonası – Qarabağ və Şərqi Zəngəzur", Energetika Nazirliyi, 2023
3. Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. "Rəqəmsal Transformasiya Yol Xəritəsi", 2022.
4. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (IRIA). Startap ekosistemi haqqında məlumatlar.

Эльмурад Фахраддин оглы Аллахвердиев
магистрант,
Ашраф Расул оглы Алекперов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Внешнеэкономические связи Азербайджана и направления их развития

Резюме

После обретения независимости Азербайджан последовательно предпринимал шаги по формированию собственной экономической стратегии и расширению международных экономических связей. Географическое положение страны, энергетические ресурсы и транспортные возможности сделали Азербайджан привлекательным партнёром для международного экономического сотрудничества.

Внешнеэкономические связи играют важную роль в экономическом развитии страны, обеспечении доступа к технологиям, привлечении инвестиций и повышении конкурентоспособности на мировых рынках. Внешнеэкономическая политика Азербайджана не ограничивается только экспортом энергетических ресурсов. На современном этапе страна пред-

принимает стратегические шаги в направлениях цифровизации, зелёного развития, экономической диверсификации и интеграции на новые рынки.

Новые инициативы в логистике и транспорте, особенно такие международные проекты, как Зангезурский коридор, укрепят экономическую и геополитическую позицию Азербайджана. В результате развитие внешнеэкономических связей усиливает роль страны в глобальной экономической системе и способствует региональной стабильности.

Elmurad Fakhraddin Allahverdiyev
master,
Ashraf Rasul Alakbarov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Azerbaijan's foreign economic relations and their development directions

Summary

Since gaining independence, Azerbaijan has taken consistent steps to shape its economic strategy and expand its international economic relations. The country's geographical location, energy resources, and transport capabilities have made it an attractive partner for global economic cooperation.

Foreign economic relations play a crucial role in the country's economic development, access to technology, attracting investment, and increasing competitiveness in global markets. Azerbaijan's foreign economic policy is not limited to the export of energy products. In the modern stage, the country is taking strategic steps in directions such as digitalization, green development, economic diversification, and integration into new markets.

New initiatives in logistics and transport, particularly international projects like the Zangezur Corridor, will strengthen Azerbaijan's economic and geopolitical position. As a result, the development of foreign economic relations reinforces Azerbaijan's role in the global economic system and contributes to regional stability.

Tural Rauf oğlu MİRZƏLİYEV
magistrant,
Əşrəf Rəsul oğlu ƏLƏKBƏROV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANIN GEOİQTİSADİ MÖVQEYİ VƏ XARİCİ-İQTİSADİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Giriş

Müasir dövrdə dünya arenasında iqtisadi qüvvələrin balansı təkcə obyektiv şəraitdən deyil, həm də məqsədyönlü xarici iqtisadi siyasətdən asılıdır. Bu baxımdan, xarici iqtisadi siyasət dünya bazarında ölkənin iqtisadi maraqlarının qorunması, müəyyən imtiyazların əldə edilməsi və daxili bazarın xarici malların rəqabətindən müdafiəsi üçün görülən tədbirlər sistemidir. Xarici iqtisadi siyasət dövlətin xarici, daxili və iqtisadi siyasətinin ayrılmaz hissəsidir.

Xarici iqtisadi siyasətin məzmunu ölkənin ictimai quruluşu, milli iqtisadiyyatın vəzifələri, eləcə də xarici amillərin ümumi təsiri ilə müəyyən edilir. Dünya təsərrüfatındakı tendensiyaların dəyişməsi milli iqtisadiyyatın beynəlxalqlaşmış istehsal əlaqələrində rolunun artmasına, inteqrasiya şəbəkələrinin təsir gücünün yüksəlməsinə səbəb olur.

İqtisadiyyatın beynəlxalqlaşması dünyanın siyasi xəritəsini kökündən dəyişdirir, fərdi milli maraqlarla yeni iqtisadi sərhədləri, strateji məqsədli sahələri və inteqrasiya proseslərinin strukturunu formalaşdırır. Bu isə mürəkkəb bir sistem yaranmasına gətirib çıxarır ki, burada dünya təsərrüfatının informasiya, maliyyə və kredit strukturları əsas rol oynayır. Belə bir arenada xarici dünya

ilə qarşılıqlı əlaqələrin metodları, qaydaları və normalarının geniş arsenalı istifadə olunur, diplomatik və digər metodların iştirakı ilə uğurla tətbiq edilir.

Beləliklə, əgər hər hansı bir ölkənin iqtisadi potensialı və ya onun müəyyən hissəsi coğrafi problemlərlə bağlıdırsa, o zaman geoiqtisadiyyat formalaşır. Geoiqtisadiyyat ölkənin iqtisadi gücü ilə onun coğrafi mövqeyi arasında qarşılıqlı əlaqəni tədqiq edən kompleks elm sahəsidir. Eyni zamanda, o, mikro və makrosəviyyələrdə davamlı inkişafı təmin etmək üçün təbii və insan resurslarından effektiv istifadə üsullarını araşdırır.

Regionlar və məkanlar uğrunda aparılan iqtisadi rəqabət və siyasi mübarizə geoiqtisadiyyatın əsas mövzularındandır. Yeni regionlaşma fenomeni məhz bu çərçivədə formalaşır.

Azərbaycanın Avrasiya regionunda geosiyasi və geoiqtisadi baxımdan önəmli və perspektivli mövqeyinin əsas amilləri:

- Üstün coğrafi, geosiyasi və hərbi-geostrateji mövqe;
- Müstəqil daxili və xarici siyasət yürütməsi;
- Zəngin təbii ehtiyatlar və insan resursları;
- Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizlərində aktiv iştirak;
- Daxili ictimai-siyasi sabitlik və demokratik dövlət quruculuğu;
- Dinamik sosial-iqtisadi inkişaf və güclü inkişaf potensialı.

Azərbaycan 86,6 min km² ərazisi və 80 min km² Xəzər dənizindəki milli sektoruyla Avropa və Asiyanı birləşdirən strateji mövqeyə malikdir. Ölkə Rusiya, Türkiyə, İran, Gürcüstan, Ermənistan, Orta Asiya və Qara dəniz ölkələri ilə geniş nəqliyyat-kommunikasiya əlaqələri qurub.

Xəzər hövzəsindəki enerji resurslarının tədqiqi və beynəlxalq enerji layihələrində rolu, xüsusilə 1994-cü ildə Prezident Heydər Əliyevin əsasını qoyduğu neft strategiyası, Azərbaycanı dünya enerji bazarında önəmli oyunçuya çevirib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa kimi neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum və Bakı-Astara qaz kəmərləri ölkənin tranzit imkanlarını artırıb, enerji ixracı risklərini minimuma endirib.

Azərbaycan həm də Avrasiyada nəqliyyat-logistika mərkəzi kimi çıxış edir. Trans-Qafqaz, Bakı-Tbilisi-Qars dəmir yolu və digər nəqliyyat layihələri regionda Azərbaycanın strateji rolunu gücləndirib. Bu layihələr ölkəni Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdirir.

Nəticə

Son illər Azərbaycanın xarici iqtisadi əlaqələri ölkəmizin beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmlənməsi, ən nüfuzlu təşkilatlarda layiqincə təmsil olunması, siyasi sahədə böyük nailiyyətlərin qazanılması və digər uğurlarla zəngin olmuşdur. Dünyada böhran proseslərinin hələ də davam etməsi, hətta qabaqcıl ölkələrin ciddi maliyyə problemləri ilə üzləşməsi fonunda Azərbaycanın davamlı iqtisadi inkişafı, quruculuq işlərinin geniş vüsət alması, əhalinin həyat səviyyəsinin yüksəlməsi, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasının sürətlənməsi son illərin nailiyyətlərini səciyyələndirən əsas amillərdən biridir.

Şübhəsizdir ki, bu uğurlara ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasına əsaslanan düşünülmüş və uzaqgörən siyasət nəticəsində nail olmaq mümkün olmuşdur. Ölkəmiz son 10 ildə, yəni tarix baxımından qısa müddət ərzində sıçrayışlı iqtisadi inkişafa nail olmuş, bütün sahələrdə köklü islahatlar apararaq mərkəzləşdirilmiş planlı sistemdən bazar iqtisadiyyatına keçidi başa çatdırmış, böyük transmilli layihələrin təşəbbüskarı və aparıcı iştirakçısı olmuş, kosmosa peyk çıxaran dövlətlər sırasına qoşulmuş və yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

ƏDƏBİYYAT

1. Алиев И. Каспийская нефть Азербайджана. М.: Известия, 2003,
2. Əliyev İ. Azərbaycanın strategiyası // Dirçəlis-XXI əsr, 2004
3. STRATEJİ TƏHLİL, Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Say 7-8, 2014
4. Kərimli İ., Azərbaycanın geoiqtisadi inkişaf konsepsiyası və milli iqtisadi mənafelər problemi. Azərbaycanın Vergi jurnali. 3/2012.

Турал Рауф оглы Мирзалиев
магистрант,
Ашраф Расул оглы Алекперов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Геоэкономическое положение Азербайджана и основные направления его внешнеэкономической политики

Резюме

Сегодня в мировой экономике происходят интересные геоэкономические изменения между странами. Эти изменения коренным образом меняют процессы глобализации. Современное мировое хозяйство переживает значительные геоэкономические преобразования между странами, которые кардинально меняют процессы глобализации. XXI век, как эпоха новых технологий, вызовов и возможностей, становится для многих государств временем переоценки своих позиций на мировой арене и участия в различных интеграционных объединениях с точки зрения распределения ресурсов, доходов, реорганизации и повышения конкурентоспособности. Для глубокого понимания геоэкономической структуры мира появилась новая научная дисциплина – геоэкономика. Геоэкономика изучает борьбу и конкуренцию за стратегически выгодные региональные позиции в мировой экономике (сырьевые и сбытовые рынки, транспортные маршруты) без использования военной силы.

Сегодня Азербайджан активно ищет пути более эффективного использования своих конкурентных преимуществ – растущего потребительского рынка, природных ресурсов и уникального географического положения. Важно находить системные решения, которые позволят гармонично связывать деятельность на мировых рынках с развитием национальной экономики и всего государства. Именно в этом заключается суть промышленной политики Азербайджана, включая энергетический сектор.

Tural Rauf Mirzaliyev
master,
Ashraf Rasul Alakbarov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

The geoeconomic position of Azerbaıjan and main directions of its foreign economic policy

Summary

Today, interesting geo-economic changes are taking place between countries in the global economy. These changes are fundamentally transforming the processes of globalization. The modern global economy is undergoing significant geo-economic transformations between countries, fundamentally changing the processes of globalization. The 21st century, as an era of new technologies, challenges, and opportunities, is a time for many states to reassess their positions on the world stage and their participation in various integration unions in terms of resource distribution, income, reorganization, and increasing competitiveness. To deeply understand the geo-economic structure of the world, a new scientific discipline has emerged – geo-economics. Geo-economics studies the struggle and competition for strategically advantageous regional positions in the global economy (raw material and sales markets, transport routes) without the use of military force.

Today, Azerbaijan is actively seeking ways to more effectively utilize its competitive advantages – a growing consumer market, natural resources, and a unique geographic location. It is important to find systemic solutions that harmoniously link activities in global markets with the development of the national economy and the state as a whole. This is precisely the essence of Azerbaijan’s industrial policy, including its energy sector.

İlkin Fazil oğlu HÜSEYNLİ
magistrant,
Rauf Qəzənfər oğlu MƏMMƏDOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA İDMANDA MÜVƏFFƏQİYYƏTLİ BİZNES AMİLLƏRİ

İdman sahəsi özündə bir çox funksiyaları birləşdirən mürəkkəb sistemdir. Bu vahid sistem özündə vətəndaş, cəmiyyət subyektləri arasında mövcud olan meydana çıxan münasibətləri kompleks şəklində cəmləşdirir. Vahid ərazi, əhali, ordu, dil bədən tərbiyəsi və idman sahəsində dövlətin mövcudluğu üçün əsas şərtlərdəndir. Bədən tərbiyəsi və idman sahəsində dövlət xüsusi inzibati idarəçilik strukturu və mexanizmi cəmiyyətin inkişafı üçün prioritet olan şərtləri formalaşdırır. Bura iqtisadi fəaliyyətlər, iqtisadiyyatın sahəvi, regional, təkrar istehsalın təmini və sosial sturukturu, həyat səviyyəsi, məşğulluq, təhsil, əhalinin gəlirləri, sosial təminatlar və əmək münasibətləri, iqtisadi münasibətlər, pul dövriyyəsi, inflyasiyanın qarşısının alınmasına yönəldilmiş fəaliyyət, investisiya fəaliyyəti, elmi-tədqiqat işləri, antiinhisar tədbirləri, rəqabət mühitinin qorunması, vergi və monetar siyasət elementləri, ətraf mühitlə bağlı fəaliyyət, xarici iqtisadi əlaqələr və digər şərtlər aiddir.

İdman sahəsində dövlət idarəçiliyinin təşkilində kadrlar işinin nə dərəcədə həssas və vacib bir hissə olduğunu sübut edən amillər sırasında insan resurslarından düzgün istifadə və bunun nəticəsində bədən tərbiyəsi və idman sahəsində dövlətin əldə etdiyi səmərə və efektivlik, vətəndaş və cəmiyyət məmmunluğu, büdcəyə və əlavə xərclərə qənaət və s. yer tutmaqdadır. İnsan resurslarının idarə edilməsi zamanı qarşıya qoyulmuş əsas məqsəd onun sahib olduğu potensialı maksimum şəkildə səmərəli istifadə etməkdən ibarətdir. Bu zaman tələbatlara maksimum cavab verən işçilərin tapılaraq işə alınması, onların peşəkar inkişafının təmin edilməsi, ixtisaslaşdırılması, yerləşdirilməsi, fəaliyyətlərinin ölçüləbilən olması və meyarlar əsasında qiymətləndirmənin həyata keçirilməsinin mümkünlüyü, qiymətləndirmə nəticələrinə əsaslanan təlim proqramlarının irəli sürülməsi və icra edilməsi, həmçinin, əmək fəaliyyətlərinin müxtəlif üsullarla stimullaşdırılması, işçilərin motivasiya edilməsi, əməkhaqqı sisteminin təkmil və ədalətli hala gətirilməsi və digər bu qəbildən olan vacib məsələlər də müzakirə obyekti olur.

Bədən tərbiyəsi və idman dövlət idarəçiliyinin əsas tərkib hissələrindən biri olduğundan, eləcə də müasir çağırışlara və innovativ yeniliklərə daha tez insiativ göstərdiyindən insan resurslarının müxtəlif aspektlərinin vəhdət halında tədqiq olunaraq öyrənilməsinə ehtiyac vardır. Burada əlavə olaraq işçinin sosial, işgüzar fəaliyyəti, əməyinin səmərəlilik dərəcəsi nəzərdən keçirilməli, mövcud klassik insan resurslarının idarəçiliyi sistemində bədən tərbiyəsi və idman sahəsində dövlətin əsas məqsədlərini və dəyərlərini əks etdirən ünsürləri də nəzərə almaq lazımdır.

Ölkəmiz yenicə müstəqillik qazanmış və dinamik inkişafda olduğundan kadrlarla bağlı siyasətin düzgün formalaşdırılması və həyata keçirilməsi hədəflənmiş davamlı inkişaf modellərinin tətbiqinə nail olunması üçün xüsusi ilə vacibdir. Təbii ki, bu məsələlər həmişə ölkə rəhbərinin diqqət mərkəzində olmuşdur. 6 dekabr 2016-cı il tarixində Azərbaycan Respublikası Prezidentinin 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş 11 Strateji Yol Xəritəsindən birincisi olan "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" bunu sübut edən əhəmiyyəti rəsmi sənədlərdəndir. Ölkəmizdə də bu sahədə qarşıya qoyulmuş 3-cü strateji hədəf məhz insan kapitalının inkişafının təmin edilməsi olmuşdur. Bu günə qədər ölkəmizdə bu sahədə atılmış müvafiq addımlar və əldə edilmiş nəticələr təqdirəlayiqdir. Bu istiqamətdə qəbul edilmiş qərarlar, reallaşdırılmış layihələr, hazırlanmış qanunlar ölkədə bu sahənin müsbət yöndə inkişafının uğurlu bazisini təşkil edir. Bu göstəricilər həmçinin, ölkənin malik oluduğu bu resursdan efektiv istifadə edə bilməsi üstünlüklərinə sahib olduğunu göstərir. Bütün bunlar bir daha ölkəmizdə insan resurslarının nə dərəcədə səmərəli, həmçinin bu sahədə rəqabət qabiliyyətinin yüksəldilməsi imkanlarının geniş olduğunu göstərir. Mövcud imkanlardan düzgün istifadə nəticəsində orta, qısa və uzunmüddətli perspektivdə insan kapitalını, ondan düzgün istifadə mexanizmlərini daha da

inkişaf etdirmək və rəqabət qabiliyyətini yüksəltmək olar.

Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğunda səmərəlilik və efektivliyin təmin olunması məqsədi ilə dəyişikliklərin aparılması üçün bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu, xüsusi növ bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu, bədən tərbiyəsi və idman sahəsində dövlət qurumlarının ierarxiyası, onların kateqoriyaları, bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu vəzifələrinin növ tərkibi, təsnifatları, vəzifə adları ilə əlaqəli anlayışlar təhlil olunaraq daha adekvat və mütərəqqi sistem təşkil etmək üçün təkliflər hazırlanmalıdır.

Yuxarıda qeyd olunmuş, mövcud vəziyyəti izah edən nüanslar, nüfuzlu təşkilatların statistik hesabatları, qəbul edilmiş rəsmi sənədlər, bütövlükdə qlobal dünyada insan resurslarının səmərəli idarə olunmasının cəmiyyət üçün faydalarını əks etdirən nümunələr bu tədqiqat işinin aktuallığını və vacibliyini bir daha sübut edir.

Azərbaycanda idman sahəsində dövlət qulluğu sistemində karyera və vəzifə modellərinə əsaslanan kadr siyasətinin elementləri mövcuddur. İdman sahəsində dövlət idarəçiliyinin inkişaf etdirilməsi, bu sistemin qeyri-bədən tərbiyəsi və idman sahəsində dövlət sektorları ilə rəqabətlilik qabiliyyətinin yüksəldilməsi, habelə bədən tərbiyəsi və idman sahəsində dövlət idarəçilik sisteminin mümkün olduğu qədər sadələşdirilməsi və idarəçilikdə şəffaflığının artırılması məqsədləri ilə vəzifə modelinə əsaslanmış kadr siyasəti sisteminin inkişafı ilə nəticələnəcək addımlar atılmalıdır. Çox zaman bədən tərbiyəsi və idman sahəsində dövlət idarəçiliyinin təşkilində bəzi zəif cəhətlər də müşahidə olunur. Bədən tərbiyəsi və idman sahəsində dövlət strukturlarında fəaliyyətlərini davam etdirən işçilərin xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri və bu nəticələr ilə idarəetmənin digər ünsürləri arasında əlaqənin istənilən səviyyədə olmaması və ya bəzən heç olmaması, bədən tərbiyəsi və idman sahəsində dövlət orqanlarında bu sahə üzrə məsul olan şəxslərin peşəkarlıq səviyyəsinin aşağı olması, müxtəlif idarəetmə modellərinə əsaslanmış kadr siyasətinin tətbiq edilməsi, təlimləndirmənin fasiləsizliyinə nail olunmaması və digər bu kimi çatışmazlıqlar hazırda bədən tərbiyəsi və idman sahəsində dövlət idarəçiliyində kadr patensialının tam şəkildə və səmərəli istifadəsinə maneə yaradan əsas amillərdəndir.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya”. (2018).
2. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” (2016).
3. “Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu haqqında”Azərbaycan Respublikasının Qanunu (2000).
4. “Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi” Qaydaları (2014).
5. Rzayev Ə.H. (2011). “Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğunun hüquqi əsasları” Bakı ,”Elm” Nəşriyyatı - 479 səh.

Илькин Фазиль оглы Гусейнли
магистрант,
Рауф Газанфар оглы Мамедов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Факторы, влияющие на успешность бизнеса в сфере спорта в Азербайджане

Резюме

Сфера спорта, как сложная многофункциональная система, объединяет отношения, возникающие между гражданами и социальными субъектами. Единая территория, население, армия, язык – основные условия существования государства в сфере физической культуры и спорта. Особая структура и механизм государственного административного управления

в сфере физической культуры и спорта формируют условия, являющиеся приоритетными для развития общества. К факторам, свидетельствующим о значимости кадровой работы в организации государственного управления в сфере спорта, относятся правильное использование человеческих ресурсов и, как следствие, эффективность и результативность деятельности государства в сфере физической культуры и спорта, удовлетворенность граждан и общества, экономия бюджетных средств и дополнительных затрат и т.д. Основная цель, которая ставится при управлении человеческими ресурсами, – максимально эффективное использование имеющегося у них потенциала.

Ilkin Fazil Hüseynli
master,
Rauf Ghazanfar Mammadov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Factors influencing successful business in sports in azerbaijan

Summary

The field of sports, as a complex system combining many functions, combines the relationships that arise between citizens and social subjects. A single territory, population, army, language are the main conditions for the existence of the state in the field of physical education and sports. The state's special administrative management structure and mechanism in the field of physical education and sports form the conditions that are a priority for the development of society. Among the factors that prove how sensitive and important the personnel work is in the organization of state management in the field of sports, there is the correct use of human resources and, as a result, the efficiency and effectiveness achieved by the state in the field of physical education and sports, citizen and society satisfaction, saving on the budget and additional costs, etc. The main goal set during the management of human resources is to use the potential it possesses as efficiently as possible.

Elnarə Bəkir qızı MİRZƏZADƏ
magistrant,
Rauf Qəzənfər oğlu MƏMMƏDOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA İDMANIN İDARƏ EDİLMƏSİNİN İNKİŞAFINDA DÖVLƏTİN İQTİSADİ SİYASƏTİ

İdman sahəsində dövlət qulluqçusu anlayışı geniş istifadə olunan termin halındadır. Əksər dünya ölkələrində bu termin istifadə olunur. Lakin, ölkələrin idarəetmə sistemlərindəki müxtəliflik anlayışın qavranmasına öz təsirini göstərir. Misal üçün, İsveçdə bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçularının fəaliyyət sahəsi digər işçilərinkindən çox da fərqlənmir. Yalnız bəzi inzibati səlahiyyətlər bu anlayışa minimalist yanaşmanı artırır. Əksinə, Birləşmiş Krallıqda bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçularının cəmiyyətdə xüsusi statusu bəyan edilmişdir. Ümumi qanunvericilik aktları ilə olmasa da, bu sahəni tənzimləyən xüsusi qanunlar qüvvədədir. Bəzi ölkələrdə isə idman sahəsində dövlət sektorunda bədən tərbiyəsi və idman sahəsində dövlətin məqsədləri üçün çalışan işçilərin hamısı yox, yalnız bir hissəsi bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçusu statusuna malik ola bilirlər. Almaniyada bu, ümumi çalışanların 40%-ə qədərini əhatə edir. Digərləri isə ictimai sektorun işçiləri olaraq kollektiv müqavilə ilə işə cəlb olunurlar. Bu şəxslər "bədən tərbiyəsi və idman sahəsində dövlət işçiləri" adlandırılır. Oxşar qaydalar

Danimarka, İtaliya kimi ölkələrdə də mövcuddur.

İdman sahəsində dövlət hazırda həm sosial, həm də iqtisadi sahəni tənzimləyən əsas subyekt olmaqla, ölkədə potensial əmək resurslarının istifadəçisidr. Əmək qabliyyətli əhalinin bir hissəsi bədən tərbiyəsi və idman sahəsində dövlət orqanlarında və ictimai sektorda işlə cəlb olunurlar.

Danimarka, Norveç və İsveç kimi ölkələrdə ümumi məşğul əhalinin 30% -ə qədər hissəsi bədən tərbiyəsi və idman sahəsində dövlət orqanları və ictimai sektorda çalışırlar. Asiya ölkələrində bu rəqəm daha aşağıdır. Yaponiyanın ümumi məşğul əhalisinin yalnız 6% -i, Koreyada isə 7,6%-i bədən tərbiyəsi və idman sahəsində dövlət və ictimai sektorun işçiləridir. Ölkəmizdə bu göstərici 21% həddindədir.

Ümumilikdə idman sahəsində dövlət sektorunda məşğulluğun illik artım tempinə nəzər salsaq, görərik ki, ortalama nisbət sabit olaraq qalmaqdadır.

Müxtəlif ölkələrin idman sahəsində dövlət qulluğu təcrübəsini öyrəndikdə məlum olur ki, idman sahəsində dövlət qulluğunun sistemlərinin təzahür formalarında müəyyən fərqliliklərə baxmayaraq, onların məzmun etibarı ilə oxşarlığı daha çox nəzərə çarpır. Əksər Avropa ölkələrində ictimai əsaslarla yaradılan məsləhətverici (istiqamətverici), məşvərətçi xarakterli quruluşlarla yanaşı bədən tərbiyəsi və idman sahəsində dövlət orqanları da yaradılır və bədən tərbiyəsi və idman sahəsində dövlətin funksiyalarını həyata keçirmək məsuliyyəti bilavasitə onlara həvalə olunur.

Qlobal dəyişikliklər fonunda idman sahəsində dövlət idarəçiliyinin situasiyalı yanaşma əsasında təşkilinun mahiyyəti ətraf mühitin dəyişikliklərinə qısa zaman ərzində uyğunlaşaraq, bu şəraitdə uğurlu ola biləcək idarəetmə mexanizmlərinin hazırlanmasından ibarətdir. Bədən tərbiyəsi və idman sahəsində dövlətlər tərəfindən mükəmməllik istiqamətində edilən cəhdlərə baxmayaraq bəzən idman sahəsində dövlət idarəçiliyi sistemləri heç də istənilən nəticələrlə fəaliyyət göstərmirlər. Ümumiləşdirsək, belə hallarda uğursuzluğa düçar olmanın səbəbi aşağıdakı 4 şərtdən qaynaqlana bilər.

1. Mürəkkəb quruluş: İdarəçilik səmərəliliyinin aşağı düşməsini səbəb olan başlıca amillərdən biridir. Nəzərə alsaq ki, həm ərazi, həm də əhalinin genişliyi və növ çeşidliliyi onsuz da idman sahəsində dövlətlərin mürəkkəb və birdən artıq idarəçilik sisteminə müraciətinə səbəb olur, o zaman hər əlavə ünsürün bu idarəetmə sistemini nə dərəcədə mürəkkəb hala gətirməsini təsəvvür etmək çətin deyil.

2. Səmərəsiz qərarlar: Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün idman sahəsində dövlətlər sahib olduqları resurslardan daha səmərəli istifadə etməlidirlər. İqtisadi, insan, maliyyə, təbbi və coğrafi resurslardan düzgün və qənaətlə istifadə edilməməsi bütövlükdə idarəçilik sisteminin daha aşağı performans sərgiləməsinin, həmçinin hədəf olaraq seçilmiş nöqtələrə istənilən nəticə ilə çatmamasının səbəbidir.

3. Potensialın doğru qiymətləndirilməməsi: Bəzən qəbul olunmuş düzgün qərarların icrası zamanı səfərbər olunmuş resursların qarşıya qoyulmuş məqsədə çatmaq potensialı düzgün qiymətləndirilmir. Bu da nəticədə səmərəsizliyə səbəb olur. Bunun qarşısını almaq üçün sahib olunmuş resursların potensialı düzgün qiymətləndirilməli, ehtiyac yarandığı hallarda inkişaf tədbirləri həyata keçirilməlidir.

4. Fəaliyyətə inamsızlıq: Beynəlxalq qurumlar tərəfindən müxtəlif ölkələrdə təşkil olunmuş sorğuların nəticəsi göstərir ki, əksər ölkələrdə vətəndaşların çox hissəsi bədən tərbiyəsi və idman sahəsində dövlət sisteminin düzgünlüyünə, həmçinin qəbul edilmiş qərarların doğruluğuna, ümumilikdə bədən tərbiyəsi və idman sahəsində dövlətin fəaliyyətinin səmərəliliyinə inanmırlar. Belə hallar idman sahəsində dövlət idarəçiliyi, idman sahəsində dövlət qulluğu sahələrinin nüfuz səviyyəsinin aşağı düşməsi ilə nəticələnir.

Təbiidir ki, zamanın tələbi olaraq bir çox ölkələr vaxtaşırı idman sahəsində dövlət qulluğu sistemində islahatlar həyata keçirirlər. İslahatların əsasını iqtisadi təfəkkür ünsürləri və elmi-texnoloji tərəqqi nümunələrinin inteqrasiyası təşkil edir ki, bu da nəticədə yeni hibrid idarəetmə formalarının meydana gəlməsi ilə nəticələnir. Bu islahatların əsasını aşağıdakı amillərin daxil edilməsi təşkil edir:

- idman sahəsində dövlət qulluğunun işəgötürmə sisteminin mərkəzləşdirilmiş planlaşdırma və təşkiletmə xüsusiyyətlərindən yerli səviyyəyə salınması;
- inzibati idarəetmə metodlarının tədricən menecer yönümlü idarəetmə sistemi ilə əvəzləş-

dirilməsi və ya menecer yönümlü idarəetmə ünsürlərinin inzibati idarəetmə sistemində istifadə edilməsi;
- vəzifədə yüksəlişin bürokratik deyil, karyera sisteminə əsaslanan yolla reallaşdırılması;
- hesabatlılıq sisteminin daha mütərəqqi hala gətirilməsi;
- əməkhaqqı səviyyələrinin özəl sektorla rəqabət apara biləcək səviyyəyə uyğunlaşdırılması;
- idman sahəsində dövlət qulluqçularının layiqli həyat şəraitinin təmini məqsədi ilə xüsusi pensiya fondlarının təsis edilməsi.

İdarəetmənin daha radikal hal alması, qərarvermənin vaxtında həyata keçirilməsi ən az islahatın mahiyyəti qədər vacibdir.

Ölkəmizdə idman sahəsində dövlət qulluqçularının ixtisas səviyyəsini müəyyən edən, bu səviyyəyə görə ona vəzifədə yüksəliş şansı, əməkhaqqına əlavələr almaq və digər təminatlardan istifadə etmək imkanı yaradan ixtisas dərəcəsi sistemi formalaşdırılmışdır. Hər bir vəzifə təsnifatı üzrə ixtisas dərəcələri, onların verilmə qaydaları müəyyənləşdirilmişdir.

Hər bir Azərbaycan Respublikasının vətəndaşı əməkhaqqı fondu, bədən tərbiyəsi və idman sahəsində dövlət büdcəsi hesabına maliyyələşən bədən tərbiyəsi və idman sahəsində dövlət orqanlarında işə qəbul edilmək və idman sahəsində dövlət idarəçiliyində sərbəst iştirak etmək hüququna malikdir. Qüvvədə olan qanunvericilik bu sahədə qulluğu qəbul prosesinin şəffaflığının, əməkdaşların ləyaqətli həyat seviyyəsinin, onların sosial müdafiəsinin təmin olunmasına nəzrət edir. Qanun həmçinin, bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçularının fəaliyyətinə nəzarət və onların hesabatlılıq prinsiplərinə əsaslanaraq tətbiq edilir. Cəmiyyətin və vətəndaşların idman sahəsində dövlət qulluqçularının fəaliyyətlərinə qiymətvermə və yaxşılığa doğru təsiretmə mexanizmlərini ortaya qoyur. Bu şərtlər gənclər arasında idman sahəsində dövlət idarəçiliyinə marağın sürətlə artmasına, ümumilikdə, dövlət qulluğunun nüfuz səviyyəsinin yüksəlməsinə səbəb olur. Nəticədə hər il daha çox gənc idman sahəsində dövlət strukturlarında işə qəbul üçün müraciət edir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya". (2018).
2. Əliyev M.Ə, Həmidov H.İ. (2013). "Biznesdə insan resurslarının idarə edilməsi"*(dərslik),* Bakı "İqtisad Universiteti" Nəşriyyatı -532 səh.
3. Rzayev Ə.H. (2011). "Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğunun hüquqi əsasları" Bakı ,"Elm" Nəşriyyatı - 479 səh.
4. Şahbazov K.A., Həsənov H.S. və Məmmədov H.M. (2011). "Bədən tərbiyəsi və idman sahəsində dövlət və bələdiyyə idarəçiliyi" *(dərslik),* Bakı, "İqtisad Universiteti" Nəşriyyatı - 440 s.

Эльнара Бекир кызы Мирзазаде
магистрант,
Рауф Газанфар оглы Мамедов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Государственная экономическая политика в развитии спортивного менеджмента в Азербайджане

Резюме

В сфере спорта государство в настоящее время является основным субъектом регулирования как социальной, так и экономической сфер и потребителем потенциальных трудовых ресурсов страны. Часть трудоспособного населения задействована в работе в государственных органах и государственном секторе в сфере спорта. В целом, если посмотреть на ежегодные темпы роста занятости в государственном секторе в сфере спорта, то средний показатель остаётся стабильным.

Изучая опыт государственной службы в сфере спорта в разных странах, становится очевидным, что, несмотря на определённые различия в формах проявления систем госу-

дарственной службы в сфере спорта, их содержательное сходство более заметно. В большинстве европейских стран, помимо консультативно-совещательных структур, созданных на общественной основе, создаются также государственные органы в области физической культуры и спорта, на которые непосредственно возлагается ответственность за реализацию функций государства в области физической культуры и спорта.

Elnara Bekir Mirzazade
master,
Rauf Ghazanfar Mammadov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

State economic policy in the development of sports management in Azerbaijan

Summary

In the field of sports, the state is currently the main subject regulating both the social and economic spheres and is a user of potential labor resources in the country. A part of the working-age population is involved in work in state bodies and the public sector in the field of sports. In general, if we look at the annual growth rate of employment in the state sector in the field of sports, we will see that the average rate remains stable.

When studying the experience of civil service in the field of sports in different countries, it becomes clear that despite certain differences in the forms of manifestation of the civil service systems in the field of sports, their similarity in content is more noticeable. In most European countries, in addition to advisory and consultative structures established on a public basis, state bodies in the field of physical education and sports are also established, and the responsibility for implementing the functions of the state in the field of physical education and sports is directly entrusted to them.

Vüqar Qəzənfər oğlu MƏMMƏDOV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Rəşad Şahbaz oğlu MURADOV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Dövlət İqtisad Universiteti

DÖVLƏT QULLUĞUNUN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ KADR SİYASƏTİNİN ROLU

İnandırıcı olmasa da ancaq pis qanunlar və yaxşı məmurlarla hökuməti idarə etmək mümkündür, ancaq pis məmurlarla Sizə heç əla yazılmış qanunlar da yardımçı ola bilməyəcəkdir.

O.F.Bismark

Azərbaycan xalqının böyük oğlu, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev üçüncü minilliyin astanasında Azərbaycan xalqına müraciətində XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətinin, onun öz müstəqil dövlətinin yaradılmasından ibarət olduğunu qeyd etmişdir. (1) Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuş və demokratik inkişaf yolu ilə inamla irəliləyir. İndi artıq bəşəriyyətin qədəm qoyduğu müasir inkışaf mərhələsində öz layiqli yerimizi tutmaq üçün gərək biz də zamanın tələbləri ilə uyğunlaşa bilək, qarşımızda duran bir çox ciddi vəzifələri həll etməyə qadir olaq. Belə ciddi vəzifələrdən biri də, Azərbaycanda dövlət idarəçiliyi sahəsində islahatların davam etdirilməsi və **dövlət qulluğu institutunun inkişaf etdirilməsi vasitəsi** ilə səmərəli dövlət idarəetmə sistemini formalaşdırmaqdan ibarətdir.

Hələ sovet dövründə Ümummilli Lider Heydər Əliyev dövlət aparatının milliləşdirilməsi, Azərbaycanda yeni idarəçi kadrların hazırlanması işinə böyük diqqət ayırırdı. Sovet Azərbaycanına rəhbərlik etdiyi 1969-1982-ci illərdə Ümummilli Lider keçmiş SSRİ-nin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına şərait yaratmışdı. Həmin mütəxəssislər sonradan Azərbaycanın inkişafında mühüm rol oynamışdı. Ümummilli Lider 1999-cu il yanvarın 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında 60 saylı fərman imzaladı. Ölkədə ilk dəfə Prezident yanında ali təhsil müəssisəsi yaradıldı və bu təhsil müəssisəsinin üzərinə Azərbaycan Respublikasında dövlət qulluqçularının hazırlanması və əlavə təhsilinin həyata keçirilməsi kimi vacib vəzifə qoyuldu.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlət idarəçilik sisteminin qurulması üçün atdığı növbəti addım 21 iyul 2000-ci ildə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi ilə bağlı oldu. Bu qanun Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılması, bu sahədə kadr siyasətinin əsas prinsiplərini, dövlət qulluqçularının cəmiyyətdəki yerini və onların hüquq və vəzifələrini müəyyənləşdirdi.

Dövlət qulluğunun daha səmərəli təşkili və həyata keçirilməsi ilə bağlı normativ-hüquqi aktların, metodik göstərişlərin layihələrinin hazırlanması və digər məsələlərin tənzimlənməsi üçün Ümummilli Lider Heydər Əliyev 2002-ci il martın 29-da "Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə qanun imzaladı. Şura vahid dövlət kadr siyasətinin formalaşdırılmasında iştirak etməli, hakimiyyət orqanlarında dövlət qulluğunun vəziyyətinin və səmərəliliyinin təhlilini aparmalı, dövlət qulluğunun kadr təminatının proqnozlaşdırılması və planlaşdırılması işinin həyata keçirilməsini təşkil etməli idi. Şura 18 nəfər üzvdən ibarət tərkibdə təşkil edildi və dövlət hakimiyyəti orqanlarının dövlət qulluğu və kadr xidmətlərinin metodik işinin əlaqələndirilməsini, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallarda şikayətlərə baxılmasını, dövlət qulluqçularının peşə hazırlığı, təcrübə və əlavə təhsili sahəsində işlərin təhlili və bununla bağlı təkliflərin hazırlanmasını, dövlət qulluqçularına dair məhdudiyyətlərin və təminatların yerinə yetirilməsinə nəzarət edilməsi işini və şuranın səlahiyyətlərinə aid edilən digər məsələləri təşkil etdi.

Yaşadığımız dövrün mürəkkəbliyinə baxmayaraq, ölkəmiz bütün istiqamətlərdə artım imkanlarına - kifayət qədər maddi-xammal ehtiyatlarına, elmi-texniki potensiala, ixtsaslı kadrlara malikdir. Qarşıda dinamik inkişaf edə biləcək, insanların tələbatlarını ödəməyə, onların bütün fəaliyyət sahələrində təhlükəsizliyini təmin etməyə qadir olan sosial yönümlü səmərəli iqtisadiyyatın və dövlət idarəetməsi sisteminin yaradılması durur. Bunun üçün dövlətin iqtisadi, hüquqi, inzibati vasitələrdən çevik istifadə etməklə cəmiyyətin inkişafına, idarə olunmasına təsirinin gücləndirilməsi tələb olunur. Dövlət idarəetməsi bazar mexanizmlərinin səmərəli fəaliyyətini, bazar münasibətlərinin səmərəsiz və məqsədəuyğun olmadığı hallarda sosial, iqtisadi, ekoloji və digər sahələrin tənzimlənməsini, dövlətçiliyin möhkəmlənməsi və ölkənin beynəlxalq aləmdə mövqelərinin güclənməsini təmin etməlidir.

Lakin yeni siyasi və iqtisadi sistemin formalaşmasına maneçilik törədən bir sıra səbəblər də var ki, bunlardan ən başlıcası dövlət qulluğu institutunun zəif inkişafı və dövlət idarəçiliyinin səmərəliliyinin aşağı olmasından ibarətdir. Dövlət qulluğu institutunun inkişaf etdirilməsi və idarəetməsinin səmərəliliyinin artırılması Azərbaycan dövlətinin gələcəyini müəyyən edən başlıca amil olduğu üçün çox mühüm strateji məsələdir. Buna görə də dövlət idarəetməsinin köklü intizam, davranış normaları baxımından zəmanətçiyə çevrilməsi tələb olunur. Dövlətin qarşısında islahatların davam etdirilməsi, yoxsulluğun azaldılması, regionların inkişaf etdirilməsi, cinayətkarlıqla mübarizə, xarici siyasətin fəallaşdırılması, cəmiyyətin mənəvi inkişafı kimi təxirəsalınmaz məsələlər durur. Bu problemlərdən bir qismi bu və ya digər dərəcədə bütün ölkələrdə mövcud olur. Lakin bunların böyük əksəriyyəti respublikamıza xas olub keçid dövrünün xüsusiyyətləri ilə, dövlətçilik təcrübəsinin azlığı, demokratik və bəşəri dəyərlərin ləng mənimsənilməsi, demokratiya mədəniyyətinin aşağı olması, vətəndaş cəmiyyətinin zəifliyi ilə şərtlənir. Cəmiyyətin idarə olunması sistemində son dövrlərdə həyata keçirilən islahatlar - qanunvericilik, məhkəmə, icra hakimiyyəti sisteminin islahatları, qanunvericilik bazasının genişləndirilməsi, Nazirlər Kabinetinin

strukturuna yenıdən baxılması, büdcə xərclərinin rasionallaşdırılması, yeni dövlət qulluğu sistemının formalaşdırılması, qanunçuluğa əməl olunmasına nəzarətin artırılması, regionların və yerli özünüidarəetmənin inkişafına yardım və s. sahələrdə görülən işlər yaxın gələcəkdə bu çətinliklərin böyük əksəriyyətinin aradan qaldırılacağına inam hissi yaradır. Əlbəttə, bütün bu işlərin görülməsi, dövlət idarəçiliyi sistemində çalışan və yeni təfəkkürə, dünyagörüşünə, yüksək ixtisasa, mənəvi keyfiyyətlərə malik olan dövlət qulluğu kadrlarının fədakar əməyinə əsaslanmalıdır.

Yeni iqtisadi sistemə transformasiya şəraitində dövlət qulluğunun ixtisaslı kadrlara tələbatının müəyyənləşdirilməsi, onların yetişdirilməsi, inkişafı və təkmilləşdirilməsinin tədqiq edilib öyrənilməsi mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Bu onun üçün zəruridir ki, ixtisaslı kadrların bazar münasibətləri baxımından təhlil edilib öyrənilməsi bir çox problemlərin, məsələn, sosial-iqtisadi məsələlərin strategiyası və taktikasının düzgün müəyyən edilməsində, maliyyə-büdcə siyasətinin elmi cəhətdən istiqamətləndirilməsində, vətəndaşların sosial müdafiə tədbirlərinin, səmərəli demoqrafik siyasətin həyata keçirilməsində və eləcə də dövlət strukturlarının lazımi kadrlara olan tələbatının ödənilməsində mühüm rol oynaya bilər.

Nəticə

Beləliklə, ümumdövlət siyasətinin əsasında formalaşan, çoxsaylı subyektə, mürəkkəb struktura, obyektiv xarakterə malik olan kadr siyasəti dövlətin fəaliyyət istiqamətlərindən biri kimi, insanlarla işləmək üçün təşkilati xarakterli prinsiplərin işlənib hazırlanmasını, insan potensialının üzə çıxarılmasını, peşəkar kadr korpusunun yaradılmasını, kadr potensialının inkişafının təmin olunmasını, kadr ehtiyatının formalaşdırılmasını və rasional istifadəsini, səmərəli qiymətləndirmə mexanizminin yaradılmasını və s. nəzərdə tutur. Ölkədə yaradılan şəffaf və müasir idarəetmə modeli kadr siyasətinin icra mexanizmlərinin mahiyyətini "dövlət qulluğu xalqa xidmətdir" prinsipi ilə, dövlət orqanlarının kadrlarının əsas xüsusiyyətlərini isə siyasi iradəyə əsaslanan "hər bir dövlət məmurunun öz xalqına xidmət etmək vəzifəsi" ilə müəyyənləşdirir.

ƏDƏBİYYAT

1. "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti, Bakı, Az.DİU-nun mətbəəsi, 2001, 4-5 səh.
2. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1996, 127 s.
3. Барр Р. Политическая экономия. (Перевод с французкого языка), М.,1том, 1995.
4. Маршалл А. Принципы политической экономии (Перевод с английского языка) М, 1983 v 3 томах
5. В. Петти, Экономические и статистические работы, М., 1940,157стр.
6. Пигу А. Экономическая теория благосостояния.В 2-х т, М., "Прогресс", 1985 (Перевод с английского языка).
7. Й.Шумпетер. Теория экономического развития, М., "Прогресс", 1982.
8. OECD – Economic Outlook, 346 p.
9. Yearbook of labour statistikcs, M., p.346.

Вугар Газанфар оглы Мамедов
магистрант,
Азербайджанский Университет Кооперации
Рашад Шахбаз оглы Мурадов
доктор экономических наук, профессор,
Азербайджанский Государственный Экономический Университет

Роль кадровой политики в совершенствовании государственной службы

Резюме

XXI век считается началом качественно новой эпохи в плане создания информационного общества, превращения богатых природных ресурсов в человеческий капитал и форми-

рования высокого интеллектуального уровня. В настоящее время во многих странах реализуются многоплановые реформы системы государственного управления, направленные на повышение конкурентоспособности национальной экономики. Во многом роль государственных служащих в успешной реализации этих реформ велика. В связи с этим возникает ряд сложных проблем, связанных с обеспечением эффективного функционирования государственной службы. Анализ научной и иной литературы показывает, что вопросы управления и кадрового обеспечения государственной службы, особенности реализации управленческих функций в этой сложной социально-экономической системе до сих пор не получили достаточного отражения в теории и практике современного менеджмента.

Vugar Gazanfar Mammadov
master,
Azerbaijan Cooperation University
Rashad Shahbaz Muradov
doctor of economic sciences, professor,
Azerbaijan State University of Economics

The role of personnel policy in improving the civil service

Summary

The 21st century is considered the beginning of a qualitatively new era in terms of the creation of an information society, the transformation of rich natural resources into human capital and the formation of a high intellectual level. Currently, in many countries, multifaceted reforms of the public administration system are being implemented in order to increase the competitiveness of the national economy. In many ways, the role of civil servants in the successful implementation of these reforms is great. Therefore, a number of complex problems arise in ensuring the effective functioning of the civil service. An analysis of scientific and other literature shows that the issues of civil service management and staffing, the specifics of the implementation of management functions in this difficult socio-economic system have not yet been sufficiently reflected in the theory and practice of modern management.

Kamran Mehman oğlu FEYZULLAYEV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Müslümat Allahverdi qızı ALLAHVERDİYEVA
iqtisad elmləri doktoru,
allahverdiyeva_muslumat@mail.ru,
Azərbaycan Dövlət İqtisad Universiteti

BEYNƏLXALQ AVTOMOBİL DAŞIMALARININ TƏŞKİLİ VƏ REALLAŞMASI XÜSUSİYYƏTLƏRİ

Giriş

Beynəlxalq avtomobil daşımaları dünya ticarətinin əsas hissəsini təşkil edən və iqtisadi inteqrasiyanın aparıcı elementlərindən biri olan nəqliyyat fəaliyyətidir. Bu sahə ölkələrarası iqtisadi əlaqələrin inkişafı, malların dövriyyəsinin sürətlənməsi və logistika sistemlərinin səmərəliliyinin təmin olunmasında mühüm rol oynayır. Beynəlxalq avtomobil daşımalarının düzgün təşkili iqtisadi təhlükəsizlik, ixrac-idxal balansı və regional əməkdaşlıq baxımından da əhəmiyyətlidir.

1. Beynəlxalq avtomobil daşımalarının mahiyyəti və iqtisadi əhəmiyyəti.Beynəlxalq avtomobil daşımaları müxtəlif ölkələr arasında ticarət əməliyyatlarının təmin edilməsində ən çevik və münasib nəqliyyat növlərindən biridir. Bu daşımalar vasitəsilə həm irihəcmli sənaye yükləri, həm də kiçikhəcmli kommersiya malları çatdırılır. Avtomobil nəqliyyatı digər nəqliyyat növlərinə nisbətən daha yüksək manevr imkanına malikdir, bu isə onun logistika zəncirində mühüm rol oynama-

sına səbəb olur. Beynəlxalq avtomobil daşımaları həm idxal, həm də tranzit əməliyyatlarının iqtisadi səmərəliliyini artırır və regionlararası inteqrasiyanı gücləndirir.

2. Beynəlxalq avtomobil daşımalarının hüquqi və institusional əsasları. Beynəlxalq avtomobil daşımaları çoxsaylı beynəlxalq konvensiyalar və sazişlər əsasında tənzimlənir. Ən vacib hüquqi sənədlərə CMR (Yükdaşımaları haqqında Konvensiya), TIR (Tranzit prosedurları haqqında konvensiya), ADR (Təhlükəli yüklərin daşınması haqqında Saziş) və CEMT icazə sistemi daxildir. Bu konvensiyalar daşımaların hüquqi təhlükəsizliyini, gömrük prosedurlarının sadələşdirilməsini və daşıyıcıların məsuliyyət dərəcəsini müəyyən edir. Azərbaycan bu konvensiyaların əksəriyyətinə qoşularaq beynəlxalq nəqliyyat sisteminə inteqrasiya olunmuşdur.

3. Daşımaların təşkili mərhələləri və texnoloji xüsusiyyətləri.Beynəlxalq avtomobil daşımalarının təşkili bir neçə mərhələdən ibarətdir: marşrutun planlaşdırılması, nəqliyyat vasitəsinin seçilməsi, yüklərin sığortalanması, gömrük sənədlərinin rəsmiləşdirilməsi, sərhəd keçidlərinin təşkili və daşınma prosesinin monitorinqi. Müasir dövrdə bu mərhələlər rəqəmsal texnologiyalar vasitəsilə idarə olunur. Elektron CMR, GPS izləmə, e-TIR sistemi kimi innovativ vasitələr daşımaların şəffaflığını və effektivliyini artırır.

4. İqtisadi və ekoloji aspektlər.Avtomobil daşımalarının iqtisadi səmərəliliyi onun çevikliyi və nisbətən aşağı infrastruktur xərcləri ilə bağlıdır. Bununla belə, yanacaq qiymətləri, tranzit ödənişləri və ekoloji tələblər bu sahədə mühüm amillərdir. Avropa standartlarına uyğun "Euro-5" və "Euro-6" ekoloji normativlərinin tətbiqi avtomobil parkının yenilənməsini tələb edir. Eyni zamanda, alternativ enerji ilə işləyən nəqliyyat vasitələrinin tətbiqi beynəlxalq daşımaların dayanıqlılığını təmin edə bilər.

5. Azərbaycanda beynəlxalq avtomobil daşımalarının inkişaf istiqamətləri. Azərbaycan beynəlxalq avtomobil daşımaları üçün mühüm tranzit ölkədir. "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi ölkəyə strateji üstünlük verir. Son illərdə ölkədə yol infrastrukturunun modernləşdirilməsi, logistika mərkəzlərinin və sərhəd keçid məntəqələrinin yenilənməsi bu sahənin inkişafını sürətləndirir. Elektron gömrük sistemlərinin tətbiqi, "bir pəncərə" prinsipi və e-TIR layihəsi beynəlxalq daşımaların sadələşdirilməsinə xidmət edir. Dövlət səviyyəsində nəqliyyat-logistika strategiyasının həyata keçirilməsi qeyri-neft sektorunun rəqabət qabiliyyətini artırır.

Cədvəl 1.

Beynəlxalq avtomobil daşımalarının əsas göstəriciləri və xüsusiyyətləri

№	Göstərici	Əsas məzmun	Azərbaycan üzrə vəziyyət	Beynəlxalq təcrübə ilə müqayisə
1	**Hüquqi baza**	CMR, TIR, ADR və CEMT konvensiyalarına qoşulma	Azərbaycan 2006-cı ildən TIR və CMR konvensiyalarının iştirakçısıdır	Avropa ölkələrində tam elektron TIR sistemi tətbiq olunur
2	**İnfrastruktur**	Magistral yollar, logistika mərkəzləri, sərhəd məntəqələri	Bakı-Qazax, Bakı-Astara magistralları və Ələt AZAD zonası	AB ölkələrində yüksək keyfiyyətli avtomobil magistralları və avtomatlaşdırılmış gömrük sistemləri mövcuddur
3	**Texnoloji səviyyə**	Rəqəmsallaşma, GPS, e-CMR, e-TIR sistemləri	E-TIR layihəsi sınaq mərhələsindədir, GPS monitorinqi genişlənir	Avropada tam elektron CMR və rəqəmsal izləmə tətbiq edilir
4	**Ekoloji standartlar**	Avtomobillərin "Euro" sinfi	"Euro-4" və "Euro-5" standartlarına keçid prosesi davam edir	AB-də "Euro-6" və alternativ yanacaq sistemləri tətbiq olunur
5	**İqtisadi effektivlik**	Daşınma xərcləri, tranzit gəlirləri, vaxt itkiləri	Tranzit gəlirlərində artım, lakin sərhəddə gecikmələr müşahidə olunur	AB-də rəqəmsal idarəetmə sayəsində xərclər 15–20% azdır
6	**İnstitusional dəstək**	Dövlət siyasəti və tənzimləmə mexanizmləri	"Nəqliyyat-logistika strategiyası (2024–2030)" qəbul olunub	Beynəlxalq səviyyədə dövlət–özəl tərəfdaşlıq (PPP) geniş yayılıb

1 saylı cədvəldən göründüyü kimi, beynəlxalq avtomobil daşımalarının uğurlu təşkili üçün hüquqi, infrastruktur, texnoloji və ekoloji amillərin balanslı inkişafı vacibdir. Azərbaycan bu istiqamətdə mühüm irəliləyişlər əldə etmişdir – xüsusilə infrastrukturun yenilənməsi və rəqəmsallaşma proseslərinin başlanması sahəsində.

Lakin tam elektron TIR və CMR sistemlərinin tətbiqi, "Euro-6" ekoloji standartlarına keçid və sərhəd keçidlərində vaxt itkisini minimuma endirmək hələ də əsas prioritetlər sırasındadır. Beynəlxalq təcrübə göstərir ki, rəqəmsal logistika və avtomatlaşdırılmış gömrük mexanizmləri daşıma xərclərini orta hesabla 15–20% azaldır, bu isə Azərbaycanın tranzit gəlirlərinin artmasına və rəqabət qabiliyyətinin yüksəlməsinə şərait yarada bilər.

Nəticə və təkliflər

Beynəlxalq avtomobil daşımaları qlobal ticarətin və regional iqtisadi əlaqələrin mühüm komponentidir. Bu sahənin səmərəli təşkili nəqliyyat xərclərinin azalmasına, ixrac-idxal dövriyyəsinin artmasına və tranzit potensialının güclənməsinə şərait yaradır. Azərbaycanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, innovativ texnologiyaların tətbiqi və beynəlxalq hüquqi mexanizmlərin genişləndirilməsi bu istiqamətdə əsas prioritetlər sırasındadır. Tövsiyə olunur ki, avtomobil daşımalarında rəqəmsal idarəetmə mexanizmləri genişləndirilsin, sərhəd keçid məntəqələrində prosedurlar sadələşdirilsin və ekoloji standartlara uyğun nəqliyyat parkı formalaşdırılsın.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2024). Nəqliyyat-logistika strategiyası. Bakı.
2. United Nations Economic Commission for Europe (UNECE). (2023). TIR and CMR Conventions overview.
3. World Bank. (2023). Transport and Logistics Performance Index Report.
4. Azərbaycan Dövlət Statistika Komitəsi. (2024). Nəqliyyat və logistika göstəriciləri. Bakı.
5. OECD. (2022). International Transport Outlook. Paris: OECD Publishing.

Кямран Мехман оглы Фейзуллаев
магистрант,
Азербайджанский Университет Кооперации
Муслимат Аллахверди кызы Аллахвердиева
доктор экономических наук,
allahverdiyeva_muslumat@mail.ru,
Азербайджанский Государственный Экономический Университет

Организация и особенности осуществления международных автомобильных перевозок

Резюме

В статье исследованы основные принципы организации и реализации международных автомобильных перевозок, их правовое регулирование, экономические и технологические особенности. В современный период развитие глобальной торговли и цифровизация логистических цепочек ещё больше усилили роль международных автомобильных перевозок. Проведённый анализ показывает, что транзитный потенциал Азербайджана, его географическое положение и обновление транспортной инфраструктуры создают широкие возможности для развития данной сферы.

Kamran Mehman Feyzullayev
master,
Azerbaijan University Cooperation
Muslimat Allahverdi Allahverdieva
doctor of economic sciences,
allahverdiyeva_muslumat@mail.ru,
Azerbaijan State University of Economics

Organization and implementation features of international road transport

Summary

The article examines the main principles of organizing and implementing international road transport, its legal regulation, as well as its economic and technological characteristics. In the modern era, the development of global trade and the digitalization of logistics chains have further increased the importance of international road transport. The study shows that Azerbaijan's transit potential, geographical location, and modernization of its transport infrastructure create broad opportunities for the development of this sector.

Məmmədəli Fəxrəddin oğlu ALLAHVERDİYEV
magistrant,
Sərxan Yunis oğlu ABDULOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCAN İQTİSADİYYATI TİMSALINDA İSTEHSAL FUNKSİYASININ PARAMETRLƏRİNİN EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ

Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı və qeyri-neft sektorunun gücləndirilməsi uzunmüddətli strateji hədəflər sırasında önəmli yer tutur. Ölkənin iqtisadi strukturu hələ də neft və qaz hasilatına yüksək dərəcədə bağlıdır, bu isə makroiqtisadi dəyişkənliyi artırır və iqtisadi siyasətdə risklər yaradır. 2024-cü ildə Azərbaycan Respublikasında real ÜDM-in 4,1 % artması və 2025-ci il üçün proqnozlaşdırılan 3,5 % artım tempi, iqtisadiyyatın yavaşlama meylini göstərir. Bu kontekstdə istehsal funksiyasının parametrlərinin dəqiq qiymətləndirilməsi, ölkənin resurslarından – əmək, kapital və texnologiyadan – səmərəli istifadəni təmin etmək üçün zəruri bir tədqiqat sahəsinə çevrilir.

Ölkənin qeyri-neft sektorunun inkişafı iqtisadi diversifikasiyanın əsas vasitəsi kimi strateji əhəmiyyət kəsb edir. Beynəlxalq hesabatlara görə, qeyri-neft sektorunda artım potensialı 2025-ci ildə təxminən 4–4,5 % səviyyəsində proqnozlaşdırılır. Bu artımın effektiv olması üçün istehsal funksiyasının komponentləri – əmək resurslarının istifadəsi, kapital qoyuluşları və texnoloji səviyyə – düzgün qiymətləndirilməli və onların iqtisadi məhsuldarlığa təsiri ölçülməlidir. Bu isə iqtisadi siyasətin formalaşdırılması və strateji qərarların qəbulunda mühüm əhəmiyyət daşıyır.

Makroiqtisadi dəyişkənlik, resursların bölgüsü və məhsuldarlıq göstəricilərinin təhlili də tədqiqatın aktuallığını artırır. 2024-cü ildə iqtisadiyyatın bəzi sahələrində artım müşahidə olunsa da, neft-qaz sektorunda dəyər artımı azalmaqda idi. Bu, istehsal funksiyasının müxtəlif komponentlərinin səmərəliliyinin qiymətləndirilməsini zəruri edir. Belə analizlər vasitəsilə hansı amillərin iqtisadi artıma daha çox töhfə verdiyi, hansılarının isə məhsuldarlığı zəiflətdiyi barədə aydın nəticələr əldə etmək mümkündür.

Bundan əlavə, iqtisadiyyatın dayanıqlı artım modellərinin qurulması üçün iqtisadi siyasətçilərə, investorlar və tədqiqatçılara etibarlı məlumat bazasının yaradılması vacibdir. İstehsal funksiyasının parametrlərinin ekonometrik qiymətləndirilməsi, həm ölkədə resursların səmərəli bölgüsünü təmin etməyə, həm də iqtisadi qərarların elmi əsaslarla verilməsinə imkan yaradır. Bu, xüsusilə

neft gəlirlərindən asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafı və texnoloji yeniliklərin təşviqi üçün strateji əhəmiyyət kəsb edir.

Eyni zamanda, Azərbaycan iqtisadiyyatının inkişaf perspektivləri, beynəlxalq iqtisadi əlaqələrin dərinləşməsi və investisiya mühitinin formalaşması kontekstində bu tədqiqatın elmi və praktik əhəmiyyəti daha da artır. İstehsal funksiyasının parametrlərinin dəqiq qiymətləndirilməsi vasitəsilə iqtisadi modellər optimallaşdırıla, iqtisadi artımın dayanıqlı təhlili aparıla və siyasət sahəsində daha effektiv qərarlar qəbul edilə bilər.

Nəticədə, mövzu yalnız elmi maraq üçün deyil, həm də ölkənin iqtisadi siyasətinin formalaşdırılması, resursların səmərəli istifadəsi, investisiya strategiyalarının qurulması və makroiqtisadi sabitliyin təmin edilməsi baxımından da yüksək aktuallığa malikdir. Bu tədqiqat, Azərbaycanın iqtisadi inkişafının müasir mərhələsini daha dərindən anlamağa və gələcək iqtisadi modellərin qurulmasına mühüm töhfə verəcəkdir.

ƏDƏBİYYAT

1. Əhmədova, E. M. "Azərbaycanın iqtisadi inkişafının istehsal funksiyası əsasında modelləşdirilməsi və təhlili", *CBU İqtisadiyyat və Biznes Jurnalı*, Cild 3, 2022. *Azərbaycan iqtisadiyyatında istehsal funksiyasının tətbiqi və iqtisadi inkişafın modelləşdirilməsi.*
2. Rüstəmov, E., Yaqublu, A. "Azərbaycan Respublikasının iqtisadi bölgələrinin Cobb-Douglas istehsal funksiyası ilə qiymətləndirilməsi", *EcoMod*, 2014. *Azərbaycanın regionları üçün Cobb-Douglas istehsal funksiyasının tətbiqi və istehsal amillərinin bölgələr üzrə təsiri.*
3. Hüseynov, O. H., Axundov, V. C., Əliyev, Ə. M. "Azərbaycan iqtisadiyyatında istehsal sektoru və onun resurslarından istifadənin qiymətləndirilməsi", *AMEA Xəbərləri. İqtisadiyyat seriyası*, 2019 (Mart-Aprel). *İstehsal sahəsində resursların istifadəsi və məhsuldarlığın qiymətləndirilməsi barədə tədqiqat, Azərbaycan kontekstində.*
4. "İstehsal funksiyası", internet resursu, Wikimedia/Azərbaycan. *İstehsal funksiyasının nəzəri əsasları – resurslar (əmək, kapital), texnologiya və məhsul arasındakı əlaqə.*

Маммедали Фахреддин оглы Аллахвердиев
магистрант,
Сархан Юнис оглы Абдулов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Эконометрическая оценка параметров производственной функции на примере экономики Азербайджана

Резюме

В данной статье исследуется эконометрическая оценка параметров производственной функции на примере экономики Азербайджана. Целью является анализ влияния основных факторов, формирующих производственный потенциал страны – таких ресурсов, как труд, капитал и технологии – на экономическую производительность. В исследовании использовалась модель производственной функции Кобба-Дугласа, а для оценки её параметров применялись макроэкономические показатели временных рядов. Для оценки параметров использовались наиболее распространённые методы – метод наименьших квадратов (OLS) и логарифмическая трансформация. Результаты показывают, что вклад труда и капитала в производство значителен, однако роль технологического развития и факторов эффективности продолжает расти. Эконометрические результаты, полученные в статье, имеют практическое значение для формирования экономической политики Азербайджана, разработки инвестиционных стратегий и прогнозирования экономического роста.

Mammadali Fakhreddin Allahverdiyev
master,
Sarkhan Yunis Abdulov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperative University

Econometric estimation of production function parameters: the case of the Azerbaijani economy

Summary

This article examines the econometric estimation of production function parameters using the case of the Azerbaijani economy. The aim is to analyze the impact of key factors shaping the country's production potential–such as labor, capital, and technology–on economic productivity. The study is based on the Cobb-Douglas production function model, using time-series macroeconomic indicators for parameter estimation. The most commonly used methods, including the Ordinary Least Squares (OLS) method and logarithmic transformation, were applied for parameter estimation. The results indicate that while labor and capital make significant contributions to production, the role of technological progress and efficiency factors continues to grow. The econometric findings obtained in the paper have practical importance for shaping Azerbaijan's economic policy, developing investment strategies, and forecasting economic growth.

Rusif Daşqın oğlu RÜSTƏMOV
magistrant,
Pərviz Əhməd oğlu QURBANOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ-İQTİSADİ ƏLAQƏLƏRİNİN GÖMRÜK TARİF TƏNZİMLƏNMƏ SİSTEMİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

2025-ci ildə Azərbaycan Respublikası üçün xarici-iqtisadi əlaqələrin çərçivəsində gömrük tarif tənzimlənməsi sistemi çoxşaxəli və dərin transformasiya mərhələsinə daxil olmuşdur. Belə ki, ölkə aparıcı ticarət və logistika tranzit mərkəzi kimi öz mövqeyini gücləndirmək məqsədi ilə gömrük tariflərinin fiskal funksiyasından keçərək ixrac-dəstək, investisiya təşviqi və regional inteqrasiya alətinə çevrilməsi istiqamətində aktiv addımlar atmışdır. Ötən illərdə yalnız bazar mühafizəsini hədəfləyən tarif mexanizmi 2025-ci ildən etibarən innovasiya yönümlü və rəqabətə açıq modelə keçmişdir: məsələn, idxal olunan elektrik yük maşınlarının gömrük rüsumlarından azad edilməsinə dair qərar qəbul edilmişdir. Eyni zamanda, gömrük sistemi daxilində "elektron tək pəncərə" və "rəqəmsal gömrük dəyəri" kimi yeni mexanizmlərin tətbiqi nəzərdə tutulmuş, bu da prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması məqsədilə 2025-ci il üçün təsdiq edilmiş Yol Xəritəsində əksini tapmışdır. Bundan əlavə, gömrük müstəsna güzəştlərin və azadolmaların sistemləşdirilməsi istiqamətində hüquqi baza gücləndirilmiş, məsələn, istehsal-məqsədli maşın və avadanlıqların idxalı üçün gömrük rüsumlarından azadedilmə müddətləri uzadılmışdır. Bu yeniliklər yalnız gömrük tariflərinin sadə optimallaşdırılması ilə məhdudlaşmır, həm də ölkənin ixrac potensialının artırılması, xarici investisiya axını üçün daha əlverişli mühitin yaradılması və Azərbaycanın regionda tranzit və ticarət əlaqələrinin genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Beləliklə, gömrük-tarif tənzimlənməsi sahəsində aparılan islahatlar 2025-ci ildə ölkənin müəssisə mühitinin modernləşdirilməsi və beynəlxalq ticarət sisteminə inteqrasiyası yönündə əsas katalizator rolunu oynayır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi: 1 aprel 2025-ci il tarixədək edilmiş bütün əlavə və dəyişikliklərlə. Bakı: Hüquq Yayın Evi, 2025.
2. Azərbaycan dövlətçiliyi tarixində gömrük işi. 3-cü cild / Müəllif: R. Quliyev. Bakı: Tarix İnstitutu, 2015.
3. Gömrük işinin təşkili / Müəlliflər: E. A. Quliyev, İ.İ. Mehrəliyev. Bakı, 2012.
4. Gömrük rəsmiləşdirilməsi / Müəlliflər: S.M. Mehdiyev, C.Q. Nuriyev, A.Ə. Əliyev, K.F. Heydərov. Bakı, 2006.
5. Azərbaycan Respublikasında xarici ticarətin gömrük-tarif tənzimlənməsinin iqtisadi təhlükəsizliyinin təmin olunmasında rolu / Müəllif: F. Məmmədov. «Journal e-Reforms», 2023, №2.
6. Xarici ticarət fəaliyyəti: iqtisadiyyat, dövlət tənzimlənməsi və gömrük siyasəti (dərslik). Bakı: Təhsil Nazirliyi, 2016.

Русиф Дашгын оглы Рустамов
магистрант,
Парвиз Ахмед оглы Гурбанов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Система таможенного тарифного регулирования внешнеэкономических связей Азербайджанской Республики и пути её совершенствования

Резюме

Таможенное тарифное регулирование играет важную роль в развитии внешнеэкономических связей Азербайджанской Республики. Таможенные тарифы регулируют ценовую политику операций импорта и экспорта, конкурентоспособность ввозимых товаров и защиту национальной экономики. Существующая система построена в соответствии с принципами международной торговли и требованиями организаций, членом которых является Азербайджан (например, Всемирной торговой организации). Однако действующая тарифная структура в некоторых случаях не обеспечивает полной экономической эффективности, а административные процедуры в отдельных сферах остаются длительными и сложными. Для совершенствования системы необходимо упрощение тарифов, развитие электронных таможенных систем, приведение их в соответствие с международными стандартами и ускорение торговых процедур. Эти меры могут сделать внешнеэкономические связи Азербайджанской Республики более конкурентоспособными и прозрачными.

Rusif Dashgin Rustamov
master,
Parviz Ahmed Gurbanov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperative University

The customs tariff regulation system of the foreign economic relations of the Republic of Azerbaijan and ways of ıts ımprovement

Summary

Customs tariff regulation plays an important role in the development of the foreign economic relations of the Republic of Azerbaijan, regulating the pricing policies of import and export operations, the competitiveness of imported goods, and the protection of the national economy. The current system is established in accordance with the principles of international trade and the requirements of organizations of which Azerbaijan is a member (for example, the World Trade Organization). However, the existing tariff structure does not always ensure full economic efficiency, and administrative procedures in some areas remain lengthy and complex. To improve

the system, it is necessary to simplify tariffs, develop electronic customs systems, align them with international standards, and accelerate trade procedures. These measures can make the foreign economic relations of the Republic of Azerbaijan more competitive and transparent.

Məmmədyar Əsgər oğlu VƏLİYEV
magistrant,
Pərviz Əhməd oğlu QURBANOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA BEYNƏLXALQ YÜKDAŞIMALARIN GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

2025-ci ildə Azərbaycanın avtonəqliyyat sektoru çərçivəsində beynəlxalq yükdaşımalarının gömrük rəsmiləşdirilməsinin aktuallığı bir neçə əsas istiqamətdə özünü göstərir. Ölkəmizin tranzit yük həcmləri son illərdə əhəmiyyətli dərəcədə artmışdır: 2024-cü ildə ölkə ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizləri üzrə yük dövriyyəsi 33,258 milyon tona çatmışdır. Bu göstəricilər göstərir ki, gömrük prosedurlarının səmərəli təşkili, elektron xidmətlərin tətbiqi və prosedurların sadələşdirilməsi məsələləri 2025-ci ildə xüsusilə aktuallaşmışdır.

Rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi beynəlxalq yükdaşımalarında gömrük əməliyyatlarının səmərəliliyini artırmaqda mühüm rol oynayır. 2025-ci ildən etibarən ölkəmizdə tranzit və beynəlxalq yükdaşımaları üçün elektron gömrük və e-permit sistemləri tam tətbiq edilir. Bu sistemlər sərhəddə nəqliyyat vasitələrinin dayanma müddətini minimuma endirərək logistika əməliyyatlarını sürətləndirir. Eyni zamanda, risk əsaslı gömrük nəzarətinin tətbiqi ilə ölkəyə daxil olan və ölkədən çıxan yüklərin təhlükəsizliyi artırılmışdır.

Regional nəqliyyat dəhlizlərinin strateji rolu da aktuallığın vacib aspektidir. "Şimal–Cənub", "Şərq–Qərb" və "Orta" koridorları Azərbaycan üçün yalnız tranzit yük həcminin artması baxımından deyil, həm də geo-iqtisadi və strateji mövqeyin möhkəmlənməsi baxımından önəmlidir. 2025-ci ilin birinci yarısında yalnız bu dəhlizlər üzrə yüz minlərlə ton yük daşınmışdır ki, bu da ölkənin tranzit potensialının artdığını göstərir. Regional əməkdaşlıq və tranzit marşrutlarının inkişafı Azərbaycanı Avropa-Asiya ticarət axınlarında etibarlı və rəqabətqabiliyyətli tərəfdaş kimi möhkəmləndirir.

Gömrük və vergi administrasiyasında aparılan islahatlar da aktuallığı artırır. "Bir pəncərə" sistemi, elektron xidmətlər, risk əsaslı nəzarət və sərhəddə avtomobil buraxılış müddətinin optimallaşdırılması yükdaşımaların xərclərini azaltmaqla yanaşı, logistika proseslərinin sürətini artırır. 2025-ci ilin statistikasına görə, bu tədbirlər nəticəsində tranzit yüklərin sərhəddə dayanma müddəti orta hesabla 20–25% azalmışdır.

Bütün bu amillər bir araya gəldikdə göstərir ki, avtonəqliyyatla beynəlxalq yükdaşımalarında gömrük rəsmiləşdirilməsinin təkmilləşdirilməsi, elektron sistemlərin genişləndirilməsi və prosedurların sadələşdirilməsi strateji əhəmiyyət kəsb edir. Bu sahədə aparılacaq elmi-təhlili işlər Azərbaycan üçün tranzit potensialının artırılması, nəqliyyat-logistika sisteminin inkişafı və regionda ölkənin mövqeyinin gücləndirilməsi baxımından vacibdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının gömrük hüququ – Novruzov Qulu. Bakı: "Adiloğlu", 2019.
2. Beynəlxalq nəqliyyat əməliyyatları : dərs vəsaiti – Eyvazov Elçin Təhməz & Balabəyova Nərminə; Bakı: "Elm və Təhsil", 2019.
3. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi – Bakı: Hüquq Yayın Evi, 2024.
4. Azərbaycan Xalq Cümhuriyyətinin gömrük siyasəti – F. N. Əsədov; Bakı: 2009.
5. International Freight Transport: Cases, Structures and Prospects – Anthony Beresford, Stephen Pettit

6. ICC Handbook on Transport and the Incoterms® 2020 Rules – International Chamber of Commerce
7. Transport Documents in Carriage Of Goods by Sea: International Law and Practice – Časlav Pejović
8. The Ultimate Guide to Shipping, Forwarding and Customs Clearing: HS Code, Tariffs, Duty – Faustino Taderera & Zebert Mahachi
9. Custom Clearing and Freight Forwarding Management – 2023

Маммедьяр Асгар оглы Велиев
магистрант,
Парвиз Ахмед оглы Гурбанов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Основные особенности таможенного оформления международных грузоперевозок в Азербайджане

Резюме

В данной статье анализируются правовые, экономические и организационные особенности процесса таможенного оформления международных грузоперевозок в Азербайджане на примере автотранспортного сектора. В исследовании уделяется внимание вопросам гармонизации таможенных процедур с международными стандартами, тенденциям цифровизации и факторам, влияющим на эффективность логистических операций. Одновременно рассматривается внедрение принципа «единого окна», оптимизация времени пропуска транспортных средств через границу и анализ системы таможенного контроля в контексте риск-ориентированного управления.

На основе полученных результатов делается вывод, что упрощение таможенного оформления при международных автоперевозках, расширение электронных услуг и развитие региональных транспортных коридоров вносят значительный вклад в повышение транзитного потенциала страны.

Mammadjar Asgar Valiyev
master,
Parviz Ahmed Gurbanov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperative University

Main features of customs clearance for international freight transportation in Azerbaijan

Summary

This article analyzes the legal, economic, and organizational aspects of the customs clearance process for international freight transportation in Azerbaijan, using the road transport sector as an example. The study focuses on the harmonization of customs procedures with international standards, trends in digitalization, and factors influencing the efficiency of logistics operations. At the same time, the implementation of the “single window” principle, the optimization of vehicle clearance times at border checkpoints, and the analysis of customs control within the context of a risk-based management system are examined.

Based on the results of the study, it is concluded that the simplification of customs clearance procedures for international road transport, the expansion of electronic services, and the development of regional transport corridors make a significant contribution to increasing the country’s transit potential.

Fidan Zöhrab qızı EYVAZLI
magistrant,
Sərxan Yunis oğlu ABDULOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANIN GÖMRÜK SİYASƏTİNİN BÜDCƏ DAXİLOLMALARINA TƏSİRİ

Gömrük siyasəti hər bir ölkənin iqtisadi və maliyyə sisteminin mühüm tənzimləyici alətlərindən biridir. Müasir qlobal iqtisadi şəraitdə dövlətlər gömrük mexanizmlərindən həm fiskal gəlirlərin artırılması, həm də milli iqtisadiyyatın müdafiəsi və inkişafı məqsədilə geniş şəkildə istifadə edirlər. Gömrük siyasətinin düzgün formalaşdırılması dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsində, yerli istehsalın qorunmasında, ixracın stimullaşdırılmasında və dövlət büdcəsinin gəlir hissəsinin sabitliyində mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında gömrük siyasəti dövlətin iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsi kimi formalaşmış və ölkənin sosial-iqtisadi inkişaf strategiyasına uyğun şəkildə daim təkmilləşdirilmişdir.

Azərbaycanın gömrük siyasətinin əsas məqsədi ölkə ərazisinə gətirilən və çıxarılan malların qanunvericilik əsasında tənzimlənməsi, xarici iqtisadi fəaliyyətin şəffaf həyata keçirilməsi və dövlət büdcəsinin gəlir hissəsinə stabil və artan mənbələrin təmin edilməsidir. Bu məqsədlə gömrük orqanları idxal və ixrac əməliyyatlarına nəzarəti gücləndirməklə yanaşı, həm də gömrük ödənişlərinin – rüsumların, vergilərin, aksizlərin və digər fiskal yığımların toplanmasını həyata keçirirlər. Dövlət Gömrük Komitəsinin fəaliyyət istiqamətləri yalnız fiskal funksiyalarla məhdudlaşmır, həm də qeyri-neft ixracının artırılması, beynəlxalq ticarət əlaqələrinin sadələşdirilməsi və iqtisadi təhlükəsizliyin qorunmasına yönəlmişdir.

1990-cı illərin əvvəllərində müstəqillik əldə etdikdən sonra Azərbaycan yeni gömrük sisteminin formalaşdırılması mərhələsinə qədəm qoydu. 1997-ci ildə "Gömrük Məcəlləsi"nin qəbul edilməsi və Dövlət Gömrük Komitəsinin yaradılması ilə ölkədə vahid gömrük siyasətinin hüquqi bazası formalaşdı. Sonrakı illərdə gömrük sistemində aparılan islahatlar – elektron bəyannamə sisteminin tətbiqi, "yaşıl dəhliz" mexanizminin yaradılması, risklərin idarə edilməsi və şəffaflığın artırılması tədbirləri – dövlət büdcəsinə daxilolmaların əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Məsələn, 2010–2020-ci illər ərzində gömrük gəlirləri büdcə daxilolmalarının ümumi strukturunda sabit şəkildə 15–20 faiz aralığında dəyişmiş və qeyri-neft sektorunun maliyyə dayanıqlığına mühüm töhfə vermişdir.

Azərbaycanın gömrük siyasəti həm fiskal, həm də tənzimləyici xarakter daşıyır. Fiskal baxımdan gömrük rüsumları və vergiləri dövlət büdcəsinin əsas gəlir mənbələrindən biridir. Tənzimləyici baxımdan isə bu siyasət ölkəyə gətirilən malların keyfiyyətinə, mənşəyinə və ekoloji təhlükəsizliyinə nəzarət etməyə, habelə daxili bazarın xarici rəqabət təzyiqlərindən qorunmasına xidmət edir. Gömrük-tarif mexanizmləri vasitəsilə hökumət yerli istehsalçıları qoruyur, strateji məhsulların idxalını məhdudlaşdırır və ixracın stimullaşdırılmasına şərait yaradır.

Eyni zamanda, beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiya prosesi gömrük siyasətinə yeni tələblər qoyur. Dünya Ticarət Təşkilatına üzv olmaq istiqamətində aparılan danışıqlar, regional ticarət sazişləri və azad iqtisadi zonaların yaradılması gömrük tariflərinin liberallaşmasını tələb edir. Bu, bir tərəfdən beynəlxalq ticarətin genişlənməsinə və xarici investisiyaların cəlb edilməsinə şərait yaradır, digər tərəfdən isə gömrük gəlirlərinin həcminin azalması riskini yaradır. Buna görə də Azərbaycan hökuməti büdcə sabitliyini qorumaq məqsədilə gömrük idarəçiliyində rəqəmsallaşma, şəffaflıq və risklərin idarə olunması kimi yeni yanaşmaları tətbiq edir.

Hazırda Azərbaycan gömrük orqanları beynəlxalq təcrübəyə əsaslanan "ağıllı gömrük" konsepsiyası istiqamətində fəaliyyət göstərir. Bu yanaşma gömrük keçid məntəqələrində müasir texnologiyaların tətbiqi, bəyannamələrin elektron formada təqdim edilməsi, malların və nəqliyyat vasitələrinin avtomatlaşdırılmış yoxlanılması kimi islahatları əhatə edir. Bu islahatlar həm vətəndaşların, həm də biznes subyektlərinin vaxt itkisinin qarşısını alır, həmçinin dövlət üçün rüsumların toplanmasını asanlaşdırır.

Gömrük siyasətinin büdcə daxilolmalarına təsirini dəyərləndirərkən qeyd edilməlidir ki, bu təsir təkcə gömrük rüsumlarının həcmi ilə ölçülmür. Gömrük idarəçiliyinin səmərəliliyi, korrupsiya risklərinin azaldılması, idxal-ixrac əməliyyatlarında şəffaflığın təmin edilməsi də büdcə gəlirlərinin artımında mühüm rol oynayır. Dövlət Gömrük Komitəsinin hesabatlarına əsasən, son illərdə qeyri-neft sektoru üzrə ixracın artması, eyni zamanda tranzit əməliyyatlarının genişlənməsi gömrük daxilolmalarını xeyli yüksəltmişdir.

Son dövrlərdə isə yeni statistik göstəricilər bu təsirin daha konkret mahiyyətini ortaya qoyur. Belə ki, 2024-cü ildə gömrük xətti ilə dövlət büdcəsinə daxilolmalar 6 milyard 648 milyon manat səviyyəsində olmuşdur ki, bu əvvəlki ilə nisbətən 4,9 % artım deməkdir. 2024-cü ildə gömrük ödənişlərinin ÜDM-də payı təxminən 5,3 % təşkil etmişdir. 2025-ci ilin ilk dörd ayında (yanvar-aprel) gömrük vasitəsilə büdcə gəlirləri 2 milyard 64 milyon manat səviyyəsində olmuş və bu, illik müqayisədə 4,3 % artımı göstərmişdir. Lakin, 2025-ci ilin ilk səkkiz ayı üzrə statistikaya görə, gömrük xətti ilə daxilolmalar 4 160,6 milyon manat olmuş və bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə təxminən 5 % azalma deməkdir. Bu göstəricilər göstərir ki, gömrük siyasətinin fiskal funksiyaları ölkə üçün hələ də həlledici əhəmiyyət kəsb edir, lakin ticarət şərtləri və idxal-ixrac həcmlərindəki dəyişikliklər gömrük gəlirlərinin stabilliyini müəyyən dərəcədə çətinləşdirə bilər.

Beləliklə, Azərbaycanın gömrük siyasəti dövlətin iqtisadi strategiyasının mühüm istiqamətlərindən biri olaraq büdcə gəlirlərinin sabit artımına, qeyri-neft sektorunun inkişafına və milli iqtisadi təhlükəsizliyin qorunmasına mühüm təsir göstərir. Qarşıdakı dövrdə bu siyasətin əsas məqsədi beynəlxalq ticarətin liberallaşması ilə fiskal maraqlar arasında balansın qorunması, rəqəmsal gömrük idarəçiliyinin genişləndirilməsi və ixrac potensialının artırılması olacaqdır.

ƏDƏBİYYAT

1. Məmmədov, F. (2023). *Azərbaycan Respublikasında xarici ticarətin gömrük-tarif tənzimlənməsinin iqtisadi təhlükəsizlikdə rolu*. İqtisadi İslahatlar Jurnalı, 2(2023), s. 52-58.
2. Azərbaycan Respublikası Gömrük Məcəlləsi. (1997). Bakı: Hüquqi Ədəbiyyat Nəşriyyatı.
3. Dövlət Gömrük Komitəsi. (2024). *Azərbaycanın gömrük siyasəti və büdcə daxilolmaları üzrə illik hesabat*. Bakı: DGK.
4. Report.az. (2024, 18 noyabr). "Azərbaycan davamlı ekosistemlərin dəstəyi üçün gömrük təşviqlərini tətbiq edir".
5. Report.az. (2024, 7 iyun). "Azərbaycan COP29 üçün idxal olunan mallara gömrük rüsumlarını ləğv edir".
6. ABC.az. (2024, 17 dekabr). "Azərbaycan 2025-ci ildən gömrük üzrə xüsusi imtiyazlar tətbiq edəcək".
7. Report.az. (2024, 17 dekabr). "Azərbaycan Gömrük Komitəsi gömrük daxilolmalarının toplanması mexanizmini hazırlayıb".
8. Azernews.az. (2023). "Azərbaycan gömrük tarifləri haqqında qanuna dəyişiklik edib – fərman".
9. Həsənov, R. (2022). *Gömrük siyasətinin milli iqtisadiyyatın inkişafına təsiri*. Bakı: Elm Nəşriyyatı.
10. Əliyev, S. (2021). *Gömrük orqanlarının fiskal və tənzimləyici funksiyaları*. Bakı: İqtisadi Təhlil Mərkəzi.

Фидан Зохраб кызы Эйвазли
магистрант,
Сархан Юнис оглы Абдулов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Влияние таможенной политики Азербайджана на доходы бюджета

Резюме

В данной статье исследуется влияние таможенной политики Азербайджана на доходную часть государственного бюджета. В условиях углубляющейся глобальной экономической

интеграции роль таможенных пошлин, импортно-экспортных налогов и других фискальных инструментов в доходах бюджета приобретает особое значение. Исследование показывает, что таможенная политика выполняет не только фискальную функцию, но также является важным инструментом для защиты национального производства, регулирования внешнеторгового баланса и обеспечения экономической безопасности. В последние годы проведенные реформы – внедрение электронных таможенных систем, повышение прозрачности и приведение в соответствие с международными стандартами – оказали положительное влияние на рост бюджетных поступлений. Вместе с тем, либерализация международных торговых соглашений и снижение тарифных ставок в некоторых случаях приводят к уменьшению таможенных доходов. В статье на основе как статистических данных, так и аналитических подходов анализируются механизмы влияния таможенной политики Азербайджана на доходы бюджета, а также предлагаются рекомендации по оптимизации на будущее.

Fidan Zokhrab Eyvazli
master,
Sarkhan Yunis Abdulov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperative University

The ımpact of azerbaijan's customs policy on budget revenues

Summary

This article examines the impact of Azerbaijan's customs policy on the revenue side of the state budget. In the context of deepening global economic integration, customs duties, import-export taxes, and other fiscal instruments play a particularly important role in budget revenues. The study shows that customs policy not only serves a fiscal function but is also a crucial tool for protecting domestic production, regulating the foreign trade balance, and ensuring economic security. Recent reforms–including the implementation of electronic customs systems, increased transparency, and alignment with international standards–have positively affected budget revenues. However, the liberalization of international trade agreements and the reduction of tariff rates have, in some cases, led to a decrease in customs revenue. The article analyzes the mechanisms through which Azerbaijan’s customs policy affects budget revenues using both statistical data and analytical approaches and provides recommendations for optimization in the future.

Kamran Elnur oğlu ƏLİZADƏ
magistrant,
Sərxan Yunis oğlu ABDULOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

DÜNYA MOBİL TELEFON BAZARININ STATİSTİK QİYMƏTLƏNDİRİLMƏSİ

2025-ci ildə dünya mobil telefon bazarı həm iqtisadi, həm texnoloji, həm də sosial baxımdan dinamik dəyişikliklərin mərkəzində dayanır. Rəqəmsal texnologiyaların gündəlik həyata tam inteqrasiyası mobil cihazların əhəmiyyətini daha da artırmış, mobil telefonlar təkcə ünsiyyət vasitəsi deyil, həm də fərdi məlumat mərkəzi, iş aləti və əyləncə platforması funksiyasını daşımağa başlamışdır. Qlobal iqtisadi çətinliklərə baxmayaraq, mobil telefon bazarı öz dayanıqlığını qorumaqdadır. 2025-ci ilin birinci rübündə qlobal smartfon satışları əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3 % artmış, bazar gəlirləri isə 364 ABŞ dolları orta satış qiyməti (ASP) ilə sabit artım nümayiş etdirmişdir. Bu göstəricilər bazarın hələ də canlı və rəqabətli olduğunu təsdiqləyir.

Müasir dövrdə mobil telefon bazarının aktuallığı, ilk növbədə, texnoloji yeniliklərin və istehlakçı davranışlarının dəyişməsinin nəticəsidir. Süni intellektlə inteqrasiya edilmiş smartfon

modelləri, 5G texnologiyasının geniş yayılması, qatlana bilən ekranlı və ekoloji cəhətdən davamlı cihazların populyarlaşması bazarın inkişaf istiqamətlərini müəyyən edir. 2025-ci il üçün proqnozlara əsasən, qlobal smartfon göndərişlərinin illik artımı 2,3 % civarında olacaq, lakin bu artım daha çox premium seqmentdə müşahidə olunur. Bu da göstərir ki, istifadəçilər artıq sadəcə "ucuz cihaz" deyil, daha çox yüksək performanslı və uzunömürlü modellərə üstünlük verirlər.

Brend rəqabəti də bazarın aktuallığını artıran əsas faktorlardan biridir. 2025-ci ilin əvvəlində Samsung təxminən 20 % bazar payı ilə liderliyini qoruyur, Apple isə gəlir göstəricilərinə görə birinci yeri tutur. Çin mənşəli Xiaomi, Oppo və Vivo kimi markalar isə xüsusilə Asiya və Afrika bazarlarında güclü mövqelər qazanır. Bu rəqabət bazarda innovasiyaların və məhsul çeşidlərinin artmasına səbəb olur.

Regional baxımdan 2025-ci ildə mobil bazar bərabər inkişaf etmir. İnkişaf etmiş ölkələrdə smartfon doyma səviyyəsi artıq maksimuma yaxınlaşdığı üçün bazar artımı əsasən cihaz yenilənmələri hesabına baş verir. İstifadəçilər daha uzunmüddətli cihaz istifadəsinə üstünlük verirlər, bu isə istehsalçıları daha dayanıqlı və enerji baxımından səmərəli məhsullar təqdim etməyə vadar edir. Digər tərəfdən, Asiya-Sakit Okean, Afrika və Latın Amerikası kimi regionlarda hələ də yeni istifadəçi artımı potensialı qalmaqdadır. Bu regionlarda ucuz, amma funksional smartfonlara tələbat artır və yerli istehsalçılar üçün geniş imkanlar yaradır.

Eyni zamanda, ekoloji və sosial məsuliyyət aspekti də 2025-ci ildə mobil telefon bazarının aktuallığını müəyyən edən mühüm amillərdən biridir. Bəzi aparıcı şirkətlər (məsələn, Apple və Samsung) artıq karbon neytrallığı və təkrar emal edilə bilən materiallardan istifadə sahəsində ciddi addımlar atır. Bu da həm dövlət siyasətləri, həm də istehlakçı təzyiqi nəticəsində bazarda yeni ekoloji meyillərin yaranmasına gətirib çıxarır.

Nəticə etibarilə, 2025-ci ildə dünya mobil telefon bazarının aktuallığı onun çoxölçülü xarakterindədir: bazar həm texnoloji yeniliklər, həm rəqabət, həm də sosial məsuliyyət kimi müxtəlif istiqamətlərdə dəyişir. Smartfonlar artıq təkcə rabitə vasitəsi deyil, həm də süni intellekt, məlumat təhlükəsizliyi, ekoloji davamlılıq və fərdi məhsuldarlıq kimi sahələrin kəsişdiyi strateji texnoloji platformaya çevrilib. Buna görə də mobil telefon bazarının statistik qiymətləndirilməsi yalnız iqtisadi mənada deyil, həm də texnoloji, sosial və ekoloji kontekstdə aktual elmi-tədqiqat mövzusu olaraq qalır.

ƏDƏBİYYAT

1. Dövlət Statistika Komitəsi. (2025). *İnformasiya və rabitə sahəsində əsas göstəricilər.* Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
2. GSMA Intelligence. (2025). *The Mobile Economy 2025 – Global Overview.* London: GSM Association.
3. Counterpoint Research. (2025). *Global Smartphone Market Q1 2025 Report: 3% Growth and Shifting Consumer Trends.* London.
4. IDC (International Data Corporation). (2025). *Worldwide Smartphone Market Forecast to Grow 2.3% in 2025.* Framingham, MA.
5. Statista. (2025). *Number of smartphone users worldwide from 2016 to 2028.* Hamburg, Germany.
6. Canalys. (2025). *Global Smartphone Market Analysis, Q1 2025.* Singapore.
7. GSMA. (2024). *Rethinking Mobile Phones: Global Trends and Future Opportunities.* London: GSM Association.
8. Globenewswire. (2025). *Smartphone Global Forecast Report 2025: Driven by 5G and AI Integration.* New York.
9. Həsənov, R. (2023). *Mobil texnologiyaların iqtisadiyyata təsiri və inkişaf meyilləri.* Bakı: Azərbaycan Texniki Universiteti Nəşriyyatı.
10. Məmmədli, N. (2024). *Rəqəmsal iqtisadiyyat və mobil cihaz bazarının transformasiyası.* Bakı: Elm və Təhsil Nəşriyyatı.
11. TechRadar.(2025).*The Future of Smartphones:AI,Foldables,and Sustainable Innovation.* London.
12. World Economic Forum. (2024). *Global Technology Outlook: Mobile Connectivity and Sustainable Growth.* Geneva.

Камран Эльнур оглы Элизада
магистрант,
Сархан Юнис оглы Абдулов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Статистическая оценка мирового рынка мобильных телефонов

Резюме

Мировой рынок мобильных телефонов уже прошёл этап стремительного роста и вступил в фазу стабильного развития. В настоящее время в мире насчитывается примерно 7,3 миллиарда мобильных подписок, и прогнозируется, что к 2028 году эта цифра достигнет 7,9 миллиарда. Продажи «новых» смартфонов уже достигли пика, однако объём рынка продолжает расти благодаря технологическим новинкам, таким как 5G и искусственный интеллект. В конкурентной борьбе за бренды лидируют Apple и Samsung; в сегменте операционных систем преимущество сохраняется за Android. В развивающихся регионах распространение смартфонов ещё не завершено, и пользователи всё чаще выбирают более качественные устройства. В целом, рынок формируется вокруг премиальных устройств и технологических инноваций, а дополнительный потенциал роста в основном сосредоточен на новых рынках.

Kamran Elnur Elizade
master,
Sarkhan Yunis Abdulov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperative University

Statistical assessment of the global mobile phone market

Summary

The global mobile phone market has already passed the rapid growth phase and entered a period of stable development. Currently, there are approximately 7.3 billion mobile subscriptions worldwide, and this number is projected to reach 7.9 billion by 2028. “New” smartphone sales have already peaked, and market volume continues to grow thanks to technological innovations such as 5G and artificial intelligence. In brand competition, Apple and Samsung lead the market, while Android holds a dominant position in the operating system segment. In developing regions, smartphone penetration is not yet complete, and users are increasingly opting for higher-quality devices. Overall, the market is shaped around premium devices and technological innovations, with additional growth potential primarily in new markets.

Zaur Tahir oğlu HÜSEYNOV
magistrant,
Sərxan Yunis oğlu ABDULOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

MÜASİR DÖVRDƏ GÖMRÜK-TARİF TƏNZİMLƏNMƏSİ MEXANİZMİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Dünya təcrübəsi göstərir ki, gömrük-tarif siyasətinin düzgün formalaşması dövlətin iqtisadi təhlükəsizliyinin və maliyyə sabitliyinin təmin edilməsində mühüm rol oynayır. Gömrük-tarif mexanizmi ilə ölkələr idxal və ixrac əməliyyatlarını nəzarətdə saxlayır, yerli istehsalı qoruyur, valyuta axınlarını tənzimləyir və xarici ticarət balansının formalaşmasına təsir göstərir. Qloballaşma,

rəqəmsal ticarətin genişlənməsi, ticarət müharibələri və COVID-19 sonrası ticarət şokları gömrük-tarif siyasətinin ənənəvi yanaşmalarını kökündən dəyişdirib.

Gömrük-tarif tənzimlənməsinin əsas məqsədi iqtisadi və institusional əsasları müəyyənləşdirmək, müasir mexanizmin iş prinsipini və çağırışlarını təhlil etmək, 2025-ci ilə aid aktual dəyişikliklər və tendensiyalar kontekstində təkmilləşdirmə yollarını müəyyənləşdirmək və Azərbaycanın bu sahədəki rolunu göstərməkdir.

Gömrük-tarif tənzimlənməsi dövlətin xarici ticarət əlaqələri çərçivəsində tətbiq etdiyi tariflər və digər tənzimləyici vasitələr sistemidir. Bu sistem gəlir funksiyasına malikdir, çünki gömrük rüsumları dövlət büdcəsinə daxilolmaları təmin edir. Eyni zamanda qoruyucu funksiyanı yerinə yetirir, çünki xaricdən gətirilən mallara tarif tətbiq olunmaqla yerli istehsal rəqabətdən qorunur. Tənzimləmə funksiyası idxal və ixracın həcmi və istiqamətinin dövlət iqtisadi siyasətinə uyğun formalaşdırılmasını təmin edir. İqtisadi təhlükəsizlik funksiyası isə strateji malların idxal və ixracının gömrük mexanizmi vasitəsilə nəzarətdə saxlanmasını əhatə edir.

Gömrük tarifləri müxtəlif formalarda tətbiq olunur, o cümlədən ad-valorem, spesifik və qarışıq tariflər. Kvotalar, lisenziyalar və xüsusi güzəştlər gömrük-tarif siyasətinin ayrılmaz hissəsidir və ölkələr tərəfindən yerli istehsalı qorumaq, ixracı stimullaşdırmaq və cari hesab defisitini azaltmaq məqsədilə istifadə edilir. Beynəlxalq ticarət sistemi çərçivəsində WTO tariflərin maksimal səviyyələrini və MFN prinsipini müəyyənləşdirir. "World Tariff Profiles 2025" hesabatına görə, 170-dən çox iqtisadiyyatın kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı məhsulları üzrə tarifləri və qeyri-tarif tədbirləri təhlil olunmuşdur.

Müasir dövrdə gömrük-tarif siyasəti idxal və ixrac həcmi ilə birbaşa əlaqəlidir. Tariflərin artırılması idxalın bahalaşmasına səbəb ola bilər və bu da yerli istehsal üçün üstünlük yaratsa da, istehlakçı qiymətlərinin artmasına yol açır. E-ticarətin sürətlə inkişafı və "de minimis" güzəştlərinin ləğvi gömrük mexanizmini daha da mürəkkəbləşdirir. Tariflər və gömrük güzəştləri yerli sənaye sahələrinə rəqabət üstünlüyü təmin etmək üçün tətbiq edilir. Yerli istehsal üçün xammal və avadanlıqların idxalında gömrük güzəştlərinin tətbiqi istehsalın təşviqi üçün mühüm amildir.

Qloballaşma, beynəlxalq tədarük zəncirinin mürəkkəbləşməsi və köçürmə qiymətləri kimi məsələlər gömrük-tarif mexanizminə əlavə çağırışlar gətirir. Bu səbəbdən gömrük orqanları arasında koordinasiya gücləndirilməlidir. Elektron gömrük sistemlərinin tətbiqi prosedurların rəqəmsallaşdırılması ilə əməliyyatların sürətini və şəffaflığını artırır. "Elektron Single Window" və on-line izləmə sistemləri gömrük rüsumlarının idarə edilməsini sadələşdirir.

Tarif siyasətinin şəffaflaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılması gömrük-tarif sisteminin modernləşdirilməsini təmin edir. Hədəfli vergi və gömrük güzəştləri strateji sahələrə yönəldilərək investisiyaların təşviqi və ixracın dəstəklənməsində mühüm rol oynayır. Azərbaycan bu sahədə 2025-ci il üçün bir sıra yeniliklər həyata keçirir və gömrük-tarif sistemini beynəlxalq standartlara uyğunlaşdırır.

Azərbaycanın gömrük-tarif siyasəti xarici iqtisadi fəaliyyətin tənzimlənməsi, dövlət büdcəsinin gəlirlərinin formalaşması, milli istehsalın qorunması və xarici ticarət əlaqələrinin inkişafına yönəldilmişdir. Son illər qəbul edilmiş qanunlar və tətbiq edilən güzəştlər yerli istehsalın təşviqi və xarici ticarət əməliyyatlarının səmərəliliyinin artırılmasına xidmət edir. Bununla belə, gömrük prosedurlarının uzunluğu, rəqəmsal ticarət axınlarının gömrük sistemlərinə inteqrasiyası və güzəştlərin hədəflənməsi kimi çağırışlar hələ də qalmaqdadır.

Təkmilləşdirmə istiqamətində dinamik tarif mexanizmlərinin tətbiqi, gömrük və vergi orqanları arasında inteqrasiyanın gücləndirilməsi, rəqəmsal sistemlərin genişləndirilməsi, güzəştlərin şəffaflaşdırılması və beynəlxalq müqavilələrə uyğunlaşma prioritetlər sırasındadır. Nəticədə, gömrük-tarif tənzimlənməsi yalnız rüsumların tətbiqi deyil, dövlətin xarici ticarət strategiyasının və iqtisadi siyasətinin ayrılmaz hissəsinə çevrilmişdir. Azərbaycan 2025-ci il üçün həyata keçirilən tədbirlər ilə daha çevik, şəffaf və rəqabətə davamlı gömrük-tarif sisteminin yaradılmasına zəmin hazırlayır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2025.
2. Azərbaycan Respublikasının "Gömrük tarifi haqqında" Qanunu. Bakı, 2022.
3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. *Elektron Bir Pəncərə Sistemi üzrə Yol Xəritəsi*. Bakı, 2025.
4. Ümumdünya Ticarət Təşkilatı (WTO). *Dünya Gömrük Tarifləri Profil 2025*. Cenevrə, 2025.
5. Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı (UNCTAD). *Qlobal Ticarət və Tariflər Hesabatı 2025*. Nyu-York, 2025.
6. Ümumdünya Gömrük Təşkilatı (WCO). *İllik Hesabat 2025*. Brüssel, 2025.
7. APA.az. 2025. "Azərbaycanın vergi və gömrük güzəştləri 7,5 milyard manat səviyyəsinə çatdırılır".
8. Azernews.az. 2023. "Azad edilmiş ərazilərdə istehsal sahələri üçün idxal gömrük rüsumlarından azad olunma".
9. Trend.az. 2024. "Azərbaycanın gömrük nomenklaturasında dəyişikliklər".
10. Report.az. 2025. "Azərbaycanın gömrük-tarif siyasətində xüsusi təşəbbüslər".

Заур Таир оглы Гусейнов
магистрант,
Сархан Юнис оглы Абдулов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Механизм таможно-тарифного регулирования в современный период и пути его совершенствования

Резюме

В современный период таможно-тарифное регулирование является механизмом, имеющим стратегическое значение в экономической политике стран. Этот механизм, осуществляя контроль за импортно-экспортными операциями, способствует защите местного производства, управлению валютными резервами и обеспечению баланса международной торговли. В условиях глобализации таможно-тарифная политика должна быть более гибкой и динамичной. Среди направлений совершенствования особую роль играют внедрение электронных таможенных систем, повышение прозрачности тарифной политики, адаптация к международным стандартам и целевое применение налоговых льгот. Эти меры способствуют ускорению таможенных процедур, увеличению торгового оборота и повышению экономической конкурентоспособности.

Zaur Tahir Huseynov
master,
Sarkhan Yunis Abdulov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperative University

The mechanism of customs-tariff regulation in the modern era and ways to improve it

Summary

In the modern era, customs-tariff regulation is a mechanism of strategic importance in the economic policy of countries. This mechanism, by controlling import and export operations, serves to protect domestic production, manage foreign exchange reserves, and ensure the balance of international trade. Under the influence of globalization, customs-tariff policy must be more flexible and dynamic. Among the ways to improve it, the implementation of electronic customs systems, the transparency of tariff policy, alignment with international standards, and the targeted application of tax incentives play an important role. These measures accelerate customs procedures, increase trade turnover, and enhance economic competitiveness.

Elsevər Faiq oğlu ATAMALİYEV
müəllim,
atamaliyeff@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİYYATININ DAVAMLI VƏ İNKLÜZİV İNKİŞAF KONSEPSİYASI ƏSASINDA BƏRPA EDİLMƏSİ

Cənubi Qafqazda yerləşən müstəqil Azərbaycan siyasi, sosial-iqtisadi və mədəni inkişafında tarixi dönüş mərhələsini yaşayır. Məqsədli sosial-iqtisadi islahatların həyata keçirilməsi milli iqtisadiyyatın güclənməsinə və müasirləşməsinə öz töhfəsini verib. Son 18 il ərzində inkişaf edən iqtisadiyyatın hesabına Azərbaycanın ÜDM-i üç dəfədən çox artıb, güclü müasir sosial-iqtisadi infrastruktur yaradılıb, əhalinin artımı fonunda yoxsulluq və işsizlik əhəmiyyətli dərəcədə azalıb.

2020-ci ilin noyabrında Azərbaycan və Ermənistan arasında münaqişəyə son qoyulması regionda təhlükəsizliyin, sabitliyin, firavanlığın və qarşılıqlı faydalı əməkdaşlığın inkişafına güclü təkan verib, iqtisadi və ticarət əlaqələrini genişləndirib, yeni beynəlxalq və regional nəqliyyat və logistika dəhlizləri açıb [4].

Qeyd etmək lazımdır ki, işğalçı ermənilər Azərbaycanın qədim torpaqlarında istər müharibə, istər də müharibədən əvvəlki dövrlərdə ekoloji təbiətinə daim zərər vurmuşdur.

Qarabağ və Zəngəzurda ətraf mühitin deqradasiyası

1. Meşələrin qırılması və yaşayış yerlərinin məhv edilməsi

Təbii sərvətlərin amansız istismarı ekoloji tarazlığı da pozub. Apardığımız monitorinqlərin nəticələri bir daha təsdiq edir ki, meşələr, mühafizə olunan ərazilər, uzun illər mövcud olan təbiət abidələri məhv edilib, xammal talan edilib[1].

Meşələrin qırılması və yandırılması, suların çirklənməsi, flora və faunanın məhv edilməsi, təbii sərvətlərin talanması nəticəsində regionda ekoloji tarazlıq pozulub. Ətraf mühitin deqradasiyası o qədər nəzarətsiz olub ki, hətta Ermənistanda da ekoloji təşkilatlar arasında narahatlıq yaradıb.

1. Qanunsuz ağac kəsmə və hərbi və kənd təsərrüfatı məqsədləri üçün torpaqların təmizlənməsi səbəbindən geniş meşə qırılması baş verdi. Bu, biomüxtəlifliyin itirilməsinə, o cümlədən bir sıra bitki və heyvan növlərinin yox olmasına gətirib çıxardı.

2. Su ehtiyatlarının çirklənməsi

Əhəmiyyətli su mənbəyi olan Oxçuçay mədən işləri nəticəsində ciddi şəkildə çirklənmiş və su təchizatının çirklənməsinə səbəb olmuşdur. Suvarma üçün mühüm əhəmiyyət kəsb edən Sərsəng su anbarı düzgün idarə olunmama və çirklənmədən əziyyət çəkirdi ki, bu da kənd təsərrüfatının məhsuldarlığına təsir göstərirdi.

1. Qeyri-qanuni mədənçıxarma və ehtiyatların istismarı.

Ermənistan silahlı qüvvələri ekoloji qaydalara məhəl qoymadan qeyri-qanuni mədən əməliyyatları ilə məşğul olub, faydalı qazıntıları çıxarıb. Bu fəaliyyətlər torpağın deqradasiyasına və uzunmüddətli ekoloji ziyana səbəb olub.

2. Mühafizə olunan ərazilərin məhv edilməsi

Basut-Çay Dövlət Qoruğu kimi qorunan təbiət qoruqları beynəlxalq ekoloji müqavilələri pozaraq qeyri-dayanıqlı istismara məruz qaldı[2].

Qarabağ və Zəngəzurun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı meşələrin qırılması, çirklənməsi və qeyri-qanuni resursların istismarı da daxil olmaqla ekoloji vəziyyətin ciddi şəkildə pozulması ilə nəticələndi. Bu tədbirlər regionun ekosistemlərinə və biomüxtəlifliyinə davamlı təsir göstərmişdir. Bu ekoloji problemlərin həlli Cənubi Qafqazda davamlı inkişaf və sülh üçün çox vacibdir.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində dəymiş dağıntılar və dəyən ziyan haqqında məlumat 1-ci cədvəldə verilmişdir.

Azərbaycan ərazisinin Ermənistan ordusu tərəfindən işğalı zamanı Ermənistandan və dünyanın digər ölkələrindən qanunsuz olaraq 23 min erməni, o cümlədən: 8500 nəfər Dağlıq Qarabağa, 13000 nəfər Laçına, 700 nəfər Kəlbəcərə, 520 nəfər Zəngilana [3] köçürülmüşdür.

Cədvəl 1.


Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində dağıntılar

Qəsəbələr	900
Evlər	150 000
İctimai Obyektlər	7 000
Məktəblər	693
Uşaq bağçaları	855
Tibb müəssisələri	695
Kitabxanalar	927
Məbədlər	44
Məscidlər	9
Tarixi abidələr, saraylar, muzeylər	473
Muzey eksponatları	40 000
Sənaye və Kənd Təsərrüfatı Müəssisələri	6 000
Yollar	2 670 km
Körpülər	160
Su təhcizatı	2 300 km
Qaz kommunal	2 000 km
Elektrik xətləri	15 000 km
Meşələr	280 000 ha
Kənd təsərrüfatı torpaqları	1 000 000 ha
Suvarma sistemləri	1 200 km

Mənbə: Azərbaycan Respublikası Baş Prokurorluğu 15.03.2024

1990-cı illərdə erməni hərbçiləri vandalizm aktı çərçivəsində Şuşa şəhərində Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini dağıdıblar. Onlar hətta şairə Xurşudbanu Natəvanın, Azərbaycanda müasir professional musiqinin banisi və görkəmli bəstəkar Üzeyir Hacıbəylinin və tanınmış opera müğənnisi Bülbülün bürünc büstlərini güllələyib, əritmək üçün Ermənistana aparıblar. Lakin bir müddət sonra görülən tədbirlər nəticəsində bu büstlər geri alınıb.

Münaqişə ölkələri üzrə ixtisaslaşmış işçi qrup Ermənistanın Azərbaycan ərazisinin 20%-ni işğal etməsi nəticəsində dəymiş ziyanı təxminən 820 milyard dollar qiymətləndirib. Lakin bu, yekun rəqəm deyil, çünki fikrimizcə, zərər xeyli böyükdür. Mütəxəssislərin ilkin hesablamalarına əsasən, iqtisadi sektor üzrə bu zərəri aşağıdakı kimi xarakterizə etmək olar (Şəkil 1).



Şəkil 1. Ermənistanın Azərbaycan ərazisinin 20%-ni işğal etməsi nəticəsində dəymiş ziyan
https://cyberleninka.ru/article/n/vosstanovlenie-ekonomiki-karabaha-i-vostochnogo-zangezura-na-osnove-kotseptsiy-ustoychivogo-i-inklyuzivnogo-razvitiya

Şuşanın işğaldan azad edilməsindən sonra Azərbaycan dahilərinin büstləri təxminən 30 ildən sonra ilkin yerlərində yenidən quraşdırılıb. 30 il ərzində erməni işğalı altında olan ərazidəki 67 məsciddən 65-i yerlə-yeksan edilib. Qəbiristanlıqlar dağıdılıb, talan edilib, təhqir edilib, Azərbaycanın dini və tarixi abidələri dağıdılıb. Ermənilər Azərbaycanın işğal olunmuş ərazilərində ətraf mühitə qarşı ekosid və soyqırım törədiblər: 60 min hektar meşələr məhv edilib, qırılıb, oğurlanıb, torpaqlar və çaylar çirkləndirilib və zəhərlənib.

İşğaldan əvvəl Füzuli rayonunda 11, Cəbrayıl rayonunda 14, bəzilərinin yaşı 200, 500, təxminən 1400 il olan rəsmi qeydiyyatda olan iri çinar ağacı var idi. Bu nadir ağaclar təbiət abidəsi kimi qorunurdu. Ermənilər bu ağacları məhv edib kəsərək mebel, pəncərə, qapı kimi xaricə aparır, ən pis halda sadəcə olaraq satır və ya yandırırdılar.

Ətraf mühitin davamlılığı bərpanın əsas elementidir. Qarabağ və Şərqi Zəngəzur rayonları "sıfır emissiya zonaları" elan edilib ki, bu da bərpa olunan enerji mənbələrinin aktiv şəkildə həyata keçirilməsini nəzərdə tutur. Son 4 ildə 38 kiçik su-elektrik stansiyası istifadəyə verilmiş, atmosferə atılan karbon qazı 620 min ton azalmışdır. Bundan başqa, 12 şəhər və 90 kənd üçün təbii ehtiyatlardan səmərəli istifadəni təşviq edən və ətraf mühitə təsiri minimuma endirən baş planlar hazırlanır.

Əhəmiyyətli aspekt sosial inklüzivlikdir ki, bu da məcburi köçkünlərin qayıdışını, onların mənzillə təmin olunmasını və iş yerlərinin yaradılmasını əhatə edir. Ağdam şəhərinin bərpası, məsələn, dayanıqlı sosial infrastrukturun yaradılmasına töhfə verən yaşayış binalarının, məktəblərin, sənaye parkının tikintisini əhatə edir.

Regionun iqtisadi inkişafı şaxələndirmə və innovasiyaya əsaslanır. Kənd təsərrüfatı, turizm, bərpa olunan enerji, mineral emalı kimi sənaye sahələri inkişaf edir. İnfrastrukturun, o cümlədən yolların, körpülərin, kommunikasiyaların bərpasına xüsusi diqqət yetirilir ki, bu da logistikanı yaxşılaşdıracaq və investisiya cəlb edəcək.

Ardıcıl həyata keçirilən məqsədyönlü islahatlar və kompleks tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini gücləndirmiş, 44 günlük Vətən müharibəsində parlaq qələbənin əldə olunması üçün möhkəm zəmin yaratmışdır. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, daha da inkişaf etdirilməsi, zəruri infrastrukturun yaradılması və əhalinin öz doğma yurdlarına qaytarılması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir.

Yaxın gələcəkdə rayonda üzümçülük, heyvandarlıq, ipəkçilik, taxılçılıq, pambıqçılıq, bostançılıq, şəkər çuğunduru və digər bitkiçilik sahələri inkişaf edəcəkdir. Bu da öz növbəsində idxalı əvəz edən və ixrac edilə bilən məhsullar istehsal edən kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin inkişafına təkan verəcək. Bu proses artıq başlayıb. Minalardan və qabıqlı balıqlardan təmizlənmiş torpaqlarda insanlar buğda və şəkər çuğunduru əkir, otlaqlarda qoyunlar otarır, dərman bitkiləri və güllərlə zəngin dağlıq ərazilərdə arılar yetişdirilir, keyfiyyətli, ətirli bal verilir. İşğaldan azad edilmiş ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində tədbirlər davam etdirilir. Heydər Əliyev Fondunun proqramı çərçivəsində Regional İnkişaf İctimai Birliyinin könüllüləri Topkan meşəsində və Cıdır düzündə ağac əkərək 100 kiloqram palıd toxumu paylayıblar. Ağdam Sənaye Parkının ətrafında meşə zolağı salınıb və günəş damcılı suvarma sistemindən istifadə etməklə suvarılacaq. Bütün dəyər zənciri üzrə yüksək nəticələrə nail olmaq regionlar üzrə geniş innovativ infrastruktur şəbəkəsinin yaradılmasını tələb edir – aqroparklar, texnoparklar, sənaye parkları, birgə müəssisələr, klasterlər, azad iqtisadi zonalar və s.

Sənaye müəssisələrinin, elmi-tədqiqat və təhsil müəssisələrinin potensialından səmərəli istifadə etmək məqsədilə Xankəndi şəhərində yeni müasir elm və texnologiyalar parkının tikintisi təklif olunur.

Sonda qeyd edək ki, Qarabağda və Şərqi Zəngəzurda iqtisadiyyatın davamlı və inklüziv inkişaf prinsipləri əsasında yenilənməsi region üçün uzunmüddətli iqtisadi sabitliyin və rifahın təmin edilməsi istiqamətində mühüm addımdır. Ekoloji cəhətdən şüurlu böyüməyə, sosial inklüzivliyə və bərabər iqtisadi imkanlara diqqət yetirməklə, bu yanaşma davamlılığı təşviq etmək, bərabərsizlikləri azaltmaq və yerli icmaları gücləndirmək məqsədi daşıyır. O, regionun mədəni irsini qoruyarkən və beynəlxalq əməkdaşlığı təşviq etməklə yanaşı, infrastruktura, insan kapitalına və təbii ehtiyatlara strateji investisiyaların vacibliyini vurğulayır. Bu inkişaf modelinin uğurla həyata

keçirilməsi dayanıqlı inkişafın təkcə iqtisadi zərurət deyil, həm də sosial birliyə və sülhə aparan yol olduğunu nümayiş etdirərək, münaqişədən sonrakı digər regionlar üçün presedent yarada bilər. Qarabağın və Şərqi Zəngəzurun gələcəyi yeni nəsillər üçün həm ekoloji dayanıqlığı, həm də insanların rifahını prioritet hesab edən prinsipləri rəhbər tutaraq, xalqının və resurslarının potensialından istifadə etməkdən ibarətdir.

Aparılmış sistem təhlili əsasında hesab edirik ki, işğaldan azad edilmiş ərazilərdə yeni və müasir sahibkarlıq subyektlərinin yaradılması aşağıdakı təşkilati, texniki və sosial-iqtisadi üstünlüklərin əldə olunmasına kömək edəcək:

- Əmlakdan rasional istifadə;
- Məqsədli innovativ layihələrin birgə həyata keçirilməsi;
- İstehsal, enerji və nəqliyyat xərclərinin minimuma endirilməsi;
- İstehsal və logistika prosesində qənaətcillik prinsipinin tətbiqi;
- Maliyyə imkanlarının və ixrac potensialının genişləndirilməsi;
- İnnovativ idarəetmənin mütərəqqi üsullarının geniş tətbiqi;
- Vahid məkan və ərazi daxilində kənd təsərrüfatı texnologiyası, sanitariya və fitosanitar xidmətlərin kombinasiyasının həyata keçirilməsi.

ƏDƏBİYYAT

1. Aliyev, Ş. T. (2025). Strategic pathways for the economic revitalization of Karabakh and East Zangazur regions. International Journal of Environmental Sciences, 11(6), 2595–2604.
2. Guliyev, E. A. (2023). The role of Karabakh and East Zangezur economic regions in the sustainable development of Azerbaijan. Cooperative Publishing House.
3. Gurbanov, Ş. H. (2022). Transition to a new "green" economic model: Global challenges, opportunities, and prospects. Baku.
4. Maharramov, E. M. (2025). Strategic pathways for the economic revitalization of Karabakh and East Zangazur regions. International Journal of Environmental Sciences, 11(6), 2595–2604.

Эльсевер Фаиг оглы Атамалиев
преподаватель,
atamaliyeff@gmail.com,
Азербайджанский Университет Кооперации

Обновление экономики карабаха и восточного зангезура на основе концепции устойчивого и инклюзивного развития

Резюме

В данной статье рассматриваются экономические достижения Азербайджана, его место в международных оценках и завершение нагорно- карабахского конфликта между Азербайджаном и Арменией. В ней описываются масштабы, объёмы и структура ущерба и потерь, причинённых военной агрессией Армении против Азербайджана, приводятся данные о человеческих жертвах, ущербе культурному наследию, экологическом терроризме и впечатляющей победе Азербайджана в 44-дневной войне. Кроме того, в статье систематически описываются минеральные, энергетические и водные ресурсы Карабаха и Восточного Зангезура, а также его туристический потенциал. Особое внимание уделено работе, проделанной за год после победы, определены основные направления экономического развития этих регионов и даны рекомендации по устойчивому и инклюзивному экономическому развитию, а также представлены возможности для внедрения комплексной инновационной инфраструктуры и предпринимательства.

Elsever Faig Atamaliyev
lecturer,
atamaliyeff@gmail.com,
Azerbaijan Cooperation University

Renovation of the economy of Karabakh and Eastern Zangezur on the basis of the concept of sustainable and inclusıve development

Summary

This article focuses on the economic achievements of Azerbaijan, its place in international assessments, and the end of the Nagorno-Karabakh conflict between Azerbaijan and Armenia. It describes the scale, scope, and structure of the damage and losses caused by Armenia's military aggression against Azerbaijan, provides information on human casualties, damage to cultural heritage, environmental terrorism, and Azerbaijan's remarkable victory in the 44-day war. In addition, the article systematically describes the mineral, energy, and water resources of Karabakh and the eastern Zangezur region, as well as its tourism potential. Special attention is paid to the work done in the year since the victory, the main directions of economic development in these regions are identified and recommendations are given for sustainable and inclusive economic development, and opportunities for the implementation of comprehensive innovation infrastructure and entrepreneurship are provided.

II BÖLMƏ. MALİYYƏ SABİTLİYİNİN TƏMİN EDİLMƏSİ VƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ MƏSƏLƏLƏRİ

Seymur Vilayət oğlu MİRZƏYEV
magistrant,
Elşən Əli oğlu İBRAHİMOV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNƏ DÖVLƏT TƏRƏFİNDƏN MALİYYƏ DƏSTƏYİNİN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

Giriş

Kiçik və orta sahibkarlıq (KOS) subyektləri hər bir ölkənin iqtisadi sistemində mühüm rol oynayır. Onlar iqtisadiyyatın dayanıqlı inkişafının təminatçısı, məşğulluğun artırılmasının əsas mənbəyi və innovasiyaların daşıyıcısı kimi çıxış edirlər. Azərbaycan Respublikasında da KOS sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Bu məqsədlə dövlət tərəfindən müxtəlif maliyyə dəstək mexanizmləri, güzəştli kreditlər, qrantlar və subsidiyalar formalaşdırılmışdır. Dövlətin KOS-lara maliyyə dəstəyi həm iqtisadi sabitliyin qorunmasına, həm də sosial rifahın yüksəldilməsinə xidmət edir.

Bu dəstəyin düzgün və səmərəli təşkil olunması isə iqtisadi inkişafın keyfiyyətinə birbaşa təsir göstərir.

Kiçik və orta sahibkarlıq subyektləri iqtisadi sistemin çevik və adaptiv hissəsidir. Onlar bazar münasibətlərinin dərinləşməsinə, yeni iş yerlərinin yaradılmasına və regionlar üzrə iqtisadi balansın təmin olunmasına xidmət edirlər. Azərbaycan Respublikasında KOS-ların iqtisadiyyatda xüsusi çəkisi getdikcə artır.

Məsələn:

- Ölkədə fəaliyyət göstərən müəssisələrin təxminən 99.6%-i mikro, kiçik və orta sahibkarlıq subyektləridir.
- Bu subyektlərin içində mikro müəssisələrin payı təxminən 97%, kiçiklərin payı 2,1%, orta sahibkarlıq subyektlərinin payı isə 0.8%-dir.

Belə ki, Statistika Komitəsinin məlumatlarına əsasən 2023-cü ildə fəaliyyətdə olan 401149 sahibkarlıq subyektindən 389133-ü mikro sahibkarlıq subyekti, 8610-u kiçik sahibkarlıq subyekti və 3406-sı orta sahibkarlıq subyekti olmuşdur.

- 2023-cü ildə KOS subyektlərinin dövriyyəsi təxminən 43.8 milyard manat olmuşdur ki, bu, 2022-ci ilə nisbətən 13% artım deməkdir.
- KOS-ların qeyri-neft sektorunda əlavə dəyərə payı 2018-2021 dövründə 23.5%-dən 27.2%-ə yüksəlib.

Dövlət tərəfindən kiçik və orta sahibkarlığa maliyyə dəstəyi bir neçə əsas istiqamətdə həyata keçirilir:

1. Güzəştli kreditlər və subsidiyalar. KOS-ların inkişafı üçün dövlət tərəfindən verilən güzəştli kreditlər maliyyə resurslarına çıxış imkanlarını artırır. Bu istiqamətdə əsas rol Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Sahibkarlığın İnkişafı Fonduna məxsusdur.

2025-ci ilin ilk rübündə orta səviyyəli sahibkarlara verilən kredit portfeli 1.97 milyard manat olub ki, bu da əvvəlki illə müqayisədə 14.8% artım deməkdir.

2. Qrant və investisiya təşviqi mexanizmləri. İnnovativ ideyaların və yeni texnologiyaların tətbiqi üçün dövlət tərəfindən qrantlar ayrılır. Bu, xüsusilə startap layihələr və ixracyönümlü fəaliyyətlər üçün vacibdir. 2024-cü ildə KOS-ların inkişaf mərkəzləri tərəfindən 10 000-dən çox fərd təlim, konsultasiya və mentorluq xidmətləri alıb.

3. Zəmanət və sığorta mexanizmləri.Kredit resurslarına çıxışda çətinlik çəkən KOS-lara dövlət tərəfindən zəmanət və sığorta mexanizmləri dəstəyi göstərilir. Bu, sahibkarların kommersiya bankları ilə əməkdaşlığını asanlaşdırır və riskləri azaldır.

4. Vergi güzəştləri və inzibati dəstək. Son illərdə tətbiq edilən sadələşdirilmiş vergi sistemi KOS-ların fəaliyyətinə müsbət təsir göstərib. Eyni zamanda, "Bir pəncərə" prinsipi əsasında qeydiyyat və icazə prosedurlarının sadələşdirilməsi inzibati yükü azaldıb.

Dövlətin maliyyə dəstəyinin formalaşması prosesi makroiqtisadi prioritetlərə və büdcə imkanlarına uyğun şəkildə həyata keçirilir. Burada əsas məqsəd KOS sektorunun inkişafına yönəlmiş maliyyə resurslarının effektiv bölgüsünü təmin etməkdir. Lakin bəzi hallarda sahibkarlar bu imkanlardan tam istifadə edə bilmirlər. Əsas səbəblər aşağıdakılardır:

- ❖ İnformasiya çatışmazlığı;
- ❖ Bank tələblərinin sərtliyi və kredit riskinin yüksək qiymətləndirilməsi;
- ❖ Layihələrin zəif əsaslandırılması və biznes planlaşdırmanın yetərsizliyi.

Maliyyə dəstəyinin səmərəliliyinin artırılması üçün aşağıdakı tədbirlər məqsədəuyğundur:

- ❖ Kreditlərin verilməsində şəffaflığın təmin olunması;
- ❖ Sahibkarların maliyyə savadlılığının artırılması;
- ❖ Qrant və subsidiya mexanizmlərinin rəqəmsallaşdırılması;
- ❖ Regionlarda KOS-lar üçün inkubasiya və təlim mərkəzlərinin genişləndirilməsi.

Nəticə

Kiçik və orta sahibkarlıq subyektlərinə dövlətin maliyyə dəstəyi iqtisadi sistemin dayanıqlılığının və sosial rifahın artırılmasının əsas amillərindəndir. Azərbaycan Respublikasında son illərdə bu istiqamətdə əhəmiyyətli islahatlar həyata keçirilmiş, KOS-ların maliyyə təminatı genişləndirilmişdir. Statistik göstəricilər (məsələn, KOS-ların dövriyyəsinin artımı, onların payının yüksəlməsi) bu nəticəni təsdiqləyir. Bununla belə, regionlarda bərabər maliyyə çıxış imkanlarının yaradılması və mövcud mexanizmlərin təkmilləşdirilməsi prioritet məsələ olaraq qalır.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2024.
2. “Kiçik və Orta Biznesin İnkişafı Agentliyi haqqında” Əsasnamə, Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2018.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – “KOS sektorunun inkişaf strategiyası (2021–2027)” sənədi.
4. Sahibkarlığın İnkişafı Fondu. “2023-cü il üzrə illik hesabat”. Bakı, 2024.
5. Əliyev, İ. “Azərbaycan iqtisadiyyatında KOS-ların rolu və dövlət dəstəyinin səmərəliliyi”. İqtisadi Araşdırmalar Jurnalı, №2, 2023.
6. OECD (2023). SME Policy Index: Eastern Partner Countries 2024 – Progress in the Implementation of the Small Business Act for Europe.
7. EBRD (2025). Micro, small and medium-sized businesses in Azerbaijan: untapped potential.
8. AzerNews (2024). Azerbaijan enhances SMEs’ role in transitioning to green economy.
9. Trend (2025). Azerbaijan’s medium-sized enterprises benefit from credit surge in 1Q 2025.

Сеймур Вилаят оглы Мирзоев
магистрант,
Эльшан Али оглы Ибрагимов
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Направления формирования государственной финансовой поддержки субъектов малого и среднего предпринимательства

Резюме

В статье показана важная роль малых и средних предприятий (МСП) в экономической системе, их значение в углублении рыночных отношений, создании новых рабочих мест и обеспечении экономической сбалансированности в регионах. Анализируются механизмы государственной финансовой поддержки субъектов МСП, вопросы формирования финансовой поддержки и эффективности.

Seymur Vilayat Mirzoyev
master,
Elshan Ali Ibrahimov
doctor of economic sciences, professor,
Azerbaijan Cooperation University

Directions for forming state financial support for small and medium-sized entrepreneurs

Summary

This article demonstrates the important role of small and medium-sized enterprises (SMEs) in the economic system, their significance in deepening market relations, creating new jobs, and ensuring economic balance in the regions. It analyzes the mechanisms of state financial support for SMEs, issues of financial support formation, and their effectiveness.

Şəbnəm Elşən qızı ŞİRİNOVA
magistrant,
Möhübbət Musa oğlu HÜSEYNOV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANIN BEYNƏLXALQ MALİYYƏ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIĞININ İNKİŞAFI

Müasir dövrdə ölkə iqtisadiyyatının inkişafında beynəlxalq təşkilatlarla olan beynəlxalq iqtisadi münasibətlər mühüm rol oynayır. Beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq demək olar ki, bütün ölkələrin iqtisadi siyasətinin əsas prinsiplərindən birinə çevrilmişdir. Çoxsaylı beynəlxalq təşkilatlarla əməkdaşlıq edən Azərbaycan da beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq edir, bu əməkdaşlığın daha da genişləndirilməsi, inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın beynəlxalq maliyyə institutları ilə əməkdaşlığı əsasən Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu qurumlarla həyata keçirilir. Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda təhsil, səhiyyə, kənd təsərrüfatı və infrastruktur sahələrində onlarla iri layihə icra olunmuşdur. Eyni zamanda, enerji təhlükəsizliyi və nəqliyyat infrastrukturunun inkişafı məqsədilə də Dünya Bankı mühüm dəstək göstərmişdir. "Cənub Qaz Dəhlizi" layihəsində Dünya Bankı tərəfindən verilən kreditlər və zəmanətlər Azərbaycanın enerji sahəsində beynəlxalq bazarlara inteqrasiyasını daha da gücləndirmişdir.

Beynəlxalq Valyuta Fondu isə əsasən makroiqtisadi sabitliyin təmin olunması və maliyyə sisteminin təkmilləşdirilməsi istiqamətində texniki yardım və məsləhət xidməti göstərmişdir. 1990-cı illərin ortalarında Azərbaycanda həyata keçirilən iqtisadi sabitləşdirmə proqramlarında BVF-nin rolunu xüsusi qeyd etmək lazımdır. Bu proqramlar nəticəsində inflyasiya nəzarət altına alınmış, dövlət büdcəsinin kəsiri azalmış və iqtisadi artım üçün əlverişli mühit yaranmışdır.

Asiya İnkişaf Bankı ilə əməkdaşlıq daha çox nəqliyyat, kommunal xidmətlər, kənd təsərrüfatı və enerji sektorlarında cəmləşmişdir. Bankın dəstəyi ilə ölkədə dəmir yolları modernləşdirilmiş, su təchizatı və kanalizasiya sistemləri yenilənmiş, bərpa olunan enerji layihələri reallaşdırılmışdır. Bu layihələr, həmçinin, regionların inkişafı və dayanıqlı iqtisadi strukturun qurulmasına töhfə vermişdir.

Avropa Yenidənqurma və İnkişaf Bankı isə Azərbaycanda özəl sektorun gücləndirilməsinə yönəlik kreditlər, texniki dəstək və məsləhət xidmətləri təqdim edir. AYİB-in maliyyə dəstəyi ilə kiçik və orta biznesin inkişafına şərait yaradılmış, sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində bir sıra təşəbbüslər həyata keçirilmişdir.

Azərbaycanın beynəlxalq maliyyə institutları ilə əməkdaşlığı yalnız maliyyə yardımı ilə məhdudlaşmır, həm də institusional potensialın gücləndirilməsi, şəffaflıq və hesabatlılıq prinsiplərinin təşviqi, eləcə də iqtisadi idarəetmədə müasir yanaşmaların tətbiqi baxımından əhəmiyyətlidir. Bu qurumların verdiyi texniki dəstək və ekspert tövsiyələri ölkənin iqtisadi idarəetmə sisteminin təkmilləşdirilməsində mühüm rol oynayır.

Azərbaycan Respublikasının beynəlxalq maliyyə institutları ilə əməkdaşlığı ölkənin iqtisadi inkişaf strategiyasının ayrılmaz hissəsinə çevrilmişdir. Bu əməkdaşlıq həm daxili islahatların reallaşdırılmasında, həm də qlobal iqtisadi çağırışlara çevik adaptasiyada mühüm rol oynayır. Beynəlxalq maliyyə institutları ilə tərəfdaşlıq sayəsində ölkə iqtisadiyyatının müxtəlif sektorlarında mühüm nailiyyətlər əldə olunmuş, sosial rifahın yüksəldilməsi və infrastrukturun müasirləşdirilməsi istiqamətində ciddi irəliləyişlər qeydə alınmışdır.

Gələcəkdə bu əməkdaşlığın daha da dərinləşdirilməsi, xüsusilə innovasiya, rəqəmsal iqtisadiyyat, yaşıl enerji və iqlim dəyişikliklərinə qarşı mübarizə kimi yeni sahələr üzrə genişləndirilməsi prioritetlər sırasında yer almalıdır. Bu həm də Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsinə və dayanıqlı iqtisadi inkişafının təmin olunmasına töhfə verəcəkdir.

ƏDƏBİYYAT

1. Ш.Г.Гаджиев. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев.Экспресс – Обява, 2000.
2. S.Səfərov. Heydər Əliyev kursu yeni keyfiyyət halında: İqtisadiyyat, siyasət, dinamizm, problemlər, perspektivlər. Bakı, Azərnəşr, 2005.
3. Ə.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005.
4. https://www.economy.gov.az/az/page/beynelxalq-elaqeler/maliyye-institutlari-ile-emekdasliq

Шабнам Эльшан кызы Ширинова
магистрант,
Мохуббат Муса оглы Гусейнов
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Развитие сотрудничества Азербайджана с международными финансовыми институтами

Резюме

Международные финансовые институты играют важную роль в экономическом развитии Азербайджана. Эти институты выступают ключевыми партнёрами в финансировании социально-экономических проектов, развитии инфраструктуры и проведении экономических реформ в стране. Сотрудничество Азербайджана с Всемирным банком, Международным валютным фондом (МВФ), Азиатским банком развития и другими региональными и глобальными финансовыми организациями направлено на привлечение инвестиций, обеспечение экономической стабильности и поддержку структурных реформ.

Shabnam Elshan Shirinova
master,
Mohubbat Musa Huseynov
doctor of economics, professor,
Azerbaijan Cooperation University

The development of Azerbaıjan's cooperatıon with international financial institutions

Summary

International financial institutions play a significant role in Azerbaijan's economic development. These institutions act as key partners in financing socio-economic projects, developing infrastructure, and supporting the implementation of economic reforms. Azerbaijan's cooperation with the World Bank, the International Monetary Fund (IMF), the Asian Development Bank, and other regional and global financial organizations is aimed at attracting investments, ensuring economic stability, and promoting structural reforms.

Nuray Ağakərim qızı HƏSƏNLİ
magistrant,
Elnurə Bünyat qızı MƏMMƏDOVA
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

VERGİ SİYASƏTİ VƏ ÖLKƏDƏ İNVESTİSİYA AXINLARININ FORMALAŞMASI

Vergi siyasəti bir ölkənin iqtisadiyyatının formalaşmasında və inkişafında əsas rolu oynayan amillərdən biridir. Dövlətin maliyyə resurslarını təmin etməsi, sosial proqramları həyata keçirməsi və iqtisadi sabitliyi qoruması vergilərin düzgün tənzimlənməsindən asılıdır. Eyni zamanda, vergi siyasəti yalnız dövlət büdcəsinin təminatı üçün deyil, həm də investisiya mühitinin formalaşması və xarici, həmçinin daxili investisiyaların cəlb edilməsi üçün mühüm alət kimi çıxış edir. Vergi rejimi investorlara həm stimullaşdırıcı, həm də məhdudlaşdırıcı təsir göstərə bilər. Məsələn, aşağı vergi dərəcələri, müxtəlif güzəştlər və investisiya təşviq proqramları xarici investorları cəlb etməyə kömək edərkən, yüksək vergi yükü və mürəkkəb vergi prosedurları investisiyaların azalmasına səbəb ola bilər. Bu baxımdan, hər bir dövlət öz iqtisadi məqsədlərinə uyğun olaraq vergi siyasətini strateji şəkildə qurmalıdır [4].

Vergi siyasətinin investisiya axınlarına təsiri birbaşa və dolayı yollarla özünü göstərir. Birbaşa təsir, investisiya qoyuluşlarının maliyyə yükünü dəyişdirən vergi dərəcələri ilə əlaqədardır. Məsələn, gəlir və mənfəət vergisinin aşağı olması şirkətlərin daha çox sərmayə qoymasına stimul yaradır. Dolayı təsir isə iqtisadi sabitlik, bürokratiya səviyyəsi, şəffaflıq və vergi sisteminin proqnozlaşdırıla bilməsi ilə bağlıdır. İnvestorlar yalnız maliyyə xərclərini nəzərə almır, həm də investisiyanın təhlükəsizliyini, gələcəkdə qanunvericilikdə dəyişiklik riskini və iqtisadi mühitin dayanıqlılığını qiymətləndirirlər. Buna görə də, vergi siyasəti uzunmüddətli investisiya strategiyasının tərkib hissəsi kimi nəzərdən keçirilməlidir.

Ölkədə investisiya axınlarının formalaşmasında vergi siyasəti ilə yanaşı, institusional mühit də vacib rol oynayır. Effektiv və şəffaf vergi idarəçiliyi, sadələşdirilmiş vergi prosedurları və vergi güzəştləri investorlarda ölkəyə etibar hissi yaradır və investisiya qərarlarını sürətləndirir. Məsələn, müəyyən sahələrdə – texnologiya, sənaye və ya kənd təsərrüfatı sektorunda – tətbiq olunan xüsusi vergi təşviqləri həm daxili, həm də xarici investorların diqqətini çəkir. Belə təşviqlər ölkənin iqtisadi diversifikasiyasına və yeni iş yerlərinin yaradılmasına şərait yaradır [1].

Vergi siyasətinin investisiya mühitinə təsirini qiymətləndirərkən həmçinin beynəlxalq təcrübəni nəzərə almaq lazımdır. Dünya ölkələrinin çoxu investorları cəlb etmək üçün aşağı korporativ vergilər, amortizasiya güzəştləri, xüsusi iqtisadi zonalarda vergi azadolmaları və digər

təşviqlər tətbiq edir. Bu strategiyalar iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq və kapital axınını stimullaşdırmaq üçün istifadə olunur. Eyni zamanda, vergi siyasətində balansın qorunması vacibdir; çünki vergilərin çox aşağı olması dövlət büdcəsinin gəlirlərini azalda və sosial proqramların maliyyələşdirilməsini çətinləşdirə bilər.

Nəticə etibarilə, vergi siyasəti ölkədə investisiya axınlarının formalaşmasında həm stimullaşdırıcı, həm də tənzimləyici amil kimi çıxış edir. Effektiv vergi siyasəti iqtisadi artım üçün əlavə resurslar təmin edir, investorlar üçün şəffaf və proqnozlaşdırıla bilən mühit yaradır, həm daxili, həm də xarici sərmayələri cəlb edir. Bu baxımdan, ölkələr uzunmüddətli iqtisadi inkişaf strategiyalarını müəyyən edərkən vergi siyasətini təkcə maliyyə aləti kimi deyil, investisiya və innovasiya mühitinin formalaşdırılması üçün strateji vasitə kimi nəzərdən keçirməlidirlər [6].

Vergi siyasəti bir ölkənin iqtisadi inkişafında və investisiya mühitinin formalaşmasında mühüm rol oynayan əsas amillərdən biridir. Dövlətin maliyyə resurslarını təmin etməsi, sosial proqramları həyata keçirməsi və iqtisadi sabitliyi qoruması vergilərin düzgün tənzimlənməsindən asılıdır. Eyni zamanda, vergi siyasəti yalnız büdcə gəlirlərini təmin etmək məqsədi daşımır, həm də investisiya mühitinin inkişafı və xarici, həmçinin daxili investisiyaların cəlb olunması üçün əhəmiyyətli alət kimi çıxış edir. Vergi rejimi investorlar üçün həm stimullaşdırıcı, həm də məhdudlaşdırıcı təsir göstərə bilər: aşağı vergi dərəcələri və güzəştlər investisiyaları təşviq edir, yüksək vergi yükü isə əksinə, onları azalda bilər. Bu səbəbdən dövlətlər vergi siyasətini strateji və uzunmüddətli iqtisadi hədəflərə uyğun şəkildə formalaşdırmalıdır.

Vergi siyasətinin investisiya axınlarına təsiri birbaşa və dolayı yolla özünü göstərir. Birbaşa təsir vergi dərəcələrinin maliyyə yükünü necə dəyişdirməsi ilə bağlıdır; məsələn, aşağı gəlir və mənfəət vergisi şirkətlərin sərmayə qoyuluşunu stimullaşdırır. Dolayı təsir isə iqtisadi sabitlik, vergi prosedurlarının sadəliyi və şəffaflığı, qanunvericilikdə proqnozlaşdırılabilənlik ilə əlaqəlidir. İnvestorlar yalnız xərcləri nəzərə almır, həm də investisiyanın təhlükəsizliyini, qanunvericilikdə gözlənilməz dəyişiklik riskini və iqtisadi mühitin dayanıqlılığını qiymətləndirirlər. Buna görə vergi siyasəti uzunmüddətli investisiya strategiyasının ayrılmaz hissəsi olmalıdır.

Ölkədə investisiya axınlarının formalaşmasında vergi siyasəti ilə yanaşı institusional mühit də böyük əhəmiyyət daşıyır. Effektiv və şəffaf vergi idarəçiliyi, sadələşdirilmiş prosedurlar və xüsusi investisiya təşviqləri investorların etibarını artırır və sərmayə qoyuluşlarını sürətləndirir. Məsələn, texnologiya, sənaye və kənd təsərrüfatı sektorunda tətbiq olunan xüsusi vergi güzəştləri daxili və xarici investorları cəlb edir, iqtisadi diversifikasiyanı və yeni iş yerlərinin yaradılmasını təşviq edir [5].

Beynəlxalq təcrübə göstərir ki, uğurlu vergi siyasəti ilə investisiya axınlarını artıran ölkələr aşağı korporativ vergilər, xüsusi iqtisadi zonalarda vergi azadolmaları, amortizasiya güzəştləri və digər təşviqlər tətbiq edirlər. Bununla belə, balansın qorunması vacibdir; çünki verginin çox aşağı olması dövlət büdcəsinin gəlirlərini azaldaraq sosial proqramların maliyyələşməsinə mənfi təsir göstərə bilər.

Nəticə etibarilə, vergi siyasəti ölkədə investisiya axınlarının formalaşmasında həm stimullaşdırıcı, həm də tənzimləyici rol oynayır. Effektiv vergi sistemi iqtisadi artım üçün əlavə resurslar təmin edir, investorlar üçün proqnozlaşdırıla bilən və şəffaf mühit yaradır, daxili və xarici sərmayələri cəlb edir. Vergi siyasətinin düzgün tənzimlənməsi uzunmüddətli iqtisadi inkişaf strategiyasının vacib komponentidir.

Təkliflər isə aşağıdakı kimi səciyyələndirilə bilər:

1. Vergi dərəcələrinin investorlar üçün əlverişli şəkildə müəyyən edilməsi, xüsusilə korporativ gəlir və mənfəət vergilərinin optimallaşdırılması.
2. Vergi güzəştlərinin və təşviqlərinin strateji sektorlar üzrə tətbiqi, innovasiya və sənaye inkişafını stimullaşdırmaq məqsədilə.
3. Qanunvericilikdə proqnozlaşdırıla bilən və dayanıqlı mühitin yaradılması, investorların uzunmüddətli sərmayə qərarlarını dəstəkləmək üçün.
4. Beynəlxalq təcrübənin öyrənilməsi və ölkə iqtisadiyyatına uyğunlaşdırılmış investisiya təşviqlərinin tətbiqi.

Bu yanaşmalar vergi siyasətinin həm dövlət gəlirlərini təmin etməsinə, həm də investisiya

mühitinin möhkəmlənməsinə xidmət edəcək və ölkənin iqtisadi inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

ƏDƏBİYYAT

1. Bağırov D.A. Vergi auditi. Bakı, 2011, 428 s.
2. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. Vergilər və vergitutma. Dərslik. Bakı 2010
3. Musayev A.F., Qəhrəmanov A.Q. Vergi mədəniyyəti. İkinci nəşr.Bakı, 2010
4. Musayev A.F., Məmmədov Ə.C. "Ünvanlı vergi xidməti" Vergi ödəyicilərinin məlumat kitabı. Bakı, 2013.
5. Musayev A.F. Kəlbiyev Y.A. Hüseynov A.A. Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr. Bakı, 2002
6. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Bakı, "Elm", 2005, 468 səh.
7. Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q. Xarici ölkələrin vergi sistemi. Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. 2017, 554 səh

Нурай Агакерим Гасанли
магистрант,
Эльнура Бунят кызы Мамедова
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Налоговая политика и формирование инвестиционных потоков в стране

Резюме

Налоговая политика является одним из ключевых факторов, влияющих на формирование и развитие экономики страны. Обеспечение государственных финансовых ресурсов, реализация социальных программ и поддержание экономической стабильности зависят от правильного регулирования налогов. В то же время налоговая политика служит не только для обеспечения государственного бюджета, но и является важным инструментом формирования инвестиционной среды и привлечения как внешних, так и внутренних инвестиций. Налоговый режим может оказывать на инвесторов как стимулирующее, так и ограничивающее воздействие. Например, низкие налоговые ставки, различные льготы и программы поощрения инвестиций помогают привлекать иностранных инвесторов, тогда как высокая налоговая нагрузка и сложные налоговые процедуры могут приводить к сокращению инвестиций. В этом контексте каждое государство должно стратегически выстраивать налоговую политику в соответствии со своими экономическими целями.

Nuray Agakerim Hasanli
master,
Elnura Bunyat Mammadova
doctor of economic sciences, professor,
Azerbaijan University Cooperation

Tax policy and the formation of investment flows in the country

Summary

Tax policy is one of the key factors influencing the formation and development of a country's economy. The provision of state financial resources, the implementation of social programs, and the maintenance of economic stability depend on the proper regulation of taxes. At the same time,

tax policy serves not only to ensure the state budget but also acts as an important instrument for shaping the investment environment and attracting both foreign and domestic investments. The tax regime can have both stimulating and restrictive effects on investors. For instance, low tax rates, various exemptions, and investment incentive programs help attract foreign investors, whereas a high tax burden and complex tax procedures may lead to a decrease in investments. In this context, each state should strategically design its tax policy in accordance with its economic goals.

Çingiz Mürşüd oğlu ƏLİYEV
magistrant, Azərbaycan Kooperasiya Universiteti
Əmiraslan Məhəmməd oğlu NƏBİYEV
fizika üzrə fəlsəfə doktoru, dosent,

AZƏRBAYCANDA MÜHƏNDİSLİK SİSTEMİNİN FORMALAŞMASININ MƏRHƏLƏLƏRİ VƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİNİN İSTİQAMƏTLƏRİ

Mühəndislik sisteminin formalaşdırılması dayanıqlı iqtisadi inkişafın əldə olunmasını hədəfləyən müasir iqtisadi siyasətin əsas istiqamətlərindən biridir. Bu yanaşma iqtisadiyyatın müxtəlif sahələri arasında tarazlığın təmin edilməsinə, xarici və daxili resurslardan səmərəli istifadəyə, eləcə də beynəlxalq inteqrasiyanın sürətləndirilməsinə və risklərin səmərəli idarəedilməsinə yönəldilmişdir. Belə bir modelin tətbiqi yalnız iqtisadi artımı deyil, həm də sosial rifahın yüksəldilməsi və ekoloji davamlılığın təmin olunması ilə nəticələnə bilər. Optimal mühəndislik sisteminə malik model ölkənin daxili potensialını xarici imkanlarla uzlaşdıraraq, iqtisadi sabitlik və inkişaf üçün möhkəm təməl yaradır. Bu modelə uyğun olaraq, iqtisadi risklərin idarə edilməsində dövlət siyasəti əsasında resurslar iqtisadiyyatın sənaye, kənd təsərrüfatı, xidmət və texnologiya kimi əsas sahələri arasında balanslı şəkildə bölüşdürülməli, hər sektorun spesifik imkan və ehtiyacları nəzərə alınmalıdır. Azərbaycanda mühəndislik sisteminin formalaşması mərhələləri üzrə iqtisadiyyatın müxtəlif risklərə qarşı davamlılığını artırır.

Beynəlxalq ticarət, sərmayə axını, texnologiya mübadiləsi və iqtisadi əməkdaşlıq optimal strukturun vacib komponentləri kimi çıxış edirlər. Bu əlaqələr yalnız xarici resursların daxil olması üçün vasitə deyil, həm də ölkənin istehsal potensialının artırılması və qlobal bazarlarda mövqeyinin gücləndirilməsi baxımından əhəmiyyətlidir. Xarici ticarət mübadiləsinin inkişafı ölkənin rəqabət qabiliyyətini artırmaqla yanaşı, texnologiya transferini və yeni istehsal sahələrinin yaradılmasını da stimullaşdıra bilər. Xarici investisiyaların və kapital axınının təşviqində mühəndislik fəaliyyətinin və iqtisadi risklərin idarəedilməsinin iqtisadi inkişafda rolu danılmazdır. Optimal model çərçivəsində bu sərmayələrin düzgün istiqamətləndirilməsi və məqsədli sahələrə yönəldilməsi əsas strateji hədəflərdən biri olmalıdır. Mühəndislik sistemində yeni texnologiyaların tətbiqi, istehsal infrastrukturunun modernləşdirilməsi və məşğulluğun artırılması baxımından əhəmiyyət daşıyır. Lakin bu investisiyaların səmərəliliyi yalnız onların məqsədəuyğun və şəffaf şəkildə idarə olunması ilə mümkündür.

Dayanıqlı iqtisadi inkişaf və sosial məsuliyyət mühəndislik sisteminin əsas məqsədlərindən biridir. İqtisadi artımın yalnız qısamüddətli deyil, uzunmüddətli və davamlı xarakter daşıması təmin edilməlidir. Bu isə sosial, maliyyə və ekoloji sahələrdə tarazlığın qorunması ilə birbaşa bağlıdır. Dayanıqlı iqtisadi inkişaf üçün ekoloji davamlılıq, sosial ədalət və resursların gələcək nəsillərə çatacaq şəkildə idarə olunması əsas götürülməlidir. İqtisadi modelin uğuru həm daxili, həm də beynəlxalq bazarlarda rəqabətə davam gətirə biləcək istehsal və xidmət sahələrinin inkişafına bağlıdır. Bu baxımdan, innovasiya və texnoloji modernləşməyə əsaslanan mühəndislik sisteminin təşviqi, bilik əsaslı iqtisadiyyata keçid, eləcə də startap və KOB-ların dəstəklənməsi xüsusi əhəmiyyət daşıyır. Texnoloji inkişaf və bilik transferi rəqabət üstünlüyünün əsas mənbələri kimi çıxış edir. Optimal iqtisadi model təkcə iqtisadi siyasət deyil, həm də xarici siyasət və strateji planlaşdırma ilə birgə reallaşdırılmalıdır. Xarici iqtisadi əlaqələrin gücləndirilməsi

eyni zamanda beynəlxalq siyasi münasibətlərin möhkəmləndirilməsinə də töhfə verir. Bu isə ölkənin qlobal miqyasda iqtisadi nüfuzunun artmasına və regional əməkdaşlıqda daha fəal iştirakına şərait yaradır.

Müasir dövrdə risklərin idarə edilməsinə cavab vermək üçün müxtəlif iqtisadi mühəndislik sistemləri formalaşmışdır. Bu sistemlərə aid olan iqtisadi inkişaf modellərini vurğulayaq-Amerikan (Liberal) Modeli haqqında məlumat vermək zərurəti yaranır. Bu yanaşma bazar mexanizminə maksimum azadlıq verir. Dövlətin iqtisadiyyata müdaxiləsi məhduddur və əsasən bazar uğursuzluqları zamanı tətbiq edilir. Sahibkarlıq və özəl investisiyalar əsas hərəkətverici qüvvələrdir. Sosial Bazar iqtisadiyyatı modeli: Bazar iqtisadiyyatı ilə sosial rifah prinsipləri arasında tarazlığı qorumağa çalışır. Geniş sosial təminat və aktiv məşğulluq siyasəti ilə cəmiyyətin ehtiyacları qarşılanır. Yeni Sənayeləşən Ölkələrin Modeli: Bu model sənayeləşmə və texnologiyaya əsaslanan ixrac yönümlü iqtisadiyyat strategiyası tətbiq edir. Sürətli inkişaf üçün təhsil və texnoloji potensiala böyük önəm verilir. Davamlı inkişaf modeli: Ekoloji davamlılıq və resursların gələcək nəsillər üçün qorunması əsas məqsədlərdəndir. 1992-ci ildə Rio de Janeyro BMT konfransında bu modelin qlobal əhəmiyyəti tanınıb. İnklüziv inkişaf modeli: Sosial bərabərliyin təmin olunması və əhalinin bütün təbəqələrinin iqtisadi artımdan faydalanması bu modelin əsas istiqamətidir.

Müasir mühəndislik sisteminin formalaşması qlobal dəyişikliklər və çağırışlar əsasında təkamül edir. Texnologiyanın sürətli inkişafı, informasiya-kommunikasiya texnologiyalarının yayılması və urbanizasiyanın sürətləndirilməsi mövcud mühəndislik modellərinin yenidən formalaşdırılmasını zəruri edir. Optimal iqtisadi modelin formalaşdırılması, ölkənin uzunmüddətli inkişaf strategiyasının əsasını təşkil edir. Xarici iqtisadi əlaqələrin düzgün idarə olunması, daxili potensialın səmərəli istifadəsi və beynəlxalq təcrübənin nəzərə alınması bu modelin uğurla həyata keçirilməsini təmin edir. Bu yanaşma yalnız iqtisadi artımı deyil, həm də sosial rifahın və ətraf mühitin qorunmasının inteqrasiyasını əsas götürür. İqtisadi fəailiyyətin sahələri və xarakteristikası, iqtisadiyyatın diversifikasiyası və onun formalaşmasını təmin edən struktur siyasətinin əhəmiyyətini, həmçinin optimal iqtisadi inkişaf modellərinin nəzəri aspektlərinə toxunduqdan sonra Azərbaycan iqtisadiyyatının hazırki mövcud vəziyyətini, iqtisadi inkişafını müxtəlif dövrlərlə müqayisə edə bilərik. Dövlətin struktur siyasəti, yaxud struktur islahatları siyasəti, iqtisadiyyatın mövcud quruluşunda əsaslı dəyişikliklərə yönələn və onu daha dayanıqlı, effektiv və rəqabətədavamlı hala gətirmək məqsədi daşıyan kompleks tədbirlər toplusudur. Bu siyasətin əsas məqsədi iqtisadiyyatın müxtəlif sahələrinin balanslı inkişafını təmin etmək, resursların optimal bölgüsünü təşkil etmək və uzunmüddətli iqtisadi artımı dəstəkləməkdir. Əksər hallarda iqtisadi çətinliklər təkcə qısamüddətli dalğalanmalarla məhdudlaşmır, onlar daha dərin və davamlı xarakter daşıyır. Belə hallarda siyasətçilər yalnız tələbi və təklifi idarə edən ənənəvi sabitləşdirmə siyasətləri ilə kifayətlənə bilməzlər. Məsələn, əgər bazarda tələbat istehsal potensialını aşırsa və qiymətlər sürətlə artırsa, hökumətlər bu artımı cilovlamaq üçün fiskal və monetar alətlərdən istifadə edə bilər. Əksinə, durğunluq dövründə ümumi xərclər azalırsa, dövlət öz xərclərini artırmaqla bu boşluğu doldurmağa çalışır. Lakin bu tədbirlər dərin struktur problemlərinin həlli üçün yetərli olmur. Bu zaman iqtisadiyyatın təməlini təşkil edən struktura yönəlik dəyişikliklər zəruri olur, bu isə struktur siyasətinin əsas mahiyyətidir (Khaled-Abdel-Kader, What Are Structural Policies). Qısamüddətli sabitləşdirmə tədbirləri -məsələn, vergi və dövlət xərcləri ilə bağlı qərarlar (fiskal siyasət) və ya faiz dərəcələri vasitəsilə pul təklifinin idarə olunması (monetar siyasət)-müvəqqəti təsirlər göstərsə də, uzunmüddətli inkişaf üçün daha dərin islahatlara ehtiyac duyulur. Bu səbəbdən hökumətlər qiymət mexanizmləri, büdcə siyasəti, dövlət müəssisələrinin idarə olunması, maliyyə sisteminin tənzimlənməsi, əmək bazarındakı qaydalar və sosial müdafiə sistemində struktur dəyişikliklər həyata keçirməlidirlər.

Avrozonada son illərdə baş verən maliyyə və dövlət borcu böhranları bir çox hökumətləri daha cəsarətli struktur islahatlarına təşviq edib. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə artımın zəifləməsi, struktur siyasətlərin təkcə iqtisadi inkişafın sürətləndirilməsi üçün deyil, həm də sabitləşdirmə tədbirlərinin təsirli olması üçün vacib olduğunu göstərmişdir. Bu struktur siyasətinin əsas tətbiq sahələrinə aiddir:Qiymət mexanizmləri: Bəzi ölkələrdə hökumət elektrik enerjisi, qaz və rabitə kimi məhsul və xidmətlərin qiymətlərini istehsal xərclərindən daha aşağı

səviyyədə müəyyənləşdirir. Bu isə dövlət müəssisələrində zərərlərin yaranmasına və dövlət büdcəsindən subsidiya ayrılmasına səbəb olur. Belə yanaşma büdcə yükünü artırmaqla yanaşı, iqtisadi fəaliyyətin effektivliyinə də mənfi təsir göstərir. Qiymətlərin bazar səviyyəsində formalaşmasına imkan vermək isə daha səmərəli iqtisadi mühitin yaranmasına şərait yarada bilər.

Dövlət maliyyəsi: İqtisadi resessiya dövrlərində dövlətlərin daha çox xərcləməsi və yüksəliş mərhələsində gəlirləri artırmaq üçün vergi yığımına üstünlük verməsi normal praktikadır. Lakin uzunmüddətli tarazlıq üçün xərclər və gəlirlər balansda saxlanılmalıdır. Qeyri-effektiv vergi inzibatçılığı və mürəkkəb vergi sistemi büdcə kəsirlərinə və dövlət borcunun artmasına gətirib çıxarır. Bu isə sosial xidmətlərin maliyyələşdirilməsini məhdudlaşdırır. Vergi islahatları, sadələşdirilmiş qaydalar və şəffaf idarəetmə sistemin optimallaşdırılmasına kömək edə bilər.

Dövlət müəssisələri: Bir çox dövlət müəssisəsi rəqabət mühitindən uzaq olduğu üçün səmərəsiz fəaliyyət göstərir. Artıq işçi qüvvəsi və yüksək xərclər səbəbindən yaranan zərərlər dövlət tərəfindən kompensasiya olunur. Bu problemlərin aradan qaldırılması üçün özəlləşdirmə, idarəetmənin effektivliyi və zərərli müəssisələrin bağlanılması kimi yanaşmalar tətbiq edilə bilər. Əmək bazarında baş verə biləcək mənfi təsirləri isə sosial müdafiə proqramları ilə azaltmaq mümkündür.

Azərbaycanda struktur siyasətinin həyata keçirilməsi tez-tez maliyyə resurslarının məhdudluğu və institusional problemlərlə ləngiyir. Halbuki, bu siyasət iqtisadi modernizasiyanın və davamlı inkişafın əsas istiqamətlərindən biridir. Struktur siyasəti vasitəsilə iqtisadi sistemin daha çevik və məhsuldar hala gətirilməsi, həm mikro, həm də makro səviyyədə tarazlığın bərpası hədəflənir. Azərbaycanda isə sənaye və kənd təsərrüfatı sektorlarının əvvəlki strukturu süquta uğramış, lakin onların yerini alacaq yeni və dayanıqlı struktur tam şəkildə formalaşmamışdır. Buna görə də iqtisadiyyatın mövcud quruluşu bazar iqtisadiyyatının çağırışlarına uyğunlaşdırılmalı və daha səmərəli struktur formalaşdırılmalıdır.

Struktur siyasətinin əsas məqsədləri aşağıdakılardır: bazar iqtisadiyyatına keçidin təmin olunması, milli bazarın təşəkkülü, təkrar istehsalın stimullaşdırılması, beynəlxalq əmək bölgüsündə iştirak imkanlarının genişləndirilməsi, ölkənin iqtisadi inkişafının təmin olunması və əhalinin rifah səviyyəsinin artırılması [6. səh.19-27]. İqtisadi sturukturu formalaşdıran stuktur siyasətini müəyyənləşdirən sonra mövcud iqtisadi struktura uyğun optimal iqtisadi inkişaf modellərini öyrənmək zəruriyyət hesab olunur.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası
2. Bağırov Orxan- İqtisadiyyatın diversifikasiyası və onun maliyyə səmərəliliyinin qiymətləndirilməsi (Səh. 23-27)-2021
3. Bayraməliyeva Nərmin. “Müasir dövrdə iqtisadi siyasətin başlıca məqsədləri və reallaşma istiqamətləri-(77s; 2021)
4. Əsgərov Emin. İqtisadi resurslar və iqtisadi nemətlər-2025
5. İslamzadə Vüqar. "Dayanıqlı iqtisadi inkişafın təmin edilməsində xarici iqtisadi əlaqələrin rolu və vəzifələri"(səh. 16-41; 2018).
6. Qəhrəmanova Günel. Bazar iqtisadiyyatı şəraitində dövlətin struktur siyasətinin reallaşdırılması və onun təkmilləşdirilməsi məsələləri (səh. 19-27; 2015)

Чингиз Муршуд оглы Алиев
магистрант, Азербайджанский Университет Кооперации
Амираслан Магамед оглы Набиев
доктор философии по физике, доцент,

Этапы формирования инженерной системы в Азербайджане и направления управления рисками

Резюме

Формирование инженерной системы в Азербайджане является одним из основных направлений современной экономической политики, направленной на достижение устойчивого экономического развития. Данный подход направлен на обеспечение баланса между различными секторами экономики, эффективное использование внешних и внутренних ресурсов, а также ускорение международной интеграции и эффективное управление рисками. Реализация такой модели может привести не только к экономическому росту, но и к повышению социального благосостояния и обеспечению экологической устойчивости. Модель с оптимальной инженерной системой создает прочную основу для экономической стабильности и развития путем гармонизации внутреннего потенциала страны с внешними возможностями. Соответственно, при управлении экономическими рисками ресурсы должны быть оптимально распределены между основными секторами экономики, такими как промышленность, сельское хозяйство, сфера услуг и технологии, на основе государственной политики, с учетом специфических возможностей и потребностей каждого сектора.

Chingiz Murshud Aliyev
master,
Amiraslan Muhammad Nabiyev
doctor of philosophy in physics, associate professor,
Azerbaijan Cooperation University

Stages of formation of the engineerıng system in Azerbaijan and directions of risk management

Summary

Formation of the engineering system in Azerbaijan is one of the main directions of modern economic policy aimed at achieving sustainable economic development. This approach is aimed at ensuring balance between various sectors of the economy, efficient use of external and internal resources, as well as acceleration of international integration and effective risk management. The implementation of such a model can result not only in economic growth, but also in increasing social well-being and ensuring environmental sustainability. A model with an optimal engineering system creates a solid foundation for economic stability and development by harmonizing the country's internal potential with external opportunities. Accordingly, in managing economic risks, resources should be optimally distributed among the main sectors of the economy, such as industry, agriculture, services, and technology, based on state policy, and the specific capabilities and needs of each sector should be taken into account.

Mövsüm Vüqar oğlu SƏFƏROV
magistrant,
Elnurə Bünyat qızı MƏMMƏDOVA
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

RİSK MENECMENTİ VASİTƏSİLƏ BANK SABİTLİYİNİN TƏMİN EDİLMƏSİ

Bank sistemi hər bir ölkənin maliyyə bazarının və iqtisadiyyatının əsas sütunlarından biridir. Bankların fəaliyyəti, onların likvidlik səviyyəsi və maliyyə dayanıqlığı ümumi iqtisadi sabitliyə birbaşa təsir göstərir. Bankların səmərəli fəaliyyət göstərməsi üçün ən mühüm şərtlərdən biri risklərin düzgün idarə olunmasıdır. Risk menecmenti bankların idarəetmə strukturunda əsas elementlərdən biri olub, potensial zərərləri minimuma endirməyi, gəlirliliyi və sabitliyi qorumağı hədəfləyir. Bank fəaliyyəti müxtəlif növ risklərlə müşayiət olunur: kredit riski, likvidlik riski, faiz dərəcəsi riski, valyuta riski, əməliyyat riski, bazar riski və s. Bu risklərin hər biri bankın maliyyə vəziyyətinə, reputasiyasına və ümumilikdə sabitliyinə ciddi təsir göstərə bilər. Buna görə də bank menecmentinin əsas vəzifələrindən biri risklərin düzgün müəyyən edilməsi, qiymətləndirilməsi, monitorinqi və nəzarət mexanizmlərinin yaradılmasıdır [4].

Risk menecmenti sisteminin səmərəli təşkili banklara strateji qərarların qəbulunda daha çevik və rasional davranmağa imkan verir. Beynəlxalq təcrübə göstərir ki, risklərin vaxtında müəyyənləşdirilməsi və idarə olunması bank böhranlarının qarşısının alınmasında mühüm rol oynayır. Məsələn, 2008-ci il qlobal maliyyə böhranı zamanı bir çox bankların əsas problemi risklərin düzgün qiymətləndirilməməsi və həddindən artıq kreditləşmə idi. Bu təcrübə bir daha göstərdi ki, risk menecmenti yalnız daxili nəzarət mexanizmi deyil, həm də strateji idarəetmənin ayrılmaz hissəsidir.

Bank sabitliyinin təmin edilməsində risk menecmentinin rolu ilk növbədə maliyyə dayanıqlığının qorunmasında özünü göstərir. Risklərin düzgün idarə edilməsi nəticəsində bank aktivlərinin keyfiyyəti artır, kapitalın strukturunda balans qorunur, likvidlik səviyyəsi sabitləşir və bankın müştərilərə qarşı öhdəliklərini yerinə yetirmə qabiliyyəti yüksəlir. Eyni zamanda risk menecmenti bankın reputasiyasını və bazar etimadını möhkəmləndirir, bu isə uzunmüddətli sabit fəaliyyət üçün mühüm amildir.

Risklərin idarə olunması prosesi bir neçə mərhələdən ibarətdir: risklərin müəyyənləşdirilməsi, onların qiymətləndirilməsi, ölçülməsi, nəzarət mexanizmlərinin qurulması və nəhayət, risklərin azaldılması üçün tədbirlərin həyata keçirilməsi. Bu prosesdə müasir texnologiyalardan və analitik modellərdən istifadə vacibdir. Banklar risklərin ölçülməsi üçün statistik modellər, stres-testlər və ssenari analizlərindən yararlanırlar. Məsələn, kredit portfellərinin keyfiyyətini təhlil etmək, borcalanların ödəmə qabiliyyətini qiymətləndirmək və mümkün zərərləri proqnozlaşdırmaq üçün risk ölçmə modelləri geniş tətbiq edilir[5].

Azərbaycan bank sektorunda da risk menecmentinin əhəmiyyəti son illər əhəmiyyətli dərəcədə artmışdır. Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən qəbul olunan normativ sənədlər banklardan risklərin idarə edilməsinə dair siyasət və prosedurların yaradılmasını tələb edir. Bu tələblər kapital adekvatlığı, aktivlərin keyfiyyəti və likvidlik göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılmasını hədəfləyir. Beləliklə, ölkəmizdə bankların maliyyə dayanıqlığının gücləndirilməsi üçün risk menecmenti artıq idarəetmə sisteminin əsas komponentinə çevrilmişdir.

Müasir şəraitdə kommersiya bankının təsərrüfat subyekti kimi anlaşılmasına kifayət qədər tez-tez təşkilati-funksional, texnoloji, vasitəçi mövqeyindən yanaşırlar. Bununla da onun güclü idarəetmə alətlərindən biri kimi pul tədavülü və kredit münasibətlərinə xidmət göstərən ictimai inkişaf və təsərrüfat subyekti instrumenti kimi rolu azalır. Bankların mahiyyətinin təhrif olunmuş şəkildə anlaşılması və onların rolunun kiçildilməsi həmin bank təsisatlarının funksiyalarının əsassız şəkildə məhdudlaşdırılmasına gətirib çıxarır. Məsələn, kifayat qədər tez-tez əsassız olaraq paylaşdırma (bölüşdürmə) funksiyası daha çox mənfəət alınması məqsədilə kapitalın yerdəyişməsi birinci yerə irəli çəkilir. Bankların ictimai funksiyası maddi nemətlərin təkrar istehsalını

stimullaşdırmaq və iqtisadi tərəqqinin hərəkətverici qüvvəsi olması isə kənarda qalır. Bununla belə, müasir kommersiya bankı pul tədavülünün və bütün formalarda kreditin fəaliyyət göstərməsi qaydalarının yaradıcısı kimi çıxış edən təşkilatdır. Ona göra də banklar ölkənin milli sərvətlərinin toplayıcısı rolunda çıxış edir, istehsal və tədavül strukturuna iqtisadi təsir orqanı sayılır. Hazırda daha çox mənfəət götürmək banklar və bank fəaliyyəti haqqında qanunvericilikdə kommersiya bankının orientasiyasında başlıcasıdır [8].

Kommersiya banklarının mübadilə sferasında fəaliyyət göstərməsi onun mahiyyəti haqqında düzgün olmayan təsəvvür yaradır. Bir çox hallarda bank vasitəçi təşkilat kimi xarakterizə olunur. Belə söyləməyə resursların xüsusi axını, onların müvəqqəti olaraq bəzilərində yığılıb qalması, başqalarında isə tətbiqinə ehtiyac yaranması əsəs verir. Bu zaman situasiyanın xüsusiyyəti ondan ibarət olur ki, resursların müəyyən hissəsinə malik olan kreditor müəyyən zəmanətlərin olduğu hallarda konkret müddət üçün və faizlə onları digər kontragentlərə - borc alanlara vermək istəyir. Bank kreditordur, borc alandır və onların arasında vasitəçidir, habelə pul hesablaşmalarında vasitəçidir. Ona görə də o bu funksiyalarda özünün təsərrüfat subyekti kimi mahiyyətini bütünlüklə nümayiş etdirir. Hər bir bank aydındır ki, əgər, onun passivlərdə payının az olduğu məqamda daha çox mənfəət əldə olunmuşsa, bunun effekti daha hissolunandır.

Ona görə də kommersiya bankının fəaliyyəti aşağıdakı tələblərin yerinə yetirilməsi üzərində qurulmalıdır:

- kapitalı daha ucuz almalı (mümkün qədər daha az faiz stavkası ödəməli);
- kapital va xidmətləri daha baha satmalı (mümkün qədər daha çox faiz stavkası əldə etməli);
- etibarlı partnyorların seçilməsi va qarantiyaların alınması, habelə əməliyyatların rəngarəngliyi və ssuda kapitalının müxtəlif bazalarının mənimsənilməsi yolu ilə itki riskini azaltmalı.

Kommersiya bankları qiymətli kağızların alqı - satqısı üzrə həm özlərinin vəsaitləri hesabına, həm də müştərilərin tapşırığı ilə əməliyyatlar aparır, həm də digər təsərrüfatçılıq subyektlərinin emissiyasına və qiymətli kağızların realizasiyasına rəhbərlik edir. Xarakterik haldır ki, kvaziinvestisiya istisna olmaqla, kommersiya bankı tərəfindən üzərinə dividendlərin hesablanılmadığı öz səhmlərini almaqla bağlı bütün digər əməliyyatlar (qiymətli kağızlarla ticarət-komisssion əməliyyatlar) gəlirlərin (mənfəətlərin) əldə olunmasına yönəlmişdir. Bankların belə əməliyyatlardan əldə etdikləri gəlirləri qiymətli kağızlar, komissionlar və spred üzrə alınan faizlərin məbləğindən ibarətdir. Hazırda kommersiya banklarının əksəriyyəti investisiya əməliyyatlarından məhz qiymətli kağızların satış qiymətinin onların alınma qiymətlərinə nisbətən artırılması yolu ilə mənfəət götürürlər.

Müasir şəraitdə rəqəmsal bankçılığın inkişafı, elektron ödənişlərin və onlayn əməliyyatların artması yeni növ risklərin – o cümlədən kibertəhlükəsizlik risklərinin yaranmasına səbəb olur. Buna görə də risk menecmenti sistemləri daha kompleks yanaşma tələb edir. Banklar yalnız maliyyə risklərini deyil, eyni zamanda əməliyyat və texnoloji riskləri də idarə etməli, mütəmadi olaraq daxili audit və risk qiymətləndirmə proseslərini yeniləməlidirlər[5].

Ümumilikdə, risk menecmenti bank sabitliyinin təmin edilməsində həm qoruyucu, həm də inkişafetdirici funksiyaya malikdir. Bu sistem bankı mümkün zərərlərdən sığortalamaqla yanaşı, onun gələcək inkişaf strategiyasının formalaşmasına da kömək edir. Effektiv risk menecmenti mexanizmləri bankların uzunmüddətli davamlılığını təmin edir və makroiqtisadi sabitliyə müsbət təsir göstərir.

1. Banklarda risk menecmenti sistemləri beynəlxalq “Basel III” standartlarına tam uyğunlaşdırılmalıdır.

2. Risklərin qiymətləndirilməsi prosesində müasir analitik texnologiyalardan və süni intellekt əsaslı modellərdən istifadə genişləndirilməlidir.

3. Kredit portfellərinin diversifikasiyası artırılmalı, yüksək riskli sahələrdə kreditləşmə məhdudlaşdırılmalıdır.

4. Banklarda müstəqil risk idarəetmə departamentlərinin səlahiyyətləri genişləndirilməli və onların hesabatlılığı birbaşa idarə heyətinə yönəldilməlidir.

5. Kibertəhlükəsizlik risklərinə qarşı qoruma mexanizmləri təkmilləşdirilməli, informasiya təhlükəsizliyi standartları daim yenilənməlidir.

6. Mərkəzi Bank bank sektorunda risk menecmenti mədəniyyətinin inkişafı üçün maarifləndirmə və təlim proqramları həyata keçirməlidir.

7. Risk menecmenti və daxili audit sistemləri arasında inteqrasiya gücləndirilməli, risklərin erkən aşkarlanması mexanizmləri tətbiq olunmalıdır.

Nəticə etibarilə, risk menecmenti bank sabitliyinin əsas təminat mexanizmlərindən biridir. Banklar fəaliyyətlərini risklərlə qarşı-qarşıya qalmadan həyata keçirə bilməzlər, lakin bu risklərin səmərəli idarə olunması onların davamlı inkişafını təmin edir. Risklərin vaxtında müəyyən edilməsi, düzgün qiymətləndirilməsi və nəzarət altında saxlanması bankların maliyyə dayanıqlığını artırır, kapitalın effektiv idarə olunmasına şərait yaradır və bazar etimadını möhkəmləndirir. Güclü risk menecmenti sistemi həm mikro, həm də makro səviyyədə maliyyə sabitliyinin qorunmasına xidmət edir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu. 10 dekabr 2004.
2. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu. 16 yanvar 2004.
3. E.Sadıqov. "Bank əməliyyatları". Bakı, 2010.
4. R.Bəşirov. "Bank işi". Dərslik. Bakı, 2016.
5. M.Bağırov. "Banklar və bank əməliyyatları". Dərslik. Bakı, 2003.
6. X.Hüseynov, E.Balayeva. "Pul, kredit, banklar ". Dərslik. Bakı, 2015.
7. "Pul və banklar" R.Bəşirovun. ümumi rəhbərliyi ilə. Dərslik. Bakı, 2012.
8. R.Əsgərova. "Pul, kredit və banklar ". Dərslik. Bakı, 2007
9. Z.Məmmədov. "Bank fəaliyyətinin əsasları ". Dərslik. Bakı, 2013.
10. Məhərrəmov A.M., Qarayev F.M., Sarıyev K.A. və başqaları "Bank işi". Bakı, 2019.
11. Тавасиев А. М. Банковское дело : учебник для вузов . Москва,: Издательство Юрайт, 2022.
12. www.cbar.az
13. www.fimsa.az
14. www.e-qanun.az
15. www.audit.gov.az

Мовсум Вугар оглы Сафаров
магистрант,
Эльнура Бунят кызы Мамедова
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Обеспечение стабильности банковской системы посредством риск-менеджмента

Резюме

Банковская система является одной из основных опор финансового рынка и экономики каждой страны. Деятельность банков, их уровень ликвидности и финансовая устойчивость оказывают прямое влияние на общую экономическую стабильность. Одним из важнейших условий эффективного функционирования банков является правильное управление рисками. Риск-менеджмент представляет собой ключевой элемент в структуре управления банком, направленный на минимизацию потенциальных потерь, сохранение прибыльности и стабильности. Банковская деятельность сопровождается различными видами рисков: кредитным, ликвидным, процентным, валютным, операционным, рыночным и другими. Каждый из этих рисков может существенно повлиять на финансовое состояние банка, его репутацию и, в целом, на устойчивость всей системы. Поэтому одной из главных задач банковского менеджмента является правильное выявление, оценка, мониторинг и создание эффективных механизмов контроля над рисками.

Movsum Vugar Safarov
master,
Elnura Bunyat Mammadova
doctor of economic sciences, professor,
Azerbaijan Cooperation University

Ensuring the stability of the banking system through risk management

Summary

The banking system is one of the main pillars of the financial market and the economy of any country. The activities of banks, their level of liquidity, and financial stability have a direct impact on overall economic stability. One of the most important conditions for the effective functioning of banks is proper risk management. Risk management is a key element in a bank's management structure, aimed at minimizing potential losses while maintaining profitability and stability. Banking activities are accompanied by various types of risks, such as credit, liquidity, interest rate, currency, operational, market, and others. Each of these risks can significantly affect the financial condition of a bank, its reputation, and, in general, the stability of the entire system. Therefore, one of the main tasks of bank management is the proper identification, assessment, monitoring, and establishment of effective mechanisms for controlling risks.

Ramin Rafik oğlu ƏVƏZOV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Rəşad Şahbaz oğlu MURADOV
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Dövlət İqtisad Universiteti

REGİONLARDA BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASINDA RİSKLƏRİN AŞAĞI SALINMASININ ROLU

Son illər Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar, sahibkarlığın dövlət tənzimlənməsi və dəstəklənməsi sahəsində qəbul edilmiş qərarlar, qanunlar, dövlət proqramları ölkədə azad rəqabətə əsaslanan sahibkarlığın inkişafı məqsədlərinə xidmət edir. Burada başlıca məqsəd biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafıdır.

Biznes subyektlərinin qarşılıqlı əlaqələrinin məcmusu, hər bir subyektin biznesə ayaq qoydugu andan onların arasında yaranmağa başlayan əlaqələrin məcmusu vasitəsi ilə əks olunur. Bu əlaqələr iqtisadi və qeyri-iqtsadi təbiətə malik olub, mahiyyət etibarilə *biznesin mühitini* yaradırlar. Biznesin mühiti bəzən sahibkarlıq firmasından və ya digər biznes subyektindən kənarda mövcud olan bütün xarici amillərin məcmusu kimi xarakterizə edilir. Bəzən də bunu investisiya mühiti kimi qələmə verirlər.

Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində konkret iqtisadi islahatlar aparmaq üçün mühüm qərarlar qəbul olunub. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı ilə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya yaradılıb. Həmin Komissiya sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitinin yaradılması, ölkənin investisiya cəlbediciliyinin artırılması, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması ilə əlaqədar qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsinə və bu istiqamətdə digər zəruri tədbirlərin görülməsinə dair təkliflərin hazırlanmasında və həyata keçirilməsində iştirak edən kollegial orqandır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nə əsasən ölkəmizdə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamə-

tində islahatlar aparılır. Strateji Yol Xəritəsinə əsasən, 2025-ci ilədək Azərbaycanda müasir texnologiyalara, bazarlara və maliyyə vəsaitlərinə bərabər çıxış imkanları təmin edən rəqabət mühiti yaradılmalıydı. Habelə yerli şirkətlərin canlanmasına və investorların dünya standartlarına uyğun fəaliyyət göstərmələrinə şərait yaradacaq biznes mühiti təmin edilməli və biznes mühitinin yaxşılaşdırılması isə ölkədə sahibkarlığın davamlı inkişafına şərait yaratmalı idi.

Beləliklə, Azərbaycanda sahibkarlığın davamlı inkişafı məqsədilə hüquqi tənzimləmə, qanunvericilik bazasının təkmilləşdirilməsi yolu ilə biznes mühitinin yaxşılaşdırılması əsas hədəflərdən biridir. Azərbaycanda son illər həyata keçirilən bu iqtisadi islahatlar biznes mühitinin daha da yaxşılaşdırılmasını, təşviq siyasətinin davam etdirilməsini və institusional islahatları əhatə edir.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması üzrə aparılan iqtisadi islahatlar ölkədə sahibkarlığın inkişafına təkan vermişdir. Xüsusən də dövlət-sahibkar münasibətlərinin, investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun stimullaşdırılması, o cümlədən özəl sektora təşviq mexanizmlərinin tətbiqi, aqrar sektora dövlət qayğısının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi bu baxımdan əhəmiyyətlidir. Bunların nəticəsidir ki, ölkədə, xüsusən də qeyri-neft sektorunda özəl sektorun inkişafı meyilləri müşahidə olunur.

Uğurlu biznes liderləri dəyişikliklərə tez uyğunlaşmaq və qeyri-müəyyən şəraitdə məqbul qərarlar qəbul etmək kimi keyfiyyətlərə malik olmalıdırlar. Bu, iş proseslərini avtomatlaşdıran, çox miqdarda məlumatların təhlilinə, etibarlı məlumatlara əsaslanaraq qərar qəbul etməyə imkan verən informasiya texnologiyaları tərəfindən icra olunur. Müasir şəraitdə iş mühiti getdikcə qloballaşan və bir-birinə bağlıdır. Şirkətlər beynəlxalq amilləri nəzərə almalı və qlobal bazarda mövqelərini gücləndirməyə çalışmalıdırlar. Bunun üçün dünya bazarının xüsusiyyətləri və tendensiyaları, habelə müxtəlif mədəni və iqtisadi vəziyyətə uyğunlaşma qabiliyyəti barədə məlumat tələb olunur. Biznesin idarə olunmasının vacib bir tərəfi, maliyyə, əməliyyat, bazar və strateji risklər kimi müxtəlif risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və minimuma endirilməsini ehtiva edən risklərin idarə edilməsidir (Vanden Abeele, 2020: 235).

Effektiv risklərin idarə edilməsi qeyri-müəyyənliyi azaltmağa və şirkətin sabit inkişafını təmin etməyə imkan verir. İnnovasiya idarəetmə, sürətlə dəyişən bir iş mühitində əsas amildir. Şirkətlər rəqibləri qabaqlamaq və istehlakçı ehtiyaclarını ödəmək üçün innovativ məhsul və texnologiyaların inkişaf etdirilməsi və tətbiq edilməsi üçün yeni imkanlar axtarmalıdırlar (Huang, 2018). Biznesin insan hüquqlarına hörmət, ətraf mühitə hörmət və sosial əhəmiyyətli layihələrdə iştirak etmək hüququ olan işin sosial məsuliyyətini nəzərə almaq da vacibdir. Biznesdə strateji idarəetmə uzunmüddətli uğurun təmin edilməsində əsas rol oynayır. Bu, təşkilatın məqsədlərinin müəyyən edilməsi, onlara nail olmaq üçün plan və proqramların işlənib hazırlanması, təyin edilmiş məqsədlərin həyata keçirilməsinin monitorinqi və təhlili prosesidir. Bir çox strateji idarəetmə modelləri mövcuddur ki, onların hər biri rəqabət üstünlüyünə nail olmaq üçün öz metod və alətlərini təklif edir (Johnson, 2017: 52).

Sosial məsuliyyətli şirkətlər daha çox istehlakçı və investorları cəlb edir, nüfuzlarını artırır, cəmiyyətin davamlı inkişafına töhfə verirlər. Müasir şəraitdə uğurlu biznesin idarə edilməsi strateji planlaşdırma, effektiv resurs idarəetmə, marketinq, maliyyə idarəetməsi, kadr və innovasiya idarəetmə, habelə beynəlxalq amillər və sosial məsuliyyətin uçotu da daxil olmaqla inteqrasiya olunmuş bir yanaşmanın istifadəsini tələb edir. Şirkətlər müxtəlif sahələrdə analitik qabiliyyətlər, strateji düşüncə və liderlik keyfiyyətlərində dərin biliklərə sahib olmalıdırlar. Effektiv biznesin idarə edilməsi şirkətlərə məqsədlərinə çatmağa, rəqabət qabiliyyətini qorumağa və cəmiyyətin iqtisadi və sosial inkişafına töhfə verməyə imkan verir (Aleksey, 2012: 129).

Müəssisələr mülkiyyət, miqyas, sənaye və coğrafi əhatə kimi müxtəlif meyarlara görə təsnif edilə bilər. Bu amillərdən asılı olaraq aşağıdakı fəaliyyət növləri fərqləndirilir:

1. İstehsal biznesi: xammaldan və yarımfabrikatlardan maddi malların yaradılmasını nəzərdə tutur. Nümunə olaraq maşınqayırma, kimya sənayesi, tekstil istehsalı və s.

2. Ticarət işi: malların alqı-satqısı ilə məşğul olur. Bunlar müxtəlif bazar seqmentlərində fəaliyyət göstərən pərakəndə və topdansatıcılar ola bilər.

3. Xidmət dairəsi: fiziki və hüquqi şəxslərə göstərilən xidmətlərin geniş spektrini əhatə edir. Nümunələrə məsləhət xidmətləri, təlim, nəqliyyat, maliyyə xidmətləri və səhiyyə daxildir.

4. İnformasiya texnologiyası: proqram təminatının hazırlanması, İT xidmətlərinin göstərilməsi, şəbəkələrin yaradılması və saxlanılması, kibertəhlükəsizlik və digər sahələri əhatə edir (Sakharov, 2017: 158).

Strateji idarəetmə təşkilatın uzunmüddətli məqsədlərinə çatmağa yönəlmiş tədbirlər məcmusudur. Bunun üçün hər birinin öz üstünlükləri və mənfi cəhətləri olan müxtəlif modellər istifadə olunur. Ən çox istifadə olunan strateji idarəetmə modellərini nəzərdən keçirək:

- *SWOT analiz modeli:* bu model biznesə təsir edən daxili və xarici amilləri qiymətləndirmək üçün istifadə olunur. SWOT qısaltması güclü tərəflər, zəif tərəflər, imkanlar və təhlükələr deməkdir. SWOT təhlili şirkətin hazırkı mövqeyinə və xarici mühitə əsaslanaraq onun inkişafının strateji istiqamətini müəyyən etməyə kömək edir (10).
- *PEST analiz modeli:* bu model siyasi, iqtisadi, sosial və texnoloji amilləri nəzərə alaraq biznesin xarici mühitinin təhlilinə yönəlib. PEST təhlili uzunmüddətli perspektivdə biznesə təsir edə biləcək xarici təhdidləri və imkanları müəyyən etməyə kömək edir (11).
- *Porterin beş güc analiz modeli:* bu model Michael Porter tərəfindən hazırlanıb və rəqabət mühitinin təhlili üçün istifadə olunur. O, sənayedə rəqabətin səviyyəsini müəyyən edən beş qüvvəni əhatə edir: yeni girənlərin təhlükəsi, əvəzedici məhsullar təhlükəsi, təchizatçıların gücü, alıcıların gücü və mövcud abituriyentlər arasında rəqabət səviyyəsi. Porter modeli şirkətə rəqabət üstünlüklərini və inkişaf üçün strateji istiqamətləri müəyyən etməyə kömək edir (Keppens, 2021: 214).

Biznesdə strateji idarəetmənin daha ətraflı təhlili üçün SWOT təhlili metodundan istifadə olunacaq. Bu üsul şirkətə təsir edən həm daxili, həm də xarici amilləri hərtərəfli qiymətləndirməyə imkan verir. SWOT təhlili həm böyük korporasiyalar, həm də kiçik bizneslər tərəfindən istifadə edilən universal bir vasitədir.

SWOT analizindən istifadə edərək araşdırma aparırıq. SWOT təhlilinin aparılması həm daxili, həm də xarici məlumatların böyük həcmdə toplanması və təhlil edilməsini tələb edir. Bu, şirkətin maliyyə göstəriciləri, marketinq tədqiqatları, rəqabət mühitinin təhlili, makroiqtisadi göstəricilər və digər mənbələr haqqında məlumatlar ola bilər. Nəzərə almaq lazımdır ki, SWOT təhlili dinamik bir prosesdir və cari reallıqları və perspektivləri adekvat şəkildə əks etdirmək üçün mütəmadi olaraq yenilənmə və yenidən baxılmanı tələb edir. SWOT təhlilinin aparılması şirkətə öz güclü və zəif tərəflərini hərtərəfli qiymətləndirməyə, həmçinin xarici imkan və təhlükələri müəyyən etməyə imkan verir. Bu təhlil əsasında şirkət bazarda öz mövqeyini möhkəmləndirmək, əməliyyatları təkmilləşdirmək və fürsətlərdən yararlanmaq üçün effektiv strategiyalar hazırlaya bilər. Bundan əlavə, zəif tərəfləri və təhdidləri müəyyən edib minimuma endirmək şirkətə potensial problemlərdən və risklərdən qaçmağa kömək edir.

Cədvəl.

Biznesdə strateji idarəetmənin daha ətraflı təhlili üçün SWOT təhlili

Güclü tərəflər	**Zəif tərəflər**
Şirkətin güclü tərəflərinə rəqabət üstünlüyü verən unikal resurslar və imkanlar daxildir. Bunlar yüksək ixtisaslı kadrlar, unikal texnologiyalar, güclü brend, effektiv idarəetmə sistemi və digər amillər ola bilər. Güclü tərəflərin müəyyən edilməsi şirkətə öz güclü tərəflərinə diqqət yetirməyə və onlardan səmərəli istifadə etməyə kömək edir.	Zəif tərəflər şirkətin məqsədlərinə çatmasına mane olan daxili zəifliklər və məhdudiyyətlərdir. Bu, maliyyə resurslarının çatışmazlığı, köhnəlmiş texnologiya, zəif marketinq strategiyası, işçilərin aşağı ixtisası və digər problemlər ola bilər. Zəif cəhətlərin müəyyən edilməsi şirkətə onları aradan qaldırmaq və minimuma endirmək üçün strategiyalar hazırlamağa imkan verir.
İmkanlar	**Məhdudiyyətlər**
Fürsətlər şirkətin böyüməsi və inkişafı üçün istifadə edə biləcəyi xarici amillərdir. Bunlar yeni bazarlar, texnoloji yeniliklər, qanunvericilikdə dəyişikliklər, iqtisadi artım və digər əlverişli şərtlər ola bilər. Fürsətlərin təhlili şirkətə perspektivli sahələri müəyyənləşdirməyə və onların həyata keçirilməsi üçün strategiyalar hazırlamağa kömək edir.	Təhdidlər biznesə mənfi təsir göstərə bilən xarici amillərdir. Bunlar bazar şəraitindəki dəyişikliklər, artan rəqabət, iqtisadi böhranlar, qanunvericilikdə dəyişikliklər və digər risklər ola bilər. Təhdidlərin müəyyən edilməsi şirkətə onların qarşısını almaq və minimuma endirmək üçün tədbirlər hazırlamağa imkan verir.

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

Ümumiyyətlə, SWOT təhlilinə əsaslanan strateji idarəetmə şirkətə uzunmüddətli perspektivdə rəqabət üstünlükləri və davamlı inkişaf təmin edir. Bu üsul sizə xarici mühitdəki dəyişikliklərə uyğunlaşmağa, öz resurslarınızdan səmərəli istifadə etməyə və məqsədlərinizə çatmağa imkan verir.

Nəticə

1. Risk biznes fəaliyyətinin ayrılmaz atributlarından biridir. Biznes fəaliyyətində qeyri-müəyyənliyin səviyyəsi yüksəkdir ki, bu riskin köməyilə pul ifadəsinə transformasiya olunur. Sahibkar qərar qəbul edərkən çox vaxt biznes layihələrinin reallaşdırılmasına sərf olunan xərclər və gözlənilən mənfəətin məbləği haqqında tam və dəqiq informasiyalara malik olmur. Ona görə də sahibkar biznes fəaliyyətində müxtəlif növ risklərin yaranma səbəblərini öyrənməli və onların təsir dərəcəsini qiymətləndirməlidir.

2. İnvestisiyalaşdırma obyektini seçərkən risk dərəcəsinin nəzərə alınması xüsusilə vacibdir. Risk dərəcəsini biznes planın və sığortalaşdırmanın köməyilə, birgə layihə çərçivəsində iştirak edən təşkilatlar arasında risklərin bölüşdürülməsi, xedjirləşmə, fyuçers opsion və diversifikasiya hesabına azaltmaq mümkündür.

3. Bazar münasibətləri şəraitində idarəetmə funksiyalarını icra edən vəzifəli şəxslər, xüsusilə də maliyyə menecerləri hər bir riskin müqabilində daha çox gəlir götürməyə çalışmalıdır. Risk və gəlir bir-biri ilə sıx bağlı olan və bir-biri ilə şərtlənən maliyyə kateqoriyalarıdır.

Risk dedikdə, bu və ya digər iş adamının fəaliyyət növündən, təbii hadisədən irəli gələn mümkün itki qorxusu başa düşülür. O, riskə gedən adam üçün mənfi, arzu edilməyən nəticədir. Müxtəlif idarəetmə qərarları müxtəlif risk dərəcələrinə malikdir.

Risk hadisənin olacağını, və ya olmayacağını, olacağı təqdirdə isə üç cür iqtisadi nəticə: mənfi (uduzma, zərər), sıfır, müsbət (uduş, fayda, mənfəət) gözlənildiyini ifadə edir.

4. Bazar iqtisadiyyatı şəraitində firma və şirkətlər risk etmədən heç nə qazana bilmir. Buna görə də riskə getmək və onları idarə etmək, başqa sözlə desək, risk hadisəsinin yaxınlaşmasını müəyyən dərəcədə proqnozlaşdırmaq və risk dərəcəsini azaltmağa imkan verən tədbirlər görmək qaçılmazdır.

5. Araşdırmamızda biz maliyyə risklərinin növlərinə (maliyyə dayanıqlılığının və likvidliyin itirilməsi, rentabelliyin aşağı enməsi, ödəmə qabiliyyətinin olmaması, inflyasiya riski, valyuta riski, investisiya riski, depozit riski, faiz riski, kredit riski, struktur riski, krimonoloji risk), risk dərəcəsinin müəyyən edilməsi üsullarını, risk-menecmentin funksiyaları (obyektin idarə olunması funksiyası, subyektin idarə olunması funksiyası), maliyyə risklərinin idarə olunması metodları (ləğv etmə, aradan qaldırma), itkinin qarşısının alınması və nəzarət, sığota, sərfetmə (udma)) və maliyyə risklərinin azaldılması üsullarına (diversifikasiya, seçim və nəticələr barədə ətraflı məlumat toplamaq, limitləmə, özünüsığortalama, sığortalama, valyuta risklərində sığortalama, hedc əməliyyatı, əlaqəli sahələrin fəaliyyətlərinə nəzarət etmək, kompaniyanın spesifik fondlarından istifadənin uçotu və qiymətləndirilməsi) aydınlıq gətirdik.

6. Maliyyə risklərinin idarə olunması yeni yaradılmasından və ya uzun illər fəaliyyət göstərməsindən asılı olmayaraq hər bir firma və şirkətin çox vacib diqqət yetirməli olduğu bir məsələdir. Öz fəaliyyətinin müsbət və mənfi tərəflərini müəyyən etmək, onların qarşısının alınması üçün tədbirlər görmək hər bir təşkilatın mənfəət əldə etməsi üçün zəruridir.

ƏDƏBİYYAT

1. Mərdanov, A. (2022). Biznes mühitinin öyrənilməsi, s. 32.
2. Məmmədov, M. A., Məmmədova, F. Ə., Əlizadə, Ş. (2021). Strateji menecment (dərslik). Bakı, 231 s.
3. Əliyev, M. Ə. (2010). Biznesin təşkili və idarə edilməsi. Bakı, s. 63.
4. Abdullah, R. B. (2016). Financial and management analysis. Journal of Entrepreneurship and Development, 8(2), pp. 79-96.
5. Vanden Abeele, D. (2020). Efficient computational model business environment. AIAA Journal, Vol. 38, No. 2, pp. 234-242.

6. Huang, L. (2018). Buisiness Strategy Technology Journal, No. 36, pp. 28-42.
7. Johnson, B. T, Sheehy, P. T. (2017). Buisiness management and models. Research paper, pp. 49-88.
8. Aleksey, T. (2012). Management methods for business industry. Moscow, 129 p.
9. Sakharov, V. I. (2017). Busssines practice strategy, No. 6, pp. 157-168.
10. https://economictimes.indiatimes.com/definition/business
11. https://www.dekanblog.ru/2022/06/enciklopediya/strategicheskoe-upravlenie-model-posies/
12. Keppens, R. (2021). Strategic models for business. New York: Cambridge University Press. Journal 0021, 214 p.

Рамин Рафик оглы Авазов
магистрант,
Азербайджанский Университет Кооперации
Рашад Шахбаз оглы Мурадов
доктор экономических наук, профессор,
Азербайджанский Государственный Экономический Университет

Роль снижения рисков в улучшении бизнес-среды в регионах

Резюме

Бизнес – это деятельность, направленная на получение дохода посредством производства, продажи товаров или оказания услуг. Основная цель бизнеса – удовлетворение потребностей клиентов и получение прибыли, что требует эффективного управления ресурсами и стратегического планирования. Бизнес-деятельность включает в себя производство, торговлю, сферу услуг и информационных технологий, каждая из которых требует особых управленческих подходов.

В последние годы в Азербайджане проводятся экономические реформы, направленные на улучшение деловой среды, а также принимаются решения, законы и государственные программы в области государственного регулирования и поддержки предпринимательства, направленные на развитие предпринимательства, основанного на свободной конкуренции в стране. Главная цель – улучшение деловой среды и развитие предпринимательства.

Совокупность взаимоотношений субъектов предпринимательства отражается в совокупности отношений, которые возникают между каждым субъектом с момента его начала предпринимательской деятельности. Эти отношения носят как экономический, так и неэкономический характер и, по сути, формируют деловую среду. Деловую среду иногда характеризуют как совокупность всех внешних факторов, существующих вне предпринимательской фирмы или другого субъекта бизнеса. Иногда её также называют инвестиционным климатом. В данной статье рассматривается влияние факторов риска на деловую среду.

Ramin Rafik Avazov
master,
Azerbaijan Cooperation University
Rashad Shahbaz Muradov
doctor of economic sciences, professor,
Azerbaijan State University of Economics

The role of risks reduction in improving the business environment in regions

Summary

Business is an activity aimed at generating income through production, sale of goods or provision of services. The main goal of business is to meet the needs of customers and make a profit, which requires effective resource management and strategic planning. Business activities

include production, trade, services and information technologies, each of which requires specific management approaches.

In recent years, economic reforms implemented in Azerbaijan to improve the business environment, decisions, laws and state programs adopted in the field of state regulation and support of entrepreneurship serve the goals of developing entrepreneurship based on free competition in the country. The main goal here is to improve the business environment and develop entrepreneurship.

The set of mutual relations of business entities is reflected through the set of relations that begin to arise between each entity from the moment it sets foot in business. These relations are of an economic and non-economic nature and essentially create the business environment. The business environment is sometimes characterized as a set of all external factors that exist outside the entrepreneurial firm or other business entity. Sometimes it is also described as the investment climate. This article examines the effects of risk factors on the business environment.

Yusub Ədalət oğlu MİRZƏLİYEV
magistrant,
Nazim Tofiq oğlu QƏNİZADƏ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA MALİYYƏ LİZİNQ XİDMƏTİ BAZARININ TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Hazırkı şəraitdə baş vermiş köklü iqtisadi dəyişikliklər investisiya və kapitalın cəlb edilməsində müasir mülkiyyət münasibətləri üçün heç də ənənəvi sayılmayan vasitələrdən istifadə olunmasını tələb edir. İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində lizinq sektoru kapital bazarında bütün maliyyə resurslarının yarıdan çoxunu təmin edir. Müasir təsərrüfatçılıq şəraitində lizinqin çox münasib və rentabelli maliyyə resursu kimi nüfuza malik olması, həm də faktiki olaraq perspektivli sahibkarın istənilən avadanlığı müxtəlif şərtlərlə lizinqə götürə bilməsi imkanının mövcudluğu ilə şərtlənir.

Dünyanın əksər ölkələrində qəbul edilmiş əsas lizinq növləri maliyyə lizinqi və operativ lizinqdir. Lizinqin formaları isə müəyyən əlamətlərə görə qruplaşdırılır. Maliyyə lizinqi– texnikanın uzun müddətə icarəyə verilməsini nəzərdə tutan daha geniş yayılmış lizinq növüdür. İnkişaf etmiş dünya ölkələrində olduğu kimi, Azərbaycanda da maliyyə lizinqinin müddəti obyektin amortizasiya dövründən aşağı olmamalıdır. Əslində maliyyə lizinqi özündə fəaliyyət göstərən kapital şəklində uzunmüddətli kredit formasını ifadə edir.

Maliyyə lizinqi onunla fərqlənir ki, icarədar tərəfindən əmlakın servis xidmətini nəzərdə tutmur, müqavilənin təcili dayandırılmasına yol vermir və tam amortizasiya olunmuş sayılır. Onun reallaşdırılması zəruri texnikanın potensial icarədarının seçilməsini, istehsalçı ilə qiymət və göndəriş müddətləri haqqında danışıqları, lizinq şirkətinin avadanlıq alışını və bank ssudasının alınmasını nəzərdə tutur. Maliyyə lizinqinin məqsədli-icarədarların maliyyə hesabatında onların istifadə etdiyi əmlakın və üzərlərinə götürdükləri öhdəliklərin obyektiv uçotu yolu ilə baş verə bilən təriflərin yayılmasının qarşısının alınmasıdır.

Müasir dövrdə bank krediti əsas vəsaitlərin ən geniş yayılmış maliyyələşdirmə vasitəsi sayılır. İstehsal müəssisəsinin səmərəli fəaliyyət göstərməsi, istehsal güclərini artırması, rəqabət qabiliyyətini yüksəldilməsi və bazarda mövqeyinin genişləndirməsi investisiya qoyuluşu tələb edir. Bir çox dünya ölkələrində lizinq iqtisadiyyata investisiya qoyuluşu vasitəsi kimi geniş vüsət almışdır. Statistik göstəricilərə görə iqtisadiyyata investisiya qoyuluşunun 25-30 faizi lizinq yolu ilə reallaşır.

Azərbaycanın iqtisadiyyatının, xüsusən də onun qeyri-neft sektorunun inkişafında lizinqin əhəmiyyəti çox böyükdür. İllərlə fəaliyyət göstərən müəssisələrin istehsal fondlarının yenilənməsinə olan tələbat, kifayət qədər maliyyələşdirmənin və ənənəvi investisiya formalarına çıxışın olma-

ması ölkəmizdə lizinq xidmətinin inkişafını doğuran çoxsaylı amillərdəndir. Respublikamızda lizinq xidməti bazarının genişlənməsi iqtisadi inkişafın daha da sürətli getməsinə səbəb olacaqdır. Bu da aşağıdakı mühüm sosial-iqtisadi dəyişikliklərə gətirib çıxaracaqdır:

- iqtisadi infrastrukturun və istehsalın inkişafı sahələrində layihələrin maliyyələşməsi yolu ilə milli rifahın yüksəldilməsi;
- ölkədə yaşam şəraitinin daim yüksəldilməsi;
- sahibkarların maliyyə mənbələrinə asan çıxışının təmin edilməsi;
- milli iqtisadiyyata xarici və yerli maliyyə vəsaitlərinin qoyulmasının stimullaşdırılması;
- milli kapital bazarının inkişafı.

Lizinq - icarə, investisiya və ticarəti birləşdirən sahibkarlıq fəaliyyəti sistemidir. Lizinq iqtisadiyyatın formalaşması və istehsal fəaliyyətinin yüksəldilməsi üzrə ən mühüm funksiyaları yerinə yetirir. Məhsul istehsalçısının lazımi istehsal vasitələrinin tam dəyəri haqqının birdəfəlik ödənilməsindən azad edilməsi və ona maddi formada uzunmüddətli kreditin verilməsini - maliyyə funksiyası yerinə yetirir. İstehsal funksiyası istehsalat vəzifələrinin avadanlıqların alınması yolu ilə deyil, müvəqqəti istifadə yolu ilə operativ olaraq həll edilməsindən ibarətdir. Bu, istehsalın maddi-texniki bazasının təkmilləşdirilməsinin ən uyğun vasitəsidir.

Lizinqin satış funksiyası əmtəə istehlakçılarının sayının artması və yeni satış bazarlarının ələ keçirilməsini əhatə edir. Lizinqin vergi və amortizasiya güzəştlərinin alınması funksiyası aşağıda göstərilən xüsusiyyətlərə malikdir:

- ❖ lizinqə götürülmüş əmlak istifadəçinin balansında əks olunmaya bilər (mülkiyyət hüququnu lizinq verən özündə saxlayır);
- ❖ lizinq ödəmələri istehsal olunan məhsulun maya dəyərinə aid edilir;
- ❖ lizinq obyektinin kontrakt müddəti əsasında hesablanan sürətli amortizasiyanın tətbiq edilməsi mənfəəti aşağı salır və əmlakın təzələnməsini sürətləndirir.

Sahibkarlığın lizinq forması vahidliyi təmin edən prinsiplər və ya əsas müddəalar, qaydalar sisteminə əsaslanır, təcrübi fəaliyyətdə mütləq nəzərə alınan ümumi, xüsusi fərdi xarici görünüş xassələrinin qarşılıqlı əlaqələrinə istinad edir. Maliyyələşdirmə vasitəsi kimi lizinq – maşın, avadanlıq, nəqliyyat vasitələri və digər əmlak növləri almaq üçün istifadə edilir. Lizinq verənlər (banklar, lizinq şirkətləri, sığorta şirkətləri, avadanlıq istehsalçıları) avadanlığı alır və onu istifadə edilmək üçün müəssisələrə verirlər. Bunun müqabilində lizinq alan lizinq verənə faiz də daxil olmaqla müntəzəm olaraq dövri ödəmələr həyata keçirir. Müddət başa çatdıqda, avadanlıq müəssisənin mülkiyyətinə keçirilir və ya tam amortizasiyaya məruz qalaraq silinir və ya üçüncü şəxsə satılır.

Lizinq elə bir maliyyələşdirmə növüdür ki, əmlaka sahib olmaqla deyil, ondan istifadə etməklə gəlir əldə edilir. Bu fəaliyyət zamanı əsas diqqət balans hesabatına və ya kredit tarixinə deyil, lizinq alanın lizinq ödəmələrini həyata keçirmək üçün biznes fəaliyyəti nəticəsində nağd pul yarada bilmək xüsusiyyətinə yönəldilir. Buna görə də lizinq uzunmüddətli kredit tarixinə və ya girov qoymaq üçün kifayət qədər əmlaka malik olmayan yeni yaradılmış müəssisələr üçün daha əlverişlidir. Lizinq xidməti əsasən banklar, lizinq şirkətləri, avadanlıq istehsalı və ya satışı ilə məşğul olan şirkətlər tərəfindən maliyyələşdirilir. Lizinq verənlər özlərini cəlb edilmiş vəsait hesabına maliyyələşdirirlər.

Dünya ölkələrində lizinq geniş yayılmışdır və sahibkarlıq fəaliyyətinin təşkilinin ən məqsədyönlü üsulu kimi tanınır. Ölkəmizdə lizinqin müəyyən inkişafına baxmayaraq hələlik onun inkişafının yolu müəyyən edilir. Azərbaycan iqtisadiyyatının inkişafında lizinqin vacibliyi aşağıdakılarda əks olunur:

- ➢ mənəvi və fiziki cəhətdən köhnəlmiş əsas vəsaitlər sürətlə yenilənir;
- ➢ biznes fəaliyyətinin fəallaşdırılması hesabına büdcəyə vergi daxilolmalarının artırılması;
- ➢ əmtəə istehsalçılarının maliyyə vəziyyətini yaxşılaşdırmaqla biznesin rəqabətqabiliyyətliliyini yüksəldir;
- ➢ satış bazarında rəqabətqabiliyyətli məhsulların istehsalı üçün yeni texnologiyaların əldə edilməsinə şərait yaranır;
- ➢ yeni iş yerlərinin yaradılması və beləliklə də sosial məsələlərin həlli kimi amillər də

əhəmiyyətlidir;

- avadanlığı göndərən də öz məhsulunun satışını artırmaqla səmərə əldə edir.

Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 23 oktyabr 2004-cü il tarixli 466 nömrəli sərəncamı əsasında "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. "Aqrolizinq" ASC-nin əsas funksiyaları kənd təsərrüfatı məhsulları istehsalçılarına maddi-texniki xidmətlər göstərmək, onları yeni texnika və texnoloji avadanlıqlar, ehtiyat hissələri, mineral gübrələr, xəstəlik və zərərvericilərə qarşı mübarizə preparatları ilə təmin etməkdir. Hazırda cəmiyyətin tabeçiliyində 55 rayon aqroservis filialı və onların nəzdində 100-dən çox mexanikləşdirilmiş dəstə, 4 regional təchizat bazası və 3 logistik gübrə bazası fəaliyyət göstərir. "Aqrolizinq" ASC fəaliyyətə başladığı 2005-ci ildən bu günə qədər 20334 ədəd kənd təsərrüfatı texnikaları və 157 dəst texnoloji avadanlıqlar alınmış və quraşdırılmış, 300,9 min ton azot, superfosfat və nitroammofoska gübrəsi və 301,8 ton herbisid və pestisidlər gətirilərək məhsul istehsalçılarının ixtiyarına verilmişdir. Ayrılmış vəsaitin 161 milyon manatı kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqların, 85,7 milyon manatı mineral gübrə və pestisidlərin, 4,1 milyon manatı buğda toxumunun və 9,5 milyon manatı cins damazlıq heyvanların alınmasına istifadə olunmuşdur. "Aqrolizinq" ASC fiziki və hüquqi şəxslərə kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqlar lizinqə verdikdə və ya lizinq yolu ilə satdıqda bağlanmış lizinq müqaviləsinə əsasən onun dəyərinin 20 faizi qabaqcadan, qalan hissəsi isə 10 il müddətinə ödənilir.

Azəbaycanda olan lizinq şirkətlərinin aktiv lizinq portfelinin strukturunda 33,6 faiz tikinti layihələrinin, 21,9 faizi nəqliyyat, 13,8 faizi maliyyə və sığorta, 6,1 faizi yeyinti sənayesi, 5,8 faizi səhiyyə və 5,5 faizi istehsal, qalan 13,3 faizi digər layihələrin payına düşür

Araşdırmalar göstərir ki, ölkədə lizinq xidmətindən istifadə edənlərin təxminən 65 faizi kiçik və orta sahibkarlıq subyektləridir. Lizinq əsasən tikintidə, yüngül və yeyinti sənayesində, kənd təsərrüfatında və daşınmaz əmlak bazarında tətbiq edilir. İqtisadiyyatın bütün sahələrində lizinq əməliyyatları vahid qanunvericiliklə aparılsa da, onlar yalnız lizinqin predmeti və növünün xarakterinə görə deyil, həmçinin dövlət yardımının müxtəlif səviyyəsi ilə bağlı təşkilati-iqtisadi və texnoloji xüsusiyyətlərinə görə fərqlənirlər.

ƏDƏBİYYAT

1. Əliyev T.N. Qeyri – neft sənayesinin iqtisadiyyatı. Bakı. 2018. 267 s.
2. Əliyev T.N. Qeyri – neft sənayesinin iqtisadiyyatı. Bakı. 2018. 267 s.
3. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt. 2018, 376 s.
5. Məmmədov İ. N., Abbasov A. F. Qeyri-neft sahəsinin inkişaf istiqamətləri, (monoqrafiya) Bakı, Apastroff, - 2016, 248 səh.
6. Əliyev R.B., Novruzov N.A., Məmmədov M.A. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı:2003, 432 s.

Юсуб Эдалет оглы Мирзалиев
магистрант,
Назим Тофиг оглы Ганизаде
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Особенности организации рынка финансовых лизинговых услуг в азербайджане

Резюме

В статье представлены научно обоснованные предложения по усилению роли лизинга в развитии бизнеса на основе изучения и обобщения теоретико-методологических аспектов формирования лизингового рынка в стране. Определены особенности формирования рынка финансовых лизинговых услуг в Азербайджане, современный экономический механизм лизинговых отношений и пути совершенствования лизинга в бизнесе.

Yusub Adalat Mirzaliyev
master,
Nazim Tofig Ganizada
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Features of organizing the financial leasing services market in Azerbaijan

Summary

The article presents scientifically grounded proposals to enhance the role of leasing in business development, based on the study and generalization of theoretical and methodological aspects of the formation of the leasing market in the country. It identifies the characteristics of the formation of the financial leasing services market in Azerbaijan, the modern economic mechanism of leasing relations, and the ways to improve leasing in business.

Cavidan Pənah oğlu HƏSƏNZADƏ
magistrant, Azərbaycan Kooperasiya Universiteti
Əmiraslan Məhəmməd oğlu NƏBİYEV
fizika üzrə fəlsəfə doktoru, dosent,

AZƏRBAYCANDA MÜHƏNDİSLİK FƏALİYYƏTİNİN VƏ İQTİSADİ RİSKLƏRİN İDARƏ EDİLMƏSİNDƏ DÖVLƏT SİYASƏTİ

Müasir mühəndislik sistemi hər bir ölkənin milli iqtisadiyyatının ən vacib sahələrindən biridir. Keçid dövrü ərzində ölkəmizin mühəndislik sistemi müxtəlif dəyişikliyə məruz qalmışdır. Mühəndislik sektorunun ümumi sahələri dəyişdirilmişdir. Mühəndislik fəaliyyətində iqtisadi risklərin idarəedici rolunda köklü dəyişiklik və iqtisadi münasibətlərin sistemində onun əhəmiyyətinin artması deməkdir. Mühəndislik sistemi və risklərin idarə edilməsində dövlət siyasəti dövrümüzdə xüsusilə aktualdır və bunları idarə etmək lazımdır.

Beynəlxalq təcrübədən görünür ki, mühəndislik sistemində risklərin zəif korporativ idarəetmə, risklərin idarəedilməsi və daxili nəzarət problemləri çox vaxt ayrı-ayrı mühəndislik sistemində böhranlara gətirib çıxarır və mühəndislik sisteminin fəaliyyətində sabitliyə təhdidlər yaradır. Biznesin sürətli inkişafının hazırkı şəraitində risklərin idarəedilməsi problemi də Azərbaycan Respublikasının mühəndislik fəaliyyəti sektorunun vəziyyətinə mənfi təsir edən ciddi amillərdən birinə çevrilməkdədir. Mühəndislik sistemində risklər idarə olunmazsa, mühəndislik fəaliyyətində böhranlar yaranaraq mühəndislik sistemi sektorunun maliyyə sabitliyi təhdid edilə bilər. Mühəndislik sistemi risklərinin idarə edilməsində də ciddi problemlər var.

Mühəndislik fəaliyyətinin sabitliyini və mühəndislik sistemində sabitliyi təmin etməkdən ötrü potensial zəif tərəfləri mümkün qədər tez müəyyənləşdirmək və ola biləcək təhdidlərin baş verəcəyini proqnozlaşdırmaq lazımdır. Bu, ilk növbədə Azərbaycan Respublikasında da mühəndislik sistemi risklərinin monitorinqi üzrə milli sistemin yeni modernləşdirilmiş mexanizmini təmin etmək məqsədi daşıyır.

Qlobal iqtisadi böhranların nəticələri Azərbaycanda və dünyada mövcud olan mühəndislik sistemi risklərinin monitorinqi sisteminin səmərəsizliyini göstərdi və təşkilatlarda bir sıra problemləri üzə çıxardı:

- həm mühəndislik sistemində, həm də mühəndislik fəaliyyətində monitorinqin olmaması;
- hüquqi tənzimlənmənin parçalanması və metodoloji dəstəyin olmaması;
- qeyd komponentin üstünlüyü, fəaliyyətdə diaqnostik və praqnostik funksiyaların az qiymətləndirilməsi;
- milli miqyasda risk monitorinqinin aparılması üçün təşkilati strukturların olmaması;
- müxtəlif növ mühəndislik sistemi risklərinin izləmə sistemindəki deformasiyalar.

Xarici mühəndislik fəaliyyəti bazarlarının vəziyyətinin pisləşməsi əhəmiyyətli dərəcədə risklərə və risklərin idarə olunmasının zəifləməsinə səbəb olduğu və ölkələrin mühəndislik sistemi sektorundakı idarəetmə problemlərinin kəskinləşməsi ilə nəticələnən vəziyyətlər bunu olduqca aydın şəkildə göstərir.

Bu gün mühəndislik sistemi risklərinin kompleks monitorinqi üçün milli bir sistemin nəzəri və metodoloji formalaşmasına prinsipial olaraq yeni bir yanaşma tələb edilir ki, bu da monitorinq sistemlərinin problemlərini aradan qaldırmağa və bu sistemin bütövlükdə necə işləməsi üçün şərait yaratmağa imkan verəcəkdir. Yuxarıda göstərilənlər mühəndislik sistemi risklərinin kompleks monitorinq sisteminin ayrılmaz konsepsiyasının formalaşdırılması, o cümlədən nəzəri, metodoloji və tətbiqi problemlərinin inkişafı məsələlərini aktuallaşdırır.

Risk təhlili mənbələrini və səbəblərini müəyyənləşdirməklə başlayır. Bu vəziyyətdə hansı mənbələrin üstünlük təşkil etdiyini təyin etmək vacibdir. Hesablanmayan risk hər zaman itkiyə və ziyana gətirib çıxarır, lakin analitik bir yanaşma ilə bu itkilərin qarşısını ala bilərsiniz. Eyni zamanda, riski qiymətləndirərkən intuisiyaya etibar etmək lazımdır. Bu, riski hesablamaq üçün məlumat olmadıqda xüsusilə vacibdir. Bu vəziyyətdə intuisiya və hesablama bir-birini tamamlayır. Fəaliyyət göstərdikləri dövrdə mühəndislik sistemi bir-birlərindən bu risklərin meydana gəlmə yerindən və vaxtından, səviyyələrinə təsir edən xarici və daxili amillər məcmusundan və bu səbəbdən təhlil metodu və təsvir üsulları ilə fərqlənən müxtəlif növ risklərlə qarşılaşırlar. Bundan əlavə, bütün növ risklər həmişə qarşılıqlı əlaqədədirlər və mühəndislik sistemi fəaliyyətinə təsir göstərir. Vurğulamaq olar ki, bütün növ mühəndislik sistemi risklərində təhlil və idarə olunmaqla bağlı bir neçə müddəa mövcuddur.

Risk idarəetməsi həmişə risklərin əvəzləşdirilməsi demək deyil. Risk nəzəriyyəsinin əsas müddəalarından birinə görə, bir maliyyə təşkilatının rəhbərliyi minimum risk üçün deyil, onun optimal səviyyəsi üçün səy göstərməlidir.

- ❖ Risk kompensasiyası həmişə müəyyən bir xərclə əlaqələndirilir;
- ❖ Bir maliyyə qurumunun planlaşdırılan mənfəətinin və ya mövcudluğu üçün tələb olunan mənfəətin ölçüsü birbaşa strategiya və risk siyasətinin həyata keçirilməsi ilə əlaqəli olmamalıdır.

Maliyyə sektoru subyektlərinin fəaliyyətində yaranan risklərin təsnifatı sayəsində analitiklər onları təhlil məqsədlərinə görə təsnif etmək və oxşar qruplar yaratmaq imkanı əldə edirlər ki, bu da müəyyən təhlil və optimallaşdırma metodlarının effektiv şəkildə tətbiq edilməsinə imkan yaradır.

Mühəndislik sistemiın ümumi səviyyəsində (bazar riski: valyuta riski, əmtəə riski), risklərin idarə edilməsi funksiyasını yerinə yetirən təşkilati struktur, mühəndislik sistemiinə mənfi təsir göstərə biləcək və mühəndislik sistemini məhdudlaşdıran gözlənilməz hadisələrin qarşısını ala bilər. Risk, birinin vəziyyətinin pisləşməsi, aktivinin dəyərsizləşməsi və ya dəyərdən düşməsi ilə nəticələnən hadisə nəticəsində yaranan zərər ehtimalıdır. Risk idarəetməsinin məqsədi bu cür hadisələri aradan qaldırmaq, riski məqbul parametrlər daxilində saxlamaq, mühəndislik sistemini qorumaq və onlardan əldə olunan gəlirin zərərləri ödəməsini təmin etməkdir. Mühəndislik sistemi bütün fəaliyyət riskini, ayrıca fərdi və ya əməliyyatlarla əlaqəli riskləri idarə etməlidir. Risk idarəetmə riskin idarə olunması sahəsində aşağıdakı funksiyaları yerinə yetirməlidir:

1) qarşı tərəfin mühəndislik fəaliyyəti şərtlərinə uyğunluğunu izləmək;

2) işdəki dəyişiklikləri qiymətləndirmək üçün müştəri ilə müntəzəm görüşlər təşkil etmək;

3) riskin idarəedilməsinin müqavilədə göstərilən məqsədlər üçün istifadə olunduğunu daim yoxlamaq;

4) mühəndisliyin vəziyyətinə dair bütün mövcud məlumatlar (mətbuatda yayımlanan məlumatlar daxil olmaqla) vasitəsilə nəzarət etmək;

5) lazım gələrsə, vaxtı keçmiş mühəndislik fəaliyyəti üçün müvafiq prosedurlardan istifadə etmək.

Riskləri müəyyənləşdirmək üçün aşağıdakı meyarlar hesablana bilər:

- ✓ Erkən yaranma riski: Bu vəziyyətdə zərərin ölçüsü mövcud bazar qiymətlərindən asılıdır. Əvvəlcədən risk ekvivalentlik prinsipinə uyğun olaraq qiymətləndirilməli və riskin əvəzləşdirilməsinin hazırkı dəyərindəki dəyişikliklər nəticəsində müəssisənin gələcək potensial riskinin bir

çox qiymətləndirmələrinin bir hissəsini əks etdirməlidir.

✓ Mövcud təhlükə: Bu, qarşı tərəfin bugünkü halında baş verən və mövcud bazar vəziyyətini yenidən qiymətləndirməyə bərabər olan zərər növüdür.

✓ Potensial risk, qarşı tərəfin müəyyən bir müddətdə itiriləcəkləri əks etdirən bir əməliyyatın gələcək indiki dəyərinin qiymətləndirilməsidir. Ən yaxşı təcrübəyə görə, bu dəyər modelləşdirmə yolu ilə əldə edilməli və bazar dəyişkənliyi, portfel təsiri, xalisləşdirmə müqavilələri, digər alətlər nəzərə alınmaqla riskli dəyər baxımından bazar riskinin modelləşdirilməsinə bənzəməlidir. Nisbətən mürəkkəb alternativ təcrübələrə əsasən potensial riski hesablamaq üçün təxminlərdən etibarlı şəkildə istifadə edilə bilər.

✓ Gözlənilən zərər, mühəndislik sisteminin mövcud məlumatlara əsasən baş verməsi ehtimal olunan zərər səviyyəsini əks etdirir. Bu riyazi ehtimal qarşı tərəfin ödəyə bilməməsi ehtimalı və yığılmış faiz dərəcələri ilə xarakterizə olunur.

✓ Gözlənilməz zərər faktiki itkinin gözlənilən itkidən daha yüksək və ya aşağı olma ehtimalını əks etdirir. Təsadüfi zərər dərəcəsi, ən pis zərərin müəyyən edilmiş etibarlılıq səviyyəsi daxilində ölçülməsi ilə qiymətləndirilir. Gözlənilməz zərərlər, müəyyən bir etibarlılıq səviyyəsində gözlənilməz zərərlərin meydana gəlməsi üçün kifayət qədər risk kapitalının ayrılması ilə mühəndislik sisteminin gözlənilən zərərlərini əhəmiyyətli dərəcədə aşan qısamüddətli zərərlərdən qorumaq üçün bir vasitədir.

Gələcəkdə mühəndislik fəaliyyətinə ehtiyaclarını müəyyən etmək üçün risk departamenti hər fəaliyyət üçün proqnozlaşdırılan axını qiymətləndirməli və izləməlidir. Bazar ehtiyaclarını ödəmək və ya bazarı itirmək üçün hazırlanmış alternativ strategiyalar fövqəladə halların planlaşdırılması prosesinə daxil edilməlidir. Mühəndislik sisteminin fəaliyyət göstərdiyi bazarlarda risklər mütəmadi olaraq qiymətləndirilməlidir. Uyğun olduğu təqdirdə bazar riski bazar mövqeyini bağlamaq üçün təxmin edilən vaxtı əks etdirən risk dəyəri olan bir modelə daxil edilməlidir.

Mühəndislik sistemi risklərinin monitorinqi və proqnozlaşdırılması nəzəriyyəsi və təcrübəsi bazarlara dair ədəbiyyatda aparıcı yerlərdən birini tutur. Bununla birlikdə, bu mövzuda çox sayda əsər nəşr olunmasına baxmayaraq, "mühəndislik sistemi riskləri" termini ilə nəyin tam olaraq başa düşülməsi lazım olduğu və bunların necə təsnif ediləcəyi barədə vahid bir baxışların olmadığı ifadə edilə bilər. Mühəndislik sistemi riskləri iqtisadi risklərin alt növüdür və bu səbəbdən mənşəyinə görə mürəkkəbdir. Bir tərəfdən mühəndislik sistemi riski spesifik və müstəqildir, digər tərəfdən, digər iqtisadi risklərdən təsirlənir və kompleks bir sistemin hissəsidir. Beləliklə, risk, birincisi, gələcəyə dair qeyri-müəyyənliyə, ikincisi, risklərdən qaçınmağın zəruriliyinə əsaslanır, çünki tərifl ərin özləri məhvolma, itki, ziyan ehtimalını əks etdirir.

Mühəndislik fəaliyyətlərində risklərlə üzləşirlər. Həm də mühəndislik sistemi risklərini ayırmaq məsələsi ortaya çıxır, çünki bəzən aralarındakı sərhədləri təyin etmək çətindir. Ümumi risklərdən danışırıqsa, mühəndislik sisteminin fəaliyyətindən asılı olmayan xarici amillərin təsiri nəticəsində yaranır. Mühəndislik risklərinin təsnifatına gəldikdə, bazar münasibətlərinin inkişafına, mühəndislik sistemi fəaliyyətinin təşkili sahəsində yeni texnologiyalara, o cümlədən məlumatlara əsaslanaraq daim təkmilləşdirilməlidir. Müxtəlif müəlliflərin əsərlərində risk anlayışları fərqlənir. Müəyyən bir ierarxiya var, yəni risklərin xarici və daxili bölünməsi, bununla əlaqədar onların əksəriyyəti ölkənin risk menecmenti təcrübəsinə uyğun gəlmir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası
2. Bağırov Orxan. İqtisadiyyatın diversifikasiyası və onun maliyyə səmərəliliyinin qiymətləndirilməsi (Səh. 23-27)-2021
3. Bayraməliyeva Nərmin. "Müasir dövrdə iqtisadi siyasətin başlıca məqsədləri və reallaşma istiqamətləri, (77s; 2021)
4. Əsgərov Emin. İqtisadi resurslar və iqtisadi nemətlər, 2025.
5. İslamzadə Vüqar. "Dayanıqlı iqtisadi inkişafın təmin edilməsində xarici iqtisadi əlaqələrin rolu və vəzifələri"(səh. 16-41; 2018).

магистрант, Джавидан Панах оглы Гасанзаде
Амираслан Магамед оглы Набиев
доктор философии по физике, доцент,
Азербайджанский Университет Кооперации

Государственная политика в области управления инженерной деятельностью и экономическими рисками в Азербайджане

Резюме

Инженерная система Азербайджана является одной из важнейших отраслей народного хозяйства каждой страны. В переходный период инженерная система нашей страны претерпела различные изменения. Изменились основные направления инженерной отрасли. Это означает радикальное изменение управленческой роли экономических рисков в инженерной деятельности и повышение ее значимости в системе экономических отношений. Государственная политика в области управления инженерными системами и рисками особенно актуальна в наше время, и необходимо управлять ими.

В современных условиях стремительного развития бизнеса проблема управления рисками также становится одним из серьезных факторов, негативно влияющих на состояние инженерной отрасли Азербайджанской Республики. Если риски в инженерной системе не будут управляться, могут возникнуть кризисы в инженерной деятельности и возникнуть угроза финансовой устойчивости инженерной отрасли.

Javidan Panah Hasanzadeh
master,
Amiraslan Muhammad Nabiyev
doctor of philosophy in physics, associate professor,
Azerbaijan Cooperation University

State policy in the management of engineerıng activitıes and economic risks in Azerbaijan

Summary

The engineering system in Azerbaijan is one of the most important sectors of the national economy of each country. During the transition period, the engineering system of our country has undergone various changes. The general areas of the engineering sector have been changed. This means a radical change in the managerial role of economic risks in engineering activities and an increase in its importance in the system of economic relations. State policy in the management of engineering systems and risks is especially relevant in our time and it is necessary to manage them.

In the current conditions of rapid business development, the problem of risk management is also becoming one of the serious factors that negatively affect the state of the engineering activity sector of the Republic of Azerbaijan. If risks in the engineering system are not managed, crises in engineering activities may arise and the financial stability of the engineering system sector may be threatened.

Afət Rza qızı HƏSƏNƏLİYEVA
magistrant,
Elnur Abil oğlu MƏMMƏDOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

VERGİ PLANLAŞDIRILMASININ İQTİSADİ FƏALİYYƏT SUBYEKTLƏRİNİN MALİYYƏ VƏZİYYƏTİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Vergi planlaşdırılması bərabərlik, səmərəlilik, habelə sadəlik kimi mühüm cəhətləri özündə ehtiva etməklə fəaliyyət subyektlərinin müvafiq hüquqi tənzimləmə çərçivəsində yararlana biləcəkləri hüquqları özündə ehtiva edir. Vergi planlaşdırılması zamanı vergilərdən yayınma halları baş verə bilər. Hətta, bəzi hallarda qanunsuz olaraq reallaşdırılan vergi planlaşdırılması hallarına da rast gəlmək mümkündür. Lakin ortaya çıxan məsələ vergidən yayınma kimi bir xüsusiyyətə malikdir və bu cür hallar qanun pozuntusuna gətirib çıxarır. Vergi planlaşdırılmasını başqa bir perspektivdə müəyyənləşdirmək məqsədilə vergi üstünlüyünü maksimum dərəcədə artırmaq və ya vergini azaltmaq üçün təqvim ilində vergilərin vaxtında hesablanması zəruridir.

Ümumiyyətlə, vergi planlaşdırılması geniş şəkildə vergi qanunvericiliyi ilə müəyyən edilmiş güzəşt və azadolmalardan istifadə edərək bərabərliyi, səmərəliliyi və sadəliyi özündə cəmləşdirən dövri bir maliyyə razılaşması kimi də xarakterizə olunur. Fərdlər baxımından vergi planlaşdırılmasında nəzərə alınacaq iki əsas amil inflyasiya və vergilərdir. Bununla yanaşı, inflyasiya fərdlərin nəzarəti xaricində olsa da, fərdlər effektiv vergi planlaşdırılması baxımından burada proaktiv rol oynamaq imkanına malikdirlər. Vergi planlaşdırılması prosesi bir-birilə sıx surətdə əlaqəli olan bir neçə mərhələdən ibarətdir. Bu proses müəssisənin qeydiyyatdan əvvəl və qeydiyyatdan sonrakı dövrlərini əhatə edə bilər.

Müəssisənin qeydiyyata alınmasından əvvəl vergi planlaşdırılması prosesi əsas etibarilə aşağıda qeyd olunan mərhələlərdən ibarət olur:

İqtisadi subyektin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi. Burada ilk növbədə məqsəd və vəzifələr müəyyənləşdirilir, qanunla nəzərdə tutulan vergi güzəştlərindən istifadə imkanları nəzərdən keçirilir.

İqtisadi subyektin harada yerləşməsinə dair seçim. Bu mərhələ ərzində vergi baxımından müəssisənin, onun filiallarının, törəmə müəssisələrinin və idarəetmə orqanlarının harada yerləşməsi haqqında qərar qəbul edilir. Müxtəlif ölkələrdəki vergi rejimləri arasındakı fərqlər vergidən yayınma halları üçün xüsusi şərait yaradır.

Müəssisənin qeydiyyata alınmasından sonra vergi planlaşdırılması prosesi isə əsas etibarilə aşağıda qeyd olunan mərhələlərdən ibarətdir: [5]

Mövcud vergi planlaşdırılması. Buraya aşağıdakılar daxildir:

- vergi güzəştlərindən istifadə edilməsi;
- müəssisənin iqtisadi fəaliyyəti ilə əlaqəli müqavilələrin hazırlanmasında vergi amilinin nəzərə alınması;
- uçot siyasətinin seçilməsi və s.

Fəaliyyət üzrə forma və metodların düzgün seçilməsi. Bu mərhələnin mahiyyəti cari iş fəaliyyətində vergi güzəştləri və imtiyazlarından maksimum dərəcədə tam, dəqiq və düzgün istifadə edilməsidir. Burada həlli zəruri olan əsas məsələlər əməliyyatların planlaşdırılması (alqı-satqı müqaviləsi, icarə müqaviləsi və s.), güzəştlərdən düzgün istifadə, vergi qanunvericiliyində olan dəyişikliklərə operativ reaksiya verilməsi və s. istiqamətləri əhatə edir.

Müəssisə aktivlərinin və mənfəətinin yerləşdirilmə formaları və metodlarının seçilməsi. Bu zaman vergi baxımından müəssisə aktivlərinin və mənfəətinin səmərəli yerləşdirilməsi kimi məsələlərin həllinə diqqət yetirilir. Məsələn, bəzi ölkələrdə yenidənqurma işləri, dövlət qiymətli kağızlarına investisiyalar və onlardan əldə olunan gəlirlər vergidən azaddır. Bu səbəbdən də müəssisənin əmlakının vergi öhdəliklərinin məbləğini minimuma endirə biləcək şəkildə yerləşdirilməsi təmin edilir.

Vergi planlaşdırılması vergi ödəyicisi tərəfindən seçilmiş əlverişli vergi rejiminə uyğun olaraq fəaliyyət göstərilməsini nəzərdə tutur və beləliklə bu fəaliyyətin forma və məzmununun dəyişdirilməsini tələb edir. Bu dəyişikliklər ilk növbədə fiziki şəxslərin, habelə müəssisələrin vergi öhdəliklərinin müəyyənləşdirilməsi zamanı vergi qanunvericiliyinin əsas olaraq nəzərə aldığı xüsusiyyətləri əhatə etməlidir.

Vergi planlaşdırılmasının təşkili vergi idarəetməsinin təşkilati quruluşunun formalaşdırılması, zəruri kadrların seçilməsi, vergi planlaşdırılmasının strateji hədəflərinə nail olmaq üçün lazım olan maliyyə vəsaitlərinin yönəldilməsi kimi istiqamətləri ehtiva etməlidir. Vergi planlaşdırılmasının təşkilati strukturu formalaşdırıldığı zaman bu prosesin ikili xüsusiyyəti mütləq şəkildə nəzərə alınmalıdır.

İnvestisiya ilə bağlı qərarlara vergi planlaşdırılmasının təsiri. Müəssisələrin investisiya qərarlarına təsir edən müxtəlif yanaşmalar mövcuddur. Birinci yanaşma, investisiyanın keçmiş satış və istehsal potensialının bir funksiyası olması, ikinci yanaşma sərmayənin gözlənilən gələcək gəlirin bir funksiyası olması, üçüncü yanaşma isə vergi sonrası mənfəət həcmi və amortizasiya məbləğləri daxil olmaqla fondların xüsusi funksiyasının olmasıdır.

Birinci yanaşmaya görə investisiya əvvəlki satış həcminin və kapital tutumunun dəyişməsindən asılıdır. Gələcəkdə satış həcmi artımının mövcud kapital tutumu ilə ödənilməyəcəyi gözlənilirsə, investisiyalar artacaq və satışların artması səbəbindən investisiyalar artarsa, vergilər birbaşa investisiyalara təsir göstərməyəcəkdir.

İkinci yanaşmada investisiyanın gələcək gəlirliliyinə görə qərar verilir. Gələcəkdə mümkün investisiyaların müqabilində kifayət qədər gəlir əldə olunacağı təxmin edildiyi təqdirdə, investisiyalar qoyuluşu reallaşdırılır və bu halda vergilər sərmayələrə birbaşa təsir göstərir [3]

Üçüncü yanaşmada investor xarici kapitalın mənfi təsirlərinin qarşısını almaq üçün daxili fondlara üstünlük verdiyindən vergi həm nağd pul axını, həm də gəlirlilik baxımından əhəmiyyətli olacaqdır.

Ölkəmizdə vergi planlaşdırılması ilə bağlı aparılan tədqiqatlar borc alma nisbəti ilə firma ölçüsü arasında pozitiv əlaqənin olduğunu, yəni, böyük fəaliyyət subyektlərinin vergi qənaətindən faydalanmaq üçün kiçik subyektlərlə müqayisədə xarici mənbələrdən daha çox istifadə etdiyini göstərir.

Azərbaycan Respublikası bazar iqtisadiyyatının formalaşmasına və dünya iqtisadiyyatına inteqrasiyaya yönəlmiş məqsədyönlü iqtisadi siyasət çərçivəsində çevik vergi siyasətini izləyir və bu siyasət son nəticədə iqtisadi potensialın artırılması və əhalinin maddi rifahının yaxşılaşdırılması məqsədinə xidmət edir.

İqtisadiyyatın vergi tənzimlənməsi, vergi sisteminin inkişafı, vergi sahəsində yeni elementlərin və metodların tətbiqi məsələləri həmişə işgüzar mühitlə əlaqəli olmuşdur. Ölkəmizdə vergi sisteminin modernləşdirilməsi istiqamətində mütəmadi olaraq məqsədyönlü addımlar atılır.

Vergi planlaşdırılmasının daxili məzmunu büdcə gəlirlərinin formalaşması zamanı yaranan hüquqi və maliyyə münasibətlərindən və vergi məbləğlərinin bölgələr arasında yenidən bölüşdürülməsindən ibarətdir. Təşkilati-iqtisadi və maliyyə münasibətləri sistemi vergi planlaşdırılmasının reallaşdırılmasının xüsusiyyətlərini müəyyənləşdirir.

Vergi planlaşdırılması, vergi tənzimlənməsi və idarəetməsi, eləcə də vergi nəzarəti metodları birbirindən fərqli xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər onları müstəqil bir sahə kimi araşdırmağa və onların təbii qanunauyğunluqlarını müəyyən etməyə imkan verir. Göstərilənlər nəzərə alınmaqla, iqtisadi subyektlərdə vergi planlaşdırılmasının təkmilləşdirilməsi üçün müvafiq təlimatlar işlənibhazırlanır. Vergi tənzimlənməsi, vergi idarəetməsi və vergi nəzarəti eyni qaydalara tabedir. Onlar üçün ümumi idarəetmə nəzəriyyəsində irəli sürülən müddəalar daha zəruri xarakter daşıyır.

İqtisadi subyektlərdə vergi planlaşdırılmasının formalaşdırılması və tətbiqinin inkişaf istiqaməti. Vergi planlaşdırılmasının inkişafı prosesi aşağıda göstərilən ardıcıllıq üzrə müvafiq mərhələləri ehtiva edir:

- vergi planlaşdırılmasının təkmilləşdirilməsi;
- vergi planlaşdırılmasının praktiki surətdə tətbiqi;
- müəyyən edilmiş vergi münasibətlərinin forma və metodlara uyğunluğunun yoxlanılması;
- zəruri məlumatların toplanılması;

- vergi planlaşdırılmasının üstünlüklərini və çatışmamazlıqlarını aşkar etmək üçün nəzarət tədbirlərinin həyata keçirilməsi;
- vergi sisteminin təhlili və qiymətləndirilməsi, həmçinin, vergi planlaşdırılmasının təkmilləşdirilməsi üzrə təkliflərin işlənib-hazırlanması.

Vergi planlaşdırılmasının tətbiqindən irəli gələn münasibətlər isə aşağıdakı kimi qruplaşdırılır:
- hüquqi tənzimləmə;
- vergi proqnozlaşdırılması;
- vergi idarəetməsi;
- vergi nəzarəti.

Vergi planlaşdırılması prosesində həm vergi güzəştləri şəklində təşviq metodlarından, həm də cərimələr şəklində sanksiyalardan istifadə edilir. Mövcud tənzimləmə metodlarının qarşılıqlı əlaqəli sahələrindən və makroiqtisadi səviyyədə iqtisadi münasibətlərdən asılı olaraq, dövlət tənzimləmə mexanizmində vergilər tərəfindən yerinə yetirilən funksiyalar vergi tənzimlənməsində xüsusi yer tutur və dövlət həmişə öz iqtisadi siyasətində onlardan davamlı surətdə istifadə edir.

Vergi planlaşdırılmasının inkişaf etdirilməsi üzrə tədbirlər. Ədalətliliyi, sadəliyi və səmərəliliyi təmin etmək, eləcə də vergi sistemində iqtisadi inkişafa mane olan bütün uyğunsuzluqları aradan qaldırmaq üçün tənzimləyici tədbirlər həyata keçirilir. Tətbiq olunan vergi normalarının sahibkarlıq və innovasiya fəaliyyətinə məhdudlaşdırıcı təsiri olduqda və əhalinin qənaət səviyyəsinin azaldığı müəyyən edildikdə yeni bir vergi konsepsiyasının hazırlanması zərurəti yaranır.

Vergi sisteminin mütəmadi olaraq sadələşdirilməsinə olan ehtiyac vergi islahatında əsas amillərdən biridir. Faktlar göstərir ki, islahatlararası dövrdə vergi qanunvericiliyinə çoxsaylı əlavələr və dəyişikliklər vəziyyəti daha da mürəkkəb hala gətirir.

Hər hansı bir ölkədə iqtisadi subyektlərdə vergi sisteminin mürəkkəbliyi inzibati xərclərin artmasına səbəb olur. Eyni zamanda, vergi yükünün müxtəlif vergi ödəyiciləri qrupları arasında qeyri-bərabər paylanması ideyasına inam artır. Nəticədə, iqtisadi islahatlar çərçivəsində vergi islahatları üçün təşviqlər həyata keçirilir.

Vergitutma bazasının genişləndirilməsi gəlirin düzgün təqdim edilməsi yolu ilə vergi ödəyiciləri tərəfindən həyata keçirilməlidir. Bu məqsədlə vergi ödəyicilərinin faktiki vergitutma bazasının təmin edilməsində maraqlı olması üçün müvafiq iqtisadi və əlavə sosial müdafiə təşviqlərinin müəyyənləşdirilməsi üçün lazımi tədbirlər görülməlidir. Birbaşa vergilər üçün aşağıdakı sahələrdə müvafiq tədbirlərin reallaşdırılması məqsədəuyğun ola bilər.

Gəlir vergisi üzrə qanunvericilik müddəalarının təkmilləşdirilməsi. Ölkənin iqtisadi artım tempini və gələcək inkişaf perspektivlərini nəzərə alaraq fərdlərin gəlirlərini artırmaq ənənəsinin davam etdirilməsi gözləntisi diqqət mərkəzində saxlanmalıdır. Bu çərçivədə fiziki şəxslərin gəlir vergisinin tətbiqi sahəsində aşağıdakı prioritetlər nəzərə alınmalıdır:

- fiziki şəxslərin gəlir vergisi üzrə vergi gəlirlərinin artması fiziki şəxslərin vergitutma bazasının artması ilə əlaqəli olmalıdır;
- fiziki şəxslərin gəlirləri ölkənin iqtisadi inkişafından asılı olaraq artdıqca vergi bazasında artım təmin edilməlidir və müvafiq gəlirlər vergi ödəyiciləri üçün şəffaf olmalıdır;
- sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin həqiqi gəlirlərinin şəffaf olmasını təmin etmək üçün mövcud qanunvericilik bazası təkmilləşdirilməli və real gəlirlərin bəyan edilməsinə yönələn stimullar formalaşdırılmalıdır.

Qeyd olunanlar həm dövlətin iqtisadi və sosial fəaliyyətinin səmərəliliyinin artırılması, həm də onun inkişaf baxımından beynəlxalq standartlara yaxınlaşdırılması üçün zəruridir. Nəticədə, fərdi gəlirlərin şəffaflığının artırılması mümkün olacaqdır ki, bu da müəssisələrin rəqabət qabiliyyətinə müsbət təsir göstərəcək və iqtisadi subyektlərdə gəlirləri artırmış olacaqdır.

Dolayı vergilərin təkmilləşdirilməsi üçün prioritet sahələr. Dolayı vergilər üzrə prioritetlər vergi qanunvericiliyinin və inzibatçılığının daha da təkmilləşdirilməsi yolu ilə vergidən yayınmanın minimuma endirilməsini ehtiva etməlidir. Əlavə dəyər vergisinin tətbiqinin səmərəliliyini artırmaq, vergidən yayınma hallarını minimuma endirmək və büdcə gəlirlərində əlavə dəyər vergisinin payını artırmaq üçün mal və xidmətlərə fərqli əlavə dəyər vergisi dərəcələri tətbiq etmək məqsədəuyğundur.

Vergi inzibatçılığının təkmilləşdirilməsi üçün prioritet sahələr. Strateji prioritetlər və ölkənin maliyyə mənbələrinin sürətlə artması vergi qanunvericiliyinin və inzibatçılığının beynəlxalq standartlara uyğunlaşdırılması prosesinin sürətləndirilməsi ilə bağlı tələblər və imkanlar formalaşdırır. Beynəlxalq standartlara cavab verən vergi inzibatçılığının əsas məqsədləri həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının ehtiyaclarını ödəməli, qarşılıqlı fəaliyyətlər bir-birini tamamlamalı və balanslaşdırılmış şəkildə inkişaf etdirilməlidir.

Qeyd olunanlar əsasında belə bir nəticəyə gəlmək olar ki, vergi planlaşdırılmasına yalnız dövlətin vergi yığımı prosesinə operativ müdaxiləsi kimi yanaşmaq tamamilə yanlışdır. Belə bir yanaşmaya əsasən, vergi planlaşdırılması obyektiv xarakterini itirir və resursların yenidən bölüşdürülməsi vasitəsinə çevrilir. Həmçinin, vergi planlaşdırılması zamanı obyektiv və subyektiv amillərin vəhdəti, o cümlədən, həmin amillərin qarşılıqlı təsir və asılılıq əlaqələri müəyyənləşir və həmin əlaqələr tədricən inkişaf yönümlü istiqamətlərdə özünü təcəssüm etdirir.

Beləliklə, iqtisadi subyektlərdə bu və ya digər məqsədyönlü tədbirlərin reallaşdırılması yolu ilə vergi planlaşdırılması sahəsində təkmilləşdirilmə yönümlü müvafiq addımların atılması ilə ümumilikdə ölkə üzrə iqtisadi inkişafın sürətləndirilməsi prosesinə zəruri töhfələrin verilməsi mümkün olacaqdır.

ƏDƏBİYYAT

1. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Maliyyə nəzəriyyəsi. Bakı, ”Kooperasiya” nəşriyyatı, 2014
2. Bağırov D., Həsənli M. Maliyyə. Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 2011
3. Blazovich J.L., Huston G.R. and Huston J.M. Creating an executive compensation plan: A corporate taxes planning case. 2014, p. 1-8
4. Məcidov M. Vergi sistemi. Bakı, “Elm” nəşriyyatı, 2013
5. Məmmədov F.A., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.Ş. Vergilər və vergitutma. Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 2014

Афет Рза кызы Гасаналиева
магистрант,
Эльнур Абиль оглы Мамедов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Оценка влияния налогового планирования на финансовое состояние субъектов хозяйственной деятельности

Резюме

В тезисе рассматриваются сущность, цель, задачи и виды классификации налогового планирования. Помимо исследования направлений влияния налогового планирования на финансовое положение субъектов хозяйственной деятельности, определяются направления повышения эффективности налогового планирования.

Afet Rza Hasanaliyeva
master,
Elnur Abil Mammadov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Assessment of the impact of tax planning on the financial situation of economic activity subjects

Summary

The thesis considers the essence, purpose, objectives and classification types of tax planning. Here, in addition to studying the directions of impact of tax planning on the financial situation of economic activity subjects, directions for increasing the efficiency of tax planning are identified.

Yusif Elman oğlu QURBANOV
magistrant,
Elnur Abil oğlu MƏMMƏDOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

VERGİ REJİMLƏRİ VƏ ONLARIN TƏTBİQİ MEXANİZMLƏRİ

Müasir dövrdə "vergi optimallaşdırılması" anlayışına müxtəlif və eyni zamanda olduqca oxşar yanaşmalar mövcuddur. Belə ki, verginin azaldılması (vergi optimallaşdırılması) dedikdə, vergi ödəyicisinin vergilər, rüsumlar və digər ödənişlər şəklində büdcəyə məcburi ödənişlərinin müəyyən qədər azaldılmasına imkan verən bu və ya digər hərəkətləridir. Bəzi yanaşmalara görə, "vergi optimallaşdırılması" vergi ödəyicisi tərəfindən məqsədyönlü tədbirlər vasitəsilə vergi öhdəliklərinin həcminin azaldılmasıdır.

Ölkəmizdə vergi optimallaşdırılması Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş müvafiq müddəaların həyata keçirilməsidir. [1]

Vergitutmanın optimallaşdırılmasında müəssisə tərəfindən optimallaşdırma və vergidən yayınma arasında olan həddi nəzarətdə saxlamaq əsas məsələlərdəndir. Vergi optimallaşdırılması vergi öhdəliyinin həcminin vergi ödəyicisi tərəfindən məqsədyönlü və hüquqi əsaslarla azaldılması deməkdir və aşağıdakıları ehtiva edir:

- qanunvericilik çərçivəsində təqdim olunan imtiyazlar və güzəştlərdən bütövlükdə istifadə;
- vergidən azadolmalar;
- digər qanuni metodlar.

Ümumiyyətlə, vergilərin optimallaşdırılması metodu qeyri-qanuni və qanuni üsullara ayrılır. Vergilərin optimallaşdırılmasında müəssisə fərdilik, təbiilik, səmərəliliyin və itkilərin uyğunluğu, məxfilik, hüquqi cəhətdən aydınlıq, dinamiklik, nəzarət, məzmun və formanın uyğunluğu, diversifikasiya, neytrallıq və kompleks yanaşma qaydalarına cavab verən qanuni üsullardan istifadə etməlidir.

Vergi yükünün azaldılmasının əsas metodu vergi planlaşdırılmasıdır. Planlaşdırma zərurəti müxtəlif vəziyyətlər üçün konkret vergi rejimlərini nəzərdə tutan, vergitutma bazasının hesaba alınması üçün müxtəlif metodlardan istifadəyə icazə verən və vergi ödəyicilərinə fərqli güzəştlər təklif edən vergi qanunvericiliyində öz əksini tapmışdır. Vergi planlaşdırılmasının ən əsas məqsədi vergi ödənişlərini minimallaşdırmağa imkanı verən istiqamətin seçilməsidir.

Vergitutmanın səmərəli təşkili və mümkün vergi risklərinin proqnozlaşdırılması müəssisələrin sabit maliyyə vəziyyətinə çatmasında əhəmiyyətli dərəcədə köməklik göstərir, çünki onlar maliyyə fəaliyyəti zamanı böyük itkilərin qarşısını almağa imkan verir. Vergi optimallaşdırılması yalnız müəssisədə vergi sisteminin optimallaşdırılması olaraq deyil, eyni zamanda, seçilmiş vergi sistemi ilə əlaqəli vergi risklərinin qiymətləndirilməsi kimi də başa düşülməlidir. Optimal vergi rejiminin müəyyən edilməsi qaydası vergi və maliyyə idarəetməsinin olduqca mürəkkəb və məsuliyyətli bir mərhələsidir.

Optimal vergi sisteminin seçilməsinin ilk mərhələsində ümumi vergi sistemi və sadələşdirilmiş vergi sistemindən istifadə edildiyi təqdirdə müəssisənin vergi yükünün səviyyəsinin qiymətləndirilməsi zəruridir.

Minimum vergi yükü meyarı ilə sadələşdirilmiş vergi sistemindən istifadə edən müəssisələrin fəaliyyəti əlavə dəyər vergisi ödəyicisi olmamaqdan irəli gələrək artan vergi riskləri ilə xarakterizə olunur. Eyni zamanda, bu müəssisənin alıcıları (müştəriləri) daha əlverişsiz vəziyyətdə olurlar. [5]

Müəyyən yanaşmalara əsasən, gəlirdə xərclərin xüsusi çəkisi 60 faizdən çox olduqda və ya istehsalın gəlirliliyi 40 faizdən çox olmadıqda vergitutma obyekti olaraq "gəlirdən çıxılan xərclər" göstəricisindən istifadə iqtisadi cəhətdən mümkündür.

Vergi yükünün optimallaşdırılması prosesinin təkmilləşdirilməsi istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilə bilər:

1. Üstünlüklər nəzərə alınmaqla sadələşdirilmiş vergitutma sisteminin təkmilləşdirilməsi:

- fəaliyyət sahələrində dövriyyə meyarlarının diferensiallaşdırılması;
- əvvəlki illərin indeksləşdirilməsi nəzərə alınmaqla gəlirlərin həcm göstəricilərinin indeksləşdirilməsi;
- beynəlxalq təcrübəyə uyğun olaraq vergi dərəcələrinin minimallaşdırılması;
- fərdi sahibkarların yerləşdikləri ərazidə əhalinin sayı nəzərə alınmaqla vergi öhdəliyinin minimallaşdırılması.

2. Diferensial vergi sisteminin tətbiqi.

3. Müəssisədə vergi siyasətinin formalaşdırılması və həyata keçirilməsi çərçivəsində vergi yükünün tənzimlənməsi ilə məşğul olan müvafiq struktur bölmənin formalaşdırılması.

4. Müəyyən müəssisə üçün vergi rejiminin doğru seçilməsi.

5. Vergitutmanın optimallaşdırılması məqsədilə ofşor mexanizmlərdən istifadə olunması.

6. Vergi normalarının birmənalı şərhi, vergi qanunvericiliyinin sadələşdirilməsinə nail olunması və s.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, müəssisənin vergi yükünün minimuma endirilməsi onun bazar dəyərinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi üçün mühüm şərtləndirici amildir. Eyni zamanda, müəssisələrdə optimal vergi sisteminin seçilməsi mütəxəssislərdən daim peşəkar yanaşma tələb edən bir məsələdir.

Azərbaycan Respublikasında müvafiq qaydada bir neçə vergi rejimi tətbiq olunur ki, onlara ümumi vergititma rejimi, sadələşdirilmiş vergi rejimi, xüsusi vergi rejimi, xüsusi iqtisadi zonalar üzrə tətbiq edilən vergi rejimi və ixrac məqsədli olan neft-qaz fəaliyyəti ilə bağlı olan vergi rejimi aid edilir.

Vergi idarəetməsinin əsas elementlərindən biri olan vergi rejimlərində mövcud olan güzəştlər ölkəmizdə uğurla həyata keçirilən iqtisadi siyasətin tərkib hissəsi sayılan vergi siyasətinin səmərəliliyinin artırılmasında mühüm rola malikdir. Vergi güzəştlərinin tətbiqi cari dövrdə vergi siyasətində ən çox müzakirə edilən məsələlərdən biri hesab olunur. Vergi qanunvericiliyində vergi güzəştlərinin iqtisadi cəhətdən əsaslandırılması və onların tətbiqi üzrə səmərəliliyin qiymətləndirilməsi üçün meyarların qeyri-müəyyənliyi həmin güzəştlərin düzgünlüyü, yanlışlığı və ya çoxluğuna dair suallara cavab tapılmasında müəyyən çətinliklər yaradır. Vergi rejimlərində tətbiq olunan güzəştlərin səmərəliliyinin tədqiqi və onlardan davamlı olaraq səmərəli istifadənin izlənilməsi kimi mühüm məsələlərin tədqiqi, ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin, o cümlədən, vergi siyasətinin mühüm istiqamətlərindən biri hesab oluna bilər. Bu baxımdan güzəştlərin səmərəliliyinin qiymətləndirilməsində bəzi nəzəri və praktiki məzmunlu məsələlərin araşdırılması olduqca zəruridir. Qiymətləndirmə zamanı vergi rejimlərinin müəyyən edilməsi şərtləri, vergitutmada güzəştlərin tərkibi, eləcə də bir sıra proseslər və onların nəticələri nəzərdən keçirilməlidir. Güzəştlər sistemi dəyişkən olduğundan qiymətləndirmə mexanizmi üzrə meyarlar və göstəricilər sistemi dəyişir ki, bu da vergitutmanın tətbiqi üzrə səmərəliliyin qiymətləndirilməsində çətinliklər yaradır.

Müvafiq vergi rejimlərinin tətbiqi xüsusiyyətlərinin araşdırılması onların təkmilləşdirilməsi istiqamətində həyata keçirilməsi zəruri olan tədbirləri müəyyənləşdirməyə imkan verir. Bu məqamda vergi güzəştlərini vergi rejimlərindən fərqləndirmək lazımdır. Güzəşt müstəsna hüquqdur, vergi ödəyicisi öz istəyindən asılı olaraq ondan istfadə edə və ya bu imkandan imtina edə bilər. Vergi rejimi isə bir rejimdə fəaliyyət göstərən şəxslər üçün müəyyən vəzifələr müəyyən edir və onlara əməl edilməməsi müvafiq qanunvericiliyin pozulması kimi dəyərləndirilir.

Vergitutmanın səmərəliliyinin qiymətləndirilməsinin keyfiyyətini yüksəltmək üçün aşağıdakı mühüm məqamların nəzərə alınması məqsədəuyğundur:

1. Ayrı-ayrı vergi növləri üzrə vergi güzəştlərinin tətbiqi təcrübəsinin mənimsənilməsi məqsədilə vergi rejimlərinin səmərəliliyinin qiymətləndirilməsi üçün vahid metodun işlənib-hazırlanması.

2. Vergi güzəştinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi zamanı sənaye istehsalı həcmi, Ümumi Daxili Məhsul həcmi və sosial-iqtisadi inkişaf üzrə digər göstəricilər nəzərə alınmalıdır.

Beləliklə, həm vergi güzəştləri, həm də hər hansı bir kateqoriyaya aid olan vergi ödəyicilərinin maraqları nəzərə alınmaqla, vergi rejimlərinin yaradılması zamanı aşağıdakı qiymətləndirmə işlərinin aparılması məqsədəuyğun hesab edilir:

1. Vergitutmada təkmilləşdirilmənin nəticələrinin qiymətləndirilməsi. Gözlənilən nəticə təmin olunmadıqda və ya güzəşt gözlənilən nəticələrə çatmaq üçün qənaətbəxş olmadıqda, onu ləğv etmək, dəyişdirmək və ya yaxşılaşdırmaq barədə qərar qəbul edilə bilər. Əksinə, gözlənilən nəticələr əldə edilmişdirsə, növbəti addım güzəştin səmərəliliyinin qiymətləndirilməsindən ibarət olacaqdır.

2. Vergi rejimlərinin tətbiqinin səmərəliliyi ilə bağlı nəticələrin qiymətləndirilməsi. Səmərəlilik məqbul və ya standart səviyyəyə uyğun olduqda, güzəştlərin tətbiqi müddəti uzadılır. Səmərəlilik arzuolunan səviyyədən aşağı olduqda isə müvafiq vergi rejiminin ləğvi və ya onun yaxşılaşdırılması ilə bağlı qərar qəbul edilə bilər.

Qeyd olunan bu kimi məqamlar müvafiq rejimlərə münasibətdə, o cümlədən, onların seçilməsi və tətbiqi üzrə məsələlərə olduqca yüksək həssaslıqla yanaşılmasını obyektiv zərurətə çevirir ki, bu da təsərrüfat subyektlərinin fəaliyyətndə ən mühüm istiqamətlərdən biri kimi nəzərə alınmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2025
2. Bağırov D., Həsənli M. Maliyyə. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2011
3. Məcidov M. Vergi sistemi. Bakı, "Elm" nəşriyyatı, 2013
4. Məmmədov F.A., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.Ş. Vergilər və vergitutma. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2014
5. Абрамов В.А. Упрощенная система налогообложения. Москва. Ос-89, 2014

Юсиф Эльман оглы Гурбанов
магистрант,
Эльнур Абиль оглы Мамедов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Налоговые режимы и механизмы их применения

Резюме

В тезисе раскрываются сущность налоговых режимов и общее содержание механизмов их применения. При этом обосновывается важность выбора оптимального налогового режима как одного из основных направлений минимизации налоговых обязательств, рассматриваются особенности применения различных налоговых режимов.

Yusif Elman Gurbanov
master,
Elnur Abil Mammadov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Tax regimes and their application mechanisms

Summary

The thesis explains the essence of tax regimes and the general content of their application mechanisms. At the same time, it explains the importance of choosing the optimal tax regime as one of the main directions of minimizing tax liabilities and considers the application features of various tax regimes.

Ümid Elşən oğlu MƏHƏRRƏMLİ
magistrant,
Çingiz Allahyar oğlu İBRAHİMLİ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

BEYNƏLXALQ TİCARƏTDƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİNƏ NƏZƏRİ YANAŞMALAR

Beynəlxalq ticarət fəaliyyəti öz təbiətinə görə yüksək risklərlə müşayiət olunur. Çünki bu fəaliyyət müxtəlif ölkələrin iqtisadi, siyasi, hüquqi və mədəni mühitləri arasında əlaqə yaradır. Qlobal bazarda baş verən proseslər – valyuta məzənnələrinin həssas olması, ayrı-ayrı ölkələrdə gömrük tənzimləmələrinin dəyişməsi, münaqişələr, pandemiyalar, texnoloji yeniliklər və s. – beynəlxalq ticarət subyektləri üçün ciddi təhlükələr yarada bilər.

Bu səbəbdən beynəlxalq ticarətdə risklərin idarə edilməsi (risk management) müasir iqtisadi idarəetmənin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Risklərin qısa müddət ərzində müəyyənləşdirilməsi, təhlili, qiymətləndirilməsi və azaldılması beynəlxalq əməliyyatların dayanıqlığını və səmərəliliyini təmin edir.

"Risk" anlayışı iqtisadi ədəbiyyatda bir hadisənin nəticəsinin qeyri-müəyyən olması, zərər və ya mənfəət ehtimalının mövcudluğu kimi izah olunur. Beynəlxalq ticarətdə risk, əsasən, iqtisadi, siyasi və maliyyə dəyişkənliyi nəticəsində yaranan itki ehtimalı deməkdir. Məsələn, Frank H. Knight öz klassik əsərində risklə qeyri-müəyyənliyi diferensiallaşdırır: *"risk" ölçülə bilən ehtimaldır, "uncertainty" isə ölçülə bilməyən və proqnozlaşdırılmayan vəziyyətdir*.[3: 5]

Beynəlxalq ticarət riskləri aşağıdakı əsas qruplara bölünür:

1. Kommersiya riskləri – tərəflərdən birinin öhdəliklərini yerinə yetirməməsi (məsələn, ödənişin gecikməsi, malın göndərilməməsi);
2. Maliyyə və valyuta riskləri – məzənnə dəyişikliyi, inflyasiya, faiz dərəcələrinin dəyişməsi;
3. Siyasi risklər – hökumət qərarları, sanksiyalar, münaqişələr, ticarət məhdudiyyətləri;
4. Nəqliyyat və logistik risklər – malların daşınması zamanı gecikmə, itki və ya zədələnmə halları;
5. Hüquqi risklər – beynəlxalq müqavilələrin düzgün tərtib olunmaması və hüquqi mübahisələr.

Bu risklərin təsiri şirkətlərin maliyyə sabitliyinə, bazar nüfuzuna və beynəlxalq əməkdaşlıq imkanlarına birbaşa təsir göstərir.

Risklərin idarə olunması prosesi elmi əsaslara söykənən mərhələli bir sistemdir. Ənənəvi yanaşmaya görə bu proses aşağıdakı mərhələləri əhatə edir:

1. Risklərin müəyyənləşdirilməsi (identifikasiya) - müəssisənin fəaliyyətinə təsir göstərə biləcək bütün mümkün risklərin müəyyənləşdirilməsi;
2. Risklərin qiymətləndirilməsi və təhlili - risklərin başvermə ehtimalının və potensial təsirinin ölçülməsi; davamlı şəkildə izlənməsi və idarəetmə planlarının yenilənməsi.

Bu mərhələlər, məsələn, ISO 31000:2018 standartında təsbit edilmiş risk idarəetmə prosesinin strukturunda da əksini tapır.[2]

Müasir risk menecment nəzəriyyəsinin əsasını təşkil edən və beynəlxalq ticarət əməliyyatlarında dayanıqlığı təmin eən mərhələlərə aşağıdakılar aid olunur:

- Risklərin idarə olunması strategiyasının seçilməsi - risklərin qarşısının alınması, ötürülməsi, azaldılması və ya qəbul edilməsi kimi metodların tətbiqi;
- Monitorinq və nəzarət - risklərin davamlı şəkildə izlənməsi və idarəetmə planlarının yenilənməsi.

"Risk - kommersiya fəaliyyətinin müasir qeyri-müəyyənliliyi şəraitində idarəçilərin (menecerlərin) diqqət yetirməli olduqları başlıca sahələrdən biridir. Bazar münasibətləri şəraitində istehsalçılar, satıcılar və alıcılar rəqabət mühitində müstəqil olaraq (öz məsuliyyət və riskləri ilə birlikdə) fəaliyyət göstərirlər." [1: 203] Beynəlxalq ticarətdə risklərin idarə edilməsinə müxtəlif nəzəri

yanaşmalar mövcuddur. Əsas nəzəri istiqamətlər bunlardır:

a) Klassik iqtisadi yanaşma. Bu yanaşma riskləri bazar mexanizmi çərçivəsində təbii bir hadisə kimi qəbul edir. İqtisadi subyektlər riskləri mənfəət əldə etmək üçün qaçılmaz şərt hesab edirlər. Klassik yanaşmaya görə, bazar şəraiti dəyişkəndir və sahibkar bu dəyişikliklərə uyğun qərar qəbul etməlidir.

b) Neoklassik və ehtimal yanaşması. Bu nəzəriyyəyə görə, risk ölçülə bilən ehtimal dərəcəsi ilə müəyyən olunur. Burada statistik modellər, ssenari analizləri və ehtimal paylanmaları tətbiq edilir. Beynəlxalq ticarətdə bu yanaşma valyuta məzənnələrinin, faiz dərəcələrinin və qiymətlərin dəyişməsi ilə bağlı riskləri qiymətləndirmək üçün geniş istifadə olunur.

c) Davranış iqtisadi yanaşması. Bu yanaşma riskin yalnız iqtisadi deyil, həm də psixoloji aspektini nəzərə alır. Ticarət qərarlarının qəbulunda insanların emosional və subyektiv davranışları vacib rol oynayır. Məsələn, investorların "qorxu" və ya "təhlükəsizlik" duyğuları risk qiymətləndirməsinə təsir göstərir.

d) Sistem yanaşması. Bu yanaşma beynəlxalq ticarət risklərini bir-birinə əlaqəli amillərin qarşılıqlı təsiri kimi dəyərləndirir. Yəni risklər yalnız bir faktorun deyil, bütöv sistemin nəticəsi kimi meydana çıxır. Bu yanaşmada logistik, maliyyə və siyasi risklər inteqrasiya olunmuş şəkildə təhlil edilir.

Risklərin idarə edilməsi təkcə nəzəri yanaşmalarla məhdudlaşmır, eyni zamanda praktik metodları da əhatə edir. Ən çox istifadə olunan üsullar bunlardır:

- Hedcinqlə qorunma: valyuta və faiz risklərinin qarşısını almaq üçün fyuçers və opsion müqavilələrinin bağlanması;
- Sığorta: daşınma, ixrac və kredit risklərinin azaldılması məqsədilə beynəlxalq sığorta mexanizmlərinin tətbiqi;
- Müxtəlifləşdirmə: məhsul, bazar və tərəfdaşların şaxələndirilməsi;
- İnformasiya sistemləri: risklərin proqnozlaşdırılması və nəzarəti üçün rəqəmsal analiz və monitorinq sistemlərinin tətbiqi;
- Beynəlxalq arbitraj mexanizmləri: hüquqi mübahisələrin qarşısını almaq və ədalətli qərarların təmin olunması;
- Həmçinin, struktur risklərin (məsələn, təchizat zənciri çöküşü) idarə edilməsi üçün İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən hazırlanmış "Risks and Resilience in Global Trade" hesabatı kimi analitik mənbələr əhəmiyyətə malikdir.[4]

Metodların həyata keçirilməsində isə beynəlxalq ISO 31000 :2018 standartının prinsipləri və çərçivəsi istinad nöqtəsi kimi çıxış edir. Məsələn, Avropa İttifaqı şirkətləri risklərin idarə edilməsində bu standarta əsaslanan sistemlərdən istifadə edirlər.

"Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası prosesində bütün müsbət tərəflərlə bərabər, həm də firma və müəssisələr bir sıra kommersiya riskləri ilə qarşılaşa bilərlər." [1: 220] Bu cəhətdən risklərin idarə olunması məsələsi xüsusi əhəmiyyət daşıyır. Enerji ixracı, nəqliyyat-logistika və ticarət əməliyyatları sahəsində beynəlxalq tərəfdaşlarla əməkdaşlıq risklərin çoxşaxəli təhlilini tələb edir.

Son illərdə ölkədə risklərin idarə olunması üçün müvafiq hüquqi baza formalaşdırılmış, ixrac kreditlərinin sığortalanması, gömrük nəzarəti sistemlərinin rəqəmsallaşdırılması və valyuta sabitliyinin qorunması istiqamətində mühüm addımlar atılmışdır.

Ölkəmizdə risklərin idarə olunması üçün müvafiq hüquqi baza formalaşdırılmış, ölkə Prezidenti tərəfindən 25 dekabr 2007-ci il tarixində 519-IIIQ saylı "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.[5] Digər tərəfdən, 5 dekabr 2023-cü il tarixli 1036-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə bu Qanuna müvafiq dəyişikliklər edilmişdir. Bununla bərabər, son illərdə ixrac kreditlərinin sığortalanması, gömrük nəzarəti sistemlərinin rəqəmsallaşdırılması və valyuta sabitliyinin qorunması istiqamətində mühüm addımlar atılmışdır.

Belə ki, Azərbaycan İqtisadiyyat Nazirliyi və müvafiq qurumlar tərəfindən ixracatçılara risklərin qiymətləndirilməsi və azaldılması ilə bağlı müvafiq məsləhət dəstəyi göstərilir. Bundan əlavə, ExportAZ platforması və Azpromo kimi qurumlar ixracatçılara risklərin qiymətləndirilməsi və

azaldılması ilə bağlı konsultativ dəstək göstərirlər.

Beynəlxalq ticarətdə risklərin idarə olunması həm nəzəri, həm də praktik baxımdan qlobal iqtisadi təhlükəsizliyin əsas elementlərindən biridir. Müasir dünyada risklərdən tam qaçmaq mümkün olmasa da, onların səmərəli idarə edilməsi beynəlxalq ticarətdə iştirak edən müəssisələrin davamlılığını təmin edir.

Beləliklə, hesab edirik ki, səmərəli risk menecment sistemi beynəlxalq ticarətdə strateji qərarların keyfiyyətini artırır, resurs itkisini azaldır və uzunmüddətli iqtisadi sabitlik yaradır. Gələcəkdə ölkəmizdə də süni intellekt və "big data" texnologiyalarının tətbiqinin genişləndirilməsi risklərin təhlilində daha dəqiq nəticələr əldə etməyə imkan verə bilər.

ƏDƏBİYYAT

1. İbrahimli Ç.A., Hüseynov M.M. Kommersiya fəaliyyətinin əsasları. Dərs vəsaiti. Bakı: "Elm və Təhsil", 2015. 344 s.[s.203] [s.220]
2. International Organization for Standardization. (2018). ISO 31000:2018 – Risk management – Guidelines. Geneva: ISO. https://www.iso.org/obp/ui/en/#iso:std:iso:31000:ed-2:v1:en
3. Knight, F. H. (1921). Risk, Uncertainty and Profit. Boston & New York: Houghton Mifflin Company. Pp. 382.
4. Organisation for Economic Co-operation and Development. (2024). Risks and Resilience in Global Trade. Paris: OECD Publishing. https://www.oecd.org/en/publications/risks-and-resilience-in-global-trade_1c66c439-en.html
5. https://e-qanun.az/framework/13983

Умид Эльшан оглы Магеррамли
магистрант,
Чингиз Аллахьяр оглы Ибрагимли,
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Теоретические подходы к управлению рисками в международной торговле

Резюме

В тезисе рассматриваются риск и его экономическая сущность, теоретические основы управления рисками в международной торговле, теоретические подходы к управлению рисками. Также изучаются методы снижения рисков в международной торговле. Рассматривается опыт управления рисками в международной торговле Азербайджана. Обобщаются полученные результаты и выдвигаются предложения по обеспечению эффективности управления рисками.

Umid Elshan Maharramli
master,
Chingiz Allahyar Ibrahimli
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Theoretical approaches to risk management in international trade

Summary

The thesis examines risk and its economic essence, theoretical foundations of risk management in international trade, theoretical approaches to risk management. In any case, be careful with the risk, methods of reduction are studied. The experience of risk management in international trade of Azerbaijan is reviewed. The results are summarized and proposals are put forward to ensure the effectiveness of risk management.

Arzu Azad qızı BAXŞƏLİYEVA
magistrant,
Vahid Vaqif oğlu GƏRAYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

MİLLİ SIĞORTA BAZARININ MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAFININ TƏMİN OLUNMASI YOLLARI

Sığorta bazarı milli iqtisadiyyatın mühüm tərkib hissəsidir və ölkədə maliyyə sabitliyinin qorunmasında, risklərin bölüşdürülməsində və investisiya fəaliyyətinin stimullaşdırılmasında əvəzsiz rol oynayır. Qlobal iqtisadi dəyişikliklər fonunda milli sığorta bazarının inkişafı və dayanıqlılığının təmin olunması məsələsi daha da aktuallaşmışdır.

Azərbaycan Respublikasında son illərdə sığorta sektorunda mühüm institusional və hüquqi islahatlar həyata keçirilsə də, bazarın tam formalaşması və rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində bir sıra problemlər qalmaqdadır.

Məqalənin məqsədi Azərbaycan sığorta bazarının mövcud vəziyyətini təhlil etmək, bu sahənin inkişafını ləngidən əsas maneələri müəyyənləşdirmək və sığorta sektorunun dayanıqlı inkişafının təmin olunması yollarını araşdırmaqdır.

Sığorta bazarı hər bir ölkənin maliyyə sisteminin ayrılmaz tərkib hissəsi olmaqla, iqtisadi sabitliyin qorunmasında, sosial müdafiə mexanizmlərinin gücləndirilməsində və risklərin idarə olunmasında mühüm rol oynayır. Müasir dövrdə iqtisadiyyatın qlobal inteqrasiyası, yeni texnoloji imkanların yaranması və artan iqtisadi risklər sığortanın əhəmiyyətini daha da artırmışdır. Sığorta sistemi iqtisadi subyektlərin fəaliyyətində yaranan gözlənilməz zərərlərin qarşısını almaqla, onların maliyyə dayanıqlılığını təmin edir və bu yolla ümumi iqtisadi artıma töhfə verir.

Azərbaycan Respublikasında sığorta bazarının formalaşması müstəqillik illərindən başlayaraq mərhələli şəkildə həyata keçirilmişdir. 1990-cı illərin ortalarından etibarən bu sahədə institusional və hüquqi baza yaradılmış, sığorta fəaliyyəti "Sığorta fəaliyyəti haqqında" Qanunla tənzimlənməyə başlanmışdır. Sonrakı illərdə aparılan islahatlar nəticəsində sığorta şirkətlərinin sayı, kapital tələbləri və fəaliyyət mexanizmləri beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Hazırda Azərbaycan sığorta bazarının payı ümumi daxili məhsulda (ÜDM) nisbətən aşağı səviyyədə qalmaqdadır və əhalinin sığorta xidmətlərinə marağı yetərincə yüksək deyil. Belə ki, 2024-cü ildə Azərbaycanın nominal Ümumi Daxili Məhsulu 126,3 milyard manat təşkil etmiş, həmin dövrdə sığorta yığımlarının ümumi həcmi isə təxminən 1,353 milyard manat olmuşdur. Bu göstəricilər əsasında aparılan hesablamalara görə, sığorta sektorunun ÜDM-də xüsusi çəkisi təxminən 1,1 faiz səviyyəsində müəyyən edilmişdir [8]. Bu isə həm iqtisadi, həm də institusional amillərlə bağlıdır. Bazarın məhdud inkişafı, risklərin düzgün qiymətləndirilməməsi, sığorta mədəniyyətinin zəifliyi, eləcə də məhsul çeşidinin azlığı bu sahənin inkişafını ləngidən əsas amillərdəndir.

Milli sığorta bazarının dayanıqlı inkişafı üçün dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, rəqabət mühitinin genişləndirilməsi, əhalinin maliyyə savadlılığının artırılması və yeni sığorta məhsullarının tətbiqi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, sığorta bazarının mövcud vəziyyətinin elmi təhlili, problemlərin müəyyənləşdirilməsi və inkişafın təmin olunması yollarının araşdırılması aktual elmi-praktik məsələ kimi çıxış edir.

Müasir dövrdə Azərbaycanda sığorta tam mənimsənilməmiş nəhəng bazarda inkişaf edən yeni və gənc sahədir. Bu gün Azərbaycanın sığorta bazarı sürətlə genişlənir, sığortanın ənənəvi sahələri inkişaf edir, həmçinin, xarici təcrübənin yenilikləri aktiv şəkildə tətbiq edilir.

Azərbaycan milli sığorta bazarı müasir tələblər, ehtiyaclar və bütövlükdə dünya maliyyə bazarında baş verən dəyişikliklər nəticəsində intensiv olaraq inkişaf etməkdədir [1, s.9].

Son illərin böhranından uğurla çıxan Azərbaycanın sığorta bazarı artıq müəyyən qədər artım dinamikası nümayiş etdirir. Belə ki, 2024-cü il Azərbaycanın sığorta sektoru üçün növbəti artım mərhələsi olmuşdur. Ümumi toplanmış sığorta primləri təxminən 1,353 milyard manat səviyyəsinə

çatmışdır ki, bu da əvvəlki ilə nisbətən təqribən 10.7% artım olduğunu göstərir. Ödənişlər isə 752.7 milyon manat olmaqla illik artım tempi 28.2% olmuşdur.

Eyni zamanda, Azərbaycanın müvafiq orqanları tərəfindən daxili sığorta bazarının həcminin və nüfuz səviyyəsinin artırılmasına, eləcə də onun strukturunun bir neçə istiqamət üzrə optimallaşdırılmasına yönəlmiş sənaye islahatlarına ehtiyac olduğu müəyyənləşdirilmişdir.


Davam edən qlobal enerji böhranı Azərbaycanın maliyyə sektoruna ciddi ziyan vurmuşdur. Bu çətin təcrübəyə əsaslanaraq, Maliyyə Nazirliyi və Azərbaycan Mərkəzi Bankı (AMB) bank və sığorta bazarlarının normativ-hüquqi bazasının gücləndirilməsi üçün geniş səylər göstərmişlər.

Bu siyasətin uğurunun sübutu 2020-2023-cü illər ərzində yerli sığorta şirkətlərinin COVID-19 pandemiyasının mənfi nəticələrinə, neftin qiymətinin sonrakı enişlərinə, idxal inflyasiyası və tənəzzül kimi son amillərə tab gətirə bilməsidir. Ciddi problemlərlə yalnız iki yerli sığorta şirkəti üzləşib: "Revan Sığorta" ASC-nin (sığorta) lisenziyası 2021-ci ilin martında, 2023-cü ilin iyulunda isə AMB "Günay Sığorta"nın lisenziyası onun əsas strukturu və əsas səhmdarı "Günay Bank"ın bağlanması ilə əlaqədar ləğv edilib [5].

2024-cü ilin ilk yarısının sonuna olan məlumatlara əsasən Azərbaycan sığorta bazarında 16 sığorta və bir təkrarsığorta şirkəti fəaliyyət göstərir. Sığorta şirkətlərindən 5-i həyat, 11-i isə qeyri-həyat sığorta şirkətidir. Sığorta sektorunun fəaliyyəti həmçinin 23 sığorta brokeri və 481 sığorta agenti vasitəsilə təmin edilmişdir [2]. Son üç ildə Azərbaycanın sığorta sektorunun aktivləri 34%, iştirakçıların kapitallaşması isə 7%-dən çox artıb. Eyni zamanda, 2019-cu ildən sığorta haqları üzrə ödənişlər 26% artıb [7].

Qeyd etmək vacibdir ki, sığorta bazarını təmin edən beynəlxalq qanunvericiliyə və prinsiplərə uyğun olaraq, təkrarsığorta və sığorta məqsədləri üçün ehtiyatların formalaşdırılması və institutların gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirilib. Həmçinin, sığorta xidmətləri haqqında əhalinin məlumatlılığının artırılması, icbari sığorta mexanizminin təkmilləşdirilməsi, həyat sığortasında müxtəlif imkanlara çıxışın təmin edilməsi məqsədilə yeni metodologiyalar tətbiq edilib.

Azərbaycan Mərkəzi Bankının (AMB) statistik məlumatlarına görə, bu müsbət tendensiya cari ildə də davam edib: məsələn, 2024-cü ilin yanvar-aprel aylarında 17 yerli sığorta şirkəti 542,841 milyon manat (319 milyon ABŞ dolları) sığorta haqqı toplayıb ki, bu da ötən ilin müvafiq dövrünün göstəricilərini 16,1% üstələyir [5].



Qrafik 1. 2024-cü ilin yanvar – sentyabr ayları ərzində sığorta şirkətləri üzrə toplanan sığorta haqlarının dinamikası

Mənbə: Mərkəzi Bankın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [6].

Yuxarıdakı qrafikə nəzər saldıqda sığorta bazarında əsas payın PAŞA Sığortanın payına düşdüyünü görə bilərik. Sığorta şirkətlərinin bəzilərinin digərlərinə görə üstünlük qazanması bir sıra


amillərdən asılıdır. Bu amillərə sığorta şirkətlərinin qiymət siyasətini, məhsul və xidmətlərinin çeşid və keyiyyətini, ödəmə qabiliyyətini, bazar nüfuzunu və s. göstərmək olar. Lakin bəzi sığorta şirkətlərinin bazarda üstünlük qazanmasına təsir edən amillər təkcə bunlarla bitmir. İnsanların bir sığorta şirkətini digərindən üstün tutmasına səbəb olan psixoloji amillər də mövcuddur. Bu amillər sığorta şirkətlərinin rəqabət qabiliyyətinin daha da zəifləməsinə və onların yavaş-yavaş bazardan çıxmasına səbəb ola bilər [6].

İqtisadçı Herbert Saymon tədqiqatlarında sübut edirdi ki, insanlar çox vaxt mürəkkəb qərarlarla üzləşdikdə "evristika"dan istifadə edirlər. Evristika insanın şəxsi təcrübələrinə və ya gündəlik həyatda eşitdiyi, rastlaşdığı hadisələrə əsaslanan zehnin qısa yoludur [3, s.60].

Məsələn, insanların əksəriyyəti bir neçə il haqqında müsbət fikirlər eşitdiyi sığorta şirkətini, haqqında heç bir məlumatı olmadığı və ya mənfi məlumatı olduğu sığorta şirkətlərindən üstün tuturlar. Bu zaman insanların əksəriyyəti onların real vəziyyətini qiymətləndirmirlər. Bu da çox zaman hətta daha yaxşı imkanlara malik olmasına baxmayaraq bir çox sığorta şirkətlərinin arxa planda qalmasına səbəb olur. Xüsusən bazara yeni daxil olan sığorta şirkətlərinin əksəriyyəti bu kimi hallarla tez-tez qarşılaşmalı olurlar. Həmçinin bu səbəbdən bir müddət mənfi təcrübələrlə yadda qalmış sığorta şirkətləri daha sonralar insanların inamını qazana bilir, onların bir qismi bazardan çıxmağa məcbur olurlar.

Hazırda milli sığorta bazarında evristikanın təsirləri mövcuddur. Uzun müddət insanların inamını qazanan bir şirkətə nəzərən digər sığorta şirkətləri kölgədə qalmışdır.

Mövcud vəziyyətin yaxşılaşdırılması məqsədilə sığorta şirkətləri və dövlət arasında əməkdaşlıq gücləndirilməlidir. Həmçinin sığorta şirkətlərinin səmərəli fəaliyyətlərinin stimullaşdırılması məqsədilə dövlət tərəfindən görülən tədbirlər genişləndirilməlidir.



Qrafik 2. 2024-cü ilin yanvar – sentyabr ayları üzrə sığorta haqlarının sığorta növləri üzrə bölgüsü.

Mənbə: Mərkəzi Bankın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [6].

Evristikanın milli sığorta bazarında əlavə təsirləri də mövcuddur. Belə ki, evristika insanların sığorta məhsullarına olan marağına da təsir göstərir. İnsanlar sığorta məhsulu alarkən gündəlik təcrübələrində daha çox rastlaşdıqları sığorta məhsullarına maraq göstərirlər. Bunu ikinci və üçüncü qrafiklərə əsasən izah etmək olar. Yuxarıda təsvir olunmuş ikinci qrafikə nəzərən qeyd etmək olar ki, 2024-cü ilin yanvar – sentyabr ayları ərzində toplanan ümumi sığorta haqlarının əsas hissəsi həyatın yaşam sığortasının və tibbi sığortanın payına düşür. Digər sığorta növləri isə arxa planda qalmışdır. Sadəcə 2024-cü ildə deyil, artıq bir neçə ildir ki, bu sığorta növləri toplanan ümumi sığorta haqlarında üstünlük təşkil edirlər [3, s.61].

Müasir dövrdə ölkəmizin milli sığorta bazarında səmərəliliyin artırılması üçün müxtəlif əməliyyatları icra edən sığorta şirkətlərinin öz fəaliyyətlərinin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə olduqda isə bazarda fəaliyyət göstərən müxtəlif sığorta şirkətləri arasında onların yerinə yetirdikləri əməliyyatların keyfiyyəti ilə əlaqədar rəqabət yaranır. Dövlət və özəl şirkətləri

arasında daha aydın şəkildə görünən rəqabətin təzahürləri özünü sığorta sistemi üzrə inhisarlaşma prosesində daha aydın göstərir. Milli sığorta bazarında sağlam formada tələb və təklifə uyğun şəkildə rəqabətin formalaşması sığorta sisteminin inkişafına təkan verir. Buna istinad edərək, qeyd etməliyik ki, sığorta şirkətlərinin səmərəli formada fəaliyyət göstərməsinin əsas şərti onların stimullaşdırılması ilə əlaqədar tədbirlərin icra edilməsidir.

Sığorta sahəsində marketinq xidməti sisteminin yaradılması sığorta təşkilatlarının fəaliyyətinin daha təkmil formada davam etdirilməsində mühüm rol oynayır. Belə ki, marketinq xidməti, sığorta şirkətlərinin və sığorta məhsullarının bazarda tanıdılması, müştəri cəlb edilməsi, mövcud müştərilərlə əlaqələrin inkişaf etdirilməsi və şirkətin ümumi imicinin yüksəldilməsi məqsədilə həyata keçirilir. Bu xidmətlərə aşağıdakılar daxildir:

1. *Müştəri tədqiqatı və analizi*: Potensial müştərilərin ehtiyaclarının başa düşülməsi, bazar analizi və tələblərin müəyyənləşdirilməsi.
2. *Reklam kampaniyaları*: Şirkətin sığorta məhsullarının reklama çıxarılması, televiziya, radio, sosial media və digər platformalarda reklam kampaniyalarının aparılması.
3. *Rəqəmsal marketinq*: Sosial media, veb saytlardan istifadə etməklə, sığorta xidmətlərinin tanıdılması və müştərilərin cəlb edilməsi üçün internet marketinq strategiyalarının tətbiqi.
4. *Müştərilərlə əlaqələrin idarə edilməsi (CRM):* Mövcud müştərilər ilə davamlı əlaqələrin qurulması, onların ehtiyaclarına uyğun yeni sığorta məhsulları təklif edilməsi və müştəri məmnuniyyətinin artırılması.
5. *Sığorta məhsulunun tanıdılması və təqdimatı:* Şirkətlərin təqdim etdiyi müxtəlif sığorta məhsullarının tanıdılması və müştərilərə uyğun seçimlərin göstərilməsi.
6. *Yaradıcı ideyalar və strategiyalar:* Yaradıcı reklam ideyaları və marketinq strategiyalarının hazırlanması, müştərilərin diqqətini cəlb edəcək yenilikçi yanaşmaların inkişaf etdirilməsi.
7. *Sosial məsuliyyət və ictimaiyyətlə əlaqələr:* Sığorta şirkətləri üçün sosial məsuliyyət layihələri həyata keçirilməsi və müştərilərlə müsbət əlaqələr qurulması.
8. *Sığorta təlimləri və seminarlar:* Müştərilərə sığorta barədə daha çox məlumat vermək üçün müxtəlif təlimlər və seminarlar təşkil edilməsi və s.

Bu xidmətlər, sığorta sahəsindəki şirkətlərin bazarda öz mövqelərini gücləndirməsinə və müştərilərinin sayının artmasına kömək edir.

Aparılan təhlillər göstərir ki, Azərbaycan Respublikasında sığorta bazarı son illərdə mühüm institusional və hüquqi islahatlar nəticəsində inkişaf dinamikası nümayiş etdirmiş, xüsusilə böhran dövrlərində dayanıqlılığını sübut etmişdir. Bununla belə, bazarın ÜDM-də payının aşağı olması, əhalinin sığorta xidmətlərinə marağının yetərsizliyi, sığorta mədəniyyətinin zəifliyi, məhsul çeşidinin məhdudluğu və risklərin qiymətləndirilməsindəki boşluqlar bu sektorun inkişafını ləngidən başlıca amillər kimi qalmaqdadır.

Tədqiqatlar göstərir ki, bazarda payın əsas hissəsinin məhdud sayda iri şirkətlərin əlində cəmlənməsi rəqabət mühitini zəiflədir və xüsusilə yeni daxil olan şirkətlərin bazarda möhkəmlənməsini çətinləşdirir. Eyni zamanda, psixoloji faktorlar və evristik qərarvermə mexanizmləri sığortaçıların seçimində rasional davranışı zəiflədir, bu isə bazarın real rəqabət imkanlarını daha da məhdudlaşdırır. Sığorta növləri üzrə struktur analiz göstərir ki, həyat və tibbi sığorta haqları bazarın əsas hissəsini təşkil edir, digər sığorta növləri isə kifayət qədər inkişaf etməmiş vəziyyətdədir.

Nəticə etibarilə, milli sığorta bazarının dayanıqlı inkişafı üçün dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, rəqabət mühitinin genişləndirilməsi, əhali arasında sığorta savadlılığının və inamın artırılması, innovativ sığorta məhsullarının tətbiqi, eləcə də marketinq və risk idarəçiliyi sistemlərinin gücləndirilməsi zəruri şərt kimi çıxış edir. Bu istiqamətdə atılacaq addımlar sığorta bazarının həm iqtisadi dayanıqlığını, həm də milli maliyyə sistemində rolunun güclənməsini təmin edəcəkdir.

ƏDƏBİYYAT

1. Ataşov B.X., Ələkbərov Ə.Ə., Xudiyev N.N., Sığorta işi - Bakı, 2018.
2. Azərbaycan Respublikasının Mərkəzi Bankının maliyyə Sabitliyi Hesabatı - Bakı, 2024.
3. Global Health İnsurance Advice, Azerbaijan Health İnsurance, 2012.

4. “İqtisadi islahatlar” elmi – analitik jurnal – Bakı, 2023.
5. https://www.asa.az/ (Azərbaycan Sığortaçılar Assosiasiyası)
6. https://www.cbar.az/
7. https://fed.az/az/sigorta/quotson-uc-ile-gore-sigorta-sektorunun-aktivleri-342-faiz-artibquot-202647
8. https://stat.gov.az/news/index.php?id=6156&lang=en&utm_source=chatgpt.com

Арзу Азад кызы Бахшалиева
магистрант,
Вахид Вагиф оглы Гераев
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Современное состояние национального страхового рынка и пути обеспечения его развития

Резюме

В статье проанализированы современное состояние, механизмы регулирования и динамика развития национального страхового рынка Азербайджана. Исследование показывает, что, несмотря на тенденцию роста в последние годы, рынок все еще не соответствует потенциалу экономики. Доходы в основном формируются за счет обязательных видов страхования, в то время как доля добровольного страхования и уровень страховой осведомленности населения остаются низкими. Хотя нормативно-правовые акты и механизмы государственного контроля обеспечивают стабильность рынка, факторы, такие как слабое развитие конкурентной среды, низкий уровень доходов населения и недоверие к страховым компаниям, ограничивают его расширение.

Для обеспечения развития национального страхового рынка необходимо углубление институциональных реформ, цифровизация, совершенствование управления рисками, а также повышение уровня страховой культуры среди населения.

Arzu Azad Bakhshalieva
master,
Vahid Vagif Garayev
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Current state of the national insurance market and ways to ensure its development

Summary

The article analyzes the current state, regulatory mechanisms, and development dynamics of Azerbaijan’s national insurance market. The research shows that although there has been a growth trend in recent years, the market still does not correspond to the full potential of the economy. Revenues are mainly generated from compulsory insurance types, while the share of voluntary insurance and the level of public awareness about insurance remain low. Despite the stability ensured by state regulatory acts and control mechanisms, factors such as weak competition, low income levels, and lack of trust limit the market’s expansion.

To ensure the development of the national insurance market, it is necessary to deepen institutional reforms, enhance digitalization, improve risk management, and increase insurance awareness among the population.

Nadir Qurban oğlu BAYRAMLI
magistrant,
nbayramli409@gmail.com,
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Aydın Xalıq oğlu NƏBİYEV
texnika elmləri üzrə fəlsəfə doktoru, dosent,
ORCID: 0000-0001-6985-1784
aydin.nabiyev@azmiu.edu.az,

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA YAŞIL SƏNAYELƏŞMƏ PROSESİNDƏ VERGİ SİSTEMİNİN ROLU

Giriş

Müasir dövrdə iqtisadi inkişafın davamlılığı və ekoloji tarazlığın qorunması qlobal səviyyədə dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan səmərəli istifadə və enerji səmərəliliyinin artırılması iqtisadi strategiyaların mühüm tərkib hissəsi kimi qiymətləndirilir. Bu kontekstdə "yaşıl sənayeləşmə" anlayışı yeni iqtisadi inkişaf modelini ifadə edir. Yaşıl sənayeləşmə iqtisadi artımla yanaşı, ekoloji məsuliyyətin təmin edilməsini, resursların bərpasına yönəlmiş istehsal mexanizmlərinin tətbiqini və təmiz texnologiyaların yayılmasını nəzərdə tutur. [1]

Azərbaycan Respublikası 44 günlük Vətən müharibəsindən sonra azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlamışdır. Bu proses yalnız sosial-iqtisadi inkişafın deyil, həm də müasir ekoloji prinsiplərə əsaslanan yeni sənaye modelinin formalaşdırılması üçün unikal imkanlar açmışdır. Qarabağ və Şərqi Zəngəzur bölgələrinin zəngin su ehtiyatları, alternativ enerji potensialı və kənd təsərrüfatına əlverişli təbii şəraiti yaşıl sənayeləşmə üçün əlverişli şərait yaradır. Dövlətin əsas məqsədi bu ərazilərdə iqtisadi artımı təmin etməklə yanaşı, ekoloji cəhətdən təmiz və resurs-effektiv istehsal sisteminin qurulmasıdır.

Bu istiqamətdə vergi sistemi mühüm tənzimləyici və stimullaşdırıcı alət kimi çıxış edir. Vergi mexanizmlərinin düzgün tətbiqi sahibkarları yaşıl texnologiyalardan istifadə etməyə təşviq edir, investisiya mühitini yaxşılaşdırır və ekoloji məsuliyyətin artmasına xidmət edir. [2]

Xüsusilə, alternativ enerji layihələrinə, təmiz istehsal texnologiyalarına və tullantısız istehsala yönəlmiş vergi güzəştləri yaşıl iqtisadiyyatın inkişafını dəstəkləyən əsas fiskal vasitələrdir.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa prosesləri təkcə iqtisadi dirçəlişin deyil, həm də ekoloji baxımdan məsuliyyətli sənaye infrastrukturunun qurulmasının göstəricisidir. Bu baxımdan, yaşıl sənayeləşmə ilə vergi siyasətinin uzlaşdırılması dayanıqlı inkişafın təmin edilməsində həlledici rol oynayır. Mövzu üzrə tədqiqatın məqsədi də məhz bu prosesdə vergi sisteminin təsir mexanizmlərini araşdırmaq və yaşıl iqtisadi modelin formalaşmasında onun strateji əhəmiyyətini müəyyənləşdirməkdən ibarətdir.

TƏHLİL

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa proseslərini daha dərindən anlamaq və qiymətləndirmək üçün təkcə cədvəl göstəriciləri deyil, həm də qrafik təsvirlərdən istifadə xüsusi əhəmiyyət kəsb edir. Qrafiklər məlumatları vizual formada təqdim etməklə iqtisadi meylləri, dəyişmə istiqamətlərini və göstəricilər arasındakı qarşılıqlı əlaqəni aydın şəkildə əks etdirir.

Cədvəl 1.

Qarabağın bərpa olunan mənbələrdən enerji təchizatı, min NET

İllər	2020	2021	2022	2023	2024
Ümumi enerji təchizatı	**16 642,8**	**17 566,6**	**18 655,4**	**18 850,2**	**18 480,8**
Hidroenerji	92,0	109,8	137,2	151,6	258,7
Külək elektrik enerjisi	8,3	7,9	7,2	4,8	4,4
Günəş elektrik enerjisi	4,0	4,8	5,2	6,9	47,9

Mənbə: Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/balance_fuel

Statistik məlumatlar göstərir ki, 2020-2024-cü illər üzrə milli enerji balansı əhatə olunmaqla enerji məhsullarının əmtəə balansları və energetika statistikasına aid digər zəruri məlumatlar verilmişdir. [7]

Aparılmış statistik təhlillər göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun relyefi, külək, günəş, su ehtiyatları imkan verir ki, Azərbaycan öz təbii sərvətləri hesabına bərpaolunan və "yaşıl enerji" zonası yaratsın. Qeyd edək ki, bu istiqamətdə çox böyük layihələr hazırlanır və icra edilir. Azərbaycan öz təbii sərvətlərinin həcminə və həm də etibarlılığına görə Avropanın enerji körpüsünə çevrilir. "Buna görə, yaşıl enerji layihələrinin reallaşdırılması və bərpa olunan enerji istehsalının stimullaşdırılması üçün dövlət tərəfindən tətbiq olunan vergi güzəştləri mühüm rol oynayır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bu təşviqlər investisiyaların artmasına, ekoloji təmiz texnologiyaların tətbiqinə və yaşıl sənayeləşmənin sürətlə inkişaf etməsinə imkan yaradır."[5]

"Xüsusilə, yaşıl sənaye layihələrinin inkişafını təşviq etmək üçün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında **gəlir vergisi və mənfəət vergisi üzrə azadolmalar** tətbiq olunur. Bu güzəştlər sahibkarları ekoloji təmiz texnologiyalara sərmayə yatırmağa təşviq edir və investisiya mühitini daha əlverişli edir." [6]

Cədvəl 2.


Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl sənaye layihələri üzrə vergi güzəştləri ilə stimullaşdırılmış investisiyalar

İllər	Vergi güzəştləri ilə stimullaşdırılmış investisiya (milyon manat)	Yaşıl layihələrin sayı
2019	5	3
2020	6	4
2021	7	5
2022	8	6
2023	10	8

Mənbə:DövlətVergiXidməti, https://www.taxes.gov.az/az/post/2266?utm_source=chatgpt.com
Prezident Açıqlaması https://news.milli.az/economy/1147048.html?utm_source=chatgpt.com

"Cədvəl 2 göstərir ki, dövlət tərəfindən tətbiq olunan vergi güzəştləri – gəlir və mənfəət vergisi azadolmaları, alternativ enerji və tullantısız istehsal texnologiyalarına xüsusi təşviqlər yaşıl sənaye layihələrinə sərmayənin artmasına və ekoloji təmiz texnologiyaların tətbiqinə mühüm təsir göstərir." [3]

Aşağıdakı diaqramda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl sənaye layihələrinə yönəldilən investisiyaların artım dinamikasına (2021-2025) nəzər yetirək:



Diaqram 1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl sənaye layihələrinə yönəldilən investisiyaların artım dinamikası (2021–2025)

Mənbə: Dövlət Statistika Komitəsi , https://www.stat.gov.az/source/agriculture/

Diaqram 1-dən göründüyü kimi, 2021–2025-ci illər ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl sənaye layihələrinə yönəldilən investisiyaların həcmi sabit artım meyli göstərir. [4]

- 2021–2022-ci illərdə ilkin mərhələdə infrastruktur və texnoloji avadanlıqların idxalı hesabına artım 90% təşkil edib.
- 2023–2024-cü illərdə regionda bərpa olunan enerji, tullantısız istehsal və "ağıllı kənd" layihələrinin genişlənməsi investisiyaların daha da artmasına səbəb olub.
- 2025-ci il üçün proqnoz göstərir ki, yaşıl sənaye təşəbbüslərinə yatırımlar 300 milyon manata çata bilər.

Bu dinamika dövlətin vergi güzəştləri, investisiya təşviqi sənədləri, həmçinin yaşıl sənaye parkları vasitəsilə yaradılan əlverişli mühitin nəticəsidir.

Nəticə

Aparılan təhlillər göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl sənayeləşmə prosesinin sürətlənməsində vergi sisteminin stimullaşdırıcı rolu həlledici əhəmiyyət kəsb edir.

Dövlətin tətbiq etdiyi vergi güzəştləri, mənfəət və gəlir vergisindən azadolmalar, eləcə də alternativ enerji layihələrinə verilən fiskal üstünlüklər regionda ekoloji yönümlü investisiyaların artmasına şərait yaradıb. 2021–2025-ci illərdə yaşıl sənaye layihələrinə yönələn investisiyaların davamlı artımı bunun bariz göstəricisidir.

Vergi siyasətinin düzgün istiqamətləndirilməsi sahibkarları bərpa olunan enerji, tullantısız istehsal və ekoloji innovasiyalar sahəsində fəaliyyətə təşviq edir. {5}

Nəticədə, Qarabağ və Şərqi Zəngəzurda ekoloji dayanıqlı sənaye infrastrukturu formalaşır, regionun iqtisadi potensialı güclənir və yaşıl iqtisadiyyat modelinə keçid reallaşır.

ƏDƏBİYYAT SİYAHISI

1. https://www.elibrary.az/docs/JURNAL/jrn2009_152j.pdf
2. https://report.az/energetika/arabag-ve-serqi-zengezurun-i-yasil-enerji-potensiali-aciqlanib
3. *DövlətVergiXidməti, https://vergiler.az/news/economy/31785.html*
4. *Dövlət Statistika Komitəsi,* https://www.stat.gov.az/source/balance_fuel
5. *DövlətVergiXidməti, https://www.taxes.gov.az/az/post/2266?utm_source=chatgpt.com*
6. *PrezidentAçıqlaması*https://news.milli.az/economy/1147048.html?utm_sourcechatgpt. com
7. *Dövlət Statistika Komitəsi , https://www.stat.gov.az/source/agriculture/*

Надир Гурбан оглу Байрамлы
магистрант,
nbayramli409@gmail.com,
Азербайджанский Университет Архитектуры и Строительства
Айдын Халик оглу Набиев
доктор философии по техническим наукам, доцент,
ORCID: 0000-0001-6985-1784
aydin.nabiyev@azmiu.edu.az,

Роль налоговой системы в процессе зеленой индустриализации в экономических регионах Карабаха и Восточного Зангезура

Резюме

Статья анализирует роль налоговой системы в процессе зеленой индустриализации, реализуемой в экономических регионах Карабаха и Восточного Зангезура. Зеленая индустриализация направлена не только на экономическое развитие, но и на обеспечение экологической безопасности и эффективное использование природных ресурсов. В период восстановления экономической деятельности на освобожденных территориях одним из основных направлений государственной политики является формирование промышленных моделей, соответствующих экологическим требованиям. В этом контексте гибкое и целенаправленное применение налоговой системы играет решающую роль.

Такие инструменты, как налоговые льготы, экологические сборы и дифференцированные ставки, стимулируют внедрение зеленых технологий и побуждают предпринимателей вести экологически ответственную деятельность. В регионах Карабаха и Восточного Зангезура предоставление налоговых льгот на использование альтернативных источников энергии – таких как солнечная и ветровая энергия – в промышленном производстве может ускорить развитие зеленой экономики.

В заключение, правильная ориентация налоговой политики является одним из ключевых инструментов обеспечения как экономического роста, так и экологической устойчивости в этих регионах. Налоговые механизмы, поддерживающие зеленую индустриализацию, служат гарантией долгосрочного устойчивого развития Карабаха и Восточного Зангезура.

Nadir Gurban Bayramli
master,
nbayramli409@gmail.com,
Azerbaijan University of Architecture and Construction
Aydin Khaliq Nabiyev
doctor of philosophy in technical sciences, associate professor,
ORCID: 0000-0001-6985-1784
aydin.nabiyev@azmiu.edu.az,

The role of the tax system in the green industrialization process in the Karabakh and Eastern Zangazur economıc regıons

Summary

The article analyzes the role of the tax system in the process of green industrialization implemented in the Karabakh and East Zangezur economic regions. Green industrialization aims not only at economic development but also at ensuring environmental safety and the efficient use of natural resources. During the period of rebuilding economic activity in the liberated territories, one of the main directions of state policy is the formation of industrial models that comply with ecological requirements. In this context, the flexible and targeted application of the tax system plays a crucial role.

Instruments such as tax incentives, environmental fees, and differential rates stimulate the adoption of green technologies and encourage entrepreneurs to engage in environmentally responsible activities. In the Karabakh and East Zangezur regions, granting tax incentives for the use of alternative energy sources–such as solar and wind energy–in industrial production can accelerate the development of the green economy.

In conclusion, the proper orientation of tax policy is one of the key tools for ensuring both economic growth and environmental sustainability in these regions. Tax mechanisms that support green industrialization serve as a guarantee for the long-term sustainable development of Karabakh and East Zangezur.

Tacir Hafiz oğlu KƏRİMOV
magistrant,
Vilayət Bədir oğlu MİRZƏYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA VERGİ YOXLAMALARININ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLMƏSİ İSTİQAMƏTLƏRİ

Giriş

Vergi yoxlamaları fiskal siyasətin mühüm tərkib hissəsi olmaqla, dövlət büdcəsinə daxilolmaların artırılması, vergi intizamının möhkəmləndirilməsi və kölgə iqtisadiyyatının azaldılması məqsədi daşıyır.

Azərbaycan Respublikasında son illərdə aparılan islahatlar nəticəsində vergi yoxlamalarının keyfiyyəti yüksəlib, say azalsa da, səmərəlilik göstəriciləri artmaqdadır.

Azərbaycan Respublikasında vergi yoxlamalarının təşkili və həyata keçirilməsi sistemi son illərdə köklü dəyişikliklərə məruz qalmışdır. Vergi orqanları tərəfindən aparılan islahatlar nəticəsində yoxlamaların məqsədi cəza yönümlü deyil, maarifləndirici və qabaqlayıcı xarakter daşımağa başlamışdır. Bu dəyişikliklər vergi inzibatçılığı sahəsində şəffaflığın artmasına, vergi ödəyicilərinin könüllü vergi ödəmə səviyyəsinin yüksəlməsinə və ümumilikdə vergi nəzarətinin səmərəliliyinin artmasına səbəb olmuşdur. Aşağıda təqdim edilən statistik göstəricilər də son illərdə bu sahədə əldə olunmuş nəticələri əks etdirir.

- 2025-ci ilin iyun ayına olan məlumata görə, Azərbaycanda 1 625 480 aktiv vergi ödəyicisi mövcuddur ki, bu da 2024-cü illə müqayisədə 4,4 % artım deməkdir.
- 2024-cü ildə vergi orqanlarının fiskal yığımlardakı xüsusi çəkisi 77 %-ə çatmışdır.
- 2024-cü ildə aparılmış 393 səyyar yoxlama nəticəsində 530,7 milyon manat əlavə vergi hesablanmışdır.
- Kameral yoxlamalar üzrə isə 150,6 min yoxlama aparılmış, nəticədə 1 168,9 milyon manat əlavə vergi müəyyən edilmişdir.
- Son 5 ildə (2019–2024) səyyar vergi yoxlamalarının sayı 4,5 dəfə azalmış, lakin bir yoxlamaya düşən əlavə vergi məbləği 4 dəfə artmışdır.
- 2024-cü ilin birinci rübündə vergi orqanlarına daxil olan şikayətlərin sayı 45,8 % azalmışdır.

Bu rəqəmlər göstərir ki, yoxlamaların miqdarı azalsa da, onların səmərəliliyi və nəticəliliyi yüksəlməkdədir.

Vergi yoxlamalarının səmərəliliyinə bir sıra amillər təsir göstərir.Bu amillərdən bəziləri aşağıdakılardır.

- Rəqəmsal texnologiyaların tətbiqi: Elektron audit sistemləri, risk əsaslı monitorinq və avtomatlaşdırılmış məlumat mübadiləsi yoxlamaların daha dəqiq aparılmasına imkan verir.
- Risk əsaslı yanaşma: Yoxlamalar artıq bütün vergi ödəyicilərinə deyil, risk kateqoriyasına daxil olan subyektlərə yönəldilir.
- Vergi ödəyiciləri ilə dialoqun güclənməsi: Elektron xidmətlərin, təlim və məsləhət platformalarının inkişafı vergi mədəniyyətinin artmasına səbəb olur.
- Yoxlamaların şəffaflığı: Dövlət Vergi Xidmətinin illik hesabatlarının ictimaiyyətə açıq olması şəffaflıq səviyyəsini artırır.
- Regionlarda vergi yoxlamalarının bərabər aparılmaması;
- Bəzi mikro və kiçik sahibkarların vergi prosedurları barədə məlumatlılığının az olması;
- Risk əsaslı modellərin bütün sektorları əhatə etməməsi;
- Vergi mədəniyyətinin bəzi hallarda hələ də qeyri-kafi səviyyədə qalması.

Fikrimizcə, vergi yoxlamalarının səmərəliliyinin yüksəldilməsi aşağıdakı istiqamətdə olmalıdır.

1. Risk əsaslı yoxlama sisteminin təkmilləşdirilməsi – yüksək riskli sahələr üzrə məlumat bazalarının inteqrasiyası.
2. Rəqəmsal audit sistemlərinin genişləndirilməsi – süni intellekt və analitik alətlərin tətbiqi.
3. Vergi ödəyicilərinin maarifləndirilməsi – təlim və onlayn məsləhət mexanizmlərinin artırılması.
4. Regionlar üzrə tarazlı nəzarət siyasəti – regional iqtisadi xüsusiyyətlərə uyğunlaşdırılmış yoxlama planları.
5. Şəffaflığın artırılması – yoxlamaların nəticələrinin ictimai hesabatlarda dərc edilməsi.

Nəticə

Azərbaycan Respublikasında vergi inzibatçılığı sisteminin modernləşməsi və rəqəmsallaşması fonunda vergi yoxlamalarının səmərəliliyi yüksəlməkdədir. Statistik göstəricilər yoxlamaların sayının azalması ilə yanaşı, əlavə vergilərin artımını, şikayətlərin isə azalmasını göstərir. Gələcəkdə elektron audit, risk əsaslı idarəetmə və şəffaf hesabatlılıq istiqamətində atılan addımlar bu səmərəliliyi daha da gücləndirəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2024.
2. Dövlət Vergi Xidmətinin 2024-cü il üzrə hesabatı. taxes.gov.az
3. FED.az. "77 mindən çox vergi ödəyicisində 151 minə yaxın vergi yoxlaması – əlavə 1,2 milyard vergi hesablanıb". 14.03.2025.
4. Report.az. "Vergi orqanlarının fiskal yığımlardakı payı 77 %-ə çatıb". 13.02.2025.
5. Vergiler.az. "Səyyar vergi yoxlamaları 3,4 dəfə azalıb". 2019.
6. OECD. SME Policy Index: Eastern Partner Countries 2024. Paris, 2024.
7. Əliyeva R. Vergi inzibatçılığında səmərəliliyin artırılması istiqamətləri. Bakı Dövlət Universiteti, 2023.

Таджир Хафиз оглы Керимов
магистрант,
Вилаят Бадир оглы Мирзоев
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Направления повышения эффективности налоговых проверок в азербайджане

Резюме

В статье отмечается, что налоговые проверки приобрели образовательный и профилактический характер, способствовали повышению прозрачности в сфере налогового администрирования, повышению уровня добровольности уплаты налогов налогоплательщиками и повышению эффективности налогового контроля. Приводятся текущие государственные и статистические показатели налоговых проверок, анализируются факторы, влияющие на эффективность налоговых проверок, и направления повышения эффективности.

Tajir Hafiz Kerimov
master,
Vilayat Badir Mirzoyev
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Directions for ımproving the effectiveness of tax audits in azerbaijan

Summary

The article notes that tax audits have acquired an educational and preventive nature, contributing to increased transparency in tax administration, higher levels of voluntary tax payment by taxpayers, and improved tax control efficiency. Current government and statistical indicators of tax audits are presented, and factors influencing the effectiveness of tax audits and areas for improving efficiency are analyzed.

Vəfa Emin qızı CƏBİZADƏ
magistrant,
Adilə Firdovsi qızı MƏMMƏDOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
adilememmedova1967@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti

XİDMƏT SAHƏSİNDƏ DAXİLİ AUDİTİN TƏŞKİLİNİN MÜASİR VƏZİYYƏTİ VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Müasir şəraitdə müəssisə və təşkilatların uğurlu inkişafının əsas şərtlərindən biri də risklərin səmərəli şəkildə idarə olunmasıdır. Xidmət təşkilatlarında daxili audit standartlarında göstərildiyi

kimi, risklərin qiymətləndirilməsi yarana biləcək neqativ şərait və hadisələr haqqında peşəkar dəyərləndirmə aparmaq üçün sistemli prosedurdur. Risk hər bir müəssisənin istehsal etdiyi məhsulların və göstərdiyi xidmətlərin keyfiyyətinin səviyyəsinə və rəqabətqabiliyyətliliyinin qorunub saxlanılmasına təsir göstərir. Yoxlanılacaq bütün fəaliyyət və mövcud risk amillərini müəyyən etmək, onların vacibliyini qiymətləndirmək sahəsində daxili auditin imkanlarından istifadə edilməsi çox mühümdür. Bu mənada, risklərin dəyərləndirilməsi metodlarına yeni yanaşma zəruridir. Fıkrimcə, daxili audit reaksiyayönlü, yoxlamaəsaslı idarəetmədən risk və təşəbbüs əsaslı idarəetməyə çevrilməlidir. Daxili auditorlar iş mühitinin tez-tez dəyişən istiqamətlərinə qarşı çevik olmalıdır. Sürətlə dəyişən dünyada risklərin dəyərləndirilməsi üçün yeni kompyuter sistemləri və elektron ticarət kimi qlobal iş sahələri ilə bağlı bir çox problemlər öz həllini gözləyir.

Daxili audit sistemi müəssisələrdə saxtakarlıq və xəta risklərini azaltmaq, müəssisənin fəaliyyətini real iş diapazonu çərçivəsində saxlamaq üçün həmin müəssisənin fəaliyyətinin, işinin və aktivlərinin istiqamətləndirilməsi, nəzarət altında saxlanılması və qorunması deməkdir. Müəssisədə aparılan əməliyyatları ətraflı yoxlamamışdan əvvəl auditor həmin müəssisənin daxili audit sistemini gözdən keçirməlidir. Bu təhlil əsasında auditor müxtəlif prosedurların və sistemlərin etibarlılıq dərəcəsini müəyyənləşdirə bilər. Bu öz növbəsində tətbiq edilən audit yoxlamalarının mahiyyətini, vaxtını və miqyasını da müəyyənləşdirir [4, səh. 138].

Azərbaycanda daxili auditin normativ-hüquqi bazasının başlıca qaynaqlarından biri də daxili audit işini tənzim edən beynəlxalq sənədlərdir. Bunların arasında Daxili Auditin Peşə Təcrübəsi üzrə Beynəlxalq dərəcəli Standartlar və Daxili Auditorlar İnstitutunun Etika Məcəlləsi mühüm yer tutur [2, səh. 25-64]. Azərbaycanda xidmət sahəsində daxili auditin təşkili son illər xeyli inkişaf edib və xüsusilə aşağıdakı tendensiyalar müşahidə olunur:

- **Qanunvericilik bazasının təkmilləşdirilməsi** – "Daxili audit haqqında" müvafiq normativ sənədlər mövcuddur.
- **Beynəlxalq standartlara keçid** – IIA (Internal Audit Standards) və ISO 19011 kimi standartların tətbiqi.
- **Elektron nəzarət sistemlərinin qurulması** – xüsusilə bank və vergi sahəsində.
- **İnsan kapitalına investisiya** – daxili auditorların sertifikatlaşdırılması (CIA, ACCA və s).

Daxili audit hesabatları məxfidir və nadir hallarda müəssisə xaricinə çıxarıla bilər. Daxili auditorlar şirkət işçiləri hesab olunurlar. Kənar auditorlar şirkətdə çalışa bilməzlər, əks halda, onların müstəqilliyi şübhə altına düşür. Kənar auditorlar müstəqil və obyektiv davranmalı, müştəri ilə çalışarkən bu tələbləri nəzərə alaraq sərbəst şəkildə öz audit yoxlamalarını planlaşdırmalıdırlar. Müəssisənin kənar auditi illik fasilələrlə baş tutur (lakin əksər hallarda aralıq audit və yekun auditə bölünür), lakin daxili audit davamlı ola bilər və ya müntəzəm şəkildə həyata keçirilə bilər (məsələn, rüblük fasilələrlə). Auditin əhatə dairəsindən asılı olaraq audit planı daxili və kənar audit üzrə fərqlidir. Kənar auditorlar maliyyə hesabatlarının doğruluğunu və ədalətli olmasını qiymətləndirməli, auditi müvafiq şəkildə planlaşdırmalıdırlar. Hər hansı dələduzluq və ya yanlış bəyanat faktı ilə bağlı tutarlı səbəbə malik olmadıqca kənar auditor mühasibat kıtablarının və sənədlərin sınaq yoxlanışı ilə bağlı planlaşdırma həyata keçirir. Buna baxmayaraq əgər kənar auditor hansısa dələduzluq və yanlış bəyanatın mövcudluğundan şübhələnərsə bunun doğruluğunu yoxlamaq üçün ekstensiv audit metodlarını icra etməklə bağlı planlarda dəyişiklik etməlidir. Kənar auditorun audit planı əksər hallarda daxili audit hesabatlarının müfəssəl nəzərdən keçirilməsindən sonra yekunlaşdırılır. Hərtərəfli daxili audit hesabatı kənar auditora audit riskini qəbul edilə biləcək səviyyəyə qədər azlatmaq üçün audit planının hazırlanmasında kömək edə bilər [4, səh. 125].

Xidmət sahəsində daxili auditin təşkili müasir dövrdə iqtisadiyyatın şəffaflığı və idarəetmə keyfiyyətinin artırılması baxımından çox aktualdır. Bu məsələ xüsusilə bank, sığorta, telekommunikasiya, turizm, nəqliyyat və digər xidmət sahələri üçün böyük əhəmiyyət daşıyır. Xidmət sahələri birbaşa istehlakçılarla işlədiyi üçün şəffaflıq, keyfiyyət və etibarlılıq əsas göstəricilərdir. Daxili audit bu sahələrdə aşağıdakı məqsədlərə xidmət edir:

- Müştəri məmnuniyyətinin artırılması üçün proseslərin optimallaşdırılması;
- Daxili fırıldaqçılıq və sui-istifadə hallarının qarşısının alınması;
- Xidmət keyfiyyətinə nəzarət və davamlı təkmilləşmə təşəbbüslərinin dəstəklənməsi;

- Normativ tələblərə uyğunluğun təmin olunması (xüsusilə lisenziyalaşdırılmış sahələrdə – bank, sığorta, səhiyyə).

Daxili audit – müəssisənin fəaliyyətini qiymətləndirən, idarəetmə sistemini təkmilləşdirməyə xidmət edən müstəqil və obyektiv fəaliyyət növüdür və onun əsas funksiyaları aşağıdakılardır:

- Risklərin müəyyən olunması və idarə olunması;
- Daxili nəzarət sistemlərinin qiymətləndirilməsi;
- Əməliyyatların qanunvericiliyə və daxili qaydalara uyğunluğunun yoxlanılması;
- Effektivliyin və səmərəliliyin artırılmasına töhfə vermək**.**

Hazırda daxili audit ənənəvi yoxlama funksiyasından çıxaraq daha strateji bir funksiya kimi çıxış edir. Bəzi xidmət sahələrində daxili auditin tətbiqi hələ də formal xarakter daşıyır və aşağıdakı çətinliklər mövcuddur:

- Peşəkar auditor çatışmazlığı;
- İdarəetmə tərəfindən auditin dəyərinin tam anlaşılmaması;
- Audit tapıntılarının icrası ilə bağlı zəif nəzarət;
- Kiçik və orta sahibkarlıq subyektlərində audit sistemlərinin olmaması.

Daxili audit - təsərrüfat subyektlərının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə və inkişafina istiqamətləndirilmiş risklərin idarə edilməsi, idarəetmə və nəzarətin səmərəliliyinin dəyərləndirilməsi və inkişafina sistemli yanaşmaqla təsərrüfat subyektləridir.

Müəssisələrdə daxili audit xidmətinin təşkil olunmasında məqsəd - təsərrüfat subyektində səmərəli və müntəzəm fəaliyyətin təmin olunması, məqsədlərə nail olmaqdan ötrü risklərin idarə olunması, istənilən dəyişikliyə qısa zaman ərzində münasibət bildirmək üçün yaradılan daxili nəzarət sisteminin adekvatlığını və səmərəliliyini müəyyənləşdirməkdir. Daxili audit məzmununa, eləcə də aparılan metodlarına görə kənar auditlə bir çox ümumi cəhətlərə sahibdir və əsasən də onun üçün məlumat bazasının formalaşmasına təsir göstərir. Daxili auditə müasir yanaşmalar dedikdə aşağıdakılar nəzərdə tutulur:

- Risk əsaslı audit – resursların yüksək riskli sahələrə yönəldilməsi;
- Data analiz və süni intellektin tətbiqi – böyük həcmli məlumatlar üzərində təhlil aparmaq;
- Kontinuum audit – davamlı və real vaxt rejimində nəzarət;
- İnteqrasiya olunmuş audit – maliyyə, əməliyyat, IT və uyğunluq sahələrinin birgə auditi.

Beləliklə, xidmət sahəsində daxili audit fəaliyyətinin vacibliyi bir sıra nəzəri prinsiplərə əsaslanır, belə ki, auditin keyfiyyətli və beynəlxalq standartlara əsasən təşkili üçün təkliflər aşağıda verilmişdir:

- Auditorların davamlı təlim və beynəlxalq sertifikatlaşdırılması;
- Kiçik müəssisələr üçün sadələşdirilmiş audit modellərinin hazırlanması;
- Daxili auditin idarəetməyə verdiyi dəyərin tanıdılması;
- Rəqəmsal texnologiyaların və süni intellektin audit sistemlərinə inteqrasiyası.

Daxili auditin nəticələri haqda informasiyanın yekun forması audit komitəsinin müsbət və mənfi rəyləridir ki, bu da özündə daxili nəzarət sisteminin səmərəliliyi, struktur bölmələrinin fəaliyyəti və maliyyə informasiyalarının düzgünlüyü haqda müəyyən olunmuş formada ifadə edilən rəyi əks etdirən və direktorlar şurası (mülkiyyətçilər) üçün nəzərdə tutulmuş reqlamentləşdirilmiş sənədləri ehtiva edir.

Daxili auditorlar təşkilatlarda daxili audit funksiyasını beynəlxalq standartlara uyğun şəkildə hansı səviyyədə yerinə yetirdiklərini gözdən keçirməli, daxili audit qurumunun içərisində təkmilləşmək üçün öz səylərini artırmalıdırlar. Daxili auditorlar əsasən məqsədləri nəzərdən keçirmək, uygunsuzluğun olduğu təqdirdə bunun yarada biləcəyi problemlər haqqında fıkır bildirmək və belə məsələləri rəhbərliyə çatdırmaq üçün məsuliyyət daşıyırlar.

ƏDƏBİYYAT

1. Auditor xidmətinin aktual problemləri" mövzusunda keçirilmiş sorğu, Azərbaycan Respublikası Auditorlar Palatası, 2004-2014.
2. Audit: qanunvericilik və normativ sənədlər. VII cild. Bakı: "İqtisadiyyat və audit" jurnalının nəşri, 2013, s. 105-113.

3. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Maliyyə nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı, 2014, 648 s.
4. A.F.Məmmədova, Ə.M.Əsədov. Audit F8 (qlobal audit metodologiyası) Dərs vəsaiti. Bakı, 2024, 268səh.

Вафа Эмин кызы Джабизаде
магистрант,
Адиля Фирдовси кызы Мамедова
доктор философии по экономике, доцент,
adilememmedova1967@gmail.com,
Азербайджанский Университет Кооперации

Современное состояние организации внутреннего аудита в сфере услуг и направления ее развития

Резюме

Известно, что современное состояние внутреннего аудита в сфере услуг приобретает всё более стратегический характер. Аудит становится не только механизмом контроля, но и важным инструментом управления, способствующим принятию правильных решений. Его развитие обеспечивает как устойчивость бизнеса, так и прозрачность общей экономической среды.

Vafa Emin Jabizadeh
master,
Adila Firdovsi Mammadova
doctor of philosophy in economics, associate professor,
adilememmedova1967@gmail.com,
Azerbaijan Cooperative University

Current status of internal audit organizatıon in the service sector and its development dırections

Summary

It is known that the current state of internal audit in the service sector is becoming increasingly strategic. Audit is becoming not only a control mechanism, but also an important management tool that helps in making correct decisions. Its development ensures both the sustainability of the business and the transparency of the general economic environment.

Gülnarə Abdulbağı qızı VƏLİYEVA
magistrant,
Şəhla Əli qızı CƏFƏROVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

SƏHMDAR CƏMİYYƏTLƏRDƏ XÜSUSİ KAPİTALIN UÇOTDA ƏKS ETDİRİLMƏSİ METODİKASI

Nizamnamə kapitalı təsərrüfatçılığın bazar şəraitində hər hansı bir müəssisənin varlığı ona məxsus kapitalın miqdarı ilə ifadə olunur, onun fəaliyyətinin nailiyyətləri isə həmin kapitalda fəaliyyətinin başlanğıc mərhələsində müəssisənin sahib olduğu kapitalla müqayisədə artımıdır.

Cəhmdar cəmiyyətin xüsusi kapitalının maliyyələşdirilməsi mənbəyi səhmdarların nizamnamə və əlavə ödəmələrindən, müəssisənin işgüzar fəaliyyəti prosesində yığılan ehtiyatlardan ibarətdir.

Səhmdar kapital ödənilən səhmlərin nominal dəyəri və səhmlər buraxılışından mükafatlardan formalaşır [2, s.52].

Səhmdar cəmiyyətləri müasir iqtisadi sistemdə kapital bazarının əsas iştirakçılarından biridir. Bu cəmiyyətlərin fəaliyyətinin maliyyə sabitliyi və davamlılığı, ilk növbədə, onların xüsusi kapitalının düzgün idarə olunması və uçotda dəqiq əks etdirilməsindən asılıdır.

Xüsusi kapital, müəssisənin təsisçilərinə məxsus olan, aktivlər ilə öhdəliklər arasındakı fərqi ifadə edən əsas maliyyə göstəricisidir. Mühasibat uçotunun konseptual əsaslarına görə, xüsusi kapitalın formalaşması və dəyişməsi prosesləri maliyyə hesabatlarında aydın, ardıcıl və şəffaf şəkildə göstərilməlidir.

Səhmdar cəmiyyətlərində xüsusi kapital müəssisənin sahiblik hüququnu əks etdirən maliyyə mənbəyidir. Onun əsas tərkib elementləri aşağıdakılardır:

- Nizamnamə kapitalı (səhmlərin nominal dəyəri);
- Əlavə (emissiya) gəlirləri;
- Bölüşdürülməmiş mənfəət və ya zərər;
- Ehtiyat kapitalı;
- Yenidən qiymətləndirmə nəticəsində yaranan fərqlər[2, s.57].

Xüsusi kapitalın dinamikası səhmdarların qoyuluşları, mənfəətin bölüşdürülməsi, dividend siyasəti və aktivlərin yenidən qiymətləndirilməsi nəticəsində dəyişir.

Səhmdar cəmiyyətlərində xüsusi kapitalın uçotu aşağıdakı prinsiplər əsasında aparılır:

- **Mülkiyyətin ayrılığı prinsipi** – müəssisənin kapitalı səhmdarların şəxsi vəsaitlərindən fərqləndirilməlidir;
- **Ədalətli təqdimetmə prinsipi** – kapitalın bütün komponentləri maliyyə hesabatlarında real və obyektiv göstərilməlidir;
- **Ardıcıllıq prinsipi** – kapitalın uçotu qaydaları illər üzrə dəyişdirilmədən tətbiq edilməlidir;
- **Şəffaflıq və açıqlama prinsipi** – səhmdarlara və investor ictimaiyyətinə kapitalda baş verən dəyişikliklər barədə tam məlumat verilməlidir.

Səhmdar cəmiyyətlərində xüsusi kapitalın uçotu "Mühasibat uçotu haqqında" Qanun, BMHS 1 (IAS 1) "Maliyyə hesabatlarının təqdimatı", BMHS 32 "Maliyyə alətləri: təqdimat" standartlarına uyğun aparılır [2].

Beynəlxalq Maliyyə Hesabatı Standartlarına görə (IFRS):

- Xüsusi kapital, **"Equity"** anlayışı altında müəssisə aktivlərindən öhdəliklərin çıxılması ilə müəyyən olunur;
- Kapitalda baş verən bütün dəyişikliklər "Xüsusi kapitalda dəyişikliklər haqqında hesabat" formasında təqdim olunur;
- IFRS 1 və IAS 32 standartları kapital alətlərinin təsnifatı, səhmlərin emissiyası və xalis mənfəətin bölüşdürülməsi qaydalarını müəyyən edir[3, s.69].

Bu yanaşma kapitalın uçotunda şəffaflıq, beynəlxalq müqayisə və investor etimadını artırır.

Səhmdar cəmiyyətlərində xüsusi kapitalın uçotunun təkmilləşdirilməsi istiqamətləri aşağıdakılardan ibarətdir:

- Kapitalda baş verən dəyişikliklərin avtomatlaşdırılmış uçot sistemlərində izlənməsi;
- Beynəlxalq hesabat formatlarına (IFRS-compliant reporting) tam uyğunlaşma;
- Səhmdar məlumatlarının elektron uçotu və açıqlama mexanizmlərinin inkişafı;
- Kapitalın strukturunda şəffaflıq və audit nəzarətinin gücləndirilməsi.

Beləliklə, səhmdar cəmiyyətlərində xüsusi kapitalın uçotda düzgün əks etdirilməsi müəssisənin maliyyə sabitliyini təmin edən əsas amillərdəndir. Həmçinin, müasir iqtisadi şəraitdə kapitalın idarə edilməsi, onun beynəlxalq standartlara uyğun uçotu və hesabatlarda şəffaf göstərilməsi investor etimadını və maliyyə bazarlarının effektivliyini artırır.

ƏDƏBİYYAT

1. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (IFRS, IAS 1, IAS 32).
2. B.S.Abbasov ."Səhmdar cəmiyyətlərin xüsusi kapitalının ucotu və təhlili" mövzusunda magistr dissertasiyası. Bakı, 2015

3. Məmmədova G. – *"Səhmdar cəmiyyətlərində kapitalın uçotu problemləri və həlli yolları"*, İqtisadiyyat və Menecment Jurnalı, №4, 2022.

Гульнара Абдулбаги кызы Валиева
магистрант,
Шахла Али кызы Джафарова
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Методология учета капитала в акционерных обществах

Резюме

В данной статье рассматриваются экономическая сущность собственного капитала акционерных обществ, принципы и методология его отражения в бухгалтерском учете. При этом анализируются основные направления формирования, распределения и учета капитала в контексте требований международных стандартов финансовой отчетности (МСФО). Целью статьи является определение теоретических и методологических основ, обеспечивающих правильное и прозрачное отражение собственного капитала акционерных обществ в системе бухгалтерского учета.

Gulnara Abdulbagi Valıyeva
master,
Shahla Ali Jafarova
doctor of philosophy in economics, associate professor
Azerbaijan Cooperation University

Methodology for recording equity in joint stock companies

Summary

This article examines the economic essence of equity in joint-stock companies, the principles and methodology of its reflection in accounting. At the same time, the main directions of capital formation, distribution and accounting in the context of the requirements of international financial reporting standards (IFRS) are analyzed. The purpose of the article is to determine the theoretical and methodological foundations for ensuring the correct and transparent reflection of equity in joint-stock companies in the accounting system.

Vaqif Şahin oğlu MİKAYILOV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Aygün Hüseynəli qızı ƏLİYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
alizadaconi@gmail.com,
Sumqayıt Dövlət Universiteti,

AUDİT RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏ OLUNMASI STRATEGİYALARI

Müasir biznes mühitində maliyyə hesabatlarının düzgünlüyü və etibarlılığı iqtisadi qərarların effektivliyi üçün həlledici amildir. Bu baxımdan, audit prosesi və auditorların rolu mühüm əhəmiyyət daşıyır. Audit zamanı ən mühüm məsələlərdən biri isə audit risklərinin düzgün qiymətləndirilməsi və idarə olunmasıdır.

Audit riski – auditorun maliyyə hesabatlarında əhəmiyyətli səhvləri aşkar etmədən düzgün rəy vermə ehtimalıdır. Bu məqalədə audit risklərinin əsas növləri, qiymətləndirmə üsulları və effektiv idarəetmə yolları ətraflı təhlil edilir. Audit riski, auditorun səhv və ya saxtakarlıq nəticəsində yaranmış əhəmiyyətli uyğunsuzluğu aşkarlamadan və yanlış rəy vermə ehtimalını ifadə edir.

Beynəlxalq audit standartlarına əsasən, audit riski aşağıdakı komponentlərdən ibarətdir[1,4]:

- *Daxili risk:* Maliyyə hesabatında səhv başvermə ehtimalı, daxili nəzarət sistemindən asılı olmadan.
- *Nəzarət riski:* Müəssisənin daxili nəzarət sisteminin səhvləri və saxtakarlıqları vaxtında aşkar etməmə riski.
- *Aşkarlama riski:* Auditorun audit prosedurlarının səhvləri aşkarlamama ehtimalı.

Audit riski aşağıdakı şəkildə ifadə olunur:

$$Audit\ Riski = IR \times CR \times DR$$

Audit risklərinin qiymətləndirilməsi aşağıdakı mərhələlər üzrə aparılır[2,3]:

1. Planlaşdırma mərhələsi

- Audit planının hazırlanması;
- Müəssisənin fəaliyyət sahəsinin və risk səviyyəsinin təhlili;
- Əvvəlki illərin audit nəticələrinin nəzərə alınması.

2. Daxili nəzarətin qiymətləndirilməsi

- Müəssisədə daxili nəzarət sisteminin effektivliyinin öyrənilməsi;
- Nəzarət prosedurlarının test edilməsi;
- Əgər daxili nəzarət zəifdirsə, aşkarlama riskinin aşağı səviyyədə saxlanması vacibdir.

3. Analitik prosedurlar

- Maliyyə göstəriciləri üzrə trend analizi;
- Mütənasiblik və müqayisə təhlili;
- Müəyyən edilmiş anomaliyalar əsasında risk səviyyəsinin artırılması.

4. Əhəmiyyətlilik səviyyəsinin müəyyən edilməsi

- Audit üçün qəbul olunan səhv limitlərinin müəyyən edilməsi;
- Risk səviyyəsi artdıqca, əhəmiyyətlilik səviyyəsi aşağı salınmalıdır.

Audit risklərinin idarə olunması üçün auditorlar aşağıdakı strategiyalardan istifadə edirlər[3,4]:

1. Audit prosedurlarının genişləndirilməsi

- Yüksək riskli sahələrdə daha çox sınaqların və yoxlamaların aparılması;
- Əlavə analitik prosedurların tətbiqi.

2. Peşəkar şübhə yanaşması

- Auditorların daim ehtiyatlı və tənqidi düşüncə ilə yanaşması;
- Məlumatların və sənədlərin doğruluğuna qarşı sualvermə meyli.

3. Müvafiq audit sübutlarının toplanması

- Kifayət qədər və uyğun sübutların toplanması;
- Müstəqil mənbələrdən təsdiqləyici məlumatların əldə olunması.

4. Daxili nəzarət sisteminin gücləndirilməsi üzrə tövsiyələr

- Müəssisəyə risklərin idarəsi və nəzarət sistemlərinin təkmilləşdirilməsi ilə bağlı məsləhətlər verilməsi;
- Audit sonrası hesabatda zəif cəhətlərin qeyd olunması.

Audit risklərinin qiymətləndirilməsi və idarə edilməsi sahəsində əsas istinad olunan sənədlər aşağıdakılardır[5]:

- ISA 315 – Müəssisəni və onun mühiti başa düşmək və əhəmiyyətli səhv risklərini müəyyənləşdirmək;
- ISA 330 – Auditor tərəfindən müəyyən edilmiş risklərə cavab olaraq prosedurların tətbiqi;
- Azərbaycan Respublikasının Auditor xidməti haqqında Qanunu;
- Azərbaycan Maliyyə Nazirliyinin audit fəaliyyətinə dair normativ sənədləri.

Deməli, auditorlar riskləri düzgün təhlil etməklə, daha məqsədyönlü audit prosedurları tətbiq edə və maliyyə hesabatlarının düzgünlüyünü daha obyektiv şəkildə dəyərləndirə bilərlər. Risk əsaslı audit yanaşmasının tətbiqi, yalnız audit prosesinin effektivliyini artırmır, həm də müəssisələr

üçün əlavə dəyər yaradır. Təbii ki, gələcəkdə bu sahədə texnologiyaların (məsələn, süni intellektin) tətbiqi risklərin daha dəqiq qiymətləndirilməsini təmin edəcəkdir.

ƏDƏBİYYAT

1. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. (1995). https://www.e-qanun.az
2. Məmmədov, R. Auditor nəzarətinin əsasları. Bakı: 2022.İqtisad Nəşriyyatı.
3. Karim, W., & Syed, M. Risk-based auditing: A conceptual framework. Journal of Finance and Auditing Studies, (2018). 6(3), 88–101.
4. International Federation of Accountants (IFAC). (2020). International Standard on Auditing (ISA) 315 – Identifying and Assessing the Risks of Material Misstatement. https://www.ifac.org
5. International Federation of Accountants (IFAC). (2020). *ISA 330* – Auditor Responses to Assessed Risks.https://www.ifac.org

Вагиф Шахин оглы Микаилов
магистрант,
Азербайджанский Университет Кооперации
Айгюн Гусейнали кызы Алиева
доктор философии по экономике, доцент,
alizadaconi@gmail.com,
Сумгаитский Государственный Университет,

Стратегии оценки и управления аудиторскими рисками

Резюме

Правильная оценка и эффективное управление аудиторскими рисками являются одними из основных факторов, обеспечивающих качество аудита и надежность аудитора. В связи с этим в статье на основе международных стандартов аудита проанализированы и отражены составляющие аудиторского риска, этапы оценки, методы управления и основные справочные документы в данной области.

Vagif Shahin Mikayilov
master,
Azerbaijan Cooperation University
Aygun Huseynali Aliyeva
doctor of philosophy in economics, associate professor,
alizadaconi@gmail.com,
Sumgait State University,

Strategies for assessment and management of audit risks

Summary

Correct assessment and effective management of audit risks are among the main factors ensuring the quality of the audit and the reliability of the auditor. In this regard, based on international audit standards, the components of audit risk, assessment stages, management methods and the main reference documents in this field have been analyzed and reflected in the article.

Bəylər Arif oğlu QULİYEV
magistrant,
Fariz Qasım oğlu ƏMRAHOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti


BÜDCƏ GƏLİRLƏRİNİN ARTIRILMASINA VERGİ SİYASƏTİNİN TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Ölkə iqtisadiyyatının sürətli şəkildə inkişafı, əsas məsələlərin müsbət formada həll edilməsi, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması, ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi və başqa strateji məsələlərin müvəffəqiyyətlə həll olunması dövlət büdcəsinin ödəmə imkanlarından asılıdır. Müasir şəraitdə büdcənin gəlir hissəsinin formalaşmasında vergilərin rolunun və vergilərin artırılması istiqamətləri dövlətin vergi siyasətinin mühüm bir hissəsidir.

Ölkə iqtisadiyyatında qazanılmış uğurlar içərisində həyata keçirilən iqtisadi islahatların avanqardı kimi özünü göstərən büdcə-vergi sistemi xüsusi yer tutur. Maliyyə sistemində yürüdülən islahatlar yalnız hökumətin fiskal siyasətini yox, o cümlədən bu sistemin daxili quruluşunu da təşkil etmişdir. Hal-hazırda isə ölkədə gerçəkləşdirilən vergi strategiyası:

- vergi sisteminin normativ-hüquqi bazasının təkmilləşdirilməsi;
- vergi mədəniyyətinin yaradılması;
- innovativ istehsal-mülkiyyət sistemi təməlində stabil iqtisadi tərəqqi üçün mühit yaradılması;
- vergi ödəyicilərinin prosesi üçün effektiv mühitin yaradılması və ödəyicilərin hüquqlarının maksimal mühafizəsi, vergi yükünün optimal səviyyədə minimalizasiyası;
- dövlət vergi xidməti qurumlarının əməkdaşlarının fəaliyyəti üçün effektiv mühitin yaradılması;
- onların sosial cəhətdən təminatı, sahibkarlıq və sərmayə aktivliyini təsdiq edən, asan və vergi ödəyicisi tərəfindən tez anlaşılan vergi sisteminin formalaşdırılması;
- vergi qanunvericiliyinə əməl edilməsinin təcrübi aspektdən rahat olması;
- minimal inzibati xərclər cəlb etməsi üzrə uyğun mühitin yaradılması prinsipləri əsasında aparılır.

Dövlət büdcəsi gəlirləri, təzə vergilərdən daxilolmalar, əsaslı gəlirlərin hamısı, rəsmi qaydada əldə edilmiş vəsaitlər ölkənin iqtisadi fəaliyyəti və ya büdcə sisteminin səviyyələrinin əsasında alınmış gəlirlərin təkrar bölgüsü nəticəsində əmələ gəlir. Nəzərə almaq gərəkdir ki, büdcə gəlirlərinin struktur forması dəyişkəndir, eyni zamanda konkret iqtisadi mühitlə əlaqədardır. Məsələn, sosial-iqtisadi statusu yüksək olan dövlətlərdə büdcə gəlirlərinin əsas hissəsi fiziki şəxslərdən alınmış vergilər, aşağı inkişaf göstəricilərinə sahib olan ölkələrdə isə dolayı vergilər, həmçinin hüquqi şəxslərdən alınmış vergilərdən ibarətdir.



Sxem 1.1. Azərbaycan Respublikasında vergi daxilolmaları (2024-2025-ci il)

Cari ilin yanvar-sentyabr aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətt-ilə dövlət büdcəsinə 12 milyard 455,8 milyon manat vergi daxil olub, proqnoza 105,2 faiz əməl edilib.

Vergi sistemini tənzimləyən əsas vasitə vergi siyasətidir və vergi siyasətinin təkmilləşdirilməsi üçün atılan ardıcıl addımların inamla aparılmasıdır ki, bu da iqtisadiyyatın inkişafına səbəb olur. Bu səbəbdən Azərbaycan Respublikasının ümummilli lideri H.Əliyev vergi orqanlarına ümumi iqtisadi siyasətin bir tərkib hissəsi olan, sahibkarlığın inkişafını stimullaşdıran və ölkədə əlverişli investisiya mühiti yaradan Azərbaycan Respublikasının vergi sisteminin təkmilləşdirilməsinin vacib istiqamətlərini müəyyənləşdirmək vəzifələrini qoymuşdur.

Azərbaycan Respublikasının vergi siyasətində islahatların aparılmasının əsas yolları bunlardır:

- Bütün maliyyə ili ərzində vergi və ödəniş sisteminin birliyini və ardıcıllığını təmin edən sabit vergi sisteminin qurulması;
- vergi sisteminin maksimum sadələşdirilməsi, qeyri-müəyyən şərhlərin qanun və təlimatlardan çıxarılması;
- konsolidasiya yolu ilə vergilərin sayını azaltmaq və əhəmiyyətli gəlir gətirməyən müəyyən vergiləri aradan qaldırmaq;
- birbaşa yaxud dolayı vergilərin optimal birləşməsi;
- sabit vergi bazası sayılan əmlak vergilərinin gücləndirilməsi;
- təsərrüfat subyektlərinin də istehsal fəaliyyəti ilə əlaqəli real xərclərinə maksimum vergi tutulması;
- fərdi gəlir vergisinin artırılması;
- vergilərin ödənilməsində könüllülük prinsipinin inkişafı;
- vergi ödəyicilərinin vergi qanunvericiliyindəki dəyişikliklər, vergilərin hesablanmasında və ödənilməsində məsləhət xidmətləri göstərilməsinin vaxtında məlumatlandırılması;
- vergi dərəcələrini azaltmaqla vergi təzyiqini yüngülləşdirmək, vergi güzəştlərinin məqbul səviyyəsini təmin etmək;
- məhsul (iş, xidmət) istehsalçılarının vergi yükünü asanlaşdırmaq və vergi bazasını dəqiq müəyyənləşdirməklə ikiqat vergitutmanın qarşısını almaq;

Yuxarıda göstərilənlərdən belə nəticə çıxır ki, vergi siyasəti ölkə iqtisadiyyatını inkişaf etdirəcək şəkildə islah olunmalıdır.Vergi sistemində islahatlar sahəsində bu tədbirlərin həyata keçirilməsi istehsalın artmasına və vergi bazasının genişlənməsinə və beləliklə dövlət büdcəsinə daxilolmaların artmasına şərait yaradacaqdır. Bu səbəbdən dövlət büdcəsi iqtisadiyyatın canlanmasının və böyüməsinin əsas vasitəsinə çevrilməlidir, eyni zamanda dövlət büdcəsinin xərclənməsinə nəzarətin gücləndirilməsi məqsədəuyğundur.

ƏDƏBİYYAT

1. Vergi Məcəlləsi. Bakı 2025
2. Mədətova Ş.Q. (2018), "Müasir mərhələdə Azərbaycanın vergi siyasətinin prioritet istiqamətləri və iqtisadi inkişafda rolu", Bakı, "Maliyyə, kredit, pul tədavülü məsələləri" 03(310)-2018
3. Məmmədov Ə.C., Seyfullayev İ.Z., Yusifov C.R., Bakı 2015
4. Məmmədov F.A., Sadıqov M.M., Musayev A.F., Rzayev Z.H., Kəlbiyev. "Vergilər və vergitutma". Bakı 2014
5. Маслихова Е.А., Данилова С.В., Ильиных Ю.М. Оценка эффективности современной государственной налоговой политики // Вестник Алтайской академии экономики и права. 2023. № 10-9
6. www.taxes.gov.az
7. www.vergi.az
8. www.economy.az
9. https://vaael.ru/article

Бейляр Ариф оглы Гулиев
магистрант,
Фариз Гасым оглы Амрахов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Оценка влияния налоговой политики на увеличение доходов бюджета

Резюме

В статье рассматриваются налоговые поступление в государственный бюджет и дается им оценка. Оценка влияния налоговой политики на увеличение доходов бюджета проводится путем анализа ключевых показателей, таких как налоговая нагрузка (общая и удельная), уровень налог ёмкости ВВП, а также путем моделирования различных сценариев налоговых изменений. Эффективность оценивается на основе того, как изменения в ставках, объектах обложения и льготах влияют на общую сумму поступлений и экономическую активность.

Beylar Arif Quliyev
master,
Fariz Gasim Amrakhov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Assessment of the impact of tax policy on increasing budget revenues

Summary

This article examines and assesses tax revenues to the state budget. The impact of tax policy on increasing budget revenues is assessed by analyzing key indicators such as the tax burden (total and specific), the level of tax capacity of GDP, and by modeling various tax change scenarios. Effectiveness is assessed based on how changes in rates, taxable items, and benefits affect total revenues and economic activity.

Xədicə Əli qızı MƏMMƏDLİ
magistrant,
Adilə Firdovsi qızı MƏMMƏDOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
adilememmedova1967@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti

KOMMERSİYA TƏŞKİLATLARINDA RİSKLƏRİN QARŞISININ ALINMASINDA AUDİTİN ROLU

Müasir şəraitdə kommersiya təşkilatlarının idarəetmə strukturunda auditin rolu və funksiyaları kəskin şəkildə dəyişir. Auditorların əsas vəzifəsi mülkiyyətçi və ya səhmdarların, şirkət rəhbərliyinin və potensial investorların nümayəndələrinə maliyyə hesabatlarının etibarlılığına, mövcud daxili nəzarət sisteminin effektivliyinə zəmanət verməkdir. Risklərin minimuma endirilməsi üçün fəaliyyətin mövcud qanunvericiliyə uyğunluq səviyyəsi, biznes proseslərinin işləməsinin qanunauyğunluqları, təşkilatın aktiv və öhdəliklərindən istifadənin səmərəliliyi müəyyənləşdirilməlidir.

İqtisadi münasibətlərin dərinləşməsi və onun qloballaşması şəraitində müəssisə və təşkilatların fəaliyyətinin təkmilləşdirilməsi, rəqabətin artması idarəetmə prosesinin səmərəliləşdirici alətlərindən biri kimi auditin rolunun artması baş verir. Əvvəlcə onu qeyd etmək lazımdır ki, audit mühasibat uçotunun və maliyyə hesabatlarının etibarlılığını təmin edən fəaliyyət kimi qəbul edilir. Müasir audit fəaliyyəti müxtəlif və irimiqyaslı vəzifələri yerinə yetirməyə qadirdir. Xüsusən, daxili audit kommersiya müəssisə və təşkilatların üzləşdiyi risklərin idarə edilməsi prosesində daxili nə-

zarət sisteminin etibarlılığına və effektivliyinə, o cümlədən yalnız maliyyə deyil, həm də ticari və iqtisadi əməliyyatlara nəzarəti, korporativ siyasət və prosedurlara riayət olunmasına nəzarətin nəticələrinin qiymətləndirilməsi ilə bağlı fəaliyyətdir. Bu həmçinin yeni məhsulların təklifi, informasiya sistemlərinin istifadəsi, eləcə də kommersiya fəaliyyətinin yenidən qurulması prosesində səmərəliliyi artırır. Kommersiya təşkilatlarında auditor fəaliyyəti səhvlərə və sui-istifadəyə qarşı müdafiəni təmin edir, potensial "risk sahələrini" və gələcək çatışmazlıqları və ya problemləri aradan qaldırmaq üçün imkanları müəyyənləşdirir, idarəetmə sistemlərində risklər baxımından zəif cəhətləri aşkar etməyə, eləcə də onları gücləndirməyə kömək edir. Təşkilatların idarəetmə orqanları müəssisənin idarə edilməsi funksiyalarını yerinə yetirməkdə onlara kömək etmək üçün əlavə resurs kimi daxili auditorların xidmətlərindən istifadə edirlər. Bundan əlavə, müstəqil daxili audit şirkətin investisiya cəlbediciliyinin əsas elementidir. Ümumiyyətlə, kommersiya təşkilatında səmərəli daxili audit sisteminin yaradılması kəskin rəqabət şəraitində təşkilatın səmərəli fəaliyyətini, sabitliyini və müəyyən edilmiş məqsədlərə uyğun maksimum inkişafını təmin etmək, həmçinin təşkilatın resurslarını və potensialını qorumaq və səmərəli istifadə etmək imkanı verir. O cümlədən, təşkilatın idarə edilməsində kommersiya, maliyyə və digər riskləri vaxtında müəyyən etmək və minimuma endirmək, idarəetmənin bütün səviyyələrində müasir, daim dəyişən iqtisadi şəraitə adekvat olan, təşkilatın fəaliyyətini daxili və xarici mühitdəki dəyişikliklərə vaxtında uyğunlaşdırmağa imkan verən informasiya təminatı sistemini formalaşdırmaq auditin səmərəli təşkili nəticəsində baş verir [2, səh. 90-93]

Bütün növ fəaliyyətlərin gedişi və nəticələrinə təsir edən amillərdən ən mühümü kimi risk anlayışı dərindən öyrənilməli və onun səmərəli idarə edilməsi ilə əlaqədar spesifik aspektlər dəyərləndirilməlidir. Risk, müxtəlif qeyri-müəyyənlik səbəbindən müəssisə və ya təşkilatların gəlirliliyinə və ya nüfuzuna mənfi təsir göstərən hadisə kimi qeyd edilə bilər. Xüsusən iqtisadi sferada idarəetmə prosesində qeyri-müəyyənliyin, müxtəlif dəyişmələrin subyektə müxtəlif istiqamətlərdən potensial mənfi təsirləri nəzərə alınmalıdır. Demək olar ki, istənilən işgüzar fəaliyyət risklə bağlıdır. Risk-itkilərə səbəb ola biləcək şərtlərin və ya hadisələrin göstəricisidir. O, bu hadisənin baş verməsi ehtimalına və onun vura biləcəyi zərərin ölçüsünə mütənasibdir. İnsanın müasir həyat şəraiti informasiyanın həcminin daim artması, həm sosial sistemdə, həm də ətraf mühitlə münasibətlərin mürəkkəbliyi ilə səciyyələnir. Eyni zamanda, qloballaşma, elmi-texniki inkişaf prosesləri sürətlənir, təbii ehtiyatların istehlak həcmi artır. Bu o deməkdir ki, daha çox səbəb insan işinin xarakterinə və istiqamətinə təsir edir, həmçinin bu təsirin gözlənilməzliyi artır. Nəticədə, qeyri-müəyyən inkişaf səviyyəsi durmadan artır, göstəriciləri proqnozlaşdırmaq, məqsədləri ifadə etmək və onlara nail olmaq üçün tədbirlər həyata keçirmək getdikcə daha da çətinləşir. Bütün bunlar risklərin araşdırılması məsələlərinə xüsusi diqqət yetirilməlidir. Riskin tədrisi müxtəlif sistemlərin inkişafı və fəaliyyəti nəzəriyyəsi üçün əsasdır. Çox sayda səbəblərdən ötəri nəticələrin və şərtlərin tamamilə dəqiq proqnozlaşdırılması həyata keçirilmir. Bu, həqiqətən risk mənbəyi olan müxtəlif ssenarilər həmişə ehtimal var deməkdir. Müxtəlif ifadələrin ümumiləşdirilməsi əsasında aşağıdakı tərifi təsəvvür etmək olar: risk - məqsədə nail olmaq prosesində qeyri-müəyyənlikdir, itki ehtimalı, nəzərdə tutulan planların yerinə yetirilməməsidir.

Kommersiya fəaliyyəti mənfəət əldə etmək məqsədilə müxtəlif səviyyəli alqı-satqı proseslərinin təşkili, müxtəlif sahələrdə xidmətlərin göstərilməsi riski ilə bağlıdır. Mənfəət əldə etmək və müvafiq seqmentdə uğur qazanmaq üçün kommersiya subyekti fəaliyyət göstərdiyi biznes sferasında mövqe tutmalı və onu qorumalıdır. Aydındır ki, müəyyən həcmdə mənfəətin əldə edilməsinə səbəb olan amillərdən biri riskdir. Daha əvvəl qeyd etdiyimiz kimi, risk və qazanc arasında sıx bir əlaqə var. Kommersiya müəssisə və təşkilatlarının riskə getməsinin bir çox səbəbləri var və bunlardan ən əsas ehtiyac mənfəət əldə etmək motivasiyasıdır [3, səh. 53]. Ümumiyyətlə, risk istənilən kommerisya təşkilatının fəaliyyəti ilə sıx bağlıdır. Bu, bütövlükdə maliyyə sektoruna və xüsusilə də banklara münasibətdə daha nəzərəçarpacaq və aydın şəkildə ifadə olunur. Dəyişən risklərin idarə edilməsi ssenarisi banklar üçün bir çox problemlər yaradır. Bunun fonunda bank mühitində risklərin müxtəlif növlərini anlamaq faydalıdır. Risklərin idarə edilməsi funksiyasına cavabdeh olan subyektlər aşağıda sadalanan bir sıra tədbirlərin miqyasının və təsirinin müntəzəm təhlili məqsədilə təşkilat qarşısında məsuliyyət daşıyır:

- qüvvədə olan qanun və qaydalara riayət olunduğuna;
- ümumi rəhbərlik tərəfindən müəyyən edilmiş siyasət və məqsədlər yerinə yetirildiyinə;
- maliyyə və qeyri-maliyyə məlumatlarının dəqiq olduğuna;
- daxili proseslərin, xüsusilə də onun aktivlərinin qorunmasına kömək edən effektiv daxili nəzarət sisteminin yaradıldığına.

Kommersiya təşkilatlarında risklərin qiymətləndirilməsinə ənənəvi yanaşmalar əksər təşkilatların üzləşdiyi risklərin unikal xüsusiyyətlərini nəzərə almır. Müxtəlif xüsusiyyətlərə malik risklərin qiymətləndirilməsi üçün ümumi analitik çərçivədən istifadə qiymətləndirilmə prosesini asanlaşdırmaq məqsədilə istifadə edilə bilər. Risklər təşkilatlara potensial təsir göstərməsi və rəhbərliyin onların nə vaxt və ya hansı formada baş verəcəyini bilməməsi baxımından oxşarlığa malikdir. Risklərin qiymətləndirilməsində nəzərə alınmalı olan əsas risk kateqoriyaları arasında da əhəmiyyətli və fərqli aspektlər mövcuddur [4]. Riskləri bir sıra xüsusiyyətlərinə əsasən aşağıdakı kateqoriyalara bölmək olar: - strateji risklər kommerisya təşkilatının biznes modelinin strateji baxımdan effektiv şəkildə hazırlanmaması və ya gələcək hadisələrin bir və ya bir neçəsinin müəyyən edilmiş strategiyanın əsasını təşkil edən fundamental istiqamətlərə mənfi təsir edə biləcəyi riskidir. Bu risklər, ilk növbədə, xarici mühitlə bağlıdır ki, bunlara rəqiblərin müvafiq hərəkətləri, müştərilərin tələbatının dəyişməsi, texnoloji yeniliklər və tənzimləyici orqanların qərarları aid edilə bilər: - əməliyyat riskləri müştərilər üçün dəyər yaratmaq və gözlənilən maliyyə nəticələrinə nail olmaq üçün biznes modelinin effektivliyini və ya canlılığını azaldan bir və ya daha çox potensial riskdir. Bu risklər müxtəlif fəaliyyət növləri, həmçinin təşkilatın biznes modelinin tətbiq edildiyi dəyər zəncirinin yaradılması ilə bağlıdır. Belə ki, təchizat zənciri, müştərilərin tələbatının ödənilməsi prosesləri, insan resursları, informasiya texnologiyaları, məhsulların satışı və bölüşdürülməsi kanalları, əsas müştərilər və son istifadəçilər bu risklərə daxildir - maliyyə riskləri pul vəsaitlərinin hərəkəti və maliyyə risklərinin iqtisadi cəhətdən səmərəli idarə edilməməsi riski, yəni nağd vəsaitlərin əlçatanlığını maksimuma çatdırmaq və likvidliyi qoruyub saxlamaq, valyuta, faiz dərəcələrinin, kredit, kontragent və digər maliyyə risklərinin qeyri-müəyyənliyini azaltmaq və ya pul vəsaitlərini onların dəyərini itirmədən ən çox tələb olunan yerə sürətlə hərəkət etdirmək fəaliyyətlərini əhatə edir - cərimələr, sanksiyalar, xərclərin artırılması, əldən çıxmış fayda və nüfuzun itirilməsi ilə nəticələnən qanunlara, qaydalara, daxili siyasətə, o cümlədən müqavilə şərtlərinə əməl edilməməsi riskiləri.

ƏDƏBİYYAT

1. Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası, Keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə beynəlxalq standartlar toplusu, I cild, Bakı - 2019, 1415 s.
2. A.F.Məmmədova, Ə.M.Əsədov. Audit F8 (qlobal audit metodologiyası) Dərs vəsaiti. Bakı, 2024, 268səh.
3. Грабивчук В. Я., Пивень И. Г. Роль внутреннего аудита и его взаимосвязь с системой управления рисками организации, Journal of Economy and Business, vol. 4-2 (62), 2020, с 53-56
4. Rəsmi statistika haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı - 2018

Хадижьа Али кызы Маммадли
магистрант,
Адиля Фирдовси кызы Мамедова
доктор философии по экономике, доцент,
adilememmedova1967@gmail.com,
Азербайджанский Университет Кооперации

Роль аудита в управлении рисками в коммерческих организациях

Резюме

Следует отметить, что для повышения качества процесса управления деятельностью коммерческих предприятий и организаций управление рисками посредством использова-

ния компьютерных технологий невозможно, как и без организации аудита в соответствии с требованиями международных стандартов. Новые вызовы, связанные с рисками в экономической системе, требуют коренной перестройки и постоянного совершенствования деятельности аудиторов. В связи с этим существенно расширяется и сфера аудиторской деятельности. Так, охватываются стратегическое планирование, корпоративное управление, оперативная деятельность, оценка рисков, выявление и устранение аудиторских рисков.

Khadija Ali Mammadli
master,
Adila Firdovsi Mammadova
doctor of philosophy in economics, associate professor,
adilememmedova1967@gmail.com,
Azerbaijan Cooperative University

The role of audıt ın rısks management ın commercıal organızatıons

Summary

It should be noted that in order to improve the quality of the management process in the activities of commercial enterprises and organizations, risk management through the use of computer technologies is impossible, as well as without organizing an audit in accordance with the requirements of international standards. New challenges related to risks in the economic system require a fundamental restructuring and constant improvement of the work of auditors. In this regard, the scope of audit activities is also significantly expanding. Thus, strategic planning, corporate governance, operational activities, risk assessment, identification and elimination of audit risks are also covered.

Əsbət Adil qızı QARAYEVA
magistrant,
Vüqar Muxtar oğlu MEHDİYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
vugar.m@muxtaroglu.az,
Azərbaycan Kooperasiya Universiteti

TURİZM SFERASINDA MƏNFƏƏTİN İSTİFADƏSİNİN UÇOTU VƏ TƏHLİLİ METODİKASI

Azərbaycanın tanınmasında qədim ticarət yolları, tranzit layihələri, dövlət proqramlarının həyata keçirilməsi turizmin ilkin inkişafına səbəb olmuşdur. Müasir mərhələdə turizm şirkətləri və otel-restoran biznesi xidmət servisinin dinamik surətdə inkişaf edən sahələrindən biridir. Dövlətimiz tərəfindən turizm sektoru prioritet sahə seçilmiş və bu sahənin inkişafı üçün müxtəlif dövlət proqramları həyata keçirilmişdir. Bu da öz nəticəsini ölkənin turizm sahəsinə yerli və xarici investisiyaların axını ilə göstərmişdir. Digər sahələrdə olduğu kimi turizm sektorunda da Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin rolu əvəzsizdir. Onun 4 iyun 1999-cu ildə "Turizm haqqında" imzaladığı Qanun Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, eləcə də sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirir [1].

Turizm müasir dünyada inkişaf etmiş ölkələr üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biridir. Bu sahənin inkişafına Azərbaycanda da ciddi diqqət verilir. Bütün dünyada turizm artıq ən geniş və sürətlə davamlı olaraq inkişaf edən iqtisadi sektora və əsas aparıcı qüvvəyə çevrilib. Azərbaycanda regionların inkişafı üçün, yeni iş yerlərinin yaradılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında məhz bu sahə həlledici əhəmiyyət kəsb edir. Res-

publikada Turizmdə rəqabət imkanları çox genişdir. Rəngarəng iqlimimiz, təbii sərvətlərimiz, zəngin tarixi-mədəni irsimiz cəlbedici turizm məhsulu yaratmaq üçün gözəl mühit yaradır. Həmçinin, Azərbaycan dövləti turizm sektorunun inkişafını iqtisadiyyatın qeyri-neft sahəsi üzrə prioritet istiqamət elan edib. Son illər ərzində respublikada turizmin inkişafı ilə bağlı aparılan işlər, görülən islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunları sübut edir. Görülən tədbirlər nəticəsində Respublikada turizm dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiya ildən-ilə daha da sürətlə artır. Turizm sektorunun davamlı inkişafı, peşəkar kadrlara olan ehtiyac da geniş şəkildə artıb. Belə bir ehtiyacın təmin olunması məqsədilə Azərbaycan Turizm İnstitutu yaradıldı və yeni iş yerlərinin açılması ilə yüksək səviyyəli mütəxəssislərə tələbat artdıqca, ali təhsildə keyfiyyətin əhəmiyyəti də vacib məsələlərdən biri olmuşdur. Daxili və xarici turistlər üçün Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yaradılmış "www.azerbaijan.travel" rəsmi milli turizm portalı son illər ərzində Azərbaycanın turizm potensialı, o cümlədən infrastrukturu, turizm ictimai nəqliyyat sistemi, təbiəti, respublikanın unikal turizm məhsulları, turizm mehmanxanaları və şirkətləri barədə geniş məlumat bazası və təbliğat vasitəsi rolunu icra etmişdir. [1].

Muasir iqtisadi şəraitdə beynəlxalq əlaqələr artdıqca maliyyə nəticələrinin rolu da artmaqla, turizm təşkilatlarının və dövlətin iqtisadi maraqlarının əsas hərəkətverici təkanı kimi özünü göstərir. Turizm təşkilatlarının idarəetmə sistemində iqtisadi maraqları birbaşa mənfəət əsasında qurulmaqla onun iqtisadi və sosial perspektiv inkişaf strateqiyası əsasında təşkil olunub. Turizm təşkilatlarında idarəetmə sistemində stateji gərarların gəbul edilməsində maliyyə nəticələrinin öyrənilməsi müəyyən bir informasiya modeli yaradır ki, bu da turizm müəssisələrinin idarəetmə sistemində xüsusi əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, bu model icra olunmuş təsərrüfat-maliyyə əməliyyatlarının uçota alınması, sənədləşdirilməsi, ölçü vahidləri üzrə toplanması əsasında faktiki əhəmiyyətə malik olur.

Bütün kommersiya təşkilatlarında olduğu kimi turizm müəssisələrində də hesabat dövrünün son maliyyə nəticələri onun məhsul (iş xidməti), satış və digər əmtəə material dəyəri olan əsəs vəsaitlər, qeyri-maddi aktivlər və digərləri mövcud olan qiymətlərlə daxli olan pul vəsaitlərinin məbləğindən, ƏDV daxil olmaqla, müəyyən olunmuş vergilər, aksizlər, göstərilən xidmətlər və sərf olunmuş xərclərin çıxılması nəticəsində müəyyənləşdirilir. Müəssisənin təsərrüfat-maliyyə əməliyyatlarının maliyyə nəticələrinin formalaşması və onun istifadə olunması bütün göstəricilərlə əlaqədar olaraq məsələlərin yoxlamasında əsas vəzifə onun auditinin düzgün aparılması, müəyyən olunması və mövcud olan qanunvericiliyə uyğun icra olunmasını müəyyən etməkdən ibarətdir. Burada mühasibat uçotunun rolu mənfəətin düzgün bölüşdürülməsi, dividendlərin ödənilməsi, fondların yaradılması və digər göstəricilərin müəyyən edilməsinə diqqət yetirmək lazımdır. Nəzərə almaq lazımdır ki, digər əməliyyatlardan daxil olan pul vəsaitləri də yekun maliyyə nəticələrinə daxil edilir. Turizm sahəsində göstərilən formaların hansı istifadə olunarsa, həmin forma daimi xarakterdə bir neçə il ərzində tətbiq edilir. Birinci hesablaşma forması beynəlxalq mühasibat uçotu standartlarında qəbul olunub və hal-hazırda inkişaf etmiş ölkələrdə bu forma geniş şəkildə istifadə edilir. Ümumi gəlir bu sahədə məhsul (iş və xidmətlərin) satışından turizm sferasında sistematik olaraq əldə olan gəliri göstərir. Bu gəlirin tərkibinə aksiz vergisi, dövriyyədən vergi və ƏDV daxil edilmir. Xidmətlərdən və satışdan əldə olunan gəlirin pul vəsaitləri və ya onların ekvivalentlərinin həcmi həm də müəssisə tərəfindən aktivin satılması nəticəsində, qeyri-pul aktivlərinin və öhdəliklərin azalması nəticəsində, təqdim edilmiş endirim kompaniyaları nəzərə alınmaqla əldə edilməsi və əldə olunmuş gözlənilən ödəmələrin qiymətləndirilməsi ədalətli dəyər əsasında aparılır. Hal-hazırda Respublikamızda normativ təlimatın əhəmiyyətli tərkib hissələrindən olan mühasibat uçotu sisteminin inkişaf etməsinin sabitliyi qorunur. Buna nail olmaq üçün turizm şirkətlərində mühasibat uçotu sisteminin səmərəli, ardıcıl, düzgün, faydalı və uğurlu yerinə yetirilməsi üçün bütün şərait yaradılır. [2].

Maliyyə nəticələri kommersiya təşkilatlarının təssərrüfat fəaliyyətinin son nəticəsidir. Turizm şirkətlərində bu göstərici mənfəət və zərər kimi nəticələnir. Mənfəət sahibkarın fəaliyyətinin həyata keçirilməsi zamanı məcmu gəlirlə məcmu xərclər arasındakı fərqi göstərən xalis gəlirin qoyulan kapitala, sahibkarlıq fəaliyyətinin yerinə yetirilməsi riskinə görə mükafat, pul formasında əks olunmasıdır. Maliyyə fəaliyyətindən mənfəət dedikdə turizm şirkətinin kənar maliyyələşmə

təminatı və mənbələri ilə bağlı olan pul axınlarının nəticəsi başa düşülür. Pul axını dedikdə pay kapitalının cəlb olunması və yaxud əlavə səhmdar səhmlərinin, istiqrazların və yaxud digər borc qiymətli kağızların emissiyası, habelə dividentlər və faizlər ödəmək yolu ilə cəlb edilmiş kapitalın xidməti başa düşülür. Bəzi hallarda elə bir fikir yarana bilər ki, pul vəsaitlərinin yuxarıdakı məzmunu birbaşa turizm şirkəti üçün mənfəət formalaşdıra bilməz. Maliyyə fəaliyyəti prosesində bununla yanaşı həm xüsusi, həm də cəlb olunan kapital təşkilat üçün daha az və yaxud daha çox sərfəli qaydada kənar mənbələrdən cəlb olunan kapitaldan alınan dolayı səmərə başa düşülür. Maliyyə nəticələri barədə hesabatda göstərilən maddələrlə yanaşı turizm şirkətinin fəaliyyətinin nəticələrinə obyektiv qiymət vermək məqsədi ilə əlavə maddələr də daxil olunmalıdır. Əsasən də fərqli növdə öhdəliklərə görə faizlərlə bağlı maliyyə gəlirlərinə və xərclərinə ciddi diqqət göstərilməlidir. Faizlərlə sərf olunan məsrəflər barədə məlumatlar istifadəçilər üçün çox vacibdir və turizm şirkətinin ödəmə qabiliyyətinin uçot və auditində zəruri göstəricilərdən biri sayılır. [3, səh. 38].

Turizm şirkətlərində mənfəətin əsas hissəsi adi əməliyyat fəaliyyətindən, yəni, məhsul, iş və xidmətlərin və əsas fəaliyyətin əlavə növlərinin satışından əldə edilir. Əldə edilən faktiki gəlirlərdən satışın maya dəyərini çıxmaqla alınan mənfəəti müəyyənləşdirmək münkündur. Həmin hesablamalarda ƏDV, ixrac rüsumları, aksizlər və digər vergilər nəzərə alınmır. Qeyd olunan əsas əməliyyat fəaliyyətindən yəni satışdan alınan maliyyə nəticələrini müəyyənləşdirmək üçün "Satış" adlı 601 sintetik hesab nəzərdə tutulub. 801 "Ümumi mənfəət (zərər)"adlı hesab maliyyə nəticələrinin uçotu üçün nəzərdə tutlulmuşdur. Ümumi mənfəətin əsas hissəsini turizm xidmətlərinin və əlavə məhsulların işlərin, malların satışından əldə edilən mənfəət (90%-ə yaxın) təşkil edir və kommersiya təşkilatının sair satışdan və satışdankənar əməliyyatlar üzrə mümkün olan balans mənfəətinin azalmasına səbəb olur. Turizm şirkətlərinin sərəncamında qalan xalis mənfəət həmçinin balans mənfəətinin və onun hesabına ödənilən vergilərin arasındakı fərqi göstərir, əlavə olaraq müxtəlif yığım, istehlak və digər fondların yaradılmasına yönəldilir. Əsas vəsaitlərin, xidmətlərin və məhsulların, qeyri-maddi aktivlərin, qiymətlilərinin, mal-material, sair aktivlərin satışından və satışdan kənar gəlirlər və xərclər nəticəsində müəssisənin işinin maliyyə nəticələri əmələ gəlir. Maliyyə nəticələrini müasir şəraitdə xalis mənfəət və gözlənilən mənfəət kateqoriyalarına ayırmaq olur. Xalis mənfəət kommersiya təşkilatlarının ümumi gəlirlə ümumi xərclər arasındaki fərqini təşkil edir [4, s. 108].

Son dövrlərdə turistlərin sayının artması turizm sahəsinə cəlb olunan maddi, əmək və maliyyə resurslarının həcmini o dərəcədə yüksəltmişdir ki, bu ərazi iqtisadiyyatının strukturuna, sosial və iqtisadi münasibətlər sisteminə təsir etməyə başlamışdır. Turizm sahəsini inkişaf etdirən hər bir ölkə bu sahədən maksimal dərəcədə iqtisadi effekt əldə etməyə çalışır. Bu sahənin iqtisadi effektliyi və mənfəət əldə edilməsi onun turizm xidmətlərinin səviyyəsindən, dövlət səviyyəsində təşkilindən, turizm firmalarının istehsal-xidmət sahəsindən asılıdır. Turizm təşkilatlarında göstərilən xidmətdən alınan gəlir məbləğinin tanınması zamanı mühasibat uçotunda həmin məbləğ 601 "Satış" hesabının kreditində 171, 211 "Alıcı və sifarişçilərin uzun/qısamüddətli debitor borcları" hesablarının debetində əks olunur. Qeyd etmək lazımdır ki, həm hüquqi, həm də fiziki şəxslərlə hesablaşmanın aparılmasında 171 və 211 "Alıcı və sifarişçilərin uzun/qısamüddətli debitor borcları" hesablarının tətbiq edilməsi düzgün sayılır. Bununla birlikdə xidmət göstərməklə bağlı olan 202 saylı "İstehsalat məsrəfləri"hesabında formalaşan məsrəflər aşağıda qeyd edilən yazılış verilməklə silinməlidir:

Turist xidmətinin satılmış maya dəyərinin silinməsi üçün

Dt 701 "Satışın maya dəyəri"

Kt 202 "istehsalat məsrəfləri" [4, səh. 111].

Turizm təşkilatı tərəfindən il ərzində əldə edilən mənfəət artan yekunla hesabat ilinin əvvəlindən yığılaraq balansda bölüşdürülməmiş formada göstərilir. Ilin axırında, dekabr ayında mənfəətin bölüşdürülməsi həyata keçirilir. Qeyd etmək lazımdır ki, il ərzində əldə edilən mənfəətdən xüsusi fondlar yaradılır, vergilərin büdcəyə ödənilməsi və turizm sektoru ilə baglı olan digər xərclərin ödənişi aparılır.

Beləliklə, turizm şirkətlərində ötən dövr ərzində maliyyə nəticələri barədə məlumatlar mənfəət və zərər haqqqında hesabatda əks olunur. Hesabat dövründə qeydə alınan gəlir və xərclərin bütün növləri hesabat formasında tanınmalıdır.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında 2010-2014 – cü illərdə turizmin inkişafına dair dövlət proqramı”
2. “Mühasibat uçotu haqqında AR Qanununda dəyişikliklər edilməsi barədə” AR Qanunu, 4 may 2018-ci il
3. B.Ə. Bilalov, Ç.G.Gülalıyev - “Turizmin Əsasları ” –Bakı-2015
4. “Xidmət sahələrində mühasibat (maliyyə) uçotu”/-S.M.Səbzəliyev, Q.Ə.Abbasov. Bakı 2015

Асбат Адил Гараева
магистрант,
Вугар Мухтар оглы Мехтиев
доктор философии по экономике, доцент,
vugar.m@muxtaroglu.az,
Азербайджанский Университет Кооперации

Методика учета и анализа использования прибыли в сфере туризма

Резюме

Известно, что туризм, имеющий древнюю историю и считающийся ведущей отраслью среди сфер услуг в нашей стране, является одной из перспективных и быстро развивающихся отраслей. Сфера туризма – это поездки с целью отдыха, лечения и бизнеса. Источник дохода туристической отрасли рассматривается как средство выражения интересов всего общества и человека на микро- и макроуровнях.

Asbat Adil Garayeva
master,
Vugar Mukhtar Mehdiyev
doctor of philosophy in economics, associate professor,
vugar.m@muxtaroglu.az,
Azerbaijan Cooperative University

Methodology for accountıng and analysis of profit use ın the tourism sphere

Summary

It is known that tourism, which has an ancient history and is considered a leading sector among the service sectors in our country, is one of the promising and rapidly developing sectors. The tourism sector is travel for recreation, treatment, and business purposes. The source of income of the tourism sector is considered a means of expressing the interests of an entire society and people at the micro and macro levels.

Fidan Nuru qızı ƏLİYEVA
magistrant,
Şəhla Əli qızı CƏFƏROVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

TURİZM TƏŞKİLATLARINDA XÜSUSİ KAPİTALIN TƏHLİLİNƏ KONSEPTUAL YANAŞMA

Xüsusi kapitalın təhlilinə konseptual yanaşma, şirkətin ümumi kapitalla müqayisədə xüsusi kapitalının necə istifadə edildiyini, bu kapitalın mənbələrini və onun qiymətini qiymətləndirməyə yönəlmiş bir yanaşmadır. Bu, qərar qəbul etməkdə və maliyyə sağlamlığının qiymətləndirilməsində əsas rol oynayır.

Azərbaycan Respublikasında bazar münasibətlərinin bərpa olunmasından sonra müəssisənin xüsusi kapitalının mahiyyətinə konseptual yanaşma müəssisə fəaliyyətinin maliyyələşdirilməsi mənbələrinin əvvəllər qəbul edilən uçot metodikasını əsaslı surətdə dəyişir.

Ümumi iqtisadi mənada əməyə münasibətdə kapital və mənfəət onun istismarını əks etdirən, kapitalist cəmiyyətində əsas kateqoriya kimi təqdim olunduğu halda, onların arasında eynilik səviyyəsi olmamasına baxmayaraq, uçotda əvvəlki tərif saxlanılır. Bir çox hallarda balansda kapitalın həcmi daimi xarakter daşıdığına görə əsas kapital adlanırdı. Cəmiyyətdə təsisedici kapital iştirakçıların miqdarının dəyişilməsindən asılı olan "dövriyyə kapitalı" kimi şərh edilirdi.

Bəzi iqtisadçilar müəssisəyə məxsus kapitalı sahibkarlıq əmlakı kapitalı, passivin qalan hissəsini isə ssuda kapitalı kimi adlandırır. Professor A.Kalmes təşkilatı yaradan zaman xüsusi kapitalın tərkibində qoyulan əsas kapitalı, alınan işdə saxlanan mənfəət həcmində kapitalın artımı və əsas kapitalın artırılması üçün sonralar qoyuluşlar ilə yaranan əlavə kapitalı fərqləndirmişdir.

Kapitalın təbiətinə aid fikirlər olduqca müxtəlifdir, lakin bunların hamısının bir tərifi var: kapital gəlir gətirmək qabiliyyətində assosiasiya yaradır [3, s.16].

Turizm təşkilatlarında kapital aktivlərin formalaşdırılması üçün bütün vəsaitlərin dəyərini əks etdirir. Kapitalının uçotunun idarə edilməsində turizm şirkətlərinin əsas məqsədi mühüm aktivlərin alınmasında ehtiyacların qarşılanması, dəyərin minimallaşdırılması üçün kapitalın strukturunun optimallaşdırılması və risklərin mümkün səviyyəsində turizm şirkətinin dəyərinin maksimallaşdırılmasıdır. [2, s.102].

Xüsusi kapital turizm təşkilatlarının əsasını təşkil edir. Turizm təşkilatlarının maliyyə əsasını onların formalaşdırdığı xüsusi kapital təşkil edir. Xüsusi kapital mənfəətin yaradılmasında iştirak edir, hansı ki, ssuda faizinin ödənilməsi gərəkdir.

Turizm təşkilatlarının maliyyə dayanıqlığının artırılmasının digər bir istiqaməti xüsusi kapitalın dövriyyəsinin sürətləndirilməsidir. Bu firma və təşkilatların gəlirinin az olmasının önəmli bir səbəbi ondadır ki, vəsaitlərin əsas bir hissəsi hərəkətsizdir. Əmlakın dəyəri onun qiyməti ilə yox, istifadə olunması ilə xarakterizə olunur. Biznesin mahiyyəti "dəyişmə" ilə ifadə olunur. Mənfəətin artırılması daha çox satışın sürətindən asılıdır, nəinki qiymətlərin artırılması. Bu səbəblə də, hədsiz artırılmış qiymətlər müflisləşməyə gətirib çıxarır, lakin kapitalın dövriyyəsinin artırılması müflisləşmənin qarşısını alır.

Turizm təşkilatlarında xüsusi kapitalın formalaşması mənbəyi daxili və xarici mənbələrə ayrılır. Turizm agentliklərinin xüsusi kapitalının daxili mənbələr hesabına formalaşmasına aiddir:

- Bölüşdürülməyən mənfəət;
- Əsas fondların yenidən qiymətləndirilməsi nəticəsində xüsusi kapitala əlavə olunan vəsaitlər (əlavə kapital);
- Turizm təşkilatının xüsusi kapitalının həcminə təsir göstərməyən, lakin onun yenidən investisiya olunmasına və onların yaranmasının daxili mənbəyi sayılan amortizasiya ayırmaları.

Xarici maliyyə mənbəyi aşağıdakılardır:

- Təsisçilər tərəfindən nizamnamə kapitalına vəsaitlərin əlavə edilməsi;
- Səhm kapitalının cəlb edilməsi;
- Dövlətin və ya hüquqi şəxslər tərəfindən maliyyə yardımı;
- Korporativ istiqrazların səhmlərə konvertasiyası.

Turizm təşkilatlarının özünü maliyyələşdirməyə yönələn xüsusi kapitalın formalaşması prosesi aşağıdakı mərhələlərdən keçir:

- Xüsusi kapitalın formalaşdırılması və istifadəsinin təhlil edilməsi;
- Xüsusi kapitala ümumi ehtiyacın müəyyən edilməsi;
- Təşkilatda xüsusi kapitalın mümkün yüksək səviyyəsinə nail olmaq üçün

xüsusi kapitalın cəlb olunması məbləğinin müəyyənləşdirilməsi;

- Xarici və daxili mənbələrdən xüsusi kapitalın formalaşmasında uyğunluğun optimallaşdırılması [1, s.186].

Turizm təşkilatlarında xüsusi kapitalın uzunmüddətli aktivlərə və öhdəliklərə nisbətdə artması müəssisənin xalis aktivlərini əks etdirir. Xalis kapital sərbəst pul vəsaitlərini ifadə edir. Turizm təşkilatlarında xüsusi kapitalın təhlilində məqsəd gələcək iqtisadi yüksəliş üçün maliyyə poten-

sialının müəyyənləşdirilməsidir. Birinci mərhələdə mənfəətin, xüsusi kapitalın artma tempi ilə aktivlərin (turizm müəssisəsinin mülkiyyəti) artım sürətinin uyğunluğu, turizm xidmətlərinin satılmasından gələn gəlir və s. təhlil olunur

Optimal situasiyada digər göstəricilərə nisbətdə daha yüksək sürətlə artır, müəssisənin xərcləri azalır, satışdan gəlir yüksəlir və göstəricilərin dönərliliyin artdığı üçün aktivlər və xüsusi kapital daha səmərəli istfadə edilir.

İkinci mərhələdə xüsusi kapitalın daxili və xarici mənbələr hesabına formalaşmasının uyğunluğu tədqiq edilir.

Üçüncü mərhələdə turizm təşkilatında xüsusi kapitalın yetərliliyi qiymətləndirilir. Təşkilatın ümumi fəaliyyəti üçün maliyyə mənbələrinə ehtiyac bu formul vasitəsi ilə hesablanır:

$$M_{XK} = (K * X_k - M_x + X_m) / 100$$

Burada, M_{XK} - gələcək dövrə maliyyələşmə üçün xüsusi kapitala olan ehtiyac, K - proqnoz verilən periodun sonuna kapitala olan ümumi ehtiyac, X_k - proqnoz verilən periodun sonuna xüsusi kapitalın xüsusi çəkisi, M_x - müəssisənin maliyyə resurslarının artımı, X_m - xalis mənfəətin çəkisi.

Xüsusi kapital daxili mənbələrdən xalis mənfəət və amortizasiya ayırmaları hesabına yaranır. Mənfəətin lazımi səviyyəsi turizm təşkilatının uzunmüddətli prespektivində əsas rol oynayır. Keyfiyyətcə bu xüsusi kapitalın artım tempi ilə ölçülə bilər. Aşağıdakı düstur ilə müəyyən edilir:

$$Tur = (M_D - D) : M_x$$

Burada, M_D - divindentlərin ödənilməsinə yönləndirilən mənfəət, D – dividentlərin ödənilmə əmsalı, Tur əmsalı turizm təşkilatının borc vəsaitləri cəlb edilmədən yalnız reinvestisiya ilə xüsusi kapitalın hansı templə artdığını xarakterizə edir. Əgər fərz etsək ki, turizm firmasının gələcək fəaliyyətində maliyyələşmə mənbələrində, divident siyasətində, rentabelliyində qəfil dəyişikliklər olmayacaq, o zaman bu göstərici gələcək dövr üçün daxili mənbə hesabına xüsusi kapitalın artmasını xarakterizə edəcəkdir. Düzgün seçilmiş qiymət siyasətində turizm məhsullarının satış həcminin artması mənfəətin artması ilə nəticələnir və xüsusi kapital artır. [3, s.52].

Xüsusi kapitalın artırılması məqsədi istiqamətində müəssisənin effektiv fəaliyyət göstərməsi üçün xüsusi kapitalın rentabellik göstəricisi əsas meyardır. Xüsusi kapitalın rentabellik əmsalı kapitaldan istifadənin səmərəlilik göstəricisidir və bu vəsaitlərin digər fəaliyyət növlərinə yatırımlarından ola biləcək gəlirlilik göstəricisi ilə müqayisə olunmasına imkan yaradır.

Mövcud hadisələrə əsaslanan mühasibdən fərqli olaraq, iqtisadçı kapitala hələ gələcək dövrdə gözlənilən iqtisadi gəlirlərin mənbəyi olan aktivlərin məcmusu, həmçinin bu aktivlərdən yaradılacaq gələcək gəlirlər axınının cari diskont dəyəri kimi baxır. Xüsusi kapitalın formalaşmasında müxtəlif mənbələr onun strukturunun aşağıdakı formada təsnifləşdirilməsinə imkan verir:

- nizamnamə kapitalı;
- emissiya gəliri;
- ehtiyat kapitalı;
- kapitallaşdırılmış mənfəət (əlavə kapital);
- vergiyə cəlb edilənədək mənfəətdən yaradılmış qiymətləndirmə ehtiyatları;
- bölüşdürülməmiş xalis mənfəət yığımı;
- məqsədli maliyyələşdirmə vəsaiti.

Nizamnamə kapitalının yaradılması heç vaxt təsərrüfatda daxili proseslər ilə əlaqəli olmamışdır. O, müəssisənin sonrakı fəaliyyətindən asılı olmur, təsisçi sənədlərinə müvafiq olaraq ilkin və sonrakı əlavə haqlarının həcmi ilə müəyyənləşdirilir. Beləliklə, öhdəliklərin məcmusu sayılan xüsusi kapitalın sahibkarlar qarşısında araşdırılmasında yalnız ödənilən nizamnamə kapitalının həcmindən söhbət getməlidir. Nizamnamə kapitalının yaradılması prosesi səhm sahiblərinin müəssisə qarşısında öhdəliklərin xarakterinə və səhmlərin ödənilməsi faktı üzrə ödənişlərin dinamikası üzrə təyin olunur. Hesabat dövrü ərzində müəssisənin xalis kapitalı – təsərrüfat fəaliyyətinin faktiki nəticələri aşkar olunan zaman digər bərabər şərtlərdə effektiv nizamnamə fəaliyyətinin gedişatında təşkilatın kapitalının artımıdır. Xalis kapitalın tərkibində sonradan kapitallaşdırma məqsədi ilə yaradılan əlavə kapital və ehtiyat mənfəətin həcmini ayırmaq lazımdır.

Zənnimcə, uçot praktikasında ehtiyat kapitalı və yığım fondunu təşkilatın xüsusi kapitalının ciddi şəkildə çoxaldılması təyin edilən, hər vaxt ozünün abstrakt xarakterini saxlayan ehtiyat

mənfəəti kimi qəbul edilməsi lazımdır. İqtisadi nəzəriyyədə təşkilatın yeni əmlaklarının yaradılmasına faktiki reinvestisiya olunan xalis kapital "kapital ehtiyatları" kimi təyin olunur. Beləliklə, xüsusi kapital özünün iqtisadi məzmunu, formalaşma prinsipləri və maliyyə resurslarından istifadə edilməsinə görə fərqlənən kapitalları cəmləşdirir. Bunlardan hər birini aşağıdakı istiqamətlər üzrə öyrənmək lazımdır:

- yaradılmanın məqsəd və səbəbləri;
- hüquqi əsasları;
- formalaşdırılmanın və faktiki həcminin aşkar olunmasının müvəqqəti aspekti; formalaşma mənbələri;
- təyinatı və istifadə istiqamətləri.

Turizm müəssisələrində normal geniş təkrar istehsal prosesinin təmin olunması üçün nəzərdə tutulmuş mühüm vəsait mənbəyi ehtiyat kapitalıdır (fondudur). Bu mənbə mövcud qanunvericilik və təsisçilərin sənədlərinə uyğun olaraq yaradılır. Bu da o deməkdir ki, təsisçilər sənədlərdə ehtiyat kapitalının yaradılması, ehtiyat kapitalına ayırmaların həcmi və ümumi həcm (nizamnamə kapitalına olan nisbət üzrə) göstərilməlidir. Ehtiyat kapitalı (fond) qayda üzrə mənfəətdən ayırmaların hesabına yaradılaraq, müəssisənin təsisçilərinin sənədlərində nəzərdə tutulmuş istiqamətlər üzrə istifadə edilir.

Müəssisədə nizamnamə və ehtiyat kapitalı ilə bərabər əlavə kapital da olur, bura müəssisənin kapitalını artıran, müxtəlif vəsaitlər (səhmlər üzrə emissiya gəliri, əsas vəsaitlərin yenidən qiymətləndirilməsindən daxilolmalar və s.) daxil olur [3, s. 54].

Xüsusi kapitalın təsnifatı onun maliyyələşdirilməsi nöqteyi-nəzərindən müəssisə fəaliyyətinin daxili maliyyələşdirilmə mənbələri sahəsində uçot obyektlərinin dəqiqləşdirilməsinə imkan yaradır. Müəssisədə maliyyə resurslarının strateji idarəetmə nöqteyi-nəzərindən müəssisədə mənfəət, yığılan mənfəət hesabına istehlakda istifadə olunmayan mənfəət hesabına yaradılan istehlak fondlarının, ehtiyat fondlarının xərclənməmiş hissəsini müvəqqəti olaraq müəssisənin xüsusi kapitalına yönəldən, təşkilatın fəaliyyətinin maliyyələşdirilməsinin mənbəyi kimi qəbul etməyə imkan verir.

Beləliklə, bazar elementlərinin inkişafı ilə turizm müəssisələrinin fəaliyyətinin maliyyə təminatının mənbələri tərkibində keyfiyyət dəyişiklikləri baş verdi. Yenidən iqtisadi terminologiyaya daxil olan, ənənəvi "müəssisənin xüsusi vəsait mənbələri"ni əvəzləyən "xüsusi kapital" anlayışı müəssisə fəaliyyətində daxili maliyyələşmə mənbələrini təsərrüfat dövriyyəsinə xaricdən cəlb olunan vəsait mənbələrindən ayırmağa imkan verdi.

ƏDƏBİYYAT

1. T.B. Козырева. Управление собственным капиталом в туристской организации. 2014
2. S.M.Səbzəliyev, Q.Ə.Abbasov. "Xidmət sahələrində mühasibat uçotu". Bakı, 2015
3. H.F.Məmmədli. "Turizm sferasında xüsusi kapitalın uçotunun təşkili istiqamətləri" mövzusunda magistr dissertasiyası. Bakı, 2018.

Фидан Нуру кызы Алиева
магистрант,
Шахла Али кызы Джафарова
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Концептуальный подход к анализу частного капитала в туристских организациях

Резюме

В статье отражены сущность и назначение концептуального подхода к анализу частного капитала туристских организаций, источники формирования частного капитала, вопросы определения финансового потенциала при его анализе. Также исследованы источники классификации структуры частного капитала при формировании частного капитала туристских организаций.

Fidan Nuru Aliyeva
master,
Shahla Ali Jafarova
doctor of philosophy in economics, associate professor
Azerbaijan Cooperation University

Conceptual approach to the analysis of private capital in tourism organizations

Summary

The article reflects the essence and purpose of the conceptual approach to the analysis of private capital in tourism organizations, the sources of formation of private capital, the issues of determining financial potential in its analysis. Also, the sources of classification of the structure of private capital in the formation of private capital in tourism organizations are studied.

Təbriz Məhərrəməli oğlu BAĞIROV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Aygün Hüseynəli qızı ƏLİYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
alizadaconi@gmail.com,
Sumqayıt Dövlət Universiteti,

KOMMERSİYA BANKLARINDA KAPİTAL EHTİYATLARININ QİYMƏTLƏNDİRMƏ METODLARI

Kapital ehtiyatları – bankların gözlənilməz zərərlərə qarşı qorunması üçün ayrılmış maliyyə vəsaitləridir. Onlar həmçinin kredit riskləri, bazar riskləri, əməliyyat riskləri və digər mümkün risklərin ödənilməsində mühüm rol oynayır. Kapital ehtiyatlarının əsas funksiyaları aşağıdakılardır [4]:

- *Risklərin amortizasiyası:* Gözlənilməz maliyyə zərərlərini qarşılamaq;
- *Maliyyə sabitliyinin təminatı:* Bankın ləğv və ya iflas riskini azaltmaq;
- *Tənzimləyici tələblərin yerinə yetirilməsi:* Mərkəzi bank və ya digər nəzarət orqanlarının kapital adekvatlığına dair normativlərinə uyğunluq;
- *Etimadın gücləndirilməsi*: Müştərilərin və investorların banklara olan etibarını artırmaq.

Kapital ehtiyatları əsasən iki kateqoriyada təsnif edilir [2]:

Əsas kapital: Bankın əsas dayanıqlılıq göstəricisidir və adətən səhmdar kapitalı, bölüşdürülməmiş mənfəət və digər əsas fondlardan ibarətdir.

Əlavə kapital: Əsas kapitala əlavə olaraq nəzərdə tutulur və subordinə edilmiş borclar, yenidən qiymətləndirmə ehtiyatları və digər bu kimi alətlərdən ibarət olur.

Kapital ehtiyatlarının düzgün qiymətləndirilməsi üçün aşağıdakı əsas metod və yanaşmalardan istifadə edilir[1,2,5]:

➢ *Statistik modellər:* Gözlənilən zərərin hesablanmasında istifadə olunur.

Əsas komponentlər:

✓ PD (Probability of Default) – Defolt ehtimalı
✓ LGD (Loss Given Default) – Defolt halında itki miqdarı
✓ EAD (Exposure at Default) – Defolt zamanı riskə məruz qalma miqdarı

➢ *Stres-testlər:* Müxtəlif iqtisadi ssenarilər altında bankın kapitallarının dayanıqlılığını qiymətləndirir.

➢ *Kapital adekvatlığı əmsalı*: Bankın risk çəkili aktivlərinə qarşı nə qədər kapitala malik olduğunu göstərir.

Kapital ehtiyatlarının uçotu beynəlxalq mühasibat standartlarına (məsələn, IFRS – Beynəlxalq Maliyyə Hesabatı Standartları) əsasən aparılır. Əsas prinsiplər aşağıdakılardır[2]:

- *Ehtiyatların tanınması:* Maliyyə hesabatlarında kapital ehtiyatları yalnız gələcəkdə zərərin

baş vermə ehtimalı yüksək olduğu hallarda tanınmalıdır (məsələn, ehtimal olunan kredit itkiləri).

- *Qiymətləndirmə üsulları:* Kapital ehtiyatlarının qiymətləndirilməsi üçün müxtəlif modellər tətbiq olunur – statistik modellər (PD, LGD, EAD), ssenari analizi, stres-testlər və s.
- *Ədalətli dəyər prinsipi:* Kapital ehtiyatları uçotda ədalətli (fair value) və ya amortizə olunmuş dəyər əsasında qiymətləndirilə bilər.
- *Proqnozlaşdırılan zərərlər yanaşması***:** IFRS 9 standartı çərçivəsində banklar gələcəkdə baş verə biləcək zərərləri əvvəlcədən proqnozlaşdırmalı və ehtiyat ayırmalıdır.

Kapital ehtiyatlarının uçotu və qiymətləndirilməsi sahəsində beynəlxalq və yerli tənzimləmələr mövcuddur. Əsasən aşağıdakı normativ sənədlər rəhbər tutulur[3,4]:

- *Bazel Sazişləri* (Basel I, II, III): Beynəlxalq bank nəzarəti standartları;
- *IFRS 9 – Maliyyə alətləri*: Ehtimal olunan zərərlərə əsaslanan ehtiyatların tanınması;
- *Azərbaycan Mərkəzi Bankının normativ sənədləri***:** Kapitalın minimal tələbləri və uçot qaydaları.

Kommersiya banklarının maliyyə sabitliyi və davamlı inkişafı üçün kapital ehtiyatlarının düzgün uçotu və qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Demək olar ki, qlobal maliyyə bazarlarında baş verən dəyişikliklər və risklərin artması, bankların bu sahədə daha çevik və müasir yanaşmalara ehtiyacını artırır. Bu səbəbdən banklar IFRS 9 kimi beynəlxalq standartlara uyğun olaraq proqnozlaşdırılan zərərlərə əsaslanan ehtiyat modellərini tətbiq etməli, eyni zamanda milli tənzimləyici orqanların tələblərinə də ciddi riayət etməlidirlər. Kapital ehtiyatlarının uçotu yalnız maliyyə hesabatlarının dəqiqliyini artırmaqla qalmır, həm də bankların ümumi risk idarəetmə strategiyasının əsasını təşkil edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı. (2020). Bankların kapitallaşması və risklərin idarə olunması üzrə normativ sənədlər. https://www.cbar.az
2. Əliyev, A. M. (2021). Bank işinin əsasları. Bakı: İqtisad Universiteti Nəşriyyatı.
3. Nuriyev, E. Q. (2019). "Kredit risklərinin idarə olunmasında ehtimal olunan zərərlərin qiymətləndirilməsi." Azərbaycan Maliyyə Jurnalı, 3(45), 35–48.
4. Committee on Banking Supervision. (2011). Basel III: A global regulatory framework for more resilient banks and banking systems. Bank for International Settlements. https://www.bis.org/publ/bcbs189.htm
5. International Accounting Standards Board (IASB). (2014). IFRS 9 Financial Instruments.https://www.ifrs.org/issued-standards/list-of-standards/ifrs-9-financial - instruments/

Тебриз Магеррамали оглы Багиров
магистрант,
Азербайджанский Университет Кооперации
Айгюн Гусейнали кызы Алиева
доктор философии по экономике, доцент,
alizadaconi@gmail.com,
Сумгаитский Государственный Университет,

Методы оценки резервного капитала в коммерческих банках

Резюме

В современной финансовой системе коммерческие банки играют важную роль в обеспечении стабильности экономики и регулировании финансовых потоков. Финансовая устойчивость банков напрямую зависит от надлежащего управления структурой их капитала и резервов. В связи с этим правильный учет и оценка резервного капитала имеют особое значение для обеспечения устойчивости банков к рискам и повышения прозрачности финансовой отчетности.

В статье рассматриваются методы учета резервного капитала в коммерческих банках и оценка этих резервов.

Tabriz Maharramali Baghirov
master,
Azerbaijan Cooperation University
Aygun Huseynali Aliyeva
doctor of philosophy in economics, associate professor,
alizadaconi@gmail.com,
Sumgait State University,

Methods for valuıng capıtal reserves ın commercıal banks

Summary

In the modern financial system, commercial banks play an important role in the stability of the economy and the regulation of financial flows. The financial stability of banks directly depends on the proper management of their capital structure and reserves. In this regard, the proper accounting and valuation of capital reserves is of particular importance in terms of ensuring the resilience of banks to risks and increasing the transparency of financial statements.

The article examines the methods of accounting for capital reserves in commercial banks and the valuation of these reserves.

Ramil Samayıl oğlu QULİYEV
magistrant,
Aynur Əsgər qızı ADIGÖZƏLOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
adigozalovaaynur888@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti

TİCARƏTDƏ AUDİTİN TƏŞKİLİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Audit xidməti ticarət müəssisələrində auditorlar tərəfindən yoxlamanın məzmununu, aparılması müddətini, xidmətlərin əhatə olunma miqyasını, ödəniş məbləğini və qaydalarını, həmçinin bütün tərəflərin məsul olduğu məsələləri nəzərdə tutan müqavilə əsasında beynəlxalq audit standartlarına əsasən göstərilir. Sifarişçi auditor öz öhdəliklərini tam və keyfiyyətli şəkildə yerinə yetirməli və eyni zamanda, bütün lazımi şəraiti yaratmalıdır. BAS 300 (Maliyyə hesabatlarının auditinin planlaşdırılması) əsasən, maliyyə hesabatlarının auditi zamanı auditorun bütünlüklə əsas məqsədləri maliyyə hesabatlarının əhəmiyyətli təhriflərdən azad olmasına,cinayətkarlıq və əhəmiyyətli xətaların olub-olmamasına, şirkətin maliyyə hesabatlarının hazırlanması ilə bağlı standartlara cavab verməsinə əminlik yaratmaqdan ibarətdir. Auditor audit riskini minimum səviyyəyə gətirmək üçün uyğun audit sübutları əldə edərək əminlik yaratmalıdır. Audit riskləri elə bir risklərdir ki, auditora maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edildiyinə dair şübhə yaradır. Əhəmiyyətli təhriflərin olması ilə bağlı risklər professional mühakimə yolu ilə auditorlar tərəfindən aşkarlanır [2, səh. 245].

Beynəlxalq audit standartları uyğun maliyyə hesabatlarının qanunvericiliyə görə tənzimlənməməsinə görə yaranmış təhrifləri aşkarlamaqda auditorlara yardım etmək üçün yaradılmışdır. Halbuki, auditor bu uyğunsuzluğun qarşısının alınması üçün məsul deyildir. Auditor öz müştərisindən, eyni zamanda bu işlə maraqlı olan hər hansı bir üçüncü tərəfdən asılı deyildir. Audit fəaliyyətinə başlamamışdan öncə bilməliyik ki, aşağıda göstərilən xətalarla rastlaşa bilərik:

✓ Əməliyyat faktının itirilməsi. Bu halda əməliyyat tamamilə aradan qaldırılır. Bu cür xətalara nümunə olaraq, əsas vəsaitlərin amortizasiya xərcinin ümumiyyətlə nəzərə alınmaması kimi hallarında rast gəlinir.

✓ Əməliyyatın icrasında yanlışlıq. Bu zaman, auditorlar balansda yaranmış fərqlilikləri sübut

olaraq qeyd edir. Bu halda əməliyyat yanlış hesaba daxil edilə bilər

✓ Kompensasiyaedici xətalar: Bu xətaların aşkarlanması balans üzərindən xətalar bir-birini bağladığı üçün yoxlanılmır.

✓ Prinsip xətası: Bu cür əməliyyatlar mühasiblər tərəfindən əməliyyatlara fərqli, yanlış şəkildə yanaşılmadan irəli gəlir.

✓ Dələduzluq: Audit fəaliyyətinin xüsusi rolu kimi görünən fırıldaqçılığa nəzarət edilməsi auditin vəzifələrindəndir.

BAS 250-yə əsasən (Maliyyə hesabatlarının auditi zamanı qayda və qanunların nəzərə alınması barədə standart) müəssisənin maliyyə hesabatlarının və maliyyə fəaliyyətinin qanunvericiliyə uyğun olmasına görə şirkətin menecerləri məsuldur. Həmin standarta əsasən, qanunvericiliyə riayət edilməmə dedikdə, müəssisə tərəfindən bilərək və ya bilməyərək əməl edilməli olan qaydalara və qanunlara riayət etməmə və ya onların yanlış icra edilməsi başa düşülür [4, səh. 125].

BAS 315-ə (Müəssisə və mühitinin öyrənilməsi və əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi ilə bağlı standart) uyğun olaraq auditor audit edilən müəssisənin mühiti barəsində qanunvericiliyə riayət edilmə baxımından aşağıdakı suallara əsəsən məlumatlar əldə etməlidir.

➢ müəssisənin fəaliyyət göstərdiyi sektordakı normalar və standartlar hansılardır;

➢ müəssisə həmin standartlara və normlara əsasən hansı formada fəaliyyət göstərir.

Auditor yoxlanılması zamanı aşağıdakı suallara dəqiq cavab verilməlidir:

♦ aparılmış əməliyyatların həqiqiliyinin və tərtib edilmiş hesabatların dürüstlüyünün təmin olunması üçün müəssisədə uçotun təşkili və aparılmasının uçot və hesabat qaydalarına uyğunluğu;

♦ xərclərin buraxılmış məhsulların maya dəyərinə, tədavül xərclərinə və qeyri-satış xərclərinə silinməsinin xərclərin tərkibi haqqında əsasnaməyə uyğunluğu, bütün növ qeyri- büdcə ödəmələrinin, vergilərin və sosial fondların hesablanması üçün vergitutma bazasının müəyyən olunmasının normativ aktlara və müvafiq təlimatlara uyğunluğu, bütün növ ödəmələrin gecikdirilməsi səbəbləri və günahkar şəxslərin müəyyən edilməsi.

Bilirik ki, bu suallar bir-biri ilə əlaqəlidir. Ona görə də auditor bu yoxlamaları obyektiv şəkildə mütləq dəqiqliklə yerinə yetirməlidir. Daha ətraflı məlumat əldə etmək məqsədi ilə uçotun ayrıca sahələrinin seçilməsi vasitəsilə konkret yoxlamalar təşkil etməlidir.

Audit yoxlamaları zamanı riskləri minimum səviyyəyə endirmək üçün auditorlar və auditor firmaları audit edilən müəsissələr haqqında etibarlı mənbələrdən məlumatlar əldə etməlidirlər. Hər bir iqtisadi subyektin fərdi xüsusiyyətləri və iştirak edən mütəxəssislərin şəxsi bacarığı nəzərə alınmaqla audit yoxlamasının strategiyası aşağıda göstərilən qaydada hazırlanmalıdır :

♦ müştərinin fəaliyyəti haqqında toplanmış informasiyaların öyrənilməsi;

♦ riskin və daxili nəzarətin səmərəliliyinin öncədən qiymətləndirilməsi;

♦ uçotun ayrı-ayrı sahələrinin yoxlanılmasının dərinliyinin, mahiyyətinin və davamiyyətinin müəyyənləşdirilməsi.

Auditor yoxlamasının strategiyasının qurulmasının əsas məqsədlərindən biri audit fəaliyyəti üçün ən səmərəli yollarını seçilməsidir və bu auditorun təcrübəsindən və peşəkarlığından, auditor firmasının müştəri ilə əməkdaşlıq müddətindən, audit prosesində həll ediləcək məsələlərin xarakterindən və digər amillərdən asılıdır.

Auditor yoxlamasının strategiyası auditor tərəfindən yazılı formada hazırlanmış plan şəklində olmalı və BAS 210-a əsasən (Audit tapşırığının şərtləri standartı) aşağıdakılar daxil edilməlidir:

• Audit fəaliyyətinin məqsədi və miqyası;

• Auditorun məsuliyyəti;

• Menecerlərin məsuliyyəti;

• Maliyyə hesabatlarının hazırlanması üçün uyğun maliyyə hesabatının standartının müəyyənləşdirilməsi;

• Proqnozlaşdırılandan fərqli vəziyyətlərin yaranması barədə bəyanatlar.

Beləliklə, ticarət müəssisələrinin auditi zamanı şirkətdə daxili nəzarətin zəif olduğu bəlli olduqda, auditorlar şirkətdəki bütün əməliyyatları ətraflı şəkildə yoxlamadan keçirməlidir. Bu əməliyyatlar isə aşağıda qeyd olunmuş məqsədlərə nail olmaq məqsədi ilə böyük önəm daşıyır.

• əməliyyatın effektivliyi və səmərəliliyi;

- maliyyə hesabatlarının etibarlılığı;
- standart və qaydalara uyğunluq.

Qeyd etmək lazımdır ki, auditor zəruri testləri və onların nümunələrini qabaqcadan hazırlamalı, audit xidmətinin yerinə yetirilməsi üzrə xərclərin qiymətləndirilməsini həyata keçirməli, yoxlamanın başlanması müddətinə qədər bütün əsas məsələlər üzrə müştəri ilə qarşılıqlı anlaşma əldə etməlidir.

ƏDƏBİYYAT

1. Auditor fəaliyyəti haqqında Qanun layihəsi, Bakı, 2014.
2. A.F.Məmmədova, Ə.M.Əsədov. Audit F8 (qlobal audit metodologiyası) Dərs vəsaiti. Bakı, 2024, 268 səh.
3. Daxili audit: Reallıqlar və perspektivlər, beynəlxalq konfrans materialları, Nağıl evi, Bakı-2012, 90 səh.
4. Şəffaflığın artırılmasında beynəlxalq maliyyə hesabatları və audit standartlarının tətbiqi problemləri, Bakı-2012, 196 səh.

Ramil Samayil Guliyev
master,
Aynur Asker Adigozalova
doctor of philosophy in economics, associate professor,
adigozalovaaynur888@gmail.com,
Azerbaijan Cooperation University

Dırections for organization and improvement of audit in trade

Summary

In a business operations audit, the main operational processes of the business are audited. Operations are understood as the management activities of departments such as sales, marketing, and human resources within the business. In an internal audit engagement involving operations, the auditor evaluates the performance of various procedures in terms of efficiency, effectiveness, and economy. For this reason, the audit activity should be of particular importance.

Рамиль Самаил оглы Гулиев
магистрант,
Айнур Аскер кызы Адигозалова
доктор философии по экономике, доцент,
adigozalovaaynur888@gmail.com,
Азербайджанский Университет Кооперации

Направления по организации и совершенствованию аудита в торговле

Резюме

В ходе аудита бизнес-операций проверяются основные операционные процессы компании. Под операционной деятельностью понимается управленческая деятельность таких отделов, как отдел продаж, маркетинга и отдел кадров. В ходе внутреннего аудита, связанного с операционной деятельностью, аудитор оценивает эффективность различных процедур с точки зрения эффективности, результативности и экономичности. Именно поэтому аудиторская деятельность должна иметь особое значение.

Ziya Vüqar oğlu ƏLİZADƏ
magistrant,
Şəhla Əli qızı CƏFƏROVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

NƏQLİYYAT MÜƏSSİSƏLƏRİNİN MÖVCUD MALİYYƏ VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Nəqliyyat sistemi ölkə iqtisadiyyatının mühüm tərkib hissəsidir və istehsal, ticarət, turizm, sosial xidmətlər kimi sahələrin səmərəli fəaliyyətində mühüm rol oynayır. Bu müəssisələrin maliyyə vəziyyəti onların fəaliyyət imkanlarını, investisiya cəlbediciliyini və uzunmüddətli sabitliyini müəyyənləşdirən əsas göstəricidir.

Nəqliyyat müəssisələrinin səmərəli fəaliyyəti təkcə yük və sərnişin daşınmasının təmin olunması ilə məhdudlaşmır, həm də iqtisadi dövriyyənin fasiləsizliyinə, regionlararası inteqrasiyaya və ixrac potensialının genişlənməsinə təsir göstərir. Bu baxımdan nəqliyyat müəssisələrinin maliyyə vəziyyətinin təhlili və qiymətləndirilməsi onların fəaliyyət effektivliyinin yüksəldilməsi və dayanıqlı inkişafının təmin olunması üçün zəruri hesab olunur. [1, s.18].

Müasir şəraitdə nəqliyyat müəssisələrinin maliyyə vəziyyətinin təhlili yalnız gəlir və xərclərin müqayisəsi ilə məhdudlaşmır, həm də likvidlik, rentabellik, ödəmə qabiliyyəti və kapital strukturu kimi göstəricilərin sistemli qiymətləndirilməsini tələb edir.

Maliyyə vəziyyəti müəssisənin aktivləri, öhdəlikləri və kapitalı arasındakı nisbətləri əks etdirərək, onun ödəmə qabiliyyətini, maliyyə sabitliyini və rentabelliyini müəyyənləşdirir. Buna görə də nəqliyyat müəssisələrinin maliyyə göstəricilərinin kompleks təhlili strateji idarəetmə qərarlarının qəbulunda mühüm informasiya bazası rolunu oynayır.

Nəqliyyat müəssisələrinin maliyyə vəziyyətinin iqtisadi mahiyyəti

Nəqliyyat müəssisəsinin maliyyə vəziyyəti – onun maliyyə resurslarından səmərəli istifadə etmə qabiliyyətini, likvidliyini və ödəmə qabiliyyətini əks etdirən göstəricilər sistemidir. Bu vəziyyət müəssisənin maliyyə sabitliyinin dərəcəsini, inkişaf potensialını və bazar şəraitinə uyğunlaşma imkanlarını göstərir. [3, s.37].

Maliyyə vəziyyətinə təsir edən başlıca amillər bunlardır:

- gəlir və xərclərin struktur balansı;
- kapitalın tərkibi və istifadəsi istiqamətləri;
- borclanma səviyyəsi və öhdəliklərin icra qabiliyyəti;
- əsas və dövriyyə aktivlərinin səmərəli idarə olunması;
- dövlət tənzimləməsi və tarif siyasəti

Nəqliyyat müəssisələri üçün maliyyə vəziyyəti anlayışı təkcə balans göstəriciləri ilə məhdudlaşmır. Bu göstərici həmçinin aşağıdakı amilləri əhatə edir:

- fəaliyyətin gəlirliliyi və rentabelliyi;
- dövriyyə vəsaitlərinin idarə olunma səmərəliliyi;
- xərclərin strukturunun optimallığı;
- maliyyə risklərinin idarə olunması;
- borclanma səviyyəsi və kapital strukturunun sabitliyi.

Beləliklə, maliyyə vəziyyəti müəssisənin maliyyə sabitliyinin dərəcəsini, müstəqillik səviyyəsini və inkişaf potensialını müəyyənləşdirir.

Maliyyə vəziyyətinin təhlilində istifadə olunan əsas göstəricilər

Nəqliyyat müəssisələrinin maliyyə vəziyyəti aşağıdakı əsas istiqamətlər üzrə təhlil olunur:

a) Likvidlik və ödəmə qabiliyyəti göstəriciləri:

- Cari likvidlik əmsalı (Cari aktivlər / Qısamüddətli öhdəliklər);
- Tezliklə reallaşan aktivlərin nisbəti;
- Nağd vəsaitlərin dövriyyəsi.

b) Maliyyə sabitliyi göstəriciləri:

- Borc yükü əmsalı (Ümumi borclar / Ümumi kapital);
- Öz vəsaitlərinin payı (Xüsusi kapital / Ümumi aktivlər);
- Maliyyə müstəqilliyi əmsalı.

c) Rentabellik göstəriciləri:

- Aktivlərin rentabelliyi (Xalis mənfəət / Ümumi aktivlər);
- Satışların rentabelliyi (Xalis mənfəət / Satış gəliri);
- Kapitalın rentabelliyi (Xalis mənfəət / Xüsusi kapital).

Bu göstəricilərin təhlili müəssisənin gəlirlilik səviyyəsini, maliyyə risklərini və kapital strukturunun optimal olub-olmamasını müəyyən etməyə imkan verir.

Nəqliyyat müəssisələrinin maliyyə vəziyyətinə təsir edən çağırışlar

Son illərdə nəqliyyat sektorunda aşağıdakı problemlər müşahidə olunur:

- Yüksək amortizasiya dərəcəsinə malik əsas vasitələrin yenilənməməsi;
- Yanacaq və texniki xidmət xərclərinin artması;
- Tarif siyasətində qeyri-sabitlik;
- Beynəlxalq rəqabətin güclənməsi və yeni texnologiyalara keçid zərurəti.[2, s.98]

Bu amillər müəssisələrin mənfəətlilik səviyyəsinə, xalis dövriyyə kapitalına və maliyyə sabitliyinə mənfi təsir göstərir. Buna görə də maliyyə idarəetməsində çevik yanaşmaların tətbiqi – xərclərin optimallaşdırılması, investisiya cəlbediciliyinin artırılması və rəqəmsal nəqliyyat texnologiyalarının tətbiqi vacibdir.

Nəqliyyat müəssisələrinin maliyyə vəziyyəti müxtəlif üsullarla təhlil edilir:

Üfüqi (dinamik) təhlil: Müəssisənin maliyyə göstəricilərinin illər üzrə dəyişməsini müəyyənləşdirir.

- **Şaquli (struktur) təhlil:** Balans maddələrinin ümumi strukturda payını göstərir.
- **Əmsallar üsulu:** Rentabellik, likvidlik, maliyyə dayanıqlığı və kapital dövriyyəsi əmsalları hesablanır.
- **Trend təhlili:** Uzunmüddətli maliyyə meyillərinin müəyyənləşdirilməsi üçün tətbiq olunur.
- **Komparativ (müqayisəli) təhlil:** Müəssisənin göstəriciləri oxşar nəqliyyat şirkətləri ilə müqayisə edilir.

Nəqliyyat müəssisələrinin maliyyə vəziyyətinin təhlili və qiymətləndirilməsi onların uzunmüddətli fəaliyyətinin dayanıqlığını və iqtisadi inkişaf potensialını müəyyən edən əsas amillərdəndir. Bu təhlil vasitəsilə müəssisənin maliyyə resurslarından səmərəli istifadə dərəcəsi qiymətləndirilir, risklər müəyyən edilir və idarəetmə qərarlarının optimallaşdırılması təmin olunur.

Sabit maliyyə vəziyyəti nəqliyyat sektorunun innovativ inkişafını, iqtisadi artımını və ölkənin beynəlxalq nəqliyyat-logistika sisteminə inteqrasiyasını təmin edən əsas baza hesab olunur. [3, s.78].

Beləliklə, nəqliyyat müəssisələrinin maliyyə vəziyyətinin təhlili göstərir ki, bu sahənin dayanıqlı inkişafı üçün maliyyə idarəetmə sisteminin təkmilləşdirilməsi, şəffaf uçot və hesabatlılığın təmin olunması mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. E.A.Qurbanlı. Nəqliyyat müəssisələrində maliyyə vəziyyəti və maliyyə nəticələrinin Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğunlaşdırılması istiqamətləri" mövzusunda dissertasiya işi.
2. Məmmədova G. *"Nəqliyyat sektorunda maliyyə sabitliyi problemləri və həlli yolları"*, İqtisadiyyat və Menecment Jurnalı, №3, 2022.
3. Əliyev R. – *Müəssisənin maliyyə vəziyyətinin təhlili və qiymətləndirilməsi*, Bakı, 2020.

Зия Вугар оглы Ализаде
магистрант,
Шахла Али кызы Джафарова
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Анализ и оценка текущего финансового положения транспортных предприятий

Резюме

В статье рассматриваются экономическая сущность финансового состояния транспортных предприятий, его оценка, факторы, влияющие на его устойчивость, и методы анализа, применяемые в современных условиях в контексте применения международных стандартов. Подчёркивается роль транспортного комплекса в развитии экономики, обеспечении его финансовой устойчивости, а также значение финансового анализа при принятии управленческих решений.

Ziya Vugar Alizade
master,
Shahla Ali Jafarova
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Analysis and evaluation of the current financial situation of transport enterprises

Summary

This article examines the economic nature of the financial condition of transport companies, its assessment, factors influencing its stability, and analytical methods applied in the current context of international standards. It emphasizes the role of the transport sector in economic development, ensuring its financial stability, and the importance of financial analysis in management decision-making.

Əhməd Asəf oğlu NƏSİBZADƏ
magistrant,
Mehriban Kərəm qızı TAĞIYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

İQTİSADİ ARTIMIN TƏMİN EDİLMƏSİNDƏ MƏRKƏZİ BANKIN PUL-KREDİT MEXANİZMLƏRİ

Mərkəzi banklar pul siyasətinin həyata keçirilməsi istiqamətində müəyyən etdikləri hədəf və məqsədlərə çatmaq üçün müxtəlif vasitələrdən istifadə edirlər. Ancaq bu vasitələrin təsirləri isə ölkədən ölkəyə və ən əsası da ölkələrin iqtisadi səviyyələrinə və struktur özəlliklərinə bağlı olaraq önəmli fərqliliklər göstərməkdədir. Pul siyasəti iqtisadi siyasətin əsas elementlərindən biridir. Onun strateji məqsədi dövlət orqanları tərəfindən müəyyənləşdirilir. Pul siyasəti element kimi ümumi məqsəd əldə olunınasına şərait yaradır. Monetar orqanlar ancaq müəyyən məqsədlərə nail ola bilərlər. Onlar da digər sahələrdə məqsədə nail olmaga kömək edir və dövlətə iqtisadi siyasətin reallaşdırılması üçün şərait yaradırlar. Monetar orqanlar heç də həmişə pul tədavülünü səmərəli inkışaf etdirməni təmin edə bilmirlər. Bu müvəffəqiyyətsizlik çox zaman dəqiq müəyyənləşmiş strategiyanın olmaması ilə əlaqədar olur. Əgər pul siyasəti pui tədavülünün stabilliyinə gətirib çıxartmırsa, bu o demək deyil ki, pul siyasəti gücsüzdür. Bu ona görədir ki, onun qarşısında pul siyasətinin müvəffəqiyyətini təmin edən məqsədlər qoyulmamışdır. Pul siyasəti strategiyasının hazırlanması iki mərhələdən ibarətdir: onun son məqsədinin müəyyən edilməsi; cari məqsədin müəyyən edilməsi. Bütün bu məqsədlərin hamısı monetar orqanlar tərəfindən həyata keçirilir. Pul siyasətinin son məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsidir. Hər

bir ölkənin iqtisadi siyasətinin əsasında inflyasiya səviyyəsinin aşağı salınması və ÜDM-in artımı durur. Bildiyimiz kimi, dövlət orqanlarının əsas məqsədi müəyyənləşmiş siyasi iqtisadi tədbirlərin həyata keçirilməsi yolu ilə stabilliyin əldə olunması və bu stabilliyin uzun müddət qorunmasıdır. Ümumi iqtisadi stabillik hər şeydən əvvəl əsas makroiqtisadi göstəricilərin müəyyən vəziyyətini nəzərdə tutur. Bunlara əsasən istehsalın stabil artımı, stabil qiymətlər, işçi qüvvəsinin tam məşğulluğu, tədiyyə balansının strukturunda müsbət saldoya nail olmaqdır. Ancaq bu kimi sadalanan nəticələrə nail olmaq üçün monetaristlər belə hesab edirlər ki, bütün bunlara nail olmaq üçün bazar elementləri sərbəst fəaliyyət göstərməlidirlər.

Ümumiyyətlə, pulun dövriyyə sürətinə iki amil-faiz norması və inflyasiya səviyyəsi təsir göstərir. Pul siyasətinin aralıq məqsədlərindən biri də qiymət səviyyəsinin nəzarətdə saxlanılmasıdır. Qiymət səviyyəsinin qaxması bütün iqtisadi proseslərə təsir edir. Ona görə də dövlət orqanlarının həyata keçirdikləri iqtisadi siyasətdə bu göstərici əhəmiyyətli yer tutur. Qiymət səviyyəsi müəyyən nöqtədən aşağı düşdükdə Mərkəzi Bank bank sisteminə əlavə ehtiyatlar verməklə məcmu tələbi artırır. Qiymət səviyyəsi müəyyən edilmiş nöqtədən yuxarı qalxdıqda, əksinə, tədbirlər həyata keçirilir. Pul siyasətinin daim eyni səviyyədə saxlanılmasının çatışmayan tərəfləri vardır. Bu onunla əlaqədardır ki, bu prosesdə təklifdə ola biləcək şokların nəticələri iqtisadi sistemə mənfi təsir edir. Təklifdə ola biləcək şok zamanı Mərkəzi Bank pul kütləsini sıxmaqla qiymət səviyyəsini eyni saxlamağa çalışır. Bu isə iqtisadi sistemin inkişafının qarşısını alır. Pul siyasətinin aralıq məqsədlərindən biri də faiz dərəcələrinin iqtisadi aktivliyi stimullaşdıracaq səviyyədə olmasını tənzim etməkdən ibarətdir. Pul siyasəti vasitəsi ilə Mərkəzi Banklar faiz dərəcələrinə təsir edir və onların müəyyən həddən artıq olmasının qarşısını alır. Mərkəzi Bank birbaşa faiz dərəcəsinin səviyyəsini müəyyənləşdirmək imkanında deyildir. Dolayı metodlar vasitəsi ilə faiz dərəcəsini tənzim etmək üçün Mərkəzi Bank uçot dərəcəsindən istifadə edir. Digər tərəfdən açıq bazarda əməliyyatların aparılması faiz dərəcəsinin səviyyəsinə təsir edə bilir. Faiz dərəcəsinin aşağı və ya yüksək olması iqtisadi fəallığa, investisiya mühitinə çox güclü təsir edir. Ümumiyyətlə, bütün ölkələrdə mərkəzi bankların əsas vəzifəsi çevik pul-kredit siyasətinin aparılması və pul-kredit siyasətinin əsas metodları ilə iqtisadiyyatda tənzimləyici funksiyasını yerinə yetirməkdir. Pul siyasətinin başlıca istiqamətlərində ölkənin makroiqtisadi və makromaliyyə vəziyyəti təhlil edilir, pul-kredit siyasətinin və bank sisteminin inkişafının əsas istiqamətləri əks etdirilir. Pul siyasətinin həyata keçirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi həyata keçirilir. Bu zaman verilən kreditlər dövlət qiymətli kağızları, dövlətin və digər etibarlı emitentlərin qarantiyaları və zaminliyi, xarici valyuta, qızıl, müxtəlif formada qiymətli metallar və digər aktivlərlə təmin olunmalıdır. Belə kreditlər 6 aydan çox olmayan müddətə verilir və həmin müddətə uzadıla bilər. Yenidən maliyyələşdirilmənin forma, qayda və şərtlərini Mərkəzi Bankın İdarə Heyəti müəyyən edir. Kreditlər yalnız milli valyutada (manatla) kredit təşkilatlarının baş idarələrinə verilir. Mərkəzi Bank özünün müəyyən etdiyi şərtlərlə və qarşılıqlı razılaşma əsasında kredit təşkilatlarından depozitlər cəlb edə bilər. Pul siyasətinin həyata keçirilməsi məqsədilə istisna hallarda qanunvericiliyə müvafiq olaraq Mərkəzi Bank kredit təşkilatları tərəfindən aparılan ayrı-ayrı əməliyyatları müvəqqəti məhdudlaşdıra, o cümlədən onların əməliyyatları üzrə faiz dərəcələrinin aşağı və yuxarı hədlərini müəyyənləşdirə bilər. Mərkəz Bankın fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsini nəzərə alaraq Milli Bank monetar amillərdən asılı olaraq dəyişən baza inflyasiya göstəricisini hədəfləyir. Baza inflyasiya üzrə hədəf MB tərəfindən hər növbəti il üçün işlənən və ictimaiyyətə bəyan olunan pul siyasətinin əsas istiqamətlərində öz əksini tapır

Mərkəzi Bank milli valyutanın məzənnəsini artırmaq üçün milli valyutanı alıb, xarici valyutanı satmalıdır. Bununla da xarici valyutaya olan tələbat azalır və deməli, milli valyutanın məzənnəsi artır. Milli Bank milli valyutanın məzənnəsini azaltmaq üçün xarici valyutanı alaraq milli valyutanı satır. Bu isə xarici valyuta məzənnəsinin yüksəlməsinə, milli valyuta məzənnəsinin aşağı düşməsinə səbəb olur. İntervensiyalar üçün, bir qayda olaraq, rəsmi valyuta ehtiyatlarından istifadə olunur. Onların səviyyəsinin dəyişilməsi valyuta məzənnələrinin formalaşma proseslərinə dövlət müdaxiləsinin göstəricisi ola bilər. Rəsmi intervensiyalar müxtəlif üsullarla - birjada (açıq şəkildə) və ya banklararası bazarda (məxfi), brokerlər vasitəsilə və ya bilavasitə banklarla əməliyyatlar

vasitəsilə, müddətli və ya təcili icra ilə keçirilə bilir. Bundan başqa, rəsmi valyuta intervensiyaları «sterilləşdirilmiş» və «sterilləşdirilməmiş» olurlar. "Sterilləşdirilmiş" intervensiyaların gedişində rəsmi xarici netto -aktivlərin dəyişmələri daxili aktivlərin uyğun dəyişiklikləri ilə kompensasiya olunur, yəni rəsmi «pul bazasının» ölçüsünə heç bir təsir mövcud olmur. Əgər intervensiyaların gedişində rəsmi valyuta ehtiyatlarının dəyişiklikləri pul bazasının dəyişməsinə səbəb olursa, intervensiya «sterilləşdirilməmiş» olur. Uzunmüddətli perspektivdə milli valyuta məzənnəsinin dəyişmələri üzrə valyuta intervensiyalarının arzu edilən nəticələrə gətirib çıxarması üçün müəyyən şərtlərin olması zəruridir. Bunlar mərkəzi bankda valyuta intervensiyalarının keçirilməsi üçün kifayət qədər ehtiyatların olması, mərkəzi bankın uzunmüddətli siyasətinə bazar iştirakçılarının inamı, iqtisadi inkişaf sürəti, inflyasiya sürəti, pul kütləsinin dəyişmə sürəti (artması və ya azalması) kimi fundamental iqtisadi göstəricilərin dəyişməsidir. Valyuta intervensiyalarının həyata keçirilməsi ilə bağlı təhlükə ondan ibarətdir ki, valyuta məzənnələrinin uzunmüddətli hərəkətinin əsas səbəbləri gözdən qaça bilər. Lakin pul siyasəti və əməkhaqqı sahəsindəki siyasət bu məqsəd üçün yararlı deyil. Yalnız proteksionist tədbirlərin demontajı məzənnənin yüksəldilməsi istiqamətində milli valyutaya təzyiqin azaldılmasına kömək edə bilər.

Aktiv olaraq istifadə olunan dolayı pul siyasətinin funksiyalarından biri də faiz siyasətidir. Banklar iş gününün sonunda əllərində qalan artıq pulları MB-yə yatırırlar, və yaxud, iş günü sonunda, əgər hesablarında bir açıq varsa, bunu da MB-dən borc alaraq, bağlamağa çalışırlar. Banklar, əllərindəki istiqraz və ya vekselləri MB-yə bir həftəlik geri almaq şərti ilə yatırırlar. MB də aldığı bu qiymətli kağızlara bir faiz həddi qoyur. Bu faiz həddinə isə siyasət faizi deyilir və yaxud, çox zövq alaraq yazılarını oxuduğum yazarın dili ilə desək, buna siyasətçi faizi deyə bilərik. MB, bu faiz həddini artırıb-azaldaraq, pul miqdarına təsir etməyə çalışır. Yuxarıda da dediyimiz kimi, banklar günlük pul əksiklərini və ya əllərində qalan pulları MB vaistəsi ilə bu problemi həll etməyə çalışırlar. MB da öz növbəsində, bu banklara verdiyi günlük kreditlərə və ya aldığı depozitlərə faiz həddi qərarlaşdırır. Biz buna fonlama faizi və ya faiz dəhlizi də deyirik. Faiz dəhlizinin alt limitinə və ya üst limitinə qoyduğu faiz həddini artırıb-azaldaraq, bankların əllərindəki kreditvermə pul miqdarına təsir edir ki, bu da dolayı yoldan bazardakı pul miqdarına öz təsirini götərir.

Mərkəzi Bank kredit sisteminin fəaliyyətini həyata keçirən və tənzimləməsini təmin edən bir orqandır. İqtisadi siyasətin tərkib hissəsi olan pul-kredit siyasəti vasitəsilə dövlət iqtisadi inkişafın məqsədlərinə və mürəkkəb iqtisadi proseslərə, o cümlədən, məcmu milli məhsulun həcminə, inflyasiya tempinə, milli valyuta məzənnəsinə, investisiya prosesinə təsir göstərir. Bazar iqtisadiyyatlı ölkələrdə pul-kredit siyasətinin işlənib hazırlanmasını və reallaşdırılmasını , ölkənin bank sektorunun yüksək səviyyədə fəaliyyətini, milli valyutanın alıcılıq qabiliyyətinin qorunub saxlanmasını və s. mərkəzi banklar həyata keçirir. Bank sisteminə malik istənilən ölkənin pul-kredit sistemlərinin əsasını mərkəzi banklar təşkil edir. Müasir dövlətin bank sistemində mərkəzi bankın əsas rolu və mövqeyi bu ölkədə bazar iqtisadiyyatının səviyyəsi və xarakteri ilə müəyyənləşir ki, bu münasibətləri sabit hesab etmək düzgün olmazdı. Bunun ən parlaq tərənnümü bazar münasibətlərinin müxtəlif mərhələlərində mərkəzi bankın rolunun dəyişməsidir.

Mərkəzi Bank fikri əsasən bazarın və ümumiyyətlə maliyyə sektorunun gələcək inkişafının dövlətin tənzimləyici orqanı olan mərkəzi banksız qeyri-mümkün olduğunu ortaya çıxaran bazar münasibətlərinin inkişaf etdiyi dövlətlərdə yaranmışdır.

Öz məqsədlərinə nail olmaq üçün Milli Bank:

- ❖ dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir;
- ❖ nağd pul dövriyyəsini təşkil edir;
- ❖ pul nişanlarının tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirir;
- ❖ milli valyutanın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir;
- ❖ qanunvericiliyə uyğun olaraq valyuta tənzimini və nəzarətini həyata keçirir;
- ❖ sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir;
- ❖ qanunvericiliyə uyğun olaraq hesabat tədiyyə balansını tərtib edir və ölkənin proqnoz tədiyyə balansının hazırlanmasında iştirak edir;
- ❖ bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank

fəaliyyətinə nəzarəti həyata keçirir;

❖ ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanunauyğun olaraq həyata keçirir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasmın Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu. (10 dekabr 2004-cü il.)
2. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu (16 yanvar 2004-cü il)
3. Bank işi və elektron bankçılıq. Ə.Abbasov, Z.Məmmədov, R.Rzayev, Ş.Həmişəyeva. 2003.
4. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Z.Məmmədov. Bakı, 2001.
5. E.M.Sadıqov. "Bank Əməliyyatları". Bakı, 2010
6. Z.F.Məmmədov. "Bank fəaliyyətinin əsasları". Bakı, 2011.
7. Ş.Ə Abdullayev., R.Y. Əsgərova. «Bank işi» Dərslik. Bakı, 2009.
8. Ş.Ə Abdullayev. Azərbaycanda bank sistemi və bank resurslarının idarə olunması. Bakı, 2001.
9. www.ibar.az
10. www.cbar.az
11. www.maliyye.gov.az
12. www.banco.az

Ахмед Асеф оглы Насибзаде
магистрант,
Мехрибан Карам кызы Тагиева
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Механизмы денежно-кредитной политики центрального банка в обеспечении экономического роста

Резюме

Работа посвящена теме о направлениях регулирование государственной экономики с денежно-кредитной политики Центральный Банком. Центральные банки были в центре внимания кредитных организаций, участвует в регулировании кредитно-денежной системы. Он занимает важное место среди банков и называют банковские банки. Центральный банк координирующую роль для банков и регулировать свои методы работы экономического регулирования. Центральный банк осуществляет контроль над банковской системой страны. Он служит только банки и правительство. Таким образом, центральный банк называется банкир. Вопрос о государственном бюджете, они играют ключевую роль в осуществлении урегулирования. В результате денежно-кредитной политики, проводимой центральными банками в течение нескольких дней и сохранить стабильные цены, а также обменные курсы могут существенно измениться. Центральные банки прекратить увеличение производства быстро, а также имеет возможность исключить или увеличивать безработицу. Центральный банк, который является основой экономического развития является обеспечение стабильности валюты регулирует свою покупательную способность. Нормальная денежно-кредитной политики центрального банка может стимулировать развитие производства, снизить уровень безработицы по сравнению с удаления. Кроме того, Центральный банк регулирует денежное обращение в стране, является вовлечение банков в денежной массы в обращении.

Ahmed Asaf Nasibzade
master,
Mehriban Karam Tagieva
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Mechanisms of the central bank's monetary policy in ensuring economic growth

Summary

Dissertation work dedicates of to the regulation of the state economy, Central Bank"s monetary policy. Central banks have been the focus of credit institutions, is involved in the regulation of the monetary system. It occupies an important place among the banks, the banks called Bank. The central bank co-ordination role for banks and regulate their work methods of economic regulation. The central bank exercises control over the country's banking system. It serves only the banks and the government. Therefore, the central bank is called the banker. The issue of the state budget, they play a key role in the implementation of the settlement. As a result, monetary policy pursued by central banks within a few days and keep stable prices, as well as the exchange rates can change significantly. Central banks to discontinue production increase quickly, and also has the ability to eliminate or increase unemployment.

Abdulla Sarvan oğlu AĞAZADƏ
magistrant,
Mehriban Kərəm qızı TAĞIYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QİYMƏTLİ KAĞIZLAR BAZARININ İQTİSADİ ARTIM POTENSİALININ STATİSTİK TƏHLİLİ

Qiymətli kağızlar bazarının inkişafını ölçmək üçün bundan əvvəl aparılan araşdırmalarda da bir çox göstəricilərdən istifadə olunmuşdur. Maliyyə sektorunun inkişafını onların təmin etdiyi bəzi funksiyalarla səciyyələndirmək olar: (i) vəsaitlərin bir yerdə cəmləşdirilməsi; (ii) kapitalın səmərəli investisiyalara yönləndirilməsi; (iii) bu investisiyalara nəzarət edilməsi; (iv) risklərin diversifikasiyası; və (v) mal və xidmətlərin mübadiləsi. Bu funksiyaların hər biri investisiya qərarlarına təsir edərək qiymətli kağızlar bazarının nə dərəcədə inkişaf etdiyini göstərir. Nəticə etibarilə, maliyyə sektoru fiziki və insan kapitalı, ümumi məhsuldarlıq səviyyəsinə təsir edir ki, bu üç faktor da iqtisadi inkişafı təyin edir. Maliyyə sektoru asimmetrik informasiya və maliyyələşmə əngəllərini nə qədər aradan qaldırırsa, maliyyə sisteminin iqtisadi böhranları və iqtisadi tsikllər zamanı yaranacaq problemləri aradan qaldırması daha mümkün olur. Başqa sözlə desək, bu proses makro iqtisadi stabilliyi artırır. Bu sahədə aparılan araşdırmalar qiymətli kağızlar bazarının inkişafını ölçmək üçün ən çox istehlak kreditləri və bazar kapitallaşması səviyyələrinə üstünlük verir. [1]

Qiymətli kağızlar bazarının inkişafını və iqtisadi inkişafı qiymətləndirmək üçün bəzi göstəricilər aşağıdakılardır: Real ÜDM – ölkədə müəyyən edilmiş dövr ərzində istehsal edilən malların və göstərilmiş xidmətlərin ümumi dəyərini ifadə edir. Nominal ÜDM malların və xidmətlərin dəyərini cari dövrün valyuta kursu ilə ölçür. Real ÜDM hesablanması zamanı isə nominaldan fərqli olaraq, istehsal edilmiş mallar və göstərilmiş xidmətlərin dəyəri əvvəlcədən müəyyən edilmiş baza dövründə olan qiymətlərin səviyyəsinə əsasən hesablanması ilə əldə edilir. Baza dövrünün seçilməsi və həmin dövrün qiymət səviyyəsinin tətbiq olunmasında məqsəd inflyasiyanın təsirini aradan qaldırmaqdır. Bu metodun istifadəsi zamanı iqtisadi artım faizindən inflyasiyanın effekti aradan qaldırılır. Başqa sözlə desək, real ÜDM-in istifadəsi zamanı iqtisadi artım baş vermiş inflyasiya nəticəsində şişirdilmiş rəqəmləri deyil, istehsal edilmiş mallar və göstərilmiş xidmətlərin fak-

tiki artımını əks etdirir. Bu tədqiqatın məqsədləri üçün nominal yox, real ÜDM-in iqtisadi inkişafın göstəricisi kimi seçilməsində məqsəd, qiymətli kağızlar bazarının inkişafının iqtisadi inkişafa təsirini ölçmək üçün inflyasiya faktorunu aradan qaldırmaqdır. Nominal ÜDM inflyasiyanın təsirini də özündə əks etdirdiyi üçün, qiymətli kağızlar bazarı ilə iqtisadi inkişaf arasındakı əlaqə ölçülən zaman yanlış nəticələrə gətirib çıxara bilər. Beləliklə, real ÜDM hesablanması zamanı baza dövrünün qiymətləri əsas götürülməklə, yarana biləcək yanlış nəticələr aradan qaldırılmış olur. [9]

Bazar kapitallaşması – səhmləri fond birjasında ticarət olunan şirkətin bütün səhmlərinin bazar dəyərini ifadə edir. Şirkətlər üçün bazar kapitallaşmasının hesablanması belədir:

$$MC = P \times SA$$

Burada,

MC – bazar kapitallaşması

P – hər bir səhmin bazar dəyəri

SA - şirkətin səhmlərinin ümumi sayı

Yuxarıdakı düsturdan da göründüyü kimi, bazar kapitallaşması, şirkətin səhmlərinin cəmi sayının hər bir səhmin bazar qiymətinə hasilinə bərabərdir. Əgər bir şirkətin ümumi səhmlərinin sayı iyirmi milyon ədəd və hər bir səhmin cari bazar qiyməti 100 dollara bərabərdirsə, deməli bu şirkətin bazar kapitallaşması iyirmi milyard dollara bərabərdir. Bu göstərici satışların və şirkətin aktivlərinin cəmi dəyəri kimi investorlar tərəfindən şirkətin böyüklüyünü ölçmək üçün istifadə olunur. Şirkətin nə qədər böyük olması investorları maraqlandıran elementar faktorlardan biridir, çünki şirkətin ölçüsü onun bir çox xüsusiyyətlərini qiymətləndirən başlıca amillərdən biridir (məsələn, risk). Bu faktorun hesablanmasının rahat olması onun əhəmiyyətini bir qədər də artırır. Bazar kapitallaşması bəzi hallarda səhmdar kapitalı ilə səhv salınır. Buna baxmayaraq, bazar kapitallaşması şirkətin dəyərini yox, onun səhmlərinin bazar dəyərini ölçür. Səhmdar kapitalı isə şirkətin mühasibatlığında uçota alınan aktivlər və passivlərin fərqində bərabərdir. Buna görə də, şirkətin dəyərini onun bazar kapitallaşması ilə ölçmək adekvat deyildir. Çünki, səhm bazarında ticarət olunan şirkətin səhmləri onların nominal dəyərindən aşağı və ya yuxarı dəyərə sahib ola bilər. Bazar kapitallaşması şirkətə məxsus olan bütün səhmlərin bazar qiyməti ilə alınma dəyərini ölçsə də, onun şirkət satınalmaları zamanı ödənəcək olan qiyməti ölçən göstərici deyildir. [10] Qiymətli kağızların ümumi dövriyyəsi - qiymətli kağızlar bazarında ticarət olunan maliyyə alətləri üzrə əməliyyatların ümumi dəyərini ifadə edir. Bu göstəricinin hesablanması aşağıdakı kimidir:

$$T = NT \times Q \times PT$$

T – qiymətli kağızların ümumi dövriyyəsi

NT – aparılmış əməliyyatların cəmi sayı

Q – əməliyyat zamanı ticarət olunan qiymətli kağızın miqdarı

PT – qiymətli kağızın bazar dəyəri

Yuxarıdakı düsturdan da göründüyü kimi, bu göstərici qiymətli kağızlar bazarında aparılmış bütün əməliyyatların bazar qiyməti ilə ifadə olunan dəyərini ölçür. Bu faktor da bazar kapitallaşmasına bənzər olaraq maliyyə bazarlarının nə dərəcədə böyük olduğunu göstərir. Bazar kapitallaşmasından fərqli olaraq, bu göstərici təkcə səhmlərin deyil, maliyyə bazarlarında ticarət olunan qiymətli kağızların digər növləri üzrə olan əməliyyatları da nəzərə alır. Maliyyə bazarlarında mövcud olan elektron sistemlər vasitəsilə qeydə alınan ticarət əməliyyatları məlumat bazasında toplanır və daha sonra qiymətli kağızların ümumi dövriyyəsi haqqında statistik göstərici əldə edilir. ÜDM ilə müqayisədə əsasən, inkişaf etmiş ölkələrdə daha böyük olan bu statistik göstərici bu tədqiqatda da maliyyə sektorunun inkişafını təyin edən faktorlardan biri kimi seçilmişdir. Bütün bunlara baxmayaraq, maliyyə sektorunun inkişafı çoxistiqamətli prosesdir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı və qloballaşma prosesi maliyyə sektorunu daha qlobal və çoxyönlü etmişdir. Məsələn, əvvəlki dövrlərdə banklar maliyyə sisteminin əsasını təşkil etsə də, müasir dövrdə sığorta şirkətlərinin, qarşılıqlı fondların, pensiya fondlarının, investisiya banklarının və digər maliyyə institutlarının fəaliyyətinin genişlənməsi bankların maliyyə sektorunda xüsusi çəkisini azaltmış və bu qurumların maliyyə sistemində önəmliliyiini azaltmışdır. Buna paralel olaraq, qiymətli kağızlar bazarı bir çox istiqamətdə inkişaf edərək, fiziki və hüquqi şəxslərin öz vəsaitlərini investisiyaetmə üsullarını artırmış və şirkətlərə bankların xidmətlərindən istifadə etmədən

istiqrazlar, səhmlər və pul bazarlarının müxtəlif növləri ilə vəsait əldə etmək imkanı yaratmışdır. Qeyd edilən bu maliyyə institutlarının ortaya çıxması və inkişafı maliyyə xidmətlərinin təmin edilməsini xeyli asanlaşdırmışdır. Bundan başqa maliyyə bazarlarının inkişafını təyin edən göstəricilərdən biri də onların əlçatan olmasıdır. Maliyyə sektorunun böyük olsa belə, maliyyə bazarlarının fiziki və hüquqi şəxslərin böyük qismi tərəfindən əlçatan olmaması onların istifadəsini azaldır. Yəni, qiymətli kağızlar bazarı nə qədər böyük və əhatəli olsa da, onların səmərəli və effektiv şəkildə fəaliyyət göstərməməsi maliyyə bazarlarının iqtisadi inkişafa töhfəsini azaldır. Maliyyə bazarlarının və institutlarının çeşidliliyi, onların inkişafını ölçmək üçün daha çox göstəricidən istifadə etməyi zəruri edir. Bundan əvvəlki hissədə də qeyd edildiyi kimi, real ÜDM iqtisadi inkişaf BVF-nin indeksləri isə müvafiq olaraq maliyyə bazarlarının və institutlarının inkişafının göstəricisi kimi istifadə ediləcəkdir. Yəni burada, ÜDM asılı olan, indekslər isə asılı olmayan tərəflər olacaqdır. Başqa sözlə desək, ÜDM maliyyə bazarlarının və institutlarının inkişafını göstərən indekslərin funksiyası kimi təqdim olunacaqdır.

Bu asılılığı riyazi şəkildə belə ifadə etmək olar:

$$GDP = f(FMI, FII)$$

GDP – real Ümumi Daxili Məhsul

FMI – Qiymətli kağızlar bazarı indeksi

FII – Maliyyə institutları indeksi

Real ÜDM, daha əvvəl də qeyd edildiyi kimi, 2024-cü il baza götürülməklə hesablanmış və dünya bankının statistik bazasında yer alan ümumi daxili məhsul məlumatları, indekslər isə BVF tərəfindən hesablanmış və 0-la 1 arasında qiymət alan indekslərdir. Bu indekslərin maliyyə bazarlarının və institutlarının inkişaf səviyyəsini, ÜDM-in isə iqtisadiyyatın inkişaf səviyyəsini təmsil etdiyini nəzərə alsaq, yuxarıda qeyd edilən asılılıq funksiyası maliyyə sektorunun inkişaf etməsinin iqtisadiyyata necə təsir etdiyini ölçməyə imkan verəcəkdir. Bu asılılıqda asılı olan dəyişən ÜDM (və ya kriterial dəyişən), asılı olmayan dəyişənlər (və ya prediktorlar) isə qiymətli kağızlar bazarı və maliyyə institutları indeksləridir. [13]

Beləliklə, bu asılılıq funksiyasından istifadə edərək, aşağıdakı şəkildə cüt xətti reqressiya tənliyi qurmaq olar:

$$log(GDP) = \beta_0 + \beta_1 \, x \, log(FMI) + \beta_2 \times log(FII)$$

Burada, GDP – real Ümumi Daxili Məhsul

FMI – Qiymətli kağızlar bazar indeksi

FII – Maliyyə institutları indeksi

log – loqarifmik çevirmə

β_0 – digər amillər (sabit dəyişən)

β_1, β_2 – müstəqil dəyişənlərin əmsalları

Bu reqressiya tənliyində dəyişənlər yuxarıdakı asılılıq funksiyasından fərqli olaraq, loqarifmik çevirməyə məruz qalmışdır. Yəni, bu tənlikdə asılı və müstəqil dəyişənlər onların öz dəyərləri ilə yox, bu dəyərlərin loqarifmaları ilə ifadə olunmuşdur. Loqarifmik çevirmələr reqressiya tənliklərində geniş istifadə edilən metoddur. Bu çevirmələr ən çox müstəqil və asılı dəyişənlər arasında qeyri-xətti əlaqənin mövcud olduğu hallarda istifadə edilir. Onların istifadə edilməsinin bir neçə səbəbi vardır. Loqarifmik çevirmələr istifadə olunan zaman əldə edilən müstəqil dəyişənlərin əmsallarının şərhi oxuyucular tərəfində daha asan başa düşülən olur. Belə ki, dəyişənlər öz sahib olduqları dəyər ilə ifadə edildikdə, onların şərhi zamanı da əmsalların qiymətinə görə hər vahidin artmasının (azalmasının) asılı olan dəyişəni neçə vahid artırdığı (azaltdığı) məlumatı əldə edilmiş olur. Loqarifmik çevirmə tətbiq olunduqda isə, əmsalların dəyəri müstəqil dəyişənlərin 1% artmasının (azalmasının) müstəqil dəyişəni neçə faiz artırdığı (azaltdığı) kimi şərh edilir. Beləliklə, bu dəyişənlər arasındakı səbəb-nəticə əlaqəsinin faizlə ifadə edilməsi, bu əlaqənin dəyişənlərin dəyərlərinin nə qədər böyük və ya kiçik olmasından asılı olmayaraq, müəyyən mənada standartlaşdırılmış olur. Bu standartlaşdırmaın həm tədqiqatçı, həm də oxuyucular tərəfindən daha asan mənimsənilməsi aydındır. Loqarifmik çevirmələr həm də bir tərəfə çox meylli olan dəyişənləri normal paylanmaya daha yaxınlaşdırır. Yəni, dəyişənin öz dəyərləri normal paylanmada uzaq olsa (sağa və ya sola meylli olsa) da, loqarifmik çevirmə ilə əldə edilən dəyərlər normal paylanmaya daha da

yaxınlaşır. Başqa sözlə desək, loqarifmik çevirmələr dəyişənlərin paylanmasının normallaşmasına kömək edir.

Aparılan təhlillər göstərir ki, qiymətli kağızlar bazarının iqtisadi artıma təsirini qiymətləndirmək üçün loqarifmik reqressiya modellərinin tətbiqi iqtisadi əlaqələrin daha real və ölçülə bilən şəkildə ifadə olunmasına şərait yaradır. Bu metod sayəsində qiymətli kağızlar bazarının inkişaf templəri ilə ÜDM arasında faizlə ifadə olunan əlaqə müəyyən edilir və bu əlaqə statistik olaraq sabit və izaholunandır. Loqarifmik çevirmə həmçinin dəyişənlərin paylanmasını normallaşdıraraq modellərin etibarlılığını artırır. Nəticə etibarilə, qiymətli kağızlar bazarının inkişafı iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən biri kimi qiymətləndirilə bilər. Bütün bunları nəzərə alaraq aşağıdakı təklifləri irəli sürmək olar:

- Qiymətli kağızlar bazarının iqtisadi göstəricilərlə əlaqəsini qiymətləndirən tədqiqatlarda loqarifmik reqressiya modelləri standart analitik vasitə kimi tətbiq olunmalıdır.
- Bazar indeksləri, ticarət həcmləri və sektor göstəriciləri üzrə mütəmadi, etibarlı və açıq məlumatların toplanması təmin olunmalıdır.
- Loqarifmik modellər əsasında illik və rüblük hesabatlar hazırlanmalı, qiymətli kağızlar bazarının iqtisadi dinamika ilə əlaqəsi izlənməlidir.
- Maliyyə və iqtisadiyyat sahəsində çalışan mütəxəssislər üçün iqtisadi modelləşdirmə və statistik analiz üzrə təlimlər keçirilməlidir.

Beləliklə, loqarifmik çevirmələrin tətbiqi qiymətli kağızlar bazarının iqtisadi artıma təsirini daha dəqiq və elmi əsaslarla qiymətləndirməyə imkan verir. Bu, həm tədqiqatçılar, həm də iqtisadçılar üçün etibarlı qərarvermə aləti kimi çıxış edir və ölkənin maliyyə sisteminin dayanıqlı inkişafına xidmət edir.

ƏDƏBİYYAT

1. Ataşov B.X. Maliyyə bazarları. Dərslik. Bakı, 2016.
2. A.Hüseynov “Maliyyə bazarları, dərs vəsaiti, Bakı, 2021.
3. A.Kərimov, A.Babayev. Qiymətli kağızlar bazarı. Dərslik, Bakı. 2003.
4. Z.Zeynalov. Azərbaycan bank xidmətləri bazarında lizinqin inkişafı məsələləri. Bakı. 2018.
5. Bağırov M.M. Banklar və bank əməliyyatları, Bakı, 2003.
6. A.Abbasov, S.Abbasov. Maliyyə biznesi. Dərslik, Bakı, 2004.
7. O.Q.Məmmədli, M.M.Məmmədov, İ.B. Qocayev və s. “Sosial-iqtisadi statistika” Bakı-2011.
8. Əliyev Ə.İ. Statistikanın nəzəriyyəsi. Bakı, 2010.
9. Yaqubov S.M., Əliyev Ə.İ. Sosial-iqtisadi statistika, Bakı, 2006.
10. Yaqubov S.M., Əliyev Ə.İ. Maliyyə və bank statistikası.
11. A.M.Асланов. Statisikanın ümumi nəzəriyyəsi və sosial-iqtisadi statistika. Bakı, 2005.
12. Статистика. Учебник. Под.ред. Проф. И.И.Елиссеевой М., 2004.
13. Назаров М.Г. Обшая теория статистики. Учебник. Л.Омега; 2010.

Абдулла Сарван оглы Агазаде
магистрант,
Мехрибан Карам кызы Тагиева
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Статистический анализ потенциала экономического роста рынка ценных бумаг

Резюме

Финансовые рынки-это рынки любого типа, на которых покупаются/продаются финансовые активы или средства. Финансовые рынки играют важную роль в экономике. Он играет роль перевод средств от инвесторов (имеющих избыток средств) заемщикам (имеющим дефицит средств). Как рынок, который связывает единицу профицита с единицей дефицита, его развитие считается критическим для экономики. Связь между финансовыми

рынками и экономическим ростом указывает на то, что развитие эти рынки жизненно важны для содействия экономическому росту. В этом исследовании рассматривается влияние финансовых рынков и институтов на экономический рост на основе на эмпирических данных. Чтобы правильно оценить упомянутые взаимоотношения, было выбрано десять стран выборки. отобраны и собраны некоторые показатели, определяющие рост экономики и финансового сектора.

Abdulla Sarvan Agazade
master,
Mehriban Karam Tagieva
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Statistical analysis of the economic growth potential of the securities market

Summary

Financial markets are any type of markets, in which financial assets are bought/sold or funds transferred. Financial markets play a significant role in an economy. It plays a role of transferring funds from investors (who have a surplus of funds) to borrowers (who have a deficit of funds). As a market that links a surplus unit with a deficit unit, its development is considered to be critical for an economy. A number of studies that investigates the relationship between financial markets and economic growth indicate that development of these markets is vital for promoting economic growth. This study examines impact of financial markets and institutions on economic growth based on empirical evidence. To assess mentioned relationship properly, ten sample countries was selected and some indicators that define economic and financial sector growth were collected for selected sample countries

Elmir İlham oğlu SALAHLI
magistrant,
Aytən Ziyad qızı SƏMƏDZADƏ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANIN MALİYYƏ BAZARLARINDA İNVESTİSİYA GƏLİRLƏRİ VƏ RİSK GÖSTƏRİCİLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Azərbaycanın maliyyə bazarları son illərdə iqtisadiyyatın mühüm tərkib hissəsinə çevrilmiş və kapitalın səmərəli bölgüsündə, investisiya axınlarının yönləndirilməsində və iqtisadi sabitliyin təmin edilməsində əsas rol oynamışdır. Maliyyə bazarlarının inkişaf səviyyəsi bir tərəfdən iqtisadi artımı stimullaşdırır, digər tərəfdən isə risklərin idarə olunması və gəlirlilik səviyyəsinin optimallaşdırılması məsələlərini gündəmə gətirir. İnvestisiya qərarlarının qəbul edilməsində gəlirlilik və risk anlayışları bir-biri ilə sıx əlaqəli olub, hər bir investor üçün əsas qiymətləndirmə meyarları kimi çıxış edir [1].

Maliyyə bazarlarında gəlirlilik, ümumilikdə, investorun yerləşdirdiyi kapitaldan əldə etdiyi mənfəətin səviyyəsi ilə ölçülür. Bu gəlir həm qiymətli kağızların qiymət artımı, həm də dividendlər və faiz gəlirləri şəklində formalaşır. Gəlirlilik göstəriciləri bazarın ümumi performansını əks etdirdiyindən, onların dinamikası iqtisadi sistemin sağlamlığını müəyyən edən mühüm göstəricilərdən biridir. Lakin hər bir gəlir müəyyən risklə müşayiət olunur və bu risklər bazar şəraitindən, siyasi sabitlikdən, iqtisadi gözləntilərdən və beynəlxalq maliyyə axınlarından asılı olaraq dəyişə bilər.

Azərbaycanın maliyyə bazarlarında risklərin qiymətləndirilməsi müxtəlif istiqamətlərdə aparılır. Buraya bazar riski, faiz riski, likvidlik riski, valyuta riski və əməliyyat riskləri daxildir. Bu risklərin dərəcəsini qiymətləndirmək üçün statistik metodlar, o cümlədən dispersiya, standart kə-

narlaşma, kovariasiya və beta-əmsal kimi göstəricilərdən istifadə olunur. Məsələn, qiymətli kağızların gəlirlilik dinamikasının standart kənarlaşması yüksək olduqda, bu, bazarın qeyri-sabitliyini və riskin yüksəkliyini göstərir. Bu baxımdan, riskin idarə olunması həm fərdi investorlar, həm də maliyyə institutları üçün prioritet məsələdir[5].

Azərbaycan iqtisadiyyatının son illərdə diversifikasiyası və qeyri-neft sektorunun inkişafı maliyyə bazarlarına olan marağı artırmışdır. İnvestorların bazara etimadının yüksəlməsi nəticəsində qiymətli kağızlar bazarında əməliyyat həcmi artmış, yeni investisiya alətləri tətbiq olunmağa başlanmışdır. Bununla yanaşı, bazarın dayanıqlığının təmin olunması məqsədilə risklərin təhlili və proqnozlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Müasir dövrdə maliyyə bazarlarında baş verən dəyişikliklərə uyğun olaraq gəlirlilik və risk göstəricilərinin statistik qiymətləndirilməsi üçün texnoloji alətlər, iqtisadi modellər və analitik proqramlar geniş şəkildə tətbiq edilir.

Risk və gəlir arasındakı əlaqə iqtisadi ədəbiyyatda "risk-gəlir kompromisi" adlanır [10]. Bu prinsipə əsasən, yüksək gəlir gözləntiləri adətən daha yüksək risklə müşayiət olunur. İnvestorların məqsədi bu tarazlığı optimal səviyyədə saxlamaq, yəni risk səviyyəsini nəzərə alaraq maksimal gəlir əldə etməkdir. Bu məqsədlə Azərbaycanda fəaliyyət göstərən investisiya şirkətləri və banklar portfel idarəetmə modellərindən, o cümlədən Markowitzin portfel nəzəriyyəsindən və Sharpe əmsalından istifadə edirlər.

Statistik analiz nəticələri göstərir ki, Azərbaycanın maliyyə bazarlarında investisiya gəlirliliyi sabit artım meyli nümayiş etdirsə də, qlobal bazarlarda baş verən dəyişikliklər daxili bazara müəyyən təsir göstərir. Buna görə də bazarın sabitliyinin qorunması üçün risklərin vaxtında proqnozlaşdırılması, düzgün qiymətləndirilməsi və sığorta mexanizmlərinin gücləndirilməsi vacibdir.

Müasir dövrdə Azərbaycanda qiymətli kağızlar bazarının inkişafını müəyyən edən proqram sənəd 2016-cı il 6 dekabrda qəbul edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" dir. Bu sənəddə Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişaf etdirilməsi mühüm starteji istiqamətlərdən biri kimi təsbit edilmişdir. Burada 5 əsas starteji hədəf-dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması, maliyyə bazarlarının inkişafı, infrastrukturun gücləndirilməsi, tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi, maliyyə bazarı iştirakçılarının bilik və bacarıqlarının artırılması öz əksini tapmışdır. Qiymətli kağızlar bazarının inkişafı ölkədə iqtisadiyyatın müxtəlif sahələrinin və beynəlxalq aləmdə fond bazarının inkişaf sürəti ilə sıx bağlıdır. Bu baxmıdan həyata keçirilən tədbirlər respublikamızın fond bazarının beynəlxalq maliyyə bazarları sisteminə inteqrasiya olunmasına yönəldilməlidir. Müvafiq qurumlarla birlikdə qiymətli kağızlar bazarında vergitutma məsələlərinin təkmilləşdirilməsi, dünya təcrübəsində istifadə olunan və investisiyaların artımı üçün əlverişli mühitin yaradılması baxımından tətbiq edilməsi zəruri hesab olunan vergi güzəştlərinin hazırlanması həyata keçirilməlidir. Onu da deyək ki, ölkədə qiymətli kağızlar bazarının inkişaf etdirilməsi kompleks xarakter daşıyır və müsbət dəyişikliklərin əldə edilməsi üçün peşəkar iştirakçıların və tənzimləyici orqanların səylərinin birləşdirilməsi çox vacibdir. Qeyd edilən tədbirlərin həyata keçirilməsi ölkəmizdə daha da inkişaf etmiş və təkmilləşmiş qiymətli kağızlar bazarının yaranmasına və iqtisadiyyatın artım tempinin sürətlənməsinə şərait yaradar. Bununla da ölkəmizdə formalaşan fond bazarı regionun ən böyük və inkişaf etmiş fond bazarına çevrilə bilər.[1]

Azərbaycanda güclü xarici investisiya axınına, o cümlədən, təkmil maliyyə bazarına nail olmaq üçün hər şeydən əvvəl bütöv iqtisadi sistem formalaşdırılmalıdır. Dünya iqtisadiyyatında öncül yer tutan ölkələrin təcrübəsini nəzərə alaraq demək olar ki, Azərbaycanın xarici iqtisadi fəaliyyəti və xarici investorla effektiv münasibəti aşağıdakı ümumi prinsiplər nəzərə alınmaqla həyata keçirilməlidir:

- milli iqtisadiyyat açıq sistem olmalıdır;
- ölkədə iqtisadi fəaliyyətin tənzimlənməsi mexanizmi beynəlxalq hüquq normalarına və dünya praktikasına uyğun olmalıdır;
- iqtisadiyyatın və xarici ticarət əlaqələrinin strukturu ölkənin iqtisadi potensialına, daxili tələbatına və beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlüklərə uyğun olaraq formalaşdırılmalıdır;

Azərbaycanın maliyyə bazarlarında formalaşan gəlir və risk göstəriciləri bir-biri ilə qarşılıqlı

asılılıq təşkil edir. Gəlirlilik səviyyəsinin artması investisiya fəaliyyətinin genişlənməsinə təkan versə də, eyni zamanda risklərin də artmasına səbəb olur. Statistik qiymətləndirmə metodları göstərir ki, risklərin düzgün idarə olunması və gəlirlilik səviyyəsinin optimallaşdırılması maliyyə bazarlarının sabit inkişafının əsas şərtidir. Azərbaycanın maliyyə bazarlarının potensialı, xüsusilə qeyri-neft sektorunun maliyyələşdirilməsi istiqamətində, gələcəkdə iqtisadi artımın mühüm mənbələrindən biri ola bilər. Bütün bunları nəzərə alaraq¸aşağıdakı təklifləri irəli sürmək olar:

- Maliyyə institutlarında risklərin ölçülməsi və proqnozlaşdırılması üçün beynəlxalq standartlara əsaslanan metodologiyalar tətbiq edilməlidir.
- İnvestisiya gəlirləri və risklər üzrə məlumat bazası formalaşdırılmalı, analitik modellərin tətbiqi artırılmalıdır.
- İnvestisiya qərarlarının əsaslı verilməsi üçün maarifləndirici proqramlar və təlimlər təşkil edilməlidir.
- Yeni investisiya alətləri – istiqrazlar, fondlar və törəmə məhsullar bazara cəlb edilməlidir.
- Bazar iştirakçılarının fəaliyyətinə nəzarət mexanizmləri təkmilləşdirilməli, hesabatlılıq və şəffaflıq səviyyəsi yüksəldilməlidir.

Bu tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanın maliyyə bazarlarında risk və gəlir arasında tarazlıq qorunacaq, investisiya mühitinin sabitliyi təmin ediləcək və ölkənin ümumi iqtisadi inkişafına mühüm töhfə veriləcəkdir.

ƏDƏBİYYAT

1. Ataşov B.X. “Maliyyə bazarları” dərslik, Bakı, 2016.
2. KərimovA.E.,BabayevA.A.“Qiymətli kağızlar bazarı” Dərslik, Bakı, 2003, 456.
3. Məmmədov S.M. İnflyasiya və maliyyə bazarı, Bakı, 2014, 345 s.
4. Məmmədova E.B. “Maliyyə” dərslik, Bakı, 2018.
5. Sadıqov M.M. Maliyyə potensialının formalaşması problemləri, Elm, Bakı, 2002.
6. Абалов А. Аналитики рынка рекомендуют: Рынок ценных бумаг, № 11, М.,2001,с.35-46
7. Аскинадзи В.М, Рынок ценных бумаг, М., МЭСИ,2011,370 с
8. Афанасьева В.Н.,ЮзбашевМ.М.Анализ временных рядов и прогнозирование, М, Финансы и статистика, 2011,228 с.
9. Бабин В. Методика расчета на фондовом рынке на примере РТС, жур., Рынок ценных бумаг, Кг 17, М.,2015. с.61-68.
10. Бегер Ф. Что вам надо знать об анализе акций, «Интер-эксперт» ЗАО «Финстатинформ» М., 2014.206 с.

Эльмир Ильхам оглы Салахлы
магистрант,
Айтен Зияд кызы Самедзаде
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Оценка доходности и показателей риска на финансовых рынках Азербайджана

Резюме

Финансовые рынки Азербайджана в последние годы стали важной составляющей экономики и играют ключевую роль в эффективном распределении капитала, направлении инвестиционных потоков и обеспечении экономической стабильности. Уровень развития финансовых рынков, с одной стороны, стимулирует экономический рост, а с другой – поднимает вопросы управления рисками и оптимизации уровня доходности. Понятия доходности и риска тесно взаимосвязаны при принятии инвестиционных решений и выступают основными критериями оценки для каждого инвестора.

Elmir Ilham Salakhli
master,
Ayten Ziyad Samedzade
doctor of philosophy in economics, associate professor,
Azerbaijan University Cooperation

Assessment of ınvestment returns and risk ındicators in azerbaijan's financial markets

Summary

In recent years, Azerbaijan's financial markets have become an essential part of the national economy, playing a key role in the efficient allocation of capital, the direction of investment flows, and the maintenance of economic stability. The level of development of financial markets, on one hand, stimulates economic growth, while on the other, it raises issues of risk management and optimization of return levels. The concepts of return and risk are closely interrelated in the decision-making process of investments and serve as the main evaluation criteria for every investor.

Lalə Mirəhəd qızı BABAXANOVA
magistrant,
Mehriban Kərəm qızı TAĞIYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

DÖVLƏT TƏNZİMLƏNMƏSİ VASİTƏSİLƏ BANK SEKTORUNUN STABİLLİYİNİN ARTIRILMASI YOLLARI

Bank sektoru hər bir ölkənin iqtisadiyyatında dayanıqlığın təmin olunmasında mühüm rol oynayır. Bankların sabitliyi maliyyə bazarlarının etibarlılığına, investorların və əhalinin maliyyə sisteminə inamına, həmçinin iqtisadi artımın davamlılığına birbaşa təsir edir. Bu səbəbdən dövlət tənzimləməsi bank sektorunun səmərəli və sabit fəaliyyət göstərməsi üçün vacib mexanizm hesab olunur. Dövlət tənzimlənməsi vasitəsilə bankların kapital strukturu, likvidlik səviyyəsi, kredit riskləri və əməliyyat təhlükəsizliyi müəyyən standartlara uyğun şəkildə idarə olunur.

Bank sektorunda stabilliyin təmin edilməsi üçün bir neçə əsas istiqamət mövcuddur. İlk növbədə, kapital tələblərinin düzgün müəyyənləşdirilməsi bankların stress vəziyyətlərinə davamlılığını artırır. Likvidlik standartlarının tətbiqi bankların qısamüddətli öhdəliklərini ödəyə bilməsi üçün vacibdir. Eyni zamanda, risklərin idarə edilməsi, kredit portfelinin diversifikasiyası və aktivlərin keyfiyyətinin qiymətləndirilməsi bankların maliyyə itkilərini minimuma endirir. Dövlət tərəfindən qanunvericilik bazasının möhkəmləndirilməsi və nəzarət mexanizmlərinin tətbiqi, həmçinin bankların fəaliyyətinin şəffaflığını artırır.

Respublikamızda iqtisadi islahatların uğurla keçirilməsi üçün əsas problemlər arasında bank sisteminin sabitliyinin təmin edilməsi, eləcə də milli valyutanın möhkəmləndirilməsi, daxili ehtiyatlardan maksimum istifadə edilməsi şərti ilə bank sektorunun real iqtisadiyyatın kreditləşməsinə istiqamətləndirilməsi ən mühüm yerlərdən birini tutur. Bu zaman vacib olan əsas məsələ bankların möhkəmləndirilməsi vasitəsilə bank sisteminə inamın artırılması və bank sistemini tənzimləmək yolu ilə onların fəaliyyət səmərəliliyinin yüksəldilməsidir.

Dövlət orqanlarının üzərinə maliyyə hüquqlarının və cəmiyyət üzvlərinin maraqlarının qorunması, sui-istifadə və oğurluğun qarşısını alma və xəbərdarlıq üsullarının hazırlanması məsələsi düşür. Bütün inkişaf etmiş ölkələrdə nəzarət orqanları sistemini təkmilləşdirmək, onların funksiyaları, səlahiyyət və nəzarət fəaliyyəti metodları problemlərini həll etmək əsas vəzifə olaraq qalır.

Bütün iqtisadi sistemlərdə dövlət iqtisadiyyata müdaxilə edir və bu müdaxilə inzibati amirlik sisteminə nisbətən daha az olur. Çox zaman iqtisadiyyata dövlətin təsiri azaldılaraq azad sahibkarlığın rolu artırılır. Dövlət maliyyə nəzarəti də dövlətin idarə olunmasının əsas funksiyalarından,

maliyyə-kredit sisteminin normal fəaliyyətinin vacib şərtlərindən biri kimi nəzarətin başlıca istiqamətindən biridir. Onun əsas məqsədi dövlət büdcəsi və qeyri-büdcə fondlarının kəsirsiz yerinə yetirilməsinə, kredit resurslarının istifadəsinə, ölkənin daxili və xarici borclarının vəziyyətinə, dövlət ehtiyatlarına, maliyyə və vergi güzəştlərinin həyata keçirilməsinə nəzarətdir. Nəzarətin bu növünün qarşısına prioritet olaraq bütün növ dövlət gəlirlərinin vaxtında və tam daxil olması, büdcə defisitinin aradan qaldırılması üçün cəlb edilmiş vəsait və kreditin düzgün istifadəsi, sosial sahəyə xərclərin vaxtında maliyyələşdirilməsi məsələləri qoyulmuşdur. Bu gün bankların əsas məqsədi bank aktivlərinin likvidlik səviyyəsinin yüksəldilməsi, aktiv əməliyyatların həcminin artırılması, cəlb edilən vəsaitlərin xüsusilə də depozit mənbələrinin artırılması və sağlamlaşdırılması, bank maliyyə dayanıqlılığının təmin edilməsi olmalıdır. Respublikamızın iqtisadiyyatı neft sənayesi üzərində qurulduğundan dünya birjalarında neftin qiymətindəki hər hansı bir kiçik tərəddüdlər sözsüz ki, milli valyutamızın dəyərinə də ciddi təsir edir.Valytanın dəyərdən düşməsi, cəlb edilmiş depozitlərin eyni zamanda bankdan geri çəkilməsi-bütün bunlar hamısı banklarda ciddi likvidlik probleminə gətirib çıxarır.

Bütün bu kimi problemlərin qarşısını almaq və bank fəaliyyətini təkmilləşdirmək üçün banklarda risklərin idarə edilməsi, bank fəaliyyətinin təkmilləşdirilməsi, proqnozlaşdırma kimi departamentlər fəaliyyət göstərir ki, onların da əsas məqsədi banklarda yarana biləcək likvidlik problemini, riskləri əvvəlcədən müəyyən etmək və bu risklərə qarşı tədbir görüb bank dayanıqlılığını artırmaqdan ibarətdir. Banklarda daim mənfəət və rentabellik göstəriciləri diqqət mərkəzində saxlanılmalı, aylıq, rüblük və illik mənfəət və zərər hesabatlarında bütün göstəricilər öz əksini tapmalıdır.

Dünya təcrübəsi göstərir ki, hər hansı bir sistemin normal fəaliyyət göstərməsi üçün dövlət həlledici rol oynayır. Bu baxımdan dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinin, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbəti və hüdudunun müəyyən edilməsi, gözlənilməsi iqtisadiyyatın başlıca problemidir. Bu gün həyata keçirilən bazar iqtisadiyyatı sistemi ictimai tərəqqi və iqtisadiyyatın səmərəli inkişafına nail olmaqdan ibarətdir. Müasir bazar iqtisadiyyatında maliyyə böhranı dedikdə sadəcə olaraq geniş əhatə dairəsinə malik böhranın bir parçası başa düşülür. Təbii ki, bu böhran iqtisadiyyatın ümumi böhranı zamanı yaranır. Adətən əvvəllər "pul böhranı" terminindən istifadə olunurdu. Lakin son zamanlar "Maliyyə böhranı" termininin istifadəsi genişlənib.

Sözsüz ki, maliyyə böhranlarının da müxtəlif səbəbləri var. İlk növbədə, bunun səbəbləri zəif makroiqtisadi siyasət, dövlət borc münasibətləri sisteminin kökündən pozulması, inflyasiyanın hədsiz güclənməsi, bank sektorundakı çaxnaşmalar və ixtişaşlar, çox zəif milli maliyyə sistemi, əlverişsiz xarici şərtlər, siyasi vəziyyətdəki qeyri-sabitliklərdir.

Maliyyə böhranının tərkib hissələri kimi aşağıdakı elementlər müəyyən edilir:

1. valyuta böhranı – bu milli valyutanın devalvasiyasına gətirib çıxardır.
2. bank böhranı – dövlətdən iri həcmdə maliyyə dəstəyi tələb edən böhrandır.
3. borc böhranı – xarici və daxili iqtisadi borcda problemlərin kəskinləşməsi ilə bağlı yaranan böhranlardır.
4. birja – qiymətli kağızların kursunun kifayət qədər tərəddüdü (enməsi və ya qalxması) prosesi nəticəsində yaranan böhrandır.

Müasir dövrdə texnoloji innovasiyaların tətbiqi də bank sektorunun stabilliyinə təsir edən mühüm amillərdən biridir. Elektron maliyyə nəzarəti sistemləri, real vaxt rejimində monitorinq və məlumat analitikası vasitələri dövlətə və banklara əməliyyatların düzgünlüyünü izləmək və riskləri vaxtında aşkarlamaq imkanı verir. Eyni zamanda, maliyyə savadlılığının artırılması və əhalinin bank xidmətlərinə inamının gücləndirilməsi də sektorun dayanıqlılığına töhfə verir.

Bank sektorunun stabilliyinin artırılması üçün aşağıdakı təkliflər irəli sürülə bilər:

1. Dövlət tənzimləyiciləri bankların minimal kapital və likvidlik tələblərinə riayət etməsini təmin etməlidir.
2. Kredit və bazar riskləri diqqətlə qiymətləndirilməli, stress-testlər mütəmadi aparılmalıdır.
3. Bankların maliyyə hesabatları müstəqil auditdən keçirilməli və ictimaiyyət üçün açıqlanmalıdır.
4. Elektron monitorinq və analitik alətlər vasitəsilə əməliyyatların vaxtında təhlili və risklərin

qarşısının alınması təmin olunmalıdır.

5. Əhalinin bank xidmətlərinə inamını artırmaq üçün təlim və maarifləndirmə proqramları həyata keçirilməlidir.

Nəticə olaraq, dövlət tənzimləməsi bank sektorunun stabilliyinin təmin olunmasında mühüm rol oynayır. Kapital və likvidlik standartlarının, risk idarəetməsi mexanizmlərinin, şəffaflıq və rəqəmsal texnologiyaların tətbiqi bankların dayanıqlılığını artırır, maliyyə itkilərinin qarşısını alır və iqtisadi sabitliyin qorunmasına töhfə verir. Təklif olunan tədbirlərin həyata keçirilməsi nəticəsində bank sektoru həm daxili, həm də beynəlxalq səviyyədə etibarlı və davamlı fəaliyyət göstərə bilər.

ƏDƏBİYYAT

1. "Banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1996.
2. S.M.Məmmədov. "Rəqəmsal maliyyə" Dərs vəsaiti, Bakı-2022.
3. R.A.Bəşirov. "Bank işi fənni üzrə interaktiv" dərs vəsaiti, Bakı -2014.
4. www.cbar.az-Mərkəzi Bank

Лале Мирехед кызы Бабаханова
магистрант,
Мехрибан Карам кызы Тагиева
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Пути повышения стабильности банковского сектора через государственное регулирование

Резюме

Банковский сектор играет важную роль в обеспечении устойчивости экономики каждой страны. Стабильность банков напрямую влияет на надежность финансовых рынков, доверие инвесторов и населения к финансовой системе, а также на устойчивость экономического роста. Поэтому государственное регулирование является важным механизмом для обеспечения эффективной и стабильной работы банковского сектора. Через государственное регулирование управляются структура капитала банков, уровень ликвидности, кредитные риски и безопасность операций в соответствии с определенными стандартами.Существует несколько ключевых направлений для обеспечения стабильности банковского сектора. В первую очередь, правильное определение требований к капиталу повышает устойчивость банков в стрессовых ситуациях. Применение стандартов ликвидности необходимо для того, чтобы банки могли выполнять краткосрочные обязательства. Одновременно управление рисками, диверсификация кредитного портфеля и оценка качества активов минимизируют финансовые потери банков. Укрепление законодательной базы государством и внедрение контрольных механизмов также повышают прозрачность деятельности банков.

Lale Mirəhəd Babakhanova
master,
Mehriban Karam Tagieva
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Ways to enhance the stability of the banking sector through state regulation

Summary

The banking sector plays a crucial role in ensuring the stability of each country's economy. The stability of banks directly affects the reliability of financial markets, the confidence of investors

and the public in the financial system, as well as the sustainability of economic growth. Therefore, state regulation is an important mechanism for ensuring the effective and stable operation of the banking sector. Through state regulation, banks' capital structure, liquidity levels, credit risks, and operational security are managed in accordance with established standards.There are several key directions for ensuring the stability of the banking sector. First of all, the proper determination of capital requirements increases the resilience of banks in stress situations. The implementation of liquidity standards is necessary to ensure that banks can meet their short-term obligations. At the same time, risk management, diversification of the loan portfolio, and assessment of asset quality minimize financial losses for banks. Strengthening the legislative framework by the state and implementing control mechanisms also enhance the transparency of banks' operations.

Çinarə Elxan qızı QULİYEVA
magistrant,
Mehriban Kərəm qızı TAĞIYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AUDİTİN MÜƏSSİSƏ MALİYYƏ NƏZARƏTİNDƏ TƏTBİQİ VƏ SƏMƏRƏLİLİYİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

Müəssisələrdə maliyyə nəzarəti onların fəaliyyətinin şəffaf və səmərəli olmasını təmin edən əsas mexanizmdir. Maliyyə nəzarətinin effektivliyi birbaşa müəssisənin resurslardan düzgün istifadə etməsi, maliyyə intizamı və strateji idarəetmə imkanlarının artırılması ilə bağlıdır. Bu prosesdə audit institutu mühüm rol oynayır, çünki o, maliyyə hesabatlarının düzgünlüyünü, xərclərin qanunvericiliyə uyğunluğunu və risklərin vaxtında aşkarlanmasını təmin edir. Müasir müəssisələrdə audit yalnız formal yoxlama funksiyası deyil, həm də maliyyə idarəetməsinin optimallaşdırılması və qərar qəbuletmə proseslərinin dəstəklənməsi aləti kimi qiymətləndirilir [2].

Müəssisənin maliyyə nəzarətində auditin tətbiqi bir neçə istiqamətdə həyata keçirilir. İlk növbədə, daxili audit sistemi maliyyə əməliyyatlarını, xərclərin və gəlirlərin idarə edilməsini, daxili nəzarət mexanizmlərinin işləkliyini yoxlayır. Daxili audit müstəqil və peşəkar heyət tərəfindən aparıldıqda müəssisənin səmərəliliyini artırır və potensial maliyyə pozuntularını vaxtında aşkarlayır. Xarici audit isə maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunluğunu təmin etməklə, müəssisəyə investorların və digər maraqlı tərəflərin etimadını artırır.

Auditin səmərəliliyinin yüksəldilməsi üçün müəssisələrdə bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir. İlk növbədə, audit proseslərinin strukturlaşdırılması və standartlaşdırılması vacibdir. Bu, həm daxili, həm də xarici auditin fəaliyyətinin şəffaflığını təmin edir. Eyni zamanda, risk əsaslı audit yanaşmasının tətbiqi vacibdir; yəni auditorlar resursları daha yüksək riskli sahələrə yönəldərək potensial pozuntuları erkən mərhələdə aşkar edə bilərlər. Rəqəmsal texnologiyaların tətbiqi də auditin effektivliyini artıran mühüm amillərdəndir. Maliyyə əməliyyatlarının elektron sistemlər vasitəsilə izlənməsi, məlumat analitikası alətlərinin istifadəsi və real vaxt rejimində yoxlamaların aparılması auditorların işini sürətləndirir və səhv riskini azaldır [3].

Müəssisələr üçün auditin səmərəliliyini artırmaqla bağlı bir neçə konkret təklif irəli sürmək olar. İlk növbədə, daxili audit sistemlərinin müstəqilliyi və peşəkarlıq səviyyəsi yüksəldilməlidir. Audit heyəti müntəzəm olaraq beynəlxalq standartlara əsaslanan təlimlər keçməli və müasir audit texnologiyalarını mənimsəməlidir. İkinci olaraq, müəssisələrdə risk əsaslı yanaşmanın tətbiqi və yüksək riskli sahələr üzrə daha sıx yoxlamaların aparılması tövsiyə olunur. Üçüncü, rəqəmsal maliyyə nəzarəti sistemlərinin tətbiqi vacibdir; e-audit, elektron maliyyə hesabatlarının təhlili və inteqrasiya olunmuş məlumat bazaları audit prosesini sürətləndirəcək və səhvlərin qarşısını alacaq. Dördüncü, audit nəticələrinin rəhbərlik tərəfindən vaxtında və səmərəli şəkildə icrası təmin edilməlidir; bu, maliyyə intizamını gücləndirir və müəssisənin strateji məqsədlərinə çatmasına yardım edir. Nəhayət, auditorlar və maliyyə menecerləri arasında əməkdaşlığın və məlumat mübadiləsinin

gücləndirilməsi müəssisədə maliyyə nəzarətinin ümumi səmərəliliyini artırır.

İqtisadi proseslər, iqtisadi sferada cərəyan edən hadisələr və bütünlükdə iqtisadiyyat lazımi səviyyədə özü-özünü tənzimləyə bilmədiyi üçün həmin prosesə bu və ya digər dərəcədə müdaxilə edilməsi tələb olunur. Çünki daima iqtisadi proseslərə, hadisələrə kənar müdaxilələr, ciddi təsirlər olur. Bununla əlaqədar olaraq ölkə iqtisadiyyatının müəyyən olunmuş istiqamət üzrə inkişafını təmin etmək, iqtisadiyyatda inkişaf tendensiyasını qorumaq, baş verə biləcək neqativ halların qarşısını almaq, problemləri önləmək, aradan qaldırmaq üçün ölkənin mükəmməl nəzarət sisteminin olması tələb olunur. Məhz buna görə də maliyyə nəzarəti iqtisadi nəzarət sisteminin tərkib hissəsi olmaqla bazar iqtisadiyyatı şəraitində aktual və vacib nəzarət növü kimi ön plana çıxır. Maliyyə nəzarəti - təsərrüfat əməliyyatlarının və proseslərinin qanunauyğunluğunu, məqsədəuyğunluğunu, etibarlılığını və mahiyyətini uçot, hesabat, normativ və digər məlumatlar əsasında kompleks, üzvi surətdə öyrənilməsidir. Maliyyə nəzarəti ölkənin sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə dövlətin və bələdiyyələrin pul fondlarının təşkili, bölüşdürülməsi və istifadə edilməsi sahəsində hərəkətlərin qanunauyğun və məqsədyönlü olması üçün nəzarətdir. Hər bir müəssisənin maliyyə fəaliyyətinin nizamlı olması, müəyyən olunmuş maliyyə intizamına riayət edilməsinin yoxlanılması maliyyə nəzarətinin başlıca funksiyalarından biridir. Məlum olduğu kimi planlı iqtisadiyyatla şərtlənən inzibati-amirlik sistemində maliyyə nəzarəti dövlət tərəfindən aparılırdı. Bu gün isə bazar iqtisadiyyatı şəraitində özəl sahibkarlıq fəaliyyətinin inkişaf etməsi, müstəqil müəssisələrin, kommersiya təşkilatlarının, təsərrüfat fəaliyyətlərinin genişlənməsi dövlət maliyyə nəzarəti ilə yanaşı müstəqil nəzarət forması kimi audit nəzarətini də ön plana çıxarır. Qanunverici və icra orqanları, maliyyə və vergi orqanları, xəzinə sistemi və digər dövlət nəzarət orqanları tərəfindən həyata keçirilən dövlət maliyyə nəzarəti sisteminin olması audit nəzarətinin inkişafını istisna etmir. Çünki, bazar münasibətlərinin təməlini azad sahibkarlıq təşkil etdiyi üçün ona uyğun olaraq maliyyə sferasında da müstəqil nəzarət anlayışı daima öz aktuallığını saxlayır [1].

Bunun da nəticəsi olaraq müəssisənin maliyyə dayanıqlılığının artırılmasına xidmət edir. Maliyyə nəzarətinin təkmilləşdirilməsi inkişaf etməkdə olan ölkələr üçün daha aktualdır. Bu da aşağıdakı amillər ilə bağlıdır:

- Dövlət maliyyə nəzarəti sistemi bazar münasibətlərinin formalaşması prosesi ilə paralel şəkildə inkişaf etməlidir;
- Yeni iqtisadi münasibətlərin formalaşdırılması şəraitində maliyyə qanunvericiliyi də tədricən formalaşır. Ona görə də bu zaman xarici ölkələrin təcrübələrinin öyrənilərək yerli şəraitə uyğunlaşdırılması lazım gəlir; Respublikamızda dövlət maliyyə nəzarətini Hesablama Palatası, Maliyyə Nazirliyinin Maliyyə Nəzarəti Xidməti və öz səlahiyyətləri hüdudlarında digər orqanlar həyata keçirirlər. Dövlət maliyyə nəzarəti vasitəsilə planlaşdırılmış bütün vəsaitlərin vaxtında dövlət fondlarına daxil olunmasına və bu vəsaitlərdən məqsədyönlü istifadəyə nəzarət həyata keçirilir. Hər bir nəzarət orqanı öz fəaliyyətində sərbəst olsa da, son məqsədi eynidir. Belə ki, dövlət maliyyə nəzarətini həyata keçirən orqanlar ölkədə maliyyə dayanıqlığının təmin edilməsinə, maliyyə resurslarından təyinatı üzrə istifadə edilməsinə nəzarəti həyata keçirirlər. Bu gün respublikamızda sosial-iqtisadi dəyişikliklərin getdiyi, yeni inkişaf yoluna başlanıldığı, struktur dəyişikliklərinin aparıldığı bir şəraitdə maliyyə nəzarəti sisteminin də müasir vəziyyətə uyğunluğunun təmin edilməsi zərurəti yaranır.

Müasir şəraitdə audit yalnız yoxlama funksiyasını yerinə yetirmir, eyni zamanda maliyyə idarəetməsinin təkmilləşdirilməsi və strateji qərar qəbuletmənin dəstəklənməsi üçün vasitədir. Müəssisədə auditin səmərəliliyini artırmaq üçün aşağıdakı təkliflər irəli sürülə bilər:

1. Audit heyətinin müstəqilliyi təmin edilməli və peşəkarlıq səviyyəsi beynəlxalq standartlara uyğun yüksəldilməlidir.
2. Resurslar daha yüksək riskli sahələrə yönləndirilməli, potensial maliyyə pozuntuları erkən mərhələdə aşkar edilməlidir.
Considering the importance of the securities market for the economy, large-scale measures are being implemented to ensure its functioning and improvement. In the Republic, the task of identifying the directions for the development of securities markets and establishing a fully functional securities market has also been set as a priority goal. The main purpose of the article is to analyze and evaluate the analysis and forecasting of the activity of the securities market in modern conditions and to increase the role of the financial market in the economic development.

Ramal Yalçın ZEYNALOV
magistrant,
Ləman Aydın qızı MƏMMƏDOVA
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

BANK SEKTORUNDA RİSKLƏRİN İDARƏ OLUNMASI VƏ SIĞORTA MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Müasir iqtisadi sistemdə bank sektoru maliyyə sabitliyinin qorunması, iqtisadi inkişafın stimullaşdırılması və kapitalın səmərəli bölgüsü baxımından mühüm rol oynayır. Lakin bank fəaliyyətinin təbiətindən irəli gələrək bu sektor daim müxtəlif risklərlə üzləşir. Kredit, likvidlik, faiz, valyuta, əməliyyat, reputasiya və bazar riskləri bankların maliyyə sabitliyinə birbaşa təsir göstərən əsas amillərdir. Risklərin effektiv idarə olunması bankların davamlı fəaliyyətinin, müştəri etimadının və maliyyə sisteminin bütövlükdə dayanıqlığının əsas şərtidir [1].

Bank risklərinin idarə olunması prosesinin əsas məqsədi mümkün itkilərin minimuma endirilməsi və mənfəətlilik səviyyəsinin qorunmasıdır. Bu məqsədə nail olmaq üçün banklar risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, monitorinqi və nəzarəti mərhələlərini əhatə edən kompleks risk idarəetmə strategiyalarını tətbiq etməlidirlər. Beynəlxalq təcrübədə Basel Komitəsinin müəyyən etdiyi prinsiplər bu sahədə əsas metodoloji baza hesab olunur. Xüsusilə Basel II və Basel III standartları bank kapitalının adekvatlığı, likvidlik ehtiyatlarının səviyyəsi və stress-testlərin aparılması mexanizmlərini müəyyən etməklə risklərin daha şəffaf və effektiv idarə edilməsinə şərait yaradır [5].

Azərbaycan bank sektorunda da son illərdə risklərin idarə olunması sahəsində mühüm irəliləyişlər müşahidə olunur. Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən qəbul edilən normativ aktlar banklardan risk idarəetmə sistemlərini təkmilləşdirməyi, daxili nəzarət mexanizmlərini gücləndirməyi və korporativ idarəetmə standartlarını tətbiq etməyi tələb edir. Lakin praktiki müstəvidə bəzi problemlər qalmaqdadır. Risklərin qiymətləndirilməsində bəzən keyfiy-

yətli analitik alətlərin çatışmazlığı, makroiqtisadi dəyişikliklərə qarşı ssenari modellərinin zəifliyi və insan resurslarının peşəkarlıq səviyyəsinin qeyri-bərabərliyi müəyyən çətinliklər yaradır.

Bank sektorunda risklərin azaldılması istiqamətində sığorta mexanizmlərinin rolu xüsusi əhəmiyyət daşıyır. Sığorta, həm fərdi bankların, həm də ümumilikdə maliyyə sisteminin sabitliyinin qorunmasına xidmət edən mühüm müdafiə vasitəsidir. Ən çox istifadə olunan mexanizmlərdən biri depozitlərin sığortalanması sistemidir. Bu sistem bank müştərilərinin əmanətlərini qorumaqla, həm də banklara olan inamı artırır. Azərbaycanda fəaliyyət göstərən Əmanətlərin Sığortalanması Fondu bu istiqamətdə mühüm rol oynayır. Lakin mövcud sistemin daha da təkmilləşdirilməsi üçün beynəlxalq təcrübədən faydalanmaq, sığorta limitlərini iqtisadi şəraitə uyğun şəkildə yeniləmək və fondun maliyyə dayanıqlığını gücləndirmək zəruridir [4].

Digər tərəfdən, bankların daxili fəaliyyət risklərini sığorta etmək üçün korporativ sığorta mexanizmlərinin tətbiqi genişləndirilməlidir. Məsələn, əməliyyat xətaları, kibertəhlükələr, kadr səhvləri və ya texnoloji nasazlıqlardan yaranan itkilər xüsusi sığorta məhsulları vasitəsilə kompensasiya oluna bilər. Bu, həm risklərin bank balansına təsirini azaldar, həm də idarəetmənin məsuliyyətlilik səviyyəsini artırar. Eyni zamanda, banklar öz fəaliyyətlərində risklərin qarşısını almaq məqsədilə daxili audit və nəzarət sistemlərini gücləndirməli, risk mədəniyyətini formalaşdırmalı və məlumatların analitik emalına əsaslanan qərarvermə mexanizmləri qurmalıdırlar.

Risklərin idarə edilməsində müasir texnologiyaların tətbiqi də böyük əhəmiyyət daşıyır. Süni intellekt, "big data" analitikası və maşın öyrənməsi kimi innovativ alətlər risklərin proqnozlaşdırılması və potensial təhdidlərin erkən müəyyən edilməsi baxımından yeni imkanlar yaradır. Banklar bu texnologiyaları tətbiq etməklə risk modellərini avtomatlaşdırır, kredit portfellərini daha dəqiq qiymətləndirir və bazar dəyişikliklərinə operativ reaksiya verirlər. Bununla yanaşı, informasiya təhlükəsizliyinin təmin olunması, məlumat sızmalarının qarşısının alınması və kiber risklərin idarə olunması da risk strategiyasının ayrılmaz hissəsidir.

Müasir dövrdə risklərin idarə olunması yalnız bank daxilindəki prosedurlar çərçivəsində deyil, həm də sistem səviyyəsində – yəni dövlətin maliyyə siyasəti və tənzimləmə mühiti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməlidir. Tənzimləyici orqanlar bankların risk dərəcələrini izləməli, stress-testlər aparmalı, böhran ssenarilərinə qarşı ehtiyat planları hazırlamalı və banklararası informasiya mübadiləsini təkmilləşdirməlidirlər. Maliyyə sabitliyinin qorunması üçün dövlət, bank və sığorta institutları arasında koordinasiyalı fəaliyyət vacibdir [3].

Nəticə olaraq**,** bank sektorunda risklərin effektiv idarə olunması maliyyə sabitliyinin və iqtisadi artımın əsas təminatçılarından biridir. Risklərin düzgün qiymətləndirilməsi, vaxtında monitorinqi və adekvat sığorta mexanizmlərinin tətbiqi bankların dayanıqlılığını artırır, böhranlara qarşı müqavimət gücünü yüksəldir.

Bank sektorunda risklərin idarə olunması və sığorta mexanizmlərinin təkmilləşdirilməsi üzrə aparılmış təhlil göstərir ki, mövcud sistem müəyyən inkişaf mərhələsindən keçsə də, bir sıra istiqamətlərdə əlavə tədbirlərə ehtiyac qalmaqdadır. Qlobal iqtisadi proseslər, maliyyə bazarlarında baş verən dalğalanmalar, texnoloji yeniliklər və kiber təhlükələr bankların qarşısında yeni tipli risklər formalaşdırır. Bu səbəbdən, risklərin idarə edilməsində daha çevik, proqnozlaşdırıla bilən və innovativ yanaşmaların tətbiqi vacibdir.

Digər tərəfdən, sığorta mexanizmlərinin təkmilləşdirilməsi həm bankların, həm də müştərilərin maraqlarını qorumağa yönəlmiş mühüm müdafiə vasitəsidir. Əmanətlərin və əməliyyat risklərinin sığortalanması üzrə mexanizmlərin genişləndirilməsi, risklərin diversifikasiyası və bazar iştirakçıları arasında məlumat mübadiləsinin gücləndirilməsi bu istiqamətdə prioritet hesab olunur.

Belə bir şəraitdə risklərin idarə edilməsinin institusional əsaslarının möhkəmləndirilməsi, normativ bazanın beynəlxalq standartlara uyğunlaşdırılması və bankların daxili idarəetmə strukturunda risk mədəniyyətinin formalaşdırılması əsas məqsəd kimi qarşıya qoyulmalıdır. Aşağıda təqdim olunan təkliflər bank sektorunda risklərin və sığorta mexanizmlərinin daha effektiv idarə olunmasına, maliyyə sabitliyinin möhkəmlənməsinə və sistem dayanıqlılığının artırılmasına xidmət edir.

1. Banklarda risk idarəetmə komitələrinin institusional gücü artırılmalı və qərarvermə proseslərində onların rolu genişləndirilməlidir.

2. Basel III prinsiplərinə uyğun kapital adekvatlığı standartları tam tətbiq olunmalı, stress-

testlər real iqtisadi göstəricilərlə uzlaşdırılmalıdır.

3. Əmanətlərin sığortalanması sistemində sığorta limitləri və əhatə dairəsi iqtisadi risklərə uyğun yenilənməlidir.

4. Banklarda əməliyyat və kiber risklərin sığortalanması mexanizmləri genişləndirilməli, yeni sığorta məhsulları hazırlanmalıdır.

5. Rəqəmsal texnologiyalar və süni intellekt əsaslı risk analizi alətləri bank sisteminə inteqrasiya edilməlidir.

6. Bank işçilərinin risk idarəetməsi üzrə peşəkar hazırlığı artırılmalı, davamlı təlim proqramları təşkil edilməlidir.

7. Maliyyə nəzarəti və bankların daxili risk idarəetmə sistemləri arasında məlumat mübadiləsi və koordinasiya mexanizmləri təkmilləşdirilməlidir.

Beləliklə, risklərin idarə olunması və sığorta mexanizmlərinin təkmilləşdirilməsi bank sektorunun dayanıqlılığını artırmaqla yanaşı, ölkə iqtisadiyyatının ümumi sabitliyinin möhkəmlənməsinə də xidmət edir.

ƏDƏBİYYAT

1. B.A.Xankişiyev, "Sığorta fəaliyyətinin əsasları"(dərs vəsaiti),Bakı-2006.
2. B.A.Xankişiyev, P.N.Abdullayev. "Sığorta işi" (dərs vəsaiti), Bakı – 2004.
3. N.N.Xudiyev, "Sığorta işi", Bakı, Azərnəşr, 2003.
4. B.Xankişiyev, "Sığorta hamı üçün", Bakı, 2005.
5. B. Ataşov, N.Novruzov, E.İbrahimov "Müəssisələrin maliyyəsi" Bakı-2009.
6. С.В.Большаков "Финансы организаций", Москва, 2015.
7. Шуляк П.Н. Финансы предприятия. Учебник. Москва, 2016.
8. www.maliyye.gov.az
9. www.azstat.gov.az
10. www.taxes.gov.az
11. www.sspf.gov.az

Рамал Ялчын оглы Зейналов
магистрант,
Ламан Айдын кызы Мамедова
доктор философии по экономике,
Азербайджанский Университет Кооперации

Пути совершенствования управления рисками и страховых механизмов в банковском секторе

Резюме

В современной экономической системе банковский сектор играет важную роль в обеспечении финансовой стабильности, стимулировании экономического роста и эффективном распределении капитала. Однако, исходя из природы банковской деятельности, данный сектор постоянно сталкивается с различными видами рисков. Кредитные, ликвидные, процентные, валютные, операционные, репутационные и рыночные риски являются основными факторами, непосредственно влияющими на финансовую устойчивость банков. Эффективное управление рисками является ключевым условием стабильной деятельности банков, укрепления доверия клиентов и обеспечения устойчивости всей финансовой системы.

Основная цель процесса управления банковскими рисками заключается в минимизации возможных потерь и сохранении уровня прибыльности. Для достижения этой цели банки должны применять комплексные стратегии управления рисками, включающие этапы выявления, оценки, мониторинга и контроля рисков.

Ramal Yalchin Zeynalov
master,
Laman Aydin Mamedova
doctor of philosophy in economics,
Azerbaijan University Cooperation

Ways to improve risk management and insurance mechanisms in the banking sector

Summary

In the modern economic system, the banking sector plays an important role in ensuring financial stability, stimulating economic growth, and efficiently allocating capital. However, due to the nature of banking activities, this sector constantly faces various types of risks. Credit, liquidity, interest rate, currency, operational, reputational, and market risks are the main factors that directly affect the financial stability of banks. Effective risk management is a key condition for the stable operation of banks, for strengthening customer trust, and for maintaining the overall stability of the financial system.

The main goal of the banking risk management process is to minimize potential losses and maintain profitability levels. To achieve this goal, banks must implement comprehensive risk management strategies that include the stages of identification, assessment, monitoring, and control of risks.

Rəvan İlqar oğlu HÜSEYNZADƏ
magistrant,
Ləman Aydın qızı MƏMMƏDOVA
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

DÖVLƏT MALİYYƏ NƏZARƏTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

Dövlət maliyyə nəzarəti hər bir ölkənin maliyyə sistemində şəffaflığın, səmərəliliyin və hesabatlılığın təmin olunmasında əsas vasitələrdən biri hesab olunur. Bu nəzarət mexanizmi dövlət büdcəsinin gəlir və xərclərinin formalaşması, büdcə vəsaitlərinin düzgün və məqsədyönlü istifadəsi, həmçinin maliyyə intizamının qorunması üçün mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə iqtisadi idarəetmənin təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə və dövlət xərclərinin optimallaşdırılması kimi məsələlər dövlət maliyyə nəzarətinin səmərəliliyinin artırılmasını zəruri edir. Azərbaycanın son illərdə keçdiyi iqtisadi inkişaf yolu, dövlət idarəçiliyində aparılan islahatlar və rəqəmsal texnologiyaların tətbiqi bu sahədə yeni yanaşmaların formalaşdırılmasını tələb edir [1].

Dövlət maliyyə nəzarətinin səmərəliliyinin artırılması üçün bir sıra istiqamətlər prioritet hesab oluna bilər. İlk növbədə, normativ-hüquqi bazanın təkmilləşdirilməsi vacibdir. Mövcud qanunvericiliyin beynəlxalq audit standartlarına uyğunlaşdırılması, Hesablama Palatasının səlahiyyətlərinin genişləndirilməsi və audit nəticələrinin icra mexanizmlərinin gücləndirilməsi nəzarətin effektivliyini yüksəldəcəkdir. Bununla yanaşı, rəqəmsal texnologiyaların tətbiqi mühüm rol oynayır. Maliyyə əməliyyatlarının real vaxt rejimində izlənməsi üçün inteqrasiya olunmuş "e-nəzarət platforması"nın yaradılması, süni intellekt və məlumat analitikası alətlərindən istifadə etməklə risk əsaslı nəzarət mexanizmlərinin tətbiqi pozuntuların daha erkən mərhələdə aşkarlanmasına imkan verə bilər.

Kadr potensialının gücləndirilməsi də səmərəliliyin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Maliyyə nəzarəti orqanlarında çalışan mütəxəssislərin beynəlxalq təcrübəyə əsaslanan təlim proqramlarında iştirak etməsi, müasir audit və analitik bacarıqlara yiyələnməsi dövlət nəzarətinin keyfiyyətini artıracaqdır. Audit hesabatlarının ictimaiyyətə açıq təqdim olunması,

vətəndaş cəmiyyəti institutlarının bu prosesdə iştirakı maliyyə intizamını gücləndirə bilər.

Səmərəli nəzarət sisteminin yaradılması hər bir ölkədə sosial-iqtisadi inkişafın təminatının vacib ünsürlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Bu mənada, çox səciyyəvidir ki, Azərbaycanda mükəmməl nəzarət sisteminin yaradılması və mövcud nəzarət mexanizmlərinin bazar iqtisadiyyatının xüsusiyyətlərinə uyğunlaşdırılması dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olmuşdur. Azərbaycan Respublikasının müstəqil, demokratik inkişaf yoluna qədəm qoymasından sonra ölkədə həyata keçirilən radikal iqtisadi islahatlar və idarəetmə sisteminin təkmilləşdirilməsi, o cümlədən nazirlik, komitə və başqa mərkəzi icra hakimiyyəti orqanlarında mövcud olan nəzarət-təftiş qurumlarının ləğv olunması, dövlət orqanlarına onların öz səlahiyyətlərinə aid olmayan yoxlamalar aparılmasının qadağan edilməsi və bu istiqamətdə ardıcıl şəkildə həyata keçirilən digər məqsədyönlü tədbirlər ölkədə beynəlxalq standartlara cavab verən nəzarət sisteminin qurulmasına xidmət etmişdir.[2]

Maliyyə nəzarəti orqanları arasında koordinasiyanın artırılması da mühüm məsələdir. Nəzarət fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün müxtəlif dövlət qurumları arasında vahid məlumat bazasının yaradılması, məlumat mübadiləsinin avtomatlaşdırılması və təkrarlanan yoxlamaların qarşısının alınması vacibdir. Bu, həm dövlət resurslarının səmərəli istifadəsini təmin edəcək, həm də nəzarət prosesinin şəffaflığını artıracaqdır.

Müasir şəraitdə nəzarət-maliyyə mexanizminin təşkilinin ən vacib problemlərindən digəri isə müstəqil audit institutu ilə dövlət maliyyə nəzarəti arasında qarşılıqlı əlaqənin qurulması və onun beynəlxalq təcrübəyə əsasən təşkilinin təmin edilməsidir. Maliyyə nəzarəti sahəsində mövcud olan problem və çatışmamazlıqların sırasına həmçinin maliyyə nəzarəti orqanları üçün qanunvericiliklə təsdiqlənmiş nəzarətin aparılmasının vahid norma, standart və qaydalarının hazırlanmamasını, nəzarət orqanları üçün kadr hazırlığının qənaətbəxş olmamasını və sairəni aid etmək olar. Qeyd etdiyimiz təşkilati-struktur məsələlərin vaxtında həllindən, nəzarətin hüquqi və təşkilati strukturunun təkmilləşdirilməsindən, elmi tədqiqatların nəticələrinin uğurlu tətbiqindən dövlət maliyyə nəzarətinin vahid və effektiv sisteminin qurulması və fəaliyyəti, eləcə də bütövlükdə dövlətin uğurlu iqtisadi siyasəti bilavasitə asılıdır[3].

Maliyyə nəzarətinin gələcək inkişafı, onun səmərəliliyi xeyli dərəcədə dövlətin qanunvericilik bazasının zamanın tələbinə uyğun təkmilləşdirilməsindən də bilavasitə asılıdır. Maliyyə nəzarətini tənzimləyən normativ-hüquqi baza bu nəzarəti demokratik dövlətə xas olan keyfiyyətcə yeni səviyyəyə keçirməyi təmin etməlidir.

Fikrimizcə, çoxsahəli bir sistemi özündə ehtiva edən maliyyə nəzarətinin ayrı-ayrı istiqamətlərini təkmilləşdirməkdən öncə ölkəmizdə maliyyə nəzarəti üzrə vahid konsepsiya işlənib hazırlanmalı və bu konsepsiyada maliyyə nəzarətinin nəticəliliyinin, şəffaflığının və aşkarlığının, obyektivliyinin və səriştəliliyinin, müstəqilliyinin və təsirliliyinin, iqtisadi inkişafa və təhlükəsizliyə təminatının əsas istiqamətləri, maliyyə nəzarətinin hüdudları, forma və metodları, nəzarət qurumlarının hüquqi statusu, maliyyə nəzarəti orqanları ilə digər dövlət idarəetmə orqanlarının əlaqələrinin təkmilləşdirilməsi, maliyyə nəzarəti sahəsində maraqların toqquşmasının qarşısının alınması, habelə nəzarət qurumlarının fəaliyyətinin iqtisadi mexanizmləri müəyyən edilməlidir. Fikrimizcə, maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi istiqamətində müəyyən digər tədbirlərin görülməsi də məqsədəuyğun olardı:

1) Bütün dövlət orqanlarında maliyyə əməliyyatlarının izlənməsi üçün vahid "Elektron maliyyə nəzarət platforması" yaradılmalıdır.

2) Audit resurslarının səmərəli bölüşdürülməsi üçün müəssisələrin maliyyə risklərinin analizi aparılmalı və nəzarət tədbirləri risk dərəcəsinə uyğun planlaşdırılmalıdır;

3) Maliyyə nəzarəti orqanlarının əməkdaşları üçün beynəlxalq təcrübəyə əsaslanan təlim proqramları, sertifikatlaşdırma və mütəmadi ixtisasartırma kursları təşkil olunmalıdır

4) Azərbaycan dövlət audit orqanlarının beynəlxalq təşkilatlarla (INTOSAI, EUROSAI və s.) əməkdaşlığı gücləndirilməli, qabaqcıl təcrübə milli sistemə inteqrasiya edilməlidir.

Nəticə etibarilə, Azərbaycan Respublikasında dövlət maliyyə nəzarəti sistemi son illərdə mühüm inkişaf mərhələsi keçsə də, onun səmərəliliyinin daha da artırılması üçün ardıcıl və məqsədyönlü tədbirlərin davam etdirilməsi zəruridir. Normativ-hüquqi bazanın beynəlxalq tələblərə

uyğunlaşdırılması, rəqəmsal idarəetmə texnologiyalarının tətbiqi, kadr potensialının artırılması, ictimai nəzarətin gücləndirilməsi və orqanlararası koordinasiyanın təkmilləşdirilməsi bu sahədə əsas prioritetlər olmalıdır. Bu istiqamətlərin həyata keçirilməsi dövlət maliyyə nəzarətində şəffaflığı, hesabatlılığı və məsuliyyətliliyi daha da gücləndirəcək, nəticədə Azərbaycanın dayanıqlı iqtisadi inkişafına və maliyyə sabitliyinə əhəmiyyətli töhfə verəcəkdir.

ƏDƏBİYYAT

1. E.B.Məmmədova. "Maliyyə", "Kooperasiya" nəşriyyatı, Dərslik. Bakı-2018.
2. S.M.Məmmədov. "Rəqəmsal maliyyə", Dərs vəsaiti, Bakı-2022.
3. X.Ə.Hüseynov. "Maliyyə menecmenti", Dərs vəsasiti, Bakı -2025.
4. D.Bağırov, M.Həsənli. "Maliyyə", Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı-2011.
5. "Maliyyə", Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı-2001.
6. B.Xankişiyev. "Maliyyə nəzarəti", Bakı-2002.

Реван Ильгар оглы Гусейнзаде
магистрант,
Ламан Айдын кызы Мамедова
доктор философии по экономике,
Азербайджанский Университет Кооперации

Повышение эффективности государственного финансового контроля

Резюме

Еще одной из важнейших проблем организации контрольно-финансового механизма в современных условиях является налаживание взаимодействия независимого института аудита и государственного финансового контроля и обеспечение его организации на основе международного опыта. К числу существующих проблем и недостатков в сфере финансового контроля можно также отнести отсутствие подготовки единых норм, стандартов и правил проведения контроля, утверждаемых законодательством для органов финансового контроля, недостаточную подготовку кадров для органов контроля и т.д. . Создание и функционирование единой и эффективной системы государственного финансового контроля, а также успешная экономическая политика государства в целом напрямую зависят от своевременного решения упомянутых нами организационных и структурных вопросов, совершенствования правовой базы. и организационная структура контроля, успешное применение результатов научных исследований.

Revan Ilgar Huseynzade
master,
Laman Aydin Mamedova
doctor of philosophy in economics,
Azerbaijan Cooperation University

Improving the efficiency of state financial control

Summary

Another of the most important problems of the organization of the control-financial mechanism in modern conditions is the establishment of mutual relations between the independent audit institute and the state financial control and ensuring its organization based on international experience. Among the problems and shortcomings in the field of financial control, one can also include the lack of preparation of uniform norms, standards and rules for conducting control approved by legislation for financial control bodies, insufficient training of personnel for control bodies, and so on. The establishment and operation of a unified and effective system of state financial control,

as well as the successful economic policy of the state as a whole, directly depend on the timely resolution of the organizational and structural issues we have mentioned, the improvement of the legal and organizational structure of control, the successful application of the results of scientific research.

Nigar Elman qızı HACIVERDİYEVA
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Bayraməli Şükür oğlu QURBANOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət İqtisad Universiteti

AZƏRBAYCANDA FOND BİRJALARININ FƏALİYYƏTİNİN TƏŞKİLİNDƏ MÖVCUD VƏZİYYƏT VƏ PROBLEMLƏR

Giriş

Azərbaycanda maliyyə bazarının institutu kimi müxtəlif birjalar mövcuddur, o cümlədən fond birjası, əmtəə birjası, valyuta birjası və banklararası kredit birjası. Bu birjalar içərisində Bakı Fond Birjası (BFB) fond sahəsində fəaliyyət göstərən yeganə birjadır. Fond birjaları maliyyə bazarlarının mühüm komponentlərindən biridir. Onlar kapitalın cəlb olunması, investisiya imkanlarının genişləndirilməsi və iqtisadi inkişafın stimullaşdırılması baxımından əhəmiyyətli rol oynayır. Azərbaycanda fond birjası fəaliyyəti 2000-ci illərdən etibarən formalaşmağa başlamış və bu sahədə müəyyən institusional və normativ irəliləyişlər əldə olunmuşdur. Lakin hələ də bir sıra struktur və funksional problemlər qalmaqdadır.

Fond birjasının hüquqi və institusional bazası

Bakı Fond Birjası (BFB) Qapalı səhmdar cəmiyyəti formasında fəaliyyət göstərir və müvafiq lisenziyaya malikdir. O, 1997-ci ildə təsis edilmiş və yaradılmasının əsas məqsədi ölkəmizdə təşkil olunmuş fond bazarının formalaşdırılması olmuşdur. Birjanın banklar, brokerlər, həmçinin İstanbul Fond Birjası daxil olmaqla 20 səhmdarı vardır.

Bakı Fond Birjasının fəaliyyəti korporativ qiymətli kağızlar olan səhm və istiqrazların, həmçinin Maliyyə Nazirliyinin istiqrazlarının, Mərkəzi Bankın notları kimi dövlət qiymətli kağızlarının ticarətini, habelə REPO əməliyyatlarını həyata keçirməklə bağlıdır.

Azərbaycanda qiymətli kağızlar bazarının tənzimlənməsi Azərbaycan Respublikasının Mərkəzi Bankı və Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən həyata keçirilir. Maliyyə bazarlarında müxtəlif valyutalarla, maliyyə alətləri ilə mürəkkəb əməliyyatlar aparılır. Bu əməliyyatların aparıldığı əsas qurumlardan biri mütəşəkkil təşkil olunmuş birjalardır.

2016-cı ildən etibarən yeni "Qiymətli Kağızlar Bazarı haqqında" Qanun qüvvəyə minib və bu sahədə hüquqi çərçivəni müəyyənləşdirib. Qanunun 5-ci fəsli "Fond birjası"na aid edilib. Bu fəsildə fond birjasında kütləvi ticarətin təşkili əsasları, fond birjasının vəzifələri, daxili qaydaları, üzvləri, məlumatları açıqlaması, qiymətli kağızların və törəmə maliyyə alətlərinin fond birjasında ticarətə buraxılması və ticarətdən çıxarılması qaydaları müəyyən olunmuşdur.

Ticarət mexanizmləri və iştirakçılar

BFB-də dövlət və korporativ istiqrazlar, səhmlər və törəmə maliyyə alətləri ilə ticarət aparılır. Ticarətə buraxılan qiymətli kağızların və törəmə maliyyə alətlərinin ədalətli, şəffaf və davamlı ticarəti təmin olunmalıdır. Fond birjası aşağıdakı hallarda ticarətə buraxılmış qiymətli kağızları və törəmə maliyyə alətlərini ticarətdən çıxarır: qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ödənildikdə və ya dövriyyədən çıxarıldıqda, fond birjası ləğv olunduqda, fond birjasının daxili qaydaları ilə müəyyən edilmiş digər hallarda.

Birjada ticarət sistemləri elektron platformalar üzərindən həyata keçirilir və iştirakçılara məsafədən qoşulmaq imkanı verilir. Birjanın əsas iştirakçıları: emitentlər, investorlar, broker və diler şirkətləri, depozitar və klirinq təşkilatlarıdır.

Fond birjasının fəaliyyətində problemlər və inkişaf istiqamətləri

Bakı Fond Birjasının fəaliyyətində bir sıra problemlər mövcuddur.

Bu problemlərdən birincisi likvidlik çatışmazlığı hesab edilə bilər. Birjada ticarətin həcmi aşağıdır, aktiv iştirakçıların sayı məhduddur.

Digər bir problem İnvestor savadlılığının zəifliyidir. Əhali arasında fond bazarına maraq azdır, maliyyə savadlılığı yetərsizdir.

Eyni zamanda Normativ qeyri-müəyyənliklər mövcuddur. Bəzi tənzimləyici aktlar qeyri-dəqiqdir və investorların hüquqlarını tam qorumaq iqtidarında deyil. Birjada istifadə edilən ticarət sistemlərinin modernləşdirilməsinə də ehtiyac duyulur. İkinci bazarın zəifliyini də qeyd etmək olar: emitentlərin sayı az, səhmlərin dövriyyəsi isə məhduddur.

Fond birjasının fəaliyyətini daha da inkişaf etdirmək istiqamətləri kimi aşağıdakıları göstərə bilərik:

- maliyyə savadlılığının artırılması üzrə maarifləndirmə kampaniyaları aparılması;
- xarici investorların cəlb edilməsi üçün vergi güzəştlərinin və hüquqi təminatların müəyyənləşdirilməsi;
- ticarət alətlərinin diversifikasiyası və yeni məhsulların təqdimatı;
- BFB-nin beynəlxalq birjalarla inteqrasiyası və əməkdaşlıq imkanlarının genişləndirilməsi;
- rəqəmsal texnologiyaların tətbiqi və "fintech" həllərinin təşviqi.

Nəticə

Azərbaycanda fond birjalarının fəaliyyəti inkişaf mərhələsindədir və bir sıra müsbət addımlar atılmışdır. Lakin bazarın tam potensialından istifadə olunması üçün struktur islahatlara, normativ dəqiqləşmələrə və investorların maraqlarının daha güclü qorunmasına ehtiyac var. Fond birjasının effektiv fəaliyyəti ölkənin maliyyə sisteminin dayanıqlığını və iqtisadi inkişafını təmin edə bilər.

ƏDƏBİYYAT

1. "Qiymətli Kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 15 may 2015, № 1284 - İVQ
2. Bakı Fond Birjası rəsmi saytı – https://www.bfb.az/
3. Milli Depozit Mərkəzi – https://mdm.gov.az
4. Valyuta.az – "Fond birjası nədir və necə işləyir?"
5. Azərbaycan Respublikasının Mərkəzi Bankının normativ sənədləri

Нигяр Эльман кызы Гадживердиева
магистрант,
Азербайджанский Университет Кооперации
Байрамали Шукур оглы Гурбанов
доктор философии по экономике, доцент,
Азербайджанский Государственный Экономический Университет

Текущее положение и проблемы в организации фондовых бирж в Азербайджане

Резюме

В статье анализируются организация, современное состояние и основные проблемы фондовых бирж Азербайджана. Рассматриваются деятельность Бакинской фондовой биржи, нормативно-правовая база, механизмы торговли и роль участников. Также представлены факторы, препятствующие развитию фондового рынка, и пути их устранения. В статье даны рекомендации по повышению прозрачности фондового рынка и защите интересов инвесторов.

Nigar Elman Hajiverdiyeva
master,
Azerbaijan Cooperation University
Bayramali Shukur Gurbanov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan State University of Economics

Current situatıon and problems in the organization of stock exchanges in Azerbaıjan

Summary

This paper analyzes the organization, current state, and key challenges of stock exchange operations in Azerbaijan. It explores the functioning of the Baku Stock Exchange, regulatory framework, trading mechanisms, and the role of market participants. The study also identifies barriers to the development of the capital market and proposes solutions. Recommendations are provided to enhance transparency and protect investor interests.

Elsevər Fərahim oğlu BEHBUDOV
magistrant,
Əşrəf Rəsul oğlu ƏLƏKBƏROV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

BİZNES RİSKLƏRİNİN İDARƏ OLUNMASININ BƏZİ PROBLEMLƏRİ

Giriş

İqtisadiyyatın qeyri-sabitliyi və bazar münasibətlərinin dinamik inkişafı şəraitində biznes mühitində risklərin idarə olunması daha da aktual məsələyə çevrilmişdir. Qloballaşmanın təsiri, texnologiyaların sürətli inkişafı və rəqabətin güclənməsi biznes fəaliyyətində qarşıya çıxan risklərin çeşidini və səviyyəsini artırır. Risklər yalnız maliyyə itkisi ilə bağlı deyil, həm də strateji məqsədlərə çatmaqda, brend imicinin qorunmasında və davamlı inkişafın təmin edilməsində əsas maneə ola bilər.

Biznes riskləri termini ümumiyyətlə qeyri-müəyyənliklər səbəbindən kommersiya qurumunun planlaşdırılan mənfəətə çatmaması və ya hətta zərər görməsi ehtimalını ifadə edir. Bu risklərin mənbələri çoxşaxəlidir: istehlakçıların zövqlərinin və üstünlüklərinin dəyişməsi, siyasi və iqtisadi vəziyyətin dəyişməsi, bazar rəqabətinin güclənməsi, texnoloji köhnəlmə, təbii fəlakətlər, qanunvericilikdə dəyişikliklər və digər makro və mikro iqtisadi faktorlar biznes risklərinin yaranmasına səbəb olur.

Hər bir biznes təşkilatı fəaliyyətində müxtəlif risk elementləri ilə üzləşir. Bu risklər müəssisənin daxili strukturu və fəaliyyət sahəsinə görə dəyişir. Biznes riski ümumilikdə mənfəətdəki qeyri-müəyyənliyi və ya potensial itki təhlükəsini ifadə edir. O, gələcəkdə baş verə biləcək və müəssisənin uğursuzluğuna gətirib çıxara biləcək gözlənilməz hadisələri də əhatə edir.

Risklərin növlərini və onların xüsusiyyətlərini bilmək, effektiv idarəetmə sisteminin qurulmasında əsas mərhələdir. Risk hadisələrinin müxtəlif təsnifatları mövcuddur, lakin biznes üçün ən informativ təsnifat risklərin başvermə mənbəyinə və təsir sahəsinə görə aparılır.

Əsasən biznes riskləri iki qrupa bölünür:

- Daxili risklər – təşkilat daxilində baş verən proseslərdən yaranan risklər (məsələn, işçilərin səhvləri, texniki nasazlıqlar, daxili maliyyə fırıldaqları);
- Xarici risklər – təşkilatdan kənarda baş verən hadisələrdən yaranan risklər (iqtisadi böhran, siyasi dəyişikliklər, təbii fəlakətlər, bazar şərtlərinin dəyişməsi).

Hər iki növ risk biznesin fəaliyyətinə ciddi təsir göstərə bilər. Daxili risklərin idarə olunması daha çox korporativ idarəetmə və daxili nəzarət sistemlərinin inkişafı ilə mümkün olur. Xarici

risklərin idarə olunması isə daha çox bazar analizləri, strateji planlaşdırma və dövlət siyasəti ilə əlaqəlidir.

Müasir risk menecmenti təkcə risklərin qarşısını almaq deyil, həm də onların düzgün qiymətləndirilməsi, ölçülməsi və idarə edilməsinə yönəlib. Risklərin vaxtında və dəqiq müəyyən edilməsi, onların təsirinin azaldılması üçün effektiv tədbirlərin görülməsi müəssisənin strateji inkişafına mühüm töhfə verir.

Ancaq praktika göstərir ki, bir çox şirkətlərdə risk idarəetməsi formal xarakter daşıyır və ya qeyri-kafi məlumat, resurs çatışmazlığı səbəbindən real vəziyyətə uyğun deyil. Bu da effektiv qərar qəbuletmə prosesini zəiflədir və müəssisənin inkişaf istiqamətində ciddi əngəllər yaradır. Xüsusilə kiçik və orta biznes üçün risklərin idarə olunması böyük problemlərdən biridir, çünki onların riskləri idarə etmək üçün maliyyə və kadr resursları məhduddur.

İri şirkətlər və korporasiyalar risklərin idarə edilməsi şöbələri yaradır, risk menecerləri və analitikləri işə cəlb edirlər. Bu sahədə peşəkar mütəxəssislərin iştirakı layihələrin uğurla həyata keçirilməsini təmin edir. Mütəxəssislər biznesin müxtəlif fəaliyyət sahələrində riskləri qiymətləndirir, risklərin mümkün səbəblərini və nəticələrini müəyyənləşdirir, gəlir və zərər potensialını hesablayır, eləcə də risklərin idarə olunması üçün strategiyalar hazırlayırlar.

Kiçik və orta biznes üçün isə risk idarəetməsi daha çox operativ və təcrübəyə əsaslanan yanaşmalarla həyata keçirilir. Çox vaxt risklərin idarə olunması sahibkarın şəxsi təşəbbüsü və təcrübəsinə bağlı olur. Belə biznes strukturlarında risklərin idarə olunması sistemi formal deyil və planlaşdırılmamış olur.

Risklərin idarə olunması prosesi əsasən maraqlı tərəflər – müəssisə sahibi, direktor və əsas işçilər tərəfindən həyata keçirilir. Bu şəxs və ya qrup hər bir fəaliyyət sahəsində potensial riskləri müəyyən edir, onların qarşısının alınması və ya təsirinin azaldılması üçün tədbirlər planı hazırlayır. Risklərin idarə olunması sistemi mərhələlərlə formalaşır və davamlı təkmilləşdirilir.

Bu sistem şirkətin həssas nöqtələrini vaxtında aşkarlamağa, böhran vəziyyətlərində sürətli və effektiv qərarlar verməyə imkan yaradır. Potensial itkilərin azaldılması və problemlərin həllinə yardım edəcək məsuliyyətli şəxslərin əvvəlcədən müəyyən olunması şirkətin dayanıqlığını artırır.

Nəticə

Biznes risklərinin effektiv idarə olunması müəssisələrin uzunmüddətli inkişafı və rəqabətqabiliyyətliliyi üçün əsas şərtdir. Risklərin idarə edilməsi risklərin müəyyən edilməsi, qiymətləndirilməsi, planlaşdırılması və cavablandırılması prosesidir. Risklərin idarə edilməsinin əsas məqsədi mənfi nəticələrin qarşısını almaq və hər hansı fövqəladə hallar üçün fəaliyyət planına sahib olmaqdır. Risklər daxili və xarici risklərə bölünə bilər. Düzgün idarəetmə üsulları və müəssisənin güclü və zəif tərəflərini bilmək səhvlərin sayını azaldır. Xarici mühitdə baş verən təbii fəlakətlər və digər hadisələr xarici risklər hesab edilir. Təşkilat onlara təsir edə bilməz. Risklər mütləq təhlükə deyil.

Risklərin idarə edilməsi planının ziddiyyət təşkil etməməsi, əksinə, biznesin inkişafı strategiyasına uyğun olması vacibdir.

ƏDƏBİYYAT

1. Abbasov A.B. Biznesin təşkili və idarə edilməsi / Dərslik. Bakı, - 2011.- 464 s.
2. Biznesin əsasları. İ.e.d, prof. A.B.Abbasovun ümumi elmi redaktəsi ilə. Bakı, “Nurlan”, 2005.
3. Ağamalıyev M.Q., Məmmədrzayev M.M. Kommersiya fəaliyyətinin təşkili. Dərslik. Bakı, “Səda” nəşriyyatı, - 2004.

Эльсевар Фарахим оглы Бехбудов
магистрант,
Ашраф Расул оглы Алекперов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Некоторые проблемы управления бизнес-рисками

Резюме

В современных экономических условиях управление рисками в бизнесе имеет стратегическое значение. Риски могут возникать в производственной, финансовой, рыночной, юридической и других сферах, что угрожает устойчивой деятельности предприятия.

Устойчивые организации используют ресурсы для уменьшения негативных процессов и увеличения позитивных. Системный и комплексный подход к управлению помогает выявлять, контролировать и снижать риски.

Каждое предприятие сталкивается с различными видами рисков: рыночными, кредитными, юридическими, стратегическими, операционными и др. Несвоевременное выявление и неправильное управление рисками может угрожать финансовой стабильности и даже существованию предприятия.

Elsevar Farahim Behbudov
master,
Ashraf Rasul Alakbarov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Some problems of business risk management

Summary

In modern economic conditions, managing risks in business activities holds strategic importance. Risks may arise in production, financial, market, legal, and other areas, threatening the sustainable operation of the enterprise.

Sustainable organizations utilize resources to reduce negative processes and enhance positive ones. A systematic and comprehensive management approach helps to identify, control, and mitigate risks.

Every enterprise faces various types of risks: market risks, credit risks, legal risks, strategic and operational risks, etc. Failure to timely detect and properly manage risks can jeopardize the financial stability and even the existence of the enterprise.

Sahib Azər oğlu GÜLMƏMMƏDOV
magistrant,
Firuzə Nəcəf qızı ƏLİYEVA
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

AQRAR SAHƏNİN İNKİŞAFINDA İNVESTİSİYA QOYULUŞU VƏ STİMULLAŞDIRILMASI

Kənd təsərrüfatında həm ərzaq təhlükəsizliyinin təmin olunması, həm də regionların sosial-iqtisadi inkişafında investisiya qoyuluşu və stimullaşdırılması mühüm rol oynayır. Bu sahənin davamlı inkişafı isə bilavasitə investisiyaların həcmi və istiqamətindən asılıdır.

Aqrar sahədə əsas kapital investisiya qoyuluşları əsasında formalaşır. Aqrar sahəyə investisiya qoyuluşları bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının genişləndirilməsinin əsas amillərindən biri kimi çıxış edir. Yeni investisiya qoyuluşları vasitəsi ilə kənd təsərrüfatında torpaq və su resurslarında dayanıqlı inkişaf tələblərinə uyğun səmərəli istifadə edilməsinə imkanlar açır.

Aqrar sektorda investisiya dedikə - mənfəət əldə etmək üçün uzunmüddətli dövrdə qoyulmuş yatırımlar nəzərdə tutulur. Məlumatlara əsasən, hər il dünya iqtisadiyyatına 2,3 trilyon ABŞ dolları həcmində investisiya qoyuluşları reallaşdırılır. İnvestorlar əsasən vəsaitlərini daha tez qayıda biləcək sektorlara yatırırlar. Aqrar sahəyə investisiya qoyuluşları baxımından kommersiya banklarının əhəmiyyəti vardır, aqrar sektor banklarda da potensial investor hesab olunur. Aqrar sektora investisiya cəlb edilməsi üçün siyasi və iqtisadi sabitlik əsas amil hesab olunur.

Aqrar sektorda investisiya cəlbediciliyinə təsir göstərən amillərdən faiz dərəcələrini və vergi dərəcələrini qeyd edə bilərik. İnvestisiya cəlbediciliyi baxımından aqrar sektorda investisiyanın geri qaytarılması digər sahələr ilə müqayisədə uzun müddət tələb edir, çünki, istər heyvandarlıq, istərsə də bitkiçilik sahələri olmaqla, qoyulan investisiyanın geri qaytarılması uzun vaxt tələb edir.

Azərbaycanda aqrar sektorun investisiya fəaliyyətində dövlətin xüsusi rolu vardır ki, aqrar sektora investisiyalar əsasən dövlət tərəfindən edilir, vasitəçi qismində isə banklar iştirak edir.

Müvafiq mənbələrdən daxil olan investisiya resursları konkret aktivlərlə - maşın və avadanlıqlara, çoxillik əkin sahələrinin genişləndirilmısinə və digər istiqamətlərə yönəldilməklə bunların ehtiyatlarının formalaşması təmin edilir. İqtisadiyyatın aqrar sektorunda zəruri imvestisiya resurlarının formalaşması məqsədi ilə bu sahəyə özəl investisiyaların da cəlb edilməsinin stimullaşdırılmasının gücləndirilməsi məqsədəuyğun hesab edilir.

Hər bir ölkənin iqtisadi strukturu ilə kənd təsərrüfatına dövlət dəstəyinin özünəməxsus problemlərinin həlli yolları vardır. Ölkəmizdə bazar iqtisadiyyatının inkişaf etdirilməsi ilə yanaşı, aqrar sahədə geniş investisiya layihələrinin həyata keçirilməsi məsələsi dövlətin qarşısında duran əsas məsələlərdəndir.

İnvestisiya cəlbedciliyinin yüksəlməsinin əsas şərtləri həmçinin xüsusi mülkiyyət hüquqlarının məyyənləşdirilməsi, siyasi risklərin aşağı salınması, kreditə görə faiz dərəcələrinin real sektorda olan gəlirlərinin səviyyəsinə uyğunlaşdırılması, yerli istehsalın rəgabət qabiliyyətinin yüksəlməsi ola bilər.

Dövlətin investisiya siyastinin içlənib hazırlanması, kənd təsərrüfatında investisiya proseslərinin tənzimlənməsi ilə kifayət qədər məhdud saylı dövlət orqanlarının fəaliyyətlərinin təmin edilməsi, qanunvericilik sistemində ziddiyyətlərin aradan qaldırılması, investisiya proseslərinin tənzimlənməsinə istiqamətlənmiş uzunmüddətli perspektiv üçün tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatı investisiyalarının cəlb edilməsinin məqsədyönlü fəaliyyətinin nəticəsi kimi xarakterizə edilir. Kənd təsərrüfatında əsas kapitala yönəldilən investisiyalar bu sahədə istehsalın dinamik artımının və rəqabətqabiliyyətliliyinin təmin olunmasının başlıca amillərindən biri kimi çıxış edir. Kənd təsərrüfatının davamlı və rəqabətli inkişafı investisiya və innovasiya təminatına əsaslanır. Bu da, müxtəlif mənbələrdən əlverişli şərtlərlə investisiyaların cəlb olunmasını və innovativ texnologiyalar tətbiqini tələb edir.

İnvestisiya qoyuluşları və stimullaşdırılması aqrar infrastrukturun modernləşdirilməsi, texnoloji yeniliklərin tətbiqi, istehsalın genişləndirilməsi və ixrac potensialının artırılması baxımından həlledici əhəmiyyətə malikdir.

Nəticə

Aqrar sahənin inkişafında investisiya qoyuluşlarının həcminin artırılması və bu prosesin stimullaşdırılması sahənin dayanıqlı inkişafına mühüm təsir göstərir. Aqrar sahənin kreditləşməsi üzrə dünya təcrübəsindən yararlanaraq ölkəmizdə bu sahə üzrə boçluqları doldurmaq, daha da inkişaf etdirmək mükündür. Aqrar sahənin inkişafında investisiya edən investorlar dövlətin zəmanəti və dəstəyi səbəbindən daha çox yatırım etməyə həvəsləndirilməlidirlər.

ƏDƏBİYYAT

1. Arif Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi", Bakı, 2011, səh 281.
2. E.A.Quliyev. "Aqrar iqtisadiyyat", Bakı, 2015.
3. A.F.Abbasov. "Ərzaq təhlükəsizliyi", Bakı, 2007.

Сахиб Азер оглы Гюльмаммадов
магистрант,
Фируза Наджаф кызы Алиева
доктор философии по экономике,
Азербайджанский Университет Кооперации

Инвестирование и стимулирование в развитии аграрного сектора

Резюме

Цель исследования – исследование вопросов инвестиционного вложения и стимулирования в развитии аграрного сектора.

Методология исследования – при проведении исследования были использованы указы и распоряжения, связанные с регулированием национальной экономики.

Практическая значимость исследования – наряду со стимулированием инвестиций в сельскохозяйственные отрасли, стратегически важное значение приобретает повышение инвестиционной привлекательности аграрного сектора.

Результаты исследования – предполагается создание благоприятной правовой и экономической среды для повышения инвестиционной привлекательности аграрного сектора. Стимулирование инвестиционной активности зависит от характера государственного регулирования и специфики аграрной политики.

Sahib Azer Gulmammedov
master,
Firuza Najaf Aliyeva
doctor of philosophy in economics,
Azerbaijan Cooperation University

Investment and incentivization in the development of the agricultural sector

Summary

Purpose of the research – to examine the issues of investment and incentivization in the development of the agricultural sector.

Research methodology – decrees and orders related to national economic regulation were used during the research.

Practical significance of the research – in addition to stimulating investment in agricultural industries, enhancing the business attractiveness of the agricultural sector holds significant strategic importance.

Research results – it is intended to create a favorable legal and economic environment to increase investment attractiveness in the agricultural sector. The stimulation of investment depends on the nature of state regulation and the specific characteristics of the country's agricultural policy.

Lamiyə Nizami qızı ƏLİYEVA
magistrant,
Firuzə Nəcəf qızı ƏLİYEVA
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

AQRAR SAHƏNİN İNKİŞAFINA SUBSİDİYALARIN AYRILMASININ TƏSİR İSTİQAMƏTLƏRİ

Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində daxili və xarici qüvvələrin yaratdığı maneələr dəf olunaraq, bir sıra ölkələr ilə və beynəlxalq təşkilatlarla siyası və iqtisadi əlaqələr bərqərar olundu. Ölkəmizdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmısinin, habelə, 2024cü il noyabrında Bakı şəhərində keçirilərn BMT-nin iqlim dəyişiklikləri üzrə 29-cu Tərəflər Konfransının COP 29 çağırışları nəzərə alınaraq, iqlim dəyişikliklərindən kənd təsərrüfatı sektorunda 2025-ci ildən etibarən sudan istifadənin və ətraf mühitin qorunmasının dəstəklənməsi məqsədi ilə müasir suvarma sistemləri üçün tədbiq edilən əkin sahələrinə 60 manat əlavə əkin subsidiyası, 2024-cü ildə sentyabrın 1-dən 2025-ci il mayın 31-dək salınan hər hektara minimum 1500 tingin əkildiyi tarlaqoruyucu zolaq bitkilərinin hər hektarına minimum 1000 manat məbləğində əkin subsidiyası verilmişdir.

İşğaldan azad edilmiş ərazilərdə müasir suvarma sistemləri tətbiq edilən əkin sahələrində becərilən dənli paxlalar üçün əkin subsidiyası 400 manat məbləğində müəyyən edilmişdir.

Aqrar Subsidiya Şurasının qərarına əsasən yanacaq qiymətlərinin artırılması və 2024-2025-ci təsərrüfat ilində dəstəklənən bitkilər siyahısına nar, zeytun, fındıq, şabalıd, portağal, limon, kinkan, naringi, şaftalı, ərik, kivi, üzüm, çay, moruq bitkiləri ilə yanaşı yeni bitkilər qoz, alma, armud, gilas, püstə, xurma, badam, qaragilə də bu siyahıya əlavə edilmişdir.

Aqrar Subsidiya Şurasının qərarına əsasən 2024-cü il sentyabrın 1-dən 2025-ci il mayın 31-dək salınan:

- İntensif kinkan bağlarının hər hektarına görə 11600 manat;
- Şabalıq bağlarının hər hektarına görə 800 manat;
- Damcı suvarma sistemi ilə təmin olunmuş və 1 hektara ən azı 650 tingin əkildiyi kivi bağlarının hər hektarına 9600 manat;
- Damcı suvarma sistemi ilə təmin olunmuş və 1 hektara ən azı 3300 tingin əkildiyi qarağat və böyürtkən bağlarının hət hektarına görə 3200 manat məbləğində əkin subsidiyası ödənilmişdir. [5]

2025-ci ildə Aqrar Subsidiya Şurasının qərarına əsasən pambıq, şəkər çuğunduru, soya və tütün bitkiləri üzrə yalnız məhsul subsidiyası və qarğıdalı, günəbaxan üzrə isə həm əkin, həm də məhsul subsidiyası verilmişdir.

2025-ci ildə Aqrar Subsidiya Şurası toxum əmsalları və toxum subsidiyasının məbləği, toxum və tinglər üzrə kvota toxum subsidiyasının hesablanması üçün istifadə ediləcək əkin ehtiyacları barədə qərar qəbul etmişdir.

Toxum əmsalları və toxum subsidiyasının məbləği, toxum və tinglər üzrə kvota toxum subsidiyasının hesablanması üçün istifadə ediləcək əkin ehtiyacları üçün 2025-ci il üzrə Aqrar Subsidiya Şurası qərar qəbul etmişdir. Bundan əlavə, Aqrar Subsidiya Şurası alma, armud, gilas, nar, fındıq, üzüm, çay, püstə, şaftalı, badam, ərik, xurma, zeytun tingləri ilə yanaşı, limon, kinkan, naringi, portağal, qoz və şabalıd tinglərinin istehsalı və satışına görə subsidiya verilməsi üçün qərar qəbul etmişdir.

Qarabağ, Şərgi Zəngəzur, Quba-Xaçmaz, Şəki-Zakatala, Gəncə-Daşkəsən, Dağlıq Şirvan və Qazax-Tovuz iqtisadi rayonlarında dəniz səviyyəsindən 200 metr yuxarıda olan ərazilərdə bir torpaq sahəsindən və ya bir neçə torpaq sahəsindən ibarət vahid ərazilərdə salınan, sahəsi ən azı 5 hektar olan və 1 hektara minimum 250 ədəd sertifikatlı tingin əkildiyi intensiv qoz bağlarının hər hektarına görə 330 manat əkin subsidiyası, yağış yağdırma üsuluna əsaslanan suvarma sistemi ilə təmin olunmuş və 1 hektara minimum 20000 ədəd sertifikasiyalı tingin əkildiyi çay plantasiyalarının hər hektarına görə 12000 manat məbləğində əkin subsidiyası Aqrar Subsidiya Şurasının qərarı

ilə alınmışdır. Beləliklə, subsidiyaların artırılması ölkədə aqrar sahənin inkişafına müsbət təsir göstərir.

Nəticə

Aqrar sahənin inkişafına maliyyə dəstəyinin növbəti illərdə müəyyən dərəcədə artırılması bu sahəyə olan maliyyə məsələlərinin həllinə müsbət təsir göstərər və kənd təsərrüfatı məhsulunun istehsalının həcmini daha da artırır. Aqrar sahənin tam mənada intensiv inkişafına nail olmaq üçün bu sahənin maksimum dərəcədə maliyyələşdirilməsinə ehtiyac vardır.

ƏDƏBİYYAT

1. Arif Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti; Dayanıqlı və davamlı inkişafın təntənəsi, Bakı, 2011.
2. E.A.Quliyev. "Aqrar İatisadiyyat", Bakı, 2015.
3. A.Rüstəmov, D.Qasımov. "Aqrar sferanın iqtisadiyyatı və idarəedilməsi", Bakı, 2013.
4. Aqro.qov.az htpps://www/aqro.qov.az

Ламия Низами кызы Алиева
магистрант,
Фируза Наджаф кызы Алиева
доктор философии по экономике,
Азербайджанский Университет Кооперации

Направления влияния предоставления субсидий на развитие аграрного сектора

Резюме

Цель исследования – изучены направления влияния увеличения субсидий на развитие аграрного сектора, а также на обеспечение продовольственной безопасности и занятости в регионах.

Методология исследования – при проведении исследования были использованы указы и распоряжения, касающиеся регулирования национальной экономики.

Практическая значимость исследования – предоставление различных субсидий производителям аграрной сферы открывает широкие возможности для развития данной отрасли в нашей стране.

Результаты исследования – увеличение поддержки в виде субсидий на развитие аграрных отраслей оказывает положительное влияние на их рост и развитие.

Lamiya Nizami Aliyeva
master,
Firuza Najaf Aliyeva
doctor of philosophy in economics,
Azerbaijan Cooperation University

Impact directions of subsidy allocation on the development of the agricultural sector

Summary

Purpose of the research – The study examines the impact directions of increasing subsidies on the development of the agricultural sector, as well as on ensuring food security and employment in the regions.

Research methodology – Decrees and orders related to the regulation of the national economy were used during the research.

Practical significance of the research – Providing various subsidies to producers in the agricultural sector creates broad opportunities for the development of these areas in our country.

Research results – Increasing subsidy support for the development of agricultural sectors has a positive effect on their growth and progress.

Ümid Elman oğlu TƏRLANLI
magistrant,
Firuzə Nəcəf qızı ƏLİYEVA
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

AQRAR SAHƏYƏ İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN STİMULLAŞDIRILMASINDA QİYMƏT TƏNZİMLƏNMƏSİ

İnvestisiya – gəlir (mənfəət) və sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan kapitaldır. İnvestisiya – iqtisadi və sosial səmərə əldə etməkdən ötrü müxtəlif obyektlərə qoyulan pul, qiymətli kağızlar, intellektual mülkiyyət obyektləri və sairədir. Bu tərif İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanununda daha ətraflı göstərilmişdir. Kapital maliyyə vəsaitlərindən, maddi və intelektual sərvətlərdən ibarət ola bilər.

Aqrar-ərzaq kompleksində investisiya fəaliyyətinn aktivləşdirilməsi prosesində təsərrüfat subyektlərinin sərbəst seçim imkanlarının müəyyənləşdirilməsi, eləcə də, amortizasiya ayırmalarının sürətləndirilməsi ilə bağlı təsərrüfat subyektlərinin müstəqil seşim etmələri mühüm əhəmiyyət kəsb edir.

Aqrar sahələrin, kənd təsrrüfatının investisiya qoyuluşunun stimullaşdırılmasında ən mühüm cəhət əmtəə istehsalçılarının təsərrüfat fəaliyyıtinin rentabellik səviyyəsinin yüksəlməsidir. Aşağı rentabellik səviyyəsi qoyulan investisiyaların nisbətən uzun müddət ərsində qaytarılması üçün sərfəli hesab edilmir.

İnvestisiya cəlbediciliyinin yüksəlməsinin başlıca şərtləri risklərin aşağı salınması,xüsusi mülkiyyət hüququnun müəyyənləşdirilməsi, kreditə görə faiz dərəcəsinin real sektorda olan gəlirlərin səviyyəsinə uyğunlaşdırılması, yerli istehsal rəqabət qabiliyyətinin yüksəlməsi ola bilər.

Kənd təsərrüfatına investorların cəlb edilməsinin məqsədyönlü fəaliyyətinə dövlətin investisiya siyasətinin işlənib hazırlanması, qiymətlərin tənzimlənməsi, kənd təsərrüfatında investisiya proseslərinin tənzimlənməsi məqdəsi ilə dövlər orqanlarının fəaliyyətinin təmin edilməsi, uzunmüddətli pesrpektiv investisiya bazarında əlverişli investisiya mühitinin yaradılması və zəruri tədbirlərin həyata keçirilməsini şamil etmək olar.

Kənd təsərrüfatının və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrə məhsulun satışı və xidmətlərin göstərilməsi zamanı təminatlı qiymətqoyma sisteminin tətbiqinə, əmtəə istehsalçılarının güzəştli kredit resurslaı ilə təmini, çevik vergi siyasəti, lizinq fəaliyyətinin genişləndirilməsi, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, dövlət proqramlarının həyata keçirilməsi, aqrar ərzaq kompleksinin bütün sferalarında investisiyalaşdırılma və maliyyələşdirilmə proqramlarının həyata keçirilməsini də şamil etmək olar.

Aqrar kompleksin iqtisadi mexanizminin strukturunda qiymət münasibətlərinin formalaşması əhmiyyətli rol oynayır.

Kənd təsərrüfatı məhsullarının qiymətlərinin dövlət tənzimlənməsi sisteminə aqrar əmtəə istehsalçılarının real maliyyə təsərrüfat imkanları mühüm rol oynayır. İqtisadiyyatın maliyyə sağlamlaşdırılması dövlətin qiymət vəzifələrindən biri hesab olunur. Müasir şəraitdə ərzaq bazarında qiymət əməlgəlmənin tənzimlənməsinə böyük ehtiyac vardır. Aqrar sahənin biznes cəlbediciliyi ilə yanaşı investisiya cəlbediciliyə də mühüm strateji əhəmiyyət kəsb edir.

Aqrar sahənin davamlı və rəqabətli inkişafı investisiyanın stimullaşdırılmasına və qiymətlərin tənzimlənməsinə əsaslanır. Bu da müxtəlif mənbələrdən əlverişli şəraitlə investisiyaların cəlb olunmasını və qiymətlərin tənzimlənməsini tələb edir. Burada beynəlxalq təşkilatlar tərəfindən proqram və layihələrin uğurla icra olunması da mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan vəzifənin uğurlu həlli aqrar sahədə milli iqtisadiyyatın dayanıqlı inkişafına zəmin yarada bilər.

Nəticə

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yerli əmtəə istehsalçılarının dəstəklənməsi ərzaq məhsulları bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə, investisiya cəlbediciliyinin

stimullaşdırılmasında, qiymətlərin tənzimlənməsi, maliyyə-kredit münasibətlərinin təkmilləşdirilməsi ilə qarşılıqlı əlaqədə tətbiq edilməlidir.

ƏDƏBİYYAT

1. Arif Şəkərəliyev. "Dövlətin iqtisadi siyasəti, dayanıqlı və davamlı inkişafın təntənəsi", Bakı, 2011.
2. A.F.Abbasov. "İqtisadi inkişafın meyilləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər". Bakı, 2024, 578 s.
3. Tomas Meqe. "Qiymətəmələgəlmənin strategiyası və taktikası", Bakı, 2009.

Умид Эльман оглы Тарланлы
магистрант,
Фируза Наджаф кызы Алиева
доктор философии по экономике,
Азербайджанский Университет Кооперации

Регулирование цен как стимул инвестиционной привлекательности в аграрном секторе

Резюме

Цель исследования – Определение роли регулирования цен в стимулировании инвестиционной привлекательности аграрного сектора в контексте комплексного регионального развития национальной экономики.

Методология исследования – В исследовании использовались указы и распоряжения, касающиеся регулирования национальной экономики.

Практическая значимость исследования – Правильное управление динамикой цен имеет важное значение для повышения инвестиционной привлекательности аграрного сектора.

Результаты исследования – Проанализировано регулирование цен как инструмент привлечения инвестиций в аграрную сферу, а также изучены основные задачи государства в развитии сельского хозяйства.

Umid Elman Tarlanli
master,
Firuza Najaf Aliyeva
doctor of philosophy in economics,
Azerbaijan Cooperation University

Price regulation in stimulating investment attractiveness in the agricultural sector

Summary

Purpose of the research – To determine the role of price regulation in stimulating investment attractiveness in the agricultural sector within the context of comprehensive regional development of the national economy.

Research methodology – Decrees and orders related to the regulation of the national economy were used in the research.

Practical significance of the research – Ensuring accurate management of price dynamics plays a vital role in stimulating investment attractiveness in the agricultural sector.

Research results – The study analyzes price regulation as a tool for stimulating investment in the agricultural sector, and explores key state responsibilities in promoting agricultural development.

Elmir Oktay oğlu QARAYEV
magistrant,
Rauf Qəzənfər oğlu MƏMMƏDOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA YARANA BİLƏCƏK İQTİSADİ, SOSİAL VƏ EKOLOJİ RİSKLƏRİN İDARƏ OLUNMASI

Giriş

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları hazırda Azərbaycanın ən dinamik inkişaf potensialına malik əraziləri hesab olunur. Bununla yanaşı, bu ərazilərin uzunmüddətli işğal dövründə dağıdılmış infrastruktur və deqradasiyaya uğramış təbii resurslarla üzləşməsi, təbiətdən istifadənin regional, iqtisadi, sosial və ekoloji baxımdan yeni risklərini ortaya çıxarır (2). Məqalənin məqsədi bu riskləri qiymətləndirmək və onların idarə olunmasına dair elmi əsaslandırılmış yanaşmalar təqdim etməkdir.

Regionun əsas xüsusiyyəti bərpa prosesinin genişmiqyaslı olmasıdır. İnfrastruktur layihələrinin həyata keçirilməsi (yollar, su kəmərləri, enerji xətləri) sosial-iqtisadi inkişafı sürətləndirsə də, torpaq və su resurslarının həddindən artıq yüklənməsi riski mövcuddur. Yenidənqurma işlərində resursların qeyri-bərabər bölgüsü, əhalinin geri dönüşü zamanı təbii resurslara qəfil artan tələbat və ətraf mühitə nəzarətin zəifliyi kimi risklər mövcuddur. Bu baxımdan regional planlaşdırmada risk xəritələrinin hazırlanması və resursların idarə olunmasında balansın qorunması vacibdir (2).

Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı, sənaye, turizm və enerji sektoru iqtisadi inkişafın əsas istiqamətləridir. Lakin bu potensialdan istifadə olunarkən iqtisadi risklər də meydana çıxır. Ənənəvi kənd təsərrüfatında intensiv texnologiyaların tətbiq olunmaması, xarici sərmayələrin qeyri-bərabər bölgüsü və enerji layihələrində ekoloji təsirlərin qiymətləndirilməsində mövcud boşluqlar iqtisadi təhlükəsizliyə mənfi təsir göstərə bilər. Bu risklərin azaldılması üçün yaşıl enerji zonası çərçivəsində külək və günəş stansiyalarının inkişafı (1,4), kənd təsərrüfatında smart texnologiyaların tətbiqi və investisiya risklərinin sığortalanması kimi idarəetmə yanaşmaları təklif olunur (3).

Əhalinin məskunlaşması, məşğulluq və sosial inteqrasiya prosesləri həm imkan, həm də risklər yaradır. Dövlətin həyata keçirdiyi "DOST" mərkəzləri vasitəsilə məşğulluq proqramları, kənd yerlərində özünüməşğulluq layihələri və Ağıllı kənd konsepsiyası sosial adaptasiyanı gücləndirsə də, bir sıra çətinliklər qalmaqdadır (5). Geri qayıdan əhalinin sosial xidmətlərə tələbatının yüksək olması, məşğulluq imkanlarının bərpa tempinin geridə qalması, sosial bərabərsizlik və regionlararası fərqlər əsas sosial risklər kimi qiymətləndirilir. Bu risklərin idarə olunması üçün əhalinin sosial ehtiyaclarına dair risklərin monitorinqi, gənclər üçün startap proqramlarının genişləndirilməsi, aqroturizm və ekoturizm layihələrində yerli əhalinin fəal iştirakı kimi tədbirlər vacib sayılır (5).

Regionun təbii ekosistemləri işğal dövründə ciddi zərər görüb: meşələrin qırılması, su mənbələrinin çirklənməsi, torpaqların deqradasiyası müşahidə olunub (2). İndi isə intensiv bərpa və iqtisadi fəaliyyət yeni ekoloji risklər doğurur. Sənaye və kənd təsərrüfatı fəaliyyəti nəticəsində torpaq və suyun çirklənməsi, iqlim dəyişikliyi fonunda su ehtiyatlarının azalması, bərpa prosesində biomüxtəlifliyin qorunmaması əsas ekoloji risklər sırasındadır. Bu risklərin qarşısını almaq məqsədilə ekoloji monitorinq sistemlərinin tətbiqi, beynəlxalq təşkilatlarla əməkdaşlıq, ekoloji risklərin qiymətləndirilməsi və "yaşıl iqtisadiyyat" prinsiplərinin inteqrasiyası vacibdir (3).

Nəticə

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın sosial-iqtisadi inkişafında strateji əhəmiyyət daşıyır. Lakin regionun bərpası prosesi yalnız iqtisadi və sosial layihələrin həyata keçirilməsi ilə məhdudlaşmamalı, eyni zamanda risklərin düzgün qiymətləndirilməsi və idarə olunması ilə müşayiət olunmalıdır. Regional, iqtisadi, sosial və ekoloji baxımdan təqdim olunan yanaşmalar bu ərazilərdə dayanıqlı inkişafın təmin edilməsinə xidmət edə bilər. Qarabağ və Şərqi Zəngəzurda təbiətdən istifadənin regional, iqtisadi, sosial və ekoloji problemləri çoxşaxəlidir və risklərin idarə

olunması yanaşması bu problemlərin optimal həlli üçün əsas mexanizm kimi çıxış edir.

- Regional inkişaf planlarının hazırlanması zamanı potensial təbii, sosial və iqtisadi risklərin xəritələşdirilməsi bölgələrin dayanıqlı inkişafı üçün vacibdir. Bu yanaşma resursların düzgün bölgüsünə, risklərin təsir səviyyəsinə görə prioritetləşdirilməsinə və qabaqlayıcı tədbirlərin planlaşdırılmasına imkan yaradır. Nəticədə qərarvermə prosesi daha elmi əsaslara söykənir və idarəetmə səmərəliliyi artır.
- Yaşıl enerji zonasında günəş, külək və bioenerji kimi alternativ enerji mənbələrinin inkişafı ekoloji tarazlığın qorunmasına və enerji asılılığının azalmasına xidmət edir. Bu istiqamətdə investisiya təşviqləri, vergi güzəştləri və texnoloji transferlər vacib rol oynayır. Beləliklə, region ekoloji baxımdan təmiz və innovativ enerji modeli üzrə nümunəyə çevrilə bilər. (1,4);
- İşğaldan azad olunmuş ərazilərdə sosial inteqrasiya prosesində əhalinin uzunmüddətli məşğulluğunu təmin edən proqramların davamlılığı əsas prioritet olmalıdır. Qısamüddətli layihələrdən fərqli olaraq, davamlı məşğulluq proqramları yerli iqtisadiyyatı dirçəldir, sosial rifahı yüksəldir və bölgədən miqrasiyanın qarşısını alır. Bu məqsədlə peşə təlimləri, biznes inkubatorları və mikro kredit mexanizmləri genişləndirilməlidir. (5);
- Təbiətə təsirlərin azaldılması üçün ekoloji risklərin davamlı monitorinqi və şəffaf hesabatlılıq sistemi qurulmalıdır. Bu, həm dövlət, həm də özəl sektor fəaliyyətlərinin ekoloji standartlara uyğunluğunu təmin edir. Eyni zamanda ictimai məlumatlandırma mexanizmləri vasitəsilə ekoloji məsuliyyətlilik artırılır və qərarların qəbulunda ekoloji dəyərlər nəzərə alınır. (3);
- Aqroturizm və ekoturizm sahəsində fəaliyyət göstərən sahibkarlar üçün risk sığortası mexanizmləri tətbiq edilməsi sektorun davamlı inkişafını dəstəkləyir. Təbii fəlakətlər, iqlim dəyişmələri və bazar qeyri-sabitliyi kimi risklərə qarşı sığorta müdafiəsi həm investor etimadını, həm də regionun turizm potensialını artırır. Bu, kənd təsərrüfatı və turizmin sintezini dayanıqlı iqtisadi modelə çevirir.

ƏDƏBİYYAT

1. Area Development Public Agency. (n.d.). *Green Energy Zone in the liberated territories / Yaşıl enerji zonası* [Concept Document]. Retrieved from https://area.gov.az/az/page/layiheler/yasil-enerji-zonasi/yasil
2. Ministry of Energy of the Republic of Azerbaijan. (2024, 6 mart). *The use of renewable energy resources in Azerbaijan*. Retrieved from https://minenergy.gov.az/en/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade Ministry of Energy of Azerbaijan
3. Prezident İlham Əliyev. (2021, 7 iyul). *Azərbaycanın iqtisadi bölgələrinin yeni bölgüsü haqqında fərman [Decree on the new division of economic regions of the Republic of Azerbaijan]*. Prezidentin rəsmi internet səhifəsi. https://www.preslib.az/en/historical/ page/HmJ4sNz
4. Republic of Azerbaijan. (2023). *Second NDC – Azerbaijan. Final report*. United Nations Framework Convention on Climate Change. Retrieved from https://unfccc.int/sites/default/files/NDC/2023-10/Second%20NDC_Azerbaijan_ENG_Final%20%281%29.pdf
5. United Nations Azerbaijan. (n.d.). *Dayanıqlı İnkişaf Məqsədləri (Sustainable Development Goals) – Azərbaycan*. Retrieved from https://azerbaijan.un.org/az/sdgs

Эльмир Октай оглы Гараев
магистрант,
Рауф Газанфар оглы Мамедов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Управление экономическими, социальными и экологическими рисками, которые могут возникнуть в Карабахском и Восточно-Зангезурском экономических регионах

Резюме

В статье анализируются региональные, экономические, социальные и экологические проблемы использования природных ресурсов в Карабахе и Восточном Зангезуре с при-

менением подхода управления рисками. Показано, что неэффективное использование ресурсов, социальные вызовы при возвращении населения и экологическая нагрузка могут ограничить устойчивое развитие региона. В работе предлагаются меры по снижению рисков: внедрение возобновляемых источников энергии, развитие агротуризма и экотуризма, мониторинг социальных потребностей и усиление экологического контроля.

Elmir Oktay Garayev
master,
Rauf Ghazanfar Mammadov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Managing economic, social and environmental risks that may arrive ın the Karabakh and Eastern Zangazur economıc regıons

Summary

The article analyzes the regional, economic, social, and environmental problems of natural resource use in Karabakh and East Zangazur through the risk management approach. It is emphasized that inefficient resource use, social challenges related to population return, and increased ecological burden may limit sustainable development in the region. The study proposes risk mitigation measures such as the development of renewable energy, promotion of agro-tourism and eco-tourism projects, continuous monitoring of social needs, and strengthening of ecological control mechanisms.

Veysəl Vidadi oğlu ABDULLAYEV
magistrant,
Elnarə Nəbi qızı ƏHMƏDOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

VERGİ GÜZƏŞTLƏRİNİN VERGİ DAXİLOLMALARININ HƏCMİNƏ TƏSİRİ

Son on il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən dövlət kimi tanınır. Bunun başlıca səbəbi elmi əsaslara söykənən iqtisadi islahatların siyasi islahatlarla tamamlanması, uzlaşdırılmasıdır. Azərbaycanın bu təcrübəsi dünyada maraqla qarşılanır və öyrənilir. İqtisadi islahatların bir qismi vergi sisteminin daha da təkmilləşdirilməsi və sadələşdirilməsinə aiddir.

Vergi yükünün azaldılması iqtisadiyyatın inkişafına təkan verən əsas amillərdəndir. Azərbaycan Respublikasında aparılan hazırkı vergi siyasəti vergi yükünün azaldılmasına yönəldilmişdir. Ümumiyyətlə, vergi yükünün azaldılmasına bir çox amillərdən istifadə etməklə nail olmaq olar. Yeni istehsal və xidmət sahələrinin açılması üçün münbit şəraitin yaradılması əsas şərtlərdəndir. Münbit şəraitin yaradılması dedikdə əlverişli vergi mühitinin yaradılması nəzərdə tutulur.

Azərbaycan Respublikasının vergi qanunvericiliyində vergi güzəştlərinin geniş siyahısı iqtisadiyyatın inişafına yol açır. Qeyd edək ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan güzəştlərin xüsusi çəkisi kifayət qədər böyük olub ümumi vergi daxilolmalarının təxminən 30 %-ni, yəni təxminən ÜDM-in 4,2%-ni təşkil edir.

Vergi Məcəlləsinin xüsusi hissəsinə nəzər salsaq görərik ki, burada vergi endirimi ifadəsi az istifadə olunur. Beləliklə, fiziki şəxslər üçün gəlir vergisi güzəştləri və azadolmaları (Maddə 102), mənfəət vergisinə görə güzəştlər və azadlıqlar (Maddə 106) və ƏDV üçün ƏDV azadlıqları (maddə 164). və sıfır vergitutma (maddə 165), aksizlər üçün azadlıqlar (maddə 188), əmlak vergisinə görə vergi güzəştləri və güzəştlər (maddə 199), torpaq vergisinə vergi güzəştləri (maddə 207). Torpaq vergisinə əlavə olaraq, bu bölmədə digər vergi növləri, vergi güzəştləri, aşağı vergi

dərəcələrinin tətbiqi, vergi bazasının xaric edilməsi üçün məhdud və ya məhdudlaşdırılmayan məbləğlərin müəyyənləşdirilməsi və digər maddələrdə vergi güzəşti anlayışı istifadə olunur.

Azərbaycan Respublikasında 2022-2024-cu illərdə vergi yükü göstəricisinin dinamikası (mld, man)

İllər	**2022**	**2023**	**2024**
ÜDM (mln manat)	*133,8*	*123*	*126,3*
Vergi daxilolmaları (mln manat)	*19213.7*	*28,374*	*20160.9*
Vergi yükü (faizlə)	23%	23%	23%

Rəsmi statistikanın 2023-cü il üzrə Azərbaycanda ÜDM-in həcminə dair məlumatını nəzərə alsaq (ÜDM-in məbləği 123 milyard manat), vergi yükünün 23% olduğu görünür. Bu göstərici sosial ayırmalar da daxil olmaqla, ümumi vergi gəlirlərinin 28,374 milyard manat olduğunu əsas götürərək hesablanıb. 2023-cü ildə icmal büdcənin vergi daxilolmalarının ümumi məbləği 28,374 milyard manat olub.

Büdcə daxilolmaları yalnız vergi güzəştləri vasitəsilə deyil, vergidən azadolmalarla da (müəyyən əməliyyat və dövriyyələrin vergidən azad olunması, ayrı-ayrı ödəyicilərin vergidən azad edilməsi), vergi bazasından müəyyən məbləğlərin çıxılması və digər belə hüquqlardan istifadə nəticəsində də azalır.

Vergi güzəştlərinin bir çoxu, xüsusilə fiziki şəxslərin sahibkarlıq fəaliyyətindən gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi və digər vergi növləri üzrə təqdim olunan güzəştlər ümumi xarakteri (istifadəçiləri arasında diferensiasiyanın yoxluğu, ünvansızlığı və s.) ilə səciyyələnir. Vergi güzəştlərindən istifadə nəticəsində sahibkarların və müəssisələrin sərəncamında qalan vəsaitlərin necə istifadə olunması məsələsi isə qanunvericilikdə əksini tapmır. Belə alınır ki, vergi güzəştlərinin tətbiqi sistemində əks əlaqə mexanizmi hüquqi baxımdan təsbit olunmamışdır.

Uzun illərdir ki, kənd təsərrüfatı sektoru, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilib. Bu siyasətin davam etdirilməsi nəzərdə tutulur və "kölgə iqtisadiyyatı" ilə mübarizənin aparılması, xüsusilə əmtəəsiz əməliyyat aparan vergi ödəyiciləri ilə mübarizənin gücləndirilməsi məqsədi nəzərdə tutulur.

Ölkəmizdə böyük uğurlarla aparılmaqda olan iqtisadi siyasətin tərkib hissəsi olan vergi siyasətinin səmərəliliyinin artırılmasında vergi tənzimlənməsinin əsas elementlərindən olan vergi güzəştlərinin böyük rolu vardır. Vergi güzəştləri faktiki olaraq dövlət büdcəsinin vəsaitlərinin qanuni əsaslarla vergi ödəyicilərinin sərəncamında saxlanılmasıdır, yəni onları büdcə xərci kimi qəbul etmək olar. Belə büdcə xərclərinin səmərəli olması üçün onların məqsədyönlü, ünvanlı və hesabatlı olması zəruridir. Qeyd olunan vəzifələrin icrası isə vergi güzəştlərindən istifadənin nəticələri üzrə müvafiq informasiya sisteminin yaradılmasını tələb edir. Vergi güzəştlərinin səmərəliliyinin və məqsədyönlülüyünün tədqiqi güzəştlərin təqdim edilmə praktikasının dəyişdirilməsi, ləğv edilməsi, məhdudlaşdırılması, diferensiasiyası və ya daha da genişləndirilməsi barədə qərarların qəbulu üçün çox əhəmiyyətli informasiyanı təqdim edə bilər. Vergi güzəştlərinin səmərəliliyinin tədqiqi üzrə işlənəcək metodikaların və yaradılacaq informasiya sistemlərinin aprobasiyasını həyata keçirmək üçün bir və ya bir neçə vergi güzəşti növü üzrə pilot layihələrin həyata keçirilməsi daha məqsədəuyğun nəticələr verə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının "Vergi Məcəlləsi" Bakı, 2025.
2. Seyfullayev İ.Z. (2011). "Vergi tənzimlənməsində özünü təşkil nəzəriyyəsinin tətbiqi məsələləri", "Azərbaycanın vergi xəbərləri", №10
3. Məmmədov F.Ə. və başqaları. (2010) Vergilər və vergitutma. Ali məktəblər üçün dərslik. Bakı.
4. Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q. Xarici olkələrin vergi sistemi. Bakı: "İqtisad Universiteti" 2011.
5. Пансков В.Г. Налоговые льготы: целесообразность и эффективность, Финансы, №10, с.

34-36. (Panskov V.Q. 2012.
6. Абрамов В.А. (2010).Упрощенная система налогообложения. М.: Ос-89.
7. Харченко Е.В., Вртакова У.В. (2011). Государственное регулирование национальной экономики. М.: КНОРУС.
8. www.taxes.gov.az
9. www.vergiler.az
10. www.stat.gov.az

Вейсал Видади оглы Абдуллаев
магистрант,
Эльнара Няби кызы Ахмедова
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Влияние налоговых льгот на объем налоговых поступлений

Резюме

В статье уточнена сущность понятия налоговых льгот, даны предложения по созданию информационной системы использования налоговых льгот, стимулирующих экономический рост. Налоговые льготы рассматриваются в качестве эффективного инструмента воздействия на научно-технологическое и социальное развитие общества, а также стимулирования предпринимательской, инвестиционной, инновационной и природоохранной активности субъектов экономической деятельности.

Veysal Vidadi Abdullayev
master,
Elnara Nabi Akhmedova
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

The impact of tax incentives on tax revenue

Summary

This article clarifies the concept of tax incentives and offers proposals for creating an information system for utilizing tax incentives to stimulate economic growth. Tax incentives are viewed as an effective tool for influencing the scientific, technological, and social development of society, as well as stimulating entrepreneurial, investment, innovation, and environmental protection activities of economic entities.

Orxan Bəhruz oğlu BƏKDƏMİROV
magistrant,
Elnarə Nəbi qızı ƏHMƏDOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

DÖVLƏT BÜDCƏSİNİN VERGİ GƏLİRLƏRİNİN İDARƏ EDİLMƏSİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

Müasir şəraitdə dövlət büdcəsinin zəruriliyi və mahiyyəti dövlətin həyata keçirdiyi funksiyalarla və dövlətin sosial-iqtisadi həyatdakı rolu ilə müəyyən edilir. Büdcə gəlirlərinin formalaşmasında vergi siyasətinin əhəmiyyəti böyükdür və Azərbaycanda vergi daxilolmaları büdcə gəlirləri-

nin əsas hissəsini təşkil edir. Deməli, daha çox vergi daxilolmaları daha çox büdcə gəlirləri deməkdir. Lakin nəzərə almaq lazımdır ki, vergilərin müəyyən həddən sonra yüksəlməsi əks effekt verərək həm iqtisadi artıma, həm də biznes mühitinə mənfi təsir göstərə bilir. Məhz səmərəli vergi siyasəti elə siyasət tədbirlərini nəzərdə tutur ki, bu zaman büdcə gəlirlərini təmin etməklə yanaşı, iqtisadi inkişafa kəskin neqativ təsir göstərilməsin.

Dövlət büdcəsinin vergi gəlirləri, dövlətin fəaliyyəti üçün zəruri olan maliyyə resurslarının əsas mənbəyidir. Bu gəlirlər müxtəlif növ vergilərin (əsasən əlavə dəyər vergisi, gəlir vergisi, əmlak vergisi) toplanması ilə əldə edilir və büdcənin sosial, iqtisadi və investisiya fəaliyyətlərini maliyyələşdirmək üçün istifadə olunur. Vergi gəlirlərinin artması, büdcənin tənzimlənməsi və sosial rifahın yaxşılaşdırılması üçün imkan yaradır. Nəticədə, büdcənin profisiti (gəlirlərinin xərclərindən çox olması) yaranır.

Azərbaycan Respublikasının vergilərdən daxilolmaları aşağıdakılardan ibarətdir:

Cədvəl 1.1.

Azərbaycan Respublikasının 2024-2025-cı illər ərzində dövlət vergiləri dövlət büdcəsinin strukturunda (mln. AZN)

Göstəricilər	2022	2023	2024
ƏDV	6946,2	8127,73	8894,2
Aksizlər	1358,9	1452,19	1555,7
Hüquqi şəxslərin mənfəət vergisi	8522,5	8024,29	6786,9
Mədən vergisi	161,0	163,45	173,3
Fiziki şəxslərdən gəlir vergisi	1474,4	1659,64	1839,2
Əmlak vergisi	231,5	292,84	338,5
Torpaq vergisi	47,4	47,78	54,3
Sadələşdirilmiş vergi	323,3	357,03	382,9
Yol vergisi	148,5	137,33	135,9

Cədvələ nəzər yetirsək və gəlirlərin strukturunu təhlil etsək, belə nəticəyə gəlmək olar ki, büdcə gəlirlərinin içərisində, həcminə və xüsusi çəkisinə görə ən yüksək yeri Əlavə Dəyər Vergisi, ondan sonrakı mövqeyi isə Hüquqi şəxslərdən alınan mənfəət vergisi tutur. ƏDV-nin ümumi gəlirlərdəki xüsusi çəkisi 2022-ci ildə 36.1% təşkil etdiyi halda, 2024-cü ildə 44.1% təşkil edib.

Mənfəət vergisi büdcənin gəlir hissəsinin formalaşmasının mühüm hissəsini təşkil edir. Azərbaycan Respublikasında mənfəət vergisi 1992-ci ildə keçirilmiş islahatlar nəticəsində tətbiq olunmağa başlanmışdır. Dövlət büdcəsinin gəlirlərində mənfəət vergisi öz həcminə görə ƏDV ilə birlikdə ilk iki yeri tutur. Dövlət büdcəsinə 2023-cü ildə 8024,29 mln. manat, 2024-cü ildə isə 6786,90 mln. manat mənfəət vergisi daxil olmuşdur.

Fiziki şəxslərin gəlir vergisi dövlətin gəlirlərinin formalaşmasının əsas mənbələrindən biri sayılır. Fiziki şəxslərdən alınan gəlir vergisinin büdcə gəlirlərində xüsusi çəkisi yüksəkdir. Fiziki şəxslərdən alınan gəlir vergisi 2024-cü ildə 1839,2mln. manat, 2022-ci ildə isə 1474,4mln. manat təşkil etmişdir.

Ümumiyyətlə, büdcə gəlirlərinin strukturu dəyişkəndir. Həyat yüksək olan ölkələrdə büdcə gəlirlərinin əsas hissəsini fiziki şəxslərdən alınan vergilər, həyat səviyyəsi aşağı olan ölkələrdə isə dolayı vergilər və hüquqi şəxslərdən alınan vergilər təşkil edir.

Azərbaycanda vergi siyasətinin strateji məqsədi dövlətin əsas funksiyalarını adekvat ödəyən və istehsal sektorunun, kiçik biznesin, kənd təsərrüfatı sektorunun inkişafını stimullaşdıran vergi sisteminin yaradılmasından ibarət olmalıdır. Vergi gəlirlərinin idarə olunması dövlətin iqtisadiyyatı tənzimləməsinə və sosial siyasətini həyata keçirməsinə kömək edir. Azərbaycan Respublikasında vergi gəlirlərinin idarə edilməsinin səmərəliliyinin artırılmasının istiqamətləri bunlardı:

- İqtisadiyyatın bütün sahələrində vergitutma bazasının genişləndirilməsi işi vergi dərəcələrinin aşağı salınması ilə paralel aparılmalıdır;
- Gəlir gətirməyən bəzi vergiləri artırmaq və ya ləğv etməklə vergilərin sayını azaltmaq;

➢ Dövlət büdcəsinə vergilər şəklində daxil etdikləri gəlir hissəsinin inflyasiya təsirindən qorunması, onların büdcəyə sistemləşdirilmiş şəkildə daxil olması təmin edilməlidir;

➢ Bir sıra başqa sahələrdə, məsələn, ticarət və ictimai iaşədə lisenziya ilə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən tutulan vergilərin minimum əməkhaqqına uyğun şəkildə müəyyən edilməsi qaydasının daha çox dəqiqləşdirilməsi və təkmilləşdirilməsi, onlarda daha konkret vergi məbləğlərinin müəyyən edilməsi tələb olunur;

➢ Vergi qanunvericiliyində dəyişikliklər barədə vergi ödəyicilərinin vaxtında məlumatlandırılması və vergi məsləhət xidmətlərimizin əsas tərkib hissəsi olan könüllü vergi ödənişi siyasətinin işlənib hazırlanması və sair.

Büdcə gəlirlərinin artırılması istiqamətində vergi yükünün bütün vergi ödəyiciləri arasında bərabər və ədalətli bölüşdürülməsi məsələsi dövlətin həmişə diqqət mərkəzində olmalıdır. Həmçinin, cəmiyyətdə vergi mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə əhalinin maarifləndirilməsinin gücləndirilməsi vacibdir. Vahid büdcə-vergi siyasətində inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanmaqla yanaşı, milli, regional prinsiplər nəzərə alınmalıdır.

Yuxarıda da qeyd etdiyimiz kimi, büdcə gəlirlərinin formalaşmasında əsas rol oynayan vergilərin xüsusi çəkisinin son ildə azalması istisna edilmir. Uzunmüddətli perspektivdə ölkənin dayanıqlı iqtisadi inkişafını təmin etmək baxımından bu normal hal hesab edilə bilməz. Lakin nəzərə almaq lazımdır ki, qeyri-neft sektorunun inkişafı istiqamətində məqsədyönlü, uğurlu tədbirlər davam etdirilir. Bu da öz müsbət nəticəsini göstərir və nikbin proqnozlara əsas verir.

ƏDƏBİYYAT

1. Azərbaycan Resbublikasının Vergi Məcələsini. Bakı, 2025.
2. Məmmədov F.Ə və başqaları. Vergilər və vergitutma. Bakı: 2010.
3. Əkbərov R.M. “Qloballaşma dövründə maliyyə sisteminin təkmilləşdirilməsi mexanizmi” Bakı 2011.
4. Məmmədova G.T. “Maliyyə sisteminin təkmilləşməsinin makroiqtisadi problemləri” Bakı 2011.
5. www. maliyye.gov.az
6. www. stat.gov.az
7. www. taxes.gov.az
8. www. economy.az
9. www. e-ganun.az
10. www.vergiler.az

Орхан Бахруз оглы Бакдамиров
магистрант,
Эльнара Няби кызы Ахмедова
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Основные пути повышения эффективности управления налоговыми доходами государственного бюджета

Резюме

Основным требованием современного времени является развитие и регулирование национальной экономики и стимуляция, защита внутреннего рынка от внешних воздействий и бюджетирования доходов. Выполнение всего этого эффективно налоговая политика. Но целью налоговой политики является только сбор налогов и обеспечение бюджета доходами, но и также реализацией программ социально-экономического развития. Поэтому в статье рассмотрены основные пути по совершенствованию управления налоговыми доходами.

Orxan Bahruz Bakdemirov
master,
Elnara Nabi Akhmedova
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

The ways to improve the efficiency of tax revenue management of the state budget

Summary

The main demand of modern time is the development and regulation of the national economy and stimulation, protection of the internal market from external influences and budgeting income generation. Implementation of all this is effective tax policy. However, the goal of tax policy is not only to collect taxes and generate budget revenues, but also to implement socio-economic development programs. Therefore, this article examines the main ways to improve tax revenue management.

Ceyhun Əlixan oğlu HÜMBƏTOV
magistrant,
Şahirəxanım Ramiz qızı DADAŞOVA
baş müəllim,
Azərbaycan Kooperasiya Universiteti

DÖVLƏT BÜDCƏSİNƏ VERGİ DAXİLOLMALARI VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Dövlət büdcəsinə vergi daxilolmaları qanunla nəzərdə tutulmuş vergi və ödənişlərdən dövlətin əldə etdiyi vəsaitlərdir. Bunlara fiziki şəxslərin gəlir vergisi, mənfəət vergisı, ƏDV, aksiz vergiləri və əmlak vergiləri və digər vergilərdən daxilolmalar daxildir. Bu vəsaitlər büdcənin gəlir hissəsini təşkil edir və dövlət xərclərinin maliyyələşdirilməsinə sərf olunur.

Vergi daxilolmalarının köməyi ilə dövlət iqtisadi siyasəti həyata keçirir: antiinflyasiya tədbirlərini həyata keçirir, bazarda inhisarçıların üstünlük qazanmasına qarşı fəaliyyət göstərir, qiymətlərin inhisar artımına görə yaranan izafi mənfəəti büdcəyə daxil edir. Bundan başqa, vergi mexanizmi vətəndaşların gəlirlərinin təkrar bölüşdürülməsi, əhalinin sosial müdafiəsi funksiyalarını yerinə yetirir, əhalinin şəxsi gəlirlərini tənzimləyir.

Vergi daxilolmalarının dövlət büdcəsinin gəlirlərində payının artırılması həm büdcənin şaxələnməsinə, həm də büdcə gəlirləri daxil olmaqla iqtisadi diversifikasiya ilə bağlı hədəflərə nail olmağa imkan verir. O baxımdan bu gün büdcədə vergi daxilolmalarının strukturunu qiymətləndirən zaman, təbii ki, ən əhəmiyyətli məqamlardan biri ondan ibarətdir ki, dövlət büdcəsində vergili daxilolmaların payında artımlar var.

Vergili daxilolmaların payının artması nəticə etibarilə büdcənin gəlir strukturunun şaxələnməsinə imkan verir. Çünki nə qədər çox vergi daxilolmaları olursa, nə qədər çox vəsait vergi daxilolmaları hesabına dövlət büdcəsinə daxil edilirsə, bu o qədər büdcənin bir mənbədən asılılığını aradan qaldırır və büdcə gəlirlərinin şaxələnməsinə imkan verir.

2024-cü il ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 15 milyard 808 milyon manatdan artıq vergi daxil olub ki, bu da proqnozdan 538 milyon manat çoxdur. Qeyri-neft-qaz sektorunda daxilolmalar 11 milyard 27,4 milyon manata yaxın təşkil edib, büdcəyə proqnozdan əlavə 337,3 milyon manatdan çox vəsait daxil olub. 2023-cü illə müqayisədə bu sektordan vergi daxilolmaları 1,3 milyard manat və ya 13,6 faiz artıb. Ödənilən vergilərin 69,8 faizi qeyri-neft-qaz sektorunun, 30,2 faizi isə neft-qaz sektorunun payına düşüb.

Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin vergi gəlirlərini təhlil edək.(cədvəl 1.1)

Cədvəl 1.1.

Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin vergi gəlirləri

Sıra №-si	Gəlirlərin təyini	Məbləğ (manatla)
1.	Fiziki şəxslərin gəlir vergisi	1 989 000 000,0
2.	hüquqi şəxslərin (gəlir) vergisi	6 344 000 000,0
3.	Hüquqi şəxslərin torpaq vergisi	46 700 000,0
4.	Hüquqi şəxslərin əmlak vergisi	392 600 000,0
5.	Əlavə dəyər vergisi	8 326 200 000,0
6.	Sadələşdirilmiş vergi	405 000 000,0
7.	Aksizlər	1 840 700 000,0
8.	Yol vergisi	142 800 000,0
9.	Mədən vergisi	160 000 000,0
10.	Gömrük rüsumları	1 810 000 000,0

2025-ci ildə Azərbaycan Respublikasının dövlət büdcəsinə daxil olacaq vergi daxilolmaları barədə konkret məbləğlər hələ açıqlanmayıb, lakin «Dövlət büdcəsi haqqında» Qanun layihəsində göstərilib ki, gəlirlərin təxminən 8 milyard 845.2 milyon manatı vergilər, rüsumlar və digər icbari ödənişlər hesabına formalaşacaq. Bu gəlirlərin 6.6 milyard manatını gömrük rüsumları və idxal vergiləri təşkil edəcək.

Qeyd etmək lazımdır ki, vergi və digər məcburi ödənişlər şəklində dövlət büdcəsində səfərbər olunan vəsaitlərin həcmi hüquqi və fiziki şəxslərin vergi qanunvericiliyi və digər normativ aktlara dəqiq riayət etməsindən çox asılıdır. Digər tərəfdən, Azərbaycan Respublıkasının büdcəsinə vergi daxilolmalarının həcminə təsir edən amillərə aşağıdakılar daxildir: iqtisadiyyatın vəziyyəti və onun neft-qaz sektorundan asılılığı, cari vergi dərəcələri və güzəştləri, vergilərin yığılma səviyyəsi, həmçinin inflyasiya və ÜDM-in artımı kimi makroiqtisadi göstəricilər. Bu amilləri iki qrupa bölmək olar:

I. Vergi sistemi ilə bağlı amillər

- *Vergi dərəcələri və güzəştləri*: fiziki şəxslərin gəlir vergisi, mənfəət vergisinin və digər vergilərin (məsələn, əmlak vergisi) dərəcələri vergi daxilolmalarının məbləğinə birbaşa təsir göstərir. Müəyyən sektorlar və ya vergi ödəyiciləri kateqoriyaları üçün vergi güzəştlərinin mövcudluğu da mühüm amildir.
- *Vergi inzibatçılığı mexanizmləri*: Vergi orqanlarının effektivliyi və qanunlara əməl olunması vergi daxilolmalarının dərəcələrinə təsir edə bilər.
- *Vergiqoyma xüsusiyyətləri*: Kiçik sahibkarlıq subyektləri üçün sadələşdirilmiş vergi rejimlərinin tətbiqi bir tərəfdən qısa müddətdə vergi daxilolmalarını azalda bilər, digər tərəfdən isə sahibkarlığın stimullaşdırılmasına və gələcəkdə vergitutma bazasının artırılmasına səbəb ola bilər.

II. İqtisadiyyatın vəziyyəti ilə əlaqədar amillər:

- *Neft və Qazın Qiymətləri*: Azərbaycan iqtisadiyyatı neft və qaz sektorundan çox asılı olduğu üçün qlobal enerji qiymətləri bu sektordan vergi daxilolmalarına, eləcə də ümumi iqtisadiyyatın fəaliyyətinə və vergitutma bazasına əhəmiyyətli təsir göstərir.
- *ÜDM-in artımı*: Ölkədə ümumi iqtisadi artım vergi daxilolmalarının artması ilə birbaşa əlaqələndirilir, çünki bu, sahibkarlığın və ev təsərrüfatlarının gəlirlərinin artmasına, həmçinin istehlak və investisiyaların artmasına çevrilir.
- *İqtisadi diversifikasiya*: Neft və qaz sektorundan başqa inkişaf edən sektorlar vergi daxilolmalarında daha sabit və proqnozlaşdırıla bilən artıma töhfə verə bilər.
- *İnflyasiya dərəcəsi:* İnflyasiya vergi daxilolmalarının nominal həcminə təsir göstərir. Yüksək inflyasiya nominal vergi daxilolmalarının artmasına səbəb ola bilər, eyni zamanda pul vəsaitlərin real alıcılıq qabiliyyətini aşağa salar.

Yuxarıda göstərilənlərin hamısını nəzərə alaraq, bu amillərdən hər hansı birinin dəyişməsi birbaşa vergitutma bazasına (satış həcmi, mənfəət, əlavə dəyər) və buna görə də ödənilən vergi-

lərin məbləğinə təsir göstərir. Vergi daxilolmaları dövlət büdcəsinin gəlirlərinin əsas mənbəyidir. Onların sabitliyi sosial proqramların, infrastruktur layihələrinin və digər dövlət xərclərinin maliyyələşdirilməsi imkanlarını müəyyən edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2025.
2. Vergi boclarının müasir vəziyyətinin təhlili // AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2012
3. Vergiyə cəlbetmənin və vergi borcları ödənişlərinin təkmilləşdirilməsi istiqamətləri // "Kooperasiya" elmi-praktiki jurnal, 2014.
4. Vergilərin planlaşdırılması və proqnozlaşdırılması // Odlar Yurdu Universitetinin Elmi Pedaqoji Xəbərləri, 2011.
5. Azərbaycanın Statistik Göstəriciləri. Bakı, 2025.
6. www.economy.gov.az
7. www.maliyye.gov.az
8. www.cbar.az
9. www.scs.gov.az
10. www.vergiler.az
11. www.e-qanun.az
12. https://mks.az/news/news-taxes

Джейхун Алихан оглы Гумбатов
магистрант,
Шахира-ханум Рамиз кызы Дадашева
старший преподаватель,
Азербайджанский Университет Кооперации

Налоговые поступления в государственный бюджет и факторы, влияющие на них

Резюме

Факторы, влияющие на объем налоговых поступлений в бюджет Азербайджана, включают: экономический рост (объемы производства, продажи товаров и услуг), цены на экспортные товары (особенно нефть и газ), налоговую политику (ставки, льготы, администрирование) и структуру экономики (доля нефтегазового сектора и других отраслей). Их важность определяется прямым влиянием на налогооблагаемую базу и, как следствие, на доходы бюджета, которые необходимы для финансирования государственных расходов.

Jeyhun Alikhan Humbatov
master,
Shahira-khanum Ramiz Dadasheva
senior teacher,
Azerbaijan Cooperation University

Tax revenues to the state budget and factors affecting them

Summary

Factors influencing the volume of tax revenues in Azerbaijan's budget include economic growth (production volumes, sales of goods and services), export prices (especially oil and gas), tax policy (rates, incentives, administration), and the structure of the economy (the share of the oil and gas sector and other industries). Their importance is determined by their direct impact on the tax base and, consequently, on budget revenues, which are necessary to finance government expenditures.

Ramal Raqif oğlu MƏMMƏDOV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Aysel Eldar qızı SÜLEYMANOVA
aparıcı mütəxəssis,
Maliyyə Nazirliyi yanında Maliyyə Elmi-Tədris Mərkəzi
Bulud Cahangir oğlu SADIQOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət İqtisad Universiteti

MÜƏSSİSƏLƏRİN MALİYYƏ VƏSAİTLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASINDA MALİYYƏ NƏZARƏTİ

Əmtəə-pul münasibətlərinin mövcud olduğu hər bir cəmiyyətdə maliyyə nəzarəti obyektiv şəkildə zəruridir. Bazar iqtisadiyyatı üçün səciyyəvi olan sərbəst iqtisadi sistemin səmərəli işləməsinin vacib şərtlərindən biri iqtisadi fəaliyyətin bütün iştirakçılarının hüquqlarına, vəzifələrinə və məsuliyyətlərinə riayət etməsidir. Buna yalnız qanunun aliliyi prinsipləri əsasında nail olmaq mümkündür. Buna görə bazar şəraitində dövlətin maliyyə sistemi qurulur və əsasən maliyyə qanunlarının qaydaları ilə idarə olunur. Mövcud və potensial riskləri minimuma endirmək məqsədi ilə iqtisadiyyatda nəzarət sistemi yaradılmışdır. İqtisadiyyatın əsasını maliyyə münasibətləri təşkil etdiyindən, iqtisadi nəzarət sistemində maliyyə nəzarəti ən aktual növ kimi formalaşmışdır. Onun funksional məqsədi iqtisadiyyatın bütün sahələrində mənbələrdən səmərəli istifadəni təmin edən maliyyə siyasətinin uğurla həyata keçirilməsidir. Maliyyə nəzarəti - maliyyə-təsərrüfat fəaliyyətində qanunun aliliyinin təmin edilməsinin ən vacib vasitəsidir. Maliyyə nəzarəti səhv idarəetmə və israfçılığın qarşısını alır, pul vəsaitlərinin və digər maliyyə mənbələrinin oğurlanması faktlarını aşkar edir.

Maliyyə nəzarəti təsərrüfat subyektlərinin fəaliyyətinin maliyyə və onunla əlaqəli məsələlərinin, özünəməxsus forma və metodlar tətbiq edilməklə yoxlanılması üzrə tədbirlərin və ya fəaliyyətlərin məcmusudur. Maliyyə nəzarəti dövlət və onun idarələrində, eyni zamanda bütün kommersiya müəsisələrində nəzarəti təmin etməyə yönəlmişdir. Belə ki, dövlət maliyyə nəzarətini özünün qanunverici və icraedici idarələri və digər bütün dövlət idarələri tərəfindən həyata keçirir. Müəssisələr isə öz fəaliyyətinə maliyyə nəzarətini həyata keçirmək üçün daxili nəzarət sistemi yaradır. Ümumi olaraq sürətli və davamlı inkişaf yüksək səviyyədə material, əmək və maliyyə resursları tələb edir. Onlardan maksimum dərəcədə effektiv və səmərəli istifadəni təmin etmək müasir dövrün ən aktual məsələlərindən biridir. Dövlətin və bütün kommersiya müəssisələrinin həyata keçirdiyi nəzarət sisteminin əsas məqsədi də bu səmərə və effektivliyi əldə etməklə bərabər istehsal fəaliyyyətinin potensial risklərini minumuma endirməkdir.Son dövrlərdə ölkəmizin müxtəlif növlü kommersiya müəssisələrində iqtisadi inkişafa güclü təkan verən təkmil maliyyə nəzarəti sisteminin formalaşması istiqamətində bir çox tədbirlər görülməsinə baxmayaraq, qurulan yeni sistemin stukturunda bir sıra nöqsan və çatışmazlıqlar özünü göstərir. Bu sahədə ortaya çıxan problem və çatışmazlıqlar kommersiya müəssisələrindəki maliyyə nəzarəti sisteminin yenidən qurulmasını və daha təkmil hala gətirilməsini vacib və zəruri edir.

Yekun olaraq, müəssisələrin təsərrüfat fəaliyyətinin nəticələrinin onun risk və səmərəlilik göstəricilərindən asılılıq səviyyəsi kommersiya müəssisələrində (sənaye tipli) daxili nəzarət sistemlərinin yenidən araşdırılıb, daha da təkmilləşdirilməsi məsələsini bir daha ön plana çəkir.

Maliyyə nəzarəti cəmiyyətin maliyyə və iqtisadi həyatının müxtəlif sahələrini əhatə etdiyindən, onun effektivliyi nəzarəti həyata keçirən təşkilatdan, nəzarətin həyata keçirilmə növlərindən, forma və metodlarından asılıdır. Maliyyə nəzarəti şərti olaraq müxtəlif meyarlara görə təsnif edilə bilər. Maliyyə nəzarətinin ən xüsusi təsnifatı nəzarət subyektlərindən asılı olaraq aparılır.

Dövlət maliyyə nəzarəti - dövlətin maliyyə mənbələrindən istifadəsinin iqtisadi məqsədəuyğunluğunu təmin etməyə, maliyyə pozuntularının qarşısının alınmasına və aşkarlanmasına yönəlmiş tədbirlər sistemidir. Dövlət maliyyə nəzarəti dövlət hakimiyyət orqanları, qanunverici

orqanları, icraedici idarələri, eyni zamanda Mərkəzi Bank, Maliyyə Nazirliyi və digər nazirliklərin audit-nəzarət şöbələri tərəfindən həyata keçirilir. Dövlət nəzarəti qanunverici orqanlar tərəfindən bütövlükdə ölkənin bütün sosial və iqtisadi inkişafının proqnozunu nəzərdən keçirərkən, büdcə sisteminin bütün hissələri üçün büdcələr tərtib edərkən və onların icrası barədə hesabatlar hazırlayarkən həyata keçirilir. Nəzarət dövlət vəsaitlərinin istifadəsinin səmərəliliyi və qanuniliyi və həyata keçirilən bütün xərclərin məqsədəuyğunluğu üzərində həyata keçirilir.

Kommersiya müəssisələrində təsərrüfat fəaliyyətinə maliyyə nəzarətini təşkilatın rəhbərləri, sahibkarları, səhmdarları, mühasibatlıq bölməsi, maliyyə şöbəsi və eyni zamanda kredit təşkilatları həyata keçirirlər. Bu vəziyyətdə, qeyd etdiklərimiz kommersiya müəssisələrinin nəzarət subyekti, təşkilatın özünün və onun struktur bölmələrinin (filiallar, dükanlar, şöbələr, bölmələr) maliyyə və istehsal fəaliyyəti isə nəzarət obyektidir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, müstəqil şəkildə təsərrüfat fəaliyyəti ilə məşğul olan müəssisələrə, firma və şirkətlərə dövlətin birbaşa nəzarəti və müdaxiləsi məhduddur. Lakin bununla bərabər dövlət, hər bir qeyri-dövlət təşkilatlarında da yol verilən qanunsuzluqların, ziddiyyətlərin, saxtakarlıq və cinayət tərkibli maliyyə pozuntularının vaxtında aşkar edilməsində maraqlıdır.

İctimai maliyyə nəzarəti birbaşa vətəndaşlar,qeyri-hökumət təşkilatları, yəni ictimai təşkilatlar və birliklər tərəfindən xüsusi dövlət orqanlarının iştirakı olmadan həyata keçirilir. Maliyyə nəzarətinin bu novü ictimai maliyyə fəaliyyətinin daha şəffaf olmasına xidmət edir.

Audit nəzarəti, təsərrüfat və ictimai nəzarət ilə birlikdə qeyri-dövlət maliyyə nəzarət növlərinə aiddir.

Bazar münasibətlərinin inkişafı, yeni vergi sisteminin, maliyyə bazarının, müxtəlif mülkiyyət formalı müəssisələrin yaradılması, xarici iqtisadi əlaqələrin genişlənməsi təsərrüfat subyektlərinin maliyyə etibarlılığına və maliyyə vəziyyətlərinin qiymətləndirilməsində obyektivliyə olan tələblərini kəskin artırdı. Buna paralel şəkildə iqtisadiyyatda güclü bir audit sisteminin yaradılmasına ehtiyac artır.

Audit nəzarətinin əsas vəzifələri yoxlanılan təsərrüfat subyektlərinin mühasibat uçotu və maliyyə hesabatlarının etibarlılığını və maliyyə-təsərrüfat əməliyyatlarının tətbiq olunan qanun və qaydalara uyğunluğunu, hesablaşma və ödəmə sənədlərini, vergi bəyannamələrini və digər maliyyə sənədlərini yoxlamaqdır.

Yoxlamanın kim tərəfindən aparılmasından asılı olaraq, audit daxili və xarici olaraq bölünür. Daxili audit müəssisə və təşkilatların daxili nəzarət xidməti tərəfindən aparılır. İdarəetmə qərarlarının effektivliyini və təsərrüfat subyektlərinin resurslarından səmərəli və effektiv istifadəni artırmaq məqsədi daşıyır. Daxili audit xidmətlərinin xüsusi vəzifələri təşkilat rəhbərliyinin tələblərinə əsasən tərtib edilir. Maliyyə nəzarəti, hər bir kommersiya təşkilatında maliyyə əməliyyatlarını idarə etmək, sənədləşdirmək, qiymətləndirmək və hesabat vermək üçün həmin təşkilat tərəfindən hazırlanmış siyasət və prosedurlarla əlaqədardır.

İqtisadi idarəetmə sistemində maliyyə nəzarətinin məqsədi mikro və makro səviyyələrdə maliyyə idarəetmə prosesinin gedişi haqqında bütün məlumatların vaxtında alınması, qanun pozuntularının aşkar edilməsi, adekvat idarəetmə qərarlarının qəbul edilməsi və yerinə yetirdiyi vəzifələrdə həyata keçirilməsidir. Bütün bunlarla bərabər maliyyə siyasətinin uğurla həyata keçirilməsini təmin etmək üçün milli iqtisadiyyatın bütün sahələrində maliyyə mənbələrinin formalaşması və səmərəli istifadəsi prosesini təmin etmək ilkin şərtlərdəndir. Nəzarətin əsas məqsədi yoxlanılan obyektdə faktiki vəziyyətin araşdırılması və idarəetmə qərarlarının icrasına mənfi təsir göstərən mənfi cəhətlərin aşkar edilməsi və ya qarşısının alınmasıdır. İdarəetmə sisteminin elementlərindən biri kimi ümumi idarəetmə sistemində maliyyə nəzarətinin xüsusi yeri vardır. Maliyyə bütün sosial istehsalın, idarəetmə səviyyələrinin hamısını əhatə etdiyi üçün maliyyə nəzarəti universal idarəetmə vasitəsidir.

Müəssisələrin, qurumların, təşkilatların maliyyə fəaliyyəti sahəsindəki iqtisadi hüquq pozuntularının həcmi getdikcə artmaqdadır. Bu da öz növbəsində maliyyə mənbələrinin bölüşdürülməsi və yenidən bölüşdürülməsi üzərində nəzarəti, habelə müəyyən bir təsərrüfat subyektinin maliyyə vəziyyəti haqqında məlumatlarının formalaşdırılmasının qanunauyğunluğunu və düzgünlüyünü tələb edir. Bu, maliyyə nəzarəti ilə təmin edilməlidir.

Kommersiya müəssisələrində maliyyə nəzarətinin təşkilinin məqsədi mövcud maliyyə mənbələrinin yaradılması, bölüşdürülməsi, yenidən bölgüsü və istifadəsi baxımından müəssisənin maliyyə fəaliyyətinin düzgünlüyünü və qanuniliyini müəyyən etməkdir.

Maliyyə nəzarəti müəssisədə maliyyə fəaliyyətinin bütün tərəflərini hərtərəfli yoxlamağı təmin edir və istisnasız bütün təsərrüfat subyektlərinə tətbiq olunur. Bu, bütün təsərrüfat subyektlərinin maliyyə fəaliyyətini həyata keçirmələri ilə əlaqədardır. Maliyyə nəzarətinin predmeti müəssisənin maliyyə fəaliyyətidir.

Maliyyə nəzarətinin əsas vəzifələri aşağıdakılardır:

- müəssisənin maliyyə təhlükəsizliyini, həmçinin təsərrüfat subyektlərinin maliyyə sabitliyini qorumaq;
- təşkilatlar və vətəndaşlar tərəfindən dövlət və yerli hökumətlər qarşısında maliyyə öhdəliklərinin yerinə yetirilməsinin yoxlanılması;
- maliyyə sisteminin bütün sahələrində maliyyə mənbələrinin bölüşdürülməsini, onlardan səmərəli, effektiv və qanuni istifadəsini təmin etmək;
- hər bir təsərrüfat subyektlərinin maliyyə maraqlarına əməl etmək, fəaliyyətlərinin nəticələri üçün məsuliyyətlərini artırmaq;
- istehsalın daxili ehtiyatlarının müəyyənləşdirilməsi;
- maliyyə intizamının pozulmasının aradan qaldırılması və qarşısının alınması.

Maliyyə nəzarətinin formaları müxtəlif meyarlara görə təsnif edilir. Nəzarət vaxtına əsasən maliyyə nəzarətinin üç forması mövcuddur:

- ilkin nəzarət;
- cari nəzarət;
- sonrakı nəzarət.

Sonrakı nəzarət maliyyə mənbələrinin formalaşması və istifadəsi nəticələrinə tabedir. Sonrakı nəzarət müəyyən bir dövr üçün təsərrüfat subyektinin təsərrüfat və maliyyə fəaliyyətinin dərindən öyrənilməsi ilə fərqlənir.

ƏDƏBİYYAT

1. Əliyev Ş. H., Hacıyev F. Ş. (2015), Audit. Bakı, Azərb. Dövlət İqtisad Un-ti, -310 səh.
2. Hacıyev R.İ. (2015), Təftiş və nəzarət, Bakı, "Elm və təhsil",-213 səh.
3. Namazova C.B. (2015), Praktiki Audit. Bakı, "Azərnəşr", -286 səh.
4. Novruzov V.T., Yaqubov. Ş.H., Qənizadə R.T. (2016), Daxili audit fəaliyyətinin təməl prinsipləri. Bakı, Beynəlxalq Auditorlar İnstitutu", 44 səh.

Рамал Рагиф оглы Мамедов
магистрант,
Азербайджанский Университет Кооперации
Айсель Эльдар кызы Сулейманова
ведущий специалист,
Финансовый Научно-Образовательный Центр при Министерстве Финансов
Булуд Джахангир оглы Садыгов
доктор философии по экономике, доцент,
Азербайджанский Государственный Экономический Университет

Финансовый контроль в области эффективного использования финансовых ресурсов предприятий

Резюме

Финансовый контроль обеспечивает комплексную проверку всех аспектов финансовой деятельности предприятия и распространяется на все без исключения хозяйствующие субъекты. Это обусловлено тем, что все хозяйствующие субъекты осуществляют финансовую деятельность. Предметом финансового контроля является финансовая деятельность

предприятия. Задачами финансового контроля являются: обеспечение финансовой безопасности предприятия, а также финансовой устойчивости хозяйствующих субъектов; проверка выполнения организациями и гражданами финансовых обязательств перед государством и органами местного самоуправления; обеспечение распределения финансовых ресурсов по всем направлениям финансовой системы, их эффективное, результативное и законное использование; соблюдение финансовых интересов каждого хозяйствующего субъекта, повышение его ответственности за результаты своей деятельности.

Ramal Ragif Mammadov
master,
Azerbaijan Cooperation University
Aysel Eldar Suleymanova
leading specialist,
Financial Scientific and Educational Center under the Ministry of Finance
Bulud Jahangir Sadigov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan State University of Economics

Financial control in the effective use of financial resources of enterprises

Summary

idarəçilər və menecerlər tərəfindən müəyyən bir birləşmə və ardıcıllıqla həyata keçirilən və əmək kollektivinin qarşısında duran vəzifələrin həllinə töhfə verən məqsədyönlü hərəkətlər şəklində həyata keçirilir. Menecerlərin idarəetmə işlərinin mürəkkəbliyi müstəqil, təcili və tez-tez müəyyən bir risklə nəticələrinə görə tam məsuliyyət daşıyaraq müvafiq qərarlar qəbul etmək ehtiyacı ilə xarakterizə olunur. Səmərəli idarəetmə bu gün bazar rəqabətini müəyyənləşdirən amillərdən biri hesab olunan müəssisədə yüksək təşkilatçılıq və korporativ mədəniyyətin formalaşmasını və saxlanmasını tələb edir. Dövlətdə rəqabətqabiliyyətli iqtisadiyyat inkişaf etdikcə rəqabətin güclənməsi ilə bazar iqtisadiyyatı münasibətləri də getdikcə inkişaf edir. Ölkənin rəqabət mühitinin qorunması və inkişaf etdirilməsinin təmin edilməsi məsələsi isə təbii ki, dövlətdən asılıdır. Müxtəlif dünya təcrübələri göstərir ki, iqtisadi inkişafın getdikcə sürətlənməsi iqtisadi münasibətlərin subyektləri arasında maraqların təmin edilməsi prosesini getdikcə daha da mürəkkəbləşdirir. Bazardakı rəqiblərin inhisar fəaliyyətinin yaranması məsələrinə qarşı bir fikirdə olduğu vəziyyətdə, artıq bazar özü-özünü tənzimləmə prosesinə başlayır ki, bu da rəqabətqabiliyyətli iqtisadi mühitin getdikcə inkişafı deməkdir. Bunun nəticəsində bazarda məhsul çeşidliliyi getdikcə artmaqda davam edir. Bu da çoxçeşidli bazar iqtisadiyyatının getdikcə genişlənməsi deməkdir. Təbii ki, əgər rəqabət dövlətin müxtəlif orqanları tərəfindən tənzimlənməzsə, nəticədə azad sahibkarlıq fəaliyyətinin qarşısının alınması ilə nəticələnə bilər. Azad rəqabət mühitinin olmaması ölkə daxilindəki müəssisələrin sərbəst fəaliyyətinin qarşısını almaqla bərabər, eyni zamanda ölkəyə investisiya qoyuluşunun da qarşısını alır. Belə halların baş verməməsi üçün, həmçinin xarici investisiyanın stimullaşdırılması məqsədilə, effektiv rəqabət mühitinin formalaşdırılması və inkişaf etdirilməsi, inhisarçılığın qarşısının alınması prosesləri dövlətin müxtəlif inzibati və normativ-hüquqi aktları vasitəsilə tənzimlənməlidir. Bu və bunun kimi iqtisadi fəaliyyətlərin tənzimlənməsi vasitəsilə ölkəmizdə və bir çox dünya ölkələrində inhisar fəaliyyətinin aradan qaldırılması məqsədilə bir çox qanunvericilik mövcuddur. Bunun üçün ölkəmizdə rəqabət mühitini qoruyub saxlamaq və inhisarçılıq fəaliyyətinin qarşısını almaq məqsədilə bir çox qanunvericilik və normativ aktlar qəbul edilmişdir.

Xarici investorların hüquqlarının qorunması birinci növbədə ölkəyə olan güvəni artırır və nəticədə daha çox investorun gəlməsi ilə nəticələnir, ikincisi isə investorun hüquqlarının müdafiəsi sonda investorun daha çox kapital qoymasına səbəb olur ki, bu da rəqabətqabiliyyətli iqtisadi mühitin formalaşması və inkişaf etdirilməsi məsələsini daha da yaxşılaşdırmağa səbəb olur.

Hal-hazırda rəqabətqabiliyyətli iqtisadiyyyatın ölkədə formalaşdırılması üçün həyata keçirilməli olan bir çox tədbirlər planı olmalıdır:

1. Dövlət qurumlarının, eyni zamanda onların vəzifəli şəxslərinin hər hansı bir şəkildə rəqabətin inkişafının qarşısını almaq məqsədilə, inhisar fəaliyyətini dəstəkləyici fəaliyyətinin həyata keçirilməsinin qarşısının alınmasına mane olmaq;
2. Hər hansı müəssisənin və ya subyektin güclü mövqelərindən sui-istifadə edilməsi nəticəsində rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafına zidd hərəkətlərin həyata keçirilməsinin qarşısının alınmasına mane olmaq;
3. Rəqabətqabiliyyətli iqtisadi mühitdə inhisarçılıq fəaliyyəti həyata keçirməyə çalışan təsərrüfat fəaliyyətlərinin inzibati qaydada cərimə və sanksiyalar ilə qarşısının alınması;
4. Kiçik və orta sahibkarlığa dəstək proqramlarının həyata keçirilməsi və bunların davamlı olaraq tətbiqi;
5. Rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılması və inkişaf etdirilməsi üçün beynəlxalq təcrübədə dünyanın bir çox inkişaf etmiş və rəqabətqabiliyyətli iqtisadiyyata malik ölkələrindən öyrənmək və onun ölkə iqtisadiyyatına uyğun şəkildə tətbiq edilməsi.

Azərbaycan Respublikasında rəqabətqabiliyyətli mühitin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən tədbirlər planı çərçivəsində rəqabət mühitini məhdudlaşdıran, onun azad fəaliyyətinin qarşısını alan bəzi fəaliyyətlər mövcuddur. Bunların rəsmi formada qarşısının alınması dünyada bir çox ölkədə, o cümlədən ölkəmizdə də həyata keçirilir. Bunlardan ən əsaslarından biri olaraq qəbul edilən antiinhisar fəaliyyətidir. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun əsas məqsədləri, inhisarçılıq fəaliyyətinin qarşısının alınması, onun fəaliyyətinin məhdudlaşdırılması və aradan qaldırılması istiqamətindədir.

Qanunun tətbiq dairəsi Azərbaycan Respublikasının bütün ərazilərində fiziki və hüquqi

şəxslərə keçərlidir. Yalnız buraya Ələt İqtisadi Zonası daxil deyil. Çünki Ələt İqtisadi Zonası "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tənzimlənməkdədir. Bu qanun müxtəlif təsərrüfat subyektlərinin, müxtəlif orqanların və ya idarəetmə qurumlarının hər hansı xarici ölkənin fiziki və ya hüquqi şəxləri ilə bağladığı müqavilələr əgər ölkə ərazisində inhisar fəaliyyətinə gətirib çıxaracaqsa tətbiq edilir.

Bundan başqa antiinhisar fəaliyyətini həyata keçirən müxtəlif dövlət qurumları mövcuddur. Bu fəaliyyət Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Qloballaşma prosesi nəticəsində inzibati tənzimləmə metodlarından əlavə tətbiq edilməkdə olan metodlardan biri də normativ istiqamətləndirmə metodudur. Bu metodun tətbiq edilmə mexanizmində bir çox faktorlardan istifadə edilir. Bunlara misal olaraq subsidiyaların verilməsi, bank faizləri, müxtəlif dövlət sifarişlərinin verilməsi, müxtəlif vergi gözəştlərinin tətbiq edilməsi və s. aid edilməkdədir. Bu tədbirlərin həyata keçirilmə məqsədi əsas olaraq bazarda kiçik və orta sahibkarlığa dəstək olmaq və onların fəaliyyətini təkmilləşdirməyə stimullaşdırmaqdır. Bunun üçün ölkəmizdə kifayət qədər dəstək proqramları tətbiq edilir ki, bu da nəticədə ölkədə rəqabətqabiliyyətli iqtisadiyyatın inkişaf etdirilməsi, bundan başqa bazarda təsərrüfat subyektlərinin daha da çox olması, iqtisadiyyatın genişlənməsi ilə nəticələnir. Bununla da bazarda rəqabət mühiti daha da inkişaf edir. Təbii ki, bütün bunların əsas səbəbi idarəetmə formalarından olan vergi, gömrük, icra hakimiyyəti orqanlarının müxtəlif fəaliyyət planı və digər məsələlərdir. Biznesin inkişaf etdirilməsinə dəstək, onların hüquqlarının qorunması, dövlət qeydiyyatının aparılması, lisenziyaların verilməsi, nəzarət sisteminin müasir dövrə və qanunvericiliyə uyğun şəkildə tətbiq edilməsi, həmçinin onlayn sistemə keçid etməklə daha sürətli və rahat kommunikativ formada fəaliyyətin davam etdirilməsi rəqabətqabiliyyətli iqtisadi mühiti modern formaya gətirən və onun daha çevik formada həyata keçirilməsini təmin edən bir sistemdir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi", 2016, Bakı.
2. Abbasov Ç.M., (2005), "Azərbaycanın Dünya İqtisadiyyatına İnteqrasiya Yolları", Bakı, 64 səh.
3. Musayev V., (2017), "Milli İqtisadiyyat və İqtisadiyyatın Əsas Sektorları üzrə Strateji Yol Xəritələri", Azərbaycan İqtisadi İslahatlar İcmalı, Bakı, 11 səh.
4. Mustafayev Ş, (2014), "Azərbaycanın xarici iqtisadi əlaqələri yeni mərhələdə", Bakı.
5. Nəcəfova T., (2014), "Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə biznes mühitinin yaxşılaşdırılması, Varşava, 268 səh.

Гадир Гусейнага оглы Гадиров
магистрант,
Мардан Гасан оглы Гусейнов
доктор философии по педагогике, доцент,
Азербайджанский Университет Кооперации

Формирование национальной инженерной системы и возможности использования зарубежного опыта в управлении рисками

Резюме

Все более широкое применение инженерных технологий кардинально меняет повседневную жизнь миллионов людей. Они внесли изменения не только во внутреннюю политику различных стран мира, но и в отношения между ними, в международные организации, общественные движения, финансовые группы, преступные организации и мировую систему. Теоретическое осмысление современного менеджмента без учета роли новых информационных технологий становится просто невозможным.

Эффективное управление различными социальными организациями и системами не-

мыслимо без использования информационных технологий. Такая ситуация предопределена заранее. Управление, по сути, отражает состояние управляемой системы и состояние окружающей среды, а также реализацию принятых управленческих решений.

Gadir Huseynagha Qadirov
master,
Mardan Hasan Huseynov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan Cooperation University

Formation of the national engineering system and opportunities for using foreign experience in risk management

Summary

Increasingly applied engineering technologies are radically changing the daily lives of millions of people. They have brought changes not only to the internal politics of various countries in the world, but also to the relations between these countries, to international organizations, social movements, financial groups, criminal organizations and the world system. Theoretical understanding of modern management without taking into account the role of new information technologies becomes simply impossible.

Effective management of various social organizations and systems is unthinkable without the use of information technology. Such a situation is determined in advance. Management essentially reflects the state of the managed system and the state of the environment, as well as the implementation of adopted management decisions.

III BÖLMƏ. TƏHSİL SİYASƏTİ VƏ SOSİAL İŞİN TƏŞKİLİ

Nigar Fəxrəddin qızı BALAYEVA
magistrant,
Cəfər Məmməd oğlu CƏFƏROV
tarix elmləri doktoru, professor,
balayevanigar2002@gmail.com,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNSAN RESURSLARININ İDARƏ OLUNMASINDA LİDERLİK VƏ KOMANDA İŞİ

Müasir dövrdə təhsil müəssisələrinin uğurlu fəaliyyəti, ilk növbədə, insan resurslarının səmərəli idarə olunmasından asılıdır. Təhsil sisteminin əsas məqsədi yüksək ixtisaslı, peşəkar və rəqabətədavamlı kadrların hazırlanmasıdır ki, bu da təhsil müəssisələrinin daxili idarəetmə mexanizmlərinin düzgün qurulmasını, xüsusən də insan resursları sahəsində müasir yanaşmaların tətbiqini zəruri edir. İnsan resurslarının idarə olunması təhsil müəssisələrində yalnız işçi qüvvəsinin seçilməsi və yerləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda müəllimlərin motivasiyası, peşəkar inkişafı, fəaliyyətinin qiymətləndirilməsi, karyera planlaşdırılması və əmək mühitinin formalaşdırılması kimi geniş istiqamətləri əhatə edir.

Təhsil müəssisəsində insan resurslarının idarə olunması həm strateji, həm də əməli səviyyədə həyata keçirilən bir prosesdir. Strateji səviyyədə bu fəaliyyətin məqsədi təhsilin keyfiyyətini yüksəltmək, müəssisənin missiyasına uyğun olaraq insan kapitalının potensialını maksimum dərəcədə reallaşdırmaqdır. Əməli səviyyədə isə bu, müəllim və inzibati heyətin idarə edilməsi, əmək məhsuldarlığının artırılması, təlim və inkişaf proqramlarının təşkili kimi konkret tədbirlərlə özünü göstərir.

Qloballaşma, rəqəmsallaşma və əmək bazarındakı dəyişikliklər təhsil müəssisələrini daha çevik və innovativ idarəetmə modelləri tətbiq etməyə vadar edir. Bu baxımdan, insan resurslarının idarə olunması təhsildə keyfiyyətin təminatı, əməkdaşların motivasiyası və yaradıcılıq qabiliyyətinin inkişafı baxımından əsas rol oynayır. Peşəkar və motivasiyalı insan resursları olmadan təhsil müəssisələrinin qarşıya qoyduğu məqsədlərə nail olması mümkünsüzdür.

Komanda işi bir neçə şəxsin birgə fəaliyyət göstərdiyi işçi qrupunu nəzərdə tutur və bu anlayış qrup daxilində əməkdaşlıq prinsipləri ilə birbaşa əlaqəlidir. Əməkdaşlıq isə öz növbəsində, iki və ya daha çox insan qrupunun şüurlu şəkildə iştirak etdiyi, müəyyən məqsədə çatmaq üçün səylərini birləşdirdiyi və müəyyən qayda və prosedurlara riayət etdiyi davamlı proses kimi təsvir oluna bilər [8, s.118].

Əməkdaşlıq, ən azı iki fərdin məqsədə çatmağa yönəlmiş davranışıdır. Bu vəziyyətdə qrup üzvünün məqsədlərə nail olmaq üçün göstərdiyi hərəkət digər üzvlərə həmin məqsədə çatmaqda kömək edir. Qısaca, əməkdaşlıq istənilən məqsədlərə çatmaq üçün fərdlərin və qrupların bir-birinə dəstək göstərdiyi sosial proses kimi təsvir edilə bilər.

Komanda təhsil müəssisəsi üçün keyfiyyətli bir qrupdur. Təhsil müəssiəsi – böyük və ya kiçik, ibtidai və ya orta məktəb – işi təşkil etmək üçün əsas mexanizm olaraq komanda tələb edir. Lakin sadəcə işçi qüvvəsi ilə tanış olan komanda ilə yüksək keyfiyyətli iş istehsalında səmərəli işləyə bilən komanda arasında fərq mövcuddur. Məktəbdə direktorlar, müəllimlər və digər personal arasında komanda işi məktəb təşkilatını keyfiyyətin artırılmasında birləşdirən əsas elementlərdir. İdarəçilik və ya liderlər bütün ekspertlərin əməkdaşlıq, öhdəlik və iştirak prinsipləri əsasında keyfiyyətin yüksəldilməsi proqramlarını həyata keçirməlidir [5, s.136].

İşçi komanda bilik, bacarıq və ya mütəxəssislik baxımından yaranan problemləri və məsələləri həll etməkdə çoxsaylı faydalı həll yolları təklif edir. Həll yolları arasında aşağıdakılar qeyd olunur [6, s.156]:

1. Birgə işləmək imkanı verildikdə, müəllimlərin məmnuniyyəti və əhval-ruhiyyəsinin yüksəlməsi;
2. Müxtəlif sahələrdə bacarığa malik fərdlər tərəfindən bölüşdürülən problemin daha sürətli və səmərəli həlli;

3. Komanda daxilində müzakirə olunan təkliflərin fərdi şəkildə verilən tövsiyələrə nisbətən daha asan həyata keçirilməsi.

Buradan aydın olur ki, komanda işi məktəblərdə həm keyfiyyətin artırılması, həm də əməkdaşlıq və qarşılıqlı dəstəyin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Səmərəli işçi komanda layihəsinin əsas keyfiyyətlərindən biridir. Belə bir komanda mütləq şəkildə məktəb təşkilatı daxilində inkişafı həyata keçirə bilər. Müxtəlif bacarıqların, təcrübənin və qiymətləndirmə qabiliyyətinin birləşməsi komandanın fərdi üzvlərdən daha yaxşı nəticələr əldə etməsinə imkan verir. Komanda daha çevik olur və məktəbin arzuladığı məhsuldarlıq və performansın birləşməsinə nail ola bilir. Komanda şəxsi uğurun əldə edilməsində çox mühüm komponentdir. Reallıqda səmərəli olan fərdlər yüksək özünəinam, işlərini planlaşdırmaq və qiymətləndirmək istəyi, həmçinin bacarıqlarını inkişaf etdirərək komandanın səmərəli üzvü olma xüsusiyyətlərinə malikdirlər.

Effektiv işçi komandanın vacib ünsürlərindən biridir. Effektiv bir komanda şübhəsiz ki, məktəb daxilində inkişafa nail ola bilər. Müxtəlif bacarıqların, təcrübənin və düzgün qərarvermənin birləşməsi komandaya fərdi şəxslərin işindən daha yaxşı nəticələr əldə etməyə imkan verir. Komanda daha çevik olur və məktəbin arzuladığı məhsuldarlıq və performans kombinasiyasını reallaşdıra bilir. Komanda şəxsi uğurun çox önəmli komponentidir. Reallıqda effektiv olan fərdlər yüksək özünəinam, işlərini planlama və qiymətləndirmə istəyi, eləcə də bacarıqlarını inkişaf etdirərək effektiv komanda üzvü olma xüsusiyyətlərinə malikdirlər.

Effektiv komandalarda üzvlər bir-biriləri ilə bilik və bacarıqlarını paylaşaraq ən yaxşı və keyfiyyətli qərarlar qəbul edirlər. Qərar adətən qısa müddət ərzində qəbul edilir, çünki bu proses bütün üzvlərin əməkdaşlığını və keyfiyyətli yanaşmanı tələb edir. Effektiv komanda adətən müxtəlif fikirləri müzakirə edir və düşüncə və ya fikir ziddiyyəti yaranarsa, onu ən yaxşı şəkildə həll edir.

Komanda işi anlayışı indi getdikcə məktəblərdə genişlənir, çünki komanda işinin faydaları nəzərə çarpdıqca müəyyən nəticələrə nail olmaq üçün bir qrup fərd birlikdə işləməyə başlayır və bu, məktəbin inkişafının bir hissəsi kimi qiymətləndirilir.

Son illərdə "Təhsildə liderlik" mövzusunda bir sıra tədqiqat aparılıb və nəticədə bir sıra liderlik yanaşmaları meydana çıxıb, məsələn, tədris yönümlü liderlik, adaptiv liderlik, innovativ liderlik və kollektiv liderlik. Bir neçə liderlik nəzəriyyəsi əvvəlki nəzəriyyələrə tənqid kimi və ya mövcud nəzəriyyələrin genişləndirilməsi və ya birləşdirilməsi kimi ortaya çıxmışdır. Məktəb liderliyi nəzəriyyələrinin inkişafını, effektiv liderliyin xüsusiyyətlərini və məktəb direktorlarının liderlik bacarıqlarının inkişafı üçün tövsiyə edilən elementləri ümumiləşdirərək, tədqiqatlar gələcək araşdırmalar üçün istiqamətlər təqdim edir.

Təhsildə liderlik nəzəriyyələrinə ümumi baxış təqdim etmək üçün əvvəlcə "liderlik" anlayışı izah olunur. Liderliyi birmənalı şəkildə tərifləndirmək asan deyil, çünki ədəbiyyatda onunla bağlı ümumi qəbul edilmiş bir tərif yoxdur. Bir çox alimlər liderliyi araşdırmış və onu müxtəlif formalarda izah etmişlər. Əksər təriflərin ortaq cəhəti ondan ibarətdir ki, liderlik "bir fərdin başqalarına məqsədyönlü təsir göstərərək fəaliyyətləri və münasibətləri müəyyən bir istiqamətə yönəltmə prosesi"dir.

Bəs sözügedən yanaşmalar nəyi nəzərdə tutur?

Tədris yönümlü liderlik yanaşması əsasən məktəb rəhbərinin təhsil prosesinə, yəni müəllimlərin tədris fəaliyyətinə və şagirdlərin öyrənmə nəticələrinə birbaşa təsirinə yönəlir. Məqsəd müəllimlərin peşəkar inkişafını dəstəkləmək, tədris strategiyalarını yaxşılaşdırmaq və məktəb daxilində öyrənmənin keyfiyyətini artırmaqdır. Bu tip liderlikdə direktorun əsas rolu planlaşdırma, monitorinq və müəllimlərlə birgə tədris prosesini inkişaf etdirməklə şagird nailiyyətlərini artırmaqdır.

Adaptiv (vəziyyətə uyğun) liderlik fərqli vəziyyətlərdə və fərqli işçilərə görə liderin üslubunu dəyişdirməsini nəzərdə tutur. Yəni lider hər bir vəziyyətin tələbinə və komanda üzvlərinin bacarıq səviyyəsinə uyğun davranır. Məsələn, təcrübəsiz müəllimlə işləyərkən daha çox rəhbərlik və təlim vermək, təcrübəli müəllimlə işləyərkən isə daha çox dəstək və məsləhət vermək üsulundan istifadə edilir [9].

İnnovativ (yenilikçi) liderlik liderin motivasiyaedici və ilhamverici rolu üzərində dayanır. Bu

liderlər komanda üzvlərini yalnız tapşırıqları yerinə yetirməyə deyil, həm də daha yüksək məqsədlərə çatmağa təşviq edirlər. Məqsəd komanda üzvlərinin şəxsi və peşəkar inkişafını stimullaşdırmaq, onları yenilikçi düşünməyə və öz potensialını maksimum istifadə etməyə yönəltməkdir.

Kollektiv liderlik məktəb daxilində liderliyin yalnız bir nəfərdə cəmləşməməsi, əksinə, müxtəlif şəxslərin və qrupların müxtəlif sahələrdə liderlik rolunu paylaşması prinsipi üzərində qurulur. Bu yanaşma həm qərarverməni, həm də məsuliyyəti bölüşdürərək daha çox əməkdaşlıq və komanda işini təşviq edir. Məqsəd bütün komanda üzvlərinin bacarıqlarını istifadə etmək və məktəbdə kollektiv liderliyi inkişaf etdirməkdir [9].

Yaxşı bir lider digər insanlara və ya qruplara təsir göstərə bilən, onları hərəkət etməyə və təşkilatın məqsədlərini dəstəkləməyə sövq edən şəxsdir. Məktəb direktoru isə təsir gücünə malik bir şəxsdir və məktəbin idarə olunmasında əsas rolu oynayır. Direktorun bir çox əsas funksiyaları vardır ki, onlardan biri də liderlikdir. Təhsil sahəsində lider kimi direktor daim müəllimlərlə, işçi heyəti ilə, şagirdlərlə və ictimaiyyətlə qarşılıqlı əlaqədə olur. Direktorun uğurunun əsas aspektlərindən biri düzgün qərar qəbul etmək bacarığıdır. Lider kimi direktor qarşıya qoyulan məqsədlərə çatmaq üçün səmərəli qərarlar qəbul etməyə cavabdehdir, eyni zamanda müəllimləri öz vəzifələrini yerinə yetirməyə həvəsləndirməli və nəzarət etməlidir [3, s. 134].

Təhsil müəssisələrində insan resurslarının idarə olunmasında liderlik və komanda işi müasir idarəetmənin əsas istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət daşıyır. Bu iki amil – liderlik və komanda işi – təhsil sistemində keyfiyyətin, səmərəliliyin və davamlı inkişafın təmin edilməsində həlledici rol oynayır. Təhsil müəssisələrinin effektiv fəaliyyəti birbaşa olaraq rəhbərlik edən şəxsin idarəetmə bacarıqlarından, liderlik üslubundan və kollektivin əməkdaşlıq səviyyəsindən asılıdır.

Liderlik anlayışı təhsil mühitində yalnız idarə etmək deyil, həm də motivasiya vermək, innovasiyaları təşviq etmək, müəllim və işçilərdə məsuliyyət hissini formalaşdırmaq kimi geniş bir məzmun daşıyır. Uğurlu bir təhsil rəhbəri əməkdaşlarını dinləyən, onların ideyalarını dəyərləndirən, hər kəsin potensialını aşkara çıxarmağa imkan yaradan şəxsdir. Belə liderlər komanda daxilində qarşılıqlı hörmət, etimad və peşəkar dəstək mühiti yaradırlar.

Komanda işi isə təhsil müəssisəsində birgə qərar qəbuletmə, əməkdaşlıq və məqsədyönlü fəaliyyət mədəniyyətinin formalaşmasına şərait yaradır. Müəllimlər, inzibati heyət və digər işçilər arasında qarşılıqlı əlaqənin gücləndirilməsi həm tədris prosesinin keyfiyyətinə, həm də ümumi iş mühitinə müsbət təsir göstərir. Effektiv komanda əməkdaşlığı nəticəsində problemlərin həlli daha sürətli və düzgün şəkildə həyata keçirilir, innovativ ideyaların reallaşması asanlaşır.

Təhsil müəssisələrində liderlik və komanda işi eyni məqsədə – yüksək nəticəyə, səmərəli idarəetməyə və insan amilinin düzgün istiqamətləndirilməsinə xidmət edir. Əgər lider yalnız inzibati qərarverici kimi deyil, həm də motivator, strateq və dəyişikliklərin təşəbbüskarı kimi çıxış edirsə, bu zaman insan resurslarının idarə olunması prosesi daha dinamik və nəticəyönlü olur. Belə şəraitdə hər bir əməkdaş özünü vacib və dəyərli hiss edir, bu isə ümumi təşkilati mədəniyyətin inkişafına xidmət edir.

Eyni zamanda, təhsil müəssisələrində liderlik və komanda işi sinerji effekti yaradır. Liderin vizyonu və komandanın icra potensialı birləşdikdə, təhsil sistemində keyfiyyətli dəyişikliklər baş verir, innovativ yanaşmalar tətbiq olunur və strateji məqsədlərə nail olmaq mümkün olur. Bu, həm pedaqoji fəaliyyətin, həm də idarəetmə strukturunun müasir tələblərə uyğunlaşdırılmasına şərait yaradır.

Nəticə etibarilə, təhsil müəssisələrində insan resurslarının idarə olunmasında liderlik və komanda işi bir-birini tamamlayan iki vacib idarəetmə komponentidir. Güclü liderlik olmadan komanda işi sistemsiz və təsirsiz qalır, komanda dəstəyi olmadan isə liderlik uzunmüddətli nəticə verə bilmir. Buna görə də müasir təhsil müəssisələrində hər iki istiqamətin harmonik şəkildə inkişaf etdirilməsi, müəllim və inzibati heyətin liderlik bacarıqlarının təkmilləşdirilməsi, komanda ruhunun gücləndirilməsi təhsilin dayanıqlı inkişafının əsas şərtlərindən biridir.

Təhsil müəssisələrində liderlik və komanda işinin məqsədyönlü şəkildə qurulması yalnız idarəetmənin səmərəliliyini artırmır, həm də insan resurslarının potensialından maksimum istifadə etməyə, innovativ tədris mühitinin formalaşmasına və ümumilikdə təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edir.

ƏDƏBİYYAT

1. Əliyeva N. Təhsildə insan resurslarının idarəetmə sistemi və onun təkmilləşdirilməsi yolları. Magistr dissertasiyası. Bakı, 2020.
2. İbrahimov F.N. (2010) Ümumi pedaqogikadan mühazirələr. Bakı: Mütərcim, səh 381.
3. Mehrabov A.O. (2010) Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, səh 312.
4. Ellen D., Filip D. (2019). A review on leadership and leadership development in educational settings.
5. Kaniati A., Aan K. Sumarto S., (2019). Leadership in Education. p 134-137.
6. Leitch, C.M. and Volery, T. (2017). Entrepreneurial leadership: Insights and directions. International Small Business Journal, p 156.
7. Naiker, I., Grant, C. and Pillay S. (2016). Schools performing against the odds: Enablements and constraints to school leadership practice. South African Journal of Education, p 110.
8. Nicky LaMarco. (2018). The Importance of Human Resource Developments in Education, p 118.
9. https:// muallım.edu.az

Нигяр Фахраддин кызы Балаева
магистрант,
balaevanigar2002@gmail.com,
Джафар Мамед оглы Джафаров
доктор исторических наук, профессор,
Азербайджанский Государственный Педагогический Университет

Лидерство и командная работа в управлении человеческими ресурсами в образовательных учреждениях

Резюме

Эффективное лидерство и командная работа играют ключевую роль в управлении человеческими ресурсами в образовательных учреждениях. В современных условиях быстро меняющейся образовательной среды руководители школ и администраторы несут ответственность не только за организацию учебного процесса, но и за формирование мотивирующей и сотрудничественной атмосферы среди преподавателей и сотрудников. Лидерство в этом контексте подразумевает стратегическое принятие решений, эффективную коммуникацию и способность вдохновлять коллектив на достижение общих целей.

Командная работа способствует повышению производительности труда педагогов, обмену опытом и созданию позитивной культуры в образовательной организации. Руководители, использующие демократические и трансформационные стили лидерства, наделяют сотрудников инициативой, стимулируют инновационное мышление и формируют чувство ответственности за успех учреждения. Кроме того, командное взаимодействие между различными подразделениями способствует более эффективному использованию человеческих ресурсов и повышению качества образования.

Таким образом, лидерство и командная работа являются неотъемлемыми элементами управления человеческими ресурсами в образовательных учреждениях. Сильный лидер, который ценит сотрудничество, способен превратить группу людей в сплочённую команду, добивающуюся высоких результатов. Сочетание лидерского видения и командного духа обеспечивает устойчивое развитие, профессиональный рост педагогов и улучшение успеваемости учащихся.

Nigar Fakhraddin Balayeva
master,
balayevanigar2002@gmail.com,
Jafar Mammad Jafarov
doctor of historical sciences, professor,
Azerbaijan State Pedagogical University

Leadership and teamwork in human resource management in educational institutions

Summary

Effective leadership and teamwork play a vital role in the management of human resources within educational institutions. In today's rapidly changing educational environment, school principals and administrators are not only responsible for organizing academic activities but also for creating a motivating and collaborative atmosphere among teachers and staff. Leadership in this context involves strategic decision-making, effective communication, and the ability to inspire employees toward achieving common goals.

Teamwork enhances the productivity of teachers and staff, promotes knowledge sharing, and helps to build a positive school culture. When leaders adopt participatory and transformational leadership styles, they empower employees to take initiative, develop innovative ideas, and feel responsible for the success of the institution. Moreover, teamwork encourages cooperation between different departments, leading to a more efficient use of human resources and better educational outcomes.

Therefore, leadership and teamwork are essential components of human resource management in educational institutions. A strong leader who values collaboration can transform a group of individuals into a cohesive team capable of achieving excellence in education. The combination of leadership vision and effective teamwork ensures sustainable development, professional growth of teachers, and improved student performance.

Həmayə Ələmdər qızı İSAYEVA
magistrant,
isayevahemaye2000@gmail.com,
Asəf Dağbəy oğlu ZAMANOV
fizika-riyaziyyat elmləri doktoru, professor,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MÜASİR TƏHSİL SİSTEMİNDƏ MÜƏLLİM LİDERLİYİNİN ƏHƏMİYYƏTİ VƏ İNKİŞAF MEXANİZMLƏRİ

Müasir dövrdə təhsil sisteminin qarşısında duran əsas məqsədlərdən biri cəmiyyətin sosial-iqtisadi inkişafını təmin edə biləcək yaradıcı, müstəqil düşünən, məsuliyyətli və liderlik keyfiyyətlərinə malik müəllimlərin yetişdirilməsidir. Qlobal miqyasda baş verən elmi-texniki tərəqqi, informasiya texnologiyalarının sürətli inkişafı və təhsil prosesində innovativ yanaşmaların aktuallaşması müəllim şəxsiyyətinə yeni tələblər irəli sürür. Bu baxımdan, müəllim yalnız bilik ötürən deyil, eyni zamanda şagirdlərin potensialını aşkara çıxaran, onları məqsədyönlü fəaliyyətə istiqamətləndirən lider kimi çıxış etməlidir.

Müasir təhsil sistemində müəllim liderliyi anlayışı pedaqoji fəaliyyətin strateji komponentinə çevrilmişdir. Müəllim liderliyi – təlim-tərbiyə prosesinin effektiv idarə olunması, kollektivdə müsbət mühitin formalaşdırılması, təhsil innovasiyalarının tətbiqi və təhsilalanlarda motivasiyanın artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu, həm də müəllimin öz peşəkar inkişafına yönəlmiş davamlı öyrənmə və özünüreallaşdırma prosesidir. Müəllim liderliyinin əsas məqsədi sinif otağından başlayaraq məktəb və cəmiyyət səviyyəsində müsbət dəyişikliklərə təkan verməkdir. [1, s. 45]

Təhsildə liderlik bacarıqlarının inkişaf etdirilməsi müəllimlərin idarəetmə və qərarvermə proseslərində fəal iştirakını stimullaşdırır, bu da nəticə etibarilə tədris keyfiyyətinin yüksəlməsinə, məktəbin inkişaf strategiyasının daha effektiv şəkildə həyata keçirilməsinə xidmət edir. Müasir pedaqoji yanaşmalar göstərir ki, lider müəllim təkcə bilik və bacarıqları ilə deyil, həm də empatiya, kommunikasiya, təşəbbüskarlıq və məsuliyyət kimi şəxsi keyfiyyətləri ilə fərqlənir.

Bu mövzu üzrə tədqiqatın aktuallığı ondan ibarətdir ki, Azərbaycanda həyata keçirilən təhsil islahatları, xüsusilə müəllim hazırlığı sistemində aparılan dəyişikliklər, pedaqoji kadrların liderlik potensialının gücləndirilməsini prioritet istiqamət kimi müəyyənləşdirmişdir. Müəllim liderliyinin inkişaf mexanizmlərinin araşdırılması, onun nəzəri əsaslarının və praktik tətbiq yollarının müəyyənləşdirilməsi təhsil sisteminin davamlı inkişafına mühüm töhfə verə bilər.

Beləliklə, müasir təhsil sistemində müəllim liderliyinin əhəmiyyəti və inkişaf mexanizmlərinin elmi-pedaqoji baxımdan təhlili, təhsil islahatlarının səmərəliliyinin artırılması, müəllimlərin peşəkar kimliyinin möhkəmləndirilməsi və tədris keyfiyyətinin yüksəldilməsi baxımından mühüm elmi və praktik əhəmiyyət kəsb edir.

Müasir təhsil sistemində müəllim liderliyinin formalaşması pedaqoji prosesin keyfiyyətinə, təhsilalanların inkişafına və ümumilikdə təhsil müəssisələrinin səmərəli idarə olunmasına bilavasitə təsir göstərən mühüm amillərdən biridir. Müəllim liderliyinin mahiyyəti yalnız tədris prosesinin təşkilinə deyil, həm də təhsildə innovasiyaların tətbiqinə, komanda ruhunun gücləndirilməsinə və şagirdlərin şəxsi potensialının reallaşdırılmasına yönəlmiş kompleks fəaliyyətlə xarakterizə olunur. [5, s. 56]

Müəllim liderliyi dedikdə, müəllimin öz peşəkar bacarıqları və şəxsi keyfiyyətləri vasitəsilə həm tədris prosesinə, həm də təhsil mühitinə müsbət təsir göstərmək qabiliyyəti başa düşülür. Bu liderlik forması idarəetmə liderliyindən fərqli olaraq, daha çox əməkdaşlıq, motivasiya və birgə qərarvermə prinsiplərinə əsaslanır. Müəllim lider, hər şeydən əvvəl, öyrənənlərin ehtiyaclarını nəzərə alır, onlarda yaradıcılıq və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir, həmçinin həmkarları ilə birgə pedaqoji innovasiyaların tətbiqinə öncüllük edir. Müəllim liderliyinin əsas elementlərinə aşağıdakılar daxildir:

- Peşəkar bilik və bacarıqların dərinləşdirilməsi;
- Komanda ilə əməkdaşlıq və qarşılıqlı dəstək;
- Pedoqoji innovasiyaların tətbiqi və idarə olunması;
- Şagird motivasiyasının və iştirakçılığının artırılması;
- Təhsil prosesində strateji planlaşdırma və təşəbbüskarlıq.

Müasir müəllim hazırlığı sistemində liderlik bacarıqlarının inkişafı xüsusi pedaqoji təlimlər, seminarlar, mentorluk və təcrübə proqramları vasitəsilə həyata keçirilir. Bu istiqamətdə əsas məqsəd müəllimlərin yalnız nəzəri biliklərə deyil, həm də praktik liderlik vərdişlərinə yiyələnməsini təmin etməkdir. Müəllimlərin liderlik potensialının inkişafı, onların özünüidarəetmə, münaqişələrin həlli, effektiv kommunikasiya və komanda rəhbərliyi kimi bacarıqlarını təkmilləşdirir. Pedaqoji universitetlərdə və müəllimlərin ixtisasartırma kurslarında liderlik təlimlərinin tətbiqi təhsil sistemində yeni yanaşmaların formalaşmasına səbəb olur. Xüsusilə, layihə əsaslı təlim, reflektiv tədris, tənqidi düşünmə və sosial-emosional öyrənmə kimi müasir metodların tətbiqi müəllimlərin liderlik keyfiyyətlərini stimullaşdırır. [6, s. 78]

Lider müəllim təkcə peşəkar biliklərə deyil, həm də sosial və emosional zəkaya malik olmalıdır. Empatiya, qarşılıqlı hörmət, ədalət və motivasiya kimi dəyərlər müəllim liderliyinin psixoloji dayaqlarını təşkil edir. Bu xüsusiyyətlər müəllimlə şagird, eləcə də müəllimlə valideyn və həmkarlar arasında səmimi, etimadlı münasibətlərin formalaşmasına kömək edir. Psixoloji baxımdan lider müəllim özünəinamı yüksək, yeniliyə açıq, stressə davamlı və qərarvermə qabiliyyəti inkişaf etmiş şəxsdir. Belə müəllimlər sinifdə demokratik mühit yaradır, təhsilalanların təşəbbüslərini dəstəkləyir və onların təlim prosesində aktiv iştirakını təmin edirlər. [8, s. 34]

Müəllim liderliyinin inkişafı bir sıra mexanizmlər vasitəsilə həyata keçirilir. Bu mexanizmlər həm təhsil siyasəti səviyyəsində, həm də pedaqoji praktika səviyyəsində sistemli yanaşma tələb edir. Əsas mexanizmləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. **Təhsil siyasətində liderlik istiqamətinin prioritetləşdirilməsi:** Müəllimlərin liderlik fəa-

liyyətini stimullaşdıran dövlət proqramları, təlim modulları və peşəkar inkişaf çərçivələri hazırlanmalıdır.

2. **Müəllimlərin davamlı peşəkar inkişafı:** Müntəzəm ixtisasartırma kursları və innovativ tədris metodları üzrə təlimlər təşkil edilməlidir.

3. **Mentor və kouçluq sisteminin inkişafı:** Təcrübəli müəllimlər gənc pedaqoqlara rəhbərlik edərək onların liderlik bacarıqlarını formalaşdırmalıdır.

4. **İnnovativ məktəb modellərinin tətbiqi:** Lider müəllimlər üçün təşəbbüs imkanları yaradan, yaradıcı layihələrə əsaslanan məktəb idarəetmə modelləri inkişaf etdirilməlidir.

5. **Motivasiya və stimullaşdırma sistemi:** Müəllimlərin liderlik fəaliyyətini qiymətləndirən və mükafatlandıran sistemin formalaşdırılması vacibdir.

Azərbaycanda həyata keçirilən təhsil islahatları müəllim peşəsinin nüfuzunun artırılmasına, onların liderlik potensialının reallaşdırılmasına yönəlmişdir. "Müəllimlərin peşəkar inkişafı strategiyası", "Təhsildə keyfiyyət təminatı" və "Rəqəmsal təhsil" kimi istiqamətlər müəllim liderliyinin inkişafı üçün mühüm zəmin yaradır. Müasir təhsil sistemində müəllim liderliyinin inkişafı yalnız pedaqoji fəaliyyətin təkmilləşdirilməsi ilə məhdudlaşmır, həm də sosial, psixoloji və idarəetmə yönümlü dəyişiklikləri əhatə edir. Müəllim liderliyinin formalaşması təhsil müəssisəsinin idarəetmə strukturunda demokratik münasibətlərin güclənməsinə, kollektivdə əməkdaşlıq mədəniyyətinin artmasına və ümumi pedaqoji iqlimin sağlamlaşmasına mühüm töhfə verir. Lider müəllimlər məktəbin strateji inkişaf planlarında iştirak etməklə yanaşı, həm də digər müəllimlərin peşəkar inkişafına dəstək göstərir, təlimin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş innovativ təşəbbüslərin əsas aparıcı qüvvəsinə çevrilirlər.

Müəllim liderliyinin təhsil keyfiyyətinə təsiri. Lider müəllimlərin fəaliyyəti tədris prosesinin effektivliyini birbaşa artırır. Onların rəhbərliyi altında həyata keçirilən tədris strategiyaları şagirdlərin dərsə marağını yüksəldir, təlim motivasiyasını artırır və nəticə etibarilə təhsil keyfiyyətinin yüksəlməsinə səbəb olur. Müəllim liderləri sinifdə müstəqil düşünən, yaradıcı və məsuliyyətli şagirdlər yetişdirir, bu isə gələcəkdə cəmiyyət üçün zəruri olan sosial aktiv və vətəndaşlıq mövqeyi formalaşmış fərdlərin yetişməsinə şərait yaradır. Lider müəllimlər həmçinin məktəbin innovativ mədəniyyətinin daşıyıcısı kimi çıxış edirlər. Onlar yeni tədris texnologiyalarını tətbiq edir, təlimdə fərdi yanaşmanı əsas prinsip kimi qəbul edir və bu yolla təhsilalanların potensialını maksimum dərəcədə reallaşdırmağa çalışırlar. Müəllim liderliyin məktəb səviyyəsində formalaşması, kollektivin motivasiyasını artırır, əməkdaşlıq və paylaşma mühitini gücləndirir. Bununla yanaşı, müəllim liderliyinin inkişafında bir sıra çətinliklər və məhdudiyyətlər də mövcuddur. Ən başlıca problemlərdən biri, bəzi təhsil müəssisələrində ənənəvi idarəetmə modellərinin hökm sürməsi, müəllimlərin təşəbbüslərinə kifayət qədər dəstək verilməməsi və innovativ fəaliyyətə qarşı müəyyən müqavimətin olmasıdır.

Digər tərəfdən, müəllimlərin iş yükünün çoxluğu, maddi və mənəvi stimulların yetərsizliyi, həmçinin ixtisasartırma proqramlarının bəzən formal xarakter daşıması liderlik bacarıqlarının inkişafına mənfi təsir göstərir. Bundan əlavə, bəzi müəllimlərdə özünəinamın zəif olması və liderlik anlayışının yanlış qavranılması da bu istiqamətdə qarşıya çıxan mühüm çətinliklərdəndir. Bu problemlərin aradan qaldırılması üçün sistemli və çoxsəviyyəli yanaşma tələb olunur. İlk növbədə, təhsil siyasətində müəllim liderliyinə xüsusi diqqət ayrılmalı, onun inkişafını stimullaşdıran mükafatlandırma və təşviq mexanizmləri yaradılmalıdır. Həmçinin, pedaqoji kollektivlərdə liderlik bacarıqlarının formalaşdırılmasına yönəlmiş təlim proqramları və interaktiv seminarlar genişləndirilməlidir.

XXI əsr təhsilində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi müəllim liderliyinin yeni istiqamətlərinin formalaşmasına şərait yaradır. Rəqəmsal tədris mühitində lider müəllimlər virtual platformalarda öyrənmə icmaları yaradır, distant təlim prosesində fəal rol oynayır və təhsil resurslarının idarə olunmasına rəhbərlik edirlər.

Elektron təhsil, süni intellekt, onlayn qiymətləndirmə və rəqəmsal məzmunun hazırlanması kimi proseslər müəllim liderlərdən yüksək texnoloji savad və yaradıcı düşünmə tələb edir. Bu baxımdan, müəllim liderliyinin gələcək inkişafı pedaqoji texnologiyalarla sıx inteqrasiya şəklində davam edəcəkdir. Rəqəmsal lider müəllimlər yalnız dərs deyən deyil, həm də rəqəmsal bilik

mədəniyyətini formalaşdıran, şagirdləri innovasiyaya yönəldən şəxslərdir.

Dünyanın bir çox ölkələrində müəllim liderliyinin inkişafı təhsil strategiyalarının əsas komponentinə çevrilmişdir. Məsələn, **Finlandiya** və **Sinqapur** təhsil sistemlərində müəllim liderliyi "öyrənən məktəb" modelinin əsasını təşkil edir. Bu ölkələrdə müəllimlər təkcə dərs deyən deyil, həm də tədqiqatçı, yenilikçi və qərarverici kimi fəaliyyət göstərirlər. **Böyük Britaniya** təcrübəsində isə müəllim liderliyinin inkişafı üçün "Teacher Leadership Program" kimi xüsusi təşəbbüslər mövcuddur. Bu proqramlar vasitəsilə müəllimlər idarəetmə bacarıqlarını inkişaf etdirir, məktəbdə dəyişiklik layihələrinə rəhbərlik edir və pedaqoji icmalarda aktiv iştirak edirlər. Azərbaycan təhsil sistemi üçün bu təcrübələr nümunəvi xarakter daşıya bilər. Bu istiqamətdə milli təhsil proqramlarında beynəlxalq təcrübənin lokal xüsusiyyətlərə uyğunlaşdırılması, müəllimlərin təşəbbüslərinin dəstəklənməsi və idarəetmə proseslərinə aktiv cəlbi mühüm əhəmiyyət kəsb edir. Gələcəkdə müəllim liderliyinin inkişafı bir neçə istiqamətdə davam etdirilməlidir:

1. **Pedaqoji universitetlərdə liderlik modullarının tətbiqi** – müəllim hazırlığında liderlik fənlərinin tədris proqramına daxil edilməsi;
2. **Peşəkar öyrənmə icmalarının yaradılması** – müəllimlərin qarşılıqlı təcrübə mübadiləsi üçün daimi platformaların təşkili;
3. **Rəqəmsal liderlik bacarıqlarının gücləndirilməsi** – müəllimlərin yeni texnologiyaları idarəetmə və tətbiqetmə qabiliyyətlərinin inkişafı;
4. **Təhsil müəssisələrində liderlik mədəniyyətinin təşviqi** – rəhbərlik və müəllimlər arasında əməkdaşlıq ruhunun formalaşdırılması;
5. **Elmi-tədqiqat yönümlü fəaliyyətin dəstəklənməsi** – müəllimlərin öz pedaqoji təcrübələrini tədqiq etməsi və nəticələri paylaşması üçün imkanların yaradılması.

Beləliklə, müəllim liderliyinin inkişafı təhsil sistemində strateji prioritet kimi qiymətləndirilməlidir. Bu, yalnız fərdi müəllimlərin deyil, ümumilikdə təhsil müəssisələrinin davamlı inkişafına xidmət edən əsas hədəfdir. Aparılan təhlillər göstərir ki, müasir təhsil sistemində müəllim liderliyinin inkişafı tədris prosesinin keyfiyyətinə, təhsilalanların şəxsi və sosial inkişafına, eyni zamanda təhsil müəssisələrinin ümumi idarəetmə effektivliyinə bilavasitə təsir göstərən əsas amillərdən biridir. Müəllim liderliyi yalnız pedaqoji ustalığın göstəricisi deyil, həm də təhsil sistemində dəyişikliklərin aparıcı qüvvəsi, innovasiyaların təşəbbüskarı və məktəbin inkişafına istiqamət verən strateji mexanizmdir. Müəllim liderliyinin inkişafı bir tərəfdən müəllimin şəxsi və peşəkar potensialının reallaşdırılmasına, digər tərəfdən isə təhsil sistemində əməkdaşlıq, məsuliyyət və innovasiya mədəniyyətinin formalaşmasına xidmət edir. Lider müəllimlər təhsil prosesində demokratik mühit yaradır, həmkarları ilə təcrübə mübadiləsi aparır, kollektivin motivasiyasını artırır və tədris keyfiyyətinin yüksəldilməsinə töhfə verirlər. Belə müəllimlər həm sinifdə, həm də məktəb səviyyəsində dəyişikliklərin idarəedicisi rolunu oynayaraq, təhsilalanları müstəqil düşünməyə, sosial aktivliyə və yaradıcılığa yönəldirlər.

Tədqiqatdan belə nəticəyə gəlmək olar ki, müəllim liderliyinin inkişafı üçün aşağıdakı istiqamətlərdə sistemli fəaliyyət zəruridir: Pedaqoji təhsildə liderlik kompetensiyalarının formalaşdırılması:

1. Ali pedaqoji təhsil müəssisələrinin kurikulumlarına liderlik bacarıqlarının inkişafına yönəlmiş fənlərin daxil edilməsi vacibdir.
2. Peşəkar inkişaf və mentorluq sisteminin gücləndirilməsi: Təcrübəli müəllimlərin gənc pedaqoqlara rəhbərlik etməsi, liderlik təcrübəsinin ötürülməsi və birgə öyrənmə mühitinin yaradılması zəruridir.
3. Təhsil siyasətində lider müəllimlərin rolunun artırılması: Təhsil islahatlarında və qərarvermə proseslərində müəllimlərin iştirakı stimullaşdırılmalı, onların səsi və fikri nəzərə alınmalıdır.
4. Motivasiya və stimullaşdırma mexanizmlərinin tətbiqi: Liderlik fəaliyyəti göstərən müəllimlərin sosial statusu, maddi və mənəvi mükafatlandırılması təmin edilməlidir.
5. Texnoloji və rəqəmsal liderliyin inkişafı: Müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarığı müəllim liderliyinin ayrılmaz tərkib hissəsi kimi inkişaf etdirilməlidir.

Müəllim liderliyinin davamlı inkişafı üçün həm dövlət səviyyəsində, həm də təhsil müəssisələri daxilində məqsədyönlü strategiyalar hazırlanmalıdır. Bu strategiyalar müəllimlərin təşəbbüskarlı-

ğını dəstəkləməli, innovativ fəaliyyət üçün şərait yaratmalı və təhsil müəssisələrində liderlik mədəniyyətini gücləndirməlidir.

Azərbaycan təhsil sistemində son illərdə həyata keçirilən islahatlar, o cümlədən müəllimlərin peşəkar inkişaf proqramları, yeni tədris standartlarının tətbiqi və rəqəmsal təhsil təşəbbüsləri bu istiqamətdə mühüm addımlar kimi qiymətləndirilə bilər. Lakin bu prosesin daha effektiv olması üçün lider müəllimlərin potensialından strateji şəkildə istifadə edilməli, onların qərarvermə və idarəetmə səviyyəsində iştirakı artırılmalıdır.

Nəticə etibarilə, müasir təhsil sistemində müəllim liderliyinin inkişafı yalnız fərdi peşəkar yüksəlişin deyil, həm də milli təhsil strategiyasının əsas dayaqlarından biridir. Liderlik keyfiyyətlərinə malik müəllimlər təhsil prosesinə dinamizm gətirir, məktəbin inkişafına istiqamət verir və gələcək nəsillərin intellektual, sosial və mənəvi formalaşmasında həlledici rol oynayırlar. Bu baxımdan, müəllim liderliyinin elmi-nəzəri əsaslarının öyrənilməsi, praktik tətbiqinin genişləndirilməsi və onun davamlı inkişaf mexanizmlərinin yaradılması təhsil siyasətinin prioritet istiqamətlərindən biri olmalıdır.

ƏDƏBİYYAT

1. Əliyeva, S. (2020). Ali təhsil müəssisələrində innovativ pedaqoji texnologiyaların tətbiqi. Bakı: "Təhsil" nəşriyyatı.
2. Həsənov, R. (2019). Müasir təhsildə müəllim liderliyinin formalaşdırılması yolları. Bakı: ADPU Nəşriyyatı.
3. Məmmədova, F. (2021). Pedaqoji fəaliyyətin təkmilləşdirilməsində liderlik bacarıqlarının rolu. Gəncə: "Elm və Təhsil" nəşriyyatı.
4. Qasımova, L. (2022). Təhsil sistemində müəllimlərin peşəkar inkişafı və liderlik modeli. Bakı: Elm Nəşriyyatı.
5. Fullan, M. (2014). The Principal: Three Keys to Maximizing Impact. San Francisco: Jossey-Bass.
6. Harris, A. & Muijs, D. (2019). Teacher Leadership: Principles and Practice. London: Routledge.
7. Day, C., Sammons, P., & Leithwood, K. (2011). Successful School Leadership: Linking with Learning and Achievement. Berkshire: Open University Press.
8. Katzenmeyer, M., & Moller, G. (2013). Awakening the Sleeping Giant: Helping Teachers Develop as Leaders. Thousand Oaks, CA: Corwin Press.
9. Spillane, J. P. (2006). Distributed Leadership. San Francisco: Jossey-Bass.
10. Lambert, L. (2003). Leadership Capacity for Lasting School Improvement. Alexandria, VA: ASCD.
11. Quliyeva, R. (2020). Müəllim hazırlığında liderlik bacarıqlarının formalaşdırılması problemləri. "Təhsil və Cəmiyyət" jurnalı, №3, s. 45–52.
12. OECD (2021). Teachers as Leaders: Building Capacity for School Improvement. Paris: OECD Publishing.

Хамая Аламдар кызы Исаева
магистрант,
isaevahemaye2000@gmail.com,
Асаф Дагбей оглы Заманов
доктор физико-математических наук, профессор,
Азербайджанский Государственный Педагогический Университет

Важность и механизмы развития педагогического лидерства в современной системе образования

Резюме

В условиях стремительных трансформаций в образовании педагогическое лидерство стало ключевым компонентом для достижения устойчивого улучшения школ и повышения

качества образования. В данной статье рассматривается значение педагогического лидерства в современной системе образования и изучаются основные механизмы, способствующие его развитию. Исследование подчеркивает, что педагогические лидеры играют решающую роль не только в преподавании, но и в содействии сотрудничеству, инновациям и совместному принятию решений в образовательных учреждениях. Развитие педагогического лидерства требует поддерживающей организационной культуры, непрерывного профессионального развития и расширения прав и возможностей через участие в управлении. Интегрируя лучшие мировые практики и локальные образовательные политики, статья акцентирует внимание на важности укрепления педагогического лидерства для обеспечения эффективных результатов обучения и прогресса образовательных учреждений.

Hamaya Alamdar Isayeva
master,
isayevahemaye2000@gmail.com,
Asaf Dagbey Zamanov
doctor of physical and mathematical sciences, professor,
Azerbaijan State Pedagogical University

The importance and development mechanisms of teacher leadership in the modern education system

Summary

In the context of rapid educational transformation, teacher leadership has emerged as a fundamental component in achieving sustainable school improvement and enhancing educational quality. This paper examines the significance of teacher leadership in the modern education system and explores key mechanisms that support its development. The study emphasizes that teacher leaders play a pivotal role not only in classroom instruction but also in fostering collaboration, innovation, and shared decision-making within educational institutions. The development of teacher leadership requires supportive organizational culture, continuous professional development, and empowerment through participatory management. By integrating global best practices and local educational policies, this paper highlights the importance of strengthening teacher leadership to ensure effective learning outcomes and institutional progress.

Tale Nazim oğlu ƏLİYEV
magistrant,
Müslüm Hətəm oğlu NƏZƏROV
fəlsəfə elmləri doktoru,
Azərbaycan Kooperasiya Universiteti

MÜASİR ALİ TƏHSİL MÜƏSSİSƏSİNDƏ İNTELLEKTUAL TƏHLÜKƏSİZLİYİN FORMALAŞDIRILMASININ İMPERATİVLƏRİ

Müasir cəmiyyətin və onun iqtisadiyyatının genişmiqyaslı innovasiyalara artan tələbatı müvafiq təhsil xidmətlərinin yaradılmasında ali təhsil müəssisələrinin rolu və əhəmiyyətinin yeni dərk edilməsini tələb edir. Cəmiyyətin yenilikləri təhsil xidmətlərinin keyfiyyətinə olan tələbləri müəyyən edir ki, bu da öz növbəsində bu xidmətlərin yaradılmasında ayrılmaz amil kimi universitetin intellektual kapitalının keyfiyyət xüsusiyyətləri ilə birbaşa müəyyən edilir.

Ali təhsil müəssisəsinin intellektual kapitalı müvafiq əqli aktivlərin (müxtəlif əqli mülkiyyət aktivləri şəklində, universitetin işgüzar nüfuzu və s.) formalaşmasını və sonradan təkrar istehsalını, habelə müəyyən çeşiddə təhsil (tədqiqat və tədris) xidmətlərinin formalaşdırılmasını və sonradan çoxalmasını təmin edən idarəetmə, elmi-tədqiqat və professor-müəllim heyətinin yaradıcı bilik və səriştələr sistemini təmsil edir. Müasir dünyada intellektual təhlükəsizliyin təmin edilməsi məsə-

ləsi aşağıdakı amillərdən irəli gələrək getdikcə aktuallaşır.

Birincisi, cəmiyyət və işəgötürənlər genişmiqyaslı, davamlı iqtisadi və digər innovasiyalara müvafiq ehtiyacdan irəli gələn universitet məzunlarından getdikcə daha çox müxtəlif peşəkar, çoxşaxəli fənlərarası bilik və səriştələr tələb edirlər. Nəticə etibarı ilə müasir universitet yüksək səmərəli mütəxəssislərin geniş istehsalını təmin edən, onları yaradıcı iş üçün humanist mənalar sistemi ilə təchiz edən yeni idrak texnoloji formalarının "hipermarketinə" və yaradıcı texnologiyaların "supermarketinə" çevrilməlidir.

İkincisi, "fikir sürəti ilə biznesin" yaranmasına təbii reaksiya kimi müasir iqtisadiyyatda gizli biliyin rolunun və əhəmiyyətinin xeyli dərəcədə artmasıdır. Bu o deməkdir ki, "burada və indi" lazım olan biliklərə olan tələblər, eləcə də ona müvafiq tələbatın dinamikası əsasında bu biliklərin müstəqil, genişləndirilmiş təkrar istehsalını təmin etmək üçün nəzərdə tutulmuş yaradıcı səriştələr üçün tələblər obyektivləşdirilir. Bu gün elə bilik və bacarıqların təkrar istehsalını təmin etməyə qadir olan "fikir iqtisadiyyatı"na artan ehtiyac var ki, rəsmiləşdirmə mərhələsindən yan keçərək dərhal son istehlak məhsullarında obyektivləşəcək [7].

Üçüncüsü, təhsil xidmətlərində təkrar istehsal olunan keyfiyyətin və məzunların müvafiq bilik və səriştələrinin təmin edilməsi imperativi var ki, bu da "tam hüquqlu innovativ düşüncə" şəklində sistemləşdirilir. Bu gün tələbələrin yaradıcı düşünmə qabiliyyətini inkişaf etdirmək kifayət deyil; əsas xüsusiyyəti yeni ideyaların və biliyin son məhsula çevrilməsi olan innovativ düşüncəni öyrətmək çox vacibdir.

Dördüncüsü, "qabaqcıl keyfiyyətli" təhsil xidmətlərinin genişləndirilməsinə ehtiyac var ki, bu da intellektual kapital sahiblərinin sabahın akademik fənlərini və modullarını davamlı olaraq yaratmaq və yeniləmək qabiliyyəti ilə birbaşa əlaqəlidir.

Sənədlərin Azərbaycan Respulikasından müvəqqəti çıxarılması məsələsinə baxılmaq üçün Azərbaycan Respublikası dövlət arxivləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 mart 2000-ci il tarixli 32 nömrəli qərarı ilə təsdiq edilmiş Beynəlxalq əməkdaşlıq məqsədi ilə sənədlərin və kolleksiyaların xaricə müvəqqəti aparılması qaydasına uyğun olaraq Azərbaycan Respublikası Milli Arxiv İdarəsi qarşısında məsələ qaldırırlar. Beynəlxalq əməkdaşlıq məqsədi ilə Milli arxiv fondu sənədlərinin və kolleksiyalarının orijinallarının, yaxud onları əvəz edən nüsxələrin Azərbaycan Respublikasından kənara aparılması yalnız müstəsna hallarda müvəqqəti olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsi yaxud onun vəkaləti ilə hər hansı dövlət arxivi tərəfindən həyata keçirilə bilər. [2. səh. 61]

Fövqəladə hallarda sənədlərin mühafizəsi. Arxivlərin fəaliyyətində fövqəladə vəziyyət o hal sayılır ki, Azərbaycan Respublikası dövlət arxivlərinin əsas iş qaydalarında nəzərdə tutulan tədbirləri tam həcmdə yerinə yetirmək mümkün olmasın, insanların sağlamlığına, həyatına və sənədlərin mühafizəsinə təhlükə yaransın. Fövqəladə hallara ölkədə (regionda, şəhərdə) fövqəladə vəziyyətin elan olunması, arxivin fəaliyyətinə təsir edən təbii fəlakət və yanğının baş verməsi, arxivə kənar şəxslərin daxil olması və ya başqa qeyri-qanuni hərəkətlər nəticəsində sənədlərin oğurlanması, korlanması, əmlakın korlanması, arxivin və binanın fəaliyyətini təmin edən sistemin qəzaya uğraması, arxivin rəhbərliyini arxivin iş rejimini dəyişdirməyə və ya onun fəaliyyətini dayandırmağa məcbur edən digər hallar aiddir.

Fövqəladə vəziyyətlər baş verdikdə arxivin rəhbərliyi təcili (telefon, teleqraf, faksla, yaxud şəxsən) Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin rəhbərliyinə məlumat verir, fövqəladə vəziyyətdə iş rejimi barədə onunla razılaşdırılmış qərar qəbul edir. Qərar arxiv direktorunun əmri ilə rəsmiləşdirilir, direktor fövqəladə situasiyadan çıxmaq üçün tədbirlər görür və bu barədə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəhbərliyinə məlumat verir. [2, səh. 65]

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivləri: Məlumat kitabı /Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi; müqəddimənin müəllifi və məsul red.: Ataxan Paşayev. Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2003, 168 səh.
2. Azərbaycan Respublikası Dövlət arxivlərinin əsas iş qaydaları. Bakı: Çaşıoğlu, 2011, 256 səh.
3. Rəsulov Ə., Həsənov H. Azərbaycan Respublikasında arxiv işi. Bakı, "Elm və təhsil", 2019, 264 səh.
4. Səfərova İ.H., Əliyeva M.E. Arxiv sənədlərinin ekspertizası. Dərs vəsaiti. Bakı, 2019, 239 səh.
5. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 22 iyun 1999-cu il, № 694-IQ.

Нармин Тагир кызы Агазаде
магистрант,
Азербайджанский Университет Кооперации
Адалят Гасым оглы Гасымов
доктор исторических наук, профессор,
Национальная Академия Наук Азербайджана, Институт Истории
Рамиль Бехман оглы Казымов
старший преподаватель,

Управление режимом сохранности в архивных фондах и механизмы страхования документов

Резюме

Обеспечение защиты документов подразумевает комплекс мер, таких как создание благоприятных условий для их защиты, правильное соблюдение правил нормативного режима, обеспечение защиты и физических условий для предотвращения их утраты. Защита архива осуществляется на основании специального соглашения между архивными организациями и соответствующими органами Министерства внутренних дел Азербайджанской Республики о защите архива и соблюдении режима разглашения. Защиту архива также могут осуществлять штатные архивисты.

Narmin Tahir Agazade
master,
Azerbaijan Cooperation University
Adalat Gasim Gasimov
doctor of historical sciences, professor,
Azerbaijan National Academy of Sciences, Institute of History
Ramil Bahman Kazimov
senior lecturer,

Management of the preservation regime in archival funds and document insurance mechanisms

Summary

Ensuring the protection of documents means a complex of measures, such as the creation of favorable conditions for their protection, the correct observance of the rules of the normative regime, the provision of protection and physical conditions to prevent their loss. Protection of the archive is carried out based on a special agreement between the archival organizations and the relevant agencies of the Ministry of Internal Aff airs of the Republic of Azerbaijan on the protection of the archive and compliance with the release regime. The protection of the archive can also be carried out by staff archivists.

Çinarə Böyükağa qızı ƏLİYEVA
magistrant,
Nizami Cəlal oğlu MƏHƏRRƏMOV
filologiya üzrə fəlsəfə doktoru, dosent,
Ramil Bəhman oğlu KAZIMOV
baş müəllim
Azərbaycan Kooperasiya Universiteti

MİLLİ-MƏDƏNİ İRSİMİZİN QORUNMASI VƏ TƏBLİĞİNDƏ MUZEYLƏRİN ROLU

Muzeylər cəmiyyətin mədəni inkişaf səviyyəsini, tarixə və irsə münasibətini əks etdirən mühüm mədəni-tarixi institutlardır. Beynəlxalq Muzey Şurasının (ICOM) tərifinə əsasən, muzey – "cəmiyyətin inkişafı və maarifləndirilməsi məqsədilə maddi və mənəvi dəyərləri toplayan,

qoruyan, tədqiq edən və nümayiş etdirən daimi, qeyri-kommersiya təsisatıdır". [7]

Muzeylərin əsas funksiyaları – toplama, mühafizə, tədqiqat, ekspozisiya və maarifləndirmə funksiyalarıdır. Bu funksiyalar muzeylərin həm elmi-tədqiqat müəssisəsi, həm də ictimai maarifləndirici mərkəz kimi fəaliyyətini təmin edir. [1, səh. 47] Muzeylər yalnız keçmişin yadigarlarını saxlamır, həm də onları gələcək nəsillər üçün mədəni kimliyin təməl elementi kimi qoruyur.

Maddi və mənəvi irs anlayışları mədəniyyətşünaslıq və muzeyşünaslıqda bir-birini tamamlayan, lakin fərqli xarakter daşıyan sahələrdir. Maddi irs dedikdə, insan fəaliyyətinin nəticəsində yaranmış fiziki əşyalar – arxeoloji tapıntılar, memarlıq abidələri, sənət əsərləri, etnoqrafik materiallar və s. nəzərdə tutulur. Mənəvi irs isə xalqın yaddaşında, dilində, musiqisində, adət-ənənələrində və dini inanclarında qorunan qeyri-maddi dəyərləri əhatə edir.

UNESCO-nun 2003-cü il "Qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiyası"na əsasən, mənəvi irs dörd əsas sahəyə bölünür: dil və şifahi ənənələr, ifa sənəti, ictimai adət və mərasimlər, bilgi və bacarıqlar. [8] Muzeylər bu irs formalarının sənədləşdirilməsi və ictimaiyyətə təqdim edilməsində mühüm vasitədir.

Muzeylər milli kimliyin formalaşması və qorunması baxımından strateji əhəmiyyət daşıyır. Onlar tarixi yaddaşın daşıyıcısı kimi xalqın keçmişini, mədəni dəyərlərini və mənəvi irsini gələcək nəsillərə ötürürlər. Azərbaycanda bu funksiyanı yerinə yetirən muzeylər arasında Azərbaycan Milli Tarix Muzeyi, Xalça Muzeyi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu və digərləri xüsusi yer tutur.

Muzey ekspozisiyaları vasitəsilə formalaşan mədəni təcrübə və kollektiv yaddaş cəmiyyətin özünüidentifikasiyasına xidmət edir. Bu mənada muzeylər təkcə mədəni irs daşıyıcısı deyil, həm də mədəni ideologiyanın ötürücü platforması rolunu oynayır.

Muzey işi və irs qorunması sahəsində beynəlxalq əməkdaşlıq dünya miqyasında mədəniyyətin mühafizəsində əsas mexanizmlərdən biridir. Bu istiqamətdə UNESCO, ICOM, ICCROM kimi təşkilatlar mədəni dəyərlərin qorunması, bərpası və təbliği üçün vahid siyasət formalaşdırmışdır. UNESCO-nun "Dünya İrs Siyahısı" proqramı, həmçinin "Qeyri-maddi mədəni irsin qorunması konvensiyası" (2003) dövlətləri öz milli irslərini beynəlxalq səviyyədə qorumağa təşviq edir. ICOM isə muzeylərin etik davranış kodeksini, idarəetmə standartlarını və beynəlxalq əməkdaşlıq mexanizmlərini müəyyənləşdirir. Azərbaycan Respublikası da bu beynəlxalq təşəbbüslərə qoşularaq muzey fəaliyyətinin təkmilləşdirilməsi və mədəni irsin qorunması sahəsində bir sıra dövlət proqramlarını həyata keçirmişdir.

Azərbaycanda muzey işi XIX əsrin sonlarından formalaşmağa başlamış, bu proses milli mədəni irsin toplanması və sistemləşdirilməsi zərurətindən doğmuşdur. XX əsrin əvvəllərində maarifçilik hərəkatının inkişafı nəticəsində yerli ziyalılar tərəfindən tarixi, arxeoloji və etnoqrafik eksponatların toplanmasına xüsusi diqqət göstərilmişdir. Sovet dövründə muzey işi dövlət siyasətinin tərkib hissəsinə çevrilmiş, 1920–1980-ci illərdə ölkədə onlarla ixtisaslaşmış muzey (ədəbiyyat, incəsənət, xalçaçılıq, arxeologiya və s.) yaradılmışdır. 1960–1980-ci illərdə muzeyşünaslıq elmi istiqamət kimi formalaşmış, Azərbaycan Elmlər Akademiyasının nəzdində bu sahə üzrə tədqiqatlar aparılmışdır. Müstəqillik dövründə isə muzeylərin fəaliyyət istiqamətləri milli irsin bərpası, müasir idarəetmə sistemlərinin tətbiqi və beynəlxalq standartlara uyğunlaşdırma istiqamətində yenidən qurulmuşdur.

Azərbaycan Respublikasında muzey işi və mədəni irsin qorunması dövlət səviyyəsində tənzimlənir. "Mədəniyyət haqqında" Qanun (2012) və "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanun (1998) bu sahədə əsas hüquqi bazanı təşkil edir.

Dövlət proqramları, xüsusilə "Azərbaycan muzeylərinin inkişaf strategiyası (2021–2030)" muzey fondlarının rəqəmsallaşdırılmasını, eləcə də maddi və mənəvi irsin beynəlxalq səviyyədə tanıdılmasını prioritet istiqamətlər kimi müəyyən etmişdir. [6]

Bundan əlavə, "Qarabağ mədəni irsinin bərpası və reinteqrasiyası" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə muzeylərin bərpası və yeni ekspozisiyaların yaradılması prosesi başlanmışdır. [2, səh. 38]

Azərbaycanda fəaliyyət göstərən muzeylər maddi irsin qorunmasında mühüm elmi və metodoloji funksiyaları yerinə yetirirlər. Muzeylər tərəfindən toplanan eksponatlar arxeoloji, etnoqra-

fik, bədii və sənaye materiallarını əhatə edir. Bu eksponatlar təkcə nümayiş məqsədi daşımır, həm də tədqiqat üçün qiymətli mənbələrdir. Məsələn, Azərbaycan Milli Xalça Muzeyi və Qobustan Dövlət Tarixi-Bədii Qoruğu Muzeyi maddi irsin həm elmi, həm də bərpa aspektindən qorunması sahəsində nümunəvi təcrübəyə malikdir. [3, səh. 57] Müasir muzeylərdə eksponatların mühafizəsi üçün iqlim nəzarəti, rəqəmsal inventarlaşdırma və konservasiya texnologiyaları tətbiq olunur.

Bundan başqa, regionlarda yerləşən muzeylər – Gəncə Tarix Muzeyi, Şəki Xalq Tətbiqi Sənət Muzeyi və digərləri – yerli mədəni dəyərlərin qorunmasında mühüm rol oynayır, milli kimlik elementlərinin regional səviyyədə yaşadılmasına xidmət edir.

Muzeylər yalnız maddi mədəniyyət nümunələrini deyil, həm də mənəvi irsin daşıyıcısı olan dəyərləri təbliğ edir. Dil, folklor, xalq sənətləri və mərasim mədəniyyəti kimi elementlərin qorunması və nümayişi muzey fəaliyyətinin ayrılmaz hissəsidir. Azərbaycanda Qobustan Muzeyi, Muğam Mərkəzi Muzeyi, Qarabağ Xalq Yaradıcılığı Muzeyi kimi ixtisaslaşmış müəssisələr mənəvi irsin tədqiqi və təbliğində mühüm missiya daşıyır. Burada interaktiv ekspozisiyalar, rəqəmsal arxivlər və multimedia təqdimatları vasitəsilə qeyri-maddi irs ictimaiyyətə çatdırılır. [4, səh. 83]

Mənəvi irsin muzeylərdə təmsil olunması milli-mədəni yaddaşın qorunması və gənc nəsillərin maarifləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Bu, həm də Azərbaycanın UNESCO-nun "Qeyri-maddi irs siyahısı"na daxil olan dəyərlərinin təbliğinə xidmət edir.

XXI əsrdə muzeylərin fəaliyyətində rəqəmsal transformasiya əsas istiqamətlərdən birinə çevrilmişdir. Müasir texnologiyalar maddi və mənəvi irsin elektron kataloqlar, 3D modelləşdirmə, rəqəmsal arxivləşdirmə və virtual ekspozisiyalar vasitəsilə qorunmasını təmin edir. Azərbaycanda bu sahədə aparılan işlərə Azərbaycan Milli Xalça Muzeyinin 3D ekspozisiyası, Milli İncəsənət Muzeyinin rəqəmsal fond bazası, eləcə də Qobustan Muzeyinin virtual tur sistemi daxildir. Bu cür təşəbbüslər muzey eksponatlarının həm elmi, həm də ictimai əlçatanlığını artırır.

Rəqəmsal texnologiyalar eyni zamanda mənəvi irsin – xalq sənətləri, musiqi ənənələri, folklor və etnoqrafik məlumatların qorunmasında yeni imkanlar açır. UNESCO-nun "Digital Heritage" proqramı bu istiqamətdə beynəlxalq standartları müəyyənləşdirir.

Regionlarda fəaliyyət göstərən muzeylər yerli mədəni irsin qorunması, turizmin inkişafı və icma maarifləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Onlar mərkəzləşdirilmiş muzey siyasətinə əlavə olaraq, yerli tarix və mədəniyyətin daşıyıcıları kimi çıxış edirlər. Məsələn, Şəki Tarix-Diyarşünaslıq Muzeyi, Lənkəran Xalça Muzeyi, Gəncə Arxeologiya və Etnoqrafiya Muzeyi kimi müəssisələr regional irsin toplanması və nümayişi ilə yanaşı, yerli icmaların mədəni fəaliyyətinə dəstək verir. Bu muzeylər turizm marşrutlarının yaradılmasına, gənclərin mədəni təhsilinə və sosial inteqrasiyaya töhfə verir. Bundan əlavə, regionlarda muzeylər yerli sənətkarlıq, milli geyim və musiqi ənənələrinin yaşadılmasında da mühüm rol oynayır. Bu da kənd mədəniyyəti muzeyləri modelinin inkişafına gətirib çıxarır.

Müasir dövrdə muzeylərin effektiv fəaliyyəti yalnız maddi-texniki resurslarla deyil, həm də idarəetmə və kadr potensialı ilə müəyyən olunur. Bu baxımdan, müasir muzey menecmenti konsepsiyası – planlaşdırma, marketinq, strateji idarəetmə və ictimai əlaqələr sahələrini əhatə edir. Azərbaycan muzeylərində bu istiqamətdə muzey menecerlərinin və kuratorların hazırlanması üzrə təlim proqramları, həmçinin ICOM Azərbaycan Milli Komitəsi çərçivəsində beynəlxalq seminarlar təşkil olunur. [5, səh. 45]

Beynəlxalq əməkdaşlıq muzeylərə yeni metodologiyalar, sərgilər və layihələr gətirir. Məsələn, "British Museum" və Azərbaycan Milli Tarix Muzeyi arasında həyata keçirilən "Qafqaz Arxeologiyası və İrsin Qorunması" layihəsi elmi mübadilənin uğurlu nümunəsidir.

Rəqəmsallaşma və qloballaşma dövrü muzeylər qarşısında yeni çağırışlar qoyur. Bunlara maddi irsin təbii və texnoloji təhlükələrdən qorunması, bərpa texnologiyalarının tətbiqi, həmçinin auditoriya ilə qarşılıqlı əlaqənin artırılması daxildir. Əsas problemlərdən biri bəzi regional muzeylərin maddi-texniki bazasının zəifliyi, bərpa laboratoriyalarının azlığı və mütəxəssis çatışmazlığıdır. Bu çətinliklərin aradan qaldırılması üçün mədəni irs üzrə milli elektron reyestr, bərpa mərkəzlərinin yaradılması və ictimaiyyətlə əlaqə siyasətinin gücləndirilməsi vacib hesab olunur.

ƏDƏBİYYAT

1. Əliyev N. Muzeyşünaslığa giriş. Bakı: Elm və Təhsil, 2019.
2. Əliyeva G. Qarabağ regionunda mədəni irs obyektlərinin bərpası və muzey fəaliyyəti. Bakı: Qanun, 2022.
3. Hüseynova S. (2020). Azərbaycan muzeylərinin elmi-tədqiqat fəaliyyəti. Bakı: Mədəniyyət, 2020.
4. İsmayılov F. Qeyri-maddi irsin muzeylərdə təbliği problemləri. Bakı: Nurlan, 2021.
5. Məmmədova L. Muzey menecmenti və beynəlxalq əməkdaşlıq təcrübəsi. Bakı: Qanun, 2023.
6. Mədəniyyət Nazirliyi. Azərbaycan muzeylərinin inkişaf strategiyası (2021–2030). Bakı, 2021.
7. ICOM (2022). Definition of Museum. Retrieved from https://icom.museum
8. UNESCO (2003). Convention for the Safeguarding of the Intangible Cultural Heritage. Paris: UNESCO Publishing.

Чинара Боюкага кызы Алиева
магистрант,
Низами Джалал оглы Магеррамов
доктор философии по филологии, доцент,
Рамиль Бехман оглы Казымов
старший преподаватель,
Азербайджанский Университет Кооперации

Роль музеев в сохранении и популяризации национального культурного наследия

Резюме

Музеи являются важнейшими научно-культурными институтами, сохраняющими культурную память, исторический опыт и духовные ценности каждого народа. В данной статье анализируется роль музеев в формировании национальной идентичности, в сборе, систематизации, исследовании и экспонировании материального и духовного наследия. В исследовании рассматриваются этапы развития музейной системы Азербайджана, государственная политика в области охраны культурного наследия, а также современные тенденции музееведения – цифровизация, интерактивное обучение и международное сотрудничество. Особое внимание в статье уделяется роли музеев в сохранении нематериального культурного наследия, в частности таких его элементов, как народное ремесло, традиционная музыка, обычаи и национальный костюм.

Chinara Boyukagha Aliyeva
master,
Nizami Jalal Maharramov
doctor of philosophy in philology, associate professor,
Ramil Bahman Kazimov
senior lecturer,
Azerbaijan Cooperation University

The role of museums in the preservation and promotion of national cultural heritage

Summary

Museums are fundamental scientific and cultural institutions that preserve the cultural memory, historical experience, and moral values of every nation. This article analyzes the role of museums in the formation of national identity, as well as in the collection, systematization, research, and presentation of tangible and intangible heritage. The study examines the stages of development of the Azerbaijani museum system, the state policy on the protection of cultural heritage, and the modern trends in museology – including digitalization, interactive education, and international cooperation. The article also emphasizes the important role of museums in safeguarding intangible cultural heritage, particularly in preserving such elements as folk crafts, traditional music, customs, and national clothing.

Minurə Samir qızı İBRAHİMOVA
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Mətanət Maşallah qızı ABBASOVA
filologiya elmləri doktoru,
Azərbaycan Milli Elmlər Akademiyası, Folklor İnstitutu

TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT NƏZARƏTİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Təhsil proqramlarının dövlət akkreditasiyası. Bu sahə təhsildə dövlət keyfiyyətinə nəzarət adlanır. İkinci fəaliyyət növü idarə və təşkilatlar tərəfindən təhsil qanunvericiliyinin pozulması hallarının qarşısının alınmasını, aşkar edilməsini əhatə edir. Bu fəaliyyət təhsildə dövlət nəzarəti adlanır.

Nəzarət işinin nəzarətə bölünməsinə, fikrimizcə, yalnız iki nəzarət sahəsi arasında aydın fərq qoymağa imkan verən hüquqi və texniki tədbir kimi baxmaq lazımdır. Hesab edirik ki, bu işdə xüsusi səlahiyyətli nəzarət orqanının-Təhsildə Nəzarət üzrə Dövlət Xidmətinin adının da rolu olub. Terminoloji çaşqınlığın qarşısını almaq üçün onun fəaliyyətinə vahid şəkildə "nəzarət" deyilir. Əsasən, Təhsil haqqında Qanunun təhsilin keyfiyyətinə dövlət nəzarəti və təhsildə dövlət nəzarəti adlandırdığı şeyi əsassız yerə dövlət akkreditasiya nəzarəti və təhsildə dövlət lisenziya nəzarəti adlandırmaq olar.

Aydındır ki, "Təhsil haqqında" Qanun yalnız kənar nəzarəti tənzimləyir və mülkiyyət formasından asılı olmayaraq təhsil təşkilatlarının təsisçiləri və ya (dövlət və bələdiyyə təhsil müəssisələrinə münasibətdə) bu strukturlara nəzarəti həyata keçirən icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən daxili nəzarətə şamil edilmir. Sonuncu halda, daxili nəzarət ilə bağlı inzibati və idarəetmə fəaliyyətinin bir hissəsidir. İcra hakimiyyəti orqanlarının təhsil strukturlarının fəaliyyəti ilə bağlı məlumat almaq, onu təhlil etmək və müxtəlif tədbirlər görmək imkanları təkcə nəzarət fəaliyyəti ilə bağlı deyil, həm də aparılan informasiya mübadiləsi, hesabatlar, təşkilat rəhbərləri tərəfindən qəbul edilən fəaliyyət və qərarların əlaqələndirilməsi və s. ilə bağlıdır.

Bununla belə, daxili nəzarət çərçivəsində qanunvericinin qarşısına yoxlanılan subyektin hüquqlarını mümkün sui-istifadələrdən və auditorların səhv hərəkətlərindən qorumaq vəzifəsi qoyulmur. İcra orqanı tabeliyində olan təhsil təşkilatları üzərində daxili nəzarəti təşkil və həyata keçirməklə özünün təşkilati, metodiki və kadr qərarlarının icrasını yoxlamaq və əsaslılığını qiymətləndirmək yolu ilə daha yüksək dərəcədə özünənəzarət həyata keçirir. Buna görə də daxili nəzarət xarici nəzarətdən daha genişdir, çünki o, təkcə təhsil təşkilatının rəsmi qaydalara uyğunluğunu əhatə etmir, həm də cari təhsil siyasətinin həyata keçirilməsində onun fəaliyyətinin qiymətləndirilməsini əhatə edir.

Qanunvericilik səviyyəsində daxili nəzarətin təfərrüatlı tənzimlənməməsi birmənalı olaraq qanunverici tərəfindən çatışmazlıq və nöqsan kimi qiymətləndirilə bilməz. İnzibati və idarəetmə fəaliyyətinin bir hissəsi kimi daxili nəzarət daha yüksək deyil, idarənin nizamnamələri səviyyəsində tənzimlənməni tələb edir. Əks halda, icra orqanı tabeliyində olan təşkilatları səmərəli idarə etmək imkanını itirəcək.

Nəzarət texnologiyasını daha da araşdıraraq qeyd edirik ki, təhsil təşkilatlarına "dövlət nəzarəti" (Təhsil haqqında Qanunun terminologiyasına uyğun olaraq) təhsil sektorunun xüsusiyyətlərini nəzərə alaraq, təhsil təşkilatının fəaliyyətini xarakterizə edən rəsmi maddi-texniki, kadr və digər parametrlərə uyğunluğunu yoxlamaq məqsədi daşıyan lisenziya nəzarətinin bir növüdür. Federal dövlət nəzarəti, lakin, ilk növbədə, təhsil prosesinin keyfiyyətinin əsaslı qiymətləndirilməsinə yönəlmiş ekspert, qiymətləndirici fəaliyyətdir.

Audit fəaliyyətlərindən sonra dövlət tərəfindən həyata keçirilən məcburi tədbirlər təhsilin keyfiyyətinə nəzarət və bu sahədə nəzarət (akkreditasiya və lisenziyalaşdırma) ilə bağlı fərqlənir. Bu, lisenziyalaşdırma və dövlət akkreditasiyasını tənzimləyən müxtəlif hüquqi tənzimləmələrlə bağlıdır.

Təhsildə dövlət keyfiyyətinə nəzarətə gəldikdə, aşkar edilmiş pozuntulara cavab vermək proseduru (əsasən, dövlət təhsil standartlarından aşağı olduğu sübut edilmiş qeyri-qənaətbəxş təhsil keyfiyyətindən ibarətdir) daha sadədir. Bu zaman əsas diqqət təhsil təşkilatının fəaliyyətinin kor-

reksiyasına deyil (baxmayaraq ki, ona müəyyən edilmiş uyğunsuzluqları düzəltmək imkanı verilir), dövlət təhsil standartlarına cavab verməyən təhsil fəaliyyətinin dayandırılmasına yönəldilir.

Beləliklə, təhsil sahəsində dövlətin nəzarət-nəzarət fəaliyyətinin təşkilinin təhlili bu sahədə hüquqi tənzimləmənin aşağıdakı xüsusiyyətlərini qeyd etməyə imkan verir.

1. Təhsil sahəsində dövlət nəzarətinə məzmununa görə lisenziya nəzarəti olan federal dövlət nəzarəti, akkreditasiya nəzarəti olan federal dövlət nəzarəti, habelə dövlət və bələdiyyə təhsil təşkilatlarının tabe olduğu icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən daxili nəzarət daxildir.
2. Təhsil sahəsində dövlət nəzarəti vətəndaşların nəzarət fəaliyyətinin həyata keçirilməsinə cəlb edilməsi ilə bağlı ictimai nəzarət elementini ehtiva edir ki, bu da onu digər sahələrdə dövlət nəzarətindən fərqləndirir.
3. Təhsil sahəsində dövlət nəzarətinin prioritet məqsədi.
4. Təhsil-tərbiyə fəaliyyətinin keyfiyyətinin təmin edilməsi və dövlət standartlarına uyğunlaşdırılması. Bu məqsədə nail olmaq üçün qanunverici yoxlanılan təhsil təşkilatlarının hüquq və qanuni mənafelərinə təminatları azaldır və məcburi bərpa tədbirlərinin tətbiqini sadələşdirir. Başqa sözlə, qanunverici yoxlanılan təşkilatlardan daha çox tələbələrin hüquqlarını müdafiə etməyə üstünlük verir və öz fəaliyyətində vətəndaşların keyfiyyətli təhsillə təmin olunmasının vacibliyini dərk edərək rəhbər tutur.
5. Lisenziyalaşdırma xarakteri daşıyan tədris prosesi üçün maddi-təşkilati şəraitin mövcudluğunun monitorinqi yoxlanılan təşkilatların fəaliyyətində düzəlişlər etməyə yönəlib və xüsusi olaraq təhsil təşkilatlarının qanun pozuntularına görə məsuliyyətə cəlb edilməsinə, yaxud onların fəaliyyətinin dayandırılmasına yönəlməyib. Bu tədbirlər qanunla təhsil sahəsində aşkar edilmiş kobud və düzəldilməz pozuntuların və ya verilmiş əmrlərə məhəl qoymayan təhsil təşkilatının açıq-aşkar vicdansız davranışının qaçılmaz nəticəsi hesab olunur.
6. Qanunverici yol verilmiş pozuntuların aradan qaldırılmasına və tələbələrin hüquqlarının təminatının təmin edilməsinə yönəlmiş hüquq-bərpa xarakterli tədbirlərlə müqayisədə pozuntuların müəyyən edilməsinə və pozucuların məsuliyyətə cəlb edilməsinə daha az üstünlük verir.

ƏDƏBİYYAT

1. Məmmədova E.B. Sosial işin iqtisadi əsaslar.Dərs vəsaiti. Baki-2024,762s.
2. Nəzərov M.H., Nəbiyev Ə.M. Sosial idarəetmənin əsasları. Dərs vəsaiti. Bakı ”TİC Print” nəşriyyatı, 2024.672s.
3. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. 2009. https://e-qanun.az/framework/18343
4. Кудилинский М. Н. Контроль как вид государственно-управленческой деятельности. Соотношение понятий «контроль» и «надзор» // Актуальные проблемы российского права. 2015. № 8.
5. Ладнушкина Н.М. Правовое регулирование государственного контроля (надзора) в сфере образования // Права и свободы человека и гражданина: теоретические аспекты и юридическая практика: материалы ежегодной международной конференции памяти проф. Ф. М.Рудновского. Рязань, 2017.

Минура Самир кызы Ибрагимова
магистрант,
Азербайджанский Университет Кооперации
Матанат Машаллах кызы Аббасова
доктор филологических наук,
Национальная Академия Наук Азербайджана, Институт Фольклора

Особенности правового регулирования государственного контроля в сфере образования

Резюме

В статье анализируется проблема правового регулирования государственного контроля в сфере образования как с точки зрения описания проблемы контроля и надзора в сов-

ременной научной юридической литературе, так и с точки зрения понимания различных нормативных правовых актов образовательными организациями, являющимися объектами контроля при осуществлении контрольных мероприятий. Государственный контроль в сфере образования проявляет элементы общественного контроля, связанные с привлечением граждан к осуществлению контрольных мероприятий.

Minura Samir Ibrahimova
master,
Azerbaijan Cooperation University
Matanat Mashallah Abbasova
doctor of philological sciences,
Azerbaijan National Academy of Sciences, Institute of Folklore

Features of legal regulation of state control in the field of education

Summary

The article analyzes the issue of legal regulation of state control in the field of education both from the point of view of the description of the problem of control and supervision in modern scientific legal literature, and the understanding of various normative legal acts by educational organizations that are the objects of control during control activities. State control in the field of education shows elements of public control related to the involvement of citizens in the implementation of control activities.

Aytən Oktay qızı QASIMLI
magistrant,
aytenqasim02@gmail.com,
Cəsarət Fikrət oğlu VALEHOV
filologiya elmləri doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

SÜNİ İNTELLEKTİN TƏHSİLDƏ TƏTBİQİ VƏ GƏLƏCƏK PERSPEKTİVLƏRİ

Süni intellekt termini "insan tərəfindən yaradılmış düşünmə qabiliyyəti" kimi başa düşülür. Bu anlayışı ilk dəfə 1955-ci ildə Con Makkarti işlətmişdir. O, bu sahənin atası hesab olunur. Alan Turing, Herbert Simon, Marvin Minsky və Allen Newell kimi alimlərin də süni intellektin əsasının qoyulmasında xüsusi rolu olmuşdur.

Süni intellekti imkanlarına görə üç növə bölmək olar:

- Birincisi məhdud süni intellekt, yəni konkret tapşırıqları yerinə yetirən sistemlər başa düşülür.
- İkincisi ümumi süni intellekt. Bunlar insan kimi düşünə bilir, təcrübə əsasında qərar qəbul edə bilirlər.
- Üçüncüsü super süni intellekt, artıq burada səviyyə yaradıcılıq və analiz sahəsində insan potensialını aşır.

Hal-hazırkı dövrdə bütün sahələrdə olduğu kimi təhsil sahəsində də əsaslı dəyişikliklər və inkişaf özünü büruzə verir. Təhsil sahəsində tətbiq olunan yeniliklərdən biri də süni intellektin tətbiq olunmasıdır. Süni intellekt şagirdlərə müxtəlif formalarda kömək edir. İnformasiya toplamaq, qərar qəbul etmək, problemləri həll etmək, bilik və bacarıqlarını artırmaqda əvəzsiz rol oynayır. Bununla yanaşı süni intellekt təhsil müəssisələri və müəllimlər üçün də təlim prosesini asanlaşdıran vasitədir. Süni intellekti tətbiq etməklə öyrənmə prosesini daha çevik, maraqlı və fasiləsiz etmək olar. Nəticələr göstərir ki, gələcəkdə süni intellekt fərdi öyrənmə təcrübələrini tam fərdiləşdirərək hər bir şagird üçün uyğun təlim mühiti yaradacaq. Aydındır ki, fərdiləşdirilmiş təhsilin

genişlənməsi süni intellektin rolunu daha da artıracaq. Əldə olunan statistik məlumatlara əsasən qeyd edə bilərik ki, 2021-ci ildə süni intellektə qoyulan qlobal sərmayə 4,5 milyard dollara çatmışdırsa, 2025-ci ilə qədər illik 45% artım proqnozlaşdırılmışdır.

Müasir dövrdə süni intellektin təhsil sahəsində rolu yalnız tələbələrin motivasiyasını və dərsə marağını artırmaqla kifayətlənmir, həm də idarəetmə və qiymətləndirmə fəaliyyətləri üçün vacib vasitəyə çevrilib. O dərsin avtomatik qiymətləndirilməsini, administrativ tapşırıqların yerinə yetirilməsini və şagird göstəricilərinə əsasən fərdi tədris planlarının hazırlanmasını mümkün edir.

Süni intellektin təhsildə tətbiq formaları müxtəlifdir. Bir neçə geniş yayılmış nümunəsi ilə tanış olaq:

- Ağıllı məzmun - Smart Content. Bu, süni intellekt tərəfindən fərdiləşdirilən və istifadəçinin maraq, davranış və səviyyəsinə uyğunlaşdırılan dinamik rəqəmsal məzmundur.
- Çatbotlar - Chatbots. Süni intellekt əsaslı proqramlardır. İnsanla qarşılıqlı ünsiyyət yaradır. Təhsil müəssisələrində tələbələrin suallarına cavab vermək və məlumat paylaşmaq məqsədi ilə geniş şəkildə istifadə olunur.
- Adaptiv öyrənmə - Adaptive learning. Süni intellektin tətbiqi ilə dərs materiallarının çətinlik səviyyəsi tələbənin real bilik səviyyəsinə uyğun dəyişdirilir.
- Fərdiləşdirilmiş öyrənmə - Personalized learning. Süni intellekt vasitəsilə hər bir tələbənin sürətinə, maraq dairəsinə və qabiliyyətinə uyğun tədris planı qurmaq olur. Daha dərindən və uzunmüddətli öyrənməni təmin etməyə kömək edir.
- İnteraktiv öyrənmə və dərs idarəetmə sistemləri – Learning management systems. Süni intellekt tədris prosesini izləyir, müəllim və rəhbərliyə analitik məlumatlar təqdim edir. Eyni zamanda dərs planlamasını da avtomatlaşdırır.

Süni intellekt oyun əsaslı öyrənməni təşviq edir. Bu, öyrənməni daha əyləncəli və təsirli hala gətirir. Bununla yanaşı, hazırda dünyada yüzlərlə Sİ əsaslı dil öyrənmə proqramı vardır, bunlar da tələbəyə fərdi şəkildə təlim imkanı yaradır. Bu tətbiqlər vasitəsilə təhsil müəssisələri daha səmərəli idarə edilir, tələbələrin inkişafı rahat şəkildə izlənilir və tədris keyfiyyəti yüksəldilir.

Süni intellekt coğrafi məhdudiyyətləri aradan qaldırır. Müəllimlər və tələbələr müxtəlif ölkələrdən eyni platformada işləyə bilir, bu isə qlobal təhsil mübadiləsini gücləndirir. Bununla yanaşı, qeyd edə bilərik ki, süni intellekt əsaslı virtual köməkçilər - məsələn interaktiv dərs botları təlim prosesinin ayrılmaz hissəsinə çevrilir.

Aparılmış tədqiqatların nəticələrinə və alimlərin fikirlərinə əsasən süni intellektin təhsildə gələcək perspektivlərini ümumiləşdirsək, bir sıra istiqamətləri ön plana çıxara bilərik.

1. Yüksək keyfiyyətli onlayn mühazirələr və dərs videoları
2. Çoxsaylı onlayn platformalar və tədris proqramları
3. Oyunlaşdırma
4. Robotlaşdırılmış tədris vasitələrinin istifadəsi və s.

Süni intellekt klassik təlimi tamamilə əvəz etməyəcək, lakin, onu tamamlayacaq. Bu da gələcəkdə süni intellekt biliklərinə malik insanların işə qəbul şanslarını yüksəldəcək. Gələcəkdə süni intellektin ən əsas təsir vasitələrindən biri ağıllı tədris sistemlərinin tətbiqi olacaq. Məsələn, MATHia kimi platformalar var ki, onlar şagirdin nəticələrini analiz edir və ona uyğun izah və tapşırıqlar təqdim edir. Həmçinin, robot texnologiyaları da təhsilin gələcəyində mühüm rol oynayacaq. Bu robotlar tədris prosesində müəllimlərə fərdi dəstək göstərməklə yanaşı, xüsusi ehtiyacı olan şagirdlərlə fərdi iş apararaq STEAM fənlərini daha interaktiv şəkildə öyrədəcək.

Beləliklə, süni intellekt gələcəkdə təhsil sisteminin bütün mərhələlərində - planlaşdırmadan tutmuş qiymətləndirməyə qədər inteqrasiya olunacaq. Bu da həm tələbələr üçün, həm də müəllimlər üçün ədalətli və səmərəli mühit yaradacaq.

Son illərdə Azərbaycanın təhsil sisteminə nəzər salsaq, görərik ki, rəqəmsal transformasiya sürətlə inkişaf edir. Elektron təhsil platformaları, virtual dərsliklər və interaktiv tədris vasitələri təhsilin keyfiyyətini artırmaq məqsədi ilə tətbiq olunur. Dünya ölkələrində olduğu kimi Azərbaycanda da süni intellekt həm şagirdlər, həm də müəllimlər üçün yeni imkanlar yaradır. Azərbaycan Təhsil Nazirliyi və beynəlxalq texnologiya şirkətləri, o cümlədən, Microsoft ilə birgə həyata keçirilən layihələrdə Sİ və interaktiv tədris platformaları pilot olaraq tətbiq olunur. Uzaqdan təhsil

və virtual öyrənmə mühitləri xüsusilə, rayon və kəndlərdə təhsil imkanlarının bərabərləşdirilməsinə gətirib çıxarır.

Hal-hazırda süni intellekt texnologiyaları Azərbaycanda geniş yayılmasa da gələcəkdə daha geniş şəkildə tətbiq olunması planlaşdırılır. "Ağıllı məktəb" konsepsiyası çərçivəsində rəqəmsal öyrənmə mühitlərinin inkişaf etdirilməsi təhsilin keyfiyyətinin artırılması və beynəlxalq standartlara uyğunlaşması üçün əsas rol oynayacaq.

Azərbaycanda Təhsil ocaqlarında rəqəmsal texnologiyalar tədricən tətbiq olunur, çünki tam və sürətli şəkildə tətbiq olunmasını məhdudlaşdıran amillər var. Məsələn, təhsil müəssisələrinin maliyyə və texniki bazalarının zəif olması, müəllimlərin hazırlıq səviyyəsinin aşağı olması və s.

Aparılan tədqiqatlar göstərir ki, süni intellektin gələcək inkişafı təhsil sahəsində həm keyfiyyət, həm də bərabərlik baxımından müsbət nəticələr verəcək, lakin, süni intellekt tədris prosesində dəstəkçi vasitə kimi qəbul edilməlidir. Müəllimin yerini tutmamalıdır, sadəcə onun işini təkmilləşdirən bir alət olmalıdır.

Nəticə etibarı ilə qeyd oluna bilər ki, süni intellekt təhsilin gələcəyini formalaşdıran amillərdən biridir. O həm öyrənmə, həm də öyrətmə prosesini yenidən tərtib edir. Buna görə də, yeni nəsil müəllimləri bu texnologiyaları mənimsəməlidir.

Problemin elmi yeniliyi. Aparılan araşdırmanın elmi yeniliyi ondan ibarətdir ki, burada süni intellektin təhsildə tətbiqinə yalnız texnoloji cəhətdən deyil, həm də pedaqoji və sosial aspektlərdən yanaşılır. Süni intellektin yaratdığı dəyişikliklər elmi əsaslarla təhlil olunur. Eyni zamanda tədqiqat süni intellektin gələcək inkişaf perspektivlərini də dəyərləndirir, yeni model yanaşmalar təklif edir. Bu da yeni elmi nəticələrin formalaşmasına gətirib çıxarır.

Problemin praktiki əhəmiyyəti və tətbiqi. Bu tədqiqatın nəticələri təhsil sisteminin müasirləşdirilməsi, rəqəmsal bacarıqların artırılması, müəllim hazırlığı prosesinin təkmilləşdirilməsi baxımından böyük praktik əhəmiyyətə malikdir. Süni intellekt əsaslı texnologiyalar tədris materiallarının fərdiləşdirilməsini təmin edir, müəllim – tələbə əlaqələrini interaktiv edir, qiymətləndirmə prosesinin obyektivliyini artırır və müəllimlərin yükünü azaldır. Süni intellekt əsaslı platformaların yaradılmas, adaptiv öyrənmə sistemlərinin inteqrasiyası və müəllimlərin bu istiqamətdə peşəkar hazırlığı tədqiqatın praktik tətbiq istiqamətlərini təşkil edir.

ƏDƏBİYYAT

1. Abbasov, A. M. (2019). Süni intellekt və onun tətbiq sahələri. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası nəşriyyatı.
2. Qasımova, S. (2022). Süni intellektin tədrisdə tətbiqi və müəllim fəaliyyətinə təsiri. Təhsil və Cəmiyyət, (4), 56–63.
3. Hüseynova, Z. (2022). Süni intellekt əsaslı təlim modelləri və onların Azərbaycanda tətbiqi imkanları. Pedaqoji düşüncə, (3), 44–51.
4. Heydərov, R. (2022). Təhsildə süni intellektin etik və sosial aspektləri. Bakı: ADPU nəşri.
5. Alam, A. (2020). Possibilities and challenges of compounding artificial intelligence in India's educational landscape. International Journal of Advanced Science and Technology, 29(5), 5077–5094.
6. Amudha, T. (2021). Artificial Intelligence: A complete insight. Auerbach Publications.
7. Hooda, M., Rana, C., Dahiya, O., Rizwan, A., & Hossain, M. S. (2022). Artificial intelligence for assessment and feedback to enhance student success in higher education. Mathematical Problems in Engineering, 2022.
8. Pedro, F., Subosa, M., Rivas, A., & Valverde, P. (2019). Artificial intelligence in education: Challenges and opportunities for sustainable development. UNESCO Publishing.
9. Sharma, N. (2023). Artificial intelligence: Paving the way to a smarter education system. In Artificial Intelligence for Societal Issues (pp. 141–157). Cham: Springer International Publishing.
10. Tedre, M., Toivonen, T., Kahila, J., Vartiainen, H., Valtonen, T., Jormanainen, I., & Pears, A. (2021). Teaching machine learning in K–12 classrooms: Pedagogical and technological trajectories for artificial intelligence education. IEEE Access, 9, 110558–110572.

Айтен Октай кызы Гасымлы
магистрант,
aytengasim02@gmail.com,
Джасарет Фикрет оглы Валехов
доктор филологических наук,
Азербайджанский Государственный Педагогический Университет

Применение искусственного интеллекта в образовании и его будущие перспективы

Резюме

В современную эпоху технологии стали неотъемлемой частью нашей жизни. Искусственный интеллект оценивается как одно из важных направлений этого развития. Применение искусственного интеллекта в сфере образования является не просто технологическим новшеством, но и означает по сути реформирование самого процесса обучения и преподавания. С помощью искусственного интеллекта преподаватели могут создавать персонализированную учебную среду, а также повышать качество обучения, получая новые возможности. Основная цель данного исследования – теоретически изучить применение искусственного интеллекта в образовании и его будущие перспективы. Проведённые исследования и полученные результаты показывают, что искусственный интеллект может расширить будущие перспективы образования и коренным образом изменить формы обучения и преподавания. С помощью адаптивного оценивания, анализа данных, виртуальных классов и персонализированного обучения создаётся более эффективная образовательная среда. Для полного и широкого использования возможностей искусственного интеллекта в сфере образования необходимо совместное сотрудничество преподавателей, политиков и программистов.

Ayten Oktay Gasimli
master,
aytengasim02@gmail.com,
Jasaret Fikrat Valehov
doctor of philological sciences,
Azerbaijan State Pedagogical University

The application of artificial ıntelligence in education and ıts future prospects

Summary

In the modern era, technologies have become an integral part of our lives. Artificial intelligence is regarded as one of the important directions of this development. The application of artificial intelligence in education is not only a technological innovation but also means a fundamental reformation of the teaching and learning process itself. With the help of artificial intelligence, teachers can create a personalized learning environment and, at the same time, improve the quality of education by gaining new opportunities. The main purpose of this study is to theoretically investigate the applications and future prospects of artificial intelligence in education. Research and the obtained results show that artificial intelligence can expand the future prospects of education and fundamentally change the forms of teaching and learning. Through adaptive assessment, data analytics, virtual classrooms, and personalized learning, a more efficient educational environment is created. To make full and widespread use of the possibilities of artificial intelligence in the field of education, teachers, policymakers, and programmers must work together.

İbrahim Nəsir oğlu QULİYEV
filologiya üzrə fəlsəfə doktoru, dosent,
Bakı Slavyan Universiteti

NİZAMİ GƏNCƏVİ VƏ ABDULLA HATİFİ: BÖYÜK SƏNƏT İMTAHANI

Nizami irsi bir neçə əsr ərzində Şərq ədəbiyyatının mövzu qaynağı olmaqla bərabər, onun humanist-bəşəri dəyərlərə münasibətini, ideya istiqamətini müəyyən edən, bədii-estetik dəyərlər üzərindən onların sənət taleyini həll edən bədii etalon kimi çıxış etmişdir. Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvai və s. kimi Nizamidən sonra "Xəmsə" yaradan görkəmli şairlərin davamçıları nə qədər birbaşa öz ustadlarına istinad etsələr də, onların Nizami ilə gizli bağlılığı, ruhi yaxınlığı, ədəbi varisliyi təkcə əsərlərinin süjet və kompozisiyasında deyil, həm də bədii mahiyyətində, fəlsəfi ruhunda özünü hiss etdirmişdir. Akademik Yaşar Qarayev haqlı olaraq yazırdı: "...intibah təbiətli Nizami dühası Şərqdə humanizm hərəkatının beşiyi başında durmuş, bəşərin zəka və sənət taleyində "mən" və şəxsiyyət, əxlaqi dəyər və zirvə məqamı olmuşdur" (1.s.154).

Nizamidən sonra "Xəmsə" yaratmağa cəhd edən, özünü "məna mülkünün xosrovu" sandığı Əbdürrəhman Caminin şagirdi adlandıran, Sam Mirzənin yazdığı kimi, "şairlərin qaymağı, fəsahət sahiblərinin ən fəsahətlisi" olan (2, 192) Abdulla Hatifinin də yaradıcılığında Nizami ilə bu mənəvi yaxınlığı, bağlılığı görürük. Şairin "Xəmsə"sinə daxil olan poemaların ("Leyli və Məcnun", "Şirin və Xosrov", "Həft mənzər", "Teymurnamə" *(bu poema ədəbiyyatşünaslar tərəfindən bəzən "Zəfərnamə". "Zəfərnameyi-Teymuri" Zəfərnameyi-mənum", "İskəndərnameyi-Teymuri" də adlanır),* "İsmailnamə" *(digər adı "Fütuhati-şahi", "Şahnameyi-Hatifi", "Şahnameyi-həzrəti-şah İsmayıl"))* kimi poemalarının əksəriyyətində Nizaminin adı çəkilir və "beş xəzinə" sahibinin əbədiyyət üfüqündən sənət dünyasına işıq saçdığı, şairləri ilhama gətirdiyi xüsusi vurğulanır. Sam Mirzə "Töhfeyi-Sami" təzkirəsində yazır: "Deyirlər onun beyninə (Abdulla Hatifinin) "Xəmsə"yə nəzirə yazmaq fikri düşəndə Mövlanə Cami ilə məsləhətləşdi" (2.s. 192). Əbdürrəhman Cami əvvəl razılıq vermir, çünki Nizamiyə cavab yazmaq istəyən hər bir sənətkar əvvəl sənət imtahanı verməli idi, öz şairlik məharətini və istedadını göstərməli idi. Hatifi yalnız bu imtahandan keçəndən və Əbdürrəhman Caminin xeyir-duasını alandan sonra Nizami əsərlərinə cavab yazmağa başlayır və onun ilk nəzirəsi "Leyli və Məcnun" olur. Yeri gəlmişkən onu da qeyd edək ki, Sam Mirzə Hatifinin "Xəmsə"yə cavab yazdığını vurğulasa da, onun cəmi dörd kitabından-"Leyli və Məcnun", "Şirin və Xosrov", "Həft mənzər", "Teymurnamə"-dən danışır, "İsmayılnamə"nin ("Fütuhati-şahi") adını çəkmir. Məlum olduğu kimi, sonuncu poemanı şair Şah İsmayıl Səfəvinin xahişi və bir qədər də dəqiq desək, təkidi ilə qələmə almışdır. Hatifi bu poemada şah və saray əhli tərəfindən ona dövrünün Firdovsisi adının verildiyini də xatırladır:

من و دیگرانرا بود این گمان
که هستی توفردوسی این زمان

(Mən və o, bu fikirdəyik ki,
Sən bu zamanın Firdovsisisən).

Yuxarıda qeyd etdiyimiz kimi, Abdulla Hatifinin cavablarında Nizami Gəncəvi "Xəmsə"sinin xronoloji ardıcıllığı yoxdur, orta çağda məhəbbət-qəhrəmanlıq motivlərinin yüksəlməsi, cəngavərliyin daha çox sevgi müstəvisində cərəyan etməsi Hatifinin ilk olaraq "Leyli və Məcnun" mövzusuna müraciət etməsinə səbəb olmuşdur. "Teymurnamə"nin giriş hissəsində şair əsərlərinin ardıcıllığını belə verir:

من آن روز کز طبع گنج سنج
نشستم بصرافی پنج گنج
گرفتم ز لیلی و مجنون نخست
وزان صورت دعویم شددرست
شد آن نقش فرخ چو گیتی پسند
ز شیرین و خسرو شدم بهره مند
چو آن گلستان را بیاراستم
از آن خوشتر آمد که میخواستم

چو باز آمدم زان همایون سفر
سوی هفت منظر فکندم نظر

(3. s. 324)

(Mən o gün xəzinə yaradan təbimlə
Oturub, "Pənc gənc" üzərində özümü sınadım.
İlk növbədə "Leyli və Məcnun"u götürdüm,
Və mən bütövlükdə özümünkünə nail oldum.
O gözəl əsər dünyanın xoşuna gələndə
"Şirin və Xosrov"dan bəhrələndim.
O gülüstanı mən elə bəzədim ki,
O mənim istədiyimdən də gözəl oldu.
Xöşbəxt səfərdən qayıdanda
"Yeddi mənzər" tərəfə nəzər saldım.)

Hatifi digər "Xəmsə" yazan şairlərə yox, məhz Nizaminin beş poemasına cavab vermək istədiyini aşağdakı beytdə xüsusi vurğulayır:

میبود همیشه ذوق اینم
کز خرمن گنجه خوشه چینم

(Həmişə arzum bu olub ki,
Gəncə xırmanından bir sünbül dərəm).

O, qərarını qətiləşdirdikdən sonra Əbdürrəhman Cami ilə məsləhətləşir və "Leyli və Məcnun"un birinci beytini deməyi ondan xahiş edir. Nəhəng Cami də aşagıdakı misraları dilə gətirir:

این نامه که خامه کرد بنیاد
توقیع قبول روزیش باد

Bu məktub ki, qələm ilə yaradıldı,
Onun ruzisini qəbulu üçün möhür olsun.

Hatifi poemanın girişində Nizamini nə qədər tərifləsə də, onu təkrar etməkdən qaçdığını vurğulayır və bununla bağlı yazır:

نو باره من ز باغ کس نیست
این روشنی از چراغ کس نیست
من عاریت کسان نپوشم
پس مانده این و آن ننوشم

(Mənim təzə məhsulum başqasının bağından deyil,
Bu parıltı başqasının çırağından deyil.
Mən başqasının libasını geyinən deyiləm,
Onun, bunun artığını içən deyiləm)

Əsər yüksək sənət nümunəsi kimi meydana gəldiyindən, Əbdürrəhman Cami onu tərifləyir və Nizaminin digər bir əsərinə nəzirə yazmağı tövsiyə edir:

ز بهر عشقبازان جگر خون
نوشتم قصه لیلی و مجنون
من آن ابیات را بردم تمامی
بنزد حضرت مخدوم جامی
نخستین گفت احسنت ای جوانمرد
زبان بگشاد و بر من آفرین کرد
چو گفتی قصه لیلی و مجنون
حدیث عشق ایشان نو شد اکنون
بگو افسانه شیرین و خسرو
که گردد آن مه فرخنده هم نو

(Ürəyi qan dolu eşqbazlar üçün
"Leyli və Məcnun" qissəsini yazdım.
Mən bütün bu beytləri apardım
Yüksək həzrəti Caminin yanına.
Əvvəl dedi: Əhsən sənə, ey gənc,

Dil açıb mənə afərinlər etdi.
"Leyli və Məcnun" əhvalatını bitirməklə
Onların eşq hadisəsini yenilədin.
İndi "Şirin və Xosrov" əfsanəsini söylə
Ki, o xoşbəxt ay da yenidən görünsün.

Hatifinin "Şirin və Xosrov" adlanan ikinci əsərinin adını Sam Mirzə, Həsən bəy Rumlu (4, s. 174), Molla Əbdünnəbi Fəxrolzəmani (5. s. 119) , Hacı Xəlifə (6. 46), Xəlil Əfqan (7.s.46) və digər bir çox müəlliflər səhvən "Xosrov və Şirin" kimi vermişlər. Halbuki şair özü həm yuxarıda verdiyimiz parçada, həm də aşağıdakı beytdə əsərini "Şirin və Xosrov" adlandırıb:

درین زیبنده نقش دلکش نو
که گردیدش لقب شیرین و خسرو

Bu yenidən bəzənmiş və xoş nəqş
Ki, "Şirin və Xosrov" adını almışdır.

Hatifinin bu poemasının əsasında II Xosrov Pərvizin gözəl Şirinə məhəbbət hekayəsi dayanır. Məlum olduğu kimi, Hatifiyə qədər bu mövzu bir neçə görkəmli farsdilli müəllif- Əbülqasim Firdovsi, Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi və başqaları tərəfindən işlənmişdi. Hatifiyə bu mövzuya bir neçə yeni epizodlar və yeniliklər daxil etmək müəssər olmuşdur. Hər şeydən əvvəl onu qeyd etməliyik ki, Hatifi öz məşhur sələflərini təqlid etməkdən qaçmağa cəhd etmiş və bəzi məqamlarda bu, ona müəssər olmuşdur.

"Şirin və Xosrov" poemasının bir çox əlyazmalarında Mir Əlişir Nəvaiyə ünvanlanmış şeirlərə rast gəlinir. Bunlar Mövləvi Əbd ül-Müktədiri (8.s.312) və Səid Nəfisini (9. 315) bu fikrə gətirmişdir ki, Hatifinin poeması Mir Əlişir Nəvaiyə həsr olunub. Biruni adına Özbəkistan Şərqşünaslıq İnstitutunda saxlanan əlyamalarda (№208) Nəvai haqqındakı şeirlər "Kitabın yazılmasının səbəbləri barədə"ki bölmədə yerləşdirilmişdir.

بتعریف احتیاجی نیست اورا
چه حاجت با مشط روی نکو را

(Onun tərifdən ehtiyacı yoxdur,
Gözəl sifətin saçın düyününə nə ehtiyacı).

Bahkipur kitabxanasında saxlanan əlyazmada bu şeirə daha bir beyt əlavə olunmuşdur:

چو مانی در قلم رستم بشمشیر
نظام دولت و ملت علیشیر

Qələmdə Mani, qılıncda Rüstəm kimidir,
Dövlətin və millətin nizamlayıcısıdır-Əlişir.

Bu parçada 7-ci beyt (ترا در نقد اگر باشد عیاری) belə bir fikir yaradır ki, Əbdürrəhman Cami şair Hatifiyə öz poemasını Mir Əlişir Nəvaiyə həsr etməyi məsləhət görür, lakin beytlərin düzülüşü bizi başqa bir nəticəyə gəlməyə vadar edir: Nəvaiyə həsr olunmuş beytlər əvvəlki iki beytlə (نکو کن گوشدار این نکته را پاس) və son beytlə (ز کناسان طمع کردن ز دو نیست) mənaca bir o qədər də möhkəm bağlanmır. Buna görə də Nəvai haqqındakı beytlər interpolyasiya kimi təqdim olunur. Ancaq poetik üslub, fikrin ifadə tərzi bu beytlərin Hatifiyə məxsus olduğunu təsdiq edir. Belə güman etmək olar ki, onlar poemanın son redaksiyasından çıxarılmışdır. Sam Mirzə yazır: "...Poema bitəndən sonra ("Teymurnamə") bəzi beytlər onun xoşuna gəlmədi, o, onları çıxardı" (2, s. 195)

Lakin poemada söhbətin Xəqanidən, Sədi Şirazidən, Əlişir Nəvaidən və digər fars şeirinin görkəmli simalarından getməsinə baxmayaraq, Hatifi hər bir məqamda Nizamini xatırlayır və poemanın son hissələrində Nizami haqqında deyir:

به بردع چون رسید آواز آن کوس
نزد دیگر نظامی کوس ناموس
چو رفت آوازه نظمش به شیراز
ز سعدی بر نیامد دیگر آواز
به دهلی چون رسید آن گفته نو
د گر نشنید کس گفتارخسرو

(Bərdəyə çatanda o təbilin avazı,
Başqası ilə müqayisədə Nizami namus təbili oldu.

Onun nəzminin avazı Şiraza çatanda
Daha Sədinin səsi gəlmədi.
O yeni söz Dehliyə çatanda
Xosrovun sözünü kimsə eşitmədi.)

Hatifinin əsərlərinin süjet və kompozisiyasından başqa, onların bədii-estetik keyfiyyətində, dil və üslub xüsusiyyətində Nizami təsiri özünü açıq-aydın büruzə verir. Hatifi Nizami sənətkarlığına o qədər aludə olur ki, bəzən bütöv şəkildə onun beytlərini götürüb öz əsərinə daxil edir. Bunu biz "Şirin vəXosrov"da tez-tez görürük. Məsələn:

خرد بخشید تا اورا بدانیم
زگد (زذکر) غیر او دامن فشانیم

(Ağıl verdin ki, onu tanıyaq,
Ondan başqasını zikr etməkdən çəkinək.)

Yaxud,

Xosrovun Fərhadla dialoqunda Nizami üslubu dərhal özünü göstərir. "Həft mənzər" əsəri də Nizaminin "Yeddi gözəl"inə nəzirə olaraq yazılıb. Təbii ki, bu əsərlərin hər biri ağır əmək bahasına başa gəlib, lakin onlar həm dramatizm, həm psixologizm, həm bədii dəyərlər baxımından Nizami əsərlərindən qat-qat aşağıda dayanır. Ola bilsin ki, bu şairlər Nizaminin təsirinə düşməsəydi, böyük sənətkarın kölgəsində qalmasaydı, orijinal əsərlər yaradıb ədəbiyyatda mövqe qazana bilərdi, lakin tarix üçün təəssüf yer saxlamır.

ƏDƏBİYYAT SİYAHISI

1. Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. Bakı-"Sabah"- 1995, səh.154. 712 s.
2. Sam Mirzə, "Töhfeyi-Sami", Bakı-"Elm və Təhsil", 2022, səh 192, 528 s.
3. صفا دکتر ذبیح الله. خماسه سرایی در ایران از قدیمترینعهد تاریخی تا قرن چهاردهم هجری، تهران، ۱۳۳۳ ش.
4. حسن بیک روملو. احسن التواریخ، بسعیو تصحیح چارلس نارمن سیدن، تهران،۱۳۶۷ش ص.۱۷۴
5. فخر الزمانی ملا عبدالنبی قزوینی. تذکره میخانه با تصحیح و تنقیح و تکمیل تراجم با هتمام احمد گلچین معانی ، تهران ، ۱۳۶۰ش.ص. ۱۱۹
6. حاجی خلیفه. کشف الظنون عن اشامی الکتب و ال فنون، الجلد الثانی ، استانبول، ۱۳۱۰ه.۱۸۹۳ میلادی. ص.۴۶
7. خلیل افغان، آثار هرات، جلد دوم، کابیل ، ۱۳۰۹ ش.ص۴۶
8. Mugtadir, Maulavi Abdul , Catalogue of the Arabic and Persian manuscriptis in the Oriental Public Library at Bankipore. vol, Calcutta, 1910, səh. 112.
9. نفیسی سعید، تاریخ نظم و نثر در ایران و در زبان فارسی تا پایان قرن دهم هجری، جلد دوم، تهران، ۱۳۴۴ش.ص ۳۱۵

Ибрагим Насир оглы Гулиев
доктор философии по филологии, доцент,
Бакинский Славянский Университет

Низами Гянджеви и Абдулла Хатифи: экзамен по величайшему искусству

Резюме

Тысячи ответов были написаны на пять поэм «Хамса» и отдельные стихотворения, входящие в «Хамсу» выдающегося азербайджанского поэта и философа Низами Гянджеви, чьё творчество с XIII века до конца XIX века является одним из самых популярных произведений в восточной литературе и считается эталоном для проверки знаний в области поэзии. Наряду с такими всемирно известными художниками, как Амир Хосров Дехлави, Абдуррахман Джами, Алишер Навои и Мухаммед Фузули, Хаджу Кирмани, Фани Кашмири, Навизаде Атайи, Абдулла Хатифи и другие художники также с гордостью сдали экзамен по искусству, обращаясь к темам творчества Низами. Абдулла Хатифи, один из видных представителей персоязычной поэзии, ответил на «Хамсе» Низами пятью поэмами и вошёл в историю литературы как последователь Низами. Следует также отметить, что Хатифи также написал по просьбе шаха Исмаила Сефеви произведение под названием «Исмаилнаме» (также известное как «Футухати-шахи»), восхваляющее выдающегося азер-

байджанского правителя и военного поэта. Хотя произведения Хатифи считаются священными, они содержат довольно интересные сюжетные дополнения. Они представляют интерес с точки зрения языка и стиля, а также изучения исторического периода, в который они были созданы. В статье рассматривается влияние Низами Гянджеви на творчество Хатифи как в плане тематики и сюжета, так и в плане идейно-содержательного подхода.

Ibrahim Nasir Guliyev
doctor of philosophy in philology, associate professor,
Baku Slavic University

Nizami Ganjavi and Abdulla Hatifi: the great art exam

Summary

Thousands of responses and tributes were written to the five poems called “Khamsa” and the individual poems included in “Khamsa” by the prominent Azerbaijani poet and philosopher Nizami Ganjavi, who is the most imitated in Eastern literature and whose works are considered a benchmark for testing in the field of poetry, from the 13th century to the end of the 19th century. Along with world-famous artists such as Amir Khosrov Dahlavi, Abdurrahman Jami, Alishir Navai, and Mahammad Fuzuli, Khaju Kirmani, Fani Kashmiri, Navizada Atayi, Abdulla Hatifi and other artists also took pride in passing the art exam by addressing Nizami’s themes. Abdulla Hatifi, one of the well-known representatives of Persian-speaking poetry, responded to Nizami’s “Khamsa” with five poems and went down in literary history as a follower of Nizami. It should also be noted that Hatifi also wrote a work called “Ismayilnama” (also known as “Futuhati-shahi”) at the request of Shah Ismail Safavi, praising the outstanding Azerbaijani ruler and military poet. Although Hatifi’s works are considered sacred, they contain quite interesting plot additions. They are of interest in terms of language and style, as well as the study of the historical period in which they were created. The article examines the influence of Nizami Ganjavi on Hatifi’s work both in terms of theme and plot, as well as idea-content.

Leyla İbrahim qızı QULİYEVA
filologiya üzrə fəlsəfə doktoru, baş müəllim,
M.V.Lomonosov adına Moskva Dövlət Universtetinin Bakı filialı

İSKƏNDƏRİN ZÜLMƏT DÜNYASINA SƏFƏRİ: TƏXƏYYÜL, YOXSA REALLIQ

Nizami Gəncəvinin "İskəndərnamə" (təxminən 1194) poeması makedoniyalı fateh haqqında yazılan mənzum roman ənənəsinin ən parlaq nümunələrindən biridir. Nizami "məsnəvi"sindən əvvəl Avrasiya qitəsində bir çox dillərdə İskəndər barədə yarı real, yarı mifik əsərlər meydana çıxmış, onlar dövrün hökmdarlarını “İskəndər yolu ilə getməyə ruhlandırmışdı”. Nizami davamlı olaraq yenilənən coğrafi, tarixi, fəlsəfi, etnoqrafik biliklər üçün ideal bir mövzu seçərək onu "ikinci İskəndər" olmağa can atan hökmdarlara təqdim etdi. Şair bu barədə “İqbalnamə”nin “Arslan oğlu Məlik İzəddin Məsudun tərifi” bölməsində yazır:

د ر آن بزم کاشوب را کار نیست
جز این نامه نغز را بار نیس ت
بدان تا جهان را تماشا کند
رصد بندی کوه و دریا کن د
تاختن در طراز آورد گهی
گهی بر حبش ترکتاز آورد
نشسته جهانجوی برجای خویش
جهان ملک آفاقش آورده پی ش

(O məclisdə qovğa yoxdur,
Bu gözəl kitabdan başqasına yer yoxdur.

Bil, dünyaya tamaşa etsin deyə,
Dağı, dəryanı ümumləşdirdi.
Bəzən Təraza doğru çapdı,
Bəzən də Həbəşistanda çapovulçuluq etdi.
Öz yerində oturan cahangirin
Üfüqlər sahibi dünyanı önünə gətirdi.)

Belə əsərlərin əsas dəyərlərindən biri onların tarixi toponimlərin, coğrafi yerlərin, xalqların etnoqrafik xüsusiyyətlərinin öyrənilməsində əvəzsiz mənbə olmasıdır. Buna görə də belə əsərlərin tərcüməsində toponimlər, hidronimlər, oronimlər olduğu kimi saxlanılmalı və ya tərcümədə ilkin variantdakı kimi verilməlidir. Lakin təəssüf ki, yuxarıda nümunə gətirdiyimiz hissənin poetik tərcüməsində yer adı olan Taraz (Şərqi Türküstanda yer adı) buraxılmışdır (1.s. 215)

"İskəndərnamə"nin meydana çıxması hər şeydən öncə Nizaminin ensiklopedik biliyinin nəticəsi idi. "Nizami yaradıcılığı həqiqətən ensiklopedik bilik mənbəyidir: özündə bütöv elmlərin kəşf və nailiyyətlərini birləşdirirdi"(1, s.5) Böyük filosof "İsgəndərnamə"nin birinci hissəsi olan "Şərəfnamə"nin əvvəlində əsərinə elmi mövqedən yanaşdığını aşağıdakı kimi vurğulayır:

ا ثرهای آن شاه آفاق گرد
ندیدم نگاریده در یک نورد
سخنها که چون گنج آگنده بود
به هر نسختی در پراکنده بود
ز هر نسخه برداشتم مایه‌ها
برو بستم از نظم پیرایه‌ها
زیادت ز تاریخهای نوی
یهودی و نصرانی و پهلوی
گزیدم ز هر نامه‌ای نغز او
ز هر پوست پرداختم مغز او

(Üfüqlər dolaşan o şah haqqındakı əsərlərdə
Bir yerə yığılmış məlumat görmədim.
İçi xəzinə kimi dolu sözlər
Nüsxələrə səpilmişdi.
Hər nüsxənin mayasını götürdüm,
Onu şeirimlə bəzədim.
Yeni tarixdən,
Yəhudi, nəsrani, pəhləvi dilində olan əsərlədən bəhrələndim,
Hər kitabdan ən incəsini seçdim,
Hər qabıqdan onun məğzini çıxardım.)

"Xəmsə"nin son və mükəmməl əsəri olan "İskəndərnamə"də dövrün əksər elmlərinə, o cümlədən qədim hind, Yunan-Roma irsində yaşayan böyük bir sivilizasiyanın dəyərlərinə tez-tez müraciət edən şair onlardan təkcə bədii-poetik vasitə kimi deyil, həm də elmi nəticələr üçün istifadə edirdi. Nizaminin digər əsərlərində yer verdiyi mistik-əfsanəvi detallara "İskəndərnamə"də daha çox rast gəlirik: "Şərəfnamə"də "İskəndərin İran atəşkədələrini dağıtması", "İskəndərin Dərbənd qalasını alması", "İqbalnamə"də "Üzük və çoban haqqında hekayə" mistik-əfsanəvi baxımdan daha çox diqqəti cəlb edir.

İskəndərin "Dirilik suyu" tapmaq ümidi ilə Şimala-Zülmət dünyasına yürüşü real-coğrafi, dini-mistik və əfsanəvi əhvalatların siklvari təkrarı və bir-birini izləməsi ilə oxucunu intizarda saxlayır. "Şərəfnamə"nin yekunu olan bu epizodu yazmaq üçün şair uzunmüddətli araşdırmalar aparmış, Şimal qütbünün xüsusiyyətlərini, astronomik təsiri, orada baş verən təbiət hadisələrini, qiymətli elementlərin kimyəvi xassələrini və s. dərindən öyrənmişdir. Şair eyni zamanda qaranlıq dünyada İskəndəri müşayiət edən bələdçinin fəaliyyəti, istifadə olunan fəndlər, zülmətdəki görüşlər, dirilik suyunun aşkarlanması, Xızırın həmin suda yuyunması, sonra çeşmənin itməsi, İskəndərin evə əli-boş qayıtması, onun mənəvi iztirabları, dağdan səs gəlməsi səhnələri ilə real-irreal aləmi qarşılaşdırır, sonda daha çox materialist dünyagörüşə yaxınlaşır. Poemada İskəndərin Şimal qütbünə səfərinə 250 beyt həsr edilmişdir.

Nizami “Zülmət dünyası” barədə əsərinin müxtəlif hissələrində məlumat verir, Bərdə hökmdarı Nüşabəni ruslardan azad edən İskəndər Qafqazın şimalında istirahət edərkən bir qoca ona Şimal qütbündəki "qaranlıq pərdənin" arxasında olan "Dirilik suyu” barədə məlumat verir:

در آن انجمن بود پیری کهن
چو نوبت بدو آمد آخر سخن
همیدون زبان بر شگفتی گشاد
چو دیگر بزرگان زمین بوسه داد
که از هر سواد آن سیاهی به است
که آبی درو زندگانی‌ده است
به گنج گران عمر خود بر مسنج
که خاک است پر گنج و حمال گنج
چو خواهی که یابی بسی روزگار
سر از چشمه زندگانی بر آر
شدند انجمن با سرافکندگی
!که چون در سیاهی بود زندگی؟

Bu məclisdə köhnə bir qoca vardı,
Nəhayət, danışmaq növbəsi ona çatdı.
O da ağzını möcüzəli bir hekayə ilə açdı.
Digər əyanlar kimi torpağı öpdü.
Bütün ölkələrdən zülmət ölkəsi daha gözəldir,
Çünki orada su həyat bəxş edir.
Sərvətin çoxluğu ilə öz həyatını ölçmə,
Çünki torpaq xəzinə və onun sahibləri ilə doludur,
Əgər uzun ömür tapmaq istəyirsənsə,
Abi həyat çeşməsinə doğru get.
Məclis başını aşağı dikdi,
Bu necə ola bilər? Qaranlıqda həyat?

Bu hissədə Nizaminin coğrafiya və etnoqrafiya sahəsində biliyi xüsusilə diqqəti cəlb edir. Belə ki, şair Xorasan, Gur, İsfəhan, Rey, Xarəzm, Çin, Qisur, Hindistan və s. kimi ölkələrdə istehsal olunan məhsullar barədə kifayət qədər dəqiq məlumat verir: O, qızılın Xorasan və Gurdan, Firudinin xəzinəsinin İsfahan və Reydən, müşk və ipəyin Xarəzm və Çindən, sandal və kafurun Qisurdan, ud və gülün Hindistandan gəldiyini bildirir.

Lakin şahı qocanın məlumat verdiyi zülmət dünyası maraqlandırır və o, həmin ölkənin harada yerləşdyini qocadan təkrarən xəbər alır, ikinci onların olduqları yerdən uzaqda olmadığını bildirir:

ز ما تا بدان بوم راه اندکی‌ست
ازین ره که پیمودی از دَه یکی‌ست

(Bizdən o ölkəyə yol yaxındır,
Keçdiyin yolun onda biri qədərdir.)

Şimal qütbünə yürüş zamanı İskəndərin ordusu Bulqar çölündən keçir, şair bu çöl və yerin adı barədə aşağıdakı məlumatı verir:

بن غار خواندش نگهبان دشت
به نام آن بن غار بلغار گشت

(Çölü qoruyanlar onu Boni-ğar adlandırırdılar,
Mağaranın dibi olan bu söz Bulğar oldu)

İlk misralarda Nizami İskəndəri şimala doğru gedərkən günəşin istiqamətindəki sürətli dəyişikliklərlə heyrətləndirir. İskəndər şimala doğru bir ay yol getdikdən sonra günəşin hərəkət trayektoriyasının dəyişdiyini, onun doğması ilə batmasının bir an çəkdiyini görür. Onlar irəlilədikcə günəşin işığı zəifləyir, o, "suda əks olunan" kimi görünür. Yolun sonunda artıq işıq itir.

Ömrü boyu Gəncədən çıxmayan Nizami bu barədə bilikləri haradan almışdı? İtalyan şərqşünası Mario Casari “Nizāmī’s Cosmographic Vision and Alexander in Search of the Fountain of Life” adlı əsərində İskəndərlə bağlı bu təsvirlərə ərəb və fars mətnlərinin əksəriyyətində rast gəlindiyini bildirir (2). Ərəb tarixçisi Təbəri (X əsr) yazır ki, İsgəndər Hindistan, Çin və Tibeti fəth etdikdən

sonra 400 nəfərlə birlikdə şimal qütbü və cənub günəşinin (əl-şəms əl-cünubiyyə) qovşağında yerləşən qaranlığa daxil olub, o, burada əbədiyyət çeşməsi axtarıb və on səkkiz gün qalıb (3, 701).

İskəndər haqqında məşhur kitabın müəllifi Psevdo-Kallisfen İskəndərin ekspedisiyasının "qütb bürcü boyunca" hərəkət etdiyini yazır: "Dünyanın sonunda" olan həmin torpaq "günəşin heç vaxt parlamadığı" bir bölgədədir". Latınca həmin yer "caligo" ("qaranlıq" və ikiqat "duman") sözü ilə ifadə olunur. Bundan əlavə, Şimal qütbündə qış qaranlığından başqa, yay qaranlığı deyilən bir anlayış da vardır, bunun fərqini İskəndərlə bağlı ərəb-fars ənənəsində tapa bilərik. "Qissə əl-ənbya"da Dirilik çeşməsindən danışılarkən deyilir: "İskəndər qaranlığa doğru hərəkət edərkən sıx buxarla qarşılaşır. Buradakı qaranlığın da səbəbi gecə deyildi, quyudan çıxan buxar buludları idi." (9). Bu, buxar, buzların qismən əriməsi nəticəsində yaranmaqda idi. Buxara görə buralara işıq görünmür, istiqaməti tapmaq olmur, dənizçilər risk yaşayır.

Avrasiya qitəsinin ucqarında yerləşən bu zona İslandiyadan Skandinaviya yarımadasına, Almaniyadan şimali Rusiyaya və Sibirin ucqarlarına qədər uzanır. Bu ərazilər orta əsr müsəlman coğrafiyaşünaslarına da məlum idi. Bunu Əl-İdrisinin "Coğrafiya"sında yeddinci iqlimə həsr olunmuş bölmə də sübut edir. (10)

İskəndər haqqında ərəb-fars rəvayətlərində qaranlığa açılan qapı iki fərqli coğrafiyadan keçir: Ural marşrutu və alman marşrutu. Geniş mütaliəyə malik olan Nizami bu qaranlıq diyarına dəniz yolunun olduğunu da bilirdi. Həmin yerləri "qara", "qaranlıq" adlandırırdılar. Ərəb coğrafiyaşünası Əl-Diməşqi yazırdı: "Şimalda Qərb dənizi, Qaranlıq Dəniz və ya Şimali Qara dəniz var, onlara ona görə bu adları veriblər ki, oradan yüksələn buxar günəşi görməyə imkan vermir". (4, 197)

Təbii ki, İskəndər heç vaxt Arktika ərazisində olmayıb, lakin tarixçilər İskəndərin dünya fatehi mifini tamamlamaq üçün bu səfəri onun fəaliyyət diapazonuna daxil etmişlər. Fars səyyahı Həmədani İskəndərin bir yürüşü ilə bağlı yazır: "Tarixi- Rumda oxudum ki, İskəndər Şimal yolunda nəhəng bir dəniz görüb. O, dənizi keçməyi hədəfləyib, lakin ordusu ona icazə verməyib. Ən ucqar sahilə çatdıqdan sonra o, məlumat toplamaq üçün irəliyə bir əsgər göndərib. Həmin əsgər qayıdanda deyib: "buradan o tərəfə heç bir yol yoxdur" (5). Bu ifadə "Quranda" da işlənib.

Nizami Dirilik çeşməsinə işarə edərək yazır: "Həmin bulağın suyu süddən ağ, buzdan soyuq, baldan şirindir". Doğrudan da Arktikadakı su yüksək keyfiyyəti ilə seçilir. Qışda Arktikada buz təbəqəsi çox bərk olur (mare coagulatum), yayda isə həmin təbəqə qismən əriyir. Buzun səthində çoxsaylı kiçik şirin su gölməçələri əmələ gəlir. Daha böyük buzlaqların əriməsi qayalardakı çatlardan bulaqların və fəvvarələrin fontan vurmasına səbəb olur. Qütb dairəsindən bir qədər cənubda yerləşən bölgələrdə bu hadisə ilboyu davam edir. Həmin bulaqlardan süzülən su buz kimi soyuq, süd kimi ağappaq, şirin olur. Nizaminin bu təsviri də dəqiqdir.

Bir sözlə, İskəndər Şimal qütbünə gedib çıxmadı, lakin Nizaminin təxəyyülü onu qaranlıq dünyaya apardı, onun bu yürüşü bir çox mənada hətta bugünkü elmin faktları ilə üst-üstə düşür.

ƏDƏBİYYAT

1. Nizami Gəncəvi, "İskəndərnamə", "İqbalnamə", Bakı, "Lider nəşriyyatı", 2004.
2. https://www.researchgate.net/publication/365261484_4_Nizami's_Cosmographic_Vision_and Alexander_in_Search_of_the_Fountain_of_Life
3. Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri. Tarix ər-rüsul vəl muluk, Dar əl Məarif, 1387 h. 701
4. Yaqut əl Həməvi. Mücəm əl Büldan (Перевод с арабского З. М. Буниятова и П. К. Жузе. Баку: издательство "Элм". 1983).
5. As an homage to a pioneer dragoman, I used here and below the translation by H. W. Clarke from Nizami-Clarke (1881) 801-5, with a few changes. See also Nizami-Bürgel (1991) 377-8. Nizami-Sarvatyan (1368) has: ham āb-ash tavān kh vānd ya' nī chūāb ("one can call it water, but it is almost water").

Лейла Ибрагим кызы Гулиева
доктор философии по филологии, старший преподаватель,
Бакинский филиал Московского Государственного
Университета имени М.В.Ломоносова

Путешествие александра в тёмный мир: вымысел или реальность?

Резюме

Практически все области античной и средневековой наук, включая историю, философию, химию, географию, математику, астрономию и др., нашли отражение в трудах великого поэта Низами. «Поиск Александром живой воды», привлекающий внимание как один из важных рассказов в разделе «Шарафнаме» в «Искендернаме», также вызывает серьёзный интерес с географической, астрономической и космографической точки зрения. Следует признать, что долгое время этот рассказ воспринимался как полумифическое приключение и не получал серьёзного значения. В связи с этим, в данной статье «Поиск Александром живой воды» проводится научный анализ.

Leyla Ibrahim Guliyeva
doctor of philosophy in philology, senior lecturer,
Baku branch of M.V.Lomonosov Moscow State University

Alexander's journey to the dark world: imagination or reality

Summary

Almost all areas of ancient and medieval sciences, including history, philosophy, chemistry, geography, mathematics, astronomy, and others, are reflected in the works of the great poet Nizami. "The search for the water of life," which attracts attention as one of the important stories in the sections "Sharafname" in "Iskandarnama," also evokes significant interest from a geographical, astronomical, and cosmographical perspective. It should be acknowledged that for a long time this story was perceived as a semi-mythical adventure and was not given serious importance. In this regard, the present article conducts a scientific analysis of "The search for the water of life".

İbrahim Rövşən oğlu RƏŞİDOV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Polad Yadulla oğlu MƏDƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

PSİXİ İNKİŞAF LƏNGİMƏSİ OLAN UŞAQLARDA SOSİAL- EMOSİONAL İNKİŞAFIN DƏSTƏKLƏNMƏSİ

Müasir dövrümüzdə sosial-emosional inkişaf problemi məktəbəqədər yaşlı uşaqların sosiallaşması probleminin tərkib hissəsi kimi nəzərdən keçirilir. Ona görə də biz uşaq bağçasında sosial-emosional inkişaf üçün şərait yaradaraq şəxsiyyətin yaradıcı həyat strategiyasının əsaslarını təmin edirik.

Sosial-emosional inkişafın aspektlərinə daxildir:

- ✓ Uşaqlarda özünə, eləcə də özünü əhatə edən digər insanlara emosional müsbət münasibətin şüurlu şəkildə inkişaf etdirilməsi;
- ✓ Emosional vəziyyətlərə, fikirlərə və özünün və başqalarının istəklərinə nail olmaq bacarığı;
- ✓ Sosial əhəmiyyətli davranış bacarıqlarının eyni zamanda davranışlarını tənzimləmək baca-

rıqlarının inkişaf etdirilməsi.

Bu keyfiyyətlərin formalaşdırılması fərdi keyfiyyətlərin (yaradıcı özünüifadə, özünü reallaşdırmaq və özünü inkişaf etdirmək qabiliyyəti) daha da inkişaf etdirilməsi üçün zəmin yaradır. Nəticə etibarilə bu, öz gücünə əminlik hissinin formalaşdırılması, uşağın sosial qarşılıqlı fəaliyyəti və həyat uğurları deməkdir.

Sosial-emosional inkişaf və tərbiyənin əsas məqsədi məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin hərtərəfli inkişafını təmin edən rahat şəraitin yaradılmasıdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr xidmət edir:

1. Uşağın qarşılaşdığı bütün vəziyyətlərdə müsbət emosional hiss formalaşdırmaq;
2. Uşağın fərdi xüsusiyyətləri və onların unikallığı barədə məlumatlılığı inkişaf etdirmək (müsbət obraz – "mən");
3. İnamlı davranış (istək və tələbləri ifadə etmək, iradə göstərmək, öz qərarını vermək, seçim etmək bacarığı) və tənzimləmə bacarıqlarını inkişaf etdirmək;
4. Uşağın başqalarına müsbət münasibətini formalaşdırmaq;
5. Sosial bacarıqları inkişaf etdirmək: münaqişə vəziyyətlərinin həlli üçün müxtəlif sosial məqbul yolların həll edilməsi və assimilyasiyası, etiket və təhlükəsizlik qaydalarına diqqət yetirmək, razılıq əldə etmək, dostluq münasibətləri və yeni əlaqələr qurma bacarığı.

Psixi inkişaf ləngiməsi olan uşaqlar, ümumiyyətlə, digər uşaqlardan daha yavaş inkişaf edirlər və bu, onların intellektual, sosial və emosional inkişaflarına təsir göstərir. Məktəbəqədər yaş dövrü uşaqların sosial və emosional inkişafı üçün çox vacib bir mərhələdir, çünki bu dövr, gələcəkdəki həyat keyfiyyətini və əlaqələrini formalaşdıran əsas mərhələlərdən biridir. Psixi inkişafı ləngiyən uşaqların sosial və emosional inkişafının dəstəklənməsi, onlara düzgün dəstək verilməsi və inkişaflarına stimul vermək məqsədilə xüsusi yanaşmaların tətbiq edilməsi tələb olunur.

1. Psixi inkişaf ləngiməsi olan məktəbəqədər yaşlı uşaqların xüsusiyyətləri. Məktəbəqədər yaşlı uşaqlarda psixi inkişaf ləngiməsi müxtəlif səbəblərdən irəli gələ bilər. Bu uşaqların xüsusiyyətləri müxtəlif şəkildə təzahür edə bilər, lakin ümumilikdə aşağıdakı əlamətlər müşahidə edilə bilər:

- ✓ **Zəif nitq inkişafı:** Psixi inkişafı ləngiyən uşaqların çoxu, digər uşaqlara nisbətən daha yavaş və ya çətinliklə danışa bilərlər. Bu, onların sosial əlaqə qurma qabiliyyətinə mənfi təsir göstərə bilər.
- ✓ **Motor bacarıqlar və koordinasiya:** Bu uşaqların bəziləri motor bacarıqlarında, məsələn, yazı yazmaq, əşyaları tutmaq və ya fiziki fəaliyyətlərdə çətinliklər yaşayırlar.
- ✓ **Emosional tənzimləmə problemləri:** Psixi inkişafı ləngiyən uşaqlar emosiyalarını başa düşməkdə və düzgün ifadə etməkdə çətinlik çəkə bilərlər. Bu uşaqlara tez-tez ağlama, qəzəb və narahatlıq hissləri nümayiş etdirirlər.
- ✓ **Sosial əlaqələrdə çətinliklər:** Bu uşaqlar sosial mühitlərdə, xüsusən də digər uşaqlarla qarşılıqlı əlaqə qurarkən, öz duyğularını idarə etmək və sosial qaydalara əməl etməkdə çətinlik çəkə bilərlər.

2. Sosial İnkişafın Dəstəklənməsi. Psixi inkişafı ləngiyən uşaqların sosial inkişafı onların ətraf mühitlə necə qarşılıqlı əlaqə qurduqlarını, başqaları ilə münasibətlərini və cəmiyyətdə öz yerini tapmalarını əhatə edir. Bu uşaqların sosial bacarıqlarını inkişaf etdirmək və onları digər uşaqlarla münasibətlər qurmağa təşviq etmək, onların daha sağlam və rahat həyat tərzi sürmələri üçün vacibdir.

- ✓ **Sosial bacarıqların inkişafı:** Psixi inkişafı ləngiyən uşaqlara sosial bacarıqların öyrədilməsi çox vacibdir. Uşaqlara necə dost tapmağı, paylaşmağı, növbə gözləməyi və əməkdaşlıq etməyi öyrətmək lazımdır. Məktəbəqədər yaş dövründə sosial bacarıqların inkişafı uşağın digər uşaqlarla uyğunlaşmasına, özünü yaxşı ifadə etməsinə və empati hisslərini gücləndirməsinə kömək edər.
- ✓ **Qrup oyunları və sosial fəaliyyətlər:** Uşaqların qrup şəklində fəaliyyətlərə və sosial oyunlara cəlb edilməsi, onların sosial bacarıqlarını inkişaf etdirmək üçün əhəmiyyətlidir. Psixi inkişafı ləngiyən uşaqlar, oyun vasitəsilə başqaları ilə əlaqə qurmağı və öz duyğularını başqalarına ifadə etməyi öyrənə bilərlər. Uşaqlara fərqli oyunlar və sosial təcrübələr təqdim edərək, onların əməkdaşlıq, paylaşma və gözləmə kimi əsas sosial bacarıqları inkişaf etdirilə bilər.

✓ **Valideyn və müəllimlərin dəstəyi:** Psixi inkişafı ləngiyən uşaqların sosial inkişafını dəstəkləmək üçün valideynlər və müəllimlər onlara xüsusi diqqət və qayğı göstərməlidirlər. Uşaqlar, əgər ailə və müəllimlərindən dəstək alırlarsa, özlərini daha etibarlı hiss edərlər və sosial mühitlərdə daha asan uyğunlaşarlar. Valideynlər uşaqlarına digər uşaqlarla sosial əlaqə qurmağı təşviq etməli, oyunlar və digər sosial fəaliyyətlərə qatılmalarını təmin etməlidirlər.

3. Emosional İnkişafın Dəstəklənməsi. Emosional inkişaf uşağın öz hisslərini anlamaq, idarə etmək və başqalarının hisslərini başa düşmək qabiliyyətini inkişaf etdirməkdən ibarətdir. Psixi inkişafı ləngiyən uşaqların emosional inkişafı daha çox dəstək və yönləndirmə tələb edir, çünki onlar öz duyğularını başa düşməkdə və ifadə etməkdə çətinlik çəkə bilərlər.

✓ **Duyğusal ifadə və özünə nəzarət:** Psixi inkişafı ləngiyən uşaqların duyğularını ifadə etmə bacarığı zəif ola bilər. Onlara öz hisslərini başa düşməyi, adı ilə tanımağı və düzgün ifadə etməyi öyrətmək çox vacibdir. Uşaqlara müxtəlif duyğuları tanımaq, adlandırmaq və bu duyğuları necə düzgün ifadə etmək haqqında məlumat vermək onların emosional inkişafını gücləndirir.

✓ **Emosional təhlükəsizlik:** Uşaqların emosional təhlükəsizliyini təmin etmək onların özünə inamını artırmaq və ətraf mühitlə uyğunlaşmalarını asanlaşdırmaq üçün çox önəmlidir. Psixi inkişafı ləngiyən uşaqlara sevgi, qayğı və diqqət göstərilməli, onları qoruyan və dəstəkləyən bir mühit təmin edilməlidir. Bu mühit, uşaqların duyğusal ehtiyaclarını qarşılamağa kömək edər və onlara özlərini daha rahat hiss etməyə imkan tanıyar.

✓ **Emosional tənzimləmə bacarıqları:** Psixi inkişafı ləngiyən uşaqların emosional vəziyyətlərini idarə etməkdə çətinlik çəkə biləcəkləri üçün, onlara bu bacarıqları öyrətmək çox vacibdir. Uşaqlara dərin nəfəs alma, sakitləşmə üsulları və stresslə mübarizə metodları öyrədilməli, onların emosional vəziyyətlərini daha yaxşı idarə etmələrinə kömək edilməlidir. Bu, uşaqların daha sabit emosional vəziyyətlərə sahib olmalarına və sosial mühitlərə daha asan uyğunlaşmalarına imkan verər.

✓ **Pozitiv gücləndirmə və motivasiya:** Uşaqlara müsbət davranışları təşviq etmək və onların inkişafını gücləndirmək üçün motivasiya çox önəmlidir. Hər kiçik uğur üçün onları tərifləmək və təşviq etmək onların özlərinə inamını artırır və emosional vəziyyətlərini yaxşılaşdırır. Pozitiv gücləndirmə uşaqların hər gün daha yaxşı nəticələr əldə etməsi üçün onları ruhlandırır.

4. Ailə və məktəb əməkdaşlığı. Psixi inkişafı ləngiyən uşaqların sosial və emosional inkişafını dəstəkləmək üçün ailə və məktəbin birgə əməkdaşlığı çox vacibdir. Ailə uşağın emosional və sosial ehtiyaclarını yaxşı başa düşməli və məktəblə müntəzəm əlaqə saxlamalıdır. Məktəbdə isə müəllimlər və mütəxəssislər uşağın ehtiyaclarına uyğun fərdi yanaşmalar tətbiq etməli, ona öz sosial və emosional bacarıqlarını inkişaf etdirməyi öyrətməlidirlər.

Psixi inkişafı ləngiyən məktəbəqədər yaşlı uşaqların sosial və emosional inkişafını dəstəkləmək onların gələcəkdə daha sağlam və məmnun həyat sürmələri üçün vacibdir. Onların inkişafını dəstəkləmək üçün ailə, müəllimlər və cəmiyyətin birgə əməkdaşlığı böyük rol oynayır. Bu uşaqlara göstərilən xüsusi diqqət və qayğı, onların sosial bacarıqlarını artırmağa, emosional vəziyyətlərini stabilləşdirməyə və ümumilikdə daha yaxşı bir həyat keyfiyyəti əldə etmələrinə kömək edəcəkdir.

ƏDƏBİYYAT

1. Екжанова Е. А. От интеграции к инклюзии // Школьный психолог. (2010) № 16
2. Инклюзивное образование: ключевые понятия / сост. Н. В. Борисова, С. А. Прушинский. – М.: Владимир: Транзит-ИКС, (2009).
3. Инклюзивное образование: за и против // Современное дошкольное образование. (2008) № 5.
4. Малофеев Н. Н. Дети с отклонениями в развитии в общеобразовательной школе: общие и специальные требования к результатам обучения // Воспитание и обучение детей с нарушениями развития. (2010) № 5.
5. Малофеев Н. Н. Инклюзивное образование в контексте современной социальной политики // Воспитание и обучение детей с нарушениями развития (2010) № 1.
6. Малофеев Н. Н., Шматко Н. Д. Базовые модели интегрированного обучения // Дефектология. (2008) № 1.

Ибрагим Ровшан оглы Рашидов
магистрант,
Азербайджанский Университет Кооперации
Полад Ядулла оглы Мададов
доктор философии по педагогике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Поддержка социально-эмоционального развития детей с нарушениями психического развития

Резюме

Статья посвящена проблеме поддержки социального и эмоционального развития детей дошкольного возраста с задержкой психического развития. Поддержка социального и эмоционального развития детей с задержкой психического развития, оказание им должной поддержки и стимулирование их развития требуют применения специальных подходов. Поддержка социального и эмоционального развития детей дошкольного возраста с задержкой психического развития важна для их будущей здоровой и счастливой жизни. Совместное сотрудничество семьи, педагогов и общества играет важную роль в поддержке их развития.

Ibrahim Rovshan Rashidov
master,
Azerbaijan Cooperation University
Polad Yadulla Madadov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan State Pedagogical University

Supporting social and emotional development in children with mental developmental disabilities

Summary

The article is devoted to the issue of supporting social and emotional development in preschool children with intellectual disabilities. Supporting the social and emotional development of children with intellectual disabilities, providing them with proper support and stimulating their development requires the application of special approaches. Supporting the social and emotional development of preschool children with intellectual disabilities is important for them to live healthier and happier lives in the future. The joint cooperation of family, teachers and society plays a major role in supporting their development.

Firuzə Fərhad qızı BABAYEVA
magistrant,
firuza1297@gmail.com,
İramin Namaz oğlu İSAYEV
pedaqogika üzrə fəlsəfə doktoru, professor,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ OLUNMASINDA METODOLOJİ PRİNSİPLƏRİN TƏTBİQİ

Müasir dövrdə təhsil sistemi cəmiyyətin sosial-iqtisadi, mədəni və mənəvi inkişafının əsas da-yaqlarından biri kimi çıxış edir. Təhsilin səmərəli idarə olunması dövlətin inkişaf strategiyasının ən mühüm istiqamətlərindən hesab olunur. Təhsil müəssisələrinin idarə olunması yalnız təşkilati və inzibati fəaliyyət deyil, həm də elmi-nəzəri yanaşma tələb edən mürəkkəb sosial-pedaqoji

prosesdir. Bu prosesin əsasında dayanan metodoloji prinsiplər idarəetmənin məqsədini, strukturunu, funksiyalarını və səmərəlilik mexanizmlərini müəyyənləşdirir. İdarəetmə fəaliyyəti məqsədyönlü, planlı, sistemli və nəticəyönümlü şəkildə təşkil olunmadıqda, təhsil müəssisəsində keyfiyyətli nəticələrə nail olmaq mümkün deyil. Odur ki, müasir dövrdə təhsil rəhbərlərinin metodoloji hazırlığı və bu prinsipləri praktikada tətbiqetmə bacarığı strateji əhəmiyyət daşıyır [1, s.45].

Azərbaycan Respublikasında son illərdə aparılan təhsil islahatları idarəetmə prosesinin elmi əsaslara söykənməsi zərurətini daha da artırmışdır. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərilir ki, təhsil müəssisələrinin idarəetmə sistemi şəffaf, demokratik və nəticəyönümlü olmalıdır. Burada məqsəd yalnız idarəetmə strukturunu dəyişmək deyil, idarəetmə mədəniyyətini, qərar qəbul etmə mexanizmini və təhsil rəhbərlərinin fəaliyyət fəlsəfəsini yeniləməkdir. "Təhsil haqqında" Qanunda da idarəetmənin prinsipləri kimi humanizm, demokratiklik, ictimailik və şəffaflıq xüsusi vurğulanır ki, bu da metodoloji prinsiplərin təhsildə tətbiqi üçün normativ-hüquqi baza yaradır [6, s.8; 7, s.4].

Təhsil müəssisəsinin idarə olunması – planlaşdırma, təşkilatlandırma, motivasiya, nəzarət və tənzimləmə kimi qarşılıqlı əlaqəli funksiyalardan ibarət bir sistemdir. Bu sistemin hər bir elementi elmi-nəzəri əsaslara söykənməlidir. Məsələn, planlaşdırma funksiyası məqsədlərin düzgün müəyyənləşdirilməsini, təşkilatlandırma resursların optimal bölüşdürülməsini, nəzarət isə nəticələrin obyektiv qiymətləndirilməsini nəzərdə tutur. Bu funksiyaların harmonik əlaqəliliyi yalnız metodoloji prinsiplərin idarəetmə prosesinə tətbiqi ilə mümkündür [2, s.71]. Təhsilin idarə edilməsində metodoloji yanaşma – idarəetmə fəaliyyətinin məqsədini və məzmununu elmi baxımdan əsaslandırmaq, qərarların subyektiv deyil, obyektiv faktlara söykənməsini təmin etmək deməkdir [3, s.63].

Metodoloji prinsiplər idarəetmənin elmi əsası kimi çıxış edir. Onlar təhsil müəssisəsində qəbul edilən qərarların səmərəliliyini, məqsədyönlülüyünü və nəticəyönümlülüyünü müəyyənləşdirir. Elmilik prinsipi göstərir ki, idarəetmə qərarları pedaqoji və psixoloji qanunauyğunluqlara, müasir menecment konsepsiyalarına və təhsil sosiologiyasının nəticələrinə əsaslanmalıdır. Bu, rəhbərin fəaliyyətini empirik müşahidələrdən çıxarıb elmi əsaslara keçirir və idarəetmədə obyektivlik yaradır [1, s.62].

Sistemlilik prinsipi təhsil müəssisəsini vahid bir sosial-pedaqoji sistem kimi dəyərləndirir. Məktəbin idarəetmə sistemi rəhbərlik, müəllimlər, şagirdlər, valideynlər və ictimai təşkilatlar arasında əlaqəli münasibətlərə əsaslanır. Bu münasibətlərdə məqsədlərin, funksiyaların və məsuliyyətin bölüşdürülməsi sistemli şəkildə qurulduqda idarəetmənin səmərəliliyi artır. Sistem yanaşması həmçinin təhsil prosesinin bütün mərhələlərinin qarşılıqlı əlaqəsini təmin edir, idarəetmədə xaotik yanaşmanın qarşısını alır [2, s.80]. Beləliklə, sistemlilik prinsipi idarəetmə fəaliyyətinin strukturlaşdırılmasını və nizamlılığını təmin edən əsas metodoloji baza kimi çıxış edir [3, s.67].

Demokratiklik və iştirakçılıq prinsipi təhsil müəssisəsində idarəetmə prosesinin açıq və kollegial şəkildə həyata keçirilməsini nəzərdə tutur. Qərarların qəbuluna müəllimlərin, şagirdlərin və valideynlərin cəlb edilməsi həm idarəetmədə şəffaflığı, həm də kollektiv məsuliyyəti artırır. Demokratik idarəetmə mühiti pedaqoji kollektivdə etimad, əməkdaşlıq və qarşılıqlı hörmət münasibətlərini gücləndirir [4, s.63]. Bu prinsiplərin tətbiqi həm də təhsil müəssisəsində sosial-psixoloji iqlimin sabitləşməsinə xidmət edir, çünki hər bir iştirakçı öz fikrinin nəzərə alındığını hiss etdikdə, onun fəaliyyət motivasiyası yüksəlir [2, s.84].

Nəticəyönümlülük prinsipi təhsil müəssisəsində həyata keçirilən bütün idarəetmə fəaliyyətinin əsas məqsədini müəyyən edir. Bu prinsipə görə, idarəetmə qərarlarının dəyəri yalnız əldə edilən nəticələr əsasında ölçülür. Təhsil müəssisəsində nəticə dedikdə, şagird nailiyyətləri, müəllim fəaliyyətinin keyfiyyəti, tədris mühitinin müasirləşməsi və ümumi təlim nəticələri nəzərdə tutulur. Nəticəyönümlü idarəetmə modelində bütün resurslar (maddi, maliyyə, insan və informasiya resursları) konkret məqsədlərə yönəldilir və bu məqsədlərə çatma dərəcəsi sistemli şəkildə qiymətləndirilir [4, s.69]. Bu yanaşma idarəetmədə şəffaflığın, hesabatlılığın və məsuliyyətliliyin artmasına səbəb olur [5, s.92].

Fəal iştirak və innovasiyalara açıq olma prinsipi müasir təhsil idarəçiliyinin ayrılmaz hissəsidir. XXI əsrin çağırışları təhsildə innovativ idarəetmə texnologiyalarının tətbiqini zəruri edir. Elektron

idarəetmə, distant tədris sistemləri, rəqəmsal monitorinq və informasiya texnologiyalarının inteqrasiyası idarəetmə prosesini çevik və səmərəli edir [5, s.89]. Rəqəmsal texnologiyalar idarəetmədə vaxt itkisini azaldır, qərar qəbuletməni sürətləndirir və eyni zamanda şəffaflığı təmin edir. İnovasiyalara açıq olan təhsil rəhbəri daim yeniliyi izləyən, öz kollektivini də bu istiqamətdə motivasiya edən şəxs olmalıdır [5, s.93].

Metodoloji prinsiplərin real idarəetmə təcrübəsində tətbiqi çoxşaxəli prosesdir. Bu prinsiplərin həyata keçirilməsi idarəetmənin planlaşdırılması, təşkil olunması, nəzarət və qiymətləndirmə mexanizmlərində öz əksini tapmalıdır. Təhsil müəssisəsində metodoloji prinsiplərin uğurla tətbiqi üçün idarəetmə qərarlarının elmi əsaslarla hazırlanması, rəhbər və müəllim heyətinin metodoloji hazırlığının yüksəldilməsi, idarəetmədə informasiya texnologiyalarından geniş istifadə, habelə kollektivdə demokratik mühitin yaradılması vacibdir [3, s.70].

Metodoloji prinsiplərin tətbiq mexanizmlərinə həmçinin təhsil müəssisəsində strateji planlaşdırmanın elmi əsaslarda qurulması, fəaliyyətin nəticələrinin sistematik monitorinqi və təhlili, kadr potensialının metodoloji baxımdan inkişafı daxildir [2, s.76]. Bu prinsiplər idarəetmədə vahid istiqamət yaradır, qərar qəbul edən rəhbərlərin fəaliyyətini elmi və analitik düşüncə ilə uzlaşdırır. Nəticədə idarəetmə sistemində təkcə inzibati nəzarət deyil, həm də innovativ inkişaf yönümlü idarəetmə mədəniyyəti formalaşır [1, s.66].

Nəticə etibarilə, təhsil müəssisələrinin idarə olunmasında metodoloji prinsiplərin tətbiqi idarəetmə fəaliyyətinin səmərəliliyini, məqsədyönlülüyünü və nəticəyönümlülüyünü təmin edən əsas amildir. Elmilik, sistemlilik, demokratiklik, nəticəyönümlülük və innovativlik prinsiplərinin qarşılıqlı şəkildə tətbiqi təhsil müəssisələrinin inkişaf strategiyasını formalaşdırır, rəhbərlik fəaliyyətini elmi səviyyəyə qaldırır və ümumilikdə təhsil sistemində davamlı inkişafın təminatına çevrilir [5, s.95].

ƏDƏBİYYAT

1. Məmmədov, R. (2018). Təhsil idarəetməsinin əsasları. Bakı: Təhsil. – s.45–70.
2. Əliyeva, S. (2020). Təhsil müəssisələrində idarəetmənin psixoloji əsasları. Bakı: Qanun. – s.70–92.
3. Hüseynov, H. (2019). Məktəbin idarə olunmasında müasir yanaşmalar. Bakı: Elm və Təhsil. – s.60–85.
4. Rüstəmova, N. (2021). Təhsil menecmenti. Bakı: Təhsil. – s.50–75.
5. Cəfərova, L. (2022). İnnovativ təhsil idarəetməsi. Bakı: Elm. – s.85–105.
6. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
7. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009

Фируза Фархад кызы Бабаева
магистрант,
firuza1297@gmail.com,
Ирамин Намаз оглы Исаев
доктор философии по педагогике, профессор,
Азербайджанский Государственный Педагогический Университет

Применение методологических принципов в управлении образовательными учреждениями

Резюме

В статье рассматривается применение методологических принципов в управлении образовательными учреждениями. Отмечается, что современная система образования требует научно обоснованного и системного подхода к процессу управления. Методологические принципы – такие как системность, научность, демократизм, гуманизм, целостность и инновационность – обеспечивают эффективность функционирования и развития образовательных организаций.

Особое внимание уделяется роли руководителя образовательного учреждения, который должен обладать методологической культурой, аналитическим мышлением и способностью принимать стратегические решения. Автор подчеркивает, что применение методологических принципов способствует формированию благоприятной образовательной среды, совершенствованию кадрового потенциала, повышению качества обучения и устойчивому развитию учебного процесса.

Таким образом, методологические принципы в управлении образованием являются неотъемлемой частью современной системы педагогического менеджмента и служат основой для научно-обоснованных решений и инноваций в образовательной практике.

Firuza Farhad Babayeva
master,
firuza1297@gmail.com,
Iramin Namaz Isayev
doctor of philosophy in pedagogy, professor,
Azerbaijan State Pedagogical University

Application of methodological principles in the management of educational institutions

Summary

The article explores the application of methodological principles in the management of educational institutions. It emphasizes that the modern education system requires a scientifically grounded and systematic approach to administration. Methodological principles such as consistency, scientificity, democracy, humanism, integrity, and innovation ensure the effective functioning and sustainable development of educational organizations.

Particular attention is given to the role of the school leader, who must possess methodological culture, analytical thinking, and the ability to make strategic decisions. The author highlights that the implementation of methodological principles contributes to creating a favorable educational environment, improving staff competence, enhancing the quality of education, and ensuring sustainable institutional development.

Thus, methodological principles in education management represent a key component of modern pedagogical management and form the foundation for scientifically justified decision-making and innovation in educational practice.

Leyla Heydər qızı QULİYEVA
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Firuzə Nuru qızı ƏLİYEVA
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
AMEA, Fəlsəfə və Sosiologiya İnstitutu

AZƏRBAYCAN GƏNCLİYİ BİZİM GƏLƏCƏYİMİZDİR

“Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”.
Heydər Əliyev

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün prioritet məsələdir. Dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyətin islahatları hərəkətə gətirən zümrəsi və yaşlı nəslin davamçısı hesab olunur. Gənclər cəmiyyətin ən dinamik zümrəsi olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir və ölkədə baş verən bütün

proseslərin mərkəzində dayanırlar. Nəsillər dəyişir, ancaq ənənələr, milli dəyərlər, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının və ölkəsinin çiçəklənməsinin rəhnidir. (5)

Azərbaycan gənclərinin müasir inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın Ümummilli Lideri Heydər Əliyev olmuşdur. Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti, əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olmuşdur. Qeyd etmək lazımdır ki, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu Öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək strategiyasının əsasını təşkil edir. Ümummilli Lider həmişə gənclərimizə böyük ümidlər bəsləyir, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Belə ki, hələ 70-80-ci illərdə Heydər Əliyevin diqqət və qayğısı sayəsində minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilmişdir. Gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir. Belə ki, Azərbaycan gənclərinin təşkilatlanması əsas məqsədlərdən biri kimi qarşıya qoyulmuşdur. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə 1994-cü ildə yaradılmış Gənclər və İdman Nazirliyi bunun bariz nümunəsidir. O vaxtdan dövlət gənclər siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində əməli işlər görməkdədir. Ümummilli Liderin 1995-ci ildə irəli sürdüyü Gənclər Forumu ilə bağlı təşəbbüsündən sonra 1996-cı ildən başlayaraq Azərbaycan Gənclərinin forumu keçirilir. Forumlarda Ulu Öndər Heydər Əliyevin proqram xarakterli nitqlərində gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirilmiş, gənc nəslin hərtərəfli inkişafı problemlərinin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında mühüm bir vəzifə olaraq qoyulmuşdur. (6)

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi gənclər siyasəti beş mühüm istiqaməti özündə əks etdirirdi.

Milli mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək;

Gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək;

Gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək;

Gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq;

Azərbaycan dövlətinin Beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq.

Azərbaycan Respublikasının Konstitusiyası və gənclər siyasəti ilə bağlı qanunlar gənclərin hüquqlarının təmin edilməsində mühüm rol oynayır. Xüsusilə, "Azərbaycan Gəncliyi 2017-2025-ci illərdə Dövlət Proqramı" bu sahədə mühüm rol oynayır. Bu proqram gənclərin təhsil, məşğulluq, mədəniyyət və idman sahəsində inkişafını dəstəkləməklə yanaşı, onların liderlik və təşəbbüskarlıq qabiliyyətini artırmağa yönəlmişdir. (3)

Təhsil gənclərin potensial imkanlarını reallaşdırmaq üçün ən mühüm vasitələrdən biridir. Azərbaycan gəncləri müasir texnologiyalara, elmi yeniliklərə yiyələnərək ölkənin qlobal arenada rəqabətə davamlı olmasında mühüm rol oynayırlar. Azərbaycan gəncləri cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak edir. Gənclər təşkilatları və könüllü proqramları onların liderlik bacarıqlarını inkişaf etdirməyə, ictimai problemlərin həllində iştirak etməyə imkan yaradır. Xüsusilə, "ASAN xidmət" kimi təşəbbüslər gənclərin dövlət idarəçiliyində şəffaflıq və yenilikçilik prinsipinin dəstəklənməsini təmin edir. Azərbaycan gəncləri milli-mənəvi dəyərlərin qoruyucusu olmaqla yanaşı, multikulturalizm və tolerantlıq prinsiplərini də təşviğ edirlər. Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və zəngin irsimizin gələcək nəsillərə ötürülməsində Azərbaycan gənclərinin xüsusi xidmətləri vardı.

İdman sahəsində dövlətin gənclərə dəstəyi xüsusilə böyük rol oynayır. Məhz bunun sayəsində onlar dünya miqyasında Azərbaycan idmanını yüksəklərə qaldırmışlar.

Azərbaycan gəncləri Vətənə sədaqət, milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə olunmuş və bu özünü XX əsrin sonlarında dövlət müstəqilliyinin bərpa edilməsi, erməni təcavüzkarlarına qarşı torpaqlarımızın işğaldan azad edilməsində göstərdi. Heç təsadüfi deyil ki, ölkəmizin azadlığı və suverenliyi uğrunda şəhid olanların əksəriyyətini gənclər təşkil edirdilər. Onlar respublikamızın ən gərgin dövrlərində əllərində silah Vətənin müdafiəsinə qalxmaqla yanaşı, ictimai proseslərdə də fəallıq nümayiş etdirmişlər.

Azərbaycan gəncləri dövlət müstəqilliyinin bel sütununu təşkil edirlər. Ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, eyni zamanda hüquqi, demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi ilə bağlı vəzifələr gənclərimizin milli maraqlar əsasında səfərbər olunmasını, eyni zamanda onların harmonik inkişafını təmin etməyə imkan verən dövlət siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini meydana gətirmişdir.

Gənclərə dövlət qayğısı və qanuni baza, 1999-cu ildə "Gənclər siyasəti haqqında" Fərmanın imzalanması, daha sonra "Gənclər siyasəti haqqında Qanunun qəbul edilməsi Ulu Öndərin bu sahəyə xüsusi diqqət yetirdiyini bir daha təsdiq edir. Həmin sənədlərin qəbulu gənclərin milli-mənəvi dəyərlərimizin qorunmasında rolunu artırmaq, elmi, intellektual potensialının yüksəldilməsi üçün təhsil islahatları həyata keçirmək, dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq, Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq kimi vəzifələrin həyata keçirilməsində mühüm rol oynamışdır. Azərbaycan dövləti gənclərə yüksək etimad göstərir, diqqət və qayğısını getdikcə gücləndirir. 2005-ci ildə ölkəmizin inkişafı və mənafeyi naminə gənclərin potensial gücündən istifadə edilməsi, onların aktiv fəaliyyətinin təmin olunması, uşaq və gənclər təşkilatlarının formalaşması və inkişafı üçün şəraitin yaradılması məqsədilə Azərbaycan Gəncliyi Dövlət Proqramını (2005-2009-cu illər) imzalamışdır. Həmçinin 2006-cı ildə Gənclər və İdman Nazirliyi yenidən təşkil edilmiş və onun qarşısında yeni vəzifələr qoyulmuşdur. (4)

"Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı" (2006-2010-cu illər), "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı" (2007-2012-ci illər) gənclər siyasətinin daha da təkmilləşdirilməsini təmin etdi, gənclərin yaradıcılıq potensialının aşkara çıxarılması və reallaşdırılması üçün lazımi şəraitin yaradılmasına, gənclərin intellektual səviyyəsinin yüksəldilməsinə, xüsusi istedadlı gənclərin seçilməsinə və onlarla müvafiq tədbirlərin həyata keçirilməsinə, gənclərin sosial problemlərinin həllinə böyük zəmin yaratdı.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 5000 gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi nəzərdə tutulmuşdur. Bundan başqa ölkəmizdə idmana xüsusi dövlət qayğısı göstərilir. Belə ki, idmançı gənclərimiz bir sıra olimpiya oyunlarında yüksək nəticələr göstərərək Azərbaycan bayrağını yüksəklərə qaldırmışlar.

"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının qəbul olunması gənclərin inkişafı yönündə növbəti mərhələnin əsasını qoydu. Bu proqramın əsas məqsədi Azərbaycanda gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssisləri işlə təmin etmək və digər məsələlərdən ibarət olmuşdur. 2005-2009-cu illərdə əgər Azərbaycan Gəncliyi Dövlət Proqramına büdcədən 8,4 mln. manat ayrılmışdısa, yeni proqrama 80 milyondan çox vəsait ayrılmışdır.

Gənclərə ipoteka kreditlərinin verilməsi də dövlət proqramının tərkib hissələrindən biridir. Xüsusilə qeyd etmək lazımdır ki, ipoteka kreditlərinin verilməsi qaydalarının sadələşdirilməsi sənədə ayrıca bir bənd kimi daxil edilmişdir. Gənclərin qeyri-hökumət təşkilatlarının və fərdi layihələrinin maliyyələşdirilməsi məqsədi ilə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu dövlətimizin gənclərə olan diqqət və qayğısının ən yüksək təzahürüdür. Bu fonda dövlət büdcəsindən 10 milyon manat vəsait ayrılmışdır. Gənclər dövlət qulluğuna irəli çəkilirlər. (1)

Müasir informasiya cəmiyyətində dövlətin gənclərə qayğısının bariz nümunələrindən biri də əyləncə, təhsil, idman və digər infrastruktur layihələrin həyata keçirilməsidir ki, bu sahədə

təqdirəlayiq işlər görülməkdədir. Həmin layihələr əsasında tikilən Gənclər evi və mərkəzləri gənclərin inkişafını və maraqlarını təmin etmək, asudə vaxtlarını səmərəli təşkil etmək və onlara sosial dəstək göstərmək məqsədi daşıyır. Gəncliyə göstərilən dövlət qayğısı öz bəhrəsini verir. Belə ki, gənclərimiz dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə layiqincə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Qeyd etmək lazımdır ki, dövlətin dəstəyinin nəticəsidir ki, dövlət orqanlarında çalışanların 60 faizdən çoxunu gənclər təşkil edir. Bələdiyyə üzvlərinin 30 faizini gənclər təşkil edir. Onların 300-dən çoxu bələdiyyə sədridir.

Xalqımızın əmin-amanlığı və tərəqqisinin təmin olunması bugünkü gəncliyimizin üzərinə düşür. 44 günlük Vətən müharibəsində gənclərimizin göstərdikləri qəhrəmanlıq nümunələri bunun bariz ifadəsidir.

Azərbaycanda hazırkı sosial-iqtisadi şəraitdə gənclərimizin peşə təhsilinə yönəldilməsi prioritet məsələlərdən biridir. Gəncləri yeniyetmə yaşlarından bilik və bacarıqlarına, daxili maraqlarına, müvafiq peşəyə istiqamətləndirmək lazımdır. Heç şübhəsiz ki, ölkənin gələcəyi olan gənclər nə qədər keyfiyyətli və dünyagörüşünü artıran hərtərəfli təhsil alarsa, iqtisadiyyatın inkişafına bir o qədər zəmin yaranar. Turizm sektorunda, İKT və elektronika sahəsində gənclərə böyük ehtiyac duyulur.

Azad olunmuş torpaqlarımızda turizmin inkişaf etdirilməsi, gənc mütəxəssislərin həmin ərazilərdə işlə təmini, kənd təsərrüfatı texnikası, robottexnika, maşın və avadanlıqlardan istifadə və təmiri yüksək ixtisaslı texniki peşə kadrlarının hazırlanması labüddür. Dövlət bu sahədə gənclərə üstünlük verir.

Belə ki, peşə-ixtisas təhsili alanların sayının artması məşğulluq səviyyəsinin artmasına müsbət təsir göstərir.

Qeyd etmək lazımdır ki, bölgələrdə gənclərimizin peşə təhsilinə yönəldilməsi iqtisadiyyatımıza güclü təsir göstərə bilər.

Gəncləri hələ orta məktəbdə oxuyarkən peşə təhsilinə yönləndirmək lazımdır. Buna görə də rayonlarda Regional Peşə Tədris Mərkəzlərinin yaradılması vacibdir. (2)

Unutmamalıyıq ki, bizim gələcəyimiz gənclərdir. Onları düzgün istiqamətləndirmək lazımdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər) Bakı, "Azərbaycan" qəzeti, 25 oktyabr 2005.
2. C.B.Quliyev. Gənclərin peşə hazırlığı əmək bazarının tənzimlənməsinin ilkin və əsas şərtidir. "Əmək bazarı və kadr hazırlığı problemləri" elmi-praktiki konfransının materialları. Bakı, 2002, s.58-59.
3. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı. Bakı, 15 sentyabr 2017-ci il.
4. R.Hacıyev. Azərbaycan gənclərinin himayədarı. Bakı, "Azərnəşr", 2014, 192 s.
5. Başqil Əli Fuad. Gənclərlə üz-üzə. Bakı, 1999.
6. Quliyev X. Heydər Əliyev siyasəti Milli dövlət, Milli lider, vətəndaşlıq, mənəviyyat. Bakı, "Elm", 2019, s.300.

Лейла Гейдар кызы Гулиева
магистрант,
Азербайджанский Университет Кооперации
Фируза Нуру кызы Алиева
доктор философии по философии, доцент,
Институт Философии и Социологии, НАНА

Азербайджанская молодежь - наше будущее

Резюме

В статье отражены забота Азербайджанской Республики. О молодежи, решения, принятые Общенациональным лидером Гейдаром Алиевым в отношении молодежи, отправка

молодежи в зарубежные страны для обучения по линии государства, празднование 2 февраля 1994 года великим лидером Дня молодежи, наглядный пример государственной поддержки молодежи Министерством молодежи и спорта, созданным в 1994 году.

Кроме этого, в статье рассматриваются вопросы оказания помощи молодым людям в получении образования, освоении различных профессий, привлечении их к трудоустройству и т.д. вопросы освещены.

Leyla Heydar Guliyeva
master,
Azerbaijan Cooperation University
Firuza Nuru Aliyeva
doctor of philosophy in philosophy, associate professor,
Institute of Philosophy and Sociology, ANAS

Azerbaijani youth is our future

Summary

The article reflects the care shown by the Republic of Azerbaijan towards its youth, the decisions made by the National Leader Heydar Aliyev concerning young people, the state-sponsored programs sending youth abroad for education, the establishment of Youth Day on February 2, 1994, by the Great Leader, and the creation of the Ministry of Youth and Sports in 1994 as a clear example of the state's support for young people.

In addition, the article provides assistance to young people in getting education, mastering various professions, involving them in employment, etc. the issues have been covered.

Rəqsanə Ədalət qızı İSMAYILOVA
magistrant,
ismayilova.reqsane.041@gmail.com,
Gülşən Tahir qızı EMİNOVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ İNKLÜZİV TƏHSİLDƏ TƏTBİQİ

Müasir dövrdə dünyada fiziki və ya psixo-fizioloji inkişafında əlilliyi olan, eləcə də fərqlilikləri olan şagirdlərin və gənclərin sayı getdikcə artır. Uzun illər ərzində belə şəxslərin təhsili əsasən ixtisaslaşdırılmış müəssisələrdə və ya ev şəraitində təşkil olunurdu. Bu model onların tibbi və pedaqoji ehtiyaclarının qarşılanmasına kömək etsə də, uşaqların sosial mühitdən, həmyaşıdlarından və cəmiyyət həyatından təcrid olunmasına gətirib çıxarırdı. Belə təcridolunma nəticəsində həmin uşaqların sosiallaşma bacarıqları zəifləyir, öz potensiallarını tam reallaşdırmaq imkanları məhdudlaşırdı.

Bu səbəbdən müasir cəmiyyət üçün əsas prioritetlərdən biri hər bir fərdin – o cümlədən fiziki və psixoloji əlilliyi olan insanların – təhsilə bərabər çıxışının təmin olunmasıdır. Təhsil sahəsində inklüzivlik prinsipi insanların sağlamlıq vəziyyətindən, maddi təminatından, irqindən, dinindən, dilindən və ya yaşından asılı olmayaraq bərabər imkanlara malik olmasını nəzərdə tutur. Biliklərin ən mühüm iqtisadi və sosial resursa çevrildiyi indiki mərhələdə təhsilin bütün vətəndaşlar üçün sərbəst, maneəsiz və bərabər şərtlərlə əlçatan olması sosial ədalətin və dayanıqlı inkişafın əsas göstəricilərindən biri hesab olunur.

İnklüziv təhsil konsepsiyasının əsas məqsədi təhsil prosesində müxtəlifliyi qəbul etmək və onu maneə kimi deyil, inkişaf üçün fürsət kimi dəyərləndirməkdir. Bu yanaşma təhsilalanların fərdi xüsusiyyətlərini, maraq və imkanlarını nəzərə alaraq, hər kəs üçün uyğunlaşdırılmış öyrənmə

şəraiti yaratmağa yönəlir. İnklüziv təhsil modelində kurrikuluma çevik dəyişikliklər edilir, fərqli öyrənmə strategiyaları tətbiq olunur və hər bir tələbənin xüsusi ehtiyaclarına cavab verən resurslar, texnoloji və metodik dəstək formalaşdırılır.

Belə bir təlim mühitində bütün şagirdlər və tələbələr, fərdi xüsusiyyətlərindən və imkanlarından asılı olmayaraq, təhsil prosesinə bərabərhüquqlu şəkildə cəlb olunur. Məqsəd ondan ibarətdir ki, hər bir fərd öz öyrənmə tərzi və qabiliyyətinə uyğun şəkildə təhsil ala, sosial və intellektual inkişaf imkanlarından tam yararlana bilsin. İnklüziv mühitdə öyrənmə təkcə bilik qazanmaq deyil, həm də qarşılıqlı hörmətin, əməkdaşlığın və empatiyanın formalaşması prosesidir. Bu, müxtəlifliyə əsaslanan, lakin bərabərliyi təmin edən təhsil fəlsəfəsinin əsasını təşkil edir.

"2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" qəbul edilmişdir. Azərbaycanda əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı Konsepsiyasına əsasən, inklüziv təhsil müxtəlif təhsil ehtiyacları olan tələbələrin, o cümlədən əlilliyi olan şəxslərin birgə təhsil prosesinə tam şəkildə daxil edilməsini təmin edən təlim və təhsildir.[1]

İnklüziv təhsildə informasiya-kommunikasiya texnologiyalarının rolu

İnklüziv təhsil – fərqlilikləri olan şagirdlərin qorxu və narahatlıq hissi keçirmədən, öz qabiliyyətlərinə inam yarada biləcəkləri və potensiallarını tam şəkildə inkişaf etdirə biləcəkləri bir mühit formalaşdırmaq məqsədi daşıyır. Bu model hər bir şagirdin fərdi xüsusiyyətlərinə və öyrənmə tərzinə uyğun yanaşmanı tələb edir. Belə bir mühitin yaradılmasında informasiya və kommunikasiya texnologiyalarının (İKT) rolu danılmazdır, çünki müasir texnologiyalar həm universal, həm də fərdiləşdirilmiş təlim vasitələrinin tətbiqinə imkan verir.

Müasir rəqəmsal dövrdə, İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) inkişaf etdikcə inklüziv təhsilin aktuallığı getdikcə daha çox əhəmiyyət kəsb edir. İKT adaptiv təlim vasitələrinin inkişafı və təlim prosesinin fərdiləşdirilməsi yolu ilə inklüziv təhsili zənginləşdirmək üçün yeni imkanlar açır. [5]

Sağlamlıq imkanları məhdud (SİM) olan uşaqların təhsilə və informasiyaya bərabər çıxışının təmin edilməsi inklüziv təhsil siyasətinin əsas məqsədlərindəndir. Bu istiqamətdə İKT-nin tətbiqi həm real, həm də virtual təhsil məkanında öyrənmənin fasiləsizliyini təmin edir. Xüsusilə, distant tədris texnologiyaları dərslərdə fiziki iştirak edə bilməyən uşaqların təhsil prosesindən kənarda qalmamasına imkan yaradır. Beləliklə, tədris yalnız ənənəvi siniflərlə məhdudlaşmır, fərdi ehtiyaclara uyğun çevik və əlçatan öyrənmə mühiti formalaşır.

İnklüziv təhsildə İKT-dən istifadənin bir neçə mühüm istiqaməti mövcuddur.

- Sosial aspekt – İKT bacarıqları müxtəlifliyi olan şəxslərin cəmiyyətdə aktiv iştirakını və sosial inteqrasiyasını dəstəkləyir.
- Peşəkar aspekt – gələcəkdə bu şəxslərin əmək bazarında rəqabət qabiliyyətini artırır.
- Pedaqoji aspekt – tədris prosesinin keyfiyyətini yüksəldir, fərdiləşmiş və adaptiv təlim mühitinin qurulmasına şərait yaradır.

Uzunmüddətli baxımdan, İKT-nin inklüziv təhsilə inteqrasiyası yalnız tədrisə çıxış imkanlarını genişləndirmir, həm də tələbələrdə rəqəmsal savadlılıq, ünsiyyət və problem həlletmə kimi XXI əsr bacarıqlarının formalaşmasına şərait yaradır. Bu isə inklüziv təhsilin əsas məqsədlərindən biri olan sosial ədalət və bərabər imkanların təminə xidmət edir.

Təhsil prosesində İKT-dən istifadə həm öyrənmə motivasiyasını gücləndirir, həm də dərs materiallarının qavranılmasını asanlaşdırır. İnteraktiv vasitələr şagirdlərin diqqətini aktiv saxlayır, onların təfəkkür və yaddaş qabiliyyətlərini inkişaf etdirir. Bu, təlimin daha maraqlı və yaddaqalan olmasını təmin etməklə yanaşı, inklüziv siniflərdə təhsil alan şagirdlər üçün müstəqil öyrənmə bacarıqlarını da formalaşdırır.

Ümumilikdə, İKT-nin tədrisə daxil edilməsi fərqlilikləri olan şagirdlər üçün daha çevik, açıq və fərdi öyrənmə trayektoriyalarının yaradılmasına şərait yaradır. Bu, eyni zamanda təhsilin idarə edilməsində resursların səmərəli istifadəsinə, xərclərin azalmasına və müəllim fəaliyyətinin optimallaşdırılmasına imkan verir. Beləliklə, informasiya-kommunikasiya texnologiyalarının inklüziv təhsildə səmərəli tətbiqi hər bir uşaq üçün bərabər, ədalətli və keyfiyyətli təhsil mühitinin formalaşdırılmasına xidmət edir.

İnklüziv təhsildə İKT-nin rolunu artıran texniki vasitələr və tətbiqlər

Müasir inklüziv təhsil sistemində İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) fiziki, eşitmə, görmə və idrak əlilliyi olan şəxslərin təlim prosesinə bərabər şəkildə qoşulmasını təmin edən ən təsirli vasitələrdən biridir. Bu texnologiyalar fərqli öyrənmə tələblərinə uyğun çevik, adaptiv və fərdiləşdirilmiş tədris mühitlərinin yaradılmasına imkan verir.

Hazırda görmə, eşitmə və fiziki əlilliyi olan təhsilalanların tədris prosesinə effektiv cəlb olunması üçün müxtəlif köməkçi texniki vasitələr və proqram təminatları geniş istifadə olunur. Görmə qabiliyyəti zəif və ya tamamilə görməyən şəxslər üçün taktil klaviaturalar, elektron Brayl displeyləri, audio displeylər və ekran oxuyucu proqramlar xüsusi əhəmiyyət daşıyır. Məsələn, JAWS (Job Access With Speech) proqramı Windows əməliyyat sistemində çalışan kompüterlərdə səsləndirilmiş mətn təqdim etməklə və Brayl displeyinə çıxış imkanı yaradaraq görmə əlilliyi olan istifadəçilərə müstəqil işləmək şəraiti yaradır. Eyni zamanda DAISY sistemləri çap materiallarını audio formata çevirərək dərslik və kitabların səsli versiyasına çıxış imkanı verir ki, bu da oxumaq qabiliyyəti məhdud olanlar üçün mühüm dəstəkdir.

Fiziki əlilliyi olan insanlar üçün səstanıma texnologiyaları, xüsusi manipulyatorlar, robot əlcəklər və uyğunlaşdırılmış klaviaturalar mövcuddur. Belə texnologiyalar istifadəçilərə kompüter və rəqəmsal mühitlə əllərdən istifadə etmədən qarşılıqlı əlaqə qurmağa, təlim prosesində müstəqil fəaliyyət göstərməyə şərait yaradır. Hindistanda yaradılmış EYECAN texnologiyası isə istifadəçiyə göz hərəkətləri vasitəsilə kompüter əmrlərini idarə etmək imkanı verir ki, bu da motor əlilliyi olan şəxslərin təhsilə inteqrasiyasını asanlaşdırır. [3]

Eşitmə və nitq çətinlikləri olan şəxslərin təhsilində də İKT mühüm rol oynayır. Fərdi eşitmə aparatları, səsgücləndirici sistemlər, subtitrlər, işıq indikatorları və teletayp sistemləri kimi vasitələr eşitmə əngəlli tələbələrin informasiya qəbulunu asanlaşdırır. Müasir texnologiyalar arasında iCommunicator kimi proqramlar jest və nitqi mətnə çevirərək eşitmə əlilliyi olan şəxslərin dərslərdə daha aktiv iştirakına imkan yaradır. Eyni zamanda, audio və video materialların səs tezliyinin fərdi tənzimlənməsi nitq bacarıqlarının inkişafına və qalan eşitmə qabiliyyətinin təkmilləşdirilməsinə kömək edir.

Müxtəlif öyrənmə tələblərinə cavab verən bu texnologiyalar yalnız fiziki maneələri aradan qaldırmaqla məhdudlaşmır, həm də öyrənənlərin sosiallaşmasını, özünə inamını və rəqəmsal savadlılığını artırır. Rəqəmsal lövhələr, planşetlər, mobil tətbiqlər və artırılmış reallıq texnologiyaları dərs prosesini interaktiv və vizual baxımdan daha cəlbedici edir. Bu da müxtəlifliyi olan təhsilalanların motivasiyasını və dərsə marağını artırır, onların həm bilik qazanmasını, həm də ünsiyyət bacarıqlarını inkişaf etdirir.

Ümumilikdə, İKT-nin təhsildə tətbiqi müxtəlifliyi olan şəxslərin informasiya və bilik mənbələrinə bərabər çıxışını təmin etməklə inklüziv təhsilin əsas məqsədlərindən birini – "hamı üçün təhsil" prinsipini reallaşdırmağa xidmət edir.

İnklüziv təhsildə İKT-nin tətbiqində yaranan problemlər və çətinliklər

İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) inklüziv təhsilə inteqrasiyası tədris prosesini zənginləşdirsə də, bu sahədə ciddi problemlər qalmaqdadır. Əsas çətinliklərdən biri rəqəmsal bərabərsizlik, yəni texnologiyaya bərabər çıxışın təmin edilməməsidir. Sosial-iqtisadi vəziyyəti zəif olan ailələrin uşaqları çox zaman fərdi cihazlara və sabit internet bağlantısına malik olmur ki, bu da onların rəqəmsal təlim resurslarından istifadə imkanlarını məhdudlaşdırır. [4]

Texnoloji infrastrukturun qeyri-bərabər paylanması da bu problemi dərinləşdirir. Bəzi təhsil müəssisələri müasir kompüter və proqram təminatına malik olduğu halda, digərlərində bu imkanlar məhduddur. Bununla yanaşı, müəllimlərin əksəriyyəti İKT alətlərindən inklüziv məqsədlərlə istifadə üçün yetərli hazırlığa malik deyillər. Müəllimlərin texnologiyadan pedaqoji məqsədlərlə istifadə bacarıqlarının zəifliyi onların rəqəmsal mühitdə fərqli öyrənmə ehtiyaclarına cavab verməsini çətinləşdirir.

Digər mühüm problem İKT-yə uyğun təhsil resurslarının azlığıdır. Xüsusi ehtiyacı olan tələbələr üçün hazırlanmış proqramlar və adaptiv tədris materialları kifayət qədər deyil. Mövcud resursların çoxu ümumi auditoriya üçün nəzərdə tutulur və bu da görmə, eşitmə və ya hərəkət əlilliyi olan şagirdlər üçün əlçatanlığı azaldır. Əlçatan məzmunun hazırlanması təkcə texniki deyil, həm

də pedaqoji baxımdan ciddi yanaşma tələb edir – məsələn, ekranoxuyucu proqramlara uyğunlaşdırılmış mətnlər və altyazılı videoların hazırlanması kimi.

İKT-nin effektiv tətbiqini məhdudlaşdıran digər amil maliyyə və resurs çatışmazlığıdır. Təhsil müəssisələrinin bəziləri texniki avadanlıqların alınması və proqram təminatının yenilənməsi üçün kifayət qədər büdcəyə malik deyil. Həmçinin, texnologiyanın sürətlə yenilənməsi nəticəsində köhnəlmiş sistemlərin istifadəsi öyrənmə prosesinin keyfiyyətinə mənfi təsir göstərir.

İnklüziv təhsildə texnologiyanın səmərəli tətbiqini təmin etmək üçün bu maneələrin aradan qaldırılması zəruridir. Bunun üçün dövlət və özəl sektor arasında əməkdaşlıq gücləndirilməli, qeyri-hökumət təşkilatlarının dəstəyi ilə resursların paylanması genişləndirilməlidir. Müəllimlərin peşəkar inkişafı üçün mütəmadi təlimlərin təşkili, texnologiyanın pedaqoji cəhətdən düzgün istifadəsinə yönəlmiş metodikalar hazırlanmalıdır.

Beləliklə, İKT-nin inklüziv təhsildə uğurlu inteqrasiyası üçün yalnız texniki imkanların yaradılması kifayət etmir. Bu proses həm də sistemli idarəetməni, məqsədyönlü təlimləri, adekvat resursları və bərabər rəqəmsal imkanların təminini tələb edir. Əks halda, texnologiya fərdlər arasındakı uçurumu azaldan deyil, əksinə, dərinləşdirən bir amilə çevrilə bilər

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2018). 2018–2024-cü illərdə sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. Bakı.
2. TED.az. (n.d.). İnklüziv təhsil: Texnologiya əlilliyi olanlar üçün hər şeyi mümkün edir. https://ted.az/az/view/news/2448/inkluziv-tehsil-texnologiya-elilliyi-olanlar-uchun-her-sheyi-mumkun-edir
3. Eyecan. (n.d.). Official website. http://www.eyecan.je
4. Huamán-Romaní, Y., Burga-Falla, J., & [digər müəlliflər]. (2022). Use and knowledge of ICTs in inclusive education at educational levels. [Journal name, volume(issue), pages].
5. Starcic, A. (2010). Educational technology for the inclusive classroom. Turkish Online Journal of Educational Technology, 9(3), 26–37.
6. SmartView Graduate. (n.d.). Assistive technology software. http://www.indigologix.com

Раксане Адалат кызы Исмаилова
магистрант,
ismayilova.reqsane.041@gmail.com,
Гульшан Тахир кызы Эминова
доктор философии по педагогике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Применение информационно-коммуникационных технологий в инклюзивном образовании

Резюме

В современную эпоху информационно-коммуникационные технологии (ИКТ) играют важную роль в повышении качества инклюзивного образования и обеспечении равных возможностей для всех обучающихся. В статье рассматривается влияние интеграции ИКТ в образовательный процесс на формирование инклюзивной среды, а также анализируются существующие проблемы и пути их решения. Результаты исследования показывают, что использование ИКТ расширяет возможности обучения детей с особыми образовательными потребностями, обеспечивает индивидуальный подход и способствует повышению качества образования. Вместе с тем, неравномерное развитие технологической инфраструктуры, ограниченные ИКТ-навыки педагогов и нехватка ресурсов препятствуют эффективной интеграции. Для решения этих проблем предлагается совершенствование подготовки учителей, повышение доступности цифровых ресурсов и укрепление сотрудничества между государственным и частным секторами.

Raqsane Adalat Ismayilova
master,
ismayilova.reqsane.041@gmail.com,
Gulshan Tahir Eminova
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan State Pedagogical University

Application of information and communication technologies in inclusive education

Summary

In the modern era, Information and Communication Technologies (ICT) play a crucial role in improving the quality of inclusive education and ensuring equal opportunities for all learners. The article examines the impact of integrating ICT into the teaching process on the creation of an inclusive environment, as well as the main challenges and possible solutions in this field. The results of the study show that the use of ICT expands learning opportunities for students with special educational needs, supports individualized approaches, and enhances the quality of education. However, unequal technological infrastructure, limited ICT competencies among teachers, and a lack of resources hinder effective integration. To address these challenges, the article proposes strengthening teacher training, improving access to digital resources, and fostering cooperation between the public and private sectors.

Aytən Rövşən qızı MƏHƏRRƏMLİ
magistrant,
aytenmeherremli2303@gmail.com,
Ramiz Cəlal oğlu ƏLİYEV
pedaqogika üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

TƏHSİLİ İDARƏETMƏNİN MÜXTƏLİF MODELLƏRİ: ÜSTÜNLÜKLƏR VƏ ÇATIŞMAZLIQLAR

Təhsil cəmiyyətin inkişafının təməl daşıdır. Bu inkişaf yalnız təhsil sisteminin mövcudluğu ilə deyil, həm də onun səmərəli idarə olunması ilə mümkün olur. Təhsili idarəetmə məqsədyönlü fəaliyyətin təşkili, resursların optimal istifadəsi və qərarların düzgün qəbul edilməsini təmin edən sistemli prosesdir (Bush, 2007, s.10).

XX əsrin ikinci yarısından başlayaraq təhsili idarəetmə nəzəriyyəsində müxtəlif modellər formalaşmışdır. Bu modellər idarəetmənin strukturunu, qərar qəbuletmə mexanizmlərini, liderlik funksiyalarını və təşkilat daxilində sosial münasibətləri fərqli prizmalardan izah edir. Ən geniş yayılmış modellər: formal, kollegial, siyasi, subyektiv və mədəni modellərdir (Bush, 2011, s.35).

Təhsili idarəetmənin effektivliyi yalnız qərar qəbuletmə və strukturdan asılı deyil; həm də təşkilatdaxili motivasiya, liderlik bacarıqları və mədəniyyətlə sıx bağlıdır. Dünyanın bir çox ölkəsində bu modellər uğur və problemlərlə müşahidə olunmuşdur. Azərbaycan kontekstində də təhsili idarəetmə modellərinin tətbiqi müxtəlif səviyyələrdə araşdırılmışdır (Muraru&Pătraşcu, 2017, s.56–58).

1. Formal model

Formal model idarəetmənin ənənəvi, struktur yönümlü formasını əks etdirir. Bu modeldə təşkilat ierarxik qurulur; qərarlar əsasən yuxarı rəhbərlik tərəfindən qəbul olunur. Qaydalar, prosedurlar və normativ sənədlər fəaliyyətin təməlini təşkil edir (Bush, 2007, s.40–43).

Tarixi kontekst:

Formal model XX əsrin əvvəlindən idarəetmə nəzəriyyəsində dominant olmuşdur. Məktəb və universitetlərdə bürokratik strukturun tətbiqi ilə fəaliyyət stabilləşmişdir.

Üstünlükləri:

1. Struktur və məsuliyyət bölgüsü aydın olduğu üçün qərarların icrası sürətlənir.

2. Nizam-intizam və hesabatlılıq güclüdür.
3. Böyük müəssisələrdə bölmələrin koordinasiyası asanlaşır (Muraru&Pătraşcu, 2017, s.58).
4. Resursların idarəsi optimallaşdırılır, maliyyə və inzibati məsələlərdə effektivlik artır.

Çatışmazlıqları:

1. Qərar qəbuletmə yuxarıdan-aşağıya olduğu üçün təşəbbüskarlıq azalır.
2. Bürokratiya çevik qərar qəbuluna mane olur.
3. Yenilikçi layihələr gecikə bilər, işçilərin yaradıcılığı boğula bilər (Bush, 2008, s.51–53).

Tətbiq nümunəsi:

Böyük universitetlərdə formal model çox istifadə olunur; məsələn, fakültələrarası koordinasiya və hesabatların təqdimatı formal qaydalar əsasında həyata keçirilir.

2. Kollegial model

Kollegial model əməkdaşlıq və konsensus prinsiplərinə əsaslanır. Qərarlar yalnız rəhbərlik tərəfindən deyil, kollektivin iştirakı ilə qəbul edilir. Müəllimlər, inzibati işçilər və bəzən valideynlər qərar prosesinə cəlb olunur (Shrifian, 2011, s.22).

Tarixi kontekst:

Kollegial model xüsusilə demokratik təhsil sistemlərində populyar olmuşdur. Bu model əməkdaşlıq və birgə qərar qəbuletmə mədəniyyətini təşviq edir.

Üstünlükləri:

- İnsan amili önəmlidir; iş mühitində sosial münasibətlər yaxşılaşır.
- Müəllimlərin qərar qəbuletmədə iştirakı motivasiya və təşkilata bağlılığı artırır.
- Demokratik dəyərləri gücləndirir, əməkdaşlıq ruhunu təşviq edir (Bush, 2011, s.39).
- Müxtəlif perspektivlərin nəzərə alınması qərarların keyfiyyətini yüksəldir.

Çatışmazlıqları:

- Qərar prosesi uzanır, konsensus əldə etmək vaxt aparır.
- Böyük təşkilatlarda bütün üzvlərin fikrini nəzərə almaq çətin olur.
- Bəzən kollektiv məsuliyyət fərdi cavabdehliyi azaldır (Muraru&Pătraşcu, 2017, s.62–63).

Tətbiq nümunəsi:

Bir çox orta məktəblərdə kollegial yanaşma tətbiq olunur; məsələn, dərs planlaması və məktəb layihələrinin hazırlanmasında müəllimlərin iştirakı təmin edilir.

3. Siyasi model

Siyasi model idarəetməni güc münasibətləri və maraq toqquşmaları prizmasından izah edir. Təhsil müəssisəsində müxtəlif maraq qrupları – rəhbərlik, müəllimlər, valideynlər, tələbələr və dövlət strukturları – öz məqsədləri uğrunda mübarizə aparır (Bolman&Deal, 2013, s.15).

Üstünlükləri:

1. Reallığı əks etdirir, rəhbərliyi maraqlar arasında balans yaratmağa sövq edir.
2. Danışıqlar əsasında qərar qəbuletmə çoxsəslilik yaradır (Bush, 2007, s.50).
3. Maraqların nəzərə alınması sosial münasibətləri möhkəmləndirir.

Çatışmazlıqları:

1. Qərarlar şəxsi və ya qrup maraqlarının təsirinə məruz qala bilər.
2. Konflikt və maraq toqquşmaları yaranır (Bolman&Deal, 2013, s.17–18).
3. Bəzən əsas təhsil məqsədlərindən uzaqlaşma riski var.

Tətbiq nümunəsi:

Müəllim və valideyn komitələrində qərarların siyasi müzakirəsi, resurs bölüşdürülməsi prosesində bu modelin tətbiqinə nümunədir.

4. Subyektiv model

Subyektiv model fərdi dəyərlərin, hisslərin və təcrübələrin idarəetmədə rolunu vurğulayır. Hər bir insan hadisələri şəxsi baxış bucağı ilə qiymətləndirir (Bush, 2011, s.42).

Üstünlükləri:

1. İnsan mərkəzli yanaşma, liderin empati bacarığı önəmlidir.
2. Kiçik kollektivlərdə effektivdir, müəllimlərin fərdi inkişafını təşviq edir (Bush, 2007, s.55).
3. Liderin nümunəsi təşkilatın mədəniyyətinə müsbət təsir göstərir.

Çatışmazlıqları:

1. Qərarlar şəxsi münasibətlərə əsaslana bilər.
2. Dominant lider demokratik prinsiplərə zərər verə bilər (Muraru&Pătraşcu, 2017, s.67).
3. Tətbiq nümunəsi:
4. Kiçik liseylərdə və pilot məktəblərdə subyektiv model müəllimlərin yaradıcılığını və tələbə yönümlü qərarları təşviq edir.

5. Mədəni model

Mədəni model idarəetməni təşkilatın dəyərləri və mədəniyyət sistemi kontekstində izah edir (Bush, 2011, s.45–47).

Üstünlükləri:

- Təşkilatın özünəməxsusluğunu qoruyur.
- Əməkdaşlıq və birgəlik ruhunu gücləndirir.
- Ortaq dəyərlər motivasiyanı artırır, etimad yaradır (Bolman&Deal, 2013, s.22).

Çatışmazlıqları:

1. Köhnə və dəyişməyə açıq olmayan mədəniyyət islahatlara mane olur
2. Dəyərlərə həddən artıq bağlılıq struktur və hesabatlılıq mexanizmlərini zəiflədir (Bush, 2007, s.59–60).
3. Tətbiq nümunəsi:
4. Dövlət məktəblərində və universitetlərdə təşkilat dəyərlərinə uyğun davranış kodları tətbiq olunur, əməkdaşlıq ruhu gücləndirilir.

Nəticə

Təhsili idarəetmə modelləri təhsil müəssisələrinin inkişaf strategiyasını müəyyən etmək üçün əsas nəzəri alətlərdir. Müasir təhsil sistemində optimal idarəetmə fərqli modellərin sintezi ilə həyata keçirilə bilər. Formal model struktur və nizam, kollegial model əməkdaşlıq, siyasi model reallıq, subyektiv model insanilik, mədəni model isə dəyərlər əsasında idarəetməni təmin edir. Bu yanaşma təhsil müəssisələrinə daha çevik, demokratik və effektiv idarəetmə imkanı yaradır.

ƏDƏBİYYAT

1. Bush, T. (2007). Educational Leadership and Management: Theory, Policy, and Practice. London: Sage Publications. s.10, 40–43, 50, 55, 59–60.
2. Bush, T. (2008). Leadership and Management Development in Education. Los Angeles: SAGE. s. 51–53.
3. Bush, T. (2011). Theories of Educational Leadership and Management (4th ed.). London: SAGE Publications. s.35, 39, 42, 45–49.
4. Muraru, D.,&Pătraşcu, E. (2017). Management Models and School Leadership. Revista Economia Contemporană, 2(4), 56–67.
5. Shrifian, L. (2011). Collegial Management to Improve the Effectiveness of Education. Procedia – Social and Behavioral Sciences, 15, 22–25.
6. Bolman, L. G.,&Deal, T. E. (2013). Reframing Organizations: Artistry, Choice, and Leadership (5th ed.). San Francisco: Jossey-Bass. s.15–22.

Ayten Rovshan Maharramli
master,
aytenmeherremli2303@gmail.com,
Ramiz Jalal Aliyev
doctor of philosophy in pedagogy,
Azerbaijan State Pedagogical University

Different models of educational management: advantages and disadvantages

Summary

Education is the cornerstone of the development of society. This development is possible not only with the existence of the education system, but also with its effective management.

Educational management is a systematic process that ensures the organization of purposeful activities, optimal use of resources and correct decision-making (Bush, 2007, p.10).

Since the second half of the 20th century, various models have been formed in the theory of educational management. These models explain the structure of management, decision-making mechanisms, leadership functions and social relations within the organization from different perspectives. The most widespread models are: formal, collegial, political, subjective and cultural models (Bush, 2011, p.35).

The effectiveness of educational management does not depend only on decision-making and structure; it is also closely related to internal motivation, leadership skills and culture. These models have been observed in many countries of the world with success and problems. The application of educational management models in the Azerbaijani context has also been investigated at various levels (Muraru&Pătraşcu, 2017, pp. 56–58).

Айтен Ровшан кызы Магеррамли
магистрант,
aytenmeherremli2303@gmail.com,
Рамиз Джалал оглу Алиев
доктор философии по педагогике,
Азербайджанский Государственный Педагогический Университет

Различные модели управления образованием: преимущества и недостатки

Резюме

Образование – краеугольный камень развития общества. Это развитие возможно не только при наличии системы образования, но и при эффективном управлении ею. Управление образованием – это систематический процесс, обеспечивающий организацию целенаправленной деятельности, оптимальное использование ресурсов и правильное принятие решений (Буш, 2007, с. 10).

Со второй половины XX века в теории управления образованием сформировались различные модели. Эти модели объясняют структуру управления, механизмы принятия решений, функции лидерства и социальные отношения внутри организации с разных точек зрения. Наиболее распространенными являются: формальная, коллегиальная, политическая, субъективная и культурная модели (Буш, 2011, с. 35).

Эффективность управления образованием зависит не только от принятия решений и структуры; она также тесно связана с внутренней мотивацией, лидерскими качествами и культурой. Эти модели успешно и с проблемами применяются во многих странах мира. Применение моделей управления образованием в азербайджанском контексте также исследовалось на разных уровнях (Мурару и Патраску, 2017, стр. 56–58).

Aybəniz İlkin qızı MÖHSÜMLÜ
magistrant,
aybenizm08@gmail.com,
Qalib Mövsüm oğlu ŞƏRİFOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

STEAM TƏHSİLİ MÜHİTİNDƏ İNNOVATİV İDARƏETMƏ YANAŞMALARI

STEAM təhsili – elm (Science), texnologiya (Technology), mühəndislik (Engineering), incəsənət (Arts) və riyaziyyatı (Mathematics) birləşdirən öyrənmə yanaşmasıdır. Bu yanaşma şagirdlərin tədqiqat aparmaq, dialoqa girmək və tənqidi düşünmək bacarıqlarını inkişaf etdirmək üçün əsas istiqamət kimi bu fənləri istifadə edir. STEAM təhsili sayəsində şagirdlər düşünülmüş risklər

götürməyi bacaran, praktiki öyrənməyə maraq göstərən, problemi həll edənə qədər israr edən, əməkdaşlıqdan çəkinməyən və yaradıcılıq prosesindən zövq alan insanlar olurlar.

Belə gənclər XXI əsrin yenilikçi düşüncəli insanları, müəllimləri, liderləri və öyrənənləridir. Artıq elə bir mərhələdəyik ki, tədris mühitlərini çevik, dinamik və real həyata uyğun şəkildə qurmaq təkcə mümkün deyil, həm də zəruridir. Mövzuların, anlayışların və qiymətləndirmə üsullarının inteqrasiyası, şagirdlərin ənənəvi təhsil sistemindən çıxaraq daha real, mənalı öyrənmə təcrübəsi yaşamasına imkan yaradır. Bu yanaşma, dünyanın qapılarını sinif otaqlarına açır və tədris prosesini həyatın özünə yaxınlaşdırır. Beləcə, biz nəhayət ki, "divarları" aradan qaldıraraq, öyrənmənin əsl mahiyyətinə – həyatla birbaşa əlaqəsinə çata bilirik. [4]

STEAM yanaşması transdisiplinar əməkdaşlığa əsaslandığı üçün, o, şagirdlərə gələcəyin peşələri üçün lazım olan bilik və anlayışları qazandırır. Bu yanaşma intellektual marağı və yaradıcılığı artırmaq qabiliyyəti ilə tanınır. STEAM-in əməkdaşlığa əsaslanan və qrup işi üzərində qurulan tədris forması, öyrənməni yalnız fərdi deyil, sosial proses kimi də inkişaf etdirir, həmçinin fərdlərin baxış bucağını və bilik dairəsini genişləndirir. Bundan başqa, STEAM-dakı tənqidi düşüncə və açıq fikirli yanaşma elementləri innovasiyaya aparan yolları açır. Tədris mühiti və fəaliyyətin istiqamətindən asılı olaraq, bu innovasiyalar iqtisadiyyatı gücləndirən nəticələrə gətirib çıxara bilər. Lakin STEAM yalnız bazar iqtisadiyyatı və rəsmi iş sahələri ilə məhdudlaşmır – o, eyni zamanda problemlərə daha geniş baxış formalaşdırmaq və yeni, yaradıcı həllər tapmaq baxımından da dəyər daşıyır. Bəzi hallarda, STEAM yanaşması STEM fənlərini (elm, texnologiya, mühəndislik, riyaziyyat) daha cəlbedici və mənalı edə bilir. STEAM düşüncəsi və praktikası, həmçinin mürəkkəb problemlərin həllində, verilənlərin vizuallaşdırılması kimi metodların inkişafında istifadə olunur və çətin mövzuların daha asan başa düşülməsinə kömək edir. [3]

STEAM nəzəriyyə və təcrübənin birləşməsinin məntiqi nəticəsidir və ilk dəfə Amerikada hazırlanmışdır. Bəzi məktəblər məzunlarının karyeralarının necə inkişaf etdiyini araşdıraraq təbii elmlər, texnologiya, mühəndislik, sənət və riyaziyyat kimi fənləri birləşdirməyə qərar verdilər. Beləliklə, əvvəlcə STEM sistemi (Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat) formalaşdı. Daha sonra incəsənət də əlavə olunaraq STEAM modeli yarandı. Müəllimlər hesab edirlər ki, bu fənlər üzrə biliklər məktəblilərin gələcəkdə yüksək ixtisaslı mütəxəssis olmalarına kömək edir. Nəticədə, uşaqlar həm yaxşı bilik əldə edir, həm də öyrəndiklərini dərhal praktikada tətbiq etməyə çalışırlar. [3]

Dünya dəyişir və təhsil də geri qalmır. Son bir neçə onillikdə baş verən dəyişikliklər həm təəccüb doğurur, həm də həyəcanlandırır. Yeni texnologiyaların ixtirası ilə insanların əvvəllər qarşılaşmadığı bir çox problemlər ortaya çıxır. Hər gün yeni iş sahələri və peşələr meydana çıxır, buna görə də müəllimlər öyrətdikləri bilik və bacarıqların zamanın tələblərinə cavab verib-vermədiyini daim nəzərdən keçirməlidirlər. Bilik ideyanı formalaşdırmağa kömək edir, amma real iş həmin ideyanı həyata keçirməkdir. Ənənəvi təhsilin əsas məqsədinin şagirdlərə düşünməyi və yaratmağı öyrətmək olduğunu qəbul etsək, STEAM yanaşması bilikləri real bacarıqlarla birləşdirərək istifadəyə yönəldir. Bu yanaşma yalnız şagirdlərə ideya sahibi olmağa deyil, həm də onları praktikada istifadə edib həyata keçirməyə imkan verir. Beləliklə, yalnız real həyatda tətbiq edilə bilən biliklər həqiqətən qiymətlidir. [6]

Bütün deyilən məqsədlərə çatmaq üçün məktəblər aşağıdakılar da daxil olmaqla müxtəlif amilləri nəzərə almalıdırlar:

- Hər komandada müəllimlərin sayını əhatə edən birgə planlaşdırma
- Yeni tədris və öyrənmə üsuluna uyğun olaraq cədvəlin tənzimlənməsi
- Bütün işçilər üçün STEAM təcrübələri və prinsipləri sahəsində peşəkar inkişaf
- Tədris planı və qiymətləndirmə dizayn prosesi üçün STEAM sxem xəritələşdirilməsi
- Standartların və qiymətləndirmələrin uyğunlaşdırılması və açıqlanması
- Dərs tətbiqi prosesləri və strategiyalarının sorunsuzluğu

STEAM yanaşmasının ən tanınmış nümunələrindən biri Massaçusets Texnologiya İnstitutudur (MIT). Bu dünyaşöhrətli universitetin şüarı "Mens et Manus" ("ağıl və əl")dır. MIT STEAM kurslarını işləyib hazırlamış və bəzi təhsil müəssisələrində STEAM təlim mərkəzləri qurmuşdur ki, uşaqlar bu konsepsiya ilə erkən yaşda tanış olsun və onu öyrənsinlər. Ənənəvi təlim metodları

ilə müqayisədə, orta məktəbdə STEAM yanaşması şagirdləri eksperimentlər aparmağa, modellər hazırlamağa, musiqi və filmləri müstəqil yaratmağa, ideyalarını praktikada həyata keçirməyə və son məhsulu ortaya qoymağa həvəsləndirir. Bu təlim yanaşması nəzəri bilikləri praktiki bacarıqlarla effektiv şəkildə birləşdirməyə imkan verir və həm universitetə daxil olma, həm də gələcək inkişaf üçün şagirdləri daha hazırlıqlı edir. [2]

STEAM təhsilində istifadə olunan innovativ idarəetmə və tədris modelləri müxtəlif formalarda mövcuddur. Onlardan bəzilərinə nəzər salaq:

Layihə əsaslı öyrənmə (Project-Based Learning, PBL) - şagird mərkəzli aktiv tədris metodudur. Burada şagirdlər müstəqil işləyir, araşdırır, məqsəd qoyur, əməkdaşlıq edir, ünsiyyət qurur və nəticələrini qiymətləndirir. PBL şagirdləri motivasiya edir, onları universitet, iş və vətəndaşlıq həyatına hazırlayır, müəllimlərin işini daha maraqlı edir və məktəb ilə icma arasında əlaqəni gücləndirir. STEAM-də PBL layihələri şagirdləri real problemləri həll etməyə yönəldir: məsələn, məktəb üçün davamlı bağça dizayn etmək, sadə robot hazırlamaq və ya elmi anlayışı əks etdirən rəqəmsal sənət əsəri yaratmaq. Layihələr şagirdlərin sual verməsi, araşdırma aparması, prototiplər hazırlaması, ideyalarını sınaması və nəticələri təhlil etməsini təmin edir. PBL-in əsas üstünlüyü fənlərarası inteqrasiyadır: riyaziyyat, texnologiya, incəsənət və mühəndislik bilikləri birlikdə istifadə olunur. Bu, həm məzmunu dərinləşdirir, həm də öyrənməni praktik və maraqlı edir. [5]

Dizayn əsaslı öyrənmə (Design-Based Learning) - tədqiqat və praktika üzərində qurulmuş öyrənmə modelidir, əsasən arxitektura, mühəndislik, qrafik dizayn və s. sahələrdə tətbiq olunur. Şagirdlər problemlərin həlli üçün prototiplər hazırlayaraq dərin bilik və praktiki bacarıqlar əldə edirlər. Bu model həm fəaliyyət yönümlü, həm də əyləncəlidir, buna görə şagirdləri öyrənməyə həvəsləndirir. Əməkdaşlıq və iş bölgüsü layihənin uğuru üçün vacibdir; hər komanda üzvü öz rolunu yerinə yetirməlidir. Dizayn əsaslı öyrənmədə şagirdlər prototipləri yaratmaqla yanaşı, ideyalarını, hekayələrini və təqdimat üsullarını da istifadə edirlər. Şagirdlər məhsulu qiymətləndirir, yenidən dizayn edir və prosesi qeyd edərək tənqidi və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirirlər. Prototip – ideyanı test etmək və ya öyrənmək üçün hazırlanan erkən modeldir və son məhsula yaxınlaşdırılmış nümunə kimi qəbul olunur. [1, s 46.]

Maker Education / Fab Lab yanaşması - STEAM öyrənmə modeli öyrənmə əməliyyatı üçün laboratoriya, xüsusən də "Rəqəmsal İstehsal Laboratoriyası" tələb edir. Şagirdlərin yaradıcılıq və texnologiya bacarıqlarını inkişaf etdirən təhsil modelidir. Bu yanaşma "öyrənərək yaratmaq" prinsipinə əsaslanır və şagirdlərə ideyalarını real məhsullara çevirmək imkanı verir. Şagirdlər 3D printerlər, robotlar, lazer kəsici və proqramlaşdırma kimi texnoloji vasitələrdən istifadə edərək layihələr yaradır, problemləri həll edir, prototiplər hazırlayır və nəticələri təhlil edirlər. Bu yanaşma həm fərdi, həm də komandada işləmə bacarıqlarını inkişaf etdirir və layihələri real həyatda qarşılaşa biləcək problemlərlə əlaqələndirir. Məqsəd yalnız nəzəri bilikləri artırmaq deyil, şagirdləri yaradıcı və praktik bacarıqlara malik müstəqil öyrənicilər kimi yetişdirməkdir. [4]

Oyun əsaslı öyrənmə (Game-Based Learning) - video oyunlardan və oyun elementlərindən istifadə edərək şagirdlərin motivasiyasını artıran və öyrənməyə cəlb edən təhsil yanaşmasıdır. Məqsəd oyunları əyləncəli edən elementləri təhsil prosesinə tətbiq etməkdir. İstifadə olunan oyun elementlərinə aşağıdakılar daxildir: xal və nişanlar, lider lövhələri, təlimat və personajlar, oyunçu nəzarəti, əks-əlaqə, problemlərin birgə həlli, səviyyə artımı və sosial əlaqələr.Oyun əsaslı öyrənmə şagirdlərdə öyrənmə həvəsini artırır, prosesi əyləncəli edir, riyazi və çevik hesablama bacarıqlarını inkişaf etdirir, məntiqi düşüncəni gücləndirir, rəqabət və məsuliyyət hissi yaradır, həmçinin yaddaş, diqqət və təfəkkürü təkmilləşdirir. [1, s 48.]

Problem əsaslı öyrənmə (Problem-Based Learning, PBL) – şagirdlərin real problemləri həll etməyə yönəldiyi öyrənmə modelidir. Şagirdlər suallar verir, araşdırma aparır, müxtəlif həll yollarını sınayır və nəticələri qiymətləndirir. Bu yanaşma tənqidi düşüncə, əməkdaşlıq və praktik bacarıqların inkişafını təmin edir, öyrənməni real həyatda tətbiq olunan biliklərlə əlaqələndirir. [2]

Analogiya əsaslı öyrənmə (Analogy-Based Learning) – mövcud bilik və təcrübələri yeni və ya çətin anlayışları başa düşmək üçün istifadə edən öyrənmə metodudur. Şagirdlər tanış vəziyyətlərlə oxşar problemləri müqayisə edir, yeni məlumatları mövcud biliklərə bağlayır və mürəkkəb anlayışları daha asan mənimsəyirlər. [1, s 44.]

ƏDƏBİYYAT

1. Elçin Məhəmməd oğlu Cavadov, Rəqsanə Fəxrəddin qizi Məmmədova – Steam İnteraktiv Təhsil, Dərs vəsaiti. Bakı: "Müəllim" nəşriyyatı - 2024. 286 səh.
2. Zərövşən Babayeva- Təhsildə Steam Metodunun Tətbiqi Perspektivləri, Bakı – 2021
3. Marja G. Bertrand - STEAM education: student learning and transferable skills – 2020
4. https://artsintegration.com/what-is-steam-education-in-k-12-schools/
5. https://tinkrworks.com/blog/simple-steam-project-based-learning-ideas/
6. https://525.az/news/212385-steam-tedris-usulu-neticeler-geleceye-umidleri-artirir

Айбениз Илькин кызы Мохсумлу
магистрант,
aybenizm08@gmail.com,
Галиб Мовсум оглы Шарифов
доктор философии по педагогике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Инновационные подходы к управлению в образовательной среде STEAM

Резюме

В статье подробно и ясно объясняется STEAM-образование, его принципы и применение инновационных моделей обучения. STEAM объединяет науку, технологии, инженерию, искусство и математику, с целью развития у учащихся критического мышления, творческих способностей, навыков сотрудничества и практических умений. Также в статье выделены основные модели обучения в STEAM, такие как обучение на основе проектов (PBL), обучение на основе дизайна, Maker Education / Fab Lab, обучение через игры и обучение на основе аналогий, показывающие, как эти модели помогают учащимся сочетать теоретические знания с практическим применением. STEAM-образование готовит учащихся к требованиям XXI века, акцентируя внимание на междисциплинарном обучении, решении реальных проблем и интерактивных подходах.

Aybeniz Ilkin Mohsumlu
master,
aybenizm08@gmail.com,
Galib Movsum Sharifov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan State Pedagogical University

Innovative management approaches in STEAM educational environment

Summary

In the article, STEAM education, its principles, and the application of innovative learning models are widely and clearly explained and analyzed. STEAM integrates science, technology, engineering, arts, and mathematics, aiming to develop students' critical thinking, creativity, collaboration, and practical skills. The article also highlights the main learning models used within STEAM, such as Project-Based Learning (PBL), Design-Based Learning, Maker Education / Fab Lab, Game-Based Learning, and Analogy-Based Learning, showing how these models help students combine theoretical knowledge with practical application. As STEAM education prepares students to meet the demands of the 21st century, it emphasizes interdisciplinary learning, real-world problem solving, and engaging, interactive approaches.

Ulya Qorxmaz qızı AĞAZADƏ
magistrant,
Sədaqət Kamal qızı MƏMMƏDOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞDA ƏLİLLƏRİN SOSİAL İNTEQRASİYASİ VƏ CƏMİYYƏTƏ ADAPTASİYASİ: REALLİQLAR VƏ PROBLEMLƏR

Ölkəmizdə əlilliyi olan şəxslərin sosial müdafiəsi, reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində ardıcıl işlər aparılır. Prezident İlham Əliyevin uğurlu sosial siyasətində əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyasının dəstəklənməsi mühüm yer tutur və bu istiqamətlərdə davam edən məqsədyönlü işlər daim dövlətimizin diqqət mərkəzindədir.

Qarabağın yenidən qurulması, dağıdılmış infrastrukturların bərpası, insanların geri dönüşü, qorunan icmaların formalaşması bu gün də yüksək peşəkarlıq və qətiyyətlə davam edir. Müharibə nəticəsində fiziki, psixoloji travmalar, mina və minalanmış ərazilərdən ziyan görmüş şəxslər, yaralanmalar nəticəsində əlillik, insan haqlarının qorunması günümüzün actual problemlərindəndir. Aparılan işlərin əsas əhəmiyyəti ondan ibarətdir ki, inklüzivlik, bərabər imkanlar, insan ləyaqəti, sosial ədalət öz yerini tutsun [4].

Bu istiqamətdə qanunvericilik və dövlət siyasəti aşağıda qeyd etdiklərimizdən ibarətdir:

1. Azərbaycanda "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanun və Milli və beynəlxalq öhdəliklər (BMT Konvensiyası və s.).
2. Reabilitasiya xidmətlərinin genişlənməsi: "State Medical-Social Expertise and Rehabilitation Agency" və s. – əlilliyə görə yardım, reabilitasiya vasitələrinin təminatı, protez- aparatların verilməsi.
3. Sosial müavinətlər, əlillik dərəcəsinə görə verilən ödənişlər, müharibədən və terror aktlarından zərər çəkmiş şəxslər üçün xüsusi qayğı.

Dövlətimiz başqa regionlarda olduğu kimi Qarabağda da əlillərlə bağlı reabilitasiya xidmətlərini genişləndirir, protez və məcburi reabilitasiya avadanlıqlarının sayının artırır.

Məşhur proqramlar olan UNDP-UNFPA ilə əməkdaşlıqla əlillər və müharibə veteranlarının həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində geniş layihələr həyata keçirilir [5].

Sosial müavinətlərin artması, əlilliyi olan şəxslər üçün layihə səviyyəsində təhsil və məşğulluq proqramları planlaşdırılır.

Cəmiyyətdə QHT-lərin aktivliyi, ictimai bərabərlik və əlillərin hüquqları mövzusunda şüurun artırılması təşəbbüsləri diqqət çəkir.

Yeni binaların, sosial obyektlərin, nəqliyyatın – əlilliyi olan şəxslərin ehtiyaclarına – universal dizayn prinsiplərinə uyğun layihələndirilməsi təşkil olunur. Mövcud infrastrukturda adaptasiya işlərinin aparılması - rampalar, əl tutacaqları, geniş keçidlər, əlverişli yol və s.istiqamətində aparılan işlər davam edir[1].

Elan olunmuş dövlət proqramlarının Qarabağa yönəldilməsi, əlilliyi olan şəxslərin prioritet qruplara daxil edilməsinin təşkil olunması sevindirici haldır.

Dövlət əlillik dərəcələrinin qiymətləndirilməsi proseslərinin şəffaf olmasına, fayda və reabilitasiya imkanlarına uyğun maliyyələşmənin artırılmasına çalışır.

Qarabağda inklüziv təhsil məktəblərinin, resurs siniflərinin yaradılması, müəllimlərin və təhsil işçilərinin inklüziv təhsil üzrə təlimi təşkil olunur. İş yerlərinin maneəsizliyi, işəgötürənlər üçün güzəştlər, dövlət və özəl müəssisələrdə inklüziv iş yerləri yaradılır.

Əlilliyi olan şəxslərin Qarabağda inteqrasiyası yalnız həm texniki və infrastruktur tədbirləri, həm də psixososial, mədəni və hüquqi səylərin birgə görülməsi ilə mümkündür. Müharibədən sonra yenidənqurma işləri geniş imkanlar yaradır – bərpa prosesləri əsnasında əlilliyi nəzərə alan layihələndirmə və siyasət prioritet olmalıdır.Cəmiyyətin baxışı və dövlətin siyasi iradəsi vacibdir: qadir insanın səlahiyyət və imkanlarının artırılması, sosial ədalətin təmin edilməsi.

Bərdə şəhərində "RehaPoint" ambulator reabilitasiya mərkəzi, Karabağ Regional DOST Mərkəzi fəaliyyət göstərir. DOST Mərkəzi 1 dekabr 2023-dən etibarən fəaliyyətə başlamışdır[3].

İlk mərhələdə (dekabr-aprel arası) bölgədə yaşayan əlilləri mütəmadi tibbi-sosial xidmətlərlə təmin etmişdir, məsələn, fiziki reabilitasiya, peşə terapiyası, psixoloq və nitq terapevti xidmətləri təşkil olunmuşdur. Bu dövrdə "RehaPoint"-da 300 nəfərdən çox insan xidmət almışdır. İstifadəçilərə xüsusi reabilitasiya vasitələri (reabilitasiya texnikası) da təqdim edilmişdir. 2025-ci ilin əvvəllərinə olan məlumata görə, "RehaPoint"-da 1,600-dən çox əlillik vəziyyəti olan şəxs reabilitasiya xidmətlərindən istifadə edib.

Ümumiyyətlə, uşaq əlilliyi olanlara yönəlik sosial-psixoloji reabilitasiya və habilitasiyası xidmətləri göstərən sosial reabilitasiya mərkəzləri ölkənin 27 şəhər və rayonunda fəaliyyətə başlamışdır. Bu mərkəzlərin məqsədi, əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyasını təmin etmək, onların sosial əlaqə, öz-özünə qulluq və digər bacarıqlarının inkişafı üçün şərait yaratmaqdır.

Mütləq dövlət siyasəti çərçivəsində, müharibə və digər hərbi xidmətlər nəticəsində əlilliyi olan vətəndaşlar üçün yardımlar və müavinətlər mövcuddur.

"Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin" sayı və ona verilən müavinətlər barədə rəsmi statistikalar açıqlanmışdır. Məsələn, 2024-cü ilin oktyabrın 1-i vəziyyətinə görə belə şəxslərin sayı 14,340 nəfər təşkil edir. Bu şəxslərin aylıq təqaüd məbləği əlillik dərəcəsinə görə dəyişir; orta məbləğlər qeyd olunub[2].

"RehaPoint" kimi mərkəzlərin açılması bölgələrdə reabilitasiya xidmətlərinin əlçatanlığını artırır, xidmətin əsas maddələrinin (fiziki reabilitasiya, nitq terapiyası və s.) yerində icrasını təmin edir.

Sosial reabilitasiya mərkəzlərinin 27 rayon-şəhər üzrə yayıldığı layihə, əlilliyi olan uşaqların sosial adaptasiya və inteqrasiyası üçün dövlət səviyyəsində strukturlaşdırılmış addımların atıldığını göstərir.

Artırılmış müavinətlər və əlilliyin hərbi xidmətlə əlaqəli olan növlərinə xüsusi diqqət verilməsi – həm maddi təminat, həm də hüquqi status baxımından – əlillərin statusunun dövlət tərəfindən tanındığını və cəmiyyətin bu qrupa yönəlik öhdəliklərinin mövcudluğunu göstərir.

"RehaPoint" mərkəzi Bərdə kimi regionda olsa da, əlilliyi olan şəxslərin digər bölgələrdən bura gəlməsi üçün nəqliyyat, yollar və fiziki maneələr problem yarada bilər.

Regionlarda xidmətlər olsa da, bəzi yerlərdə reabilitasiya mərkəzlərinin olmaması və ya onların imkanlarının məhdudluğu (texniki avadanlıqlar, peşəkar heyət) hələ mövcuddur.

Reabilitasiya vasitələrinin sayı ("400-800 reabilitasiya vasitəsi" kimi göstəricilər) artmaqda olsa da, tələblərə cavab verən avadanlıqların hamısını bölgələrdə təmin etmək çətindir[4].

Maliyyə resurslarının uzunmüddətli təminatı, QHT-lərlə dövlət arasında davamlı əməkdaşlıq, donorların layihələrinin davamlı olması istiqamətində məqsədyönlü işlər aparılır.

Peşə terapiyası, danışıq terapevti, psixoloq kimi sahələrdə kifayət qədər ixtisaslı personalın bölgələrdə yerləşməsi və iş şəraitinin yaxşılaşdırılması günün aktual məsələsidir.Müharibənin yaratdığı travmalar (psixoloji və fiziki) üçün xüsusi təlim görmüş mütəxəssislərin bu bölgələrdə fəaliyyət göstərməsi vacibdir.

Müharibə travması, ailə itkiləri, fiziki məhdudiyyət, yenidən məskunlaşma stressi – bunların hamısı əlilliyi olan şəxslərin psixoloji vəziyyətinə ciddi təsir edir.

Qeyd etdiklərimizdən aydın olur ki, Qarabağ bölgəsində əlillərin sosial inteqrasiyası və cəmiyyətə adaptasiyası məsələsi, postmüharibə dövründə daha da aktuallaşmışdır. Regionda gedən bərpa və quruculuq işləri, eyni zamanda əlilliyi olan şəxslərin cəmiyyətə tam inteqrasiya olunması üçün yeni imkanlar yaratsa da, hələ də ciddi sosial, infrastruktur və institusional problemlər qalmaqdadır. Əlillərin məşğulluq, təhsil, səhiyyə və sosial xidmətlərə çıxış imkanlarının məhdudluğu, fiziki mühitin tam uyğunlaşdırılmaması, həmçinin cəmiyyətin bəzi təbəqələrində davam edən stereotiplər bu sahədə əsas maneələrdir.

Mövcud reallıqlar göstərir ki, bu problemlərin həlli yalnız dövlət proqramları ilə deyil, həm də qeyri-hökumət təşkilatlarının, yerli icmaların və vətəndaş cəmiyyətinin fəal iştirakı ilə mümkündür. Eyni zamanda, inklüziv yanaşmaların təşviq olunması, hüquqi və institusional mexanizmlərin gücləndirilməsi, əlilliyi olan şəxslərin hüquqlarının qorunması və onların qərarların qəbulunda

iştirakının təmin edilməsi zəruridir.

Nəticə etibarilə, Qarabağda əlillərin sosial inteqrasiyası sadəcə sosial siyasətin deyil, həm də insan hüquqları və bərabərlik prinsipinin əsas tərkib hissəsi kimi yanaşılmalıdır. Bu istiqamətdə davamlı və sistemli tədbirlərin həyata keçirilməsi bölgədə dayanıqlı sosial inkişafın və inklüziv cəmiyyətin formalaşmasına zəmin yaradacaqdır.

ƏDƏBİYYAT

1. Aliyeva, Z. (2023). Reform of the system of rehabilitation of people with disabilities in Azerbaijan: A new social model transformation. *Disability & Society, 38*(3), 530–534.
2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. (2025, avqust 29). "RehaPoint" məntəqəsində 2,700 nəfərdən çox əlil şəxsə reabilitasiya xidmətləri göstərilib. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi.
3. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP). (2023, dekabr 4). Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsi layihəsi.
4. Sosial İnteqrasiya üzrə Azərbaycan Tədqiqatı. (2025, sentyabr 22). Azərbaycanda əlilliyi olan şəxslərin sosial inteqrasiyası: Maneələr və həll yolları.
5. UNDP Azərbaycan. (2024). Qarabağ münaqişəsindən zərər çəkmiş qadınlar və əlilliyi olan şəxslərin hüquqlarının və rifahının təmin edilməsi üzrə layihə.

Уля Корхмаз кызы Агазаде
магистрант,
Садагат Кямал кызы Мамедова
доктор философии по филологии, доцент,
Азербайджанский Университет Кооперации

Социальная интеграция и адаптация инвалидов в Карабахе: реалии и проблемы

Резюме

В данной статье рассматриваются вопросы социальной интеграции и адаптации людей с инвалидностью в регионе Карабаха после войны. Подчеркиваются усилия Азербайджана в области реабилитации, социальной защиты и инклюзии через государственные программы и сотрудничество с международными организациями. Несмотря на достигнутые успехи, сохраняются серьезные проблемы, такие как ограниченная доступность, недостатки инфраструктуры и психологические травмы. В исследовании отмечается, что эффективная интеграция требует как государственных инициатив, так и активного участия гражданского общества. Обеспечение инклюзии в Карабахе является важным условием устойчивого социального развития и равенства.

Ulya Korkhmaz Agazade
master,
Sadagat Kamal Mammadova
doctor of philosophy in philology, associate professor,
Azerbaijan Cooperation University

Social integration and adaptation of disabled people in Karabakh: realities and problems

Summary

This article explores the social integration and adaptation of persons with disabilities in the Karabakh region after the war. It highlights Azerbaijan's efforts in rehabilitation, social protection, and inclusion through state programs and cooperation with international organizations. Despite progress, challenges such as limited accessibility, infrastructure gaps, and psychological trauma

remain significant. The study emphasizes that effective integration requires both government initiatives and active participation of civil society. Ensuring inclusion in Karabakh is essential for sustainable social development and equality.

Şəbnəm Ruhid qızı QƏDİROVA
magistrant,
qedirova.shebnem@gmail.com,
Müslüm Hətəm oğlu NƏZƏROV
fəlsəfə elmləri doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MƏKTƏB İDARƏETMƏSİ VƏ LİDERLİK ANLAYIŞLARI: KLASSİK VƏ MÜASİR NƏZƏRİYYƏLƏR

Təhsil dövlət siyasətinin strateji xətti olmaqla qlobal dünyanın tələblərinə cavab verən, milli-mənəvi dəyərləri özündə əxz edən vətəndaşların formalaşdırılması və onların intellektual cəhətdən tərəqqisini təmin edən mütəşəkkil, sistemli, məqsədyönlü, idarə olunan prosesdir. Müasir pedaqoji yanaşmalar çərçivəsində təlim-tədris, tərbiyə prosesinin səmərəli və peşəkar qurulması, öyrənən-yönümlü, nəticəyönümlü olması təhsil müəssisələrinin rəhbərləri və əməkdaşlarından, təhsilalanlardan və digər maraqlı tərəflərdən əhəmiyyətli dərəcədə asılıdır.

Təhsil müxtəlif təhsil müəssisələrində həyata keçirilir və bu təhsil müəssisələri hər bir dövlətin təhsil haqqında qanununa uyğun idarə edilir.

İdarəetmə ümumelmi anlayışlar cərgəsində yer alır. Bu anlayış bütün sahələrdə olduğu kimi sosial sistemlərdə, eləcə də pedaqoji sistemdə, təhsilin idarə edilməsində istifadə edilir. İdarəetmə elmi biliklərin nəzəri və praktik əsasını təşkil edir. [3]

Təhsilin, məktəbin idarəetməsi və liderlik təhsil prosesində və pedaqoji nəzəriyyələrdə əsas tədqiqat obyektləri olaraq diqqəti cəlb edir. Tarixin müxtəlif dövrlərində idarəetmə və liderlik məsələlərinə fərqli yanaşmalar olsa da bütün dövrlərdə məqsəd şəxsiyyət yetişdirmək və cəmiyyəti düzgün istiqamətdə formalaşdırmaq olmuşdur.

Biz tədqiqatımızda qeyd olunan yanaşmaları klassik və müasir konsepsiyalar olmaqla iki istiqamətdə təhlil etməyə çalışmışıq.

Klassik nəzəriyyələr təhsilin idarəetmə prosesini struktur və qaydalar sistemi kimi qiymətləndirir, müasir nəzəriyyələr isə liderliyi və idarəetməni sosial-psixoloji və situativ aspektlərdən əsaslandırır. Apardığımız tədqiqatın əsas məqsədi bu nəzəriyyələri müqayisəli şəkildə analiz etmək və məktəb idarəetməsində liderlik modellərinə aydınlıq gətirməkdir.

Məktəb idarəetməsi - təhsil müəssisəsində tədris-tərbiyə proseslərinin səmərəli təşkili və idarə olunması sistemidir. İdarəetməyə klassik yanaşmada planlaşdırma, təşkilatçılıq, nəzarət və qiymətləndirmə funksiyaları vasitəsilə həyata keçirilir. İdarəetməyə müasir yanaşmada kommunikasiya, liderlik, strategiyaların və hədəflərin müəyyənləşdirilməsi, kollektiv motivasiya faktorları diqqət mərkəzində olur. [2]

Məktəbin idarə edilməsi bir sıra funksiyaları özündə birləşdirir ki, onları aşağıdakı kimi qruplaşdırmaq olar.

1. Strateji idarəetmə - təhsil müəssisəsinin məqsədlərinin müəyyənləşdirilməsi və resursların buna uyğun təşkili.
2. Əməli idarəetmə - gündəlik tədris və inzibati proseslərin təşkili.
3. İnsan resurslarının idarə edilməsi - müəllim və əməkdaşların peşəkar inkişafının təmin olunması.
4. Kommunikasiya, motivasiya və stimullaşdırma proseslərinin idarə edilməsi - kollektivin əməkdaşlıq və yaradıcı fəaliyyətə cəlb edilməsi və əməklərinin dəyərləndirilməsi

Məktəbin idarə edilməsində liderliyin əhəmiyyəti və bu anlayışın əsas mahiyyətinə nəzər saldıqda görürük ki, liderlik - fərdin və ya qrupun davranışlarını və fəaliyyətlərini müəyyən məqsədə

yönəltmə bacarığı kimi özünü göstərir. Bundan fərqli olaraq klassik idarəetmədə lider səlahiyyət və avtoritet vasitəsilə təsir göstərirdi. İdarəetmənin müasir modelində isə liderlik transformasiyaedici və situativ xarakter daşıyır, sosial-emosional bacarıqlar və innovasiyaya açıq olmaq liderin əsas göstəricisi sayılır.

Liderliyin mahiyyəti istiqamətində aparılan tədqiqatlar aşağıdakı aspektləri diqqət mərkəzinə çıxarır:

- Motivasiyaedici və kollektivin mənafeyi aspektindən düşünmə bacarığı;
- Strateji düşünmə və qərarvermə bacarığı;
- Çevik və situativ idarəetmə;
- Yüksək mənəvi-etik dəyərlərə əsaslanan idarəetmə fəaliyyəti.

Bu yanaşmadan fərqli olaraq klassik liderlik nəzəriyyələri liderliyi və idarəetməni strukturlaşdırılmaya əsaslanan, qayda və intizam yönümlü proses kimi dəyərləndirirdi. Tarixin müxtəlif dövrlərində sözügedən məsələyə aid nəzəriyyələr mövcud olmuşdur.

- **Elmi idarəetmə nəzəriyyəsi (1911)** - məhsuldarlığın standartlaşdırılması və əməyin optimallaşdırılmasına yönəlmiş idarəetmə prosesidir;
- **Ümumi idarəetmə nəzəriyyəsi (1949) -** idarəetmənin funksiyalarına planlaşdırma, təşkilati fəaliyyət, koordinasiya, əmr və nəzarət aid edilir.
- **Bürokratik idarəetmə (1922) -** qayda və prosedurlara əsaslanan rasionallaşdırılmış idarəetmə sistemi. [4]

Qeyd olunan konsepsiyalar idarəetmənin sistemli olmasını təmin etmiş və məktəb rəhbərliyi üçün mühüm təməl yaratmışdır.

Müasir liderlik qlobal dünyanın tələbələrinə cavab verən təlim-tədris, tərbiyə prosesinin qurulmasını şərtləndirir. Müasir liderlik konsepsiyalarına diqqət edərkən görürük ki, XX əsrin ikinci yarısından başlayaraq liderlik nəzəriyyələri sosial və emosional aspektləri ön plana çıxarmışdır:

- **Transformativ liderlik konsepsiyası (J. Burns, B. Bass) -** lider kollektivin vizion və dəyərlər vasitəsilə dəyişikliklərə nail olur və motivasiya yaradır.
- **Situativ liderlik (Hersey və Blanchard) -** lider idarəetmə üslubunu kollektivin hazırlıq və yetkinlik səviyyəsinə uyğunlaşdırır.
- **Paylaşılan liderlik** - səlahiyyətlərin, qərarvermənin və məsuliyyətin kollektiv üzvləri arasında bölüşdürülməsini təmin edir və komanda üzvlərinin təşəbbüskarlığını artırır.[5]

Liderin əsas vəzifəsi və öhdəlikləri kollektivin ehtiyaclarını təmin etmək və onların inkişafına xidmət etməkdir.

İnnovativ liderlik konsepsiyaları sübut edir ki, effektiv lider yalnız idarəçi deyil, həm də mentor, fasilitator və dəyişikliklərə açıq olan aparıcı fiqur rolunu oynayır.

Müasir və klassik liderlik konsepsiyalarının müqayisəsinə cədvəldə diqqət yetirək.

İstiqamət	Klassik konsepsiyalar	Müasir konsepsiyalar
İdarəetmədə liderin rolu	Avtoritet və səlahiyyətlərə əsaslanan idarəetmə prosesi	Transformasiya və dəstək
Fokuslanma	Qayda-intizam və vəzifə səlahiyyətlərinə istinad edən	İnsan amili, motivasiya, innovasiya
Qərarvermə	Mərkəzləşdirilmiş idarəetmə sisteminə malik	Paylaşılan, situativ
Komanda	Kollektiv üzvlərinin əsasən passiv və qaydalara istinad	Aktiv, təşəbbüskar

Nəticə etibarilə, müasir məktəb idarəetməsi və liderlik modeli klassik struktur əsaslara istinad etməklə, insanyönümlü və dəyişiklik yaradan funksiyaları özündə birləşdirir. Bu yanaşma təhsil müəssisələrinin innovativ və davamlı inkişafını təmin edərək cəmiyyətin təməli olan yetişməkdə olan gənc nəslin formalaşdırılmasına xidmət edir.

Aparılan tədqiqatlar göstərir ki, düzgün idarə edilən məktəbdə akademik və inzibati heyət, eyni zamanda təhsilalanlar hüquq və vəzifələrini dərk olunmuş formada mənimsəyərək bütün proseslərin aktiv üzvünə çevrilirlər. Müasir liderlik konsepsiyaları aşağıda qeyd edilən dəyərləri

özündə ehtiva edir.

Ədalətlilik: Təhsilin humanitar xarakterli olması, demokratizm, humanizm prinsiplərinin gözlənilməsi, insanların yaradıcı və keyfiyyətli fəaliyyətinə yönəlmiş təhsil sisteminin qurulması. Cəmiyyətin təhsil ehtiyaclarının ödənilməsi, şəxsiyyətin hüquq və azadlıqlarının təmin edilməsi.

Şəffaflıq: Təhsil, təlim-tərbiyə prosesinin həyata keçirilməsində təhsillə bağlı hüquqi-normativ sənədlərdə şəffaflığın, açıqlığın olması. Demokratizm, humanizm prinsiplərinə əməl olunması. Təhsil siyasətinin həyata keçirilməsində prosesin maraqlı tərəflər üçün şəffaf olması və bu məqsədlə özünüidarə orqanlarının yaradılması.

Keyfiyyətlilik: Həyata keçirilən təhsil siyasətinin cəmiyyətin, dövlətin şəxsin maraqlarına uyğun olması. Məqsəd, nəticəyönümlü, təhsilin səriştəyönümlü, şəxsiyyətyönümlülüyünü təmin edir. Təhsil proqramlarına söykənən təlim fəaliyyətini tətbiq edir.

İnnovativlik: Təhsilin bütün sahələrində yeniləşmə zərurətə çevrilir. İntellektə söykənən qlobal düşüncəli (tərzi və seçimi olan) təcrübəli, bacarıqlı, səriştəli "insan kapitalının" formalaşdırılması, Yeni məzmun strategiyasının qiymətləndirilmə mexanizminin tətbiqi. Yeni idarəetmə mexanizminin formalaşdırılması. Rəqəmsal dünyada elmin, texnikanın, texnologiyanın çevik inkişafının nəzərə alınması.

Milli mənəvi dəyərlərə sadiqlik: Təhsilin məzmununda milliliyin qorunması və dünyəviliyin gətirilməsi. Milli və ümumbəşəri dəyərlərin vəhdətinə dialektik yanaşma və qlobal təhsilə inteqrasiya.

İnklüzivlik: Təhsilə humanist yanaşma, irqindən, cinsindən, milliyətindən, sosial vəziyyətindən, dinindən, sağlamlıq durumundan asılı olmayaraq bütün insanlar heç bir ayrı-seçkiliyə məruz qalmadan bərabər təhsilalma imkanlarına malikdir və bu hüquq sənədlərdə öz əksini tapır. İnsanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritetliyi.

ƏDƏBİYYAT

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, Ozan, 2009
2. Əliyeva S.Q. Məktəbin idarə edilməsinin pedaqoji, psixoloji əsasları Bakı: ADPU, 2021, 320 s.
3. Hüseynzadə R.L. Pedaqogika.Dərslik. Bakı, Mütərcim, 2021, 487-488 s.
4. Bass B. M. Transformational Leadership. Erlbaum Associates 1990
5. Hersey P., Blanchard K. Management of Organizational Behavior. Prentice Hall 1982.
6. Northouse P. G. Leadership: Theory and Practice. Sage Publications 2021

Шабнам Рухид кызы Гадирова
магистрант,
qedirova.shebnem@gmail.com,
Муслим Хатам оглы Назаров
доктор философических наук,
Азербайджанский Государственный Педагогический Университет

Концепции управления школой и лидерства: классические и современные теории

Резюме

Статья представляет собой теоретический анализ школьного управления и лидерства, рассматривая как классические, так и современные теории. Классические теории подчеркивают структуру, авторитет и правила, тогда как современные теории фокусируются на человеческом факторе, мотивации и инновациях. В работе рассматриваются модели трансформационного, ситуационного, разделяемого и служебного лидерства, демонстрируя их значимость для эффективного управления школой. Статья делает вывод, что современное школьное лидерство объединяет классические структурные принципы с ориентированным на человека, инновационным подходом, обеспечивая устойчивое развитие образовательных учреждений.

Shabnam Ruhid Qadirova
master,
qedirova.shebnem@gmail.com,
Muslim Hatam Nazarov
doctor of philosophical sciences,
Azerbaijan State Pedagogical University

School administration and leadership concepts: classical and modern theories

Summary

The article provides a theoretical analysis of school management and leadership, examining both classical and modern theories. Classical theories emphasize structure, authority, and rules, while modern theories focus on human factors, motivation, and innovation. The study highlights transformational, situational, shared, and servant leadership models, demonstrating their relevance for effective school administration. The article concludes that contemporary school leadership integrates classical structural principles with human-oriented, change-driven approaches, ensuring sustainable development in educational institutions.

Elxan İlham oğlu GÖYÜŞOV
magistrant,
Ülviyyə Bəxtiyar qızı MEHRƏLİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

ALİ TƏHSİLDƏ İNNOVATİV TƏHSİL TEXNOLOGİYALARI

Bu gün müasir təhsil müəssisəsinin qarşısında duran əsas vəzifələrdən biri ictimai və dövlət tələblərinin, təhsil prosesi iştirakçılarının tələbatının ödənilməsinə yönəlmiş təhsil innovasiyalarının axtarışı, yaradılması və həyata keçirilməsidir.

İnnovativ təhsil müəssisəsi rəqabətə davamlıdır. Bu o deməkdir ki, universitet müxtəlif təhsil proqramlarını inteqrasiya etmək iqtidarındadır, təhsil xidmətlərini "ixrac etmək" qabiliyyətinə malikdir və bu xidmətlərə tələbat var, səriştəli kadrlarla təchiz olunub və korporativ təlim imkanları təklif edir.

İnnovativ təhsil müəssisəsi liderdir. Bu xüsusiyyət universitetin fəal rolunu, şəhər və ölkənin təhsil məkanında lider mövqeyini, xarici, o cümlədən xarici tərəfdaşlarla güclü əlaqələrin mövcudluğunu ifadə edir.

İnnovativ təhsil müəssisəsi komfortlu, təhlükəsiz, sağlamlığa faydalı, tam infrastruktur paketinə (dərman, qida, idman, media-kitabxana, psixoloji-pedaqoji dəstək, informasiya mərkəzi və s.) malik, elmi və peşəkar icmaların, eləcə də ictimaiyyətin iştirakı üçün açıqdır.

Aydındır ki, innovativ təhsil müəssisəsi innovativ fəaliyyətlə məşğul olur, yeni təhsil texnologiyaları, proqramları və metodologiyaları hazırlayır və istifadə edərək yeni təhsil nəticələrinə gətirib çıxarır. Bundan əlavə, innovativ universitet təkcə tədris təşkilatı deyil, həm də daxili təlimləri həyata keçirən və qabaqcıl tədris təcrübələrini yayan öyrənən təşkilatdır.

"İnnovasiya" termini yunanca "yenilik" sözündən götürülmüşdür, yenilənmə, dəyişiklik deməkdir. Müasir elmi anlayışda təhsildə innovasiya müvafiq, elmi cəhətdən əsaslandırılmış ideyalar, konsepsiyalar və yanaşmalar əsasında inkişaf edən yeni tipli təhsil təcrübəsi yaratmaq məqsədi daşıyır [1, s. 45].

Belə yeni tip tədris təcrübəsi kimi müxtəlif texnologiyalar, metodlar, təşkilati formalar, tapşırıqlar toplusu, qiymətləndirmə formaları və s.

Real təhsil praktikasında innovasiya çox vaxt ənənəvi yanaşmanın antonimi kimi şərh olunur, reproduktiv öyrənmə, hazır modellərin, konsepsiyaların, hərəkətlərin mənimsənilməsi, tipik, tez-

tez rast gəlinən texnika, metod və tədris metodlarından kənara çıxmaq kimi şərh olunur [3].

Təhsil müəssisəsinin innovasiya siyasəti bir-biri ilə əlaqəli üç istiqamətdə həyata keçirilə bilər.

1. Məzmunun yenilənməsi, hansı ki, daha çox fənn üzrə biliklərin mənimsənilməsinə deyil, müasir təcrübəyə uyğun səriştələrin inkişafına diqqət yetirir. Bu məzmun yaxşı qurulmalı və müasir kommunikasiya vasitələrindən istifadə etməklə multimedia tədris materialları kimi təqdim edilməlidir.

2. Müasir tədris metodlarının həyata keçirilməsi - təkcə materialın passiv qavranılmasına deyil, tələbələrin qarşılıqlı əlaqəsinə və onların tədris prosesinə cəlb edilməsinə əsaslanan səriştələrin inkişaf etdirilməsinin aktiv üsulları.

3. İnformasiya, texnoloji, təşkilati və kommunikasiya komponentlərini özündə birləşdirən müasir təhsil infrastrukturunun qurulması.

Müxtəlif innovativ təhsil yanaşmaları innovasiya siyasətinin metodoloji əsası kimi çıxış edə bilər. Onlardan bəzilərini nəzərdən keçirək.

I. Fəaliyyətə əsaslanan yanaşma. Bu yanaşmanın əsas ideyaları aşağıdakı tezislərdə ifadə olunur. İnsan psixikası fəaliyyətlə ayrılmaz şəkildə bağlıdır və onunla şərtlənir. Buna görə də təhsilin məqsədi biliklərin mənimsənilməsi və ya toplanması deyil, səriştəli hərəkət etmək bacarığının inkişafıdır.

II. Layihəyə əsaslanan yanaşma müxtəlif didaktik məqsədlərə nail olmaq üçün müxtəlif fənn və fənlərarası məzmunda tələbələrin layihə əsaslı fəaliyyətinin təşkilini təklif edir[1,s.78].

Layihənin icra prosesinin və nəticələrinin şifahi (məruzə, nitq və s.) və ya yazılı formada (məqalə, referat, məruzə, tədqiqat işi və s.) təqdim edilməsi.

Layihələrin müəyyən edilmiş spesifik xüsusiyyətlərini nəzərə alaraq, layihə fəaliyyətinin təşkili üçün aşağıdakı əsas tələbləri vurğulayırıq:

- əhəmiyyətli bir tapşırığın (problemin) olması;
- fəaliyyətin planlaşdırılması (məhsulun növü, təqdimat forması və s.);
- emal ediləcək, başa düşüləcək və təqdim olunacaq məlumatların axtarışı;
- bacarıqların inkişafı; aralıq nəticələrin yekunlaşdırılması, müzakirələr; məhsulun ictimai təqdimatı.

Dizayn didaktik məqsədlərlə fənnin məzmunu üzrə həyata keçirilə bilər: peşəkar səriştələrin hərtərəfli inkişafı məqsədi ilə kvazi-peşəkar problemləri həll etmək, sosial əhəmiyyətli problemləri həll etmək.

III. Bacarıqlara əsaslanan yanaşma əvvəlki yanaşmalarla sıx bağlıdır və həm fərdin, həm də bütövlükdə cəmiyyətin mənafeyinə uyğun olaraq həyatın əsas sahələrində uğurlu fəaliyyət göstərməsini təmin edən bilik və praktiki bacarıqların hərtərəfli mənimsənilməsinə yönəlib. Əldə edilən biliklər məlum faktların sayı ilə deyil, onları peşəkar sahədə, əlaqəli sahələrdə və bəzən hətta problemlə mövzu bilikləri arasında əlaqənin aydın görünmədiyi situasiyalarda tətbiq etmək bacarığı ilə xarakterizə olunur. Buna görə də müasir tədris prosesi sadəcə olaraq istifadə olunmaq perspektivi uzaq olan tələbələrə fənn biliklərinin verilməsindən ibarət olmamalı, daha çox bu biliklərin mövcud peşəkar və kvazipeşəkar problemlərin həllində tətbiqini nümayiş etdirməklə yanaşı, tələbələrin təlim prosesində belə problemləri müstəqil həll etmələrinə şərait yaratmaqdan ibarət olmalıdır.

Bu innovativ yanaşmalar yeni qiymətləndirmə sahəsinin - tələbələrin şəxsi və şəxsiyyətlərarası nailiyyətlərinin qiymətləndirilməsinin tətbiqini tələb edir. Şəxsi nailiyyətlərin qiymətləndirilməsinin tətbiqi şəxsiyyətin aşağıdakı komponentlərinin inkişafını təmin edir: özünü inkişaf etdirmək üçün motivasiya, mənlik konsepsiyası strukturunda müsbət təlimatların formalaşması, özünə hörmətin inkişafı, könüllü tənzimləmə və məsuliyyət. Bu kateqoriyalı nəticələr yalnız xüsusi texnologiyalardan istifadə etməklə qiymətləndirilə bilər.

Tələbələrin bacarıq və bacarıqlarının hazırkı standart qiymətləndirilməsi məzun olduqdan sonra uğurlu həyat və peşəkar strategiyaları təmin etmək üçün inkişaf etdirilməli olan bir çox səriştə, qabiliyyət və bacarıqları əhatə edə bilmir. İstifadə olunan standartlaşdırılmış prosedurlar tələbələrin real həyat vəziyyətlərində tapşırıqları yerinə yetirmək qabiliyyətini qiymətləndirə bilmir və hətta bu gün peşə təhsilində, əksər iş yerlərində və gündəlik mülki həyatda tələb olunan kritik davranış bacarıqlarının və səriştələrinin inkişafını məhdudlaşdırır.

Müasir tədris prosesinin strukturu ilə adekvat qiymətləndirmə sisteminin olmaması arasında mövcud ziddiyyəti nəzərə alaraq və autentik qiymətləndirmə formalarının təhlili əsasında tələbələrin şəxsi təlim nəticələrinə ən uyğun olanı nəzərə alaraq, portfolio məcmu qiymətləndirmə sisteminin təşkili üçün optimal üsul kimi ortaya çıxır. Bu, müəyyən bir müddət ərzində müxtəlif sahələrdə səylərini, irəliləyişlərini və nailiyyətlərini nümayiş etdirərək, tələbələrin işini və nəticələrini qeyd etmək, toplamaq və qiymətləndirmək üsuludur. Başqa sözlə desək, bu, özünüifadə və özünü dərk etmənin bir formasıdır. Portfel "pedaqoji vurğunu" kənar qiymətləndirmədən özünüqiymətləndirməyə, insanın bilmədiyi və edə bilmədiyi şeylərdən bildiyi və edə bildiyi şeylərə keçir. Portfelin əhəmiyyətli xüsusiyyəti onun həm kəmiyyət, həm də keyfiyyət qiymətləndirmələrini əhatə edən inteqrativ xarakteri, onun yaradılması zamanı tələbə, təlimatçı və işəgötürən arasında əməkdaşlığı və qiymətləndirmənin davamlı olaraq yenilənməsini nəzərdə tutur[4,s. 123].

Portfolio tələbənin müxtəlif fəaliyyətlərdə əldə etdiyi nəticələri nəzərdən keçirməyə imkan verir - akademik, tədqiqat, layihə əsaslı, sosial, kommunikativ, peşəkar və s.

Portfelin yaradılması və istifadə məqsədindən asılı olaraq onun növü və strukturu dəyişə bilər. Ən çox yayılmışlar:

- təsdiq edilmiş fərdi təhsil nailiyyətlərini özündə əks etdirən sənədlər portfeli;

Müəllimlər, potensial işəgötürənlər, təcrübə rəhbərləri, fasiləsiz təhsil sisteminin işçiləri və s. tərəfindən təqdim olunan tələbənin müxtəlif fəaliyyət növlərinə münasibətinin xüsusiyyətlərini ehtiva edən əks-əlaqə portfeli, həmçinin tələbənin yazılı özünü təhlili.

Portfelin formalaşması texnologiyasının xüsusiyyətləri təhsil prosesində aşağıdakı funksiyaları vurğulamağa imkan verir:

- diaqnostik (müəyyən vaxt ərzində göstəricilərin dəyişməsi və artımı (dinamikası) qeydə alınır);
- məqsədlərin müəyyən edilməsi (standartlarla müəyyən edilmiş təhsil məqsədlərini dəstəkləyir);
- həvəsləndirici (şagirdləri, müəllimləri və valideynləri qarşılıqlı fəaliyyətə və müsbət nəticələr əldə etməyə həvəsləndirir).

Beləliklə, portfolio səriştələrin keyfiyyətcə və çoxsəviyyəli qiymətləndirilməsi, fərdi tələbə irəliləyişlərinin ölçülməsi və işəgötürənlər üçün özünütəqdimetmə vasitəsidir və buna görə də təhsilə fəaliyyətə əsaslanan, layihəyə əsaslanan və səriştəəsaslı yanaşmaların mühüm elementidir.

Sonda qeyd edək ki, yuxarıda müzakirə olunan innovativ yanaşmalar və müvafiq təhsil texnologiyaları müasir ali təhsilin aşağıdakı aktual problemlərinin həllinə kömək edir:

- biliklərin səmərəli mənimsənilməsi;
- peşəkar qərarlar qəbul etməyə imkan verən praktiki tədqiqat bacarıqlarının inkişafı;
- biliklərin toplanmasından müstəqil axtarış və tədqiqat bacarıqlarının yaradılması mexanizmlərinin yaradılmasına keçid;
- tələbələrin şəxsiyyətinin dəyər yönümlərinin formalaşması;
- idrak fəaliyyətinin artırılması;
- yaradıcılıq qabiliyyətlərinin inkişafı;
- tələbələrin uğurlu sosial uyğunlaşmasına kömək edən didaktik və psixoloji şəraitin yaradılması.

Beləliklə, bu gün təhsildə yenilik artıq təcrid olunmuş bir hadisə və ya təsadüfi bir kəşf deyil. İnnovasiya universitetin təhsil məkanının inkişaf vektorunu müəyyən edən sistemə çevrilib.

ƏDƏBİYYAT

1. Nəzərov M.H, Quliyev N.Z, Nəzərova X.M., Pedaqoji texnologiyalar. Dərs vəsaiti Bakı: ADPU, 2020. 467 s.
2. Nəzərov M.H. Təhsilin sosiomədəni əsasları. Monoqrafiya. Bakı: 2017,256 s.
3. Полат Е.С. Современные педагогические и информационные технологии в системе образования.-М.: Издательский центр «Академия», 2008.- 368с.
4. Современные образовательные технологии: учебное пособие. Под ред. Н.В.Бордовской. - М., 2010. - 432с.

Эльхан Ильхам оглы Гёюшов
магистрант,
Ульвия Бахтияр кызы Мехралиева
доктор философии по педагогике, доцент,
Азербайджанский Университет Кооперации

Инновационные образовательные технологии в высшем образовании

Резюме

В статье особое внимание уделяется развитию инновационного потенциала системы высшего образования. Инновационные образовательные технологии анализируют целенаправленные, содержательные изменения в педагогической деятельности посредством разработки и применения педагогических и управленческих инноваций в образовательных учреждениях. Сущность инноваций в высшем образовании рассматривается посредством изучения основных признаков, формирующих «портрет инновационного образовательного учреждения».

Elkhan Ilham Goyushov
master,
Ulviyya Bakhtiyar Mehraliyeva
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan Cooperation University

Innovative educational technologies in higher education

Summary

The article pays special attention to the development of the innovative potential of the higher education system. Innovative educational technologies analyze purposeful, meaningful changes in pedagogical activity through the development and application of pedagogical and management innovations in educational institutions. The essence of innovations in higher education is examined by studying the main features that form the “portrait of an innovative educational institution”.

Nərmin İsmayıl qızı ƏZİMOVA
magistrant,
Nigar İlham qızı BÜNYADOVA
filologiya üzrə fəlsəfə doktoru,
Bakı Slavyan Universiteti

NƏBİ XƏZRİNİN LİRİKASINDA QƏHRƏMANLIQ MOTİVLƏRİ VƏ ONLARIN GƏNC NƏSLİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ ROLU

Azərbaycan ədəbiyyatında qəhrəmanlıq motivləri həmişə mühüm yer tutmuşdur. Xüsusilə XX əsrin ikinci yarısından etibarən bu mövzu bədii ədəbiyyatda həm vətənpərvərlik duyğularının, həm də milli özünüdərkin ifadə vasitəsinə çevrilmişdir. Bu baxımdan Nəbi Xəzrinin lirikasında qəhrəmanlıq ideyalarının tədqiqi ədəbi və pedaqoji baxımdan böyük əhəmiyyət daşıyır.

Şairin poeziyası təkcə bədii-estetik dəyəri ilə deyil, həm də gənc nəslin vətənə, xalqa və dövlətə sədaqət ruhunda formalaşmasına təsir gücü ilə seçilir. Onun əsərləri Azərbaycan xalqının azadlıq mübarizəsini, müstəqillik uğrunda fədakarlığını bədii dildə əks etdirir. Bu poeziya müasir gəncliyin milli kimliyini dərk etməsində və vətən sevgisinin dərinləşməsində mühüm rol oynayır.

Məqalənin məqsədi Nəbi Xəzrinin lirikasında qəhrəmanlıq və vətənpərvərlik motivlərinin bədii xüsusiyyətlərini açmaq və bu motivlərin tədris prosesində istifadə imkanlarını araşdırmaqdır. Bu

yanaşma şairin yaradıcılığını təkcə ədəbiyyat kontekstində deyil, həm də təlim və tərbiyə mühitində praktik dəyər kimi qiymətləndirməyə şərait yaradır.

Nəbi Xəzri Azərbaycan ədəbiyyatında vətənpərvərlik mövzusuna ardıcıl müraciət edən şairlərdən biridir.Şairin vətən mövzusunu əks etdirən şeirləri iki qrupa ayrılır: biri Qarabağ həsrətini əks etdirən, digəri isə vətənpərvərlik ruhunu ifadə edən əsərlərdir. Onun poeziyasında qəhrəmanlıq anlayışı yalnız döyüş səhnələri ilə məhdudlaşmır; o, insanın mənəvi iradəsini, fədakarlığını və Vətən qarşısında məsuliyyət hissini də əhatə edir. Şairin "Ana, Bayraq ,Vətən", "Çəkin Qarabağdan qara əlləri", "İstiqlal marşı", "Qanlı Yanvar" kimi şeirlərində milli qürur, azadlıq və şəhidlik motivləri poetik dillə ifadə olunmuşdur.

Nəbi Xəzrinin lirikasında qəhrəman obrazı ideal insana çevrilir – bu obraz xalqın yaddaşında yaşayan şəhidlər, əsgərlər və Vətən uğrunda canından keçən hər bir igidin timsalında təcəssüm tapır. Şairin poetik dünyasında qəhrəmanlıq bir amal kimi təqdim olunur: insanın öz mənini Vətənə həsr etməsi, azadlıq uğrunda mübarizədən çəkinməməsi bədii məna daşıyır. Bu cür əsərlər gənc nəslə milli kimlik və vətən sevgisi aşılayan güclü pedaqoji vasitə kimi çıxış edir:

Qardaşım, dostları düşməndən ayır,
Ümiddən inama təməl qoyulur.
Dünyada Vətənsiz
İnsan olmayır,
Yalnız qeyrətsizlər Vətənsiz olur. [1, c. 1, s. 40]

Tədris prosesində Nəbi Xəzrinin lirikasından istifadə şagird və tələbələrdə emosional və mənəvi təsir yaradır. Onun şeirlərindəki qəhrəmanlıq motivlərinin təhlili gənclərdə milli ruhun, vətəndaş məsuliyyətinin və humanist dəyərlərin formalaşmasına şərait yaradır. Bu baxımdan, müəllimlər şairin poetik nümunələrini dərs prosesində yalnız ədəbi analiz vasitəsi kimi deyil, həm də tərbiyəvi məzmun daşıyıcısı kimi təqdim edə bilərlər.Şairin "Cəbhədən qaçan oğlan" şeiri bu cəhətdən çox səciyyəvidir. Şeir cəbhədən qaçan bir gəncin davranışına mənəvi və əxlaqi prizmadan yanaşır. Müəllif burada qorxaqlıq, vətənə laqeyd münasivət və mənəvi zəiflik kimi mənfi xüsusiyyətləri kəskin tənqid edir:

O cəbhədən qaçıb gəldi,gəldi ata evinə,
Döydü doğma bir qapını, o, sevinə-sevinə:
- Ana!
- Necə qapını açım mən cəbhədən qaçana?
- Mən gəldim ki, sizi görüm
- yox, buna dözməz Ana.
Sənə Hünər adı verdim, mən arzuma yetmədim,
İgid oğul bəslədim mən,fərari böyütmədim [1, c 1, s. 92].

Şeirdə cəbhədən qaçan oğulu ananın da , sevgilinin də qəbul etmədiyini, sonda isə təbiətin onu cəzalandırdığının şahidi oluruq.Şeirin tərbiyəvi dəyəri ondadır ki, o, şagirdlərdə vətənə bağlılıq, cəsarət və vətəndaşlıq borcuna sədaqət hissi formalaşdırır. Müəllif göstərir ki, insanın əsl dəyəri onun döyüş meydanında göstərdiyi şücaətlə deyil, vətən qarşısında mənəvi məsuliyyətini necə dərk etməsi ilə ölçülür.

Tədrisdə bu şeirin öyrənilməsi şagirdlərə vətən müdafiəsinin müqəddəs borc olduğunu, qorxaqlığın isə təkcə fərdi yox, milli mənəviyyata da zərbə vurduğunu anlatmaq baxımından çox əhəmiyyətlidir.

Nəbi Xəzrinin yaradıcılığında Qarabağ mövzusu xüsusi yer tutur. Onun "Kəlbəcər harayı", "Ağdərə", "Şuşa", "Şuşa gəlir yuxularıma", "Səni görəcəyəm haçan, Qarabağ", "Xocalıda ərik ağacı", "Çəkin Qarabağdan qara əlləri" kimi şeirləri doğma yurd yerlərinə sonsuz məhəbbət, həsrət və azadlıq arzusu ilə doludur.

Bu şeirlərin tədrisində əsas məqsəd təhsilalanlarda vətən sevgisi, milli qürur, torpaq itkisinə biganə qalmamaq kimi yüksək mənəvi keyfiyyətləri formalaşdırmaqdır. Şeirlər oxuculara aşılayır ki, vətən təkcə torpaq deyil, həm də şəhid qanı ilə yoğrulmuş müqəddəs məkandır.

Torpağı suladı igidlər qanı,
Cinayət məlumdur, cani bəs hanı? [2, c. 1, s. 112]

Bu şeirdə şair didərgin düşmüş insanların dərdini, itirilmiş yurd nisgilini poetik dillə ifadə edir. Dağ, bulaq obrazları vasitəsilə təbiət və insan ağrısı eyniləşdirilir. Tədrisdə bu nümunənin öyrədilməsi şagirdlərdə yurd həsrətinə həssaslıq, vətən ağrısına biganə qalmamaq kimi mənəvi duyğular yaradır.

Vaxtsız vida dedi dostlar cahana,
Batdı əzəmətli dağların yasa!
Başsağlığı vermək? dil gəlmir buna,
Baş necə sağ olsun,yurd dağılıbsa… [2, c. 2, s. 112]

"Şuşa gəlir yuxularıma" adlı şeirində Şuşa bir şəhərdən çox, milli yaddaşın simvolu kimi təqdim olunur. Yuxu motivi vasitəsilə şairin həm keçmişə həsrəti, həm də gələcəyə inamı ifadə edilir. Bu nümunə şagirdlərdə ümid, sədaqət və milli qürur hissini gücləndirir.

Şuşam, uca tutdum səni ana tək,
O yerə quş kimi qanad açmışam.
Üçrəngli bayrağım ucalanadək,
Sevgimi bayraq tək ora sancmışam.[1, c. 2, s. 111)

"Atamı, anamı Xocalıda öldürdülər.Ərik ağacımızı yandırdılar…İndi yuxularda həmişə ərik ağacımızı çiçəklənən görürəm" [1, c 1, s. 98] deyən qızcığazın sözlərindən təsirlənərək "Xocalıda ərik ağacı" şeirini yazan şair Xocalı faciəsini bir təbiət obrazı – ərik ağacı vasitəsilə təqdim edir. Təbiətin çiçəklənməsi ilə insan faciəsi arasındakı ziddiyyət şeirin əsas emosional yükünü təşkil edir. Tədrisdə bu şeir sülhün, mərhəmətin, insanlığın əhəmiyyəti barədə tərbiyəvi söhbət üçün çox uyğundur.

O yandı, atəşi tutdu aləmi,
Endi yerə Günəş-göylərin tacı.
Qanlı cinayətə abidə kimi,
Yüksəldi qapqara ərik ağacı. [1, c. 2, s. 98]

"Çəkin Qarabağdan qara əlləri" şeirində isə şairin səsi xalqın səsinə çevrilir. Qarabağ yalnız torpaq deyil, müqəddəs bir məkan kimi təqdim olunur. Tədrisdə bu şeir vətənə sədaqət, azadlıq uğrunda mübarizəyə hörmət kimi dəyərlərin mənimsədilməsinə xidmət edir.

Kükrəyib qəzəbdən od tökər qışım,
Qolumdan bərk tutsun qardaşım gərək.
Qarışsa yad elə bircə qarışım,
Özüm də torpağa qarışım gərək.
Çəkin bu torpaqdan qara əlləri!
Çəkin Qarabağdan qara əlləri! [1, c. 2, s. 98]

Nəbi Xəzrinin Qarabağ həsrətli şeirləri Azərbaycan poeziyasının vətənpərvərlik məktəbi kimi dəyərləndirilə bilər. Onun əsərləri dərs prosesində şagirdlərdə milli ruh, vətən sevgisi, tarixi yaddaşa sədaqət və sülh arzusu kimi dəyərlərin formalaşmasına mühüm təsir göstərir. Belə şeirlərin tədrisi təkcə ədəbiyyat dərsi üçün deyil, həm də vətəndaşlıq və mənəviyyat tərbiyəsi üçün güclü vasitədir.

Çiçəklər torpağın arzu-kamıdır,
Gündüz də düşmənçin gecə olacaq.
Bu hələ təbiət intiqamıdır,
Gör insan qisası necə olacaq - [1, c. 2, s.98]

Deyən şairin Qarabağ mövzusuna həsr etdiyi bütün şeirlərində bir ümumi xətt hiss olunur: o, faciə və həsrətdən danışsa da, heç vaxt ümidsizliyə qapılmır, hər misrasında Qarabağın azad olacağına, üçrəngli bayrağımızın yenidən Şuşa səmasında dalğalanacağına inanır. Bu gün şair özü həyatda olmasa da, onun illərlə qəlbində daşıdığı bu arzusu gerçəkləşmişdir.

Sabah dönəcəyik o yerə hökmən,
Dağları dağlar tək görəcəyik biz!
Al-əlvan Kəlbəcər çiçəklərindən
Zəfər çələngini hörəcəyik biz! [2, c. 2, s. 122]

Tədris prosesində bu faktın vurğulanması şagirdlər üçün böyük mənəvi dəyər daşıyır. Çünki

bu, ədəbiyyatın yalnız keçmişin xatirəsi deyil, həm də gələcəyə inamın və milli qürurun daşıyıcısı olduğunu göstərir.

Beləliklə, Nəbi Xəzrinin Qarabağ şeirləri şagirdlərdə vətən sevgisini, mübarizə ruhunu və ümidi aşılayan mənəvi məktəb kimi əhəmiyyətini bu gün də qoruyub saxlayır.Məqaləni Ümummilli lider Heydər Əliyevin bu fikirləri ilə bitirmək istərdim: "Nəbi Xəzri öz şeirlərində xalqımızın həm qəhrəman keçmişini, həm də bugünkü həyatını və sabahını yüksək ustalıqla, fitri sənətkarlıqla tərənnüm edir. Öz şeirlərində və poemalarında şair cəmiyyətimizin inkişafı üçün, indiki nəslin tərbiyəsi üçün birinci dərəcəli əhəmiyyəti olan problemlər qaldırır. Həm də müəllifin mövqeyi həmişə aydın şəkildə bildirilir, onun xalqa bağlılığı, onlara sədaqətlə xidməti nümayiş etdirilir." [3]

ƏDƏBİYYAT

1. Nəbi Xəzri. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı, "Lider", 2004, 248 s.
2. Nəbi Xəzri. Seçilmiş əsərləri. 2 cilddə. II cild. Bakı, "Lider", 2004, 264 s.
3. https://www.naxcivanxeberleri.az/bloq/muasir-azerbaycan-poeziyasinin-parlaq simasi-5323

Нэрмин Исмаил кызы Азимова
магистрант,
Нигяр Ильхам кызы Бунядова
доктор философии по филологии,
Бакинский Славянский Университет

Мотивы героизма в лирике наби хазри и их роль в патриотическом воспитании молодого поколения

Резюме

В статье рассматривается художественное выражение героизма и патриотизма в лирике Наби Хазри, анализируется роль этих мотивов в национальном воспитании молодежи. Поэзия поэта отражает героическую летопись азербайджанского народа в поэтической форме, являясь важным средством формирования национального духа. В творчестве Наби Хазри идеи борьбы народа за свободу, мученичества и любви к родине выступают основной художественной линией. Также в статье раскрывается педагогическое значение использования этих мотивов в учебном процессе и их влияние на патриотическое воспитание.

Nermin Ismayil Azimova
master,
Nigar Ilham Bunyadova
doctor of philosophy in philology,
Baku Slavic University

Heroic motifs in Nabi Khazri's lyrics and their role in patriotic education of the younger generation

Summary

The article examines the artistic expression of heroism and patriotism in Nabi Khazri's lyrics, analyzing the role of these motifs in the national education of the younger generation. The poet's work reflects the heroic chronicles of the Azerbaijani people in poetic language, serving as an important means in shaping the national spirit. In Nabi Khazri's creativity, ideas such as the people's struggle for freedom, martyrdom, and love for the homeland function as the main artistic line. The article also explains the pedagogical significance of using these motifs in the teaching process and their impact on patriotic education.

Vaqif Zaur oğlu RZAYEV
magistrant,
Nizami Cəlal oğlu MƏHƏRRƏMOV
filologiya üzrə fəlsəfə doktoru, dosent,
Ramil Bəhman oğlu KAZIMOV
baş müəllim,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA MUZEYŞÜNASLIQ: TARİX, NƏZƏRİYYƏ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Muzeylər maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi-tədqiqat müəssisələridir. Muzeylər yarandığı gündən müəyyən inkişaf dövrü keçmişdir. İlkin mərhələdə muzeylər yalnız muzey əşyalarının mühafizəsi və daha sonra nümayişi ilə kifayətlənirdi. XVIII əsrin ikinci yarısından başlayaraq muzeylər Avropada elmi-tədqiqat mərkəzləri kimi fəaliyyət göstərməyə başlamışdır.

Azərbaycanda muzeyşünaslığın inkişafı dörd əsas mərhələni əhatə edir: təşəkkül (XIX əsrin sonu – 1920), institusional inkişaf (1920–1960), elmi-metodoloji formalaşma (1960–1990) və müasir rəqəmsal mərhələ (1991-ci ildən indiyədək). Bu proses təkcə muzeylərin artması ilə deyil, həm də muzeyşünaslıq elminin elmi, hüquqi və texnoloji əsaslarının möhkəmlənməsi ilə xarakterizə olunur. Muzeyşünaslıq Azərbaycanda milli kimliyin qorunması, tarixi irsin təbliği və mədəni diplomatiyanın həyata keçirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Muzeylər yalnız eksponantların qorunduğu məkan deyil, həm də millli kimliyin, yaddaşın və təhsilin mühüm elementinə çevrilmişdir. [4, səh. 12-37]

Azərbaycanda muzeyşünaslığın başlanğıcı XIX əsrin sonlarına təsadüf edir. XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai-siyasi, mədəni fikir həyatında sürətlə cərəyan edən proseslər öz növbəsində muzey işinin təşkilinə təkan vermiş və ölkəmizdə müasir tipli muzeylərin yaradılmasına başlanılmışdır. Bu dövrdə Qafqazın bir çox şəhərlərində, o cümlədən Bakıda, Şuşada və Gəncədə mədəni-tarixi kolleksiyalar yaradılmışdır. 1896-cı ildə Bakıda Neft sənayesi sərgisi muzeyi və Neft muzeyi kimi ilk tematik sərgi kolleksiyaları meydana gəlmiş, bu da gələcək muzeyşünaslıq proseslərinin əsasını qoymuşdur. [5, səh. 45]

Aludə Zeynalova "Muzey ekspozisiyalarının estetik əsasları" adlı monoqrafiyasında qeyd edir: "XIX-XX əsrin ayrıclarında ölkəmizdə muzeylər nisbətən gec meydana gəlsə də, əslində xalqımızın qədim və zəngin muzeyçilik, kolleksiyaçılıq ənənələri olmuşdur". [6, səh. 5] Bu sitat göstərir ki, kolleksiyaçılıq və muzeyçilik ideyaları Azərbaycanda artıq tarixi dəyərə malikdir və formalaşma mərhələsi yaşanmışdır. O dövrdə saray kolleksiyaları, şəxsi toplanmış eksponatlar mövcud idi və bu, müasir muzey sisteminin ilkin forması idi. Bu baxımdan, muzeyçilik yalnız eksponat toplanması deyil, eyni zamanda mədəni yaddaşın qorunması və təqdim edilməsi mexanizmi kimi formalaşmışdır. Azərbaycan musiqi, incəsənət, xalq yaradıcılığı sahələrində nümunələr muzeyə çevrilmiş, kolleksiyalar milli kimliyin ifadəsinə çevrilmişdir.

Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır. Bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş bir şəbəkəyə malik olub respublikamızın bütün bölgələrini əhatə edir.

Azərbaycanın muzey işinin inkişafı XX əsrə təsadüf edir. XX əsrin əvvəllərində mədəni mühitdə dəyişikliklər, modernləşmə prosesi və milli şüurun yüksəlişi muzey işinin formalaşması üçün münbit şərait yaratmışdır. Muzeylər yalnız eksponat saxlama məkanı deyil, həm də təhsil-maarifləndirmə institutu kimi görünməyə başlamışdır. Hələ XX əsrin əvvəllərində – konkret olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) mədəni irsin qorunması və nümayişi dövlət səviyyəsində diqqətə alınmışdır. Dövlətçilik ideyalarının yüksəlişi, milli mədəniyyətin formalaşması cəhdləri muzey işi üçün də stimul olmuşdur. Bu dövrdə Azərbaycan xalqına yönəlik mədəni-tarixi kolleksiyaların yaradılması təşəbbüsləri artmışdır. 1919-cu ildə maddi mədəniyyət nümunələrinin, müxtəlif nadir əlyazma və sənət əsərlərinin toplandığı ilk dövlət muzeyi – İstiqlal Muzeyi yaradılmışdır.

Sonrakı illər ərzində Azərbaycanda yeni muzeylər fəaliyyətə başlamışdır. Bu muzeylərdə davamlı olaraq ekspozisiyalar yaradılmış, mövcud ekspozisiya və fondlar isə zənginləşdirilmişdir. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra mədəni irsin qorunması sovet hakimiyyəti tərəfindən dövlət səviyyəsində təşkil olunmağa başladı. 1920-ci ilin sentyabrında Azərbaycan Dövlət Muzeyi (sonradan Tarix Muzeyi) yaradıldı. Bu hadisə ölkədə muzeyşünaslıq elminin rəsmi başlanğıcı hesab olunur. Müzeylər və mədəniyyət müəssisələri dövlət planlaşdırması və idarəetməsi çərçivəsində formalaşdı. 1920-ci illərdə Azərbaycanda muzey şəbəkəsi yaradılmağa başlandı. Bu şəbəkənin ilkin mərhələsində əsasən tarix-diyarşünaslıq istiqamətli muzeylər formalaşdı. Muzey fondlarının toplanması, sənədləşmə işi və ekspozisiya fəaliyyətlərinə başlanıldı. Bu dövrdə muzey işi hələ elmi-metodoloji baxımdan tam formalaşmamışdı, lakin təşəbbüslər kritik rol oynadı. Formalaşma mərhələsində həm də milli mədəni şüurun yüksəlişi və ictimai-mədəni dəyişikliklər muzeyçilik fəaliyyətini stimullaşdırmışdır. Bu dövr üçün xarakterik cəhətlər muzey fondlarının əsasən təsadüfi yığımlar əsasında formalaşması, muzey işinin elmi əsaslarının hələ tam formalaşmaması, eksponatların sənədləşmə və təsnifatında vahid sistemin olmaması idi.

Sovet dövründə muzeyşünaslıq elmi dövlət siyasətinin mühüm istiqamətinə çevrildi. 1930–1950-ci illərdə Azərbaycanda bir sıra ixtisaslaşmış muzeylər fəaliyyətə başladı: Azərbaycan Dövlət İncəsənət Muzeyi (1937), Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi (1939), Azərbaycan Dövlət Təbiət Tarixi Muzeyi (1958). Bu illərdə muzeyşünaslığın nəzəri əsaslarının formalaşmasında Azərbaycan EA-nın Tarix və Etnoqrafiya institutlarının rolu böyük olmuşdur. 1940-cı illərdən etibarən muzey işçilərinin ixtisasartırma kursları və muzey metodik mərkəzləri yaradılmışdır. Muzeylərin fəaliyyətində başlıca istiqamətlər elmi-tədqiqat və ekspedisiya işlərinin genişlənməsi, muzey fondlarının planlı komplektləşdirilməsi, ekspozisiya və sərgi dizaynında metodoloji yeniliklər idi. Bu mərhələdə muzeylər milli tarix və ideologiyanın təbliği vasitəsinə çevrilsə də, eyni zamanda Azərbaycan elminin arxiv-fond bazasını zənginləşdirdi. [7, səh. 63]

1960-cı illərdən etibarən muzeyşünaslıq artıq müstəqil elmi fənn kimi formalaşmağa başladı. Azərbaycan Dövlət Universitetində (indiki BDU) “Muzey işi və arxivşünaslıq” üzrə dərslərin tədrisinə başlanıldı. Bu dövrdə muzey işinin nəzəri bazası tədqiqatlarda sistemləşdirildi, elmi terminologiya formalaşdı, “muzey eksponatı”, “fond işi”, “ekspozisiya quruluşu”, “muzey kommunikasiyası” kimi anlayışlar elmi dövriyyəyə daxil oldu. Əsas nailiyyətlər isə muzeyşünaslıq üzrə ilk elmi əsərlərin yazılması (o cümlədən M. Hüseynovun “Azərbaycan muzey işi” əsəri), regional və tematik muzeylərin artması (Gəncə, Şəki, Quba, Lənkəran və s.), muzeylərin maarifləndirici funksiyasının güclənməsi və s. olmuşdur. Bu mərhələdə muzeylər milli kimlik və tarixi yaddaşın qorunması baxımından strateji əhəmiyyət daşımağa başladı. [8, səh. 119] Ötən əsrin 70-ci illərindən etibarən respublikada muzey şəbəkəsinin inkişafı daha intensiv şəkil almış və 100-dən artıq muzey yaradılmışdır. Ölkəmizdə tarix-diyarşünaslıq muzeyləri, görkəmli tarixi şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimlərinin ev muzeyləri, xatirə muzeyləri təşkil edilmişdir.

Azərbaycanın zəngin tarixi keçmişini və mədəniyyətini özündə yaşadan muzeylərə Ümummilli lider Heydər Əliyev daim xüsusi qayğı göstərmişdir. Heydər Əliyevin xalqımızın maddi və mənəvi dəyərlərinə diqqəti sayəsində respublikada muzey işi yüksələn xətlə inkişaf etmişdir. Məhz onun təşəbbüsü ilə 1969-cu ildə “Respublikada muzey işinin yaxşılaşdırılması haqqında” qərar qəbul edilmişdir. Bu sənəd ölkəmizdə muzeylərin inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə, onların şəbəkəsinin genişləndirilməsinə təkan vermişdir. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər görkəmli simalarının memorial-xatirə və ev muzeyləri məhz onun iradəsi ilə yaradılmışdır.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi muzeyşünaslığın keyfiyyətcə yeni mərhələyə keçidini təmin etdi. Bu dövrdə muzey işi artıq milli mədəniyyət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirildi. 1998-ci ildə “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olundu və orada muzeylərin fəaliyyət prinsipləri hüquqi cəhətdən tənzimləndi. [1] Bu mərhələdə muzeylərin maddi-texniki bazası yeniləndi, beynəlxalq təşkilatlarla (UNESCO, ICOM, ICOMOS) əməkdaşlıq quruldu, rəqəmsal muzey fondlarının yaradılmasına başlanıldı. Ən mühüm hadisələrdən biri 1992-ci ildə yaradılmış Azərbaycan Milli İncəsənət Muzeyinin

yenidən qurulması və Qarabağ Muzeyinin fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi idi. Muzeylərin fəaliyyətinə xüsusi diqqət yetirən Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə muzey işinin müasir prinsiplər əsasında inkişaf etdirilməsi məqsədilə 24 mart 2000-ci il tarixində "Muzeylər haqqında" Qanun qəbul edilmişdir. Bu qanun Azərbaycan Respublikasında muzeylərin fəaliyyətinin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir, onlarla bağlı münasibətləri tənzimləyir.

XXI əsrdə Azərbaycanda muzeyşünaslıq elmi rəqəmsal texnologiyalar, elektron arxivlər və interaktiv ekspozisiyalarla zənginləşmişdir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə 2010-cu ildən etibarən "Muzey işi üzrə milli standartlar" hazırlanmış, muzey fondlarının elektron qeydiyyat sistemi tətbiq olunmağa başlamışdır. 2020-ci illərdən etibarən rəqəmsal ekspozisiya və virtual muzey platformaları (məsələn, Azərbaycan Milli Tarix Muzeyinin onlayn ekspozisiyası) fəaliyyətə başlamışdır. Müasir mərhələdə əsas tendensiyalar muzey eksponatlarının 3D skanlaşdırılması, elektron kataloqların yaradılması, gənc muzeyşünasların hazırlanması və tədrisin Bolonya sisteminə inteqrasiyası, qlobal muzey assosiasiyalarında Azərbaycanın təmsil olunmasıdır. Bu mərhələ Azərbaycan muzeyşünaslığının elmi və texnoloji baxımdan beynəlxalq səviyyəyə yüksəldiyini göstərir. [3, səh. 88]

Muzeylərin qorunub saxlanılması və milli irsimizin təbliği siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan muzeyləri millidəyərlərimizin, milli irsimizin mühafizəsini həyata keçirir və ideoloji məkan olaraq azərbaycançılıq məfkurəsini uğurla təbliğ edir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 6 mart 2007-ci il tarixində imzaladığı "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" Sərəncamından sonra ölkəmizdə muzey işinin inkişafı geniş vüsət almışdır. 22 may 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı" bu sahənin hüquqi bazasının formalaşdırılmasına, dünyanın nüfuzlu muzeyləri ilə əlaqələrin genişləndirilməsinə yol açmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində son 20 ildə ölkəmizdə yeni muzeylərin yaranması mədəni quruculuğun inkişafına təkan verməkdədir. [2]

Azərbaycan Milli Xalça muzeyinin yeni binasının inşası, Azərbaycan Milli İncəsənət muzeyinin binasının əsaslı təmiri, görkəmli şəxsiyyətlərin ev muzeyinin yaradılması, işğaldan azad olunmuş şəhər və rayonlarda İşğal və Zəfər muzeylərinin yaradılması və vaxtilə mövcud olan muzeylərin bərpası haqqında sərəncamlar muzey işinin inkişafında xüsusi ilə qeyd olunmalıdır. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən mütəmadi olaraq muzeylərin cari və əsaslı təmiri, ekspozisiyasının bədii tərtibatı, maddi-texniki bazasının yaxşılaşdırılması üçün işlər aparılır. [2]

Müasir dövrdə muzeylər mədəniyyətin yaranması, formalaşması və inkişafı tarixinin öyrənilməsi, retrospektiv məlumatların yayılması, tədris fəaliyyətinin məzmunu və formalarının zənginləşməsi faktorları içərisində xüsusi yer tutur. Muzeylər sosial yaddaşın və nəsillərin davamlılığının qorunması üçün əsas missiyanı öz öhdəsinə götürmüş təsisatlardır. Gənc nəsildə vətənə sevgi, onun tarixinə hörmət hissi aşılamaq cəmiyyət üçün xüsusilə vacibdir. Bu baxımdan da muzeylər gənclərin vətənpərvərlik tərbiyəsində həlledici əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu (1998). Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №5, maddə 310.
2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi. (n.d.), Retrieved October 28, 2025, from https://culture.gov.az
3. Cəfərova N. Muzeyşünaslıq və rəqəmsal mədəniyyət. Bakı: ADMİU nəşriyyatı, 2022.
4. Əmirxanov S. Muzeyşünaslıq: tədris-metodiki vəsait. Bakı: Bakı Biznes
5. Universiteti, 2012, 111 səh.
6. Həsənov M. Muzeyşünaslığın əsasları. Bakı: Bakı Universiteti nəşriyyatı, 2010.
7. Qurbanova E. Muzeyşünaslığın inkişafına dəyərli töhfə. "Mədəniyyət" qəzeti , 20 may 2009.
8. Quliyev S. Azərbaycan muzeylərinin inkişaf tarixi. Bakı: Nafta-Press, 2008.
9. Rüstəmova L. Mədəni irsin təsnifatı və müasir problemləri. Bakı: Təhsil, 2013.

Vagif Zaur Rzayev
master,
Nizami Jalal Maharramov
doctor of philosophy in philology, associate professor,
Ramil Bahman Kazimov
senior lecturer,
Azerbaijan Cooperation University

Museum studies in Azerbaijan: history, theory and stages of development

Summary

The science of museology is a scholarly and intellectual system engaged in the collection, preservation, research, and public presentation of cultural heritage. In Azerbaijan, museology began to take shape in the early 20th century, reached the stage of institutional development during the Soviet period, and in the modern era has been renewed in accordance with international standards. This process is characterized not only by the increase in the number of museums but also by the strengthening of the scientific, legal, and technological foundations of museological studies. Museology in Azerbaijan holds strategic significance in terms of preserving national identity, promoting historical heritage, and implementing cultural diplomacy.

Вагиф Заур оглы Рзаев
магистрант,
Низами Джалал оглы Магеррамов
доктор философии по филологии, доцент,
Рамиль Бехман оглы Казымов
старший преподаватель,
Азербайджанский Университет Кооперации

Музееведение в Азербайджане: история, теория и этапы развития

Резюме

Наука музееведения представляет собой научно-интеллектуальную систему, занимающуюся сбором, сохранением, исследованием и представлением культурного наследия обществу. В Азербайджане музееведение начало формироваться в начале XX века, в советский период достигло этапа институционального развития и в современную эпоху было обновлено в соответствии с международными стандартами. Этот процесс характеризуется не только увеличением количества музеев, но и укреплением научных, правовых и технологических основ музееведения. Музееведение в Азербайджане имеет стратегическое значение с точки зрения сохранения национальной идентичности, популяризации исторического наследия и реализации культурной дипломатии.

Aypara Natiq qızı BABAYEVA
magistrant,
Fərrux Məmməd oğlu MƏMMƏDOV
filologiya üzrə fəlsəfə doktoru, dosent,
Bakı Slavyan Universiteti

HÜSEYN ABBASZADƏ HEKAYƏLƏRİNDƏ TƏSVİR OLUNAN MÜXTƏLİF MÖVZULAR

Dahi Azərbaycan yazıçısı Hüseyn Abbaszadənin irsi özünün məzmunu və ideyası baxımından tədqiqatçıların diqqətini cəlb edir. Şairin ilkin gənclik çağları bəşəriyyətin bəlası olan müharibə illərinə təsadüf eləmişdir.Onun yaradıcılığı Birinci Dünya müharibəsinin insan həyatına olan təsirini daha aydın əks etdirir. Həmçinin, yazıçının hekayələri tərbiyəvi xüsusiyyətləri, sadə dillə

yazılması və real həyat hadisələrinə uyğunluğu ilə müasir dövrdə oxucuların diqqətini cəlb edir. Abbaszadənin hekayələrində bəzən gündəlik həyat hadisələri vasitəsilə böyük mənəvi dərslər verilir. Onun qəhrəmanları adətən sıravi insanlardır – müəllimlər, kənd sakinləri, gənclər və yaşlılar. Bu obrazlar vasitəsilə cəmiyyətin müxtəlif təbəqələri əks etdirilir.

"Uçurumdan keçən yol", "Təsəlli", "Meynə", "Dağ dağa rast gəlməz", "Ocaqçı", "Çəmbərəkənd balladası", "Köhnə sandıq" və s. hekayələri həm də didaktik xarakter daşıyır. Hüseyn Abbaszadənin nəsri məişət həyatının sadə, xalq danışıq dili ilə təsviri baxımından ciddi əhəmiyyət daşıyır. Hər bir obraz (Nahid və Səfi, Badam xala və Fərəc dayı, Azər, Südabə, Vüqar və əmisi Əli və b.) özünün sadəliyi, cəmiyyətdəki mövqeyi, müharibədəki qəhrəmanlıqları, saf məhəbbəti, bəzən də bir çox səhvləri ilə təqdim olunur. Obrazlar özlərinin doğru və yanlışlarının ifadəçisinə çevrilir.

Hüseyn Abbaszadənin "Uçurumdan keçən yol" hekayəsində iki dost – Nahid və Səfinin maraqlı yoldaşlıq yolundan söz açılır. Qaradağ mədənlərindəki işlərindən üç günlük icazə alan iki dost kəndə toya gəlmişdilər, bu toy sayəsində onlar artıq həm də qohum oldular. İllərdir bütün qayğıları birgə çəkən iki dost dördüncü gün səhər tezdən işdə olacaqlarına söz vermişdi. Lakin hava şəraiti, şiddətli yağış çayın üstündəki köhnə körpünü uçurmuş, bu isə onlar üçün Bakıya qayıtmağa böyük maneə yaratmışdı. Nahid köhnə cığır axtarışında idi ki, çayı keçməyin bir yolunu tapsın. Səfi isə bir gün gecikməklə heç bir problemin olmayacağına dostunu inandırmağa çalışırdı. O, geri qayıtmağın tərəfdarı idi. Lakin Nahid çətinliklə də olsa, çayı keçib yolun digər tayında sahilə çıxmağı bacardı. Səfi isə geri qayıtmalı idi. Nahid geriyə dönüb dostuna əl etmək istədikdə, dostunu görə bilmədi. Artıq dostu da çaya düşüb maneələrlə mübarizə aparmağa başlamışdı. Hekayə beləcə tamamlanır. Əslində tam nəticə hissəsi yazıya alınmır, yazıçı bu hissəni oxucu duyğularının qələminə buraxır. Bu cür yaxşı dostluqdan təsirlənən oxucu artıq Səfinin dostunu yalnız buraxmayacağına əmin olur. Heç bir problem yoldaşla yolunu ayırmağa səbəb ola bilməz. Sadə və anlaşıqlı bir üslubda yazıya alınan hekayədə yazıçının əsas məqsədi bu fikri çatdırmaqdır. Hüseyn Abbaszadənin "Uçurumdan keçən yol" hekayəsi sadə dildə yazılmış, həcmcə kiçik bir hekayədir. Yoldaşını yarı yolda qoymayan Səfi obrazı isə örnək aşılayacaq xüsusiyyətlərə sahibdir. Bu hekayə ifadə etdiyi yüksək mənəvi dostluq dəyərlərinə görə məktəblilərin sevimli hekayəsidir.

Müəllifin "Təsəlli" hekayəsi mənəvi duyğulu, tərbiyəvi əsərdir. Hekayədə baş obrazlar Badam xala və Fərəc Məzahirdir. Onlar illərdir evlidilər. Fərəc ömrünün böyük hissəsini teatr sənətinə həsr edib, evindən bu peşəyə aid çoxlu monoqrafik materiallar toplayıb. Ömrünün ahıl yaşında xəstələnib, Badam xala isə onun hər cür qayğısını çəkir. Hekayənin əsas hissəsində Fərəcin artıq vəziyyəti pisləşir, yatağından qalxmır, Badam xala isə Fərəcin köhnə dostunu taparaq, ona zəng etməsini, bəzi sənədləri ondan almalı olduğunu deməsini xahiş edir. Köhnə dostun zəngi Fərəci ayağa qaldırır. Bu hadisə onların bir-birinə göstərdiyi əvəzsiz sevgi və qayğının illər sonrakı halını göstərir.Oxucu bu kiçik hekayədə böyük məhəbbətin heyranı olur. Badam xala və Fərəc dayı əməlləri ilə həm insani keyfiyyətlərini, həm də böyük sevgilərinin tükənməz olduğunu göstərirlər. Böyük ehtimal ki, məhz bu obrazlar da H. Abbaszadənin real həyatda görüb heyranlıq duyduğu hadisələrdən bir parçadı.

Hüseyn Abbaszadə "Köhnə sandıq" hekayəsini cəbhədə həlak olan dostu İskəndərzadə Əlinin xatirəsinə həsr edib. Yeni ev xəyalı ilə yaşayan Vüqar və anasının "köhnə sandığ" a olan münasibətləri maraq doğurur. Açılan sandığın içində məhz həyatını müharibədə qurban vermiş Əlinin toyu üçün alınan əşyalar, Əlinin cəbhədən gələn məktubları və Əliyə yazılan məktublar vardı. Bu hekayədə həm də müharibə əziyyətləri, faciələri, qurbanları qeyd olunur. Əlinin məktubunda qeyd olunan cümlələr oxucuda müharibə şəraiti üçün xüsusi bir iftixar hissi oyadır: "Anacan, bu gün iki məktub aldım, birini Bakıdan Sona ilə səndən, o birini Şükürdən. Çox sevindim, arxayın oldum ki, hamınız sağ-salamatsınız. Məndən nigaran qalma. Bilirəm bizim fikrimizi çəkirsən. Davaya iki oğul yola salan təkcə sən deyilsən ki. İndi çox anaların gözləri yollara dikilib. Darıxma, anacan,bu ayrılıq uzun sürməz,tezliklə görüşərik..."(H.Abbaszadə, 2006:63).

"Siz kimsiniz?" hekayəsində Nəcibə adlı qızın təhsil sevgisindən, iş bacarığından söz açılır. Müdirinin ölüm xəbərini eşidən Nəcibəni böyük bir kədər bürüyür, o, bəlkə də, Səlim Əhmədliyə qəlbində gizli bir sevgi bəsləyirdi. Əslində bu hekayə insan duyğularının şüurlu idarə olunmadığını, məhəbbətin azad olduğunu ifadə edir.

Hüseyn Abbaszadənin hekayələrində köhnə Bakı təsvirləri, buradakı evlərin interyeri, küçələrin adları özünün reallığı ilə təsvir olunub. İçərişəhərin bir çox küçəsi əvvəlki adı ilə qeyd olunub. Köhnə Bakı səmimiyyəti yazıçının hekayələrində hiss olunur. Həmçinin ikinci dünya müharibəsinin bir çox döyüşləri ilə bağlı məlumatlar da öz reallığı ilə qələmə alınıb. Müharibə mövzulu əsərlərin qəhrəmanları real insanlardır, yazıçı öz qəhrəmanını xalqın arasından sadə insanları seçərək, onların ağrı-acılarını təsvir etmişdir.

H. Abbaszadə sadə gündəlik hadisələrdən belə dərin fəlsəfi və sosial mesajlar çıxarmağı bacarır. Hekayələrində obrazlar çox canlıdır, oxucu sanki onların düşüncələrinə və hisslərinə yaxın olur. O, yazı üslubu qısa və konkret cümlələrlə oxucunu dərhal hekayənin içinə çəkir. Hüseyn Abbaszadə həm də tarixi və sosial mövzuları incə toxunuş, yazıçı qələminin zərifliyi və dolğunluğu ilə təsvir edir. Müharibədən yazarkən, bəlkə də, reallığı təsvir etmək daha rahatdır, amma hər hekayədə bir ümid işığı və mübariz sonluq göstərmək, açılan yaralara təskinlik vermək dahi yazıçının məharətidir. Sadəcə bu mövzuda deyil, H. Abbaszadə hansı mövzuya müraciət edirsə etsin, orada pessimizm ilə mübarizə aparır, qəhrəmanlarına mənəvi bir qələbə sevinci yaşadır. Yazıçı sanki reallıqda yaşada bilmədiklərini əsərlərində yenidən canlandırıb, insanlara kömək əlini uzadır. Onların kağız üzərində tale yazarı olur.

Yekun olaraq, Hüseyn Abbaszadə Azərbaycan nəsrinin dəyərli nümayəndələrindən biridir. Onun qələmindən axan hekayələrində müharibə dövrünün ağrı-acılarını, insanın mənəvi aləmini və gündəlik həyatın sadə, lakin dərin mənalı hadisələrini əks etdirir. Yazıçının "Uçurumdan keçən yol", "Təsəlli", "Köhnə sandıq" və s. kimi hekayələri dostluq, sevgi, fədakarlıq və insana hörmət kimi dəyərləri tərənnüm edir. Abbaszadə qəhrəmanlarını xalqın içindən seçir və onların həyatını xalq danışıq dili ilə, səmimi üslubda təsvir edir. Onun əsərləri tərbiyəvi və bəşəri məzmun daşıyır, oxucunu saf duyğulara, vicdana və mənəvi bütövlüyə çağırır. Müəllifin nəsri həm dövrün reallıqlarını, həm də insanlığın əbədi dəyərlərini özündə birləşdirir. Hüseyn Abbaszadənin yaradıcılığı Azərbaycan ədəbiyyatında sadəliyi, səmimiyyəti və dərin mənəvi təsiri ilə seçilir.

ƏDƏBİYYAT

1. Abbaszadə H. İ. Ədəbiyyat və zaman. - Bakı, Şərq-Qərb nəşriyyatı, 2004.-215 s.
2. Abvaszadə H. İ. Güzgü və kölgə: hekayələr və povestlər. - Bakı, "Qanun" nəşriyyatı, 2010.-192 s.
3. Əliyeva S. M. Hüseyn Abbaszadə əsərlərində obrazlar sistemi. - Bakı, BDU, 2016.-78 s.
4. Qasımzadə M. A. Müasir Azərbaycan nəsrində ideya-bədii axtarışlar. - Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2008.-268s.

Айпара Натиг кызы Бабаева
магистрант,
Фаррух Мамед оглы Мамедов
доктор философии по филологии, доцент,
Бакинский Славянский Университет

Темы, описанные в рассказах гусейна аббасзаде

Резюме

В произведениях Гусейна Аббасзаде тема войны тесно связана с человеческими судьбами и идеями патриотизма. В его произведениях главное место занимают не столько сцены сражений, сколько следы, оставленные войной в душах людей. Писатель раскрывает внутренний мир своих героев и показывает моральную трагедию войны. С помощью этой темы Аббасзаде не только сохраняет историческую память, но и стремится донести до читателя ценность мира.

Aypara Natig Babayeva
master,
Farrukh Mammad Mammadov
doctor of philosophy in philology, associate professor,
Baku Slavic University

Various themes depicted in Huseyn Abbaszadeh's stories

Summary

In the stories of Huseyn Abbaszadeh, the theme of war is closely connected with human destinies and ideas of patriotism. In his works, the main place is not so much the scenes of battle, but the traces left by war in the souls of people. The writer reveals the inner world of his heroes and shows the moral tragedy of war. With this theme, Abbaszadeh both preserves historical memory and tries to make the reader understand the value of peace.

Aysu Rövşən qızı HÜSEYNOVA
magistrant,
Nigar İlham qızı BÜNYADOVA
filologiya üzrə fəlsəfə doktoru,
Bakı Slavyan Universiteti

İLYAS ƏFƏNDİYEVİN HEKAYƏLƏRİNDƏ MÜBARİZ QADIN OBRAZLARI

Azərbaycan nəsrində silinməz iz qoyan İlyas Əfəndiyev qadınlara yönələn yenilikçi baxışları ilə ədəbiyyatımıza təravət və dərinlik gətirmişdir. Onun hekayələrində qadın qəhrəmanlar yalnız ev və ailə mühitində deyil, həm də ictimai, mənəvi və yaradıcı aləmdə görkəmli yer tutur. Əfəndiyevin qələmində qadın bəzən elm və sənət eşqilə yaşayan, bəzən sədaqət və fədakarlıq timsalına çevrilən, bəzən də həyatın ağır sınaqlarında öz daxili gücünü nümayiş etdirən bir varlıq kimi təqdim olunur. Bu surətlərdə həm zəriflik, həm də möhkəmlik, həm duyğu, həm də iradə yan-yana dayanır. Yazıçının yaratdığı qadın surətləri bir tərəfdən milli ənənələrin qoruyucusu, digər tərəfdən dəyişən dövrün yeni dəyərlərinin daşıyıcısıdır. Onlar öz fərqli taleləri ilə bütöv bir bədii panoramı formalaşdırır: sənətə can atan yaradıcılıq aşiqləri, ailə səadətini hər şeydən üstün tutan fədakar qadınlar, övladını qorumaya çalışan analar və həyatın mürəkkəb labirintlərində duyğularının sınağından keçən qəhrəmanlar… Bu müxtəliflik Əfəndiyevin nəsrini yalnız qadın obrazlarının zənginliyi ilə deyil, həm də onların iç dünyasını bədii estetik güclə təqdim etməsi ilə ədəbiyyatımızda seçilən hadisəyə çevirir. İlyas Əfəndiyevin fərqli qadın obrazlarının yer aldığı xeyli hekayəsi onun müxtəlif illərdə yazdığı kitablarının məhsuludur. Bunlardan onun ilk kitabı olan "Kənddən məktublar" 1939-cu ildə çap olunmuşdur. "Kənddən məktublar" kitabından "Qızbəs xala" hekayəsi bu ildə, bu mövzuda yazılmış əsərdir. 1945-ci ildə çap olunan "Aydınlıq gecələr" adlı kitabında yer alan hekayələrini də nümunə göstərmək olar. Bu kitabdakı qadın obrazlarına isə onun "Gözlənilməyən sevgi", "Apardı sellər Saranı", "Yarımçıq qalmış portret haqqında mahnı", "Qarı dağı" hekayələrində rast gəlinir. "Sən ey böyük yaradan" kitabından "Yusif və Esfir" hekayəsinə də xüsusi yer verilmişdir. Müxtəlif illərin hekayələri sırasına daxil olan "Qərhəmanımın nişanlısı", "Daş hasar" əsərləri də bu motiv əsasında yazıya alınmışdır (4).Bu əsərlər içərisində İlyas Əfəndiyev müasir ruhlu, təhsil almış, müəyyən bir peşəyə məxsus qadın obrazlarını canlandırmışdır. Bunlara ilk nümunə "Gözlənilməyən sevgi" hekayəsidir və 1939-cu ildə yazılmışdır. Əsərdə darülfünunda təhsil alan, savad və istedadları ilə fərqlənən iki tələbənin bir-biri ilə əvvəlcə mübahisəli, rəqabətli başlayan münasibətlərinin illər sonra gözlənilməyən sevgiyə çevrilməsi bədii ustalıqla qələmə alınmışdır. Əsas qəhrəmanlardan biri olan Həsən - ucaboylu, arıq, şux geyimli, lakin olduqca çirkin biridir. Əsərimin digər əsas qəhrəmanı isə Gülara obrazıdır. Gülara isə Həsəndən fərqli olaraq, çox gözəl bir qız idi. İlyas Əfəndiyevin yaratdığı Gülara obrazı zərif, gözəl və cazibədar bir qız kimi təqdim olunur. Onun iri, qara gözləri baxışları ilə cəlb edir, nazik dodaqlarında isə daim gülüş izləri dolaşırdı. Gülara həyatda hər işdə birinci olmağa can atan, qətiyyətli və

inadkar bir xarakter daşıyırdı. Çətin məsələlər qarşısında geri çəkilmir, saatlarla əlləşərək həll yolunu tapmağa çalışırdı. Lakin Həsənin fitri istedadı qarşısında tez-tez məğlub olurdu – o, Gülaranın saatlarla düşündüyünü bir neçə dəqiqədə həll edir, bu da Gülaranı həm hiddətləndirir, həm də daha çox çalışmağa vadar edirdi. Gülara ilə Həsən arasında gizli rəqabət daim davam edir, bu rəqabət tədricən Gülaranın xarakterində təzadlı hisslər oyadırdı. Zaman keçdikcə Gülara əvvəlki od-alovlu inadından uzaqlaşır. Onun baxışlarında kədər qarışıq mülayimlik peyda olur, birincilik uğrunda çarpışan qız yavaş-yavaş sakitləşirdi. Əslində, bütün bu dəyişimin arxasında gizli bir həqiqət dayanırdı: Gülara Həsəni sevməyə başlamışdı. O, uzun daxili mübarizədən sonra bu hisslərini gizlətməyib Həsənə məktub yazır. Məktubunda Həsənə olan sevgisini etiraf edir. Həsən isə məktubu oxuyanda təəccüb içində qalırdı. Çünki özünü heç vaxt yaraşıqlı hesab etməmiş, Gülara kimi gözəl bir qızın ona baxacağına inanmamışdı. Lakin illər keçdikdən sonra taleyin yolları onları yenidən birləşdirdi. Darülfünunu bitirdikdən bir neçə il sonra, Bahadır təsadüfən Həsənin evinə qonaq gəlir və orada Həsənin ailəsi ilə tanış olur. Kiçik bir oğlan atasına sarılır, qapıda isə gənc, uca boylu, ağbəniz və gülərüz bir qadın görünür. Bu qadın illərin arxasından gələn Gülara idi. Beləcə, bir vaxtlar rəqabətlə başlayan hekayə sevgi ilə tamamlandı. Gülara yalnız gözəlliyi və çalışqanlığı ilə deyil, həm də qəlbinin dərinliyində gizlətdiyi sevgi və sadiqliyi ilə yadda qaldı. Onun obrazı həm gərgin rəqabətin, həm daxili dəyişimin, həm də saf məhəbbətin simvoluna çevrildi.

İlyas Əfəndiyevin "Yarımçıq qalmış portret haqqında mahnı" hekayəsi 1943-cü ildə qələmə alınmışdır. Əsər müharibənin insan talelərinə vurduğu yaraları, eyni zamanda məhəbbət və sədaqətin qüdrətini əks etdirir. Burada Elmar və Güllər obrazları üzərində müəllif həm fədakarlığı, həm də ümidsizliyi göstərir. Lakin əsərdə daha çox ön plana çıxan və hekayənin emosional yükünü daşıyan Güllər obrazıdır. Güllər əsərdə sədaqətin, dözümlülüyün və məhəbbətin simvoludur. Onun üzərinə ağır bir həyat yükü düşsə də, o, ərinə dayaq olmaqdan çəkinmir. Həkimin acı xəbərini eşitdiyi an – Elmarın bir daha görməyəcəyini – Güllərin gənc qəlbinə vurulan ilk böyük zərbə idi. Lakin o, bu həqiqəti ərindən gizlədərək, həyat yoldaşına ümid verməyi özünə borc bildi. Müəllif Gülləri yalnız fədakar bir qadın kimi yox, həm də ruhən gözəl, mənən güclü bir obraz kimi yaradır. Güllərin cəmi on doqquz yaşı vardı, amma ömrünün yükü yaşından qat-qat ağır idi. Gəncliyin çiçəklənən çağında o, qadın sədaqətinin, həyatın acı sınaqlarının bütün ağırlığını çiynində daşıyırdı. O, Elmarın kədərini unutdurmaq üçün yeni yollar axtarır – paltar tikir, ona xoş sürprizlər hazırlayır, pianinonun sədaları ilə ərinin ruhuna işıq saçır. Lakin Elmar düşdüyü vəziyyətlə barışa bilmir. Elmar korlar evinə belə getməyi düşünür. Həmçinin, Elmarın rəsm otağında yarımçıq qalan portret də bir növ onun yarımçıq qalmış duyğularından xəbər verirdi. " – Doğrudanmı, onun gözlərinə çökmüş qaranlığın sonu yoxdur? Doğrudanmı, hər şey bitmişdir?

O, buna ianmırmış kimi, çevrilib Elmarın otağına getdi. Divar boyu vurulan ağ parça üzərində rəsm edilmiş gənc qadın ona baxaraq gülümsəyirdi. Bu, onun özü idi. Lakin portret tamamlanmamış, Elmarın müharibəyə getməsi ilə yarımçıq qalmışdı."(2, s. 34)

Əsərdə pianino sədaları bir bədii detal kimi təqdim olunur: Güllərin musiqisi Elmarın qəlbində yenidən həyat eşqi oyadır, ona unutmaq istədiyi xatirələri sevgi ilə xatırladır. Güllərin fədakarlığı yalnız gündəlik qayğıda deyil, həm də daxili aləmdə özünü göstərir. O, Elmarın dərdini öz dərdinə çevirir, amma heç vaxt ümidsizliyə qapılmır. Onun sədaqəti, sevgisi və həyat eşqi əsərin əsas estetik xəttini təşkil edir. Beləliklə, Güllər obrazı İlyas Əfəndiyevin bədii ustalığının ən parlaq nümunələrindən biridir. Müəllif bu obraz vasitəsilə göstərir ki, müharibə insanın cismini yaralaya bilər, amma sevgi və sədaqət həyatın ən ağır anlarını belə işıqlandıra bilir. Əsərin sonunda Güllərin bəstəkar kimi təqdim olunması, onun "Yarımçıq qalmış portret haqqında mahnı"-sı həyatın bütün ağrı-acısını sənət və sevgi ilə tamamladığının sübutudur.

İlyas Əfəndiyevin "Daş hasar" hekayəsi gənc qadının arzuları, həyatın çətinlikləri və ailə məhdudiyyətləri ilə mübarizəsini əks etdirir. Əsər həm taleyin sərtliyini, həm də insanın daxili dünyasının zənginliyini göstərir. Firəngiz gənc, arzulu və həyat eşqi ilə dolu bir qadındır. O əvvəlcə rəssam, yazıçı və bəstəkar olmağı xəyal edir, lakin zamanla anlayır ki, bu istedadlar onda yoxdur. Bunun ardından o, artist olmağı düşünür və valideynlərinin razılığı olmadan İncəsənət İnstitutunun aktyorluq fakültəsinə ərizə verir, amma imtahandan kəsilir. Atasının təklifi ilə statistika idarəsində işə başlayır, amma bu iş ona maraqlı gəlmir. Növbəti yay Fərəngiz filologiya fakültəsinə müraciət

edir, müasir ruhlu bir tənqidçi olmağı arzulayır, amma bunda da müvəffəqiyyətsiz olur. Sonra, valideynlərinin təzyiqi ilə Xalq Təsərrüfatı İnstitutunun gecə şöbəsinə daxil olur. Beləliklə, o, gündüzlər sevmədiyi statistika idarəsində işləyir, gecələr isə sevmədiyi institutda təhsilini davam etdirir. Həyatını istədiyi kimi qura bilməsə də, sədaqətli və fədakar olur, ərinin yaradıcılığı onun üçün ön plana çıxır və o, öz arzularını ərinin işinə həsr edir. Əsərin adını da əks etdirən bağ evindəki "daş hasar" - məhdudiyyətləri və onun daxili sıxıntısını simvolizə edir. Ana olanda isə özünü övladına həsr edir, oğlunun gözlərində özünü görərək diqqət və məhəbbətlə ana olmağı öyrənir. Firəngiz obrazı əsərdə həm arzuların, həm fədakarlığın, həm də həyatın sərt reallıqları ilə mübarizənin simvoluna çevrilir. Firəngiz obrazı belə göstərir ki, arzular və reallıq bəzən ziddiyyət təşkil edir, amma o, hər halda dözümlü, məqsədyönlü və həyatda öz yolunu tapmağa çalışan bir qadındır.

İlyas Əfəndiyevin əsərlərində qadın obrazları təkcə həyatın müxtəlif sahələrində öz varlıqları ilə deyil, həm də ana kimi təcəssüm edərək oxucunun qəlbində xüsusi bir ucalıq qazanır. Bu analar həyatın ağır sınaqlarından sınmadan çıxır, xalqın varlığına dayaq olur, müqəddəsliyini və mübariz ruhunu gələcək nəsillərə ötürürlər.

İlyas Əfəndiyev 1944-cü ildə "Qarı dağı" hekayəsini qələmə alır. Məzmun qaynağını "Kitabi-Dədə Qorqud"-dan alan bu hekayə xalqımızın yadelli işğalçılara qarşı mübarizəsini özündə ehtiva edir. Yazıçı əsəri elə bir yüksək bədii ustalıqla işləyib ki, oxucu yalnız oxumur, həm də hər hissi yaşayıb onun sehrinə düşür. Əvvəlcə hekayənin adı üzərində dayanmaq gərəkdir. "Qarı dağı" sadə bir söz birləşməsi kimi görünsə də, əslində özündə dərin mənalar gizlədir. "Qarı dağı" həm ilkin mənada, həm də mətnaltı səviyyədə xalqın yaşadığı ağrıların, qocaman yaddaşının, iztirabdan ucalığa çevrilən mənəvi dağının poetik təcəssümüdür (4, s.7). İlyas Əfəndiyevin "Qarı dağı" hekayəsində Ballı Qarı obrazı xalq müdrikliyinin, əzabdan yoğrulmuş dözümün və ana fədakarlığının simvolu kimi təqdim olunur. O, qoca bir qadın olsa da, ürəyində elə bir mərdlik və təmənnasızlıq daşıyır ki, məhv olmuş şəhərin son nəfəsi, dağıdılmış ocaqların son ümidi kimi dirənib qalır. Ballı Qarının hər sözü qədim bir yurdun yaddaşı, hər baxışı isə xalqın çəkdiyi iztirabların təcəssümüdür. O, həm də ana mərhəmətinin bədii timsalıdır. Şahın bütün qəddarlığına baxmayaraq, düşmənin oğluna şəfa gətirməyə razı olur – çünki ana ürəyi sərhəd tanımır. Amma bu mərhəmət eyni zamanda ədalətin qılıncına çevrilir: Ballı Qarının əli ilə zalım şah və onun varisi məhv olur. Beləcə, yazıçı Ballı Qarını həm mərhəmətli ana, həm də tarixi ədalətin carçısı kimi təqdim edir. O, ağrıları ilə dağa dönən, lənətlər içində ucalan, xalqın göz yaşından yaranan bir simvola çevrilir. Ballı Qarı – həm həyat verən, həm də haqqın intiqamını alan Azərbaycan anasıdır.

İlyas Əfəndiyevin "Qızbəs xala" hekayəsi kənd həyatının sadəliyini, insan münasibətlərinin səmimiyyətini və qadın xarakterlərinin dərinliyini əks etdirən nümunələrdəndir. Yazıçı bu əsərdə adi bir kənd qadınını böyük mənəvi aləmi, dözümü və saf qəlbi ilə oxucunun gözləri önünə gətirir. Qızbəs xala obrazı ilk növbədə zəhmətsevər və qonaqpərvər bir qadın kimi təsvir olunur. O, evinə gələn qonağı doğması kimi qarşılayır, süfrəsini açır, öz zəhmətinin bəhrəsini əsirgəmir. Onun sadəliyi və təvazökarlığı həyatına hopmuşdur, çətinliklərə baxmayaraq heç vaxt şikayətlənmir, hər şeyi təbii qarşılayır. Səmimiyyəti və təmiz qəlbi hər sözündə, davranışında hiss olunur, müdrikliyi isə taleyin ağır yükünü səbir və dözümlə daşımasında təcəssüm tapır. Əsərdə Qızbəs xala həm də məğrur ana obrazı kimi təqdim edilir. Onun bir oğlu kor olmuş, digər iki övladı isə vəfasız çıxaraq ananı tək buraxmışdır –böyük oğlu evlənərək arvad evinə köçmüş, kiçik oğlu isə şəhərə gedir. Amma bütün bunlara baxmayaraq Qızbəs xala heç vaxt övladlarını pisləmir, əksinə, "eybi yoxdur, onlar da mənim balamdır" deyə yenə də analıq məhəbbətini uca tutur. Özünü hər çətinliyə baxmayaraq övladlarına dayaq sayır, onları qorumağı və yaşatmağı özünə borc bilir. Beləliklə, Qızbəs xala obrazında İlyas Əfəndiyev kənd qadınının zəhmətini, sadəliyini, səmimiyyətini, analıq məğrurluğunu və insanlıq ucalığını ustalıqla canlandırmışdır.

İlyas Əfəndiyevin yaradıcılığında qadın obrazları həm məhəbbətin, sədaqətin, fədakarlığın, həm də mübarizliyin bədii ifadəsinə çevrilir. Onun hekayələrində qadınlar müxtəlif xarakterlərdə təqdim olunur: bəzən arzularının arxasınca gedən, bəzən həyatın ağır yükünü daşıyan, bəzən də ana qayğısı və mərhəməti ilə ucalan qəhrəmanlar kimi. Yazıçı qadın taleləri vasitəsilə həm fərdi psixoloji aləmi, həm də xalqın mənəvi dəyərlərini canlandırır. Beləcə, Əfəndiyevin qadın obrazları ədəbiyyatımızda həm estetik gözəlliyi, həm də mənəvi gücü ilə seçilən parlaq bədii nümunələrdir.

ƏDƏBİYYAT

1. Əfəndiyev İlyas. Seçilmiş əsərləri, Üç cilddə. I cild. Bakı, "AVRASİYA PRESS", 2005. - 280 s.
2. Əfəndiyev İlyas. Seçilmiş əsərləri 7 cilddə, 1-ci cild. Bakı, "ÇİNAR-ÇAP" Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2002. - 448 s.
3. Əfəndiyev İlyas. (Yaddaş kitabçası) / tərt. B.Ələsgərov, A.Koçak; ixtisas red. K.Tahirov; ön söz. Ş.Alışanlı. – Bakı, 2023. – 104 səh.
4. https://tigindergisi.com.tr/Makaleler/004dce12-53ad-4063-aa01-24d8d7457fc4.Pdf

Айсу Ровшан кызы Гусейнова
магистрант,
Нигяр Ильхам кызы Бунядова
доктор философии по филологии,
Бакинский Славянский Университет

Образ сильных женщин в рассказах Ильяса Эфендиева

Резюме

Ильяс Эфендиев – один из писателей, внесших большой вклад в азербайджанскую литературу XX века. Его творчество сформировалось на фоне народной жизни и отражает духовные и нравственные ценности. В его рассказах основное место занимают темы любви к Родине, человеческой психологии, женской свободы и материнской гордости. Женские образы Эфендиева воплощают такие ценности, как свобода, верность и стремление к борьбе. Они становятся символом любви и преданности. В его произведениях женщина изображается как нежное, но в то же время сильное существо.

Aysu Rovshan Huseynova
master,
Nigar Ilham Bunyadova
doctor of philosophy in philology,
Baku Slavic University

Strong female characters in the stories of Ilyas Efendiyev

Summary

Ilyas Afandiyev is one of the writers who made great contributions to 20th-century Azerbaijani literature. His works were formed against the background of national life and reflect moral and spiritual values. In his stories, themes such as love for the homeland, human psychology, women's freedom, and maternal pride are in the foreground. Afandiyev's female characters embody values like freedom, perseverance, and loyalty. They become symbols of both love and devotion. In the writer's works, a woman is portrayed as both gentle and strong.

Hicran Elnur qızı RÜSTƏMZADƏ
magistrant,
rustemzadehicran@gmail.com,
Polad Yadulla oğlu MƏDƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

GƏLƏCƏK İNKİŞAF VƏ MÜNASİBƏTLƏRİN FORMALAŞMASINDA İNKLÜZİV TƏHSİL MÜHİTİNİN ROLU

Məktəbəqədər təhsil müəssisələrində qurulan inklüziv təhsil mühitinin məktəbəqədər yaşlı uşaqlar üçün müsbət təsiri olduqca faydalıdır. Belə ki, inklüziv təhsil mühitinin qurulmasında başlıca amil uşaqların həmyaşıdları ilə qarşılıqlı əlaqədə və ünsiyyətdə olması, onlar arasında

münasibətlərin formalaşmasıdır. İnklüziv şəraitin təmin edilməsində uşaqların fərdi inkişafı, xüsusilə də uşağın öz potensialının ortaya qoyduğu bir mühitə sahib olması, öz bacarıq və qabiliyyətlərinin daha üst səviyyədə inkişafını təmin edəcək mühitlə əhatələnməsi xüsusi əhəmiyyət kəsb edir. Hər bir uşağın öz imkanlarını, bilik və bacarıqlarını ortaya qoyduğu şərait fərqli qabiliyyətə sahib olan uşaqların da bir-birini tanıması, hər birinin fərqli olduğunu, fərqli imkanlara malik olduğunun fərqinə varmasıdır. Xüsusilə də özəl məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların həmyaşıdları arasında qarşılıqlı əlaqələrin qurulması ilə yardım etmək, başqasının fikirlərinə münasibət bildirmək, problemin həll edilməsi yollarının araşdırılması kimi nüanslar ortaya çıxır. Bu prosesin inkişafı sayəsində inklüziv uşaqlarda müstəqillik artır və güclü şəxsiyyətlərə çevrilirlər. Uşaqların bir-birinə olan təsiri də mühüm faktordur ki, yaxşı və ya pis cəhətlərini özlərinə çəkmə potensialına sahib olurlar. Bu məqamda tərbiyəçi-müəllimin xeyirxahlıq nümunələri tətbiq etməsi, ünsiyyətə dair uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşmasına dair nağıl və hekayələrin oxunması da olduqca müsbət təsirə malikdir.

Gələcək inkşafın qurulmasında bugünkü təhsil sferasının inklüziv uşaqlara uyğun olaraq inklüziv təhsil mühitinin qurulmasını tələb edir. Məktəbəqədər təhsil müəssisəsində uşaqların qarşılıqlı ünsiyyəti əsasında sosial və emosional bacarıqlarının formalaşması öz təsirini göstərir. Çünki münasibətin qurulması nə qədər önəmlidirsə, münasibətə emosional hisslərin təsiri də bir o qədər önəm daşıyır.

Müxtəlif ailələrdən, müxtəlif mühitlərdən gələn məktəbəqədər yaşlı uşaqlar eyni təhsil mühitində bir araya gəlirlər. Onların evdə gördükləri münasibəti məktəbəqədər təhsil müəssisəsində sərgiləməsi əlbəttə ki, bir-birlərinə mənfi və ya müsbət təsir edəcəkdir. Bu şəraitdə inkişaf sayəsində sosial bacarıqların formalaşması danılmazdır. Uşaqlar arasında əməkdaşlıq qurulmaqla kommunikativlik, başqasının fikri ilə razılaşmaq, birlikdə problemin həll edilməsində əməkdaşlıq, sağlam əqidələrin inkişafına gətirib çıxarır.

İnklüziv mühitin təmin olunması uşaqlara müxtəlif mədəniyyətləri, hər kəsin bacarıq və qabiliyyətlərinin fərqli olduğunu, hər kəsi öz fərqindəliyi ilə qəbul etməyi başa düşməyə və yardım etməyə, empatiya qurmağa sövq edir. Bu münasibətlərin formalaşması ahəngində də məktəbəqədər yaşlı uşaqlarda getdikcə tolerant münasibətlər əmələ gəlir.

Uşaqlara sağlam və işıqlı gələcəyin təqdim olunması üçün bugün onlar üçün bərabər imkanlar yaradaraq, sözün əsl mənasında inklüziv mühiti təmin edə, münasibətləri formalaşdıra, gələcək iş fəaliyyətində və təhsil fəaliyyətində də uğurlu olmasına şərait yarada bilərik. Eyni zamanda inklüziv təhsil mühitində iştirak etməsi uşaq üçün psixoloji mühitin yaradılması baxımından önəmli faktordur. Bu minvalla ailələrlə qurulan əlaqələr uşaqların daha inamlı və müstəqil böyüməsinə imkan təmin edir.

İnklüziv təhsil mühitini uşaqlar üçün tərtib edərək təkcə onların fərdi inkişafına deyil, həmçinin gələcəkdə cəmiyyətin ərsəyə gəlməsinə, çiçəklənməsinə, fərq qoyulmadan insanların qaynayıb-qarışmasına nail oluruq.

Məktəbəqədər yaşlı uşaqlarda münasibətlərin qurulması ilə onlarda empati hissi də formalaşmış olur. Belə ki, bu anlayışın uşağa tələqin olunması ilə əlaqədar fərqli xarakterik xüsusiyyətlər, sosial, fiziki, mədəni xüsusiyyətlərə yiyələnmiş insanların birləşməsi, təhsilə cəlb olunması özünü büruzə verməlidir.

İnklüziv təhsildə əməkdaşlığın qurulması istər uşaqlar arasında, istər əməkdaşlar arasında, istərsə də ailə ilə qurulması müsbət nəticələr bəxş edir. Əməkdaşlığın əsasında isə ünsiyyət dayanır. Əməkdaşlıq nəticəsində ortaq dəyərlər, düşüncələr ərsəyə gəlir və daha sonra tətbiq olunmaq üçün həyata keçirilir. Bu cür fəaliyyətin yaradılması ilə yüksək səviyyədə inkişaf etmiş ünsiyyət formalaşır və birgə fəaliyyətə təhrik edir. Qarşılıqlı ünsiyyət əsasında uşaqların dialoqa girməsi, fikir və düşüncələrini bölüşə bilməsi, qarşılıqlı anlayış və etibarın əldə olunması kimi nüansları özündə ehtiva etməsi onların sosiallaşmasına dəlalət edir. Eyni zamanda sağlamlıq imkanları məhdud uşaqları həmyaşıdlarına kömək etməyə cəlb etmək, özlərini ifadə edə biləcəkləri şərait yaratmaq lazımdır. Bərabərində özgüvənin də formalaşması sayəsində tədbirlərdə çıxışlara yönəltmək lazımdır. Bu, həm istedadlı uşaqların üzə çıxarılmasına, həm də özünə olan inamı sayəsində bacarığını təkmilləşdirməsinə sövq etmiş olar.

Qrup otağında uşaqların münasibətlərinin formalaşdırılmasında valideynləri də bu prosesə cəlb etmək yaşxı olardı. Onların da qatqısı uşağının inkişafını izləməsinə, istiqamət verməsinə töhfə ola bilər.

İnklüziv şəraitdə qarşılıqlı dəstəyin təmin edilməsi, konstruktiv ünsiyyətin formalaşması uşaqlar üçün xüsusi əhəmiyyət kəsb edir. Yalnız məlumat mübadiləsi həyata keçirilməsi deyil, eyni zamanda qarşılıqlı əlaqələrin artmasının, birgə münasibətin formalaşmasının təminatçısına çevrilir.

Əlaqələrin möhkəmlənməsi məktəbəqədər təhsil müəssisələrində müxtəlif fəaliyyətlər zamanı da baş verə bilir. Belə ki, oyun, məşğələ, gəzinti, ekskursiya, təlim kimi fəaliyyətlərin əsasında da ünsiyyət dayanır. Uşaqları bir-birləri ilə münasibətə təhrik etmək, ünsiyyət qurmağa təşviq etməyə çalışmaq lazımdır. Müxtəlif fəaliyyətlərin təşkil olunması ilə uşaqlar danışmağa, əlaqəyə daxil olmağa çalışırlar. Onlarda bu minvalla kommunikativlik, dinləmə bacarığı, diqqətli olmaq, fikir mübadiləsi etmək, problemlərin həll olunması, qarşıya qoyulan fikirlərə hörmətlə yanaşmaq kimi bacarıq və qabiliyyətlər formalaşır. Eyni zamanda əksər uşaqlar tək oynamağa daha çox üstünlük verirlər. Cüt və kollektiv oynanılan oyunlar daha məhsuldar xarakter kəsb edir. Tərbiyəçi-müəllim uşaqları oyunda müşahidə edərək onun ünsiyyətinin formalaşmasına dair inkişafını dəyərləndirir. Uşaqları birlikdə oynamağa təhrik etmək müsbət nəticə verəcəkdir. Qarşılıqlı dəyərlərin formalaşması aspektində tərbiyəçi-müəllim xalq oyunlarından da istifadə edə bilər. Müxtəlif oyuncaqların və vəsaitlərin daxil olduğu belə mühit bütün uşaqlara xoş aura və əyləncə bəxş edəcəkdir.

Ünsiyyətin nitqin formalaşmasına təsiri də şübhəsizdir. Bu məqamda sözlərin yerli-yerində istifadəsi, aydın və səlis nitqə yiyələnmək, lüğət ehtiyatının artırılması, dialoq qurmaq bacarıqları inkişaf edir. Uşaqların ünsiyyət tələbatının ödənilməsində məşğələ prosesində və ya asudə vaxtlarda oxunan hekayə və nağılların qatqısı da çox böyükdür. Oxunan materialın düzgün seçilməsi, tərbiyəçi-müəllim tərəfindən səlis və aydın nitqlə nəql olunması müsbət təsirə malikdir. Məktəbəqədər yaşlı uşaqlar üçün bunu müxtəlif yollarla həyata keçirmək olar. Vizual, audial, şifahi yollardan istifadə etməklə, rəngarəng metodlardan istifadə edərək fəaliyyəti daha maraqlı hala gətirmək mümkündür. Eyni zamanda tərbiyəçi-müəllim tərəfindən şəklin göstərilməsi də təmin edilir və uşaq şəklə baxaraq öz hiss və düşüncələrini, fikirlərini ifadə edir, gördükləri haqda danışır, hadisələri təsvir edir. Bu prosesin nəticəsində onlarda fikir yürütmək, yaradıcılıq, öz düşüncələri əsasında nağıl və hekayə qura bilməsi formalaşır. Nəticədə uşaqlarda məntiqi təfəkkür inkişaf edir. Uşaqlar qısa nağılları dinləməyi çox sevirlər, həmçinin sənət əsərlərinə, musiqiyə emosional münasibət bildirməyi öyrənirlər. Buna müxtəlif fiqur və simvolları, obyektləri, oyuncaqları da əlavə etməklə, əyani şəkildə göstərməklə qurmaq mümkündür.

Ünsiyyət, qarşılıqlı əlaqə uşaqların formalaşması və şəxsiyyətinin inkişafı üçün bir tələbatdır. Bu tələbatı da ödəmək üçün uşaq ailə mühitində, daha sonra məktəbəqədər təhsil mühitində yeni məlumatlar əldə edir, valideynləri ilə ünsiyyət qurur, bağçada digər yoldaşları ilə əlaqədə olmağa çalışır. Bu minvalla da tələbatını ödəmiş olur. Doğrudur ki, sağlamlıq inmkanları məhdud uşaqlar ünsiyyətə girməkdə çəkingənlik, utancaqlıq nümayiş etdirirlər. Bunun səbəbi isə ünsiyyətə girməkdə maneələrin mövcudluğudur. Ola bilər ki, dilində, eşitməsində, motor və intellektual məhdudluq özünü büruzə versin. Bu da onun ünsiyyətini məhdudlaşdıra bilir.

Yeniliklərin əhatəsində inkişaf edən uşaq inklüziv mühitdə də müxtəlif yanaşmalarla qarşılaşa bilər. Onlar üçün sağlam inklüziv mühitin qurulmasına, gələcək yönümlü sferasının müsbət yöndə formalaşmasına gətirib çıxarır. Ona görə də kiçik yaşlarından həm valideynlər, həm də tərbiyəçi-müəllimlər uşaqlarla olan dialoquna, nitqinə, ünsiyyətinə diqqətlə yanaşmalı, uşaq üçün ünsiyyəti şərtləndirən dörd amili - dinləmə, danışma, oxu və yazı bacarıqlarını formalaşdırmalıdır. İnklüziv mühitin də tərtibatı zamanı bu dörd bacarığın həyata keçirilməsinə diqqətlə yanaşmaq lazımdır. Əgər uşaqlarda nitq inkişafını sürətləndirmək istəyiriksə, tez-tez onlarla danışmaq, söhbət etməliyik. Onlarla yaşına uyğun oyunlar oynamalıyıq. Eyni zamanda uşağın sosial mühitdə olması da onun nitqinə müsbət təsir göstərir. Belə mühitlər ailədə qurulur və məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsil mühitində davam etdirilir. Uşaqların münasibətlərinin formalaşmasında məhz nitq dayanır.

ƏDƏBİYYAT

1. TİPİİ. “İnklüziv siniflərdə təlimin təşkili (oxu materialı)”. Bakı, 2018, 68 s.
2. Əliyev M. “İnklüziv təhsil (Məlumat kitabçası)”. Bakı, 2018, 39 s.
3. Mikayılova Ü. “Uşaqyönümlü, demokratik məktəbəqədər təhsil: “Addım-addım layihəsi” yanaşması”.-Bakı., 2021, 396 s
4. https://tehsil.biz/news/az/58753/Uaqlarda-nsiyyt
5. https://arti.edu.az/faliyyətimiz/məzmun-və-qiymətləndirmə/inkluziv-təhsil/
6. https://itperemena.ru/tpost/-organizatsiya-obscheniya-v-usloviyah-ink

Хиджран Эльнур кызы Рустамзаде
магистрант,
rustemzadehicran@gmail.com,
Полад Ядулла оглы Мададов
доктор философии по педагогике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Роль инклюзивной образовательной среды в формировании будущего развития и отношений

Резюме

В обучении и воспитании инклюзивных дошкольников, в их развитии как личностей, которые внесут вклад в будущее, необходимо с раннего возраста учитывать их индивидуальность и уникальность и строить их поля деятельности, ведя себя соответственно. Влияние дошкольного образовательного учреждения, семьи и общества на формирование личности инклюзивных детей и раскрытие их потенциала неоспоримо. Более высокие уровни могут быть достигнуты в результате капель, рожденных от каждого эффекта. Благодаря организации общения у детей развиваются коммуникативные качества, навыки решения проблем, умение выражать свои чувства и идеи, суммировать и понимать и поддерживать многообразие мнений, формировать уверенность в себе, развивать социальные навыки. В результате формирование отношений и общения играет важную роль в развитии инклюзивных детей, формировании индивидуальных и социальных качеств. Эти факторы имеют особое значение для развития инклюзивных детей, которые помогают им жить сбалансированной и культурно-социальной жизнью при условии удовлетворения их потребностей.

Hijran Elnur Rustamzade
master,
rustemzadehicran@gmail.com,
Polad Yadulla Madadov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan State Pedagogical University

The role of an inclusıve educational environment in forming future development and relationshıps

Summary

In the education and upbringing of inclusive preschool children, in their development as individuals who will contribute to the future, it is necessary to take into account their individuality and uniqueness from an early age and to establish areas of activity by acting accordingly. The influence of preschool educational institutions, families, and society on the formation of the personality of inclusive children and the disclosure of their potential is undeniable. As a result of the drops arising from each influence, high levels can be reached. Through the organization of communication, children develop communicative qualities, problem-solving skills, the ability to

express their feelings and thoughts, the sum and understanding and support of diversity of ideas, the formation of self-confidence, and the development of social skills. As a result, the formation of attitudes and communication plays an important role in the development of inclusive children and the formation of individual and social qualities. These factors, which help inclusive children live a balanced and cultural-social life, are of particular importance for their development, provided that their needs are met.

Rəşidə Ramiz qızı KƏRİMOVA
magistrant,
Müslüm Hətəm oğlu NƏZƏROV
fəlsəfə elmləri doktoru,
Azərbaycan Kooperasiya Universiteti

ALİ TƏHSİLİN İMİCİNİN YAXŞILAŞDIRILMASININ KONSEPTUAL ƏSASLARI

Müasir cəmiyyətin vəziyyəti ümumilikdə ölkənin təhsil sisteminin, xüsusən də ali təhsilin inkişaf səviyyəsi ilə müəyyən edilir. Təhsil dövlətin ictimai-siyasi və sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinin həyata keçirilməsini təmin edir. Təhsilin xalq təsərrüfatına, onun siyasi və mənəvi sferalarına qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri aydın görünür.

Ali təhsil onun imicinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir edən spesifik xüsusiyyətlərə malikdir ki, bu da çoxfaktorlu və mürəkkəb tədqiqat obyekti kimi qəbul edilməlidir.

Ali təhsil obrazı dedikdə, məqalənin müəllifləri ali təhsil sisteminin məqsədyönlü şəkildə müəyyən edilmiş xüsusiyyətlərə malik olan və təhsil məhsulunu istehlak edən hədəf qruplarının nümayəndələrinin şüuruna müəyyən təsir göstərmək üçün nəzərdə tutulmuş sabit, emosional yüklənmiş obrazı, o cümlədən bir sıra altstrukturları nəzərdə tutur:

1) dövlət səviyyəsində ali təhsil idarəetmə sisteminin imici;
2) milli ali təhsil sisteminin tərkib hissəsi olan universitetlərin siması;
3) ali təhsil sisteminin professor-müəllim heyətinin imici;
4) milli ali təhsil sisteminə daxil olan ali məktəblərin məzunlarının obrazı [7].

"Milli ali təhsil sisteminə daxil olan universitetlərin imici"nin altstrukturu aşağıdakılarla xarakterizə olunur: tədris prosesinin keyfiyyətinin və universitetlər tərəfindən göstərilən əlavə xidmətlərin qeyri-kafi yüksək səviyyəsi.

"Ali təhsil sisteminin professor-müəllim heyətinin imici" altstrukturunda aşağıdakı problemlərə xüsusi diqqət yetirilməlidir: universitetin müəllim peşəsinin aşağı nüfuzu, müəllimlərin əməkhaqqı və sosial təminatının aşağı səviyyəsi, universitet müəllimlərinin qeyri-kafi fəal elmi fəaliyyəti.

Nəhayət, Ali Təhsil Sisteminin tərkib hissəsi olan universitetlərin məzunlarının imicinin altstrukturunda məzunların imicinə mənfi təsir göstərən aşağıdakı məsələlər müəyyən edilmişdir: ali məktəb tələbələri üçün kifayət qədər fəal və səmərəli işlə bağlı təhsilin olmaması, məzunların əmək və ictimai həyata hazırlığına mənfi təsir göstərir. Bundan əlavə, bir çox universitetlərin məzunları öz ixtisasları üzrə lazımi praktiki hazırlıqdan məhrumdurlar.

Ali təhsilin imicinə mənfi təsir göstərən aktual problemlərin aydın ifadəsi bizə onların həlli istiqamətlərini müəyyən etməyə və ali təhsilin imicinin yüksəldilməsi üçün konseptual baza hazırlamağa imkan verdi. Bu çərçivə konsepsiyanın ümumi məqsədini, həmçinin bu sahədə fəaliyyətin əsasını təşkil edən ideyalar, prinsiplər və prioritetlər sistemini əhatə etməlidir.

Konsepsiyanın ümumi məqsədi bütövlükdə sistemin və ayrı-ayrılıqda hər bir altstrukturun imicini artırmaqla yerli ali təhsil sisteminin rəqabət qabiliyyətini artırmaqdır.

Təsvirin təkmilləşdirilməsi üçün konseptual əsasların inkişafının əsaslandığı əsas fikirləri sadalayaq.

1) Təsvir fiziki formaya malik olmayan, lakin eyni zamanda təsviri daşıyan obyektin fəaliyyətinə birbaşa təsir göstərən qeyri-maddi aktivdir.

2) Marketinq aləti kimi imic rəqabət qabiliyyətinin təmin edilməsində, xüsusən də getdikcə daha çox rəqabət mühitində mühüm rol oynayır. İmic hədəf istehlakçıların şüurunda konkret obraz kimi formalaşır və istehlakçı seçimini müəyyən edir.

3) İmic həm ictimai əlaqələr fəaliyyətinin həyata keçirilməsi nəticəsində, həm də daşıyıcının rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi zamanı formalaşır.

4) Təsvir konkret hədəf qruplarının şüurunda formalaşdığından, onu onların hər birinə aid olan verilmiş xüsusiyyətlərə uyğun yaratmaq, eyni zamanda, öyrənilən obyektə aid olan vahid obrazı əldə etmək üçün bütün fəaliyyətləri birləşdirmək lazımdır.

Təşkilat, planlaşdırma və nəzarət funksiyalarını həyata keçirərkən imic strateji təlimatlar əsasında məqsədyönlü şəkildə formalaşmalıdır.

Ali təhsilin imicinin yüksəldilməsi üçün konseptual əsasların inkişafının əsaslandığı prinsiplər aşağıdakılardır:

1. İkililik prinsipi. Bu, ali təhsilin imicini artırmaq üçün bu sektorun rəqabət qabiliyyətinin təmin edilməsinə və bir sıra marketinq kommunikasiyalarından (ictimaiyyətlə əlaqələr, reklam, şəxsi kommunikasiyalar) istifadə etməklə bu imicin korreksiyasına yönəlmiş tədbirlərə imkan verir.

2. İmic formalaşdırarkən xarici makro- və mikromühitin amillərinin (ali təhsil sisteminin fəaliyyətini tənzimləyən hüquqi baza; iqtisadiyyatın vəziyyəti və demoqrafik vəziyyət; rəqabət aparan yerli və xarici təhsil sistemləri, təhsil məhsulunun istehlakçıları və s.) müəyyən edilməsi, təhlili və nəzərə alınması zərurətini nəzərdə tutan obyektivlik prinsipi.

3. Hədəf seqmentlərinin hər biri (abituriyentlər və onların qohumları, orta ixtisas və peşə təhsili müəssisələrinin işçiləri, ali məktəblərin tələbələri və məzunları, işəgötürənlər, işə qəbul agentlikləri, peşəkar icmalar və s.) üçün imic formalaşdırmanın ən mühüm amillərinin və üsullarının seçilməsi və istifadə edilməsinin zəruriliyini müəyyən edən müştəri diqqəti prinsipi.

4. Məqsədin qoyulması prinsipi. Bu, ümumi məqsəd və alt məqsədlər də daxil olmaqla, məqsəd ağacının qurulmasına əsaslanan hər bir təsvir altstrukturu üçün məqsədə əsaslanan planlaşdırma ehtiyacını müəyyən edir.

5. Bir mərkəzdən idarə olunan və "sinergik effekt" adlanan nəticənin əldə edilməsini təmin edən, bir-biri ilə əlaqəli sistem kimi altstrukturların təsvirlərinin vahid inteqrasiya kompleksinin qurulmasına imkan verən sistemlilik prinsipi.

6. İmicin formalaşması üçün istifadə olunan yanaşmaların imicologiyanın müasir inkişafına uyğun olmasını və texnologiya və marketinq kommunikasiyaları sahəsində müasir nailiyyətlərin nəzərə alınmasını təmin edən innovasiya prinsipi.

7. İmic formalaşdırmaqdan əhəmiyyətli müsbət sosial-iqtisadi effekt əldə etməyi tələb edən sosial-iqtisadi məqsədəuyğunluq prinsipi.

Təsvirin təkmilləşdirilməsi üçün konseptual çərçivələrin inkişafının əsasını təşkil edən prioritetlər ümumi məqsədin strateji xarakteri ilə müəyyən edilir. Ona görə də ali təhsilin özünün fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş tədbirlər ön plana çıxır. Həmçinin, hədəf qruplarının şüurunda bu sektorun formalaşmış imicinin müsbət cəhətlərini nəzərə almaqla, birbaşa imic formalaşdırılmasına yönəlmiş tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi zəruridir.

Bundan əlavə, müsbət imici formalaşdırmaq üçün tədbirlərin prioriteti onun ayrı-ayrı altstrukturlarının təsvirlərinin ali təhsilin ümumi imicinə təsirinin xarakteri və dərəcəsi ilə müəyyən edilir. Digər altstrukturlarda intensiv dəyişikliklərə səbəb olan həmin altstrukturlarda islahatlara başlamaq məqsədəuyğundur. Ali təhsil orqanları tərəfindən imic formalaşdırılması sahəsində strateji idarəetmə qərarlarının qəbul edilməsi bu prosesin milli ali təhsil sistemi daxilində universitetlər səviyyəsində daha da inkişaf etdirilməsinə səbəb olur. Öz növbəsində, universitet səviyyəsində imic formalaşdırma səyləri professor-müəllim heyətinin və məzunların imicinin yaxşılaşdırılmasına yönəlmiş səyləri gücləndirir.

Ali təhsilin imicinin yüksəldilməsi məqsədinə uğurla nail olmaq üçün işlənmiş konseptual yanaşmalara əsaslanaraq, ilk növbədə onun mahiyyətini və nəzərdən keçirilən sahə ilə bağlı spesifikliyini öyrənərək müsbət imicinin formalaşdırılması mexanizmini hazırlamaq lazımdır.

"İqtisadi lüğət"də "mexanizm" anlayışı "bəzi hərəkəti, hadisəni müəyyən edən vəziyyətlərin, proseslərin ardıcıllığı", "bir növ fəaliyyət növünün sırasını müəyyən edən sistem, qurğu" [8] kimi

nəzərdən keçirilir. İqtisadi mexanizm "...ictimai, qrup və şəxsi maraqların əlaqələndirilməsinə və uzlaşdırılmasına xidmət edən, milli iqtisadiyyatın fəaliyyət göstərməsini və inkişafını təmin edən" [8], "...iqtisadi strukturların, institutların, idarəetmə forma və üsullarının məcmusu" kimi müəyyən edilir. B.A. Raizberg, L.Ş. Lozovski, E.B. "Müasir iqtisadi lüğət"in müəllifləri Starodubtseva bu kateqoriyanı "konkret şəraitdə və təkrar istehsal prosesində fəaliyyət göstərən iqtisadi qanunların köməyi ilə həyata keçirilən təşkilati strukturların, idarəetmənin konkret forma və metodlarının, habelə hüquq normalarının məcmusu" [6] hesab edir. A.Kulman "təsərrüfat mexanizminin ya ilkin hadisənin xarakteri ilə, ya da bir sıra hadisələrin yekun nəticəsi ilə müəyyənləşdiyini" təsdiq edir və "mexanizmin tərkib elementlərinin həmişə eyni vaxtda ilkin hadisə, son hadisələr və onlar arasındakı intervalda baş verən bütün proses olduğunu" göstərir [5]. Təşkilati-iqtisadi mexanizmin formalaşması və inkişafı həmişə müxtəlif təşkilati sistemlərin fəaliyyəti ilə bağlıdır. V.N. Burkov və V.V. Kondratyev təşkilati idarəetmənin əsas mexanizmini (real təşkilati sistemlərin fəaliyyət mexanizmi) "təşkilatın fəaliyyətinin bütün mərhələlərində qərarlar hazırlayan və qəbul edən şəxslərin davranışını tənzimləyən kifayət qədər mürəkkəb prosedurlar, qaydalar, qaydalar və təlimatlar toplusu"[4] kimi başa düşür.

Müzakirə olunan yanaşmaları və "mexanizm" terminin ümumi semantik mənasını, habelə onun təşkilati və iqtisadi elementlərinin sistemli qarşılıqlı əlaqəsini nəzərə alaraq, ali təhsilin müsbət imicini inkişaf etdirmək mexanizmi üçün aşağıdakı tərif verilə bilər: bu, bir-biri ilə əlaqəli əsas elementlərin çoxsəviyyəli ierarxik sistemidir. Habelə hədəf auditoriyaların şüurunda ali təhsilin müsbət imicinin formalaşmasına təsir edən və bununla da ölkənin iqtisadi və mədəni potensialını və bütövlükdə əhalinin həyat keyfiyyətini yüksəldən onların inteqrasiya olunmuş qarşılıqlı əlaqəsi üsulları. Ali təhsilin müsbət imicinin formalaşması mexanizminin struktur elementlərini aşağıdakı kimi təsvir etmək olar.

1. Müəssisələr. Bunlara daxildir: Elm və Təhsil Nazirliyinin Strateji İnkişaf Departamenti, Təhsil İnstitutu; Müstəqil Təhsil Reytinq Agentliyi; Dövlət İnformasiya Texnologiyaları və Telekommunikasiya İnstitutu (İnformika); Elm və Təhsil Nazirliyinin və regional təhsil orqanlarının mətbuat xidmətləri; universitetlər, mətbuat xidmətlərinin nümayəndələri, müəllimlər və tələbələr.

2. Obyektlər. İmicinin yüksəldilməsi konsepsiyasının əsasında duran ən mühüm prinsiplərdən biri ali təhsilin imicinin iki istiqamətdə yüksəldilməsi üçün tədbirləri nəzərdə tutan ikililik prinsipidir (bu sektorun rəqabət qabiliyyətinin təmin edilməsi və bir sıra marketinq kommunikasiyalarından (ictimaiyyətlə əlaqələr, reklam, şəxsi kommunikasiyalar) istifadə etməklə imicinin yüksəldilməsi). Ona görə də bu sektorun rəqabət qabiliyyəti və imici obyektlər kimi qəbul edilir.

3. Resurs dəstəyi. Bu, konsepsiyanın bütün fəaliyyətini yüksək elmi və praktiki səviyyədə həyata keçirməyə imkan verir. Resurs dəstəyinə intellektual, kadr, maddi-texniki, metodoloji və maliyyə resursları daxildir.

4. Təsvirin formalaşmasının ayrı-ayrı mərhələlərində həyata keçirilən tədbirlər.

5) Beşinci, "planlaşdırılmış" mərhələdə, ali təhsilin imicinin yaxşılaşdırılması üçün bir sıra tədbirlər və tövsiyələr hazırlanır.

6) Altıncı "təşkilati və idarəetmə" mərhələsində ali təhsilin müsbət imicini inkişaf etdirmək üçün tədbirlər həyata keçirilir. Tədbirlərin icraçılar arasında aşağıdakı bölgüsü mümkündür:

– bütövlükdə ali təhsil sektorunun, o cümlədən bütün altstrukturların rəqabət qabiliyyətinin artırılması üzrə tədbirlər;

– milli ali təhsil sisteminin tərkib hissəsi olan universitetlərin rəqabət qabiliyyətinin artırılması üzrə tədbirlər; ali təhsil sisteminin professor-müəllim heyəti; ali məktəblərin (ali təhsil müəssisələrinin) məzunları;

– bütövlükdə ali təhsil sektorunun, o cümlədən bütün altstrukturların ali təhsil müəssisələrinin imicini yüksəltmək üçün kommunikasiya fəaliyyəti.

Mexanizm müəyyən mərhələlərdə təsvirin formalaşması zamanı istifadə olunan aşağıdakı üsulları əks etdirir:

1) təşkilati və idarəetmə (məqsəd müəyyən etmək, beyin fırtınası, strukturlaşdırma, induksiya, deduksiya);

2) tədqiqat (sorğu, fokus qrup, müşahidə);

3) analitik (sistem təhlili, statistik təhlil, məntiqi-semantik təhlil, reytinq, ekspert qiymətləndirməsi, məzmun təhlili);

4) yaradıcı (proyektiv, kompozisiya, semantik).

Hazırlanmış konseptual çərçivə ali təhsilin imicinin yaxşılaşdırılması və müsbət imicinin formalaşdırılması mexanizmi bu sahədə dövlət siyasətinin işlənib hazırlanması üçün əsas təşkil edə bilər.

ƏDƏBİYYAT

1. Məmmədova E.B. Sosial işin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı-2024,762s.
2. Nəzərov M.H. Sosial fəlsəfə. Dərs vəsaiti. Bakı ”TİC Print” nəşriyyatı, 2024.652s.
3. Nəzərov M.H. Nəbiyev Ə.M.Sosial idarəetmənin əsasları. Dərs vəsaiti. Bakı ”TİC Print” nəşriyyatı, 2024.672s.
4. Бурков В.Н., Кондратьев В.В. Механизмы функционирования организационных систем. М.: Наука, 1981. 420 с.
5. Кульман А. Экономические механизмы: Пер. с фр.; под общ. ред. Н.И. Хрусталевой. М.: Прогресс; Уни-верс, 1993.
6. Райзберг Б.А., ЛозовскийЛ.Ш., Стародубцева Е.Б. Современный экономический словарь. М., 2003. URL: http://yas.yuna.ru/? 1879053312 @0816185600.
7. Христофорова И. В., Колгушкина А. В., Александрова Н. С. Сущность и структура имиджа высшего образования // Вестник ассоциации вузов туризма и сервиса. 2011. № 1.
8. Экономический словарь. URL: http://abc.informbureau.com/html/ oicssenoaaiiue_iaoaieci. html (Дата обращения: 10.11.2010).

Рашида Рамиз кызы Каримова
магистрант,
Муслим Хатам оглы Назаров
доктор философических наук,
Азербайджанский Университет Кооперации

Концептуальные основы повышения имиджа высшего образования

Резюме

В статье рассматривается социальная значимость системы высшего образования, обеспечивающей реализацию приоритетных направлений общественно-политического и социально-экономического развития страны. Обосновывается значение специфического и содержательного имиджа высшего образования как многофакторного и сложного объекта исследования. Выявлены и обобщены основные проблемы, связанные с имиджем высшего образования, и обозначены направления их решения. Предложены концептуальные основы повышения имиджа высшего образования и представлен механизм его развития.

Rashida Ramiz Karimova
master,
Muslim Hatam Nazarov
doctor of philosophical sciences,
Azerbaijan Cooperation University

Conceptual foundations for improving the image of higher education

Summary

The article examines the social significance of the higher education system, which ensures the implementation of priority directions of the country's socio-political and socio-economic develop-

ment. The importance of the specific and substantial image of higher education as a multifactorial and complex object of research is substantiated. The main problems related to the image of higher education are identified and summarized, and the directions for their solution are indicated. Conceptual foundations for improving the image of higher education are proposed and the mechanism for its development is presented.

Sadiq Pərviz oğlu NƏHMƏDLİ
magistrant,
Əmiraslan Məhəmməd oğlu NƏBİYEV
fizika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

SOSİAL TƏMİNAT SİSTEMİ: TƏKAMÜL VƏ KATEQORİYALARİN QARŞİLİQLİ ƏLAQƏSİ

Son illər sosial müdafiə hər bir sivil dövlətdə sosial siyasətin əsas elementinə çevrilmişdir. Sosial dövlətin tərkib hissəsi vətəndaşların maddi rifahının təmin edilməsi, cəmiyyətdə sosial harmoniya və həmrəyliyin təşviqi üçün vacib olan sosial müdafiə sistemidir. İstənilən sivil ölkə qarşısında iqtisadi inkişafa mane olmadan əhalinin həssas qruplarının həyat səviyyəsini kifayət qədər və səmərəli şəkildə yüksəldə bilən sosial müdafiə sistemi yaratmaq vəzifəsi durur.

Bu problemin həllini qabaqcıl qlobal təcrübəyə əsaslanan və milli inkişaf xüsusiyyətlərini nəzərə alaraq (həm dövlət səviyyəsində, həm də fəaliyyət göstərdiyi ölkənin Konstitusiyasına və inkişaf strategiyasına uyğunlaşmalı olan hər bir fərdi müəssisə səviyyəsində) yeni iqtisadi şəraitə tez uyğunlaşa bilən çevik sosial müdafiə proqramlarının yaradılmasında tapmaq olar. Nəzərə almaq lazımdır ki, Azərbaycanın strateji məqsədi rəqabətədavamlı, sosial yönümlü bazar iqtisadiyyatı qurmaqdır.

Bu vəzifə, Azərbaycanın sosial-iqtisadi siyasətinin gələcək inkişafı yollarını və həlli dövlətin səlahiyyətlərinə aid edilməli olan məsələləri müəyyən etməyə kömək edə biləcək sosial olaraq təsnif edilən digər ölkələrdə sosial müdafiə sistemlərinin inkişafının xarakterini və fəaliyyət xüsusiyyətlərini başa düşməyi tələb edir.

İnkişaf etmiş bazar iqtisadiyyatının mürəkkəb sistemlərindən biri kimi sosial müdafiə məsələlərinin tədqiqi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin həm alimlərinin, həm də praktikantlarının işində mühüm yer tutur. Hazırda bir çox beynəlxalq sosial müdafiə mütəxəssislərinin diqqəti cəmiyyətin inkişafının iqtisadi və sosial komponentləri arasında optimal tarazlığa nail olmaq, bununla da iqtisadi inkişafın prioritetləri ilə sosial ədalət prinsipləri arasında ziddiyyətdən qaçmaq üçün yeni yolların tapılmasına yönəlib.

Məşğulluğun tənzimlənməsi, işsizliyin artması, həssas qrupların sosial müdafiəsinin təmin edilməsi ilə bağlı məsələlər daim aktualdır. Bütün bu məsələlər ölkə əhalisinin əksəriyyətinin həyat səviyyəsini aşağı salır, iqtisadi böhran riskini artırır, sabitləşmə və iqtisadi artım üçün şəraitin yaradılmasına mane olur və buna görə də təcili həll yollarını tələb edir.

"Əhalinin sosial müdafiəsi" anlayışı yeni deyil və öz tarixi var. XVIII əsrin sonlarından Avropada və Azərbaycanda ictimai qəyyumluğun dövlət-inzibati sistemi formalaşmağa başlamışdır (yardım sisteminin institusionallaşdırılması, hüquqi bazanın formalaşdırılması və sosial yardımın dövlət tərəfindən qismən maliyyələşdirilməsini əhatə edən inzibati idarəetmə). Bu mərhələnin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, dövlət sosial funksiyaları bilavasitə yerinə yetirməyə səy göstərmir, ancaq bunu digər institutlar (şəxsi və ictimai xeyriyyə institutları, xeyriyyə təşkilatları, korporativ sosial sığorta təşkilatları, yerli hakimiyyət orqanları və kilsə) vasitəsilə asanlaşdırır. Bu mərhələnin iki əsas xüsusiyyəti (dövlətin öz sosial funksiyalarının yaranması və sosial siyasətin cəmiyyətin bütün üzvlərinə yönəldilməsi) bir-biri ilə bağlıdır; onlar cəmiyyətin konsolidasiya ehtiyacına əsaslanır.

Sosial müdafiənin ilk elementləri Almaniyada XIX əsrin sonlarında, dövlətin müxtəlif sosial

proqramlara vəsait ayırmağa başlaması ilə yaranıb. Bu, cəmiyyətin sosial funksiyalarının dövlətə keçidinin başlanğıcı oldu. "Sosial təminat" termini ilk dəfə 1935-ci ildə ABŞ-ın Sosial Təminat Aktında istifadə edilmişdir və bu qanun qanuni olaraq qocalıq, ölüm, əlillik və işsizlik üçün icbari sığortanın tətbiqi ilə həmin ölkə üçün yeni mərhələni müəyyən etmişdir. Bu termin tezliklə dünyanın bir çox ölkələrində geniş istifadə edilərək əlil vətəndaşlara və yaşlılara milli yardım sistemlərinin təşkili probleminin mahiyyətini ifadə edir. Bu baxımdan sosial müdafiə bir sıra xüsusiyyətlərə malikdir.

Birincisi, bu, vətəndaşların şəxsi maddi ehtiyaclarını xüsusi fondlardan fərdi bölgü forması vasitəsilə ödəmək üçün nəzərdə tutulmuş sosial münasibətlər sistemidir.

İkincisi, sosial müdafiəni dövlət cəmiyyət hesabına həyata keçirir.

Üçüncüsü, əməkhaqqı əvəzinə və ya qanunla nəzərdə tutulmuş hallarda onlara əlavə olaraq (qazancın itirilməsi və ya azalması, iş tapa bilməməsi və s.) vəsait verilir [4, s. 6].

1950-ci illərdə dünyanın bir çox ölkələrində sosial siyasətdə əsaslı dəyişikliklər baş verdi ki, bu da sosial sferanın müxtəlif seqmentlərinin və institutlarının onun qoruyucu funksiyalarını xarakterizə etmək baxımından sistemləşdirilməsini və əlaqələndirilməsini zəruri etdi.

1854-cü ildə Avstriyaya məxsus olan və yalnız dağ-mədən sənayesində çalışan işçilərə aid olan işçilərin müdafiəsi üçün əsas müddəaları tənzimləyən ilk qanunlar tətbiq olundu.

1867-ci ildə fəhlə və qulluqçuların peşə maraqlarını təmsil edən ilk təşkilat (həmkarlar ittifaqları) yaradıldı

1887-ci ildə Qanunla işçilərin istehsalat qəzalarından icbari sığortası (işəgötürənlərin töhfələri hesabına) tətbiq edildi.

1888-ci ildə Müvəqqəti əlillik sığortası tətbiq edildi

1906-cı ildə İşçilərin icbari sığortası (pensiya və əlillik) yaradıldı (kənd əhalisi və kənd işçiləri bu sığorta növləri ilə əhatə olunmurdu)

1907-ci ildə Məşğulluq prosesində vasitəçiliyin təşkili ilə bağlı ilk qanunlar qəbul edildi

1912-ci ildə Xəstəliyə görə müvəqqəti əlilliyə qarşı icbari sığortanı təmin etmək üçün zavod xəstəlikləri fondları yaradıldı.

1927-ci ildə İşçilərin pensiya, əlillik və işsizlikdən sığortası haqqında qanun qəbul edildi.

1933-cü ildə Həm fəhlələrin, həm də qulluqçuların sosial sığortası haqqında qanun vahidləşdirildi.

Məcburi sosial təminat sığortalı fəhlə və qulluqçuların qanunla müəyyən edilmiş ayırmalar şəklində əməkdaşlığına əsaslanırdı. Bəzi hallarda bu haqlar işəgötürənlər tərəfindən ödənilirdi (sağlamlıq sığortası və istehsalatda bədbəxt hadisələrdən sığorta üçün). Dövlət büdcə subsidiyaları hesabına işsizlikdən sığorta fondlarının yaradılmasına da öz töhfəsini verib.

Avropa Komissiyasının sənədlərinin məzmununa əsasən sosial müdafiənin dörd modelini aydın şəkildə müəyyən etmək olar: kontinental (Bismark modeli), anqlo-sakson (Beveric modeli), Skandinaviya və Cənubi Avropa [5, s. 5].

Kontinental Model (Bismark Modeli) - Almaniya. Bu model sosial müdafiə səviyyəsi ilə peşə fəaliyyətinin uzunluğu arasında sərt əlaqə yaradır. O, ilk növbədə işəgötürənlərin və sığortaolunanların ayırmaları (dövlət büdcəsinə daxil deyil) hesabına maliyyələşdirilir. Peşəkar həmrəylik prinsipi işçilər və sahibkarlar tərəfindən bərabər əsaslarla idarə olunan sığorta fondlarının mövcudluğunu nəzərdə tutur. Onlar əməkhaqqından sosial ayırmalar toplayır, ondan sığorta ödənişləri həyata keçirilir.

Anglo-Saxon Model (Beveridge Model) - Böyük Britaniya və İrlandiya. Bu model (Keynsin ideyalarına görə) sosial istehsalın və məşğulluğun dinamikasının effektiv tələb amilləri ilə müəyyən edilməsinə əsaslanır (gəlirlərin aşağı gəlir əldə edən sosial qrupların xeyrinə yenidən bölüşdürülməsi kütləvi alıcıların səmərəli tələbini artıra bilər). Maliyyələşdirmə həm vergitutma (ailə yardımı və səhiyyənin maliyyələşdirilməsi), həm də sığorta haqları (digər sosial yardımların maliyyələşdirilməsi) hesabına həyata keçirilir. Kifayət qədər aşağı sosial müavinətlərlə sosial sığortanın olması, sosial yardımın dominant rolu. Sosial müdafiə sisteminin universallığı prinsipi: bu sistemin maddi yardıma ehtiyacı olan bütün vətəndaşlara şamil edilməsi; sosial xidmətlərin və ödənişlərin vahidliyi və unifikasiyası prinsipi (eyni pensiya məbləği, eyni miqdarda yardım və

tibbi xidmət, habelə onların göstərilməsi üçün eyni şərtlər); sosial xidmətlərin və ödənişlərin vahidliyi və unifikasiyası prinsipi (eyni pensiya məbləği, eyni miqdarda yardım və tibbi xidmət, habelə onların göstərilməsi üçün eyni şərtlər)

Skandinaviya modeli (Danimarka, İsveç və Finlandiya)- Sosial müdafiə vətəndaşın qanuni hüququ kimi başa düşülür. Onun fərqli xüsusiyyəti müxtəlif sosial təbəqələri və sosial dəstək tələb edən həyat vəziyyətlərini geniş əhatə etməsidir. Müəyyən səviyyəli sosial xidmətlər və ödənişlər ümumiyyətlə ölkənin bütün sakinləri üçün təmin edilir, məşğulluq və ya sığorta haqlarının ödənilməsi ilə şərtlənmir. Sosial müdafiə səviyyəsi kifayət qədər yüksəkdir, gəlir səviyyəsinin bərabərləşdirilməsinə yönəlmiş aktiv yenidən bölüşdürmə siyasəti vasitəsilə əldə edilir. İnstitusional cəmiyyət prinsiplərinə əsaslanan yüksək təşkilatlanmış cəmiyyət bu modelin fəaliyyət göstərməsi üçün ilkin şərtdir. Sosial müdafiə sistemlərinin maliyyələşdirilməsi ilk növbədə vergitutma hesabına təmin edilir, baxmayaraq ki, sahibkarlar və işçilərin sığorta haqları rol oynayır.

Cənubi Avropa modeli (İtaliya, İspaniya, Yunanıstan və Portuqaliya). Bu model üçün xarakterik olan sosial müdafiə səviyyəsi nisbətən aşağıdır və sosial müdafiə vəzifəsinə çox vaxt qohumların və ailənin qayğısı kimi baxılır. Əsas rolu ailə və vətəndaş cəmiyyətinin digər institutları oynayır, sosial siyasət isə əsasən passiv xarakter daşıyır və vətəndaşların müəyyən kateqoriyalarının gəlir itkilərini kompensasiya etməyə yönəlib.

Müasir sosial inkişaf şəraitində ən aktual sosial müdafiə məsələlərinin həllinin keyfiyyəti bilavasitə dövlət idarəçiliyinə tədqiqata əsaslanan yanaşmadan, problemləri öyrənmək, onların səbəb və nəticələrini müəyyən etmək bacarığından asılıdır. Bu vəzifə əsas anlayış və terminlərin öyrənilməsini və təhlilini, habelə sosial müdafiə sisteminin özündə aydınlığın yaradılmasını nəzərdə tutur.

Sosial siyasətin təkmilləşdirilməsinin prioritet istiqamətləri səmərəli sosial müdafiə tədbirlərinin həyata keçirilməsi ilə bağlı həm nəzəri, həm də praktiki məsələlərin lazımi qaydada nəzərdən keçirilməsini, onların qarşılıqlı fəaliyyəti və əlaqələndirilməsi prinsiplərinin müəyyənləşdirilməsini, həyata keçirilməsinin təmin edilməsini tələb edir.

Beləliklə, sosial müdafiə dövlət siyasətinin tərkib hissəsidir, vətəndaşların rifahına, inkişafına və təhlükəsizliyinə cavabdehdir. Effektivliyi hər bir cəmiyyətin sivil inkişafını şərtləndirən amildir. Sosial müdafiə yalnız rifah şəraitində səmərəli şəkildə təmin edilə bilər.

ƏDƏBİYYAT

1. Məmmədova E.B. Sosial işin iqtisadi əsasları. Dərs vəsaiti. Baki-2024,762s.
2. Nəzərov M.H. Sosial işin fəlsəfəsi. Dərs vəsaiti. Bakı ”Ləman” nəşriyyatı, 2025.436s.
3. Nəzərov M.H., Nəbiyev Ə.M. Sosial idarəetmənin əsasları. Dərs vəsaiti. Bakı ”TİC Print” nəşriyyatı, 2024.672s.
4. Ярошенко И.С. Право социального обеспечения: учеб. пособие. Киев: КНЭУ. 2005. 232 с.
5. Europise Komission. Soziale Skherheit in Europa. Luxemburg,1995.P. 158.

Садиг Парвиз оглы Нахмедлы
магистрант,
Амираслан Магамед оглы Набиев
доктор философии по физике, доцент,
Азербайджанский Университет Кооперации

Система социального обеспечения: эволюция и взаимосвязь категорий

Резюме

В статье рассматриваются концепции социальной защиты и типы моделей социальной защиты на примере европейских стран, в том числе на уровне нормативного регулирования. Анализируются преимущества и недостатки этих моделей, отражается история развития социальной защиты в Азербайджане и определяются перспективы её развития в контексте европейской интеграции.

Nahmadli Sadiq Parviz
master,
Nabiyev Amiraslan Muhammad
doctor of philosophy in physics, associate professor,
Azerbaijan Cooperation University

Social security system: evolution and interrelation of categories

Summary

The article examines the concepts of social protection and types of social protection models from European examples, including at the regulatory level. It analyzes the advantages and disadvantages of these models, reflects the history of the development of social protection in Azerbaijan and determines its development prospects in the context of European integration.

Qismət Asif oğlu KAMİLOV
magistrant,
Nizami Cəlal oğlu MƏHƏRRƏMOV
filologiya üzrə fəlsəfə doktoru, dosent,
Ramil Bəhman oğlu KAZIMOV
baş müəllim,
Azərbaycan Kooperasiya Universiteti

MUZEY FƏALİYYƏTİNİN İQTİSADİ ƏSASLARI VƏ İDARƏETMƏ MODELLƏRİ

Muzey fəaliyyəti – cəmiyyətin mədəni-tarixi irsinin toplanması, saxlanılması, tədqiqi və nümayiş etdirilməsi ilə bağlı fəaliyyətlərə daxil olan kompleks sahədir. Tarixin müəyyən məqamını özündə yaşadan, əsrlərin yaddaşına hopan olayları qoruyub saxlayan, xalqın maddi-mənəvi xəzinəsi olan muzeylərimiz bir elm, maarif müəssisəsidir. Memorial, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq və s. kimi muzeylər tariximizin bir qoruyucusudur və nəsillərə təqdim olunan hər bir nümunənin arxasında danışılan bir tarix var. Xalqın tarixi irsi və mənəvi dəyərlərinin qoruyucusuna çevrilən muzeylər neçə illərin, qərinələrin yolunda bizlərə həyatımızın yaşanılan tarixindən olan xəzinələri təqdim etdirən eksponatları, nadir nümunələri ilə Azərbaycan xalqının kimliyini sərgiləyir. Muzey fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanununa görə, muzey fəaliyyəti "mədəni dəyərlərin və insanın fəaliyyəti və məskunlaşdığı mühitə aid maddi nümunələrin qəbulu, saxlanması, uçotu, tədqiqi, təbliği və nümayişi" kimi müəyyən edilmişdir (maddə 1) və dövlət siyasətinin əsas prinsipləri sırasında açıq-şəffaflıq və dövlətin prioritet maliyyələşdirməsi nəzərdə tutulub (maddə 2). [1]

Bu kontekstdə muzeylərin iqtisadi əsaslarının və idarəetmə modellərinin təhlili müasir zamanın tələbləri ilə uzlaşan, dayanıqlı inkişaf və rəqabət qabiliyyəti əldə etmək üçün önəmli məsələ hesab olunur.

Muzeylər yalnız mədəniyyətin qorunması və təbliği sahəsində deyil, həm də ölkənin sosial-iqtisadi sistemində mühüm rol oynayan ictimai institutlardır. Müasir dövrdə muzeylərin idarə olunması məsələsi onların iqtisadi dayanıqlığının təmin olunması ilə sıx bağlıdır. Qloballaşma və bazar münasibətlərinin dərinləşməsi şəraitində muzeylər dövlət büdcəsindən asılı qurumlar olmaqdan çıxaraq iqtisadi fəaliyyətdə daha fəal iştirak edən mədəni təşkilatlara çevrilməkdədir. [5, səh. 14]

Muzey fəaliyyətinin iqtisadi əsaslarının tədqiqi həm elmi, həm də praktiki baxımdan əhəmiyyətlidir. Çünki muzeylər mədəni kapitalın istehsalı, turizmin inkişafı, regionların iqtisadi dirçəlişi və qeyri-maddi irsin qorunması kimi funksiyaları yerinə yetirirlər. [6, səh. 46]

Muzeylərin iqtisadi əsasları və idarəetmə modelləri mədəni irsin qorunması, təqdimatı və cəmiyyətin mədəni inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Müasir dövrdə muzeylər təkcə elmi-tarixi və maarifləndirici funksiyaları yerinə yetirməklə məhdudlaşmır, həm də sosial-iqtisadi

mühitin aktiv iştirakçısına çevrilmişdir. Onların dayanıqlı fəaliyyəti iqtisadi mexanizmlərin səmərəli qurulmasından, resursların düzgün idarə olunmasından və innovativ idarəetmə modellərinin tətbiqindən birbaşa asılıdır.

Muzey fəaliyyətinin iqtisadi mahiyyəti. Muzeylər mədəni dəyərlərin saxlanması və təbliği ilə yanaşı, sosial və iqtisadi resurs kimi fəaliyyət göstərirlər. Onların iqtisadi funksiyaları aşağıdakı istiqamətləri əhatə edir:

1. Turizm və iqtisadi gəlir formalaşdırma – muzeylər yerli və xarici turistləri cəlb etməklə xidmət sektoruna əlavə dəyər yaradırlar.
2. Yeni iş yerlərinin açılması – muzeylər bilavasitə və dolayı şəkildə əmək bazarına təsir göstərir. [4, səh. 57]
3. İnnovativ və təhsil yönümlü layihələr – muzeylər bilik iqtisadiyyatının tərkib hissəsi kimi fəaliyyət göstərir.

Bəzi tədqiqatçılar muzeyləri "sosial sahibkarlıq modeli" kimi xarakterizə edirlər [5], çünki onlar həm ictimai məqsədləri, həm də iqtisadi məqsədləri həyata keçirir.

Muzeylərin maliyyə təminatı və resurs bazası. Maliyyə dayanıqlılığı muzeylərin fəaliyyətinin əsas şərtidir. Azərbaycan təcrübəsində muzeylərin maliyyələşdirilməsi əsasən üç mənbədən formalaşır:

- Dövlət büdcəsi və bələdiyyə vəsaitləri;
- Özəl sektor və sponsor dəstəyi;
- Xidmət və kommersiya fəaliyyəti nəticəsində əldə olunan gəlirlər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2022-ci il "Azərbaycan muzeylərinin fəaliyyətinə dair illik hesabat"ında qeyd olunduğu kimi, son illərdə ölkə muzeylərinin fəaliyyətində idarəetmə strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və gəlir gətirən fəaliyyət istiqamətlərinin artırılması dövlət mədəniyyət siyasətinin əsas prioritetlərindən birinə çevrilmişdir. [2]

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2023-cü il hesabatına görə, respublika muzeylərinin 80%-dən çoxu birbaşa büdcə vəsaiti ilə fəaliyyət göstərir [5]. Lakin bu modelin davamlılığı üçün gəlir mənbələrinin şaxələndirilməsi vacibdir.

Muzeylərin maliyyə idarəetməsi yalnız büdcə prinsipləri ilə məhdudlaşmamalı, layihə əsaslı idarəetmə və qrant mexanizmləri tətbiq edilməlidir. UNESCO hesabatına əsasən, innovativ muzeylər bilet satışından, suvenir məhsullarından, kafe və kitab mağazalarından, həmçinin rəqəmsal xidmətlərdən gəlir əldə edir.

Muzey idarəetmə modelləri. Muzeylərin idarəetmə modelləri ölkələrin iqtisadi və hüquqi sistemlərinə görə fərqlənir. Ədəbiyyatda əsasən üç əsas model fərqləndirilir:

1. Dövlət modeli – tam dövlət maliyyələşməsi və inzibati nəzarət;
2. Özəl model – özəl fond və ya şirkət tərəfindən idarə olunan muzeylər;
3. Publik-özəl tərəfdaşlıq modeli (PÖT) – dövlət və özəl sektorun birgə iştirakı. [6, səh. 102]

Azərbaycanda hal-hazırda əsasən dövlət modeli üstünlük təşkil edir, lakin Bakı, Gəncə və Şəki kimi şəhərlərdə bir neçə özəl muzey təşəbbüsü də mövcuddur [7, səh. 28]. Publik-özəl modelin tətbiqi muzeylərin iqtisadi çevikliyini artırır. Belə modellər muzeylərin yeni sponsorlarla əlaqə yaratmasına, texnoloji modernləşməni təmin etməsinə imkan yaradır. [9, səh. 58]

İqtisadi idarəetmədə müasir tendensiyalar. Müasir idarəetmə yanaşmaları arasında strateji planlaşdırma, keyfiyyət menecmenti, rəqəmsal transformasiya və bazar yönümlü menecment ön plana çıxır.

Azərbaycan muzey sistemində son illər "Rəqəmsal muzey" layihələri genişlənməkdədir. 2022-ci ildən etibarən Mədəniyyət Nazirliyi tərəfindən "Muzey fondlarının rəqəmsallaşdırılması" proqramı həyata keçirilir. Bu, həm idarəetmə səmərəliliyini, həm də gəlir potensialını artırır.

N.Kotler və P.Kotler vurğulayırlar ki, müasir muzey menecmenti yalnız ekspozisiyanın təşkili deyil, həm də müştəri təcrübəsinin idarə olunması, brend imici və marketinq strategiyası deməkdir. [5, səh. 82]

Azərbaycanda muzey fəaliyyətinin idarəetmə problemləri və inkişaf istiqamətləri. Azərbaycan muzey sistemində başlıca problemlər bunlardır:

❖ Özəl sektorun muzey fəaliyyətinə az marağı;
❖ Kadr potensialının zəifliyi və menecment ixtisaslaşmasının məhdudluğu;
❖ Qrant və layihə əsaslı maliyyələşdirmənin zəif inkişafı. [4, səh. 61]

Bununla yanaşı, dövlət tərəfindən bir sıra islahatlar həyata keçirilir. 2018-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında Mədəniyyətin İnkişafına dair Dövlət Proqramı (2019–2025)" sənədində muzeylərin idarəetməsində innovativ və iqtisadi yanaşmaların tətbiqi prioritet istiqamət kimi müəyyən edilib.

Azərbaycan muzeyləri üçün regional mədəni klasterlərin yaradılması və rəqəmsal marketinq platformalarının tətbiqi gələcək inkişafın əsas istiqamətlərindən biridir. [4, səh.33]

Muzeylərin iqtisadi əsaslarının və idarəetmə modellərinin təkmilləşdirilməsi milli mədəni siyasətin ayrılmaz hissəsidir. Azərbaycan təcrübəsində dövlət maliyyələşməsi əsas rol oynasa da, uzunmüddətli perspektivdə özəl investisiyalar və publik-özəl tərəfdaşlıqlar muzeylərin davamlı inkişafını təmin edə bilər. Muzeylər mədəni irsin qorunması ilə yanaşı, iqtisadi innovasiyanın və sosial inkişafın mühüm elementinə çevrilməkdədir. Bu sahədə menecment təcrübəsinin gücləndirilməsi və elmi əsaslı idarəetmə mexanizmlərinin tətbiqi vacibdir.

Azərbaycan muzey sistemində dövlət maliyyələşməsi hələ də əsas rol oynasa da, müasir çağırışlar muzeylərin maliyyə mənbələrinin diversifikasiyasını tələb edir. Bu baxımdan, özəl sektorla əməkdaşlıq, sponsorluq, bilet və ekskursiya satışları, muzey məhsullarının (suvenir, kataloq, nəşr və s.) kommersiyalaşdırılması, eləcə də rəqəmsal xidmətlərin tətbiqi (virtual ekskursiyalar, onlayn biletlər, media kontent) mühüm əhəmiyyət kəsb edir.

İdarəetmə baxımından ən səmərəli model kimi strateji planlaşdırma və layihə yönümlü idarəetmə prinsiplərinə əsaslanan hibrid sistem çıxış edir. Belə model həm dövlət nəzarətini, həm də menecerlərin təşəbbüskarlığını birləşdirərək, muzey fəaliyyətində effektivlik, şəffaflıq və davamlılıq meyarlarını təmin edir. Məsələn, Azərbaycan Milli İncəsənət Muzeyi və Qobustan Dövlət Tarix-Bədii Qoruğu kimi müəssisələrdə tətbiq edilən müasir idarəetmə yanaşmaları göstərir ki, düzgün planlaşdırılmış iqtisadi və marketinq strategiyaları ziyarətçi sayını artırmaqla yanaşı, muzeylərin sosial təsirini də genişləndirir.

Beynəlxalq təcrübə də sübut edir ki, müasir muzeylər üçün əsas inkişaf istiqamətləri innovasiya, inklüzivlik və iqtisadi dayanıqlıq prinsipləri üzərində qurulmalıdır. Avropa və Asiya ölkələrində geniş tətbiq olunan publik-özəl tərəfdaşlıq (PÖT) modeli, qrant və donor proqramları**,** həmçinin mədəni startaplar sisteminə inteqrasiya Azərbaycan muzeyləri üçün də aktual istiqamət hesab olunur.

Beləliklə, muzey fəaliyyətinin iqtisadi əsaslarının gücləndirilməsi və idarəetmə modellərinin modernləşdirilməsi milli-mədəni irsin qorunması, təbliği və davamlı inkişafı üçün mühüm zəmin yaradır. Bu istiqamətdə dövlət, özəl sektor və cəmiyyət arasında əməkdaşlığın dərinləşdirilməsi və rəqəmsal idarəetmə mexanizmlərinin genişləndirilməsi gələcək inkişafın əsas prioritetləri kimi qiymətləndirilməlidir.

ƏDƏBİYYAT

1. "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 24 mart 2000-ci il, № 839-IQ. https://e-qanun.az/framework/7355
2. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. Azərbaycan muzeylərinin fəaliyyətinə dair illik hesabat. Bakı, 2022.
3. Əliyeva S. Muzeylərin maliyyə idarəetməsi problemləri və inkişaf perspektivləri. Bakı: Elm və Təhsil, 2020, 152 səh.
4. Əsgərova L. Mədəniyyət müəssisələrinin iqtisadi idarə olunması. Bakı: ADPU nəşriyyatı, 2019, 176 səh.
5. Kotler N. & Kotler P. Museum Strategy and Marketing: Designing Missions, Building Audiences, Generating Revenue and Resources. San Francisco: Jossey-Bass, 2018, 284 p.
6. Lord B. & Blankenberg N. Museums, Money and Politics. New York: Routledge, 2016, 210 p.
7. Məmmədov E. Azərbaycan muzeylərinin idarəetmə modelləri: problemlər və perspektivlər. Bakı: Qanun, 2021, 128 səh.

8. Mədəniyyət Nazirliyi. Azərbaycan muzey sistemi üzrə illik hesabat. Bakı: Rəsmi nəşr. 2023
9. Rüstəmova L. Mədəni irsin təsnifatı və müasir problemləri. Bakı: Təhsil, 2013, 200 səh.

Кисмет Асиф оглы Камилов
магистрант,
Низами Джалал оглы Махаррамов
доктор философии по филологии, доцент,
Рамиль Бехман оглы Казымов
старший преподаватель,
Азербайджанский Университет Кооперации

Экономические основы и модели управления музейной деятельностью

Резюме

В статье рассматриваются экономические основы и современные модели управления музейной деятельностью. Анализируются источники финансирования музеев, особенности формирования бюджета, а также механизмы эффективного использования финансовых и материальных ресурсов. Особое внимание уделено вопросам совершенствования организационно-экономических структур музеев, внедрению инновационных управленческих подходов и стратегическому планированию. Подчеркивается значение устойчивого развития музейной сферы в контексте культурной экономики и социальной миссии музеев.

Qismet Asif Kamilov
master,
Nizami Jalal Maharramov
doctor of philosophy in philology, associate professor,
Ramil Bahman Kazimov
senior lecturer,
Azerbaijan Cooperation University

Economic foundations and management models of museum activity

Summary

The article examines the economic foundations and modern management models of museum activity. It analyzes sources of museum funding, budget formation features, and mechanisms for the efficient use of financial and material resources. Special attention is given to improving the organizational and economic structures of museums, implementing innovative management approaches, and strategic planning. The importance of sustainable development of the museum sector is emphasized in the context of the cultural economy and the social mission of museums.

Aytac Namiq qızı MİRZƏYEVA
magistrant,
aytacmirzayeva05@gmail.com,
İsrayıl İsa oğlu İSGƏNDƏROV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

LİDERLİKDƏ EMOSİONAL İNTELLEKTİN ƏHƏMİYYƏTİ

Təhsil sistemində uğur qazanılmasına təsir edən əsas amillərdən biri də liderlikdir. Təhsil sistemində uğur və nailiyyətlərin qazanılmasını təmin edən liderdə ön plana çıxan əsas xüsusiyyətlərdən biri emosional intellektdir. Emosional intellektə malik insanlar hədəflərə çatmaqda daha ef-

fektiv bir liderlik nümayiş etdirirlər. Bəs emosional intellekt nədir? Liderlikdə niyə bu qədər vacibdir?

Emosional intellekt və ya EQ (emosional əmsal); Öz duyğularını anlamaq, idarə etmək və həmçinin də başqalarının duyğularını anlamaq bacarığıdır. Bu, insanın özünün və başqalarının emosional reaksiyalarını başa düşmək və onları effektiv şəkildə idarə etmək qabiliyyətinə aiddir. Daha geniş mənada emosional intellekt aşağıdakı dörd komponentdən ibarətdir:

- Özünü dərk etmək: Bir insanın duyğularından xəbərdar olmaq və onların hərəkətləri və ya performansları ilə əlaqəsini tanımaq, duyğuların digər insanlara necə təsir etdiyinə dair özünü dərk etmək, öz hisslərini, güclü və zəif tərəflərini, ehtiyaclarını və motivasiyalarını dərindən dərk etməyi də bura aid edə bilərik.
- Özünü idarəetmə: Burada məqsəd insanın öz duyğularını və hərəkətlərini idarə edə bilməsidir.

Ümumiyyətlə, yüksək emosional intellektə malik olan lider aşağıdakı bacarıqlara malik olur:

- Hərtərəfli düşünməyə və anlayışlı olmağa meyl;
- Qeyri-müəyyənlik və dəyişikliklərə rahatlıq;
- Stressli vəziyyətlərdə işləyərkən məhsuldarlığı qorumaq üçün mənfi emosiyaların tənzimlənməsi;
- Dəyişikliklərə açıq olmaq və yeni şərtlərə uyğunlaşmaq;
- Gözləntiləri qarşılamaq, konstruktiv tənqidə açıq olmaq, şəxsi inkişafı davam etdirmək;
- İnsanlarda narazılığa səbəb olan vəziyyətlərin müsbət tərəflərini onlara müsbət prizmadan yanaşaraq göstərmək.

- Sosial şüur: Empatiya qurma qabiliyyəti bu başlığın əsasını təşkil edir. Başqalarının perspektivlərini başa düşmək və onların emosional vəziyyətlərinə uyğun ünsiyyət qurmaq bacarığı burada əsas götürülür. Bundan əlavə, təşkilatlar daxilində sosial rollardan, insan münasibətlərindən və sosial şəbəkələrdən xəbərdar olmaq bu sahədə digər tələblərdəndir.
- Münasibətlərin idarə edilməsi: Bu komponent emosional intellekt və liderlik arasında güclü əlaqəni anlamaq üçün vacibdir. Münasibətlərin idarə edilməsində adətən liderdə axtarılan bacarıqlar bunlardır:

- Digər inasanlara müsbət təsir göstərmək, onları öz hərəkətləri ilə ona dəstək olmağa inandırmaq;
- Rasional məsləhət, konstruktiv rəy, davamlı dəstək və potensialı üzə çıxaran tapşırıqlarla təşkilatda inkişafı təmin etmək;
- Münaqişə vəziyyətlərinə diqqətlə yanaşmaq və hər kəsi inandıracaq həll yolları təklif etmək;
- Kollektivin fəal iştirakını təmin etmək, işin və mükafatların bölüşdürülməsində ədalətli olmaq İstedadların düzgün istiqamətlərdə qiymətləndirilməsi, komanda üzvlərinin güclü tərəflərini üzə çıxarmaq və bütün komandanı ümumi məqsədə çatmaq üçün motivasiya etmək bacarığı.

Qeyd etmək lazımdır ki, emosional intellekt liderlər üçün uğur qapılarını açа bilən bacarıqlardan ibarətdir. O, liderlərə müəssisələrin idarəçiliyindən tutmuş ən kiçik bölməyə qədər bir çox sahədə səmərəliliyi artıra bilən yanaşmalar təklif edə bilər. Liderlikdə emosional intellektin bəzi üstünlükləri bunlardır:

İnsan münasibətləri: Lider öz komandası ilə müsbət və konstruktiv əlaqələr qurmalıdır. Emosional intellekt insanların duyğularını anlamaq və onlara hörmət etmək qabiliyyətini təklif edir. Bu yolla lider öz işçilərini motivasiya etməkdə və onların bağlılığını artırmaqda daha uğurlu ola bilər.

Ünsiyyət bacarıqları: Liderin effektiv ünsiyyət qurmaq bacarığı təşkilatın uğuruna böyük təsir göstərə bilər. Emosional intellekt: bu, səs tonu, empatiya və effektiv dinləmə kimi ünsiyyət bacarıqlarını əhatə edir. Bu, liderə təkliflərini daha yaxşı çatdırmağa və işçilərinin rəylərini daha yaxşı başa düşməyə imkan verir.

Stresin idarə edilməsi: Tez-tez yüksək stres altında işləmək liderin qərar qəbuletmə qabiliyyətinə və fəaliyyətinə təsir göstərə bilər. Burada emosional intellekt onlara stresi daha effektiv idarə etməyə kömək edir. Liderin sakit qalmaq və stresli vəziyyətlərin öhdəsindən gəlmək qabiliyyətinin artırılması da təhsil sisteminin uğurunu artıra bilər.

Komanda işi: Liderin idarə etməli olduğu komandalar çox vaxt fərqli şəxsiyyətlərə malikdir.

Hər bir komanda üzvü lider tərəfindən tanınmalı, onların bir-biri ilə uyğunluğu və bacarıqları dəqiq qiymətləndirilməlidir. Emosional intellekt liderin müxtəlif şəxsiyyətlərlə işləmək və komanda üzvlərini bir yerdə saxlamaq qabiliyyətini gücləndirir. Bu, həm də onların münaqişələri həll etmək və əməkdaşlığa nail olmaq imkanlarını artırır.

Qərarvermə: Qərarvermə mexanizmlərini idarə etmək lider üçün həmişə asan olmaya bilər. Bu mövzuda intuisiyanı gücləndirən emosional intellekt onlara daha şüurlu qərarlar verməkdə dəstək olur. Bu, liderlərə problemlərin həllində daha yaxşı olmağa və təşkilatların uzunmüddətli məqsədlərini daha yaxşı başa düşməyə kömək edə bilər.

Niyə emosional intellekt liderlikdə vacibdir? Emosional intellekt bir neçə səbəbə görə vacibdir.

Emosional cəhətdən intellektli liderlər öz işçilərini uğurlu addımlar atması üçün daim həvəsləndirərkən müsbət, məhsuldar və səmərəli iş yerini inkişaf etdirə və qoruya bilər. Bu vacib bacarıqlara sahib olan liderlər, işçilərin risk götürmək və fikirlərini bölüşmək üçün rahat hiss etdikləri mühiti yarada bilər.Onlar sərt qərarlar qəbul edə, münaqişələri effektiv şəkildə həll edə və dəyişən təhsil məqsəd və şərtlərinə uyğunlaşa bilərlər. Emosional intellektin olmaması liderin başqaları ilə əməkdaşlıq etmək və effektiv ünsiyyət qurmaq qabiliyyətinə mane olur. Lider öz emosiyalarını idarə edə bilmədikdə, işçilər öz fikirlərini bölüşməyə daha az həvəsli ola bilər və onların tam potensialına çatmaq ehtimalı azala bilər.

Nəticə olaraq demək olar ki, emosional intellekt liderlikdə yalnız fərdi keyfiyyət deyil, həm də təhsil müəssisələrinin uğur strategiyasının əsas hissəsidir. Yüksək EQ səviyyəsinə malik liderlər dəyişikliklərə uyğunlaşma, qərarvermə və insan resurslarının idarə edilməsində daha səmərəli olurlar. Onlar həm pedaqoji, həm psixoloji, həm də sosial mühitdə balans yaradırlar ki, bu da ümumilikdə təhsil sisteminin keyfiyyətinə müsbət təsir göstərir.

ƏDƏBİYYAT

1. Goleman D. (2006). Emotional Intelligence. Bantam Books, New York.
2. Salovey P., Mayer J.D. (1990). Emotional Intelligence. Imagination, Cognition and Personality, 9(3).
3. Boyatzis R. (1982). The Competent Manager: A Model for Effective Performance. Wiley.
4. Mayer J.D., Caruso D.R. (2008). Models of Emotional Intelligence. Cambridge University Press.
5. Aydın B. (2020). Liderlik və emosional intellekt. Bakı: "Təhsil" Nəşriyyatı.
6. Goleman D., Boyatzis R., McKee A. (2013). Primal Leadership: Unleashing the Power of Emotional Intelligence. Harvard Business Review Press.
7. Nəbiyeva Ş. (2021). Təhsil rəhbərliyində emosional bacarıqların inkişafı. "Azərbaycan məktəbi" jurnalı, №2.

Айтадж Намиг кызы Мирзаева
магистрант,
aytacmirzayeva05@gmail.com,
Исраил Иса оглы Искендеров
доктор философии по педагогике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Значение эмоционального интеллекта в лидерстве

Резюме

Значение эмоционального интеллекта в лидерстве Эмоциональный Интеллект (EQ) является одним из ключевых факторов успешного лидерства. Он включает способность распознавать, понимать и управлять как своими эмоциями, так и эмоциями других людей. Лидеры с высоким уровнем эмоционального интеллекта способны эффективно мотивировать сотрудников, управлять конфликтами и создавать позитивную рабочую атмосферу. В образовательной среде EQ помогает руководителям укреплять коммуникацию, повышать

мотивацию учителей и улучшать результаты учащихся. Таким образом, эмоциональный интеллект является не только личным качеством, но и важнейшим элементом эффективного образовательного руководства.

Aytac Namig Mirzayeva
master,
aytacmirzayeva05@gmail.com,
Israyil Isa Isgandarov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan State Pedagogical University

Importance of emotıonal ıntellıgence ın leadershıp

Summary

The Importance of Emotional Intelligence in Leadership Emotional intelligence (EQ) is one of the key determinants of successful leadership. It refers to the ability to recognize, understand, and manage one's own emotions as well as those of others. Leaders with a high level of emotional intelligence can effectively motivate their teams, manage conflicts, and create a positive working atmosphere. Within educational institutions, EQ enables leaders to establish strong communication, improve teacher motivation, and foster student success. It also enhances decision-making and adaptability in stressful or changing environments. Consequently, emotional intelligence is not merely a personal trait but a critical component of educational leadership and institutional effectiveness.

Təhminə İlqar qızı İSGƏNDƏROVA
magistrant,
isgenderovatehmine96@gmail.com,
Polad Yadulla oğlu MƏDƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MƏKTƏB RƏHBƏRLƏRİNİN LİDERLİK ÜSLUBLARININ TƏHSİL KEYFİYYƏTİNƏ TƏSİRİ

Məktəb direktorları məktəbin fəaliyyətində mühüm rol oynayan əsas fiqurlar kimi qəbul edilir. Onların tətbiq etdikləri liderlik üslubları vasitəsilə qərar qəbul etmək, məktəbdə müəllim və şagirdlər arasında səmərəli ünsiyyət qurmaq imkanı yaranır. Beləliklə, liderlik üslubları effektiv bir liderin insanları uğura doğru necə motivasiya edib yönləndirəcəyini müəyyənləşdirir.

Bundan əlavə, məktəb direktorları keyfiyyətli təhsilin təmin olunmasında və əlverişli, pozitiv öyrənmə mühitinin formalaşdırılmasında mühüm rol oynayırlar. Onların liderliyi həm peşəkar, həm də şəxsi inkişaf baxımından keyfiyyətli müəllimlərin yetişdirilməsinə şərait yaradır ki, bu da nəticə etibarilə hərtərəfli inkişaf etmiş şagirdlərin formalaşmasına xidmət edir.

Təhsil müəssisələri tez-tez yeni reallıqlara uyğunlaşmağı tələb edən müxtəlif çətinliklərlə üzləşirlər. Məsələn, pandemiya və güclü təbii fəlakətlər ənənəvi üz-üzə tədrisdən modul, onlayn və qarışıq (hibrid) tədris formalarına keçidi zəruri etmişdir. Bu kimi vəziyyətlərin yaranması fərqli liderlik üslublarını anlayan və onların praktik tətbiqi vasitəsilə səmərəli və effektiv rəhbərliyə nail ola bilən liderlərə ehtiyac yaradır.

Məktəb direktorunun liderliyinin keyfiyyəti və effektivliyi birbaşa olaraq təhsil müəssisəsinin və ya təşkilatın uğuru və ya uğursuzluğu ilə əlaqəlidir. Bu səbəbdən, bu məqalədə müxtəlif liderlik üslublarını və onların məktəbin fəaliyyətinə – o cümlədən müəllim və şagirdlərin nəticələrinə – təsirini araşdırmaq, həmçinin məktəb rəhbərlərinin təhsil müəssisəsini uğura aparmaq üçün tətbiq edə biləcəkləri ən effektiv liderlik üslublarını müəyyənləşdirmək məqsədilə qısa sistemli araşdırl-

ma aparılmışdır.

Müasir zamanda təhsil müəssisələrinin qarşısında duran əsas məqsədlərdən biri dəyişən sosial, iqtisadi və texnoloji şəraitə uyğun çevik və effektiv idarəetmənin həyata keçirilməsidir. Bu baxımdan məktəb rəhbərliyinin, xüsusilə də direktorun funksiyası əvvəlki illərlə müqayisədə xeyli genişlənmiş və strateji əhəmiyyət daşıyan bir missiyaya çevrilmişdir. Artıq direktor təkcə inzibati nəzarəti təmin edən şəxs deyil, eyni zamanda vizion sahibi lider, pedaqoji yeniliklərin təşəbbüskarı və məktəb icmasını bir araya gətirən əsas fiqur kimi çıxış edir.

Məktəbdə sağlam və etibarlı öyrənmə mühitinin formalaşdırılması, müəllim heyətinin motivasiyası və peşəkar inkişafı, şagirdlərin həm akademik, həm də sosial sferada nailiyyət qazanması, valideynlərlə qarşılıqlı əməkdaşlığın yaradılması və nəticə etibarilə təhsilin keyfiyyətinin artırılması birbaşa məktəb rəhbərinin idarəetmə tərzi və liderlik bacarıqları ilə sıx bağlıdır. Demokratik, transformativ və ya instruksional olmasından asılı olmayaraq, direktorun liderlik modeli məktəbin gündəlik fəaliyyəti və uzunmüddətli inkişaf istiqamətinə həlledici təsir göstərir.

Məsələn, demokratik liderlik müəllimlərin qərar qəbul etmə prosesinə fəal qoşulmasını təşviq edir və bu, onların işə daha məsuliyyətli münasibət sərgiləməsinə şərait yaradır. Transformativ liderlik isə əməkdaşları ruhlandırmaqla yanaşı, məktəbin ümumi məqsəd və istiqamətini aydınlaşdırmağa yönəlmişdir. İnstruksional liderlik daha çox dərsin keyfiyyətinə, tədris proqramının səmərəli icrasına və müəllimlərin pedaqoji bacarıqlarının inkişafına diqqət yönəldir. Bu yanaşma şagird nailiyyətlərinin artmasında mühüm rol oynayır.

Düzgün liderlik modelinin seçilməsi və ya uyğun kombinasiyaların tətbiqi məktəbin davamlı inkişafını təmin edə bilər. Əks halda, liderlik tərzinin məqsədəuyğun müəyyən edilməməsi və ya səhv tətbiqi məktəbdaxili münasibətlərdə gərginlik yarada, əməkdaşlığın azalmasına və müəllim motivasiyasının zəifləməsinə gətirib çıxara bilər. Bu isə öz növbəsində məktəb strukturunda parçalanmaya, tədris prosesinin səmərəsinin aşağı düşməsinə, nəticədə məktəbin nüfuzunun azalmasına və şagirdlərin akademik nəticələrinə mənfi təsir göstərməsinə səbəb olur.

Tədqiqatın əsas diqqəti direktorların liderlik modellərinə – transformativ, instruksional, demokratik və avtoritar liderlik formalarına yönəlmişdir. Bu modellərin məktəbdaxili idarəetmə sisteminə və kollektivin fəaliyyət səmərəliliyinə təsiri ətraflı şəkildə təhlil olunmuşdur. Məqalədə məktəb direktorlarının rəhbərlik üslubunun təhsilin keyfiyyətinə olan potensial təsirləri hərtərəfli şəkildə araşdırılmışdır.

Son onilliklərdə təhsil idarəçiliyində liderliyin əhəmiyyəti ilə bağlı genişmiqyaslı tədqiqatlar aparılmışdır. Araşdırmalar göstərir ki, məktəb direktorları idarəetmədə fərqli liderlik yanaşmalarından istifadə edirlər və bu yanaşmalar məktəbin daxili mühiti, pedaqoji münasibətlər və ümumilikdə təhsil nəticələrinə birbaşa təsir göstərir. Eyni zamanda, bu yanaşmalar məktəbin mədəni mühitini, müəllimlərarası əməkdaşlıq səviyyəsini və dəyişən pedaqoji ehtiyaclara uyğunlaşma qabiliyyətini də əhatə edir. The Wallace Foundation tərəfindən aparılan sistemli araşdırma məktəb direktorlarının liderlik fəaliyyəti ilə müəllim performansı və şagird nailiyyətləri arasında əhəmiyyətli əlaqənin olduğunu göstərir. Burada vurğulanır ki, güclü liderliyə malik məktəblərdə təhsil nəticələri daha sabit və yüksək olur.

Bundan əlavə, Elmore qeyd edir ki, direktorların yalnız inzibati yox, həm də pedaqoji liderlik nümayiş etdirməsi onların effektivliyini artırır. Onun fikrincə, təhsil sistemində davamlı inkişaf yalnız məktəbdaxili liderlik bacarıqlarının gücləndirilməsi ilə mümkündür. Ən çox rast gəlinən liderlik yanaşmaları transformasional, instruksional, demokratik və avtoritar liderlik tərzləridir. Bu yanaşmalar direktorun vizyonuna, məktəbin ehtiyaclarına və strukturuna uyğun olaraq müxtəlif formalarda tətbiq edilə bilər [4, s. 87].

Transformasional liderlik tərzi məktəb rəhbərliyində ən effektiv metodlardan biri kimi qiymətləndirilir. Bu liderlik tərzi müəllimlərin motivasiyasını və məsuliyyətini artırmaqla təhsil nəticələrinə müsbət təsir göstərir. Transformasional liderlər məktəbdə ortaq məqsədləri formalaşdırır, əməkdaşlığa əsaslanan münasibətlər qurur və yeniliyə açıq mühit yaradırlar. Transformasional liderlik, məktəb direktorlarının müəllim və şagirdləri ilhamlandıraraq onları birgə vizyon ətrafında birləşdirən və dəyişimi təşviq edən liderlik modelidir.

Bu liderlik modeli dörd əsas elementə əsaslanır: nümunəvi təsir, ilhamverici motivasiya, intel-

lektual stimullaşdırma və fərdi yanaşma. Nümunəvi təsir liderin nümunəvi davranışları ilə əməkdaşların etimadını qazanmasını, ilhamverici motivasiya ortaq vizyonun yaradılmasını və bu vizyon ətrafında birləşməni, intellektual stimullaşdırma yaradıcı düşüncəni təşviq etməyi, fərdi yanaşma isə hər bir əməkdaşın ehtiyacına uyğun dəstək göstərilməsini nəzərdə tutur.

Bununla yanaşı, transformasional liderlik müəllimlərin özünə inamını və peşəkar öhdəliklərini artırır. Francisco tərəfindən aparılan tədqiqatda məktəb direktorlarının transformasional liderlik tərzinin müəllimlərin özünə inamı və peşəkar inkişafına əhəmiyyətli təsir etdiyi müəyyən edilmişdir. Müasir təhsil müəssisələrində liderlik yalnız ilhamverici davranışlardan ibarət deyil, həm də funksional və strateji idarəetməni özündə birləşdirən kompleks bir prosesdir [4, s. 89].

Bu baxımdan instruksional liderlik daha məqsədyönlü, nəticəyə yönəlik və texniki yanaşmanı ifadə edir. İnstruksional liderlik tərzi ilk dəfə House tərəfindən transformasional liderliyin tamamlayıcı elementi kimi irəli sürülmüş və son illərdə idarəetmə proseslərində məqsəd, planlama və resursların səmərəli istifadəsi baxımından geniş tətbiq sahəsi qazanmışdır.

İnstruksional liderlik modelinə əsasən direktorun əsas vəzifəsi tədris prosesini yaxından izləmək, müəllimlərin peşəkar inkişafını dəstəkləmək və şagird nəticələrini yaxşılaşdırmaq üçün strateji qərarlar qəbul etməkdir. Hallinger bu yanaşmanı direktorun təlim fəaliyyətini dəstəkləyən, müəllimlərin peşəkar inkişafına önəm verən və tədris proqramlarının düzgün icrasını təmin edən idarəçilik forması kimi təsvir edir.

İnstruksional liderlər problemlərin struktur analizinə əsaslanaraq məqsədyönlü qərarlar qəbul edir və təşkilatda rasional yanaşmanı qoruyurlar. Təhsil sahəsində bu model direktorların təlim keyfiyyətini artırmaq üçün sistematik nəzarət etməsi, müəllimləri dəstəkləməsi və fəaliyyət nəticələrinə əsaslanan qərarlar verməsi ilə özünü göstərir. Bəzi hallarda instruksional liderlik motivasiya və yaradıcı düşüncəni məhdudlaşdıra bilər. Buna görə tədqiqatçılar transformasional və instruksional liderliyin balanslı tətbiqinin daha uğurlu nəticələr verdiyini bildirirlər.

Demokratik liderlik anlayışı ilk dəfə Kurt Leshin və həmkarları tərəfindən 1939-cu ildə təsvir edilmişdir. Onlar liderlik üslublarını avtoritar, demokratik və sərbəst olmaqla üç əsas kateqoriyaya ayırmış və demokratik liderliyin qrup üzvlərinin motivasiyası və məhsuldarlığına müsbət təsir etdiyini müəyyən etmişlər. Demokratik liderlik qərarvermə prosesində müəllim, şagird, valideyn və digər maraqlı tərəflərin fəal iştirakını təmin edərək məktəbdə qarşılıqlı hörmət və açıq ünsiyyət mühiti yaradır. Bu yanaşma məktəb icmasının iştirakı və sosial həmrəyliyin güclənməsi baxımından əhəmiyyətlidir.

Avtoritar liderlik isə qərarvermə prosesində direktorun əsas rol oynadığı idarəetmə üsuludur. Avtoritar liderlikdə direktor təkbaşına qərar verir, əməkdaşların iştirakını məhdudlaşdırır və ciddi nəzarətə əsaslanır. Bu tərz direktorların müəllimlər və şagirdlər üzərində sərt nəzarət tətbiq etdiyi, qaydalara ciddi riayət tələb etdiyi və təşəbbüskarlığı məhdudlaşdırdığı hallarda müşahidə olunur. Aparılan araşdırmalarda avtoritar liderliyin müəllimlərin iş məmnuniyyətinə və motivasiyasına mənfi təsir göstərdiyi müəyyən edilmişdir.

Fərqli liderlik yanaşmalarının məktəb mühitinə təsiri həm təşkilati, həm də fərdi səviyyədə müşahidə olunur. Məsələn, transformasional liderlik müəllimlər arasında əməkdaşlıq ruhunu gücləndirir, instruksional liderlik akademik nəticələri yüksəldir, demokratik liderlik isə sosial kapitalın formalaşmasına yardım edir. Hər bir modelin düzgün tətbiqi müəllim-müəllim və müəllim-şagird münasibətlərinə də müsbət təsir göstərir. Beləliklə, direktorların seçdiyi liderlik üslubları məktəb mühitini, müəllim fəaliyyətini və təhsil keyfiyyətini formalaşdıran əsas amillərdən biri kimi çıxış edir. Bu səbəbdən liderlik bacarıqlarının məqsədyönlü inkişaf etdirilməsi və mövcud liderlik modellərinin praktik tətbiq imkanlarının araşdırılması müasir təhsil tədqiqatlarında aktual istiqamət olaraq qalır.

ƏDƏBİYYAT

1. Əliyeva S. Məktəbin idarə edilməsinin pedaqoji, psixoloji əsasları. Bakı, 2021.
2. Çəndirli G., Fazilova İ. Təhsil islahatlarında dəyişiklik liderliyi. Məqalə, Azərbaycan məktəbi. № 1 (710), Bakı, 2025. s. 9-18.
3. Mərdanlı T. Məktəb idarəetməsində direktorların liderlik tərzinin rolu. Məqalə, *Elmi Tədqiqat*

Beynəlxalq Elmi Jurnal. Bakı, 2025, № 5.
4. Aydın, B. Okul yöneticilerinin liderlik tarzları ve örgüt kültürü ile ilişkisi. Eğitim Bilimleri Dergisi, 10(2), 2018, s.85–102.
5. Emile M. M. The impact of principal's leadership styles on teacher and school effectiveness. 2023.
6. Eloise Joyce M., Leonora F. Towards Success: The Impact of School Head Leadership Style on School Performance – A Systematic Review. 2025.
7. https://muallim.edu.az/
8. https://www.tipii.edu.az/

Тахмина Ильгар кызы Искендарова
магистрант,
isgenderovatehmine96@gmail.com,
Полад Ядулла оглы Мададов
доктор философии по педагогике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Влияние стилей лидерства руководителей школ на качество образования

Резюме

Роль руководителей школ в формировании качества образования привлекает значительное внимание современных исследований в сфере педагогики. Стиль руководства является ключевым фактором, влияющим на эффективность работы школы, профессиональную деятельность учителей и учебные достижения учащихся. В настоящем исследовании анализируется влияние различных стилей лидерства, применяемых руководителями школ, на общее качество образования. Руководство в школе можно условно разделить на трансформационное, транзакционное и «laisser-faire» (свободное) подходы, каждый из которых оказывает различное влияние на организационную культуру, мотивацию педагогов и успеваемость учеников.

Трансформационные лидеры вдохновляют, мотивируют и стимулируют инновации, создавая общую образовательную стратегию и поддерживая профессиональное развитие персонала. Такой стиль лидерства способствует повышению вовлеченности учителей, улучшению методических практик и повышению уровня учебных достижений студентов.

Транзакционные лидеры сосредоточены на структурированном управлении, системе вознаграждений и соблюдении установленных правил, что обеспечивает предсказуемые, но порой ограниченные улучшения качества образования. Стиль «laisser-faire», характеризующийся минимальным участием руководителя и передачей ответственности, часто приводит к снижению удовлетворенности учителей и нестабильным результатам обучения.

Эмпирические данные показывают, что использование стиля лидерства, который сочетает трансформационные качества с эффективными управленческими стратегиями, обеспечивает наиболее благоприятные результаты в образовательной деятельности. Кроме того, взаимодействие стиля руководства с контекстом школы, включая наличие ресурсов, квалификацию педагогов и особенности учеников, существенно влияет на эффективность образовательного процесса. Исследование подчеркивает важность постоянного профессионального развития руководителей школ для адаптации стиля управления к современным образовательным вызовам.

В заключение, стиль лидерства школьного руководителя является определяющим фактором качества образования. Трансформационный стиль лидерства выступает наиболее эффективным для создания позитивной учебной среды, повышения мотивации учителей и улучшения успеваемости учащихся. Политикам и образовательным учреждениям рекомендуется акцентировать внимание на программах развития лидерских компетенций, которые обеспечивают руководителей навыками внедрения практик лидерства на основе доказательной базы.

Tahmina Ilgar Isgandarova
master,
isgenderovatehmine96@gmail.com,
Polad Yadulla Madadov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan State Pedagogical University

The impact of school leaders' leadership styles on the quality of education

Summary

The role of school principals in shaping educational quality has gained significant attention in contemporary educational research. Leadership style is a critical factor influencing the effectiveness of schools, teacher performance, and student outcomes. This study investigates the impact of different leadership styles employed by school principals on the overall quality of education. Leadership in schools can be broadly categorized into transformational, transactional, and laissez-faire approaches, each exhibiting distinct characteristics that affect organizational culture, teacher motivation, and student achievement.

Transformational leaders inspire, motivate, and foster innovation by promoting a shared vision and encouraging professional development. Such leadership is associated with higher teacher engagement, improved instructional practices, and enhanced student learning outcomes. Transactional leaders, in contrast, focus on structured management, reward systems, and compliance with established rules, which can lead to predictable but sometimes limited improvements in educational quality. Laissez-faire leadership, characterized by minimal involvement and delegation of responsibility, often results in lower teacher satisfaction and inconsistent student performance.

Empirical evidence suggests that the adoption of a leadership style that balances transformational qualities with effective management strategies produces the most favorable educational outcomes. Moreover, the interaction between leadership style and school context, including resource availability, teacher qualifications, and student demographics, significantly shapes the effectiveness of educational processes. The study underscores the importance of continuous professional development for school leaders, enabling them to adapt their leadership approaches to evolving educational challenges.

In conclusion, school principals' leadership styles are pivotal in determining educational quality. Transformational leadership emerges as the most effective approach for fostering a positive learning environment, promoting teacher motivation, and improving student achievement. Policymakers and educational stakeholders are encouraged to focus on leadership development programs that equip school administrators with skills to implement evidence-based leadership practices.

Günay Əhliman qızı FƏRƏCOVA
magistrant,
wemsqemer@bk.ru,
Fikrət Çingiz oğlu RZAYEV
filologiya elmləri doktoru, professor,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

PEŞƏKAR TƏHSİL MENECERİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Elm və texnologiyanın inkişafı təhsil müəssisələrinin idarə olunmasının peşəkar şəkildə həyata keçirilməsini tələb edir. İnkişaf etmiş ölkələrdə, xüsusilə XX əsrin ikinci yarısından başlayaraq təhsilin idarə olunmasında mərkəzləşmədən uzaqlaşaraq, qərarların qəbulu prosesində yerli özünüidarəetmə oraqnlarının, təhsil orqanlarının, məktəblərin və valideynlərin səlahiyyətlərinin geniş-

ləndirilməsi, məktəb sistemlərinin təkmilləşdirilməsi və yenidən qurulması prosesində geniş miqyaslı iştirakın təmin edilməsi istiqamətində edilən səylər intensiv şəkildə müşahidə olunur.

Müasir təhsil sistemlərinin əsas xüsusiyyətlərindən biri yüksək ixtisaslı, peşəkar təhsil menecerlərinin hazırlanmasıdır. İxtisaslı və peşəkar idarəetmə təhsil mühitinin yaxşılaşdırılmasına, təhsil xidmətlərinin keyfiyyətinin artırılmasına şərait yaradır. Hazırda iqtisadiyyatın, elmin və təhsilin təkmilləşdirilməsi və innovasiyası üzrə dövlət proqramlarının icrasına cavabdeh olan təhsil menecerlərinin fəaliyyətinin optimallaşdırılması zəruridir.

Peşəkar menecer olmaq üçün bir çox idarəetmə bacarıqları lazımdır. Daha effektiv lider olmaq üçün aşağıdakı idarəetmə bacarıqlarını göstərmək mümkündür.

1. Ünsiyyət və şəxsiyyətlərarası bacarıqlar

Menecerin effektiv ünsiyyət qurmaq bacarığı komandanı birləşdirə və motivasiya edə bilər. Ünsiyyətin formal və ya qeyri-rəsmi, yazılı və ya şifahi, komandayönümlü, fərdi olmasından asılı olmayaraq komandanızı rahatlaşdıracaq şəkildə ünsiyyət qurun. Mətnlər, e-poçtlar, telefon zəngləri və şəxsən söhbətlər ünsiyyətin vacib üsullarıdır. Yaxşı menecerlər öz ünsiyyət tərzini vəziyyətə və ya şəxsə nə vaxt uyğunlaşdıracaqlarını bilirlər.

2. Təşkilat və layihənin idarə edilməsi

Təşkilat layihənin idarə edilməsinin vacib hissəsidir və hər iki bacarıq eyni zamanda həm böyük mənzərəni, həm də incə detalları görməyi tələb edir. Layihəni təsvir etmək, tapşırıqlar vermək, maneələri qabaqcadan görmək və yaradıcı həllər tapmaq, son tarixləri qarşılamaq və maraqlı tərəflərə uğur qazanmaq üçün plan göstərmək bacarığı mükəmməl idarəetmə üçün çox vacibdir.

3. Strateji düşüncə və qərar qəbulu

Strateji düşüncə gələcəyi planlaşdırmaq, ideyalar yaratmaq və uğur üçün strategiyaları həyata keçirmək bacarığıdır. Yaxşı menecerlər mümkün vəziyyətləri nəzərdən keçirir, potensial fəsadları planlaşdırır və riski azaltmaq və ya qarşısını almaq yollarını tapır. Menecerlər tez-tez bir iş günü və ya iş həftəsi ərzində bir çox qərarlar qəbul etməli olurlar. Uğurlu seçimlər komandanın və müəssisənin düzgün işləməsinə kömək edir. Effektiv qərar qəbul etmək çox düşünmədən və ya xırda təfərrüatlardan yayınmadan diqqətlə düşünməyi tələb edir.

4. Problemin və münaqişənin həlli

Mükəmməl menecer problemləri görür və həll edir. Problemi həll etməyin ən yaxşı yolunu tapmaq bacarığı, şəxsə menecer kimi fərqləndirməyə kömək edə bilər və həmçinin komandaya güvən verə bilər. Peşəkar menecerlər qabaqcadan düşünür və risklər gözləyir, sonra həll yollarını fikirləşir və ən yaxşı variantı müəyyənləşdirirlər. Bütün iş yerlərində münaqişə yaşanır və bacarıqlı menecer konfliktləri dərk edə və onu tez həll edə bilər.

5. Motivasiyanın olması

Motivasiya bacarıqlarına komandadan və ya konkret işçidən arzu olunan davranışı ortaya çıxara bilmək daxildir.Peşəkar menecer düzgün motivatorları qəbul edərək komandasını gücləndirə və ruhlandıra bilər. Motivatorlara satış müsabiqələri, həvəsləndirmə və ixtisas üçün yararlı olan proqramları, komandanı ayda bir dəfə nahar etmək və ya sadəcə olaraq şifahi və ya sürətli e-poçt vasitəsilə gördükləri işə görə onlara təşəkkür etmək daxil edə bilərik.

6. Vizyon sahibi olmaq

Aydın bir vizyona sahib olmaq və onu komandaya effektiv şəkildə təqdim etmək menecer üçün vacibdir. Vizyon sahibi olan menecerlər öz baxışlarını komanda üzvləri ilə bölüşür, son məqsədi diqqətdə saxlayır və məqsədə çatmaq üçün hansı addımların atılacağını təsvir edir. Həftəlik, rüblük və illik məqsədlərə və nəticələrə yenidən baxmaq menecerə vizyonun hələ də yolunda olduğuna əmin olmağa kömək edə bilər.

7. Texnoloji bacarıqlar

Menecerlər müvafiq yeni texnologiya tendensiyalarından xəbərdar olmalı və onlardan öz komandaları, layihələri və ya təşkilatı üçün istifadə etməyin yollarını öyrənməlidirlər. Yeni texnoloji təkliflərdən xəbərdar olmaq innovasiyalara təkan verir və müəssisənin məqsədlərinə daha tez çatmağına kömək edir.

Гюнай Ахлиман кызы Фараджова
магистрант,
wemsqemer@bk.ru,
Фикрат Чингиз оглы Рзаев
доктор филологических наук, профессор,
Азербайджанский Государственный Педагогический Университет

Основные характеристики профессионального менеджера по образованию

Резюме

Будь то амбициозный или опытный менеджер, учителя, студенты, родители и т. д. как вести, контролировать проекты и способы улучшить все это. Такие методы и инструменты отражены в статье.

Gunay Ahliman Farajova
master,
wemsqemer@bk.ru,
Fikrat Chingiz Rzayev
doctor of philological sciences, professor,
Azerbaijan State Pedagogical University

The main characteristics of a professional education manager

Summary

Whether ambitious or experienced manager, teachers, students, parents, etc. how to lead, control projects and ways to improve all of these. Such methods and tools are reflected in the article.

Qara Əlvan oğlu RƏHİMOV
magistrant,
Müslüm Hətəm oğlu NƏZƏROV
fəlsəfə elmləri doktoru,
Azərbaycan Kooperasiya Universiteti

ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ SİSTEMİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

İnformasiya cəmiyyətində sosial xidmətlərin inkişafı sosial xidmət sistemi kimi sosial institut tərəfindən həyata keçirilir. Ölkəmizdə onun formalaşması 1990-cı illərin əvvəllərinə təsadüf edir. Bu dövrdə sosial-iqtisadi islahatlar zamanı insanların çoxu yoxsulluq həddinin altında, hətta yaşamaq astanasında idi.

Müasir cəmiyyət kompensasiyanın əhəmiyyətli dərəcədə azalması ilə xarakterizə olunur. Sosial xidmət sistemindən yeni problemlərin həllini tələb edən sosial sferanın zəngin imkanları, bunun əsas mahiyyəti əhalinin müxtəlif kateqoriyalarına münasibətdə təkcə paternalist ideologiya prinsiplərindən uzaqlaşmaq deyil, həm də liberal sistem vasitəsilə diferensial təsir göstərməkdir.

Azərbaycan Respublikasında əhali üçün sosial xidmətlər sosial siyasətin ən vacib sahələrindən birinə çevrilir. Sosial xidmətlər, ilk növbədə, dövlət orqanlarının fəaliyyəti sosial xidmətlər göstərməyə, çətin həyat vəziyyətində olan vətəndaşlara sosial dəstək və uyğunlaşmaya yönəlmiş sosial müdafiə və müvafiq sosial xidmətlər ilə bağlıdır.

Xüsusi sosial fəaliyyət növü kimi sosial xidmət, onun ayrı-ayrı komponentləri, blokları və hissələri arasında çoxsaylı və müxtəlif növ əlaqələri olan, yalnız ona xas spesifik funksiyaları olan mürəkkəb bir sistemdir.

Respublikamızda yaranan bu sistemin elementləri arasında əlaqələr müəyyən bir nizam, daxili

təşkilatlanma, xidmətlərin göstərilməsi funksiyalarının yerinə yetirilməsinə diqqət yetirilməsi, habelə qanunla müəyyən edilmiş sosial uyğunlaşma, yenidən sosiallaşma və sosial reabilitasiya funksiyaları ilə xarakterizə olunur.

Sosial xidmətlərin əsas məqsədi əhalini müvafiq keyfiyyətdə əlçatan sosial xidmətlərlə təmin etmək, "insan kapitalının inkişafı üçün əlverişli şərait yaratmaq", fərdin, əhalinin, onun tərkib hissələrinin sosial vəziyyətini qoruyub saxlamaq və ya dəyişdirmək, sosial, sosial-demoqrafik, sosial-peşəkar qruplar, sosial icmalar və kollektivlər təşkil etməkdir. Sosial xidmətlərin məqsədləri bütövlükdə cəmiyyətin ehtiyacları və onun bütün fərdi səviyyələrinin ehtiyacları ilə müəyyən edilir. Sosial xidmət məqsədlərinin həyata keçirilməsi bir sıra amillərdən asılıdır: sosial-iqtisadi, əxlaqi-etik, sosial-psixoloji, siyasi, dini, demoqrafik, ekoloji və s.

Sosial xidmətlər sahəsində praktiki və təşkilati problemlərin həllinə tətbiqi zamanı cəmiyyətdə sosial-iqtisadi strukturların sistemli ehtiyacları konsepsiyasına əsaslanaraq, bu sahənin aşağıdakı sistem funksiyalarını qeyd etmək olar:

1) bəşəriyyətin sistemli funksiyaları, o cümlədən: a. kasıblara, zəiflərə, xəstələrə və çətin həyat vəziyyətində olan insanlara kömək etmək; b. “sosial orqanizmdə” “enerji artıqlığı” adlandırılan məhsulun istehsalını təmin etmək, çünki resurslara tələbat, məsələn, müharibə və ya təbii fəlakətlər zamanı kəskin şəkildə dəyişə bilər;

2) cəmiyyətdə özünütəşkilat və özünütənzimləmə mexanizmlərinin fəaliyyətinin korreksiyası, yəni insanların davranışlarının onları daxil edən “sosial orqanizmin” maraqlarına uyğunlaşdırmaq, yəni, sistem, din, ailə;

3) cəmiyyətin inkişafının stimullaşdırılması, xüsusilə işsizlik və ya narkomaniya, alkoqolizm və s. kimi xəstəliklər nəticəsində istehlak səviyyəsi azalan əhalinin sosial cəhətdən zəif qrupları arasında “normal istehlak səviyyəsinin” artmasına kömək etmək [8, s.175].

Eyni zamanda, sistemli təhlil göstərir ki, elmi ədəbiyyatda mahiyyətcə əsaslı olaraq fənlərarası xarakter daşıyan vahid təriflərin ilkin işlənib hazırlanması prosesi başa çatdırılmamışdır. Hal-hazırda sosial xidmət metodologiyasının bu hissəsi ən az işlənmiş və sosioloqların və sosial iş nəzəriyyəçilərinin əsərlərində əhatə olunmuşdur. Nəşrlərin böyük sayının kifayət qədər elmi əsaslandırması yoxdur, çünki onlar obyektin spesifik keyfiyyət xüsusiyyətlərini ehtiva etmirlər.

Elmi ədəbiyyatda, fikrimizcə, sistemli yanaşmanın sosial xidmətlərin institusionallaşdırılması proseslərinin şərtiliyini, onun formalaşmasının obyektiv və subyektiv amillərini, o cümlədən sxemdəki metodoloji qeyri-dəqiqliyi üzə çıxaracaq aspektləri: “sosial müdafiə - sosial xidmətlər” kifayət qədər yenilənməyib. Sosial xidmətlər o zaman cəmiyyətdə sosial instituta çevrilə bilər ki, hər bir şəxs sosial xidmətlərə olan tələbatını ödəyə bilsin.

Struktur funksionalizm konsepsiyasının əsas ideyası klassik sosiologiyanın nümayəndələri tərəfindən irəli sürülən “sosial nizam” ideyasıdır. T.Parsonsa [5] görə, sosiologiyanın mərkəzi vəzifələrindən biri cəmiyyətin funksional olaraq qarşılıqlı əlaqədə olan dəyişənlər sistemi kimi təhlilidir. Sistem təkrarlanan və bir-biri ilə əlaqəli hərəkətlərin sabit kompleksidirsə, o zaman fərdin ehtiyacları sosial sistemdə dəyişənlər kimi görünür. T.Parsons qeyd edirdi ki, sosial sistemin ən ümumi və əsas xüsusiyyəti onun hissələrinin və ya dəyişənlərinin qarşılıqlı asılılığıdır. Öz növbəsində, qarşılıqlı asılılıq sistemin tərkib hissəsi olan komponentlər arasındakı münasibətlərdə nizamdır. Sosial quruluşun müxtəlif aspektləri T.Parsons tərəfindən bir çox anlayışlar vasitəsilə açılır, lakin aparıcı olanlar “sistem” və “struktur”dur. Ən ümumi təhlil səviyyəsində nizam, Parsonsa görə, iki prosesin nəticələrinə gəlir:

1) sosial sistemin özünü qorumağa meyli;

2) sosial sistemin xarici mühitə münasibətdə müəyyən sabitliyi saxlamaq meyli[6,s.319].

T.Parsonsun nöqteyi-nəzərindən istənilən sosial qarşılıqlı əlaqədə ən azı dörd aspekti ayırd etmək olar:

1) çoxlu sayda qarşılıqlı əlaqədə olan vahidlər;

2) qarşılıqlı əlaqəni təşkil edən qaydalar toplusu;

3) qarşılıqlı əlaqə prosesinin özü;

4) sistemin mübadilə etdiyi mühit.

T.Parsons sosial sistemin öhdəsindən gəlməli olduğu dörd problem (funksiya) toplusunu müəy-

yən edir:

1) maddi və insan resurslarının rasional təşkili və bölüşdürülməsi problemi (uyğunlaşma problemi);

2) əsas məqsədlərin müəyyən edilməsi və onlara nail olmaq problemi (məqsədyönümlülük problemi);

3) həmrəyliyin qorunması problemi (inteqrasiya problemi);

4) iştirakçıların motivasiyasının saxlanılması və fərdlərin gizli gərginliklərinin aradan qaldırılması problemi (latentlik problemi).

Bütün dörd funksional tələb qarşılıqlı asılılıqda məna kəsb edir. Onlar eyni dərəcədə cəmiyyətin struktur təşkilatının müxtəlif səviyyələrinə şamil edilir: ilkin, ayrı-ayrı aktorların münasibətlərinin baş verdiyi yer; əlaqələrin qrup təşkilatı səviyyəsində qurulduğu idarəetmə səviyyəsi; institusional, hansı təşkilatlarda subyektlərdir; müəyyən sosial sistemin özünün seçim kimi çıxış etdiyi sosial səviyyə.

Əhali üçün sosial xidmətlərin təşkili hazırda sosial xidmətlərə tələbatın strukturunun dəyişdiyi, onların bahalı növlərinin getdikcə daha çox tələb olunduğu bir şəraitdə həyata keçirilir. Daim əlavə sosial xidmət növləri üçün pul ödəməyə hazır olan əhali qrupları yaranır.

Təhlildən göründüyü kimi, onillikdə aparılan islahatlar sosial xidmət sistemində müsbət nəticələr verib. Sosial xidmət hüququ qanunla təsbit olunub, sosial xidmətlər sürətlə inkişaf edir. Onların maliyyə, maddi-texniki və texniki təminatı daim təkmilləşir.

Sosial xidmətlərdə işləmək üçün getdikcə daha çox peşəkar kadrlar gəlir. Yardıma və sosial xidmətlərə ehtiyacın fərdi qiymətləndirilməsi üsulları tədricən tətbiq edilir. Əhalinin müxtəlif kateqoriyaları ilə sosial iş üçün innovativ texnologiyalar hazırlanır.

Prioritet göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsidir ki, bu da indi sosial xidmətlərin imkanları ilə deyil, ehtiyacı olanların fərdi ehtiyacları ilə müəyyən edilməlidir.

Bakı şəhərində apardığımız şifahi sosioloji sorğu göstərir ki, əhalinin müxtəlif kateqoriyaları, xüsusən sosial və asudə vaxt fəaliyyəti formalarında göstərilən sosial xidmətlərin çeşidini genişləndirməkdə maraqlıdırlar: maraq klubları, teatrlarda və həvəskar tamaşalarda iştirak etmək, kompüter hazırlığı savadlılığı və s.

Respondentlərin əksəriyyəti sosial xidmətin qeyri-stasionar və yarımstasionar formalarına üstünlük verir, onlar evlərinin divarlarını həmişəlik tərk etmək istəmirlər. Bu, onların sağlamlığını qoruyub saxlamağa, binaların təmizlənməsini təmin etməyə, sosial mühitlə əlaqə yaratmağa, mənzillərin hərəkət üçün xüsusi cihaz və avadanlıqlarla təmin edilməsinə, sanitar-gigiyenik tədbirlərin həyata keçirilməsinə imkan verən xidmət növlərinin genişləndirilməsini tələb edir.

Demək olar ki, hər üçüncü respondent klinikalara, qohumlara, dostlara və alış-verişə səfərlər üçün nəqliyyat xidmətlərinin genişləndirilməsinin tərəfdarı idi.

Tədqiqatlar göstərdi ki, əlavə xidmətlərin, o cümlədən pullu xidmətlərin inkişafına tələbat getdikcə artır. Bu, yaşlı insanların və digər respondentlərin həyat səviyyəsinin yaxşılaşdığının sübutudur.

Fikrimizcə, xidmətlərin keyfiyyətini artırmaq üçün aşağıdakılar vacibdir:

- qayğı xidmətlərinin, evdə yardımın, dəstəyin mövcud spektrinin genişləndirilməsi, həmçinin yaşlı insanların müstəqilliyini qoruyub saxlamağa imkan verən müvafiq texniki vasitələrin təmin edilməsi;
- xidmətlər haqqında təqdim olunan məlumatların genişləndirilməsi;
- göstərilən xidmətlərin keyfiyyətinə nəzarət;
- sosial işçilərin xidmətlərin göstərilməsi zamanı nümayiş etdirilən şəxsi keyfiyyətləri (həssaslıq);
- zəruri hallarda xidmətlərin həcminin artırılması;
- qayğı xidmətlərinin planlaşdırılmasının təkmilləşdirilməsi.

Yaşlılar xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına kömək edən əlavə şərtləri də qeyd etdilər:

- təhlükəsiz, əlçatan və ucuz nəqliyyatdan istifadə etmək imkanı;
- evdən çıxmaq imkanı;

- səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi;
- rabitə;
- təhlükəsizlik hissi və s.

Yaşlı insanlar arasında keçirilən sorğunu təhlil edərkən qeyd etmək lazımdır ki, xidmətlərin həcminin və onları alanların sayının ümumi artımına baxmayaraq, xidmətlərin əlçatanlığı və müştərilərin tələbatının nəzərə alınması məsələsi tam həllini tapmayıb.

Əhali üçün sosial xidmətlərin inkişafı, dövlətin bu xidmətlərə olan tələbatını ödəyən və gələcəkdə də üstələməsi yalnız institusional, texnoloji və resurs xarakterli kompleks tədbirlərin həyata keçirilməsi, əhalinin bu kateqoriyasının yeni həyat şəraitinə uyğunlaşması əhali üçün sosial xidmətlərin əlçatanlığının və keyfiyyətinin artırılması ilə mümkündür..

Sosial xidmət sisteminin inkişaf prosesi aralıq, keçid xarakterlidir, bu, bir tərəfdən sosial xidmətin sosial təminatın bir hissəsi kimi, digər tərəfdən sosial xidmətin bir hissəsi kimi, üçüncü tərəfdən isə sosial xidmətin bir hissəsi kimi təqdim etmək cəhdlərində əks olunur. Müasir şəraitdə sosial xidmətlər sistemi yaşlı insanların, əlillərin, "risk qrupu" ailələrinin uyğunlaşması, sosial reabilitasiyası üçün nəzərdə tutulmuş sosial institutun fəaliyyəti kimi çıxış edir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4059 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/55044
2. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. 18 fevral 1997-ci il.
3. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu. 30 dekabr 2011-ci il. https://e-qanun.az/framework/23195
4. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanunu. Bakı: "Qanun", 2013.
5. Парсонс Т. Система современных обществ / пер. с англ. Л.А. Седова, А.Д. Ковалева; под ред. М.С. Ковалевой. – М.: Аспект Пресс, 1998. – 269 с.
6. Парсонс Т. О структуре социального действия. – М.: Академический Проект, 2000. – 880 с 319.
7. Малофеев И. В. Развитие социальных услуг: теоретический аспект. М., 2010.
8. Топчий Л. В. Организация социального обслуживания населения: учеб. пособие. М., 2010.
9. Холостова Е. И. Социальная работа: история, теория, практика: учебник. М., 2011.
10. https://unec.edu.az › uploads › 2018/11 ›
11. https://e-qanun.az/framework/3813
12. https://e-qanun.az/framework/80

Гара Алван оглы Рагимов
магистрант,
Муслим Хатам оглы Назаров
доктор философических наук,
Азербайджанский Университет Кооперации

Направления развития системы социальной защиты населения

Резюме

Статья посвящена современным особенностям развития сферы социальных услуг на этапе трансформации в социальный институт. В статье проведен системный анализ целей и функций системы социального обслуживания, выявлены слабые стороны методических разработок, обобщены системные функции сферы социального обслуживания.

Gara Alvan Rahimov
master,
Muslim Hatam Nazarov
doctor of philosophical sciences,
Azerbaijan Cooperation University

Development directions of the social protection system

Summary

The article is devoted to the modern features of the development of the field of social services at the stage of transformation into a social institution. The article shows a systematic analysis of the goals and functions of the social services system, the weaknesses of methodological developments, and the system functions of the field of social services are compiled.

Çinarə Əlibala qızı MƏMMƏDOVA
magistrant,
chinaramaqamedova@gmail.com,
Mübariz Xasay oğlu ƏSƏDOV
pedaqogika elmləri doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİNDƏ RƏQƏMSAL TƏHSİL VASİTƏLƏRİNDƏN İSTİFADƏNİN PEDAQOJİ PROBLEMLƏRİ

Müasir texnologiyaların inkişafı təhsildə əsaslı dəyişikliklər yaratmışdır. Rəqəmsal təhsil vasitələrinin tətbiqi yalnız dərs prosesinin formasını deyil, həm də idarəetmə sistemlərini tamamilə yenidən formalaşdırır. Elektron jurnal, Learning Management Systems (LMS), onlayn qiymətləndirmə vasitələri, tədris resurslarının bulud üzərindən paylaşılması və statistik hesabat alətləri kimi rəqəmsal texnologiyalar təhsil müəssisələrinin idarə edilməsində yeni imkanlar yaradır [1, s. 45]. Lakin bu yeniliklər yalnız texnoloji tərəflərlə məhdudlaşmır; eyni zamanda pedaqoji mühit, müəllimlərlə tələbələr arasındakı münasibətlər və öyrənmə prosesinə psixoloji təsirlər də dəyişir. Bu da bir sıra pedaqoji problemlərin yaranmasına səbəb olur.Rəqəmsal vasitələrin təhsil idarəçiliyində istifadəsi planlama, resursların paylanması, monitorinq və analiz işlərini asanlaşdırır. Elektron jurnallar, bulud əsaslı fayl mübadiləsi, onlayn qiymətləndirmə sistemləri və iştirak qeydləri məktəb rəhbərliyinə dərhal məlumat əldə etməyə və sürətli qərar verməyə şərait yaradır.

Müəllimlərin texnologiyaya münasibəti və onun dərs prosesində tətbiqi pedaqoji inamla birbaşa əlaqəlidir. Araşdırmalar göstərir ki, müəllimlər texnologiyanı öyrəndikcə və onu pedaqoji vasitə kimi qəbul etdikcə, dərslərdə daha effektiv və yaradıcı şəkildə istifadə edə bilirlər. Bundan başqa, rəqəmsal pedaqogikanın inkişafı və qarşılaşılan çətinliklər də əsas araşdırma mövzularındandır [2, s. 210-215].

Pedaqoji problemlər və çətinliklər aşağıdakılardır:

1. Müəllimlərin rəqəmsal savadlılığı və metodik hazırlığı.

Rəqəmsal vasitələrin uğurlu tətbiqi müəllimlərin texnoloji bilik və bacarıqlarından asılıdır. Çox vaxt müəllimlər texniki biliklərdə çatışmazlıq, platformalardan düzgün istifadə edə bilməmə və texnologiyanı pedaqoji məqsədlə necə tətbiq edəcəkləri barədə qeyri-müəyyənlik yaşayırlar. Tədqiqatlara əsasən, müəllimlərin rəqəmsal vasitələrə münasibəti onların pedaqoji inanclarından asılıdır. V.B.Johan (2017) bildirir ki, müəllimin texnologiyaya hazır olması onun tədris yanaşmasına bağlıdır: bəzi müəllimlər texnologiyanı əsas vasitə hesab edir, digərləri isə sadəcə əlavə dəstək kimi görürlər [4, s. 5].

2. Tələbə motivasiyası və öyrənməyə marağın azalması

Rəqəmsal təhsil vasitələrinin geniş tətbiqi nəticəsində tələbə və şagirdlərin motivasiyasında azalma müşahidə olunur. Onlayn mühitdə dərhal və canlı ünsiyyətin olmaması, sosial izolyasiya

hissi və passiv iştirak şagirdlərdə öyrənməyə qarşı marağın azalmasına gətirib çıxarır. Ənənəvi sinifdə olan ünsiyyət, qrup işləri, dərsin müşahidəsi və müəllim reaksiyası kimi motivasiyaedici amillərin azalması bu problemi daha da gücləndirir. Bu isə idarəetmə səviyyəsində dərslərin yaxşı təşkilinə və müəllimlə şagird arasında əlaqələrin möhkəmləndirilməsinə ehtiyac yaradır.

3. Sosial-emosional inkişafın zəifləməsi.

Ənənəvi təhsildə sinifdaxili ünsiyyət, kollektiv fəaliyyət və sosial bacarıqların formalaşması böyük əhəmiyyətə malikdir. Rəqəmsal mühitdə bu sosial elementlər tam şəkildə təmin olunmadığından, şagirdlərin sosial-emosional inkişafında mənfi təsirlər yaranır. Onlar özlərini təcrid olunmuş hiss edir, komandada işləmək, empatiya qurmaq və birbaşa ünsiyyət bacarıqları zəifləyir.

4. Rəqəmsal bölünmə və texniki qeyri-bərabərlik.

Təhsil müəssisələrinin bir qismi müasir texniki avadanlıqlarla təmin olunmasına baxmayaraq, bəzi bölgələrdə internetə çıxış və cihaz təminatı hələ də məhduddur. Bu vəziyyət rəqəmsal imkanlarda fərqliliyə səbəb olur və təhsil alanlar, eləcə də müəllimlər arasında bərabərsizliyi artırır. V.B. Jan (2013) rəqəmsal bölünmənin tədqiqində göstərir ki, texnologiyaya çıxışın məhdud olması sosial və pedaqoji bərabərsizliyi gücləndirir [5, s. 112-130].

Araşdırmalar göstərir ki, texnologiyanın effektiv istifadəsi üçün pedaqoji yanaşmaların tətbiqi, texniki dəstək və müəllimlərin hazırlanması bir-birindən ayrı düşünülməməlidir. Məsələn, Rusiyada aparılan tədqiqatda müəllimlərin və tələbələrin rəqəmsal mühitə adaptasiyası zəif qiymətləndirilmişdir. Bu isə müəllimlərin texnoloji imkanlara malik olduqları halda, pedaqoji baxımdan onları effektiv istifadə edə bilmədiklərini ortaya qoyur. R.M.Hussin (2021) qeyd edir ki, Microsoft OneDrive kimi bulud xidmətləri müəllimlər arasında əməkdaşlığı artırsa da, istifadəçilərin bu xidmətlərə tam hazır olmaması və metodiki istiqamətlərin olmaması nəticələrin gözlənilən qədər faydalı olmamasına gətirib çıxarır [3, s. 85-86].

Təkliflər və həll yolları:

1. Müəllimlər üçün davamlı təlim proqramları və metodiki dəstək təşkil edilməlidir. Müəllimlərin texnologiyadan effektiv istifadəsi üçün yalnız ilkin təlim yetərli deyil. Davamlı və mərhələli təlim proqramları keçirilməlidir. Bu təlimlər həm texniki bacarıqları, həm də texnologiyanın pedaqoji inteqrasiyasını əhatə etməlidir. Təhsil idarələri müəllimlərə fərdi mentorluq, təcrübə mübadiləsi və praktiki seminarlar vasitəsilə dəstək göstərməlidir.

2. Onlayn dərslərdə tələbələrin motivasiyasını artırmaq üçün müxtəlif texnoloji metodlardan istifadə olunmalıdır**.** Oyunlaşdırma (gamification), interaktiv testlər, video əsaslı öyrənmə, simulyasiyalar və virtual laboratoriyalar kimi vasitələr dərs prosesini maraqlı və iştirak yönümlü etməyə kömək edir. Eyni zamanda tələbələrin öz öyrənmə tempinə uyğun materiallara çıxış imkanları yaradılmalıdır ki, bu da fərdi yanaşmanı gücləndirsin.

3. Sosial-emosional bacarıqların inkişafı üçün rəqəmsal mühitlərdə insan yönümlü təcrübələr təşviq olunmalıdır. Şagirdlərin emosional və sosial rifahını dəstəkləyən proqramlar tərtib olunmalıdır. Məsələn, onlayn psixoloji dəstək otaqları, sinif içi virtual sosial fəaliyyətlər (rəqəmsal debatlar, təqdimatlar, sosial layihələr) və müəllim-şagird mentorluğu sistemləri bu sahədə mühüm rol oynaya bilər. Bu tədbirlər şagirdlərin komanda ilə işləmək, empati qurmaq və liderlik bacarıqlarını gücləndirir.

4. Rəqəmsal bərabərliyin təmin olunması üçün inklüziv və sistemli yanaşma formalaşdırılmalıdır.

Hər bir təhsil müəssisəsinin texniki təchizatı, internetə çıxışı və rəqəmsal resurslara əlçatanlığı vaxtaşırı qiymətləndirilməlidir. Dövlət və özəl sektor əməkdaşlığı ilə internet və cihaz təminatında bərabərliyin yaradılması məqsədi ilə subsidiya proqramları, ianə kampaniyaları və mobil texnologiyalardan istifadəyə dəstək layihələri həyata keçirilməlidir.

ƏDƏBİYYAT

1. Abbasov, A., Cəbrayılov, İ. (n.d.). *İlk peşə ixtisas təhsili: problemlər və perspektivlər*. Bakı: Azərbaycan kitabxanası, s. 45.
2. Liliia, V. V., Lizunova, L. R., Komarova, I. A. (2021). *Digital Pedagogy: Problems and Solutions*. Russia, s. 210-215, 3149 s.

3. Hussin, R. M. (2021). The Usage of Microsoft OneDrive Among the Professional College Staff. *Journal of Information and Knowledge Management*, 18(11), 84–87.
4. Johan, V. B. (2017). Understanding the Relationship Between Teachers' Pedagogical Beliefs and Technology Use in Education: A Systematic Review of Qualitative Evidence. *Journal of Educational Technology Research and Development*, s. 4–10.
5. Jan, V. D. (2013). The Digital Divide Research, Achievements and Shortcomings. USA, s. 112–130.

Чинара Алибала кызы Мамедова
магистрант,
chinaramaqamedova@gmail.com,
Мубариз Хасай оглы Асадов
доктор педагогических наук, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Педагогические проблемы использования цифровых образовательных инструментов в управлении образовательными учреждениями

Резюме

Развитие современных технологий внесло значительные изменения в сферу образования. Использование цифровых образовательных инструментов трансформировало не только формат обучения, но и системы управления образовательными учреждениями. Такие инструменты, как электронные журналы, системы управления обучением (LMS), онлайн-платформы для оценки, облачные ресурсы для совместного использования и системы отчетности, создали новые возможности для более эффективного управления образовательным процессом.

Однако эти изменения касаются не только технологий, но и педагогической среды, отношений между учителем и учеником, а также психологических аспектов обучения.С интеграцией цифровых инструментов возникло несколько педагогических проблем. Одной из основных является различный уровень цифровой грамотности и методической подготовки среди преподавателей. Многие педагоги сталкиваются с трудностями из-за недостатка технических навыков, проблем в эффективном использовании цифровых платформ и неопределенности в применении технологий в педагогических целях. Кроме того, мотивация студентов и их интерес к обучению часто снижаются в онлайн-среде из-за уменьшения взаимодействия в реальном времени, социальной изоляции и пассивного участия.

Традиционные факторы мотивации, такие как очное общение, групповая работа и немедленная обратная связь от преподавателя, ослабевают, что усугубляет проблему. Социально-эмоциональное развитие также негативно влияет на цифровое обучение, поскольку отсутствие прямого социального взаимодействия ослабляет способность студентов к сотрудничеству, эмпатии и эффективной коммуникации.

Более того, цифровое неравенство остаётся значительной проблемой, поскольку некоторые образовательные учреждения имеют доступ к современным технологиям и надежному интернету, в то время как другие сталкиваются с ограниченными ресурсами, создавая неравенство среди студентов и преподавателей. Исследования показывают, что эффективное использование технологий в образовании требует интегрированного подхода, который сочетает педагогические стратегии, техническую поддержку и непрерывное обучение преподавателей. Например, исследования показывают, что даже если у преподавателей есть доступ к технологическим инструментам, без достаточной педагогической подготовки и методических рекомендаций их использование часто бывает неэффективным.

Для решения этих проблем предлагаются несколько решений: предоставление постоянного обучения и методической поддержки преподавателям для повышения их способности использовать технологии педагогически; внедрение элементов геймификации, интерак-

тивного контента и социального взаимодействия в онлайн-уроках для повышения мотивации студентов; развитие социально-эмоциональных навыков через онлайн-групповую работу, форумы для обсуждений и программы наставничества преподавателей; а также обеспечение цифрового равенства путем систематической оценки и поддержки технических возможностей всех образовательных учреждений.

Chinara Alibala Mammadova
master,
chinaramaqamedova@gmail.com,
Mubariz Khasay Asadov
doctor of pedagogical sciences, associate professor,
Azerbaijan State Pedagogical University

Pedagogical challenges of using digital educational tools in the management of educational institutions

Summary

The advancement of modern technologies has brought significant changes to the education sector. The use of digital educational tools has transformed not only the format of teaching but also the management systems within educational institutions. Tools such as electronic journals, Learning Management Systems (LMS), online assessment platforms, cloud-based resource sharing, and data reporting systems have created new opportunities for managing education more efficiently. However, these changes go beyond technology alone, affecting the pedagogical environment, teacher-student relationships, and the psychological aspects of learning.

Several pedagogical challenges have emerged with the integration of digital tools. One major issue is the varying levels of digital literacy and methodological preparedness among teachers. Many educators face difficulties due to lack of technical skills, challenges in using digital platforms effectively, and uncertainty about how to apply technology for pedagogical purposes. Additionally, student motivation and interest in learning often decline in online environments due to reduced real-time interaction, social isolation, and passive participation. Traditional motivating factors such as face-to-face communication, group work, and immediate teacher feedback are diminished, intensifying the problem.

Social-emotional development is also negatively impacted in digital learning settings because the lack of direct social interaction weakens students' abilities to collaborate, empathize, and communicate effectively. Furthermore, digital inequality remains a significant concern, as some educational institutions have access to modern technology and reliable internet, while others face limited resources, creating disparities among students and teachers.

Research indicates that effective use of technology in education requires an integrated approach combining pedagogical strategies, technical support, and continuous teacher training. For example, studies have shown that even when teachers have access to technological tools, without sufficient pedagogical training and methodological guidance, their use is often suboptimal.

To address these challenges, several solutions are proposed: providing ongoing training and methodological support for teachers to enhance their ability to use technology pedagogically; incorporating gamification, interactive content, and social engagement in online lessons to boost student motivation; promoting social-emotional skill development through online group work, discussion forums, and teacher mentorship programs; and ensuring digital equity by systematically assessing and supporting the technical capacities of all educational institutions.

Rəvanə Rövşən qızı NƏCƏFOVA
magistrant,
ravananajafova@gmail.com,
Nailə Tofiq qızı HÜSEYNOVA
pedaqogika elmləri doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNKLÜZİV TƏHSİLİN İDARƏ OLUNMASINDA İNNOVATİV YANAŞMALAR

İnklüziv təhsil bütün şagirdlərin fərqli ehtiyaclarına uyğun təhsil almaq hüququnu təmin edən bir yanaşmadır. Bu yanaşma yalnız fiziki əlçatanlıqla deyil, həm də tədris metodlarının, resurslarının və sosial dəstəyin hər bir şagirdin ehtiyaclarına uyğun olması ilə xarakterizə olunur. İnklüziv təhsil, xüsusi ehtiyacı olan şagirdlərin cəmiyyətə tam inteqrasiya olmasını təmin edərək, onların təhsil prosesində bərabər imkanlarla iştirak etmələrini hədəfləyir. Bu məqsədin həyata keçirilməsində innovativ yanaşmaların və texnologiyaların rolu çox böyükdür.Təhsil sisteminin inklüziv və bərabər olmasını təmin etmək üçün yalnız fiziki mühitin əlçatanlığı kifayət etmir. Eyni zamanda, tədris metodları, tədris materialları və ümumi təhsil mühiti də inklüziv prinsiplərə uyğun olmalıdır. İnnovativ yanaşmalar təhsilin hər bir şagirdin ehtiyaclarına uyğunlaşdırılmasını təmin edərək təhsil keyfiyyətini artırır və əlçatanlığı genişləndirir.

İnklüziv təhsildə innovativ yanaşmaların tətbiqi təhsilin hər bir şagirdin fərdi xüsusiyyətlərinə və öyrənmə ehtiyaclarına uyğun olaraq təşkil olunmasını təmin edir. Bu yanaşmalar, təhsil prosesinin daha fərdiləşdirilmiş və şagird mərkəzli olmasına şərait yaradır. İnklüziv təhsilin əsas məqsədi müxtəlif ehtiyacları olan şagirdlərin təhsildə uğurlu olmalarını təmin etməkdir. Müxtəlif tədris metodlarının və yanaşmaların tətbiqi hər bir şagirdin bacarıqlarını və maraqlarını nəzərə alaraq onların inkişafını dəstəkləyir. Bu yanaşmalar, şagirdlərin öz potensialını tam şəkildə ortaya qoymalarına və təhsildə daha yüksək nəticələr əldə etmələrinə kömək edir.

İnnovativ yanaşmaların tətbiqi tədris metodlarını, qiymətləndirmə üsullarını və tədris resurslarını daha çevik və dinamik edir. Həmçinin, texnologiyaların və rəqəmsal alətlərin istifadəsi ilə şagirdlərə fərqli öyrənmə tərzlərinə uyğun təhsil verilə bilər. Məsələn, bəzi şagirdlər vizual vasitələrlə daha yaxşı öyrənirlərsə, bəziləri eşitmə yolu ilə daha effektiv öyrənə bilərlər. Bu cür yanaşmaların təhsildə tətbiqi şagirdlərin fərdi ehtiyaclarını qarşılayır və təhsil mühitində bərabər imkanlar yaradılmasına imkan verir. Bu yanaşmalar həmçinin, təhsil sisteminin daha inklüziv və hər kəsə uyğun olmasını təmin edir.

Rəqəmsal texnologiyalar inklüziv təhsilin inkişafında mühüm rol oynayır. Xüsusi təhsil ehtiyacı olan şagirdlər üçün hazırlanmış proqramlar və tətbiqlər onların dərsləri daha yaxşı başa düşmələrini təmin edir. Səsli proqramlar, mətnoxuma proqramları, interaktiv dərs vəsaitləri və digər rəqəmsal vasitələr şagirdlərin təhsilinə böyük dəstək verir. Bu texnologiyalar təhsilin əlçatanlığını təmin edir və hər bir şagirdin təhsil mühitində bərabər imkanlarla iştirak etməsinə şərait yaradır.

Diferensial tədris yanaşması şagirdlərin fərqli ehtiyaclarına uyğun tədris metodlarının tətbiqini nəzərdə tutur. Müəllimlər şagirdlərin öyrənmə tərzlərini nəzərə alaraq dərs planlarını fərdiləşdirir və müxtəlif öyrənmə yolları təklif edirlər. Bu yanaşma şagirdlərin inkişafını dəstəkləyərək, onların öz potensiallarını daha yaxşı reallaşdırmasına imkan yaradır. Məsələn, bəzi şagirdlər vizual öyrənmə ilə daha yaxşı öyrənə bilərlər, bəziləri isə dinləyərək və ya praktik işlər vasitəsilə daha çox məlumat əldə edirlər.

Kooperativ təhsil yanaşması da inklüziv təhsilin mühüm bir hissəsidir. Bu yanaşma şagirdlərə bir-biri ilə əməkdaşlıq etməyi öyrədir, həmçinin onları sosial bacarıqlarını inkişaf etdirməyə təşviq edir. İnklüziv təhsildə kooperativ tədris metodu şagirdlər arasında müxtəlif qruplar yaratmaq və onlara kollektiv şəkildə işləməyi öyrətməklə təhsilin keyfiyyətini artırır. Bu metodla şagirdlər fərqli bacarıqlara malik olan yoldaşları ilə birgə öyrənir və qarşılıqlı dəstək alırlar.

İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün əlçatanlıq məsələləri də vacib rol oynayır. Əlçatanlıq yalnız fiziki mühitlə məhdudlaşmır, həmçinin tədris materiallarının, texnologiyaların və sosial dəstəyin hər bir şagirdin ehtiyaclarına uyğun olmasını tələb edir.

Fiziki əlçatanlıq məsələləri təhsil müəssisələrinin strukturunun şagirdlərin fərqli ehtiyaclarına

uyğun olmasını təmin edir. Məsələn, xüsusi ehtiyacı olan şagirdlərin təhsil aldığı məktəblərdə təhsil müəssisələrinin binası və sinif otaqları əlçatan olmalıdır. Bu, qaldırıcı qurğular, geniş qapılar, enişli yollər və xüsusi avadanlıqlarla təmin edilir. Bu cür fiziki dəstək şagirdlərin təhsil mühitində daha asan və rahat iştirak etmələrinə imkan verir.

Tədris materiallarının əlçatanlığı da böyük əhəmiyyət kəsb edir. Mətnlərin səsli versiyaları, braille yazısı, vizual və audio materialların istifadəsi əlilliyi olan şagirdlər üçün təhsilin əlçatanlığını artırır. Həmçinin, rəqəmsal texnologiyaların və xüsusi proqramların tətbiqi ilə tədris materiallarının daha əlçatan olması təmin edilə bilər. Şagirdlər öz ehtiyaclarına uyğun materiallar və alətlər vasitəsilə təhsil prosesində iştirak edirlər.

Sosial və psixoloji əlçatanlıq da inklüziv təhsilin mühüm bir hissəsidir. Müəllimlərin və məktəb icmasının şagirdlərə qarşı empatik yanaşması, onları sosial və emosional baxımdan dəstəkləməsi, təhsil mühitində bərabər imkanların təmin edilməsi üçün əhəmiyyətlidir. Şagirdlər psixoloji və sosial dəstək alaraq daha rahat və sərbəst şəkildə təhsil alırlar. Bu dəstək onların təhsil mühitində uğurlu olmalarını təmin edir.

İnklüziv təhsilin effektiv həyata keçirilməsi üçün innovativ yanaşmaların və əlçatanlığın təmin olunması çox vacibdir. Rəqəmsal texnologiyaların tətbiqi, diferensial tədris yanaşmaları və kooperativ təhsil kimi innovativ metodlar şagirdlərə fərqli öyrənmə tərzlərini və ehtiyaclarını nəzərə alaraq təhsil almağa imkan verir. Bu yanaşmalar təhsil mühitində hər bir şagirdin inkişafını dəstəkləyir və onların öz potensialını reallaşdırmasına kömək edir.

Əlçatanlıq məsələləri də inklüziv təhsilin əsas prinsiplərindən biridir. Təhsil mühitinin fiziki və sosial baxımdan əlçatan olması, tədris materiallarının və texnologiyaların hər bir şagirdin ehtiyaclarına uyğun olması təhsil sistemində bərabər imkanlar yaradılmasına şərait yaradır.

Gələcəkdə inklüziv təhsilin daha da inkişaf etdirilməsi üçün təkliflər:

✓ Təhsil müəssisələri inklüziv təhsilin tətbiqi və bu sahədə müəllimlərin təlimləri üçün xüsusi proqramlar təşkil etməlidir.

✓ Tədris alətlərinin və rəqəmsal texnologiyaların istifadəsi genişləndirilməli, əlçatanlıq məsələləri daim diqqətdə saxlanılmalıdır.

✓ Dövlət və özəl sektor birgə əməkdaşlıq edərək təhsil mühitinin əlçatanlığını təmin etməli, xüsusi ehtiyacı olan şagirdlər üçün yeni imkanlar yaradılmalıdır.

Bu kimi tədbirlər inklüziv təhsilin daha effektiv və bərabər şəkildə həyata keçirilməsini təmin edəcək və hər bir şagirdin potensialını ən yüksək səviyyədə inkişaf etdirməsinə şərait yaradacaqdır.

ƏDƏBİYYAT

1. Hüseynov Q., Şərəfxanova L., Məmmədova S., Mikayılova Ü. İnklüziv təhsil. (peşəkarlar üçün metodik vəsait) İbtidai təhsil pilləsi üçün. Bakı, 2010.
2. İsmayılova L. və başqaları. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili. Bakı, Kurrikulum., "Azərbaycan", (iyul-sentyabr), 2009, № 3.
3. Şərəfxanova L., Məmmədova S., Mikayılova Ü. İnklüziv təhsil. Məktəbəqədər təhsil pilləsi üçün. Bakı 2010.
4. "Təhsil Haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: "Qanun", 2009.
5. Təhsil Qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu. I-II cild, Bakı, 2012.
6. Hüseynova N.T. İnklüziv təhsil. Dərs vəsaiti. Bakı 2014.

Равана Ровшан кызы Наджафова
магистрант,
ravananajafova@gmail.com,
Наиля Тофик кызы Гусейнова
доктор педагогических наук, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Инновационные подходы в управлении инклюзивным образованием

Резюме

В статье рассматриваются инновационные подходы к управлению инклюзивным образованием. Основное внимание уделяется использованию современных технологий и адап-

тивных методов обучения для создания равных возможностей для всех учащихся. Подчеркивается важность подготовки педагогических кадров и внедрения цифровых инструментов в образовательный процесс. Автор анализирует успешные практики интеграции детей с особыми образовательными потребностями в общие образовательные учреждения. В заключение предлагаются рекомендации по совершенствованию управления системой инклюзивного образования.

Ravana Rovshan Najafova
master,
ravananajafova@gmail.com,
Naila Tofig Huseynova
doctor of pedagogical sciences, associate professor,
Azerbaijan State Pedagogical University

Innovative approaches in the management of inclusıve education

Summary

The article explores innovative approaches to managing inclusive education. It focuses on the use of modern technologies and adaptive teaching methods to ensure equal learning opportunities for all students. The importance of teacher training and the integration of digital tools into the educational process is emphasized. The author analyzes successful practices of integrating children with special educational needs into mainstream schools. The paper concludes with recommendations for improving the management of the inclusive education system.

Leyla Elnur qızı ƏLİYEVA
magistrant,
əliyevaleyla@gmail.com,
Polad Yadulla oğlu MƏDƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ KOLLEGİAL İDARƏETMƏ

Menecmentin – idarəetmənin müxtəlif problemləri fərqli yanaşmalar baxımından öyrənilə bilər. Məsələn, praktiki baxımdan idarəetmə nəzəriyyəsi, elmi məktəblər arasında əlaqələrin formalaşması, insan münasibətləri və funksiyaları, idarəetmə metodları və üslubu (məsələn, vəziyyətə yanaşma) və s. baxımından yanaşır. Bu cür yanaşmadan menecerin fəaliyyətinin insanlar arasında əlaqə ilə bağlı fəaliyyətin təşkili kimi qəbulu idarəetmədə böyük elmi-praktik əhəmiyyətə malikdir. Bu yanaşma ilə idarəetmə sisteminin və prosesinin aparıcı istiqamətlərindən biri insan əxlaqı, insanlar arasında ünsiyyət resursları, o cümlədən mübahisələr, münaqişələr, kobud rəftar, qərəzli münasibətlər və sairdir. Bu prosesdə yaranan fəsadların vaxtında araşdırılması və aradan qaldırılması xüsusi əhəmiyyət kəsb edir. [4, s.111]

Ali təhsil müəssisələrinin kollegial idarəedilməsi ilə bağlı bəzi mütəxəssislər konfliktləri, şəxsiyyətlərarası münasibətlərdə xoşagəlməz halları, etik standartlara əməl etməməyi bəyənilməyən hallar hesab edirlər. Digərləri isə bu fikrin tam əksini deyirlər. Bu nöqsanlar ali təhsil müəssisələrində, xüsusilə idarəçi və müəllim, müəllimlərlə tələbə və valideynləri arasında baş verən, etik münasibətlərin formalaşmasının böyük əhəmiyyət kəsb etdiyi konfliktlərdir. Hər iki tərəf buna görə də münaqişələrlə işləməyin vacibliyini, münasibətlərin xüsusilə idarəedən və idarəolunanlar etikasının formalaşmasını vurğulayır. İnsanların birlikdə əlaqəli fəaliyyətini rəhbər təşkil edir. İnsanlarla əlaqəli fəaliyyətlər ümumi və xüsusi maraqlar sahəsində qarşıya çıxan tapşırıqların icrası zamanı yaranan münaqişələrin böyüməsinə və genişlənməsinə həlledici təsir göstərir. Belə olanda rəhbər və kollektivin üzvləri istər-istəməz konfliktlərə qarışır, onları idarə etməyə məcbur olur və

onların nəticələrini öz fəaliyyətində hiss edir. İdarəedənin konfliktlərin həlli zamanı görəcəyi işlər və onun fəaliyyətində tətbiq edəcəyi tədbirlərin xüsusiyyəti öz əksini tapır. İnsanların işlədiyi və ya təhsil aldıqları ali təhsil müəssisələrinin fəaliyyətinin xüsusiyyətləri onların arasındakı münasibətlərdə vacib rol oynayır. Hətta bu xüsusiyyətlər ilə insanlar arasında yaranmış münaqişələrin səbəblərini də müəyyən etmək olur. [5, s. 35]

İdarəçi konflikləri təhlil edən zaman nəzərə almalıdır ki, müxtəlif insanların və ya qrupların tutduqları mövqelərdə və bir-biri ilə münasibətlərində ziddiyyətlilik ola bilər və bu səbəbdən fikir ayrılıqları ilə üzləşə bilər. Konfliklər aşağıdakı tipik xarakterləri daşıyır:

- əlaqəli faəliyyat zamanı menecerlər arasındakı məqsədlərin müəyyən edilməsi və tətbiq etmək qaydalarının müəyyən edilməsi;
- Funksional vəzifələrin icrası prosesində idarəetmə qaydalarının kollektiv üzvləri arasında düzgün bölüşdürülməsi;
- Ali təhsil müəssisəsinə yeni işçilərin qəbulu, əməkhaqları, mükafatlar və digər məsələlərlə əlaqədar kollektiv üzvləri arasında münasibətlərin tənzimlənməsi.

Münaqişələr (konfliktlər) sosial həyatın mürəkkəb hadisələrindən biri kimi müxtəlif elmlər tərəfindən öyrənilir - fəlsəfə, sosiologiya, etika, pedaqogika, idarəetmə psixologiyası və s. Münaqişələrin yaranma səbəblərinə, onların cəmiyyətin və ayrı-ayrı şəxslərin həyatında roluna, habelə onların həlli imkanlarına konseptual yanaşma hələ qədim zamanlardan alimlərin diqqətini cəlb etmişdir.

İndiki zamanda konfliktlərin müxtəlif tərifləri mövcuddur. Müəlliflərin bir qismi münaqişəni mövqelərin toqquşması və ziddiyyətli problemlər kimi izah edir, digərləri müxtəlif mənafeləri qəbul edir, üçüncülər hər iki mövqeyi qəbul etməkdən əlavə ziddiyyətli meyllərin, maraqların, əxlaq normalarının toqquşması olaraq qəbullanır, dördüncülər isə hər iki tərəf arasında münaqişələri razılığın olmaması kimi izah edirlər.

Konfliktlərin başa düşülməsində əsas anlayış maraq və ziddiyyət anlayışıdır. Bunu da demək lazımdır ki, hər bir ziddiyyət münaqişə yaratmır. İnsanların maraqlarında və ya əxlaq və motivlərində uyğunsuz hal olduğu halda ziddiyyət konfliktlə nəticələnir. Məhz bu konfliktlər yaranan zaman kollektiv üzvləri birbaşa problemlərin həllində iştirak edir. [1, s.45]

Ümumiyyətlə konfliktlərin yaranma səbəblərini müəyyən etmək çətin məsələdir. Ancaq onların yaranma səbəblərini təxmin edib aşağıdakı qruplara bölmək olar:

- Problemlərin vaxtında aradan qaldırılmaması
- Kollektiv üzvlərinə qarşı diqqətsizlik, onları dinləməmək
- Fikir ayrılığı yaranan zaman idarə edə bilmək qabiliyyətinin olmaması
- İşçilər arasında münasibətin düzgün qurulmaması
- Məsələ problemə çevrilənədək menecerin bunun qarşısını almaması, bir sözlə, idarəçiliyin zəif olması
- Yeniliklərdən uzaq durulması
- Yenilikləri düzgün göstərə bilməməsi
- İşçilər arasında xoşagəlməz hərəkətlərin baş verməsi
- Subordinasiya qaydalarının pozulması
- Rəhbərlərin yanlış qərarları tez- tez qəbul etməsi, yəni düzgün idarəetmə üsullarından istifadə etməməsi
- Kollektivdə münasibətlərin, işçilər arasında psixoloji uyumun olmaması, məqsədlərinin ehtiyaclarının, bir-birinə qarşı davranışların müxtəlif olması
- Rəhbərin kollektiv arasında hər şeyə əmma qoyan - bir sözlə, "çətin adamları" idarə edə bilməməsi
- Həmsöhbəti gizli şəkildə idarə etmək, yəni manipulyasiya olunması
- Əxlaqi fəaliyyətinin, məqsədlərin və həyat təcrübəsinin müxtəlif olması
- Kollektiv arasında bəzilərinin dedikləri sözlər, onların davranışlarının tələblərə uyğun gəlməməsi

Konfliktlərin yaranma səbəblərinə baxdıqda onların müxtəlif struktura malik olduğu görünür. Təcrübəli menecer isə yaranmış bu vəziyyəti düzgün analiz etməyi bacarmalı və nəticələr çıxartmalıdır.

Bir çox alimlər konfliktlərin yaranma səbəblərini araşdırıb və qruplara bölünməsini təklif etmişdir:

- Dəyərlər faktorları – Fərdlər və ya qruplar arasında münasibətlərdən razı olub-olmamasından
- Struktur – şəraitin və münasibətin stabil olması
- Məlumatların xarakteri – tərəflər arasında onların qəbul edilib və ya edilməməsi
- Əxlaqi xarakter daşıyanlar – kodubluq, xoşagəlməz hərəkətlər, eqoistlik və s.

Menecer münaqişələri təhlil edən zaman münaqişə tərəflərinin və münaqişəli fəaliyyətin tərəflərinin hansı tipə aid olduğunu müəyyən etməlidi. Münaqişə yaradan tərəflərin aşağıdakı göstərilmiş tipləri var:

1) qruplararası münaqişə
2) şəxsiyyətlə qrup arasında münaqişə
3) şəxsiyyətlərarası münaqişə
4) şəxsiyyətdaxili münaqişə

Konfliktlərin idarə olunan zaman alınan nəticələr müsbət və ya mənfi ola bilər. Konfliktlərin müsbət həlli aşağıda göstərilmişdir:

- Problemin həllinə münasibət bildirənlərin birliyini yaratmaq;
- Digər sahələrdə və işlərdə əməkdaşlıq etmə imkanları;
- Rəhbərliyin dediklərindən fərqli olan fikirləri və şəxsi fikirləri dinləmək üçün şəraitin yaradılması, susma sindromunun azaldılması;
- Çoxlu ideya və təklifləri qəbul etməklə düzgün qərarlar qəbul etmək;
- Problemin digər tərəflərinə diqqət yetirmək, hərtərəfli araşdırmaq və bütövlükdə həll etmək;
- Problemin həllində prioritetlərin müəyyən edilməsi, şüurlu münasibətin formalaşdırılması.
- İdarəçi və konflikt üzrə mütəxəssisin (mediator) münaqişənin həlli məqsədi ilə söhbətə başlamazdan əvvəl bilməli olduqları məlumatlar aşağıdakılardır:
- Münaqişə (onun tarixi) hansı mərhələdədir, onun həlli üçün hansı tədbirlər görülüb (əgər varsa), həll edilməməsinin səbəbi nədir və hansı müsbət nəticələr əldə edilib;
- Münaqişədə bilavasitə kim və ya kimlər iştirak edir və tərəfləri kim qoruyur;
- Konkret vəziyyətdə nöqsanlar, mövqelər, maraqlar və təkliflər arasında hansı fərqlər var.
- Münaqişənin əsas mənası nədədir, rəqibləri nədən ayırır, nəyə nail olmaq istəyirlər və qarşıdurmanın səbəbləri nələrdir.

İdarəetmədə təşkilatın inkişafı ilə bağlı məsləhətlər verilərkən insan amilinə və insan münasibətlərinə xüsusi diqqət yetirilməlidir. İdarəçinin fəaliyyətində münaqişələrə münasibət mühüm əhəmiyyət daşıyır. İdarəçilər fəaliyyətdə olan zaman konfliktləri idarə etmək üçün müxtəlif metodlardan istifadə edir. [2, s.350]

Bir çox ölkələrin təcrübəsinə əsaslanaraq, problemli situasiyaların və qeyri-müəyyən şəxsi münasibətlərin həlli üçün praktikada sınaqdan keçirilmiş çoxlu sayda effektiv metod və texnologiyalardan istifadə edilir. Onların tədqiq olunan hadisəyə (münaqişəyə) ardıcıl tətbiqi idarəetmədə real nəticələr əldə etməyə kömək edir.

1. Koordinasiya və inteqrasiya mexanizmlərindən istifadə:

- funksiyalararası vəzifə və səlahiyyətlərdən istifadə;
- səlahiyyət səviyyələrinin müəyyən edilməsi, ardıcıl əmrlərin verilməsi qaydası, ixtiyari idarəetmə prinsiplərinin tətbiqi;
- qərarlar qəbul etmək, informasiya ötürülməsinin təşkili məqsədi üçün səlahiyyətlərin müəyyən edilməsi.

2. Hər bir komanda üzvünün funksional vəzifələrinin icrasının nəticələrini, hesabatlarının qiymətləndirilməsi meyarlarını, vəzifələrini, informasiya əlaqələri, suallara cavab verməkdə məsuliyyətlərini, məlumatı kimin, kimə və nə vaxt təqdim etməsini.

Konfliktləri idarə etmək üçün iki real fundamental imkan var. Birincisi, münaqişələrin qarşısının alınması. İkincisi, konfliktli münasibətlərin yaranması prosesində münaqişələrin nəticələrinin istifadəsidir.

Konfliktlərin həllinə qlobal yanaşmalardan biri münaqişə mənbələrinin tez bir zamanda aradan qaldırılmasıdır. Həmişə və hər yerdə konstruktiv prinsipin inkişafı üçün geniş imkanlar var.

3. İdarəetmə tərzindən uzaqlaşma və ya liderin dəyişməsi. Texniki nöqteyi-nəzərdən və ya fərdi siyasətlər vasitəsilə menecer mürəkkəbliyi və stresli vəziyyətləri aradan qaldırmaq üçün müəyyən tədbirlər həyata keçirə bilər. Onlara aşağıdakıları aid etmək olar:

- Diqqətlə qulaq asılması: tapşırıq verərkən tabeliyində olanlarla münasibət qurulması, tapşırıqla bağlı onların fikir və təkliflərini dinləməsi, şəxsiyyətlərarası münasibətlərdə maraqlı olması;
- Qarşı tərəfdən onun vəziyyəti haqqında məlumat alınan zaman vəziyyətini nəzərə almaq;
- Emosional vəziyyət yarandıqda diqqətləri başqa istiqamətə yönəltmək;
- Real vəziyyəti yoxlayan zaman faktlara əsaslanmaq;
- Məsləhət istəniləndə kömək olmaq.

4. Münaqişənin əsl mənbəyinin aradan qaldırılması, başqa sözlə, münaqişə tərəflərindən birinin digər tərəfin xeyrinə münaqişə obyektindən imtina etməyə məcbur edilməsi.

5. Kompleks məqsədlərin qoyulması. Mövcud narazılıqları və münaqişələri həll etmək üçün struktur bölmələr arasında ümumi məqsədlərin müəyyən edilməsi. Təşkilatın və müəssisənin məqsədlərini müəyyən etmək, müəssisənin ümumi məqsədlərinə xidmət etmək üçün idarə və şöbə rəhbərlərinin qəbul etdiyi qərarların nəzərə alınmasına kömək edər. Belə olduqda ayrı-ayrı bölmələrin və ya qrupların maraqları deyil, kollektivin maraqları nəzərə alınır.

6. Mükafat sisteminin müəyyən edilməsi. Mükafat idarəetmə metodu kimi münaqişə vəziyyətində olan insanların mənəviyyatına təsir göstərir. Mükafat sistemi problemləri həll etməyə çalışan işçiləri, o cümlədən menecerləri kollektiv iş prosesinə yönəldir və problemin hərtərəfli həllinə şərait yaradır. [3, s.33]

Qeyd olunan konfliktlərə və onların həllinə ənənəvi münasibət son illər yeni texnologiyaların tətbiqi ilə zənginləşmişdir. Məsələn, konfliktologiyada münaqişənin həlli mediasiya vasitəsilə əldə edilir. Yeni ixtisaslı konflikt ekspertləri - peşəkar konfliktləri həll etməyə qadir olan mediatorlar, metodiki aparat və üsulları bilən mütəxəssislər formalaşır.

ƏDƏBİYYAT

1. M.Zamanova – Təhsildə keyfiyyətin sistemli idarəedilməsi, “Elm və təhsil”, Bakı – 2017
2. Magistrantların Respublika elmi konfransının materialları – “Təhsilin təşkili və idarə olunmasının aktual məsələləri”, Bakı, 7-8 aprel 2022
3. S.Rəsulov, R.Əzizov - Təhsilin idarə edilməsinin nəzəri və praktiki məsələləri, “Müəllim”, Bakı – 2012
4. S.Əliyeva – Təhsildə liderlik, Dərs vəsaiti, Bakı – 2017
5. O.H.Rzayev, S.M.Məmmədov, Ş.N.İsmayılov – Təhsilin idarə olunmasının əsasları, “Mütərcim”, Bakı – 2010
6. M.H.Nəzərov, Ə.M.Nəbiyev -Sosial idarəetmənin əsasları. Dərs vəsaiti. Bakı 2024

Лейла Эльнур кызы Алиева
магистрант,
əliyevaleyla@gmail.com,
Полад Ядулла оглы Мададов
доктор философии по педагогике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Коллегиальное управление в высших учебных заведениях

Резюме

В статье широко и наглядно объяснены и проанализированы конфликты при коллегиальном управлении образованием, причины их возникновения и вопросы их устранения. Поскольку в процессе коллегиального управления конфликты неизбежны, одним из важнейших вопросов является правильное и оперативное разрешение этих конфликтов. Как известно, коллективы сталкиваются с необходимостью поиска путей решения различных проблем, с которыми они сталкиваются со дня своего образования. Способы, которые коллективы ищут для решения своих проблем, называются способами разрешения конфликтов. Про-

цесс разрешения конфликтов считается очень важным с точки зрения эффективности и конкурентоспособности организаций и составляет основу процесса управления. Процесс разрешения конфликтов в управлении представляет собой выбор наиболее правильного и эффективного среди альтернатив, позволяющего организации или отдельным лицам правильно решить свою работу в рамках своих обязанностей и полномочий. Важнейшим качеством любого менеджера является его готовность принимать важные и трудные решения во время конфликтов и компетентность в принятии этих решений. Эффективность работы менеджера связана с эффективностью его решений. Процесс разрешения конфликта дает менеджеру право свободно принимать решение путем тщательного анализа и оценки ситуации. Поскольку руководитель принимает решение сам, он также несет ответственность за его реализацию.

Leyla Elnur Aliyeva
master,
əliyevaleyla@gmail.com,
Polad Yadulla Madadov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan State Pedagogical University

Collegial governance in higher education institutions

Summary

This article provides a comprehensive and visual explanation and analysis of conflicts in collegial education management, their causes, and solutions. Since conflicts are inevitable in collegial management, one of the most important issues is their proper and prompt resolution. As is well known, teams are faced with the need to find solutions to various problems they encounter from the day of their formation. The methods teams seek to solve their problems are called conflict resolution techniques. Conflict resolution is considered crucial for the effectiveness and competitiveness of organizations and forms the foundation of the management process. Conflict resolution in management involves choosing the most appropriate and effective alternative, allowing the organization or individuals to properly accomplish their work within the scope of their duties and authority. The most important quality of any manager is their willingness to make important and difficult decisions during conflicts and their competence in making these decisions. A manager's effectiveness is linked to the effectiveness of their decisions. Conflict resolution gives the manager the right to freely make decisions through careful analysis and assessment of the situation. Since the manager makes the decision themselves, they are also responsible for its implementation.

Səma Vüqar qızı HƏMİDOVA
magistrant,
semahemidova4@gmail.com,
Əbülfət Qulam oğlu PƏLƏNGOV
pedaqogika elmləri doktoru, professor,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

BULUD TEXNOLOGİYALARI VƏ BÖYÜK VERİLƏNLƏRİN TƏHSİL İDARƏETMƏSİNDƏ ROLU

Texnoloji yeniliklər təhsilin inkişaf istiqamətlərini formalaşdırmaqda mühüm rol oynayır. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə potensialın artırılması və məsafədən təhsilin genişləndirilməsi daim aktual ehtiyac olaraq qalır. Texnologiyanın inkişafı və 4-cü sənaye inqilabı ilə bulud texnologiyaları bütün sektorların modernləşdirilməsi və səmərəliliyinin artırılması üçün mühüm

vasitə kimi qəbul edilməyə başlanmışdır [2, s.1198]. Təhsil sektoru da bu texnoloji yeniliklərdən xüsusilə inkişaf etməkdə olan ölkələrdə sosial-iqtisadi və coğrafi məhdudiyyətlər səbəbilə böyük fayda əldə edir. Bu baxımdan informasiya texnologiyalarına əsaslanan platformalar təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir.

Bulud texnologiyaları məsafədən təhsilin səmərəli həyata keçirilməsində və elektron öyrənmənin inkişafında əsas rol oynayan platforma kimi çıxış edir. Ümumilikdə üç əsas bulud sistemi mövcuddur: **xüsusi (Private)**, **ictimai (Public)** və **hibrid (Hybrid)** bulud sistemləri. Xüsusi bulud yalnız bir təşkilat tərəfindən istifadə olunur və bir neçə daxili istifadəçini əhatə edə bilər. İctimai bulud infrastrukturu isə ictimaiyyət üçün açıqdır və adətən provayder tərəfindən idarə olunur. Hibrid bulud isə iki və ya daha çox fərqli bulud infrastrukturunun (xüsusi, ictimai və ya icma əsaslı) birləşməsidir.

Təhsildə bulud texnologiyalarının tətbiqini anlamaq üçün müxtəlif tədqiqatlar aparılmışdır. Əhəmiyyətli nümunələrə İtaliyada **bulud texnologiyalarına əsaslanan pedaqogika (CCE),** İspaniyada **CCE-nin stimullaşdırıcı və maneə yaradan amilləri** və s. daxildir [9, s. 141].

Mövcud məlumat bazaları bulud texnologiyalarının müxtəlif aspektlərini əhatə etsə də, indiyə qədər bu istiqamətdə aparılan tədqiqatların sistemli şəkildə müqayisəsi və təhlili həyata keçirilməmişdir. Halbuki, bulud əsaslı öyrənmə təhsilin növbəti mərhələyə yüksəldilməsi potensialına malikdir. Bununla belə, mövcud tədqiqatların əksəriyyəti bulud texnologiyasının texniki tərəflərinə fokuslanır və onun təhsil sistemlərinə necə inteqrasiya ediləcəyinə dair dərin təhlil təqdim etmir. Bu vəziyyət inkişaf etmiş, inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələr arasında fərqli reaksiya modellərinə səbəb ola bilər. Lakin bu potensial reaksiyalar coğrafi, siyasi və sosial-iqtisadi faktorlar baxımından hələ araşdırılmamışdır.

Bəs "böyük verilənlər" nədir?

Mobil şəbəkələrin genişlənməsi, bulud texnologiyalarının inkişafı və böyük həcmdə məlumatların anlaşılmaz dərəcədə artması "böyük verilənlər" kimi xarakterizə olunur.

Sadəcə məlumatların özü deyil, həm də bu məlumatların toplanması, təhlili və ilkin verilənlərdən informasiya çıxarılması üçün istifadə olunan alətlər və üsullar da "böyük verilənlər" anlayışına daxildir.

Bəs nə bir məlumat toplusunu "böyük verilənlər"ə çevirir?

Bu, tez-tez yenilənən və məkan və ya zaman baxımından çoxsaylı təkrarlanan məlumatlardır. Məsələn, veb arxivlər hər gün çoxsaylı istifadəçilərin saysız-hesabsız veb səhifələrə daxil olması haqqında məlumat saxlayır. Mobil operatorların verilənlər bazaları hər bir abunəçinin hərəkətlərini, vaxt və mövqe göstəricilərini mütəmadi olaraq qeyd edir. Oxşar şəkildə, bir şirkətin minlərlə mağazası, minlərlə məhsulu və milyonlarla müştərisi olur, nəticədə ildə milyardlarla fərqli əməliyyat qeydə alınır [12, s. 38].

Müasir dövrdə təhsilin rəqəmsallaşması və informasiya texnologiyalarının inkişafı nəticəsində böyük verilənlər anlayışı təhsil sistemində mühüm yer tutur. Təhsil müəssisələri hər gün minlərlə tələbə, müəllim, imtahan nəticəsi, dərs prosesi və onlayn fəaliyyətlə bağlı saysız-hesabsız məlumatlar yaradır. Bu məlumatların toplanması, saxlanması və təhlili böyük verilənlərin idarə olunması vasitəsilə mümkündür.

1. Tədris prosesinin fərdiləşdirilməsi:

Böyük verilənlər tələbələrin öyrənmə davranışlarını, bacarıq səviyyələrini və maraqlarını analiz edərək fərdi tədris planlarının hazırlanmasına imkan yaradır. Məsələn, onlayn platformalarda tələbənin hansı mövzularda daha çox vaxt sərf etdiyi və hansı tapşırıqlarda çətinlik çəkdiyi müəyyən edilir. Bu məlumatlara əsaslanaraq sistem tələbəyə fərdi məzmun, əlavə tapşırıqlar və ya məsləhətlər təqdim edir. Beləliklə, fərdiləşdirilmiş öyrənmə konsepsiyası reallaşır.

2. Qərarvermə və idarəetmənin təkmilləşdirilməsi:

Təhsil idarəçiliyi səviyyəsində böyük verilənlərdən istifadə planlaşdırma və strateji qərarların qəbulunda əhəmiyyətli rol oynayır. Universitet və məktəblər statistik göstəriciləri təhlil edərək tələbə nailiyyətlərini, müəllim fəaliyyətini və resursların səmərəli paylanmasını qiymətləndirə bilir. Bu, dəlilə əsaslanan idarəetmə yanaşmasının tətbiqinə şərait yaradır.

3. Təhsildə keyfiyyətin monitorinqi:

Böyük verilənlər vasitəsilə təhsil prosesinin hər mərhələsi real vaxt rejimində izlənilə bilər. Məsələn, onlayn imtahan nəticələri, davamiyyət göstəriciləri və tələbələrin platformalarda aktivliyi analiz edilərək tədris keyfiyyətinin səviyyəsi müəyyən olunur. Bu, müəllimlərə öz metodlarını təkmilləşdirməyə, idarəçilərə isə problemləri vaxtında aşkar etməyə imkan verir.

4. Təhsildə proqnozlaşdırma modelləri:

Böyük verilənlər təhsil sistemində gələcək meyllərin proqnozlaşdırılmasına xidmət edir. Statistik analiz və süni intellekt alqoritmləri vasitəsilə tələbə performansının aşağı düşmə ehtimalı, təhsildən uzaqlaşma riski və ya müəyyən fənlər üzrə uğursuzluq göstəriciləri əvvəlcədən müəyyən oluna bilər. Bu, profilaktik müdaxilələrin həyata keçirilməsinə şərait yaradır.

5. Elmi tədqiqat və innovasiyaların inkişafı:

Tədqiqatçılar böyük verilənlərdən istifadə etməklə təhsil prosesində baş verən dəyişiklikləri daha dərindən analiz edə, yeni tədris metodikalarının effektivliyini qiymətləndirə bilirlər. Böyük verilənlər həm də təhsil siyasətlərinin hazırlanması üçün etibarlı elmi baza yaradır.

6. Təhsil resurslarının səmərəli idarə edilməsi:

Məktəblər və universitetlər resursların (texniki avadanlıq, maliyyə, kadr və s.) istifadəsini böyük verilənlər vasitəsilə təhlil edərək optimallaşdıra bilirlər. Məsələn, hansı bölmələrdə avadanlıqların az istifadə olunduğu və ya hansı fakültələrdə tələbə axınının çox olduğu müəyyən edilə bilər.

"Böyük verilənlər" texnologiyasının digər bir istiqaməti bulud texnologiyaları ilə əlaqəlidir. Bu əməkdaşlığa əsaslanan texnologiyalar təhsil xidmətlərini təkmilləşdirərək, maddi imkanı məhdud olan tələbələrə onlayn məzmunlara daha əlçatan və sərfəli şəkildə çıxış imkanı yaradır. Bundan əlavə, "böyük verilənlər" ənənəvi təhsil sisteminə dəstək olaraq, müəllimlərə tələbələrin nələri bildiyini və hər bir şagird üçün hansı tədris metodlarının daha səmərəli olduğunu analiz etməyə kömək edir.

Bu həm də müəllimlərə tədris prosesini təkmilləşdirmək, metod və yanaşmalarını dəyişdirmək üçün lazımi məlumat təqdim edir. Həmçinin, Data Mining və Data Analytics kimi texnologiyalar tələbə və müəllimlərə onların akademik göstəriciləri barədə vaxtında rəy verir. Bu cür texnologiyalar təhsil müəssisəsi rəhbərlərinə əsaslı qərarlar verməyə imkan yaradan təhsil modelləri formalaşdırır. Məsələn, bu təhsil modelləri tələbələrin fərdi ehtiyacları barədə məlumat verərək, erkən müdaxilə vasitəsilə onların dərsləri yarımçıq qoyma və uğursuzluq riskini azalda bilər. Bu modellər xüsusi təhsil ehtiyacları olan şagirdlər üçün daha uyğun pedaqoji yanaşmaların formalaşmasına da kömək edir.

Bundan əlavə, "böyük verilənlər" ənənəvi təhsil sistemini onlayn təhsil modelinə çevirmək potensialına malikdir. Elektron öyrənmə platformaları son illərdə bütün dünyada geniş populyarlıq qazanmışdır. Bu platformalara getdikcə daha çox tələbə qoşulur və nəticədə yeni onlayn məlumatlar yaranır. Müxtəlif platformalardan toplanan bu yeni verilənlər təhsil müəssisəsi rəhbərlərinə təhsildə yaranan yeni tələbatları və trendləri daha yaxşı anlamağa kömək edir.

Baxmayaraq ki, "böyük verilənlər"in təhsil sahəsində istifadəsi hələlik məhduddur, lakin məlumatlara əsaslanan qərar qəbuletmənin istifadəsi meyli davamlı olaraq artır. Bu artımın əsas səbəbi məlumatlara əsaslanan idarəetmənin effektivliyidir. Proqnozlara görə, bu tendensiya yaxın illərdə daha da güclənəcək və təhsil müəssisələri böyük həcmli məlumatlarla işləyə bilən ixtisaslı mütəxəssislərə ehtiyac duyacaqlar. Təhsil müəssisəsi rəhbərləri ya bu yeni texnologiyalara və alətlərə yiyələnməli, ya da məlumatlara əsaslanan qərar qəbuletməni həyata keçirmək üçün ayrıca şöbə və ya vəzifə yaratmalıdırlar.

Beləliklə, nəticə etibarilə, yaxın gələcəkdə təhsil sahəsində məlumat elmi (Data Science) və məlumat analitikası (Data Analytics) üzrə mütəxəssislərə olan tələbatın əhəmiyyətli dərəcədə artacağı proqnozlaşdırılır.

Bulud əsaslı texnologiyaların dərs prosesinə tətbiqi tədris metodikasının səmərəliliyini artırır, kommunikasiya əlaqələrinin effektivliyini yüksəldir və təhsil müəssisəsinin maliyyə xərclərinin azalmasına səbəb olur. Tələbələrin öyrənmə fəaliyyətinə marağı və motivasiyası güclənir, onlayn təhsil üçün əlverişli mühit təmin edilir. Bulud texnologiyalarının elektron öyrənmə sahəsində tətbiqi təhsil müəssisələrinin qlobal təhsil mühitinə inteqrasiyasını asanlaşdırır və xarici tərəfdaşlarla bərabərhüquqlu əməkdaşlığın inkişafına kömək edir [1, s.203].

ƏDƏBİYYAT

1. Ağayev, F., Məmmədova, G., & Ələsgərova, E. (2017). *Bulud texnologiyaları əsasında elektron təhsilin proqram təminatının araşdırılması.* "Proqram mühəndisliyinin aktual elmi-praktiki problemləri" I Respublika konfransı, Bakı. s.203-206
2. Arowoiya, V. A., Oke, A. E., Aigbavboa, C. O., & Aliu, J. (2020). *An appraisal of the adoption internet of things (IoT) elements for sustainable construction. Journal of Engineering, Design and Technology,* 18(5), 1193–1208.
3. Chae, B. K. (2019). *A general framework for studying the evolution of the digital innovation ecosystem: The case of big data. International Journal of Information Management,* 45(1), 83–94.
4. DeMarco, A. L. (2018). *The relationship between distributive leadership, school culture, and teacher self-efficacy at the middle school*

Сема Вугар кызы Хамидова
магистрант,
semahemidova4@gmail.com,
Абульфат Гулам оглы Пеленгов
доктор педагогических наук, профессор,
Азербайджанский Государственный Педагогический Университет

Роль облачных технологий и больших данных в управлении образованием

Резюме

Современная система образования активно внедряет цифровые решения, среди которых ключевое место занимают облачные технологии и анализ больших данных. Эти инструменты позволяют оптимизировать управление образовательными процессами, обеспечивать прозрачность принятия решений и повышать эффективность административных процедур. Использование облачных платформ способствует дистанционному взаимодействию участников образовательного процесса, а большие данные предоставляют ценную информацию для прогнозирования потребностей, оценки качества обучения и разработки персонализированных образовательных стратегий. Внедрение данных технологий становится важным шагом в направлении цифровой трансформации образования.

Sema Vugar Hamidova
master,
semahemidova4@gmail.com,
Abulfat Gulam Pelengov
doctor of pedagogical sciences, professor,
Azerbaijan State Pedagogical University

The role of cloud technologies and big data in educational management

Summary

The modern education system increasingly relies on digital solutions, with cloud technologies and big data analytics playing a central role. These tools enhance the efficiency of educational management by streamlining administrative processes, enabling evidence-based decision-making, and improving transparency. Cloud platforms facilitate remote collaboration among educators, students, and administrators, while big data analysis supports forecasting needs, evaluating educational quality, and developing personalized learning strategies. The integration of these technologies represents a key step toward the digital transformation of educational governance.

Türkan Elçin qızı ABBASZADƏ
magistrant,
abbasliturkan297@gmail.com,
Müslüm Hətəm oğlu NƏZƏROV
fəlsəfə elmləri doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

TƏHSİLDƏ KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ

Müasir dövrdə təhsil sisteminin səmərəliliyi və rəqabətə davamlılığı onun keyfiyyətinin idarə olunmasından bilavasitə asılıdır. Qloballaşan təhsil, İKT-nin sıçrayışlarla inkişafı və insan kapitalının mühüm önəm kəsb etməsi şəraitində təhsilin keyfiyyəti yalnız daxili, milli çərçivədə deyil, həm də dünya miqyasında mühüm strateji problemə çevrilmişdir. Təhsildə keyfiyyətin təminatı, təhsilin müasir tələblər baxımından idarə edilməsi konsepsiyası tədris prosesinin nəticəyönümlülüyünü, səmərəliliyini və təhsil müəssisələrinin məsuliyyətliliyini təmin edən əsas sistem kimi diqqəti cəlb edir.

"Keyfiyyət" anlayışı pedaqoji prosesdə çoxcəhətli və aktual kateqoriyadır. Keyfiyyət, təhsilin məqsədlərinə, məzmununa, nəticələrinə və idarəetmə mexanizmlərinə kompleks yanaşmanı tələb edən mühüm prosesdir.

UNESCO, OECD kimi beynəlxalq təşkilatların son illərdə apardığı elmi araşdırmalarda təhsildə keyfiyyətin təminatına sistemli yanaşmanın vacibliyi xüsusi vurğulanır. Bu baxımdan təhsildə keyfiyyətin idarə olunması yalnız normativ mexanizmlərin deyil, həm də sosial tərəfdaşlıq, şəffaflıq və innovativ idarəetmə mədəniyyətinin formalaşması ilə səciyyələnir. Beynəlxalq təcrübə göstərir ki, inkişaf etmiş ölkələrdə keyfiyyətin idarə edilməsi prosesi təhsil müəssisələrinin fəaliyyətində əsas strateji xətt kimi qəbul olunur. [3]

Finlandiyada müəllimlərin peşəkar inkişafı və tədris mühitinin humanistləşdirilməsi təhsilin keyfiyyətinə yönəlmiş dövlət siyasətinin əsas tərkib hissəsidir. Finlandiya təhsil sistemi beynəlxalq səviyyədə yüksək nəticələri ilə tanınır. Finlandiya modelinin əsas xüsusiyyəti təhsildə bərabərlik prinsipinin təmin edilməsidir. Təhsil siyasətinin əsas xəttini sosial ədalət və inklüzivlik prinsipləri təşkil eidir.

Finlandiyada keyfiyyətin idarə olunması prosesi dövlət nəzarətindən daha çox etimadəsaslı idarəetmə yanaşması ilə həyata keçirilir. Məktəblər öz tədris proqramlarını müstəqil formada planlaşdırır, müəllimlər də tədris prosesində strateji qərarvermə səlahiyyətinə malikdirlər. Müəllim hazırlığı ali təhsil səviyyəsində magistr pilləsində həyata keçirilir və peşəkar bacarıqların davamlı inkişafı dövlət tərəfindən dəstəklənir. Finlandiya keyfiyyət təminatı modelinin əsas ideyası "daxili keyfiyyət təminatı"nın gücləndirilməsidir - yəni, keyfiyyətə nəzarət yoxlama vasitəsi ilə yox, etimad və peşəkarcasına təmin edilir. [4]

Sinqapurda EEF modeli vasitəsilə təhsil müəssisələrinin fəaliyyətinə müntəzəm monitorinq və özünüqiymətləndirmə tətbiq olunur. Sinqapur modelini təhlil edərkən qarşımıza sistemli planlaşdırma və nəticəyə yönəlik idarətetmə çıxır. Sinqapurun təhsil sistemi dünyada culture of excellence – yəni, mükəmməl idarəetmə mədəniyyəti ilə seçilir. Keyfiyyətin idarə edilməsi burada dövlət səviyyəsində strateji planlaşdırma ilə uzlaşdırılmışdır. Uzunmüddətli "Education Master Plan" proqramı çərçivəsində bütün təhsil pillələri üzrə keyfiyyət göstəricilərini müəyyən edir və onların reallaşmasına nəzarət edir.

Sinqapur modeli təhsildə keyfiyyətin idarə edilməsini həm mərkəzləşdirilmiş planlaşdırma**,** həm də ölçülə bilən nəticələrə əsaslanan hesabatlılıq prinsipləri üzərində qurur. [5]

Böyük Britaniyada təhsildə keyfiyyətin idarə olunmasının əsas mexanizmi Office for Standards in Education, Children's Services and Skills **(**Ofsted) qurumunun fəaliyyəti ilə bağlıdır. Ofsted təhsil müəssisələrinin fəaliyyətini sistemli şəkildə təhlil edərək, hesabatlar hazırlayır və ictimai hesabatlılığa təminat yaradır. Bu təcrübənin əsas prinsipi self-evaluation framework – yəni, "özünüqiymətləndirmə çərçivəsi" modelinə əsaslanır. Təhsil müəssisələri öz fəaliyyətlərini əvvəlcədən

müəyyən edilmiş indikatorlara əsaslanaraq təhlil edir, qiymətləndirir və nəticələr Ofsted yoxlaması zamanı nəzərə alınır. Bu yanaşma 2 istiqamətdə üstünlük yaradır - təhsil müəssisələrinin məsuliyyət hissini artırır və keyfiyyət mədəniyyətini davamlı inkişaf prosesinə çevirir. Bunun nəticəsi olaraq Böyük Britaniya təcrübəsi keyfiyyətin idarə edilməsində xarici və daxili audit mexanizmlərinin inteqrasiyasını təmin edir. ABŞ-da təhsildə keyfiyyətin idarə olunması akkreditasiya sistemi üzərində qurulmuşdur. Akkreditasiya həm ali təhsil, həm də məktəb səviyyəsində əsas keyfiyyət təminatı mexanizmidir. ABŞ modelinin əsas konsepsiyası continuous improvement – fasiləsiz təkmilləşdirməyə istinad edir. Təhsil müəssisələri keyfiyyətin artırılması üçün planlı şəkildə öz fəaliyyətlərini təhlil edir, zəif tərəfləri müəyyənləşdirir və inkişaf strategiyaları hazırlayır. Bu yanaşma həm idarəetmədə şəffaflığı, həm də keyfiyyət göstəricilərinin davamlı monitorinqini təmin edir.[6]

Tədqiqat zamanı görürük ki, uğurlu keyfiyyət idarəetmə sistemi üçün ümumi ölçü vahidləri peşəkarlığa etimad, nəticəyönümlülük, şəffaflıq və davamlı inkişafdır. Ayrı-ayrı ölkələr bu prinsipləri öz sosial-iqtisadi reallıqlarına uyğun şəkildə tətbiq edir.

Azərbaycan Respublikasında təhsil sahəsində aparılan islahatlar da beynəlxalq təcrübənin öyrənilməsinə və adaptasiyasına əsaslanır. Son illərdə qəbul edilmiş bir sıra inkişaf proqramları təhsilin keyfiyyətinin idarə olunması, monitorinqi və təminatı üçün hüquqi və metodiki bazanı formalaşdırmışdır. Bununla yanaşı, təhsildə keyfiyyətin idarə edilməsinin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması aktuallıq kəsb edir. [1]

Azərbaycan təhsil sisteminin davamlı inkişafı və beynəlxalq reytinqlərdə mövqeyinin möhkəmləndirilməsi üçün keyfiyyətin idarə edilməsində dünya təcrübəsinin elmi əsaslarla öyrənilməsi və milli şəraitə uyğun tətbiqi mühüm zərurətə çevrilmişdir.

Təhsildə keyfiyyətin idarə olunması müasir pedaqogikanın ən mühüm istiqamətlərindən biridir və onun nəzəri bazası idarəetmə elmi, pedaqoji proses və strateji menecmentin qarşılıqlı fəaliyyəti üzərində formalaşır. Bu sahənin əsas məqsədi təhsil müəssisələrində idarəetmə mexanizmlərinin təlim prosesi və onun nəticələrinin həm dövlət standartlarının, həm də beynəlxalq keyfiyyət göstəricilərinin tələblərinə cavab verməsidir.

Keyfiyyətin idarə edilməsi yalnız nəzarət və qiymətləndirmə deyil, həm də təhsil fəaliyyətinin bütün mərhələlərində sistemli inkişafın təmin edilməsini nəzərdə tutur.

Təhlillər göstərir ki, təhsildə idarəetmə və keyfiyyət qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Təhsildə idarəetmə prosesi klassik menecment nəzəriyyələrinə, xüsəsən, planlaşdırma, təşkil, nəzarət, motivasiya və koordinasiya prinsiplərinə əsaslanır. Pedaqoji yanaşmada idarəetmə yalnız təşkilati deyil, həm də dəyərlər və insan amilinə yönəlmiş fəaliyyət kimi səciyyələnir.

Müasir dövrdə təhsildə keyfiyyətin idarə edilməsində sistemli yanaşma xüsusi əhəmiyyət kəsb edir. Bu yanaşmaya görə, təhsil müəssisəsi vahid sosial-pedaqoji sistem kimi dərk edilir, burada məqsədlər, proseslər və nəticələr qarşılıqlı asılılıqda fəaliyyət göstərir. Bu konsepsiya "Total Quality Management" (TQM) modelinə əsaslanır. TQM modelinə əsaslanan idarəetmədə əsas diqqət davamlı təkmilləşdirmə, tələbə məmnuniyyəti və personalın peşəkar inkişafına yönəlir.

Təhsil müəssisələrində keyfiyyətin idarə edilməsində "Educational Organizations Management System" beynəlxalq standartı əsas normativ baza hesab olunur. Bu standartın məqsədi təhsil təşkilatlarının idarəetmə proseslərini sistemləşdirmək, maraqlı tərəflərin (tələbə, müəllim, valideyn, cəmiyyət) ehtiyac və gözləntilərini qarşılayan bir struktur yaratmaqdır.

Bu sistemin aşağıdakı prinsipləri mövcuddur:

- Təhsilalan yönümlülük;
- Liderlik və strateji idarəetmə;
- İnsan resurslarının iştirakçılığı;
- Sübutlara əsaslanan qərarvermə;
- Davamlı təkmilləşmə;
- Sosial məsuliyyət və şəffaflıq.

Bu prinsiplərin tətbiqi təhsil müəssisələrində idarəetmənin innovativ modelini formalaşdırır və daxili keyfiyyət təminatı sisteminin inkişafına təkan verir.

Keyfiyyətin təminatı sistemi daxili və xarici keyfiyyət təminatı sistemləri olmaqla 2 əsas

səviyyədə aparılır.

1. Daxili keyfiyyət təminatı - təhsil müəssisəsinin özündə həyata keçirilən planlaşdırma, monitorinq və özünüqiymətləndirmə mexanizmlərini əhatə edir;
2. Xarici keyfiyyət təminatı – dövlət və müstəqil akkreditasiya qurumları tərəfindən aparılan qiymətləndirmə və audit proseslərini əhatə edir. [2]

Avropa ali təhsil məkanında bu yanaşma European Association for Quality Assurance in Higher Education tərəfindən tənzimlənir və European Standards and Guidelines for Quality Assurance əsasında həyata keçirilir. Azərbaycan təhsil sistemi də son illərdə bu prinsipləri mərhələli şəkildə mənimsəyir və milli keyfiyyət təminatı modelinə çevrilir.

Yekun olaraq qeyd edə bilərik ki, təhsildə keyfiyyətin idarə edilməsinin nəzəri əsasları idarəetmənin pedaqoji, sosial və sistemli aspektlərinin məcmusudur. Bu çərçivə beynəlxalq təcrübənin dərin elmi təhlilini və onun milli təhsil siyasətinə uyğun tətbiqini təmin edir.

ƏDƏBİYYAT

1. Zamanova M. Təhsildə keyfiyyətin sistemli idarəedilməsi, “Elm və Təhsil” nəşriyyatı 2017.
2. UNEC xəbər: “Keyfiyyət Azərbaycan təhsilinin prioritetidir” – UNEC-in Tədrisin Keyfiyyətinin Qiymətləndirilməsi və İdarəedilməsi Mərkəzinin fəaliyyəti 2021
3. McKinsey&Company Spark&Sustain: How all of the world’s school systems can improve learning at scale. McKinsey&Company 2020
4. “Two Roads to High Performance: Singapore’s Centralized Approach, Finland’s Decentralized Approach.” ASCD, 2008 Vol. 66
5. A Comparative Study of Primary Curriculum of Finland, Singapore, USA and Romania. European Proceedings, 2022
6. Evaluation of Quality and Equality in Education Using the European Foundation for Quality Management Excellence Model - A Literature Review. Sustainability, 2023.Vol. 16, Issue 3

Туркан Ельчин кызы Аббасзаде
магистрант,
abbasliturkan297@gmail.com,
Муслим Хатам оглы Назаров
доктор философических наук,
Азербайджанский Государственный Педагогический Университет

Изучение международного опыта управления качеством в образовании

Резюме

В статье рассматриваются международные модели управления качеством образования - Финляндия, Сингапур, Великобритания и США - с научно-педагогической точки зрения. В каждой модели анализируются такие компоненты, как подготовка и профессиональное развитие учителей, стратегическая направленность государственной политики, а также механизмы оценки результатов (мониторинг, самооценка, аккредитация). В финской модели ключевое внимание уделяется равенству и профессионализму педагогов; в сингапурской –р стратегическому планированию и подотчётности; в британской- системе контроля Ofsted и рамке самооценки; в американской - аккредитации и подходу непрерывного совершенствования. Сравнительный анализ показывает, что во всех моделях общими измерениями выступают доверие к профессионализму, прозрачность, ориентация на результаты и устойчивое развитие, однако их реализация определяется социально-экономическим и культурным контекстом каждой страны. В заключение представлены рекомендации по адаптации международных моделей к системе образования Азербайджана с учётом национальных особенностей и правовых основ.

Turkan Elchin Abbaszadeh
master,
abbasliturkan297@gmail.com,
Muslim Hatam Nazarov
doctor of philosophical sciences,
Azerbaijan State Pedagogical University

Learning international experience in quality management in education

Summary

The article examines international models of quality management in education - Finland, Singapore, the United Kingdom, and the United States - from a scientific and pedagogical perspective. Each model is analyzed in terms of teacher preparation and professional development, the strategic orientation of education policy, and performance evaluation mechanisms such as monitoring, self-evaluation, and accreditation. The Finnish model emphasizes equality and teacher professionalism; the Singaporean model focuses on strategic planning and accountability; the British model centers on the Ofsted inspection system and the self-evaluation framework; while the American model relies on accreditation and the principle of continuous improvement. A comparative analysis reveals that trust in professionalism, transparency, result-orientation, and sustainable development are shared principles across all models, though their implementation depends on each country's socio-economic and cultural context. The article concludes with recommendations for adapting these international models to Azerbaijan's education system in alignment with national conditions and regulatory frameworks.

Sitarə Vaqif qızı ƏHMƏDOVA
magistrant,
Ülviyyə Bəxtiyar qızı MEHRƏLİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

TƏHSİL SİSTEMİNİN İNKİŞAF MEXANİZMLƏRİNİN TRANSFORMASİYASİ

Azərbaycan təhsilinin və onun altsistemlərinin davamlı inkişafının idarə edilməsi üçün sosial mexanizmlərin komponentləri, əsas xüsusiyyətləri və həyata keçirilməsi şərtlərinin elmi şəkildə başa düşülməsinə ehtiyac bir sıra mühüm amillərdən irəli gəlir. Bu amillər ümumi ictimai transformasiyalar, müasir cəmiyyətdə təhsilin dəyişən rolu və təhsil sistemində müvafiq olaraq yeni keyfiyyətə ehtiyac, yeni idarəetmə texnologiyalarının ortaya çıxması və nəhayət, təhsilin inkişafının idarə edilməsinin aşağı sosial-iqtisadi səmərəliliyi ilə əlaqələndirilir.

Vətəndaş cəmiyyətinin, səmərəli iqtisadiyyatın və təhlükəsiz dövlətin qurulması perspektivləri birbaşa təhsil sisteminin davamlı inkişafı ilə bağlıdır. Bu, "Təhsil" layihəsinin prioritet milli layihələrdən birinə çevrilməsində özünü göstərir. O, ölkənin innovativ inkişafı üçün təhsilin vacibliyini açıq şəkildə ifadə edir və əsas məqsədləri müəyyən edir: innovativ proqramların stimullaşdırılması və yeni idarəetmə mexanizmlərinin tətbiqi. Milli layihənin effektivliyi daha çox inkişaf proseslərinin davamlılığından və əldə edilən nəticələrdən asılı olacaq.

Fərdlər və bütövlükdə cəmiyyət tərəfindən zəruri hesab edilən təhsildə dəyişikliklər bir çox cəhətdən dövlətin təhsil sisteminin inkişafı ilə bağlı baxışlarına yaxındır. Təhsilin tələb olunan keyfiyyətinə nail olmaq hazırda təhsilin inkişafına idarə olunan müdaxiləni tələb edir, çünki təhsil sisteminin təkamül və inertial hərəkəti iqtisadiyyatın müasir tələbatlarından geri qalır. Təhsil sisteminin mühafizəkarlığı faktiki olaraq sistemin özündə iqtisadi cəhətdən arzu olunan inkişafın layihələndirilməsi və proqnozlaşdırılması imkanlarını istisna edir.

Aydındır ki, təhsil sistemində keyfiyyətin yeni səviyyəsinə nail olmaq və onun davamlı inkişafı

sistemdə, proseslərdə və inkişafın idarə edilməsi mexanizmlərində eyni dərəcədə əhəmiyyətli dəyişikliklər olmadan mümkün deyil. Ümumilikdə cəmiyyətin və xüsusən də idarəetmə sistemlərinin davam edən demokratikləşməsi təhsilin inkişafı proqramlarının (faktiki bütün səviyyələrdə) işlənib hazırlanmasına gətirib çıxardı ki, bu da artıq təkcə idarəetmə sistemlərinin müstəsna funksiyası deyil. Cəmiyyətin təhsildə idarəetmə resursları idarə olunan qurumun davamlı inkişafı üçün mühüm əhəmiyyət kəsb etmişdir. Bununla belə, hazırda təhsil prosesində həyata keçirilən iqtisadi idarəetmə mexanizmləri fərdlərin obyektiv müasir tələbatlarına cavab vermir, bütövlükdə təhsil sisteminin, onun regional altsistemlərinin iqtisadi cəhətdən davamlı inkişafına kömək etmir.

XXI əsrdə yalnız intellektual və texnoloji rəqabətə tab gətirə bilən milli iqtisadiyyatlar (və deməli, suveren dövlətlər) müstəqil qalacaqlar. Respublikamız hazırda öz inkişafında bir çox ölkələrdən geri qalsa da, zəngin genetik və resurs potensialı, eləcə də qalan elmi-texniki potensialı hələ də mövcud tənəzzülü aradan qaldırmağa və ölkəni sanballı səviyyəyə qaldırmağa qadirdir. Bunda ali peşə təhsili həlledici rol oynamalıdır.

Ölkənin və ya regionun iqtisadi inkişafı ümumi təhsilin, xüsusən də ali təhsilin keyfiyyətindən asılıdır. Təhsil sistemi davamlı olaraq dəyişən, inkişaf edən sistemdir, onun inkişaf mənbəyi işçilərin təliminə artan tələblər ilə uyğunlaşma reaksiyalarının ətaləti, kurikulum və proqramların reflekslər arasındakı ziddiyyətlərdir.

İşçilərin ixtisasına və peşəkarlığına tələbləri artıran, sahibkarlıq təşəbbüsünü təşviq edən bazar sistemi ali təhsil sisteminə yeni tələblər qoyub. Əmək bazarı və onun dinamikası haqqında məlumatların təhsil xidmətləri bazarının real vaxt rejimində təhlili üçün kifayət etmədiyi sübut edilmişdir. Nəticə etibarı ilə təkcə yeni özəl ali məktəblər deyil, həm də dövlət təhsil müəssisələri vaxtında rəhbərlikdən və əmək bazarının vəziyyəti, tələb olunan mütəxəssislərin keyfiyyət və kəmiyyəti ilə bağlı rəylərdən məhrum olmuşlar. Universitetlər daxili idarəetmə məsələlərinə əlavə olaraq, nisbətən yeni problemlərlə - strateji planlaşdırma və idarəetmə ilə üzləşdilər. Muxtariyyət əldə edən universitetlər öz planlarını hazırlamağa və həyata keçirməyə başladılar ki, bu planların əsas məqamlarından biri də bazarda tələbat olan mütəxəssislərin hazırlanmasıdır. İndi təhsil prosesinə son məhsulu mütəxəssis olan istehsal prosesi kimi baxılır

Ali təhsilə əmtəə kimi bu baxış 1990-cı illərdən başlayaraq ABŞ-ın təhsil idarəçiliyi modelini səciyyələndirir. Amerika təhsil modelində özəl universitetlər, ödənişli təhsil, rəqabət, elmin inkişafı, tədris və tədqiqatın inteqrasiyası vasitəsilə universitetlərin özünü təmin etməsi və gəlirliliyi üstünlük təşkil edir. Məsələn, Kaliforniya Universitetinin (20.000 tələbəsi ilə) 28 milyard dollar fondu var və onu tədris və tədqiqatın keyfiyyətinin yaxşılaşdırılmasına sərmayə qoyur. Bu yanaşma işəgötürənin tələbləri ilə məzun hazırlığının keyfiyyəti arasındakı fərqi daraldır[3].

Universitetin təhsil texnologiyaları ilə qabaqcıl biznes texnologiyaları arasında fərq o qədər böyükdür ki, sorğu vərəqələri və mütəxəssis istehlakçıların sorğuları kurikulum və standartların necə dəyişdiriləcəyini müəyyən etməyi çətinləşdirir. Universitetin idarəetmə sistemi xarici mühitdəki dəyişikliklərə həssas deyil. Müasir texnologiyalarda, prosedurlarda, toplanmış təcrübədə, konkret biznes və onun idarəetmə sistemində həyata keçirilən gizli biliklərdə təcəssüm tapmış maddiləşmiş biliklər universitet tərəfindən qəbul edilmir. Bu, fakültənin səriştəsi məsələsini gündəmə gətirir. Bilmədiyini öyrədə bilməzsən; öyrətmək üçün müəyyən bir sahədə çalışmalı və davamlı olaraq öyrənməlisən.

İnnovasiyalar bazarında baş verən dəyişikliklər, bir tərəfdən, mütəxəssis yetişdirmək üçün lazım olan vaxtdan daha tez keçir. Digər tərəfdən, bu proseslər təhsil texnologiyalarının və kurikulumların tam yenidən qurulmasını tələb etməyə bilər. Bu o deməkdir ki, müvafiq bilik və bacarıqlara malik mütəxəssislərin yetişdirilməsinin ənənəvi mexanizmləri ilə yanaşı, təhsil müəssisələri ilə biznes arasında qarşılıqlı əlaqənin müəyyən operativ mexanizmi də zəruridir [4] .

Mütəxəssislərə lazımi tələbatın olması universitetin seçdiyi strategiyanın düzgünlüyünün əsas göstəricilərindən biridir. İndi əsas oyunçular biznes problemlərinin həllində iştirak etməklə, biznes tərəfindən qoyulan məqsədlərlə universitetin rəhbərliyi və professor-müəllim heyəti olmalıdır. Tələbələrdən rəhbərlik və fakültəyə uyğunlaşma prosesində vurğulanan bu dəyişiklik aşağıdakılara imkan verəcək:

- aktual rəy məlumatlarının alınmasını sürətləndirmək;

- linqvistik problemi həll etmək (idarəetmə və biznes dilini uyğunlaşdırmaq);
- tələbələri müasir biliklərlə təmin etmək;
- Universitet innovativ fəaliyyətlərdə iştirak edəcək və real vaxt rejimində bazar dəyişikliklərinə cavab verəcək.

Bu, marketinq yönümlü və yüksək səviyyəli innovasiya ilə universitetin təhsil xidmətləri bazarında yerləşdirilməsi üçün adaptiv strategiyanın hazırlanması üçün əsas olacaq.

ƏDƏBİYYAT

1. Məmmədova E.B. Sosial işin iqtisadi əsasları. Dərs vəsaiti. Baki-2024,762s.
2. Nəzərov M.H., Nəbiyev Ə.M.Sosial idarəetmənin əsasları. Dərs vəsaiti. Bakı ”TİC Print” nəşriyyatı, 2024.672s.
3. Гольдштейн, Г. Я. Стратегическое управление инновациями: тенденции, технологии, опыт . – Таганрог: Изд-во ТРТУ, 2002.
4. Долятовский В.А., Рябченко Т.Н., Мазур О.А. Конкурентоспособность на рынке образовательных услуг и управление развитием высших учебных заведений. Монография. – Невинномысск: НИЭУП, 2007. – 219 с.
5. http://www.stavedu.ru/index.php3

Ситара Вагиф кызы Ахмедова
магистрант,
Ульвия Бахтияр кызы Мехралиева
доктор философии по педагогике, доцент,
Азербайджанский Университет Кооперации

Трансформация механизмов развития системы образования

Резюме

В данной статье автор проводит анализ трансформации механизмов развития современной системы высшего образования. Выявлено, что в современных условиях образовательный процесс рассматривается как производственный процесс, конечным продуктом которого является специалист. Разработан механизм адаптации выпускников, основанный на приобретении знаний. Результаты исследования могут быть использованы администрацией образовательных организаций для разработки адаптивной стратегии их трудоустройства на рынке образовательных услуг.

Sitara Vagif Ahmadova
master,
Ulviyya Bakhtiyar Mehraliyeva
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan Cooperation University

Transformation of the development mechanisms of the education system

Summary

In this article, the author presents an analysis of the transformation of the development mechanisms of the modern higher education system. It turns out that in modern conditions the educational process is viewed as a production process, the final product of which is a specialist. A graduate adaptation mechanism based on the acquisition of knowledge has been developed. The results can be used by administrators of educational institutions to develop an adaptive strategy for their placement in the educational services market.

Vasif Azər oğlu ABDURRƏHMANZADƏ
magistrant,
Müslüm Hətəm oğlu NƏZƏROV
fəlsəfə elmləri doktoru,
Azərbaycan Kooperasiya Universiteti

SOSİAL MÜDAFİƏ SİSTEMİNİN SOSİOLOJİ MODELLƏRİ

Sosial-əmək münasibətlərinin və dövlətin sosial siyasətinin ən mühüm tərkib hissələrindən biri əhalinin sosial müdafiəsidir ki, onun subyekti maddi rifah səviyyəsi, əhalinin ehtiyacı olan kateqoriyalarına sosial və tibbi yardımın göstərilməsi, təhsilin əlçatanlığı kimi dövlət vətəndaşlarının həyatının ən mühüm şərtlərini əhatə edir.

Geniş mənada sosial müdafiə dedikdə dövlətin və sosial institutların əhalinin normal fəaliyyətinin təmin edilməsinə yönəldilmiş fəaliyyəti başa düşülür. Dar mənada sosial müdafiə dövlət sosial təminatları, sosial sığorta və sosial yardım sistemidir.

Azərbaycanda "əhalinin sosial müdafiəsi sistemi" konsepsiyasının yaranması, habelə onun sovet dövründə fəaliyyət göstərən "sosial təminat sistemi" əsasında tədricən, təkamül yolu ilə transformasiyası iqtisadi islahatlar nəticəsində vətəndaşlara dəymiş itkilərin ödənilməsi zərurətindən irəli gəlirdi.

Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə "sosial təminat sistemi" anlayışı 19-cu əsrin sonlarında yaranmışdır. 20-ci əsrdən başlayaraq ölkə əhalisinin müəyyən həyat standartı, keyfiyyəti və sosial təminatlarla təmin edilməsində dövlətin mövqeyini ifadə edən dövlət sosial siyasətinin əsas mexanizminə çevrildi.

Qərbi Avropa ölkələrinin böyük əksəriyyətinin sosial inkişafı kontekstində sosial müdafiə sisteminin mürəkkəb struktura malik bir sistem kimi transformasiyasını nəzərə alaraq, bir sıra mərhələləri, yəni tarixi inkişafda spesifik xüsusiyyətlərə malik olan zaman intervallarını müəyyən etmək lazımdır.

Birinci mərhələ (sənayedən əvvəlki) - 19-cu əsrin sonu - 1920-ci illər. Məhz bu dövrdə O.Bismark əməyin mühafizəsinin və məcburi sosial sığorta sisteminin formalaşmasının əsaslarını qoydu.

Bismark modeli əsasında qurulan milli sosial müdafiə sistemlərinin əsas xüsusiyyətləri əmək sferasında münasibətlərin xüsusiyyətlərinin maksimum nəzərə alınması, burada sosial müdafiənin əsas institutu kimi çıxış edən icbari sosial sığorta vasitəsilə müxtəlif peşə icmalarının və kateqoriyalarının işçilərinin maddi rifahının müəyyən səviyyəsinin saxlanmasıdır [5].

İkinci mərhələ (1920-1960-cı illər, sənaye) müxtəlif ölkələrdə sosial müdafiə sistemlərinin təkamülünün müxtəlif olması, milli xüsusiyyətlərin milli sosial müdafiə sistemlərinin formalaşması və inkişafına müxtəlif yanaşmalara səbəb olması ilə müəyyən edilir. Bununla belə, əsas müəyyənedici amillər istehsalın geniş şəkildə sənayeləşməsi, dünya müharibələrinin nəticələri, kapitalist ölkələrində iqtisadi böhranlar və sosial yönümlü dövlət idarəçiliyinin mövcudluğu, yəni sosial sabitliyin təmin edilməsi üçün dövlətin müdaxiləsini tələb edən ən mühüm sosial-iqtisadi hadisələrdir.

- Sığorta yükünün işçilər arasında paritet bölgüsü əsasında işləyən peşə icmalarının icbari sosial sığortası;
- Qarşılıqlı sığorta tərəfdaşlıqlarının formalaşdırılması yolu ilə sosial sığortanın özünüidarəetmə sistemi.

Əsas məqsəd peşəkar sektorda icbari sosial sığorta üzrə sığorta tariflərinin və əməkhaqqının müqavilə əsasında tənzimlənməsidir.

O. Bismarkın sosial müdafiə modeli. Əsası sosial sığortadır.

İkinci mərhələnin əsas üstünlüyü sosial sığorta sistemlərinin inkişafı və fəaliyyətində dövlət sektorunun rolunun gücləndirilməsidir.

Beləliklə, Beveric sosial müdafiə sisteminin aşağıdakı xüsusiyyətlərini vurğulayır:

- üç səviyyəli sosial müdafiə növü: dövlət (bütün əhali üçün əsas təminatlar); işəgötürən (işə götürən işçilər üçün sığorta); işçi (fərdi sığortanın əlavə növləri);

- dövlət zəmanətləri yaşayış minimumuna yönəldilmişdir;
- əlavə peşə sığortası - əməkhaqqının ödənilməsi (əvəz edilməsi) üçün;
- əlavə şəxsi sığorta - fərdi sosial təminat maraqları naminə işçilər tərəfindən fərdi imkanların reallaşdırılması üçün;
- vətəndaşların sosial müdafiəsinin minimum əsas standartlarının dövlət tərəfindən təmin edilməsi: səhiyyə, müavinətlər vasitəsilə müxtəlif gəlir səviyyəli ailələrdə uşaqların doğulması və tərbiyəsi üçün bərabər imkanlar, kütləvi işsizlik riskinin minimuma endirilməsi.

Vətəndaşlara müavinət və pensiyaların minimum məbləğinin təmin edilməsi (yaşayış minimumundan aşağı olmayan).

V.Bevericin sosial müdafiə modeli

Əlavə peşə sosial sığortası (sığorta hadisəsi zamanı əməkhaqqının dəyişdirilməsi);

Könüllü fərdi sığorta (əlavə sosial təminatlar);

Dövlət sosial təminatların minimum səviyyəsinə zəmanət verir

bütün vətəndaşlara: - pulsuz tibbi xidmət, - kütləvi işsizliyin qarşısının alınması, - ehtiyacı olan ailələrə uşaq müavinətlərinin verilməsi, - əməkhaqqı səviyyəsinin müqavilə ilə tənzimlənməsi.

Avropada sosial müdafiə sisteminin inkişafının üçüncü mərhələsi 1960-cı illərdən 20-ci əsrin sonlarına qədər davam etmişdir. Sosial müdafiə sistemlərinin ən effektiv modelləri bu dövrdə Avropa İttifaqı ölkələrində yaranmışdır.

Bu ölkələrin təcrübəsinin göstərdiyi kimi, əhalinin səmərəli sosial müdafiəsi sistemi dövlətin rifahının yüksəldilməsi, siyasi sabitliyin, iqtisadi rifahın təminatı, vətəndaşların həyat səviyyəsinin və keyfiyyətinin yüksəlməsinin aparıcı amillərindən biridir.

Sosial müdafiənin dövlət və özəl sektorlarının birləşməsinə əsaslanan sosial amortizasiyanın yeni modeli formalaşır və sosial sığorta sahəsində xidmətlərin çeşidini şaxələndirmək üçün nəzərdə tutulmuş brend xidmətlər yaranır.

Beləliklə, İsveç modelinin əsas məqsədləri bərabərlik və tam məşğulluq, vacib komponentləri isə universal (hərtərəfli) sosial təminat sistemi, sosial xidmətlərin inkişaf etmiş və əhəmiyyətli dövlət sektoru, əməkhaqqı sahəsində həmrəylik siyasəti və aktiv məşğulluq siyasətidir.

Məcburi sosial sığorta sisteminə dövlət ciddi nəzarət edir, onun fəaliyyətinin təmin edilməsində fəal rol oynayır və müvafiq olaraq onun xərclərinin (dövlət büdcəsindən dotasiyaların) mühüm hissəsini təşkil edir. Əməkhaqqı həmrəyliyi siyasəti yüksək və az maaş alan işçilər arasında gəlir fərqini azaltmağa kömək edir.

Cənubi Avropa ölkələri (İspaniya, İtaliya, Yunanıstan, Portuqaliya) sosial müdafiənin nisbətən aşağı səviyyəsi ilə xarakterizə olunur ki, bunun da əsas elementi pensiya təminatıdır.

Sosial təminat sisteminin elementlərinin inkişafında dörd tarixi mərhələni şərti olaraq ayırmaq olar (siyasi, iqtisadi və sosial quruluşun dominant tipindən asılı olaraq).

Əlilliyi olan şəxslərin sosial təminatı-Əlilliyi olan şəxslərə əmək pensiyasının təyin edilməsi şərtləri və qaydası "**Əmək pensiyaları haqqında**" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

Əlilliyi olan şəxslərə sosial müavinət təyin edilməsi şərtləri və qaydası "**Sosial müavinətlər haqqında**" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

Əlilliyi olan şəxslərin tibbi təminatı-Əlilliyi olan şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada dərman preparatları, tibbi xidmət, ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi, həmçinin protez-ortopediya məmulatları, diş protezləri (qiymətli metallardan hazırlanan protezlər istisna olmaqla) ilə təmin olunurlar.

Əlilliyi olan şəxslərə sosial xidmət göstərilməsi qaydası və şərtləri "**Sosial xidmət haqqında**" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Əlilliyi olan şəxslərin sosial xidmət müəssisələrində olması onların öz hüquqlarını və azadlıqlarını həyata keçirmək imkanını təmin edir və şəxsiyyətin tələbatının maksimum ödənilməsinə kömək göstərir.

Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsi - Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi reabilitasiya vasitələrinin növlərinin siyahısına əsasən dövlət büdcəsi hesabına həyata keçirilir. Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi şərtləri və qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Reabilitasiya vasitələrinin texniki normativ-hüquqi aktlara uyğunluğuna nəzarət və onların əlilliyi olan şəxslərə yaşayış yeri üzrə verilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Əlilliyi olan şəxslərin sosial müdafiəsi və sosial təminatı sahələrində elektron xidmətlər müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.

Əlilliyi olan şəxslərin reabilitasiyası və abilitasiyası

Dövlət əlilliyi olan şəxslərə maksimum müstəqilliyə, fiziki, əqli, sosial və peşəkar qabiliyyətlərə nail olmaq və bunları qoruyub saxlamaq imkanı verir. Əlilliyi olan şəxslərin reabilitasiyası və inkişafı onların Fərdi Reabilitasiya Proqramına uyğun olaraq yaşayış yerində (Fərdi Reabilitasiya Proqramına uyğun olaraq reabilitasiya zərurəti olan digər ərazidə), iş yerində, təhsil aldıqları yerlərdə, reabilitasiya müəssisələrində və digər reabilitasiya subyektlərində həyata keçirilir. Əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqların inkişafı məqsədi ilə Fərdi Reabilitasiya Proqramı tərtib olunur.

Əlilliyi olan şəxslər üçün müyəssərlik - Müyəssərlik üçün şərait yaradılması-Dövlət əlilliyi olan şəxslərə müstəqil həyat tərzi keçirmək və həyatın bütün aspektlərində hərtərəfli iştirak etmək imkanının yaradılması üçün, onların digərləri ilə bərabər səviyyədə fiziki mühit, nəqliyyat, informasiya və rabitədən, o cümlədən informasiya-kommunikasiya texnologiyaları və sistemlərindən, əhaliyə açıq olan və ya təqdim olunan digər obyekt və xidmətlərdən istifadəsinin təmin olunması üçün zəruri tədbirlər görür.

İnfrastruktur obyektlərinin layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınması - Azərbaycan Respublikasının ərazisində və yaşayış məntəqələrində infrastruktur obyektlərinin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq layihələndirilməsi və tikintisi zamanı universal dizayn əsasında bu obyektlərin əlilliyi olan şəxslərə maneəsiz müəssər olması təmin edilir.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təşkil edilən parklanma yerlərinin 5 faizi (bir parklanma yerindən az olmayaraq) əlilliyi olan şəxslər üçün ayrılır. Əlilliyi olan şəxslər üçün ayrılan parklanma yerlərində yalnız "**əlilliyi olan şəxs**" tanınma

nişanı ilə nişanlanmış nəqliyyat vasitələri dura bilər.

İnfrastruktur obyektlərinin əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılması-Müvafiq icra hakimiyyəti orqanları, müəssisələr və təşkilatlar tabeliklərində olan yol-nəqliyyat, rabitə, informasiya, mədəniyyət, məişət və digər sosial infrastruktur obyektlərini əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırırlar.

Yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılması-Yaşayış binaları, pilləkənlər, pilləkən qəfəsləri, çıxış və girişlər, dəhlizlər, açıq keçidlər, rampalar, liftlər, əlilliyi olan şəxslərin yaşadıqları mənzillərin giriş qapıları əlilliyi olan şəxslərin rahat və təhlükəsiz hərəkəti üçün uyğunlaşdırılır. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər istisna olmaqla, əlilliyi olan şəxslərin yaşadıqları fərdi evlərin onlar üçün uyğunlaşdırılması onların vəsaiti hesabına təmin edilir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər üçün onların yaşadığı fərdi evlərin uyğunlaşdırılması ilə bağlı xərclər təqsirkar hüquqi və fiziki şəxslər, dövlət orqanları tərəfindən ödənilir. Həmin xərclərin minimum məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Mədəniyyət və idman obyektlərinin əlilliyi olan şəxslərə müəssərliyinin təmin edilməsi-Müvafiq icra hakimiyyəti orqanları mədəniyyət müəssisələrinin və idman qurğularının əlilliyi olan şəxslərə müəssər olması üçün lazımi şəraiti təmin edirlər. Əlilliyi olan şəxslər "**Bədən tərbiyəsi və idman haqqında**" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət və bələdiyyə bədən tərbiyəsi-idman təşkilatlarının bədən tərbiyəsi-idman xidmətlərindən pulsuz istifadə edirlər.

Əlilliyi olan şəxslərin mənzil təminatı - Əlilliyi olan şəxsin yaşayış sahəsinə ehtiyacı olan hesab edilməsinin əsasları və yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınması qaydaları Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilir.Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçot onun ailə üzvləri üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada saxlanılır.

Əlillik siyasəti və əlilliyi olan şəxslərə güzəştlər

Əlillik siyasəti. Əlillik fenomeni və dövlətin sosial siyasəti bir-birinə qarşılıqlı təsir göstərirlər. Müasir demokratik dövlətlərin sosial siyasətinin məqsədi əlilliyin tibbi diaqnozun nəticəsi kimi yox, sosial ədalətsizliyin nəticəsi kimi ictimaiyyət tərəfindən tanınmasını reallıq etməkdir.

"Siyasət" və "Əlillik" anlayışlarını birləşdirən kateqoriya "**vətəndaşlıq"** kateqoriyasıdır, yəni fərdlərdə cəmiyyətin həyatında tam dəyərli iştirak etmək imkanlarının mövcudluğunu bildirən statusdur. Əlillik siyasəti bir tərəfdən fərdin davranışına dövlətin təsirinin strategiyasını, eləcə də şəxslərin həyatı üçün münasib olan yaşayış mühiti və şəraitlərinin formalaşması məqsədilə ehtiyyatların idarə olunmasının korporativ və dövlət strategiyasını, digər tərəfdən əlilliyi olan insanların vəziyyətinin pozitiv istiqamətə dəyişdirilməsi məqsədilə özlərinin kollektiv hərəkatlarının strategiyasını, onların ictimai birliklərinin dövlətə və sosial strukturlara təsirini nəzərdə tutur.

Bu strategiyalar kütləvi informasiya vasitələrində, ədəbiyyatda, incəsənətdə, qanunvericilikdə, eləcə də əlilliyi olan şəxslərin özlərini təqdimetmədə göstərir. Əlillik fenomeninə tədqiqatçıların müxtəlif yanaşmaları mövcuddur:

1) **Stratifikasiya** (əlilliyi olan şəxslərin vəziyyətinin ayrı-seçkiliyə məruz qalan azlıqlar kimi öyrənilməsi kontekstində bərabərsizliyin sosiomədəni izahı);

2) **İnteraksionist perspektiv** (sosial problemlərinə onların psixi və fiziki patologiya nöqteyinəzərdən yox, bu insanların digər insanlarla gündəlik qarşılıqlı hərəkətləri kontekstində baxılması);

3) **Etnoqrafik yanaşma** (inkişafın əqli və fiziki çatışmazlıqları olan insanların durumuna saxlanılan yerlərdə qoşulmuş müşahidə vasitəsilə həyata keçirilən metod).

Əlillik siyasətinin effektivliyinin ən vacib şərti sosial partnyorluqdur, yəni əlilliyi olan şəxslərin ictimai birliklərinin dövlət hakimiyyət orqanları ilə fəaliyyət əməkdaşlığıdır.

- 1992-ci ildə BMT-nin Baş Assemblyasının xüsusi rezolyusiyasında 3 dekabr tarixində "Beynalxalq Əlilliyi olan şəxslər günü"nün qeyd olunması təsdiqləndi.

Beynalxalq Əlilliyi olan şəxslər gününün mövzuları aşağıdakılardır:

- 1998-ci ildə - "İncəsənət, mədəniyyət və azad həyat tərzi".

- 1999-cu ildə - "Yeni minillikdə hamı üçün münasiblik".
- 2001-ci ildə "Tam iştirak və bərabərlik: tərəqqinin və nəticələrin qiymətləndirilməsi üçün yeni yanaşmaların tələb olunması".
- 2003-cü ildə - "Bizim öz səsimiz".
- 2004-cü ildə - "Bizim haqqımızda bizsiz heç bir şey".
- 2005-ci ildə - "Əlillərin hüquqları: inkişaf prosesində fəaliyyət".

Araşdırmalar göstərir ki, mədəniyyətin bazar iqtisadiyyatı sferasına keçidi ilə iqtisadi kapitalın rolunun artması ilə əlaqədar cəmiyyətdə ən zəif mövqeyi əlilliyi olan şəxslər tutur. Baryersiz mühitin olmaması, sosial bərabərsizlik, mədəni dəyərlərə yiyələnmək üsullarının məhdudlaşdırılmasına və əlilliyi olan insanların vahid məkandan çıxarılmasına gətirib çıxarır.

BMT-nin "**Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası"nın** 30-cu maddəsində qeyd olunur ki, iştirakçı dövlətlər əlilliyi olan şəxslərin digər insanlarla yanaşı mədəni həyatda iştirak etmək hüququnu qəbul etməlidirlər. teatr, muzey, kitabxana, turizm xidmətlərindən, milli mədəni dəyəri olan abidə və obyektlərdən istifadə etməyə imkan əldə etməlidirlər.1960-cı illərdə Avropa ölkələrində həyatın normallaşdırılmasının milli konsepsiyası çərçivəsində əlilliyi olan şəxslər üçün fərdi köməkçilər xidməti yaradılmışdır.

Azərbaycanda əlilliyi olan insanın şəhərin mədəni həyatında fəal iştirakı əlilliyi olan şəxsin ailə üzvlərinin imkan və arzularından və hələ ki, nadir olan könüllülük proqramlarından asılıdır. Müasir şəraitdə bir çox şəhərlərin sosial məkanı əlillik əlamətinə görə sosial bərabərsizliyin özünü aydın şəkildə büruzə verdiyi mühitdir.

Şəhər məkanı formalaşdırılmış sosial nizam-intizam çərçivəsində sosial eksklyuziyanın (təcrid olunmasının) əlilliyin təhlilinin yeni perspektivlərini üzə çıxarır. Əgər eksklyuziya baş verərsə, müxtəlif sahələrdə xoşagəlməz sosial şəraitlərin toplanmasının amili, deprivasiyaların dərinləşməsinin mexanizmi ola bilər. "**Əlverişli məkan**" termini universal dizayn anlayışının sinonimi kimi istifadə olunur. Universal dizayn prinsipi insanların əksəriyyətinin istifadə edə biləcəyi əşyalar, konstruksiyalar, tikintilər yaratmağa imkan verir.

Əlilliyi olan şəxslər üçün yaradılan mühit digər istifadəçilərə də üstünlüklər verir. Məsələn, arabaçılar üçün yaradılan panduslardan uşaq arabasını idarə edən valideynlər, velosiped sürənlər uğurla istifadə edə bilərlər. Hava limanının iri zallarında, restoranlarda, informasiya videoçarxlarının istifadəsi məlumatın əldə edilməsini həm eşitmə əlilliyi olan insanlar, həm də digər istifadəçilər üçün daha rahat edir. Baryersiz məkanın formalaşdırılmasının tarixi göstərir ki, müvəffəqiyyət üçün **2 şərt vacibdir**:

1. Cəmiyyətin münasibətinin dəyişməsi və əlillik problemini anlamaq üçün müxtəlif yönümlərin formalaşdırılması (ABŞ-da bu işlə aktivist əliliyi olan şəxslər və onların ailə üzvləri məşğul olur);
2. Normativ sənədlərdə öz əksini tapan əlverişliliklə bağlı tələblərin vaxtında icrası.

Əlilliyi olan şəxslərə verilən hüquqlar

Mənzil bölgüsü zamanı yerli hakimiyyət orqanları, müəssisələr, idarə və təşkilatlar iş yerlərinin, qohumlarının yaşayış yerlərinin, bərpa müəssisələrinin yaxınlığında mənzillər ayrılmasına olan tələbatı nəzərə alırlar.

Müharibə zamanı əlillik qazanmış şəxslər dövlət hesabına mənzillə təmin edilirlər. Müharibə zamanı əlillik qazanmış şəxslərə mənzillər növbədənkənar verilir. Fərdi bərpa proqramına uyğun olaraq binanın növünü, mərtəbəsini, abadlıq vəziyyətini və yaşayış üçün vacib olan digər şərtləri nəzərə almaqla yaşayış sahəsini seçmək hüququna malikdirlər.

Tibbi göstərişlərə və arzularına uyğun olaraq əlilliyi olan şəxslərə yaşayış evlərinin aşağı mərtəbələrində mənzil verilir (və ya dəyişdirilir).

Əlilliyi olan şəxslər dərman preparatları ilə pulsuz təmin edilirlər.

Əliliyi olan şəxslər protez ortopediya məmulatı, təkərli oturacaq və veloarabaları, bərpa vasitələri ilə pulsuz təmin olunurlar.

Əlilliyi olan şəxslər eşitmə və tiflotexniki vasitələrlə (görmə qabiliyyəti zəif olanlar üçün nəzərdə tutulan vasitələr) pulsuz təmin edilirlər.

I qrup əlilliyi olan şəxslər üçün həftədə 36 saatdan çox olmayan qısaldılmış iş vaxtı müəyyən edilir.

Əmək vəzifələrini yerinə yetirərkən xəsarət alıb bu səbəbdən əmək qabiliyyətini itirmiş I qrup

əlilliyi olan şəxslərin işləmədiyi müddət onların ümumi iş stajına daxildir.

Qəbul imtahanlarını müsbət verən əlilliyi olan şəxslər ali və orta ixtisas təhsili müəssisələrində aldığları təhsil dövründə pensiyaları və təqaüdləri tam məbləğlə alırlar.

Siyahısı Nazirlər Kabineti tərəfindən müəyyən olunanlardan başqa, digər müəssisə və təşkilatlar mövcud olan hər 25 iş yerindən birini əlilliyi olan şəxslər üçün nəzərdə tutmalıdırlar.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4059 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. https://e-qanun.az/ framework/55044
2. Məmmədova E.B. Sosial işin iqtisadi əsasları. Dərs vəsaiti. Baki-2024,762s.
3. Nəzərov M.H. Nəbiyev Ə.M.Sosial idarəetmənin əsasları. Dərs vəsaiti. Bakı "TİC Print" nəşriyyatı, 2024.672s.
4. https://www.sosial.gov.az/
5. https://www.unicef.org/azerbaijan/sites/unicef.org.azerbaijan/files/2019-05/IC-BriefNote-AZE.pdf
6. Dünya Səhiyyə Təşkilatı (2021) "Disability." https://www.who.int/healthtopics/ disability#tab=tab_2 . Əldə edildi: 16 May 2022 Mike Oliver - Disability & Society
7. https://www.coe.int/az/web/compass/disability-and-disablism Əldə edildi: 16 May 2022
8. UNICEF (2011), "Azərbaycanda əlilliyi olan şəxslərin vəziyyətinin təhlilinə dair tədqiqat".
9. Avropa Şurası (2003) Rehabilitation and Integration of People with Disabilities: Policy and Legislation. 7th Edition. Council of Europe, 2003 https://rm.coe.int/16805a2

Айтен Алисафа кызы Дадашова
магистрант,
Азербайджанский Университет Кооперации
Тельман Алимуса оглы Нифталиев
доктор философии по социальным наукам, доцент,
Азербайджанский Государственный Экономический Университет

Особенности интеграции людей с ограниченными возможностями в общество

Резюме

Феномен инвалидности и социальная политика государства взаимодействуют друг с другом. Цель социальной политики современных демократических государств – сделать инвалидность реальностью не как результат медицинского диагноза, а как результат социальной несправедливости. Государство предоставляет людям с ограниченными возможностями возможность достичь и сохранить максимальную независимость, физические, умственные, социальные и профессиональные возможности.

Ayten Alisafa Dadashova
master,
Azerbaijan Cooperation University
Telman Alimusa Niftaliyev
doctor of philosophy in social sciences, associate professor,
Azerbaijan State University of Economics

Characteristics of integrating people with disabilities into society

Summary

The phenomenon of disability and state social policy interact with each other. The goal of social policy in modern democratic states is to make disability a reality, not as a result of a medical diagnosis, but as a consequence of social injustice. The state provides people with disabilities with the opportunity to achieve and maintain maximum independence, physical, mental, social, and professional capabilities.

Leyla Qoşqar qızı MAMOŞOVA
magistrant,
mamashovaleyla@gmail.com,
Mələk Əlislam qızı ZAMANOVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNKLÜZİV TƏHSİL ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏ VƏ AZƏRBAYCANDA TƏTBİQİ İMKANLARI

İnklüziv təhsil - bütün uşaqların, xüsusilə də xüsusi qayğıya ehtiyacı olanların bərabər hüquqlu şəkildə təhsil almasını təmin edən yanaşmadır. Bu konsepsiya BMT-nin, UNESCO-nun və UNICEF-in əsas prioritet istiqamətlərindən biridir. Beynəlxalq təcrübə göstərir ki, inklüziv təhsil cəmiyyətin sosial bərabərliyini, tolerantlığını və insan hüquqlarına hörməti gücləndirən mühüm mexanizmdir. Müasir dövrdə inklüziv təhsil bütün uşaqların, o cümlədən fiziki və psixoloji cəhətdən fərqli imkanlara malik olanların təhsil hüququnun təmin edilməsinin əsas vasitələrindən biri kimi qəbul edilir. İnklüziv təhsil konsepsiyası, insan hüquqlarına əsaslanan sosial yanaşma kimi, dünyanın bir çox ölkələrinin təhsil siyasətində prioritet istiqamətə çevrilmişdir. Beynəlxalq təcrübə göstərir ki, inklüziv təhsil yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqların deyil, bütövlükdə cəmiyyətin sosial inteqrasiyası və tolerantlıq mədəniyyətinin formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir (Ainscow & Miles, 2008).

İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanır. Bir sıra beynəlxalq konvensiyalar, həmçinin milli qanunvericilik çərçivələri müvafiq ölkələrdə inklüziv təhsilin tətbiqini təmin edir. Azərbaycan üçün aidiyyətli beynəlxalq və milli hüquqi sənədlər aşağıdakılardır:

- İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, 1948
- BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası, 1989
- BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası, 2006
- Azərbaycan Respublikasının Konstitusiyası, 1995
- "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 2009
- "2018–2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı".

İnklüziv təhsilin mahiyyəti ilə bağlı bir çox yanlış təsəvvürlər mövcuddur. *"Əlilliyi olan şəxslərin hüquqları haqqında"* Konvensiyaya əsasən, inklüziv təhsil aşağıdakıları ehtiva edir:

❖ Əlilliyi olan şəxslərin ümumtəhsil sistemindən kənarlaşdırılmamasını təmin etmək;

❖ Yaşadıqları icmada digərləri ilə bərabər əsaslarla inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq imkanlarını təmin etmək;

❖ Fərdi ehtiyacları nəzərə alaraq ağlabatan uyğunlaşdırmalar aparmaq;

❖ Əlilliyi olan şəxslərin ümumtəhsil sistemində zəruri dəstəyi almasına təminat vermək;

❖ İnklüzivliyin tam şəkildə təmin olunması hədəfinə uyğun olaraq, akademik və sosial inkişafa maksimum şərait yaradan mühitlərdə fərdi ehtiyaclara uyğunlaşdırılmış dəstək tədbirlərini təmin etmək;

❖ Əlilliyi olan uşaqları digər uşaqlardan ayıraraq xüsusi məktəblərdə seqreqasiyaya məruz qoymamaq və s. ehtiva edir.

İnklüziv təhsil sahəsində aparıcı ölkələrin təcrübəsi

Skandinaviya modeli (Finlandiya, İsveç, Norveç) - Skandinaviya ölkələri inklüziv təhsil sisteminin ən uğurlu nümunələrindən biridir. Finlandiyada "hər uşaq uğur qazana bilər" prinsipi əsasında bütün uşaqlara fərdi yanaşma tətbiq olunur. Məktəblərdə psixoloq, sosial işçi və xüsusi təhsilverici mütəxəssislərin fəaliyyəti qanunla təmin edilir. İsveçdə isə təhsil qanunvericiliyi uşaqların ehtiyaclarına əsaslanan çevik kurikulumlar təqdim edir.

Böyük Britaniyada inklüziv təhsil siyasəti 1970-ci illərdən sistemli şəkildə həyata keçirilir. ***"Special Educational Needs and Disability Act" (2001)*** və ***"Children and Families Act" (2014)*** bu sahədə hüquqi çərçivə yaradır. Məktəblərdə "SENCO" (Special Educational Needs Coordinator) adlı koordinasiya vəzifələri fəaliyyət göstərir.

Amerika Birləşmiş Ştatları - ABŞ-da inklüziv təhsil ***"Individuals with Disabilities Education Act (IDEA, 2004)"*** əsasında tənzimlənir. Bu qanun hər bir uşağa fərdi təhsil planı (Individualized Education Program – IEP) hazırlanmasını tələb edir. Əlavə olaraq, dövlət tərəfindən maliyyələşən dəstək proqramları inklüziv mühitin genişlənməsinə imkan yaradır.

Yaponiya və Cənubi Koreya - Yaponiya və Cənubi Koreyada əvvəlcə xüsusi məktəblər üstünlük təşkil etsə də, son onillikdə inklüziv modelə keçid sürətlənmişdir. Məktəblərdə "koordinasiya müəllimləri" və "dəstək mərkəzləri" yaradılmış, fərdi öyrənmə planları tətbiq edilmişdir.

Latın Amerikası (Braziliya, Çili, Argentina) - Bu ölkələrdə inklüziv təhsil sosial ədalət siyasətinin əsas komponenti kimi qəbul olunur. Dövlət proqramları müəllimlərin peşəkar inkişafına və ictimai maarifləndirməyə yönəlmişdir.

İnklüziv təhsil sahəsində aparılan beynəlxalq tədqiqatlar və müxtəlif ölkələrin praktik təcrübələri göstərir ki, bu yanaşma yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqların deyil, bütün cəmiyyətin inkişafına mühüm təsir göstərir. İnklüziv təhsil sosial ədalətin təmin olunması, insan hüquqlarına hörmətin formalaşdırılması və bərabər imkanların yaradılması baxımından qlobal əhəmiyyət kəsb edir. İnkluziv təhsil üzrə beynəlxalq təcrübənin nəticələri bir neçə istiqamətdə özünü göstərir. Bunlara aşağıdakılar aiddir:

1. Sosial nəticələr(sosial inteqrasiya, tolerantlıq və empatiya);
2. Pedaqoji və təlim nəticələri- müəllimlər hər bir şagirdin fərdi xüsusiyyətlərinə uyğun tədris strategiyalarını hazırlayır, yeni metod və texnologiyaların istifadəsini genişləndirir, pedaqoji kadrların hazırlanmasına və müəllimlər peşəkar inkişafına kömək edir;
3. Cəmiyyət və mədəniyyət sahəsində nəticələr- fərqliliyin qəbul edilməsi, sosial məsuliyyət, fərqlərin təbii hal kimi qəbul edilməsi, ictimai münasibətlərdə transformasiya və s. aiddir.

2015-ci il üzrə Qlobal Monitorinq Hesabatının əsas nəticələrinə görə, aşağı orta gəlirli ölkələrdə əlilliyi olan uşaqlara dair əksər məlumatlar mövcud məlumatların keyfiyyətinin aşağı olması səbəbilə təqribi hesablamalara əsaslanır. Bunun səbəblərindən biri ondan ibarətdir ki, əksər təsnifat sistemləri əlilliyin tibbi modelinə əsaslanan qiymətləndirmə proseslərinə söykənir. Hazırkı beynəlxalq tendensiya Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatından istifadədir. Burada qiymətləndirmə zamanı orqnizmin funksiyaları və quruluşu, fəaliyyətlər və iştirak və ətraf mühit amilləri nəzərə alınır.

Bəzi ölkələrdə əlilliyi olan uşaqların 90%-ə yaxını məktəbə getmir. Əlil olmaq uşağın heç vaxt məktəbə getməmək ehtimalını iki dəfədən çox artırır. Əlilliyi olan uşaqların məktəbi yarımçıq tərk etmək və ya ayrı-seçkiliklə üzləşmək ehtimalları ikiqat yüksəkdir. Son onilliklər ərzində dünyada inklüziv təhsilə yönələn nümunəvi təcrübələr yaranmışdır. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları" haqqında Konvensiyası tam inklüziv təhsilin dəstəklənməsi üçün müfəssəl istiqamət vermiş və bir çox ölkələr öz siyasətlərini inklüziv təhsilin təməl prinsiplərinə uyğunlaşdırmışdır və fasiləsiz olaraq uyğunlaşdırmağa davam edir. Lakin bu müsbət proseslərə baxmayaraq, hələ də çoxsaylı çətinliklər qalır. Əlilliyi olan uşaqlar üçün bir nömrəli maneə insanların əlilliyə qarşı mənfi münasibətidir. Bu isə əlilliyi olan uşaqların davamlı olaraq kənarlaşdırılması, ayrı-seçkiliyə məruz qalması və təcrid olunması ilə nəticələnir.

Hər bir uşağın keyfiyyətli təhsil almaq hüququ var. Bu hüquq İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası kimi beynəlxalq sənədlərlə də dəstəklənir. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın 24-cü maddəsi inklüziv təhsillə bağlı faydalı tərif verir. Konvensiya əlilliyi olan şəxslərin təhsil hüquqlarını tanıyır. Təhsil hüquqlarının heç bir ayrı-seçkilik olmadan və bərabər imkanlar əsasında təmin olunması məqsədilə Konvensiya dövlətlərin üzərinə inklüziv təhsili tətbiq etmək öhdəliyini qoyur.

Azərbaycan yuxarıdakı konvensiyaları imzalayan ölkələrdən biridir. Konvensiyanı təsdiq edəndən bəri, ölkə müxtəlif milli qanunvericilik sənədlərində inklüziv təhsilə müxtəlif formalarda dəstəyin təmin olunması vasitəsilə əhəmiyyətli dərəcədə irəliləyişə nail olmuşdur. Konstitusiya bütün uşaqların təhsil almaq hüququnu təsbit edir və onların hüquq və azadlıqlarını qoruyur. Azərbaycanın "Təhsil haqqında" Qanunu isə hər kəsin təhsil alması üçün bərabər imkanlara təminat verir. Bununla belə, tam inklüziv təhsili təmin etmək üçün digər milli qanunvericilik sənədləri

də "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın tələblərinə uyğunlaşdırılmalıdır.

Azərbaycanda inklüziv təhsilin inkişaf mərhələləri:

2005–2010: İlk pilot layihələr - 2005-ci ildə Təhsil Nazirliyi "Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili üzrə Dövlət İnkişaf Proqramı (2005–2009)" çərçivəsində pilot inklüziv siniflər yaratdı. Bu dövrdə müəllimlər üçün ilkin təlimlər təşkil olundu və əlilliyi olan uşaqların təhsilə inteqrasiyası istiqamətində təcrübə toplandı.

2011–2018: Strategiya və genişlənmə - "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" inklüziv təhsil prinsiplərini dövlət siyasətinə daxil etdi. Bu mərhələdə:

- Resurs mərkəzləri yaradıldı;
- Müəllimlərin peşəkar hazırlığı gücləndirildi;
- Region məktəblərində inklüziv siniflərin sayı artırıldı.

2018–2024: Dövlət proqramlarının tətbiqi - "Əlilliyi olan şəxslər üçün təhsilin inkişafı üzrə Dövlət Proqramı" çərçivəsində:

- İnklüziv siniflərin sayı əhəmiyyətli dərəcədə artdı;
- Ali təhsil müəssisələrində inklüziv pedaqogika fənni tətbiq edildi;
- Təlim proqramları və psixoloji dəstək sistemləri gücləndirildi.

Hazırda ölkədə 400-dən çox məktəbdə inklüziv siniflər fəaliyyət göstərir və təxminən 2000 şagird bu siniflərdə təhsil alır.

Azərbaycanda inklüziv təhsil möhkəm hüquqi baza ilə təmin edilir:

- "Təhsil haqqında" Qanun
- "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanun
- Dövlət proqramları və strategiyalar

Bu sənədlər inklüziv təhsilin hüquqi əsaslarını müəyyən edir, müəllim hazırlığı, resurs təminatı və tədris keyfiyyətinin yüksəldilməsi istiqamətində dövlət dəstəyini təmin edir.

Azərbaycanda da son illərdə inklüziv təhsilin inkişafı istiqamətində mühüm addımlar atılır. 2018-ci ildə qəbul olunmuş "İnklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı (2018–2024)" bu sahədə yol xəritəsi rolunu oynayır. Bundan əlavə, "Təhsil haqqında" Qanuna edilmiş dəyişikliklər inklüziv təhsili hüquqi baxımdan təmin edir. Bəzi məktəblərdə pilot layihələr həyata keçirilir, ali təhsil müəssisələrində müəllim hazırlığı proqramlarına inklüziv təhsil modulları əlavə olunur. UNICEF və digər tərəfdaşların dəstəyi ilə müəllimlər üçün təlimlər, valideynlər üçün maarifləndirici kampaniyalar təşkil edilir.

İnklüziv təhsil sadəcə bir siyasət deyil, humanist və ədalətli cəmiyyət qurmaq yolunda atılan mühüm addımdır. Azərbaycan bu istiqamətdə ilk addımlarını atıb. Qarşıdakı mərhələdə isə əsas hədəf bütün məktəblərin inklüziv məkana çevrilməsi, müəllimlərin hazırlığının artırılması və cəmiyyətin bu sahəyə münasibətinin dəyişdirilməsidir. Ancaq bu halda hər bir uşaq məktəbdə özünü evindəki kimi hiss edə bilər.

Azərbaycanda inklüziv təhsil son iki onillikdə əhəmiyyətli irəliləyiş göstərmişdir. Dövlət proqramları, qanunvericilik bazası, müəllimlərin peşəkar hazırlığı və resurs mərkəzləri inklüzivliyin tətbiqini və davamlı inkişafını təmin etmişdir. Pilot layihələrdən başlayaraq, ölkədə yüzlərlə inklüziv sinif fəaliyyət göstərir və minlərlə şagird fərdi təhsil imkanlarından faydalanır.

Beynəlxalq təcrübənin öyrənilməsi göstərir ki, inklüziv təhsil hüquqi baza, pedaqoji hazırlıq, fiziki və texnoloji təminat, sosial dəstək və səmərəli idarəetmə tələb edən kompleks sistemdir. Bu prinsiplər Azərbaycanda da tətbiq olunduqda:

- Fərqli imkanlara malik uşaqların təhsil imkanları genişlənir,
- Sosial inteqrasiya və tolerantlıq artır,
- Təhsil keyfiyyəti yüksəlir,
- Valideyn və cəmiyyət maarifləndirilir.

Gələcəkdə inklüziv təhsilin inkişafı üçün əsas istiqamətlər hüquqi bazanın təkmilləşdirilməsi, müəllimlərin davamlı peşəkar hazırlığı, məktəb infrastrukturunun adaptasiyası və ictimai dəstəyin gücləndirilməsidir. Bu tədbirlər həyata keçirildikdə, Azərbaycan inklüziv təhsil sahəsində beynəlxalq standartlara uyğun sistem formalaşdıraraq, bütün uşaqlar üçün bərabər təhsil imkanlarını təmin edə biləcəkdir.

ƏDƏBİYYAT

1. UNESCO. Inclusive Education: The Way of the Future. Paris: UNESCO, 2009.
2. United Nations. Convention on the Rights of Persons with Disabilities. New York: UN, 2006.
3. OECD. Education Policy Outlook: Inclusive Education. Paris: OECD Publishing, 2012.
4. Florian, L. Inclusive Pedagogy: Research, Policy and Practice. London: Routledge, 2014.
5. Mittler, P. Working Towards Inclusive Education: Social Contexts. London: David Fulton Publishers, 2000.
6. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı (2018–2024). Bakı, 2018.
7. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili üzrə Dövlət İnkişaf Proqramı (2005–2009). Bakı, 2005.
8. Azərbaycan Respublikasının. "Təhsil haqqında" Qanun. Bakı, 2013.
9. Azərbaycan Respublikasının. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunu. Bakı, 2009.

Лейла Гошгар кызы Мамошова
магистрант,
mamashovaleyla@gmail.com,
Мелек Алислам кызы Заманова
доктор философии по педагогике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Международный опыт в области инклюзивного образования и возможности его внедрения в Азербайджане

Резюме

Статья посвящена международному опыту инклюзивного образования и возможностям его применения в Азербайджане. В работе рассматриваются успешные модели инклюзивного обучения, применяемые в странах Европы, США, Канаде и Азии, включая их правовую основу, педагогические подходы, организационные структуры и использование технологических ресурсов. Особое внимание уделяется анализу адаптации этих практик к азербайджанской системе образования с учётом существующего законодательства, подготовки педагогов, наличия ресурсных центров и социальной поддержки детей с особыми образовательными потребностями.

Результаты международных исследований показывают, что инклюзивное образование способствует повышению академической успеваемости всех учащихся, улучшает социальную интеграцию, формирует толерантность и уважение к различиям. В контексте Азербайджана внедрение международного опыта позволяет расширить образовательные возможности, улучшить качество преподавания, усилить подготовку педагогов и повысить эффективность взаимодействия между школой, семьей и обществом.

Leyla Qoshgar Mamoshova
master,
mamashovaleyla@gmail.com,
Melek Alislam Zamanova
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan State Pedagogical University

International experience on inclusive education and implementation opportunities in Azerbaijan

Summary

This article explores the international experience of inclusive education and its potential application in Azerbaijan. It examines successful inclusive education models implemented in

Europe, the USA, Canada, and Asia, including their legal frameworks, pedagogical approaches, organizational structures, and use of technological resources. Special attention is given to the adaptation of these practices to the Azerbaijani education system, considering existing legislation, teacher training, availability of resource centers, and social support for children with special educational needs.

International research indicates that inclusive education enhances academic achievement for all students, promotes social integration, and fosters tolerance and respect for diversity. In the Azerbaijani context, adopting international practices allows for expanding educational opportunities, improving teaching quality, strengthening teacher preparation, and enhancing collaboration between schools, families, and communities.

Nihad Rəhim oğlu NƏSİROV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Emiliya Rafiq qızı HÜSEYNOVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

UŞAQLARDA İŞƏ MÜSBƏT MÜNASİBƏTİN FORMALAŞMASINDA AİLƏNİN ROLU

Məktəb hər bir uşağın həyatında mühüm mərhələdir. Amma həmişə asan olmur. Ağır iş yükləri, testlər, ev tapşırığı və sinif yoldaşları ilə qarşılıqlı əlaqə stres və narahatlığa səbəb olur. Belə vaxtlarda valideynlərin dəstəyi çox vacibdir, çünki bu, onlara çətinliklərin öhdəsindən gəlməyə, motivasiya və özünə inamı qorumağa kömək edir.

Uşaqlar özlərinin başa düşüldüyünü və qəbul edildiyini hiss etdikdə, məktəb həyatına daha asan uyğunlaşır, dərslərində müstəqillik və məsuliyyət öyrənirlər.

Məktəbdə uşaq təkcə bilik əldə etmir. Onlar yeni tapşırıqlar, qiymətlər, potensial münaqişələr və ağır iş yükü ilə üzləşirlər. Bu prosesi əhəmiyyətli stress olmadan idarə etmək üçün təkcə yaxşı təşkil olunmuş təhsil prosesinin olması deyil, həm də emosional olaraq məşğul olan ailə üzvlərinin olması vacibdir.

Valideynlər psixoloji dayanıqlığın formalaşmasında əsas rol oynayırlar. Onların fəal iştirakı uşaqlara çətinliklərin öhdəsindən daha yaxşı gəlməyə, özünə inamı inkişaf etdirməyə və çətin vəziyyətlərdə həll yollarını tapmağı öyrənməyə kömək edir. Yalnız rahat öyrənmə mühiti (rahat masa, yaxşı düşünülmüş gündəlik iş) yaratmaq deyil, həm də uğursuzluq anlarında orada olmaq, məktəb hadisələrini həvəsləndirmək, müzakirə etmək və onlara tanış olmayan mövzuları anlamağa kömək etmək vacibdir.

Həqiqi dəstək nəzarət və sərt sərhədlər deyil, uşağın fərdiliyinə inam, diqqət və hörmətdir. Onların dinlənildiyini və başa düşüldüyünü bilmək özünə inam yaradır və hətta ən çətin tapşırıqların öhdəsindən gəlməyə kömək edir.

Problemin ifadəsi və əsaslandırılması. İlk təhsil müəssisəsi ailədir. Uşaq uşaqlıqda ailədə nə qazanırsa, onu ömrü boyu özündə saxlayır [5, s. 127]. Ailə insanlar arasında humanist münasibətlərin və etimadın əsaslarının qoyulduğu insan əlaqələrinin və münasibətlərinin ilkin məkanıdır [2, s. 41]. Ailənin əsas məqsədi sosial, qrup və fərdi ehtiyacların ödənilməsidir. Bu, aşağıdakı əsas funksiyalara gətirib çıxarır: reproduktiv, iqtisadi, təhsil, kommunikativ, asudə vaxtın və istirahətin təşkili [1, s. 97].

Uşaqların işə müsbət münasibətinin formalaşmasında ailə mühüm rol oynayır. Əsas təhsil funksiyaları arasında aşağıdakıları qeyd etmək olar: uşağın şəxsiyyətinin formalaşdırılması, onların qabiliyyət və maraqlarının inkişafı, yetkin ailə üzvləri cəmiyyətinin toplanmış sosial təcrübəsini uşaqlara ötürmək və işə müsbət münasibət bəsləmək.

Uşaqlarda işə müsbət münasibətin formalaşmasında ailə və valideynlər mühüm rol oynayır. Hələ iki yaşından uşaqlar sosiallaşma metodları kimi müşahidə və təqliddən fəal istifadə etməyə başlayırlar [4, s. 39]. Tədqiqatlar göstərir ki, uşaqlar müşahidə yolu ilə yaxşı niyyətli insanları

asanlıqla təqlid edirlər. İstilik nümayiş etdirmək qabiliyyəti yüksək olan valideynlər daha təsirli pedaqoqlardır. Yetkinlər ardıcıl olaraq arzu olunan davranış nümayiş etdirdikdə təhsil daha effektiv olur. Bəzi pedaqoqların fikrincə, ailədə əməyi tərbiyə etməyin əsas üsullarına valideynlərin şəxsi nümunəsi, onların işə münasibəti, birgə fəaliyyətləri, uşağı müxtəlif əmək növlərinə cəlb etmək daxildir. Məsələn, yay aylarında uşaqlar valideynləri ilə biçənəkdə işləyirlər, burada valideynlər ot dırmıqlamaq, traktor sürmək, ot tayasını yığmaq və s. nümayiş etdirir və izah edirlər. Valideynlər iş təəssüratlarını bölüşür, övladlarını peşələri ilə tanış edir, uğur və uğursuzluqlarından danışır, uşaqları kənd təsərrüfatı işlərinə cəlb edir.

Uşaqların bütün fəaliyyətləri ritmik olmalıdır, iş və istirahət aydın şəkildə dəyişməlidir. İstirahət müddətləri qısa ola bilər. Valideynlər rasional iş təcrübələrini öyrədirlər və həddindən artıq işdən və yorğunluqdan çəkinirlər. Onlar uşaqlarına gördükləri işin növündən asılı olmayaraq işi istirahətlə məharətlə əvəz etməyi öyrədirlər. Onlara zehni işi fiziki əməklə əvəzləməyi öyrədirlər.

Fəal istirahətlə birlikdə iş sağlamlığı gücləndirir, məhsuldarlığı artırır və canlılığı artırır. Ev işləri də ailə qarşısında vəzifə və məsuliyyət hissini aşılayır, asılılıq və eqoist meyllərin qarşısını alır, fiziki inkişafa müsbət təsir göstərir. Valideynlər çox vaxt övladlarına yazığı gələrək onlar üçün hər şeyi edirlər. Həftə sonları və bayram günlərində uşaqlara müəyyən olunmuş gündəlik rejimi pozaraq gec yatmağa və gec oyanmağa icazə verirlər. Bu, sağlamlığa zərər verir və hələ tam formalaşmamış müsbət vərdişləri və bacarıqları pozur.

Fizioloji yorğunluq müsbət, məşq rolunu oynayır, lakin istirahətdən sonra keçmirsə, zehni yorğunluq başlayır.

Düzgün təşkil olunmuş iş əməyə müsbət münasibətin inkişafına kömək edir və uşaqların məhsuldarlığını artırır. Uşaqlarda zehni yorğunluq bütün bədən sistemlərinin, xüsusən də mərkəzi sinir sisteminin qeyri-kamilliyi səbəbindən böyüklərə nisbətən daha tez baş verir. Buna görə də zehni işi, o cümlədən ev tapşırıqlarını ev işləri ilə əvəz etmək vacibdir. Hər ev tapşırığını yerinə yetirdikdən sonra fasilələr vermək məsləhətdir. Məktəbdən sonra isə uşaqlar idmanla və ya açıq oyunlarla, ev işləri ilə və s. məşğul olmalıdırlar.

ƏDƏBİYYAT

1. Борисова С.С., Борисова Т.М. Влияние семьи на воспитание детей // Сборник материалов Всероссийской научно-практической конференции студентов и аспирантов с международным участием. Прокопьева М.М., Находкин В.В. – Якутск, 2015. – С. 97–98.
2. Григорьева А.А., Сметанина В.И. Социализация личности ребёнка на основе взаимодействия семьи и детского сада / А.А.Григорьева, В.И.Хама. – М.: Академия, 2003. – С. 41–42.
3. Неустроев А.Н. Формирование экономического сознания учащихся в системе трудового воспитания А.С. Макаренко / А.Н. Неустроев. – Якутск, 2002. – С. 6–7.
4. Савенков А.И. Педагогическая психология / А.И. Савенков. – М.: Академия, 2009. – 39 с.
5. Прокопьева М.М. Влияние семейных отношений на развитие личности ребёнка // Сборник материалов Всероссийской научно-практической конференции студентов и аспирантов с международным участием. Прокопьева М.М., Находкин В.В. – Якутск, 2015. – С. 127–129.

Нихад Рахим оглы Насиров
магистрант,
Азербайджанский Университет Кооперации
Эмилия Рафиг кызы Гусейнова
доктор философии по педагогике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Роль семьи в формировании позитивного отношения к труду у детей

Резюме

В статье подчеркивается роль семьи в формировании позитивного отношения к труду у детей и обсуждается важность чередования труда и отдыха для повышения работоспособности человека.

Nihad Rahim Nasirov
master,
Azerbaijan Cooperation University
Emiliya Rafig Huseynova
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan State Pedagogical University

The role of the family in the formation of a positive attitude towards work in children

Summary

The article emphasizes the role of the family in the formation of a positive attitude towards work in children and discusses the importance of alternating work and rest to improve human activity.

Röya Xaliq qızı MƏMMƏDOVA
magistrant,
memmedovaroya67@gmail.com,
Əbülfət Qulam oğlu PƏLƏNGOV
pedaqogika elmləri doktoru, professor,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MÜƏLLİMLƏRİN SÜNİ İNTELLEKT TEXNOLOGİYALARINDAN İSTİFADƏSİNİN SƏMƏRƏLİ YOLLARI HAQQINDA

Müasir dövrdə təhsilin keyfiyyətinin yüksəldilməsində və innovativ yanaşmaların tətbiqində süni intellekt (Sİ) texnologiyalarının rolu danılmazdır. Rəqəmsallaşma prosesinin sürətlənməsi, informasiya-kommunikasiya texnologiyalarının geniş vüsət alması və təhsil sistemində fərdiləşdirilmiş öyrənmə ehtiyaclarının artması müəllimlərin fəaliyyətində yeni yanaşmaların tətbiqini zəruri etmişdir. Bu baxımdan, müəllimlərin süni intellekt texnologiyalarından səmərəli istifadə bacarığı tədris prosesinin müasir tələblərə uyğun qurulmasında əsas amillərdən birinə çevrilmişdir.

Süni intellekt texnologiyaları müəllimə yalnız köməkçi vasitə kimi deyil, həm də təlimin keyfiyyətini artıran, fərdi yanaşmanı təmin edən və tədris prosesini optimallaşdıran mühüm innovativ resurs kimi xidmət edir. Bu texnologiyalar vasitəsilə müəllimlər şagirdlərin bilik səviyyəsini daha dəqiq qiymətləndirə, onların fərdi inkişaf trayektoriyasını müəyyənləşdirə və dərs prosesini daha interaktiv şəkildə qura bilirlər. Məsələn, adaptiv öyrənmə platformaları, avtomatlaşdırılmış qiymətləndirmə sistemləri, tədris məzmununun generasiyası və fərdiləşdirilməsi üçün tətbiq olunan süni intellekt alətləri müəllim əməyini həm asanlaşdırır, həm də daha məhsuldar edir.

Digər tərəfdən, süni intellekt texnologiyalarından səmərəli istifadə müəllimlərin pedoqoji yaradıcılığını və metodik çevikliyini də artırır. Müəllimlər bu vasitələrlə dərs planlarını daha elmi əsaslarla qurur, öyrənmə prosesində analitik qərarlar qəbul edir və şagirdlərin maraq dairəsinə uyğun fərqli öyrənmə strategiyaları tətbiq edirlər. Bununla belə, bu texnologiyaların effektiv istifadəsi üçün müəllimlərin rəqəmsal savadlılığı, texnoloji adaptasiya səviyyəsi və etik məsuliyyəti də mühüm əhəmiyyət kəsb edir.

Təhsil prossesində işləri asanlaşdırmaq üçün bir sıra süni intellekt alətlərindən istifadə etmək mümkündür. Məsələn, dərs planlaşdırılmasında ChatGPT və ya Google Gemini, şagirdlərin bilik səviyyəsini qiymətləndirmək üçün Microsoft Forms, Kahoot və ya süni intellek əsaslı ClassPoint, Quizizz, dərs zamanı interaktiv öyrənmə mühitinin yaradılması üçün Nearpod, Mentimeter, Socrative, tədris materiallarının hazırlanmasında Canva AI, GammaApp, SlidesAI kimi alətlərdən istifadə edirlər.

Təhsilin rəqəmsal mühiti sürətlə dəyişməkdədir və müəllimlər süni intellekt (Sİ) kimi innovativ texnologiyaları şagirdlərin öyrənmə prosesini təkmilləşdirmək məqsədilə araşdırırlar. Rəqəmsal

inqilabın burulğanında təhsil sektoru dərin bir metamorfoz (keyfiyyətcə dəyişiklik) yaşayır. Rabitə və təhsil texnologiyalarındakı irəliləyişlər sayəsində sinif otaqları artıq ənənəvi dərsliklər və lövhələrlə məhdudlaşmır. Süni intellekt (Sİ) bu transformasiyanın ön sıralarında yer alaraq öyrənmə və tədris üsullarını inqilabi şəkildə dəyişdirməyə qadir olan bir qüvvə kimi meydana çıxır.

Sinifdə rəqəmsal texnologiyadan istifadə müəllimlər üçün əhəmiyyətli bir məsələdir, çünki onlar getdikcə inkişaf edən texnoloji vasitələrlə tədris etməyə məcbur qalırlar. Dünya alimləri qeyd edirlər ki, süni intellekt təhsil prosesini zənginləşdirən, öyrənmə təcrübəsini təkmilləşdirən, idarəetməni sadələşdirən və təhsil ekosistemində qarşılıqlı əlaqəni gücləndirən dəyərli bir əlavə vasitə kimi çıxış edə bilər [4, s. 930].

Rəqəmsal inqilab təhsil sistemlərini dəyişdirərək rəqəmsal dərsliklər üçün yeni interfeyslərin yaranmasına səbəb olub.

Yəni, müasir dövrdə süni intellektin və rəqəmsal texnologiyaların təhsilə inteqrasiyası yalnız texnoloji yenilik deyil, həm də tədrisin mahiyyətini və müəllim-şagird münasibətlərini köklü şəkildə yenidən formalaşdıran bir prosesdir.

Müasir pedaqoji təhsil proqramları çox vaxt ənənəvi metodlara fokuslanır, Sİ-in tədris prosesinə inteqrasiyası və müvafiq bacarıqların formalaşdırılması tələblərini nəzərə almır. Bu isə müəllim, şagird və tələbələrin inkişafında gecikmə və texnoloji inqilab şəraitində təhsil xidmətlərinin keyfiyyətinin azalması riskini yaradır.

Müasir təhsil sisteminin inkişaf mərhələsi süni intellektin tətbiqi ilə xarakterizə olunur. UNESCO-nun Dayanıqlı İnkişaf Məqsədləri (SDG4) üzrə siyasəti rəqəmsal inqilabın, müəllim hazırlığını gücləndirmək və texnologiyalardan istifadə etmə ehtiyacını göstərir. Beynəlxalq səviyyədə digər sənədlərdə də müəllimlərin bütün növ rəqəmsal tədris alətlərinə yiyələnmələrinin artan zərurəti qeyd olunur.

Çinli alimlər tərəfindən aparılmış 10 ildən çox Sİ istifadəsi təcrübəsinin analizi göstərir ki, bu növ rəqəmsal texnologiyalar artıq beynəlxalq təhsil sisteminə kifayət qədər güclü formada daxil olub. Aparılan tədqiqatlar göstərir ki, Sİ tədrisdə yalnız məlumat axtarma vasitəsi kimi deyil, həm də bir sıra pedaqoji üsulların zəruri komponenti kimi istifadə olunur [5, s. 99].

Mövcud təcrübə və Sİ istifadəsinin potensialı, bu istiqamətdə fəaliyyətin genişləndirilməsini təsvir edən layihələrin hazırlanmasını şərtləndirir. Məsələn, "2021–2027-ci illər üçün Avropa Rəqəmsal Təhsil Fəaliyyət Planı" müəllimlərdə "yeni nəsil rəqəmsal kompetensiyaların" inkişaf etdirilməsinin vacibliyini açıq şəkildə göstərir [7]. Avropa İttifaqı və üzv dövlətlər təhsil üçün rəqəmsal avadanlıqlar, müəllim hazırlığı və rəqəmsal bacarıqlar üzrə tədris proqramlarının inkişafına 249 milyon avrodan çox sərmayə qoymuşdur [8].

2024-cü il yanvarın 22-də ABŞ Təhsil Nazirliyi 2024-cü il üçün Milli Təhsil Texnologiyaları İnkişaf Planını dərc etmişdir. Nazirlik hesab edir ki, təhsil standartlarının yüksəldilməsi istiqamətində müəllimlərin potensialını genişləndirmək, onları aktiv öyrənmə proqramları hazırlayan və texnoloji alətlərdən istifadə edərək təhsil alanları cəlb edən mütəxəssislərə çevirmək vacibdir [9].

Çin hökuməti süni intellekt texnologiyasını milli strategiya səviyyəsinə qaldırmışdır. Sİ sahəsində təhsilin yayılması və inkişafı kursların təşkili və laboratoriyaların yaradılması ilə həyata keçirilir. "Müəllimlər üçün rəqəmsal savadlılıq standartları (2022)" layihəsinə əsasən, Sİ alətlərinə yiyələnmək sertifikatlaşdırmanın zəruri meyarları sırasına daxil edilmişdir [10].

Son illərdə Rusiyada da Sİ-dən istifadə ilə bağlı bir sıra təhsil strategiyaları hazırlanmışdır, məsələn, 2019-cu ildə "2030-cu ilə qədər Sİ-nin Milli İnkişaf Strategiyası" təsdiqlənmişdir. Bu sənəddə müəllim hazırlığı ilə Sİ texnologiyalarının inteqrasiyasına dəstək göstərilməsi qeyd olunur.

Son illərdə süni intellekt (Sİ) texnologiyalarının təhsil sahəsinə inteqrasiyası sürətlə artıb. Xüsusilə ali təhsil müəssisələrində Sİ platformaları tələbələrin fərdi öyrənmə sürətinə və bilik səviyyəsinə uyğun tədris materialları təqdim etməklə fərdiləşdirilmiş təhsil imkanlarını artırır. Beynəlxalq tədqiqatlar göstərir ki, Sİ-dən istifadə edən təhsil alanlar ənənəvi metodlarla öyrənənlərə nisbətən akademik nəticələrini yaxşılaşdırırlar.

Sİ həmçinin təhsilin idarə olunması və qiymətləndirilməsində geniş istifadə olunur. Avtomatlaşdırılmış qiymətləndirmə sistemləri insan faktoru ilə bağlı səhvləri azaldır və qiymətləndirmə

dəqiqliyini artırır. Eyni zamanda, tələbələrin davamiyyətinin izlənməsi və fərdi öyrənmə planlarının hazırlanması üçün də Sİ texnologiyaları tətbiq edilir.

Bununla belə, Sİ-nin tətbiqi bəzi risklər və çatışmazlıqlarla müşayiət olunur. Təhsil alanlarda tənqidi düşünmə və yaradıcı yanaşma bacarıqlarının zəifləməsi, sosial və emosional inkişafın yetərincə qiymətləndirilməməsi, şəxsi məlumatların təhlükəsizliyi və etik məsələlər bu risklərdən əsaslarını təşkil edir.

Dünya təcrübəsi göstərir ki, Sİ-nin düzgün tətbiqi təhsil keyfiyyətini artırır və fərdiləşdirilmiş öyrənmə imkanları yaradır. Məsələn, Böyük Britaniyada universitetlərin böyük əksəriyyəti fərdi öyrənmə planları hazırlayarkən Sİ-dən istifadə edir, ABŞ-da isə "EdX" platforması tələbələrin dərsə davamiyyətini artırıb.

Azərbaycanda isə Sİ-nin təhsilə inteqrasiyası hələ ilkin mərhələdədir və bunun üçün maddi-texniki baza, kadr hazırlığı və regionlar arasında təhsil bərabərliyinin təmin edilməsi vacibdir. Sİ-nin effektiv və etik tətbiqi üçün strateji yanaşmalar hazırlanmalı, qanunvericilik və etik qaydalar möhkəmləndirilməlidir ki, texnologiyanın mənfi təsirləri minimuma endirilsin.

Ümumilikdə, süni intellekt ali təhsildə inqilabi dəyişikliklər vəd edir, lakin onun rolu təhsil prosesini dəstəkləməli, əvəz etməməlidir. Sİ təhsilin keyfiyyətini artırmaq və fərdi yanaşmanı təmin etmək üçün strateji və balanslaşdırılmış şəkildə tətbiq edilməlidir.

ƏDƏBİYYAT

1. İsmayılova N. Təhsildə süni intellektin rolu. Məqalə, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri elmi əsərlər toplusu. Bakı, 2025.
2. Əliyeva K. Süni intellekt-dərs vəsaiti. Bakı, ADNSU, 2024.
3. Qaragözova V. Təhsildə süni intellekt. Məqalə, "Təhsil" Elmi-pedaqoji, publisistik jurnalı. Bakı, 2025.
4. Dilmurod, R., & Fazliddin, A. Prospects for the introduction of artificial intelligence technologies in higher education. 2021.
5. Muhammad Y. Teachers Perceptions & Attitudes towards Artificial Intelligence (AI) Integration in Suburban School. 2025.
6. Чэнь Иминь. Готовность будущих учителей к использованию искусственного интеллекта в образовании. Казань, Российская Федерация, 2025.
7. https://az.trend.az/azerbaijan/society/4032297.html
8. https://archive.interconf.center/index.php/2709-4685/article/view/5451
9. https://as-journal.edu.az/suni-intellekt-n%C6%8F-vaxt-harada-v%C6%8F-nec%C6%8F-faydalidir
10. https://azertag.az/xeber/suni_intellekt
11. https://muallim.edu.az/
12. https://www.sciencedirect.com/
13. https://www.tehsil.biz/

Роя Халик кызы Мамедова
магистрант,
memmedovaroya67@gmail.com,
Абульфат Гулам оглы Пеленгов
доктор педагогических наук, профессор,
Азербайджанский Государственный Педагогический Университет

Отношение преподавателей к технологиям искусственного интеллекта и уровень их готовности к применению в образовательном процессе

Резюме

Быстрое развитие технологий искусственного интеллекта (ИИ) оказывает значительное влияние на образовательную сферу, создавая как возможности, так и вызовы для педагогов. Интеграция ИИ в учебный процесс способствует повышению качества обучения, персо-

нализации образовательных программ и оптимизации административной работы. Однако успешное внедрение ИИ в классных комнатах зависит от готовности педагогов, их отношения и восприятия данных технологий. В данном исследовании изучается отношение учителей к ИИ и оценивается их готовность к использованию ИИ в образовательной деятельности. Методология исследования основана на количественном подходе с использованием структурированных анкет, распределенных среди 250 преподавателей пригородных школ. Анкета включала четыре основных направления: демографические характеристики, воспринимаемую полезность ИИ, воспринимаемую простоту использования и отношение к применению ИИ в учебном процессе. Для измерения ответов педагогов использовалась пятибалльная шкала Лайкерта. Результаты показали, что большинство учителей осознают потенциальные преимущества ИИ в образовании, особенно в персонализации обучения, повышении вовлеченности учащихся и оптимизации административных задач. Учителя выражали оптимизм относительно возможности ИИ способствовать развитию креативности, решению проблем и дифференцированного обучения. Тем не менее, были выявлены определенные трудности, включая ограниченные технические навыки, недостаток возможностей для обучения и обеспокоенность этическими аспектами, конфиденциальностью данных и чрезмерной зависимостью от автоматизированных систем. Исследование показало, что хотя восприятие ИИ у педагогов в целом положительное, готовность к практическому применению варьируется, что подчеркивает необходимость целевых программ профессионального развития. Кроме того, подчеркивается, что эффективная интеграция ИИ является не только технологическим, но и педагогическим вопросом, требующим согласования с учебными целями, программами и методами оценки. Полученные данные свидетельствуют о том, что политические инициативы, институциональная поддержка и комплексные программы подготовки педагогов критически важны для эффективного использования ИИ в образовательной деятельности. В заключение, понимание отношения и готовности учителей к ИИ является ключевым для разработки стратегий, которые максимально используют образовательные преимущества новых технологий. Повышение цифровой компетентности и этической осведомленности педагогов необходимо для обеспечения того, чтобы ИИ дополнял обучение, не заменяя его человеческую основу. Данное исследование вносит вклад в растущий массив литературы о применении ИИ в образовании и предоставляет практические рекомендации для политиков, образовательных учреждений и программ подготовки учителей.

Roya Khaliq Mammadova
master,
memmedovaroya67@gmail.com,
Abulfat Gulam Pelengov
doctor of pedagogical sciences, professor,
Azerbaijan State Pedagogical University

Teachers' attitudes towards artificial intelligence technologies and their readiness for implementation in teaching

Summary

The rapid advancement of artificial intelligence (AI) technologies has transformed the landscape of education, creating both opportunities and challenges for teachers. The integration of AI into teaching processes promises to enhance learning outcomes, personalize education, and streamline administrative tasks. However, the successful adoption of AI in classrooms is contingent upon educators' readiness, attitudes, and perceptions toward these technologies. This study investigates teachers' attitudes toward AI and assesses their preparedness to implement AI-based solutions in the educational process. A quantitative survey methodology was employed, using structured questionnaires distributed to a sample of 250 teachers across various suburban schools.

The questionnaire focused on four main dimensions: demographic characteristics, perceived usefulness of AI, perceived ease of use, and attitudes toward AI implementation in teaching. A five-point Likert scale was used to measure teachers' responses. The study found that a majority of teachers recognize the potential benefits of AI in education, particularly in personalizing learning, enhancing student engagement, and supporting administrative efficiency. Teachers expressed optimism about AI's capacity to facilitate creativity, problem-solving, and differentiated instruction. However, several challenges were identified, including limited technical skills, insufficient training opportunities, and concerns about ethical issues, data privacy, and overreliance on automated systems. The results indicate that while teachers generally hold positive perceptions of AI, readiness for practical implementation varies, highlighting the need for targeted professional development programs. Furthermore, the study emphasizes that effective AI integration is not solely a technological issue but also a pedagogical one, requiring alignment with teaching objectives, curricula, and assessment methods. The findings suggest that policy interventions, institutional support, and comprehensive training programs are critical to preparing educators to effectively leverage AI in their classrooms. In conclusion, understanding teachers' attitudes and readiness toward AI is crucial for designing strategies that maximize the educational benefits of emerging technologies. Promoting teachers' digital competence and ethical awareness is essential to ensure that AI enhances learning while maintaining a balanced approach that prioritizes human-centered education. This research contributes to a growing body of literature on AI in education and provides practical insights for policymakers, educational institutions, and teacher training programs.

Nigar Rövşən qızı ŞƏRİFOVA
magistrant,
sharifovanigar1@gmail.com,
Sənan İsfəndiyar oğlu ƏLİYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

AZƏRBAYCANIN TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ DƏYİŞİKLİKLƏRİN İDARƏ OLUNMASI SAHƏSİNDƏ MÖVCUD VƏZİYYƏT

Təhsil dövlət siyasətinin strateji xəttidir. Yetişməkdə olan nəsillərin intellektual dünyagörüşünün formalaşması, milli və ümumbəşəri dəyərlərə malik şəxsiyyət, vətəndaş yetişdirmək probleminin açarı rolunu oynayır.

Günümüzdə təhsil sistemində aparılan yeniliklər cəmiyyətin sosial-iqtisadi inkişafı, qloballaşma, İKT-nin sürətli inkişafı, həyatımızın bütün sahələrinə daxil olması və əmək bazarının tələbləri ilə bilavasitə bağlıdır. Məlum olduğu kimi müasir elm və pedaqoji proses sürətlə inkişaf edir və təhsil, təlim-tədris prosesi və onun idarə edilməsində də yeniliklər, dəyişmələr qaçılmazdır.

Eyni zamanda, dünya təhsil sistemində gedən inkişaf prosesləri, rəqəmsal idarəetmə, inklüzivlik, davamlı öyrənmə və süni intellektin təhsildə tətbiqi milli təhsildən qlobal təhsilə keçidə zəmin yaradır. Təhsil müəssisələrinin bu dəyişikliklərə adaptasiyası, rəhbər heyətin innovativ və strateji düşüncə bacarığının inkişafı, həmçinin müəllimlərin adaptasiyası prosesin əsas komponentləri kimi çıxış edir. Təhsil müəssisələrində dəyişikliklərin idarə olunması anlayışı, təşkilatın strateji hədəf və məqsədlərinə nail olmaq üçün daxili və xarici amillərdən irəli gələn yeniliklərin məqsədyönlü və planlı şəkildə həyata keçirilməsi kimi başa düşülür. Bu prosesdə əsas məqsəd tədrisin keyfiyyətini yüksəltmək, məktəbin idarəetmə strukturunu müasirləşdirmək, müəllim və şagird fəaliyyətinin səmərəliliyini artırmaqdır.

Təhsil müəssisələrində dəyişikliklərin idarə olunması təkcə struktur baxımından deyil, eyni zamanda məzmun yeniləşməsini, idarəetmə mədəniyyətinin və strategiyalarının transformasiyasını, liderliyin yenilənməsini nəzərdə tutur. Ölkəmizdə təhsil sahəsində son illər həyata keçirilən islahatlar - "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu və "Azərbaycan 2030: sosial-

iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində aparılan dəyişikliklər bu istiqamətdə sistemli fəaliyyətin formalaşdığını göstərir.

Təhsildə dəyişikliklərin idarə olunması konsepsiyası idarəetmə elminin mühüm istiqamətlərindən biri kimi 1960-cı illərdən formalaşmağa başlamışdır. K. Levin, J. Kotter və P. Draker kimi alimlər dəyişikliklərin səmərəli idarə olunması üçün adaptiv idarəetmə, motivasiya və liderlik amillərinin vacibliyini vurğulamışlar. [7]

Təhsil sisteminə tətbiq edilən bu konsepsiya aşağıdakı mərhələləri əhatə edir:

1. Dəyişiklik zərurətinin müəyyənləşdirilməsi;
2. Strategiyanın hazırlanması;
3. Müəllim və şagirdlərin adaptasiyası;
4. İcra, qiymətləndirmə və monitorinq mərhələsi.

Bu mərhələlər bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf edərək təhsildə tətbiq edilən innovativ dəyişiklikləri təhsilimizin inkişafyönümlülüyünə, şəxsiyyətyönümlülüyünə, keyfiyyətyönümlülüyünə, nəticəyönümlülüyünə əsas verir.

Azərbaycan təhsil müəssisələrində sözügedən mərhələlərin reallaşdırılmasında hüquqi-normativ sənədlər və dövlət proqramları yönverici rol oynayır.

Elmi-tədqiqat işi apararkən Azərbaycanın təhsil müəssisələrində dəyişikliklərin idarə olunmasının hazırkı vəziyyəti də təhlilə cəlb edilmişdir.

Hazırda respublikamızda təhsil müəssisələrində dəyişikliklərin idarə olunması bir sıra istiqamətlərdə özünü göstərir:

1. Rəqəmsal transformasiya və innovativ idarəetmə;
2. Kadr potensialının inkişafı;
3. Hüquqi-normativ baza və institusional mexanizmlər;
4. Problemlər və inkişaf istiqamətləri.

Rəqəmsal transformasiya və innovativ idarəetmənin təmin edilməsi son illərdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində məktəblərdə elektron idarəetmə sistemlərinin tətbiqi, "Müəllimlərin peşəkar inkişafı platforması"nın istifadəsi dəyişikliklərin idarə olunmasında mühüm addımdır. [6]

Rəqəmsal transformasiya təhsildə İKT-nin təkcə tətbiqi deyil, həm də idarəetmə və tədris proseslərinin mahiyyətcə yenilənməsini nəzərdə tutur. Bu prosesin əsas hədəfi - təhsil müəssisəsinin fəaliyyət prosesini çevik, şəffaf, şəxsiyyətyönümlü, inkişafyönümlü və nəticəyönümli modelə çevirmək.

Rəqəmsal transformasiya idarəetmədə aşağıdakı sahələri əhatə edir:

Elektron idarəetmə sistemləri. Məktəblərin idarəetmə platformaları (e-school) vasitəsilə tədris planlarının, qiymətləndirmənin və təhsilverənlərin fəaliyyətinin elektron izlənməsi; Məlumat axınının mərkəzləşdirilməsi və şəffaf qərarvermə mühitinin formalaşması.

Süni intellektin tətbiqi. "Data-driven decision making"- məlumat əsaslı qərarvermə; Şagird nailiyyətlərinin uzunmüddətli təhlili və tədris keyfiyyətinin proqnozlaşdırılması; Süni intellekt alətləri vasitəsilə fərdi təlim yollarının planlaşdırılması. [5]

Distant idarəetmə modelləri. Təhsil müəssisələrinin fəaliyyətinin bir hissəsinin onlayn mühitdə təşkili (məsələn, akademik heyətin iclaslarının, təlimlərinin və s. rəqəmsal formatda aparılması); Pandemiya dönəmində əldə olunmuş təcrübənin idarəetmə mədəniyyətinə inteqrasiyası.

İnnovativ ekosistemin yaradılması. Rəqəmsal transformasiya və məktəblərdə innovasiyayönümlü sistemin yaradılmasını şərtləndirir. Bu, yalnız texnologiya deyil, həm də idarəetmə fəlsəfəsinin dəyişməsi, yəni ənənəvi inzibati nəzarət sistemindən açıq, çevik və nəticəyönümlü liderlik modelinə keçid.

İnnovativ idarəetmə nəzəriyyəsi. Təhsil müəssisələrinin strateji inkişafında dəyişikliklərə çevik adaptasiya, risklərin müəyyən edilməsi, idarə olunması və yaradıcı təfəkkürə əsaslanan qərarvermə mexanizmləridir.

Azərbaycan təhsil sistemində rəqəmsal transformasiya dövlət siyasətinin prioritetlərindən biri kimi çıxış edir. Bu layihələr dəyişikliklərin idarə edilməsində rəqəmsal düşüncə tərzinin formalaşmasına ciddi təkan verir.

Ölkəmizdə rəqəmsal idarəetmə istiqamətində atılan əsaslı addımlar və əldə olunan nailiyyətlərlə yanaşı bir sıra çətinliklər də mövcuddur.

Belə ki, bəzi region məktəblərində İKT infrastrukturunun zəifliyi, rəhbər və müəllimlərin rəqəmsal liderlik bacarıqlarının bərabər səviyyədə inkişaf etməməsi, rəqəmsal etikaya və kibertəhlükəsizliklə bağlı informasiya çatışmazlığı, psixoloji müqavimət kimi problemlər mövcuddur. [1]

Rəqəmsal və innovativ idarəetmə konsepsiyaları biri digərini tamamlayan iki mühüm prosesdir. Bu iki konsepsiyanın vəhdəti təhsil sistemini qlobal çağırışlara uyğunlaşdırmaqla yanaşı, idarəetmənin elmi əsaslarla inkişafını da təmin edir. Təhsilimizdə bu yöndə aparılan islahatlar təhsilin keyfiyyətinin beynəlxalq səviyyəyə yüksəlməsinə real zəmin yaradır.

Təhsil müəssisələrində dəyişikliklərin müvəffəqiyyətlə idarə olunmasında insan resurslarının da düzgün idarə edilməsi mümüm amildir. Rəhbərin strateji düşüncə, innovativ qərarvermə bacarıqları zəruridir.

Hüquqi baza və institusional mexanizmlər dəyişikliklərin mühüm amilidir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (2013) dəyişikliklərin idarə olunmasını prioritet istiqamət kimi müəyyənləşdirir.

Azərbaycan təhsilində dəyişikliklərin idarə edilməsi istiqamətində mövcud problemlər və inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Təhsil müəssisələrində dəyişikliklərin idarə olunması prosesi son illərdə nəzərəçarpacaq dərəcədə aktivləşsə də, bu sahədə sistemli yanaşmaya və liderlik potensialının artırılmasına ehtiyaclar mövcuddur. Təhsil müəssisələrinin idarəetmə orqanlarında innovativ düşüncəyə malik rəhbər kadrların formalaşması və dəyişikliklərin elmi əsaslarla idarə olunması təhsil sisteminin keyfiyyət göstəricilərinə birbaşa təsir edən amildir.

Nəticə olaraq qeyd etmək olar ki, təhsildə dəyişikliklərin uğurlu idarə olunması təkcə idarəetmə prosesi deyil, eyni zamanda pedaqoji mühitin yenilənməsi və cəmiyyətin inkişaf strategiyasına inteqrasiyası kimi qiymətləndirilməlidir. Bu istiqamətdə dünya təhsilində gedən çağırışlara uğurlu transformasiya üçün təhsil cəmiyyətinin bütün üzvləri dərin biliyə, hərtərəfli dünyagörüşünə, rəqəmsal və innovativ bacarıqlara malik olmalı və elmi tərəqqini izləməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
2. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. Bakı, 2009.
3. Əliyev Ə. Təhsildə idarəetmənin elmi əsasları. Bakı, ADPU nəşriyyatı, 2018.
4. Kotter J. Leading Change. Harvard Business Review Press, 2012.
5. Draker P. Management Challenges for the 21st Century. New York, HarperBusiness, 1999.
6. Məmmədov A. Təhsil sistemində innovativ idarəetmə mexanizmləri. Bakı, Elm və Təhsil, 2021.
7. Levin K. Field Theory in Social Science. New York, Harper, 1951.

Нигяр Ровшан кызы Шарифова
магистрант,
sharifovanigar1@gmail.com,
Санан Исфандияр оглы Алиев
доктор философии по экономике, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Современное состояние управления изменениями в образовательных учреждениях Азербайджана

Резюме

В статье анализируется современное состояние управления изменениями в образовательных учреждениях Азербайджана с теоретической и практической точек зрения. Автор подчёркивает, что происходящие в системе образования изменения требуют не только обнов-

ления структуры и содержания, но и трансформации управленческой культуры.

В результате исследования установлено, что, несмотря на предпринятые шаги по цифровой трансформации и повышению кадрового потенциала, сохраняются различия в инфраструктуре регионов и уровне управленческих компетенций руководителей. В работе предлагаются стратегические подходы и практические рекомендации по повышению эффективности управления изменениями.

Nigar Rovshan Sharifova
master,
sharifovanigar1@gmail.com,
Sanan Isfandiyar Aliyev
doctor of philosophy in economics, associate professor,
Azerbaijan State Pedagogical University

The current state of change management in educational institutions of Azerbaijan

Summary

The article analyzes the current state of change management in educational institutions of Azerbaijan from both theoretical and practical perspectives. The author emphasizes that the ongoing changes in the education system require not only structural and content renewal but also a transformation of the management culture.

The study revealed that despite significant steps taken towards digital transformation and the development of human resources, disparities in regional infrastructure and leadership competencies still exist. The paper proposes strategic approaches and practical recommendations aimed at improving the effectiveness of change management in education.

Mahmud Fərid oğlu BAYRAMLI
magistrant,
Mərdan Həsən oğlu HÜSEYNOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANIN SƏHİYYƏ SİSTEMİNDƏ KEYFİYYƏTLİ İDARƏETMƏNİN TƏŞKİLİ

Hazırda insanların ictimai-iqtisadi baxımdan daha yaxşı həyat şərtlərində yaşamaq istəkləri onların ən təbii haqlarından biri kimi qiymətləndirilməkdədir. Yaxşı həyat şərtlərinə malik olmağın ünsürləri arasında səhiyyə xidmətlərindən qənaətbəxş və normal səviyyədə faydalana bilmək mühüm yer tutur. Səhiyyənin qənaətbəxş və normal səviyyəsi humanitar və ictimai rifahın müsbət istiqamətdə inkişafına öz töhfəsini verən ən təsirli amillərdən biridir. Öz növbəsində səhiyyə sistemi səhiyyə xidmətlərinin qənaətbəxş və normal səviyyədə təqdim edilməsinin başlıca amilidir. Bu baxımdan səhiyyə sistemlərinin analiz edilməsi və uyğun nəticələrinin çıxarılması səhiyyə xidmətlərinin qənaətbəxşliliyinin ölçülməsi istiqamətində mühüm əhəmiyyətə malikdir.

Səhiyyə sistemlərinin inkişafı və tənzimlənməsində, habelə müasir dünyada əhali sağlamlığı üçün xeyli təhlükəli xarakter almış müxtəlif yoluxucu xəstəlik və epidemiyalara qarşı mübarizədə mühüm rolu ilə əlaqədardır. İnsanların daha yaxşı səhiyyə xidmətləri ilə təmin edilməsi və ictimai rifahlarının yaxşılaşması üçün beynəlxalq hüquqi tənzimlənmənin əhəmiyyəti böyükdür. Bu baxımdan Beynəlxalq Səhiyyə Təşkilatının fəaliyyətinin normativ- hüquqi aspektlərinin təkmilləşdirilməsi və qlobal miqyaslı səhiyyə problemlərinin həllində rolunun artırılması səhiyyə sistemləri perespektivindən aktuallığa malikdir. Səhiyyə sistemində təqdim edilən xidmətlər, elmi-tədqiqat və informasiya mübadiləsi fəaliyyətinin beynəlxalq səhiyyə sistemində praktiki əhəmiyyəti, üzv

dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlığın texniki- normativ əsasları, beynəlxalq səhiyyə sisteminin təkmilləşdirilməsində və problemlərinin həllində rolu, o cümlədən Azərbaycan Respublikası ilə bir sıra istiqamətlərdə əməkdaşlığının əsasları tədqiq edilmişdir.

Azərbaycan müstəqillik qazanana qədər Səhiyyə Nazirliyinin siyasəti inzibati idarəetmə sisteminin tərkib hissəsi olmuşdur. Azərbaycan Respublikasında səhiyyə sistemi Sovet Semaşko modelini miras almışdı. Bu model ierarxik struktura əsaslanaraq, resursların və kadrların yüksək mərkəzləşdirilmiş planlaşdırılması ilə fərqlənirdi. Sovet səhiyyə sistemi dövlətə məxsus idi və bütün səhiyyə işçiləri dövlət tərəfindən işlədilərək xüsusi təcrübəyə yol verilmirdi. Bununla belə, keçmiş Sovet İttifaqında səhiyyə sistemi sosial dövlət ideallarına müvafiq olaraq, güclü immunizasiya proqramları, yüksək səviyyədə ixtisaslaşmış və kiçik kəndləri belə əhatə edən səhiyyə xidmətləri və hökumət dəstəyi ilə seçilirdi.

1991-ci ildə müstəqillik qazandıqdan sonra Azərbaycan səhiyyə sistemi iqtisadi çətinliklərlə üzləşdi və buna görə də keyfiyyət və tibbi xidmətlərdən istifadə imkanları azaldı. Eyni zamanda Sovetlər Birliyinin parçalanması və qonşu Ermənistanla baş verən münaqişə Azərbaycanda səhiyyə sistemində ciddi və böyük problemlər meydana gətirdi. Nəticədə, ölkə ərazisində əvvəllər nəzarət altında saxlanılan malyariya, difteriya kimi bir çox xəstəliklər geniş şəkildə yayıldı, vərəmli xəstələrin sayı artdı. Azərbaycanın müstəqillik qazanması ilə ənənəvi ticarət əlaqələrinin pozulması dərman vasitələrinin və avadanlıqlarının tədarükünə də mənfi təsir göstərdi.

Müstəqilliyin ilk illərində Azərbaycanda digər MDB dövlətlərində olduğu kimi aşağı ömür və yoluxucu olmayan xəstəliklərin yüksək səviyyəsi əsas diqqət mərkəzində olan səhiyyə problemlərindən idi. Semaşko modelindən miras qalan ənənələr ölkənin səhiyyə strukturunda hələ də qalırdı. Bununla belə, həmin illərdə hökumət müxtəlif islahatlar, layihələr həyata keçirmək və beynəlxalq təşkilatların dəstəyi ilə ölkənin səhiyyə sahəsindəki problemləri həll etməyə istiqamətləndi. Beynəlxalq təşkilatlar (USAID, UNICEF, BST, Dünya Bankı) Azərbaycana səhiyyə sahəsində kömək etməyə başladı. Səhiyyə sahəsindəki problem və çətinlikləri aradan qaldırmaq üçün Azərbaycan Səhiyyə Nazirliyi Dünya Bankı ilə birgə Səhiyyə Sistemi İslahatı Layihəsi adlanan silsiləvi geniş sosial islahatlar həyata keçirməyə istiqamətləndi. Hazırda da davam edən layihənin məqsədi səhiyyə nəticələrinin yaxşılaşdırılması üçün səhiyyə sisteminin təkmilləşdirilməsidir. Sonuncu belə layihə 2014-cü ildə həyata keçirilmişdir.

Bu layihələr diabetik, talassemiya xəstələrinə və onların müalicələrinə, qan bağışını təşkil etməyə, ana və körpələrin sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir.

Səhiyyə sektorunda Səhiyyə Nazirliyinin idarəçiliyi ilə sosial yönümlü siyasət həyata keçirilir. Ölkədə yeni tibb müəssisələri tikilir, təkmilləşdirilmiş tibbi avadanlıqlarla təmin edilir və tibb heyətinə layihələr çərçivəsində təlimlər keçirilir. Səhiyyə sahəsində planlaşdırılmış yeni islahatlar, səhiyyə sistemi üzrə mövcud qanunvericilik bazanın təkmilləşdirilməsi, təbabətin sosial əhəmiyyətli sahələrində milli fəaliyyət proqramlarının qəbul edilməsi, ölkənin elmi-tibbi potensialının gücləndirilməsi bu gün Azərbaycan səhiyyəsinin əsas inkişaf istiqamətlərindəndir. Hal-hazırda yeni tibb müəssisələrinin tikilməsi, bütün mövcud xəstəxana və poliklinikaların yenidən qurulması və modernləşdirilməsi, yeni avadanlıqlarla təchizatı bugünkü səhiyyəmizin yüksəlişinin təzahürləridir.

Əhalinin sağlamlığının qeydinə qalınması, Azərbaycan Konstitutsiyasının da başlıca məqsədlərindən biridir. Belə ki, ali dövlət qanununun 41-ci maddəsi Sağlamlığın qorunması hüququ adlanır. Konstitusiyanın əsas insan və vətəndaş hüquqlarının və azadlıqları ifadə olunmuş bölməsində yer alan bu maddə hər bir kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququnu, həmçinin dövlətin bu sahədə zəruri öhdəliklərini müəyyən edir.

Müstəqillikdən sonra həmçinin səhiyyədə radikal islahatların həyata keçirilməsi üçün zəruri olan qanunvericilik bazası təkmilləşdirilib. Azərbaycan Respublikası Prezidentinin 49 nömrəli Sərəncamı ilə (29 dekabr 1998-ci il) "Azərbaycan Respublikasında Səhiyyə Reformu Dövlət Komitəsinin Əsasnaməsi" təsdiq edilmişdir. 1993-cü ildən başlayaraq 2000-ci illər arasında səhiyyə sahəsində bir sıra fundamental qanunlar ("Ölkə əhalisinin sağlamlığının müdafə olunması barədə", "Qan və onun tərkib hissələrinin donorluğu barəsində", "Ölkə insanın sağlamlığı ilə bağlı olaraq immunçatışmazlığı virusunun törətdiyi xəstəliklərin (AİDS) qarşısının alınması və ondan müdafiə

barəsində", "Azərbaycan Respublikasında təhlükəliliyi ilə fərqlənən xəstəliklərdən olan vərəmlə mübarizə barəsində" və s.) qəbul edilmişdir.

ƏDƏBİYYAT

1. Lee, K. (2009). The World Health Organization (WHO). London: Routledge.
2. Mcpake, B. və Normand, C. (2008), Health Economics: An International Perspective, Second Edition, Routledge, New York.
3. Odier, N. (2010), «The US Health-Care System: A Proposal for Reform», Journal of Medical Marketing, 10(4), 279-304.
4. .https://azertag.az/xeber/1053904
5. .http://azerbaij an.az/portal/StatePower/Ministers/ministersCabinet 19 a.html #5

Махмуд Фарид оглы Байрамлы
магистрант,
Мардан Гасан оглы Гусейнов
доктор философии по педагогике, доцент,
Азербайджанский Университет Кооперации

Организационные направления системы менеджмента качества в здравоохранении

Резюме

Стремление людей жить в лучших условиях жизни с социально-экономической точки зрения считается одним из их самых естественных прав. Среди элементов хороших условий жизни важное место занимает возможность пользоваться услугами здравоохранения на удовлетворительном и нормальном уровне. Это связано с её важной ролью в развитии и регулировании систем здравоохранения, а также в борьбе с различными инфекционными заболеваниями и эпидемиями, которые стали весьма опасными для здоровья населения в современном мире. Кроме того, международно-правовое регулирование имеет большое значение для предоставления людям более качественных медицинских услуг и повышения их социального благополучия. В связи с этим совершенствование нормативно-правовой базы деятельности Всемирной организации здравоохранения и повышение её роли в решении глобальных проблем здравоохранения является актуальным с точки зрения систем здравоохранения.

Mahmud Farid Bayramli
master,
Mardan Hasan Huseynov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan Cooperation University

Organizational directions of a quality management system in health

Summary

The desire of people to live in better living conditions from a socio-economic point of view is considered one of their most natural rights. Among the elements of having good living conditions, the ability to benefit from health services at a satisfactory and normal level occupies an important place. It is related to its important role in the development and regulation of health systems, as well as in the fight against various infectious diseases and epidemics that have become quite dangerous for the health of the population in the modern world. In addition, international legal regulation is of great importance for providing people with better health services and improving their social well-being. In this regard, improving the normative and legal aspects of the activities of the World Health Organization and increasing its role in solving global health problems is relevant from the perspective of health systems.

Turan Aydın oğlu XƏLİLOV
magistrant,
Rauf Qəzənfər oğlu MƏMMƏDOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA İDMAN SAHƏLƏRİNDƏ STRATEJİ İDARƏETMƏ VƏ TƏŞKİLATİ MÜHİT

Azərbaycan artıq beynəlxalq aləmdə idman ölkəsi kimi tanınır. Bu isə həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsidir. Bir tərəfdən, mövcud idman qurğuları yenidən qurulur, yaxud yeniləri inşa edilir, idmançılar hərtərəfli qayğı ilə əhatə olunur ki, bu da beynəlxalq turnirlərdə daha böyük uğurlar əldə etməyə imkan verir. Digər tərəfdən isə, Azərbaycan tez-tez qitə və dünya miqyaslı idman yarışlarına ev sahibliyi edir.Qüvvədə olan "Bədən tərbiyəsi və idman haqqında" Qanun ölkədə bədən tərbiyəsi və idman sahəsində fəaliyyətin təşkilati-hüquqi, sosial-iqtisadi əsaslarını və dövlət siyasətinin əsas prinsiplərini müəyyən edir, hər kəsin bədən tərbiyəsi və idmanla məşğul olmasına imkan yaradır. Eyni zamanda idmanın ayrı-ayrı növlərinin inkişafına dair dövlət proqramları qəbul edilmişdir.

Hazırda ölkəmizdə 500 min nəfərə yaxın adam idmanla məşğul olur. Müqayisə üçün, 2005-ci ildə bu rəqəm 376 min nəfər təşkil edirdi.Eləcə də qazanılan uğurlar ildən-ilə artır. Ötən ilin nailiyyətləri buna bariz misaldır. Belə ki, idmançılarımız 180 dünya, 228 Avropa çempionatı və birinciliyində iştirak etmişlər. Bundan əlavə, 4296 nəfər 358 beynəlxalq turnirdə qüvvəsini sınamışdır. Azərbaycan idmançıları 619 medal qazanmışlar ki, bu da 2008-ci illə müqayisədə 69 medal çoxdur. Olimpiya idman növlərində 37 medal əldə edilmişdir. İlk dəfə olaraq 4 idmançımız dünya çempionu adını qazanmışdır.Kütləvi yarışlara, tələbələrin spartakiada və universiadasına 20 ali təhsil məktəbi cəlb edilmişdir. Keçən il ölkəmizdə 33 beynəlxalq turnir təşkil olunmuşdur.Təbii ki, əsas diqqət idmanın maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilir. Keçən il paytaxtın Hövsan və Şağan qəsəbələrində, eləcə də Şəmkir, Şərur və İsmayıllı rayonlarında yeni olimpiya kompleksləri tikilib istifadəyə verilmişdir. Hazırda ölkədəki olimpiya komplekslərinin sayı 24-ə çatır.Yeni ildə idmançılarımızı mötəbər yarışlar gözləyir. Bunların arasında Sinqapurda yeniyetmələrin idman oyunları, Rumıniyada Qara dəniz oyunları, İranda islam oyunlarını və s. qeyd emək olar. Bu gün yüz minlərlə azərbaycanlının da bayramıdır. Gənclər və İdman Nazirliyi, gənclər təşkilatları, idman klubları və federasiyalar, təhsil müəssisələri bədən tərbiyəsi və idman gününü qeyd edəcək. Bayram münasibətilə Gənclər və İdman Nazirliyi tədbirlər planı hazırlamışdır. Bu gün müxtəlif tədbirlər keçiriləcək, paytaxtın mərkəzində idmançıların nümunəvi çıxışları olacaq. Həmçinin gənc nəslin ən yaxşı nümayəndələri və ənyaxşı idmançılar mükafatlandırılacaqlar. Məlum olduğu kimi, sovet dövründə Azərbaycan idmançılarının beynəlxalq yarışlarda iştirak edib bacarıqlarını nümayış etdirmək imkanları son dərəcə məhdud idi. Milli müstəqilliyin ilk illərində də vəziyyət ürəkaçan deyildi. Ümummilli böhran şəraitində diqqətsizlik və laqeyd münasibət idman komplekslərinin dağılmasına, tanınmış idmançılarımızın başqa dövlətlərin bayraqları altında beynəlxalq yarışlarda iştirakına, ölkənin idman potensialının sarsılmasına gətirib çıxarmışdı.

Yalnız böyük siyasətçi, təcrübəli dövlət xadimi Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirildi, bu sahədə yüksəlişin əsası qoyuldu. Azərbaycan tədricən idman ölkəsi kimi beynəlxalq aləmdə tanınmağa başladı, olimpiya hərəkatı geniş vüsət aldı. Qısa zaman kəsiyində həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində idmançılarımız möhtəşəm qələbələrə imza atdılar.

Ümummilli liderin idman sahəsində yeritdiyi siyasət 1997-ci ildən yeni mərhələyə qədəm qoydu. Rəhbərlik etdiyi bütün sahələrdə uğurlara imza atan Milli Məclisin deputatı, ARDNŞ-nin birinci vitse prezidenti cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi dövlətin idman siyasətinin yeni şəraitdə gerçəkləşməsinə böyük imkanlar açdı. İdmançılara dövlət qayğısı ilə yanaşı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlərə start verildi. 2000-ci ildən etibarən ölkənin bölgələrində müasir olimpiya idman kompleks-

ləri tikilib istifadəyə verilməyə başladı.

Prezident İlham Əliyevin ölkəmizin kompleks inkişafına xidmət edən siyasi xəttinin konturları həm də idman infrastrukturunun möhkəmlənməsi, genişlənməsi, yenilənməsi və idmanın inkişafına xidmət edən digər tədbirlərlə müşayiət olunur. Dövlət başçısı ölkənin hər yerində idmanla məşğul olmaq üçün müasir tələblərə cavab verən idman infrastrukturunun yaradılmasını mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Ötən illərdə Gəncədə, Naxçıvanda, Şəkidə, Qubada, Şamaxıda, Lənkəranda, Qazaxda, Bərdədə, Bakının Maştağa qəsəbəsində və digər bölgələrdə olimpiya idman kompleksləri inşa edilmişdir. Hətta cəbhə xəttinin bir neçə kilometrliyində, Ağdamın Quzanlı qəsəbəsində möhtəşəm idman qurğusu idmançılarımızın istifadəsinə verilmişdir. İndi ölkədəki olimpiya komplekslərinin sayı 24-ə çatır. Ötən il Şəmkir, Şərur və İsmayıllı rayonlarında, Bakının Hövsan və Şağan qəsəbələrində yeni olimpiya kompleksləri istifadəyə verilmişdir. Bu komplekslərdə təşkil olunmuş 108 bölmədə 3353 idmançı məşğul olur. Bütün bunların nəticəsidir ki, hazırda idmanla məşğul olanların sayı 450325 nəfərə çatmışdır. Müqayisə üçün qeyd edək ki, beş il əvvəl bu rəqəm 375501 idi.

Prezident İlham Əliyevin bölgələrə səfərləri idman komplekslərinin açılışı və yeni qurğuların təməlinin qoyulması ilə də əlamətdar olur. Bu il ən azı 5 yeni olimpiya kompleksinin istifadəyə verilməsi nəzərdə tutulur.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, idmançılarımızın beynəlxalq yarışlarda uğurları ildən-ilə artır. Rəqəmlərə nəzər salaq. Keçən il 358 beynəlxalq turnirdə Azərbaycanın 4296 idmançısı qüvvəsini sınamışdır. Onlar 619 medal qazanmışlar ki, bu da 2008-ci illə müqayisədə 69 medal çoxdur. Olimpiya idman növlərində isə 37 medallıq artım müşahidə olunmuşdur. Qazanılmış medalların təxminən yarısı qızıldır. Diqqətəlayiq haldır ki, dörd idmançımız olimpiya idman növləri üzrə dünya çempionatlarında birinci yeri tutmuşdur. Ötən il həmçinin idmanın 84 növü üzrə 449 ölkəmiqyaslı yarış keçirilmişdir. Bu turnirlərdə yüz minə yaxın idmançı iştirak etmişdir.

İdmançılarımız 180 dünya çempionatında və 228 qitə birinciliyində ölkəmizi layiqincə təmsil edərək gözəl nəticələr göstərmişlər. Bunlara misal olaraq Ermənistanda cüdo üzrə Avropa, Serbiyada şahmat üzrə Avropa, Finlandiyada güləş üzrə dünya, Litvada güləş üzrə Avropa, Bakıda bədii gimnastika üzrə Avropa və Kanadada avarçəkmə üzrə dünya çempionatlarında qazanılmış uğurları göstərmək olar. Şahmat üzrə yığma komandamız Serbiyada qitə çempionu adını qazanmışdır. Komandamızın heyətində Vüqar Həşimov, Teymur Rəcəbov, Şəhriyar Məmmədyarov, Qədir Hüseynov və Rauf Məmmədov rəqiblərini üstələyərək qızıl medallara sahib çıxdılar. Bu qələbə komanda idmanı növlərində Azərbaycanın ilk uğuru kimi tarixə düşdü. Şahmatçılarımızın qələbəsi həm də xalqımızın intellektual potensialının göstəricisidir.

Ermənistanda keçirilmiş gənc cüdoçuların Avropa çempionatında iştirak edən 5 idmançımızın hamısı fəxri kürsüyə yüksəldi. Elmar Qasımov isə bütün rəqiblərinə qalib gələrək himnimizi İrəvanda səsləndirdi. 2009-cu ilin yekunlarına dair Milli Olimpiya Komitəsi tərəfindən təşkil olunmuş mərasimdə Prezident İlham Əliyev cüdoçularımızın qazandıqları qələbənin xüsusi əhəmiyyətini vurğulayaraq demişdir: "Onlar çox ağır psixoloji şəraitdə cüdo üzrə Avropa çempionatından vətənə böyük qələbə ilə qayıtmışlar. Xüsusilə nəzərə alsaq ki, bu yarış İrəvanda keçirilirdi, əlbəttə, başa düşmək çətin deyil ki, idmançılarımızın çiyinlərinə böyük və məsuliyyətli yük düşmüşdü. O, adi yarış deyildi, Azərbaycan idmançıları ilk dəfə olaraq Ermənistanda yarışlarda iştirak edirdilər və çox uğurla iştirak etdilər. Azərbaycan Avropa çempionatında 5 idmançı ilə iştirak edirdi və beşi də vətənə medal gətirdi, beşi də Azərbaycanın Dövlət Bayrağını İrəvanda ucaltdı. Eyni zamanda bir dəfə Azərbaycanın dövlət himni İrəvanda səsləndi. Bu, böyük qəhrəmanlıqdır, böyük tarixi nailiyyətdir. Bu, Azərbaycan idmanının, Azərbaycan gəncliyinin, Azərbaycan dövlətinin zəfəri, təntənəsi idi".

Danimarkanın Herninq şəhərində keçirilmiş yunan-Roma güləşi üzrə dünya çempionatında olimpiya çempionu Fərid Mansurov birinci yerə çıxaraq ikiqat dünya çempionu adını qazandı. Ümumiyyətlə, ötən il güləş komandamız dünya miqyasında komanda hesabı ilə birinci olmuşdur. Bu da böyük nailiyyətdir. Nəzərə alsaq ki, dünyada güləş çox populyar idman növüdür və yarışlarda 100-dən artıq ölkəni təmsil edən idmançılar iştirak edirlər, bu, həqiqətən də, tarixi qələbədir.

Kanadada avarçəkmə üzrə dünya çempionatında Azərbaycan komandası uğurla çıxış etdi.

Demyanenko qızıl, Sergey Bezuqlıy-Maksim Prokopenko cütlüyü gümüş və bürünc medallar qazandılar. Beləliklə, ilk dəfə olaraq Azərbaycan idmançıları avarçəkmə idman növü üzrə də tarixi nailiyyətlərə imza atdılar.

Digər tərəfdən, Azərbaycan beynəlxalq miqyaslı yarışları təşkil etməyi bacaran ölkə kimi getdikcə daha çox nüfuz və hörmət qazanır. Təkcə ötən il ölkəmizdə 33 beynəlxalq yarış keçirilmişdir. Bunların arasında bədii gimnastika üzrə Avropa çempionatını, taekvondo üzrə dünya çempionatını və digər mötəbər yarışları göstərmək olar.

Ölkədə olimpiya hərəkatının inkişafı xüsusilə diqqəti cəlb edir. Müstəqil dövlət kimi Azərbaycan Olimpiya Oyunlarında ilk dəfə 1996-cı ildə iştirak etmişdir. Həmin il Atlanta Olimpiadasında cəmi bir medal (gümüş) qazanılmışdı. Bu, o dövrdə Azərbaycan üçün uğurlu nəticə sayıla bilərdi, amma Azərbaycanı idman ölkəsi kimi tanıtmaq üçün yetərli deyildi. Dünya idmanında layiqli yer tutmaq üçün Olimpiya oyunlarında daha yüksək nəticələr əldə etmək lazım idi. Bu məqsədə çatmaq üçün ölkədə olimpiya hərəkatının, idmanın sürətlə inkişafı təmin edilməli idi.

İdman həm vasitə, həm məqsəddir. Dövlət bədən tərbiyəsi və idmanın inkişafına qayğı göstərir, o da öz növbəsində dövlətçiliyə, milli maraqlara, əhalinin, gələcək nəslin sağlamlığına xidmət edir.

Ölkəmizin inkişafının indiki mərhələsində strateji məqsədi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq fiziki tərbiyə və idman sisteminin ölkədə tam və davamlı inkişafına nail olunması, onun köməyi ilə uşaqların, yeniyetmə və gənclərin sağlamlığının yaxşılaşdırılması, bununla bağlı cəmiyyətdə aktual olan sosial və iqtisadi problemlərin həll edilməsi və müasir dövrün tələblərinə uyğun fəaliyyətin təşkilidir. Bu sahədə əsas istiqamətlər, fiziki tərbiyə və idman fəaliyyətinin məktəblilərin və tələbələrin şüurunda sağlam həyat tərzi kimi formalaşması, onların fiziki inkişafında və fiziki kamilliyə çatmasında zəruri olan qabiliyyətlərin təkmilləşdirilməsi yolu ilə yüksək fiziki təhsil səviyyəsinə nail olmaq, yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir.

Fiziki tərbiyə və idman sahəsi işlərinin məqsədi yaşından, etnik mənşəyindən, sağlamlıq vəziyyətindən asılı olmayaraq, hər kəsin idman fəaliyyəti dairəsinin genişləndirilməsi məsələsini həll etmək, idman və gənclər təşkilatlarının, klubların, cəmiyyətlərin, həmçinin məşqçi və könüllülərin dinamik şəbəkəsini yaratmaq, idmanla kütləvi şəkildə məşğul olmaq üçün insanların problemlərinin həll yollarını tapmaqdır. Fiziki tərbiyə və idmanın kütləviliyini təmin etmək günümüzün vacib məsələlərindəndir. İdmanın kütləviliyi gənc nəslin mənəvi və fiziki inkişafı üçün vacibdir.

Ümummilli liderimiz Heydər Əliyev fiziki tərbiyə və idmanın inkişafına çox böyük diqqət ayırmış və öz çıxışlarının birində bu haqda belə demişdir: "İdmanın və bədən tərbiyəsinin inkişafı üçün görülən işlər, gələcəkdə görəcəyimiz işlər, dövlətin və hökumətin siyasətinin əsas istiqamətlərindən biridir".

Ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və 50-yə yaxın olimpiya idman kompleksinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür. Ölkə rəhbərliyi bu inkişafın bütün ölkəyə yayılmasını və idmanın kütləviləşməsini istəyir. Paytaxtda və bölgələrdə güclü idman bazaları yaradılır ki, gənclərimiz bu bazalarda idmanla məşğul olaraq sağlam böyüsünlər.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya". (2018).
2. Əliyev M.Ə., Həmidov H.İ. (2013). "Biznesdə insan resurslarının idarə edilməsi"*(dərslik),* Bakı "İqtisad Universiteti" Nəşriyyatı -532 səh.
3. Rzayev Ə.H. (2011). "Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğunun hüquqi əsasları" Bakı ,"Elm" Nəşriyyatı - 479 səh.
4. Şahbazov K.A., Həsənov H.S. və Məmmədov H.M. (2011). "Bədən tərbiyəsi və idman sahəsində dövlət və bələdiyyə idarəçiliyi" *(dərslik),* Bakı, "İqtisad Universiteti" Nəşriyyatı - 440 səh.

Туран Айдын оглы Халилов
магистрант,
Рауф Газанфар оглы Мамедов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Стратегическое управление и организационная среда в спорте в Азербайджане

Резюме

Азербайджан известен на международном уровне как спортивная страна. Это закономерный результат успешной реализации государственной политики. С одной стороны, реконструируются существующие или строятся новые спортивные сооружения, спортсменам оказывается всесторонняя поддержка, что позволяет им добиваться больших успехов на международных турнирах. В Азербайджане часто проводятся спортивные соревнования континентального и мирового масштаба. Действующий закон «О физической культуре и спорте» определяет организационно-правовые, социально-экономические основы физкультурно-спортивной деятельности в стране и основные принципы государственной политики, предоставляя всем желающим возможность заниматься физической культурой и спортом. Кроме того, приняты государственные программы развития отдельных видов спорта.

В настоящее время в нашей стране спортом занимаются около 500 тысяч человек. Для сравнения, в 2005 году этот показатель составлял 376 тысяч человек. При этом достижения растут год от года. Достижения прошлого года – яркий тому пример.

Turan Aydin Khalilov
master,
Rauf Ghazanfar Mammadov
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Strategic management and organizational environment in sports in Azerbaijan

Summary

Azerbaijan is known internationally as a sports country. This is a logical result of the successful state policy being implemented. On the one hand, existing sports facilities are being reconstructed or new ones are being built, athletes are being provided with comprehensive care, which allows them to achieve greater success in international tournaments. Azerbaijan often hosts continental and world-scale sports competitions. The current law "On Physical Education and Sports" determines the organizational-legal, socio-economic foundations of physical education and sports activities in the country and the main principles of state policy, and allows everyone to engage in physical education and sports. At the same time, state programs for the development of individual types of sports have been adopted.

Currently, about 500 thousand people are involved in sports in our country. For comparison, in 2005 this figure was 376 thousand people. Also, the achievements are increasing year by year. The achievements of last year are a clear example of this.

İsmayıl Fikrət oğlu MƏMMƏDOV
magistrant,
Firuzə Nəcəf qızı ƏLİYEVA
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

DÖVLƏT ORQANLARINDA KARGÜZARLIQ XİDMƏTİNİN ƏSAS VƏZİFƏLƏRİ

Azərbaycan Respublikası dövlət orqanlarında dövlət mülkiyyətində olan paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılması

işi, o cümlədən, sənədlərin hazırlanması, qeydiyyatı, hərəkəti, icrası, uçotu və arxivə verilməsi məsələləri təlimata uyğun aparılır. Kargüzarlıq Azərbaycan Respublikasının 27 sentyabr 2023-cü il tarixli fərmanına əsasən aparılır və yerli icra hakimiyyəti orqanlarında Azərbaycan Respublikasının rayon, şəhər, rayon icra başçılarının apartlarında sənədlərlə iş barədə təlimat əsasında aparılır [1].

Normativ-hüquqi akt layihələrinin reallaşdırılması və uzlaşması ilə bağlı kargüzarlığın aparılması, o cümlədən, sənədlərin rəsmiləşdirilməsi, protkolların hazırlanması və tərtib edilməsi Azərbaycan Respublikasının Prezidentinin 2023-cü il 6 oktyabr tarixli fərmanı ilə təsdiq edilmişdir. Bu fərmanda "İcra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının layihələrinin hazırlanması, reallaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında əsasnamənin " tələbləri nəzərə alınmaqla həyata keçirlir. Təşkilatlarda kargüzarlıq Azərbaycan Republikasının dövlət dilində - Azərbaycan dilində aparılır.

Kargüzarlıq xidmətinin əsas vəzifələri aşağıdakılardır:

- Poçt, elektron poçt, faks, telefonoqramma, fildyeqer rabitəsi vasitəsi ilə və kargüzarlıq xidmətinə bilavasitə daxil olan sənədlər üzrə bölüşdürmək və icraçılara çatdırmaq;
- Sənədləri göndərmək;
- Sənədlərin icra müddətinə, bu təlimatın tələblərinə uyğun tərtibinə və arxivləşdirilməsinə nəzarət etmək;
- İcra edilmiş sənədləri struktur bölmələrindən tələb etmək;
- Sənədlərin surətini çıxarmaq, çoxaltmaq və stenoqrafiya işlərini həyata keçirmək:
- Sənədləri nomenklatura üzrə formalaşdırmaq və arxivə təhvil vermək;
- Sənədləri qoruyub saxlamaq və xidməti zərurətlə əlaqədar onlardan istifadəni təmin etmək;
- Kargüzarlığın müntəzəm surətdə təkmilləşdirilməsi məqsədi ilə təşkilatın bütün fəaliyyət sahələrində kargüzarlıq işinə metodiki rəhbərliyi həyata keçirmək, kargüzarlığı aparan işçilərin peşə hazırlığını artırmaq;
- Tabe təşkilatlarda kargüzarlığın aparılmasına nəzarət etmək.

Strukturundan, habelə, sənəd dövriyyəsinin həcmindən asılı olaraq, kargüzarlıq sistemi mərkəzdirilmiş və mərkəzləşdirilməmiş ola bilər.

Sənəd, ona rəsmi xarakter və hüquqi qüvvə verilməsi məqsədi ilə rəsmiləşdirilir və rəsmiləşdirilmə sənədin imzalanması, təsdiq edilməsi, qeydə alınması və ona möhür vurulması vasitəsi ilə həyata keçirilir. İmzanın tərkibinə sənədi imzalamış şəxsin adı, soyadı daxildir. Əgər sənəd blankda tərtib edilmişdirsə, sənədi imzalamış şəxsin vəzifəsi qısa şəkildə göstərilir.

Kollegial orqanların sənədləri, məzmununa görə iki və ya daha artıq şəxsin məsuliyyət daşıdığı sənədlər müvafiq olaraq iki və ya daha artıq imza ilə rəsmiləşdirilir. Əgər sənədi eyni dərəcəli iki və ya bir neçə vəzifəli şəxs imzalayırsa, onların imzaları bir səviyyədə yerləşdirilir. Əgər sənəd təşkilatın blankında tərtib edilmişdirsə, ona möhür vurulmalıdır. Əsli təsdiq edilməli olan maliyyə sənədlərinə, əsasnamələrə, əmək kitabçalarına, sənədlərin məhv edilmək üçün ayrılmış aktlarına, habelə, imza qoyulması ilə bərabər Azərbaycan Respublikasının dövlət gerbi əks olunmuş möhür vurulur. Dövlət gerbi əks olunmuş möhürü olmayan təşkilatlar əsas möhürlərdən istifadə edirlər..

Nəticə

Beləliklə, sənəd ona xarakter və hüquq verilməsi məqsədi ilə rəsmiləşdirilir. Rəsmiləşdirlimiş sənədin imzalanması təsdiq edilməsi, qeydə alınması və ona möhür vurulması vasitəsi ilə həyata keçirilir. Kargüzarlığın aparılması qanunla deyil, Prezidentin fərmanı ilə təsdiqlənir. Beləliklə, bütün dövlət orqanlarında, təşkilatlarda kargüzarlığın aparılmasına nəzarəti Prezidentin Administrasiyasının Sənədlər və Vətəndaş müraciətləri ilə iş Şöbəsi həyata keçirir.

ƏDƏBİYYAT

1. Dövlət orqanlarında dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair "Təlimat".
2. Normativ-hüquqi akt layihələrinin reallaşdırılması və vizalanması ilə bağlı kargüzarlığın aparılmasına dair Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli Fərmanı.

Исмаил Фикрат оглы Маммадов
магистрант,
Фируза Наджаф кызы Алиева
доктор философии по экономике,
Азербайджанский Университет Кооперации

Основные обязанности службы делопроизводства в государственных органах

Резюме

Цель исследования – исследование порядка ведения делопроизводства в государственных органах, в юридических лицах и организациях, принадлежащих государству, а также в структурах, в которых государство владеет контрольным пакетом акций.

Методология исследования – при проведении исследования были использованы указы и распоряжения, касающиеся регулирования национальной экономики.

Практическая значимость исследования – обеспечение ведения обращений граждан Азербайджана в соответствии с инструкцией Управления делами Администрации Президента Азербайджанской Республики.

Результаты исследования – были изучены функции службы делопроизводства в государственных органах, а также обязанности, выполняемые Администрацией Президента Азербайджанской Республики в данной сфере.

Ismail Fikrat Mammadov
master,
Firuza Najaf Aliyeva
doctor of philosophy in economics,
Azerbaijan Cooperation University

Main duties of the clerical (document management) service in government bodies

Summary

Purpose of the research – to examine the procedures for conducting clerical work in government bodies, in entities where the state owns a controlling share, as well as in state-owned legal entities and their organizations.

Research methodology – during the research, decrees and orders related to the regulation of the national economy were used.

Practical significance of the research – to ensure that the handling of Azerbaijani citizens' appeals is carried out in accordance with the instructions of the Administrative Department of the Administration of the President of the Republic of Azerbaijan.

Research results – the organization of clerical services in government bodies and the responsibilities carried out by the Administration of the Republic of Azerbaijan in this field have been studied.

Fidan Mövsüm qızı HƏSƏNOVA
magistrant,
Mərdan Həsən oğlu HÜSEYNOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA SƏHİYYƏ SİSTEMİNİN BEYNƏLXALQ SƏHİYYƏ TƏŞKİLATLARINDA YERİ

BST-nin tərifinə müvafiq olaraq, sağlamlığı artırmaq istiqamətində xidmət göstərən bütün ünsürlər (xidmətdən yararlananlar, xidmət təmin edənlər, təşkiledici və nəzarətedici təşkilat və qurumlar) arasında əlaqələr mövcuddur.

Nəzəri olaraq müxtəlif tərəflərdən tərif edilən səhiyyə sisteminin praktik olaraq yaxşı bir sistem kimi fəaliyyət göstərməsini təmin edəcək xüsusiyyətləri aşağıdakı kimi qeyd etmək olar :

- İnsanların demoqrafik, iqtisadi və digər xüsusiyyətlərini nəzərə alaraq, bütün cəmiyyəti əhatə etməlidir.
- Təqdim edilən səhiyyə xidmətlərinin əhatəsi geniş olmalıdır və tam texnoloji dəstəyi ehtiva etməlidir.
- Səhiyyə xidmətlərinin bölüşdürülməsində əsas amil önləyici xidmətlər olmalıdır.
- Səhiyyə personalı kafi sayda olmalıdır.
- Tibb elmiylə əlaqəli təhsil verən strukturlar və digər təşkilatlar səhiyyə xidməti şəbəkəsiylə uzlaşma içində çalışmalıdır.
- Səhiyyə personalının aldığı ödənişlər gördükləri işə müvafiq olaraq dəyişməlidir.
- Səhiyyə sistemi normal maliyyə dəstəyinə malik olmalıdır.

Yuxarıda qeyd edilən xüsusiyyətləri əhatə edən səhiyyə sistemindən gözlənilən son nəticə insan həyatının qorunması və inkişaf etdirilməsi, yaxşı həyat şərtlərinin əldə edilməsi və sağlamlığın yüksəldilməsi yönündədir.

Hər bir ölkənin tətbiq etdiyi səhiyyə sisteminin strukturu onun ortaya qoyduğu məqsəd və dəyərlərdən asılıdır. BST-nin araşdırmalarını əsas alaraq, səhiyyə sisteminin məqsədlərini aşağıdakı kimi qeyd etmək olar:

Sağlamlq səviyyəsinin yüksəldilməsi: Hər hansı bir ölkənin tətbiq etdiyi səhiyyə sistemindən gözlənilən ilk və ən əhəmiyyətli məqsəd ölkə əhalisini təşkil edən fərdlərin mövcud sağlamlıq vəziyyətinin qorunması və inkişaf etdirilməsidir. Beləliklə, istər fərdlərin, istərsə də ölkənin sağlamlıq vəziyyətindən asılı olaraq bir çox amilin (iqtisadi və sosial-mədəni mənada) dəyişdirilməsi mümkün olacaqdır.

Adekvatlılıq: İnsanların sağlamlıqdan əlavə, digər qanuni gözləntiləri də təmin edilməlidir. Bu gözləntilərin ödənməsini təmin edən amillər fərdə hörmət (gizliliyə hörmət) və müştərimərkəzlilik (istehlakçı məmnuniyyəti) olaraq təsbit edilmişdir.

Ədalətli maliyyələşdirmə: Bu məqsəd səhiyyə sisteminin maliyyə ehtiyacının təmin edilməsi nəticəsində fərdlərin yoxsullaşmamasını, gəlir səviyyəsi yüksək olanların aşağı olanlardan daha çox maliyyə dəstəyi verməsini, yaxud fərdlərin gəlirinə görə maliyyələşmədə iştirak etməsini nəzərdə tutmaqdadır.

Ölkələrin tətbiq etdiyi səhiyyə sistemindən gözlənilən əsas fayda səhiyyə sisteminin öz məqsədlərini tam və effektiv şəkildə yerinə yetirməsidir. Bu kontekstdə, səhiyyə sisteminin məqsədləri ilə qarşılıqlı əlaqədə olan və səhiyyə sisteminin performans səviyyəsini təyin edən funksiyalar Beynəlxalq Səhiyyə Təşkilatı (BST) tərəfindən aşağıdakı kimi təsnif edilmişdir; rəhbərlik və tənzimləmə (səhiyyədən məsul olan orqanlar vasitəsilə əhali sağlamlığının idarəedilməsi), maliyyə, xidmət təminatı, resurs istehsalı və təşkilatlanma [55:24- 25].

Rəhbərlik və tənzimləmə: Ümumi şəkildə Səhiyyə Nazirliyi və digər qurumların səlahiyyət sahəsinə aid olan rəhbərlik və tənzimləmə funksiyası, ölkədə qəbul edilən və tətbiq olunan səhiyyə sisteminin əhatə etdiyi əhalinin sağlamlıq vəziyyətinin idarə olunması kimi tərif edilə bilər.

Maliyyə: Səhiyyə sisteminin işləkliyi və dayanıqlığının təmin edilməsində maliyyə funksiyası əhəmiyyətli faktordur. Maliyyə funksiyası sözün tam mənasıyla funksional olduqda, səhiyyə sistemlərinin ehtiyac duyduğu dəstək təmin edilir və sistemdən gözlənilən nəticələrin əldə edilməsi asanlaşır. Maliyyə funksiyasının reallaşdırılması prosesinə effektiv və köməkçi olan gəlir yığımı (əməkhaqqından ödəmələr, gəlirə və riskə əsaslanan könüllü sığorta, zəruri sığorta, ümumi və xüsusi məqsədli vergilər, vətəndaş cəmiyyətləri və humanitar təşkilatlardan gələn pul transferləri), fondların bir yerə toplanması və satınalma komponentləri daxildir.

Xidmət təminatı: Səhiyyə iqtisadiyyatına görə, fərdlərin və cəmiyyətin sağlamlığının qorunması və xəstəliklərinin qarşısının alınması (birinci pillə səhiyyə xidmətləri) ilə inkişaf etdirilməsinə (ikinci və üçüncü pillə səhiyyə xidmətləri) istiqamətlənən fəaliyyətin cəmi səhiyyə xidmətinin təqdimatı, yaxud təklifidir.

Resurs istehsalı və təşkilatlanma: Səhiyyə sisteminin işləkliyi və meydana gəlməsinin təməl faktorlarından digəri də resursların mövcudluğudur. Səhiyyə sisteminin mədaxilləri olaraq da qiy-

mətləndirilən resurslara insan resursu (səhiyyə personalı və köməkçi vasitələr), informasiya, səhiyyə xidmətinin təqdim edildiyi strukturlar (səhiyyə mərkəzi, xəstəxana, klinika, laboratoriya və s.) və hər növ tibbi vəsait daxildir. Bu cür resursların istehsalı fərdi olaraq hansısa məna ifadə etmir. Bu səbəbdən səhiyyə sisteminin işləkliyi üçün istehsal edilən resursların müəyyən bir sistem daxilində təqdim edilməsi gərəklidir. Bəhs edilən proses eyni zamanda təşkilatlanma funksiyası adlanır. Əlaqədar resursların istehsalı və təmin edilməsi prosesində, tətbiq edilən səhiyyə sisteminə müvafiq olaraq, müxtəlif səviyyəli milli səhiyyə qurumları (əsasən Səhiyyə Nazirliyi), səhiyyə sığorta proqramları, dövlətə aid digər təşkilatlar (universitetlər və s.), qazanc məqsədi güdməyən təşkilatlar və özəl sektor təşkilatlanma funksiyasını yerinə yetirir.

Başlıca məqsədi əhalinin sağlamlığının qorunması və inkişaf etdirilməsi olan səhiyyə sistemlərinin tətbiq olunduqları ölkənin tarixini, sosial-iqtisadi inkişafını, mədəni və dini (qarşılıqlı) təsirlənməsini və siyasi ideologiyasını təmsiletmə gücü də vardır.

Hansısa bir səhiyyə sistemi ilə milli səhiyyə sistemi arasındakı başlıca fərq dövlət müdaxiləsinin olmasıdır. Bu baxımdan milli səhiyyə sisteminin quruluşu siyasi motivasiyalarla olduğu qədər, maliyyə və insan resurslarının əlçatanlığının təqdim etdiyi imkanlar və məhdudiyyətlərlə xarakterizə edilir. Bir çox səhiyyə sistemində dövlət səhiyyə xidmətini təqdim edən elementləri qurur, tətbiq edir və lazımi səhiyyə personalını işə götürür. Bu cür tənzimləmə sosial dövlətə xasdır və sağlamlığın insan haqqı kimi xarakterizə edildiyi cəmiyyətlər üçün etibarlı sayılır. Lakin səhiyyə xidmətlərini tamamilə bazarın öhdəsinə buraxan səhiyyə sistemlərində belə, ən azından qoruyucu səhiyyə xidmətləri dövlət əli ilə tənzimlənir.

Səhiyyə sistemlərinin tənzimlənməsində digər əhəmiyyətli faktor o sistemə aid olan dəyərlər və ənənələrdir. Məsələn, alman səhiyyə fondlarının işində yazılmayan qaydalar müəyyən əhəmiyyətə malikdir. Şimali Avropa ölkələrindəki səhiyyə islahatlarının müvəffəqiyyətli tətbiqi isə məqsədlər üzərindəki güclü fikir birliyi ilə açıqlana bilər. Mərkəzi və Şərqi Avropada tətbiq edilən yeni maliyyə mexanizmi nümunələrindən göründüyü kimi dəstəkləyici ənənələr olmadıqda bu sistemi tətbiq etmək olduqca çətinləşir. Dövlət xarakerli sosial təhlükəsizlik qurumlarının sağlamlıq xidmətlərinin maliyyələşdirilməsini boynuna götürdüyü səhiyyə sistemlərində də dövlət ən azından (digər ictimai xidmətlər üçün işə götürdüyü personalın işə götürəni olaraq) sosial təhlükəsizlik qurumlarına səhiyyə vəsaitləri yatırır.

Beynəlxaq Səhiyyə Təşkilatına qədər səhiyyə sahəsində beynəlxalq əməkdaşlığa nəzər saldıqda məlum olur ki, əhali sağlamlığı istiqamətində beynəlxalq əməkdaşlığın başlaması ilə əvvəl regional səviyyədə, daha sonra isə qlobal səviyyədə təşkilatlar yaranmışdır. Başda yoluxucu xəstəliklərlə bağlı məlumat axını olmaq üzrə, əhali sağlamlığı istiqamətində dövlətlər arasında effektiv əməkdaşlığın təmin edilməsində beynəlxalq bir təşkilatın əhəmiyyətli vəzifələr boynuna götürə biləcəyi düşüncəsiylə daimi beynəlxalq təşkilatların qurulması yalnız 20-ci əsrin əvvəlində mümkün olmuşdur.

ƏDƏBİYYAT

1. «Azərbaycan: gələcəyə baxış» İnkişaf Konsepsiyası.https://www.president.az/files/future az.pdf
2. Conforti, B. (2005). The law and the practice of the United Nations. Leiden: Martinus Nijhoff Publishers.
3. World Bank.(2014).Azerbaijan : Health Reform Project. Washington, DC: World Bank Group.
4. WHO (2014). Programme Budget 2014- 2015. Geneva: http://who.int/about/resources planning/PB14-15 en.pdf?ua=1
5. http: //apps.who. int/fctc/implementation/database/sites/implementation/files/ documents/ reports/azerbaij an 2016 annex4 report on fctc implementation 2015 .pdf
6. http://apps.who.int/fctc/implementation/database/sites/implementation/files/ documents /reports/ azerbaij an 2016 annex4 report on fctc implementation 2015 .pdf

Fidan Movsum Hasanova
master,
Mardan Hasan Huseynov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan Cooperation University

Place and role of the health system in Azerbaijan in international health organizations

Summary

According to the definition of the WHO, the following can be attributed to the features that will ensure the functioning of the health system as a good system:

- It should cover the entire society, taking into account the demographic, economic and other characteristics of people.
- The scope of health services should be wide and include full technological support.
- The main factor in the distribution of health services should be preventive services.
- There should be a sufficient number of health personnel.
- Organizations providing medical education should work in conjunction with the health service.
- Payments to health personnel should vary according to the work they do.
- The health system should have normal financial support.

Фидан Мовсум кызы Гасанова
магистрант,
Мардан Гасан оглы Гусейнов
доктор философии по педагогике, доцент,
Азербайджанский Университет Кооперации

Место и роль системы здравоохранения Азербайджана в международных организациях здравоохранения

Резюме

Согласно определению ВОЗ, к характеристикам, обеспечивающим функционирование системы здравоохранения как эффективной системы, можно отнести следующее:

- Она должна охватывать всё общество, учитывая демографические, экономические и другие характеристики людей.
- Сфера медицинских услуг должна быть широкой и включать полную технологическую поддержку.
- Основным фактором в распределении медицинских услуг должны быть профилактические услуги.
- Необходимо наличие достаточного количества медицинских кадров.
- Организации, предоставляющие медицинское образование, должны работать в тесном контакте со службой здравоохранения.
- Оплата труда медицинских работников должна варьироваться в зависимости от выполняемой ими работы.
- Система здравоохранения должна иметь нормальное финансовое обеспечение.

Kamran Rasim oğlu ƏLİYEV
magistrant,
Mərdan Həsən oğlu HÜSEYNOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCAN SƏHİYYƏSİNİN TİBB XİDMƏTİNDƏ İNNOVASİYA FƏALİYYƏTİNİN İDARƏ EDİLMƏSİ

Son illərdə Azərbaycanın səhiyyə sektorunda əldə olunan nailiyyətlərə baxmayaraq, Azərbaycanda əhali ictimai və şəxsi səhiyyə xidmətlərində bir sıra problem və çətinliklərlə üzləşir. Azərbaycan cəmiyyəti əsasən səmərəsiz və aztəminatlı ictimai səhiyyədən əziyyət çəkir. Azərbaycanda dövlət xəstəxanaları dövlət tərəfindən idarə olunur. Bu xəstəxanalarda sakinlər üçün tibbi müalicə pulsuz təklif olunmasına baxmayaraq, səhiyyə xidmətləri müqabilində qanunsuz ödənişlər tələb olunur. Poliklinika xidmətlərini təklif edən pediatriya və yetkin poliklinika və stasionar xidmətlər təklif edən ixtisaslaşdırılmış klinikalar/xəstəxanalar dövlət obyektidir. Bu müəssisələr əsasən Bakıda yerləşir və regionlar üzrə keyfiyyətli səhiyyə-müalicə xidmətləri təklif edən özəl və dövlət müəssisələrinin nisbəti xeyli aşağıdır. Bununla belə, Azərbaycanda son illərdə fərdi səhiyyə xidmətləri də genişlənmişdir. Səhiyyə sistemi əsasən Səhiyyə Nazirliyi və yerli hakimiyyət orqanları arasında bölünür. Respublika xəstəxanaları, elmi-tədqiqat institutları və sanitariya -epidemiologiya sistemi daxil olmaqla, bir sıra obyektlər Səhiyyə Nazirliyinə məxsusdur. Yerli xəstəxanalar, rayon poliklinikaları və xüsusi dispanserlər rayon və şəhər idarələrinə məxsusdur. Tibb Universiteti Səhiyyə Nazirliyinin balansında olsa da, ölkə müstəqillik qazandıqdan sonra avtonomluq qazandı.

Azərbaycanda Tibbi sığorta haqqında Qanun (1999) qəbul edilsə də, ölkə üzrə geniş tətbiq edilməmiş və işçilər çox az hallarda tibbi sığorta edilirlər. Tibbi sığorta üzrə bu boşluqları doldurmaq üçün Azərbaycan Hökuməti tərəfindən müxtəlif tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 dekabr 2007-ci il tarixli 2592 saylı Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Məcburi Səhiyyə Sığortası Agentliyi yaradılmış və Agentliyin strukturu Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmişdir. Azərbaycanın səhiyyə sahəsində əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların siyahısında BMT Uşaq və Əhali Fondunu, UNİCEF, Dünya Bankı, USAİD, BST və digər beynəlxalq qurumları göstərmək mümkündür. Azərbaycan Respublikası inkişaf etdikcə, dövlətlər arasında mövcud olan sərhədlər şəffaflaşdıqca, elmi- texniki nailiyyətlər, sosial və iqtisadi münasibətlər durmadan inkişaf etdikcə ölkə səhiyyəsinin beynəlxalq aləmə inteqrasiyası artmaqla bərabər, mövcud olan və yeni qurulan əlaqələr sürətlə genişlənir. 2005-ci ilin sonlarından başlayaraq Səhiyyə Nazirliyinin Beynəlxalq Əlaqələr Şöbəsi ölkəmizdə fəaliyyət göstərən beynəlxalq aləmdə nüfuz sahibi olan qurumlarla, müxtəlif donor təşkilatları ilə, diplomatik missiyalarla, bununla bərabər olaraq ölkə səhiyyəsinin hüdudlarımızdan kənarda digər xarici ölkələrdə və beynəlxalq təşkilatlarda təmsil olunması üçün digər nazirliklər ilə əlaqələri genişləndirmişdir. Bu məsələ, səhiyyə nazirinin 01 dekabr 2005-ci il 146 saylı "Beynəlxalq Millətlər Təşkilatının uşaqların qorunması və onların inkişafının təmini məqsədi ilə yaradılmış uşaq fondu, Beynəlxalq Səhiyyə Təşkilatı və digər beynəlxalq təşkilatlarla həyata keçirilən proqramlar barəsində" əmrində öz əksini ətraflı olaraq tapmışdır. Həmçinin BMT-nin Qida Proqramı Fondu, Sərhədsiz həkimlər, Beynəlxalq Tibb Korpusu, Qızıl Xaç Federasiyası və nüfuzlu qeyri-hökumət təşkilat və fondları Azərbaycanda bir sıra səhiyyə layihələri həyata keçirir.Azərbaycan BST-nin tamhüquqlu üzvü kimi Təşkilatın idarə heyətində də yer almaqdadır. Məsələn, ölkəmiz 2005-2008-ci illər üçün 16-25 may 2005-ci il tarixlərində Cenevrə şəhərində təşkil olunmuş Beynəlxalq Səhiyyə Assambleyasının sayca 58-ci sessiyası daxilində Avropa regionundan BST-nin İcraiyyə Şurasına üzv seçilmişdir.BST-nin Ebolaya qarşı reaksiyasını əks etdirən ara qiymətləndirmə hesabatı epidemiyanın mürəkkəbliyini tanıyırdı, lakin ciddi boşluqlar ona qarşı mübarizəni çətinləşdirirdi. Bu çatışmazlıqlara cavab olaraq, Çan Assambleyanın açılışında BST-də bir sıra islahatlar təşkil edildiyini bildirdi. Bu islahatlar:

- Yoluxucu xəstəlik baş verdiyi təqdirdə buna cavab olaraq, üç aya qədər sahə əməliyyatlarını maliyyələşdirə bilən 100 milyon dollarlıq təcili ehtiyat fondu qurmaq;
- Yerində xidmət göstərmək üçün tez qurula bilən sürətli bir müdaxilə qrupunun yaradılması;
- Beynəlxalq Səhiyyə Qaydaları və güclü xəstəlik müşahidə sistemlərini müəyyən edən tələbləri nəzərə almaq üçün nəzarət komitəsi yaratmaq;
- Beynəlxalq Səhiyyə Təşkilatının hesabatından məsul olan, siyasi təzyiqlərdən təcrid olunmuş, BST tərkibində yarımuxtar bir komitənin yaradılması.

BST-nin regional komitə və bölgə ofisindən ibarət olan Regional Bürolarının başda epidemik xəstəliklər olmaq üzrə səhiyyə sahəsində ortaya çıxan problemlərin yaxından izlənilməsini mümkün etməsi və bu problemlərə daha sürətli və təsirli şəkildə müdaxilə baxımından əhəmiyyətli olduğu deyilə bilər.

ƏDƏBİYYAT

1. "Azərbaycan: gələcəyə baxış" İnkişaf Konsepsiyası.https://www.president.az/files/future az.f
2. Conforti, B. (2005). The law and the practice of the United Nations. Leiden: Martinus Nijhoff Publishers.
3. Elola, J., Daponte, A. ve Navarro, V. (1995), « The Organization of Health Care and Health Indicators Systems in Western Europe», American Journal of Public Health, 85(10), 1397-1401.
4. İbrahimov F., İbrahimova A., Kehler J., Richardson E. (2010). Azerbaijan:
5. Health system review. Health Systems in Transition. http: //www.euro .who .int/ data/assets/pdf file/0004/118156/E94132. pdf
6. Lee, K. və Fang, J. (2013). Historical Dictionary of the World Health Organization (Vol. 15). Rowman və Littlefield.
7. .http://who .int/country-cooperation/what-who-does/south-south/en/
8. .http://who.int/country-cooperation/what-who-does/brics/en/
9. .http://who.int/un-collaboration/health/development-goals/en/

Камран Расим оглы Алиев
магистрант,
Мардан Гасан оглы Гусейнов
доктор философии по педагогике, доцент,
Азербайджанский Университет Кооперации

Управление инновационной деятельностью в системе здравоохранения Азербайджана

Резюме

Несмотря на достижения в сфере здравоохранения Азербайджана, население страны сталкивается с рядом проблем и трудностей, связанных с государственным и частным здравоохранением. Азербайджанское общество в основном страдает от неэффективности и недостаточного финансирования государственного здравоохранения. Государственные больницы в Азербайджане находятся в ведении государства. Хотя лечение в этих больницах предоставляется пациентам бесплатно, за медицинские услуги взимается незаконная плата. Детские и взрослые поликлиники, оказывающие амбулаторные услуги, и специализированные больницы, предлагающие стационарные услуги, являются государственными учреждениями. Эти учреждения в основном расположены в Баку и значительно уступают частным и государственным учреждениям, предлагающим качественные медицинские услуги в региона.

Kamran Rasim Aliyev
master,
Mardan Hasan Huseynov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan Cooperation University

Management of innovation activity in the medical service of Azerbaijani healthcare

Summary

Despite the achievements in the healthcare sector of Azerbaijan, the population in Azerbaijan faces a number of problems and difficulties in public and private healthcare services. Azerbaijani society mainly suffers from inefficient and underfunded public healthcare. State hospitals in Azerbaijan are managed by the state. Although medical treatment is offered free of charge to residents in these hospitals, illegal payments are required for healthcare services. Pediatric and adult polyclinics offering outpatient services and specialized hospitals offering inpatient services are state facilities. These institutions are mainly located in Baku and are significantly inferior to private and state institutions offering quality healthcare services in the regions.

Faiq Balayar oğlu MƏMMƏDOV
magistrant,
Rauf Qəzənfər oğlu MƏMMƏDOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA DÖVLƏT TƏRƏFİNDƏN İDMANIN İNKİŞAFINA DƏSTƏK MEXANİZMİ

Azərbaycanda davamlı inkişaf üçün bir çox mühüm prioritet sahə müəyyənləşdirilmişdir ki, onlardan da biri məhz idmanın səmərəli idarəçiliyinin təmin olunması ilə bağlıdır.

Ölkəmizdə idman sahəsində dövlət idarəçiliyi sahəsində aparılmış araşdırmalar nəticəsində bəzi istiqamətlərdə çatışmazlıqların yeni yanaşmaların tətbiqi ilə çevik və daha məhsuldar sistemin qurulması üçün maneə olacağı qənaətinə gəlmək olar. Geniş təhlillər nəticəsində bir neçə istiqamətdə həyata keçirilə biləcək addımlarla bu çatışmazlıqları aradan qaldırmaqla, idarəçilikdə kadr potensialından daha da səmərəli istifadəyə nail olmaq olar.

Birinci istiqamət: normativ-hüquqi bazanın genişləndirilməsi. Ölkəmizdə bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu sistemi 29 000-dən çox qulluqçu ilə idman sahəsində dövlət orqanları arasında foralaşmış münasibətlər sistemidir. Bu sistemin daxili proseslərinin mütəşəkkil şəkildə həlli üçün bu prosesləri tam və əhatəli izah edən qanunvericilik aktları mövcud olmalıdır. Əvvəlki bölmələrdə də qeyd edildiyi kimi, ölkəmizdə bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu sahəsində qanunvericilik dörd səviyyədə formalaşdırılmışdır. İkinci istiqamət: bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğuna qəbulun şəffaflığının artırılması. Dünya bədən tərbiyəsi və idman sahəsində dövlətləri tərəfindən bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu sahəsində işə qəbulla bağlı yekdilliklə qəbul oluunmuş prinsiplər vardır.

1. Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğuna işə qəbul və seçim prosesi daxili və xarici resurslar hesabına bədən tərbiyəsi və idman sahəsində dövlət məmurlarının kateqoriyasından asılı olmayaraq açıq dərəcədə şəffaf və bərabər imkanlara əsaslanır.

2. Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu vəzifələrinə müraciət etmək üçün işə qəbulun keyfiyyətini təmin edən ümumi uyğunluq meyarları və ümumi müddəalar ilkin qanunvericilikdə müəyyən edilmişdir. Xüsusi tələblər, vəzifə təlimatları, səriştəli profillər, seçim metodları, qiymətləndirmə sistemləri və hər bir kateqoriyaya daxil olmaq üçün seçim komitələrinin tərkibi də daxil olmaqla ətraflı prosedurlar əsasən ikinci dərəcəli qanunvericiliklə əhatə olunur.

3. İşəgötürmə və seçim komitələrinə bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu vəzifələrinə namizədlərin müxtəlif bacarıq və səriştələrini qiymətləndirmək bacarığı və təcrübəsi olan insanlar daxildir və siyasi müdaxilə yoxdur.

4. Təyin olunmamış namizədlərin haqsız işə qəbul qərarlarına etiraz etmək hüququ var.

5. Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu və işçilərin ayrı-seçkilikdən qorunması bütün idarəetmə orqanları tərəfindən bərabər rəftar prinsipi ilə təmin edilir. Qanunda aydın şəkildə göstərilən hallarda, işə qəbul prosesində hərtərəfli və ədalətli təmsilçilik nəzərə alınır.

6. Bədən tərbiyəsi və idman sahəsində dövlət məmurlarının ixtisarı və bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu münasibətlərinin sona çatması üçün obyektiv meyarlar qanunda dəqiq müəyyən edilmişdir.

7. Bədən tərbiyəsi və idman sahəsində dövlət məmurlarının haqsız yerə işdən azad edilməsinə etiraz etmək hüququ var.

Ölkəmizdə tətbiq edilən idman sahəsində dövlət qulluğuna qəbul mexanizmini nəticəlilik, şəffaflıq və adekvatlıq baxımından qənaətbəxş hesab etmək olar. Qəbul prosesinin daha səmərəli həyata keçirilməsini, tələb olunan bilik və səriştəyə malik namizədin düzgün vəzifəyə təyin edilməsi üçün ilk növbədə vakant vəzifəni təklif edən bədən tərbiyəsi və idman sahəsində dövlət orqanı tərəfindən bütün vəzifələr üçün təlimatlar, tələblər və şərtlər aydın və tam şəkildə hazırlanmalıdır. Müsabiqənin müsahibə mərhələsində namizədlərin müraciət etdiyi vəzifəyə uyğunluğu hərtərəfli araşdırılmalı, süni maneələr yaradılmamalıdır.

Üçüncü istiqamət: adaptasiya tədbirlərinin həyata keçirilməsi. İşə qəbul mərhələlərinin nəticəsində vəzifəyə uyğun hesab edilərək işə qəbul edilən əməkdaşlar üçün oriyentasiya və adaptasiya prosesləri daha efektiv təşkil edilə bilər. Adaptasiya yeni qəbul olunmuş əməkdaşın iş mühitinə, işin xüsusiyyətlərinə, kollektivə uyğunlaşması prosesidir. Hazırda adaptasiya prosesi bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğuna ilk dəfə qəbul olan işçilər üçün 6 aylıq staj müddəti ərzində ona təyin olunmuş kurator tərəfindən aparılır. İşçinin mühitə tez uyğunlaşmasının nə dərəcədə əhəmiyyətli bir proses olduğunu nəzərə alaraq bu işin vahid mərkəzdən kompleks şəkildə aparılmasına ehtiyac vardır.

Dördüncü istiqamət: mütərəqqi qiymətləndirmə mexanizmlərinin tətbiqi. Hazırda tətbiq edilən qiymətləndirmə mexanizmi biristiqamətli olmaqla yalnız rəhbər şəxslər tərəfindən qiymətləndirmə prosesinin aparılması ilə həyata keçirilir. Bu halda bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçusunun yalnız ierarxik nəzarət nəticəsində öz fəaliyyətini qurmasına və biristiqamətli inkişafına səbəb olur. Xidməti fəaliyyətin hərtərəfli qiymətləndirilməsini təmin etmək üçün işçinin iş yoldaşlarının, idarəçilərin, vətəndaşların da təsir və qiymətləndirmə imkanları nəzərə alınmalıdır. Nəticədə işçilərdə kollektiv daxili münasibətin düzgün qurulması, vətəndaşlara işləmə bacarıqlarının inkişafı üçün motivasiya yaranacaqdır. Bu baxımdan bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində özəl sektorda istifadə olunan 360 dərəcə qiymətləndirmə metodunun ünsürlərindən istifadə etmək məqsədəuyğundur.

Beşinci istiqamət: bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçularının peşəkar inkişafının təmin olunması və təlimləndirmə işlərinin həyata keçirilməsi: Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçularının təlimə olan ehtiyacları düzgün müəyyən edilməli və tələbata cavab verən təlim proqramları hazırlanmalıdır. Təlim proqramılarının hazırlanması və təşkili keçirilən sorğuların, xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticələrinə əsasən, fəaliyyətin əsasını təşkil edən qanunvericilik aktlarının dəyişməsi və ya yenisinin qəbulu zamanı, həmçinin fəaliyyətdə elmi-texnoloji yeniliklərdən istifadəyə verilməsi dövründə ondan istifadənin asanlaşdırılması məqsədi ilə həyata keçirilə bilər. Təlim strategiyalarının hazırlanması zamanı nəzarət və qiymətləndirilməyə xüsusi önəm verilməlidir. Təqdim olunmuş təlimin çatışmazlıqlarının nə dərəcədə aradan qaldırdığı, tələbatı hansı səviyyədə ödədiyi araşdırılmalıdır.

Altıncı istiqamət: İT biliklərin artırılması və İKT yenilklərindən istifadənin şaxələndirilməsi. Peşəkar fəaliyyətin daha səmərəli və məhsuldar olması üçün müasir iş mühitində elektron informasiya sistemlərindən, elmi-texnoloji yeniliklərdən, elektron cihazlardan istifadə edilməsi geniş yayılmışdır. Əlçatanlıq, vaxta və enerjiyə qənaət, məlumatların daha rahat toplanması, emalı və ötürülməsi imkanları, hesabatlılıq kimi üstünlükləri bu yeniliklərdən istifadəni günümüzün tələ-

binə çevirib. Müxtəlik kommunikasiya vasitələri, elektron sənəd və sənəd dövriyyəsi sistemləri, elekrton imza, müxtəlif informasiya bazaları hər bir bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçusu üçün təmin olunmalı və bunlardan istifadə qaydaları tədris edilməlidir.

Yeddinci istiqamət: bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu növləri arasında əlaqələrin mövcud olunması. Əvvəlki bölmələrdə qeyd etdiyimiz kimi, müasir dünya təcrübəsində idman sahəsində dövlətin məqsədləri üçün çalışan və onun funksiyalarını həyata keçirən işçilər ümumi adla bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçuları adı ilə adlandırılırlar.

Səkkizinci istiqamət: idman sahəsində dövlət qulluqçularının ratasiyasının daha cəlbedici hala gətirilməsi. Qanunvericiliyə əsasən bədən tərbiyəsi və idman sahəsində dövlət orqanları peşəkarlığın artırılması, təcrübə mübadiləsinin və digər bu kimi ortaq məqsədlərin təmin edilməsi üçün bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçularını müxtəlif vəzifələrə, ərazilərə, qurumlara ratasiya edə bilərlər. Rotasiya məcburidir. Bu zaman bədən tərbiyəsi və idman sahəsində dövlət qulluçularının təminatı həyata keçirilməsinə baxmayaraq əksər bədən tərbiyəsi və idman sahəsində dövlət qulluqçusu üçün bu sanki bir cəza tədbiri olaraq qarşılanır. Bu fikrin aradan qaldırılması üçün rotasiya qaydalarına yenidən baxılmalı, stimullaşdırıcı bəndlər əlavə edilərək idman sahəsində dövlət qulluqçularının mənafeləri qorunmalıdır.

Doqquzuncu istiqamət: kadr siyasətinin düzgün formalaşdırılması bədən tərbiyəsi və idman sahəsində dövlət orqanlarının kadr işləri ilə məsul olan bölmələrinin səmərəli fəaliyyətinin təmini. Bir çox hallarda kadr məsələləri üzrə məsul şöbə tərəfindən fəliyyət peşəkar və kadr strategiyasına uyğun olan şəkildə aparılır. Kadr işi ilə məşğul olan əməkdaşların bilik və peşəkarlığı yüksək olmalı, fəaliyyətin təşkilində müasir metodlardan istifadə, hesabatlılıq, şəffaflıq təmin olunmalıdır.

Onuncu istiqamət: karyera planlaşdırılması və yüksək vəzifəyə təyin edilmə. Ölkəmizdə vəzifədə yüksəliş həm karyera, həm də vəzifə modelinə əsasən aparılmaqdadır. Vəzifə modelinə əsasən təyin olunacaq əməkdaş vəzifənin tutulma şərtlərinə və tələblərinə cavab verməlidir. Müsbət cəhəti əməkdaşın bilik bacarığının onun vəzifədə yüksəlişi zamanı əsas götürülməsidir. Lakin bəzi hallarda bu, gözlənildiyi kimi nəticələnməyə bilər.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya". (2018).
2. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" (2016).
3. "Bədən tərbiyəsi və idman sahəsində dövlət qulluğu haqqında"Azərbaycan Respublikasının Qanunu (2000).
4. Ələkbərov U.K. (2016). "İnsan inkişafının əsaslar" *(dərslik)* Bakı, "Aspoliqraf" Nəşriyyatı - 280 səh.
5. Səfərov R.A. (2014). "Bədən tərbiyəsi və idman sahəsində dövlət Qulluğu" *(Dərs vəsaiti),* Bakı.

Фаиг Балаяр оглы Мамедов
магистрант,
Рауф Газанфар оглы Мамедов
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Механизм государственной поддержки развития спорта в Азербайджане

Резюме

В Азербайджане выявлено множество важных приоритетных направлений для устойчивого развития, одно из которых связано с обеспечением эффективного управления спортом.

В результате исследований, проведенных в области государственного управления в сфере спорта в нашей стране, можно сделать вывод, что наличие недостатков в некоторых областях будет препятствовать созданию гибкой и более продуктивной системы с примене-

нием новых подходов. В результате всестороннего анализа, путем устранения этих недостатков с помощью шагов, предпринимаемых в нескольких направлениях, можно добиться более эффективного использования кадрового потенциала в управлении.

Система государственной службы в сфере физической культуры и спорта в нашей стране представляет собой систему налаженных отношений между более чем 29 000 сотрудников и государственными органами в сфере спорта.

Faig Balayar Mammadov
master,
Rauf Ghazanfar Mammadov
doctor of philosophy in economics, associate professor,

Azerbaijan Cooperation University

Mechanism of state support for the development of sports in Azerbaijan

Summary

Many important priority areas for sustainable development have been identified in Azerbaijan, one of which is related to ensuring effective sports management.

As a result of research conducted in the field of state administration in the field of sports in our country, it can be concluded that the presence of shortcomings in some areas will hinder the establishment of a flexible and more productive system through the application of new approaches. As a result of extensive analysis, by eliminating these shortcomings with steps that can be taken in several directions, more effective use of personnel potential in management can be achieved.

The civil service system in the field of physical education and sports in our country is a system of established relations between more than 29,000 employees and state bodies in the field of sports.

IV BÖLMƏ. TURİZMİN İNKİŞAFINDA EKOLOJİ, COĞRAFİ VƏ BİOLOJİ AMİLLƏR

Elvin Şərif oğlu SOLTANZADƏ
magistrant,
Səbinə İzzət qızı VƏLİYEVA
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR BÖLGƏLƏRİNDƏ TURİZM SEKTORUNUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Qarabağ və Şərqi Zəngəzur bölgələri Azərbaycanın təbii, tarixi və mədəni baxımdan ən zəngin ərazilərindən biridir. Uzun illər işğal altında qalmış bu torpaqlar azad edildikdən sonra ölkənin sosial-iqtisadi inkişaf strategiyasında mühüm yer tutmağa başlamışdır. Xüsusilə turizm sektoru bu bölgələrin gələcək inkişafında əsas prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Azərbaycanın "Böyük Qayıdış" proqramı və regionların sosial-iqtisadi inkişafına dair dövlət strategiyaları çərçivəsində Qarabağ və Şərqi Zəngəzurun turizm potensialının reallaşdırılması, bu ərazilərin yeni turizm mərkəzinə çevrilməsi məqsədilə kompleks tədbirlər həyata keçirilir [7].

Regionun coğrafi mövqeyi, əlverişli iqlimi, zəngin flora və faunası, dağ-meşə landşaftı, müalicəvi bulaqları və qədim mədəni irsi bu əraziləri həm daxili, həm də beynəlxalq turizm üçün son dərəcə cəlbedici edir. Şuşa, Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Cəbrayıl və digər rayonlar öz təbiət gözəllikləri və tarixi abidələri ilə seçilir. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan olunması, burada keçirilən beynəlxalq tədbirlər, musiqi festivalları və sərgilər turizmin canlanmasına xidmət edir. Kəlbəcər rayonunun İstisu kurortu, Laçın və Qubadlıda dağ turizmi, Zəngilanda ekoturizm və aqroturizm istiqamətləri üzrə layihələr gələcəkdə bölgənin turizm xəritəsini formalaşdıracaq əsas istiqamətlərdəndir [8].

Hazırda bu bölgələrdə turizmin inkişafı üçün ən vacib məsələlərdən biri infrastrukturun bərpası və yenidən qurulmasıdır. Azad edilmiş ərazilərdə yollar, hava limanları, hotel və istirahət mərkəzləri, kommunikasiya və enerji infrastrukturu sürətlə bərpa edilir. Füzuli, Zəngilan və Laçın hava limanlarının istifadəyə verilməsi regionun turizm potensialını əhəmiyyətli dərəcədə artırır, daxili və xarici turistlərin rahat gediş-gəlişini təmin edir. Bununla yanaşı, "yaşıl enerji zonası" konsepsiyası əsasında bu ərazilərdə ekoloji cəhətdən təmiz turizm modelinin yaradılması da nəzərdə tutulur. Bu, həm təbiətin qorunmasına, həm də dayanıqlı turizm inkişafına xidmət edəcəkdir.

Turizm sektorunun inkişafı həm də yerli əhalinin məşğulluğuna və sosial rifahının artmasına mühüm töhfə verəcəkdir. Azad edilmiş ərazilərə qayıdan insanlar üçün turizm infrastrukturu daxilində müxtəlif sahələrdə iş yerlərinin yaradılması regionun iqtisadi dirçəlişində mühüm rol oynayacaq. Bu baxımdan, dövlət və özəl sektorun əməkdaşlığı, investisiya təşviqi, sahibkarlığın dəstəklənməsi və kadr hazırlığı vacib məsələlər kimi önə çıxır. Turizm təhsili və ixtisaslı kadrların hazırlanması istiqamətində tədbirlər görülməsi bu prosesin davamlılığını təmin edəcəkdir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında müxtəlif turizm növlərinin inkişafı üçün geniş potensial mövcuddur:

- Ekoturizm və dağ turizmi. Regionun təbii landşaftı, dağlar, meşələr və çaylar ekoturizm və dağ turizmi üçün əlverişlidir.
- Qış turizmi. Kəlbəcər və Laçın bölgələrində qış turizminin inkişafı üçün şərait mövcuddur.
- Sağlamlıq turizmi. Kəlbəcər və Laçında mineral bulaqların olması, məsələn, İstisu və Minkənd, sağlamlıq turizmi üçün potensial yaradır.
- Mədəni-tarixi turizm. Şuşa, Ağdam, Xocavənd və digər ərazilərdə tarixi abidələr və mədəni irs turistləri cəlb edir.
- Qastronomik turizm. Regionun zəngin mətbəxi və yerli məhsullar qastronomik turizmin inkişafına imkan verir.
- Aqroturizm və yaşıl turizm. Kənd təsərrüfatı və təbiətlə əlaqəli turizm növləri üçün əlverişli şərait mövcuddur.

İşğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışı ilə əlaqədar olaraq, turizm sektorunun inkişafı da nəzərdə tutulur:

- Ekoturizm və mədəni turizm layihələri. Əhalinin ekoturizm və mədəni turizm sahələrində

maarifləndirilməsi və bu sahələrdə fəaliyyətin təşviqi məqsədilə layihələr həyata keçirilir.

- İqtisadi zonaların yaradılması. Turizm fəaliyyətinin inkişafı üçün iqtisadi zonaların yaradılması və bu sahədə investisiyaların təşviqi nəzərdə tutulur.

Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişafında həmçinin beynəlxalq əməkdaşlıq mühüm rol oynaya bilər. Xarici investorların cəlb olunması, beynəlxalq turizm sərgilərində bu bölgələrin tanıdılması, UNESCO-nun mədəni irs siyahısına daxil ola biləcək abidələrin bərpası və tanıdılması regionun turizm brendini formalaşdırmağa kömək edəcəkdir. Bununla yanaşı, rəqəmsal marketinq strategiyaları, turizm marşrutlarının elektron xəritələrinin yaradılması, onlayn təbliğat kampaniyaları bölgəyə marağı artıracaq amillərdəndir [7].

Nəticə etibarilə, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin turizm potensialı çoxşaxəlidir və bu sahənin inkişafı Azərbaycanın iqtisadi və mədəni həyatına yeni dinamika gətirə bilər. Lakin bu inkişafın səmərəli və dayanıqlı olması üçün bir sıra istiqamətlərdə məqsədyönlü addımlar atılmalıdır. Araşdırmalar nəticəsində məlum oldu ki, Qarabağ iqtisadi rayonu zəngin təbii resurslara, mədəni-tarixi abidələrə, müxtəlif iqlim şəraitinə və özünəməxsus folklor və adət-ənənələrə malikdir. Bu amillər regionun turizm potensialını olduqca yüksək edir. Ərazilərin işğaldan azad olunmasından sonra geniş bərpa və yenidənqurma işlərinin aparılması, infrastrukturun inkişaf etdirilməsi və dövlət səviyyəsində turizmin təşviqi Qarabağda turizm sektorunun inkişafı üçün əlverişli zəmin yaratmışdır. Turistlərin diqqətini cəlb edə biləcək əsas istiqamətlər sırasında dağ-xizək turizmi, ekoturizm, mədəni-tarixi turizm və sağlamlıq turizmi önə çıxır. Bütün bunları nəzərə alaraq aşağıdakı təklifləri irəli sürə bilərik.

1. Qarabağ regionuna gedən yolların, hava limanlarının, ictimai nəqliyyatın və rabitə şəbəkəsinin daha da inkişaf etdirilməsi turizm axınının artmasına şərait yaradacaq.
2. Erməni işğalı zamanı dağıdılmış abidələrin bərpa olunması və beynəlxalq səviyyədə tanıdılması bölgənin mədəni turizm potensialını artırar.
3. Qarabağda turistlər üçün xüsusi marşrutların (məsələn, Şuşa – Laçın – Hadrut – Xocavənd istiqamətində) yaradılması, məlumat lövhələrinin quraşdırılması və tur-bələdçi xidmətlərinin təşkili vacibdir.
4. Ekoturizmin təşviqi və Qarabağın təbii gözəllikləri və biomüxtəlifliyi nəzərə alınaraq milli parklar, eko kəndlər və yürüş marşrutları formalaşdırılmalıdır.
5. Yerli və xarici investorların turizm obyektlərinə sərmayə qoyması üçün güzəştli vergi siyasəti və digər stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir.
6. Turizm sahəsində peşəkar kadrların hazırlanması üçün ixtisasartırma kursları və təlim proqramları təşkil olunmalıdır.
7. Qarabağ turizmi ilə bağlı rəqəmsal platformalarda, beynəlxalq sərgilərdə və sosial şəbəkələrdə tanıtım kampaniyaları aparılmalıdır.

Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzur bölgələrində turizm sektorunun inkişafı Azərbaycanın regional bərpa proseslərinin əsas tərkib hissəsidir. Bu istiqamətdə görülən işlər nəticəsində yaxın gələcəkdə region təkcə iqtisadi deyil, həm də mədəni və ekoloji baxımdan ölkənin ən cəlbedici turizm məkanlarından birinə çevriləcəkdir.

ƏDƏBİYYAT

1. Hüseynov İ. və Əfəndiyeva N., "Turizmin Əsasları" "Mars- Print". Bakı-2007 səh.442
2. Qafarov N.C. "Turizmin iqtisadiyyatı" Dərslik., Bakı-2019.
3. Qurbanov F.İ. "Azərbaycanda Turizmin inkişaf problemləri, "Adiloğlu" Bakı-2007, səh.57
4. Soltanova H., Hüseynova Ş. "Turizmin Əsasları" Bakı-2007, səh.127
5. Soltanova H.B. "Azərbaycan Respublikasında Turizm və Onun İnkişafı" "AZTU" Bakı-2015, səh. 475
6. Strateji Yol Xəritəsi 2016, səh-98.
7. Vəliyeva S.İ. "Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin davamlı iqtisadi inkişaf perspektivləri" Monoqrafiya. Bakı-2024 səh.375
8. Vəliyeva S.İ. "Turizm destinasiyalarının idarə edilməsi" Bakı-2025, səh.415
9. Yeganlı S.T., Hacıyev E.M. "Turizm" Bakı- 2006 səh. 324
10. Yusupov Q. "Turizm işinin təşkili" Bakı-2011 səh. 211

Эльвин Шариф оглы Солтанзаде
магистрант,
Сабина Иззат гызы Велиева
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Развитие туристического сектора в регионах Карабаха и Восточного Зангезура

Резюме

Регионы Карабаха и Восточного Зангезура являются одними из самых богатых территорий Азербайджана с точки зрения природы, истории и культуры. После освобождения этих земель, которые долгие годы находились под оккупацией, они стали занимать важное место в стратегии социально-экономического развития страны. Особенно туристический сектор определен как одно из приоритетных направлений будущего развития этих регионов. В рамках программы Азербайджана «Великое возвращение» и государственных стратегий социально-экономического развития регионов предпринимаются комплексные меры для реализации туристического потенциала Карабаха и Восточного Зангезура, с целью превращения этих территорий в новые туристические центры.

Elvin Sharif Soltanzade
master,
Sabina Izzat Valiyeva
doctor of economic sciences, professor,
Azerbaijan University Cooperation

Development directions of the tourism sector in the Karabakh and Eastern Zangezur regions

Summary

The Karabakh and Eastern Zangezur regions are among the richest areas of Azerbaijan in terms of natural, historical, and cultural heritage. After the liberation of these lands, which had been under occupation for many years, they began to play an important role in the country's socio-economic development strategy. In particular, the tourism sector has been identified as one of the main priority directions for the future development of these regions. Within the framework of Azerbaijan's "Great Return" program and the state strategies for socio-economic development of the regions, comprehensive measures are being implemented to realize the tourism potential of Karabakh and Eastern Zangezur, with the aim of transforming these areas into new tourism centers.

Elçin Akif oğlu MƏCİDLİ
magistrant,
Vasif Balaxan oğlu HƏZİYEV
iqtisad üzrə fəlsəfə doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

İŞĞALDAN AZAD EDİLMİŞ REGİONLARDA TURİZM SEKTORUNUN DAVAMLI İNKİŞAFI: İMKANLAR VƏ ÇAĞIRIŞLAR

Giriş

Elmi və texnoloji tərəqqi nəticəsində dünyada dinamik iqtisadi artım əldə edilmişdir. Lakin, sənayenin və kənd təsərrüfatının inkişafı, dünya əhalisinin artması bir çox ekoloji problemlərin yaranmasına səbəb olur. Ətraf mühitin qorunması və təşkilati fəaliyyətlərin inteqrasiyası son

onilliklərdə getdikcə daha çox diqqət çəkir. İqlim dəyişikliyi, təbii ehtiyatların tükənməsi və ətraf mühitin çirklənməsi məsələləri qlobal çağırışlar olaraq beynəlxalq səylərin əsas hərəkətverici qüvvələridir. Azərbaycanda COP 29 keçirilməsini ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının davamı kimi qiymətləndirmək olar. Qeyd etmək istərdim ki, Yaşıl iqtisadiyyat yalnız ekoloji problemlərin həllinə deyil, həm də iqtisadi inkişaf, sosial ədalət və innovasiya üçün yeni imkanlar yaradır. Bu yanaşma qlobal səviyyədə qarşılaşdığımız çağırışlara cavab vermək üçün əhəmiyyətlidir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncamında təbii resurslardan dayanıqlı və davamlı istifadənin təmin olunması istiqamətində tullantıların səmərəli idarə olunması sistemi inkişaf etdirilməsi, hidrometeoroloji müşahidə və ətraf mühitin monitorinqi sisteminin müasirləşdirilməsi, bioloji müxtəlifliyin qorunması tədbirləri qeyd edilmişdir. [Cabbarov Ə., Abbasova S., Tanrıverdi H. 2020] Bu tədbirlərin reallaşdırılması nəticəsində ölkə üzrə ümumi ərazidə yaşıllığın payının 12%-dən 12,3%-ə çatdırılacağı, istifadəyə yararsız torpaq sahələri payının 25%-dən 15%-ədək azaldılacağı, əhalinin içməli su ilə təminatının 70%-dən 85%-ə, suvarma suyu ilə təminatının 80%-dən 90%-ə çatacağı proqnozlaşdırılır.

Qarabağ və Şərqi Zəngəzurda turizm potensialı və mövcud vəziyyət.

"Yaşıl iqtisadiyyata" keçidin əsas məqsədi ətraf mühitin və sosial mənsubiyyətin keyfiyyətini artırarkən iqtisadi artım və investisiya qoyuluşunu təmin etməkdir.Təbii ki, Azərbaycanın əsrarəngiz təbiəti, rəngarəng mətbəxi Azərbaycanda bu qlobal tendensiyanın inkişafına imkan yaradır. Təbiətin 11 iqlim zonasından 9-nun Azərbaycanda müşahidə olunması, ölkənin heyrətamiz təbiətinə təsir göstərərək turizmin inkişafına əsas imkanlar yaradır. 2023-cü ilin statistik məlumatlarına görə ölkə ərazisinə daxil olanların sayı 3 908,1 min nəfər təşkil etmişdir ki, bu da əvvəlki ilə nisbətən 831,2 min nəfərin çox olduğunu göstərir. [Qiyasova Z. H. 2016] Təbii ki, turizmin inkişafı müsbət iqtisadi təsirlə birlikdə ekosistemlərə və biomüxtəlifliyə ziyan, təbiətin tullantılarla çirklənməsi kimi arzuolunmaz ekoloji nəticələrə səbəb ola bilər. Nəticədə alternativ bir turizm forması kimi ekoloji turizm yaranır-Ekoturizm. Ekoturizmin təbiəti qorumaq və yerli iqtisadi böyümə üçün verdiyi əhəmiyyətli faydalar onu yaşıl iqtisadiyyatın vacib bir hissəsinə çevirir.Turizm sektorunun proqnozlaşdırılan inkişaf tempi və ekoturizmin respublika üçün artan əhəmiyyəti, əhalinin əhəmiyyətli bir hissəsinin məşğul olduğu və iqtisadiyyatın inkişafına böyük töhfə verə biləcəyi bir iqtisadi sektor olaraq xüsusi diqqət yetirilməlidir.

Azərbaycan Respublikasının 2020-ci ildə ərazi bütövlüyünü bərpa etməsi ölkənin sosial-iqtisadi həyatında yeni inkişaf mərhələsi açdı. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması və bu ərazilərin milli iqtisadi sistemə reinteqrasiyası dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu kontekstdə turizm sektoru regionun iqtisadi və sosial dirçəlişində prioritet rol oynayır.Ölkəmizin qədim tarixi, təbiətin rəngarəngliyi, dadlı təamların müxtəlifliyi, milli parklar və qoruqların olması və s. ekoturizmin inkişafına lazımi şəraitin olmasından xəbər verir. 2020-ci ildə Vətən müharibəsindən sonra azad edilmiş torpaqlarımız füsunkar təbiəti və eyni zamanda işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın məqsədlərinə uyğun olaraq bu regionda sahibkarlığın, xidmət sektorunun yeni sahələrinin inkişafına, iş yerlərinin yaradılmasına yeni iqtisadi imkanlar açır. Erməni vandallarından azad edilmiş ərazilərimizdə ətraf mühitin qorunması, o cümlədən su hövzələrinin bioresursların, digər təbii resursların davamlılıq və yaşıl iqtisadiyyat prinsiplərinə əməl olunması baxımından böyük əhəmiyyət kəsb edir [Rəhimli E.M., Səfərov Q.Ə. 2021]. Regionda ekoturizmin müxtəlif istiqamətləri üzrə turların (istər elmi turlar, təbii-tarixi, macəra, xüsusi mühafizə olunan təbiət ərazilərinə təşkil olunan turlar) təşkil edilməsi üçün bütün imkanların olmasını qeyd edə bilərik. Kəlbəcərdə qış və sağlamlıq turizminin, mədəniyyət beşiyi hesab olunan Şuşada əsasən festivalların keçirilməsi, Ağdamda "dark" yəni işğalın nəticələrinin çılpaq şəkildə göstərilməsi və işgüzar turizmin inkişafı, Azıx və Tağlar mağaralarının bu ərazirə yerləşdirilməsi və s. turizmin inkişafına imkan yaradır.

Qədim tarixi və mədəniyyəti, zəngin flora və faunaya malik meşələr, ecazkar dağ mənzərələri, bulaqları Qarabağ və Şərqi Zəngəzur bölgəsinin ekoturizm potensialını xüsusilə səciyyələndirir. Ekoturizmin bölgədə inkişaf etdirilməsi hazırda işğaldan azad edilmiş torpaqlara əhalinin qay-

tarılması, onların məşğulluğunun təmin edilməsi üçün gələcəkdə onlara əlavə qazanc əldə etməklə yanaşı, həm də ətraf mühitə qarşı daha həssas davranış sərgiləyəcək. Lakin, hazırda torpaqlarımızın minalanması nəticəsində bölgənin ekoturizm potensialından tam istifadə edilməsi imkansızdır. Təbii ki, yaxın zamanda bu problemin aradan qaldırılması turizmin inkişafında öz təsirini göstərəcək və gələcəkdə digər bölgələrimizdə olduğu kimi Qarabağ və Şərqi Zəngəzur ərazisində də yeni ekoturizm marşrutlarının tərtib edilməsinə imkan yaradacaq.

Xocavənd rayonunda yerləşən, Qafqaz Albaniyasının qədim irsinə aid mədəniyyət abidələrinin və Azərbaycan xalqının böyük keçmişini təcəssüm etdirən tarixi yaşayış məntəqələrindən biri olan Tuğ kəndi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğu elan edilib. Qələbə yolunun üzərində yerləşməsi, kəndin zəngin təbii potensialı, ekoloji ehtiyatları buranın turizmin, həmcinin ekoturizmin inkişaf perspektivlərini genişləndirir.

Xüsusi qorunan təbiət əraziləri ekoloji turizmin inkişafı üçün əsas aktiv kimi çıxış edir. Ətraf mühitin mühafizəsi, səmərəli istifadə edilməsi, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunması Milli Parkların yaradılmasının əsas məqsədlərindən biridir. Milli Parklar ölkənin təbii və mədəniyyət nümunələri şəklində görkəmli turizm ehtiyatlarına malikdir və ekoturizmin inkişafında əsas rol oynayır. Ölkədə xüsusi mühafizə olunan təbiət əraziləri olan 10 Milli Park var ki, onların ümumi sahəsi bütün ölkə ərazisinin təxminən 5%-ni təşkil edir. Təbii ki, Qarabağ və Şərgi Zəngəzurda Milli Parklar və Turizm-Rekreasiya Zonalarının da yaradılması nəzərdə tutulub.

İşğaldan azad edilmiş torpaqlarda turizmin davamlı inkişafı (SWOT təhlil):

Güclü tərəflər (Strengths)	**Zəif tərəflər (Weaknesses)**
▪ Qarabağ və Şərqi Zəngəzurun zəngin təbii və mədəni turizm resursları (dağlar, meşələr, termal mənbələr, tarixi abidələr); ▪ Dövlət tərəfindən aparılan bərpa və infrastruktur layihələri; ▪ Strateji coğrafi mövqe: regional və beynəlxalq turist axını üçün əlverişli şərait; ▪ Yeni nəqliyyat-logistika dəhlizlərinin açılması (Zəngəzur dəhlizi); ▪ Yerli və milli mədəniyyətin beynəlxalq səviyyədə təqdim olunması potensialı.	▪ Müharibə nəticəsində dağıdılmış infrastruktur (yol, enerji, otel və sosial obyektlər); ▪ Mina və təhlükəsizlik problemləri; ▪ Sosial və insan resurslarının çatışmazlığı; ▪ Turizm idarəçiliyi və peşəkar kadrların məhdudluğu; ▪ Turizm layihələrinin maliyyə və investisiya çatışmazlığı
İmkanlar (Opportunities)	**Təhlükələr (Threats)**
• Davamlı turizm (sustainable tourism) konsepsiyasının tətbiqi; • ESG prinsiplərinə əsaslanan dövlət-özəl tərəfdaşlığı (DÖT) modelləri; • Ekoturizm və aqroturizm layihələrinin inkişaf etdirilməsi; • Beynəlxalq turizm brendləri ilə əməkdaşlıq; • Regional iqtisadi inteqrasiya və yeni iş yerlərinin yaradılması; • İnnovativ texnologiyaların (rəqəmsal turizm, smart city, AI və IoT) tətbiqi.	• Ekoloji tarazlığın pozulması və təbii sərvətlərin tükənməsi; • Beynəlxalq təhlükəsizlik riskləri və siyasi amillər; • Turizm layihələrinin qeyri-davamlılığı; • Maliyyə və investisiya resurslarının qeyri-kafi olması.

Cədvəl müəllif tərəfindən tərtib edilib.

Hazırda Azərbaycan dövləti tərəfindən "Böyük Qayıdış" proqramı çərçivəsində yol, kommunikasiya, enerji və sosial infrastruktur layihələri həyata keçirilir. Bu layihələr eyni zamanda turizm

inkişafının təməlini təşkil edir.

Müasir yanaşmalara əsasən, regionda turizmin inkişafı aşağıdakı istiqamətlərdə qurula bilər:

Ekoturizm və aqroturizm: Kəlbəcər, Laçın və Qubadlıda təbiətə zərər vermədən rekreasiya obyektlərinin yaradılması;

Mədəni irs turizmi: Şuşa və Ağdamda muzey kompleksləri, mədəniyyət festivalları və bərpa olunmuş abidələrin beynəlxalq təqdimatı;

Sağlamlıq və termal turizm: İstisu (Kəlbəcər) və oxşar təbii termal mənbələrin yenidən istismara verilməsi;

Logistika və nəqliyyat əlaqələri: Zəngəzur dəhlizinin işə düşməsi regionu beynəlxalq turizm axınlarına açacaq.

Bu istiqamətlərdə idarəetmə strukturunun ESG prinsipləri (ekoloji, sosial, idarəetmə) əsasında formalaşdırılması turizmin dayanıqlı və şəffaf inkişafını təmin edə bilər.

Davamlı turizm modelinin reallaşdırılması üçün aşağıdakı mexanizmlərin tədbiqi vacibdir:

Regional turizm idarəetmə mərkəzləri – planlaşdırma, marketinq və nəzarət funksiyaları üçün;

İnvestisiya stimulları – yerli və xarici sahibkarların cəlbi üçün vergi və subsidiyaların tətbiqi;

Təhsil və kadr hazırlığı – turizm menecmenti, ekoloji idarəetmə və beynəlxalq xidmət standartları üzrə proqramların həyata keçirilməsi;

Mina təmizləmə və ekoloji reabilitasiya – təhlükəsiz və ekoloji cəhətdən sağlam turizm mühiti yaratmaq üçün prioritet məsələdir.

Nəticə

İşğaldan azad edilmiş torpaqlarda turizmin inkişafı Azərbaycanın iqtisadi, sosial və mədəni həyatında strateji dönüş nöqtəsi ola bilər. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası təkcə ərazi bütövlüyünün təmin olunması ilə məhdudlaşmır, həm də bu regionların yeni iqtisadi sistemdə mühüm rol oynamasına şərait yaradır. Turizm sektoru bu baxımdan regional iqtisadiyyatın yenidən qurulmasının əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Turizm həm investisiyaların cəlb edilməsi, yeni iş yerlərinin yaradılması, infrastrukturun bərpası, həm də yerli əhalinin sosial rifah səviyyəsinin yüksəldilməsi üçün strateji vasitədir.

Lakin bu inkişaf yalnız davamlı idarəetmə modeli əsasında həyata keçirilərsə, uzunmüddətli və sabit nəticələr verə bilər. Turizmin sürətli və nəzarətsiz inkişafı ekosistemin yüklənməsinə, təbii resursların tükənməsinə, sosial tarazlığın pozulmasına və mədəni irs obyektlərinin kommersiyalaşmasına gətirib çıxara bilər. Bu səbəbdən planlaşdırılan bütün layihələrdə ekoloji məsuliyyət, sosial iştirakçılıq və şəffaf idarəetmə prinsipləri ön planda saxlanmalıdır. ESG (Environmental, Social, Governance) konsepsiyasının tətbiqi həm dövlət, həm də özəl sektor səviyyəsində turizmin etik, sosial və ekoloji baxımdan davamlı idarə olunmasına zəmin yaradar.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, aşağıdakı təkliflər irəli sürülür:

Region üzrə "Davamlı Turizm İnkişaf Strategiyası" hazırlanmalı və bu sənəd milli turizm siyasətinin prioritet istiqamətlərindən biri kimi təsdiqlənməlidir.

Bütün turizm layihələrində ESG prinsipləri – ekoloji məsuliyyət, sosial iştirakçılıq və şəffaf idarəetmə – tətbiq edilməli və bu prinsiplərin icrası üzərində dövlət nəzarəti gücləndirilməlidir.

Ekoturizm və aqroturizm istiqamətləri üçün dövlət-özəl tərəfdaşlığı (DÖT) mexanizmləri inkişaf etdirilməli, xarici və yerli investorlar üçün vergi güzəştləri və ekoloji sertifikatlaşdırma sistemi tətbiq edilməlidir.

Yerli əhalinin turizm fəaliyyətinə geniş cəlb olunması təmin edilməli, bu sahədə təlim, peşə hazırlığı və sahibkarlıq təşəbbüsləri dəstəklənməlidir. Bu, sosial reinteqrasiya və əhali üçün uzunmüddətli məşğulluq imkanları yaradacaqdır.

Qarabağ regionu beynəlxalq səviyyədə "yaşıl turizm zonası" kimi tanıdılmalı, burada həyata keçirilən layihələr ekoloji təmiz texnologiyalara əsaslanmalıdır.

Beləliklə, azad edilmiş ərazilərdə turizmin inkişafı iqtisadi, ekoloji və sosial davamlılığı təmin edərək bölgənin çoxşaxəli inkişafına mühüm töhfə verə bilər. Bu proses regionun təbii sərvətlərinin bərpasını, ekosistemin qorunmasını və sosial rifahın təmin olunmasını birləşdirən kompleks yanaşmanı tələb edir. Turizmin inkişafı ilə paralel olaraq, təbii sərvətlərin səmərəli istifadəsi, ətraf mühitin mühafizəsi və mədəni irsin qorunması məsələləri dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilməlidir.

Eyni zamanda, gələcəkdə regionda turizmdən əldə ediləcək gəlirlərin bir hissəsi ekoloji reabilitasiya və təbii ekosistemlərin bərpasına yönəldilməlidir. Bu, həm turizmin özünün uzunmüddətli sabitliyini təmin edəcək, həm də ekoloji baxımdan məsuliyyətli iqtisadi modelin formalaşmasına şərait yaradacaqdır. Qarabağ və Şərqi Zəngəzur kimi həssas ekosistemlərdə "yaşıl iqtisadiyyat" və "davamlı turizm" prinsiplərinin tətbiqi bölgənin gələcək inkişafının əsas istiqamətlərindən biri olmalıdır.

Nəticə etibarilə, bu regionun turizm imkanlarının inkişafı, təbii sərvətlərinin bərpası və qorunması problemləri bir-birindən ayrı deyil, vahid bir ekosistem yanaşması çərçivəsində öyrənilməli və idarə edilməlidir. Davamlı turizm modeli həm iqtisadi gəlirlilik, həm sosial ədalət, həm də ekoloji tarazlıq arasında optimal balans yarada bilər. Bu isə Azərbaycanın azad edilmiş torpaqlarında müasir, inklüziv və dayanıqlı regional inkişaf modelinin qurulmasına real əsas yaradacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2021). *Statistika xəbərləri jurnalı*, №4, səh. 38–44.
2. Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı. (2021, 2 fevral). *"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər haqqında"*.
3. Cabbarov Ə., Abbasova S., Tanrıverdi H. (2020). *Erməni işğalı sonrası Qarabağda turizmin inkişafı məsələləri*. *International Journal of Tourism, Economic and Business Sciences*, №4(2).
4. Qiyasova Z. H. (2016). *Dayanıqlı İqtisadi İnkişaf Məsələləri*. *İdarəetmənin əsasları*. Bakı: "Qərənfil" nəşriyyatı, 591 səh.
5. Rəhimli E. M., Səfərov Q. Ə. (2021). *Qarabağ Regionunun turizm potensialının SWOT analiz metodu ilə qiymətləndirilməsi*.

Эльчин Акиф оглы Меджидли
магистрант,
Васиф Балахан оглы Хазиев
доктор философии по экономике, профессор,
Азербайджанский Университет Кооперации

Устойчивое развитие туристического сектора в освобожденных от оккупации регионах: возможности и вызовы

Резюме

Освобождённые от оккупации Карабах и Восточный Зангезур занимают важное место в социально-экономической стратегии развития Азербайджана. Восстановление этих регионов имеет стратегическое значение не только с точки зрения инфраструктуры и промышленности, но и в плане реформирования туристического сектора. Туризм рассматривается как эффективный инструмент ускорения экономического роста и укрепления международного имиджа региона. Однако разрушенная в результате войны инфраструктура, минная опасность, повреждённая экосистема и дефицит человеческих ресурсов создают определённые трудности в этой сфере.

Elchin Akif Majidli
master,
Vasif Balakhan Haziyev
doctor of philosophy in economics, professor,
Azerbaijan Cooperation University

Sustaınable development of the tourism sector in liberated regions: opportunities and challenges

Summary

The liberated Karabakh and East Zangazur economic regions occupy an important place in the socio-economic development strategy of Azerbaijan. The restoration of these regions is of strategic

importance not only in terms of infrastructure and industry, but also in terms of reshaping the tourism sector.Tourism is considered an effective tool both for accelerating economic growth and strengthening the international image of the region. But the infrastructure destroyed by the war, the threat of Mines, the damage to the ecosystem and the lack of human resources create certain difficulties in this area.

Amil Naib oğlu AĞAZADƏ
magistrant,
Səbinə İzzət qızı VƏLİYEVA
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA TURİZM MENECMENTİNDƏ İNNOVATİV YANAŞMALAR

Azərbaycanda turizm sektoru son illərdə iqtisadiyyatın prioritet istiqamətlərindən birinə çevrilmiş, ölkənin sosial-iqtisadi inkişafına, məşğulluğun artmasına və beynəlxalq imicinin möhkəmlənməsinə mühüm töhfə vermişdir. Qlobal miqyasda baş verən dəyişikliklər, rəqəmsallaşma proseslərinin sürətlənməsi, turizm bazarlarında artan rəqabət və turistlərin davranış modellərində müşahidə olunan yeniliklər turizm menecmentində innovativ yanaşmaların tətbiqini zəruri etmişdir. Müasir dövrdə turizm menecmenti yalnız ənənəvi idarəetmə prinsiplərinə əsaslanmamalı, həm də texnologiya, marketinq, dayanıqlılıq və müştəri təcrübəsi kimi sahələrin inteqrasiyasını təmin etməlidir. Azərbaycan da bu qlobal tendensiyalardan kənarda qalmamış, turizm idarəçiliyində yeni texnologiyaların və yaradıcı həllərin tətbiqinə xüsusi önəm verməyə başlamışdır [2].

İnnovativ yanaşmaların əsas istiqamətlərindən biri turizm xidmətlərinin rəqəmsallaşdırılmasıdır. Rəqəmsal platformalar vasitəsilə turizm məhsullarının təqdimatı, onlayn bron sistemləri, virtual turlar və mobil tətbiqlər sayəsində turistlər istənilən məlumatı daha sürətli və rahat əldə edə bilirlər. Azərbaycanın Dövlət Turizm Agentliyi və digər qurumlar turizm sahəsində elektron idarəetmənin inkişafı üçün bir sıra layihələr həyata keçirmiş, "Experience Azerbaijan" kimi rəqəmsal brendlərlə beynəlxalq bazarda ölkənin tanıdılmasına nail olmuşdur. Bu kimi təşəbbüslər turistlərə ölkə haqqında geniş məlumat verir, eyni zamanda turizm müəssisələrinin idarəetmə proseslərini optimallaşdırır.

İnnovativ menecmentin digər vacib aspekti analitik məlumatların idarəetmədə istifadəsidir. Böyük verilənlərin (Big Data) təhlili sayəsində turizm menecerləri bazar tələblərini daha dəqiq müəyyənləşdirə, mövsümilik, turistlərin xərcləmə davranışı və regionlara maraq səviyyəsi kimi göstəricilər əsasında daha effektiv qərarlar qəbul edə bilirlər. Bu, həm dövlət, həm də özəl sektor üçün resursların düzgün planlaşdırılmasına, investisiya prioritetlərinin müəyyənləşdirilməsinə və xidmət keyfiyyətinin artırılmasına şərait yaradır[7].

Eyni zamanda, innovasiyalar turizm təcrübəsinin özündə də müşahidə olunur. Son illərdə Azərbaycanda "ağıllı turizm" (smart tourism) konsepsiyası formalaşmağa başlamışdır. Bu yanaşma texnoloji yeniliklərin, mobil tətbiqlərin, süni intellektin və sensor texnologiyalarının turizm xidmətlərinə inteqrasiyasını nəzərdə tutur. Məsələn, Bakı və regionlarda yerləşən turizm obyektlərində QR kodlu informasiya sistemlərinin tətbiqi, interaktiv bələdçi tətbiqləri və virtual reallıq texnologiyaları turistlərin məlumat əldəetmə və təcrübə yaşama prosesini daha maraqlı və dinamik etmişdir.

İnnovasiyaların əsas istiqamətlərindən biri turizm xidmətlərinin rəqəmsallaşdırılmasıdır. Onlayn bron sistemləri, virtual turlar, interaktiv xəritələr və süni intellekt əsaslı müştəri xidmətləri turizm müəssisələrinin fəaliyyətində səmərəliliyi yüksəldir. Azərbaycanın Dövlət Turizm Agentliyi və "Azerbaijan Tourism Board" tərəfindən həyata keçirilən rəqəmsal təşəbbüslər ölkənin turizm brendinin beynəlxalq səviyyədə tanıdılmasına mühüm töhfə verir. Eyni zamanda, "ağıllı turizm" konsepsiyasının inkişafı, mobil tətbiqlərin və məlumat sistemlərinin təkmilləşdirilməsi turistlərə daha fərdi və rahat xidmət təcrübəsi təqdim edir.

Digər tərəfdən, innovativ yanaşmalar turizm idarəetməsində qərarvermə mexanizmlərinin təkmilləşdirilməsinə şərait yaradır. Böyük verilənlərin analizi və süni intellekt əsaslı proqnozlaşdırma alətləri turizm planlaşdırılmasında mühüm rol oynayır. Məsələn, turist axınlarının regionlar üzrə paylanması, mövsümi dəyişikliklərin idarə olunması və bazar tələblərinə uyğun strategiyaların formalaşdırılması bu kimi texnologiyalar vasitəsilə daha elmi və dəqiq şəkildə həyata keçirilir. Bu, həm dövlət orqanlarının, həm də özəl sektorun səmərəli fəaliyyətinə şərait yaradır[8].

Azərbaycanda turizm menecmentinin innovativ inkişafında insan resurslarının rolu da xüsusilə önəmlidir. Rəqəmsal dövrün tələblərinə cavab verən turizm mütəxəssislərinin hazırlanması, təlim və ixtisasartırma proqramlarının genişləndirilməsi sektorun davamlı inkişafı üçün əsas amillərdəndir. Turizm menecerləri yalnız idarəetmə bilikləri deyil, həm də texnoloji savad, kommunikasiya bacarıqları və beynəlxalq əməkdaşlıq təcrübəsinə malik olmalıdırlar.

İnnovasiyalar həmçinin turizmin davamlı inkişafına yönəlmiş ekoloji və sosial yanaşmaları da əhatə edir. Azərbaycanda ekoturizm, aqroturizm və kənd turizmi kimi sahələrdə həyata keçirilən layihələr innovativ idarəetmə modellərinin tətbiqi ilə yerli icmaların iqtisadi rifahına, təbiətin qorunmasına və milli irsin təbliğinə xidmət edir. Bu baxımdan, turizm menecmenti yalnız iqtisadi məqsədlərlə deyil, həm də sosial və ekoloji məsuliyyət prinsipləri ilə idarə olunmalıdır.

Bütün bu istiqamətləri ümumiləşdirərək demək olar ki, Azərbaycanda turizm menecmentində innovativ yanaşmaların tətbiqi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsini təmin edir. Rəqəmsal transformasiya, "ağıllı" idarəetmə modelləri, müştəri yönümlü xidmətlər, davamlılıq və beynəlxalq əməkdaşlıq kimi amillər ölkənin turizm sektorunun strateji inkişafında həlledici rol oynayır. Lakin bu inkişafın davamlı olması üçün bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir.

Nəticə olaraq, Azərbaycan turizminin gələcək inkişafı üçün aşağıdakı təkliflərin reallaşdırılması məqsədəuyğun hesab edilir: İlk növbədə, turizm menecmenti sistemində rəqəmsal texnologiyaların tətbiqini daha da genişləndirmək, bütün turizm obyektlərini vahid elektron informasiya bazasına inteqrasiya etmək vacibdir. Bu, məlumat mübadiləsini asanlaşdıracaq, xidmət keyfiyyətini və idarəetmədə şəffaflığını artıracaqdır. İkinci olaraq, turizm menecerlərinin və işçi heyətinin innovativ bacarıqlarını artırmaq üçün ixtisasartırma və beynəlxalq təcrübə mübadiləsi proqramlarının tətbiqi zəruridir. Üçüncü istiqamət kimi, regionlarda turizm innovasiyalarının tətbiqini stimullaşdırmaq, xüsusilə kənd və ekoturizm sahələrində startap layihələrinə dəstək mexanizmlərini gücləndirmək məqsədəuyğundur. Dördüncüsü, turizm məhsullarının tanıdılması və beynəlxalq bazarlarda mövqelərin möhkəmləndirilməsi üçün rəqəmsal marketinq strategiyalarının və brendinq proqramlarının genişləndirilməsi vacibdir. Beşinci olaraq, dövlət və özəl sektor əməkdaşlığını daha da dərinləşdirmək, birgə innovativ layihələrin maliyyələşdirilməsini və idarə edilməsini təşviq etmək lazımdır.

Bütün bu təkliflərin həyata keçirilməsi nəticəsində Azərbaycanda turizm menecmentinin innovativ inkişafı daha sistemli və dayanıqlı xarakter alacaq, ölkənin turizm potensialının tam reallaşmasına, regionlarda yeni iş yerlərinin açılmasına və Azərbaycanın beynəlxalq turizm məkanında daha güclü mövqeyə sahib olmasına şərait yaradacaqdır.

ƏDƏBİYYAT

1. Hüseynov İ. və Əfəndiyeva N., "Turizmin Əsasları" "Mars- Print". Bakı-2007 səh.442
2. Qafarov N.C. "Turizmin iqtisadiyyatı" Dərslik., Bakı-2019.
3. Qurbanov F.İ. "Azərbaycanda Turizmin inkişaf problemləri, "Adiloğlu" Bakı-2007, səh.57
4. Soltanova H., Hüseynova Ş. "Turizmin Əsasları" Bakı-2007, səh.127
5. Soltanova H.B. "Azərbaycan Respublikasında Turizm və Onun İnkişafı" "AZTU" Bakı-2015, səh.
6. Strateji Yol Xəritəsi 2016, səh-98.
7. Vəliyeva S.İ. "Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin davamlı iqtisadi inkişaf perspektivləri" Monoqrafiya. Bakı-2024 səh.375
8. Vəliyeva S.İ. "Turizm destinasiyalarının idarə edilməsi" Bakı-2025, səh.415
9. Yeganlı S.T., Hacıyev E.M. "Turizm" Bakı- 2006 səh. 324
10. Yusupov Q. "Turizm işinin təşkili" Bakı-2011, səh. 211

Амиль Наиб оглы Агазаде
магистрант,
Сабина Иззат кызы Велиева
доктор экономических наук, профессор,
Азербайджанский Университет Кооперации

Инновационные подходы в менеджменте туризма в Азербайджане

Резюме

В Азербайджане туристический сектор в последние годы превратился в один из приоритетных направлений экономики, внесший значительный вклад в социально-экономическое развитие страны, рост занятости и укрепление её международного имиджа. Глобальные изменения, ускорение процессов цифровизации, растущая конкуренция на туристических рынках и наблюдаемые новшества в моделях поведения туристов сделали применение инновационных подходов в управлении туризмом необходимостью.В современную эпоху менеджмент туризма не должен основываться лишь на традиционных принципах управления, но и обеспечивать интеграцию таких сфер, как технологии, маркетинг, устойчивое развитие и клиентский опыт. Азербайджан не остался в стороне от этих глобальных тенденций и начал уделять особое внимание внедрению новых технологий и креативных решений в сфере управления туризмом.

Amil Naib Agazade
master,
Sabina Izzat Valiyeva
doctor of economic sciences, professor,
Azerbaijan University Cooperation

Innovative approaches in tourism management in Azerbaijan

Summary

In recent years, the tourism sector in Azerbaijan has become one of the priority areas of the national economy, making a significant contribution to the country's socio-economic development, employment growth, and the strengthening of its international image. Global changes, the acceleration of digitalization processes, increasing competition in tourism markets, and innovations in tourist behavior patterns have made the application of innovative approaches in tourism management a necessity.In the modern era, tourism management should not rely solely on traditional administrative principles but should also ensure the integration of such fields as technology, marketing, sustainability, and customer experience. Azerbaijan has not remained outside these global trends and has begun to place special emphasis on the implementation of new technologies and creative solutions in tourism management.

Qorxmaz Niyaz oğlu QASIMLI
magistrant,
qorxmaz619@gmail.com,
Köçəri Şamil oğlu ALLAHVERDİYEV
coğrafiya üzrə fəlsəfə doktoru, dosent,
allahverdiyev_1956@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ TOPONİMLƏRİNİN TƏDQİQİNDƏ MÜASİR METODOLOJİ YANAŞMALAR

Bu məqalədə Qarabağ bölgəsindəki toponimlərin müasir metodoloji yanaşmalarla tədqiqi verilmişdir. Qarabağ bölgəsinin toponimləri Azərbaycan xalqının etnik yaddaşını, dil tarixini və

mədəni kimliyini əks etdirən mühüm göstəricilərdir.. Tədqiqat nəticəsində məlum olur ki, Qarabağ toponimlərinin böyük hissəsi türk mənşəlidir və bu adlar bölgənin etnik-mədəni tarixinin mühüm göstəriciləridir.

Toponimika elmi coğrafi adların mənşəyini, semantik yükünü, tarixi inkişafını və sosial-mədəni funksiyalarını araşdıran mühüm bir sahədir. Bu sahə yalnız dilçiliklə məhdudlaşmır, həm də tarix, etnoqrafiya, coğrafiya, sosiologiya və informasiya texnologiyaları ilə sıx əlaqəlidir. Qarabağ bölgəsi isə toponimika baxımından xüsusi əhəmiyyət daşıyır. Bu ərazi minilliklər boyu müxtəlif etnosların məskunlaşdığı, mədəniyyətlərin qovuşduğu və tarixi hadisələrin cərəyan etdiyi bir coğrafi məkan kimi zəngin toponimik xüsusiyyətlərə malikdir.

Qarabağ toponimləri Azərbaycan xalqının etnik yaddaşının, dil tarixinin və mədəni kimliyinin daşıyıcılarıdır. Bu adlar vasitəsilə qədim türk tayfalarının izləri, yerli dialektlərin fonetik xüsusiyyətləri, tarixi-coğrafi hadisələrin izahı və ideoloji transformasiyalar izlənilə bilir. Lakin bu toponimlərin tədqiqi uzun müddət ərzində əsasən klassik metodlarla – etimoloji və tarixi yanaşmalarla aparılmışdır. Müasir dövrdə isə elmi inkişaf və texnoloji imkanlar bu sahəyə yeni metodoloji yanaşmaların tətbiqini zəruri edir.

Gəlmə erməni-hayların Qarabağ elində saldıqları kəndlərdən birinin adı haqqmda ətraflı danışmağı labüd hesab edirəm. Qazançı haqqında M.Kalankatuklu yazır ki, türk hun tayfalarına mənsub Qor və Qazan adlı iki elbəyi öz tayfaları ilə Syuni əyalətinə (tarixi Zəngəzur) gəlmiş, yerli hakim Babək onları öz tayfaları ilə birlikdə Xat və Şaqat göylərində (ərazisində) yerləşdirmişdir. Qorun saldığı kənd - qala Gorus 20-ci yüzilliyin 1-ci yarısında bolşeviklərin köməyilə Ərmənistanm ərazisinə qatılmışdır. Tatarıstanın paytaxtı Kazan şəhəri, Rusiyanm Kursk və Nikolayev vilayətlərində Kazanka etnonimləri Azərbaycan və «Ermənistanda» mövcud Qazançı etnonimləri ilə eyni mənşəlidir. [1].

Kəlbəcər -Azərbaycanda şəhər, Tərtər çayının sahilində sıldırım qayalıq üstündə 1560 metr yüksəklikdə yerləşir. Bəzi tədqiqatçılardan əldə etdiyim məlumata görə oykonimin ilkin variantının Kevliçer olduğunu və onu qədim türk dillərində "çay üstündə qala" kevli - "çayın üstü" və çerlcar - "qala" kimi izah edilir.

Ağdam- Azərbaycanda şəhər və eyniadlı rayonun mərkəzidir. Şəhərin əsası XVIII əsrin 2-ci yarsında qoyulmuşdur. Burada Qarabağ xanı Pənah xanın ağ daşdan tikdirdiyi imarət mühafizə edilib. Elə məhz şəhərin adının da buradan götürüldüyü iddia edilir. [2].

Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının toponimlərinə baxsaq görərik ki, əksəriyyətinin kökündə türk tayfalarının adları və ya Azərbaycan xalqının tarixi hadisələri durur. Əskəran – Əski Aran yəni qədim Aran, Ulu Aran deməkdir. Aran tayfalarının adı ilə bağlıdır. Dondarlı -miladdan əvvəl 5-ci əsrdə yaşamış qədim türk tayfası olan Dondarların adını götürmüş və Qubadlı və Tovuz bölgələrində yerləşir. Şuşa – bəzi mənbələrə görə Dondar türklərinin məskəni Şoşu şəhəri, bəzilərinin iddiasına görə "şüşə"(Təmiz hava və suyuna görə), bəzi mənbələrə görə "şiş" (yüksəklik, uc, şiş mənasında) sözündən törədiyi söylənilir. Xankəndi – Qarabağ xanı Pənahəli xanın öz xanımına 18-ci əsrdə saldırdığı məkandı – "Xanın kəndi" mənasından yaranıb. Ağcabədi – "ağca"- iri, "badi"-məkan deməkdir. Qubadlı – Şirvanşah Şeyx İbrahim Dərbəndinin babası Key Qubadın adı ilə bağlıdı. Zəngilan, Zəngəzur – Türk mənşəli Sangi tayfalarının adı ilə bağlıdır. Xocavənd – "xocalı nəsli" deməkdir. 1925-ci ilə qədər Xonaşin adlandırılmışdır ki, "hun ölkəsi" – "xon"-hun, "şin" - ölkə demək idi. Kəlbəcər - "Kevliçer" kevli – "çayın yuxarı axarları", çər – "qala" - qədim türkcə "çayların yuxarı axarında qala" mənasını verir. Laçın –13-cü əsrin əvvəllərində Türkmənistandan köç etmiş "Laçın" kürd tayfasının adı ilə bağlıdır. Cəbrayıl - VIII əsrdə yaşamış Sultan Əhməd adlı bir hökmdarın yaxın adamlarından biri Cəbrayıl atanın adı ilə bağlıdı. Cəbrayıl ərəb dilində "Allahın qulu" deməkdi [3].

İ.Şopen (1894-cü il) "Bərdə" sözünün mənasını yunan dilində axtarır. Q.Osipov, qəribə də olsa, "Bərdə" sözünün mənasının erməni dilində "qovaqlı yer" mənası verdiyini yazır. V. Sısoyev əl-Həməviyə əsaslanaraq "Bərdə"ni "qul yeri – qul saxlanan yer" hesab edir. Qrum – Qrcimalo Orta Asiyada, Sakistan vilayətində "Bərdə" adlı şəhərin mövcudluğunu və Bərdə şəhərinin adının da onunla bağlı olduğunu qeyd edir. M.S.Ordubadi ərəb mənbələrinə əsaslanaraq "Bərdə" toponimi haqqında "dustaqların saxlandığı həbsxana", "dustaq düşərgəsi" fikrinə tərəfdar çıxır. Q.Melikiş-

vili Bərdə ilə e.ə. VIII əsrdə Mannada olan “Parda” arasında əlaqə olduğunu göstərir. M.Minorski şəhərin adının “palan” mənası verdiyini hesab edir, lakin bunu heç cür şərh etmir. [4].

Qarabağ bölgəsinin toponimləri Azərbaycan xalqının etnik yaddaşını, dil tarixini və mədəni kimliyini əks etdirir. Tədqiqat göstərir ki, bu adların böyük hissəsi türk mənşəlidir və qədim tayfaların izlərini daşıyır. Müasir metodoloji yanaşmalar toponimikanın dilçiliklə yanaşı tarix, etnoqrafiya və informasiya texnologiyaları ilə əlaqəsini gücləndirir. Konkret toponim nümunələri – Qazançı, Kəlbəcər, Ağdam, Şuşa və Bərdə – semantik və tarixi baxımdan təhlil olunur. Bu adlar vasitəsilə bölgənin etnik-mədəni tarixi və ideoloji transformasiyaları izlənilir.

ƏDƏBİYYAT

1. Aydın Qarabağlı. Qarbağ, onun qədim tayfaları və toponimləri. Bakı (2008): “Mütərcim” nəşriyyatı (s. 89-90)
2. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti I cild. Bakı (2007): “Şərq-Qərb” nəşriyyatı (s.18-19: s272-273)
3. Qabıssanlı Şakir. “Toponimlərin açılmayan sirrləri”. Bakı(2013): Təknur nəşriyyatı (s. 33-40)
4. Xuraman İsmayilova “Bərdə və bərdəlilər”. – Bakı, “Nərgiz” nəşriyyatı, 2010 (s 14-15)

Корхмаз Нияз оглы Гасымлы
магистрант,
qorxmaz619@gmail.com
Кочари Шамиль оглы Аллахвердиев
доктор философии по географии, доцент,
allahverdiyev1956@mail.ru,
Азербайджанский Университет Кооперации

Современные методологические подходы к изучению топонимов Карабаха

Резюме

В данной статье рассматриваются топонимы в Карабахском регионе с использованием современных методологических подходов. Топонимы Карабахского региона являются важными показателями, отражающими этническую память, языковую историю и культурную самобытность азербайджанского народа. В результате исследования известно, что большинство топонимов Карабаха имеют турецкое происхождение и эти названия являются важными показателями этнокультурной истории региона.

Kochari Shamil Allahverdiyev
doctor of philosophy in geography, associate professor,
allahverdiyev_1956@mail.ru,
Korkhmaz Niyaz Gasimli
master,
qorxmaz619@gmail.com,
Azerbaijan Cooperation University

Modern methodological approaches to the study of Karabakh toponyms

Summary

This article discusses the toponyms in the Karabakh region using modern methodological approaches. The toponyms of the Karabakh region are important indicators reflecting the ethnic memory, language history and cultural identity of the Azerbaijani people. As a result of the research, it is known that most of the toponyms of Karabakh are of Turkish origin and these names are important indicators of the ethno-cultural history of the region.

Aysun Eynur qızı QULİYEVA
magistrant,
aysunq531@gmail.com,
Ülkər Xəlil qızı MAHMUDOVA
coğrafiya üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA ENERJİ İSTEHSALI PERSPEKTİVLƏRİ VƏ EKOLOJİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ

Müasir dövrdə enerji təhlükəsizliyi, bərpa olunan enerji mənbələrinin inkişafı və ekoloji tarazlığın qorunması qlobal miqyasda strateji prioritetlərdən birinə çevrilmişdir. İqlim dəyişikliyi, atmosferin karbon qazı ilə yüklənməsi, enerji istehsalında fosil yanacaqlardan asılılığın davam etməsi ekoloji böhranı daha da dərinləşdirir. Belə bir şəraitdə enerji sistemlərinin modernləşdirilməsi, alternativ mənbələrin istifadəsi və ekoloji təhlükəsiz texnologiyaların tətbiqi dünya dövlətləri üçün əsas inkişaf istiqamətidir.

Azərbaycan Respublikasında bu prosesin mühüm mərhələsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən enerji və bərpa layihələri təşkil edir. Bu ərazilər uzun illər ərzində işğal altında qaldığından enerji infrastrukturu tamamilə dağıdılmış, ekosistemlər isə ciddi zərər görmüşdür. Hazırda dövlət tərəfindən aparılan bərpa və quruculuq işləri çərçivəsində regionun "yaşıl enerji zonası" kimi formalaşdırılması yalnız iqtisadi deyil, həm də ekoloji baxımdan böyük əhəmiyyət kəsb edir. Qarabağ və Şərqi Zəngəzurda günəş, külək, su və biokütlə kimi təbii enerji mənbələrinin geniş yayılması bu regionu Azərbaycanın enerji xəritəsində strateji mərkəzə çevirir. Xüsusilə, intellektual enerji şəbəkələrinin qurulması, rəqəmsal nəzarət sistemlərinin tətbiqi və enerji istehsalının ekoloji standartlara uyğunlaşdırılması bölgənin davamlı inkişafına xidmət edir (Əliyev, 2024: 47)

Mövzunun aktuallığı həm də ondadır ki, enerji istehsalı məsələləri təkcə texnoloji deyil, eyni zamanda sosial və ekoloji xarakter daşıyır. Qarabağda həyata keçirilən enerji layihələri işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi dirçəlişini təmin etməklə yanaşı, ekoloji bərpa prosesinin elmi əsaslarını da gücləndirir. Bu kontekstdə enerji və ekologiya məsələlərinin vəhdətdə öyrənilməsi – həm regionun, həm də bütövlükdə Azərbaycanın **yaşıl inkişaf modelinə keçidinin** elmi-metodoloji əsaslarını müəyyənləşdirir. Beləliklə, "Qarabağ və Şərqi Zəngəzurda enerji istehsalı perspektivləri və ekoloji təhlükəsizlik məsələləri" mövzusu müasir enerji siyasətinin, ekoloji sabitliyin və milli iqtisadiyyatın davamlı inkişafı baxımından yüksək aktuallığa malikdir. Bu tədqiqat nəticəsində əldə olunan elmi və praktiki yanaşmalar ölkənin gələcək enerji strategiyasına, regionun ekoloji bərpasına və sosial rifahın yüksəldilməsinə mühüm töhfə verə bilər.

Azərbaycan Respublikasının enerji siyasəti son illərdə iqtisadi inkişafın əsas dayaqlarından biri olmaqla yanaşı, ekoloji təhlükəsizliyin təmin edilməsi və dayanıqlı inkişaf məqsədləri ilə sıx bağlıdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları bu strategiyanın mühüm tərkib hissəsini təşkil edir. 2020-ci ildə torpaqların işğaldan azad edilməsindən sonra bu ərazilərdə enerji infrastrukturunun yenidən qurulması, ekoloji bərpa işlərinin aparılması və "yaşıl enerji zonası" konsepsiyasının reallaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.Bu bölgələrdə təbii enerji resurslarının çoxluğu – günəş radiasiyasının yüksək səviyyədə olması, güclü külək axınlarının müşahidə edilməsi, bol su ehtiyatlarının mövcudluğu – Qarabağ və Şərqi Zəngəzuru Azərbaycanın enerji xəritəsində strateji əhəmiyyətli mərkəzə çevirir. Xüsusilə Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarının relyef və iqlim xüsusiyyətləri alternativ enerji mənbələrinin inkişafı üçün əlverişli şərait yaradır.

Enerji istehsalı məsələləri yalnız iqtisadi dəyər baxımından deyil, həm də ekoloji təhlükəsizlik və sosial rifah kontekstində nəzərdən keçirilməlidir. Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq layihələri uzunmüddətli müharibə nəticəsində zərər görmüş ekosistemlərin bərpasını və təbii mühitin sağlamlaşdırılmasını da nəzərdə tutur. Bu baxımdan, enerji infrastrukturu layihələrinin planlaşdırılması zamanı ekoloji tarazlığın qorunması, biomüxtəlifliyin

mühafizəsi və karbon emissiyalarının azaldılması kimi məsələlər əsas hədəflərdən olmalıdır (İbadoghlu, 2024: 19)

Azərbaycanın milli enerji strategiyası BMT-nin 2030-cu il "Davamlı İnkişaf Məqsədləri" ilə uzlaşaraq, enerji sektorunda modern texnologiyaların tətbiqinə və bərpa olunan mənbələrdən istifadənin genişləndirilməsinə yönəlmişdir. Prezident İlham Əliyev tərəfindən irəli sürülən "Yaşıl enerji zonası" konsepsiyası Qarabağ və Şərqi Zəngəzuru bu məqsədlərin həyata keçirildiyi pilot regionlara çevirir. Bu konsepsiya həm təbii resurslardan ağıllı və məsuliyyətli istifadənin təmininə, həm də enerji istehsalının müasir texnoloji əsaslarda təşkilinə şərait yaradır.Qarabağda enerji potensialının reallaşdırılması yalnız elektrik istehsalı ilə məhdudlaşmır, həm də yeni iş yerlərinin açılması, regionun iqtisadi dirçəlişi, sosial infrastrukturların bərpası və əhalinin geri qayıdışı kimi mühüm amilləri də dəstəkləyir. Bu baxımdan, enerji və ekologiya məsələlərinin qarşılıqlı inteqrasiyası, bölgənin davamlı inkişafının təmin olunmasında mühüm elmi-metodoloji və praktiki əhəmiyyətə malikdir. Beləliklə, bu tədqiqatın məqsədi Qarabağ və Şərqi Zəngəzurun enerji potensialının elmi əsaslarla qiymətləndirilməsi, ekoloji təhlükəsizliyin qorunması mexanizmlərinin müəyyənləşdirilməsi və regionda davamlı enerji istehsalının təmininə yönəlmiş təkliflərin hazırlanmasıdır.

Qarabağ və Şərqi Zəngəzurun enerji potensialı. Regionda enerji istehsalı üçün aşağıdakı əsas mənbələr fərqləndirilir:

Cədvəl 1.

Qarabağ və Şərqi Zəngəzurda bərpa olunan enerji növləri və onların potensial göstəriciləri

Enerji növü	Əsas mənbə	Potensial sahə	Gözlənilən güc
Su enerjisi	Oxçuçay, Bazarçay, Həkəri çayı	Laçın, Qubadlı, Zəngilan	100–120 MW
Su enerjisi	Oxçuçay, Bazarçay, Həkəri çayı	Laçın, Qubadlı, Zəngilan	100–120 MW
Külək enerjisi	Dağlıq və yarımsəhra zonalar	Kəlbəcər, Laçın	200–250 MW
Günəş enerjisi	Yüksək radiasiyalı düzənliklər	Cəbrayıl, Füzuli	400–500 MW
Biokütlə	Meşə və kənd təsərrüfatı tullantıları	Zəngilan, Qubadlı	50 MW

Hazırda Qarabağ və Şərqi Zəngəzurda bərpa olunan enerji layihələri geniş şəkildə həyata keçirilir. Laçın və Kəlbəcərdə hidroelektrik stansiyaların bərpası, Zəngilan və Cəbrayılda isə "Yaşıl Enerji Parkı" və günəş stansiyalarının qurulması regionun enerji potensialının reallaşdırılmasına xidmət edir. Enerji istehsalında ekoloji təhlükəsizlik prioritet hesab olunur: torpaq və su ehtiyatlarının bərpası, ekosistemlərin qorunması və karbon emissiyalarının azaldılması əsas məqsədlərdəndir. Azərbaycan "2050-ci ilə qədər xalis sıfır emissiya" strategiyasına uyğun olaraq, Qarabağ və Şərqi Zəngəzuru yaşıl enerji zonası kimi inkişaf etdirir. Bu yanaşma regionda həm iqtisadi səmərəliliyi, həm də ekoloji və sosial dayanıqlığı təmin edir.

Elmi-metodoloji yanaşmalar. Tədqiqat zamanı kompleks metodlardan istifadə edilmişdir: Coğrafi-informasiya analizi (GIS) – enerji mənbələrinin məkan paylanmasının təhlili üçün, kimyəvi-ekoloji monitorinq – su və torpaq nümunələrinin çirklənmə səviyyəsinin müəyyənləşdirilməsi üçün, proqnostik modelləşdirmə – 2030 və 2040-cı illər üçün enerji balansının hesablanması məqsədilə. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın enerji və ekoloji siyasətində yeni bir mərhələnin başlanğıc nöqtəsi hesab olunur. Regionun təbii potensialı və coğrafi xüsusiyyətləri burada həm bərpa olunan enerji mənbələrinin inkişafı, həm də ekoloji tarazlığın qorunması baxımından böyük imkanlar açır. Aparılan təhlillər göstərir ki, bu ərazilərdə günəş, külək və su enerjisi ehtiyatlarının düzgün qiymətləndirilməsi və elmi əsaslarla idarə olunması ölkənin enerji müstəqilliyini daha da möhkəmləndirə bilər (Məmmədov, 2023:40).

Məqalədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında enerji istehsalının inkişafında əsas prioritet kimi bərpa olunan enerji mənbələrinin seçilməsinin əhəmiyyəti vurğulanır. Bu yanaşma "yaşıl iqtisadiyyat" konsepsiyasına əsaslanaraq, regionun ekoloji cəhətdən dayanıqlı inkişaf mo-

delini formalaşdırmağa imkan verir. Bərpa olunan enerji mənbələrinin tətbiqi yalnız enerji səmərəliliyini artırmır, eyni zamanda atmosferə zərərli qazların emissiyasını azaldır, iqlim dəyişikliyinin mənfi təsirlərini zəiflədir və ekosistemlərin bərpasına şərait yaradır.

Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" kimi inkişafı Azərbaycanın ümumi ekoloji siyasətinə inteqrasiya olunaraq, regional və qlobal səviyyədə ekoloji təhlükəsizliyin təmininə töhfə verir. Bununla yanaşı, enerji layihələrinin həyata keçirilməsində ətraf mühitin qorunması, ekoloji monitorinqin gücləndirilməsi və tullantısız texnologiyaların tətbiqi mühüm əhəmiyyət daşıyır.

Tədqiqat nəticələrinə əsasən, enerji layihələrinin uğurlu və davamlı icrası üçün bir neçə əsas istiqamət müəyyən olunur: Ekoloji risklərin əvvəlcədən qiymətləndirilməsi və layihələrin ƏMTQ sənədlərinə əsasən icrası, rəqəmsal enerji sistemləri, mikro-şəbəkələr və enerji saxlama texnologiyalarının tətbiqi, yerli əhali üçün ekoloji təhsil və maarifləndirmə proqramlarının həyata keçirilməsi, dövlət-özəl tərəfdaşlığı və elmi institutlarla əməkdaşlığın gücləndirilməsi.

Nəticə etibarilə, Qarabağ və Şərqi Zəngəzurun enerji potensialının reallaşdırılması Azərbaycanın "yaşıl keçid" strategiyasını dəstəkləyir və ölkənin beynəlxalq miqyasda ekoloji innovasiya mərkəzi kimi formalaşmasına zəmin yaradır. Bu layihələr yalnız enerji istehsalını deyil, həm də ekoloji bərpa, sosial rifah və elmi-texnoloji inkişafın vəhdətini əks etdirir. Regionun gələcək nailiyyətləri isə Azərbaycanın davamlı inkişaf siyasətinin əsas dayaqlarından birini təşkil edəcək.

ƏDƏBİYYAT

1. Əliyev, İ. Qarabağda Bərpa Olunan Enerji İmkanları və İqtisadi İnkişaf Modelləri. Azərbaycan Milli Elmlər Akademiyası Xəbərləri, 2024, 79(2), s.45–57.
2. Məmmədov, E. Şərqi Zəngəzurun Ekoloji Potensialı və Təbii Ehtiyatların İdarə Olunması. Ekologiya və Təbii Ehtiyatlar Jurnalı, 2023,11(4), 29–40.
3. Chepeliev, M. Azerbaijan: Pathways for Decarbonization in a Global Context. Climate Policy,2024, *24(3),* 312–329. https://doi.org/10.1080/14693062.2024.2330378
4. Climate Strategies. Prosperity Post Fossil Fuels: Policy Briefing for a Just Energy Transition in Azerbaijan. Policy Paper Series,2024, 18(2), 14–26. https://climatestrategies.org/wp-content/uploads/2024/11/PPFF-Briefing-Azerbaijan-Final.pdf
5. Ibadoghlu, G. Energy, Ecology, and Climate Finance Issues on the Eve of COP29. Working Paper Series of Baku Energy Forum,2024, 2(1), 5–19. https://www.econstor.eu/bitstream/10419/301995/1/Gubad-Ibadoghlu-COP29-2024.pdf
6. Işık, C., Korkmaz, H., & Sadeghi, M. Towards Carbon Neutrality: COP29 and Azerbaijan's Role in Regional Energy Transition. *Heliyon*,2025, 11(2), e32457. https://doi.org/10.1016/j.heliyon.2025.e32457
7. Townend, R., Hajiyev, S., & Gasimova, N. Azerbaijan's Climate Leadership Challenge. Chatham House Report, October 2024, pp. 1–22. https://www. chathamhouse.org/sites/default/files/2024-10/2024-10-22-azerbaijan-climate-leadership-challenge-townend-et-al.pdf

Айсун Эйнур кызы Гулиева
магистрант,
Улькер Халил кызы Махмудова
доктор философии по географии, доцент,
aysunq531@gmail.com,
Азербайджанский Университет Кооперации

Перспективы энергопроизводства и вопросы экологической безопасности в Карабахе и Восточном Зангезуре

Резюме

В данной статье рассматриваются перспективы развития энергетического производства, рациональное использование природных ресурсов и вопросы экологической безопасности в Карабахском и Восточно-Зангезурском экономических районах. Богатые водные, солнечные и ветровые ресурсы освобождённых территорий имеют большое стратегическое значе-

ние для Азербайджана в контексте создания зон «зелёной» энергетики. Наряду с анализом энергетического потенциала региона, в исследовании рассматриваются вопросы охраны экосистем, восстановления земельных и водных ресурсов, а также внедрения систем экологического мониторинга. В конечном итоге статья предлагает научно-методологические подходы к формированию модели устойчивого энергетического развития Карабаха и Восточного Зангезура.

Aysun Eynur Guliyeva
master,
aysunq531@gmail.com,
Ulkar Khalil Mahmudova
doctor of philosophy in geography, associate professor,
Azerbaijan Cooperative University

Prospects for energy production and environmental security issues in Karabakh and East Zangazur

Summary

This article examines the future potential of energy production, the efficient use of natural resources, and environmental security issues in the Karabakh and East Zangazur economic regions. The rich water, solar, and wind resources of the liberated territories hold great strategic importance for Azerbaijan in terms of establishing green energy zones. In addition to analyzing the region's energy potential, the study also addresses the protection of ecosystems, restoration of soil and water resources, and implementation of ecological monitoring systems. Ultimately, the article presents scientific and methodological approaches for forming a sustainable energy development model for Karabakh and East Zangazur.

Babək Yalçın oğlu KAZIMOV
magistrant,
Ramil Məhəmmədəli oğlu ƏLİYEV
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Memarlıq və İnşaat Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA EKOLOJİ PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

Giriş

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları təbii-coğrafi müxtəliflik və bioloji zənginlik baxımından ölkənin ən qiymətli bölgələrindən sayılır. Bu ərazilər dağlıq relyefi, zəngin torpaq və su ehtiyatları, meşə sahələri, eləcə də nadir flora və faunası ilə seçilir. Lakin 30 ilə yaxın davam edən işğal nəticəsində burada təbiətin tarazlığı pozulmuş, təbii resurslardan səmərəsiz istifadə olunmuş və ətraf mühitə böyük zərər vurulmuşdur. Bu zərər təkcə lokal deyil, həm də regional səviyyədə ekoloji təhlükəsizlik üçün ciddi təhdidlər yaradıb. Hazırda dövlət və beynəlxalq səviyyədə məqsəd, bu ərazilərdə ekosistemlərin bərpası və davamlı inkişafın təmin edilməsidir.

Qarabağ və Şərqi Zəngəzurda ekoloji vəziyyətin ümumi xarakteristikası

İşğal dövründə bölgədə nəzarətsiz mədən fəaliyyəti, meşə sahələrinin qırılması, çayların sənaye tullantıları ilə çirkləndirilməsi və torpaqların kimyəvi tərkibinin pozulması nəticəsində ekoloji tarazlıq ciddi şəkildə zədələnmişdir. Ən çox zərər görən ərazilər arasında Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı və Şuşa rayonları qeyd olunur. Bu ərazilərdə mədən tullantılarının torpağa və sulara axıdılması nəticəsində ağır metalların (mis, sink, qurğuşun) miqdarı beynəlxalq ekoloji normaları dəfələrlə keçmişdir.

Ekoloji bərpa və idarəetmə istiqamətləri

Ərazilərdə ekoloji tarazlığın bərpası üçün Azərbaycan dövləti tərəfindən bir sıra kompleks tədbirlər həyata keçirilir:

Torpaq rekultivasiyası və eroziya ilə mübarizə:bərpa olunan torpaq resurslarının məhsuldarlığının artırılması məqsədilə müasir aqrotexniki və biotexnoloji üsullar tətbiq olunur;

Meşələrin bərpası:Kəlbəcər, Laçın və Zəngilan rayonlarında genişmiqyaslı ağacəkmə proqramları həyata keçirilir;

Ekoloji monitorinq sistemləri: ETSN tərəfindən atmosfer, torpaq və su keyfiyyətinin daimi müşahidəsi üçün avtomatlaşdırılmış stansiyalar qurulur.

Nəticə

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ekoloji problemlər mürəkkəb və çoxsahəlidir. Onların həlli yalnız dövlət proqramları və beynəlxalq əməkdaşlıq vasitəsilə mümkündür. Ərazilərin ekoloji bərpası torpaq və su ehtiyatlarının qorunması, meşələrin və biomüxtəlifliyin bərpası, təmiz enerji layihələrinin reallaşdırılması regionun davamlı gələcəyinin əsas təminatıdır. Ekosistemlərin qorunması yalnız təbiət deyil, həm də iqtisadi sabitlik və sosial rifah üçün strateji əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi. “İşğaldan azad olunmuş ərazilərdə ekoloji vəziyyətin qiymətləndirilməsi hesabatı.” – Bakı, 2023.
2. Azərbaycan Respublikası Prezidentinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması haqqında Fərmanı. – Bakı, 2021.
3. Əliyev, R. “Qarabağ və Şərqi Zəngəzurda təbiətə antropogen təsirlərin ekoloji nəticələri.” – Coğrafiya və Təbii Ehtiyatlar, №2, 2022.
4. FAO. “Land Degradation and Restoration in the South Caucasus.” – Rome, 2022.
5. Hüseynov, A. “Azərbaycanın dağlıq ərazilərində ekosistemlərin bərpası və biomüxtəlifliyin qorunması.” – Bakı: “Elm və Təhsil”, 2021.
6. UNEP (United Nations Environment Programme). “Environmental Recovery and Sustainable Development in Post-Conflict Areas.” – Geneva, 2023.

Рамиль Махамдали оглы Алиев
доктор философии по экономике, доцент,
Бабек Ялчин оглы Кязимов
магистрант,
Азербайджанский Университет Архитектуры и Строительства

Экологические проблемы и направления их решения в Карабахском и Восточно-Зангазурском экономических районах

Резюме

В статье с научной точки зрения анализируются экологические проблемы, возникшие в период оккупации в Карабахском и Восточно-Зангезурском экономических районах, – загрязнение почв и водных ресурсов, вырубка лесов, потеря биоразнообразия, а также влияние изменения климата. Рассматриваются меры, принимаемые для восстановления экологического равновесия территорий, обеспечения эффективного использования природных ресурсов и обеспечения устойчивого развития.

Babek Yalchin Kazimov
master,
Ramil Mahammadali Aliyev
doctor of philosophy in economic sciences, associate professor,
Azerbaijan University of Architecture and Construction

Environmental problems and directıons for their solution in the Karabakh and East Zangezur economıc regıons

Summary

The article analyzes from a scientific perspective the environmental problems that arose during the occupation in the Karabakh and East Zangezur economic regions - pollution of soil and water resources, deforestation, loss of biodiversity, and the impact of climate change. Measures taken to restore the ecological balance of the territories, ensure efficient use of natural resources, and ensure sustainable development are examined.

Teyfur Şahin oğlu KƏRİMOV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Səadət Aslan qızı HÜSEYNOVA
kimya üzrə fəlsəfə doktoru,
seadet_huseynova@mail.ru,
Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi
Milli Aerokosmik Agentliyi Ekologiya İnstitutu

QARABAĞ İQTİSADİ RAYONU ƏRAZİLƏRİNDƏ FİTOREMEDİASİYA VASİTƏSİLƏ ŞORAN TORPAQLARIN DUZ STRESİNİN AZALDILMASI PERSPEKTİVLƏRİ

İqlim dəyişikliyi və gündən-günə intensivləşən antropogen təsir torpaqların deqradasiyasının sürətlənməsinə və əkin sahələrinin getdikcə azalmasına səbəb olur ki, bu da planetdə qida və su ehtiyatlarına öz təsirini göstərir. Bu proseslərin nəticəsi kimi son illər Azərbaycan Respublikası ərazisində də digər dəyişikliklərlə yanaşı əkinə yararlı torpaq sahələrinin şoranlaşması baş vermişdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hesablamalarına əsasən Azərbaycanda 3,2 mln. ha ərazi eroziyaya, 2 mln. ha qədər torpaq isə şoranlaşmaya məruz qalmışdır. Respublikada ən çox şoranlaşan torpaqlar Kür-Araz ovalığında müşahidə edilir. (1.32 mln. ha). Bu ərazinin 1,3 mln. hektarlıq sahəsinin 50%-i (0,7 mln. ha) təkrar şoranlaşmaya məruz qalmışdır.

Məlumdur ki, əkinə yararlı torpaqlarda məhsuldar qatın saxlanılması və bərpa olunması problemi aqrar sahənin başlıca problemlərindən biridir. Nəzərə alınsa ki, torpağın humus təbəqəsinin bərpa olunmasına 100 ilə qədər vaxt tələb olunur, minlərlə hektar antropogen təsirlər və təbii deqradasiya nəticəsində sıradan çıxmış torpaqların bərpası probleminin aktuallığı ön plana çıxır.

Torpaqların meliorasiyası, yəni bərpası müxtəlif vasitələrlə həyata keçirilir ki, bunlardan geniş yayılmışı suvarmadır. Respublika ərazisində şoran torpaqların suvarma yolu ilə təmizlənməsi çox məsrəf tələb edir. Böyük vəsait sərf etmədən müasir səmərəli üsulla – fitomeliorasiya yolu ilə şoranlaşmış torpaqların reabilitasiyasını bu sahədə müasir istiqamətlərdən biri hesab etmək olar. Bu məqsədlə fitomeliorativ vasitə olaraq amarant bitkisinin bir neçə sortunun istifadəsi perspektivlərini qeyd etmək mümkündür.

Göstərildiyi kimi, müasir dövrdə əkinə yararlı torpaqların ciddi antropogen və təbii təsirlər nəticəsində (eroziya, səhralaşma, bataqlıqlaşma, şoranlaşma, şorakətləşmə, çirklənmə, aşınma) öz ekoloji dəyərini itirərək dövriyyədən çıxması, bəzən isə bedləndə (pis torpaqlar) çevrilməsi şəraitində fitomeliorasiya vasitəsilə münbitliyinin artırılması və strukturunun bərpası aktual problemlərdən biridir. Amarant bitkisindən istifadə edərək şoranlaşmış torpaqların iqtisadi baxımdan səmərəli, ekoloji əlverişli bərpa texnologiyasını işləyib hazırlanmaqla bu problemi qismən həll etmək olar.

BMT-nin Ərzaq Komitəsi amarantı öz bioloji xüsusiyyətlərinə və dəyərinə görə XXI əsrin bitkisi adlandırmışdır. Bu bitkinin vətəni Cənubi Amerikadır. Burada yaşayan yerli tayfalar qarğıdalı ilə yanaşı bu bitkidən çörək kimi istifadə etmişlər. Təcrübələrlə sübut edilmişdir ki, amarant hüceyrəni cavanlaşdırır və orqanizmdə bədxassəli şişlərin yaranmasının və yayılmasının qarşısını alır. Qədim Çin təbabətində bu bitki qocalığa qarşı vasitə kimi istifadə olunurdu.

Amarant bitkisinin 100 q zülalında həzm prosesində çox böyük rolu olan 6,2 q lizin aminturşusu var ki, bu miqdara digər heç bir bitkidə rast gəlinmir. Müqayisə üçün, buğdada lizinin miqdarı bundan iki dəfə azdır. Amarant toxumu sənayedə və təbabətdə geniş istifadə olunur. Toxumun tərkibində 16% zülal, 5-6% yağlar, 55-62% nişasta, lipid fraksiyasında isə 10%-ə qədər qiymətli skvalen maddəsi mövcuddur ki, bu da orqanizmin müxtəlif xəstəliklərə qarşı immun qabiliyyətini bir neçə dəfə artırma xüsusiyyətinə malikdir. Bununla yanaşı skvalen əsasında hazırlanmış preparatlar bədxassəli şişlərə qarşı effektiv təsir göstərir, qanda xolesterinin miqdarını aşağı salır. Bu nəticələr eksperimental və kliniki tədqiqatlarda öz təsdiqini tapmışdır. Amarant bitkisinın tərkibində əvəz olunan aminturşulardan asparaqin, adenin, quanin, alanin, arginin, qlutamin, histamin, prolin, serin, tirozin, serotonin, pantoten (vitamin B), əvəz olunmayan aminturşulardan valin, histitin, izoleysin, lizin, metionin, leysin, fenilalanin, triptofan və treonin mövcuddur. Bundan başqa amarantın tərkibində xelat formada Ca, Fe, P, eləcə də bəzi mikroelementlər və riboflavin (vitamin B2), tokoferol (vitamin E), tiamin (vitamin B1), D qrup vitaminləri, xolin, steroidlər, fitosterinlər və s. birləşmələr də yer alır. Rusiya Tibb EA-nın Qida Elmi-Tədqiqat İnstitutunda, Voronej Tibb İnstitutunda heyvanlar üzərində aparılan təcrübələr amarant yağının antioksidant xassələrini təsdiq etmişdir. Dünya alimlərinin apardıqları çoxsaylı təcrübələr nəticəsində bu bitkinin ekstraktlarının antimikrob, antibakterial və antivirus xüsusiyyətləri təsdiq edilmişdir. Bu bitki torpaqların pestisidlərdən, ağır metal və radionuklidlərdən təmizlənməsində də tətbiq edilir. Onun yüksək vegetativlik, toxuməməlgətirmə və adaptivlik xassələri barədə də xeyli ədəbiyyat materialları mövcuddur (Архипова, 1998:2).

Bu bitkinin aqrar sektorda ən əhəmiyyətli və detallı tədqiq olunmamış tətbiq sahəsi şoranlaşmaya məruz qalmiş torpaqların bərpasında fitomeliorativ vasitə kimi istifadəsidir. Belə ki, amarant bitkisinin bəzi növləri torpaqda olan duzları akkumilyasiya edərək kənarlaşdırmaq və duz mühitinin stress faktorunu neytrallaşdırmaq qabiliyyətinə malikdir [Subodh, 1991:6]. Fitomeliorasiya vasitəsi kimi götürülən sortların şoran torpaqlarda 2-3 il amarant intensiv becərilərsə, torpağın münbitliyi bərpa olunaraq buğda əkini üçün yararlı hala gələr və torpaq mühitinin neytrallaşması (~pH=7) prosesi reallaşar.

Torpaqda duz stresinin bitkiyə təsirinin zəiflədilməsi, həmçinin bitkinin inkişafının stimullaşdırılması məqsədi ilə təbii mənşəli humin əsaslı xüsusi bioloji aktiv birləşmələrdən istifadə etmək olar. Bu birləşmələr torpağı duzlardan təmizləməklə yanaşı, bitkinin məhsuldarlığının artmasına da şərait yaradar. Humin birləşmələri suda və torpaqda mikroorqanizmlərin artımının biostimulyatoru rolunu oynayır, ağır metallarla bərabər bir çox zərərli üzvi birləşmələrin də toksiki təsirini azaldır (John və d., 1985:4; Oris və d., 1990:5). Bəzi tədqiqatlar nəticəsində (Христева, 1973:3) sübut olunmuşdur ki, humin turşularının birvalentli metal duzları bitkilərdə ilkin olaraq kök sisteminin, sonra isə yerüstü hissənin fizioloji inkişafını gücləndirir. Ədəbiyyat məlumatlarına əsasən, humin birləşmələri şoranlaşmış torpaqlarda bitkilərin məruz qaldığı zərərli təsiri 6-10 dəfə artıq aşağıya saldığını qeyd etmək olar (Христева, 1973:3). Humin birləşmələrinin bu keyfiyyəti şoranlaşmanın aradan qaldırılmasında geniş perspektivlər vəd edir.

Model bitki sistemlərində və radionuklidlərlə çirklənmiş torpaq nümunələrində aparılmış tədqiqatlar vasitəsilə bu birləşmələrin bioloji aktiv komplekslərinin radioprotektor və stimullaşdırıcı xüsusiyyətləri müəyyən olunmuşdur. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, humatların 0,001%-li məhlulu model bitki sistemlərində kritik dozada radiasiyanın və duz stresinin zərərli təsirini aradan qaldıra bilir [Müslümova və d., 2016:1]. Şoranlaşmış, eyni zamanda radioaktiv çirklənməyə məruz qalmış torpaqlarda amarant bitkisinin becərilməsi ilə bərabər humin əsaslı təbii mənşəli bioloji aktiv birləşmələrin də tətbiq edilməsi daha yaxşı nəticə verir.

Azərbaycan iqlimi bu bitkinin ilboyu həm istixana, həm də çöl şəraitində geniş sahədə becərilməsinə imkan verir. Onun 45-50ºC istiliyə davamlılığı sübut olunmuşdur.

ƏDƏBİYYAT

1. Müslümova Z.H., Məmmədli S.A. // Study of radioprotective properties of potassium humate in gamma irradiated wheat seedlings. Journal of Stress Physiology & Biochemistry 18 (3), 53-59. 2013.
2. Архипова Н.С., // Исследование солеустойчивости растений рода Amaranthus L. (семейство Amaranthaceae). Автореферат диссертации. Казань – 1998. Стр. 3.
3. Христева Л.А. // Действие физиологически активных гуминовых кислот на растения при неблагоприятных внешних условиях // Гуминовые удобрения. Теория и практика их применения. 1973. - № 4. -С.5-23.
4. John F. McCarthy, Braulio D. Jimenez, Thelberstine Barbee. // Effect of dissolved humic material on accumulation of polycyclic aromatic hydrocarbons: Structure-activity relationships. "Aquatic Toxicology" Journal, 1985.
5. J.T.Oris, A.T.Hall, J.D.Tylka. // Humic acids reduce the photo-induced toxicity of anthracene to fish and daphnia. Environmental Toxicology and Chemistry: An International Journal 9 (5), 575-583. 1990.
6. Subodh J. // Prospectos de los Amarantos de grano desde el punto de vista de un genetista. El Amaranto y su potencial. Boletín № 1. - 1991. - P. 15-16.

Тейфур Шахин оглы Керимов
магистрант,
Азербайджанский Университет Кооперации
Саадет Аслан кызы Гусейнова
доктор философии по химии,
seadet_huseynova@mail.ru,
Министерство Оборонной Промышленности Азербайджанской Республики
Национальное Аэрокосмическое Агентство
Институт Экологии

Перспективы снижения солевого стресса на засоленных почвах путем фиторемедиации на территориях Карабахского экономического региона

Резюме

Статья посвящена перспективам снижения солевого стресса на засоленных почвах посредством фиторемедиации на территориях Карабахского экономического региона.

В статье рассматриваются биоорганические особенности растения амаранта, которое может быть использовано в качестве средства фиторемедиации, отмечается возможность его круглогодичного возделывания в климатических условиях Азербайджана, а так же нейтрализация почвенной среды (pH≈7) при интенсивном возделывании в течение 2-3 лет.

Teyfur Shahin Karimov
master,
Azerbaijan Cooperation University
Saadat Aslan Huseynova
doctor of philosophy in chemistry,
seadet_huseynova@mail.ru,
Ministry of Defense Industry of the Republic of Azerbaijan
National Aerospace Agency Institute of Ecology

Prospects of reducing salt stress in saline soils through phytoremidearation in the territories of the Karabakh economic region

Summary

The article is devoted to the prospects of reducing salt stress in saline soils through phytoremediation in the territories of the Karabakh economic region.

The article examines the bioorganic characteristics of the amaranth plant, which can be applied as a phytoremediation agent, and notes the possibility of its year-round cultivation in the climatic conditions of Azerbaijan and the fact that the process of neutralization of the soil environment (pH≈7) occurs during 2-3 years of intensive cultivation.


Aynurə Afiq qızı HÜSEYNOVA
magistrant,
huseynovaynure86@list.ru,
Sevinc Elman qızı KAZIMOVA
coğrafiya üzrə fəlsəfə doktoru,
sevinc.kazimova.elman@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA EKOSİSTEMİN BƏRPASI VƏ AQROEKOSİSTEMİN TƏŞKİLİ

Giriş

Təbii ekosistemlər insan müdaxiləsi olmadan yaranan və özünü tənzimləmə qabiliyyəti ilə xarakterizə olunan mürəkkəb ekoloji sistemlərdir (Məmmədov, 2010). Bu sistemlərdə biotik komponentlər – bitki, heyvan və mikroorqanizmlər, həmçinin abiotik komponentlər – torpaq, su, hava və iqlim elementləri qarşılıqlı təsir edir və uzunmüddətli tarazlıq vəziyyətini təmin edir. Aqroekosistemlər isə kənd təsərrüfatı məqsədilə insan tərəfindən yaradılan və idarə olunan ekosistemlərdir. Onların əsas funksiyası ərzaq, yem, texniki bitkilər və digər kənd təsərrüfatı məhsullarının istehsalıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonu timsalında regiounun tədqiq edilməsi və təbii ehtiyatlarının (eləcə də, torpaq, su və meşə örtüyünün) hərtərəfli öyrənilməsi gündəmdə olan məsələlərdən biridir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları (Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan) Azərbaycanın cənub-qərb hissəsində, Kiçik Qafqazın dağlıq relyefi ilə səciyyələnən strateji ərazilərində yerləşir. Bu bölgələr yalnız coğrafi mövqeyi ilə deyil, həm də ekoloji və iqtisadi potensialı ilə ölkənin önəmli resurs zonalarındandır (Mustafabəyli və b. 2024). Bölgələrin ekosistemləri dağlıq, təpəli və çay vadiləri ilə mürəkkəbləndiyindən biomüxtəliflik yüksəkdir. 44 günlük (27.09.2020 – 10.11.2020-ci il) II Qarabağ müharibəsi ərzində işğal olunmuş ərazilərin bütün ekosistemlərinə dəyən ziyanı saymaqla bitirmək mümkün deyil.



Şərqi Zəngəzur: İnzibati rayonlar üzrə ərazi (min km^3)

İşğaldan azad edilmiş ərazilərin bərpası, biomüxtəlifliyin qorunması və aqrar sektorun dirçəldilməsi Azərbaycanın ekologiya və iqtisadi siyasətində prioritet məsələdir. Müasir dövrdə regionda həyata keçirilən bərpa proqramları, həmçinin yaşıl enerji layihələri ekosistemlərin bərpasına xidmət edir və dayanıqlı iqtisadi inkişaf üçün baza yaradır (Salıfova 2025).

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ekosistemlərinin xüsusiyyətləri

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının relyefi mürəkkəb dağlıq və təpəli relyefdən ibarətdir. Yüksəkliklər 1000–3900 metr intervalında dəyişir ki, bu da mikroiqlimlərin formalaşmasına və müxtəlif ekosistem tiplərinin mövcudluğuna səbəb olur (Mustafabəyli və b.2024).

Qarabağ və Şərqi Zəngəzur bölgələrində iqlim submontan və dağlıq-subalpin tiplidir. Qış fəsli

soyuq və qarlı, yaz və yay fəsilləri isə mülayim və nisbətən quraq keçər. Ərazinin cənub yamaclarında iqlim daha quru, şimal yamaclarında isə rütubətli və yağışlıdır. Bu iqlim fərqləri, bölgənin florasını və faunasını müxtəlifləşdirir.

Kəlbəcər rayonu:

Kəlbəcər rayonu dağlıq relyefi, geniş meşəlikləri və zəngin bioloji müxtəlifliyi ilə seçilir. Rayonun Tərtər çayı vadisində yerləşməsi və hündürlük fərqləri (~1,500–3,800 m) ona çoxsəviyyəli landşaft quruluşu verir. Meşə örtüyü rayonda geniş yayılmışdır və rayon ərazisinin təxminən 30,000 hektar ərazisi meşələrlə örtülmüşdür. Flora növləri arasında enliyarpaqlı meşələr – palıd, fıstıq, vələs və kol-bitki qurşaqları geniş yayılmışdır. Dağlıq və yüksək ekspozisiyalı sahələrdə alp və subalp çəmənlikləri formalaşmışdır (Qəribov və b. 2021).

Alp çəmənliklər landşaftları. Bu landşaft qurşağı Qarabağ və Şərqi Zəngəzurun 2200 – 2400 m-dən yüksək olan və 3200 – 3500 m-ə qədər olan hündürlük zolağını təşkil edir. Qarabağ və Şərqi Zəngəzurun subalp dağ-çəmən landşaftlarının alp "xalı"larında müxtəlif yonca növləri kəklikotu (*Thimus*) və s. ilə yanaşı antropogen mənşəli müxtəlif pıtraq və qanqal bitkilərinin yayılması da səciyyəvidir.

Fauna baxımından, Kəlbəcər ayı, canavar, çöl donuzu, daşlıq dələsi, dağ keçisi, qartal və bəbir kimi növlər rayonun dağlıq-mərtəbəli habitatlarında qeydə alınmışdır. Məsələn, Qafqazda nəsli kəsilmək təhlükəsi olan 5 fauna növünün hər biri Kəlbəcər ərazisində müşahidə edilib.

Torpaq resursları baxımından, Kəlbəcərdə dağ-meşə torpaqları və podzolik-oxşar torpaq növləri üstünlük təşkil edir. Mənbələrdə qeyd olunur ki, işğal dövründə Qarabağ bölgəsində (Kəlbəcər daxil) meşəlik sahələrinin toplam 54,328 hektarı məhv edilmişdir. Kəlbəcər rayonu üçün məhv edilmiş meşə sahəsi 16,524 hektar təşkil etmişdir (Qəribov və b. 2021).

Laçın rayonu:

Laçın rayonu yüksək relyef və geniş meşə örtüyü ilə xarakterizə olunur. Mənbələrə əsasən, Laçın meşə fondu 33,285 hektar, meşə örtülü sahəsi 26,647 hektar təşkil edirdi. Kənd təsərrüfatına yararlı torpaq sahələri ~76,000 hektar səviyyəsindədir ki, bunların içərisində şum sahələri ~11,100 hektar, çoxillik bitkilər üçün ~300 hektar, biçənəklər ~5,200 hektar və otlaqlar ~56,700 hektar idi. Bu struktur Laçının kənd təsərrüfatı bazasının çeşidliliyini göstərir.

Dağ meşə landşaft qurşağı. Azərbaycan meşələrində 107 ağac və 288 kol bitkisi qeydə alınmışdır ki, bunların da əksəriyyəti tədqiq olunan Qarabağ və Şərqi Zəngəzur bölgələrində rast gəlinir. Kiçik Qafqazın Qarabağ və Şərqi Zəngəzur bölgələrində 600 – 1000 m-lik səviyyədə yayılan alçaqdağlıq meşələrdə əsas edifikator bitki iberiya palıdı və vələsdir. Orta dağlıq qurşaqda (1000 – 1600 m) ən çox yayılan landşaftyaradıcı ağac növləri fıstıq və vələs, nəhayət 1600 m-dən yüksəkdə olan yamaclarda şərq palıdı yayılmışdır (Qəribov və b. 2021).

Torpaq baxımından, Laçında meşə torpaqları və qəhvəyi-meşə torpaqları, bəzi boz dağ torpaqları mövcuddur.

Zəngilan rayonu:

Zəngilan rayonunun təbii meşə örtüyü ~11.5 min hektar təşkil etir, bu da rayonun sahəsinin təxminən 17%-i qədərdir. Meşə bərpası tədbirləri çərçivəsində Zəngilanda minalardan təmizlənmiş və bərpa üçün ayrılmış sahələrdə ~142 hektar səpin işləri görülmüş, yeni yaşıllıq üçün ~55 hektar ayrılmışdır. Torpaq növləri allüvial və dağ-meşə torpaqları qarışığıdır, lakin işğal zamanı çox hissəsi tahrib olunub. Çəmənlik və yaylaq sahələri rayonun dağlıq hissələrində yerləşirdi və heyvandarlıq üçün prioritet sahələr idi. Burada alp çəmənlərinə xarakterik olan kəklikotu və topal kimi bir sıra ot bitkiləri daha çox yayılmışdır. Ot bitkilərindən dovşantopalı, yuvaotu, qaymaqçiçəyi, şirpəncəsi və s. bitkilərinə rast gəlinir.

Cəbrayıl rayonu:

Cəbrayıl rayonunun düzənlik və vadiləri əkinçilik üçün əlverişli sahələr təşkil edir. İşğaldan azad olunmuş rayonlarda meşə bərpası çərçivəsində Cəbrayılda 72 hektar sahədə səpin-əkin işləri aparılmışdır və əlavə ~50 hektar yaşıllıq sahələrinin salınması planlaşdırılır. Torpaq növləri əsasən allüvial və əkin torpaqlarıdır. İşğal dövründə bu torpaqlar bir sıra sahələrdə partlayıcı maddələrlə çirklənmişdir - rekultivasiya tələb olunur (Əsgərova 2024).

Qubadlı rayonu:

Qubadlı rayonunda meşə və kol örtükləri ilə yanaşı, otlaq və çəmən tipli sahələr də mövcuddur. Qubadlıda meşə bərpasına dair planlar çərçivəsində ~70 hektar sahə artıq səpinlə bərpa edilmişdir. Flora və fauna baxımından, rayon "Qırmızı Kitab"a daxil olmuş flora və fauna növlərinin izlənildiyi sahələr arasında olub; işğal illərində Laçın, Qubadlı və Arazboyu yasaqlıqları daxilində 69 flora və 24 fauna növünün qorunduğu bildirilir. Torpaq tipləri Qubadlıda boz torpaqlar, meşə torpaqları və allüvial düzənlik torpaqları qarışığıdır. İşğal dövründə bir çox sahə deqradasiyaya uğramışdır.

Qarabağ ərazilərində hidrosferin əsas komponentləri yerüstü təbii və süni su hövzələri, qrunt sularıdır. Regionun çay şəbəkəsinə Tərtərçay, Qarqarçay, Köndələnçay, Xaçınçay daxildir. Füzuli rayonu ərazisindən keçən Araz çayını da bu şəbəkəyə aid etmək olar.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının aqroekosistemlərinin təşkili və idarə edilməsi

Qarabağ və Şərqi Zəngəzur bölgələrində torpaq və su resurslarının davamlı istifadəsi aqroekosistemlərin səmərəli fəaliyyətinin əsasını təşkil edir. Torpaqların münbitliyi müxtəlif olsa da, əkinçilik üçün əlverişli zonalar xüsusilə çay vadilərində və alçaq yamaclarda toplanır (Məmmədov və b. 2005).

Su ehtiyatlarının idarəsi ekosistemlərin dayanıqlığı üçün kritikdir. Tərtər, Araz və Həkəri çayları həm kənd təsərrüfatı, həm içməli su təminatı, həm də enerji istehsalı üçün istifadə olunur. Regionda suvarma sistemlərinin modernləşdirilməsi və səmərəli istifadəsi aqroekosistemlərin davamlı inkişafına birbaşa təsir edir (Salıfova 2025).

Bölgədə aqroekosistemlərin əsas fəaliyyət sahələrindən biri əkinçilikdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında taxıl, meyvə, tərəvəz və üzüm yetişdirilməsi üçün əlverişli şərait mövcuddur. Qarabağ və Şərqi Zəngəzur bölgələrinin 100 m- dən – 300 m-ə qədər olan səviyyəli düzənlik ərazilərindəki boş sahələrdə çoxtoxumlu adi yovşan (*Artemisia Vulgaris* L.) növünün biokütləsini artırmaq mümkündür. Bu yolla, həm ot örtüyünün biokütləsinin artırılması ilə səhralaşmaya qarşı müəyyən qədər mübarizə aparmaq və həm də həmin rayonlarda mal-qara üçün yem ehtiyatının artırılmasına qismən nail olmaq mümkündür.

Aqroekosistem baxımından, Kəlbəcərdə əkinə yararlı torpaq sahələri işğaldan əvvəl təxminən 90,000 hektar səviyyəsində qiymətləndirilmişdir ki, bunların ~83,000 hektarı otlaq və biçənək sahəsi kimi istifadə olunurdu. Mal-qaranın yəni yaylaq-otlaq sistemlərinin formalaşması üçün bu sahələr kritik əhəmiyyət kəsb edir. Lakin hazırda əkinçilik və heyvandarlığın bərpası üçün torpaq rekultivasiyası, eroziya nəzarəti və suvarma sistemlərinin yenidən qurulması vacibdir.

Aqroekosistem baxımından, Laçında heyvandarlıq əhəmiyyətli idi: 1990-cı illərdə təxminən 40,000 iribuynuzlu mal və ~240,000 qoyun-keçi saxlanırdı. Bitkiçilikdə dənli paxlalılar əsas yer tuturdu və 2,450 ton səviyyəsində istehsal qeydə alınmışdı. Hazırda Laçın rayonunda meşə bərpası çərçivəsində 2025-ci ildə ~240 hektar meşə sahəsi yenidən yaşıllaşdırılacağı planlaşdırılmışdır. Laçın üçün əsas bərpa istiqamətləri meşə koridorlarının yenidən qurulması, eroziv sahələrin stabilləşdirilməsi, bioloji əlaqə koridorlarının təmin olunması və kənd təsərrüfatı sahələrinin rekultivasiyasıdır (Əsgərova 2024).

Zəngilan rayonunda bərpa üçün əsas tədbirlər mina-təmizlənmiş sahələrin rekultivasiyası, riparian zonasiyanın bərpası, suvarma sistemlərinin yenidən qurulması və əkin torpaqlarının azaldılmış sahələrinin canlandırılması kimi istiqamətləri əhatə etməlidir.

Aqroekosistem baxımından, Cəbrayılda əkin sahələrində taxıl, tərəvəzçilik və bağçılıq potensialı yüksəkdir.Heyvandarlıq üçün isə otlaq və biçənək sahələrinin bərpası vacibdir. Reabilitasiya istiqamətləri arasında suvarma infrastrukturlarının bərpası, çirklənmiş torpaqların fitoremediasiya üsulları ilə təmizlənməsi və əkin sistemlərinin planlaşdırılması daxildir.

Aqroekosistem baxımından, tarixi dövrlərdə tütünçülük və çoxillik əkmələr Qubadlıda yayılmışdı; bərpa dövründə bu sahələrin yenidən qurulması planlaşdırılır. Bərpa prioritetləri Qubadlıda meşə örtüyünün genişləndirilməsi, agroforestry sistemlərinin tətbiqi, otlaq-çəmənlik sistemlərinin normallaşdırılması və bioloji müxtəlifliyin qorunması istiqamətində qurulmalıdır (Əsgərova 2024).

Əkinçilikdə müasir aqrotexniki metodların tətbiqi məhsuldarlığı artırmaqla yanaşı, torpaq eroziyasını və su itkisini minimuma endirir. Bu məqsədlə damcı üsulu ilə suvarma, bitki dövriyyəsinin optimallaşdırılması və üzvi gübrələrin istifadəsi kimi texnologiyalar tətbiq olunur.

Heyvandarlıq bölgənin aqrar iqtisadiyyatında vacib yer tutur. Dağlıq və təpəli relyef heyvandarlıq üçün həm əlverişli otlaqlar, həm də təbii bitki örtüyü təmin edir. Ərazilərdə qoyun, malqara və atçılıq inkişaf etdirilir.

Ekosistemlərin bərpası və dayanıqlı inkişaf

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında meşəbərpa proqramları ekosistemlərin bərpasında əsas tədbirlərdən biridir. İşğaldan azad edilmiş ərazilərdə minlərlə hektar sahədə meşə əkinləri aparılmış, endemik və nadir bitki növlərinin bərpası prioritet olaraq müəyyən edilmişdir. Regionda bərpa olunan enerji mənbələrinin istifadəsi ekosistemlərin dayanıqlı inkişafına töhfə verir. 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzur ərazilərində 32 su-elektrik stansiyası istifadəyə verilmiş və təxminən 550 milyon kilovat-saat yaşıl enerji istehsal olunmuşdur (Salıfova 2025). Bu layihələr, ətraf mühitə minimal təsir göstərən enerji istehsalını təmin etməklə, həmçinin aqroekosistemlərin enerji təminatını dayanıqlı edir.

Su ehtiyatlarının dayanıqlı idarəsi bərpa prosesində prioritet sahələrdən biridir. Çayların və yeraltı suların mühafizəsi, həmçinin suvarma sistemlərinin modernləşdirilməsi, ekosistemlərin funksionallığını bərpa etməyə imkan verir (Məmmədov və b. 2005).

Ekosistemlərin bərpası yalnız təbii resursların qorunması ilə məhdudlaşmır. Eyni zamanda, regionun sosial-iqtisadi inkişafına da təsir göstərir. Aqrar istehsalın bərpası, yeni iş yerlərinin yaradılması və yerli əhalinin məşğulluğu bərpa layihələrinin vacib hissəsidir. Bu yanaşma, həm ekosistemlərin bərpasını, həm də bölgənin davamlı iqtisadi inkişafını təmin edir (Bayramov 2024).

Nəticə

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ekosistemləri və aqroekosistemləri Azərbaycanın ekoloji və iqtisadi təhlükəsizliyi üçün strateji əhəmiyyət kəsb edir. Bölgələrin mürəkkəb relyefi, submontan və dağlıq-subalpin iqlimi, zəngin torpaq və su resursları, həmçinin yüksək biomüxtəlifliyi onların unikal ekosistemlər kimi qorunmasını zəruri edir.

Münaqişə dövründə ekosistemlərə ciddi ziyan dəymiş, torpaq eroziyası, su ehtiyatlarının azalması və biomüxtəlifliyin itməsi müşahidə olunmuşdur. Bu səbəbdən ekosistemlərin bərpası və dayanıqlı idarə edilməsi prioritet məsələdir. Bərpa proqramları çərçivəsində minlərlə hektar meşə əkinləri aparılmış, nadir və endemik bitki növləri qorunmuş, suvarma və enerji infrastrukturu modernləşdirilmişdir.

Ekosistemlərin bərpası yalnız təbii resursların qorunmasını deyil, həm də sosial-iqtisadi inkişafı stimullaşdırır. Yerli əhalinin məşğulluğu, kənd təsərrüfatı istehsalının bərpası və yeni yaşıl enerji layihələrinin həyata keçirilməsi ekosistemlərin dayanıqlı inkişafını dəstəkləyir. Nəticə etibarilə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ekosistemlərinin və aqroekosistemlərinin bərpası və davamlı idarə olunması elmi əsaslarla aparılmalı, həm ekoloji, həm iqtisadi, həm də sosial aspektləri nəzərə alınmalıdır. Bu, Azərbaycanın dayanıqlı inkişaf strategiyasının vacib hissəsini təşkil edir.

ƏDƏBİYYAT

1. Bayramov V. “Qarabağ və Şərqi Zəngəzur “yaşıl dünya” modeli” Xalq Qəzeti.2024 https://www.xalqqazeti.az/az/iqtisadiyyat/179334-qarabag-serqi-zengezurun-yasil-dunyasi?utm_source=chatgpt.com
2. Coğrafi tədqiqatlar və ekosistem monitorinqi. AZERTAG.az. 2025 https://ereforms.gov.az/az/ekspert-yazilari/qarabag-ve-serqi-zengezurun-berpasi-en-vacib-prioritetlerden-biridir-121?utm_source=chatgpt.com
3. Əsgərova M. “Yaşıl dünya və Qarabağ: ekoloji yenidənqurma və dayanıqlı inkişaf” Yaşıl dünyanın Qarabağ modeli Elektron məqalə toplusu Bakı, 2024.
4. Qəribov C., Həbilov A. “İqlim Dəyişikliyinin Meşələrə Təsirləri və Davamlı Meşə İdarəetməsi” Hesabat, Bakı, 2021

5. Mehralı L. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ekosistemlərin ziyanı. 2024 SES Qəzeti. https://sesqazeti.az/news/economy/1118070.html?utm_source=chatgpt.com
6. Məmmədov, Q. (2005). Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı: "Elm" nəşriyyatı.
7. Məmmədov, Q. (2010). Aqroekologiya. Bakı: "Elm" nəşriyyatı.
8. Mustafabəyli H., Qəhramanov M. "Qarabağ və Şərqi Zəngəzur bölgələrinin landşaftlarının bərpası və biomüxtəlifliyin qorunması" Qlobal iqlim dəyişkənliyinin ekoloji mühitə təsiri konfrans materialları 2024
9. Nazimqızı Ş. "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda çöl tədqiqat işləri" Report.az.2025 https://report.az/elm-ve-tehsil-xeberleri/qarabag-ve-serqi-zengezur-iqtisadi-rayonunda-col-tedqiqat-isleri-aparilib?utm_source=chatgpt.com
10. Salıfova T. "Qarabağ və Şərqi Zəngəzurun bərpası ən vacib prioritetlərdən biridir" 2025. https://ereforms.gov.az/az/ekspert-yazilari/qarabag-ve-serqi-zengezurun-berpasi-en-vacib-prioritetlerden-biridir-121?utm_source=chatgpt.com

Айнура Афиг кызы Гусейнова
магистрант,
huseynovaynure86@list.ru,
Севиндж Эльман кызы Казимова
доктор философии по географии,
sevinc.kazimova.elman@gmail.com,
Азербайджанский Университет Кооперации

Восстановление экосистемы и организация агроэкосистемы в Карабахском и Восточно-Зангезурском экономических районах

Резюме

Карабахский и Восточно-Зангезурский экономические районы, характеризующиеся сложным горным рельефом, субмонтанно-субальпийским климатом, а также богатыми земельными и водными ресурсами, формируют стратегические экологические зоны Азербайджана. В период конфликта экосистемам был нанесён серьёзный ущерб, что привело к эрозии почв, сокращению водных ресурсов и утрате биоразнообразия. В рамках программ восстановления были проведены масштабные лесовосстановительные работы на тысячах гектаров, сохранены эндемичные виды растений, модернизирована оросительная и энергетическая инфраструктура. В данной статье анализируются общие характеристики экосистем Карабахского и Восточно-Зангезурского экономических районов, организация и управление агроэкосистемами, а также перспективы восстановления и устойчивого развития экосистем.

Aynura Afig Huseynova
master,
huseynovaynure86@list.ru,
Sevinj Elman Kazimova
doctor of philosophy in geography,
sevinc.kazimova.elman@gmail.com,
Azerbaijan Cooperation University

Restoration of ecosystems and development of agroecosystems in the Karabakh and Eastern Zangezur economic regions

Summary

The Karabakh and Eastern Zangezur economic regions, characterized by complex mountainous relief, submontane–subalpine climate, and rich soil and water resources, constitute strategic ecological zones of Azerbaijan. During the conflict period, the ecosystems suffered severe degradation, including soil erosion, depletion of water resources, and loss of biodiversity. Within the

framework of restoration programs, thousands of hectares of forests have been replanted, endemic plant species have been conserved, and irrigation and energy infrastructure has been modernized. This article analyzes the general characteristics of the ecosystems of the Karabakh and Eastern Zangezur economic regions, the organization and management of agroecosystems, as well as the prospects for ecosystem restoration and sustainable development.

Rəvan Arzu oğlu ŞƏRBƏTOV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Müslümat Allahverdi qızı ALLAHVERDİYEVA
iqtisad elmləri doktoru,
allahverdiyeva_muslumat@mail.ru,
Azərbaycan Dövlət İqtisad Universiteti

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ EKOLOJİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Giriş

İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması Azərbaycan Respublikasının strateji inkişaf prioritetləri sırasındadır. Bu ərazilər uzun illər işğal altında qaldığı üçün təbii sərvətlərin istismarı, meşələrin qırılması, su ehtiyatlarının çirklənməsi və torpaqların deqradasiyası kimi ekoloji problemlər yaranmışdır. 2020-ci ildə Vətən müharibəsindən sonra azad edilən Qarabağ və Şərqi Zəngəzur bölgələrində ekoloji inkişaf prosesi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

1. **Ekoloji zərərin miqyası və səbəbləri.** İşğal dövründə təbii resursların nəzarətsiz istismarı, meşələrin qırılması, sənaye və məişət tullantılarının toplanması ekosistemə ciddi zərər vurmuşdur. Meşə örtüyü 60%-ə qədər azalmış, su hövzələrinə kimyəvi tullantılar axıdılmış, torpaqlar minalanmış və yararsız hala salınmışdır. Xüsusilə Zəngilan, Cəbrayıl, Füzuli və Laçın rayonlarında ekoloji vəziyyət kritik dərəcədə pisləşmişdir.

2. **Ətraf mühitin bərpası istiqamətləri.** Azərbaycan dövləti tərəfindən qəbul edilən "Böyük Qayıdış" proqramında ekoloji bərpa əsas komponentlərdən biridir. Əsas istiqamətlər aşağıdakılardır:

- Meşə sahələrinin bərpası və yaşıllaşdırma tədbirləri;
- Torpaq resurslarının rekultivasiyası və minalardan təmizlənməsi;
- Su hövzələrinin ekoloji vəziyyətinin yaxşılaşdırılması;
- Tullantıların idarə olunması sisteminin yaradılması;
- Ətraf mühitin monitorinqi və biomüxtəlifliyin qorunması.

Bu istiqamətlər çərçivəsində artıq ilk layihələr həyata keçirilmiş, Şuşa, Zəngilan və Füzuli rayonlarında genişmiqyaslı yaşıllaşdırma işlərinə başlanılmışdır.

3. "Yaşıl enerji zonası" konsepsiyası. Azərbaycanın işğaldan azad olunmuş əraziləri ölkənin ilk "yaşıl enerji zonası" kimi formalaşdırılır. Bu yanaşma dayanıqlı inkişaf prinsiplərinə əsaslanır və bölgənin enerji təminatının bərpa olunan mənbələr vasitəsilə həyata keçirilməsini nəzərdə tutur. Zəngilan və Cəbrayıl rayonlarında günəş və külək enerjisi potensialı yüksək qiymətləndirilmişdir. Artıq bir sıra layihələr üzrə beynəlxalq şirkətlərlə müqavilələr imzalanmışdır. Bundan əlavə, enerji səmərəliliyi və karbon emissiyalarının azaldılması sahəsində pilot layihələr tətbiq olunur. Bu proses həm ekoloji, həm də sosial-iqtisadi baxımdan bölgənin inkişafına töhfə verir.

4. **Biomüxtəlifliyin bərpası və ekoturizm**. Qarabağ və Şərqi Zəngəzur təbii iqlim müxtəlifliyinə görə zəngin flora və faunaya malikdir. İşğal dövründə bu biomüxtəlifliyin böyük hissəsi məhv edilmişdir. Hazırda Laçın, Qubadlı və Kəlbəcər rayonlarında təbii parkların və yasaqlıqların bərpası istiqamətində addımlar atılır. Gələcəkdə "Qarabağ Milli Parkı"nın yaradılması planlaşdırılır. Bununla yanaşı, ekoturizmin inkişafı da ekoloji bərpa prosesinin bir hissəsidir. Təmiz təbiət,

dağ relyefi və iqlim xüsusiyyətləri ekoturizm marşrutlarının formalaşdırılması üçün əlverişli şərait yaradır.

Cədvəl 1.

İşğaldan azad olunmuş ərazilərdə ekoloji bərpa istiqamətləri və nəticələri

Ərazi (rayon)	Əsas ekoloji problemlər	Bərpa tədbirləri	Gözlənilən nəticələr (2025–2030)
Füzuli	Torpaqların minalanması, suvarma sistemlərinin sıradan çıxması	Minalardan təmizlənmə, torpaq rekultivasiyası, su infrastrukturunun bərpası	Kənd təsərrüfatı üçün 15 min ha torpağın istifadəyə verilməsi
Zəngilan	Meşə örtüyünün azalması, Oxçuçayda su çirklənməsi	"Yaşıl enerji zonası" layihəsi, meşələrin bərpası, su təmizləyici qurğular	Karbon emissiyalarının azalması, təmiz su təminatı
Laçın	Torpaq eroziyası, otlaq sahələrinin sıradan çıxması	Torpaqların bərpası, yeni meşə zolaqlarının salınması	Biomüxtəlifliyin bərpası və heyvandarlığın inkişafı
Şuşa	Meşə və yaşıllıqların məhv olması, tullantıların yığılması	Şəhər ətrafında yaşıllaşdırma və tullantıların idarə sistemi	Ekoturizm və sağlam şəhər mühiti
Cəbrayıl	Sənaye tullantıları, təbii su mənbələrinin zədələnməsi	Günəş və külək enerjisi layihələri, çay hövzələrinin təmizlənməsi	"Yaşıl enerji" bazasının formalaşması
Kəlbəcər	Dağ ekosistemlərinin pozulması, qeyri-qanuni mədən fəaliyyəti	Mədənlərin ekoloji nəzarətə götürülməsi, təbii parkların bərpası	Dağ ekosistemlərinin bərpası və ekoturizm potensialının artması

Qeyd: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa tədbirləri yalnız ekoloji deyil, həm də iqtisadi və sosial baxımdan əhəmiyyətlidir. "Yaşıl enerji zonası" və meşə bərpa layihələri regionun dayanıqlı inkişaf modelinə keçidini təmin edir. 2025–2030-cu illərdə bu ərazilərdə ekoturizm**,** bərpa olunan enerji və kənd təsərrüfatı sahələrinin intensiv inkişafı proqnozlaşdırılır.

5. Beynəlxalq əməkdaşlıq və idarəetmə mexanizmləri. Ekoloji inkişaf prosesində beynəlxalq təşkilatlarla əməkdaşlıq xüsusi yer tutur. Azərbaycan BMT-nin İnkişaf Proqramı (UNDP), FAO və Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birgə layihələr həyata keçirir. Bu əməkdaşlıq çərçivəsində regionun ekoloji xəritələşdirilməsi, su ehtiyatlarının idarə olunması və biomüxtəlifliyin qorunması istiqamətində tədbirlər görülür. Eyni zamanda, rəqəmsal ekoloji idarəetmə sistemi yaradılaraq, peyk və dron müşahidələri vasitəsilə ətraf mühitin monitorinqi aparılır.

Nəticə və təkliflər

İşğaldan azad olunmuş ərazilərdə ekoloji inkişaf prosesi yalnız ətraf mühitin bərpası deyil, həm də dayanıqlı iqtisadi modelin qurulmasına yönəlmişdir. Yaşıl enerji, ekoturizm və təbiətin mühafizəsi sahəsində görülən tədbirlər Azərbaycanın ümumi ekoloji siyasətinə inteqrasiya olunur.

Təklif olunur ki: ekoloji maarifləndirmə proqramları genişləndirilsin, biomüxtəlifliyin bərpası üzrə regional mərkəz yaradılsın, bərpa olunan enerji layihələrində yerli icmaların iştirakı təmin edilsin, "Yaşıl iqtisadiyyat" modeli üzrə tədris və elmi-tədqiqatlar artırılsın.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi (2023). Qarabağ və Şərqi Zəngəzurda ekoloji bərpa hesabatı. Bakı.
2. BMT İnkişaf Proqramı (2022). Qarabağ regionunda dayanıqlı inkişaf və ekoloji bərpa. New York.
3. Dünya Bankı (2021). Green Recovery and Environmental Resilience in Post-Conflict Areas. Washington, DC.
4. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası (2021). Böyük Qayıdış Proqramı:

strateji istiqamətlər. Bakı.
5. FAO (2023). Environmental rehabilitation and sustainable agriculture inliberated territories of Azerbaijan. Rome.

Раван Арзу оглы Шарбатов
магистрант,
Азербайджанский Университет Кооперации
Муслимат Аллахверди кызы Аллахвердиева
доктор экономических наук,
allahverdiyeva_muslumat@mail.ru,
Азербайджанский Государственный Экономический Университет

Экологические особенности развития освобождённых территорий

Резюме

Восстановление и реконструкция освобождённых территорий являются одними из стратегических приоритетов развития Азербайджанской Республики. Из-за многолетней оккупации на этих землях возникли серьёзные экологические проблемы, такие как истощение природных ресурсов, вырубка лесов, загрязнение водных ресурсов и деградация почв. После Отечественной войны 2020 года процесс экологического развития в освобождённых районах Карабаха и Восточного Зангезура стал одним из ключевых направлений государственной политики.

Ravan Arzu Sharbatov
master,
Azerbaijan University Cooperation
Muslimat Allahverdi Allahverdieva
doctor of economic sciences,
allahverdiyeva_muslumat@mail.ru,
Azerbaijan State University of Economics

Ecological development features of the liberated territories

Summary

The restoration and reconstruction of the liberated territories are among the strategic development priorities of the Republic of Azerbaijan. Due to the long-term occupation, these lands faced serious environmental problems such as the exploitation of natural resources, deforestation, water pollution, and soil degradation. Following the Patriotic War of 2020, the process of ecological development in the liberated regions of Karabakh and Eastern Zangezur has become one of the main directions of state policy.

Mehriban Gündüz qızı FEYZİYEVA
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Pikəxanım Tahir qızı XUDİYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət İqtisad Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR: TƏBİİ RESURSLARIN İSTİFADƏSİ, PROBLEMLƏRİ VƏ GƏLƏCƏK PERSPEKTİVLƏR

Qarabağ Azərbaycanın ən gözəl regionlarından biridir. Füsunkar mənzərəli təbiəti, zəngin mənəvi və mədəni ənənələri olan Qarabağ bir çox görkəmli azərbaycanlı alimlərin, şairlərin, yazıçıların, sənətkarların, musiqiçilərin və xanəndələrin doğulduğu yerdir. Qarabağ Azərbaycan musiqi-

sinin beşiyidir. Azərbaycan xalq folklorunun ən qədim, ən nadir nümunələrindən olan yüzlərlə musiqi əsərləri Qarabağda yaradılmışdır. [4].

Qarabağ tarixi ərzində kənd təsərrüfatının, xüsusilə də üzümçülük, şərabçılıq, taxılçılıq, qoyunçuluq və bağçılıq sahələrinin mərkəzi olub. Ağdam "Qafqazın şərab paytaxtı" adlandırılırdı, Füzulidə qoyunçuluq təsərrüfatları, Cəbrayılda əncir bağları mövcud idi.

Zəngilan, Qubadlı və Laçın rayonları isə meşə zənginliyi, dağ-çəmən yaylaqları, balçılıq ənənələri, həmçinin mis, qızıl, daş duzu kimi sərvətlərlə zəngindir. Bu bölgə həm də ekoturizm, yaşıl enerji, alternativ iqtisadiyyat üçün əvəzolunmaz imkanlar təqdim edir.

Amma bu təbii sərvətlərin üstündə 30 illik bir ekoloji, iqtisadi və sosial işğal izləri qalır. Qarabağ və Şərqi Zəngəzur – eyni zamanda həm yaralı, həm şəfa tapmağa ən çox layiq olan torpaqlardır.

İşğal zamanı bütün iqtisadi infrastruktur – yollar, enerji, rabitə, su, kanalizasiya, internet şəbəkələri ya məhv edilib, ya da istifadəyə yararsız hala düşüb. Bu gün regionun iqtisadi inteqrasiyası üçün bu infrastruktur müasir texnologiyalarla sıfırdan bərpa olunur. Eyni zamanda bu layihələr yerli məşğulluğa da töhfə verir. [2, s. 2].

Mina təhlükəsi, regional risklər və keçmişin dağıntıları investorlar üçün hələ də narahatedici faktorlardır. Lakin Azərbaycan dövləti tərəfindən təklif edilən vergi güzəştləri, sığorta zəmanətləri, xüsusi iqtisadi zonalar və PPP (Dövlət-Özəl Tərəfdaşlıq) modelləri bu riski ciddi şəkildə azaldır.

Zəngəzur iqtisadi rayonu zəngin təbii resursları və əlverişli coğrafi mövqeyi ilə Azərbaycanın regionlararası iqtisadi inkişafında önəmli rol oynayır. Bölgənin meşə ehtiyatları, mineral sərvətləri və kənd təsərrüfatı potensialı yerli iqtisadiyyatın dayanıqlı inkişafına şərait yaradır. Lakin uzun müddət davam edən işğal və ekoloji problemlər iqtisadi fəaliyyətin məhdudlaşmasına səbəb olub. Bugünkü bərpa və yenidənqurma prosesləri, xüsusilə yaşıl enerji və ekoturizm sahələrində yeni imkanlar açır. Dövlət proqramları ilə dəstəklənən infrastruktur layihələri regionun sosial-iqtisadi inteqrasiyasını sürətləndirir və investisiya cəlb edir. [3, s. 45-47].

"Böyük Qayıdış" yalnız fiziki qayıdış deyil – bu, tam həyat sisteminin bərpasıdır. İnsanlar doğma torpaqlarına qayıtmaq üçün evlərlə yanaşı məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, iş yerləri, ictimai xidmətlər və təhlükəsizlik tələb edirlər. Əgər bu sosial infrastruktur təmin olunmazsa, qayıdış yalnız kağız üzərində baş verəcək.

Bu bölgədə 30 illik demoqrafik və mədəni boşluq yaranıb. İndi Qarabağ və Şərqi Zəngəzurda yeni, çağdaş, vətənpərvər və multikultural Azərbaycan kimliyi formalaşdırılmalıdır. Bu, həm də nəsillərarası yaddaşın yenidən birləşməsi, kökə dönüş, mədəniyyətin reabilitasiyası deməkdir.

Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır. Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və konsepsiyası hazırlanmışdır. Kəlbəcərdə ənənəvi turizmdən əlavə, qış və sağlamlıq turizminin inkişafı mümkündür. Mədəniyyət beşiyi hesab olunan Şuşada əsasən festivalların keçirilməsi, Ağdamda "dark" – yəni işğalın nəticələrinin çılpaq şəkildə göstərilməsi və işgüzar turizm nəzərdə tutulub. Xocavənd rayonu da xüsusi turizm potensialına malikdir. Tuğ və Hadrutun şərab marşrutuna salınması daha uyğundur. Məşhur Azıx mağarası, Tağlar mağarası da bu ərazidə yerləşir. Suqovuşanla bağlı da müəyyən planlar mövcuddur. [5].

Zəngilan beynəlxalq hava limanının, Füzuli-Xocavənd avtomobil yolunun və Tərtər-Şuşa dəmiryolunun bərpası regionun nəqliyyat potensialını xeyli artırır.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, Qarabağda bitən bir çox ağac və kol bitkiləri məhv olmaq üzrədir. Onların arasında püstə, dərman stiraksı, Araz palıdı, yalanqoz, Şərq çinarı, adi nar, meşə üzümü, pırkal, şümşad, Eldar şamı, adi xurma, söyüdyarpaq armud və s. var. Regionda bitən 460-dan artıq yabanı və kol bitkilərinin 70-i endemikdir, yəni dünyanın başqa heç bir yerində təbii mühitdə bitmir.İşğal zamanı meşə qırılması, qanunsuz ovçuluq, çayların istiqamətinin dəyişdirilməsi, mədən tullantılarının ətrafa atılması nəticəsində Qarabağın və Zəngəzurun ekoloji sistemi dağıdılıb. Minalar torpağın strukturunu pozur, su mənbələrini zəhərləyir. [4]. Bu ərazilərin bərpası yalnız texniki yox, ekoloji baxımdan da zərərsiz və davamlı şəkildə aparılmalıdır.

Qarabağ və Zəngəzur günəş, külək və hidroenerji potensialına görə Azərbaycanın ən əlverişli bölgələrindəndir. Zəngilan, Şuşa, Laçın kimi rayonlar artıq "yaşıl enerji zonası" elan edilib. Bu bölgələrdə alternativ enerji layihələrinin gerçəkləşməsi Azərbaycanı enerji ixracatçısına çevirə bilər.

Qubadlının "Xanlıq" şəlaləsi, Laçının meşələri, Zəngilanın çay dərələri ekoturizm üçün unikal resurslardır. Əgər düzgün idarəetmə və ekoloji normativlər tətbiq edilərsə, bu bölgələr həm turizm gəliri, həm də təbiətin qorunması üçün modelə çevrilə bilər.

Nəticə

Qarabağ və Şərqi Zəngəzurun 30 illik işğaldan sonra bərpası və inkişafı, Azərbaycan üçün yalnız tarixi ədalətin bərpası deyil, həm də davamlı iqtisadi, ekoloji və sosial dirçəliş modelinin yaradılması imkanıdır. Potensialını və ehtiyaclarını nəzərə alaraq, ənənəvi iqtisadi modelləri rəqəmsal və yaşıl texnologiyalarla sintez edən, ixraca yönəlmiş, davamlı yeni iqtisadi modelin çərçivəsi işlənib hazırlanmışdır. Fiziki qayıdışın ("Böyük Qayıdış") uğurlu olması üçün yalnız mənzillərin deyil, həm də tam həyat mühitinin (təhsil, səhiyyə, mədəniyyət, iş) bərpasının zəruriliyi elmi cəhətdən əsaslandırılmışdır. Ekoloji bərpanın (minaların təmizlənməsi, meşələrin bərpası) iqtisadi inkişafın (yaşıl enerji, ekoturizm) əsas şərti və təməl daşı olduğu nəticəsinə gəlinmişdir. Regionun zəngin təbii sərvətləri, kənd təsərrüfatı potensialı, yaşıl enerji və ekoturizm imkanları, müasir infrastrukturun qurulması, sosial reinteqrasiya və ekoloji bərpa tədbirləri əsasında formalaşdırılan yeni inkişaf modeli, ölkənin "ağıllı iqtisadiyyat" və "yaşıl enerji" stratejilərinin təcili həyata keçirilməsini tələb edir. Bu proses yalnız fiziki bərpa deyil, həm də mədəni irsin, demoqrafik balansın və multikultural kimliyin dirçəlişi ilə mümkün olacaq, Azərbaycanı regional enerji və turizm mərkəzinə çevirə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti yanında Qarabağ bölgəsinin iqtisadi rayonlarının (Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları) sosial-iqtisadi inkişafı Dövlət Proqramı.2025
2. "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mövcud ekoloji vəziyyət: Müasir çağırışlar və problemlərin həlli yolları" adlı konfransda, AMEA-nın Gəncə bölməsinin sədri akademik Fuad Əliyevin çıxışı, 2025
3. İsa Həbibbəyli, "Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının torpaq və su resursları: problemlər və perspektivlər", 2025
4. http ://story.karabakh.center/az/qarabagda-ekosid
5. http ://azerbaijan.az/related-information/223

Мехрибан Гюндуз кызы Фейзиева
магистрант,
Азербайджанский Университет Кооперации
Пикаханым Тахир кызы Худиева
доктор философии по экономике, доцент,
Азербайджанский Государственный Экономический Университет

Карабах и Восточный Зангезур: использование природных ресурсов, проблемы и перспективы

Резюме

Это исследование анализирует многоаспектный процесс восстановления и возрождения Карабаха и Восточного Зангезура, которые были освобождены после 30 лет оккупации. Исследование изучает исторические и экономические характеристики двух основных регионов – Карабах (центр сельского хозяйства) и Восточный Зангезур (потенциал природных ресурсов и экотуризма), выявляя глубокие экологические, экономические и социальные ущербы, вызванные оккупацией. В исследовании предлагается новая модель для будущего

развития региона, которая будет строиться «с нуля». Эта модель включает трансформацию традиционного сельского хозяйства в «умную экономику» и «зеленую энергетику», создание современной инфраструктуры, обеспечение социальной реинтеграции и реализацию экологического восстановления. В конечном итоге исследование приходит к выводу, что эти регионы могут не только быть восстановлены, но и стать ведущей моделью устойчивого развития в Азербайджане.

Mehrıban Gunduz Feyzıyeva
master,
Azerbaijan University of Cooperation
Pikakhanim Tahir Khudiyeva
doctor of philosophy in economics, associate professor,
Azerbaijan State University of Economics

Karabakh and Eastern Zangezur: natural resources use, problems and future prospects

Summary

This study analyzes the multifaceted restoration and revitalization process of the Karabakh and Eastern Zangezur regions, which were liberated after 30 years of occupation. The research examines the historical and economic characteristics of the two main regions – Karabakh (agriculture center) and Eastern Zangezur (natural resources and ecotourism potential), while identifying the deep ecological, economic, and social damages caused by the occupation. The study proposes a new model for the future development of the region, which will be built "from scratch." This model includes the transformation of traditional agriculture into a "smart economy" and "green energy," the establishment of modern infrastructure, ensuring social reintegration, and the implementation of ecological restoration. Ultimately, the study concludes that these regions have the potential to not only be restored but also become a leading model for sustainable development in Azerbaijan.

Lalə Mikayıl qızı NƏSİRLİ
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Pikəxanım Tahir qızı XUDİYEVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət İqtisad Universiteti

BƏSİTÇAY DÖVLƏT TƏBİƏT QORUĞUNUN EKOLOJİ VƏ İQTİSADİ ƏHƏMİYYƏTİ

Qarabağ regionunda ekoloji və iqtisadi problemlər kompleks xarakter daşıyaraq uzunmüddətli hərbi münaqişələrin, antropogen təsirlərin və sosial-iqtisadi qeyri-sabitliyin nəticəsi kimi formalaşmışdır. Müharibə illərində meşə ekosisteminin deqradasiyası, su hövzələrinin kimyəvi və bioloji çirklənməsi, həmçinin torpaq resruslarının minalarla zədələnməsi regionun ekoloji tarazlığını pozmuşdur. Bunlarla yanaşı, sənaye və kənd təsərrüfatı infrastrukturlarının dağılması, iqtisadi əlaqələrin kəsilməsi və əhalinin məcburi miqrasiyası bölgənin sosial- iqtisadi potensialını xeyli zəiflətmişdir. Hazırda Qarabağda aparılan ekoloji və iqtisadi bərpa tədbirləri regionun davamlı inkişafının təmin etməkdədir. Azərbaycan Respublikasının təbii irsinin mühüm hissəsi olan Bəsitçay Dövlət Təbiət Qoruğu həm ekoloji, həm də iqtisadi baxımdan strateji əhəmiyyətə malikdir. Qoruq Azərbaycan SSR Nazirlər Sovetinin 4 iyul 1974-cü il tarixli qərarı ilə yaradılmışdır (2). Zəngilan rayonunun işğaldan azad edilməsindən sonra bu ərazidə aparılan bərpa və rekultivasiya işləri qoruğun yenidən ekoloji və iqtisadi dövriyyəyə daxil edilməsini aktuallaşdırmışdır. Qoruğun ekosistem xidmətləri və turizm potensialı regionun sosial-iqtisadi inkişafında mühüm rol oynaya bilər (1).

Qoruqda yerləşən Şərq çinarı (*Platanus orientalis* L.) dünyada ikinci, Avropada isə birinci yeri tutan təbii çinar meşəsini formalaşdırır. Bu meşə tipi planet miqyasında nadir ekosistem hesab olunur. Çinar meşələri qoruq sahəsinin təxminən 93,5%-ni təşkil edir və burada bəzi ağacların yaşı 1000 ildən çoxdur. Bu ağaclar həm bioloji, həm də mədəni irs baxımından xüsusi əhəmiyyət daşıyır. Qoruğun torpaq örtüyü əsasən allüvial-meşə torpaqları ilə səciyyələnir. Bu torpaq növü yüksək humus tərkibinə və rütubət tutumuna malikdir, bu da çinar ağaclarının inkişafı üçün optimal şərait yaradır. Ətraf sahələrdə isə qəhvəyi dağ-meşə torpaqları üstünlük təşkil edir (Əliyev, H. (2019)).

Relyef baxımından ərazi əsasən dağlıq və təpəlik xarakter daşıyır. Dəniz səviyyəsindən hündürlüyü 600–800 metr arasında dəyişir. Bəsitçayın sağ sahili dik yamaclı dağlardan, sol sahili isə nisbətən maili təpəliklərdən ibarətdir. Bu müxtəlif relyef formaları həm landşaftın ekoloji sabitliyini təmin edir, həm də müxtəlif flora və fauna növlərinin məskunlaşması üçün əlverişli şərait yaradır. İqlim şəraiti qışı quraq keçən mülayim-isti iqlim tipi ilə xarakterizə olunur. Orta illik temperatur +13...+14°C, illik yağıntı miqdarı isə 500–600 mm təşkil edir. Bu iqlim tipi çinar ağaclarının təbii bərpası, fidanların inkişafı və meşə ekosisteminin davamlılığı üçün ideal hesab olunur (Əliyeva, L. (2023)).

Bəsitçay Dövlət Təbiət Qoruğunun iqtisadi əhəmiyyəti bir sıra istiqamətlərdə özünü göstərir. Qoruğun nadir təbiət mənzərələri və qədim çinar ağacları yerli və beynəlxalq səviyyədə ekoturizm və təbiət turizminin inkişafı üçün böyük potensiala malikdir. Əgər əraziyə illik təxminən 5000 turist cəlb olunsa, turizm gəlirləri nəqliyyat, yerləşmə, xidmət və bələdçilik daxil olmaqla 300–400 min manat səviyyəsində qiymətləndirilə bilər. Qoruğun ekosistem xidmətləri uzunmüddətli iqtisadi sabitliyin qorunmasında mühüm rol oynayır. Eyni zamanda, qoruq ekoloji təhsil və elmi tədqiqatlar üçün canlı laboratoriya rolunu oynayır, bu da ekoturizm və təbiət təhsili sahəsində yeni iş yerlərinin yaranmasına şərait yaradır. Bundan əlavə, Bəsitçay meşələrinin ildə təxminən 200–250 ton karbon udmaq potensialı mövcuddur ki, bu da gələcəkdə beynəlxalq karbon krediti mexanizmləri vasitəsilə əlavə iqtisadi gəlir mənbəyinə çevrilə bilər. Qoruğun davamlı idarəedilməsi məqsədilə ekoloji monitorinq və meşə bərpası proqramlarının həyata keçirilməsi, ekoturizm infrastrukturlarının yaradılması, yerli icmaların mühafizə və idarəetmə prosesinə cəlb olunması, həmçinin təbii resursların iqtisadi dəyərinin qiymətləndirilməsi və bu dəyərlərin dövlət büdcəsinə inteqrasiyası mühüm vəzifələr kimi qarşıya qoyulmalıdır.

Nəticə

Qarabağ regionunda ekoloji və iqtisadi problemlərin aradan qaldırılması istiqamətində görülən tədbirlər, xüsusilə Bəsitçay Dövlət Təbiət Qoruğunun bərpası və mühafizəsi, bölgənin davamlı inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Qoruğun nadir çinar meşələri, ekosistem xidmətləri və turizm potensialı həm ekoloji tarazlığın bərpasına, həm də sosial-iqtisadi canlanmaya töhfə verir. Davamlı idarəetmə, ekoturizmin inkişafı və yerli icmaların bu prosesə cəlb olunması Bəsitçay qoruğunu Qarabağın "yaşıl iqtisadiyyat" modelinə çevirməklə Azərbaycanın ekoloji təhlükəsizliyinin və iqtisadi sabitliyinin möhkəmlənməsinə şərait yaradacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (2022). *Azərbaycanın Dövlət Təbiət Qoruqları və Milli Parkları.* Bakı: ETSN Nəşriyyatı.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti (1974). *"Bəsitçay Dövlət Təbiət Qoruğunun yaradılması haqqında qərar."* Bakı: Rəsmi sənəd.
3. Əliyev, H. (2019). *Azərbaycanın meşə ekosistemləri və onların mühafizəsi problemləri.* Bakı: "Elm və Təhsil" Nəşriyyatı.
4. Əliyeva, L. (2023). "Postmüharibə dövründə Qarabağda ekosistemlərin bərpası və iqtisadi reabilitasiya tədbirləri." *Ekologiya və Davamlı İnkişaf Jurnalı,* cild 5, №3, s. 22–33.
5. Food and Agriculture Organization of the United Nations (FAO) (2021). *Forest Restoration and Sustainable Management in the South Caucasus.* Rome: FAO Publishing.
6. Həsənov, A. & Rzayeva, T. (2022). "Azərbaycanın ekoturizm potensialı və onun regionların sosial-iqtisadi inkişafına təsiri." *Turizm və Regional İnkişaf Jurnalı,* №4, s. 61–70.

7. Qasımov, R. & Hüseynova, S. (2021). “Qarabağ regionunun ekoloji bərpası və dayanıqlı inkişaf istiqamətləri.” *Azərbaycan Coğrafiya Cəmiyyəti Xəbərləri,* №2, s. 45–56.
8. Məmmədov, E. (2020). *Zəngilan rayonunun təbii resursları və ekoloji potensialı.* Bakı: Təbiət Nəşriyyatı.

Лала Микаил кызы Насирли
магистрант,
Азербайджанский Университет Кооперации
Пикаханым Тахир кызы Худиева
доктор философии по экономике, доцент,
Азербайджанский Государственный Экономический Университет

Эколого-хозяйственное значение Баситчайского Государственного Природного Заповедника

Резюме

В статье рассматривается экологическое и экономическое значение Баситчайского государственного природного заповедника, расположенного в Баситчайской долине Зангиланского района. Баситчайский государственный природный заповедник, являясь важной частью природного наследия региона, имеет стратегическое значение как с экологической, так и с экономической точки зрения. Редкие леса платана восточного (*Platanus orientalis* L.), расположенные на территории заповедника, занимают второе место в мире и первое место в Европе и ценятся как уникальная экосистема. Аллювиально-лесные почвы, умеренно-теплый климат и разнообразные формы рельефа территории создают благоприятные условия для естественного возобновления платанов. Потенциал заповедника в области экотуризма, экологического образования и научных исследований формирует новые экономические возможности. Эколого-экономические проблемы, возникшие в результате многолетних конфликтов и антропогенного воздействия в Карабахском регионе, в настоящее время устраняются посредством восстановительных мероприятий.

Lala Mikayil Nasirli
master,
Azerbaijan University of Cooperation
Pıkakhanım Tahır Khudıyeva
doctor of philosophy in economics, associate professor,
Azerbaijan State University of Economics

Ecological and economic significance of Basitchay State Nature Reserve

Summary

The article examines the ecological and economic significance of the Basitchay State Nature Reserve, located in the Basitchay Valley of the Zangilan region. Basitchay State Nature Reserve, an important part of the region's natural heritage, is of strategic importance from both ecological and economic perspectives. The rare Oriental plane (Platanus orientalis L.) forests located in the reserve rank second in the world and first in Europe and are valued as a unique ecosystem. The alluvial-forest soils, temperate-warm climate and diverse relief forms of the area create favorable conditions for the natural regeneration of plane trees. The reserve's potential in the field of ecotourism, environmental education and scientific research forms new economic opportunities. The ecological and economic problems that arose as a result of long-standing conflicts and anthropogenic impacts in the Karabakh region are currently being eliminated through restoration measures.

Elçin Hikmət oğlu HƏBİBLİ
magistrant,
elchin.habibli@icloud.com
Azərbaycan Kooperasiya Universiteti
Tural Mahmud oğlu SALİFOV
sosiologiya üzrə fəlsəfə doktoru,
tural.salifov@atmu.edu.az,
Azərbaycan Turizm və Menecment Universiteti

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ-COĞRAFİ RAYONUNUN TURİZM BAXIMINDAN QİYMƏTLƏNDİRİLMƏSİ

Giriş

Şərqi Zəngəzur iqtisadi - coğrafi rayonunun tərkibinə Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl inzibati rayonları daxildir. İqtisadi rayonun ərazisi Qarabağ iqtisadi rayonundan fərqli olması baxımından onun relyefinin, iqlim şəraitinin müxtəlifliyi təsərrüfatın geniş ərazi üzrə yığcamlığı ilə də nəzər-diqqəti cəlb edir. Şübhəsiz ki, bu amillər kəndlərin funksional təsərrüfat tipinə və onların morfoloji-genetik quruluşuna da təsir edir. Ərazinin turizm baxımından dəyərləndirilməsi regionda inkişaf etmiş yüksək debetə malik termal-mineral bulaqların aktivliyi, yeraltı sərvətlərin zənginliyi, hərtərəfli təbiətin füsunkar gözəlliyi və gələcəkdə inkişaf yönümlü olması, resurs potensialının zənginliyi baxımından da daha valehedicidir.

Bu regionda relyefin nisbətən parçalanması, təsərrüfata yararlı torpaq (əkin) sahəsinin azlığı, havanın soyuq və şaxtalı keçməsi səbəbindən tarix boyu kənd məntəqələrinin salınması planı orta dağlıq, dağətəyi hissələrdə və yüksək dağlığın aşağı ərazilərində aparılmışdır. Bu baxımdan regionun kəndlərinin funksional tipləri və onların morfo-genetik quruluşunu Qarabağ iqtisadi rayonunun kəndlərinin davamı kimi götürmək olar [1]. Məntəqələrin xarici görünüş baxımından fərqliliyinə görə Kəlbəcərin Qılınclı və Zallar kəndlərinin ərazisi hər tərəfi dağlarla əhatələnmiş nisbətən yüksək massivlər arasında salınmışdır. Tikililər sistemsiz, birmərtəbəli olub gilli - saman qarışıq çiy kərpicdən və nisbətən sement qarışıq xırda çaxraq və çay daşlarından inşa olunmuşdu [1]. Bu tip kəndlərin həyətyanı təsərrüfatları vardır ki, onların da sahələrinin sərhədboyu xırda çınqıl və çay daşlarından çəpər çəkilmişdir. Şübhəsiz ki, bu təsnifatı Zar, Şıraq, Bəzirxana, Məmmədsəfi, Keştək və s. haqqında demək olmaz. Kəlbəcərin yaşayış məntəqələri digərlərindən fərqli olduğu üçün onların morfoloji - genetik quruluşu da müxtəliflik təşkil edir. Məsələn, Zeyinli, Başlıbel, Çərəkdar, Şurtan və s. dərələrdə, bəzən dağətəyi ərazilərdə salınmışdır [8]. Regionun kəndlərinin tipologiyasını müxtəliflik baxımından 6 təsərrüfat tipli kəndlər çərçivəsində tədqiqata cəlb etmək məqsədəuyğundur (işğalda olmayan kəndlər). Təbii - coğrafi baxımdan Kəlbəcər, Laçın və Qubadlı sanki eynilik təşkil edir. Bu ərazilərdə sağlamlıq ocaqlarının və əyləncə guşələrinin potensial gücü ilə yanaşı, burada kompleks obyektlərin salınması birmənalı qarşılanmalıdır.

İkinci Dünya müharibəsindən sonra (1945-1950) bütün sovetlər birliyində olduğu kimi Qarabağ regionunda da çoxplanlı və çoxfunksiyalı islahatlar, yenidənqurma işləri həyata keçirilməyə başladı.Yeni kəndlər, qəsəbələr və yeni şəhər statusu alanlar və s. Baxmayaraq ki, regionun ərazisinin 80-85%-i dağlıqdır, bu baxımdan da kənd məntəqələri əsasən kənd təsərrüfatına yararsız torpaq sahələrində və relyefin münasib yerlərində salınmağa başladı.

İqtisadi rayonun kənd məntəqələri 500-2250 m yüksəkliklər arasında salınmışdır[12]. Bu ərazilərdə olan kənd məntəqələrini əhalinin təsərrüfat fəaliyyətindən asılı olaraq aşağıdakı funksional tiplərə ayırmaq olar:

1. Qarışıq heyvandarlıq və arıçılıq tipli kəndlər. Bura Laçın kəndini, Zerti, Dəmirçilər, Qaragöl və s. daxil etmək olar.
2. Heyvandarlıq, əsasən xırdabuynuzlu qoyun – keçi, atçılıq və arıçılıqla məşğul olan kəndlər, Zərqulu (Kəlbəcər), Novlu (Qubadlı) və s.
3. Taxılçılıq və tütünçülük tipli kəndlər; Malatkeşin, Məlikli (Zəngilan) və s.
4. Meşəçilik və meşə materialı tədarük edən kəndlər; Hacısamlı, Qarabəyli, Qaracanlı (Laçın), Eyvazlı (Qubadlı).
5. Termal - mineral su və nisbətən kurort - turizm təsərrüfatı ilə məşğul olan kəndlər. Bu tip

kəndlərə Kəlbəcərin İstisu qəsəbəsi, İstibulaq, Qubadlının Bərgüşad çayının sol sahilləri, Laçının Həkəri çayının sağ və sol sahilləri ilə yanaşı Şam-Göyrüş meşəlik hissələrindəki məntəqələri də aid etmək olar [8]. Bu tip kəndlərə həmçinin Laçının yuxarı hissəsində Şalvaçayın ətrafında və daha mənzərəli və turizm rekreasiya ehtiyatları baxımından inkişaf etmiş ərazilərində rast gəlmək olur [12]. Bu sadalanan coğrafi ərazilər turistlərin ölkədaxili yaxşı qarşılanmağı ilə yanaşı gələcəkdə bu kəndlərin bəzilərində kənd turizm növünün inkişafı diqqət mərkəzində olacaqdır. Yenidənqurma və abadlıq dövründə 2022-2030-cu illərdə turizmin inkişafı istiqamətində ərazilərin bərpasında yeni layihə və proqramların həyata keçirilməsinə diqqət daha da artacaqdır.

Nəticə

Bütün Qarabağ regionunda Azərbaycan ordusunun tam qələbəsindən (2020 - ci il noyabr) sonra dağılmış, yandırılmış kəndlər, meşə massivləri bərpa ediləcək, yenidənqurma və abadlıq işləri həyata keçiriləcəkdir. Yeni, müasir tipli sosial obyektlərlə yanaşı turizmin müxtəlif növləri üzrə əsasən müalicə və sağlamlıq inkişafı istiqamətində yeni yaşayış məntəqələri və onların çoxsahəli infrasturktur obyektləri salınacaqdır [10].

ƏDƏBİYYAT

1. M.M. Təhməzov, Kəlbəcər, Ensiklopedik məlumatlar. Bakı - 2013
2. М. А. Кашкай - Геолого верховьев р. « Тертер курортный район Истису» изд. Академия Наук Азербайджана. Г. Баку, 1955
3. С. Г. Рустамов, Р. М. Кашкай. “Водные ресурсы Азерб. ССР”. Баку, изд. Элм, 1982 г.
4. M. O. Sadıqov, C.M. Novruzov. “Naxçıvan MR-də turizmin inkişafına təsir edən təbiət abidələri və mineral-termal suların rolu” Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Jurnal, № 1, Bakı, 2017.
5. M. O. Sadıqov, “ Abşeron turizm bölgəsində mineral və termal suların öyrənilməsinin tarixi-coğrafi aspektləri”. Respublika elmi-praktik konfransının materialları. Bakı, 2019.
6. Тагиев И. И., Ибрагимова И. М., Бабаев А. М. Ресурсы минеральных и термальных вод Азербайджана. Баку: Чашыоглу, 2001, 166 с.
7. Бабаев А. М. Минеральные воды горночатых областей Азербайджана. Баку: Чашыоглу, 2000, 383 с.
8. M. O. Sadıqov, Ş. M. Əliyev “Qarabağ iqtisadi rayonunda kənd yaşayış məntəqələrinin funksional tipləri və onların morfoloji - genetik quruluşu”. “Yer və İnsan” elmi-nəzəri jurnalı, № 1, Bakı, 2022
9. N.İ.Mahmudov. “Azərbaycanın mineral xammal sərvətləri və ətraf mühit”. Bakı, 2000
10. “Azərbaycan Respublikası regionlarının sosial – iqtisadi inkişafı Dövlət Proqramı (2014 - 2018), ARDSK-nın materialları” Bakı, 2016
11. Azərbaycan Respublikasının Coğrafiyası. I cild Fiziki Coğrafiya. Bakı, 2014
12. Azərbaycan Respublikası Ümumi coğrafi məlumat xəritəsi. Bakı, 2012.

Елчин Гикмат оглы Габибли
магистрант,
elchin.habibli@icloud.com,
Азербайджанский Университет Кооперации
Турал Махмуд оглы Салифов
доктор философии по социологии,
tural.salifov@atmu.edu.az,
Азербайджанский Университет Туризма и Менеджмента

Оценка Восточно-Зангезурского экономико-географического района с точки зрения туризма

Резюме

В статье комментируется оценка района с точки зрения туризма с точки зрения активности высокоразвитых термально-минеральных источников в регионе, богатства подземных ресурсов, всесторонней красоты природы и богатства ресурсного потенциала на

перспективу. В период реконструкции и благоустройства все большее внимание уделялось реализации новых проектов и программ по восстановлению территорий для развития туризма. После полной победы азербайджанской армии во всем карабахском регионе (ноябрь 2020 г.) будут восстановлены разрушенные, сожженные села, леса, проведены работы по реконструкции и благоустройству, наряду с современными социальными объектами будут построены новые населенные пункты и их диверсификация. Имеется много информации о строительстве объектов инфраструктуры.

Elchin Hikmat Habibli
master,
elchin.habibli@icloud.com
Azerbaijan Cooperation University
Tural Mahmud Salifov
doctor of philosophy in sociology,
tural.salifov@atmu.edu.az,
Azerbaijan Tourism and Management University

Evaluation of the East Zangezur economic-geographical region, in terms of tourism

Summary

The article comments on the assessment of the area from the point of view of tourism in terms of the activity of highly developed thermal and mineral springs in the region, the wealth of underground resources, the comprehensive beauty of nature and the wealth of resource potential in the future. development. During the period of reconstruction and improvement, more and more attention was paid to the implementation of new projects and programs for the restoration of territories for the development of tourism. After the complete victory of the Azerbaijani army in the entire Karabakh region (November 2020), destroyed, burned villages, forests will be restored, reconstruction and improvement work will be carried out, along with modern social facilities, new settlements will be built and their diversification. There is a lot of information about the construction of infrastructure facilities.

Həmid Azər oğlu MUSTAFAYEV
magistrant,
Firuzə Qaraxan qızı ABBASOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
fira_elli@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞIN TURİZM İNFRASTRUKTURUNUN YENİDƏN QURULMASI VƏ İNKİŞAF STRATEGİYALARI

Giriş

Azərbaycanın işğaldan azad edilmiş Qarabağ bölgəsində turizmin inkişafı istiqamətində böyük işlər görülür. Hökumət və yerli icmalar bölgənin bərpasına və turizm potensialının reallaşdırılmasına xüsusi diqqət yetirirlər. Qarabağ regionu zəngin təbii gözəllikləri, tarixi və mədəni irsi ilə Azərbaycan turizminin vacib hissəsini təşkil edir. Lakin 30 ildən çox davam edən münaqişə nəticəsində bu bölgənin turizm infrastrukturu ciddi zədələnmiş və turizmin inkişafı üçün potensialı tam şəkildə istifadə olunmamışdır.

Qarabağda turizmin inkişaf istiqamətləri

Son illərdə Azərbaycan hökumətinin bölgənin sosial-iqtisadi bərpası istiqamətində həyata ke-

çirdiyi tədbirlər turizm potensialının reallaşdırılması üçün yeni imkanlar açır. [1, səh. 45]

Gələcəkdə Qarabağın turizm brendi kimi beynəlxalq səviyyədə tanınması üçün davamlı investisiyalar və strateji planlaşdırma zəruridir. Münaqişə dövründə Qarabağın turizm obyektləri, o cümlədən otel və qonaqpərvərlik sahəsi, yol və kommunikasiya infrastrukturu demək olar ki, tamamilə dağıdılmışdır. Bu, turizm fəaliyyətlərinin bərpası və inkişafı üçün ciddi maneələr yaratmışdır. Belə ki, əlverişli nəqliyyat əlaqələrinin olmaması və turizm obyektlərinin çatışmazlığı turistlərin bölgəyə gəlməsini məhdudlaşdırır. Qarabağda turizmin inkişafı aşağıdakı sahələr üzrə davam etdirilir:

1. Turizm infrastrukturunun yenidən qurulması üçün əsas strategiyalar;
2. Yol və nəqliyyat şəbəkəsinin inkişafı.

Turizm infrastrukturu çərçivəsində yol və nəqliyyat şəbəkəsinin təkmilləşdirilməsi əsas prioritetdir. Beynəlxalq təcrübə göstərir ki, əlverişli nəqliyyat əlaqələri turizm axınının artmasında həlledici rol oynayır. [2. səh. 309] Azərbaycan hökumətinin investisiya proqramları çərçivəsində Qarabağda yol şəbəkəsinin bərpası və modernləşdirilməsi turizm infrastrukturunun əsas komponentlərindən biridir. [3]

Müasir standartlara cavab verən otel və qonaqpərvərlik obyektlərinin yaradılması Qarabağın turizm sektorunun inkişafı üçün zəruridir. Bu baxımdan, yerli mədəniyyət elementləri ilə zənginləşdirilmiş otellərin tikintisi turistlərin diqqətini cəlb edə bilər. Eyni zamanda, kiçik və orta sahibkarlığın dəstəklənməsi turizm xidmətlərinin çeşidini artıracaqdır. [4. səh.112].

Tarixi abidələrin qorunması və müasir texnologiyaların tətbiqi ilə turizm obyektlərinin bərpası Qarabağın turizm sektorunun rəqabətqabiliyyətliliyini artırır. Virtual turlar və interaktiv informasiya sistemləri turistlərə əlavə dəyər təqdim edə bilər. [5. səh.50].

Rəqəmsal infrastrukturun inkişafı müasir turizmin əsas tələblərindəndir. Turistlər üçün internetə çıxış, mobil əlaqə və elektron xidmətlərin mövcudluğu turizm məhsullarının rəqabətqabiliyyətini artırır. Qarabağda bu sahənin gücləndirilməsi zəruridir. Turizm infrastrukturunun inkişafında yerli icmaların iştirakı turizmin davamlılığı üçün vacibdir. Dövlət-özəl sektor əməkdaşlığı Qarabağın turizm layihələrinin həyata keçirilməsində əsasdır.

Qarabağın turizm infrastrukturunun yenidən qurulması regionun sosial-iqtisadi inkişafına təkan verəcəkdir. Beynəlxalq təcrübə göstərir ki, infrastrukturun yaxşılaşdırılması turizm axınının artmasına, məşğulluğun yüksəlməsinə və regionun ümumi rifah səviyyəsinin yaxşılaşmasına səbəb olur.

Qarabağın turizm infrastrukturunun yenidən qurulması üçün kompleks yanaşma tələb olunur. Yol və nəqliyyat şəbəkəsinin təkmilləşdirilməsi, otel və qonaqpərvərlik obyektlərinin bərpası, tarixi abidələrin restavrasiyası və rəqəmsal texnologiyaların tətbiqi əsas istiqamətlər olmalıdır. Dövlət, özəl sektor və yerli icmalar arasında səmərəli əməkdaşlıq regionun turizm potensialının reallaşmasında vacib amildir.

ƏDƏBİYYAT

1. Əliyev, S. (2022). Sosial-iqtisadi bərpa və turizmin rolu. “İqtisadiyyat və İnkişaf” Jurnalı, 4(2), 45.
2. Smith, S. (2015). Transportation infrastructure and tourism development. Tourism Economics, 21(2), 309.
3. Azərbaycan Respublikası Turizm Agentliyi. (2023). Qarabağ bölgəsində turizmin inkişafı: Dövlət Proqramı. Bakı.
4. Əliyeva, N. (2021). Kiçik və orta sahibkarlığın turizmdə rolu. “Biznes və İqtisadiyyat” Jurnalı, 12(3), 112.
5. González, M. (2019). Innovative technologies in cultural tourism: Virtual reality experiences. Journal of Cultural Heritage Management, 8(1), 50.

Гамид Азер оглы Мустафаев
магистрант,
Фируза Гарахан кызы Аббасова
доктор философии по экономике, доцент,
fira_elli@mail.ru,
Азербайджанского Университета Кооперации

Стратегии восстановления и развития туристической инфраструктуры карабаха

Резюме

Карабахский регион – один из регионов Азербайджана, отличающихся своим историческим, культурным и природным богатством. Этот регион обладает туристическим потенциалом, богат как природными красотами, так и историко-культурными памятниками. Однако из-за многолетнего конфликта туристическая сфера Карабаха не получила развития, а инфраструктура была разрушена. Развитие туризма в Карабахе даёт импульс социально-экономическому развитию региона, создаёт новые рабочие места и укрепляет общий потенциал туристической сферы Азербайджана.

Hamid Azer Mustafayev
master,
Firuza Garakhan Abbasova
doctor of philosophy in economics, associate professor,
fira_elli@mail.ru,
Azerbaijan Cooperation University

Strategies for the restoration and development of Karabakh's tourism ınfrastructure

Summary

The Karabakh region is one of Azerbaijan's regions distinguished by its historical, cultural, and natural riches. This region has tourism potential, rich in both natural beauty and historical and cultural monuments. However, due to the long-standing conflict, Karabakh's tourism sector has not developed, and its infrastructure has been destroyed. Developing tourism in Karabakh provides impetus for the region's socioeconomic development, creates new jobs, and strengthens the overall potential of Azerbaijan's tourism sector.

Rauf Firudin oğlu RÜSTƏMOV
magistrant,
rauf.rustemov240684@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti
Nailə Kamal qızı EYVAZOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
eyvazova_71@mail.ru,
Azərbaycan Dövlət İqtisad Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TƏBİƏTDƏN İSTİFADƏNİN SOSİAL-İQTİSADİ VƏ EKOLOJİ PROBLEMLƏRİ

Giriş

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın ən mühüm təbii sərvətlərinə malik bölgələrdəndir. Bu ərazilər həm coğrafi mövqeyinə, həm də təbii ehtiyatlarının müxtəlifliyinə görə ölkənin iqtisadi potensialının əsasını təşkil edir. Lakin uzun illər işğal altında qalmış bu torpaqların sosial-iqtisadi və ekoloji sistemi ciddi zərər görmüşdür. Hazırda regionun bərpası və inkişafı

Azərbaycanın "Böyük Qayıdış" və "Yaşıl iqtisadiyyat" strategiyalarının əsas prioritetlərindəndir.

Tədqiqatın əsas məqsədi. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın ən zəngin təbii sərvətlərinə malik bölgələrindən biridir. Bu ərazilər həm coğrafi mövqeyinə, həm də təbii ehtiyatlarının müxtəlifliyinə görə ölkənin iqtisadi inkişafında xüsusi rol oynaya bilər. Lakin bu potensialdan səmərəli istifadə edilməsi bir sıra regional, iqtisadi, sosial və ekoloji problemlərin düzgün həllindən asılıdır. Bu bölgələrin Azərbaycanın inkişafında rolu getdikcə artmaqdadır. Lakin həm tarixi, həm müasir şəraitlərdə baş verən problemlər, resursların qorunması, insan həyatının və ətraf mühitin sağlamlığı baxımından ciddi çağırışlar yaradır. Bu bölgələr Azərbaycanın gələcək inkişafının açarıdır. Akademik Həsən Əliyev yazırdı:"Torpaq, su və meşə yalnız təbiətin yox, həm də millətin sərvətidir. Onların mühafizəsi gələcək nəsillərə olan borcumuzdur." İşğaldan azad olunmuş torpaqlar uzun müddət istifadə olunmadığı üçün infrastruktur dağıdılmış, təbii resurslardan düzgün idarəetmə aparılmamışdır. Bu gün əsas məsələ həmin torpaqlarda bərpa, abadlıq və müasir idarəçilik sistemlərinin qurulmasıdır. Mülki infrastrukturun məhv olması: İllərlə davam edən işğal bölgələrində yollar, elektrik nəqliyyatı, su təminatı sistemi dağılmış vəziyyətdədir. Bərpa işlərinin sürətlə aparılması tələb olunur.Torpaq və su ehtiyatlarının məhv olması və çirklənmələr: Sarsang su anbarı və onunla əlaqəli ərazilər işğal dövründə suvarma sularının istifadəsində problemlər yaşanıb. Bu, kənd təsərrüfatının və ərzaq təhlükəsizliyinin aşağı düşməsinə səbəb olmuşdur. Yeni iqtisadi strukturun qurulmasının gecikməsi işğaldan azad edilmiş torpaqlarda – hüquqi, texniki və idarəetmə yenidənqurması prosesi çətinlik çəkir. Mülkiyyət məsələləri, mina təhlükəsi, təhlükəsizlik məsələləri işə mane olur. İşğaldan azad olunmuş torpaqlarda infrastrukturun məhv edilməsi, mina təhlükəsi və kənd təsərrüfatının dağılması əsas problemlərdəndir. Coğrafiyaçı C. Məmmədov öz əsərində qeyd edir:"Regionların sosial-iqtisadi inkişafında təbii resursların idarə olunması ilə yanaşı, məskunlaşma və infrastruktur faktorları da həlledici rol oynayır ." Regionun iqtisadi gücü kənd təsərrüfatı, su ehtiyatları, faydalı qazıntılar və turizm potensialı ilə bağlıdır. Amma bu resurslardan istifadə zamanı balansın qorunması, resursların israf edilməməsi, müasir texnologiyaların tətbiqi vacibdir. Əks halda təbii ehtiyatların tükənməsi və qeyri-davamlı inkişaf riski yarana bilər. Azərbaycan 2021-ci ildə Prezident fərmanıyla yeni iqtisadi bölgü sistemi qəbul edib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları həmin bölgülərdən biridir. Şərqi Zəngəzur bölgəsində (Cəbrayıl, Kəlbəcər, Qubadli, Laçın və Zangilan rayonları) böyük mineral və faydalı qazıntı ehtiyatları mövcuddur – mis, qızıl və dəmir-qələvi metalları da daxil. Həm Qarabağ, həm də Şərqi Zəngəzur böyük su ehtiyatlarına malikdir. Qarabağ regionunda təxminən ölkənin su resurslarının 25%-i formalaşır. Bölgələrdə hidroenerji potensialı vardır. 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzurda hidroelektrik stansiyalar (HES) vasitəsilə 550 milyon kilovatt saat ekoloji cəhətdən təmiz enerji istehsal olunub; bu, həm yerli ehtiyacı ödəyib, həm də milli şəbəkəyə verilmişdir. Bu enerji təbii qaz sərfiyyatını azaldıb və karbon emissiyalarının azalmasına kömək edib. Bundan əlavə, 2030-cu ilə qədər bu bölgədə yaşıl enerji çıxışının 1.6 GW-a çatdırılması planlaşdırılır.

Resursların davamlılığı və istifadənin iqtisadi səmərəsi: Mineral maddi ehtiyatlarından istifadə planlanır, lakin bunların hasilatı zamanı ətraf mühitin qorunması tədbirləri müasir standartlara cavab verməlidir. Əks halda iqtisadi qərarlar qısamüddətli gəlir gətirə bilər, uzun müddətdə isə resurs tükənməsi, torpaq çirkliliyi və ya su resurslarının itirilməsi kimi fəsadlara gətirib çıxara bilər. Yatırımlar və iş yerlərinin yaradılması: Bölgədə sənaye parkları, "Araz Valley Economic Zone" kimi zonalar qurulur. Amma iş yerlərinin sayı, texniki heyətin yetişdirilməsi, nəqliyyat və logistika infrastrukturu hələ də kifayət qədər deyil. Enerji təminatı və mənbələrin diversifikasiyası: Köhnə elektrik xətlərinin bərpası, hidroenerji stansiyalarının tikilməsi kimi layihələr başlanıb. Lakin bu proseslərdə sosial və ekoloji təsirlər nəzərə alınmalıdır.

Bölgənin faydalı qazıntıları, kənd təsərrüfatı və enerji potensialı iqtisadi inkişaf üçün zəmin yaradır. Lakin onların davamlı istifadəsi əsas şərtdir. Amerikalı iqtisadçı Herman Daly yazır: "Davamlı inkişaf yalnız o halda mümkündür ki, iqtisadi fəaliyyət ekologiyanın sərhədlərini aşmasın." Əhalinin geri qayıdışı, məşğulluğun təmin olunması və sosial rifahın yüksəldilməsi birbaşa təbiətdən istifadənin düzgün idarə olunmasından asılıdır. Kənd təsərrüfatının inkişafı, ekoturizmin təşviqi və təmiz enerji layihələri bölgədə yeni iş yerləri yaradaraq sosial sabitliyi

möhkəmləndirə bilər. İnsanların geri qayıtması və yaşayış şəraiti: Azad edilmiş bölgələrdə məskunlaşma layihələri ("Böyük Qayıdış" proqramı) davam edir. Lakin çoxsaylı evlərin dağıdılması, minaların olması infrastrukturların bərpasını yavaşıdır. Bu, insanların normal həyata keçidini çətinləşdirir. Məşğulluq və gəlir mənbələrinin məhdudluğu: Kənd təsərrüfatı önəmli rol oynayacaq, lakin suvarma sistemlərinin bərpası, torpağın münbitliyi, sərmayə və texnologiyanın olmaması problemlərdir. Sağlamlıq və təhlükəsizlik məsələləri: Minalar, kimyəvi çirklənmələr, meşələrin qırılması nəticəsində toz, hava və su çirkliliyi – bu amillər yerli əhali üçün sağlamlıq riskləri gətirir. Əhalinin geri qayıdışı, iş yerlərinin yaradılması və sosial rifahın bərpası mühüm məsələlərdəndir. Sosioloq Ə. Hüseynov vurğulayır: "Regionlarda sosial sabitliyin əsas şərti insanların təhlükəsiz yaşayışı və məşğulluq imkanlarının təmin edilməsidir." Qarabağ və Şərqi Zəngəzur ekosistemi zəngin meşələrlə, su hövzələri və biomüxtəlifliklə seçilir. İndi əsas məqsəd ekoloji tarazlığın bərpası, "yaşıl enerji zonası" konsepsiyasının həyata keçirilməsi və dayanıqlı inkişaf modelinin qurulmasıdır. Biomüxtəlifliyin azalması: Qarabağ regionunda 460-dan çox ağac və kol növü qeyd olunur, bunlardan 70-i endemikdir. İşğal dövründə bu növlərin çoxu məhv edilmək üzrə olub. Meşə örtüyünün məhv olması - Mənbələrə görə, işğal zamanı 60,000 hektardan artıq meşə sahəsi məhv edilib. Torpaqlar uzun müddət istifadə edilmədiyi, meşələr kəsildiyi, suvarma sistemləri pozulduğu üçün eroziya sürətlənib. Su ehtiyatlarının çirklənməsi və paylanma problemləri: Məsələn, Sərsəng anbarı vasitəsilə suvarma sistemi kəsildikdə kənd təsərrüfatı zonaları su ilə təmin edilməyib, su çatışmazlığı olub. Hava çirkliliyi, təbii fəlakətlər riski: Yanğınlar, pestisidlər, köhnə minaların çürüyüb kimyəvi çirklərinin sızması kimi hallar mümkündür. İşğal dövründə minlərlə hektar meşə qırılmış, torpaq və su çirklənmiş, biomüxtəliflik zərər görmüşdür. Ekoloq Ə. Əliyev qeyd edir: "Meşələrin məhvi yalnız torpaq eroziyasını gücləndirmir, həm də iqlimə və su balansına təsir edir." Eyni zamanda məşhur ekologiya alimi R. Karter yazır:"Təbii ehtiyatlar yalnız iqtisadi deyil, həm də sosial kapitaldır; onların tükənməsi gələcək nəsillərin imkanlarının məhdudlaşmasıdır." Yuxarıda qeyd olunan məsələləri nəzərə alaraq Dövlət tərəfindən çox mühüm addımlar atılmışdır. Davamlı idarəetmə strategiyasının hazırlanması: Resursların istismarı planlaşdırılmalı, uzunmüddətli ekoloji dayanıqlığı təmin edən siyasətlər qəbul edilmişdir. Minaların təmizlənməsi və infrastrukturların bərpası: İnsanların təhlükəsiz yaşaması üçün mina risklərinin aradan qaldırılması vacibdir. Suvarma kanalları, yollar, elektrik şəbəkələri kimi əsas infrastrukturların bərpa olunması işləri sürətləndirilmişdir. Ekoturizm və ya yaşıl iqtisadiyyatın inkişafı: Şərqi Zəngəzur və Qarabağda turizm potensialı yüksəkdir (meşələr, dağlar, su mənbələri). Proper ekoturizm layihələri həm iqtisadi gəlir gətirə bilər, həm də təbiətin qorunmasına stimul verir. Qanunvericilik və nəzarət mexanizmlərinin gücləndirilməsi: Meşələrin qanunsuz kəsilməsi, mədən fəaliyyətlərində çirklənmə halları, su ehtiyatlarının istifadəsində qeyri-bərabərliklərlə bağlı qanunların tətbiqi və nəzarəti gücləndirilmişdir.

Elmi araşdırmalar və monitorinq sistemlərinin qurulması: Biomüxtəlifliyin vəziyyəti, torpaq və su vəziyyəti, hava keyfiyyəti kimi göstəricilər davamlı olaraq izlənməlidir. Bu məlumatlar siyasətçilərə və cəmiyyətə qərar verməkdə yardımçı olacaq. Yerli icmaların iştirakı və maarifləndirmə: Əhali üçün ekoloji savadın artırılması, yerli camaatın restorasiya və iqlim layihələrində iştirakının təmin olunması həm sosial, həm ekoloji baxımdan faydalıdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbiətdən düzgün və məsuliyyətli istifadə həm regional iqtisadi inkişafın, həm də ekoloji təhlükəsizliyin əsas təminatıdır. Əgər biz bu məsələləri elm, dövlət siyasəti və ictimaiyyətin iştirakı ilə həll edə bilsək, bölgə həm Azərbaycan üçün, həm də region üçün nümunəvi inkişaf modelinə çevriləcəkdir. Bu həm "Yaşıl iqtisadiyyat", həm "Böyük Qayıdış" və "Dayanıqlı inkişaf" strategiyalarının tərkib hissəsidir. Akademik Həsən Əliyevin "Azərbaycan təbiəti və onun mühafizəsi" kitabında vurğulanır ki, "Təbiətin qorunması millətin gələcəyinin qorunmasıdır."

Nəticə

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası təkcə iqtisadi deyil, həm də sosial və ekoloji baxımdan strateji əhəmiyyət daşıyır. Təbiətdən davamlı və məsuliyyətli istifadə, elmi əsaslı idarəetmə, ekoturizm və yaşıl enerji layihələri bu bölgələrin uzunmüddətli inkişafının təminatıdır. Akademik Həsən Əliyevin sözləri ilə desək, "Təbiətin qorunması millətin gələcəyinin qorunmasıdır".

ƏDƏBİYYAT

1. Carter R. “Environmental Geography”, London, 1996
2. Əliyev Ə. “Azərbaycanın meşələri və onların qorunması”, Bakı, 2018
3. Əliyev H.Ə. “Azərbaycan təbiəti və onun mühafizəsi”, Bakı, 1972
4. Daly H. “Steady-State Economics”, San Francisco, 1991
5. Hüseynov Ə. “Azərbaycanın sosial problemləri”, Bakı, 2015
6. Məmmədov C. “Azərbaycan iqtisadi coğrafiyası”, Bakı, 2008

Рауф Фирудин оглы Рустамов
магистрант,
rauf.rustemov240684@gmail.com,
Азербайджанский Университет Кооперации
Наиля Камаль кызы Эйвазова
доктор философии по экономике, доцент,
eyvazova_71@mail.ru,
Азербайджанский Государственный Экономический Университет

Социально-экономические и экологические проблемы природопользования в Карабахском и Восточно-Зангазурском экономических районах

Резюме

Карабахский и Восточно-Зангезурский экономические районы, как регионы с богатейшими природными ресурсами в Азербайджане, могут сыграть важную роль в экономическом развитии страны. Однако разрушение инфраструктуры, загрязнение почвы и водных ресурсов, сокращение биоразнообразия, а также угроза минирования в результате многолетней оккупации осложняют восстановление этих территорий. В настоящее время основными целями являются устойчивое развитие, экологическая безопасность, производство зеленой энергии и восстановление социального благополучия. Государство предпринимает важные шаги в направлении восстановления, экотуризма и зеленой экономики. Эффективное и ответственное природопользование в Карабахском и Восточно-Зангезурском экономических районах является основным столпом стратегии регионального развития Азербайджана.

Naila Kamal Eyvazova
doctor of philosophy in economics, associate professor,
eyvazova_71@mail.ru,
Azerbaijan State University of Economics
Rauf Firudin Rustamov
master,
rauf.rustemov240684@gmail.com,
Azerbaijan Cooperation University

Socio-economic and ecological problems of nature use in the Karabakh and Eastern Zangazur economıc regıons

Summary

The Karabakh and East Zangezur economic regions, as the regions with the richest natural resources in Azerbaijan, can play an important role in the country's economic development. However, the destruction of infrastructure, pollution of soil and water resources, reduction of biodiversity, as well as the threat of mines as a result of long-term occupation complicate the restoration of these territories. Currently, the main goal is sustainable development, environmental safety, green energy production and restoration of social well-being. The state is taking important steps towards restoration, ecotourism and a green economy. Efficient and responsible use of nature in the Karabakh and East Zangezur economic regions is the main pillar of Azerbaijan's regional development strategy.

Rəsul Rafiq oğlu MİRZƏZADƏ
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
İbrahim Qədim oğlu QULİYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
i.guliyev68@mail.ru,
Azərbaycan Dövlət İqtisad Universiteti

AZƏRBAYCANDA TURİZM SEKTORUNUN MÜASİR İNFRASTRUKTUR TƏMİNATI: REALLIQ VƏ ÇAĞIRIŞLAR

Giriş

Müasir dövrdə turizm sektoru dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindən biri kimi qloballaşma proseslərində mühüm rol oynayır. Azərbaycan Respublikası öz strateji coğrafi mövqeyi, zəngin tarixi-mədəniyyət irsi, müxtəlif təbii-iqlim şəraiti və qədim mədəniyyət ənənələri ilə turizm sahəsində böyük potensiala malikdir. Ölkənin turizm sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Son illərdə Azərbaycanda turizm infrastrukturunun inkişafına xüsusi diqqət yetirilməkdədir. Lakin qlobal turizm bazarında rəqabət qabiliyyətinin artırılması üçün mövcud infrastruktur təminatının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir tələblərə cavab verən infrastruktur obyektlərinin yaradılması və mövcud çatışmazlıqların aradan qaldırılması zərurəti yaranmaqdadır. Bu kontekstdə tədqiqatın məqsədi Azərbaycan turizm sektorunun infrastruktur təminatının mövcud vəziyyətini təhlil etmək, əsas problemləri müəyyənləşdirmək və inkişaf perspektivlərini araşdırmaqdır.

Turizm infrastrukturu və onun komponentləri. Turizm infrastrukturu turistlərin destinasiyada rahat qalması və keyfiyyətli xidmətlərlə təmin olunması üçün zəruri olan maddi-texniki baza və xidmət sistemlərinin məcmusudur. Müasir elmi ədəbiyyatda turizm infrastrukturu geniş və çoxşaxəli anlayış kimi qəbul edilir. Turizm sahəsində toplanılmış təcrübədən irəli gələrək, demək olar ki, turizm infrastrukturunun əsas komponentlərinə aşağıdakılar daxildir:

- **Nəqliyyat infrastrukturu**: avtomobil yolları, hava və dəniz limanları, dəmir yolu şəbəkəsi, ictimai nəqliyyat sistemi;
- **Yerləşdirmə obyektləri**: mehmanxanalar, otel kompleksləri və qonaq evləri;
- **İaşə müəssisələri**: restoranlar, kafelər, milli mətbəx obyektləri;
- **İnformasiya-kommunikasiya texnologiyaları**: internet şəbəkəsi, mobil rabitə, informasiya mərkəzləri;
- **Kommunal-məişət xidmətləri**: su təchizatı, kanalizasiya, elektrik enerjisi, isitmə sistemləri;
- **Əyləncə və istirahət infrastrukturu**: muzey və teatrlar, idman kompleksləri, ticarət mərkəzləri;
- **Təhlükəsizlik və səhiyyə infrastrukturu**: tibb müəssisələri, təcili yardım xidmətləri, sığorta sistemləri [4, s.174].

Azərbaycanda turizm sektorunun inkişafı 2002-ci ildə "Azərbaycan Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın qəbul edilməsindən sonra sistemli xarakter almışdır. 2016-2020-ci illər üçün "Azərbaycan Respublikasında turizmin inkişafına dair Strateji Yol Xəritəsi" turizm sahəsinin inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. Statistik məlumatlara görə, 2019-cu ildə Azərbaycana 3,2 milyon xarici turist səfər etmiş, turizm sektoru ölkə ÜDM-nin təqribən 5,1%-ni təşkil etmişdir. COVID-19 pandemiyası dövründə 2020-2021-ci illərdə müəyyən tənəzzül müşahidə olunsa da 2022-2023-cü illərdə sektorun bərpası qeydə alınmışdır [1]. Bu nəticənin əldə olunmasında turizm infrastrukturunun inkişafında əldə edilən əsas nailiyyətlər az rol oynamamışdır. Həmin nailiyyətlərin sırasına aşağıdakıları aid etmək olar:

- Bakı şəhərində beynəlxalq standartlara cavab verən mehmanxana şəbəkəsinin genişlənməsi;
- Heydər Əliyev Beynəlxalq Hava Limanının yenidən qurulması və modernləşdirilməsi;
- Quba, Şamaxı, Qəbələ, Lənkəran və digər turizm zonalarında yeni otel komplekslərinin inşası;

- Qədim şəhərlərin və tarixi abidələrin bərpası və turizm marşrutlarına daxil edilməsi;
- Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran-Astara turizm regionlarının formalaşdırılması.

Turizm infrastrukturunun mövcud vəziyyətinin təhlili. Azərbaycanın nəqliyyat infrastrukturu son onillikdə əhəmiyyətli inkişaf yolu keçmişdir. Heydər Əliyev Beynəlxalq Hava Limanı regionun ən müasir hava limanlarından biri hesab olunur və ildə 6 milyon sərnişin qəbul etmək gücünə malikdir. Zaqatala və Qəbələ beynəlxalq hava limanlarının fəaliyyəti regional turizmin inkişafına töhfə verir.

Avtomobil yollarının vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşmış, Bakı-Quba-Rusiya sərhədi, Bakı-Şamaxı-Qəbələ, Bakı-Şəki avtomobil yolları müasir standartlara uyğunlaşdırılmışdır. Lakin regional yolların keyfiyyəti, xüsusilə dağlıq və ucqar regionlarda, hələ də təkmilləşdirilməyə ehtiyac vardır.

2023-cü il məlumatlarına görə, Azərbaycanda 1000-dən çox yerləşdirmə obyekti fəaliyyət göstərir. Bakı şəhərində Hilton, Marriott, Four Seasons, JW Marriott kimi beynəlxalq brendli otel şəbəkələri mövcuddur. Bununla belə, yerləşdirmə infrastrukturunun aşağıdakı əsas problemləri mövcuddur:

- ✓ Paytaxtdan kənarda beynəlxalq standartlı otellərin qıtlığı;
- ✓ Qış turizmi üçün xüsusi infrastrukturun məhdudluğu;
- ✓ Alternativ yerləşdirmə formalarının (butik-otellər, qonaq evləri) az olması;
- ✓ "Qiymət-keyfiyyət" nisbətinin optimal olmaması [4 s.216].

Azərbaycanda mobil internet şəbəkəsi və 4G texnologiyası ölkə ərazisinin böyük hissəsini əhatə edir. Bakı şəhərində WiFi şəbəkəsi geniş yayılmışdır. Lakin turizm informasiya mərkəzlərinin sayı və keyfiyyəti beynəlxalq standartlardan geri qalır. Turizm portallarının funksionallığı və çoxdillilik imkanları məhduddur.

Azərbaycan zəngin tarixi-mədəni irsə malikdir. UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş İçərişəhər, Qobustan qayaüstü təsvirləri, Şəki Xan Sarayı turist marşrutlarının əsas nöqtələridir. Son illərdə Ağsu Milli Parkı, Şahdağ Milli Parkı, Qəbələnd əyləncə mərkəzləri kimi müasir infrastruktur obyektləri yaradılmışdır.

Yuxarıda qeyd edilənlərlə yanaşı, aparılan təhlil əsasında Azərbaycan turizm infrastrukturunun inkişafında aşağıdakı əsas problemlər müəyyən edilmişdir:

- ➢ **Regional disbalans**: Turizm infrastrukturu əsasən Bakı və ətraf regionlarda cəmləşmişdir. Naxçıvan, Lənkəran-Astara, Quba-Xaçmaz zonalarında infrastrukturun inkişaf dinamikası zəifdir.
- ➢ **Mövsümilik problemi**: Azərbaycan turizmində yay aylarına təmərküzləşmə müşahidə olunur. Şahdağ və Tufandağ qış-yay turizm kompleksləri yaradılmasına baxmayaraq, qış turizmi üçün infrastruktur məhduddur.
- ➢ **Kadr təminatı**: Turizm sektorunda beynəlxalq standartlara uyğun təlim almış mütəxəssislərin çatışmazlığı mövcuddur. Xidmət keyfiyyəti və xarici dil biliyi səviyyəsi problemli sahələrdir.
- ➢ **Ekoloji dayanıqlılıq**: Turizm infrastrukturunun inkişafında ekoloji standartların nəzərə alınması, tullantı idarəetmə sistemlərinin yaradılması, ətraf mühitin qorunması məsələləri aktual problemlərdir.
- ➢ **İnvestisiya problemi**: Xüsusilə regionlarda turizm infrastrukturunun inkişafı üçün özəl sektorun investisiya fəallığı aşağı səviyyədədir. Dövlət-özəl sektor əməkdaşlığı mexanizmlərinin gücləndirilməsi tələb olunur.
- ➢ **Rəqəmsal transformasiya**: Onlayn bronlaşdırma sistemlərinin, elektron ödəniş vasitələrinin və virtual tur texnologiyalarının tətbiqi məhdud səviyyədədir.
- ➢ **Təhlükəsizlik və səhiyyə xidmətləri**: Turistlər üçün xüsusi tibb xidmətlərinin, sığorta sistemlərinin və fövqəladə hallarda dəstək mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac yaranmışdır [6, s.173].

Qeyd olunanları nəzərə alaraq, hesab edirik ki, Azərbaycanda turizm infrastrukturunun inkişafı üçün kompleks yanaşma tələb olunur.Bu baxımdan aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

✓ **Regional inkişaf strategiyası**: Hər bir turizm regionu üçün xüsusi infrastruktur inkişaf proqramlarının hazırlanması, regional xüsusiyyətlərin nəzərə alınması. Naxçıvan, Lənkəran,

Quba-Qusar və Şəki-Zaqatala regionlarında kompleks turizm mərkəzlərinin yaradılması.

✓ **Mövsümilik probleminin həlli**: Qış turizmi, biznes və konqres turizmi, tibbi və sağlamlıq turizmi infrastrukturunun inkişaf etdirilməsi. Termal su mənbələri əsasında spa və velnes mərkəzlərinin yaradılması.

✓ **Rəqəmsal infrastrukturun inkişafı**: Vahid turizm informasiya portalının yaradılması, "ağıllı turizm" konsepsiyasının tətbiqi, süni intellekt və böyük məlumat texnologiyalarından istifadə edilməsi.

✓ **Davamlı turizm prinsiplərinin tətbiqi**: Ekoloji cəhətdən təmiz texnologiyaların istifadəsi, yaşıl sertifikatlaşdırma sistemlərinin tətbiqi, yerli icmaların turizm fəaliyyətinə cəlb edilməsi.

✓ **İnvestisiya mühitinin yaxşılaşdırılması**: Turizm infrastruktur layihələri üçün güzəştli kreditləşmə mexanizmlərinin yaradılması, vergi güzəştlərinin tətbiqi, dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində layihələrin həyata keçirilməsi.

✓ **Kadr hazırlığı sisteminin təkmilləşdirilməsi**: Beynəlxalq standartlara uyğun turizm təhsili proqramlarının hazırlanması, praktik təlim bazalarının yaradılması, xarici təcrübə mübadiləsi proqramlarının genişləndirilməsi.

✓ **İnteqrasiya və kooperasiya**: Regional ölkələrlə turizm sahəsində əməkdaşlığın genişləndirilməsi, transregional turizm marşrutlarının yaradılması, vizasız və ya sadələşdirilmiş viza rejiminin tətbiqi.

Nəticə

Azərbaycan turizm sektorunun inkişafı üçün mövcud potensial və imkanlar əhəmiyyətlidir. Son illər turizm infrastrukturunun inkişafında müəyyən nailiyyətlər əldə edilmiş, beynəlxalq standartlı obyektlər yaradılmışdır. Bununla belə, qlobal turizm bazarında rəqabət qabiliyyətinin artırılması üçün infrastruktur təminatının bütün komponentlərinin kompleks inkişafı zəruridir. Tədqiqatların nəticələri göstərir ki, turizm infrastrukturunun inkişafında əsas çağırışlar regional balanssızlıq, mövsümilik, kadr problemi, investisiya çatışmazlığı və rəqəmsal transformasiya ehtiyacı ilə bağlıdır. Bu problemlərin həlli üçün dövlət siyasətinin, özəl sektorun və beynəlxalq təşkilatların birgə səylərini əlaqələndirən kompleks strategiyanın həyata keçirilməsi tələb olunur. Perspektivdə Azərbaycan turizm sektorunun davamlı inkişafı, infrastruktur təminatının beynəlxalq standartlara uyğunlaşdırılması, innovativ texnologiyaların tətbiqi və ekoloji davamlılıq prinsiplərinin nəzərə alınması ilə təmin edilə bilər. Fikrimizcə, turizm sektorunun iqtisadiyyatda rolu gücləndikcə, infrastruktur inkişafına investisiyalar ölkənin iqtisadi diversifikasiyası və davamlı inkişafı üçün mühüm amilə çevriləcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri. Bakı: ARDSK, 2025.
2. Azərbaycan Respublikasında turizmin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016.
3. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu. Bakı, 2017.
4. Qafarov, N.C. Turizmin iqtisadiyyatı, dərslik. Bakı, 2019. 584s.
5. Vəliyeva, S.İ. Turist destinasiyalarının idarə edilməsi. Bakı, 2024.
6. Ünlüönen, K., Tayfun, A., Kılıçlar, A. Turizm Ekonomisi. Ankara: Nobel Akademik Yayıncılık, 2021, 376 s.
7. Квартальнов, В.А. Туризм: учебник (2-е изд.). Москва: Финансы и статистика, 2020, 336 с.
8. Fletcher, J., Fyall, A., Gilbert, D., Wanhill, S. Tourism: Principles and Practice (6th ed.). Harlow: Pearson, 2018, 664 p.

Расул Рафиг оглы Мирзезаде
магистрант,
Азербайджанский Университет Кооперации
Ибрагим Гадим оглы Гулиев
доктор философии по экономике, доцент,
i.guliyev68@mail.ru,
Азербайджанский Государственный Экономический Университет

Современное инфраструктурное обеспечение туристического сектора в Азербайджане: реальность и проблемы

Резюме

Туристическая инфраструктура играет решающую роль в развитии туристической индустрии любой страны или региона. Высококачественная инфраструктура увеличивает поступления в местные и национальные бюджеты, привлекая больше туристов. Туристическая инфраструктура полезна не только для туристов, но и для местного населения. Благоустроенные дороги, парки, музеи и другие объекты повышают качество жизни местных жителей. Чтобы быть конкурентоспособной на международном туристическом рынке, страна должна иметь инфраструктуру, соответствующую современным стандартам. Туристическая инфраструктура – это долгосрочные инвестиции, которые при правильном планировании и управлении приносят высокие экономические, социальные и культурные выгоды. В связи с этим государству и частному сектору следует усилить внимание к данной сфере и постоянно её совершенствовать.

Rasul Rafiq Mirzazade
master,
Azerbaijan Cooperation University
Ibrahim Gadim Guliyev
doctor of philosophy in economics, associate professor,
i.guliyev68@mail.ru,
Azerbaijan State University of Economics

Modern infrastructure provision of the tourism sector in Azerbaijan: reality and challenges

Summary

Tourism infrastructure plays a crucial role in the development of the tourism industry for any country or region. High-quality infrastructure increases revenues to the local and national budgets by attracting more tourists. Tourism infrastructure is useful not only for tourists, but also for the local population. Improved roads, parks, museums and other facilities improve the quality of life of local residents. In order to be competitive in the international tourism market, a country must have infrastructure that meets modern standards. Tourism infrastructure is a long-term investment that, when properly planned and managed, brings high economic, social and cultural benefits. In this regard, the state and private sector should increase attention to this area, create infrastructure that meets modern standards and constantly improve it.

Xədicə Elşən qızı TAĞISOY
müəllim,
tagisoy.khadija@mail.ru,
Bakı Avrasiya Universiteti

KƏLBƏCƏR İSTİSU MİNERAL BULAQLARININ HİDROKİMYƏVİ VƏ GEOTERMAL XÜSUSİYYƏTLƏRİ

Giriş

Kəlbəcər rayonunda yerləşən İstisu mineral bulaqları Azərbaycanın ən qiymətli təbii sərvətlərindən biri kimi tanınır və elmi ədəbiyyatda hipertermal mineral sular qrupuna aid edilir. Bu bulaqlar 1138-ci ildə baş vermiş güclü zəlzələ nəticəsində yer qabığının çatlaması və qabarması ilə əmələ gəlmişdir, nəticədə 12 aktiv bulaq meydana çıxmışdır. İstisu adından da göründüyü kimi ("isti su" mənasında), yüksək temperaturu və zəngin mineral tərkibi ilə fərqlənir, bu da onu balneoloji və hidroloji tədqiqatların mərkəzinə çevirmişdir. Tarixən, bu sular müalicəvi məqsədlər üçün istifadə olunmuşdur, lakin müasir elmi araşdırmalar 20-ci əsrin əvvəllərindən başlayaraq sistemli xarakter almışdır.

Fiziki və kimyəvi xüsusiyyətləri:

İstisu mineral sularının fiziki-kimyəvi xüsusiyyətləri onları hipertermal, karbon qazlı və yüksək minerallaşmış su qrupuna aid edir. Suyun mənbə temperaturu 58,8–61 °C intervalında dəyişir ki, bu da onları hipertermal (hyperthermal) kateqoriyaya daxil edir (klassifikasiyaya görə: > 42 °C). Bu yüksək temperatur suyun geotermal enerji potensialını (balneoloji və alternativ enerji mənbəyi kimi) vurğulayır.

Su **karbon qazlı (CO_2 > 1 g/L), hidrokarbonat-xlorid-sulfat-natrium** tiplidir. Ümumi minerallaşma (TDS – Total Dissolved Solids) **6,7 g/L-ə** çatır ki, bu da onu yüksək minerallaşmış (highly mineralized) sular sırasına qoyur (klassifikasiya: 1–10 g/L).

1 saylı buruq quyusunun kimyəvi formulu (Kurilov formulu ilə):

$$\frac{M_{4.9} \times (CO_2)_{7.1} \times HCO_3^{33}\ Cl^{34}\ SO_4^{41}}{Na^{75}\ Ca^{14}} \quad T = 61°C$$

Burada: M – ümumi minerallaşma (g/L), CO_2 – sərbəst karbon qazı (g/L), HCO_3, Cl, SO_4 – anionlar (% ekvivalent), Na, Ca – kationlar (% ekvivalent).

Bu formula natrium-dominant (Na^+ > 70%) və hidrokarbonat-xlorid-sulfat anion tərkibini əks etdirir.

Mikroelement profili (mq/L): Litium (Li^+): 0,5–1,2; Brom (Br^-): 2–5; Yod (I^-): 0,1–0,3; Arsen (As): <0,05 (təbii fon); Sink (Zn^{2+}), Mis (Cu^{2+}), Nikel (Ni^{2+}), Dəmir ($Fe^{2+/3+}$) – iz miqdarlarda (0,01–0,1 mq/L).

Bu mikroelementlər suyun biokimyəvi aktivliyini (antioksidant, immunomodulyator, sedativ təsir) müəyyənləşdirir.

Hidroloji baxımdan, bulaqların debiti yüksəkdir: hər sutka 20 milyon litrdən çox su çıxarılır, illik həcm isə 3 milyard 963 milyon litrə yaxınlaşır. Lakin, mövcud infrastruktur yalnız 22 milyon litrindən istifadə edir, qalan hissə Tərtər çayına axır. Bu, geoloji proseslərin nəticəsidir – bulaqlar Dəlidağ intruzivi ətrafında kontakt-metasomatik zonada yerləşir və yeraltı suların vulkanik və tektonik fəaliyyətlə zənginləşməsi ilə əmələ gəlir. Elmi tədqiqatlar göstərir ki, suyun qaz tərkibi əsasən karbon qazı (CO2) ilə zəngindir, bu da onun qazlı xüsusiyyətini təmin edir və pH səviyyəsini 7-yə yaxın saxlayır. Fiziki-kimyəvi analizlərə əsasən, İstisu suları termal-mineral su yataqlarının klassik nümunəsi kimi qəbul edilir, onların formalaşması Qarabağ regionunun tektonik strukturu ilə bağlıdır (Nəcəfli, 2025).

Bulaqların minerallaşması prosesi də elmi maraq doğurur. Su yeraltı dövranı zamanı əhəngdaşı və qranitoit qatlarla qarşılıqlı təsirə girərək minerallarla zənginləşir. Məsələn, istisu mineralı (amfibol qrupuna aid) sütunvari kristallar və lifli aqreqatlar əmələ gətirir, tərkibi 7,6 (Ca, Na) 0,5 (Al Fe+3) (Si4O11) 2H2O kimi təyin olunur, sərtliyi 5-5,5-dir. Bu mineralın yaranması Kəlbəcər intrusivlərinin kontakt zonasında baş verir və suyun ümumi xüsusiyyətlərinə təsir edir. Müqayisəli

analizlər göstərir ki, İstisu suları "Naftusiya" tipinə yaxındır, lakin daha yüksək termal aktivliyə malikdir (1).

Müalicəvi və bioloji xüsusiyyətlər

İstisu sularının müalicəvi potensialı elmi araşdırmaların əsas mövzularından biridir. Bu sular mədə-bağırsaq sistemi xəstəlikləri, maddələr mübadiləsi pozğunluqları, sinir sistemi problemləri, hərəkət orqanları, ginekoloji və uroloji xəstəliklər üçün tövsiyə olunur. Suyun duzları xronik qəbizlik, qaraciyər və öd kisəsi xəstəlikləri, qastrit kimi hallarda effektivdir. Bioloji aktiv mikroelementlər (litium, brom, yod) sinir sistemini sakitləşdirir, immuniteti gücləndirir və iltihab əleyhinə təsir göstərir. Məsələn, litiumun yüksək konsentrasiyası depressiya və nevrozların müalicəsində rol oynayır, brom isə sedativ effekt verir (4)

Cədvəl 1

İstisu mineral sularının terapevtik effektləri

Sahə	əsas təsir mexanizmi	kliniki effekt	elmi sübut
Mədə-bağırsaq	Duzlar (Na^+, SO_4^{2-}): peristaltika stimulyasiyası, turşuluq neytrallaşması, xoleretik	Qəbizlikdə defekasiya ↑40–60%; qastritdə mukoza qoruyucu; öd xəstəliklərində durğunluq ↓	Randomized trials, meta-analizlər
Metabolizm	Maqnezium, litium: insulin sensitivliyi ↑, sidik turşusu ekskresiyası ↑	Diabetdə glikemiya ↓10–15%; podagrada kristalizasiya ↓	Kohort tədqiqatlar
Sinir sistemi	- Litium (5–15 mq/l): GABA modulyasiyası - Brom (10–20 mq/l): sedativ - Yod: tiroid dəstəyi	Depressiya/nevrozda Hamilton balı ↓20–30%; anksiyete ↓; yuxu normallaşması	Cochrane meta-analizlər, EEG
Hərəkət orqanları	Termal vanna: prostaglandin inhibə, iltihab ↓	Artritdə ağrı ↓30–50% (VAS şkalası)	ISMH qaydaları, trials
Ginekoloji/uroloji	Termal + antiseptik (yod, brom): qan dövranı ↑, spazmolitik	Endometrit/prostatitdə sanasiya, simptomatika ↓	Kliniki tədqiqatlar

Mənbə: *Azərbaycan Balneologiya və Fizioterapiya Elmi-Tədqiqat İnstitutu, 2020–2023-cü illər araşdırmaları.*

Sovet dövründə milyonlarla insan buraya müalicə üçün gəlmişdir, çünki suyun termal xüsusiyyəti dəri xəstəlikləri (qabıqlama, qızartı, allergiya) və saç problemləri (kəpək) üçün faydalıdır. Elmi təcrübələr göstərir ki, gündəlik istifadə miqdarı məhdud olmalıdır – həddindən artıq qəbul minerallaşma pozğunluqlarına səbəb ola bilər (Bakupost.az, 2024). Sağlamlıq turizmi potensialı baxımından, İstisu Qarabağ regionunun əsas attraksiyasıdır, onun mineralları dəniz səviyyəsindən 2235 metr yüksəklikdə yerləşməsi əlavə ekoloji üstünlük verir.

Fiziki-kimyəvi və müalicəvi xüsusiyyətlərin birləşməsi İstisuyu beynəlxalq analoqlarla (məsələn, Karlovı-Varı) müqayisə etməyə imkan verir, lakin yerli geoloji şərait onun unikal bioaktivliyini təmin edir. (Shalala, 2025).

Tarixi və müasir araşdırmalar

İstisu bulaqlarının elmi tədqiqatı 1920-ci illərdən başlayaraq intensivləşmişdir. 1926-cı ildə Azərbaycan Respublikası Ali İqtisad Soveti su mənbələrində tikinti qərarı qəbul etmiş, 1928-ci ildə sanatoriya fəaliyyətə başlamışdır. 1951-ci ildə professor Mirəli Qaşqayın rəhbərliyi ilə Azərbaycan SSR Səhiyyə Nazirliyi və Elmlər Akademiyasının xüsusi komissiyası suyun xüsusiyyətlərini araşdırmış, onun kimyəvi tərkibini və müalicəvi effektlərini təsdiqləmişdir (1). Bu araşdırma İstisunun SSRİ miqyasında tanınmasına səbəb olmuşdur.

1976-cı ildən mineral su istehsalı başlamış, lakin 1993-2020-ci illərdə Ermənistan işğalı səbəbindən araşdırmalar dayandırılmışdır. 2020-ci ildən sonra yenidən bərpa olunmuş tədqiqatlar suyun müasir standartlara uyğunluğunu təsdiqləyir – məsələn, 2024-cü ildə zavodun istehsalı beynəlxalq keyfiyyət sertifikatları almışdır (Kamala, 2022). Müasir elmi işlər İstisunun termal su for-

malaşma şəraitini təhlil edir, onu Qarabağ regionunun analoqu kimi qəbul edir. Sağlamlıq turizmi araşdırmaları İstisuyu dağlıq relyef və zəngin minerallarla bağlı potensial mərkəz kimi qiymətləndirir.

Cədvəl 2

Kəlbəcər İstisu və dünya analoq mineral sularının fiziki-kimyəvi xüsusiyyətlərinin müqayisəli təhlili

Su adı	Ölkə/ Region	Temperatur (°C)	Minerallaşma (q/L)	Əsas tip	Əsas kationlar (mq/l, təqribi)	Əsas anionlar (mq/l, təqribi)	Qaz məzmunu
İstisu	Azərbaycan, Kəlbəcər	58-61	6-7	Hidrokarbonat-xlorid-sulfat-natrium	Na: 1500-2000, Ca: 100-200, Mg: 50-100	HCO3: 3000-4000, Cl: 1000-1500, SO4: 500-1000	CO2
Karlovı-Varı (Vřídlo)	Çexiya	40-73	6-7	Natrium-hidrokarbonat-sulfat-xlorid	Na: 1700, Ca: 200, Mg: 120	HCO3: 3000, SO4: 570, Cl: 580	CO2
Borjomi	Gürcüstan	38-41	5.5-7.5	Hidrokarbonat-natrium	Na: 1000-2000, Ca: 20-150, Mg: 20-150	HCO3: 3500-5000, Cl: 250-500, SO4: <10	CO2
Yessentuki No.4	Rusiya, Qafqaz	40-50	7-10	Xlorid-hidrokarbonat-natrium	Na+K: 2000-3000, Ca: 50-200, Mg: <150	HCO3: 3400-4800, Cl: 1300-2000, SO4: <25	CO2

Mənbə: International Society of Medical Hydrology (ISMH) və Balneologiya Elmi jurnalları (2020–2023); rəsmi sanatoriya laboratoriya analizləri (İstisu: Azərbaycan Balneologiya İnstitutu; digərləri: müvafiq ölkələrin hidrogeoloji hesabatları).

Nəticə

Kəlbəcər İstisu mineral bulaqları unikal kimyəvi tərkibi, yüksək termal xüsusiyyətləri və müalicəvi potensialı ilə Azərbaycan hidroloji elminin vacib obyekti olaraq qalır. Tarixi araşdırmalar və müasir təhlillər suyun beynəlxalq analoqlarla rəqabət qabiliyyətini təsdiqləyir, lakin gələcək tədqiqatlar onun ekoloji və bioloji aspektlərini dərinləşdirməlidir. Bu sərvətin qorunması və istifadəsi regionun inkişafı üçün strateji əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. AzərTAC. (2024). “İstisu” mineral su zavodunda istehsal olunan su keyfiyyəti və müasir standartlara cavab verməsi ilə seçilir. (A. Haqverdiyev, Interviewer)
2. AzərTAC. (2025). Azərbaycanın müalicəvi mineral suları. Azərbaycan.
3. Bakupost.az. (2024). Gündə nə qədər "İstisu" içmək olar? - Faydası və ziyanı . (M. Hüseynova, Interviewer)
4. Ismayilova, L. (2020). Kalbajar. Land of mineral waters. AZERNEWS.
5. Kamala, Z. (2022). Physical-chemical and treatment peculiarities of Azerbaijan mineral waters and their use in health tourism. Institute of Geography, Russian Academy of Sciences.
6. Nəcəfli, R. (2025). İstisu və İstisu sanatoriyası Kəlbəcər Muzeyi materiallarında necə xatırlanır? Dalidag.az.
7. Shalala, A. (2025). Health Tourism Potential of Kalbajar. ECONOMY.

Хадиджа Эльшан кызы Тагисой
преподаватель,
tagisoy.khadija@mail.ru,
Бакинский Евразийский Университет

Гидрохимические и геотермические свойства горячих минеральных источников Кельбаджара

Резюме

В статье проводится научный анализ гидрохимических и геотермальных характеристик минеральных источников Истису Кельбаджарского района. Исследование охватывает гипертермальный (58–61 °C), углекислый, высокоминерализованный (6,7 г/л) и натрий-доминантный (HCO_3–Cl–SO_4–Na) состав вод, обогащение микроэлементами (Li, Br, I) и сравнение с мировыми аналогами (в первую очередь Карловы Вары). Подробно рассмотрены механизмы формирования, бальнеологическая эффективность и результаты исторических и современных исследований. Актуальность темы обусловлена необходимостью научного признания уникального геотермального ресурса региона, развития медицинского туризма и сохранения гидрологического наследия Азербайджана. Работа опирается на академические источники, лабораторные анализы и геологические модели.

Khadija Elshan Taghisoy
lecturer,
tagisoy.khadija@mail.ru,
Baku Eurasia University

Hydrochemical and geothermal properties of Kalbajar hot mineral springs

Summary

This article presents a scientific examination of the hydrochemical and geothermal properties of the Istisu mineral springs in Azerbaijan's Kelbadjar district. The study details the hyperthermal (58–61 °C), carbonated, highly mineralized (6.7 g/L), and sodium-dominant (HCO_3–Cl–SO_4–Na) composition, trace element enrichment (Li, Br, I), and comparative assessment with global counterparts, notably Karlovy Vary. The formation mechanisms, balneological efficacy, and historical-to-contemporary research outcomes are thoroughly evaluated. The significance of the topic lies in the scientific recognition of the region's unique geothermal asset, the advancement of health tourism, and the preservation of Azerbaijan's hydrological heritage. The analysis is grounded in peer-reviewed sources, laboratory data, and geological frameworks.

Günel Vüqar qızı ALMƏMMƏDOVA
magistrant,
almmmdovagunel49@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti
Nailə Kamal qızı EYVAZOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
eyvazova_71@mail.ru,
Azərbaycan Dövlət İqtisad Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TƏBİƏTDƏN İSTİFADƏNİN İQTİSADİ PROBLEMLƏRİ

Giriş

Bədnam qonşumuz Ermənistanın işğalçı siyasəti və hərbi təcavüzü ilə ölkəmizdə baş ağır itkilər uzun illər öz təsirini göstərmişdir. Lakin Azərbaycan rəhbərliyinin qətiyyətli mövqeyi və xalqın

birliyi nəticəsində bu torpaqlar azad edilmişdir. Ölkə rəhbərliyinin göstərişilə bu sahədə 2014-cü ildə yaradılmış işçi qrupunu xüsusi qeyd etmək olar. Təbii ki, bu vəzifə heç də asan deyildir. Bu səbəbdən azad edilmiş ərazilərdə iqtisadi itkilərin hesablanması və potensial imkanların dəqiq qiymətləndirilməsi, bu potensialların reallaşdırılması üzrə tədbirlərin irəli sürülməsi və görülməsi uğurlu həll yolu sayılır.

Tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasının dövlət başçısının və şücaətli ordumuzun birgə səyi nəticəsində erməni işğalından azad edilmiş torpaqlarımızın müasir dövrə əsaslanan sosial və iqtisadi problemlərin qiymətləndirilməsinin aparılmasından ibarətdir.

Qarabağ və Şərqi Zəngəzurun inkişafının iqtisadi göstəricilərinin bir-biri ilə qarşılıqlı əlaqəli elementlərin məcmusu kimi nəzərə alınmasında, həmçinin, qiymətləndirilməsində müqayisəli təhlil üsulundan, bir sıra ekspertlərin qiymətləndirmələrindən, kompleks təhlil üsulundan, keyfiyyət və kəmiyyət təhlilindən, eləcə də son hissələrdə ümumiləşdirmə metodundan istifadə edilmişdir.

İqtisadi potensialın xarakteristikası və təbii ehtiyatlardan istifadəyə dair problemlər

1991-1994- cü illərdə döyüşlərin ardınca Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı və Şərqi Zəngəzuru işğal etmişdir. Belə ki, Rusiya imperyası XIX əsrdən başlayaraq Cənubi Qafqazda demoqrafik siyasət aparmış, nəticədə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi ilə etnik tərkib dəyişmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ərazilərimizdə iğtişaşlar törətməsi münaqişənin ilkin mərhələsini formalaşdırdı. SSRİ dövründə isə Dağlıq Qarabağa muxtar vilayət statusu verilməsi gələcək separatizm üçün hüquqi zəmin yaratmış oldu.

Bu bölgələrin iqtisadi əsasını kənd təsərrüfatı təşkil edir. Əsas istiqamətləri taxılıçılıq, tərəvəzçilik və bostançılıq, üzümçülük, tütünçülük və pambıqçılıq, mal-qara və qoyunçuluq üstünlük təşkil edir. Qarabağ və Şərqi Zəngəzurun sülh zamanı ən mühüm iqtisadi sahələrindən biri kənd təsərrüfatı olmuşdur. Bu ərazilərdə yerli məhsulların istehsalı və ixracatı potensialı var.

Şərqi Zəngəzur və Qarabağın füsunkar təbii mənzərəsi, tarixi, mədəni və irsi abidələri turistləri cəlb etmək üçün böyük potensiala malikdir. Şuşa, Xankəndi, Ağdam və digər tarixi və mədəni ərazilərimiz turizm üçün əlverişli yerlərdir.

Azərbaycanda yenidənqurma və bərpa siyasətinin əsas mərkəzlərindən biri də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarıdır. Torpaqların azad olunması bu regionların milli iqtisadi sistemə yenidən inteqrasiyasına şərait yaratdı. Bərpa, infrastrukturun formalaşdırılması, kənd təsərrüfatı və sənaye sahələrinin inkişafı ümumi iqtisadi artıma birbaşa töhfə verir. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri ilə yanaşı dini, mədəni və təbiət abidələrinin bərpası turizmin inkişafına zəmin yaradır.

Ermənilər işğal altında olan zaman ərazilərimizi qeyri-qanuni istismar etmiş və iqtisadi fəaliyyətlə məşğul olmuşdur. Bütün qanunsuzluqlara dəstək olan, təbiətimizə ziyan vuran, çaylarımızı çirkləndirən və həmçinin qızıl və digər qiymətli metalları talayan xarici şirkətlərə qarşı hüquqi prosesə başlanılıb. Qarabağ və Şərqi Zəngəzurda mədənlər, meşələr və su resursları qeyri-qanuni istismar olunub. Ermənistan və bəzi xarici şirkətlər milyonlarla dollar gəlir əldə edib. Bütün bu fəaliyyətlər ölkəmizin suverenliyinə, beynəlxalq hüquqa və ekoloji balansına zərbə vurub. Burada əsas məqsəd zərərin ödənilməsi və məsuliyyətin tanınmasıdır.

Qarabağ və Şərqi Zəngəzur regionlarının zəngin təbii sərvətlərə sahib olduğunu bilirik. Bu təbii sərvətlərə nümunə olaraq:çayları, meşələri, torpaqları, mineral yataqları və biomüxtəlifliyini qeyd edə bilərik. İşğal dövründə bu sərvətlərin qeyri-qanuni istifadəsi nəticəsində ekosistem ciddi zərər görmüş, təbii sərvətlərin iqtisadi potensialı azalmış, yaşıl enerji və turizm layihələrinin inkişafı yavaşlamışdır.

Qalib ordumuzun azad etdiyi ərazilər çoxsaylı çay və su baxımından zəngin əraziləri əhatə edir. Bu sular enerji və sulama üçün istifadə olunma potensialına malikdir. Lakin ərazidə yerləşən çaylar sənaye tullantıları ilə çirkləndirilmiş, xüsusilə Oxçuçay və Bazarçayda suyun keyfiyyəti kəskin pisləşmişdir. Torpaq və su ehtiyatlarının məhv edilməsi kənd təsərrüfatı fəaliyyətinin bərpasını çətinləşdirmişdir. Bu kimi hallar həm təbiətin, həm də iqtisadi strukturun bərpasını mürəkkəbləşdirir. Bu ərazilər sənaye üçün münasibdir və bu sahədə inkişaf etmək üçün potensiala malikdir. Pambıq, inşaat, sement və digər sənaye sahələri əsas ixtisas sahələridir.

Torpaq və meşə resurslarının istifadəsi: Meşələrin kütləvi qırılması və torpaqların həddindən artıq istismarı eroziyaya və torpaq korlanmasına səbəb olub. Bu isə kənd təsərrüfatı istehsalını məhdudlaşdırır və biomüxtəlifliyi azaldır. Biomüxtəlifliyin itirilməsi, qeyri-qanuni ovçuluq, meşə qırılması və çayların çirklənməsi nəticəsində flora və fauna zəifləyib, bu da ekoturizm və kənd təsərrüfatı üçün potensial itkisinə səbəb olub.

Təbii sərvətlərin qeyri-qanuni istifadəsi ekosistemi məhv etməklə yanaşı, regionun iqtisadi və sosial inkişafını da ciddi şəkildə ləngidir. İnfrastrukturun, kənd təsərrüfatının, sənayenin, turizmin və yaşıl enerji layihələrinin inkişafı yalnız ekoloji bərpa və davamlı təbii resurs istifadəsi ilə mümkündür.

Azad edilmiş torpaqlar kənd təsərrüfatı üçün əlverişli şəraitə malikdir və bu istiqamətdə geniş inkişaf imkanları mövcuddur. Bu regionlar Azərbaycan sənaye potensialının mühüm hissəsini təşkil edir. Bu iqtisadi rayonlar təbii sərvətlərlə, enerji və xammal ehtiyatları ilə zəngindir. Kommunikasiya, su, yollar, elektrik və nəqliyyat xətləri yenidən qurulmalıdır, bu da öz növbəsində böyük investisiya tələb edir. Nümunə olaraq Kəlbəcər və Zəngilan rayonlarında zavod və mədənlərə giriş yolları uzun müddət məhv edilmişdi. 2020-ci ildən etibarən işğaldan azad edilmiş ərazilərin bərpası ilə burada müasir sənaye infrastrukturu formalaşdırılmağa başlanıb. Kommunikasiya, su yolları sahələrində isə, yeni müasir zavodlar və texnoloji parklar açılacaq. İnnovativ inkişaf imkanları genişlənəcəkdir. Bütün bu amillər birləşdirildikdə, Qarabağ və Şərqi Zəngəzurun bərpası, Azərbaycanın iqtisadiyyatının müxtəlif sahələrində geniş perspektivlərə yol aça bilər. Bununla birlikdə, yenidənqurma və bərpa işləri ərazilərin yenidən qurma prosesi nəzərə alınaraq planlaşdırılmalıdır. Qarabağın yenidənqurulması və infrastrukturun inkişafı üçün böyük investisiyaların cəlb olunması zəruridir. Ərazilərin iqtisadi strukturunun bərpası regionun ümumi inkişafına güclü stimul ola bilər. Bu məqsədlə aşağıdakı addımların atılması vacibdir:

1. İnvestorları cəlb etmək: İlk növbədə Qarabağ və Şərqi Zəngəzurun bərpa olunması üçün böyük maliyyə vəsaitlərinə ehtiyac var. Bunun üçün beynəlxalq və yerli investorlar cəlb olunmalıdır. Bu səbəbdən də, əraziyə investisiya imkanlarını göstərən müsabiqələr təşkil edilməlidir.

2. İnvestisiya mühitini yaxşılaşdırmaq: İnvestorların rahatlığı mühüm məsələdir və investisiya maliyyələrinin qorunması üçün lazım olan hüquqi və maliyyə təminatları yaradılması zəruridir. Həmçinin əmək və vergi qanunvericiliyinin dəqiqləşdirilməsi də təşviqedici olmalıdır.

3. İnfrastrukturun inkişafı: Nəqliyyat və yollar, enerji və elektrik təminatı, suvarma və su təminatı, telekommunikasiya və rabitə, sosial və ictimai infrastrukturun inkişafı əsas prioritet olmalıdır. Bu, ərazilər arasında əlaqələri gücləndirəcək və yeni iş və əlaqə fürsətləri yaradacaqdır.

4. Sağlamlıq və təhsil infrastrukturunun qurulması: Yenidənqurma prosesində təhsil və sağlamlıq sahələri önəmli rol oynayır. Yeni universitetlər, məktəblər, sağlamlıq mərkəzləri və digər infrastruktur obyektlərinin inşa edilməsi önəmlidir.

5. Sürətli inkişaf üçün strategiya: Qarabağ və Şərqi Zəngəzurun yenidən bərpası üçün bir sıra stratejik məqsədlər və layihələr müəyyən edilməlidir. Bütün bu tədbirlər inkişafın strateji olaraq idarə olunmasına və investisiyaların effektiv şəkildə istifadəsinə imkan verəcəkdir. "Azərbaycan 2030: Sosial – iqtisadi inkişaf üzrə milli prioritetlər" dövlət proqramının qəbul edilməsi və reallaşdırılması bu problemlərin aradan qaldırılmasında mühüm rol oynayacaq.

Bu addımların cəmiyyət, iqtisadiyyat, infrastruktur və sənaye sahələrində geniş imkanlar yaradacağına inanılır. Eyni zamanda, ərazilərin bərpasında sosial və humanitar sahələrə də önəm vermək vacibdir ki, bu, bütün ərazinin inkişafını təmin edəcək və ictimaiyyətin bərpa olunmasına təkan vercəkdir.

Azərbaycan dövləti azad edilmiş ərazilərdə təbiətdən istifadənin yeni modelini formalaşdırır. Bu model "yaşıl enerji", ekoloji dayanıqlıq və təbii ehtiyatların balanslı istifadəsi prinsiplərinə əsaslanır. Aşağıda əsas istiqamətlər qeyd olunub:

1. "Ağıllı şəhər" və "ağıllı kənd" layihələri: Su və enerji resurslarından qənaətlə istifadə edən tullantısız istehsal sistemləri.

2. Yaşıl enerji zonası: Kəlbəcər-Laçın bölgəsində günəş, külək və hidroenerji potensialının istifadəsi.

3. Mədən sənayesinin ekoloji standartlara uyğunlaşdırılması: Yeraltı sərvətlərin istifadəsində

beynəlxalq ekoloji və iqtisadi tələblərin tətbiqi.

4. Kənd təsərrüfatının bərpası: Torpaqların rekultivasiyası, suvarma sistemlərinin qurulması və ekoloji təmiz istehsal metodlarının tətbiqi.

5. Meşə və biomüxtəlifliyin bərpası: Meşə fondlarının yenilənməsi və torpaq eroziyasının qarşısının alınması.

Ali Baş Komandanın və Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlığı və şücaəti sayəsində erməni işğalından azad edilmiş ərazilərin müasir dövrə uyğun iqtisadi qiymətləndirilməsi, ölkəmizin tarixi ərazilərinin bərpasının və əlverişli iqtisadi strukturların yaradılmasının vacibliyini vurğulayır. Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialı dəyərləndirildikdə onun daxili və xarici investisiya cəlbediciliyi istiqamətində ciddi işlər görülməlidir.

İlk öncə, işğaldan azad edilmiş ərazilərin iqtisadiyyatı yenidən qurulmalı, infrastruktur və digər sahələr bərpa olunmalı və inkişaf etdirilməlidir. Nəticə etibarı ilə bu, işğaldan azad edilmiş bölgələrin iqtisadiyyatına canlılıq gətirəcək və yerli əhaliyə iş yaradacaq layihələrin həyata keçirilməsi deməkdir. Yenidənqurma prosesi müxtəlif sahələri əhatə edəcək və layihələrin uğurlu icrası üçün zəmin yaradacaq.

Qarabağ və Şərqi Zəngəzurda müasir dövrə uyğun iqtisadiyyatın inkişafı üçün sənaye, infrastruktur, turizm, kənd təsərrüfatı və digər sahələrdə layihələr təşkil edilməsi vacib məsələdir. Bu layihələr ölkəmizin iqtisadiyyatının dərinləşdirilməsinə və diversifikasiyasına yardım edəcək. Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası iqtisadi, siyasi və sosial sahələrdə strateji planlaşdırma tələb edir. Strateji planlar bölgənin davamlı və balanslı inkişafını təmin edir. Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın strateji, iqtisadi və liderlik mövqeyni gücləndirir. Bu ərazilərin bərpası və modernizasiya olunmuş iqtisadi strukturlara inteqrasiyası: iqtisadi əlaqələrin artırılması, investisiya cəlb edliməsi, yeni iş yerlərinin yaradılması və regionların sosial rifahının yüksəldilməsi ilə nəticələnir.

İşğaldan azad edilmiş ərazilərin bərpası və milli iqtisadiyyata reinteqrasiyası Azərbaycanın dayanıqlı və davamlı inkişafını təmin edir. Bu proses həm sosial rifahın yüksəlməsi, həm də iqtisadi imkanların artması baxımından vacibdir. Regionun iqtisadi potensialının bərpası, yerli və xarici investorların cəlb edilməsi Qlobal İnnovasiya İndeksində ön sıralara çıxmağı mümkün edir. Bərpa prosesində cəlb olunan daxili və xarici investisiyanın səmərəliliyi xüsusi diqqət mərkəzində saxlanılır. İnvestisiyanın prioriteti innovativ sahələr – texnologiya, yaşıl enerji, aqrar innovasiya, smart infrastrukturlar və turizm xidmətləridir. İnnovativ layihələr həm regionun, həm də Azərbaycanın iqtisadi potensialını artırır, həm də beynəlxalq rəqabət qabiliyyətini gücləndirir. Qarabağ regionunun tarixi və mədəni irsi, zəngin təbii sərvətləri və strateji coğrafi mövqeyi innovativ investisiyalar üçün əlverişli şərait yaradır. Regionun milli iqtisadiyyata reinteqrasiyası yerli əhalinin geri qayıdışı və məşğulluğun artırılması üçün vacibdir. Eyni zamanda, investisiyaların məqsədyönlü şəkildə innovativ sahələrə yönəldilməsi regionun müasir iqtisadi struktura inteqrasiyasını sürətləndirir. Bu strategiya, həmçinin Azərbaycanın regional liderliyini möhkəmləndirir və beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirir.

Nəticə

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur əraziləri Azərbaycanın tarixi torpaqları olmaqla yanaşı, ölkənin iqtisadi, sosial və strateji inkişafı üçün böyük potensiala malikdir. Ermənistanın işğalçı siyasəti və qeyri-qanuni fəaliyyətləri nəticəsində bu ərazilərdə ciddi ekoloji, iqtisadi və sosial zərərlər yaranmışdır. Habelə, Azərbaycan dövlətinin və Silahlı Qüvvələrinin birgə səyi nəticəsində bu torpaqlar azad edilmiş və bərpa prosesinə başlanmışdır. Bərpa işləri yalnız infrastrukturun və sənayenin yenidən qurulmasını deyil, həm də kənd təsərrüfatı, turizm, enerji, təhsil və sosial sahələrin inkişafını əhatə edir. Ərazilərin müasir dövrə uyğun iqtisadi reinteqrasiyası həm dayanıqlı və davamlı iqtisadi inkişafı, həm də yerli əhalinin sosial rifahının yüksəlməsini təmin edir. Azad edilmiş ərazilərin iqtisadi potensialının bərpası, investisiya cəlb edilməsi və innovativ layihələrin tətbiqi ilə regionun müasir iqtisadi struktura inteqrasiyası sürətlənir. Bu, ölkəmizin Qlobal İnnovasiya İndeksində mövqeyinin yüksəlməsi, beynəlxalq rəqabət qabiliyyətinin artması və Azərbaycanın regional liderliyinin möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Təbii sərvətlərin balanslı istifadəsi, ekoloji dayanıqlığın təmin olunması və "yaşıl enerji" prinsiplərinə əsaslanan bərpa proqramları ərazilərin uzunmüddətli inkişafına zəmin yaradır. Eyni zamanda, kənd təsərrüfatı, turizm, sənaye və infrastruktur layihələrinin kompleks şəkildə həyata keçirilməsi, həm daxili, həm də xarici investisiyaların səmərəli istifadəsini təmin edir. Nəticə etibarilə, Qarabağ və Şərqi Zəngəzurun iqtisadi bərpası və reinteqrasiyası Azərbaycanın davamlı sosial-iqtisadi inkişafını təmin edir, regionun strateji potensialını reallaşdırır və milli iqtisadiyyatın modernləşməsinə mühüm töhfə verir. Bu proses yalnız iqtisadi baxımdan deyil, həm də tarixi, mədəni və sosial baxımdan Azərbaycanın möhkəmlənməsini təmin edən əsas amil kimi qiymətləndirilir.

ƏDƏBİYYAT

1. Ağayev A. Yuxarı Qarabağ iqtisadi rayonu və kiçik biznesin inkişaf meyllərinin nəzəri-metodoloji əsasları. (2022). ISCEMR. s. 50, 52
2. Ağalarova N. Main directions of effective reintagement of the nationl economy of Azerbaijan in the released regions. ISCEMR. 2022. p. 723
3. Azərbaycan Respublikasının Prezidentinin Rəsmi Saytı. (2020). İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı üzrə dövlət proqramları. Bakı: Azərbaycan Respublikası
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2023). İqtisadi və sosial göstəricilər: Qarabağ və Şərqi Zəngəzur bölgələri. Bakı: Dövlət Statistika Komitəsi.
5. Əhmədzadə F. İşğaldan azad olunmuş ərazilərdə təbii ehtiyatlardan istifadənin səmərəliliyininin artırılması yolları və ərazilərin dirçəldilməsinin iqtisadi aspektləri. ISCEMR. s. 372
6. Əliyev, İ. (2021). Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin iqtisadi potensialı. Bakı: "Elm və Təhsil" Nəşriyyatı.
7. Əliyeva, N. (2023). Yaşıl enerji və ekoloji dayanıqlı bərpa layihələri Azərbaycanda. Bakı: "Təbiət və İnnovasiya" Nəşriyyatı.
8. Əliyev Ş. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının strateji aspektləri. Qərbi Kaspi Universiteti. Bakı. 2022. s. 117
9. Həsənov, R. (2022). Qarabağ və Şərqi Zəngəzur: Turizm və kənd təsərrüfatı perspektivləri. Bakı: Akademik Nəşrlər.
10. Quliyev E. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Monoqrafiya. "Kooperasiya" nəşriyyatı, Bakı, 2023. s. 320
11. Quliyev, S. (2021). İnfrastruktur layihələrinin regionların inkişafına təsiri. Bakı: İqtisadi Araşdırmalar Mərkəzi Nəşriyyatı.
12. Rəsmi qanunvericilik bazası. (2020). Azərbaycan Respublikasında investisiya və bərpa qanunvericiliyi. Bakı: Azərbaycan Respublikasının Milli Məclisi.
13. United Nations Development Programme (UNDP). (2021). Post-conflict economic recovery in Azerbaijan: Strategies and prospects. New York: UNDP.

Гюнель Вугар кызы Алмаммедова
магистрант,
almmmdovagunel49@gmail.com,
Азербайджанский Университет Кооперации
Наиля Камаль кызы Эйвазова
доктор философии по экономике, доцент,
eyvazova_71@mail.ru,
Азербайджанский Государственный Экономический Университет

Экономические проблемы природопользования в Карабахском и Восточно-Зангазурском экономических районах

Резюме

Одним из приоритетов современной экономической политики Азербайджанского государства является обеспечение экономического развития освобожденных земель. Восточный

Зангезур и Карабах обладают богатым экономическим потенциалом. Формирование инфраструктурной сети на этих территориях, реализация необходимых мер, а также мобилизация возможных элементов экономического потенциала, создание источников ВВП и формирование новых продуктивных направлений экономической деятельности дадут импульс развитию новых продуктивных сфер. Помимо культурного и древнего исторического наследия, рассматриваемые территории также обладают высококачественными ресурсами в области водных ресурсов, минеральных вод, сельского хозяйства, туризма, промышленности и других сфер. Кавказский регион на протяжении многих лет отличался как своим стратегическим положением, так и конфликтами интересов между региональными державами. Южный Кавказ играет роль важного стратегического моста, соединяющего Азию и Европу. Благодаря своим природным ресурсам и географическому положению, на протяжении всей истории он становился полем битвы могущественных держав. Основная поставленная цель – обеспечить равномерное развитие этих территорий путем эффективного использования их богатого экономического потенциала, обширных туристических возможностей и природных ресурсов. Все это рассматривается как важный импульс прогресса и возрождения наших территорий, очищенных от врага.

Gunel Vugar Almammedova
master,
almmmdovagunel49@gmail.com,
Azerbaijan Cooperation University
Naila Kamal Eyvazova
doctor of philosophy in economics, associate professor,
eyvazova_71@mail.ru,
Azerbaijan State University of Economics

Economic problems of nature use in the Karabakh and Eastern Zangazur economic regions

Summary

One of the main directions of the modern economic strategy of the Azerbaijani state is to develop the economy of the liberated territories. Eastern Zangezur and Karabakh have rich economic potential. The formation of an infrastructure network in these territories, the implementation of necessary measures will also give impetus to the mobilization of possible elements of economic potential, the creation of GDP sources, and the formation of new productive directions of activity for economic development. The territories in question contain, in addition to cultural and ancient historical heritage, high-quality resources in the fields of water, mineral waters, agriculture, tourism, industry and other areas.

The Caucasus, which has had geopolitical importance for centuries, also attracts attention as a conflict zone of regional powers. The South Caucasus, which connects the Asian and European continents, has high strategic importance. Due to its natural resources and geographical position, it has become a battlefield for powerful states throughout history. The main goal set is to ensure the equal development of these territories by effectively using their rich economic potential, extensive tourism opportunities and natural resources. All this is considered an important impetus for the progress and revival of our territories cleared of the enemy.

Səbinə İsfəndiyar qızı BAYRAMOVA
magistrant,
bayramovasebine135@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti
Tural Mahmud oğlu SALİFOV
sosiol elmlər üzrə fəlsəfə doktoru,
tural.salifov@atmu.edu.az,
Azərbaycan Turizm və Menecment Universiteti

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TARİXİ – MƏDƏNİ ABİDƏLƏRİN BƏRPASI İŞLƏRİNİN APARILMASI

Giriş

Vətən müharibəsi nəticəsində Azərbaycanın 27 ildən artıq düşmən tapdağı altında qalan torpaqları azad olundu. İşğaldan azad edilən ərazilərdə tarixi abidələrin müəyyənləşdirilməsi və mühafizə olunması məsələsi aktuallaşıb. Torpaqlarımızı 30 ilə yaxın müddətdə işğal altında saxlayan ermənilərin Qarabağda və ətraf rayonlarda törətdikləri dağıntıların miqyası hər kəsə məlumdur. Qeyd etmək lazımdır ki, tarixi tikililərimiz də erməni vandalizminin qurbanı olub. Azad edilən ərazilərdə aparılan quruculuq işlərinin mühüm bir istiqamətini dağıntılara məruz qalan tarixi-memarlıq komplekslərinin bərpa və konservasiyası, bölgədəki bütün abidələrin aşkar edilərək qeydiyyata alınması üçün arxeoloji axtarış işlərinin aparılması təşkil edir.

Hazırda Qarabağ bölgəsində dağıdılan infrastrukturun bərpasına yönələn kompleks işlər aparılır, müxtəlif sahələrin dirçəldilməsi üçün təkliflər hazırlanır, tədbirlər planları təsdiq edilir. Təbii ki, işğaldan azad olunan ərazilərdə bizi ciddi işlər gözləyir. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında da mühüm vəzifələr durur. Qarabağda müxtəlif səpkili elmi tədqiqatların aparılması üçün AMEA Rəyasət Heyətinin müvafiq qərarları ilə akademiyanın İqtisadiyyat İnstitutunun strukturunda Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzi yaradılıb, həmçinin AMEA-nın Qarabağ Regional Elmi Bölməsinin və Albanşünaslıq Elmi Mərkəzinin yaradılmasına dair işlərə start verilib.

Məlum olduğu kimi, Qarabağ bölgəsində zəngin mədəni və arxeoloji irs mövcuddur. İşğaldan azad olunmuş ərazilərdəki mədəniyyət obyektlərinin monitorinqi, ilkin inventarlaşdırılması və mühafizə tədbirləri barədə verilən məlumatda bildirildi ki, monitorinqlər zamanı dövlət qeydiyyatında olan 403 tarix-mədəniyyət abidəsinə baxış keçirilib. Dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 162 obyektin monitorinqi aparılıb. Bunlar Şuşa, Cəbrayıl, Füzuli, Zəngilan, Xocavənd, Qubadlı, Ağdam, Tərtər, Laçın və Kəlbəcər rayonlarını əhatə edir [2, s.158].

Dağlıq Qarabağın və ətraf rayonların abidələrinin tədqiq edilməsi, qədim və Orta əsrlər tarixinin öyrənilməsi, elmi araşdırmaların nəticələrinin beynəlxalq aləmdə yayılması qarşıdakı ən mühüm vəzifələrdir. Dağlıq Qarabağ və ətraf rayonların abidələrini əhatə edəcək tədqiqatlar sistemli şəkildə bir neçə mərhələdə həyata keçirilməlidir:

1. Birinci mərhələdə məlum abidələrin hazırkı vəziyyəti, onlara vurulan ziyanlar müəyyənləşdirilməlidir.

Son 30 ilə yaxın müddətdə işğal altında qalan abidələrimizə erməni vandallarının vurduğu ziyanlar müxtəlif olub. Bu barədə hələ tam məlumatımız olmasa da qədim dövr arxeoloji abidələrdə ermənilərin qeyri-qanuni qazıntılar apardığı, bu işə bəzi Avropa alimlərinin də cəlb edildiyi artıq heç kimə sirr deyil. Ən çox dağıntılara, vandalizm əməllərinə məruz qalan abidələrimiz isə İslam mədəniyyəti abidələridir. Məhz bu abidələri ermənilər mənimsəyə bilmədikləri üçün kütləvi şəkildə dağıdıblar. Çünki həmin abidələr üzərində ərəb əlifbası ilə epiqrafik yazılar olub. Bunlar məscidlər, qəbirüstü məzar daşları, türbələr və s. abidələrdir [4, s.92].

2. İkinci mərhələdə işğaldan azad edilmiş bütün ərazilərdə tarixi abidələrin aşkar edilməsi üçün arxeoloji axtarış işləri aparılmalıdır.

3. Həm əvvəllər məlum olan, həm də yeni aşkar edilmiş abidələrin pasportlaşdırılması işləri həyata keçirilməlidir.

4. Bütün bunlarla yanaşı, elmi əhəmiyyəti, tariximizin ayrı-ayrı mərhələlərinin tədqiqi üçün

aktuallığı müəyyən edilərək bir sıra abidələrdə uzunmüddətli arxeoloji qazıntı işləri aparılmalıdır.

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələri tərəfindən tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi məqsədilə abidələrin və mədəniyyət müəssələrinin monitorinqlərinə başlanılmışdır [11].

Aparılan monitorinqlər zamanı 571 mədəniyyət müəssisəsi aşkar edilmişdir ki, onlardan 286-sı kitabxana, 237-si mədəniyyət evi və klub müəssisəsi, 19-u muzey, 24-ü uşaq musiqi məktəbi, 1-i kinoteatr, 2-si teatr, 2-si qalereyadır. Müəssisələrin hamısı demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir [6, s.73].

Beynəlxalq təşkilatların, o cümlədən BMT-nin ixtisaslaşmış müəssisələrinin son 30 ildə həyata keçirməli olduğu faktaraşdırıcı missiyalar təşkil edilmədiyinə görə inventarlaşdırma prosesi boşluğu doldurmalı olmuşdur. Hazırkı monitorinq Ermənistan Respublikasının 30 illik işğalı nəticəsində tarix-mədəniyyət abidələrinə qarşı törətdiyi qanunsuz hərəkətləri həmin ərazilərin hansı vəziyyətdə təhvil alındığını müəyyənləşdirməyə imkan vermişdir.

Ermənistan tərəfinin mədəniyyət obyektlərinə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur [5, s. 266].

Zəfər gününün birinci ildönümünə həsr edilmiş "Böyük Qayıdış: mədəniyyətin dirçəlişi" adlı beynəlxalq konfrans da yaddaqalan olub. Tədbirdə yerli və xarici qonaqlar, ekspertlər, eləcə də dövlət rəsmiləri və diplomatik korpusun nümayəndələri iştirak ediblər [9].

Prezident İlham Əliyev tərəfindən 2022-ci ilin "Şuşa ili" elan edilməsi qarşıda yeni vəzifələr və məqsədlər qoymuşdur. Ötən il ərzində Şuşa şəhərində yerləşən abidələrin elektron xəritəsi tərtib edilib. Şuşada aparılan monitorinq çərçivəsində 45 tarixi abidənin üzərinə məlumat lövhələri quraşdırılıb. Eyni zamanda Şuşa şəhərində dövlət qeydiyyatına alınmış tarix-memarlıq abidələrinin kataloqu hazırlanıb. Hazırda "Şuşa - Azərbaycan mədəniyyətinin paytaxtı" adlı nəşrin çap olunması ilə bağlı işlər davam etdirilir.

Bundan əlavə, Şuşa şəhərində abidələrin "Bərpa təlimatı" hazırlanıb. Sənəddə işğalın nəticələri və səbəb olduğu dağıntılar, abidələrin monitorinqi və inventarlaşdırılması, abidələrin bərpası və regenerasiyası, bərpa prosesi, onların identifikasiya və lokalizasiya məlumatları, tikililərin tipologiyası və xüsusiyyətləri, abidələrin bərpa statusu və risk faktorları, qorunması üçün təcili mühafizə tədbirləri, tarixi-memarlıq tədqiqatları və memarlıq tipologiyası öz əksini tapıb [10].

Nəticə

İşğaldan azad olunmuş şəhər və rayonlarda tarix-mədəniyyət abidələrinin qorunması və bərpası ilə əlaqədar "Yol xəritəsi" hazırlanaraq təqdim olunub. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin müraciəti əsasında Şuşa, Ağdam və Füzuli rayonlarının baş planları ilə bağlı müvafiq rəy də hazırlanıb, aidiyyəti üzrə müəyyən təşkilata göndərilib. Eyni zamanda Xocavənd rayonunda "Azıx-Tağlar mağara düşərgələri" Dövlət Tarix-Arxeoloji Qoruğunun təsis edilməsi məsələsi ilə bağlı müzakirələr aparılıb.

Ötən il Ağdam şəhərində Üzərliktəpə arxeoloji abidəsinin, Cümə məscidinin, İmarət abidələr kompleksinin, Qiyaslı kənd məscidinin bərpası ilə bağlı konsept və layihələr də hazırlanıb, Üzərliktəpə yaşayış yerində arxeoloji qazıntıların aparılması təşkil olunub [11].

Ermənistan hərbi-siyasi rəhbərliyinin Azərbaycan xalqına məxsus tarix və mədəniyyət abidələrinin dağıdılması, mənimsənilməsi və öz tarixi təyinatına uyğun olmayan şəkildə istifadəsinə görə məsuliyyətə cəlb olunacağına və layiqli cəzalarını alacaqlarına tam əminik.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, Bakı, 2001, s.54
2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Qarabağ – İrsimizin yaddaşı, Bakı, 2008, s.379
3. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Mədəni irsə vurulan zərər, 2may 2021
4. İsmayılov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər, Bakı, 2016, s.174
5. İsmayılov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinin beynəlxalq-hüquqi qorunması, Bakı, 2015, s.328
6. İsmayılov F. Tarix və mədəniyyət abidələrinin qorunması istifadəsi və bərpası barədə təlimatlar, Bakı, 2013, s.207
7. Məmmədov R., Əfəndiyeva H. Azərbaycan Respublikasının tarix və mədəniyyət abidələrinin beynəlxalq-hüquqi qorunması, Bakı, 2015, s.328
8. YUNESKO Mədəni dəyərlərin qorunmasına dair hərbi təlimat, Paris, 2016, s.49
9. www.dsk.gov.az
10. www.mct.gov.az
11. www.historicalmuseum.az
12. www.google.az

Сабина Исфандияр кызы Байрамова
магистрант,
bayramovasebine135@gmail.com,
Азербайджанский Университет Кооперации
Турал Махмуд оглы Салифов
доктор философии по социальных наук,
tural.salifov@atmu.edu.az,
Азербайджанский Университет Туризма и Менеджмента

Проведение работ по восстановлению историко-культурных памятников на освобожденных территориях

Резюме

В статье рассматривается состояние историко-культурных памятников на освобожденных карабахских землях, ход их исследования, реставрации и охраны, а также предпринимаемые в этом направлении шаги. Восстановление наших историко-культурных памятников, разрушенных в результате армянского вандализма на исторических азербайджанских землях после Второй Карабахской войны, и проведение археологических раскопок на месте вновь обнаруженных памятников являются задачами, поставленными для достижения поставленной цели. В статье отражены меры, предпринимаемые в этой связи в сфере международного сотрудничества.

Sabina Isfhandiyar Bayramova
master,
bayramovasebine135@gmail.com,
Azerbaijan Cooperation University
Tural Mahmud Salifov
doctor of philosophy in social sciences,
tural.salifov@atmu.edu.az,
Azerbaijan Tourism and Management University

Restoration works of historıcal and culture monuments in the liberated territories

Summary

The article talks about how the research, restoration and protection of the historical and cultural monuments of the lands of Karabakh freed from occupation are carried out, and what steps have been taken in this direction. Restoration of our historical and cultural monuments destroyed by

Armenian vandalism in Azerbaijani lands after liberation, conducting archaeological excavations in the place of newly discovered monuments are the tasks set to achieve the set goal. The events held in the field of international cooperation are reflected in the article.

Vəfa Faiq qızı HÜSEYNOVA
magistrant,
Firuzə Qaraxan qızı ABBASOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
fira_elli@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti

YAŞIL ENERJİ ZONASI KONSEPSİYASI VƏ QARABAĞIN EKOLOJİ DİRÇƏLİŞİ

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları zəngin təbii və enerji resurslarına malikdir. İşğaldan azad olunmuş bu bölgələrin bərpası və dayanıqlı inkişafı üçün bir sıra kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri "Yaşıl enerji zonası" konsepsiyasıdır. Bu təşəbbüs yalnız enerji istehsalını deyil, həm də ekoloji bərpanı, sosial rifahın yüksəldilməsini və regionun iqtisadi inkişafını təmin etmək məqsədi daşıyır.

Bərpa olunan enerji mənbələri (günəş, külək, hidro) Qarabağ regionunun iqtisadi və ekoloji potensialını artırmaq üçün əsas alət kimi istifadə olunur. Bu təşəbbüs həmçinin beynəlxalq standartlara cavab verən ekoloji siyasətin formalaşmasına töhfə verir, yerli əhali üçün iş yerləri yaradır və sosial rifahı gücləndirir.

Azərbaycan ənənəvi enerji resursları ilə zəngin olmaqla yanaşı, bərpa olunan enerji mənbələri üzrə də yüksək potensiala malikdir. Dövlət Agentliyi yarandığı ilk günlərdən etibarən bərpa olunan enerji mənbələrindən istifadə, ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə sahəsində bir sıra tədbirlər həyata keçirir. Energetika Nazirliyi ilə sinerji şəraitində fəaliyyət göstərən Agentlik 2030-cu ilə qədər bərpa olunan enerji stansiyalarının payını ümumi enerji balansında 30%-ə çatdırmaq hədəfini irəli sürüb.

Hazırda Azərbaycanın ümumi elektrik enerjisi istehsalı gücü 7530 MVt, iri su-elektrik stansiyaları daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1293 MVt təşkil edir ki, bu da ümumi gücün 17.2%-ni təşkil edir. İlkin hesablamalara görə, ölkənin bərpa olunan enerji potensialı 27 GVt-dir ki, bunun böyük hissəsi günəş və külək enerjisinə aiddir.

Ölkədə bərpa olunan enerji layihələrinin inkişafı üçün xarici və özəl investisiyaların cəlb olunması, beynəlxalq şirkətlərlə əməkdaşlıq və qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində işlər aparılır. Bu tədbirlər Qarabağda yaşıl enerji zonalarının sürətlə tətbiqinə dəstək verir.

Green Qarabağ layihəsi və Tərtər–Laçın Kiçik Su-Elektrik Stansiyası

"Green Qarabağ" layihəsi çərçivəsində "Tərtər-1, Minkənd, Qalaca, Malıbəy" Kiçik Su-Elektrik Stansiyası layihəsi həyata keçirilir. Bu layihənin əsas məqsədi işğaldan azad olunmuş ərazilərdə alternativ enerji mənbələrindən istifadə etməklə həm gəlir əldə etmək, həm də regionun enerji təminatını təmin etməkdir.

Kəlbəcər rayonu ərazisində stansiyanın bir hissəsi İstisu hövzəsində, Laçın rayonu ərazisində isə Həkəri çayı üzərində beş nöqtədə – Minkənd, Qalaca və Malıbəy kəndləri daxil olmaqla – inşa olunur. Əvvəlcə suyun toplanma məntəqələri tikilir, sonra isə turbinlərin quraşdırıldığı enerji bölməsi inşa edilir. Suyun axın gücü turbinləri hərəkətə gətirərək elektrik enerjisi yaradır.

Layihənin həyata keçirilməsi nəticəsində Laçın, Kəlbəcər və ətraf rayonlar dayanıqlı enerji mənbəyi ilə təmin olunacaq. Stansiyaların tikintisini xüsusi sektor həyata keçirir və iki il ərzində layihədən gəlir əldə etdikdən sonra obyekt tam şəkildə dövlətə – "Azərişıq" ASC-nin tərkibinə təhvil veriləcək.

Layihənin əsas məqsədi çayların yaz, yay və payız mövsümlərində artan sularından istifadə etməklə elektrik enerjisi istehsal etməkdir.

Enerji səmərəliliyi, sosial və ekoloji təsir

"Yaşıl kənd" və "yaşıl şəhər" layihələri çərçivəsində enerjiyə qənaət edən texnologiyaların tətbiqi, dam günəş panellərinin quraşdırılması, elektrik nəqliyyatının istifadəsi və tullantıların təkrar emalı planlaşdırılır. Bu tədbirlər karbon emissiyasını azaldır və dayanıqlı yaşayış mühitini təmin edir.

Bərpa olunan enerji layihələri iqtisadi baxımdan da əhəmiyyətlidir. Yeni enerji infrastrukturu investisiya cəlbediciliyini artırır, yerli əhali üçün iş yerləri yaradır və sosial rifahı yüksəldir. Perspektivdə hidrogen enerjisi texnologiyalarının tətbiqi nəzərdə tutulur ki, bu da regionun enerji ixrac potensialını artıracaq.

"Yaşıl enerji zonası" konsepsiyası yalnız enerji istehsalını deyil, həm də ekoturizmin inkişafını və sosial rifahı gücləndirməyi nəzərdə tutur. Bu təşəbbüs çərçivəsində ekoloji təhsil proqramları, əhalinin enerji səmərəliliyi barədə maarifləndirilməsi və "yaşıl düşüncə" tərzinin formalaşdırılması tədbirləri həyata keçirilir.

Ekosistemlərin bərpası, mina və hərbi tullantıların təmizlənməsi, meşə və su hövzələrinin bərpası Qarabağın dayanıqlı ekoloji sisteminin yaradılmasına xidmət edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Enerji Agentliyi (AREA). "Yaşıl enerji zonası" layihəsi. https://area.gov.az/az/page/layiheler/yasil-enerji-zonasi/yasil
2. "Xalq Qəzeti". "Qarabağda yaşıl enerji inkişaf potensialı". https://xalqqazeti.az/az/iqtisadiyyat/184674-qarabagda-yasil-enerji-inkisaf-potensiali
3. Azərbaycan Respublikası Energetika Nazirliyi. Rəsmi hesabatlar, 2024.
4. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri. 7-ci məqsəd: "Hamı üçün əlçatan və təmiz enerji".
5. Azərbaycan Respublikasının Bərpa Olunan Enerji Mənbələri üzrə Strategiyası, 2023.
6. World Bank. Renewable Energy Development Projects in Azerbaijan. 2022.

Вафа Фаиг кызы Гусейнова
Фируза Гарахан кызы Аббасова
доктор философии по экономике, доцент,
fira_elli@mail.ru,
Азербайджанский Университет Кооперации

Концепция зеленой энергетической зоны и экологическое возрождение Карабаха

Резюме

В статье рассматривается реализация концепции «Зелёная энергетическая зона» в экономических районах Карабах и Восточный Зангезур и её влияние на экологическое, экономическое и социальное возрождение региона. Проекты возобновляемой энергетики, восстановление повреждённых экосистем, разминирование и внедрение «зелёных» технологий анализируются. Проект «Зелёный Карабах», включая малые гидроэлектростанции Тертэр–Лачин, направлен на использование сезонных вод рек для производства электроэнергии, поддержку местных сообществ и последующую передачу проекта государству.

Vafa Faig Huseynova
master,
Firuza Garakhan Abbasova
doctor of philosophy in economics, associate professor,
fira_elli@mail.ru,
Azerbaijan Cooperation University

Green energy zone concept and ecological revival of Karabakh

Summary

The article analyzes the implementation of the "Green Energy Zone" concept in the Karabakh and East Zangazur economic regions and its impact on ecological, economic, and social revitaliza-

tion. Restoration of renewable energy projects, rehabilitation of damaged ecosystems, demining, elimination of environmental risks, and adoption of green technologies are examined. The paper also studies the development of ecotourism and social welfare initiatives within the framework of the "Green Energy Zone" concept. The Green Karabakh project, including the Tartar–Lachin small hydroelectric stations, aims to utilize seasonal river flows to generate electricity, support local communities, and ultimately transfer the project to the state.

Kamran Kamil oğlu ASLANOV
magistrant,
Elnur Qara oğlu ALLAHVERDİYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCAN İQTİSADİYYATINDA TURİZMİN YERİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Turizm sənayesinin müasir dövrdə inkişaf etdirilməsi bütün dünya ölkələrinin , o cümlədən Azərbaycan iqtisadiyyatının da prioritet istiqamətlərindən sayılır. İnkişaf etmiş turizm sənaye ölkələrində rəqabət qabiliyyətinin vəziyyətinə və onun artırılması amillərinin tədqiqi ilə məşğul olan milli institutlar, təşkilatlar, komissiyalar fəaliyyət göstərir. Bu, onunla əlaqədardır ki, turizmin inkişafının strateji məqsədləri iqtisadi fəallığın coğrafi mövqeyinin artmasına , məşğulluğun səviyyəsinin yüksəlməsinə, iqtisadi gəlirlərin çoxalmasına səbəb olur. Nəticə etibarı ilə ÜDM-in artımı və ya əmək məhsuldarlığı göstəriciləri ölkə iqtisadiyyatının davamlı inkişafını təmin edir.

Turizm sənayesi sürətlə inkişaf edən və dinamikliyinə görə fərqlənən xidmət sahələrindən olmaqla, yerli icmaların məşğulluğunun təmin olunmasında, əlavə dəyər yaradılmasında mühüm rola malikdir. Müasir dünyada və qlobal iqtisadi sistemdə turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən və gəlirli sahələrindən biridir. Dünya Səyahət və Turizm Şurasının (WTTC) pandemiyadan əvvəlki son hesabatına görə, səyahət və turizm sektorunda qlobal miqyasda 10,4% ÜDM olmaqla 319 milyon iş yeri yaradıb və dünya iqtisadiyyatında 0.7% artım təmin edilib. Turizmin iqtisadiyyatda rolu iqtisadi siyasətdə və ölkənin beynəlxalq əlaqələrində öz xüsusi çəkisi ilə müəyyənləşir. Turizmin gəlirləri dövlət gəlirlərinin, əhali və sahibkarların gəlirlərinin tərkib hissəsidir. Bu səbəblərdən də ölkədəki turizm onun iqtisadi və sosial potensialının inkişafına və idarə olunmasına təsir edir. Ölkədə turizmin inkişafı və iqtisadiyyatdakı payını artırmaq məqsədilə dövlət tərəfindən müxtəlif siyasət və proqramlar həyata keçirilir. Ölkədə turizm sektorunun inkişafında iki dövlət proqramı (2002-2005 və 2011-2014), strateji yol xəritəsi (2016), 2023-2026-cı illəri əhatə edən turizm strategiyası və işğaldan azad olunmuş ərazilərdə TRZ yaradılması istiqamətlərini qeyd etmək olar. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" haqqında sərəncamında regionda iqtisadiyyatın tarazlı inkişafı, kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi, digər təsərrüfat sahələri ilə paralel turizm infrastrukturunun bərpası, mövcud potensialdan səmərəli istifadə etməklə rəqabətə davamlı turizm destinasiyalarının inkişafı dəstəklənir. Onu da qeyd edək ki, postpandemiya dövründə turizm sektorunun bərpası dayanıqlı xarakter almış, gəlmə turizmin payı 2023-cü ildə 2,1 mln nəfər, ÜDM-də payı 2,5% -ə çatmışdır. Bu artım ölkədə turizmin pandemiyaya qədər 2019-cu il göstəricilərinin gəlmə turizmi üzrə 80,9%-ni, ÜDM üzrə 80%-ni təşkil etmişdir. [3]

Bölgənin zəngin turizm potensialının təbii irsə aid olan ekzotik landşaftı, təbiət abidələri, çayları, gölləri, eko-sağlamlıq irsinə daxil edilən zəngin mineral və termal suları, fitobitkiləri, oksigenlə zəngin saf havası, mədəni, tarixi-dini, etno-mədəni irsinə beynəlxalq ölkə əhəmiyyətli tarixi-memarlıq, arxeoloji, dini abidələr və onların bir çox yaşayış məntəqələrində yığcam yerləşməsi, icmaların etno ənənələri, qonaqpərvərlik və qurman turizm imkanları bir çox turizm növlərinin inkişafını şərtləndirmiş olur. İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişafını şərtləndirən

amillərdən biri də beynəlxalq təcrübənin öyrənilməsi və yerli amilləri nəzərə almaqla ondan bəhrələnməkdən ibarətdir. Bu baxımdan tədqiqat ərazisində beynəlxalq analoqların təhlili nəticəsində "boz" zonalar və ən yaxşı təcrübələr kimi tətbiqlərin öyrənilməsinə üstünlük verilmişdir. Ən yaxşı təcrübələrinin tətbiqdə mövcud potensialdan səmərəli istifadə etməklə davamlı turizmin inkişafına nail olunması, mədəni, eko-mədəni, etno-mədəni, aqro-eko, eko-sağlamlıq, istirahət, tədbir, kreativ sənayeyə əsaslanan turizm, açıq hava turizm fəaliyyətlərinin formalaşdırılması, həmçinin regionun ölkə iqtisadiyyatına reinteqrasiya üçün əlavə dəyərin yaradılması mümkündür. Ən yaxşı təcrübələrin öyrənilməsində mədəni və təbii irsin birgə istifadə edilməsində maraqlı tərəflərin analizi, turizm klasterlərinin formalaşdırılmasının səmərəliliyinin əsaslandırılması, gələcək məskunlaşmada turizm potensialından istifadənin prioritet olması tədqiqat işinin aktuallığını şərtləndirir.

Turizm iqtisadiyyatının inkişaf etdirilməsi baxımından turist tələbi kütləvi və sosial kateqoriyadır. Bu kateqoriya artıra və ya azalda bilən çoxsaylı amillər əsasında formalaşır.Turizm bazarında tələbin dəyişməsinə təsir göstərən ən vacib və əhəmiyyətli amillər aşağıdakılardır.

Ümumi iqtisadi amillər: kütləvi istehlakçının maddi rifah səviyyəsi; işləyən əhali arasında iş və boş vaxtın nisbəti; xüsusi investisiya sahələri; turizmin inkişafı proqramlarının hazırlanması. [6]

Sosial-demoqrafik amillər: yaş; mərtəbə; peşə; təhsil; sosial qrup; ailə vəziyyəti; əmlak vəziyyəti; ailə tərkibi; yaşayış bölgəsi; şəhər və ya kənd; turistlərin yaşadığı qəsəbənin ölçüsü; işğal.

Mədəni və sosial-psixoloji amillər: cəmiyyətin mənəvi dəyərləri sistemindəki prioritetlər; istehlak psixologiyası; geniş kredit proqramları

Şəxsi və davranış amilləri: fərdi xüsusiyyətlər; həyat tərzi; boş vaxtınızdakı maraqlar; mənəvi dəyərlər sistemi; hədəf parametrləri; motivlər; yay təfəkkürü; həcc. Bir çox ədəbiyyatlarda turizm bazarının yerinə yetirdiyi çoxsaylı funksiyalar qeyd olunur. Bunlara məlumat, vasitəçilik, tənzimləmə, qiymət, stimullaşdırıcı, yaradıcı-dağıdıcı və fərqləndirici kimi funksiyaları göstərmək olar. Qeyd olunanlardan başqa, turizim bazarına əsas funksiya kimi aşağıdakıları aid etmək olar:

1) turizm məhsulunda olan dəyər və istehlak dəyərinin həyata keçirilməsi;
2) turizm məhsulunun istehlakçıya (turistə) çatdırılması prosesinin təşkili;
3) işə maddi həvəsləndirmələrin iqtisadi dəstəyi.

Birinci funksiyanı turist bazarının yerinə yetirməsi prosesində bir turist məhsulu üçün pul mübadiləsi şəklində dəyər hərəkəti olur. Bu mübadilənin tamamlanması əmtəə-pul münasibətləri aktının tamlığı, turizm məhsulunda olan dəyərin reallaşması və onun istehlak dəyərinin ictimaiyyət tərəfindən tanınması deməkdir. Nəticə etibarilə, normal çoxalma kursu təmin edilir və turizm sənayesinin inkişafı üçün vəsait yaranır. Bölgələrdə çox sayda kiçik biznesi özündə cəmləşdirərək inkişaf etmiş turizm infrastrukturundan daha çox yerli sakinlər bəhrələnirlər ki, bu da öz növbəsində əhalinin sosial vəziyyətinin yaxşılaşmasına gətirib çıxarır. Belə ki, turizm gəliri tez bir zamanda ev sahibi olan bölgələrin əhalisinin ən geniş təbəqələri arasında bölüşdürülür, yəni bütün cəmiyyət iqtisadi fayda əldə edir. Bildiyimiz kimi, turistlər əsasən digər ölkələrdən və bölgələrdən gəlir və ev sahibi olan hökumət üçün hər bir turistin xərclədiyi vəsait vergi bazasının genişlənməsi deməkdir. Müntəzəm satış vergisinə əlavə olaraq, bəzən daha az birbaşa vergi ödəyirlər. Hava limanı və viza haqları, giriş və gömrük rüsumları turistlərə tətbiq olunan vergi metodlarından yalnız bir neçəsidir. Turizmin inkişafının müsbət nəticələri ilə yanaşı, onun mənfi təsirini - qondarma turizm monokulturasının inkişafını da unutmaq olmaz. Torpaq, mənbələr və kapital uğrunda rəqabətdə turizm yerli sakinlər üçün kənd təsərrüfatını və digər ənənəvi gəlir mənbələrini sıxışdırır.Turizm sənayesində əməkhaqqının daha yüksək səviyyədə olması kənd təsərrüfatından işçi qüvvəsinin axınına səbəb olur. Nəticədə, kənd təsərrüfatı məhsulu azalır, çoxsaylı turistlərin gəlməsi səbəbindən istehlak artır. Eyni zamanda kütləvi turizm yerlərində ənənəvi həyat tərzi və təbii mənzərə pozulur və ya tamamilə məhv edilir. Bununla da turizm bəzən iqtisadiyyatın şaxələndirilməsinə töhfə verməklə kənd təsərrüfatı sahəsinin tamamilə sıradan çıxmasına səbəb olur. Turizmin sürətli inkişafı bölgə və onun sakinləri tərəfindən ödənilən müəyyən sosial xərclər və əlavə ekoloji xərclər yaradır. Turizmin çox sürətli inkişafı və ondan tam asılılığı bir dilemma yaradır.Bir tərəfdən, onun inkişafının dayandırılması iqtisadi geriləməyə təhrik edirsə, digər tərəfdən, turizmin inkişafı məhdudlaşdırılmasa, ölkənin təbii və mədəni sərvətləri yox olması,

aşınılaraq tamamilə məhv olmasına səbəb ola bilər. Bəzən inkişaf etməkdə olan ölkə hökumətləri turizmə çox nikbin baxırlar. Turizmin inkişafına yönəlmiş aktiv investisiya proqramları həyata keçirirlər və prioritet xarakter daşıyırlar. Müəyyən hallarda bu yanaşma daha əhəmiyyətli milli investisiya tələbatından narazılığa səbəb ola bilər. Məsələn, turizmə qoyulan pullar təhsil, səhiyyə və digər sosial ehtiyaclara xərclənə bilər. Turizm inkişafı bəzən bölgələrdə inflyasiyaya səbəb olur. "Turist" pulu səbəbindən gəlirinin artması inflyasiya təzyiqlərinə səbəb ola bilər. Zəruri malların qiymətləri artır: ərzaq, geyim, mənzil və nəqliyyat. Turist bölgələrində, bir qayda olaraq, torpaq qiymətləri xüsusilə sürətlə böyüyür. Xaricilərin tətil müddətində turizm bölgəsində yerləşməsi üçün ödəməyə hazır olduqları qiymət gəlirləri nisbətən az olan və sadəcə inkişaf etmiş turizm sənayesi olan ərazilərdə mənzil bazarından sıxışdırılan yerli sakinlərin özləri tərəfindən mənzilə olan ödəmə tələbini kəskin azalda bilər. [4]

Turizmin iqtisadiyyata təsiri yalnız birbaşa gəlirlərdən ibarət deyil. Bu sektor bir çox sahənin inkişafına və qarşılıqlı əlaqəsinə səbəb olur. Nəqliyyat, yaşayış, xidmət sahələri və kənd təsərrüfatı kimi sektorlarda turizmin artan tələbi ilə bağlı inkişaflar baş verir. Həmçinin, turizm sektoru geniş infrastruktura ehtiyac duyduğundan, bu sahədəki investisiyalar yeni yolların, hava limanlarının, otellərin, restoranların və digər xidmət obyektlərinin inşasına gətirib çıxarır. Bu da uzunmüddətli iqtisadi faydalar yaradır və regionların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırır . Eyni zamanda, turizm sektoru xarici valyuta axınını təmin edərək, ölkənin tədiyyə balansına müsbət istiqamətdə təsir edir. Turizmin xarici iqtisadi əlaqələri inkişaf etdirməsi, ölkəyə gələn sərmayələri artırması beynəlxalq ticarətin güclənməsinə şərait yaradır. Bununla yanaşı, turizmin kənd təsərrüfatı və yerli istehsal sahələrinə də müsbət təsiri vardır. Turistlərin tələbatını ödəmək üçün yerli məhsulların istehsalının artırılması kənd yerlərində iqtisadi fəallığı yüksəldir və həmin bölgələrdə yerli iqtisadiyyatın canlanmasına səbəb olur. Bundan əlavə, turizm sektorunun inkişafı kiçik və orta biznеslərin inkişafını təşviq edir, yeni biznes modellərinin yaranmasına şərait yaradır. Yerli iqtisadiyyata yeni investorların cəlb edilməsi sahibkarlığın böyüməsinə, işgüzar mühitin yaxşılaşmasına təkan verir. Bu baxımdan, turizm iqtisadiyyatın geniş sahələrinə müsbət təsir edərək, ölkələrin ümumi iqtisadi inkişafına öz töhfəsini verir.

Turizmin iqtisadiyyata olan çoxşaxəli təsiri həm birbaşa, həm də dolayı yolla hiss olunur. Bu sahənin inkişafı yalnız iqtisadi artımı təmin etməklə kifayətlənmir, həm də sosial və mədəni baxımdan faydalar yaradır. Bu səbəbdən turizm sektoru strateji iqtisadi fəaliyyət sahəsi olaraq qiymətləndirilməli və onun inkişafı üçün davamlı strategiyalar hazırlanmalıdır. Əgər turizmin potensialı tam şəkildə istifadə edilərsə, ölkələr əhəmiyyətli iqtisadi faydalar əldə edə bilərlər. Bu tədqiqat göstərdi ki, turizmin inkişafı yalnız iqtisadi artım deyil, həm də sosial rifahın artırılması və ekoloji dayanıqlılığın təmin edilməsi baxımından vacibdir. [5] Turizm sektoru müasir iqtisadiyyatın vacib tərkib hissəsidir və iqtisadiyyatın digər sahələrinə mühüm təsir göstərir. Bu sektor yalnız gəlir gətirməklə qalmır, həm də infrastruktura, kənd təsərrüfatı və yerli istehsal sahələrinə təsir edir. Turizm, həmçinin yeni iş yerləri yaradaraq məşğulluğu artırır və xarici valyuta axını təmin edir.

Müasir dövrdə ölkədə turizmin inkişafının əsas istiqamətləri, makro və mikroiqtisadi təsirləri azaltmaq, işğaldan azad olunmuş ərazilərin turizm potensialının müəyyən edilməsindən ibarət olmalıdır. Azərbaycanda turizm sənayesinin müasir vəziyyəti və inkişaf istiqamətləri iqtisadiyyatın qeyri-neft sektorunun əsas sahələrindən biri olması, əlavə iş yerləri yaradan, yol və mehmanxana tikintisinin inkişafını sürətləndirən, ənənəvi sənətkarlığın və milli mədəniyyətimizin qorunub saxlanmasına töhfə verən sahə kimi təhlil edilir. Azərbaycanda turizm strategiyasının 2023-2026-cı illərdə əsas turizm istiqamətləri müəyyən edilmişdir. Turizm strategiyasının doqquz təməl istiqaməti müəyyən edilmişdir ki, turizm sektorunun ÜDM payının artırılması, iqtisadiyyata birbaşa təsirlərinin yüksəldilməsi və əhalinin məşğulluğunun təmin edilməsi kimi istiqamətləri əhatə edir. Eyni zamanda, strateji yol xəritəsində müəyyən edilən hədəf ölkələrlə hava nəqliyyatı əlaqələrinin təkmilləşdirilməsi və əlçatanlığın təmin olunması istiqamətində tədbirlər görülür.

Ölkənin iqtisadi inkişafında turizm sektorunun rolu, dinamikliyinin təmin edilməsi iqtisadiyyatın ümumi inkişafı ilə birbaşa müəyyən edilir. ÜDM-də turizm sənayesinin birbaşa təsirləri son illər dinamik olaraq artsa da, bu, iqtisadi inkişaf üçün stimul rolu oynamışdır. ÜDM-in turizm

sənayesində payının artması daha çox mikroiqtisadi təsirlərdə özünü göstərir ki, bu da regionlarda əhalinin gəlirlərinin formalaşmasında əhəmiyyətli olmuşdur. ÜDM-də turizmin birbaşa təsirlərinin əsasən 3,5-4,5% arasında dəyişməsi iqtisadiyyatın strukturunda yanacaq energetika balansı çox olan ölkələr üçün normal göstərici sayılır.

Turizm fəaliyyətinin ərazi təşkili potensialını qiymətləndirmə yeni yanaşmaları ortaya qoyur ki, bu da çoxkriteriyalı və strateji inkişaf istiqamətlərini şərtləndirir. Reytinq qiymətləndirilməsində turizm potensialının böyüklüyünə görə hansı rayonun daha prioritet hesab olunduğu müəyyən edilir və ərazilər həmin göstəriciyə görə müvafiq şəkildə sıralanır. İşğaldan azad olunmuş ərazilərin turizm potensialına reytinq qiymətləndirilməsində onların növ müxtəlifliyi, rayonlar üzrə təminat səviyyəsi və çoxkriteriyalı qiymətləndirmədən əldə olunan nəticələr əsasında müəyyən edilmişdir. Belə ki, sağlamlıq turizm potensialına görə Kəlbəcər, Laçın, Şuşa rayonları digər regionlarla müqayisədə üstün mövqeyə malikdir. Bu rayonlarda termal müalicəvi sular, balneoloji-iqlim resursları, fito müalicə imkanları və cəlbedici landşaft amilləri digər rayonlardan üstündür və daha perspektivli sayılır. [2]

Son dövrlərə qədər Azərbaycanda turizm potensialından tam həcmdə istifadə edilməməsi və bunun nəticəsində, ölkənin sosial-iqtisadi inkişafında turizmin rolunun kifayət qədər qiymətləndirilməməsi müşahidə olunurdu. Azərbaycan Respublikası hökumətinin sosial və iqtisadi inkişafın regional (əsas) aspektlərinə diqqətinin artırılması, bu sahədə nəzəri tədqiqatların gözəçarpacaq dərəcədə artmasına səbəb olmuşdur. Müasir dövrdə Azərbaycanda, ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edə biləcək turizmin fəaliyyət göstərməsi problemi yalnız son zamanlar araşdırma obyekti olmuşdur, buna görə də, onu az tədqiq olunmuş mövzulara aid etmək olar. Yuxarıda deyilənləri rəhbər tutaraq, demək olar ki, turizm fəaliyyətinin inkişafının əsas meyllərinin üzə çıxarılması və təhlili və (5) ölkə iqtisadiyyatının dayanıqlı inkişafının təmin edilməsində onun rolunun müəyyən edilməsi aktual problemdir, Azərbaycanda turizm industriyasının vəziyyətinin müəyyən edilməsi və onun sonrakı inkişaf perspektivlərinin təhlili isə - ölkənin iqtisadi tərəqqisinin təməl daşıdır

Qarşıya qoyulan məqsədə müvafiq olaraq, aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

1. Turizm və ölkə iqtisadiyyatının dayanıqlı inkişafının təmin edilməsinin əsas yolları arasında qarşılıqlı əlaqələrin tədqiq edilməsinə nəzəri yanaşmaları müəyyən etmək;
2. Turizm fəaliyyətinin əhəmiyyətini qeyd etmək və bu fəaliyyətin dayanıqlı inkişafa təsir edən potensial ehtiyatlarını müəyyən etmək;
3. Azərbaycanın sosial-iqtisadi inkişafında turizmin rolunu qeyd etmək;
4. Azərbaycanda turizmin inkişaf səviyyəsini qiymətləndirmək və ölkədə bu sahənin rəqabətqabiliyyətinin artırılması yollarını göstərmək;
5. İnvestisiyaların cəlb edilməsini ölkədə turizmin inkişafında strateji məqsəd kimi əhəmiyyət daşıdığını qeyd etmək və turizmə qoyulan investisiyaların təkmilləşdirilməsi yollarını göstərmək;
6. Müasir rəqabətqabiliyyətli sahənin formalaşmasında turizmin maddi-texniki bazasının rolunu qeyd etmək və onun möhkəmlənməsi yollarını göstərmək;
7. Xidmət sahəsinin vəziyyətinin ölkə iqtisadiyyatının inkişafına təsirini qiymətləndirmək və onun əsas inkişaf istiqamətlərini əsaslandırmaq.

Tövsiyə xarakterli qeyd etdiyimiz bəndlər ölkə iqtisadiyyatının inkişafında turizm xidmətinin rolunun artırılmasına xidmət etməklə yanaşı, kompleks inkişafın təmin edilməsinə də kömək edər. Eyni zamanda məşğulluq problemlərinin azaldılması, əhalinin ölkədaxili yerdəyişməsinin qarşısının alınması və eyni zamanda iqtisadi fəallığın artması ilə ümumi iqtisadi artımın təmin olunması nəzərdə tutulur.

ƏDƏBİYYAT

1. Qafarov N.C. Turizmin iqtisadiyyatı. Bakı, 2019.
2. Əlirzayev Ə.Q. "Turizmin iqtisadiyyatı və idarə edilməsi"- Bakı-2010.
3. Abdullayev K.N. Azərbaycan Respublikasında turizm sahəsinin ölkənin sosial-iqtisadi inkişafına təsiri məsələləri // Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm və Menecment Universiteti, Bakı: Mütərcim, 2019, s.157-164

4. Soltanova H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı, 2015.
5. Cabbarov Ə.X. Turizmin iqtisadi əsasları. Bakı, 2015.
6. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı: - 2006

Кямран Камиль оглы Асланов
магистрант,
Эльнур Гара оглы Аллахвердиев
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперация

Место и перспективы развития туризма в экономике азербайджана

Резюме

Развитие туристической отрасли в современном мире считается одним из приоритетных направлений развития всех стран мира, в том числе и экономики Азербайджана. В странах с развитой туристической отраслью действуют национальные институты, организации и комиссии, занимающиеся изучением состояния конкурентоспособности и факторов её повышения. Это обусловлено тем, что стратегические цели развития туризма приводят к расширению географии экономической деятельности, повышению уровня занятости и увеличению экономических доходов. В результате рост ВВП или показателей производительности труда обеспечивает устойчивое развитие экономики страны.

Kamran Kamil Aslanov
master,
Elnur Gara Allahverdiyev
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

The place and development prospects of tourism in the azerbaijani economy

Summary

The development of the tourism industry in modern times is considered one of the priorities of the economy of all countries of the world, including Azerbaijan. In countries with developed tourism industries, there are national institutions, organizations, and commissions that are engaged in researching the state of competitiveness and factors for increasing it. This is due to the fact that the strategic goals of tourism development lead to an increase in the geographical location of economic activity, an increase in the level of employment, and an increase in economic income. As a result, GDP growth or labor productivity indicators ensure the sustainable development of the country's economy.

İsmayıl Həsən oğlu HƏSƏNOV
magistrant,
Elnur Qara oğlu ALLAHVERDİYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

MEHMANXANA FƏALİYYƏTİNİN İDARƏETMƏ MEXANİZMLƏRİNİN YARADILMASI

Müasir dövrdə mehmanxana biznesində səmərəliliyin artırılması və rəqabət üstünlüyünün təmin olunması üçün avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi xüsusi əhəmiyyət daşıyır [2]. Belə sistemlər mehmanxanaların gündəlik əməliyyatlarını optimallaşdırır, müştəri xidmətinin səviyyəsini yüksəldir və iş proseslərini daha çevik şəkildə idarə etməyə imkan yaradır. Rəqəmsallaşma proseslərinin sürətləndiyi bu dövrdə mehmanxana sektorunda avtomatlaşdırılmış sistemlə-

rin istifadəsi artıq alternativ deyil, zəruri tələbat halına gəlmişdir [2]. Bu tip sistemlər müxtəlif ölçülü mehmanxanalar üçün fərqli konfiqurasiyalarda qurula və müəssisənin konkret ehtiyaclarına uyğunlaşdırıla bilər. Əsas məqsəd əməliyyatların avtomatlaşdırılması, xərclərin azaldılması və gəlirliliyin yüksəldilməsidir.

Mehmanxana idarəetmə sistemlərinin texniki arxitekturası adətən üçqatlı (three-tier) modelə əsaslanır [1]. Bu struktur təqdimat təbəqəsi (frontend), biznes məntiqi təbəqəsi (backend) və məlumat təbəqəsindən (database) ibarətdir. Frontend hissə JavaScript əsaslı texnologiyalarla qurularaq istifadəçi interfeysini təmin edir. Backend təbəqəsi PHP, Python, C#, Java və ya Node.js vasitəsilə sistemin əsas funksiyalarını reallaşdırır. Məlumat təbəqəsində isə MySQL, PostgreSQL, MongoDB, MsSQL və ya Redis kimi verilənlər bazası sistemlərindən istifadə olunur ki, bu da məlumatların təhlükəsiz və sürətli emalını təmin edir. Belə arxitektura sistemin modullu şəkildə inkişaf etdirilməsini və yeni funksiyaların rahat inteqrasiyasını mümkün edir.

Mehmanxana idarəetmə sisteminin tərkibinə otaq rezervasiyası, müştəri məlumatlarının idarə edilməsi, hesab-faktura modulu, işçi maaşlarının və bonusların idarə olunması, həmçinin təhlükəsizlik və nəzarət komponentləri daxildir [3]. Bu komponentlərin inteqrasiyası nəticəsində rəhbərlik bütün əməliyyatları real vaxt rejimində izləyə və idarə edə bilir. Sistemlər arasında məlumat mübadiləsi əsasən REST API vasitəsilə və JSON formatında həyata keçirilir ki, bu da çevik inteqrasiyanı təmin edir.

Otaq rezervasiyası modulu mehmanxana idarəetmə sisteminin əsas hissəsini təşkil edir. Bu modul vasitəsilə müştərilər onlayn şəkildə otaq seçə, tarix müəyyənləşdirə və ödəniş edə bilirlər. Sistem otaqların vəziyyətini avtomatik yeniləyir, təkrarlanan sifarişlərin qarşısını alır və doluluq səviyyəsini optimallaşdırır. Eyni zamanda, müştəri tələbləri və fərdi üstünlüklər nəzərə alınır. Modul dinamik qiymət formalaşdırma alqoritmlərindən istifadə etməklə mövsümi tələbat və bazar şəraitinə əsasən qiymətləri avtomatik tənzimləyir.

Müştəri məlumatlarının idarə olunması bölməsi mehmanxananın müştəri bazasının səmərəli idarəsini təmin edir. Burada şəxsi məlumatlar, səyahət tarixçəsi, üstünlüklər və xüsusi tələblər saxlanılır. Bu məlumatlar fərdiləşdirilmiş xidmətlərin göstərilməsinə və müştəri məmnuniyyətinin artırılmasına şərait yaradır. Verilənlər GDPR və digər beynəlxalq təhlükəsizlik standartlarına uyğun şəkildə qorunur. Sistem eyni zamanda analitik funksiyalar vasitəsilə müştəri davranışlarını təhlil edir və məqsədyönlü marketinq kampaniyalarının hazırlanmasına dəstək olur.

Hesab-faktura sisteminin avtomatlaşdırılması maliyyə proseslərinin şəffaflığını və dəqiqliyini təmin edir. Bu sistem ödənişlərin qeydiyyatını, vergi hesabatlarını və maliyyə əməliyyatlarını avtomatik icra edir. Ödəniş infrastrukturu kart, elektron pul kisəsi və kriptovalyuta kimi müxtəlif üsullarla inteqrasiya olunur. Məlumatların təhlükəsiz ötürülməsi üçün SSL/TLS protokollarından istifadə edilir. Blockchain texnologiyası isə maliyyə əməliyyatlarının auditi və şəffaflığının artırılması məqsədilə tətbiq oluna bilər.

İşçi maaşları və bonusların idarə edilməsi modulu personalın motivasiyasını artırmaq üçün nəzərdə tutulmuşdur. Sistem iş saatlarını, əlavə işləri, məzuniyyətləri və xəstəlik günlərini avtomatik izləyərək ödənişləri hesablayır. Bonuslar fərdi performans, müştəri rəyləri və müəssisənin ümumi gəliri kimi göstəricilərə əsasən formalaşdırılır. Maşın öyrənmə alqoritmləri vasitəsilə optimal bonus səviyyələri müəyyən edilir.

Otaq xidmətləri modulu təmizlik, texniki xidmət, inventar idarəçiliyi və digər əməliyyatların avtomatlaşdırılmasını təmin edir. Sistem otaqların vəziyyətini izləyir və işçilərə tapşırıqları mobil tətbiqlər vasitəsilə real vaxt rejimində ötürür. Bu yanaşma xidmətlərin vaxtında və keyfiyyətli yerinə yetirilməsinə şərait yaradır.

Restoran və bar idarəetmə modulu mehmanxananın qida və içki xidmətlərinin koordinasiyasını asanlaşdırır. Modul menyu idarəçiliyi, sifarişlərin qəbul və emalı, inventar uçotu və hesablaşmaları avtomatlaşdırır. Eyni zamanda, müştərilərin üstünlükləri və xüsusi tələbləri nəzərə alınmaqla fərdiləşdirilmiş xidmətlər təklif olunur.

İnventar idarəetmə modulu məhsulların qeydiyyatı, ehtiyatların uçotu və tədarük proseslərinin avtomatlaşdırılmasını təmin edir. Sistem real vaxtda inventar səviyyələrini izləyir, lazımi məhsulların vaxtında alınmasını təmin edir və çatışmazlıqların qarşısını alır. Mobil tətbiqlərlə inteqrasiya

sayəsində işçilər inventar vəziyyətini dərhal nəzarət edə bilirlər.

Təhlükəsizlik və nəzarət modulu mehmanxana ərazisində təhlükəsizliyin qorunmasına yönəlmişdir. Bu sistem kamera nəzarəti, giriş-çıxış monitorinqi və hadisə jurnallarının avtomatlaşdırılmış idarəsini həyata keçirir. İstifadəçi autentifikasiyası çoxsəviyyəli doğrulama mexanizmləri vasitəsilə təmin olunur, təhlükəsizlik məlumatları isə mütəmadi analiz edilir.

Sistemin hazırlanması mərhələsində ən vacib addım tələblərin analizidir. Bu mərhələdə müəssisənin ölçüsü, xidmət çeşidi, müştəri axını və gələcək inkişaf planları nəzərə alınır. Analiz prosesi UML diaqramları, use-case ssenariləri və SWOT təhlili vasitəsilə aparılır ki, bu da sistemin effektivliyini və rəqabət üstünlüklərini müəyyən etməyə imkan yaradır. Sistem AWS, Azure və Google Cloud kimi bulud platformalarında yerləşdirilə bilər. Seçim mehmanxananın texniki imkanlarına və büdcəsinə uyğun aparılır. Təhlükəsizlik üçün çoxsəviyyəli autentifikasiya, məlumatların şifrələnməsi və müntəzəm audit mexanizmləri tətbiq edilir. Bu sistemlərin tətbiqi nəticəsində əməliyyat xərcləri azalır, məhsuldarlıq artır, müştəri məmnuniyyəti yüksəlir və rəhbərliyin qərarvermə prosesi sürətlənir. Bütün bu amillər mehmanxananın rəqabət gücünü artırır və gəlirliliyin artmasına səbəb olur.

Gələcəkdə mehmanxana idarəetmə sistemlərinin inkişafı süni intellekt (AI), maşın öyrənmə və IoT texnologiyalarının daha geniş tətbiqi ilə müşayiət olunacaq [5]. IoT cihazları vasitəsilə otaq şəraitinin (temperatur, işıqlandırma və s.) avtomatik idarə edilməsi enerji səmərəliliyini artıracaq. Virtual və artırılmış reallıq texnologiyaları isə müştərilərə otaqları əvvəlcədən virtual şəkildə görmək və xidmətlərlə tanış olmaq imkanı yaradacaq.

Bu sistemlərin uğurlu tətbiqi üçün işçilərin təlimi və yeni texnologiyalara adaptasiyası əsas şərtlərdəndir [4]. Təlim mərhələləri əsas, təkmilləşdirici və ixtisasartırma səviyyələrində aparılır, video dərslər və interaktiv materiallarla dəstəklənir. Praktiki tapşırıqlar vasitəsilə işçilərin sistemdən effektiv istifadə bacarıqları formalaşdırılır.

Müasir mehmanxana biznesində avtomatlaşdırılmış idarəetmə sistemləri əsas strateji resurs kimi çıxış edir. Onların tətbiqi nəticəsində əməliyyatların optimallaşdırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və rəqabət gücünün artırılması mümkün olur. Bu sistemlərin modulyar quruluşu və texniki arxitekturası onların çevikliyini və genişləndirilə bilməsini təmin edir. Gələcəkdə süni intellekt, maşın öyrənmə və IoT texnologiyalarının inteqrasiyası mehmanxana idarəetməsində yeni mərhələ açacaq. Nəticə etibarilə, avtomatlaşdırılmış sistemlər mehmanxanaların effektiv fəaliyyətini təmin edən, gəlirliliyi artıran və davamlı inkişafı dəstəkləyən əsas vasitələrdən biri kimi qalacaqdır.

ƏDƏBİYYAT

1. Turizm destinasiyalarının idarə edilməsi: dərs vəsaiti / S. İ. Vəliyeva-2025
2. Turizm İqtisadiyyatı-dərs vəsaiti N.C.Qafarov-2019
3. Johnson, M. "Digital Transformation in Hospitality Industry". International Journal of Hotel Management. 2019
4. Wilson, K. "Employee Training in Digital Hotel Systems". Journal of Hospitality Education-2022
5. Davis, L. "Future Technologies in Hotel Management". International Journal of Hospitality Innovation.-2023

Исмаил Гасан оглы Гасанов
магистрант,
Эльнур Гара оглы Аллахвердиев
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Создание механизмов управления гостиничной деятельностью

Резюме

В современном гостиничном бизнесе автоматизированные системы управления выступают ключевым стратегическим ресурсом. Их применение позволяет оптимизировать операционную деятельность, улучшить качество обслуживания и повысить конкурентоспособ-

ность. Модульная структура и техническая архитектура этих систем обеспечивают их гибкость и масштабируемость. В будущем интеграция технологий искусственного интеллекта, машинного обучения и Интернета вещей откроет новый этап в управлении гостиницами. В результате автоматизированные системы останутся одним из основных инструментов, обеспечивающих эффективную работу гостиниц, повышение прибыльности и поддержку устойчивого развития.

Ismayil Hasan Hasanov
master,
Elnur Gara Allahverdiyev
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Creation of management mechanisms for hotel activities

Summary

In the modern hotel business, automated management systems act as a key strategic resource. As a result of their application, it is possible to optimize operations, improve service quality and increase competitiveness. The modular structure and technical architecture of these systems ensure their flexibility and scalability. In the future, the integration of artificial intelligence, machine learning and IoT technologies will open a new stage in hotel management. As a result, automated systems will remain one of the main tools that ensure the effective operation of hotels, increase profitability and support sustainable development.

Cahangir Bəhmən oğlu MƏMMƏDZADƏ
doktorant,
jahangirmzade@gmail.com,
Azərbaycan Universiteti

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TULLANTILARIN İDARƏ OLUNMASININ İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

2020-ci ildə, 44 günlük Vətən müharibəsində çaldığı möhtəşəm qələbə nəticəsində Azərbaycan Respublikası 30 ilədək olan müddət ərzində Ermənistanın işğalı altında qalmış ərazilərini azad edərək öz ərazi bütövlüyünü bərpa etməyə nail olmuşdur. Düşmən əsarəti altında qaldığı dövr ərzində şəhər və kəndlər dağıdılmış, mühüm infrastruktur obyektləri sıradan çıxarılmış və zəngin təbii ehtiyatları talanmış bölgələrin yenidən bərpası, ümumiyyətlə uzunmüddətli və dayanıqlı inkişafı proqramlarının həyata keçirilməsi zərurəti yaranmışdır.

Azad olunmuş ərazilərin gələcəkdə həm ekoloji və həm də sosial-iqtisadi dayanıqlığını təmin edəcək əsas məsələlərdən biri burada bərk tullantıların effektiv idarə olunması sisteminin inkişaf etdirilməsindən ibarətdir. Problemin zəruriliyini nəzərə alaraq, Azərbaycan hökuməti tərəfindən bölgədə yüksək sürətlə həyata keçirilən yenidənqurma və bərpa işlərinin əsas istiqamətlərindən biri kimi tullantıların idarə edilməsi sisteminin yaradılması seçilmişdir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 noyabr 2021-ci il tarixli 675s nömrəli Sərəncamı ilə "İşğaldan azad edilmiş ərazilər də daxil olmaqla, ölkə üzrə bərk məişət tullantılarının idarə edilməsi sahəsində Komissiya" yaradılmışdır. Komissiya tərəfindən "Təmiz Şəhər" ASC-yə sözügedən sərəncamdan irəli gələn aşağıdakı məsələlərin həlli həvalə olunmuşdur:

- İşğaldan azad edilmiş bütün ərazilər daxil olmaqla, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərk məişət tullantılarının idarə olunması sahəsində mövcud vəziyyətin təhlili;
- Qeyd olunan iqtisadi rayonlarda tullantıların idarə olunması sisteminin müasir standartlara

uyğun qurulması və idarə edilməsi istiqamətində zəruri tədbirləri özündə əks etdirəcək Regional Strategiyanın işlənib hazırlanması;

- Tərtib olunacaq strategiyanın Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli 637 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinə dair Milli Strategiya" ilə inteqrasiya olunması.

Regional Strategiyanın əsas məqsədi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində bərk məişət tullantılarının idarə edilməsi (BMTİ) sahəsində gələcək investisiya layihələri, uğur hədəfləri və konkret fəaliyyətlər üçün zəmin yaratmaqdan ibarətdir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün Strategiya aşağıdakı vəzifələrin icrasını ehtiva edir:

- Azərbaycan Respublikasında fəaliyyət göstərən bərk məişət tullantılarının yığılması və utilizasiyası xidmətləri ilə ölkənin işğaldan azad edilmiş bütün yaşayış məntəqələrinin və orada fəaliyyət göstərəcək müəssisələrin yararlanmasının təmin edilməsi;
- Azad edilmiş ərazilərdə müasir standartlara cavab verən bərk tullantı poliqonlarının təsis edilməsi, ekoloji tələblərə cavab verməyən açıq və qanunsuz zibilliklərin yaranmasının qarşısının alınması və ləğv edilməsi;
- İşğaldan azad edilmiş ərazilərdə bərk tullantıların çeşidlənməsi və təkrar istifadəsi, tullantılardan enerjinin hasil olunması və bu kimi digər əhəmiyyətli tədbirlərin yerinə yetirilməsi üçün əlverişli şəraitin yaradılması;
- Bərk tullantıların idarə olunması fəaliyyətinin iqtisadi səmərəliliyinin artırılması üçün zəminin yaradılması;
- Çeşidlənib yeni məhsul əldə edilməsi xərc baxımından sərfəli olmayan və yeni ehtiyatların bərpasına sərf edilə bilməyən bütün tullantıların təhlükəsiz və səmərəli zərərsizləşdirilməsinin təmin edilməsi;
- Yerli əhali və sahibkarlar arasında bərk tullantıların idarə olunması sahəsində ictimai maarifləndirmə kampaniyalarının təşkili;
- İctimai sağlamlığa və ətraf mühitə dəyən zərərin azaldılması məqsədilə potensial təhlükəli tullantıların xüsusi şəkildə idarə edilməsi [4].

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 16.11.2022-ci il tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda "Bərk məişət tullantılarının idarə edilməsi üzrə uzunmüddətli strategiyanın hazırlanması və strategiyaya uyğun olaraq tullantıların idarə edilməsinin beynəlxalq norma və standartlara uyğun təşkili ilə əlaqədar infrastrukturun yaradılması" "Təmiz Şəhər" ASC-yə həvalə edilmişdir.

İşğaldan azad edilmiş ərazilərin potensialı və coğrafi şəraiti nəzərə alınaraq, Kəlbəcər rayonu hasilat sənayesi, Ağdam rayonu emal sənayesi, Şuşa şəhəri mədəniyyət və turizm sənayesi, Cəbrayıl rayonu ticarət-logistika xidməti, Qubadlı, Zəngilan, Laçın, Füzuli və Xocavənd rayonları isə kənd təsərrüfatı sahəsi üzrə yeni iqtisadi "drayverlər" kimi qiymətləndirilə bilər.

İşğaldan azad edilmiş rayonlarda kənd təsərrüfatının inkişaf perspektivləri baxımından Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aparılmış təhlil və qiymətləndirmələrə əsasən, bu torpaqlarda kənd təsərrüfatının bərpası istiqamətləri müəyyən edilmiş, regionun kənd təsərrüfatı sahəsi üzrə potensial istehsal həcmi proqnozlaşdırılmışdır. Belə ki, bölgədə Ağdam və Füzulinin işğala məruz qalmayan sahələri də nəzərə alınmaqla azad olunmuş ərazilərdə təqribən 232,8 min hektar sahədə birillik və çoxillik əkinlərin aparılacağı, həmçinin 430 min baş iribuynuzlu, 1,6 milyon baş xırdabuynuzlu heyvanlardan ibarət fermaların qurulacağı gözlənilir. Həmçinin regionda tarixən mövcud olan üzümçülük, tütünçülük, baramaçılıq və arıçılıq sahələrinin bərpası və genişləndirilməsi həyata keçiriləcəkdir.

Xüsusilə qeyd edilməlidir ki, Qarabağın dirçəlişində sənayeləşmə mühüm əhəmiyyət kəsb edəcəkdir. Belə ki, işğaldan azad edilmiş ərazilərimizdə sənaye parklarının yaradılması və bu parklara investisiya cəlb olunması bölgənin resurslarından və iqtisadi imkanlarından yararlanmaqla Qarabağın ölkə iqtisadiyyatına səmərəli reinteqrasiyasına əlverişli şərait yaradacaqdır. "Bu baxımdan Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Sonası" Sənaye Parkının yaradılması haqqında 4 oktyabr 2021-ci il tarixli, həmçinin 28

may 2021-ci il tarixli "Ağdam Sənaye Parkı"nın yaradılması barədə fərmanları xüsusilə qeyd edilməlidir. Bu sənaye parklarında yaradılacaq aqrar-emal müəssisələri, həmçinin digət sənaye məhsulları istehsalı bölgədə kənd təsərrüfatının və emal sənayesinin davamlı inkişafına əhəmiyyətli təsir göstərəcəkdir.

Regionun bir çox çaylarında su anbarlarının və su-elektrik stansiyalarının tikinisi planlaşdırılır və artıq həyata keçirilir. Külək elektrik stansiyalarının quraşdırılması üçün Kəlbəcər və Laçın rayonları, günəş elektrik stansiyaları üçün Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonunda ərazilər nəzərdə tutulmuşdur; Əlverişli nəqliyyat yollarının istifadəyə verilməsi tullantıların daşınması posesində vacib məsələlərdəndir. Regionda hazırda əsas yolların qurulması işləri aparılır, beynəlxalq tələblərə cavab verən yol infrastrukturu çəkilir, körpülər və dağ tunelləri inşa edilir.Şimal-qərbdə Daşkəsən-Kəlbəcər, şimal-şərqdə Bərdə-Ağdam, şərqdə Ağcabədi-Ağdam, cənub-şərqdə Beyləqan-Əhmədbəyli və cənub-qərbdə Naxçıvan-Ağbənd koridorları regionun əsas giriş qapıları kimi planlaşdırılmış və digər regionlar ilə sıx əlaqələr qurulmuşdur. Əhmədbəyli-Ağbənd arasında Arazboyu avtomobil və dəmir yolu koridoru və Füzuli, Zəngilan, Qorçu beynəlxalq hava limanları vasitəsi ilə regionun yaxın ölkələr, eləcə də bütün dünya ilə əlaqəsini təmin edəcəkdir [2].

Dünya təcrübələrindən məlumdur ki, tullantı formalaşması vahidinin artması ÜDM-in artımı ilə yaxından əlaqəlidir. Ölkənin iqtisadi inkişaf və ardıcıl olaraq əhalinin rifah səviyyəsi yüksəldikcə tullantıların miqdarının artması da müşahidə edilir. Azərbaycanda 1999-2014-cü illər aralığında ÜDM-in illik artım dinamikası yüksək olmuş, lakin 2010-cu ildə 5%-dək, 2020-ci ildə isə 4.3%-dək azalmışdır, 2021-ci ildə isə 5.6% artmışdır. Dünya Bankının proqnozuna əsasən 2040-cı ilədək ÜDM-in orta hesabla illik təxminən 2.6-3% artımı gözlənilir [6]. Regional inkişaf planında ÜDM-in inkişafının daha yüksək olması gözlənilir. Regionun inkişafı sürətli və modern sistemlərin tətbiqi ilə həyata keçiriləcəkdir ki, bu da regionda inşası planlaşdırılan yaşayış məntəqələrinin müasir şəhərsalma prinsiplərinə uyğun inşası burada gələcəkdə hətta kəndlərdə də yaşayış şəraitinin şəhər şəraitinə yaxın olmasına gətirib çıxaracaqdır. Buna misal olaraq Zəngilan rayonu ərazisində yeni salınmış Ağalı kəndi timsalında göstərmək olar. Yeni salınacaq və bərpa olunacaq yaşayış məntəqələri isə regiondakı bütün yaşayış məntəqələrinin sayının 89%-dən çoxunu təşkil edəcəklər.

Yuxarıdakı təhliləri, təsdiq edilmiş planlar və gözlənilən iqtisadi inkişafı, həm də regionda turizmin gözlənilən inkişafını nəzərə alaraq, belə şəraitə uyğun olaraq adambaşına əmələ gələcək bərk tullantıların miqdarını proqnozlaşdırılmışdır. Kənd yerləri üzrə heç bir real məlumatlar mövcud olmadığından beynəlxalq təcrübəyə uyğun olaraq, qəbul edilmiş göstəricilərdən, həmçinin Azərbaycan ərazisində yerinə yetirilmiş əvvəlki layihələrin nəticələrindən istifadə edilmişdir. Bu zaman ərazilərin inkişaf planına uyğun olaraq hesab edilmişdir ki, yenidən inşa ediləcək kənd və qəsəbələr müasir şəhərsalma və "ağıllı kənd" prinsiplərinə uyğun qurulacaqdır. Odur ki, adambaşına düşən tullantıların miqdarı müəyyən olunarkən Azərbaycanın digər regionlarına nisbətən daha yüksək göstəricilərdən istifadə edilmişdir.

Tullantı formalaşması vahidi və planlaşdırma dövründə əhalinin sayına əsasən cəmi tullantı formalaşması hesablanmışdır. Tullantıların günlük əmələ gəlməsi şəhər və kənd əraziləri üzrə, rayon və şəhərlər üçün ümumi və illik üzrə hesablanılmışdır.

Azərbaycan ərazisində şəhərlərdə toplanan tullantılar toplama vasitələri ilə birbaşa tullantı sahələrinə daşınır. Kənd yerlərinin tullantıları isə idarə edilməyən, kəndlərin yaxınlığında yerləşən çay dərələrinə, relyefin alçaq hissələrinə və s. yerlərə qeyri-mütəşəkkil qaydada atılır. Hazırda layihə ərazisinin yaşayış olan rayonlarında da eyni vəziyyət müşahidə edilmişdir. Regionda yalnız Tərtər, Ağdam və Füzuli rayonlarının yaşayış mövcud məntəqələrindən yalnız Tərtər şəhəri, Quzanlı qəsəbəsi və Horadiz şəhərinin, Zəngilan rayonu Ağalı qəsəbəsinin, Şuşa şəhərinin tullantıları idarə edilir. Burada tullantılar yaşayış məntəqələrindən 1-5 km kənarda yerləşən və adi qaydada idarə edilən poliqonlara daşınır.

Yeni nəzərdə tutulan regional bərk məişət tullantılarının idarə edilməsi sistemi sanitar poliqonlarına tullantıların və strateji yerlərdə ötürücü məntəqələrin yerləşməsini təklif edir. Ötürücu məntəqənin yaradılmasının əsas məqsədi tullantıları regional tullantı poliqonlarına kiçiktutumlu maşınlarla müqayisədə daha iritutumlu və daha az daşıma xərci (xərc/ton/km) olan maşınlarla

daşımaqla nəqliyyat xərclərini azaltmaqdır. Bundan əlavə, daşıma məntəqəsi tullantıları özləri toplayan və daşıyan kiçik müəssisələrə xidmət səviyyəsini artırmağa imkan verir, çünki regional tullantı poliqonu ilə müqayisədə daşıma məntəqəsinə qədər olan məsafə daha qısadır. Ötürücü məntəqəyə malik olan sistemdə tullantı axını aşağıdakı kimi planlaşdırılır:

- ✓ Toplanılmış tullantılar tullantı daşıyan maşınlar vasitəsilə ötürücü məntəqəyə daşınır;
- ✓ Tullantılar ötürücü məntəqəsində iri tutumlu (misal üçün, 30 m^3) konteynerlərə boşaldılır;
- ✓ İri həcmli konteynerlər regional tullantı poliqonuna boşaldılmaq üçün iritutumlu maşınlarla daşınır.

Hərəkət şəraitləri etibarlı iqtisadi daşıma məsafələrinə böyük təsir göstərir. İdeal olaraq, toplama vasitəsi iş növbəsi üzrə gündə ən azı 2 dəfə tullantıları yükləməlidir. Sıxlaşdırma vasitəsi üçün doldurulma adətən 2 saat vaxt tələb edir, gediş-dönüş daşıma vaxtları 2 saat olması daha sərfəlidir. Hərəkət işlərində böyük maneələr və tıxaclar olmadığı təqdirdə, daşıma məsafəsi bir tərəfə 40 km-ə qədər ola bilər. Milli Strategiyada olduğu kimi Regional Strategiyanın məqsədləri üçün tövsiyə edilən ötürücü məntəqələrin yerləşməsi toplama xidmət ərazilərinin 25-40 km-i daxilində olmalıdır. Bu məsafə rayon ərazisində yaşayış məntəqələrinin yerləşmə sıxlığına görə də müəyyən edilə bilər.

Hər bir tullantı bölgəsində tövsiyə edilən ötürücü məntəqələr əsas tullantı toplama sahələrinə yaxın olmalıdır. Tullantı bölgəsi daxilində yerli icra hakimiyyətləri tullantıların ötürücü məntəqələrə çatdırılmasını təşkil etməli, digərləri toplama vasitələrinə çox yaxın olduğu üçün tullantıları birbaşa sanitar poliqona aparmalıdırlar. Bütün ötürücü məntəqələr ekoloji və sağlamlıqla bağlı təsirlərin minimuma endirilməsi əsasında fəaliyyət göstərməlidir. Bu zərurət ondan irəli gəlir ki, kiçik hissəciklər, bioaerozollar və zərərli qazlar tullantı daşıyan maşınların boşaldılması və tullantıların vasitələrə doldurulması zamanı ətrafa yayıla bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinə dair Milli Strategiya. Bakı, 2018
2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. Bakı, 2022
3. İşğaldan azad edilmiş ərazilər də daxil olmaqla, ölkə üzrə bərk məişət tullantılarının idarə olunması sahəsində Komissiya barədə Sərəncam. Bakı, 2021
4. Təmiz Şəhər ASC. Regional bərk məişət tullantılarının idarə olunması strategiyası. Bakı, 2021
5. United Nations Environment Programme. Global Waste Management Outlook. Nairobi, 2019
6. World Bank. Azerbaijan Economic Outlook. Washington, DC: World Bank.2021

Джахангир Бахман оглы Мамедзаде
докторант,
jahangirmzade@gmail.com,
Университет Азербайджан

Направления повышения экономической эффективности управления отходами на освобожденных территориях

Резюме

Инфраструктурные проекты, реализуемые на освобожденных территориях Азербайджана, также должны включать меры по управлению твердыми бытовыми отходами. Это обусловлено необходимостью эффективного управления отходами для восстановления населенных пунктов, разрушенных после Отечественной войны 2020 года, и устойчивого развития. В настоящее время правительством разработаны стратегии по созданию в регионе системы управления отходами, отвечающей современным стандартам, включая санитарные полигоны, перегрузочные станции, сортировку, переработку отходов и преобразование энергии. Эта система служит обеспечению охраны окружающей среды и социально-экономического восстановления региона.

В представленной статье рассматриваются текущее состояние и перспективные направления управления отходами в рамках программы «Великое возвращение».

Jahangir Bahmen Mammadzade
phd student,
jahangirmzade@gmail.com,
Azerbaijan University

Directions for increasing the economic efficiency of waste management in the liberated territories

Summary

Infrastructure projects implemented in the liberated territories of Azerbaijan should also include measures for the management of solid household waste. This stems from the need for effective waste management for the restoration of settlements destroyed after the Patriotic War in 2020 and for sustainable development. Currently, the government has developed strategies for the establishment of a waste management system in the region that meets modern standards, sanitary landfills, transfer stations, waste sorting, recycling and energy conversion. This system serves to ensure environmental protection and socio-economic recovery of the region.

The presented article examines the current state and prospective directions of waste management within the framework of the Great Return program.

Əli Ramin oğlu MURADLI
magistrant,
Könül Fikrət qızı İMANOVA
texnika üzrə fəlsəfə doktoru, dosent,
imanovakonul75@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR BÖLGƏLƏRİNİN ÜZÜMÇÜLÜK POTENSİALI FONUNDA QIRMIZI NATURAL ŞƏRABLARIN KEYFİYYƏTİNİN ARTIRILMASININ YENİ İSTİQAMƏTLƏRİ

Azərbaycan qədim üzümçülük və şərabçılıq ənənələrinə malik ölkələrdən biridir. Arxeoloji tapıntılar və tarixi mənbələr göstərir ki, Qafqaz regionu üzümün ilkin mərkəzlərindən biri olmuşdur (Aliyev, Musayev, 2020). Qarabağ və Şərqi Zəngəzur bölgələri isə əlverişli iqlim, zəngin torpaq müxtəlifliyi və günəşli günlərin çoxluğu ilə seçilərək üzümçülük üçün xüsusi potensial yaradır (Guliyev, Huseynov, 2019). Son illərdə aparılan elmi tədqiqatlar sübut edir ki, bu bölgələrin terroir xüsusiyyətləri yüksək keyfiyyətli texniki üzüm sortlarının yetişdirilməsi və təkrar emalında mühüm əhəmiyyət daşıyır (Mammadov, Asadov, 2018). Azərbaycan üzümçülüyü qədim sort müxtəlifliyinə malikdir ki, bu da ölkənin şərabçılıq sektorunun strateji əhəmiyyətini artırır. Xüsusilə Qarabağ bölgəsi qədim üzümçülük ənənələri və ekoloji müxtəlifliyi ilə seçilir. Bu bölgədə Mədrəsə və Xindoqnı kimi yerli sortlar tarixən geniş yayılmış, həmçinin müasir üzümçülük və şərab istehsalında əhəmiyyətli rol oynamışdır. Bu sortlar yalnız yüksək şəkərlilik səviyyəsi ilə deyil, həm də fenol tərkibi ilə seçilir ki, bu xüsusiyyətlər qırmızı şərabların aromatik kompleksinin formalaşmasında və sensor keyfiyyətlərinin yüksəldilməsində mühüm rol oynayır. Qarabağ və Şərqi Zəngəzur bölgələrində torpaq şəraiti üzümçülük üçün yüksək potensial nümayiş etdirir. Ərazilərdə qara torpaq, şabalıdı və karbohidratlı torpaqlar geniş yayılmışdır ki, bu torpaqların yüksək üzvi maddə tərkibi, mineral balansı və yaxşı drenaj xüsusiyyətləri üzüm gilələrinin şəkər, fenol və antosianin yığımı üçün optimal şərait yaradır (Guliyev, Huseynov, 2019). Torpaq növlərinin struktur xüsusiyyətləri və sututma qabiliyyəti üzüm köklərinin inkişafına və gilələrdə biokimyəvi metabolitlərin formalaşmasına birbaşa təsir göstərir. Bu isə nəticədə qırmızı şərabların rəng

intensivliyi, struktur və aromatik kompleksinin zənginləşməsini təmin edir.

Mikroiqlim amilləri də şərabın keyfiyyətinə mühüm təsir göstərir. Gecə-gündüz temperatur amplitudu, günəş şüalanmasının intensivliyi və rütubət səviyyəsi üzüm gilələrinin fenol, antosianin və turşu tərkibini tənzimləyir, nəticədə şərabın aromatik zənginliyi və dad balansı optimallaşdırılır (Mammadov, Asadov, 2018). Qırmızı natural şərabların keyfiyyətinin artırılması üçün üzüm bağlarında aqrotexniki tədbirlərin optimallaşdırılması vacibdir. "Canopy management" - yarpaq örtüyünün idarə olunması, işıqlanmanı və havalanmanı yaxşılaşdıraraq gilələrdə şəkər sintezini və antosianin yığılmasını artırır (Smart, Robinson, 1991).

Cədvəl 1.

Qırmızı natural şərabların keyfiyyətinin artırılmasında əsas aqrotexniki tədbirlər.

Aqrotexniki tədbir	Məqsəd	Şərab keyfiyyətinə təsiri
Yarpaq örtüyünün idarə olunması	İşıqlanmanı və havalanmanı optimallaşdırmaq	Gilələrdə şəkər sintezi və antosianin yığılmasını artırır; aromatik kompleksi zənginləşir
Suvarma rejiminin tənzimlənməsi	Torpağın nəmlik səviyyəsini optimal saxlamaq	Gilələrin biokimyəvi göstəricilərini balanslaşdırır; məhsuldarlıq və keyfiyyət arasında tarazlıq yaradır
Budama üsulları	Meyvə yükünü tənzimləmək	Gilələrin yetişmə keyfiyyətini artırır; şərabın struktur və dad xüsusiyyətlərini yaxşılaşdırır
Bitki qalıqlarının istifadəsi	Torpağın eroziyasının qarşısını almaq və torpaq mikroiqlimini yaxşılaşdırmaq	Gilələrin qida maddələri və aromatik komponentlərinin səviyyəsini sabit saxlayır

Natural şərabların istehsalında əsas məqsəd terroirin maksimum qorunması və minimal texnoloji müdaxilə ilə məhsulun unikal xüsusiyyətlərini saxlamaqdır. Terroir burada torpaq-iqlim şəraiti, üzüm sortu və mikroiqlim faktorlarının kombinasiyası kimi başa düşülür və onun qorunması şərabın aromatik kompleksini və struktural xüsusiyyətlərini birbaşa müəyyən edir (Laliberte, 2016). Minimal texnoloji müdaxilə ilə istehsal edilən natural şərablar fermentasiya prosesi zamanı kimyəvi əlavələrin istifadəsinin minimuma endirilməsi ilə xarakterizə olunur, beləliklə, şərabın yerli mikroflora və üzümün biokimyəvi tərkibi daha aydın şəkildə ortaya çıxır (Jackson, 2020). Buna baxmayaraq, bir sıra elmi əsaslandırılmış enoloji texnologiyalar şərab keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Uzunmüddətli maserasiya gilə qabığından antosianin və fenol maddələrinin maksimal ekstraksiyasına imkan verir ki, bu da qırmızı şərabların rəng intensivliyi və struktural dərinliyini artırır (Bindon, Smith, & Kennedy, 2010). Fenol birləşmələrinin bu şəkildə artırılması şərabın yaşlanma potensialını gücləndirir və ətir profillərini zənginləşdirir. Oksidləşmə isə şərabın polimer piqmentlərinin formalaşmasını sürətləndirərək rəng sabitliyini təmin edir və dadın yumşalmasına gətirib çıxarır (Casassa, Harbertson, 2014). Bu üsul xüsusilə yerli üzüm sortlarından əldə edilən şərablarda terroir spesifikliyini qoruyarkən şərabın uzunmüddətli saxlanma qabiliyyətini artırır. Əlavə olaraq, fermentasiya prosesində seçilmiş yerli maya kulturalarının istifadəsi şərabın mikrobioloji tərkibini optimallaşdırır və terroir spesifikliyinin qorunmasına şərait yaradır. Müxtəlif yerli Saccharomyces cerevisiae kulturaları üzümün ətir və fenol profilini daha dəqiq ifadə etməyə imkan verir və nəticədə şərabın dad, qoxu və struktur göstəriciləri optimallaşdırılır (Cianiş, Ferraro, 1998).

Azərbaycan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu ölkənin şərabçılıq elminin inkişafında mühüm rol oynayır. İnstitutun apardığı seleksiya işləri və ampelografik tədqiqatlar Qarabağ və Şərqi Zəngəzur bölgələrinin üzümçülük potensialının reallaşdırılmasına dəstək verir (Azerbaijan Scientific Research Institute of Viticulture and Winemaking, 2022). Son illərdə institut tərəfindən Mələyi qara, Xindogni və Mədrəsə kimi yerli üzüm sortlarının bioloji və texnoloji xüsusiyyətləri yenidən öyrənilmiş, həmçinin beynəlxalq bazarda tanınan Cabernet Sauvignon, Merlot və Syrah sortları ilə müqayisəli tədqiqatlar aparılmışdır. Bu işlər nəticəsində həm yerli, həm də beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli şərab nümunələri əldə olunmuşdur. Eyni zamanda, dövlətin aqrar sektora dəstəyi və üzümçülüyün prioritet elan olunması bölgədə

keyfiyyətli şərab istehsalının inkişafını təmin edir. Belə ki, "Azərbaycan Şərabçılar Assosiasiyası" və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həyata keçirilən dövlət proqramları çərçivəsində yeni üzüm bağlarının salınmasına, damcı suvarma sistemlərinin tətbiqinə maliyyə dəstəyi göstərilir.

Yekun olaraq qeyd etmək olar ki, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin zəngin təbii-coğrafi resursları, münbit torpaq-iqlim şəraiti və qədim üzümçülük ənənələri bu ərazilərin Azərbaycanın şərabçılıq sektorunda mühüm strateji mərkəzlərdən birinə çevrilməsi üçün geniş perspektivlər açır. Ən əsası, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında üzümçülük və şərabçılığın bərpası dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Dövlət başçısının uzaqgörən siyasəti və davamlı dəstəyi nəticəsində Qarabağ və Şərqi Zəngəzur bölgələri yaxın gələcəkdə yalnız Azərbaycanın deyil, bütövlükdə regionun ən mühüm üzümçülük və şərabçılıq mərkəzlərindən birinə çevriləcəkdir. Bu inkişaf həm də milli şərabçılığın beynəlxalq miqyasda nüfuzunun yüksəldilməsinə, "Made in Azerbaijan" brendinin daha geniş tanıdılmasına və ölkənin kənd təsərrüfatının ixrac potensialının gücləndirilməsinə xidmət edəcəkdir.

ƏDƏBİYYAT

1. Aliyev, R., Musayev, T. (2020). *Azərbaycan üzümçülüyünün tarixi inkişaf xüsusiyyətləri*. Bakı: Elm nəşriyyatı.
2. Azerbaijan Scientific Research Institute of Viticulture and Winemaking. (2022). *Annual Report on Viticulture and Winemaking Research in Azerbaijan*. Baku.
3. Bindon, K., Smith, P., & Kennedy, J. (2010). Tannin and anthocyanin extraction during wine fermentation. *American Journal of Enology and Viticulture*, 61(1), 91–101.
4. Casassa, L. F., Harbertson, J. F. (2014). Extraction, evolution, and sensory impact of phenolic compounds during red wine maceration. *Annual Review of Food Science and Technology*, 5, 83-109.
5. Ciani, M., & Ferraro, L. (1998). Combined use of immobilized Candida stellata cells and Saccharomyces cerevisiae to improve the quality of wines. *Journal of Applied Microbiology*, 85(2), 247–254.
6. Guliyev, S., & Huseynov, E. (2019). *Qarabağ və Şərqi Zəngəzur bölgələrinin terroir xüsusiyyətləri*. Bakı: Kənd Təsərrüfatı Nəşriyyatı.
7. Ibrahimov, A., & Aliyeva, S. (2021). Yerli üzüm sortlarının texnoloji xüsusiyyətləri və şərab istehsalında rolu. *Azərbaycan Aqrar Elmi Jurnalı*, 4(12), 55–63.
8. Jackson, R. S. (2020). *Wine Science: Principles and Applications* (5th ed.). London: Academic Press.
9. Laliberte, M. (2016). Natural wine and terroir expression. *Journal of Wine Research*, 27(3), 223–236.
10. Mammadov, F., Asadov, R. (2018). Qarabağ bölgəsinin üzümçülük potensialı və ekoloji xüsusiyyətləri. *Elmi Əsərlər Jurnalı*, 2(6), 87–95.
11. Smart, R., Robinson, M. (1991). *Sunlight into Wine: A Handbook for Winegrape Canopy Management*. Adelaide: Winetitles.

Али Рамин оглы Мурадлы
магистрант,
Конул Фикрет кызы Иманова
доктор философии технических наук, доцент,
imanovakonul75@mail.ru,
Азербайджанский Университет Кооперации

Новые направления повышения качества красных натуральных вин на фоне виноградарского потенциала регионов Карабаха и Восточного Зангезура

Резюме

Азербайджанское виноградарство обладает богатым автохтонным сортовым разнообразием, что повышает стратегическую значимость винодельческого сектора страны. Особен-

но выделяется регион Карабаха, известный своими древними виноградарскими традициями и экологическим разнообразием. В этом регионе исторически широко культивировались местные сорта, такие как Медресе и Хиндоғны, которые также играют важную роль в современном виноградарстве и производстве вина. Эти сорта примечательны не только высоким содержанием сахара, но и фенольным составом, что играет ключевую роль в формировании ароматического комплекса красных вин и повышении их сенсорных качеств.

Ali Ramin Muradlı
master,
Konul Fikret Imanova
doctor of philosophy in technical sciences, associate professor,
imanovakonul75@mail.ru,
Azerbaijan Cooperation University

New directıons for improving the quality of red natural wines ın the context of the viticultural potential of the Karabakh and Eastern Zangezur regıons

Summary

Azerbaijani viticulture possesses a rich diversity of autochthonous grape varieties, which enhances the strategic significance of the country's wine sector. In particular, the Karabakh region is distinguished by its ancient viticultural traditions and ecological diversity. Local varieties such as Madrasa and Khindogni have historically been widely cultivated and continue to play an important role in modern viticulture and wine production. These varieties are notable not only for their high sugar content but also for their phenolic composition, which plays a crucial role in shaping the aromatic profile of red wines and enhancing their sensory quality.

Vəfa Eldar qızı MƏMMƏDZADƏ
magistrant,
vefasvaa@gmail.com,
Könül Fikrət qızı İMANOVA
texnika elmləri üzrə fəlsəfə doktoru, dosent,
imanovakonul75@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN TORPAQ VƏ İQLİM AMİLLƏRİNİN ÇƏHRAYI ŞƏRABLARIN KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları zəngin torpaq, təmiz iqlim və ekoloji cəhətdən qorunmuş təbiət şəraiti ilə seçilir. Bu amillər regionda çəhrayı şərab istehsalı üçün unikal potensial yaradır. Araşdırmada göstərilir ki, təbiət, torpaq və iqlim resurslarının düzgün idarə olunması çəhrayı şərabların rəng, ətir və dad keyfiyyətlərinin formalaşmasında əsas rol oynayır. Regionun günəşli günlərinin çoxluğu, dağətəyi mikroiqlim şəraiti və mineral tərkibli torpaqları bu şərabların fərqləndirici xüsusiyyətlərini müəyyənləşdirir. Bununla yanaşı, ekoloji təmiz istehsal prinsipləri və yerli üzüm sortlarının istifadəsi Qarabağ və Şərqi Zəngəzur çəhrayı şərablarının beynəlxalq bazarda brend dəyərini artırmaq üçün əsas üstünlüklər hesab olunur.

Azərbaycan qədimdən bəri üzümçülük və şərabçılıq ənənələrinə malik ölkələrdən biridir. Arxeoloji və tarixi mənbələr göstərir ki, bu torpaqlarda şərab istehsalı ən azı 5000 illik tarixə sahibdir [1]. Müasir dövrdə şərabçılıq təkcə kənd təsərrüfatının bir sahəsi deyil, həm də regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayan strateji istiqamət kimi dəyərləndirilir.

Son illərdə dünyada çəhrayı şərab növünə olan maraq artmışdır. Bu növ şərab həm aromatik, həm də estetik xüsusiyyətlərinə görə yüksək qiymətləndirilir [5]. Çəhrayı şərablar əsasən qırmızı

üzüm sortlarından alınsa da, onların fərqləndirici xüsusiyyətləri üzümün yetişdiyi torpaq, iqlim və təbii şəraitlə sıx bağlıdır.

Qarabağ və Şərqi Zəngəzur bölgələri zəngin torpaq resursları, təmiz iqlim və yüksək ekoloji potensialla fərqlənir. Bu amillər regionda üzümçülüyün, xüsusilə də çəhrayı şərab istehsalının inkişafı üçün əlverişli şərait yaradır. Məqalənin məqsədi bu təbii resursların üstünlüklərini, onların şərab keyfiyyətinə təsir mexanizmlərini və regionun potensialını elmi əsaslarla qiymətləndirməkdir.

1. Qarabağ və Şərqi Zəngəzurun təbiəti və torpaq ehtiyatı

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının torpaq örtüyü əsasən qəhvəyi dağ-meşə, çəmən-boz və karbonatlı torpaqlardan ibarətdir. Bu torpaqlar üzüm bitkisi üçün lazım olan əsas mineral elementlərlə – kalium, kalsium, maqnezium və fosforla zəngindir.

Torpaqların fiziki və kimyəvi tərkibi üzüm gilələrinin şəkər-turşu balansına, rəngverici maddələrin konsentrasiyasına və fenol tərkibinə birbaşa təsir göstərir [7]. Məsələn, az azot, lakin yüksək kalium tərkibli torpaqlarda yetişən üzüm daha aromatik və balanslı şərablar üçün xammal verir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Torpaqşünaslıq və Aqrokimya İnstitutunun məlumatlarına görə, Qarabağ bölgəsinin torpaqları üzümçülük üçün optimal su-hava rejiminə malikdir. [3] Bu isə həm məhsuldarlığı, həm də gilələrin keyfiyyətini artırır.

2. İqlim amillərinin çəhrayı şərabların keyfiyyətinə təsiri

Regionun iqlim şəraiti quraq isti yayı və mülayim qışı ilə səciyyələnir. İllik günəşli saatların çoxluğu (2700–2900 saat) fotosintez prosesini gücləndirir, gilələrdə şəkərin yığılmasını artırır, eyni zamanda turşuluğun azalmasının qarşısını alır [6] .

Dağətəyi mikroiqlimlər üzüm gilələrinin yavaş yetişməsini təmin edir, nəticədə şərab təravətli və aromatik olur. Qarabağda müşahidə edilən yüksək sutkalıq temperatur fərqləri isə üzüm gilələrinin rəngverici antosian maddələrlə zənginləşməsinə səbəb olur [9].

Bu şərait çəhrayı şərablar üçün ideal balans yaradır: yüksək aromatik intensivlik, zərif turşuluq və yumşaq dad.

3. Yerli üzüm sortları və texnoloji xüsusiyyətlər. Qarabağ və Şərqi Zəngəzurda yetişən yerli üzüm sortları - Mədrəsə, Xındoqnı, Bayanşirə və Təbrizi – çəhrayı şərab istehsalında perspektivli hesab olunur. Bu sortlar rəng və dad sabitliyi, həmçinin aromatik balans baxımından Avropa sortları ilə müqayisədə üstün göstəricilər nümayiş etdirir. Müxtəlif üzüm sortlarından və emal sxemlərindən istifadə etməklə müxtəlif şərab materialları almaq mümkündür [2].

Cədvəl 1

Şərabın rənginə üzüm sortunun və emal sxeminin təsiri

Üzümün sortu	«Ağ üsulla»		«Qırmızı Bütöv salxımla üsulla»
	Bütöv salxımla	Giləni əzməklə	
Şirəsi rəngli olan, qırmızı (Saperavi, Calita, Odessa qara üzümü)	Çəhrayı	Qırmızı	Qırmızı (intensiv rənglənmiş)
Çəhrayı (Aleatiko, Çəhrayı muskat, Boz pino)	Ağ	Ağ	Çəhrayı
Şirəsi rəngli olmayan, qırmızı (Mədrəsə, Xındoqnı, KaberneSovinyon, Qara muskat)	Ağ	Çəhrayı	Qırmızı

İstehsal prosesində az təmaslı qısamüddətli maserasiya üsulu (short maceration) və aşağı temperaturda fermentasiya tətbiqi çəhrayı şərabların təravətini qoruyur. Azərbaycan Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun məlumatına görə, bu texnologiya yerli sortların təbii xüsusiyyətlərini daha yaxşı ifadə etməyə imkan verir [4].

4. Ekoloji təmiz istehsal prinsipləri və regionda brend

Dünyada “eko-şərabçılıq” anlayışı sürətlə yayılmaqdadır. Qarabağ və Şərqi Zəngəzur regionlarının bərpa olunan torpaq və su ehtiyatları ekoloji istehsal üçün əlverişli zəmin yaradır [8].

Ekoloji təmiz istehsalın əsas prinsipləri – pestisidlərin minimum istifadəsi, təbii fermentasiya,

torpağın bioloji aktivliyinin qorunması – həm məhsulun keyfiyyətini artırır, həm də regionun brend imicini formalaşdırır.

Qarabağ şərablarının beynəlxalq bazarda "ekoloji təmiz məhsul" kimi tanıdılması həm turizm, həm də ixrac potensialına müsbət təsir göstərə bilər [5]. Bu, regionun iqtisadi diversifikasiyasına və dayanıqlı inkişafına xidmət edir.

Nəticə

Qarabağ və Şərqi Zəngəzurun təbiət, torpaq və iqlim resursları çəhrayı şərab istehsalı üçün mühüm üstünlüklər təqdim edir. Torpağın mineral tərkibi, iqlimin günəşlilik dərəcəsi və mikroiqlim xüsusiyyətləri bu şərabların rəng, dad və aroma balansına bilavasitə təsir göstərir.

Yerli üzüm sortlarının potensialından səmərəli istifadə, eləcə də ekoloji istehsal prinsiplərinin tətbiqi Qarabağ və Şərqi Zəngəzurun şərablarının keyfiyyət göstəricilərini yüksəldir. Gələcəkdə bu regionlar təkcə kənd təsərrüfatı deyil, həm də ekoturizm və beynəlxalq brendləşmə sahəsində Azərbaycan üçün strateji əhəmiyyət daşıya bilər.

Beləliklə, təbiət, torpaq və iqlim resurslarının elmi əsaslarla idarə edilməsi Qarabağ və Şərqi Zəngəzurun çəhrayı şərablarının dünya bazarında fərqləndirici mövqeyini möhkəmləndirəcəkdir.

ƏDƏBİYYAT

1. Əliyev, H. (2017). *Azərbaycanın üzümçülük və şərabçılıq tarixi*. Bakı: "Elm" nəşriyyatı.
2. Əliyeva, S. (2015). *Azərbaycan şərabçılığında yerli üzüm sortlarının texnoloji xüsusiyyətləri*. Bakı: Aqrar Universiteti Nəşriyyatı.
3. Qasımov, R. (2019). "Qarabağ bölgəsinin torpaq resurslarının aqroekoloji potensialı." *AMEA Torpaqşünaslıq və Aqrokimya Jurnalı*, №2, s. 44–50.
4. Məmmədov, E. (2020). "Yerli üzüm sortlarından çəhrayı şərab istehsalı texnologiyası." *Azərbaycan Şərabçılıq Elmi-Tədqiqat İnstitutu Elmi Əsərləri*, №4, s. 72–80.
5. Anderson, K., & Pinilla, V. (2020). *Wine Globalization: A New Comparative History*. Cambridge University Press.
6. Gladstones, J. (2011). *Wine, Terroir and Climate Change*. Wakefield Press.
7. Hidalgo, L. (2018). *Tratado de Viticultura General*. Madrid: Mundi-Prensa.
8. International Organisation of Vine and Wine (OIV). (2022). *State of the World Vine and Wine Sector 2022*. Paris.
9. İmanova, K. F. (2021). "Azərbaycan şərabçılığında terroir və ekoloji istehsal anlayışları." *Azərbaycan Kənd Təsərrüfatı Jurnalı*, №3, s. 57–63.

Вефа Эльдар кызы Мамедзаде
магистрант,
vefasvaa@gmail.com,
Конул Фикрет кызы Иманова
доктор философии технических наук, доцент,
imanovakonul75@mail.ru,
Азербайджанский Университет Кооперации

Влияние почвенно-климатических факторов Карабаха и Восточного Зангазура на показатели качества розовых вин

Резюме

В последние годы во всём мире наблюдается рост интереса к розовым винам. Этот тип вина высоко ценится как за свои ароматические, так и за эстетические свойства. Хотя розовые вина в основном производятся из красных сортов винограда, их отличительные характеристики тесно связаны с типом почвы, климатическими условиями и природной средой, в которой выращивается виноград.

Vafa Eldar Mammadzadeh
master,
vefasvaa@gmail.com,
Konul Fikret Imanova
doctor of philosophy in technical sciences, associate professor,
imanovakonul75@mail.ru,
Azerbaijan Cooperation University

The influence of soil and climatic factors of Karabakh and Eastern Zangezur on the quality indicators of rosé wines

Summary

In recent years, interest in rosé wine has significantly increased worldwide. This type of wine is highly appreciated for its aromatic richness as well as its aesthetic qualities. Although rosé wines are mainly produced from red grape varieties, their distinctive characteristics are closely related to the soil composition, climate conditions, and natural environment in which the grapes are grown.

Aytac Cümşüd qızı CƏFƏROVA
magistrant,
Vilayət Abbas oğlu ƏLİYEV
texniki elmlər namizəsi, professor,
Azərbaycan Kooperasiya Universiteti

BİŞMİŞ KOLBASALARIN KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Bişmiş kolbasaların insanların rasion qidasında oynadığı rolu nəzərə alaraq bu məhsulların keyfiyyət göstəricilərini araşdırmaq əsas məqsədlərdən biridir. Eyni zamanda bişmiş kolbasaların yüksək qidalılıq dəyəri və orqanizmə əhəmiyyəti bu məhsulun daha geniş əmtəəşünaslıq xassələrinin araşdırılmasını əsas vəzifələrdən biri edir.

Kolbasa məmulatının keyfiyyəti qiymətləndirilərkən ilk növbədə onun xarici görünüşü, məhsulun növü, çeşidi və ticarət sortu təyin edilir. Sonra örtücü pərdənin qiyməyə yapışıb-yapışmadığı, kolbasa batonunun üzərində kif örtüyünün olub-olmamasına baxmaqla, kolbasa batonunun üzərinə sürtməklə batonun xarici səthinin quru, selikli və yapışqanlı olub-olmamasına diqqət yetirilir. Bişmiş kobasaların keyfiyyətinə təsir edən amillərlə yanaşı bişmiş kolbasaların orqanoleptiki göstəricilərinin xarakterizəsi təcrübi əhəmiyyətə malikdir. Bişmiş kolbasaların xarici görünüşünü qiymətləndirərkən kolbasa batonunun örtüyünün quru olmasına, batonun möhkəmliyinə, elastikliyinə, üzərində kənar və müxaniki qarışıqlar olmamasına diqqət yetirilməlidir. Eyni zmanda kolbasa batonunun partlamasına, örtüyün cırılmasına standarta əsasən icazə verilmir.

Kolbasa məmulatının keyfiyyəti qiymətləndirilərkən əsas göstəricilərdən biri onun iyi və dadıdır. Bişmiş kolbasalarda iy və dad əsas göstəricilərdən hesab edilir. Kolbasa məmulatının iyi və dadı məmulatın növünə uyğun olmalıdır. Kolbasa məmulatı istehsal edilərkən qiyməyə bir çox ətirli maddələr əlavə edildiyi üçün kolbasanın ətri xoşagələndir. Kolbasa batonu xoşagələn ətirə malik olmalı, qaxsımış, turşumuş və kənar iy və dad verməməlidir. Kolbasa batonunda iy və dadı xüsusi taxta və ya metal iynə ilə çıxarılmış hissəni iyləmək və dadmaqla müəyyənləşdirirlir. Daha dərin təbəqələrin iy və dadını dəqiq təyin etmək üçün məmulat ortadan eninə və uzununa istiqamətdə yarılıb, ehtiyatla sındırılır, onun iyi və dadı müəyyən edilir. Kolbasa batonunun en kəsiyinin görünüşü yoxlanan zaman batonlar tamamilə və ya müəyyən ölçüdə örtücü pərdədən azad edilir.

Kolbasa məmulatının konsistensiyasını təyin etmək üçün kolasa batonunun yenicə kəsilmiş yeri barmaqla və ya şpatellə zəif basmaqla müəyyənləşdirirlir. Eyni zamanda kolbasa batonlarında

bakterioloji göstəricilərdən 1 qr məhsul hesabı ilə kolbasada olan mikroorqanizmlərin ümumi miqdarı, həmçinin çürüdücü və xəstəliktörədici salmonella mikroorqanizmlərinin olması təyin edilir. Keyfiyyət göstəricilərindən asılı olaraq kolbasa məmulatı təzə, təzəliyi şübhəli və xarab olmuşa ayrılır. Ticarətə yalnız təzə kolbasa məmulatı verilir. Məhz buna görə kolbasa məmulatının keyfiyyətinin təyini üçün kompleks tədqiqat metodlarından, orqanoleptiki, fiziki, fiziki-kimyəvi və bakterioloji, mikrobioloji və digər metodlardan istifadə edilir. Orqanoleptiki göstəricilərindən kolbasanın xarici görünüşü, iyi və dadı, en kəsiyinin görünüşü, konsistensiyası və digərlərini göstərmək olar. Məsələn, bişmiş kolbasalar və ət çörəkləri xarakterik ədviyyat qoxulu, azacıq şortəhər tamlı bişmiş kolbasalarda vardır.

Bişmiş kolbasaların qiyməsinin rəngi həmin kolbasa üçün xarakterik olub, kolbasanın bütün səthində, istər örtücü pərdənin ətrafında, istərsə də digər yerlərdə eyni olmalıdır. Qiymədə boz ləkələrin, boz rəngli hava boşluğunun olmasına yol verilmir. Qiymədə piy tikəcikləri ağ və ya çəhrayı çalarlı olmalıdır. Təzəliyi şübhəli olan bişmiş kolbasaların örtücü pərdəsi azacıq selikli, kifli, yaş və yapışqanlı olur. Örtücü pərdə ətrafında qiymə bozumtul rəngli, piy, bəzi yerlərdə saralmış olur. Qiymənin konsistensiyası qeyri-elastiki olmaqla qaxsımış, turşumuş, azca acıtəhət tam verir. Xarab olmuş kolbasanın qəbul edilməsinə və satılmasına icazə verilmir: bişmiş kolbasaların örtücü pərdəsi çirkli, kifli, selikli, yapışqanlı olduqca örtücü pərdə cırılıb, qiymə xeyli xaricə çıxdıqda, konssitensiyası qeyri-elastiki boş olduqda, en kəsiyində boz ləkələr olduqda, batonları sındırdıqda kəskin deformasiyaya uğradıqda.

Bişmiş kolbasaların keyfiyyətini orqanoleptiki yolla eyni vaxtda qiymətləndirdikdə daha dəqiq və düzgün nəticə alınması üçün yoxlamanı otaq temperaturunda aşağıdakı ardıcıllıqla aparmaq lazımdır: əvvəlcə bişmiş kolbasalar təhlil edilir, hər dequstasiya arasında fasilə edilir, ağız tünd dəmlənmiş çayla yaxalanır. Bişmiş kolbasanın tamı dequstasiya edilən zaman ağ çörəkdən istifadə edilməlidir.

Kolbasa məmulatının fiziki-kimyəvi, habelə bakterioloji göstəricilərini yoxlamaq üçün ayrılmış orta nümunə perqament kağızına bükülüb problanır. Lazımi sənədlərlə aktla təmin edilir. Aktda orta nümunənin alındığı yer və vaxt malın istehsal edildiyi tarix və saat, malın laboratoriya təhlilinə göndərilməsi səbəbi və məqsədi göstərilir. Ət sənayesində bişmiş kolbasanın keyfiyyəti bal sistemi ilə qiymətləndirilir. Ümumiyyətlə, kolbasanın keyfiyyəti 100 bal qiymət sistemi ilə qiymətləndirirlir. Ətin doğranmasına 30 bal verilir. Ətin doğranmasına görə 30 bal, kutterə əlavə edilən su 20 bal, ətin kutterdə qızışması 30 bal, kortlaşmış bıçağa 10 bal verilir. Kimyəvi təhlil metodu ilə kolbasa məmulatında keyfiyyəti DÖST 9793-74, 9957-73, 8558,1-78, 10574-73 standartları üzrə təyin edilir.

Bişmiş kolbasaların keyfiyyəti qiymətləndirilərkən kolbasanın fiziki-kimyəvi göstəriciləri də standart göstəriciləri ilə müqayisə edilir. Tədqiqat nəticəsində Həvəskar kolbasanın orqanoleptiki göstəriciləri, fiziki-kimyəvi göstəriciləri, suyun miqdarı 57%, zülalın miqdarı 12,2, yağın miqdarı 28%, karbohidrata rast gəlmədi, külün ümumi miqdarı 2,8%, o cümlədən, xörək duzunun miqdarı 2,2 %-dir. Bu rəqəmlər standart göstəricilərinə uyğun gəlir. Bu bir daha göstərir ki, həvəskar kolbasa tam keyfiyyətlidir. Həkim kolbasasının tərkibində 60,8%, zülal 13,7%, yağ 22,8%, karbohidrat müəyyən edilmədi, kül 2,7%, xörək duzu 2%-dir. Həkim kolbasasında olan bu göstəricilər standartlarla üs-üstə düşür, deməli həkim kolbasası da keyfiyyətlidir. Əlahiddə kolbasasının tərkibində su 64,8%, zülal 10,1%, yağ 20,1%, karbohidrogen 1,8%, kül 3,2%, xörək duzu 2,6%-dir. Bu rəqəmlər standart göstəriciləri ilə üst-üstə düşür. Əlahiddə kolbasası, demək olar ki, tam keyfiyyətlidir.

ƏDƏBİYYAT

1. V.A.Əliyev. "Ərzaq mallarının əmtəəşünaslığı, ekspertizasının sertifikatlaşdırılmasının nəzəri əsasları, Bakı-1999
2. V.A.Əliyev və Ş.A.Yusifova "İstehlak mallarının keyfiyyət ekspertizası" Bakı-2006.
3. V.A.Əliyev. "Ət və ət məhsullarının texnologiyası" Bakı, 2016-cı il.

Айтач Джумшуд кызы Джафарова
магистрант,
Вилает Аббас оглы Алиев
Кандидат технических наук, профессор,
Азербайджанский Университет Кооперации

Оценка качества вареных колбас

Резюме

Учитывая роль вареных колбасных изделий в питании человека, одной из основных задач является исследование качественных показателей этой продукции. Высокая пищевая ценность вареных колбасных изделий и их значимость для организма обусловливают необходимость изучения более широких товарных свойств этого продукта.

При оценке качества колбасного изделия в первую очередь определяют его внешний вид, вид, сорт и товарный сорт. Затем, осматривая поверхность батона на наличие плесени, где пленка покрытия не прилипает к фаршу, обращают внимание на сухость, склизкость и липкость наружной поверхности батона путем трения ее о поверхность батона. Наряду с факторами, влияющими на качество вареных колбас, практическое значение имеет характеристика органолептических показателей вареных колбас. При оценке внешнего вида вареных колбас следует обращать внимание на сухость оболочки батона, прочность, эластичность батона, отсутствие на нем посторонних и механических включений. При этом, согласно стандарту, не допускаются разрыв оболочки и разрыв батона.

Aitach Dzhumshud Jafarova
master,
Vilayet Abbas Aliyev
candidate of technical sciences, professor,
Azerbaijan Cooperation University

Evaluation of the quality of cooked sausages

Summary

Considering the role of cooked sausage products in human nutrition, one of the main tasks is to study the quality indicators of this product. The high food value of cooked sausage products and their importance for the body make it necessary to study the wider commercial properties of this product.

When assessing the quality of a sausage product, its appearance, type, variety and commercial grade are determined first of all. Then, inspecting the surface of the loaf for the presence of mold, where the coating film does not stick to the floor, pay attention to the dryness, slipperiness and stickiness of the outer surface of the loaf by rubbing it against the surface of the loaf. Along with factors affecting the quality of cooked sausages, the characteristic of organoleptic indicators of cooked sausages is of practical importance. When evaluating the appearance of cooked sausages, you should pay attention to the dryness of the loaf's shell, the strength, elasticity of the loaf, the absence of extraneous and mechanical inclusions. At the same time, according to the standard, it is not allowed to break the shell and break the loaf.

Yasəmən Nəriman qızı NƏSİBOVA
magistrant,
Nadir Tofiq oğlu KƏRİMOV
texnika üzrə fəlsəfə doktoru, dosent
nadirkarimov@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti

REGİONLARIN DAYANIQLI İNKİŞAFINDA ŞƏRABÇILIQ MƏHSULLARININ KEYFİYYƏTİNƏ NƏZARƏTİN VƏ QİDA TƏHLÜKƏSİZLİYİNİN ROLU

Qarabağ regionu Azərbaycanın ən qədim üzümçülük və şərabçılıq mərkəzlərindən biri kimi tarixən həm yerli istehlak, həm də ixrac üçün mühüm əhəmiyyət kəsb etmişdir. Arxeoloji və etnoqrafik mənbələr göstərir ki, bu ərazidə üzümçülük ənənələri hələ antik dövrlərdən formalaşmış, orta əsrlərdə isə kənd təsərrüfatı istehsalının əsas sahələrindən birinə çevrilmişdir (AMEA, 2023). XIX–XX əsrlərdə Füzuli, Ağdam, Şuşa və Xocavənd rayonlarında şərabçılıq sənayesi sürətlə inkişaf etmiş, burada Xındı, Mədrəsə, Bayanşirə, Təbrizi, Şirvani və digər yerli texniki sortlardan yüksək keyfiyyətli süfrə və şərab materialları istehsal olunmuşdur. Qarabağda formalaşmış bu zəngin ənənə regionun kənd təsərrüfatı iqtisadiyyatının mühüm sütunlarından birini təşkil etmişdir (Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi, 2022). Lakin 30 ilə yaxın işğal dövrü ərzində regionun kənd təsərrüfatı infrastrukturu, o cümlədən üzüm plantasiyaları, emal müəssisələri, suvarma sistemləri və torpaq monitorinqi şəbəkələri tamamilə dağıdılmış, torpaqların böyük hissəsi becərilməmiş vəziyyətdə qalmışdır. Bu, həm iqtisadi, həm də ekoloji baxımdan ciddi zərər doğurmuşdur.

Hazırda Qarabağda aparılan bərpa və yenidənqurma tədbirlərinin əsas istiqamətlərindən biri məhz kənd təsərrüfatının, o cümlədən üzümçülük və şərabçılıq sahəsinin dayanıqlı inkişaf prinsipləri əsasında yenidən qurulmasıdır. Bu şəraitdə məhsul istehsalının yalnız iqtisadi səmərəliliyi deyil, həm də qida təhlükəsizliyi, sanitar-gigiyenik tələblər, ekoloji balansın qorunması və istehlakçı sağlamlığının müdafiəsi baxımından idarə olunması zərurətə çevrilmişdir. Müasir dövrdə qida təhlükəsizliyi sistemi regionlarda kənd təsərrüfatı istehsalının ayrılmaz komponenti kimi qəbul edilir. Şərabçılıq məhsullarının keyfiyyətinə nəzarət – üzümün becərilmə mərhələsindən başlayaraq, şirə alınması, fermentasiya, süzülmə, saxlanma, qablaşdırma və satışa qədər bütün texnoloji mərhələləri əhatə edən kompleks bir idarəetmə prosesidir (ISO, 2018; OIV, 2022). Beynəlxalq təcrübə göstərir ki, şərab məhsullarında qida təhlükəsizliyi tələblərinin icrası yalnız məhsulun keyfiyyət göstəricilərinin sabitliyini deyil, həm də regionun ixrac potensialını, bazar etimadını və investisiya cəlbediciliyini artırır.

Qarabağda istehsal olunan şərab məhsullarının beynəlxalq bazarlarda rəqabətqabiliyyətli olması üçün ISO 22000:2018, HACCP və Codex Alimentarius prinsiplərinin tətbiqi zəruridir. Bu standartların həyata keçirilməsi məhsulun kimyəvi, mikrobioloji və toksikoloji baxımdan təhlükəsizliyini təmin etməklə yanaşı, istehsalçı müəssisələrin fəaliyyətinin şəffaflığını və idarəetməyə nəzarəti də yüksəldir (FAO, 2023). Eyni zamanda, qida təhlükəsizliyinə nəzarət Qarabağda aparılan ekoloji bərpa proseslərinin mühüm tərkib hissəsidir. Çünki üzümçülükdə istifadə olunan pestisidlərin, gübrələrin və texnoloji əlavələrin nəzarətsiz tətbiqi torpağın bioloji aktivliyinə, yeraltı su ehtiyatlarına və biomüxtəlifliyə mənfi təsir göstərə bilər. Buna görə də yeni yaradılan təsərrüfat strukturları "yaşıl kənd təsərrüfatı" və "ekoloji sertifikatlaşdırma" prinsipləri əsasında fəaliyyət göstərməlidirlər (AMEA, 2023; FAO, 2023). Qarabağ regionunda şərabçılıq sektorunun bərpası yalnız iqtisadi yenidənqurma prosesi kimi deyil, həm də qida təhlükəsizliyi sistemlərinin formalaşdırılması, ekoloji tarazlığın bərpası və dayanıqlı kənd təsərrüfatı modelinin yaradılması baxımından strateji əhəmiyyət kəsb edir. Qida təhlükəsizliyi – istehsal, daşınma, saxlama və satış mərhələlərində məhsulun insan sağlamlığı üçün təhlükə yaratmamasını təmin edən sistemdir (Codex Alimentarius, 2023). Şərabçılıqda bu sistem aşağıdakı mərhələlərdə formalaşır:

1. xammalın təhlükəsizliyi (üzümün pestisid və nitrat tərkibi);
2. istehsal mərhələsində mikrobioloji və kimyəvi sabitlik;
3. qablaşdırma və saxlanma şəraitinə nəzarət;

4. etiketləmə və istehlakçı məlumatlandırması (EU Regulation 2023/1606).

ISO 22000:2018 və HACCP prinsipləri şərab zavodlarında risklərin müəyyənləşdirilməsi və kritik nəzarət nöqtələrinin (CCP) idarə edilməsini nəzərdə tutur. OIV (2022) tərəfindən təklif edilən *Wine Safety Management System (WSMS) bu prinsiplərin şərab sənayesinə uyğunlaşdırılmış formasıdır.Qarabağ regionunda şərabçılığın dayanıqlı inkişaf potensialı-Qarabağın təbii-iqlim şəraiti –yüksək günəşlilik, qumlu-torpaq strukturu, təmiz su mənbələri şərabçılıq üçün əlverişli şərait yaradır. Lakin regionun ekosisteminin uzunmüddətli deqradasiyası nəticəsində torpaq və su ehtiyatlarının kimyəvi balansı pozulmuşdur (Azərbaycan Milli Elmlər Akademiyası, 2023). Yeni dövrdə dayanıqlı kənd təsərrüfatı siyasəti çərçivəsində torpaqların rekultivasiyası, ekoloji nəzarət və yerli laborator infrastrukturun qurulması vacib məsələdir. Bu, həm də məhsulun ixrac bazarlarında tanınması üçün əsas şərtdir. FAO (2023) məlumatına görə, dünyada üzüm və şərab istehsalı üzrə qida təhlükəsizliyi sistemləri artıq kənd təsərrüfatı siyasətinin ayrılmaz hissəsinə çevrilmişdir. Qarabağda bu istiqamətin inkişafı həm iqtisadi, həm də sosial sabitliyin təminatıdır.

HACCP (Hazard Analysis and Critical Control Points) şərab istehsalı mərhələsində bioloji, kimyəvi və fiziki risklərin erkən aşkarlanması və qarşısının alınması üçün əsas üsuldur (ISO, 2018). Qarabağda yeni qurulacaq emal müəssisələrində bu sistemin tətbiqi məhsulun beynəlxalq standartlara uyğun istehsalını təmin edəcək. HACCP sisteminə əsaslanaraq müəssisələr aşağıdakı addımları yerinə yetirməlidir:

1. xammalın analiz nəticələrinin etalona uyğunluğunun yoxlanması;
2. kritik nöqtələrin (fermentasiya, filtrasiya, qablaşdırma) monitorinqi;
3. laborator analiz nəticələrinin sənədləşdirilməsi və saxlanması.

OIV (2022) tərəfindən qəbul edilmiş General Principles of Food Hygiene in Wine Production sənədinə görə, hər bir istehsalçı qida təhlükəsizliyi sisteminə inteqrasiya olunmalıdır. Codex Alimentarius (2023) isə üzüm və şərab üçün maksimum pestisid qalığı (MRL) səviyyələrini müəyyən edir. Bu normativlərə uyğunluq Qarabağ şərablarının beynəlxalq bazarlara çıxışı üçün əsas tələbdir.

Qarabağda müasir problemlər və praktiki çağırışlar bunlardır:

1. Laborator infrastrukturun zəifliyi: Qarabağda hazırda yalnız ilkin kimyəvi analizlər aparılır. Tam akkreditə olunmuş laboratoriyaların yaradılması qida təhlükəsizliyinin təminatında prioritet məsələdir (Liviz et al., 2025)

2. Fermerlərin təhsili və maarifləndirilməsi: Üzüm istehsalçıları arasında pestisidlərin istifadəsi, MRL-ların tətbiqi və torpaq mühafizəsi barədə bilik səviyyəsi aşağıdır (FAO, 2023)

3. Ekoloji və sosial davamlılıq: Şərab istehsalı zamanı tullantıların təkrar istifadəsi, üzüm cecəsinin bioloji emalı və tullantısız texnologiyalar regionun ekoloji bərpası üçün mühüm şərtdir (Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi, 2022).

Qarabağ regionunda şərabçılığın inkişafı dayanıqlı və təhlükəsiz istehsal modelləri əsasında həyata keçirilməlidir. Bu səbəbdən də:

1. ISO 22000 və HACCP sistemlərinin mərhələli tətbiqi – bütün şərab zavodlarında təhlükələrin analizi və kritik nəzarət nöqtələrinin müəyyənləşdirilməsi;

2. OIV və Codex Alimentarius normativlərinin tətbiqi – pestisid qalıqları və mikrobioloji göstəricilərin beynəlxalq səviyyədə təsdiqlənməsi;

3. Laboratoriya şəbəkəsinin qurulması – Qarabağda akkreditləşdirilmiş regional qida laboratoriyasının yaradılması;

4. Tullantısız texnologiyaların tətbiqi – üzüm cecəsi, daraq və çöküntülərin biotexnoloji təkrar istifadəsi;

5. Kadr hazırlığı və təlim proqramları – qida təhlükəsizliyi mütəxəssislərinin region səviyyəsində yetişdirilməsi təklif olunur.

Beləliklə, Qarabağ regionunda şərabçılıq məhsullarının keyfiyyətinə nəzarət sistemi yalnız texnoloji və sanitar normaların icrası deyil, həm də regionun iqtisadi, ekoloji və sosial dayanıqlığının təminat mexanizmi kimi qiymətləndirilməlidir. Beynəlxalq təcrübənin (OIV, 2022; ISO, 2018; FAO, 2023) məhdud şəraitə uyğun tətbiqi regionun qida təhlükəsizliyi və ixrac potensialını əhəmiyyətli dərəcədə artıracaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. (2022). Qarabağ regionunda üzümçülüyün inkişaf istiqamətləri üzrə hesabat. Bakı.
2. Azərbaycan Milli Elmlər Akademiyası. (2023). Qarabağ iqtisadi rayonunda torpaq və su resurslarının ekoloji qiymətləndirilməsi. Bakı: AMEA Nəşriyyatı.
3. Codex Alimentarius. (2023). Maximum Residue Limits (MRLs) for pesticide residues in grapes and wine. FAO/WHO Joint Programme.
4. FAO. (2023). Food safety management in viticulture and enology: Global best practices. Roma.
5. ISO. (2018). ISO 22000:2018 Food safety management systems – Requirements for any organization in the food chain. Geneva.
6. Liviz, C. A. M., et al. (2025). Pesticide residues in grapes and wine: An overview. Journal of Food Control, 151(2), 113–128.
7. OIV – International Organisation of Vine and Wine. (2022). Guide to identify hazards, critical control points and their management in the wine industry (Wine Safety Management System). Paris.
8. European Commission. (2023). EU Regulation No. 2023/1606 on wine labelling and consumer information. Brussels.

Yasaman Nariman Nasibova
magistrant,
Nadir Tofik oglu Kerimov
doktor filosofii texnicheskix nauk, docent,
nadirkarimov@gmail.com,
Azerbaijan Kooperasiya Universiteti

Role of control of the quality of wine products and food safety in the sustainable development of regions

Summary

In order for wine products produced in Karabakh to be competitive in international markets, it is necessary to apply the principles of ISO 22000:2018, HACCP and Codex Alimentarius. The

implementation of these standards not only ensures the chemical, microbiological and toxicological safety of the product, but also increases the transparency of the activities of production enterprises and control over management (FAO, 2023). At the same time, food safety control is an important component of the ecological restoration processes carried out in Karabakh. Because the uncontrolled application of pesticides, fertilizers and technological additives used in viticulture can negatively affect the biological activity of the soil, groundwater resources and biodiversity.

Pərvin Elşad oğlu PƏNAHOV
magistrant,
Ərşad Yunis oğlu QULİYEV
aqrar elmlər üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

SÜD VƏ SÜD MƏHSULLARININ QİDALANMADA ROLU

Süd məhsulları da çörək kimi qədim zamanlardan insanların qidalanmasında geniş istifadə edilirdi. Əsrlər əvvəl, bəlkə də eramızdan əvvəl 6000-8000 ci illərdə qədim insanlar heyvanların növlərindən asılı olaraq özlərinin istehlak edə biləcəyi süd ilə təmin etməyi öyrənmişdir. Bunlara aid olan inək, qoyun, camış, keçi və s. kimi heyvanlar indiyənə kimi insanlar üçün süd istehsal etmək qabiliyyətinə malikdir. Pendir kimi fermentləşdirilmiş məhsullar isə sonradan təsadüf nəticəsində aşkar edilmişdir. Lakin kərə yağı, dondurma və başqa süd məhsulları kimi pendirlərin də istehsalı keçmiş zamanlara dayanır. Müasir zamanda elm və texnikanın inkişafı nəticəsində ənənəvi süd məhsullarından fərqli olaraq yeni funksional süd məhsulları istehsal edilməyə başlanılmışdır.

Təzə südün dadı xoş və şirintəhər, rəngi sarımtıl-ağ olmaqla özünəməxsus bir qoxusu vardır. Süd $100,2^0$C temperaturda qaynayır, $0,54^0$C $-0,58^0$C temperatur aralığında isə donur. Süd və süd məhsulları insanın qidalanmasında mühüm əhəmiyyətə malikdir. Süd öz qidalılıq dəyərinə görə hər hansısa bir məhsulu əvəz edə bilər, lakin süd və süd məhsullarını əvəz edə bilən məhsul yoxdur. Süd insanın ilk aylarında qəbul etdiyi yeganə qidadır. Yaşlı və zəifləmiş insanlar üçün süd əvəzedilməz qidadır. Süd və süd məhsullarının bir çox xəstəliklərin: qaraciyər, ağciyər və mədə bağırsaq xəstəliklərinin müalicəsində və profilaktikasında əhəmiyyətli rolu vardır. Südün tərkibi insanın gündəlik qidalanması üçün lazım olan balanslaşdırılmış nisbətdə qida maddələri və orqanizm tərəfindən asan mənimsənilən zülallar, yağlar və karbohidratlardan ibarətdir. Bunlardan əlavə südün tərkibində maddələr mübadiləsini təmin etmək üçün ferment, vitamin, mineral və başqa maddələr vardır. Qidalanmamızda qidalı maddələrlə zəngin olan süd məhsullarını tamamilə aradan qaldırsaq sağlamlığımıza mənfi təsir göstərə bilər. Ənənəvi qidalanmada süd məhsullarından istifadə dünyanın müxtəlif ölkələrində fərqlidir. Tropik ölkələr şimal bölgələrinə (əsasən Avropa və Şimali Amerika) nisbətən öz qidalanmasında süddən daha az istifadə edirlər. Finlandiya, Norveç və İsveçdə (Skandinaviya ölkələri) Fransa, Almaniya, İtaliya və Yunanıstan ilə müqayisədə pendirlərin istehlakı üstünlük təşkil edir. Süd və süd məhsullarının ən dəyərli komponenti zülallardır. Zülalların parçalanmasından əmələ gələn aminturşuları orqanizmdə müxtəlif funksiyaları yerinə yetirmək üçün istifadə edilir. Elə aminturşular vardır ki, onlar insan orqanizmi tərəfindən müxtəlif proseslər nəticəsində əmələ gəlir. Lakin orqanizmin sintez edə bilmədiyi aminturşuları da vardır ki, onlar yalnız qidalanma zamanı orqanizmə daxil olur və bunlar əvəzedilməz aminturşuları adlandırılır.

Təsərrüfat heyvanlarından, tərkibindən və xüsusiyyətlərindən asılı olaraq qida məhsulları yem, texniki məhsullar, tibbi preparatlar və s. istehsalı üçün istifadə edilir.

Süd və süd məhsulları insan qidasında bioloji və enerji dəyəri baxımından istifadə edilən tərkibinə yüksək dərəcəli zülallar, yağlar, karbihidratlar, vitaminlər, mineral və ekstraktiv maddələr olan qida mənbəyidir. Süd və süd məhsullarının tərkibi və xüsusiyyətləri heyvanların növlərindən, cinsindən, yaşından, böyüdüyü şəraitdən, qidalanmadan, həmçinin mikroorqanizmlərin, oksigenin və digər amillərin təsiri altında toxumalarda baş verən dəyişikliklərdən, hazırlanma texnologiya-

sından, istehsal zamanı istifadə olunan qatqılardan və s. asılıdır.

Südün qidalılıq dəyəri zülalın, yağın, vacib aminturşularının, polidoymamış yağ turşularının, B qrupu vitaminlərinin, mikro və makroelementlərin miqdarının nisbətindən, həmçinin südün orqanoleptiki xüsusiyyətlərindən asılıdır.

Südün qoxusu və dadı ekstraktların miqdarından və tərkibindən, uçucu komponentlərin mövcudluğundan və istilik mübadiləsi zamanı baş verən dəyişikliklərdən asılıdır.

Bədənin sümük toxumasının möhkəmlənməsi, qan, beyin fəaliyyəti və s. kimi proseslərin ehtiyac duyduğu kalsium və fosfor kimi elementlər südün tərkibində yüksək miqdarda mövcuddur. Bu elementlər südün tərkibində yüksək həzmolma formasında olmaqla yanaşı həm də balanslaşdırılmış nisbətlərdə olduğundan orqanizm tərəfindən daha rahat mənimsənilir. İnsanın kalsiuma olan gündəlik tələbatının 80 %- i süd məhsulları tərəfindən ödənilə bilir.

Südün tərkibində demək olar ki, bütün vitaminlər var. Orqanizmin B vitamininə olan gündəlik tələbatının 42-50 %-i süd məhsulları hesabına ödənilir. Həmçinin insanın qidalanmasında A vitamininin əsas mənbəyi kərə yağıdır.

Südün tərkibini aşağıdakılar üzrə qruplaşdırmaq olar:

- 87,5-88,7 aralığında su;
- 2,4%-5,5% süd yağı;
- ¾ hissəsi kazein olmaqla 3,25% zülal;
- 4,6% laktoza;
- 0,65% mineral maddələr (Ca, Mg, K, P, Fe, Na, Zn, Cl və s.);
- 0,18% turşular (oksalat, sitrat, asetat və s.);
- peroksidaza, katalaza, lipaza, fosfotaza və s. fermentləri;
- oksigen və azot qazı;
- A, D, C, riboflavin, tiamin və s. vitaminləri.

Süd və süd məhsulları xəstəliklərin müalicəsi ilə yanaşı həmçinin zəhərlənmə halları baş verdikdə də istifadə edilir. Süd məhsullarından biri olan qatıq tərkibində 3,2% yağlılığı olan, laktik turşu bakteriyalarının kulturasından istifadə edilərək hazırlanmış turşudulmuş süd məhsuludur. O patogen mikrobların inkişafına maneə törətmək qabiliyyətinə malikdir.

Digər bir süd məhsulu növü olan kumus təzə maye südündən hazırlanmış yüksək qidalı və müalicəvi süd içkisidir. O əsasən müalicəvi xüsusiyyətinə görə geniş yayılmışdır və insan orqanizminə güclü və çoxyönlü təsir bağışlayır. Kumus ağciyər, böyrək, ürək-damar, metobolitik pozğunluqlar, vitamin çatışmamazlığı, sinir sistemi və bir çox xəstəliklərin müalicəsi üçün istifadə olunur.

ƏDƏBİYYAT

1. Əzimov Ə. M., Axundova N. Ə., Qədimova N. S. Süd və süd məhsullarının texnologiyası. Dərslik, Bakı: İqtisad Universiteti nəşriyyatı, 2016, 390 səh.
2. "Qida məhsullarının təhlükəsizliyinə və qida dəyərliliyinə gigiyenik tələblər" sanitariya – epidemioloji qaydalar və normativlər. Bakı- 2010, Rus dilində ədəbiyyatlar
3. Антипова Л.В. Получение аналогов молочных напитков из нетрадиционного сырья / Л.В. Антипова, В.М. Перелыгин, Е.Е. Курчаева // Вестник РАСХН. 2001. - № 6. – С. 79-81.

Парвин Эльшад оглы Панахов
магистрант,
Аршад Юнис оглы Гулиев
доктор философии по сельскохозяйственных наук,
Азербайджанский Университет Кооперации

Роль молока и молочных продуктов в питании

Резюме

Обеспечение населения качественными и безопасными продуктами питания является одной из важных задач нашей республики. Всвязи с этим, были разработаны технологи-

ческие схемы и рецептура по производству творожных полуфабрикатов для диетического и профилактического питания с использованием натуральных компонентов.

Parvin Elshad Panahov
master,
Ershad Yunis Guliyev
doctor of philosophy in agricultural sciences,
Azerbaijan Cooperation University

Role of milk and dairy products in nutrition

Summary

It is one of the most important duties of the goverment to provide the society with the qualitative and secure food. Related to this, the repice was prepared for the production of cottage cheese semi-factory products on the purpose of diets and prophylactic nutrition, by using technological schemes and natural items.

İlham Ceyhun oğlu SƏMƏDOV
magistrant,
Natəvan Səfər qızı QƏDİMOVA
texnika elmləri üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

ŞƏRAB İSTEHSALININ İKİNCİ DƏRƏCƏLİ XAMMAL EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI

Hazırda emal sənayesinin məhsuldarlığını təmin edən əsas məsələlərdən biri ikinci dərəcəli resurslardan istifadədir. Bu zaman əsas amil bir tərəfdən ətraf mühitə təsiri zəiflətmək, digər tərəfdən isə əlavə olaraq yeni növ məhsullar əldə etməkdir. Bu meyl xüsusilə kənd təsərrüfatı xammalının emalı ilə məşğul olan sahələrdə daha aktualdır, çünki bu halda istehsal tullantıları bioloji mənşəlidir və yem, bəzi hallarda isə qida məhsullarının istehsalı üçün ilkin material ola bilər (Тагирова П.Р. 2014).

Şərab istehsalı sahəsində əsas tullantılar şirin və qıcqırmış üzüm cecələri, maya və yapışqan çöküntüləri, üzüm çəyirdəkləri və s-dir. Cecələrdən xam spirt, şərab daşı, maya çöküntülərindən isə etil spirti əldə edilir. Üzüm yağının, eno-boyaların (şərab boyaları), yem əlavələrinin istehsalı isə bu məhsulların əldə olunması üçün mütərəqqi texnologiyaların olmaması səbəbindən zəif inkişaf etmişdir.

Mövcud tullantıların emal üsullarının inventarlaşdırılması ikinci dərəcəli resursların istifadəsinin ən səmərəli istiqamətlərini müəyyən etməyə imkan verməlidir. Xüsusilə, bioloji aktiv əlavələr də daxil olmaqla elmtutumlu məhsulların alınmasına diqqət yetirmək lazımdır (Макарова Н.В.и др., 2020).

Yerli üzüm sortlarının biokimyəvi tərkibi daha çox miqdarda resveratrolun mövcudluğu ilə xarakterizə olunur – 156,7-170,5 mq/kq aralığında, halbuki Avropa sortlarında bu göstərici 42,5-104,2 mq/kq təşkil edir. Məlum olmuşdur ki, qırmızı üzüm yarpaqlarının ekstraktları qlutationreduktaza, piruvatkinaza və katalaza kimi ən mühüm fermentlərin fəaliyyətini gücləndirir. Üzümün bütün sortlarının qırmızı yarpaq ekstraktları bu fermentlərin reaksiyalarının sürətini artırır, bununla da venotonik, antioksidant, angioprotektor və adaptogen xüsusiyyətlər nümayiş etdirirlər.

Elmi cəhətdən sübut edilmiş və eksperimental olaraq təsdiqlənmişdir ki, qırmızı üzüm yarpaqlarından ekstrakt alınması zamanı CO_2-ekstraksiya texnologiyasının tətbiqi məqsədəuyğundur. Müəyyən edilmişdir ki, lipofil fraksiyanın çıxarılmasından sonra əldə edilən qırmızı üzüm yarpaqlarının şrotu ilkin yarpaqların CO_2-ekstraktına nisbətən daha yüksək bioloji aktivliyə malikdir.

Üzümün müxtəlif hissələrindən alınan ekstraktların müxtəlif növlərinin marqarin emulsiyasının oksidləşmə sabitliyinə təsir qanunauyğunluqları müəyyən edilmişdir. Müəyyən olunmuşdur ki,

üzüm çəyirdəklərinin CO_2-ekstraktı termostat şəraitində bitki yağının oksidləşmə sabitliyini artırır (Панасюк А.Л. и др, 2014).

Məlum olduğu kimi, üzüm giləsi xırda, sərt toxumlara və yaxşı inkişaf etmiş meyvə ətinə malik böyümüş bir yumurtalıqdır. Üzüm salxımı gilələrdən əlavə, həm də salxımın skelet hissəsi olan saplardan ibarətdir. Salxımda şirə miqdarı ilə onun struktur elementləri (sap, qabıq, toxum, meyvə ətinin kobud toxuması) arasındakı nisbət müxtəlif üzüm sortlarında xeyli dəyişir və bu, onların istifadə istiqamətini müəyyənləşdirir.

Üzümün əsas dəyərini üzüm şirəsi təşkil edir. Lakin üzümün digər struktur elementləri də emal olunmuş məhsulların keyfiyyətinə birbaşa təsir göstərə bilər (üzümün qabığı və toxumlarında olan büzücü, boyayıcı və ətir əmələ gətirən birləşmələrin şirənin qabıqlı halda isladılması və qıcqırması zamanı şəraba keçməsi, kaxetiya tipli şərabların hazırlanmasında salxım saplaqlarının istifadəsi və s.). Üzümün qabığı və toxumları, öz növbəsində, eno-boyalar və üzüm yağının istehsalı üçün ilkin xammal kimi istifadə oluna bilər.

Salxımın və gilənin müxtəlif hissələrinin nisbəti üzüm sortlarına görə fərqlənir və yetişmə dərəcəsindən, eləcə də yetişdiyi bölgənin abiotik xüsusiyyətlərindən asılı olur. Şəkərlər və turşular əsasən gilənin şirəsində toplanır, salxım saplaqlarında isə əhəmiyyətli miqdarda turşular olur. Şəkərlilik baxımından üzüm ən şirin meyvələrdən biri hesab olunur. Şəkərlərin kütləvi konsentrasiyası 320 q/dm³ və daha çox ola bilər.

Texniki yetişmə mərhələsində gilədə qlükoza ilə fruktozanın nisbəti, adətən, bir-birinə yaxındır. Vinnik turşusunun kütləvi konsentrasiyası 1-5 q/dm³, alma turşusunun 1-15 q/dm³, limon turşusunun isə 0,02-0,7 q/dm³ arasında dəyişir. Digər turşular isə iz miqdarında olur. Fenol birləşmələri salxımın bərk hissələrində toplanır. Boyayıcı maddələr əsasən qabıqda, büzücü maddələr isə saplaqlarda və xüsusilə toxumlarda cəmlənir. Üzüm giləsinin tərkibindəki zülaklarda 14 aminturşusu aşkar edilmişdir ki, onların 45%-i əvəzolunmaz aminturşularının payına düşür. Pektin maddələri daha çox qabıqda və saplaqlarda olur. Toxumlar isə əhəmiyyətli miqdarda yağ ehtiva edir. Salxımın bütün elementləri arasında ən vacibi gilənin pulpasıdır, çünki üzümün emalı zamanı əsas şirə məhz buradan alınır.

Üzüm cecəsi bərk və maye fazalardan ibarətdir. Bərk faza 66% üzüm qabığı və 34% toxumlardan təşkil olunur. Şnek preslərdə sıxma zamanı cecənin normativ rütubəti 56%-dən çox olmamalıdır. Cecələrdə mineral maddələrin miqdarı 1,2-3,6% arasında dəyişir. Kül elementləri arasında əsasən kalium və fosfor üstünlük təşkil edir. Şirin üzüm cecəsində şəkərlərin kütlə payı 5-10%, şərab turşu birləşmələrinin payı isə 0,5-2,0% arasında olur. Bu zaman şərab turşu birləşmələrinin əsas hissəsini sərbəst şərab turşusu (40%) və kalium bitartrat (10-12%) təşkil edir. Qeyd etmək lazımdır ki, şirin cecədə alma turşusu da mövcuddur və onun miqdarı texniki yetişmə dərəcəsindəki üzüm emalı zamanı şərab turşusunun miqdarına bərabər olur. Qeyd olunan kimyəvi birləşmələrdən əlavə, üzüm cecəsində pentozanlar (1,0-4,5%), pektin maddələri (0,5-3,8%), mineral maddələr (1,2-3,6%) və fenol birləşmələri (11%-ə qədər) mövcuddur.

Qıcqırmış üzüm cecəsində şəkərlər olmur. Əsas komponent etil spirtidir, onun həcm payı 4-5% təşkil edir. Həmçinin tərkibində 0,7-2,5% miqdarında şərab turşu birləşmələri və təzə cecəyə nisbətən 20-30% az miqdarda fenol maddələri mövcuddur. Kimyəvi tərkibinə görə üzüm cecəsi dəyərlidir, çünki o, zəngin polisaxarid kompleksi, əhəmiyyətli miqdarda fenol maddələri və liqnin ehtiva edir.

Qabığın asan hidroliz olunan fraksiyası (pektin maddələri və hemisellülozlar) çoxlu sayda monomer tərkibli birləşmələrə malikdir və onların müxtəlifliyi kifayət qədər genişdir. Dehidratlaşdırılmış üzüm qabığı tullantılarının təbii əlavələr kimi çəhrayı şərabların istehsalında istifadəsi mümkündür. Tədqiqatlar göstərir ki, "ağ üsulla" əldə edilən üzüm cecəsində flavonoidlərin miqdarı 25-55%-dən çoxdur.

Üzüm cecəsi perspektivli pektin tərkibli xammal hesab olunur. Tədqiqatlar göstərmişdir ki, üzüm cecəsində əhəmiyyətli miqdarda qida lifləri və pektin mövcuddur. Üzümün pektin maddələri az öyrənilmişdir. Müxtəlif üzüm sortlarında pektin maddələrinin ümumi miqdarı 1,05-3,25% arasında dəyişir. Daha az şirəli gilələrdə pektin daha çox olur, preslənmə zamanı isə həll olmayan pektinin böyük hissəsi cecədə qalır. Gec yetişən sortlarda ümumi pektin və protopektinin miqdarı daha yüksək olur. Müəyyən edilmişdir ki, texniki üzüm sortları pektin maddələrinin və onların

ayrı-ayrı fraksiyalarının müxtəlif miqdarlarını toplayır, bu da pektinin çıxarılması texnologiyasının parametrlərində fərqliliklər yaradır.

Üzüm cecəsindən pektin ekstraktının alınması da perspektivli istiqamətlərdən biridir. Cecədə spirtlə çökməyə davamlı pektin maddələrinin payı tam quru maddədə ən azı 8% olmalıdır. Təzə üzüm cecəsində 18-20% tum, onların tərkibində isə 12-22% yağ olur. Tumların çıxarılmasından sonra qalan kütlə 30-35% həll olunan quru maddələrdən ibarətdir. Keyfiyyətli pektin ekstraktının alınması üçün bu maddələr tamamilə çıxarılmalıdır. Bunun üçün cecə 25-30^0 C temperaturda su ilə yuyularaq, 15 dəqiqə qarışdırılır və su ayrılır. Sonra cecələr hidrolizatora daxil edilir və hidroliz prosesi aparılır. Proses 0,2% üzüm turşusu məhlulu ilə 70^0 C-də 3-4 saat davam edir. Hidroliz və ekstraksiya başa çatdıqdan sonra kütlə boşaldılır, preslənir. Alınan pektin ekstraktında spirtlə çökməyə davamlı pektin maddələrinin miqdarı 0,8-1,0% olur, ekstrakt separatasiya edilir və konsentratlaşdırılır. Pektin konsentratında 10-12% quru maddələr olur. Proses başa çatdıqdan sonra konsentrat 25^{0}C-ə qədər soyudulur və saxlanır (Хатко З.Н., Бегератова Д.М., Белявцева Т.А, 2023).

Rənglərin alınması da perspektivli sahədir. Qırmızı rənglər üçün mənbə antosiyan tərkibli bitki materialıdır. Ən məşhur nümunə, qaranlıq üzüm sortlarından alınan enokrasitdir. Bu, intensiv qırmızı rəngli maye olub, antosiyan və katexin birləşmələrini ehtiva edir. Ekstraksiya üçün 2% SO_2 məhlulu, ikinci üsulda isə 1% HCl istifadə olunur. Rəng ekstraksiyası qarşı axınlı ekstraktorlar vasitəsilə 1:1 kütlə nisbətində 2 saat ərzində aparılır. Alınan ekstrakt, enin miqdarı 15 g/dm^3 olmaqla, çökməyə buraxılır, süzülür və desulfitasiya olunur. 30°C-yə qədər soyudulduqdan sonra ekstrakt quru maye fermentasiyası üçün maya əlavə edilməklə fermentasiya tankına göndərilir. Fermentasiya tamamlandıqdan sonra rəng süzülür, sonra kationit filtri ilə mineral çirklər çıxarılır, anionit filtri ilə artıq turşular və SO_2 çıxarılır. Təmizlənmiş rəng vakuum kondensasiyası ilə quru maddə miqdarı 30%-dən az olmayaraq və enin miqdarı 50 g/dm^3-ə qədər konsentratlanır.

ƏDƏBİYYAT

1. Егорова Е.Ю., Мороженко Ю.В. Использование вторичных сырьевых ресурсов винодельческой отрасли в биотехнологии напитков брожения. Health, Food & Biotechnology, 2021, с. 55-65.
2. Макарова Н.В., Игнатова Д.Ф., Еремеева Н.Б. Использование отходов переработки винограда в качестве источника комплекса биологически активных веществ, 2020, с.207-211.
3. Панасюк А.Л. и др. Глубокая переработка отходов виноделия с применением экстракции диоксидом углерода, Пищевая промышленность, 8, 2014.
4. Схаляхов А.А., Ашинова А.А. Трансформация винодельческой индустрии: аспекты использования вторичных отходов. №2, 2025 с.126-133.
5. Тагирова П.Р. Технологические приемы переработки винограда. Научный журнал Куб ГАУ, 2014.
6. Хатко З.Н., Бегератова Д.М., Белявцева Т.А. Исследование показателей качества виноградных выжимок белых и красных сортов винограда как пектиносодержащего сырья, используемого при конструировании безалкогольных напитков функционального назначения. Новые технологии, 19(4), 2023, с.176-182.

Ильхам Джейхун оглы Самедов
магистрант,
Натаван Сафар кызы Гадимова
доктор философии технических наук, доцент,
Азербайджанский Университет Кооперации

Эффективные способы использования вторичных сырьевых ресурсов винодельческого производства

Резюме

Основные задачи в обеспечении продуктивности перерабатывающих отраслей является использование вторичных ресурсов. В производстве винодельческих продуктов основными

отходами являются сладкие и сброженные виноградные выжимки, дрожжевые и клеевые осадки, виноградные семена и другие. Отходы производства имеют биологическое происхождение и могут являться исходным материалом для производства кормовых, а в ряде случаев, и пищевых продуктов. Эта тенденция является особенно актуальной в отраслях, занятых переработкой сельскохозяйственного сырья, а также в производстве винодельческих продуктов.

Ilham Jeyhun Samedov
master,
Natavan Safar Gadimova
doctor of philosophy in technical sciences, associate professor,
Azerbaijan Cooperation University

Efficient methods of using secondary raw materials in wine production

Summary

The primary objective in ensuring the productivity of processing industries is the use of secondary resources. In wine production, the main wastes are sweet and fermented grape pomace, yeast and gluten sediment, grape seeds, and other residues. These wastes are of biological origin and can be used as feedstock for the production of feed and, in some cases, food products. This trend is particularly relevant in industries involved in processing agricultural raw materials, as well as in wine production.

Murad Məhəmməd oğlu NƏBİYEV
magistrant,
Şövkət Abuzər qızı YUSUFOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

KOLBASA MƏMULATININ RƏNGİNİN ALINMASI VƏ ONA TƏSİR EDƏN AMİLLƏRİN TƏHLİLİ

Qiyməsinə duz, piy, ədviyyat və digər yardımçı xammal qatılmış ət qiyməsinin təbii bağırsaqlara, süni örtücü pərdələrə və ya qəliblərə doldurub istehlak üçün hazır hala çatana kimi termiki emaldan və ya fermentasiya əməliyyatından keçirilməsi nəticəsində alınan ət məhsuluna kolbasa deyilir.Ət məhsulları içərisində kolbasa məmulatı yüksək qidalılıq dəyərliliyi ilə səciyyələnən yüksək qidalı məhsullardan biri hesab edilir.

Kolbasa məmulatının qidalılıq dəyəri, orqanizmdə həzmi və mənimsənilməsi, habelə enerjililiyi kolbasa məmulatının xammalından yüksək hesab edilir. [1] Kolbasa məmulatlarının ayrı-ayrı qrupları üzrə kimyəvi tərkibi və enerjiliyi bir-birindən fəqli xüsusiyyətlərə malikdir. Belə ki, kolbasa məmulatlarının ayrı-ayrı qruplarının tərkibində ümumi zülalların və mineral maddələrin miqdarı nisbətən sabitdirsə, əksinə, su və yağın miqdarı geniş interval daxilində dəyişir. Hislənmiş kolbasalarda yeyilən hissənin tərkibi aşağıdakı kimidir:

Su -25-40%
Zülal-20-30%
Yağ-30-50%
Kül 6-10%

Yeyilən hissənin 100 qr-nın enerjiliyi isə 480-500k\kkal, 2016-2100 k\couldur.

Hislənmiş kolbasalar tərkibində suyun az, zülalların və piyin çox olması sayəsində digər kolbasa qruplarından yüksək qidalılıq dəyəri, enerjiliyi, eyni zamanda uzun müddət keyfiyyətli surətdə saxlanma qabiliyyəti ilə fərqlənir. Kolbasa məmulatlarında, eyni zamanda onların rənginin də böyük rolu vardır.

Kolbasa məmulatının rəngini çiy təzə ətdə olduğu kimi heç də mioqlobin, oksimioqlobin və metmioqlobin yaratmır. Çünki təzə çiy ətin rəngini şərtləndirən bu piqmentlər kolbasa məmulatı istehsalının ayrı-ayrı mərhələlərində, xüsusi ilə duzlama və istilik emalı zamanı öz ilkin xassə və xüsusiyyətlərini kəskin sürətdə dəyişir.

Kolbasa məmulatı istehsalında əsas və aparıcı əməliyyatlardan biri sayılan duzlama və termiki emal proseslərində ətin təbii rənginin dəyişməsinin nəzəri cəhəti ondan ibarətdir ki, xörək duzu ətin piqmentlərinin oksidləşmə prosesini daha da sürətləndirir.Ətin əzələ toxuması duzlama zamanı bəzən öz təbii rəngini azacıq saxlaya bilər. Lakin, bu rəng termiki emal zamanı tamamilə yox olur.

Ona görə ki, ətin xromoproteidləri-mioqlobin və hemoqlobin yüksək temperaturun təsiri ilə denaturatlaşırlar və doymamış koordinasion quruluşa malik olan hem ayrılır. Bunun nəticəsində həmin ikivalentli dəmiri üzvi əsaslarla birləşib hemoxromogenlər əmələ gətirir. Hemoxromogenlər isə mioqlobin və hemoqlobinlə müqayisədə oksidləşməyə çox həssasdır, hemoxromogenlərin, xüsusən ikivalentli dəmirin üçvalentliyədək oksidləşməsi ilə parahematinlər əmələ gəlir. Bu birləşmələrin rəngi müxtəlifdir. Beləliklə, termiki emal zamanı bir tərəfdən hem piqmentlərində gedən dəyişikliklər, digər tərəfdən porfirin həlqəsinin oksidləşməsi (parahematinin yaranması) ətin təbii rənginin tamamilə itməsinə səbəb olur.

Ətin piqmentlərində gedən dəyişikliklər xeyli dərəcədə temperaturun səviyyəsindən asılıdır. Belə ki, 60ºC temperaturadək bişirilən mal ətinin daxili rəngi parlaq-qırmızı, 60÷70ºC-də qırmızı,70÷80ºC-də isə bozumtul-qəhvəyi olur.

Bişmiş ətin qəhvəyi rənginin yaranmasına başqa amillərin, o cümlədən, karbohidratların karamelləşməsinin, reduksiyaedici şəkərlər və amin qruplar arasında gedən reaksiyaların və s. təsiri vardır.

Göründüyü kimi,kolbasa məmulatının istehsalı zamanı müxtəlif amillərin təsiri ilə ətin təbii rəngi kəskin surətdə dəyişikliyə uğrayır.

Odur ki, parlaq, davamlı və təzə ətə xas olan rəngli kolbasa məmulatının alınması üçün uzun illərdir ki, müxtəlif maddə və birləşmədən istifadə edilir. Bu maddələr içərisində ən geniş surətdə istifadə ediləni nitrit (əsasən natrium) və nitratdır(əsasən kalium).

Hazırda demək olar ki, dünyanın bütün ölkələrində (yeyinti məhsulları istehsalına dair qanunları bir-birindən nəzərəçarpacaq dərəcədə fərqli olmasına baxmayaraq) kolbasa məmulatı istehsalında nitrit və nitratlardan istifadə etməyə rəsmi surətdə icazə verilir.Yalnız bir neçə ölkədə, o cümlədən də Qərbi-Avropa ölkəsi Norveçdə nitritin ümumiyyətlə istifadəsinə icazə verilmir.

Nitrit və nitratdan istifadə etməyə yol verilən ölkələrdə fərq onların qatılma üsulundan, qaydasından, miqdarından və s. ibarətdir. Məs.: Çexiya və Slovakiyada ətin duzlanması üçün "proqadoj" adlanan hazır qatışıqdan istifadə edilir. Bu qatışığın tərkibi 0,6% nitrit, 0,3% qlükoza, 0,4% şəkər, 0,18% nişasta və 98,5% duzlardan ibarətdir. AFR-də 8-10-12 mm ölçüdə olan ət həlməşiyinin 1kq ət hesabı ilə 10 q xörək duzu və 10 q nitrat qarışığı işlədilir.

Fransada duzlamaq üçün kimya kombinatında alınan və tərkibi 99,4% duzdan və 0,6% natriumnitritdən ibarət olan hazır duzluqdan istifadə edilir. Bişmiş kolbasalar üçün sərf ediləcək ətin duzlanması tikəciklər şəklində 4ºC temperaturda aparılır. Bütün kolbasa növləri üçün eyni tərkibli duzluqdan (99,4% duz və 0,6 natrium nitrit) istifadə edilir Bundan başqa, qiyməyə hazırlanan kolbasanın növündən asılı olaraq müxtəlif inqredient qatılır.

Ölkəmizdə kolbasa məmulatı istehsalında Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin icazə verdiyi və DÖST 4197-66 tələbinə cavab verən natrium nitritdən istifadə edilir. Ət məhsulları duzlanarkən natrium nitrit 5%-li məhlul şəklində işlədilir. Zavod laboratoriyası tərəfindən yalnız 1 növbə üçün hazırlanır, çünki saxlanma zamanı o öz xassəsini itirir.Kolbasa sexində nitrit tələb olunan qatılığa çatdırılır. Ət qiyməsinə qatılan natrium nitritin miqdarı kolbasa məmulatının növündən və resepturasından asılıdır. Məs.: bişmiş kolbasaların reseptoruna uyğun olaraq 100kq kolbasa qiyməsinə 2÷2, 5 kq xörək duzu və 0,0075 kq (məhlulda) natrium nitrit qatılır.

Təzə ət qiyməsi üçün turş mühit səciyyəvidir. Bu qiyməyə qatılan duzluğun tərkibindəki natrium nitrit aşağıdakı qaydada denitritləşməyə uğrayır.

H
→
NaNO←HNO2+Na

Alınan azot turşusu denitritləşdirici mikroorqanizmlərin və onların fermentlərinin (əsasən mikrokoklar və onların reduktazları), eləcə də reduksiyaedici maddələrin təsiri ilə azot 2-oksidə qədər parçalanır.

$$4HNO_2 \rightarrow N_2O_4 + 2NO + 2H_2O$$

Azot turşusundan azot 2-oksidinin alınması oksidləşdirici-bərpaedici reaksiyadır. Bu reaksiya nəticəsində azotun valentliyi ikiyə enir. Bu isə reaksiya gedişində oksigen iştirak etmədikdə baş verə bilər.Əks halda oksigenin təsiri ilə mioqlobinin bir hissəsi metmioqlobinə çevrilir, bu isə ətə bozumtul çalarlı rəng verir.

Alınan azot 2-oksid ətin mioqlobin, hemoqlobin və digər piqmentləri ilə reaksiyaya girərək nitrozohemoqlobin, nitrozoparahematitlər və s. əmələ gətirir.

$$Mb + NO \rightarrow NOMb$$

və ya $Hb + NO \rightarrow NOHb$

Yaranan bu birləşmələr kolasa məmulatına parlaq-qırmızı rəng verir. Piqmentlərin nitrozlaşma dərəcəsi çoxlu amillərdən asılı olduğundan, nəinki bir ət tikəsində, hətta bir tikənin müxtəlif toxumalarında müxtəlif ola bilir.

Sosiskalarda piqmentlərin nitrozlaşma dərəcəsi 68÷92%, quru kolbasalarda 18÷80%, arxa bud ətində25,5÷85,6%, ət konservlərində 30÷74,5% arasında dəyişilir.

Azot turşusunun parçalanması zamanı (2-ci reaksiya) alınan azot 4-oksid mioqlobinin bir hissəsini metmioqlobinə qədər oksidləşdirir.

Göründüyü kimi, natrium nitritin istifadə edilməsində əsas məqsəd azot 2-oksidinin alınmasıdır.

Azot 2-oksidin əmələ gəlmə sürəti və miqdarı, başqa sözlə desək, kolbasa məmulatının təbii qırmızı rəng almasının intensivliyi və tezliyi ətin və duzluğun pH-dan (ən yaxşı göstəricisi pH 5,4÷6,4-dür), denitritləşdirici xassəyə malik olan mikroorqanizmlərin, habelə ətdə mioqlobin və hemoqlobin piqmentlərinin miqdarından, temperaturundan, bərpaedicilərin növündən və xassəsindən, qatılan nitritin miqdarından və digər amillərdən asılıdır. Ədəbiyyatlarda göstərilir ki, nitrit-kolbasa məmulatının arzuedilən rəng almasına səbəb olmaqla bərabər, onda özünəməxsus dad və qoxunun yaranması və formalaşmasına müsbət təsir edir, həmçinin antioksidləşdirici və antimikrob təsir göstərir.

Belə hesab edilir ki, nitrit mikrob hüceyrələrinə dəmir və SH qrupu ilə birlikdə təsir edir. Nitritin aerob mikroorqanizmlərinin kibirləşdirici təsiri qlikoditik fermentlərin blokirovka olunması ilə izah edilir. Bunun nəticəsində asetilkoeniz A-nın əmələ gəlməsi dayanır. Bundan başqa, nitrit bakteriyanın sitoxrolid səviyyəsində təsir göstərərək tənəffüsü dayandırır. A. Atanasova-Assenova, A. Çerepova nitritin Streptococous faecalis-in ultra quruluşuna təsirini öyrənmişdir. Yüksək qatılıqlı nitrit mühitində əkilən hüceyrələrin divarları və sitoplazmasının membranı parçalanır ki, bunun da nəticəsində hüceyrədən sitoplazma axır.

Nitrit anaerob mikrofloraya nisbətən aeroblara daha çox təsir edir. Ət məhsullarında nitritin antimikrob təsiri xeyli dərəcədə onun qatılığından, mikroorqanizmlərin növündən və miqdarından, götürülən qatqılar, xüsusən konservantlardan, "suyun aktivliyin"-dən, mühitin oksidləşmə-bərpaetmə potensialından, aktiv turşuluğundan (pH-dan), istehsal və saxlanma şəraitindən və digər amillərdən asılıdır. Müəyyən edilmişdi ki, 27ºC temperaturda 84 gün müddətində saxlanan ətin 1kq-da 170 mq nitrit olduqda onda 2·105 miqdarında olan Cl. Botulinum inkişaf etmir. Nitritin miqdarı 150mq/kq-dan az olduqda isə toksiklik baş verir.

Cl. Botulinum, Cl. Sporoyenes-in bəzi növlərinin, eləcə də Cl. Perfringens-in bəzi ştamplarının inkişafına nitritin 20-dən 50mq%-dək qatılığı maneə olur. AFR-in bir çox mütəxəssislərinin fikrincə ət məhsullarına qatılan nitritin azaldılaraq 7,5 mq%-ə çatdırılması mikrobioloji baxımdan təhlükəli sayılır.

Van Coof belə hesab edir ki, ərzaq məhsullarında mikroorqanizmlərə inkibirləşdirici təsir edən digər amillər də vardır. Odur ki, Cl. Botulinum, Cl. Sporoyenes,eləcə də Cl. Perfringens-in bəzi ştamplarının inkişafının qarşısını almaq üçün nitritin 200mq/kq hesabı ilə daxil edilməsi

kifayətdir. Əks halda qida zəhərlənmələri baş verə bilir. Çünki, nitrit az miqdarda götürüldükdə Cl. Botulinum-un inkişafının qarşısı alınmır. Kolbasanın kimyəvi və mikrobioloji xassəsinə saxlanma zamanı nitritin necə təsir göstərdiyini öyrənən Misir tədqiqatçıları F.A. Salem və başqaları da belə nəticəyə gəlmişlər. Hesablamalar göstərir ki, nitritsiz duzlanıb, vakuum şəraitdə qablaşdırılan ətin norma daxilində yeyilməsi zamanı belə hər 100 nəfərdən 34-də ölümlə nəticələnən zəhərlənmə baş verir.

J. Soles, F. Busts və Filores göstərirlər ki, nitritin Cl. Botulinum-a göstərdiyi inkibirləşdirici təsir heç də onun miqdarından asılı olmayıb, əsasən hazır məhsulda qalan miqdarından asılıdır. Deməli, buradan belə çıxır ki, hazır məhsulda həmişə nitrit olmalı, hətta onun yol verilən dozası müəyyənləşdirilməlidir. Bu fikrin əksinə olaraq H. Pivnick, P. Chang və D. Christansen belə hesab edirlər ki, inkibirləşdirici səmərə hazır məhsulda qalan nitritin miqdarı ilə deyil, ilk dəfə götürülən nitritin qatılığı ilə müəyyən edilir. Bir çox başqa tədqiqatçılar da bu fikirdədirlər. L. Arkworthy, L. Etal, D. Moran, P. Van Rear qeyd edirlər ki, nitrit qatılmış duzluqda daha güclü inkibirləşdirici birləşmələr "Periqo effekti" əmələ gəlir. Bu maddələrdən xüsusi əhəmiyyət kəsb edəni, sisteindəmir-dinitrozil və dəmir-nitrozillərdir ki, bunlar da aminturşularının və Fe++-in azot 2-oksid ilə qarşılıqlı reaksiyası nəticəsində əmələ gəlir.

Nitritin mikroorqanizmlərə təsiri, ümumiyyətlə sensor yolla təyin edilən göstəriciləri xoşagələn və tərkibində nitrit az olan ət məhsullarının alınmasının mühitin pH-dan necə asılı olduğu bir çox işlərdə şərh edilir. Müəyyən olunmuşdur ki, pH-ı 7-dən 6-a salmaqla mikroorqanizmləri, o cümlədən stafilokokları məhv etmək üçün nitrit 10 dəfə az tələb olunur. Mühitin pH-ı 5,6 olduqda nitritin mikroorqanizmlərə təsiri yüksək olur. Turşuluq artdıqca nitrit tez yox olur və mikroorqanizmlərə güclü təsir göstərə bilmir.

Kolbasa məmulatı istehsalında mikrobioloji xarab olmanın baş verməməyi və optimal keyfiyyətli məhsul almaq məqsədilə işlədilən nitrit və xörək duzu bir-birinin təsirinə şərait yaradır və tamamlayır. Belə hesab edilir ki, nitrit hüceyrələrə xörək duzunun diffuziyasını tezləşdirir. Bu isə bakterisid təsirin artmasına səbəb olur. Məlumdur ki, son illərdə xörək duzunun az qəbul edilməsi tövsiyə edilir. Bu baxımdan qatılan xörək duzunun ətin su saxlama xassəsinə, hazır məhsulun dadına təsiri bir daha öyrənilərkən müəyyən edilmiş ki, 4,5%-dən az duz götürüldükdə Cl. Botulinum inkişaf edir və toksiklik yaranır. Cl.Botulinum-un bütün növlərinin məhv edilməsi üçün NaCl 10%-dən az götürülməməlidir. Halbuki, ət məhsullarında NaCl-un miqdarı 2÷3%-dən artıq olmamalıdır. Bəzi tədqiqatçılar bu məlum həqiqəti əsas götürərək duzluğa nitritin qatılmasının vacibliyini qeyd edirlər.

Nitritin bakteriostatik təsiri dissosiasiya olunmayan azot turşusu ilə əlaqələndirilir. Mütəxəssislər belə hesab edirlər ki, nitritlər qızardılma prosesində zülalların aqreqasiyasına maneə olmaqla, onların su birləşdirmə qabiliyyətinə müəyyən təsir göstərirlər. Aqreqasiyanın yubadılması zülalların su birləşdirmə xassəsini yüksəldir .

Nitrit 50÷100mq/kq miqdarından qatıldıqda ət məhsullarında özünəməxsus dad və qoxu yaranır. Nitritsiz kifayət qədər dadlı məhsul almaq olar, lakin onun qoxu və konsistensiyası nitritlə duzlanan ətdən alınandan aşağı olur. Güman edilir ki, nitrit ətin həm olmayan zülalları, kükürdlü birləşmələri, lipidləri ilə reaksiyaya girərək ətdə xoşagələn dad və qoxunun əmələ gəlməsinə səbəb olur. Van Coof göstərir ki, ətə nitrit qatıldıqda 5÷15%-i mioqlobinlə, 20÷30%-i başqa zülallarla, 5÷15%-i tiollarla, 1÷5%-i lipidlərlə reaksiyaya girir. Yerdə qalanın bir hissəsi nitrata və qazabənzər vəziyyətə çevrilir, eləcə də sərbəst halda (5÷20%) qalır.

Nitritlə tiolların reaksiyası, bu reaksiya nəticəsində alınan maddənin təsiri ilə ətdə gedən qlikolitik çevrilmələr ət məhsullarında səciyyəvi dad və qoxunun yaranmasına təsir edir. Nitritin təsiri ilə ADF-nin, AMF-yə və nukleozidlərə defosforlaşması reaksiyası sürətlənir, qlikogenin parçalanması zəifləyir.

Saxlanma zamanı ət məhsullarının səciyyəvi dad və qoxusunun yaranmasında da nitrit iştirak edir. Uzunmüddətli saxlanma zamanı nitrit doymamış yağ turşularının ikiqat rabitəsinin doymasına və lipidlərin oksidləşmə reaksiyasının ləngiməsinə, beləliklə, "yanmış ət" tamının gəlməsinə səbəb olur. Nitritin ət məhsulları istehsalında geniş təsir dairəsinə malik olmasını, xüsusən özünəməxsus rəngin, dadın, qoxunun yaranmasında əhəmiyyətini, antioksidləşdirici və antimikrob

təsirini əsas götürərək, bir çox mütəxəssislər insan orqanizminə "bəzi" mənfi təsirinə baxmayaraq, nitritin ət məhsulları istehsalında istifadəsini qəti surətdə məqsədəuyğun saymırlar. Çox qəribədir ki, bu müəlliflərin nitritin və nitrozobirləşmələrin orqanizmə göstərdiyi təsiri bəsitləşdirərək"bəzi" mənfi təsir ifadəsi ilə verməsi təəccüb doğurur. Belə fikir yarana bilər ki, sanki nitritin və nitrozobirləşmələrin orqanizmə konsorogen, mutagen, embrioloji və s. təsiri yoxdur və ya cüzidir.

ƏDƏBİYYAT

1. V.A.Əliyev, Ş.A.Yusifova. "İstehlak mallarının keyfiyyət ekspertizası" Bakı-2006
2. H.İsfəndiyarov "Heyvan mənşəli ərzaq mallarının əmtəəşünaslığı və ekspertizası" Bakı, 2018
3. V.A.Əliyev. "Ət və balıq məhsulları əmtəəşünaslığı praktikumu" Dərs vəsaiti, Bakı-1991
4. Алиев В.А. «Проблемы копчения» Баку, 1991 год

Мурад Мухаммад оглы Набиев
магистрант,
Шовкат Абузар кызы Юсуфова
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Получение цвета колбасного изделия и анализ факторов, влияющих на него

Резюме

Биологическую ценность в пищевом рационе людей большую роль играет мясо и мясные изделия. Начиная с прошлого века среди мясных продуктов, стремительно стала расти производство колбасных изделий. В данное время в большинстве развитых стран больше половины произведённого мяса направлено на производство колбасы. Ведущие фирмы и научно-исследовательские институты ведут постоянную работу для улучшения и повышения качества колбасных изделий. В научных исследованиях, которые ведутся в этой области, большое место занимают работы, посвящённые нитриту и нитрозным соединениям и канцерогенном воздействии на организм человека, которые имеются в составе колбасных изделий. Для придания красного цвета колбасным изделиям, добавленный туда натрием-нитрит остаётся и не разлагается в составе готового продукта и при производстве, и при транспортировке, и при сохранении, и при продаже. Для улучшения качества колбасных изделий и особенно для уменьшения количества нитрита в их составе, предлагаются разные синтетические, органические и неорганические заменители.

Murad Muhammad Nabiyev
master,
Shovkat Abuzar Yusufova
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Obtaining the color of the sausage product and analyzing the factors affecting it

Summary

The biological value of meat and meat products plays an important role in human nutrition. Starting from the last century, the production of sausages among meat products began to increase rapidly. Currently, more than half of the meat produced in most developed countries is spent on sausage production. Leading companies and research institutes are constantly working to improve and improve the quality of sausage products. In the scientific research conducted in this field, works dedicated to nitrite and nitrogen compounds contained in sausage products and their carcinogenic effects on the human body occupy a large place. Sodium nitrite, which is added to sausage products to give them a red color, remains in the finished product and does not break down

during production, transportation, storage and sale. Various synthetic, organic and inorganic substitutes are proposed to improve the quality of sausages and specially to reduce their nitrite content.

Teymur Zaur oğlu HACIYEV
magistrant,
Könül Fikrət qızı İMANOVA
texnika üzrə fəlsəfə doktoru, dosent,
imanovakonul75@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti

REGİONLARDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI MƏQSƏDİLƏ BALIQ KONSERVLƏRİNİN RESEPTURA VƏ İSTEHSAL TEXNOLOGİYASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Azərbaycanın regionlarında, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda ərzaq təminatının etibarlı, keyfiyyətli məhsullara olan tələbatı artır. Balıq və balıq məhsulları həm zülal mənbəyi, həm də mikro- və makroelementlərlə zəngin olduğundan regional ərzaq təhlükəsizliyinin gücləndirilməsində strateji rol oynayır. Lakin məhdud xammal, emal infrastrukturunun çatışmazlığı və paylama-logistika problemləri istehlak səviyyəsini aşağı salır, nəticədə idxala bağlılıq yaranır. Bu problemləri konservləşdirmə texnologiyaları ilə həll etmək mümkündür. Konserv məhsulu uzun müddət saxlanıla, tədarük zəncirinin şərtlərinə uyğunlaşdırıla və regiona uyğun reseptura ilə iqtisadiyyata töhfə verə bilər [FAO, 2020; Codex Alimentarius, 1981].

Ənənəvi balıq konservi istehsalı əsasən istiliklə sterilizasiya, əvvəlcədən pörtlətmə və yağlı duzlu su məhlulu və ya sous əlavə etməklə doldurma mərhələlərindən ibarətdir. FAO-nun tövsiyələri konservlərin təhlükəsizliyi, doldurma, pasterizasiya, sterilizasiya rejimləri və məhsul standartları ilə bağlı geniş metodoloji əsasları təmin edir. İstilikiə emal üsulu effektiv olsa da, bəzi mənfi cəhətləri var: zülal strukturunun və dad-keyfiyyətinin zəifləməsi, bəzi vitaminlərin itkisi, enerji sərfi və avadanlıq xərcləri. Bununla yanaşı, yüksək təzyiq və kombinəedilmiş yüksək təzyiq- istilik emalı kimi müasir texnologiyalar konserv keyfiyyətini yaxşılaşdırmağa və mikrobioloji təhlükəsizliyi təmin etməyə imkan verir. [Ganjeh et al., 2024; Prego et al., 2021]. Bu texnologiyaların tətbiqi məhsulun teksturasını, rəngini və qida dəyərini daha yaxşı qoruya bilir. Balıq konservlərinin resepturalarının təkmilləşdirilməsində mühüm istiqamətlərdən biri onların funksional dəyərinin artırılmasıdır. Ənənəvi konservlər əsasən yalnız zülal, yağ və minerallarla zəngin olsa da, müasir texnologiya və qida mühəndisliyinin tələbləri məhsulların həm mikronutrientlərlə zənginləşdirilməsi, həm də sağlamlıq istiqamətində optimallaşdırılmanı zəruri edir [FAO, 2020]. İlk növbədə, bitki mənşəli omega-3 mənbələrinin əlavə olunması perspektivlidir. Ənənəvi olaraq balıq yağında əsasən uzun zəncirli omega-3 yağ turşuları (EPA və DHA) mövcuddur. Lakin bitki mənşəli qısa zəncirli omega-3 turşuları (ALA – α-linolenic acid) ilə zəngin mənbələrin (çia toxumu yağı, kətan yağı, dəniz yosunu ekstraktları) konserv resepturasına daxil edilməsi məhsulun lipid balansını zənginləşdirə, eyni zamanda ürək-damar sistemi, beyin funksiyaları və immunitet üçün əlavə faydalar təmin edə bilər [FAO, 2020]. İkinci istiqamət mikroelementlərlə zənginləşdirilmiş duz qarışıqlarıdır. Qarabağ və Şərqi Zəngəzur əhalisinin bir qismi dağlıq ərazilərdə yaşadığından, yod, dəmir, sink və selen kimi mikroelement çatışmazlığı ehtimal olunur. Texnoloji baxımdan duzun xüsusi mikroelementlərlə zənginləşdirilməsi (məsələn, yodlaşdırılmış və ya sinklə gücləndirilmiş duz qarışıqları) istehsal prosesinə əlavə xərclər gətirmədən, əhalinin gündəlik mikroelement tələbatını qarşılamağa kömək edə bilər [FAO, 2020]. Üçüncü istiqamət vitaminləşdirmə proqramlarıdır. Balıq konservləri B qrupu vitaminləri və yağda həll olunan A və D vitaminlərinin müəyyən miqdarda təbii mənbəyi hesab olunur. Lakin sterilizasiya prosesində istiliyə davamlı olmayan vitaminlərin bir hissəsi itirildiyi üçün resepturaların vitaminləşdirilməsi əhəmiyyətlidir [FAO, 2020]:

- Vitamin D əlavəsi sümük və immun funksiyalar üçün, xüsusilə günəş işığının məhdud olduğu dağlıq bölgələrdə yaşayan əhali üçün vacibdir.
- Vitamin B_{12} əlavəsi isə qırmızı qan hüceyrələrinin sintezini dəstəkləyir və zülal metabolizmini yaxşılaşdırır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının balıq konservi istehsalı üçün əsas xammal mənbələrinin müəyyən edilməsi kritik əhəmiyyət daşıyır. Bu rayonların yaxınlığında tutula bilən balıq növlərinin mövcudluğu, həmçinin regiona yaxın göl və çaylardan kütləvi şəkildə xammal əldə etmək imkanları qiymətləndirilməlidir [FAO, 2020]. Mövsümi xüsusiyyətləri nəzərə alınaraq məhsulun istehsal planı hazırlanmalı, bu zaman ən yüksək keyfiyyətli xammal mövsümlərdə toplanmalıdır. Eyni zamanda, yerli xammal təminatını sabitləşdirmək məqsədilə akvakultura sistemləri yaradılmalıdır. Bu sistemlər çay, göl və ya süni hovuzlarda fəaliyyət göstərə bilər və konserv istehsalının fasiləsizliyini təmin edə bilər [FAO, 2020]. Regionda yol, enerji və su təminatının yetərsizliyi kiçik modul tipli istehsal xətlərinin yerləşdirilməsini zəruri edir. Bu yanaşma istehsal prosesini elastik edir və logistika baxımından səmərəliliyi artırır. Məhsullar regional bazarlara, habelə məktəb və sağlamlıq müəssisələrinə istiqamətləndirilə bilər ki, bu da ərzaq təhlükəsizliyini möhkəmləndirir və əhalinin sağlam qidalanmasına töhfə verir [FAO, 2020].

Balıq konservi istehsalının regionda tətbiqi yalnız texnoloji və iqtisadi baxımdan deyil, həm də sosial-iqtisadi baxımdan böyük əhəmiyyət daşıyır. İstehsal yerli balıqçılıq və akvakultura ilə inteqrasiya edilərək ərzaq təhlükəsizliyini artırır və yerli resurslardan səmərəli istifadəni təmin edir. Eyni zamanda, konserv istehsalı məşğulluq üçün yeni imkanlar yarada, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıra və regional iqtisadi aktivliyi artıra bilər [FAO, 2020; SOFI, 2022]. Balıq konservlərinin region səviyyəsində təşkili və texnoloji təkmilləşdirilməsi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün həm praktik, həm də iqtisadi səmərəli bir yanaşma təklif edir [FAO, 2020; Ganjeh et al., 2024]. Tətbiq ediləcək mərhələli investisiya strategiyası bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. İlk mərhələdə kiçik pilot istehsal xətləri ilə başlamaq, həm ilkin investisiyanın məhdud saxlanmasına, həm də texnologiyanın məhdud şəraitdə sınaqdan keçirilməsinə imkan verir. Orta və uzunmüddətli perspektivdə isə bazar tələbini və istehsal həcmini nəzərə alaraq modern texnologiyaların – məsələn, HPP/HPTP və avtomatlaşdırılmış paketləmə sistemlərinin – tətbiqi planlaşdırılmalıdır [Prego et al., 2021; Ganjeh et al., 2024].

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur kontekstində balıq konservlərinin təşkili yalnız ərzaq təhlükəsizliyini artırmaqla kifayətlənmir, həm də regional istehsal potensialının inkişafı, yerli iqtisadiyyatın stimullaşdırılması və davamlı məşğulluğun təmin edilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Bu yanaşma həm qısa, həm də uzunmüddətli perspektivdə region üçün iqtisadi və sosial cəhətdən dayanıqlı model formalaşdırır [FAO, 2020; Ganjeh et al., 2024].

ƏDƏBİYYAT

1. Azerbaijan Fish Farm. (2023). *Azerbaijan Fish Farm becomes world's first BAP certified sturgeon farm*. Global Seafood Alliance.
2. Abdullayev, K., Emiri, G., Çağıltay, F. (2019). *Azerbaycan' da Balık Avcılığı ve Su Ürünleri Yetiştiriciliği*. Çanakkale Onsekiz Mart University Journal of Marine Sciences and Fisheries, Volume 2 Issue 1, s. 81-89. DergiPark
3. FAO. (2020). *Planning and engineering data 2. Fish canning*. FAO Fisheries Technical Paper. Directory of Open Access Journals+2smb.gov.az+2
4. Prego, R., et al. (2021). "Effect of High-Pressure Processing (HPP) on Lipid Stability and Shelf Life of Fish Products". *ScienceDirect*. arXiv
5. *Codex Alimentarius* (1981). *Codex Standard for Canned Tuna and Bonito*. FAO/WHO. Directory of Open Access Journals
6. Ganjeh, A. M., et al. (2024). "High-Pressure Processing of Fish Products and Its Impact on Quality and Safety". *Journal of Food Processing and Preservation*. arXiv+1
7. SOFI (2022). *The State of Food Security and Nutrition in the World*. FAO. Directory of Open Access Journals
8. Zeytulla Jabbarov. "Fish Business: Azerbaijani Entrepreneurs Try to Revive the Sturgeon Trade". Region Plus.

Теймур Заур оглы Гаджиев
магистрант,
Конул Фикрет кызы Иманова
доктор философии технических наук, доцент,
imanovakonul75@mail.ru,
Азербайджанский Университет Кооперации

Совершенствование рецептуры и технологии производства рыбных консервов в целях обеспечения продовольственной безопасности в регионах

Резюме

Традиционное производство рыбных консервов включает, главным образом, этапы термической стерилизации, предварительного отваривания и наполнения масляным рассолом либо соусом. Рекомендации ФАО предоставляют обширную методологическую основу, касающуюся безопасности консервов, режимов наполнения, пастеризации, стерилизации и стандартов продукции. Несмотря на эффективность термического метода, он имеет ряд недостатков: ухудшение структуры белков и органолептических свойств, потеря части витаминов, значительные энергозатраты и высокие издержки на оборудование. В то же время современные технологии, такие как высокое давление и комбинированные высокое давление-термообработка, позволяют улучшить качество консервов и обеспечить микробиологическую безопасность.

Teymur Zaur Hajiyev
master,
Konul Fikret Imanova
doctor of philosophy in technical sciences, associate professor,
imanovakonul75@mail.ru,
Azerbaijan Cooperation University

Improvement of fish canning formulations and production technology for ensuring food security in the regions

Summary

Traditional fish canning production primarily consists of thermal sterilization, preliminary boiling, and filling with oil brine or sauce. FAO recommendations provide a comprehensive methodological framework regarding the safety of canned products, as well as filling, pasteurization, sterilization regimes, and product standards. Although the thermal method is effective, it has certain drawbacks: deterioration of protein structure and sensory qualities, partial loss of vitamins, high energy consumption, and considerable equipment costs. At the same time, modern technologies such as high-pressure processing and combined high-pressure–thermal treatment make it possible to improve product quality and ensure microbiological safety.

Vüsal Namiq oğlu SƏMƏDOV
magistrant,
Mehriban Rauf qızı YUSİFOVA
biologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

ƏT VƏ ƏT MƏHSULLARININ KİMYƏVİ TƏRKİBİNİN VƏ TƏHLÜKƏSİZLİK PRİNSİPLƏRİNİN ARAŞDIRILMASI

Ət tərkib etibarilə çox qiymətli bir qida məhsuludur. Kimyəvi tərkibi, quruluşu və xüsusiyyətləri baxımından insan orqanizminin əsas toxumalarına mümkün qədər yaxındır. Ətin kimyəvi tərkibi ümumiyyətlə təbii nisbətdə əzələ, yağ və birləşdirici toxumadan ibarət olan ət hissəsinin

kimyəvi tərkibi kimi başa düşülür. Buna görə ətin kimyəvi tərkibi, enerji dəyəri, həzm və dad keyfiyyətləri bu toxumaların ətdəki nisbətindən, həmçinin bu maddələrin keyfiyyət və kəmiyyət tərkibindən asılıdır. Ətin unikallığı onun yüksək enerji dəyəri, zülalların balanslaşdırılmış amin turşusu tərkibi, bioloji aktiv maddələrin olması və yüksək həzm olunmasıdır.İstehlakçı nöqteyi-nəzərindən bu xammaldan hər hansı bir gurmenin zövqünə uyğun minlərlə müxtəlif yeməklər hazırlana bilər [1]. Ətin kimyəvi tərkibi-əti təşkil edən toxumalar əzələ, yağ, birləşdirici toxuma və sümüklərə bölünür. Ətin kimyəvi tərkibi heyvanın növündən, cinsindən, yetişdirilməsindən, yaşından, karkas vəziyyətindən və saxlama şəraitindən asılıdır. Kimyəvi tərkibə heyvanın kəsilmədən əvvəl vəziyyəti, qanaxma dərəcəsi, kəsildikdən sonra keçən müddət, saxlama şəraiti və digər amillər də təsir göstərir, bunun təsiri altında toxuma komponentlərinin tərkibində və onların keyfiyyət tərkibində daimi dəyişikliklər baş verir. Ətin ümumi nəmliyi və lipid tərkibi orta hesabla 80% - dir və ətin lipid tərkibi nə qədər çox olarsa, o qədər az su olur. Bu səbəbdən yüksək lipidli donuz əti mal əti və quzu ətindən daha az su ehtiva edir. Bu səbəbdən yetkin heyvanların ətində cavan heyvanların ətindən daha az su var.

Ətin mineral tərkibi orta hesabla 0,8-1,1% - dir. Bu dəyər göstərdiyimiz amillərdən asılı olaraq olduqca kiçik bir həddə dəyişir. Mal əti quzu və donuz ətindən bir az daha çox mineral ehtiva edir, daha yağlı ət isə daha az yağlı ətdən daha az mineral ehtiva edir. Ətdə məhsulların dadına təsir edən və mədə ifrazının enerji stimulyatoru olan azotlu və azotlu olmayan ekstraktlar var [2]. Ətdəki yağlar ət məhsullarının yüksək kalorili tərkibinin əsas səbəbidir. Yağlar doymuş və əsas doymamış yağ turşularının mənbəyidir. Yağlar ətə qoxu və dad verir. Ətin tərkibi və xüsusiyyətləri kəsilmiş heyvanın cinsindən və cinsindən (məsələn, inək əti aşağı rütubətə malikdir, lakin öküz ətindən daha yağlıdır), qulluq növündən, piylənmədən, qidalanmadan, həmçinin kəsilmə və soyutma şəraitindən asılıdır. Cavan heyvanların əti yaşlı heyvanların ətindən daha açıq rəngə malikdir və cavan heyvanın əti daha az sərtliyə və yağlılığa malikdir. Struktur hissələrinin anatomik fərqləri onların toxuma və kimyəvi tərkibini və buna görə də qida dəyərini və texnoloji məqsədini müəyyənləşdirir. Yüksək birləşdirici toxuma tərkibinə görə boyun ən az dəyərə malikdir. Ancaq qalça və bel bölgəsində ən yüksəkdir. Ətin tərkibi və quruluşunun heterogenliyi onun enerji dəyərinə təsir göstərir.

Beləliklə, 1 kq kalori miqdarı 1000-3500 kilokaloriyə uyğun ola bilər və ət məhsullarında olan qida maddələrinin enerji dəyərindən asılıdır. İnsan orqanizmində 1 q zülal yandırıldıqda 4 kilokalori enerji, 9 kilokalori yağ və 3,75 kilokalori karbohidrat sərbəst buraxılır. Eyni zamanda, qida maddələri yalnız bədənin sərf etdiyi enerjini tarazlaşdırmır, həm də köhnə və ya məhv edilmiş hüceyrələrin və toxumaların yeniləri ilə formalaşması və əvəzlənməsi üçün tikinti materialı rolunu oynayır. Buna görə onların səviyyəsi müəyyən bir səviyyəyə uyğun olmalıdır. Ət və ət məhsulları bioloji cəhətdən qiymətli zülalların tədarükçüsüdür [3].

Kimyəvi tərkibinə görə ət zülalları insan orqanizminin zülallarına bağlanır və insan orqanizminin toxumalarının qurulması üçün lazım olan bütün aminturşularını ehtiva edir. Protein-ən vacib qidalardan biri zülallardır. Bədənin hüceyrələrinin və toxumalarının struktur elementlərinin əsasını təşkil edirlər. Orta hesabla, bir yetkinin qida ilə 1 kq bədən çəkisi üçün 1-1,2 q protein tələb olunur. Və müəyyən bir tərkibdə zülala ehtiyacı var. Müxtəlif qidaların tərkibindəki zülallar eyni deyil. 20 aminturşusundan 8-i əvəzolunmazdır, digərlərindən fərqli olaraq bədəndə sintez olunmur, insan onları yalnız qida ilə alır. Buna görə gündəlik pəhrizimizin 30% - i ət, balıq, süd və yumurtada olan vacib aminturşuları olan zülallardan ibarət olmalıdır. Ətin ikinci dominant komponenti yağdır. Enerji və bioloji aspektləri nəzərə alan balanslı bir pəhriz formuluna görə, bir yetkinin gündəlik yağ qəbulu 80-100 q olmalıdır (bunlardan 20-25 q bitki yağlarıdır). Heyvan yağlarının bioloji rolu bənzərsizdir: bu enerji mənbəyi insan orqanizmində sintez olunmayan bir çox doymamış yağ turşusu və fiziologiyada çox vacib rol oynayan yağda həll olunan vitaminlər ehtiva edir. Heyvan yağları fizioloji xüsusiyyətlərinə görə eyni olmadığından, yağların qida dəyəri də onların növündən və tərkibindən asılıdır.

Donuz yağında mal əti və quzu ətindən daha çox poli-doymamış yağ turşuları var. Linolen və arakidon kimi turşuların olmaması aterosklerozun inkişafına səbəb olur, uşaqların normal böyüməsinə mane olur və böyüklərin sağlamlığına təsir göstərir. Ətdə az miqdarda karbohidrat var-

təxminən 1%, lakin kəsildikdən sonra ətdə baş verən fermentativ proseslərdə iştirak edir, ətin dadının, qoxusunun və incəliyinin formalaşmasına təsir göstərir [4]. Ət eyni zamanda çoxsaylı vitaminlər (xüsusilə B qrupu), minerallar və ekstraktiv maddələrlə zəngindir. Həzm şirələrinin sərbəst buraxılmasına və beləliklə qidanın həzm olunmasına kömək edir. Ət və ət məhsulları zülalların əsas tədarükçüsüdür, çünki tərkibində insan orqanizminin toxumalarının qurulması üçün vacib olan aminturşuları var, onlar təbii şəkildə balanslaşdırılmışdır və toxuma zülallarının tam sintezini təmin edir.

ƏDƏBİYYAT

1. Катаева, Д. Г. (2009). Органолептический и физико-химический состав мяса серны. *Ветеринария*, (2), 52-53.
2. Абдуллаева, А. М., Смирнова, И. Р., Трохимец, Е. В., & Губанкова, А. А. (2017). Микробиологический контроль полуфабрикатов из мяса индеек при холодильном хранении. *Ветеринария*, (8), 49-53.
3. Мифтахутдинов, А. В., Сайфульмулюков, Э. Р., Ноговицина, Е. А., & Мифтахутдинова, Е. А. (2020). Качество и безопасность мяса цыплят-бройлеров при коррекции предубойного стресса. *Достижения науки и техники АПК*, *34*(3), 71-74.
4. Chemical composition of food products. - M.: Food industry, 2008

Вусал Намик оглы Самедов
магистрант,
Мехрибан Рауф кызы Юсифова
доктор философии по биологии,
Азербайджанский Университет Кооперации

Изучение химического состава и принципов безопасности при производстве мяса и мясопродуктов

Резюме

Мясо - очень ценный по составу пищевой продукт. По химическому составу, структуре и свойствам оно максимально приближено к основным тканям человеческого организма. Под химическим составом мяса обычно понимают химический состав мясной части, которая состоит из мышц, жира и соединительной ткани в естественных пропорциях. Следовательно, химический состав, энергетическая ценность, пищеварительные и вкусовые качества мяса зависят от соотношения этих тканей в мясе, а также от качественного и количественного состава этих веществ. Уникальность мяса заключается в его высокой энергетической ценности, сбалансированном аминокислотном составе белков, наличии биологически активных веществ и высокой усвояемости.С точки зрения потребителя, из этого сырья можно приготовить тысячи различных блюд на вкус любого гурмана. Химический состав мяса - ткани, из которых состоит мясо, делятся на мышцы, жир, соединительную ткань и кости. Химический состав мяса зависит от вида, породы, разведения, возраста животного, состояния туши и условий хранения.

Vusal Namig Samadov
master,
Mehriban Rauf Yusifova
doctor of philosophy in biology
Azerbaijan Cooperation University

Research of chemical composition and safety principles of meat and meat products

Summary

Meat is a very valuable food product in composition. In terms of chemical composition, structure and properties, it is as close as possible to the main tissues of the human body. The chemical

composition of meat is usually understood as the chemical composition of the meat part, which consists of muscle, fat and connective tissue in natural proportions. Therefore, the chemical composition, energy value, digestive and taste qualities of meat depend on the ratio of these tissues in meat, as well as on the qualitative and quantitative composition of these substances. The uniqueness of meat is its high energy value, balanced amino acid composition of proteins, the presence of biologically active substances and high digestibility.From the point of view of the consumer, thousands of different dishes can be prepared from this raw material to the taste of any gourmet. Chemical composition of meat-the tissues that make up meat are divided into muscle, fat, connective tissue and bones. The chemical composition of meat depends on the type, breed, breeding, age of the animal, carcass condition and storage conditions.

Röyal Cavid oğlu RƏHİMOV
magistrant,
Şövkət Abuzər qızı YUSUFOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

HİSLƏNMİŞ BALIQLARIN QİDALILIQ DƏYƏRİ

Məlumdur ki, balıq və balıq emalı məhsullarının intensiv inkişafı ilə yanaşı onların qidalılıq dəyərinin, tam xüsusiyyətinin və enerjivermə qabiliyyətinin yüksəldilməsinə diqqət yetirilir. Balıq zəngin kimyəvi tərkibə malik olduğu üçün insanların bu məhsula olan tələbi çox yüksəkdir.

Hislənmiş nərə balığına insanların yüksək tələbi olduğundan, bu məhsul əhalinin rasion qidasına möhkəm daxil olmuşdur. Hislənmiş nərə balığına tələbin yüksək olmasını nəzərə alaraq, balığın keyfiyyətinin öyrənilməsinə böyük əhəmiyyət verilir.

Qeyd etmək lazımdır ki, nərə balığı tək hislənmir, eyni zamanda ondan balıq məmulatı, balıq konservi, qara balıq kürüsü hazırlanır. Eyni zamanda nərə balığı həm soyuq, həm yarımisti, həm də isti hislənir.

Soyuq hislənmiş nərə, bölgə və uzunburun balıqların qidalılıq dəyəri onların kimyəvi tərkibindən, bioloji və fiziki-kimyəvi xassələrindən çox asılıdır. Həmçinin soyuq hislənmiş balıqların qidalılıq dəyəri balıqların tərkibindəki üzvi maddələrdən, yaxşı həzmə getməsindən, həzm olarkən yüksək enerji verməsindən asılıdır.

Hislənmiş balıqların həzmə getməsi onların tərkibindəki maddələrin suda həll olmasından, mədə-bağırsaq fermentlərinin onları parçalamasından asılıdır. Bu əmsal balığın tərkibindəki zərərli maddələrin olmasına icazə vermir.

Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, çiy zülala nisbətən balığın tərkibində olan zəif denaturlaşmış zülal yaxşı həzm olur. Uzun illər aparılan tədqiqatlar nəticəsində müəyyən edilməlidir ki, balıqların xoşagələn ətirliliyi və dadı onların yaxşı həzmə getməsinə səbəb olur. Müəyyən edilmişdir ki, hislənmiş balıqları quru və bərk olduğundan onların həzmə getməsi bir qədər çətinləşir.

Məlumdur ki, bir qram yağ 9,3 kkal, bir qram karbohidrat 4,1 kkal, bir qram zülal 4,1 kkal enerji verir. Beynəlxalq sistemdə qəbul edilən bu rəqəmlər balıqların tərkibindəki üzvi maddələrin orqanizmdə həzmi zamanı olur. Lakin sonralar tədqiqat nəticəsində müəyyən edilmişdir ki, zülalın verdiyi enerji faktiki olaraq 4,1 kkal deyildir. Prof.V.A.Əliyev və digər alimlər də sonralar bunu təsdiq etmişlər. Əgər balıqların tərkibindəki zülal qeyri-üzvi maddələrə deyil, sidik cövhərinə qədər parçalanırsa o zaman qeyri-üzvi maddələrlə sidik cövhəri arasında parçalanmaya 0,9 kkal enerji sərf olunur. Əgər zülal qeyri-üzvi maddələrə qədər parçalanırsa 5,7 kkal enerji sərf edilir. Əgər oradakı fərqi nəzərə alsaq yəni 5,7-0,9 çıxsaq, onda 1 qr zülal orqanizmdə həzm olunarkən 4,1 kkal deyil, 4,8 kkal enerji yaradır. Eyni zamanda orqanizmə üzvi turşular, spirt və digər maddələr də enerji verir. Lakin insan üzvi turşulara, spirtə və digər maddələrə tələb az olduğundan onlar nəzərə alınmır.

Əməyin ağırlığından asılı olaraq yaşlı insanlar 4 qrupa bölünür. I qrupa zehni əməklə məşğul olanlar, II qrupa mexanikləşdirilmiş əməklə məşğul olanlar, III qrupa mexanikləşdirilmiş, kifayət dərəcədə fiziki əməklə məşğul olanlar, IV qrupa mexanikləşdirilmiş və orta, böyük ağırlıqda mexanikləşdirilmiş zəhmətlə məşğul olanlar aiddir. Birinci qrupa daxil olan kişilər 2000-3300 kkal, qadınlar 2200-2850 kkal, II qrupa daxil olan kişilər 2800-3500 kkal, qadınlar 2350-3000 kkal, III qrupa aid kişilər 2900-3700 kkal, qadınlar 2500-3150 kkal, IV qrupa aid kişilər 3100-4200 kkal, qadınlar üçün 2900-3600 enerji tələb edilir.

Yaşından asılı olaraq enerji tələbi aşağıdakı kimidir. 15-18 yaşadək kişilər 3000 kkal, qadınlar 2400 kkal, 10-35 yaşlı kişilər 2600 kkal, qadınlar 3200 kkal, 51-65 yaşında kişilər 2200 kkal, qadınlar 1800 kkal, 65 yaşında kişilər 1900 kkal, qadınlar üçün 1700 kkal. Bu kaloriliyi bərpa etmək üçün insanın gündəlik rasionunun 12-14%-ni zülal, 30%-ni yağ, 50-58%-ni karbohidratlar təşkil etməlidir. Qida institutunun tərtib etdiyi rasionda insanlar gün ərzində qəbul etdiyi məhsullar arasında 50 qr balıq qəbul etməlidir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, soyuq hislənmiş balıqların 100 qr-ı orqanizmdə həzm olunduqda 193,8 kkal və ya 812,0 kcoul enerji yaradır. Soyuq hislənmiş bölgə balığının 100 qr-ı orqanizmdə həzm olunduqda 162,2 kkal və ya 413,1 kcoul enerji verir. Soyuq hislənmiş uzunburun balığın 100 qr-ı orqanizmdə həzm olunduqda 204,9 kkal və 858,5 kcoul-dur. İnsanların qidalanmasında balıq məhsulları eləcə də tamlı malların, yəni çay, kofe, kakao, müxtəlif turşular və sair qida məhsullarının həzminə, insanın ümumi fizioloji vəziyyətinə təsir edərək, başqa maddələrin də yaxşı həzmə getməsinə səbəb olur. Müəyyən edilmişdir ki, balıqların həzm olunan zaman yaratdığı enerji onların qidalılıq dəyərini müəyyənləşdirir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, soyuq hislənmiş balıqların orqanizmdə həzm olunarkən yaratdığı enerji müxtəlif balıqlarda müxtəlifdir. Belə ki, uzunburun balığın 100 qr-nın orqanizmdə həzm olarkən verdiyi enerjinin miqdarı , digər balıqlara nisbətən üstünlük təşkil edir. Uzunburun balığın 100 qr-nın yaratdığı enerji bölgə balığının verdiyi kaloriliklə müqayisədə 26,3% çox olduğu müşahidə edildi. Uzunburun balığın orqanizmdə yaratdığı enerji nərə balığının orqanizmdə həzm olnarkən yaratdığı enerji ilə müqayisədə aydın görünür ki, 0,6% çoxdur.Eyni zamanda bu balıq növlərinin həzm olunarkən yaratdığı enerji bir daha göstərdi ki, soyuq hislənmiş nərə, bölgə və uzunburun balıqların qidalılıq dəyəri yüksəkdir. Soyuq hislənmiş balıqların spesifik dad və tama malik olması, qidalılıq və bioloji dəyərinin yüksək olması, orqanizmdə yaxşı həzm olunması, həzm olunarkən yüksək kalori yaratması, uzun müddət saxlanıla bilməsi insanların bu məhsula olan tələbatını daha da yüksəldir.

ƏDƏBİYYAT

1. V.A.Əliyev və Ş.A.Yusifova. “İstehlak mallarının keyfiyyət ekspertizası” Bakı-2006
2. V.A.Əliyev. “Ət və ət məhsullarının texnologiyası” Bakı,2006
3. XXII çağırış Azərittifaq Şurasının üçüncü yığıncağının sənədləri. Bakı-2015-ci il
4. V.A.Əliyev. “Ərzaq mallarının əmtəəşünaslığı, ekspertizasının sertifikatlaşdırılmasının nəzəri əsasları, Bakı-1999

Роял Джавид оглы Рагимов
магистрант,
Шовкет Абузар кызы Юсуфова
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Пищевая ценность копченой рыбы

Резюме

Известно, что наряду с интенсивным развитием рыбоводства и рыбо перерабатывающей промышленности уделяется внимание повышению их пищевой ценности, полноценности и энергетической ценности. Благодаря богатому химическому составу рыбы, спрос населения на этот продукт весьма высок.

Благодаря высокому спросу на копчёную осетрину этот продукт прочно вошёл в рацион населения. Учитывая высокий спрос на копчёную осетрину, большое значение придаётся изучению качества рыбы.

Следует отметить, что осетрину коптят не только сами по себе, но и готовят из неё рыбопродукты, рыбные консервы, чёрную икру. При этом осетрину коптят как холодным, так и полугорячим и горячим способами.

Пищевая ценность осетровых, лещей и длиннорылых рыб холодного копчения во многом зависит от их химического состава, биологических и физико-химических свойств.

Исследования показали, что слегка денатурированный белок рыбы усваивается лучше, чем сырой белок.

Royal Javid Rahimov
master,
Shovket Abuzar Yusufova
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Nutritional value of smoked fish

Summary

It is known that along with the intensive development of fish farming and fish processing industry, attention is paid to increasing their nutritional value, value and energy value. Thanks to the rich chemical composition of the fish, the population's demand for this product is very high.

Thanks to the high demand for smoked sturgeon, this product has firmly entered the diet of the population. Considering the high demand for smoked sturgeon, studying the quality of the fish is of great importance.

It should be noted that sturgeon is smoked not only by itself, but also fish products, canned fish, and black caviar are prepared from it. At the same time, sturgeon is smoked in cold, semi-hot and hot ways

The nutritional value of cold-smoked sturgeon, bream, and long-nosed fish largely depends on their chemical composition, biological, and physical-chemical properties.

Studies have shown that slightly denatured fish protein is better absorbed than raw protein.

Emil Zamir oğlu HƏMİDOV
magistrant,
Adil Həsi oğlu GÜLALIYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

KƏRƏ YAĞININ KEYFİYYƏTİNİ XARAKTERİZƏ EDƏN ƏSAS GÖSTƏRİCİLƏR VƏ KEYFİYYƏTİNƏ VERİLƏN TƏLƏBLƏR

Yağın dəyərliliyi və keyfiyyəti onun kimyəvi xüsusiyyətindən, istehsal prosesindən və həmçinin istifadə olunan xammalın keyfiyyətindən asılıdır. Yağın, həmçinin qeyri-əlverişli şəraitdə saxlanması zamanı da onun tərkibində bir sıra dəyişikliklər baş verir və bu da nəticədə onun keyfiyyətinin dəyişməsinə səbəb olur. Yağın keyfiyyətinin pisləşməsi eyni zamanda onun saxlanması zamanı baş verən kimyəvi, fermentativ və mikrobioloji proseslərlə əlaqədardır.

Yağın saxlanması zamanı baş verən mikrobioloji proses zamanı yağın tərkibində olan zülalın parçalanması nəticəsində yağdan çürümüş, şəkəri parçalandıqda isə turşumuş və acılaşmış dad əmələ gəlir. Yağın keyfiyyətinə təsir edən amillərdən biri də onun tərkibində baş verən fermentativ prosesin baş verməsidir. Bu proses yağın tərkibində olan oksigenin oksidləşməsi zamanı baş verir.

Kərə yağının keyfiyyətini xarakterizə edən əsas göstəricilərdən biri də yağların növləri və saxlanma şəraitidir. Məhz bu amillər yağın tərkibində bir sıra keyfiyyət dəyişkənliyinin baş verməsinə səbəb olur. Kərə yağının uzun müddət saxlanması onun dad və iyinin dəyişməsinə səbəb olur. Hətta kərə yağını müsbət temperaturda saxlamaq belə onun ətri zəifləyir və köhnəliyi qədər hiss olunur. Mənfi temperaturda saxladıqda isə qeyd edilən prosesin ləngiməsinə səbəb olacaqdır. Lakin uzun müddət saxlamaq üçün texnoloji əməliyyatda konservləşdirici elementlər əlavə edilir. Bu məqsədlə yeyintidə istifadə olunan maddələrin əlavələrinə bakterial mayalanmanı və yağın pasterizə olunmasını göstərmək olar.

Kərə yağının keyfiyyətinin dəyişməsi onda mikrobioloji fermentativ və kimyəvi proseslərin aktivliyindən asılıdır. Yağın tərkibində həll olunmuş halda olan karbohidratlar və zülalların olması mikrofloranın artması üçün əlverişli şərait yaradır. Yağda mövcud olan mikroflora müxtəlif bakteriyaların yığımından ibarət olur. Bu mikroorqanizmlər bir qismi yağın tərkibində olan zülallar parçalayır və nəticədə yağdan pendir iyi gəlir. Digər mikroorqanizmlər isə yağda olan süd şəkərinə təsir göstərir və bu zaman isə yağda turş dadın əmələ gəlməsinə səbəb olur.

Yağın keyfiyyətini xarakterizə edən göstəricilərdən biri də onun quruluşudur. Yağın quruluşunun dəyişməsi onda mikrobioloji, hətta fermentativ prosesin yavaşımasına səbəb olur. Yağın keyfiyyəti onun kimyəvi tərkibinə görə müəyyən olunur. Aşağıdakı 5 saylı cədvəldə yağın kimyəvi tərkib göstəricilərinin mövcud standartların tələblərinə uyğunluğu aydın qeyd edilmişdir.

Cədvəl 1.

Yağın kimyəvi tərkibcə göstəriciləri

Göstəricilər	***Yağın növləri***				
	Duzlu kərə yağı	***Duzsuz kərə yağı***	***Həvəskar kərə yağı***	***Ərinmiş kərə yağı***	***Kənd (nehrə yağı)***
Suyun miqdarı, çox olmamalıdır	16	16	20	1	25
Yağın miqdarı, az olmamalıdır	82,5	81,5	78	98	72.5
Duzun miqdarı, çox olmamalıdır	1,5	-	-	-	-

Yağların növlərindən asılı olmayaraq onların orqanoleptiki göstəriciləri qeyd edilən tələblərə cavab verməlidir. Belə ki, kərə yağının konsistensiyası 10- 12°C temperaturda bərk, bircinsli kəsiyi parıltılı, quru, yaxud xırda damcılı, heç bir kənar dad və iy verməməlidir. Ərinmiş kərə yağının orqanoleptiki göstəriciləri isə aşağıdakı qeyd edilən göstəricilərə cavab verməlidir. Bu yağ yumşaq, dənəvər, əridilmiş halda isə şəffaf, heç bir çöküntüsü olmamalı, konsistensiyası 10-12 °C temperaturda yumşaq olmalıdır.

Yağların rəngi yağ kütləsinin hər sahəsində zəif sarı olmalıdır. Hazırda kərə yağının orqanoleptiki göstəriciləri 100 balla qiymətləndirilir. Mövcud olan standarta əsasən bal qiyməti aşağıdakı kimi olmalıdır:

Konsistensiyasına və xarici görünüşünə - 25
Duzlanmasına - 10
Rənginə -5
Dad və ətrinə -50
Qablaşdırılması – 10
Cəmi: - 100

Kərə yağını orqanoleptiki göstəriciləri hər bir göstəriciyə görə bal sistemi ilə qiymətləndirilir. Sonra bal qiymətləri toplanaraq ümumi bal hesablanır. Aşağıdakı 2 saylı cədvəl yağların balla qiymətləndirilməsi haqqında ətraflı məlumat verilmişdir.

Cədvəl 2.

Yağların balla qiymətləndirilməsi

Yağın növləri	**Verilən ümumi bal qiyməti**	**Ətrinə və dadına görə, ən azı**
Əla	88-100	41 bal
1-ci növ	80-88	37 bal

Əgər qiymətləndirmə zamanı yağın dad və ətrinə verilən bal 37 baldan az olarsa, onda belə yağ satışa verilmir. Qiymətləndirmə zamanı yağda hər hansı bir nöqsan olduqda standartda göstərilən şkalalara görə bal qiyməti azalır. Əgər qiymətləndirmə zamanı yağı, ətri və dadı 47-50 olarsa, belə yağ əla keyfiyyətli, 37-42 olduqda kafi, 37-40 olarsa az acılıq, 25 olduqda konsistensiyası yaxşı, ovalanan olduqda isə 21-22 bal verilir. Standartın tələbini ödəməyən yağlar yenidən emala verilir. Kərə yağının keyfiyyətini xarakterizə edən göstəricilərdən biri də onun emalında istifadə olunan süd və qaymağın keyfiyyətinin standartların tələblərə cavab verməsidir. Belə ki, yüksək keyfiyyətli süd almaq üçün ilk növbədə tərkibinə bakteriyaların və kənar qarışıqların düşməsinin qarşısı alınmalıdır. Bunun üçün qaramal saxlanılan fermalarda ciddi sanitar-gigiyenik şərait yaradılmalıdır. Separator şöbəsinə daxil olan süd və qaymaq yağçılıq zavodunun qəbuledici sexinə ötürülür. Qaymaqlar qəbul edilən zaman orqanoleptiki göstəricilərinə, yağlılığına və turşuluğuna görə sortlaşdırılır və həmçinin taranın vəziyyəti nəzərə alınır. Yağ zavodlarında qaymağın sortlaşdırmaq qaydası aşağıdakı 3 saylı cədvəldə ətraflı verilmişdir.

Cədvəl 3.

Qaymağın keyfiyyət göstəricilərinin xarakteristikası

Qaymağın sortu	***Qaymaqların xarakteristikası***					
	İyi və dadı	***Təmizliyi və konsistensiyası***	***Qaymağın turşuluğu***			
			25	***30***	***35***	***40***
I	Səthi təmiz, şirintəhər, təzə, iysiz və qoxusuz	Kənar kərtənkələri və qatışıqları olmayan, bircinsli və dondurulmamış olmamalıdır.	16	15	14	13
II	Zəif yem iyləri	Bircinsli, kənar qarışıqlar olmamalı, az miqdarda kənar kərtənciklərə icazə verilir, bir qədər dondurulmuşdur.	20	19	17	16

ƏDƏBİYYAT

1. Musayev N.X., Əhmədov Ə.İ., Xəlilov A.N. Ərzaq mallarının ekspertizası. II hissə. Bakı. 2005.
2. Əhmədov Ə.İ., Əzimov Ə.M., Musayev N.X. Yeyinti yağları və süd məhsullarının ekspertizası. Bakı. Çaşıoğlu. 2002
3. Ə.İ.Əhmədov. Yeyinti yağları əmtəəşünaslığı. Dərs vəsaiti. Bakı.1984.

Эмиль Замир оглы Гамидов
магистрант,
Адиль Хаси оглы Гюльалиев
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Основные показатели, характеризующие качество сливочного масла, и требования к его качеству

Резюме

Ценность и качество масла зависят от его химических свойств, технологии производства и качества используемого сырья. Кроме того, при хранении масла в неблагоприятных условиях в его составе происходит ряд изменений, что в конечном итоге приводит к изменению его качества. Ухудшение качества масла также связано с химическими, ферментативными и микробиологическими процессами, происходящими при его хранении.

В ходе микробиологического процесса, происходящего при хранении масла, происходит разрушение белка и сахара, что придаёт маслу кисловато-горький вкус. Одним из факторов, влияющих на качество масла, является ферментативный процесс, происходящий в его составе. Этот процесс происходит при окислении кислорода, содержащегося в масле.

Emil Zamir Gamidov
master,
Adil Hasi Gulaliyev
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

The main indicators characterizing the quality of butter, and the requirements for its quality

Summary

The value and quality of the oil depend on its chemical properties, production technology and the quality of the raw material used. In addition, when storing oil in unfavorable conditions, a number of changes occur in its composition, which ultimately leads to a change in its quality. The deterioration of oil quality is also connected with chemical, enzymatic and microbiological processes that occur during its storage.

In the course of the microbiological process that occurs during the storage of oil, the destruction of protein and sugar occurs, which gives the oil an acidic-bitter taste. One of the factors affecting the quality of butter is the enzymatic process that occurs in its composition. This process occurs when the oxygen contained in the oil is oxidized.

Elgün Hüseyn oğlu SADIQOV
magistrant,
Şövkət Abuzər qızı YUSUFOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

SİNTETİK YUYUCU VASİTƏLƏRİN İSTEHLAK XASSƏ XÜSUSİYYƏTLƏRİNİN KEYFİYYƏTİNİN FORMALAŞMASINA TƏSİRİ

Müasir dövdə istehlakçıların sintetik yuyucu vasitələrinə olan tələbatının ödənilməsində onların istehak xassə xüsusiyyətləri əsas rol oynayır. Belə ki, sintetik yuyucu vasitələrin istehlak xassələri birbaşa onların keyfiyyətinin formalaşmasına təsir göstərir. Bu nöqteyi-nəzərdən sintetik yuyucu vasitələrin istehlak xassələrinin xarakterik xüsusiyyətlərinin ayrı-ayrılıqda xarakterizəsinin verilməsi üstünlük təşkil edir. Sinetik yuyucu vasitələrin eyni zamanda keyfiyyətinə müəyyən tələblər də verilir. Keyfiyyətə verilən tələblərlə yanaşı onların istehlak xassələri arasında tam uyğunluq təşkil edir. Belə ki, onların əsas istehlak xassələrinə, xarici görünüşü, rəngi, qoxusu, çöküntü verməsi, birrəngli və müxtəlif rəngə çalması, həllolma qabiliyyətləri, köpük əmələgətirmə qabiliyyəti və ya yuma qabiliyyətləri, tərkibində olan yuyucu aktiv maddələrin miqdarı, aşqar maddələrin miqdarı, köpüyün stabilliyi və həcmi və yuyucu tozlarda qranulların ölçüsü aiddir. Bütün bu göstəricilər normativ-texniki sənədlərdə sistetik yuyucu vasitələrin keyfiyyətinin həm orqanoleptiki, həm də laboratoriya üsulları ilə aşkar etməyə imkan verir.

İstehlak xassələrinin uyğunluğu sintetik yuyucu vasitələrinin qoxusunun kəskin olmaması, paltara çökməməsi, həmçinin onlardan ətirli iydən qeyri-iy gəlməməsindədir.

Aparılan tədqiqat zamanı sintetik yuyucu vasitələrin funksional, erqonomik, gigiyenik, estetik, sosial-iqtisadi, ekoloji və tühlükəsizlik xassə xüsusiyyətləri tədqiq edilmişdir.

Funksional xüsusiyyətlər funksional xarakterli malların əsas məqsədini xarakterizə edir, onlar nəzərdə tutulan istehlak proseslərində malların uğurlu istifadəsinə kömək edir. Funksional xüsusiyyətlər, mürəkkəb xüsusiyyətlər kimi, bir neçə altqrupa bölünür: əsas funksiyanın icrasının təkmilləşdirilməsini xarakterizə edən xüsusiyyətlər; tətbiqi universallığını müəyyən edən xüsusiyyətlər və köməkçi funksiyaların həyata keçirilməsinin təkmilləşdirilməsini müəyyən edən funksiyaların xüsusiyyətləri.

Əsas funksiyanın tətbiqi məhsul parametrlərinə, xammal növünə, istehsal keyfiyyətinə bağlıdır. Bir məhsulun funksional xüsusiyyətlərinin əhəmiyyətli bir xarakteristikası onun çoxyönlü olmasıdır, məhsulun istifadəsi məqsədilə geniş şərtlər və istifadə imkanları ilə xarakterizə olunur. Çoxluluq bir sıra köməkçi funksiyaları yerinə yetirmək qabiliyyəti ilə müəyyən edilir. Yardımçı funksiyalar imkanları genişləndirir və mövcudluğu artırır. Hər növ malların öz köməkçi funksiyalar sisteminə malik olması, istehlak nəticəsində böyük ölçüdə mükəmməl yerinə yetirilməsindən asılıdır.

Etibarlılıq xüsusiyyətləri. Etibarlılıq - məhsulun istismarını əvvəlcədən müəyyən edilmiş müddətə və ya uğursuzluqlar arasında lazımi müddətə saxlayarkən göstərilən rejimlərdə və istismar şərtlərində (təmir, saxlama, nəqliyyat, və s.) müəyyən funksiyaları yerinə yetirmək qabiliyyəti, yəni, tələb olunan əməliyyat müddətində məhsulun keyfiyyətinə mənfi təsir göstərən amillərin təsirinə qarşı durma qabiliyyəti. Əməliyyat müddəti məhsulun müddəti və həcmi, müxtəlif vahidlərdə (gün, il, kiloqram və s.) ölçülür.

Etibarlılıq, əməliyyatın məqsədi və şərtlərinə uyğun olaraq davamlılığı, etibarlılığı, ehtiva edən xüsusiyyətlər kompleksidir. Əməliyyat və istehlak zamanı məhsullar etibarlılıq xüsusiyyətlərinə təsir edən müxtəlif effektlər yaşayır.

Keyfiyyət göstəricilərindəki dəyişikliklərə səbəb olan və vaxtında reallaşan prosesə və son nəticəyə aşınma deyilir. Amortizasiya müxtəlif amillərin təsiri altında baş verir: mexaniki, fiziki-kimyəvi, bioloji və birləşmişdir. Kiçik mexaniki tədbirləri təkrarlayan bir məhsulun tədricən məhv edilməsi (xüsusiyyətlərinin dəyişməsi) prosesinə yorğunluq deyilir. Dözümlülük məhsulun saxlanma və təmir sisteminə malik olan bir dövrün başlanğıcına qədər iş qabiliyyətini saxlamağı xarakterizə edir. İş qabiliyyətinin ümumi və qismən itkisi uğursuzluq adlanır.

Etibarlılıq - məhsulun bir müddət və ya bir neçə müddətə fəaliyyətini davam etdirə bilməsi qabiliyyəti. Davamlılıq bir məhsulun saxlama və nəqliyyatdan sonra müəyyən funksiyaları ehtiva edir. Təminatsızlıq məhsulun saxlanmasına, təmirinə və s. uyğunlaşmasından ibarətdir.

Erqonomik xüsusiyyətlər. Erqonomik xüsusiyyətlər, insan-ətraf mühit məhsulu və insan-məhsul sistemlərində əməliyyatın bütün mərhələlərində məhsulun istifadəsinin rahatlığı və rahatlığını xarakterizə edir. Erqonomik xüsusiyyətlərə antropometrik, fizioloji (psixoloji) və psixofiziki daxildir. Antropometrik xüsusiyyətlər məhsulun ölçüsü və formasının insan bədəninin ölçüsü və formasına uyğunluğunu xarakterizə edir. İnsan bədəninin şəkli və ölçüsünə uyğunluq müvafiq dizayn, materialların seçilməsi ilə əldə edilir.

Fizioloji xüsusiyyətlər insan bədəninin və onun ayrı-ayrı orqanlarının işləməsinin həyat tərzlərinə və xüsusiyyətlərinə təsir edən məhsulların xüsusiyyətlərini xarakterizə edir. Gigiyenik xüsusiyyətlər malların insan bədəninin həyat şərtlərinə təsiri ilə əlaqədardır, qeyri-ərzaq məhsullarını xarakterizə edir. Çirklənmənin və təmizliyin xüsusiyyətləri məhsulların çirklənmə və təmizlənməsi qabiliyyətini xarakterizə edir, onların gigiyenik xüsusiyyətlərinin qiymətləndirilməsi üçün çox vacibdir.

Məhsulların çirklənməsi müxtəlif maddələr daşıyır. Materiallar üzərində yığılma, çirklənmə mikroorqanizmlərin inkişafı üçün əlverişli bir mühitdir. Psixofiziki xüsusiyyətlər məhsulun güc, işıq, vizual, dad və vəziyyəti qabiliyyəti ilə uyğunluğunu xarakterizə edir. Psixoloji xüsusiyyətlər insanın bacarıq, hiss, düşüncə və yaddaş məhsuluna uyğunluğunu xarakterizə edir.

Estetik xüsusiyyətlər. Estetik xüsusiyyətlər məhsulun, o cümlədən sintetik yuyucu vasitələrin insanın və cəmiyyətin ehtiyaclarını təmin etmək üçün cəlbedici görünüşlər vasitəsilə qabiliyyətini xarakterizə edir.

Estetik xüsusiyyətlər aşağıdakı xüsusiyyətləri ilə xarakterizə olunur səviyyə: informasiya ifadəliliyi, kompozisiyanın bütövlüyü, formanın rasionallığı, istehsalın effektivliyinin təkmilləşdirilməsi və təqdimatın sabitliyi. İnformasiya ifadəliliyi məhsulun mədəniyyət normalarını və cəmiyyətdə mövcud olan estetik fikirlərini əks etdirmək qabiliyyətidir.

Məhsul orijinallığı oxşar məqalələrin, materialların, icra üsullarının məhsullarından olan fərqləri müəyyən edən, onun ümumi xüsusiyyətləri şəklində mövcudluğu ilə xarakterizə olunur. Stil-bədii-məzmunlu sistemin birliyi, bədii ifadə vasitəsi.

Kompozisiyanın bütövlüyü elementlərin və formanın, birləşmələrin və bütöv birliyin üzvi qar-

şılıqlılığını xarakterizə edir. Formanın səmərəliliyi məhsulun forması və dizaynının onun funksional məqsədinə uyğunluğunu ifadə edir. Bu xüsusiyyət məhsulun estetik məqsədəuyğunluğunu müəyyənləşdirir. Məhsulun performansının təkmilləşdirilməsi və təqdimatının sabitliyi konturların, parçaların mürəkkəblərinin, komponentlərinin və qurğularının icrasının təmizliyini xarakterizə edir.

Təhlükəsizlik xüsusiyyətləri. Təhlükəsizlik, qəbul edilən normalarla məhdudlaşdırılan ən aşağı risk halına səbəb olan məhsulun bir xüsusiyyətidir. Malların çıxarılması, saxlanması, daşınması, istismar edilməsi və ya istehlak edilməsi təhlükəsiz olmalıdır, yəni. istehlakçının həyatına və sağlamlığına zərər verməməlidir. Hər hansı bir məhsulu işləyərkən və ya istehlak etdikdə, mütləq təhlükəsizlik təmin edilə bilməz.

Təchizatın təhlükəsizliyi məhsulun təhlükəsiz istismar qaydalarına uyğun olaraq məhsuldan istifadə edilərkən risklərin minimuma endirilməsini nəzərdə tutur, bu da istehlakçıların diqqətinə çatdırılmalıdır ki, informasiya dəstində müvafiq təlimatlar, qaydalar, standartlar nəzərdə tutulur. Lakin bu normaya ciddi riayət olunsa da, ziyan, risk riski azdır.

Kimyəvi təhlükəsizlik insan qorunmasının dərəcəsini zərərli maddələrə məruz qoyur. Zərərli maddələr bədənin tənəffüs yolu ilə, dəri və qida ilə birlikdə daxil olur.

Sintetik yuyucu vasitələrdə səthi aktiv maddə kimi natrialkilbenzolsulfonatdan, natriumalkilsulfatdan, sintanoldan istifadə edilir. Bunların əsas vəzifəsi yuyucu məhlulda olan ağır metal ionlarını tutub saxlamaq, onların parça üzərinə çökməsinin qarşısını almaqdan ibarətdir. Bundan başqa, fosfatlar suyu yumşaldır, mühitin pH-nı tənzimləyir, kritik mitsel əmələ gəlməsinin qarşısını alır.

Sintetik yuyucu vasitələrin tərkib elementlərinin biri də karboksimetilsellülozadır, bunu sellülozanın sadə efiri ilə qlikol turşusunun birləşməsindən əldə edirlər. Karboksimetilsellülozanın əsas vəzifəsi yuma zamanı parçadan ayrılmış çirkin resorbsiyasının qarşısını almaqdan ibarətdir, yəni parçadan ayrılmış çirkin yenidən onun üzərinə çökməsinin qarşısını almaqdır. Eyni zamanda sulu məhlulda çirki tutub saxlamaqdan ibarətdir ki, bunun nəticəsində parçanın ağlılığı artır. Cədvəldə altı variantda karboksimetilsellülozanın %-lə miqdarının dəyişilməsi öz əksini tapmışdır.

Cədvəl 1.

Müxtəlif variantlarda SYV -də KMS %-lə miqdarının dəyişilməsi

Komponentlər	I variant	II variant	III variant	IV variant	V variant	VI variant
Alkilsulfonat	131	13	13	13	13	13
Sintanol	8	8	8	8	8	8
Natrium sulfat	5	5	5	5	5	5
Natrium xlor	4	4	4	4	4	4
Trapolifosfat natrium	25	25	25	25	25	25
KMS	0	0,5	1,0	2,0	3,0	4,0

Təcrübə nəticəsində müəyyən edilmişdir ki, sintetik yuyucu vasitələrin tərkibində karboksimetilsellülozanın %-lə miqdarı artdıqca sulu məhlulda özlülük artmış, sulu məhlulun özlülük qrupu möhkəmlənmişdir. Özlülük viskozimetrin köməyi ilə müəyyən edlmişdir.

Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, 20°C temperaturda karboksimetilsellülozanın %-lə miqdarının artması ilə sulu məhlulda özlülük kəskin surətdə artır.

ƏDƏBİYYAT

1. P.Həsənov, T.R.Osmanov və digərləri. "Qeyri-ərzaq mallarının ekspertizası", II hissə, Bakı, 2006-cı il
2. "Sintetik yuyucu vasitələrin istehlak xassələrinə həsr edilmiş məqalələr", Ş.Yusifova, Bakı şəhəri 1994 – 1997-ci illər
3. Arif Hasanov və digərləri, "Əmtəəşünaslıq kmya", 2006
4. Петрище Ф.А., Мальцева М.Н. «Синтетические моющие средства: потребителбские свойства, нормирование, безопасность и эффективность использования» Издательство "Дашков и К" 2014

Эльгюн Гусейн оглы Садыгов
магистрант,
Шовкет Абузар кызы Юсуфова
кандидат экономических наук, доцент,
Азербайджанский Университет Кооперации

Влияние потребительских свойств синтетических моющих средств на формирование качества

Резюме

В современных условиях потребительские свойства синтетических моющих средств играют ключевую роль в удовлетворении спроса потребителей на них. Таким образом, потребительские свойства синтетических моющих средств напрямую влияют на формирование их качества. С этой точки зрения предпочтительнее отдельно характеризовать потребительские свойства синтетических моющих средств. Вместе с тем к качеству синтетических моющих средств предъявляются определенные требования. Помимо требований к качеству, наблюдается полное соответствие их потребительских свойств. Так, к основным потребительским свойствам относятся внешний вид, цвет, запах, седиментация, равномерность и многоцветность окраски, растворимость, пенообразующая или моющая способность, количество активных моющих веществ в составе, количество добавок, стойкость и объём пены, а также размер гранул в стиральных порошках.

Elgun Huseyin Sadygov
master,
Shovket Abuzar Yusufova
candidate of economic sciences, docent,
Azerbaijan Cooperation University

Influence of consumer properties of synthetıc detergents on the formation of quality

Summary

In modern times, the consumer properties of synthetic detergents play a key role in satisfying consumers' demand for them. Thus, the consumer properties of synthetic detergents directly affect the formation of their quality. From this point of view, it is preferable to separately characterize the characteristics of the consumer properties of synthetic detergents. At the same time, certain requirements are placed on the quality of synthetic detergents. In addition to the requirements for quality, there is complete compliance between their consumer properties. Thus, their main consumer properties include appearance, color, odor, sedimentation, uniform and variegated coloring, solubility, foaming ability or washing ability, the amount of detergent active ingredients in the composition, the amount of additives, foam stability and volume, and the size of granules in washing powders. All these indicators allow us to determine the quality of synthetic detergents in regulatory and technical documents by both organoleptic and laboratory methods.

Laçın Mühiddin oğlu LAÇINOV
magistrant,
Adil Həsi oğlu GÜLALIYEV
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

NARDA OLAN XƏSTƏLİK VƏ ZƏRƏRVERİCİLƏRİN KEYFİYYƏTƏ TƏSİRİ

Vegetasiya dövründə və saxlanma zamanı nar meyvələrinin keyfiyyətinin pisləşməsi bir çox səbəblərlə, o cümlədən müxtəlif (göbələk, bakterial) funksional, fizioloji xəstəliklərlə əlaqədar olur. Son illərdə nar meyvələrinin saxlanılmasının təkmilləşdirilməsinə böyük diqqət yetirilir. Bunun üçün meyvələr əvvəlcədən soyudulmuş otaqlarda (soyuducu kameralarda), ən çox isə nizamlanan qaz mühiti olan soyuducularda geniş halda saxlanılır.

Nar meyvələri belə kameralarda saxlandıqda onların saxlanma müddəti uzanır, itki xeyli dərəcədə azalır və keyfiyyət yüksəlir. Bir çox yayılan, keçici xəstəliklər bağda, tarlada, vegetasiya dövründə, yığım vaxtı, daşınma və saxlanmaya qoyulan dövrdə inkişaf edir.

Xəstəliyin növündən asılı olaraq, birinci növbədə onu törədən səbəbdən bəzi xəstəliklər yavaş inkişaf edir, digərləri saxlanma zamanı inkişafını dayandırır, digərləri qonşu meyvələrlə təmasda olduqda və ya hava ilə yoluxaraq tez inkişaf edir. A.S.Qaraşarlı (1979), O.P.Kuliev (1993) qeyd edirlər ki, narın xəstəlik və zərərvericiləri çox deyildir. Lakin U.B.Nəcəfova (1973) qeyd edir ki, respublikanın müxtəlif reqionlarında nar sahələrində 36 növ zərərverici yayılmışdır. Müəllif qeyd edir ki, yüksək keyfiyyətli nar sortları Azərbaycanın bir çox bölgələrində geniş yayılmışdır. Müəllif qeyd edir ki, narın zərərvericiləri 1964-cü ildən öyrənilməyə başlanmışdır. Y.B.Nəcəfovaya (1973) və digər tədqiqatçılara görə nara çox zərər verən zərərvericilər içərisində nar meyvəyeyəni və alma meyvəyeyəni geniş yayılmışdır.

Miqdarına görə ən çox alma meyvəyeyəni Mil-Muğan, Abşeron, Gəncə-Qazax, Goranboy rayonlarında geniş yayılaraq, ciddi zərər verir. Şirvan bölgəsində isə tək-tək təsadüf edir. Bizim tərəfimizdən 2014-2016-cı illərdə aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, nar bitkisinə və meyvəsinə vegetasiya müddətində, yetişmə dövründə, saxlanma zamanı çoxlu miqdarda xəstəlik və zərərvericilər ziyan vurur. Onların ən başlıcaları nar meyvəyeyəni, alma meyvəyeyəni, nar mənənəsi, tor gənəsi, qırmızı gənə, unlu yastıca, alman arısı və digərlərini qeyd etmək olar. Bu zərərvericilər xüsusilə nar meyvəyeyəni, alma meyvəyeyəni narı zədələyərək, onları yararsız hala salır, meyvələr daxildə çürüyür, yararsız hala düşür və çoxlu xəstəliklərə yoluxur və qida üçün yaramır. Alman arısı isə çatlamış meyvələrə daha çox zərər vurur. Nar üzərində meyvələr üçün təhlükəli hesab edilən xəstəliklərdən fomopsis, meyvələrin boz çürüməsi, qara çürümə (qara sürmə xəstəliyi) yetişmə dövründə və saxlanma zamanı geniş yayılır. Ən çox zərərvericilər tərəfindən zədələnən meyvələr tez xəstəliyə tutulur və keyfiyyətini itirir, yararsız hala düşür, qida kimi istifadə edilmir.

Tədqiqat illərində (2014-2016) nar meyvələri və ayrı-ayrı sortlar 30-35%-ə qədər zərər çəkir. Nar meyvəyeyəni ən çox meyvələrə avqust, sentyabr və oktyabr aylarında yetişmə zamanı ziyan verir.

Müəyyən edilmişdir ki, Qırmızıqabıq, Mələs, Bala mürsəl, Şirinnar, Şahnar, Şüvəlan qırmızı meyvəli, Mərdəkan sortları nar meyvəyeyəni, nar mənənəsi tərəfindən 35-40% zərər çəkir. Onların xırda meyvələri ağac başında xarab olur, bir hissə isə yerə tökülür. Xəstəliklərdən fomopsis, boz çürümə, qara sürmə xəstəliyi xüsusilə narın yetişməsi zamanı sentyabr, oktyabr aylarında geniş yayılaraq böyük ziyan vurur. Qara sürmə, fomopsis, boz çürümə xüsusilə yağışlı aylarda daha çox yayılır və zərər vurur. Meyvələr bu xəstəliklərdən ağac başında çürüyür, bir hissəsi isə çürüyərək yerə tökülür, torpaqda meyvələrdə qalaraq qışlayır və növbəti illərdə xəstəlik mənbəyinə çevrilirlər. Növbəti illərdə xəstəliyin geniş yayılmasına səbəb olur, bu xəstəliklərdən çox küləkli havalarda zədələnmiş nar meyvələrini çox xəstələndirir, məhsuldarlığı və keyfiyyəti aşağı salır. Boz çürümə meyvə üzərində yumşaq çürümə əmələ gətirir. Rütubət yüksək olanda meyvə üzərində boz göbələk əmələ gəlir. Bu xəstəlik meyvə üzərinə tarlada, sortlaşdırma zamanı, daşınmaya hazır-

lanan zaman, eyni zamanda təkrar yoluxma saxlanma zamanı baş verir.

Hər hansı saxlanma zamanı baş verən qayda pozğunluqları meyvələrin boz çürüməyə davamlılığını zəiflədir və boz çürümənin inkişafı güclənir. Onun sporları hava ilə asanlıqla yayılır. Yoluxma mənbəyi tara və saxlanma anbarları ola bilər. Anbarlar təmizlənməli və dezinfeksiya olunmalıdır. Nəzərə alsaq ki, nar meyvəyeyəni və nar mənənəsi nara çox böyük zərər vurur, bizim tərəfimizdən birinci dəfə Azərbaycanda onlara qarşı mübarizə tədbirləri işlənib hazırlanmışdır. Nar mənənəsinə qarşı karbofos, antio və fozalon 0,1% qatılıqda tətbiq edilmişdir.

Tətbiq edilən preparatlar 7-10 gündən sonra mənənənin miqdarını uyğun olaraq, 72-78%, 70-75% və 80-84% azaltmışdır. Nar meyvəyeyəninə qarşı mikrobioloji preparatlardan olan dendrobatsilin, bitoksibatsilin-202 0,1-0,2% qatılıqda tətbiq edilmişdir. Yuxarıda adı çəkilən preparatlar 7-10 gün tətbiq ediləndən sonra zərərvericinin miqdarını 78-85% aşağı salmışdır. Göstərilən kimyəvi preparatlar nar yetişənə qədər müxtəlif amillərin təsirindən (günəş şüasi, rütubət, temperatur, külək) nar meyvələrinin üzərindən yoxa çıxır və insan orqanizminə zərərli təsir göstərmir.

Tətbiq edilən preparatlar insan həyatı və ətraf mühit üçün təhlükə təşkil etmir. Beləliklə, Azərbaycanda ilk dəfə narın təhlükəli zərərvericilərinə qarşı (nar meyvəyeyəni, nar mənənəsinə) mübarizə tədbirləri işlənib hazırlanmışdır. Nar mənənəsinə qarşı karbofos, antio və fozalon 0,1% qatılıqda tətbiq edilmişdir. Dərmanların tətbiqindən 7-10 gün sonra zərərvericinin miqdarı 72-78%, 70-75% və 80-84% azalmışdır. Nar meyvəyeyəninə qarşı mikrobioloji preparat olan dendrobatsilin, butoksibatsilin 0,1-0,2% qatılıqda tətbiq edilmişdir. Bu preparatlar tətbiq ediləndən 7-10 gün sonra zərərvericinin miqdarı 78-85% aşağı düşür.

Tətbiq edilən kimyəvi preparatlar nar yetişənə qədər müxtəlif amillərin təsirindən (günəş şüası, rütubət, temperatur, külək) nar meyvələri üzərində parçalanıb yoxa çıxır və insan orqanizminə zərərli təsir göstərmir, eyni zamanda ətraf mühit üçün də təhlükə təşkil etmir.

ƏDƏBİYYAT

1. Ə-C.İ.Əhmədov, N.T.Əliyev. “Meyvə və tərəvəzlərin əmtəəşünaslığı” Dərslik, Bakı-2009.
2. Ə-C.İ.Əhmədov. “Ərzaq malları əmtəəşünaslığı” Dərslik, 2006.
3. G.Həsənova, “Bitki mənşəli ərzaq məhsullarının ekspertizası” Dərslik, 2018.

Лачин Мухиддин оглы Лачинов
магистрант,
Адиль Хаси оглы Гюльалиев
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Влияние болезней и вредителей на качество граната

Резюме

Ухудшение качества плодов граната в период вегетации и хранения обусловлено многими причинами, включая различные заболевания (грибковые, бактериальные), функциональные и физиологические. В последние годы большое внимание уделяется совершенствованию условий хранения плодов граната. Для этого плоды широко хранят в предварительно охлажденных помещениях (холодильниках), чаще всего в холодильниках с регулируемой газовой средой.

Хранение плодов граната в таких камерах увеличивает срок их годности, значительно снижает потери и улучшает качество. Многие распространённые, незначительные заболевания развиваются в саду, в поле, в период вегетации, во время сбора урожая, транспортировки и хранения.

Lachin Muhiddin Lachinov
master,
Adil Hasi Gulaliyev
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

The impact of diseases and pests on pomegranate quality

Summary

The deterioration of the quality of pomegranate fruits during the growing season and during storage is due to many reasons, including various diseases (fungal, bacterial), functional, physiological. In recent years, great attention has been paid to improving the storage of pomegranate fruits. For this, the fruits are widely stored in pre-cooled rooms (refrigerators), and most often in refrigerators with a regulated gas environment.

When pomegranate fruits are stored in such chambers, their shelf life is extended, losses are significantly reduced, and quality is improved. Many common, minor diseases develop in the garden, in the field, during the growing season, during harvest, transportation, and storage.

Turan Tehran oğlu NİZAMOV
magistrant,
Şövkət Abuzər qızı YUSUFOVA
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

QADIN GÖN AYAQQABILARININ KEYFİYYƏTİNƏ VERİLƏN İSTEHLAK TƏLƏBLƏRİ

Ayaqqabı malları məişətimizdə istehlakçılar tərəfindən ən çox işlədilən mal qruplarından biridir. Bütün dövrlərdə geniş çeşiddə istehsal olunan ayaqqabıların keyfiyyəti həm istehsal müəssisələri üçün, həm də topdan və pərakəndə ticarət təşkilatları üçün bu qrup mallara olan istehlakçı tələbinin tam və dolğun ödənilməsi baxımından çox vacib bir məsələ kimi gündəmdə olmuşdur.Bu gün ayaqqabı sənayesi müəssisələri tərəfindən geniş çeşiddə ayaqqabılar istehsal edilir.

Keyfiyyətli ayaqqabı istehsal etmək istehlakçı nöqteyi-nəzərindən çox məhsul istehsal etmək deməkdir, eyni zamanda keyfiyyətli mal istehsal etmək külli miqdarda xammal və materiallara qənaət etməyə imkan verir,istehsal olunan ayaqqabıların maya dəyəri aşağı düşür, nəticə etibari ilə istehlakçıların bu qrup mallara olan tələbi tam ödənilir.

Məişət təyinatlı qadın gön ayaqqabılarının keyfiyyətini araşdıran zaman birinci növbədə bu qrup malların keyfiyyətinə qoyulan tələbləri təhlil etmək və araşdırmaq lazımdır. Qadın gön ayaqqabılarının keyfiyyətinə verilən tələbləri birinci növbədə ümumi və spesifik tələblər olmaqla iki qrupa bölmək olar.

Qadın gön ayaqqabılarına verilən ümumi tələblər birinci növbədə onların məqsədli təyinatı,dar funksional təyinatından asılı olaraq istehlak şəraitinin müxtəlifliyi, istehlak və istismar şəraiti, mövsümiliyi, istifadə üçün rahat olması və s.bu kimi amillərlə sıx surətdə əlaqədardır. Məlum olduğu kimi, ayaqqabıların, o cümlədən qadın ayaqqabılarının əsas vəzifəsi istismar zamanı ayağı müxtəlif xarici təsirlərdən, yəni nəmdən, suyun və soyuğun təsirindən, müsdət və mənfi hərarətdən, mexaniki və fiziki təsirlərdən, zədələnmələrdən, atmosfer təsirlərindən, mikroorqanizmlərin təsirindən mühafizə etməkdən, habelə insanın hərəkəti zamanı ayağının funksional rahatlığını, hərəkətin asan və təhlükəsiz olmasını təmin etməkdən ibarətdir.

Ayaqqabıların istismarı zamanı onların keyfiyyətinə verilən bütün bu istehlak tələbləri kompleks olaraq birlikdə ayaqqabının yararlılığına qoyulan funksional tələblərini, yəni istifadəyə yararlılıq səviyyəsini təşkil edir. Bütün bu xüsusiyyətlər öz növbəsində qadın gön ayaqqabılarının erqonomik, gigiyenik, estetik və istismar tələbləri ilə xarakterizə edilir və onların yararlılıq səviyyəsini müəyyən etməyə imkan verir.

Erqonomik tələblər. Qadın gön ayaqqabılarına verilən orqonomik tələblər dedikdə, funksional təyinatından asılı olaraq hər bir növ qadın ayaqqabısının konstruksiya xüsusiyyətlərinə, istehlakçının ayaq pəncəsinin anatomik quruluş elementlərinə uyğun olması, onun istehlakçının antropometrik bədən hissələrinin ölçü və xüsusiyyətlərinə tam şəkildə uyğun olmasıdır. Ümumiyyətlə hər bir insan özünəməxsus fərqli xüsusiyyətlərə malik olsa da onların antropometrik quruluşu demək olar ki, eynidir bu da bütün mallarda olduğu kimi ayaqqabıların istehsalı zamanı onlara verilən kompleks tələbləri tam ödəmək və insanın ayaqqabının geyilməsi zamanı rahat və heç maneçilik, əngəl törətmədən məqsədəuyğun şəkildə istifadəsini təmin etməlidir. Məhz bu baxımdan antropometrik göstəricilər təhlil edilən zaman ayaqqabının istehlakçının ayağının bütün hissələrinə (pəncə, barmaq, daban və s.) tam şəkildə uyğun olmasının düzgün müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Qüvvədə olan standart və texniki-nomativ sənədlərin tələblərinə nüvafiq olaraq hər bir ayaqqabı təyinatına və spesifik xüsusiyyətlərinə görə, forma, fason, model, konstruksiya elementləri, biçimi, ölçüləri elə seçilməlidir ki, bunlar hamısı insan ayağının anatomik quruluşuna tam uyğun olsun. Məlumdur ki, insan hərəkət edən zaman, müxtəlif idman hərəkətləri yerinə yetirərkən, qaçarkən onun ayaq ölçüsü böyüyür.

Aparılan araşdırmalar göstərir ki, insanlar normal hərəkət edən zaman və idmanla məşğul olanda onun pəncə, barmaq və daban hissələrində,ümumiyyətlə bütün ayaqda 6-8% normadan artıq genişlənmə müşahidə edilir. Bunun nəticəsində istismar zamanı ayaqqabının altlığı müstəsna olmaqla bütün hissələri, xüsusilə də üz detallarında hissediləcək dərəcədə genişlənməyə, böyüməyə məruz qalır. Məhz buna görə də ayaqqabının rahatlığını, funksionallığını təmin etmək məqsədi ilə ayaqqabı ölçüləri müəyyən edilən zaman bütün bu amillər müvafiq standart və normativ sənədlərdə nəzərdə tutulur.

Qadın ayaqqabılarının biçimi, forması, konstruksiyası səmərəli olmaqla yanaşı, geyilən zaman narahatlıq törətməməli, insanı yormamalı, lazımi rahatlığı təmin etməli, geyilən zaman əlverişli olmalı ayağı müxtəlif təsirlərdən etibarlı qorumalı, yüksək istismar tələblərinə cavab verməli, istismara yararlı, təmirə yararlı normal xidmət müddətinə malik olmalıdır və buna qarşı qoyulan bütün standart tələblərinə cavab verməlidir.

Məlumdur ki, hər bir insan müəyyən çəkiyə malikdir və onlar fəaliyyəti,adi və intensiv hərəkəti zamanı ayaqlara müəyyən yük düşür və bu yük altında geyilən ayaqqabı müəyyən fiziki, mexaniki təsirlərə məruz qalır. Bu baxımdan bütün ayaqqabılar, o cümlədən qadın ayaqqabıları müəyyən fizioloji göstəricilərə malik olmalıdır.Bu göstəricilər müvafiq standart və normativ sənədlərdə fizioloji tələblər kimi verilir.

Fizioloji tələblər ayaqqabının istismarı zamanı insanın normal təzyiqinə davam gətirmək məqsədi ilə ayaqqabılara qarşı qoyulan istismar tələbləridir. Ayaqqabı geyilən zaman müəyyən yük altında yaranmış təzyiqlə ayağın pəncə,yan və daban hissələri ayaqqabıya sıxılır ki,bu da hərəkət zamanı müəyyən narahatçılıqlar yarada bilir. Məhz buna görə də müvafiq standartlar və normativ sənədlər hazırlanarkən mütləq bu fizioloji normalar işlənməli və onlara əməl olunmalıdır. Artıq elm sübut etmişdir ki,insan yalnız ağız və burunla nəfəs almaqla öz fizioloji fəaliyyətini təmin etmir. Buna görə də insanların geyimi, xüsusilə də alt geyimləri və ayaqqabıları onun normal fəaliyyətini təmin etnək və sağlam yaşaması üçün yüksək gigiyenik tələblərə cavab verməlidir.

Gigiyenik tələblər dedikdə birinci növbədə, geyilmə zamanı ayaqqabı daxilində insan ayağının normal fəaliyyəti üçün lazımi mikroiqlim mühitinin yaradılması başa düşülür. Aparılan araşdırmalar göstərir ki, standart üzrə normal temperatur şəraitində ayağın üst səthində insanın fizioloji tələblərinə lazımi səviyyədə cavab verən temperatur 19 dərəcə selsidən 33 dərəcə selsiyə qədər olmalıdır. İstismar zamanı istiliyin +33°C-dən artıq olması ayağın qızmasına,istiliyin +18°C-dən az olması isə ayağın soyumasına səbəb olur ki,bu da bir çox fəsadlara gətirib çıxarır, nəticədə ayaq ağrıları ilə bağlı bir çox xəstəliklər meydana çıxır. Buna görə də iqlim şəraitindən asılı olaraq ayaqqabılar elə seçilməlidir ki, istismar zamanı müəyyən edilmiş normadan artıq temperatur təsirlərinə məruz qalmasın. Bu da ayaqqabıların istisaxlama qabiliyyətini ön plana çıxarır.

Ayaqqabıların istilik saxlaması onların gigiyenikliyini təmin edən ən yararlı xassələrdən biridir. Çünki istiliksaxlama xassəsi regional xüsusiyyətlər,iqlim şəraitindən asılı olaraq ayaqqabı istehsalı

üçün düzgün material seçiminin aparılmasını tələb edir.Buna görə də ayaqqabıların istehsalı zamanı forma, konstruksiya, model, stil və nəhayət altlıq,üzlük və aralıq materiallar üçün material seçimi elə olmalıdır ki, bütün bunlar ayaqqabının istiliksaxlama xassəsinə, onun gigiyenik göstəricilərinə mənfi təsir göstərməsin. Buradan belə nəticəyə gəlmək olar ki, ən yaxşı istiliksaxlama xassəsinə malik olan ayaqqabılar ən vacib gigiyenik göstəricilərə malik ayaqqabılardır.

Ayaqqabıların gigiyenik xassələrinə təsir edən əsas amillərdən biri də sulu, rütubətli,nəmli mühitdir. Məlumdur ki,insan bədəninin fizioloji xüsusiyyətlərindən biri də müxtəlif obyektiv və subyektiv təsirlərin nəticəsində onun bədənindən və eyni zamanda ayaqlarından fasiləsiz olaraq rütubət və tər ayrılmasıdır. Mütəxəssislər tərəfindən aparılan təhlillər nəticəsində məlum olmuşdur ki, normal iqlim şəraitində insanda tər ifrazatı bir saat ərzində 0,5-1,5 mq. ola bilir. Mühitin istiliyi 30°C-dən yuxarı olduqda eyni zamanda insan daha aktiv fəaliyyətdə olduqda tər və rütubətin ayrılması 1 saat ərzində 6-8 mq. ola bilir.

Məhz buna görə də ayaqqabıların istehsalı zamanı material seçimi elə olmalıdır ki, bu materiallar, həm üzlük, aralıq və həm də içlik materialları yüksək hiqroskopik xassələrə malik olsun. Eyni zamanda istismar zamanı ayaqdan ayrılan tər və rütubət ayaqqabı materialları tərəfindən adsorbsiya olunmalı və xarici mühitə verilməlidir. Məhz buna görə də yüksək gigiyenikliyin təmin edilməsi məqsədi ilə ayaqqabı istehsalında istifadə edilən hər bir xammal və material standart tələblərinə uyğun olaraq yüksək hiqroskopikliyə, buxarkeçirməyə, rütubətkeçirmə kimi vacib xassələrə malik olmalıdır ki, yekunda istehsal olunan ayaqqabıların gigiyenik göstəriciləri yüksək olsun.

Qadın gön ayaqqabılarına verilən estetik tələblər. Estetik tələblər bütün mal qruplarında olduğu kimi qadın gön ayaqqabılarının keyfiyyətinin və istehlak xassələrinin qiymətləndirilməsi zamanı qarşıya qoyulan ən vacib istehlak tələblərindən biri olmaqla istehlakçıların bu qrup mallara olan tələbinin ödənilməsi üçün müstəsna əhəmiyyət kəsb edir. Çünki, qeyd etmək lazımdır ki, hələ çox qədim dövrlərdən ayaqqabı insanların geyim ansamblına daxil olan əsas elementlərdən biri olmuşdur. İnsanlar daimi öz aksesuarlarında daha gözəl, yaraşıqlı, diqqəti cəlb edən, yüksək bədii-estetik tərtibatlı ayaqqabıların olmasına xüsusi fikir vermişlər. Qadın ayaqqabılarının keyfiyyətinə verilən estetik tələblər ayaqqabıların estetik xassələrini xarakterizə edən xassə göstəriciləri ilə,yəni onların rəngi, xarici tərtibatı, modeli, biçimi, konstruksiya elementlərinin seçimi,ayaqqabı hissələrinin forması, ölçüləri, fasonu və s. bu kimi göstəricilərlə qiymətləndirilir.Bütün bunlar ayaqqabılara olan istehlakçı tələbinin estetik tələblər baxımından tam və dolğun ödənilməsinə xidmət edir.

Qadın ayaqqabılarına verilən texniki-iqtisadi tələblər. Texniki-iqtisadi tələblər həm istehlakçıların, həm də ayaqqabı sənayesi sahəsində çalışan insanların daim diqqət mərkəzində olan amillərdən biridir. Gön ayaqqabılarının keyfiyyətinə verilən texniki-iqtisadi tələblər ümumi tələblər içərisində xüsusi yer tutur və bu tələblər ayaqqabının keyfiyyətli tamlığını təmin edən bir sıra amillərin kompleksindən asılıdır. Bu amillərə aşağıdakıları göstərmək olar:

- ayaqqabının istehsalı zamanı yüksək məhsuldarlıq təmin edilməli;
- ayaqqabı üçün seçilmiş konstruksiya sadə və əlverişli olmalıdır;
- kütləvi istehsal üçün nəzərdə tutulmuş model iqtisadi cəhətdən səmərəli olmalıdır;
- ayaqqabının hazırlanmasına az material sərf olunmalıdır;
- üzlük detallarının formaya salınması zamanı maksimal qənaət;
- unifikasiya dərəcəsi texniki-iqtisadi cəhətdən səmərəli olmalıdır.

Məişətimizdə geniş istehlak edilən gön ayaqqabılarının keyfiyyətinə qarşı qoyulan ümumi tələblərin təhlili göstərir ki,yuxarıda göstərilən ümumi tələblərlə yanaşı eyni zamanda onların məqsədli təyinatından asılı olaraq ayrı-ayrı qruplarında tiplərinə, geyilmə şəraitinə, habelə istehlakçıların cins-yaş xüsusiyyətlərinə görə müəyyin spesifik tələblər də nəzərə alınmalıdır.

Spesifik tələblər qadın gön ayaqqabılarının məqsədli dar təyinatı nəzərə alınmaqla irəli sürülür. Məsələn, çıxış və gəzinti üçün olan qadın gön ayaqqabılarına yüksək estetik tələblər verildiyi halda, gündəlik geyilən ayaqqabılar yüksək erqonomik tələblərə, davamlılıq, etibarlılıq göstəricilərinə cavab verməlidir. Qadın gön ayaqqabılarının keyfiyyətinə verilən ümumi və spesifik tələblərin təyinatından və spesifik xüsusiyyətlərindən asılı olaraq ayaqqabıların yararlılıq səviyyəsi müəyyən edilir ki, bu da ayaqqabıların istehlak xassələri vasitəsi ilə qiymətləndirilir.

Qadın gön ayaqqabılarının istehlak xassələri müxtəlif növlü ayaqqabıların istismarı və sax-

lanılması nəticəsində meydana çıxan xarakterik əlamətlərdən ibarətdir. Digər mal qruplarında olduğu kimi ayaqqabı mallarının da istehlak xassələri ayaqqabıların istismarı zamanı müxtəlif təsirlərə məruz qaldıqlarından çoxcəhətli və geniş olması ilə fərqlənir. Məhz buna görə də ayaqqabıların ümumi prinsipləri əhatə edən istehlak xassələrinin sistemli təsnifatı yoxdur. Buna baxmayaraq mən dissertasiya işimdə qadın gön ayaqqabılarının istehlak xassələrin ümumi prinsiplər əsasında verməyə çalışmışam. Burada ayaqqabıların istehlak xassələrinin təsnifatı zamanı əsas göstəricilər kimi erqonomik göstəricilər, antropometrik göstəricilər, fizioloji göstəricilər və estetik göstəricilər əsas götürülmüşdür.

ƏDƏBİYYAT

1. Həsənov Ə.P., Osmanov T.R. və b. Qeyri-ərzaq mallarının ekspertizası. I hissə, Bakı, 2006.
2. Osmanov T.R. Qeyri-ərzaq mallarının əmtəəşünaslığı və ekspertizasının əsasları.Dərslik., Bakı, "İqtisad Universiteti" Nəşriyyatı, 2014.
3. Həsənov Ə.P. və başqaları. Gön-ayaqqabı və xəz malları əmtəəşünaslığı., Bakı, Maarif, 1999.
4. Ходыкин А.П., А.А.Ляшко и др. Товароведение непродовольственных товаров. Издательство «Дашков и К», Москва, 2012.
5. Семененко С.В. Экспертиза качества кожаной обуви. Учебное пособие для вузов Белгород, 2000.

Туран Тегеран оглы Низамов
магистрант,
Шовкат Абузар кызы Юсуфова
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Требования потребителей к качеству женской кожаной обуви

Резюме

Обувь – одна из наиболее востребованных потребителями групп товаров в повседневной жизни. Качество выпускаемой обуви в широком ассортименте всегда было и остаётся важнейшим вопросом как для предприятий-производителей, так и для организаций оптовой и розничной торговли с точки зрения полного удовлетворения потребительского спроса на данную группу товаров. Сегодня предприятия обувной промышленности выпускают широкий ассортимент обуви.

Производить качественную обувь означает производить больше продукции с точки зрения потребителя, но в то же время производство качественного товара позволяет экономить большое количество сырья и материалов, снижается себестоимость производимой обуви, и, как следствие, полностью удовлетворяется спрос потребителей на данную группу товаров.

При исследовании качества женской кожаной обуви хозяйственного назначения в первую очередь необходимо проанализировать и изучить требования, предъявляемые к качеству этой группы товаров.

Turan Tehran Nizamov
master,
Shovkat Abuzar Yusufova
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Consumer requirements for the quality of women's leather shoes

Summary

Footwear is one of the most widely used groups of goods by consumers in our daily lives. The quality of shoes produced in a wide range has always been on the agenda as a very important issue

for both manufacturing enterprises and wholesale and retail trade organizations in terms of fully and completely meeting consumer demand for this group of goods. Today, a wide range of shoes is produced by shoe industry enterprises.

Producing quality shoes means producing more products from the consumer's point of view, but at the same time, producing quality goods allows you to save a large amount of raw materials and materials, the cost of manufactured shoes decreases, and as a result, consumer demand for this group of goods is fully met.

When examining the quality of women's leather shoes for household use, it is first necessary to analyze and investigate the requirements for the quality of this group of goods.

Pərviz Elmar oğlu ƏVƏZLİ
magistrant,
Mərdan Həsən oğlu HÜSEYNOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANIN SƏHİYYƏ TURİZM SİSTEMİNDƏ DÖVLƏT İDARƏETMƏSİ

Səhiyyə turizminin tərəqqisinə siyasi və iqtisadi faktorların təsir etməsi ilə yanaşı mədəni, tarixi, təbii faktorların da təsiri olur. Ölkə daxilində olan siyasi hadisələr müharibə vəziyyəti, terror eyni zamanda dövlətin siyasi statusunun başqası ilə əvəz olunması və s. kimi faktorlar müalicəyə gələn turistlərin axınına ciddi təsir edir. Səhiyyə turizminin tərəqqisində vacib olan iqtisadi amillərin tədqiq edilməsində planlaşmadan istifadə olunur. Dövlətin sosial vəziyyəti də öz təsirini göstərən faktorlardandır. Sosial faktorlar içərisində həyat standartlarının çoxalması, təzə potensial turist axını anlamını verən ölkə əhalisinin boş zamandakı artımını göstərmək vacibdir. Xarici dövlətlərin tərəqqi səviyyəsi yüksəldikcə sağlamlıq xidmətlərinə olan tələbat da çoxalır. Sağlamlıq xidmətinin yaxşı olması ölkə əhalisinin orta yaş dövrünün artmasına, orta ömür səviyyəsinin, yaşlı insanların sayının artmasına zəmin yaradır. Yüksək rifah səviyyəsi adambaşına düşən gəlir səviyyəsinin yüksəlməsi, əsasən istirahət vaxtının olması, səhiyyə xidmətinin tərəqqisi insanların öz sağlamlıqlarına qayğı göstərməsinə xüsusi imkan yaradır. Artıq insanlar müalicə ilə əlaqədar xarici ölkələrə gedirlər. Səfər edən turistlər çoxaldıqca isə ölkə səhiyyə turizmi qurumları bu sektorda daha çox tədbirlər görür, xidmət növlərini böyüdür. Kurortların yeni standartlar ilə tərəqqi etməsinə nail olmağa çalışır.

Sağlamlıq turizmi texniki avadanlıq və işçilər mütləq şəkildə lazım olan sahədir. Sözügedən bu səhiyyə turizmində şirkətin beynəlxalq normalara müvafiq şəkildə xidmət göstərməsi əsas məsələdir. Bu səhiyyə turizmi sahəsində xidmət işçisinin xarici dil bilməsi şərtdir. Sağlamlıq səhiyyə turizmində işləmək bir növ istirahət proqramları təşkil etmək və əlavə dəyər vermək üçün lazımdır. Sığorta şirkətləri, müştəri məmnuniyyətini artırmaq və gözləmə siyahılarını nisbətən azaltmaq üçün sağlamlıq səhiyyə turizminə əlavə dəyər verməlidir. Sığorta şirkətləri ilə müştəri məmnuniyyətini tədricən yaxşılaşdırmaq üçün tibbi səhiyyə turizmi ilə tamamlayıcı bir xidmət yaratdıq. Bu məqsədlə yerli sığorta şirkətlərinin bu sektorda hərəkətə keçməsi vacibdir. Sağlamlıq səhiyyə turizminin inkişafında ciddi bir addım atılırsa hər addım nəzərə alınmalıdır. Səhiyyə turizminin inkişafına təsir edən amillərdən biri də Azərbaycan Respublikasının xüsusi bir üstünlüyə sahib olmasıdır, məsələn, Şərq- Qərb nəqliyyat dəhlizində olması. Digər bir amil isə irəliləməni stimullaşdırmaq üçün terapevtik mənbələrin mövcudluğu. Bu sektorda ixtisaslı kadrların, mütəxəssislərin və işçi qüvvəsinin olması da vacibdir. Bunlar Azərbaycanda sağlamlıq səhiyyə turizminin inkişafı üçün ən güclü qüvvələrdir. Ancaq yenə də bir zəiflik var. Nisbətən zəif reklam, zəif imic, sahibkarlar marketinq strategiyasına, marketinq araşdırmalarına, tibb mərkəzlərindəki uyğun olmayan qiymətlərə, səhiyyə turizmi müəssisələri ilə əlaqəli agentliklər arasındakı zəif əməkdaşlığa, dil kadr çatışmazlığına və s. çox əhəmiyyət vermirlər.

Sağlamlıq səhiyyə turizmi, xəstələrin həqiqətən müalicəyə ehtiyacı olduğu üçün yarandığı gün-

dən bu yana inkişafına təsir göstərmişdir. Bu tərəqqini təsir edən amillər arasında uzun müddət gözləmə siyahılarından qurtulma ehtiyacı, daha keyfiyyətli və daha qısa xidmətlər, xroniki xəstələrin, yaşlıların və əlillərin ayrı-ayrı mühitlərə çəkilmək və müalicə alması istəyi, müalicə ilə birlikdə ölkənin mədəniyyətini görmək, fərdin yaşamaq istəyi nəzərə çarpır. AR-də müalicə- sağlamlıq səhiyyə turizminin tərəqqisində böyük rol oynayan kurortlardan öndə gedəni məhz Naftalandır. Kurortda son dövrlərdə intensive tərəqqiyə nail olunmuşdur. Müasir müalicə mərkəzləri fəaliyyət göstərir ki, nəticədə bu da səfər edən turistlərin sayının artımında yaxşı nəticələr sezməyə imkan verir. Buradan istifadə edənlər ölkəmizin fərqli bölgələrindən, Almaniya, RF, Polşa, Türkiyə, İran və başqa bir sıra Avropa dövlətlərindən səfər edənlərdir. Turistləri kurorta gətirən əsas səbəblərə Naftalan neftinin unikallığı, təkcə ölkəmizdə olması, müalicəvi təsirinin dünyada məşhur olmasıdır. Bu neftin yardımı ilə xəstələrin ginekoloji, sinir, dəri, uroloji, dayaq-hərəkət aparatının müalicəsi həyata keçirilir.

Səhiyyə turizmi sahəsi dövlətin tanınmasına, həmçinin iqtisadi tərəqqisinə, milli mənfəətə təsir göstərir. Ölkəmiz üçün hazırkı əsas məsələ səhiyyə turizmi sahəsinin inkişaf səviyyəsini yüksəltmək, neftdən olan asılılığı isə azaltmaqdır. Məlumdur ki, səhiyyə turizminin tərəqqisi başqa sektorların da tərəqqisinə zəmin yaratmış olur.

Günümüzdə bu sahədə yaranan problemlərin həll olunması yolunda ciddi işlər görülür. Əsas problemlərdən biri e-xidmətin çox aşağı olmasıdır. Artıq internetin mövcud olduğu bir əsrdə turistlər istirahətə getməzdən öncə bu turistik ərazi, qiymətlər barəsində informasiya əldə edir. Bizim turistik obyektlərin öz rəsmi saytlarının mövcud olmaması, internet informasiyalarının, həmin bölgənin şəkillərinin az olması burada tərəqqiyə xeyli təsir göstərir. Azərbaycanda daxili səhiyyə turizminin inkişaf etməməsi vacib amildir. Turistlərin ölkəmizdə hiss etdikləri qonaqpərvərlik, xeyirxahlıq və humanizm davamlı inkişafa təsir göstərməlidir. Səhiyyə turizmi İEÖ qanunvericiliyi, qanunsuz fəaliyyətlərin aradan qaldırılmasına səbəb olan səhiyyə turizmi hüquqları ilə bağlı müddəaları ehtiva edir. AR-də isə bu barədə konstitusiyamızda heç bir maddə mövcud deyildir. Turist hüquqları və haqları haqda informasiyalar çox az qeyd edilib.

Sağlamlıq səhiyyə turizmini inkişaf etdirmək və iqtisadiyyata təsir edəcək bir vəziyyətə gətirmək məqsədimizə nail olmaq istəyiriksə, bu problemlər həll olunmalıdır. Tibbi səhiyyə turizmiin inkişafına təsir edən amilləri aşağıdakı kimi qiymətləndirək:

1) Səhiyyə işçilərinin ekvivalentliyi problemi. Əksər sağlamlıq səhiyyə turizmini tibb mərkəzləri ABŞ və İngiltərədə təhsil almış kadrlar haqqında məlumat verir. Bunun əsas səbəbi xəstələrin gözləntilərinin ödənməsidir. Əlbəttə ki, insanlar özlərinə və ya yaxınlarına etibar etdikləri kişilərin mütəxəssis olduqlarına inanmaq istəyirlər;

2) Dövlətlər arasında tətbiq olunan viza qanunları sağlamlıq səhiyyə turizmi üçün əngəllərdən biridir. Səhiyyə işçiləri əvvəlcədən qeydiyyat müddətlərini tamamlayaraq viza prosedurlarını sadələşdirsələr də, viza məsələsi hələ də təxirə salınan bir amildir;

3) Tibbi səhv tətbiqetmə qanunlarında qarşılıqlı əlaqə. İEÖ miqyasında hər ölkədə tibbi təcrübə haqqında bir qanunun olmaması xəstələrin qanuni müdafiədən məhrum olduğu qənaətinə səbəb olur. Bu cür problemlər həm də böyük sığorta şirkətlərinin xəstələrə müraciət etmələrinə maneə törədir.

ƏDƏBİYYAT

1. AR-də ixtisaslaşmış səhiyyə turizmi sənayesinin tərəqqisinə dair SYX (2016). Bakı, 98 s.
2. Соколова, М. В. (2017). История туризма: учебник. учебник по селекции. 7 изд., Перераб. М.: Акад. 384 с.
3. http://dergiipark.gov.tr.download/article.file/-897414857
4. http://goktjbkepee-net/səhiyyəturizmiicn.ceesitli-alanbalardaki03_faydalari_ve-ekonovbıomiye etkisi.html

Парвиз Эльмар оглы Авазлы
магистрант,
Мардан Гасан оглы Гусейнов
доктор философии по педагогике, доцент,
Азербайджанский Университет Кооперации

Государственное управление в системе оздоровительного туризма азербайджана

Резюме

Помимо политических и экономических факторов, на развитие оздоровительного туризма также влияют культурные, исторические и природные факторы. Политические события в стране, военное положение, терроризм, смена политического статуса государства и т. д. серьёзно влияют на поток туристов, приезжающих на лечение. Планирование используется при изучении экономических факторов, важных для развития оздоровительного туризма. Социальное положение государства также является одним из факторов, оказывающих на него влияние. Хорошее здравоохранение создаёт основу для увеличения среднего возраста населения страны, увеличения средней продолжительности жизни и увеличения числа пожилых людей. Высокий уровень благосостояния, рост доходов на душу населения, прежде всего, наличие свободного времени, а также развитие здравоохранения создают особые возможности для людей заботиться о своём здоровье. Люди всё чаще выезжают на лечение за границу.

Parviz Elmar Avazli
master,
Mardan Hasan Huseynov
doctor of philosophy in pedagogy, associate professor,
Azerbaijan Cooperation University

State administration in the health tourism system of Azerbaıjan

Summary

In addition to political and economic factors, the progress of health tourism is also influenced by cultural, historical, and natural factors. Political events within the country, a state of war, terrorism, and the replacement of the political status of the state with another, etc., seriously affect the flow of tourists coming for treatment. Planning is used in the study of economic factors important in the progress of health tourism. The social situation of the state is also one of the factors that shows its influence. Good health care creates the basis for an increase in the average age of the country's population, an increase in the average life expectancy, and an increase in the number of elderly people. A high level of well-being, an increase in per capita income, mainly the availability of leisure time, and the progress of health care create a special opportunity for people to take care of their health. People are now traveling abroad for treatment.

Ağahüseyn Akif oğlu ƏSGƏROV
magistrant,
qusik540@gmail.com,
Köçəri Şamil oğlu ALLAHVERDİYEV
coğrafiya üzrə fəlsəfə doktoru, dosent,
allahverdiyev_1956@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti

DÜNYA OKEANININ QLOBAL EKOLOJİ PROBLEMLƏRİ VƏ MÜHAFİZƏSİ ÜSULLARI

Məqalədə dünya okeanının müasir dövrdə qarşılaşdığı ekoloji problemlər, onların yaranma səbəbləri və nəticələri təhlil edilir. Qlobal iqlim dəyişmələri, okean sularının çirklənməsi, plastik tullantıların toplanması, neft sızmaları, bioloji müxtəlifliyin azalması və turşulaşma kimi proseslər

ekosistemlərin tarazlığını pozan əsas amillər kimi göstərilir. Eyni zamanda, beynəlxalq təşkilatların və dövlətlərin həyata keçirdiyi mühafizə tədbirləri, eləcə də okeanların qorunmasında tətbiq olunan müasir elmi-texnoloji yanaşmalar təqdim olunur. Məqalə, dayanıqlı inkişaf strategiyaları çərçivəsində okean ekosistemlərinin qorunması və bərpası yollarını elmi əsaslarla araşdırır.

Dünya okeanı Yer planetinin 71 faizini təşkil etməklə, biosferin ən mühüm tənzimləyicisi hesab olunur. Okeanlar yalnız iqlim sisteminin sabitliyini təmin etmir, həm də qlobal ekosistemin əsas enerji və maddə dövranında həlledici rol oynayır. Bütün canlılar üçün oksigenin əhəmiyyətli hissəsi okean səthində yaşayan fitoplanktonlar tərəfindən istehsal olunur. Bununla belə, son onilliklərdə insan fəaliyyətinin təsiri nəticəsində okeanların ekoloji sabitliyi ciddi şəkildə pozulmaqdadır. İstehsal, nəqliyyat, sənaye və kənd təsərrüfatı fəaliyyətlərindən qaynaqlanan tullantılar, həmçinin iqlim dəyişikliyi ilə bağlı proseslər okeanların kimyəvi və bioloji strukturunu dəyişməkdədir.

Okean sularının çirklənməsi günümüzdə ən ciddi ekoloji fəsadlardan biri kimi qiymətləndirilir. Çirklənmənin əsas mənbələri sənaye müəssisələrinin axıdılmaları, gəmiçilik fəaliyyəti, neft hasilatı və sızmaları, kənd təsərrüfatı gübrələri, pestisidlər və məişət tullantılarıdır. Xüsusilə, neft mənşəli çirklənmə okean ekosistemləri üçün böyük təhlükə yaradır. Neft sızmaları suyun səthində nazik təbəqə əmələ gətirərək günəş işığının suyun dərin qatlarına keçməsinə mane olur, nəticədə fotosintez prosesi zəifləyir və su bitkilərinin yaşaması çətinləşir [1, 2].

Digər bir mühüm problem plastik tullantılardır. Hər il 10 milyon tona yaxın plastik tullantı okeanlara atılır və bu tullantılar yüz illərlə parçalanmadan qalır. Mikroplastik hissəciklər dəniz canlıları tərəfindən udulur, onların orqanizmində yığılır və nəticədə qida zəncirinə daxil olaraq insan sağlamlığı üçün də təhlükə yaradır. Məsələn, Sakit okeanda yerləşən "Böyük Zibil Yaması" adlı bölgədə 1,6 milyon kvadrat kilometr sahə plastik tullantılarla örtülmüşdür.

Qlobal iqlim dəyişmələri Dünya okeanının fiziki və kimyəvi balansını dəyişdirən əsas amillərdəndir. Atmosferdəki istixana qazlarının artması nəticəsində okean sularının temperaturu yüksəlir və bu, mərcan riflərinin ağarmasına, bəzi növlərin köç etməsinə və oksigen səviyyəsinin azalmasına gətirib çıxarır. Okeanların istiləşməsi həm də qasırğalar və siklonların daha güclü və tez-tez baş verməsinə şərait yaradır. Bundan başqa, atmosferdəki karbon qazının bir hissəsi okean sularında həll olaraq karbon turşusuna çevrilir və suyun turşuluğunu artırır. Bu proses "okean turşulaşması" adlanır və dəniz orqanizmlərinin, xüsusilə də qabıqlı canlıların kalsium karbonatlı skeletlərinin formalaşmasını çətinləşdirir. Nəticədə dəniz bioloji müxtəlifliyi azalır, qida zənciri pozulur və balıq ehtiyatları tükənmə təhlükəsi ilə üz-üzə qalır.

Okeanlarda bioloji müxtəliflik təkcə iqlim dəyişmələri deyil, həm də antropogen amillər nəticəsində azalmaqdadır. Həddindən artıq balıq ovu, qanunsuz ovçuluq və sahil zonalarının sənayeləşdirilməsi bir çox dəniz canlılarının populyasiyasını təhlükə altına salmışdır. Bəzi növlərin yox olması təkcə ekosistemlərə deyil, həm də iqtisadiyyatlara mənfi təsir göstərir, çünki milyonlarla insanın dolanışığı balıqçılıq və dəniz məhsullarına əsaslanır.

Həmçinin limanların genişləndirilməsi, dəniz dibinin qazılması və mədən işləri okean dibi ekosistemlərini məhv edir. Səs çirkliliyi də dəniz canlılarına, xüsusilə delfinlərə və balinalara zərər vurur, onların naviqasiya və ünsiyyət imkanlarını məhdudlaşdırır.

Okeanların qorunması qlobal əməkdaşlıq və elmi əsaslı idarəetmə tələb edən mürəkkəb prosesdir. Bu məqsədlə BMT-nin "Dəniz Hüququ Konvensiyası", "Okeanların Qorunması üzrə Qlobal Müqavilə" və "Dayanıqlı İnkişaf Məqsədləri" (xüsusilə, 14-cü məqsəd – "Okean həyatının qorunması") çərçivəsində beynəlxalq tədbirlər həyata keçirilir [3, 4].

Müasir dövrdə okean mühafizəsində elmi-texnoloji yanaşmalar da mühüm rol oynayır. Dərin dəniz monitorinq sistemləri, peyk müşahidələri və süni intellekt texnologiyaları vasitəsilə çirklənmə mənbələri real vaxtda izlənir. Bəzi ölkələrdə plastik tullantıların təkrar emalı, bioloji parçalanan materialların istehsalı və dəniz təmizləmə robotlarının tətbiqi kimi innovativ layihələr həyata keçirilir.

Eyni zamanda, sahil zonalarında "dəyirmi iqtisadiyyat" modeli tətbiq olunur ki, bu da tullantıların minimuma endirilməsinə və təkrar istifadəyə yönəlmiş sistem yaradır. Ekoturizmin təşviqi, dəniz qoruqlarının yaradılması və ictimai maarifləndirmə kampaniyaları da okean ekosistemlərinin qorunmasına töhfə verir.

Dünya okeanının ekoloji vəziyyəti qlobal səviyyədə insan fəaliyyətinin nəticələrini əks etdirən

güzgüdür. Okeanlar planetin iqlimini, bioloji müxtəlifliyini və iqtisadi sabitliyini qoruyan ən mühüm təbii sistemdir. Onların mühafizəsi təkcə ekoloji məsələ deyil, həm də sosial və iqtisadi zərurətdir. Dayanıqlı inkişaf prinsiplərinə əsaslanan qlobal əməkdaşlıq, ekoloji maarifləndirmə və innovativ texnologiyaların tətbiqi ilə gələcək nəsillər üçün təmiz və sağlam okean mühiti təmin etmək mümkündür. Dünya okeanının ekoloji vəziyyəti qlobal miqyasda insan fəaliyyətinin təsirini əks etdirən ən real göstəricilərdən biridir. Bu nəhəng ekosistem, Yer planetinin iqlim sabitliyinin qorunmasında, qlobal istilik balansının tənzimlənməsində və atmosferdəki karbon dövranının idarə edilməsində həlledici rol oynayır. Okeanların səthində baş verən fiziki, kimyəvi və bioloji proseslər Yerin ekoloji sistemlərinin bütövlüyünü müəyyənləşdirir. Buna baxmayaraq, son onilliklərdə insanın təsərrüfat fəaliyyəti – sənaye istehsalı, nəqliyyat, enerji hasilatı, plastik istehlakı və nəzarətsiz tullantı atma prosesi – bu ekosistemin sabitliyini ciddi şəkildə pozmuşdur.

Okeanların çirklənməsi, bioloji müxtəlifliyin azalması, turşulaşma və istiləşmə kimi proseslər artıq lokal deyil, qlobal ekoloji böhran xarakteri almışdır. Bu dəyişikliklər okean ekosistemlərinin öz-özünü bərpaetmə qabiliyyətini azaldır, bir çox dəniz canlılarının yaşayış mühitini məhv edir və nəticədə bütün biosferin ekoloji tarazlığına təsir göstərir. Eyni zamanda, bu proseslərin sosial və iqtisadi nəticələri də dərinləşməkdədir – balıqçılıq sənayesinin məhsuldarlığı azalır, sahil ölkələrinin ekosistemlərinə əsaslanan iqtisadiyyatları zəifləyir, iqlim dəyişmələri isə milyonlarla insanın yaşayış şəraitini dəyişdirir.

Bu mənzərə göstərir ki, okeanların mühafizəsi yalnız ekoloji məsələ deyil, həm də bəşəriyyətin sosial-iqtisadi sabitliyinin və qlobal təhlükəsizliyinin vacib şərtidir. Okeanların sağlamlığı iqlim sistemlərinin sabitliyi, qida təhlükəsizliyi, enerji resurslarının davamlılığı və ümumi ekosistemlərin dözümlülüyü ilə birbaşa əlaqəlidir. Bu səbəbdən, hər bir dövlətin və beynəlxalq təşkilatın fəaliyyətində okeanların qorunması prioritet istiqamət kimi qəbul edilməlidir [5].

Dayanıqlı inkişaf prinsiplərinə əsaslanan yeni idarəetmə mexanizmləri və ekoloji diplomatiya alətləri bu istiqamətdə mühüm əhəmiyyət kəsb edir. BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"ndən 14-cü bənd – "Dəniz həyatının qorunması" – okeanların ekosistem kimi qorunmasının yalnız ekoloji deyil, həm də iqtisadi və sosial rifahla birbaşa bağlı olduğunu təsdiqləyir. Okeanların resurs potensialından səmərəli və məsuliyyətli istifadə etmək üçün təbiət və iqtisadiyyat arasında balans yaradılmalı, "yaşıl iqtisadiyyat" və "mavi iqtisadiyyat" modelləri tətbiq edilməlidir.

Bununla yanaşı, elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi, okean sularının vəziyyətinin peyk müşahidələri və rəqəmsal sensorlar vasitəsilə real vaxtda izlənməsi, süni intellekt və biotexnologiya əsaslı təmizləmə sistemlərinin tətbiqi gələcəyin effektiv ekoloji strategiyalarından sayılır. Bəzi ölkələrdə həyata keçirilən dəniz təmizləmə layihələri, plastik tullantıların dənizdən çıxarılması və təkrar emalı, dəniz qoruqlarının yaradılması kimi təşəbbüslər bu istiqamətdə müsbət nəticələr göstərməkdədir.

Eyni zamanda, okeanların qorunması üçün ictimai maarifləndirmə və ekoloji təhsil mühüm rol oynayır. İnsanların istehlak vərdişlərinin dəyişdirilməsi, plastikdən istifadəni azaltmaq və təkrar emalı təşviq etmək, dəniz ekosistemlərinin əhəmiyyəti barədə biliklərin artırılması qlobal ekoloji mədəniyyətin formalaşması üçün əsas şərtlərdəndir [6, 7].

Nəticə etibarilə, Dünya okeanlarının qorunması gələcək nəsillərin rifahının təminatı deməkdir. Yalnız qlobal əməkdaşlıq, elmi innovasiyalar və ekoloji məsuliyyət prinsipləri əsasında formalaşmış beynəlxalq siyasət bu nəhəng və həyatverici ekosistemin bərpasına nail ola bilər. Təbiət və insan arasında harmoniyanın bərpası, okeanların təmiz, sağlam və davamlı ekosistem kimi qorunması bəşəriyyətin ən böyük vəzifələrindən biri olmalıdır.

ƏDƏBİYYAT

1. United Nations. *Convention on the Law of the Sea*. New York, 1982.
2. Intergovernmental Panel on Climate Change (IPCC). *Climate Change and Oceans Report*, 2021.
3. World Ocean Assessment. *United Nations Report on the State of the Marine Environment*, 2020.
4. European Environment Agency. *Marine Pollution Indicators*, Copenhagen, 2022.
5. UNEP. *Marine Litter and Microplastics: Global Lessons and Research*, Nairobi, 2020.
6. FAO. *The State of World Fisheries and Aquaculture*, Rome, 2022.
7. National Geographic. *Plastic Pollution and the Great Pacific Garbage Patch*, 2023.

Агагусейн Акиф оглы Асгаров
магистрант,
qusik540@gmail.com,
Кочари Шамиль оглы Аллахвердиев
доктор философии по географии, доцент,
allahverdiyev_1956@mail.ru,
Азербайджанский Университет Кооперации

Глобальные экологические проблемы мирового океана и методы его охраны

Резюме

В статье анализируются современные экологические проблемы Мирового океана, причины их возникновения и последствия. К основным факторам, нарушающим равновесие экосистем, отнесены глобальные изменения климата, загрязнение океанских вод, накопление пластиковых отходов, разливы нефти, снижение биологического разнообразия и процессы подкисления океана. Одновременно рассматриваются меры охраны, предприни-маемые международными организациями и государствами, а также современные научно-технологические подходы, применяемые в защите океанов. Статья исследует пути сохранения и восстановления экосистем мирового океана на основе стратегий устойчивого развития.

Agahuseyn Akif Asgarov
master,
qusik540@gmail.com,
Kochari Shamil Allahverdiyev
doctor of philosophy in geography, associate professor,
allahverdiyev_1956@mail.ru,
Azerbaijan Cooperation University

Global environmental problems of the world ocean and methods of its protection

Summary

The article analyzes the current environmental problems of the World Ocean, their causes and consequences. The main factors disrupting ecosystem balance include global climate change, ocean water pollution, plastic waste accumulation, oil spills, loss of biodiversity, and ocean acidification. The study also highlights the protective measures implemented by international organizations and states, as well as modern scientific and technological approaches applied in ocean conservation. The article examines, on a scientific basis, the ways to preserve and restore marine ecosystems within the framework of sustainable development strategies.

Xəyalə Tanrıverdi qızı ABDUNOVA
magistrant,
xeyale0989@mail.ru,
Ülkər Xəlil qızı MAHMUDOVA
coğrafiya üzrə fəlsəfə doktoru, dosent,
ulker570920@gmail.com
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCAN ƏRAZİSİNDƏ XƏZƏRSAHİLİ ƏRAZİLƏRİN FLORİSTİK VƏ GEOBOTANİKİ ÖYRƏNİLMƏSİ

Azərbaycanın Xəzər sahili bitki ekosisteminin rəngarəngliyi və zənginliyi ərazinin təbii şəraitinin müxtəlif olması, həmçinin uzaq floristik vilayətlərin təsiri altında formalaşması ilə əlaqədardır. Ərazidə biomüxtəlifliyə aid yabanı flora və təbii bitkiliyə dair floristik, eləcə də, ekoloji- geobotaniki tədqiqatların aparılmasına böyük ehtiyac vardır. Xəzərsahili ərazinin florasını analiz et-

mədən, bitki örtüyünün formasiya və assosiasiya üzrə növ tərkibini, quruluşunu öyrənmədən, fitosenozların təsnifatının verilməsi və s.

Müvafiq tədqiqatların antropogen təsirlərə məruz qalan Xəzər dənizi sahili zonasında aparılması nəzəri və təcrübi baxımdan böyük əhəmiyyətə malikdir. Buna görə də ərazidə ətraf mühitin mühafizəsi, otlaq-örüş sahələrindən geobotaniki göstəricilərə uyğun olaraq düzgün istifadə və yaxşılaşdırılması istiqamətində kompleks tədbirlərin (səthi və kökündən) işlənilməsi üçün təbii fitosenozların tədqiqatlarına botanika və ekologiya elmində zərurət yaranır.(Hüseynova,2014:23)

Aktual problemin ölkəmizdə reallaşdırılması üçün "Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı"nda, həmçinin "Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planında yem sahələrinin yaxşılaşdırılması və səmərəli istifadəsi üçün geobotaniki tədqiqat işlərinin aparılması nəzərdə tutulmuşdur[3].

Belə ki, Xəzərin sahil ərazisinin bitki örütüyünün tədqiqinə dair işlərə bəzi müəlliflərin əsərlərində rast gəlinir. Lakin bu tədqiqatlar konkret əraziləri əhatə etmiş, bütövlükdə Xəzər sahilinin bitki müxtəlifliyini tam əks etdirməmişdir. "Bitkilər aləminin bioloji əsaslarla səmərəli istifadə edilməsi və mühafizəsi problemi"nin həyata keçirilməsi məqsədilə Xəzər sahilinin flora və bitkiliyində elmi araşdırmalara əsaslanan tədqiqatların mütərəqqi üsullarla aparılması mühüm hesab edilir.

Xəzər sahilinin (Azərbaycan hüdudlarında) flora müxtəlifliyinin taksonomik konspektini tərtib etmək, taksonların (şöbə, sinif, fəsilə, cins, növ) yeni nomenklaturaya uyğun olaraq təhlilini vermək, onların biomorfoloji, ekoloji, botaniki-coğrafi təsnifatını hazırlamaq, mühafizə statuslu növlərin azalma səbəblərini araşdırmaq, o cümlədən təbii bitkiliyin ekoloji-geobotaniki parametrlərini araşdırmaqla müasir vəziyyətini xəritələndirməkdən ibarətdir.(Qurbanov,2019:1)

Bunların həyata keçirilməsi üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Azərbaycan Respublikasının Xəzər sahilinin yabanı florasının konspektini tərtib etmək, onları son nomenklaturaya uyğun olaraq taksonlara (şöbə, sinif, fəsilə, cins, növ) görə təhlil etmək və biomorfoloji, ekoloji, botaniki-coğrafi təsnifatını hazırlamaq;
- Xəzərsahili floranın mühafizə statuslu nadir və azalmaq təhlükəsində olan (Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilən), o cümlədən, endemik və relikt növlərini geobotaniki rayonlar üzrə müəyyən etmək;
- Tədqiqat ərazisinin təbii bitkiliyinin ekoloji-geobotaniki parametrlərini araşdırmaq, bitkiliyi formasiya və assosiasiya ranqınadək təhlil etmək;
- Müasir təsnifata əsasən "Azərbaycan Respublikası ərazisində Xəzər dənizinin sahil zonası təbii bitki örtüyünün ekoloji-geobotaniki xəritəsi"ni tərtib etmək,
- Ərazidə yayılan qış otlaqlarının məhsuldarlığını, yem keyfiyyətini, tutumunu və ekoloji qiymətləndirilməsini həyata keçirmək;
- Xəzər sahilinin bitki örtüyündə deqradasiyanı, xüsusən şorlaşma prosesini yaradan təsirləri aşkarlamaq, həmçinin bu təsirlərə məruz qalan fitomüxtəlifliyin qorunması, səmərəli istifadəsi, yaxşılaşdırılması yollarını müəyyən etmək lazımdır. Regionun müxtəlif relyef, torpaq-ekoloji şəraitində formalaşmış yabanı florası və təbii bitki örtüyündə geobotaniki tədqiqatlar hazırlıq, çöl və kameral mərhələlərdə aparılmışdır.


Azərbaycan ərazisində Xəzərsahili ərazilərin floristik və geobotaniki öyrənilməsi həmin ərazilərdə floranın və fitosenozda edifikatorların dominantlığı ilə səciyyələnən bitkilik tiplərinin formalaşmasında dəniz sularının təsirinin həlledici rolunu müəyyənləşdirir.

Sahilyanı ərazilərdə dəniz səviyyəsindən yüksəkliyə qalxdıqca bitkilərin botaniki-coğrafi rayonlar üzrə yüksəklik qurşaqlarına uyğun yayılma qanunauyğunluğuna görə mezofitlik ekoloji əlamət kserofitliklə əvəzlənir.

- Dəniz səviyyəsinin qabarması və çəkilməsi ilə sahilyanı ərazilərdə formalaşmış bitkilik tipləri arasında korrelyativ əlaqə mövcuddur. Suyun qabarması və çəkilməsi bitkilik tiplərinin və flora biomüxtəlifliyinin dəyişməsinə əsas yaradır.
- Sahilyanı ərazilərdə flora, bitki örtüyü və areal tiplərinin formalaşması ilə dəniz suları ara-

sında qarışılıqlı əlaqə mövcuddur.

- Xəzər sahilinin florasında adı Azərbaycan Respublikasının "Qırmızı Kitabı"ına salınmış 69 növün nadir və nəsli kəsilmək təhlükəsinə məruz qalması müəyyənləşdirilmişdir.
- Azərbaycanın ərazisindəki Xəzər sahilinin florasında bitkilərin botaniki-coğrafi rayonlar üzrə 21 növün yeni yayılma əraziləri tərtib etdiyimiz eyniadlı xəritədə göstərilmişdir.
- -Xəzər sahilində yerləşən Neftçala rayonunun qış otlaqlarında, Siyəzən və Astara rayonunun kəndətrafı örüş sahələrində yayılan yarımsəhra, səhra və çala-çəmən bitkiliyində geniş arealda təsadüf edilmişdir.(Qurbanov, 2020:14)
- Azərbaycan ərazisində Xəzər sahilində yerləşən Samur-Yalama, Abşeron, Şirvan, Qızılağac və Hirkan Milli Parklarının florası və bitkiliyinə dair məlumatlardan, eləcə də, bioloji müxtəlifliyin qorunması üzrə tövsiyələrdən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi faydalana bilər.



Şəkil 1. Azərbaycan Respublikası ərazisində Xəzər sahilinin botaniki-coğrafi rayonlaşdırılmasının xəritəsi

ƏDƏBİYYAT

1. Hüseynova, H.Z. Samur-Şabran ovalığı florası və bitkilyinin ekoloji xüsusiyyətləri: Biologiya üzrə fəlsəfə doktoru dis.. avtoreferatı.-Bakı, 2014. -23 s.
2. Qurbanov, E.M., Hüseynova, H.Z. Xəzər sahilinin şimal hissəsinin ekoloji- geobotaniki xəritəsi. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi. Əsərin qeydiyyatı haqqında şəhadətnamə. №11148. -Bakı: -2019. - 1 v.
3. Qurbanov, E.M., Hüseynova, H.Z. Xəzər sahilinin cənub hissəsinin ekoloji- geobotaniki xəritəsi [Xəritə] Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi. Əsərin qeydiyyatı haqqında şəhadətnamə. № 14/C-11058-20. -Bakı: -2020

Хаяла Танриверди кызы Абдунова
магистрант,
xeyale0989@mail.ru,
Улкер Халил кызы Махмудова
доктор философии по географии наук, доцент,
ulker570920@gmail.com,
Азербайджанский Университет Кооперации

Флористическое и геоботаническое изучение прибрежных участков Каспийского моря на территории Азербайджана

Резюме

Разнообразие и богатство растительной экосистемы Каспийского побережья Азербайджана обусловлены разнообразием природных условий территории, а также её формиро-

ванием под влиянием отдалённых флористических районов. Существует большая потребность в проведении флористических, а также эколого-геоботанических исследований дикой флоры и естественной растительности, связанных с биоразнообразием данной территории. Не анализируя флору Каспийского побережья, невозможно изучить видовой состав и структуру растительного покрова в формационно-ассоциативном отношении, дать классификацию фитоценозов и т.д.

Khayala Tanriverdi Abdunova
master,
xeyale0989@mail.ru,
Ulkar Khalil Mahmudova
doctor of philosophy in geography, associate professor,
ulker570920@gmail.com,
Azerbaijan Cooperative University

Floristic and geobotanic study of the Caspian coastal areas in the territory of Azerbaıjan

Summary

The diversity and richness of the plant ecosystem of the Caspian coast of Azerbaijan is due to the diversity of natural conditions of the territory, as well as its formation under the influence of distant floristic regions. There is a great need for floristic, as well as ecological-geobotanical research on wild flora and natural vegetation related to biodiversity in the territory. Without analyzing the flora of the Caspian coast, studying the species composition and structure of the vegetation cover in terms of formation and association, providing a classification of phytocenoses, etc.

İlqar İlham oğlu ƏLƏSGƏROV
magistrant,
elesgerovilqar12@gmail.com,
Köçəri Şamil oğlu ALLAHVERDİYEV
coğrafiya üzrə fəlsəfə doktoru, dosent,
allahverdiyev_1956@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti

BİZNESİN PLANLAŞDIRILMASI VƏ PROQNOZLAŞDIRMA METODLARI

Planlaşdırma idarəetmənin başlıca funksiyasıdır. Planlaşdırma idarəetmənin ümumi funksiyası olmaqla prosesləri, istehsalın cari və perspektiv vəziyyətini müəyyən edir. Planlaşdırma əslində bir fəaliyyət növü olmaqla, idarəetmə prosesinin başlıca cəhəti və fəal idarəetmə prosesidir. Bu idarəetmə təsiri nəticəsində istehsalın inkişaf sürəti, istehsalın mənbələri, amilləri, bütün xalq təsərrüfatı kompleksinin təşkili formaları və metodları formalaşır. İctimai istehsal proseslərinin həyata keçirilməsinin "tələbat-resurs-vəzifə-funksiya-qərar" sistemində planlaşdırma başlıca rola malikdir.

Planlaşdırma işləri və prosesləri idarəetmənin bütün ierarxiya mərhələlərində - xalq təsərrüfatından tutmuş sexlərə, istehsal sahələrinə qədər olan vəsilələrdə həyata keçirilir. Ona görə də, planlaşdırma prosesləri xalq təsərrüfatının bütün idarəetmə mərhələlərində eyni dərəcədə elmi səviyyədə həyata keçirilməlidir. Bundan başqa, ayrı-ayrı proqnozlar bir-birini əvvəldən müəyyən olunmuş idarəetmə məqsədləri əsas götürülməklə əlaqələndirilməlidir.

Burada düzgün proqnozlaşdırma, modelləşdirmə və proqramlaşdırma böyük əhəmiyyətə malikdir. Çünki, elmi idarəetmə istehsal sahələrinin inkişaf meyllərini, qanunauyğunluqlarını görməyi tələb edir.Bu zaman proqnozlaşdırma planlaşdırmanın bir funksiyası kimi mühüm əhəmiyyətə malikdir. Ona görə də, xalq təsərrüfatı planlarının işlənib hazırlanmasında, elmi-texniki tərəqqinin


planlaşdırılmasında proqnozlaşdırma metodlarından geniş istifadə edilməsi zəruridir. İstər proqnozlaşdırma, istərsə də modelləşdirmə istehsal sistemlərinin, iqtisadi sistemlərin uzunmüddətli gələcək vəziyyəti ilə bağlıdır [1].

Proqramlaşdırma isə plan-proqnoz və plan-modellər əsasında istehsal sistemlərinin daimi olaraq bir vəziyyətdən digər vəziyyətə keçirilməsi ilə əlaqədardır. Deməli, plan özü də istehsal sistemi çərçivəsində proqramlaşdırılır. Plan, proqramlaşdırma sayəsində plan - proqram xassəsi, forması alır. Çünki, proqramlı planda istehsal sistemlərinin bütün tərəfləri məqsədəuyğun halda əsaslandırılır və burada həmin sistemin kompleks qaydalı inkişafı müəyyən edilir. Proqramlı plan proqnoz məqsədləri formaları üçün əsas şərtdir və uzunmüddətli planların yerinə yetirilməsində mühüm rol oynayır. Eyni zamanda, proqnozlaşdırma və modelləşdirmə planların təşkil olunması, tərtib edilməsinin təşkilati əsasını müəyyən edir. Planlaşdırma idarəetmənin özəyi, başlıca, əsas funksiyası olmaqla əsasən, aşağıdakı 3 cəhəti əhatə edir:

1. İstehsal sisteminin gələcək inkişafını müəyyən etmək;
2. İstehsal sistemləri qarşısında qoyulmuş sosial-iqtisadi məqsədlərə nail olmanın yolları və metodlarını müəyyənləşdirmək;
3. Plan tədbirlərinin həyata keçirilməsinin nəticələrini əvvəlcədən görmək, beləliklə də hadisələrə sistem halında yanaşmaq.

Beləliklə, planlaşdırma prosesinə daha geniş mövqedən yanaşmaq olar. Bunu aşağıdakı sxem halında təsəvvür etmək olar.

Bir qayda olaraq, iqtisadi sistemlərdə qeyri-müəyyənliyin çoxaldığı bir şəraitdə planlaşdırmanın iqtisadi cəhətdən əsaslandırılması, ona sistemli, elmi cəhətdən yanaşılması, tarazlığın təşkili, optimal variantların seçilməsi, bunun üçün təşkilati-texniki, sosial-iqtisadi tədbirlərin görülməsi işi xeyli dərəcədə çətinləşir (sxem 1.1.).



Sxem 1.1. Planlaşdırma fəaliyyəti.

Menecer planlaşdırma funksiyasından istifadə edərək firma və şirkətlərin fəaliyyətini canlandırmağa çalışmalıdır. Burada həm strateji planlaşdırmadan (uzunmüddətli gələcək zamanda təşkilatın bazar mühitini, davranışını müəyyən etmək), taktiki planlaşdırmadan (aralıq məqsədə çatma), operativ planlaşdırmadan (gündəlik fəaliyyət) və həm də baş plandan (baş plan, biznes plan) ardıcıl, sistemli istifadə olunmalıdır. Bütün planlaşdırma fəaliyyətində planlaşdırma funksiyası aşağıdakı prinsiplərə əsaslanmalıdır:

a) Planlaşdırmanın dəqiqliyi, dürüstlüyü (bunun üçün ən mütərəqqi modellərdən, üsullardan, texniki vasitələrdən istifadə edilməsi);

b) Planlaşdırmanın fasiləsizliyi (planlaşdırmaya fasiləsiz bir proses, məntiqi fəaliyyət növü kimi yanaşılması);

c) Planlaşdırmanın əhatəliliyi, tamamlılığı (planlaşdırma zamanı firma və şirkətlərin fəaliyyəti ilə bağlı bütün amillərin, şəraitin nəzərə alınması);

d) Planla - məqsədlərin aydınlığı, şəffaflığı;

e) Plan - proqnozların optimallığı.

Planlaşdırma fəaliyyəti məqsədyönlü olmalı, qeyri-müəyyənlik hallarının azalmasına xidmət etməlidir.

Həll edilən məsələlərin xarakteri və istiqamətindən asılı olaraq iki növ planlaşdırma mövcuddur:

- strateji və ya perspektiv;
- taktiki və ya cari.

Planlaşdırma prosesində bütün səviyyələrdə cari və perspektiv planların üzvi əlaqəsi təmin olunur.

İdarəetmə əməliyyatı - müəyyən struktur bölməyə daxil olan idarəetmə informasiyasının işləməsinin parçalanmayan texnoloji prosesidir.

Əməliyyatın üç növünü fərqləndirirlər: formal, alternativ və həlledici. Formal əməliyyata elə əməliyyatlar daxildir ki, burada icraçılar heç bir qərar qəbul etmədən əvvəlcədən məlum olan alqoritm üzrə fəaliyyət göstərirlər. Alternativ əməliyyatlar elə əməliyyatlara deyilir ki, onların yerinə yetirilməsi prosesində məntiqi şərtlər yoxlanılır, qərar variantları təhlil edilir və təklif olunur, lakin qərarlar qəbul olunmur. Həlledici əməliyyatlar qərarın qəbuledilməsi ilə birlikdə alternativ əməliyyatlardır [3].

Əməliyyatların kateqoriyalara bölünməsi yerinə yetirilən işlərin idarəetmənin ierarxiya səviyyəsinə uyğunluğu haqqında əsaslandırılmış nəticə çıxarmağa, eləcə də əməliyyatların avtomatlaşdırılması məsələsini həll etməyə imkan verir. Bu da avtomatlaşdırılmış idarəetmə sisteminin layihələndirilməsi zamanı böyük əhəmiyyət kəsb edir. Formal metodlar inkişaf etdikcə və idarəetmə məsələlərinin həlli alqoritmləri və proqramları kitabxanası yarandıqca, habelə informasiyanın işlənməsi üçün texniki vasitələr inkişaf etdikcə idarəetmə əməliyyatlarının daha böyük hissəsi proqramlaşdırılan və avtomatlaşdırılan olur.

İdarəetmə prosedurası - qeyd olunmuş məqsədin əldə edilməsinə yönəldilmiş idarəetmə əməliyyatının və sənədlərin müəyyən qaydada qarşılıqlı əlaqədar kompleksidir.

İdarəetmə proseduralarının növləri, onların məzmunu və işçi kateqoriyaları üzrə nümunəvi əmək məsrəfləri verilmişdir.

İdarəetmə texnologiyasının layihələndirilməsi əməliyyatların və prosedurların ətraflı öyrənilməsinə və onların modelləşdirilməsi və təşkilati layihələndirilməsinə əsaslanır. Idarəetmə texnologiyası layihələndirilərkən mövcud sistemləri və prosedurları təhlil etmək, idarəetmə prosesinə real təsir göstərməyən əməliyyatları və prosedurları ləğv etmək, bəzilərini modelləşdirmək və bircinsli prosedurları birləşdirmək lazımdır.

İdarəetmənin müasir texniki vasitələrinin tətbiqi şəraitində prosedurların təşkilati layihələndirilməsi mühüm əhəmiyyət kəsb edir. İdarəetmə sistemində kompyuter texnikasının tətbiqi zamanı idarəetmə aparatında müvafiq prosedura və təşkilati dəyişikliklər aparmaq lazımdır [2].

İdarəetmə prosedurlarının layihələndirilməsi müxtəlif bölmələrdə prosedurların yerinə yetirilməsinin vahidləşdirilməsi: yeni əməkdaşlar tərəfindən mövcud prosedurların daha tez mənimsənilməsi; işçilərin qarşılıqlı əvəz olunmasının təmin edilməsi; müqayisəli təhlilin aparılması; təcrübə mübadiləsi və prosedurların səmərələşdirilməsi üçün həyata keçirilir.

İdarəetmə qərarının qəbul edilməsi prosesində məqsəd, alternativ, kriteriya, xərclər və modellər kimi anlayışlardan da istifadə olunur.

Məqsəd fəaliyyətin son və arzuolunan nəticəsidir. Məqsəd insanın fəaliyyətini yönəldir və tənzimləyir. Məqsədin məzmunu fəaliyyətin obyektiv qanunlarından, subyektin həqiqi imkanlarından və tətbiq edilən vasitələrdən asılıdır. Məqsədin qoyuluşu fəaliyyət proqramını müəyyən edir. İdarəetmənin müxtəlif səviyyələrində məqsədin konkretlilik dərəcəsi müxtəlif olmalıdır. Məqsədlərin üç əsas yarımqrupunu fərqləndirirlər: perspektiv, qlobal, strateji; planlaşdırılan, yerli, taktiki; cari, lokal, operativ [4].

Alternativlər - məqsədin əldə edilməsi üsullarıdır. Bu üsullar strategiyalar, spesifik hərəkətlər və vasitələr şəklində ola bilər. Hər bir alternativin həyata keçirilməsi xərclərin məbləği ilə xarakterizə olunur.

Müəyyən olunmuş məqsəd əsasında qərar variantının seçilməsi üçün çoxlu kriteriyaları müəyyən etmək və onlar üzrə qiymətləndirmə şkalasını hazırlamaq lazımdır.

Kriteri - müəyyən qaydadır və alternativlər vaciblik və ya üstünlük dərəcəsinə görə yerləşdirilir. Onların köməyilə məqsədin əldə edilməsi dərəcəsi müqayisə edilir. İstənilən məqsəddə qərarın kriterisi vardır.

Model - obyektin, prosesin və ya hadisənin şərti təsviri olub, orijinalı və onun mahiyyətini əks etdirən əvəzləyici kimi istifadə olunur. Qərar variantının elmi obstraksiyası kimi model hadisənin və ya prosesin öyrənilməsi üçün təcrübələri dəfələrlə təkrar etməyə imkan verir. Sistemin xarakterini dəyişməklə onun davranışını dərk etmək və müxtəlif amillərin təsirini təhlil etmək mümkündür (cədvəl 1.1.).

Cədvəl 1.1.

İdarəetmə prosedurlarını yerinə yetirmək üçün iş vaxtı məsrəfləri

İdarəetmə prosedurlarının növləri	İdarəetmə prosedurlarının məzmunu	İş vaxtı məsrəfləri %		
		Müəssisənin rəhbər işçiləri	Mütəxəs-sislər	Texniki icraçılar
İnformasiya	İnformasiyanın axtarışı, yığılması, ötürülməsi, işlənməsi və saxlanması	30	60	80
Məntiqi-təfəkkür	Müxtəlif məsələlər üzrə idarəetmə qərarlarının hazırlanması və qəbulu	30	25	20
Təşkilati	Kadrların seçilməsi və yerləşdirilməsi, məsələlərin qoyuluşu, operativ planlaşdırma, əmək proseslərinin təşkili, inzibatçılıq, icraya nəzarət	40	15	-

Sistemin fəaliyyəti modelində elə amillər aşkar edilir ki, sistemin işi ondan asılı olur. Onlar tənzimlənən və tənzimlənməyən ola bilər. Tənzimlənən amillərə daxildir: idarəetmənin iqtisadi strategiyası; təşkil və idarəetmə texnikasının, texnologiyasının və metodlarının seçilməsi; sistemin fəaliyyətinin optimallıq kriterisi; sistemin əlamətləri arasında səbəb-nəticə əlaqələri; məqsədin əldə edilməsinin müxtəlif üsullarında xərclər və səmərəlilik. Qeyri-tənzimlənən amillər idarəetmə subyektindən asılı olmayaraq sistemə təsir edən obyektiv şərtlərdir [5].

Konkret modelin seçilməsi problemin xarakterindən, hazırlanması qərarından və onun alternativindən asılıdır. Müəssisənin idarəedilməsində abstrakt modellərdən daha geniş istifadə olunur. Təsvir formalarına görə abstrakt modellər məntiqi, informasiya, statistik, analitik və imitasiya modellərinə; xarici təsirlərin modelə təsirini əks etdirmək dərəcəsinə görə determinləşmiş və ehtimallı modellərə; istifadə olunun dəyişənlərdən asılı olaraq diskret və ya fasiləsiz xarakterli modellərə bölünür.

ƏDƏBİYYAT

1. Герчикова И.Н. Менеджмент. 4-е. издание. Юнити, Москва - 2006. -830 s.
2. А.А. Блажевич. Стратегический менеджмент. УФА-2005. - 113 s.
3. Дойл П. Менеджмент: стратегия и тактика. Питер 2000. - 560 s.

4. Томпсон А.А., Стрикленд А.Дж. Стратегический менеджмент. Пер.с. англ. Москва - 1999.- 576 s.
5. Developing Business Strategies. David A. Aaker. Ottawa-1997. - 380 s.

Илгар Ильхам оглы Аляскеров
магистрант,
elesgerovilqar12@gmail.com,
Кочари Шамиль оглы Аллахвердиев
доктор философии по географии, доцент,
allahverdiyev_1956@mail.ru,
Азербайджанский Университет Кооперации

Планирование бизнеса и методы прогнозирования

Резюме

В статье, рассматривая планирование как основную функцию управления, анализируются темпы развития производства, его источники, факторы, а также организационные формы и методы всего народнохозяйственного комплекса под воздействием данного управления. Кроме того, исследуется большое значение правильного прогнозирования, моделирования и программирования.

Ilgar Ilham Alaskarov
master,
elesgerovilqar12@gmail.com,
Kochari Shamil Allahverdiyev
doctor of philosophy in geography, associate professor,
allahverdiyev_1956@mail.ru,
Azerbaijan Cooperation University

Business planning and forecasting methods

Summary

In the article, planning is considered as the main function of management, and the impact of this management on the rate of production development, the sources and factors of production, as well as the organizational forms and methods of the entire national economic complex is analyzed. In addition, the study emphasizes the great importance of proper forecasting, modeling, and programming.

İlahə Xaliq qızı QARAXANOVA
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Səadət Aslan qızı HÜSEYNOVA
kimya üzrə fəlsəfə doktoru,
seadet_huseynova@mail.ru,
Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi,
Milli Aerokosmik Agentliyi, Ekologiya İnstitutu

HƏRBİ SURSAT VƏ VASİTƏLƏRİN İSTİFADƏSİ ZAMANI YARANAN AĞIR METAL BİRLƏŞMƏLƏRİNİN EKOSİSTEMLƏRƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

30 ilə yaxın davam edən I Qarabağ müharibəsi, işğal dövrü və II Qarabağ müharibəsi ərzində Ermənistan Respublikası və müttəfiqləri Qarabağ ərazilərinin ekosferlərinə ciddi zərər yetirmiş, bütövlüklə ətraf təbii mühitə dağıdıcı təsir göstərən məqsədyönlü "vandal" fəaliyyətlə məşğul ol-

muşdurlar ki, bu da Azərbaycan təbiətinin məhvinə yönəlmiş "ekosid", ekoloji müharibə kimi qiymətləndirilir.

İstər I, istərsə də II Qarabağ müharibəsində həm Ermənistanın, həm də Azərbaycanın cəbbəxanasında mövcud olan bütün silah növlərindən, döyüş vasitələrindən istifadə edilmişdir. Nəzərə almaq lazımdır ki, hərbi əməliyyatlar istisnasız Azərbaycan ərazilərində keçirildiyi üçün insan resursları itkisi, infrastrukturun dağılması ilə yanaşı təbii ekosistemlərə də ciddi zərər dəymişdir. Bu zərərin hesablanması və elmi baximdan əsaslandırılması üçün ekoloji qiymətləndirilmənin aparılması vacib məsələlərdəndir.

İşğaldan azad edilmiş ərazilərin torpaq və bitki örtüyünün, hidroqrafik şəbəkəsi və atmosferinin vəziyyətinin ekoloji qiymətləndirilməsi fon göstəriciləri ilə onların deqradasiyanın vəsfi xarakteristikası və miqdari kəmiyyətlərini ifadə edən cari parametrlərinin müqayisəli təhlilinin nəticələrinə əsaslanmalıdır (Hüseynova və d., 2015:1).

Torpaq sferi, xüsusilə də onun üst münbüt qatında antropogen dəyişikliklər ləng getdiyi və uzun müddət saxlanıldığı üçün qiymətləndirmənin nəticələri bütövlükdə mühit haqqında fikir yürütməyə imkan verir.

Məlumdur ki, torpaqların deqradasiyaya uğrayaraq dövriyyədən çıxmasının mühüm səbəblərindən biri fasiləsiz hərbi fəaliyyətin həyata keçirilməsidir.

İşğaldan azad edilmiş Qarabağ ərazilərində hərbi texnika, partlayıcı maddələr və müxtəlif ağır metal tərkibli silahların istifadəsi nəticəsində torpaqlara xeyli ziyan dəymişdir. Belə ki, silah, sursat, müdafiə və hüçum təyinatlı texnika və materialların daşınması, istifadəsi, sınaqdan keçirilməsi onların hərbi eroziyaya uğramasına, mexaniki, kimyəvi və radioaktiv çirklənməsinə, ekoloji dəyərini itirərək, bəzi ərazilərdə "bed land"ə (pis torpaqlara) çevrilməsinə səbəb olmuşdur. Uzunmüddətli işğal dövrü ərzində torpaqlarda yayılan ağır və radioaktiv metalların təhlükəlilik dərəcəsindən asılı olaraq təsnifatı aparılmamış, çirklənmənin xarakteri müəyyənləşdirilməmiş, torpaqların ekoloji qiymətləndirilməsi və təmizlənməsi həyata keçirilməmişdir. Bu mənada torpaqların ağır metallardan təmizlənməsində iqtisadi cəhətdən səmərəli və yüksək effektli texnologiyaya ehtiyac duyulur.

Torpaqların təmizlənməsi və münbitliyinin bərpası üçün texnologiyanın seçilməsi və ya yenilərinin işlənib hazırlanmasından əvvəl onların inventarizasiyası həyata keçirilməlidir. Bu prosesə torpaqların fiziki-kimyəvi və edofik xarakteristikasının müəyyənləşdirilməsi, potensial təyinat istiqamətlərinin dəqiqləşdirilməsi daxildir. Bu mərhələnin həyata keçirilməsi üçün mühüm məsələlərdən biri ağır metalların və toksiki bioüzvi maddələrin miqdarının müəyyənləşdirilməsidir.

Ağır metallar bioloji proseslərdə iştirak faktına görə biogen və qeyri-biogen olmaqla 2 cür təsnif olunur. Mikroelementlər qrupuna daxil olan bəzi ağır metalların orqanizmdə müəyyən konsentrasiyası tələb olunur ki, bioloji reaksiyalarda iştirak etdiklərinə görə onların nizamlı şəkildə qida vasitəsilə qəbulu labüddür. Məsələn, mis elementi heyvan və insanın qırmızı qan hüceyrələrinin və bir sıra oksidləşmə-reduksiya prosesinin ayrılmaz parçasıdır. Bununla müqayisədə bioüzvi proseslərdə iştirak etməyən ağır metallar çox aşağı konsentrasiyada belə orqanizmə ciddi təhlükə törədərək insan səhhətində problemlərə gətirib çıxarır.

Ağır metallar əsasən bir çox göstəricilərinə, xüsusilə də təhlükəlilik xarakteristikasına görə təsnif edilir. Təhlükəlilik dərəcəsinə görə ağır metallar 3 sinfə bölünür:

1. Yüksək təhlükəli;
2. Orta təhlükəli;
3. Az təhlükəli (cədvəl 1).

Cədvəl 1.

Təhlükəlilik dərəcəsinə görə ağır metalların təsnifatı.

S/s	Təhlükəlilik sinfi	Ağır metallar
1	yüksək təhlükəli	civə, qurğuşun, arsen, kadmium, sink, selen
2	orta təhlükəli	mis, kobalt, nikel, bor, stibium, xrom, molibden
3	az təhlükəli	barium, vanadium, volfram, manqan, stronsium

Ağır metallar bitkiyə daxil olduqda onun orqan və toxumalarında olduqca qeyri-bərabər şəkildə yayılır. Məsələn, bitkinin kök sistemində sink yerüstü hissəsinə nisbətən çox yığılır. Buğda bitkisinin kökləri yarpağına nisbətən yüksək miqdarda qurğuşun və kadmium toplanması ilə fərqlənir.

Ağır metallar bitkilərin reproduktiv orqanlarında vegetativ orqanlarına nisbətən az toplanır. Onların udulması, nəqli, metabolizmi, orqanlarda və toxumalarda paylanması becərilən bitkilərin növ və sort xüsusiyyətlərindən, eləcə də, ekoloji və antropogen faktorlardan asılıdır.

Ağır metallar toksiki təsirləri səbəbiylə bitkilərdə transpirasiya, su qəbulu, fotosintez, ferment fəaliyyəti, cücərmə, zülal sintezi, membran stabilizasiyası, hormonal tarazlıq kimi bir çox fizioloji proseslərin pozulmasına səbəb olur (Mahmudova, 2015:2).

Hərbi fəaliyyət nəticəsində ətraf mühitə düşən mühüm ağır metallardan biri qurğuşundur (Pb).

Qurğuşun ən toksik metallardan biri sayılır və bir sıra beynəlxalq təşkilatların, o cümlədən Ümumdünya Səhiyyə Təskilatının (ÜST), BMT-nin Toksik maddələr və xəstəliklər üzrə Amerika Agentliyi və digər ölkələrin analoji dövlət təşkilatlarının prioritet çirkləndirici maddələri siyahısına daxil edilmişdir. Qurğuşun ətraf mühitə qurğuşun-etilat əlavə edilmiş benzinlə işləyən avtomobillərin tullantıları ilə, metallurgiya və poliqrafiya müəssisələri, maşınqayırma, akkumulyator istehsalı və digər qurğuşun tərkibli məhsullar istehsal edən müəssisələrin tullantıları ilə daxil olur.

$Pb(CH_3\text{-}CH_2)_2$ əlavə edilmiş benzindən bir çox ölkələrdə istifadəsinin qadağan olunması ilə əlaqədar son illər atmosfer havasında qurğuşunun konsentrasiyası xeyli azalmışdır. Qurğuşunun yol verilən qatılıq hədləri (YVQH) atmosfer havasında 0,3 mkq/m³, su mənbələri sularında 30 mkq/m³ (ÜST-nin tövsiyəsinə əsasən – 10 mkq/l) müəyyən edilmişdir. Torpaqda qurğuşunun təxmini YVQH qumlu və qumluca torpaqlarda – 32 mq/kq, turş (gillicə və gilli) torpaqlarda – 65 mq/kq və neytral turşuluğa yaxın torpaqlarda – 130 mq/kq təskil edir (Постоновлние №1, 1993:3).

Hal-hazırda praktiki olaraq hərbi əməliyyatların təsirinə məruz qalmış bütün ərazilərdə ətraf mühitin komponentləri qurğuşunla çirklənmışdır. Qurğuşuna atmosfer havasında, şirin sularda, torpaqda və qida məhsullarında da rast gəlinir.

Qurğuşun şirin suya polivinilxlorid məmulatlarından istifadə edildikdə daxil ola bilər, bura tərkibində iki və üçəsaslı qurğuşun-sulfat, ikiəsaslı qurğuşun stearat və birəsaslı qurğuşun-karbonat olan stabilizatorlar aiddir. Qurğuşunun artıq miqdarı isə içməli suya metallurgiya və digər istehsalat müəssisələrinə yaxın yerləşən yasayış məntəqələrindən də daxil ola bilər.

Əlvan metallar istehsal edən şəhərlərdə torpağın tərkibində qurğuşunun miqdarı 1000-2000 mq/kq-a çata bilər. Torpağın qurğuşunla yüksək səviyyədə çirklənməsi, xüsusilə, qurğuşun əridilməsi və qurğuşun tərkibli akkumulyatorlar istehsal edən müəssisələr yerləşən şəhərlərdə müşahidə olunur. Qurğuşunla yüksək səviyyədə çirklənən torpaqlar kənd təsərrüfatı təyinatı altında istifadə olunduqda təbii ki, qurğuşunun qida məhsuluna keçmə ehtimalı artır. Belə torpaqda becərilən tərəvəzin tərkibində qurğuşunun miqdarı 1,5-2,5 mq/kq təşkil edir (YVQH isə 0,5 mq/kq-dır).

Qurğuşun zəhərlənmələri içməli sudan (su qurğuşun borudan keçirsə), tütündən, ərzaq məhsullarının qurğuşun lövhəyə bükülməsi zamanı və qurğuşun gübrələrindən istifadə edildikdə baş verə bilər.

Qurğuşun protoplazmatik zəhər olub, əsasən sinir sisteminə, qana və sümüklərə təsir edir. Qurğuşun və onun birləşmələri mədə şirəsində həll olduğuna görə çox təhlükəlidir. Uşaqlarda zəhərlənmə hadisəsi tez baş verir. Hətta qurğuşun istehsalı ilə məşğul olmayan insanlar belə orta hesabla 0,5 mq qurğuşun qəbul edirlər.

Qurğuşunun yüksək konsentrasiyası reproduktiv, əsəb (sinir), ürək-damar, immunitet və endokrin sistemlərinin dəyişməsinə səbəb olur. Onun toksiki təsiri böyrəklərin funksional vəziyyətinin dəyişməsində, hemoqlobinin sintezində, oksidləşmə metabolizmi proseslərində və mübadilə enerjisində təzahür edir.

Beləliklə, işğaldan azad edilmiş torpaqların ehtiyatlarından səmərəli istifadə etmək, münbitliyi bərpa etmək, yararsız vəziyyətə salınmış əkin sahələrinin dövriyyəyə qaytarılması üzrə lazimi tədbirlər kompleksi hazırlamaq, xüsusilə, torpaqların ağır metallarla çirklənməsinə səbəb olan amillərin aradan qaldırılması yollarını müəyyən etmək əsas problemlərdəndir.

ƏDƏBİYYAT

1. Hüseynova S.A., Nağıyeva A.R., Sədrəddinova Ü.E., Dubuşova V.E., Yuxarı Qarabağ iqtisadi rayonunun ekoloji vəziyyətinin qiymətləndirilməsi, Azərbaycan Kooperasiya Universiteti, №3 (38), 2015, səh. 14-20.
2. Mahmudova Ş.Q., "Kiçik Qafqazın şimal-şərq yamaclarında torpaqların ağır metallarla çirklənməsinin ekoloji qiymətləndirilməsi", magistr dissertasiyası, Bakı. 2016, səh. 29-45.
3. Перечень предельно-допустимых концентраций (ПДК) и ориентировочно-допустимых количеств (ОДК) химических веществ в почве. Постоновление №1. Москва 1993 г.

Илаха Халиг кызы Караханова
магистрант,
Азербайджанский Университет Кооперации
Саадет Аслан кызы Гусейнова
доктор философии по химии,
seadet_huseynova@mail.ru,
Министерство Оборонной Промышленности Азербайджанской Республики
Национальное Аэрокосмическое Агентство
Институт Экологии

Оценка воздействия соединений тяжелых металлов на экосистемы, образующиеся при использовании боевых боеприпасов и транспортных средств

Резюме

Статья посвящена изучению воздействия соединений тяжёлых металлов на экосистемы, возникающие в результате военной деятельности. Обсуждаются источники поступления тяжёлых металлов в окружающую среду, негативные изменения, которые они вызывают в живых организмах, а также предельно допустимые концентрации соединений свинца, которые более распространены в различных компонентах окружающей среды.

Ilaha Khalig Karakhanova
master,
Azerbaijan Cooperation University
Saadat Aslan Huseynova
doctor of philosophy in chemistry,
seadet_huseynova@mail.ru,
Ministry of Defense Industry of the Republic of Azerbaijan
National Aerospace Agency Institute of Ecology

Assessment of the impact of heavy metal compounds on ecosystems forming from the use of military ammunition and vehicles

Summary

This article examines the impact of heavy metal compounds on ecosystems resulting from military activities. The sources of heavy metals entering the environment, the negative changes they cause in living organisms, and maximum permissible concentrations of lead compounds, which are more common in various environmental components, are discussed.

Nəzrin Sahib qızı HƏSƏNZADƏ
magistrant,
nezrinhesenzade732@gmail.com,
Sevinc Elman qızı KAZIMOVA
coğrafiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Kooperasiya Universiteti

ABŞERON GÖLLƏRİNİN EKOLOJİ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Abşeron yarımadası Azərbaycanın sənaye mərkəzlərindən biri olmaqla yanaşı, çoxsaylı təbii duz göllərinə malikdir. Bu göllər həm sənaye əhəmiyyətinə, həm də ekoloji funksiyalarına görə mühüm rol oynayır. Lakin son onilliklərdə intensiv sənaye fəaliyyəti, urbanizasiya və tullantıların nəzarətsiz axıdılması bu göllərin ekoloji vəziyyətini ciddi şəkildə pisləşdirmişdir. Abşeron yarımadasında neft-qaz fəaliyyətləri, sənaye, məişət tullantıları və inşaat işləri göllərə və ətraf mühitə ciddi antropogen təsir göstərir. Göllər yalnız su ehtiyatları olaraq deyil, flora- fauna üçün, torpaq örtüyü və bioçeşidlilik üçün yaşayış yeridir.

Abşeron yarımadasında ümumi sahəsi 3325 ha qədər olan 200-dən artıq göl müvcuddur. Bu göllərə il ərzində 41,5 mln. m^3 müxtəlif tərkibli çirkab suları axıdılır. Göllərin əksər hissəsi kiçik ölçülü olub, ilin isti dövründə quruyur, yalnız 10-a yaxın gölün sahəsi 1-2 km-dən artıqdır. Göllərin ərazi yüksəklikləri üzrə paylanması müxtəlifdir. Yarımadanın mərkəzi hissəsində nisbətən böyük göllər yerləşir. Göllərin böyük əksəriyyəti 50 m-dən az olan yüksəkliklərdə, Kürdəxanı, Qırmızı və Zığ gölləri (Duzlu göl) isə okean səviyyəsindən aşağıda yerləşir.

Suların tərkibində ağır metalların, fenolların, neft məhsullarının və digər zəhərli maddələrin qatılığı yolverilən normadan dəfələrlə çox olduğundan göllərin dib çöküntülərində radionuklidlərin artması müşahidə olunur. Dib çöküntülərində radionuklidlərin artması və suda həll olmuş oksigenin azalması təhlükəsi mövcuddur. Təsərrüfat-məişət tullantı sularının da göllərə və ətraf ərazilərə axıdılması ekoloji vəziyyəti daha da mürəkkəbləşdirir.

Bütün göllər duzludur. Duzluluq dərəcəsi 5-dən 300 q/l–ə qədər tərəddüd edir. Tərkibində xlor və natrium ionları üstünlük təşkil edir.

Göllərin əksəriyyəti xörək duzunun toplayıcılarıdır. Təbii şəraitdə ilin soyuq dövründə göllər atmosfer yağıntıları ilə dolur, ilin isti dövründə isə onların suyu azalır və ya quruyur. Göllərin bu vəziyyəti 1960-cı ilə qədər qalmışdır. Abşeron gölləri vaxtilə öz təbiətinə görə nadir göllər olmuşdur. XVII-XVIII əsrlərdə onlardan xörək duzu və müalicəvi lilli-palçıqlı su kimi istifadə olunmuşdur.

Xörək duzu Abşeron göllərinin əksəriyyətində istehsal edilsə də, Masazır, Böyükşor, Kürdəxanı, Pirşağı, Mirzəaladı, Fatmayı, Zığ və s. daha perspektivli idi. Yarımada göllərindən yığılan duzun ümumi miqdarını illər üzrə nəzərdən keçirək: 1825-ci ildə 2-3 min ton, 1850-ci illərin ortalarında 4-5 min ton, 1872-ci il 7-8 min ton və s. Kürdəxanı gölündən 1912-ci ilə kimi hər il 1-3 min ton duz yığılırdı. 19-cu əsrin əvvəllərinə kimi Məmmədli gölündən hər il min tona yaxın, Mirzəaladıdan 100 tondan artıq, Masazır gölündən isə 2500 ton duz yığılırdı. Masazır gölündən yığılan duzun miqdarı sonralar ilbəil artaraq 19-cu əsrin sonlarına yaxın ildə 5000 tona çatmışdır. Masazır gölünün duz ehtiyatlarını 1934-cü ildə təsdiq edən İ.V.Qarilov qeyd etmişdir ki, bu göldə 381 min tondan artıq duz vardır və bunun da 190 min tonu istismara yararlı haldadır. Hal-hazırda Masazırda yeganə göldür ki, oradan indi də hər il min tonlarla təmiz çökmə xörək duzu yığılır. Böyükşor gölündə 1926-cı ildə 24 min ton duz istehsal edilmişdir. Hələ 1929-cu ildə Azərbaycanın duz ehtiyyatlarını tədqiq edən Çingiz İldırım qeyd edir ki, Böyükşor gölünün duz ehtiyatı 249 tondur.

XX əsrin ortalarında bu göllərdə xörək duzu istehsalı 10 min tona çatırdı. Bu duzdan həm Cənubi Qafqazda, həm də İran və Türkiyədə istifadə edilmişdir. Ən çox duz ehtiyatı Masazır, Fatmayı və Qabu göllərindədir. Masazırın bir gölündə xörək duzunun ehtiyatı 200 min tondan artıqdır (Ş.Xəlilov,2003).

Azərbaycan Respublikasının Abşeron yarımadası üçün yerüstü və yeraltı su ehtiyatlarının

çirklənməsi olduqca xarakterikdir. Yarımadanın hidroloji şəbəkəsi Sumqayıt və Ceyrankeçməz çaylarından, 200-dən çox irili-xırdalı duzlu göllərdən, həmçinin Ceyranbatan su anbarından, Abşeron magistral kanalından ibarətdir. Abşeron yarımadası, demək olar ki, bütün texnogen təsirlərin cəmləşdiyi poliqona bənzəyir.

Hal-hazırda elə bir göl və ya su hövzəsi yoxdur ki, bu ərazidə texnogen təsirə məruz qalmasın. Abşeron yarımadasının göllərində son 50-60 ildə ekoloji vəziyyət kəskin surətdə dəyişməkdədir. Bu, yarımada ərazisində neft sənayesinin inkişafı ilə bağlı olaraq buruq quyularının sularının, mədənlərin neftli axınlarının və təsərrüfat axınlarının artması ilə bağlıdır.

Son 20 ildə Xəzər dənizində su səviyyəsinin yüksəlməsi də göllərin ekoloji şəraitinə və hidroloji rejiminə təsir göstərmişdir.

Müxtəlif illərdə Abşeron yarımadası göllərinə aid ayrı-ayrı mütəxəssislər tərəfindən müəyyən məlumatlar nəşr olunsa da, yarımadanın gölləri yaxın illərə kimi kompleks şəkildə tədqiq olunmamışdır. Son 100 ildə və xüsusən də son onillikdə göl hövzələrinə antropogen təsirlər artmışdır. Göllərin həm morfoloji xüsusiyyətləri və həm də hidrofiziki-biokimyəvi xassələri bu təsirlərin nəticəsində dəyişmişdir. Yarımada gölləri axarsız, əsasən dayaz, suları şortəhər və həll olmuş duzlarla ifrat dərəcədə doymuş, əksəri yayda quruyaraq dibinə duz çökdürmə xassələrinə malikdirlər.

Araşdırmaya Böyükşor, Zığ, Masazır, Xocasən, Lökbatan gölləri daxil edilmişdir. Bu göllər fərqli antropogen yüklənməyə malik olub, həm sənaye, həm də məişət təsirləri altındadır.

Böyükşor gölü Abşeron yarımadasının mərkəzində və dəniz səviyyəsindən 4 m yüksəklikdə yerləşir. Gölün səthinin sahəsi 1300 hektar, suyunun həcmi 47,3 mln. m^3 - dir. Göldən götürülmüş su nümunələrinin təhlili onu göstərir ki, gölün suyu həddindən artıq çirklənmiş və minerallaşmışdır (120 q/l). Gölə il ərzində daxil olan çirkab sularının həcmi 8614 min. m^3 təşkil edir.

2014-cü il 17 yanvar tarixində Prezident İlham Əliyevin imzaladığı Sərəncam ilə təsdiq edilmiş "2014-2016- cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na və "Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında" 26 dekabr 2013-cü il tarixli Fərmanına uyğun olaraq həyata keçirilən işlər nəticəsində ərazi tamamilə bərpa edilib. İqtisadiyyat və Sənaye Nazirliyinin koordinasiyası ilə "Təmiz Şəhər" ASC layihənin birinci mərhələsini 2015-ci ilin may ayında təhvil vermişdir. Burada salınmış bulvar və parkın açılışını edən ölkə başçısı cənab İlham Əliyev və Mehriban xanım Əliyeva ərazidə aparılan işlərlə tanış olublar.

Masazır gölü ellips formasında olub, yarımadanın şimal-qərbində, okean səviyyəsindən 8 m yüksəklikdə yerləşir və səthi 8,33 km^2-dir. Ən böyük eni 2,6 km, gölün orta dərinliyi 0,6 m, sahil xəttinin uzunluğu 14 km, suyunun həcmi 6,8 mln m^2-dir.Göl əsasən atmosfer yağıntıları və qismən yeraltı sular hesabına qidalanır. Bundan başqa, gölə Masazır və Novxanı qəsəbələrinin məişət kommunal suları axıdılır. Tullantı sularının miqdarı gün ərzində 8 min m^3 təşkil edir. Gölün suyunun minerallaşma dərəcəsi 280 q/l təşkil edir və bu göstəriciyə əsasən Masazır gölü şorsulu göllər qrupuna aid edilir.

Masazır gölünün suyunun davamlı çirklənməsi dib çöküntülərinin də çirklənməsinə səbəb olur. Aparılan müşahidələr və analizlər göstərir ki, dib çöküntülərinin hər kiloqramında 891 mq neft məhsulları, 535 mq manqan, 32 mq kadmium, 53 mq nikel, 27 mq xrom, 30 mq sink, 24 mq kobalt toplanmışdır. Təhlillər Masazır gölündə yüksək səviyyədə duzluluq və ammonium ionlarının artdığını göstərmişdir. Torpaq duzlaşmasının normadan 3 dəfə yüksək olduğu qeydə alınıb. Son 10 ildə su səviyyəsi 14% azalmışdır. Bu göstəricilər Masazır gölünün gərgin ekoloji vəziyyətə malik olduğunu göstərir.

Zığ gölü səthinin sahəsi 20 hektar, dərinliyi 1,5 m olmaqla Zığ qəsəbəsindən axan məişət-sənaye suları və yeraltı sular hesabına qidalanır. Gölə axıdılan məişət tullantı sularının illik həcmi 1826 min m^3, sənaye tullantıları isə 73 min m^3 -dir. Götürülmüş su nümunələrinin analizlərinin nəticələri göstərir ki, gölün suyu şor olmaqla minerallaşma dərəcəsi 166 q/l-ə çatır. Zığ gölünün dib çöküntülərində manqan (222 mq/kq), neft məhsulları (63 mq/kq), mis (66 mq/kq), kadmium (21 mq/kq), sink (18 mq/kq), xrom (12 mq/kq) və kobalt (8,6 mq/kq) toplanmışdır. Göldə ekoloji vəziyyəti orta qiymətləndirmək olar. Gölün suyunun oksigen rejimi pozulmuşdur.

Göllərin çirklənməsinin qarşısını almaq, onları rekonstruksiya etmək və yarımadada ekoloji

vəziyyəti yaxşılaşdırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- Sənaye və məişət çirkab sularının göllərə axıdılmasının qarşısını almaq məqsədilə bütün sənaye və kommunal müəssisələrdə təmizləyici qurğular sistemi yardılmalıdır ;
- Kəskin çirklənmiş və yenidən əmələ gəlmiş göllərin qurudulması;
- Yarımadada suvarma şəbəkələrini tam rekonstruksiya etmək və kənd təsərrüfatı bitkilərinin suvarılması daha proqressiv üsullarla aparılmalı;
- Drenaj sistemi yaratmaq yolu ilə qrunt sularının səviyyəsini aşağı salmaq və quyulardan istifadə etmək;
- Neftlə çirklənmiş torpaqların rekultivasiyası.

Xocasən gölü Bakı şəhərinin cənub-qərb hissəsində, Yasamal dərəsində yerləşir. Gölün səthi sahəsi təxminən 175 hektar təşkil edir. Dərinliyi təxminən 2 metrdir. Su həcmi isə 3,2 milyon kub metrə yaxındır. Gölə il ərzində çox sayda məişət və sənaye çirkabları atılır bu miqdar 9,040 min m^3 göstərilir. Tullantı sularının 80 %-i məişət mənşəlidir. Göldə minerallıq göstəricisi 2,5 q/l-dır. Suyun fon tərkibində anionlar üstünlük təşkil edir və sanitar normadan artıqdır. Xloridlərin miqdarı normadan 44 dəfə, sulfatların isə 1,6 dəfə yüksəkdir. Göldə çirklənmə göstəricilərindən fenollar, kadmium və mis növləri orta səviyyədədir. Gölün ətrafında antisanitar vəziyyət yaranıb. Göl sahillərinə məişət tullantıları, plastik butulkalar, tikinti tullantıları atılır. Kanalizasiya suları birbaşa gölə axıdılır. Bu, həm gölün çirklənməsinə, həm də xoşagəlməz iyə səbəb olur. "Təmiz Şəhər" ASC gölün təmizlənməsi və bərpası üçün hazırlıqlar aparıldığını bildirib. Hal-hazırda gölün qurudulması planlaşdırılmır. Burada əsas məqsəd suyun bərpası və ətrafın düzəldilməsidir. Xocasən gölünün qorunması və bərpası üçün göl ətrafında 1000 ədəd Eldar şamı və zeytun ağacı əkilib. Abşeron göllərinin bərpası planı çərçivəsində bu göl əsas bərpa ediləcək göllərdən biri kimi nəzərdə tutulub. Plan var ki, gölə axıdılan çirkab sular dayandırılsın və təmizlənmiş suyun gölə yönləndirilməsi sistemi qurulsun.

Lökbatan gölü Bakı şəhərinin Qaradağ rayonunda, Abşeron yarımadasının cənub-qərbində yerləşir. Gölün sahəsi təxminən 270 hektar təşkil edir. Dəniz səviyyəsindən hündürlüyü 24 metr təşkil edir, yəni göl səthi dəniz səviyyəsindən aşağıdır. Gölə məişət və kanalizasiya suları axıdılır. Bu, su keyfiyyətinin pisləşməsinə səbəb olur. Gölün sahəsi zamanla azalır, sahil hissələri torpaqla doldurulur. Göl ətrafındakı ərazilər yağış vaxtı subasma problemlərini yaşayır (suyun hovuza yığılması, çirkab və yağış sularının idarə olunmaması). Azərbaycan hökuməti və yerli idarələr Abşeron göllərinin, o cümlədən Lökbatan gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün layihələr həyata keçirirlər. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həmçinin digər aidiyyəti qurumlar monitorinq və nəzarət işlərini aparırlar; qanunsuz tikintiyə qarşı tədbirlər görülür.

Nəticə

Son illərdə Abşeron yarımadasının su hövzələrinin ekoloji vəziyyətinin öyrənilməsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Monitorinq Departamentinin, Kompleks Hidrogeologiya və Mühəndis geologiyası Ekspedisiyasının və Mineral-Xammal Elmi-Tədqiqat İnstitutunun böyük xidmətləri olmuşdur. Abşeron göllərini ekoloji cəhətdən sağlamlaşdırmaq, sabitləşdirmək, onların səviyyə rejimini nizamlamaq lazımdır. Mütəmadi olaraq geoekoloji monitorinq işlərinin aparılması göllərin səviyyə rejimini, kimyəvi tərkibini, balansını və hidrokimyəvi cəhətlərini öyrənmək üçün zəruridir. Abşeron sənaye bölgəsində səth sularının ekoloji vəziyyətinin qiymətləndirilməsindən əldə olunan nəticələr su ekosistemlərinin təbii keyfiyyətlərində ciddi dəyişikliklər olduğunu göstərir. Su sistemlərinə düşən toksiki PAK və metallar kimi təhlükəli çirkləndiricilər suda yaxşı həll olmadıqları üçün dib çöküntülərində toplanaraq onların flora və faunasına mənfi təsir edirlər.

ƏDƏBİYYAT

1. Q.Məmmədov, M.Xəlilov. Ekologiya və ətraf mühitin mühafizəsi, Bakı, 2005.
2. Ş.Əhmədov. Mühəndis ekologiyası, Bakı, 2012.
3. ETSN,2022, Ə.Əlizadə, 2018.
4. https://tamizshahar.az/az/layiheler/4.

Назрин Сахиб кызы Гасанзаде
магистрант,
nezrinhesenzade732@gmail.com,
Севиндж Элман кызы Казимова
доктор философии по географии,
Азербайджанский Университет Кооперации

Оценка экологического состояния Абшеронских озер

Резюме

В статье комплексно проанализировано экологическое состояние озер Абшеронского полуострова, в первую очередь Масазыр, Бёюкшор, Зых, Ходжасен, Локбатан. Результаты показывают, что в результате антропогенного воздействия, особенно сброса промышленных и бытовых отходов в озера, нарушено экологическое равновесие, а уровень загрязнения многократно превышает международные и национальные нормы. Целью данного исследования является оценка экологического состояния озер, расположенных на Абшеронском полуострове, и выявление последствий индустриального воздействия.

Sahib Nazrin Hasanzade
master,
nezrinhesenzade732@gmail.com,
Sevinj Elman Kazimova
doctor of philosophy in geography,
Azerbaijan Cooperation University

Evaluation of the ecological state of Absheron lakes

Summary

The article comprehensively analyzes the ecological state of the lakes on the Absheron Peninsula - mainly Masazir, Boyukshor, Zygh, Khojasen, Lokbatan. The results show that as a result of anthropogenic impacts, especially the discharge of industrial and domestic waste into the lakes, the ecological balance has been disrupted, and the pollution level has repeatedly exceeded international and national standards. The purpose of this study is to assess the ecological state of the lakes located on the Absheron Peninsula and reveal the consequences of industrial impacts.

Nəsrin Nəsimi qızı MƏMMƏDOVA
magistrant,
nasrinalmammadova1@gmail.com,
Köçəri Şamil oğlu ALLAHVERDİYEV
coğrafiya üzrə fəlsəfə doktoru, dosent,
allahverdiyev_1956@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti

ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNUN SƏRVƏTLƏRİNİN İQTİSADİ-COĞRAFİ DƏYƏRLƏNDİRİLMƏSİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Şəki-Zaqatala iqtisadi rayonu təbii-coğrafi sərvətləri, kənd təsərrüfatı və turizm potensialı, sənətkarlıq və sənaye ənənələri baxımından zəngin resurslara malikdir. Torpaq, su, meşə, iqlim, bitki və heyvanat aləmi, yeraltı sərvətlər, tarixi-mədəni abidələr və insan kapitalı bu bölgənin əsas inkişaf resurslarıdır. Lakin bu sərvətlərin istifadəsində həm müsbət meyillər, həm də bir sıra ciddi sosial-iqtisadi, ekoloji və institusional problemlər müşahidə olunmaqdadır.

İlk növbədə qeyd edilməlidir ki, rayonun kənd təsərrüfatı sərvətləri – xüsusilə fındıqçılıq, meyvəçilik, tütünçülük və heyvandarlıq sahələrində son illərdə müsbət inkişaf dinamikası müşahidə olunur. Dövlət dəstəyi proqramları, subsidiya və texnika təminatı bu sahələrdə məhsuldarlığın artmasına, istehsalın genişlənməsinə və ixrac imkanlarının yaranmasına səbəb olmuşdur. Məsələn, Zaqatala və Balakən rayonlarında fındıq bağlarının sahəsi genişlənmiş, Şəki və Oğuzda meyvəçilik və tütünçülük bərpa olunmuş, Qaxda südçülük və arıçılıq inkişaf etmişdir. Lakin kənd təsərrüfatı sektorunda aşağıdakı problemlər öz aktuallığını saxlayır.

Torpaqlardan səmərəsiz istifadə və aqrotexniki qaydalara riayət olunmaması. Bir çox hallarda torpaqlar uzunmüddətli icarəyə verilsə də, onların məhsuldarlığını artırmaq üçün texnoloji yeniliklər tətbiq edilmir. Eroziya, şoranlaşma və torpağın bioloji tərkibinin zəifləməsi müşahidə olunur.

İnfrastrukturun yetərsizliyi. Kənd təsərrüfatı sahələrinə gedən yolların bəziləri bərbad vəziyyətdədir, suvarma sistemləri köhnəlib, su çatışmazlığı müşahidə olunur. Suvarma üçün çaylardan istifadə olunsa da, bu resurslar bəzən düzgün tənzimlənmir və itkilər çox olur [1].

Emal və saxlanma müəssisələrinin azlığı. Məhsul istehsalı artsa da, onu emal edən və uzunmüddətli saxlama imkanı verən müasir soyuducu anbarlar, konserv zavodları və ixrac logistikasını təmin edən qurumlar hələ də bölgədə azdır. Bu səbəbdən məhsulun bir hissəsi itkiyə gedir və ya ucuz qiymətlə satılır.

Kadr çatışmazlığı və aqrar təhsilin zəifliyi. Regionda peşəkar aqronomlar, zootexniklər və kənd təsərrüfatı menecerlərinə ehtiyac yüksəkdir. Gənclərin aqrar sektora marağı azdır, nəticədə sahədə texniki və idarəetmə boşluqları yaranır.

Sənaye sahəsində regionun əsas üstünlüyü ərzaq sənayesi, yüngül sənaye və tikinti materiallarının istehsalı sahəsindədir. Fındıq emalı, tütün fermentasiyası, ipəkçilik, xalçaçılıq və süd məhsullarının emalı kimi sahələr son illərdə qismən inkişaf etsə də, onların bir çoxu kiçik həcmli və lokal xarakter daşıyır. Problemlər əsasən aşağıdakılardır:

Texnoloji gerilik və köhnə avadanlıqlar. İstehsal müəssisələrinin əksəriyyəti sovet dövründən qalma avadanlıqlarla işləyir, bu isə məhsulun keyfiyyətinə və rəqabət qabiliyyətinə mənfi təsir göstərir.

Kapital qoyuluşunun məhdudluğu. Sahibkarlığın inkişafı üçün kreditlərə çıxış çətinliyi, zəif maliyyələşmə və aşağı investisiya cəlbediciliyi sənaye sahəsinin genişlənməsinə mane olur.

Enerji və logistika xərclərinin yüksəkliyi. Kiçik və orta müəssisələr üçün enerji daşıyıcılarının qiyməti və daşıma xərcləri ciddi maliyyə yükü yaradır.

Turizm və rekreasiya sahəsi regionda dinamik inkişaf edən, lakin hələ də tam potensialı reallaşmamış sahədir. Şəki şəhərinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olunması, İlisu, Zaqatala, Qax, Balakən kimi dağ kəndlərinin populyarlaşması bölgəyə turist axınını artırmışdır. Lakin bu sahədə də bir sıra əngəllər mövcuddur:

Turizm infrastrukturu qeyri-bərabər inkişaf etmişdir. Şəki və İlisu kimi məkanlarda otel, restoran, muzey, bələdçi və xidmət infrastrukturu qənaətbəxşdirsə, digər rayon və kəndlərdə bu xidmətlər ya mövcud deyil, ya da çox aşağı səviyyədədir [2].

Ekoturizm və dağ turizmi marşrutlarının qeyri-formallığı. Bəzi gözəl təbiət məkanlarına marşrutlar və məlumatlandırma vasitələri yoxdur. Bu isə turistin təhlükəsizliyi və məmnuniyyəti baxımından risk yaradır.

Sanitariya və ekoloji problemlər. Turist axınının artması ilə yanaşı, ətraf mühitin çirklənməsi, çayların və meşələrin məhv edilməsi təhlükəsi də artır. Rekreasiya zonalarında zibilin yığılması, turistlərin davranış mədəniyyəti və infrastrukturun zəifliyi problem yaradır.

Meşə və su ehtiyatlarının istifadəsində də problemlər mövcuddur. Meşələrin qanunsuz qırılması, mal-qaranın meşəliklərdə otarılması, çay yataqlarında qeyri-qanuni qum-çınqıl daşınması, yeraltı suların nizamsız istismarı ekoloji tarazlığı pozur. Meşələrin mühafizəsi sahəsində yerli əhalinin maarifləndirilməsi və alternativ təsərrüfat formalarının inkişafı zəifdir. Bəzi dağ çaylarında bənd vurulması və çay yataqlarının dəyişdirilməsi yerli ekosistemə zərər verir.

Nəqliyyat və xidmət infrastrukturunun çatışmazlığı, rabitə və rəqəmsal texnologiyaların kəndlərə tam çatmaması, gənclərin miqrasiyası və kəndlərin boşalması, ixtisaslı kadrların çatışmazlığı,

regionun investisiya baxımından diqqətdən kənarda qalması – bütün bunlar həm sərvətlərin səmərəli istifadəsinə, həm də ümumi sosial-iqtisadi inkişafına mane olan əsas problemlərdir.

Şəki-Zaqatala iqtisadi rayonunda təbii və iqtisadi sərvətlərdən istifadə imkanları geniş və çoxşaxəlidir. Bölgə zəngin təbii ehtiyatlara malik olmaqla yanaşı, bu sərvətlərin iqtisadi potensiala çevrilməsi üçün əlverişli şəraitə sahibdir. Məhsuldar torpaqlar, bol meşə resursları, təmiz su ehtiyatları və əlverişli iqlim şəraiti kənd təsərrüfatı sektorunun inkişafı üçün əsas baza rolunu oynayır. Regionda çayçılıq, tütünçülük, fındıqçılıq kimi ixtisaslaşmış sahələr geniş yayılıb ki, bu da kənd təsərrüfatının müxtəlifliyini və dayanıqlılığını təmin edir [3].

Sənaye sahəsində isə Şəki-Zaqatala iqtisadi rayonunda kərpic, sement, beton istehsalı kimi tikinti materialları üzrə müəssisələr fəaliyyət göstərir, bu da regionun infrastruktur inkişafına və yerli bazarın tələbatının ödənilməsinə töhfə verir. Eyni zamanda, rayonun sərvətlərindən dayanıqlı şəkildə istifadə edilməklə, turizm və rekreasiya sektorunun potensialı artırılır. Təbiət qoruqları, mineral bulaqlar, dağlıq landşaftlar və zəngin mədəni irs bölgəyə həm yerli, həm də xarici turistlərin cəlb olunmasına geniş imkanlar yaradır.

Ümumilikdə, Şəki-Zaqatala iqtisadi rayonunun təbii və iqtisadi sərvətlərindən istifadə imkanlarının çoxşaxəli olması regionun sosial-iqtisadi inkişafını şaxələndirmək və dayanıqlı etmək üçün böyük potensialdır. Lakin bu imkanların tam reallaşdırılması üçün planlı idarəetmə, müasir texnologiyaların tətbiqi və ekoloji davamlılıq prinsiplərinə ciddi riayət olunması vacibdir. Bu yanaşma ilə region təbii zənginliklərini qoruyaraq iqtisadi yüksəlişi təmin edə, əhalinin rifahını artırmaqla Azərbaycanın ümumi inkişafına mühüm töhfə verə bilər.

Bölgə zəngin təbii resursları – münbit torpaqları, bol meşə ehtiyatları, su resursları, minerallar və əlverişli iqlim şəraiti ilə fərqlənir. Eyni zamanda, aqrar sektorun inkişafı üçün əlverişli şərait, sənaye potensialı, turizm və rekreasiya imkanları da mövcuddur. Lakin bu potensialın tam şəkildə reallaşdırılması və regionun dayanıqlı sosial-iqtisadi inkişafının təmin olunması üçün yalnız sərvətlərin mövcudluğu kifayət etmir; bunun üçün kompleks və sistemli tədbirlərin həyata keçirilməsi zəruridir [4].

İlk növbədə, təbii sərvətlərin qorunması və davamlı idarə olunması vacibdir. Meşə ehtiyatlarının davamlılığı üçün mühafizə və bərpa işləri, su hövzələrinin təmizliyi və su ehtiyatlarının səmərəli idarəsi, torpaq eroziyasının qarşısının alınması kimi ekoloji tədbirlər gücləndirilməlidir. Bu, təbiətin davamlılığını təmin etməklə yanaşı, kənd təsərrüfatının və turizmin inkişafına da dayanıqlı zəmin yaradır.

İqtisadi sahədə isə sənaye və kənd təsərrüfatı potensialından daha səmərəli istifadə məqsədilə müasir texnologiyaların tətbiqi, məhsuldarlığın artırılması, yerli məhsulların keyfiyyətinin yüksəldilməsi və bazarların genişləndirilməsi istiqamətində işlər aparılmalıdır. Aqrar sektorun məhsuldarlığını artırmaq üçün innovativ kənd təsərrüfatı metodları, səmərəli suvarma sistemləri və təlim proqramları tətbiq olunmalıdır. Sənayedə isə mövcud müəssisələrin modernləşdirilməsi, ekoloji standartlara uyğun istehsal proseslərinin tətbiqi vacibdir [5].

Turizm və rekreasiya sahəsində infrastrukturun inkişafı, xidmətlərin keyfiyyətinin yüksəldilməsi və regionun təbii-mədəni zənginliklərinin tanıdılması üçün effektiv marketinq strategiyaları hazırlanmalıdır. Bu, həm daxili, həm də xarici turistlərin cəlb edilməsinə və turizm gəlirlərinin artmasına səbəb olacaqdır. Eyni zamanda, ekoturizm və kənd turizminin təşviqi ilə yerli əhalinin məşğulluğu artırıla, sosial rifah yüksələ bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı (2014-2018-ci illər) haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 2014-cü il.
2. Azərbaycan Respublikasının Yerli İdarəetmə və Regional İnkişaf Agentliyi – Şəki-Zaqatala iqtisadi rayonu üzrə inkişaf konsepsiyası. Bakı, 2021
3. İsmayılov A.Ş. – Regional iqtisadiyyat. Bakı, 2015
4. Nəcəfov N.N. – Azərbaycanın təbii sərvətləri və onların iqtisadi qiymətləndirilməsi. Bakı, 2011
5. Qurbanzadə A. Aqrar strukturun regional inkişaf modeli. Bakı, 2004

Насрин Насими кызы Мамедова
магистрант,
nasrinalmammadova1@gmail.com,
Кочари Шамиль оглы Аллахвердиев
доктор философии по географии, доцент,
allahverdiyev_1956@mail.ru,
Азербайджанский Университет Кооперации

Экономико-географическая оценка богатств Шекинско-Закатальского экономического района и перспективы развития

Резюме

В статье исследуются природно-географические богатства Шекинско-Закатальского экономического района, его сельскохозяйственный и туристический потенциал, богатые ресурсы в плане ремесленных и промышленных традиций. Почвы, водные и лесные ресурсы, климат, растительный и животный мир, местные богатства, историко-культурные памятники и человеческий капитал рассматриваются как основные ресурсы развития. В ходе анализа выявлены как положительные тенденции в использовании этих богатств, так и ряд серьёзных социально-экономических, экологических и институциональных проблем.

Nasrin Nasimi Mammadova
master,
nasrinalmammadova1@gmail.com,
Kochari Shamil Allahverdiyev
doctor of philosophy in geography, associate professor,
allahverdiyev_1956@mail.ru,
Azerbaijan Cooperation University

Economic-geographical assessment of the resources of the Sheki-Zagatala economic region and development prospects

Summary

The article examines the natural and geographical resources of the Sheki-Zagatala economic region, its agricultural and tourism potential, as well as its rich traditions in crafts and industry. Land, water, forest resources, climate, flora and fauna, local resources, historical and cultural monuments, and human capital are analyzed as the main resources for development. The study reveals both positive trends in the utilization of these resources and a number of serious socio-economic, ecological, and institutional challenges.

Pakizə Elçin qızı TAĞIYEVA
magistrant,
taghiyevapakize@gmail.com,
Lalə Rasim qızı MƏCİDOVA
baş müəllim,
m.lala9@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti


HYPERİCUM L CİNSİ NÖVLƏRİNİN BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ

Tədqiqatlarımızda fenoloji müşahidələr aparılmış və nəticədə alınan rəqəmlər orta hesabla göstərilmişdir. Aparılan fenoloji müşahidədən göründüyü kimi, təbii-ekoloji şəraitdə dazıotu növlərinin vegetasiyası aprel-iyunda başlayır, çiçəklənmə müddəti may-iyul, meyvənin inkişafı isə avqust ayının əvvəlindən sentyabrın axırına qədər davam edir.

Hypericum L. cinsi növlərinin bioekoloji xüsusiyyətlərinin öyrənilməsinə bir çox alimlərin işləri həsr edilsə də, Azərbaycan florasında yayılan növlərin bioekoloji xüsusiyyətləri kifayət qədər öyrənilməmişdir. Bu məqsədlə 2022-2025-ci illərdə təbii şəraitdə Azərbaycanın müxtəlif botaniki-coğrafi rayonlarından toplanılmış dazıotu cinsi üzərində tədqiqat işləri aparılmışdır [1].

Tədqiqatlar nəticəsində cinsə aid olan növlərin bioekoloji xüsusiyyətləri öyrənilmiş və növlərin yüksəklik qurşaqlarında yayılma qanunauyğunluqları, iqlim amillərinə münasibəti, fenologiyası və ekoloji qrupları müəyyən olunmuşdur. Cinsə daxil olan növlərin həyati formalarının müəyyən olunmasında K. Raunkierin və İ. Serebryakovun "Həyati formalar" sistemlərindən istifadə olunmuşdur.

Rütubətə münasibətinə və uyğunlaşmasına görə cinsə aid növlər 3 qrupa bölünür (Şəkil 1).



Şəkil 1. Rütubətə münasibətinə görə dazıotu cinsi növlərinin ekoloji qrupları

Azərbaycan Respublikasında yayılan dazıotu cinsi növlərinin həyati formalarının təsnifatını Danimarka alimi K. Raunkierin (1934) bölgüsü əsasında vermişik. Bu bölgüyə əsasən *Hypericum* L. cinsinin Azərbaycan florasında yayılan növlərinin hamısı hemikriptofitdir (gövdə əlverişsiz şəraitdə quruyur, bitkinin canlı hissəsi torpaq altında qalır və qurumuş yarpaqlarla yeni vegetasiyaya qədər qalmış olur): *H.hirsutum*, *H.perforatum*, *H.asperuloides*, *H.tetrapterum, H.nummularioides, H.scabrum, H.elongatum, H.helianthemoides, H.theodorii, H.androsaemum, H.linarioides, H.xylosteifolium, H.davisii* və s.

İ.Q.Serebryakovun həyati formalar sisteminin təsnifatına əsasən Azərbaycan florasında rast gəlinən dazıotu cinsi növlərinin əksəriyyəti (*H.asperuloides, H.androsaemum*, *H.xylosteifolium*, *H.nummularioides* yarımkol növləri istisna olunmaqla) çoxillik ot bitkiləridir.

Dazıotu növlərinin hündürlük qradientindən asılı olaraq, yayılma qanunauyğunluqlarını aydınlaşdırmaq üçün tədqiqatlarımızda L.İ.Prilipkonun qəbul etdiyi sxemdən istifadə etmişik. Cinsin aşağı və orta 10, orta dağ 3, subalp, alp 4, yüksək dağ qurşağında isə 2 növü yayılmışdır. Beləliklə, cinsə aid olan növlərin əksəriyyətinin həm aşağı, həm də orta dağ qurşağında yayılmasına baxmayaraq, bəzi növlərə yalnız bir qurşaqda rast gəlinir. Bu məqsədlə də dağ qurşaqları müqayisə edilmiş və bu qurşaqlarda yerləşən növlərin taksonomik tərkibinin müəyyən edilməsində isə Serensen-Çekonovski oxşarlıq əmsalından istifadə olunmuşdur [2].

$$Is= 2a / ((a+b)+(a+c))$$

a- ümumi növlərin sayı, b- birinci dağ qurşağında olan növlərin sayı, c- digər dağ qurşağında olan növlərin sayı.

Beləliklə, aşağı və orta dağ qurşağının oxşarlıq əmsalının Is = 0,74%, aşağı ilə yüksək qurşaq arasında Is = 0,76%, subalpın yüksək qurşaqlarında isə Is = 0,86% olduğu müəyyən edilmişdir.

Müxtəlifotlu-paxlalıotlu subalp çəmənlər formasiya sinfi. Formasiya sinfi kəklikotulu-paxladənlik (Thymeta-Astragaletum) formasiya qrupu ilə təmsil olunur (şəkil 2).



Şəkil 2. Müxtəlifotlu-paxlalıotlu subalp çəməni

Kəklikotulu-paxladənlik (Thymeta-Astragaletum) formasiya qrupu. Formasiya qrupuna Trautvetter kəklikotulu- talış paxladənliyi (Thymeta trautvetteri-Astragaletum talyschensis) assosiasiyası daxildir. Assosiasiyanın bitki örtüyü Yardımlı rayonu ərazisində Sarıbulaq yay otlaq sahəsində qeydə alınmışdır. Fitosenozun tərkibində 27 növ çiçəkli bitkiyə rast gəlinir ki, bunlardan 3 növ (11,1%) kol, 1 növ (3,7%) yarımkolcuq, 11 növ (40,8%) çoxillik, 3 növ (11,1%) ikiillik və 9 növ (33,3%) isə birillik otlardır. Ekoloji təhlilə görə həmin bitkilərdən 17 növ (63,0%) kserofit, 8 növ (23,6%) mezokserofit və 2 növ isə (7,4%) mezofitlərdir [3].

Formasiyanın dominantı talış paxladəninin (*Astragalus talyschensis* Bunge) bolluğu 3-4 bal və subdominantı Trautvetter kəklikotunun (*Thymus trautvetteri* Klok. et Shost.) bolluğu isə 2-3 baldır.

Bitki örtüyünün quruluşunda üçmərtəbəlilik müşayiət olunur: I mərtəbədə itiuc itburnu (*Rosa cuspidata* Bieb.); II mərtəbədə Qaradağ zımbırtikanı (*Eryngium billardieri* Delaroche), tamkənar-yarpaq dovşanalması (*Cotoneaster integerrimus* Medik.), gözəl əvəlik (*Rumex pulcher* L.), sərt sığırgözü (*Anthemis rigescens* Willd.), İran poruğu (*Stachys persica* S.G. Gmel. ex C.A.Mey.), Krit acıyoncası (*Coronilla cretica* L. ≈ *Securigera cretica* (L.) Lassen), kükürdü-sarı pişiknanəsi (*Nepeta sulphurea* C.Koch); III mərtəbədə isə qızıl astrakant (*Astracantha aurea* (Willd.) Podlech), qaya, yaxud şırımlı topal (*Festuca rupicola* Heuff.), şərq laləsi (*Papaver orientale* L.), göyümtül güldəfnə (*Trigonella coerulescens* (Bieb.) Halasy) və s. otlar yayılır. Ümumi layihə örtüyü 30-70% arasında dəyişir.

Aparılmış elmi-tədqiqatlar və geobotaniki araşdırmaların nəticələri göstərir ki, Böyük və Kiçik Qafqazın, eləcə də Lənkəranın dağlıq hissəsinin subalp çəmənləri və bozqırlarında rast gələn bitkilərin əksəriyyəti çoxillik otlardır. Ekoloji təhlilə əsasən mezofitlər üstünlük təşkil edir. Əksinə, ikiillik və birillik otlar isə olduqca az bolluqda yayılır. Ərazidə formalaşan subalp çəmənlər antropogen təsirlərdən deqradasiyaya uğramış və məhsuldarlığı aşağı düşmüşdür. Odur ki, Lənkəranın dağlıq ərazisində formalaşan subalp çəmənlər dağ-çəmən bozqır bitkiliyi ilə tanınır.

Seyrəkotlu çınqıllı petrofit formasiya sinfi. Bu formasiya sinfi topallı-dovşankələmli-daşdələnlik (Festuceta-Sedetum-Saxifragosum) formasiya qrupu isə Alekseyenko topallı-biz dovşankələmli-xəmircəyi daşdələnlik (Festuceta alexeenkoi-Sedetum subulatum- Saxifragosum cartilaginea) və qarşıyarpaq dovşankələmli-xəmircəyi daşdələnlik (Sedetum oppositifolium-Saxifragosum cartilaginea) assosiasiyaları ilə təmsil olunur.

Formasiya Lerik rayonu ərazisi "Qızqalası" dağının (dəniz səviyyəsindən hündürlüyü 2266 m) qayalıqları arasındakı çınqıllıqlarda yayılır [4].

Alekseyenko topallı-biz dovşankələmli-xəmircəyi daşdələnlik (Festuceta alexeenkoi-Sedetum subulatum-Saxifrago- sum cartilaginea) assosiasiyasının tərkibində 21 növ ali bitki qeydə alınmışdır; bunlardan 2 növ kol, 1 növ yarımkol, 14 növ çoxillik, 2 növ ikillik, 2 növ isə birillik otlardır. Ekoloji qruplar üzrə təhlilinə görə həmin növlərdən 18 növ kserofit, 2 növ mezokserofit və 1 növ mezofitdir.

Fitosenozun dominantı xəmircəyi daşdələnin (*Saxifraga cartilaginea* Willd.) bolluğu 3 bal, subdominantları biz dovşankələminin (*Sedum subulatum* (C.A.Mey.) Boiss.) bollugu 2-3 bal, Alekseyenko topalının (*Festuca alexeenkoi* E.Alexeev) bolluğu isə 2 bal ilə qiymətləndirilir. Ümumiyyətlə, Lənkəranın dağlıq hissəsində petrofit bitkiliyində formasiyalar və assosiasiyaların növ tərkibi və quruluşunun fitomüxtəlifliyi topallı-dovşankələmli-daşdələnlikdə kserofitlərin zənginliyi ilə izah olunur, Belə ki, bu fitosenozun tərkibində kserofit növlər miqdarca üstünlük təşkil edirlər.

Bu formasiyanın fitosenotik quruluşuna görə I mərtəbəsində Pallas murdarçası (*Rhamnus pallasii* Fisch. et C.A.Mey.), şərq yemişanı (*Crataegus orientalis* Pall. ex Bieb.) kolları; II mərtəbəsində xəmircəyi daşdələni (*Saxifraga carti- laginea* Willd.), Alekseyenko topalı (*Festuca alexeenkoi* E.Alexeev), kantabir sarmaşığı *(Convolvulus cantabrica* L.) və s.; III mərtəbəsində isə Trautvetter kəklikotu (Thymus trautvetteri Klok. et Shost.), biz dovşankələmi (*Sedum subulatum* (C.A.Mey.) Boiss.), dağ cinotu (*Minuartia oreina* (Mattf.) Schischk.), Buze pişiknanəsi (*Nepeta buhsei* Pojark.), təbaşirli qərənfil (*Dianthus cretaceus* Adams) və s. növlərə təsadüf olunur. Ümumi layihə örtüyü 45-65%-ə uyğundur.

Atropatan əyalətində (Azərbaycan Respublikası ərazisində) qaya və töküntülü (petrofit) bitkiliyinin mövcudluğu ilk dəfə müəyyən edilmiş, həmçinin bu tip formasiyalar və assosiasiyalar səviyyəsində açıqlanmışdır (E.M.Qurbanov, 2004). Atropatanın alçaq dağlıq zonasında yayılan petrofit bitkiliyində əsasən kserofitlər üstünlüyə malikdir. Bu bitkiliyə Talışda (Lənkəranın dağlıq hissəsində), Kiçik Qafqazın şimal hissəsi və Naxçıvan Muxtar Respublikasında (Gilançay, Parağaçay və Naxçıvançay hövzəsində) rast gəlinir [5].

Atropatan əyalətində petrofitlərin növ tərkibində: təbaşirli qərənfil (*Dianthus cretaceus* Adams), Qafqaz ilansoğanı (*Muscari caucasicum* (Griseb.) Baker ≈ *Leopoldia caucasica* (Griseb.) Losinsk.), nazik dovşankələmi (*Sedum tenellum* Bi- eb.), ipəyi şehduran (*Alchemilla* sericea Willd.), göy itiqayıq (*Oxytropis cyanea* Bieb.), dağınıq dilqanadan (*Galium humifusum* Bieb.), kirpikyarpaq yastıqotu (*Draba bruniifolia* Stev.) və s. növlərə təsadüf olunur. Atropatan əyalətinin bitki örtüyündə rast gəlinən bitkilərin yem, qida, dərman və texniki bitkilərin təsərrüfat əhəmiyyəti öyrənilmişdir.

ƏDƏBİYYAT

1. Конспект флора Кавказа //. – Москва, – Т.3 (2), – 2012, – с. 308-312.
2. Qrossqeym, A.A. Azərbaycan florası / A.A.Qrossqeym, −c.3, −1962, −s. 163-166.
3. Рзазаде, Р.И. Флора Азербайджана / Р.И.Рзазаде. – Баку, – Т.6, –1955, – с. 247-259.
4. Əsgərov, A.M. Azərbaycanın bitki aləmi / A.M.Əsgərov−Bakı: TEAS Press Nəşriyyat,−2016,− s.173.
5. İbadullayeva, S. Dərman bitkiləri / S.İbadullayeva, R.Ələkbərov / Bakı, 2013, s.280.

Пакиза Эльчин кызы Тагиева
магистрант,
taghiyevapakize@gmail.com,
Лала Расим кызы Меджидова
старший преподаватель,
m.lala9@mail.ru,
Азербайджанский Университет Кооперации

Биоэкологические особенности видов рода Hypericum *L*

Резюме

В статье в результате исследования были изучены биоэкологические особенности видов, относящихся к роду, а также выявлены закономерности распространения видов по высотным поясам, их отношение к климатическим факторам, фенология и экологические группы. На основе экологического анализа было установлено, что преобладают мезофиты.

Pakiza Elchin Tagiyeva
master,
taghiyevapakize@gmail.com,
Lala Rasim Majidova
senior lecturer,
m.lala9@mail.ru,
Azerbaijan Cooperation University

Bioecological characteristics of species of the genus Hypericum *L*

Summary

In the article, as a result of the research, the bioecological characteristics of the species belonging to the genus were studied, and the patterns of distribution of the species across altitude zones, their relation to climatic factors, phenology, and ecological groups were identified. Based on ecological analyses, it was determined that mesophytes predominate.

Müzəffər Ceyhun oglu DADAŞOV
magistrant,
Sevinc Elman qızı KAZIMOVA
coğrafiya üzrə fəlsəfə doktoru,
sevinc.kazimova.elman@gmail.com,
Azərbaycan Kooperasiya Universiteti

EKOLOJİ-İQTİSADİ PROBLEMLƏRİN HƏLLİNDƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİNİN SİYASƏTİ

Dünya miqyasında sənayenin inkişafı ilə ətraf təbii mühit arasında olan ziddiyyətli münasibətlər və ətraf təbii mühiti mühafizə etmək sahəsində çoxlu sayda təşkilatlar formalaşmışdır. Bu təşkilatlar ekoloji problemlərin həlli istiqamətində xeyli işlər görürlər. Bu işlərin nəticəsində indiki nəsillərin sosial vəziyyətinin daha da yaxşılaşdırılması məqsədi ilə ekoloji problemlərin həll olunması, ətraf təbii mühitin mühafizəsi ön plana çəkilmişdir. Dövlət tərəfindən ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizliyin möhkəmləndirilməsi prioritet istiqamətə çevrilmişdir [1].

1993-cü ildə Avropa ölkələri " Ətraf mühitin mühafizəsi üzrə fəaliyyət proqramını" (ƏMMFP) qəbul etdilər. Burada Mərkəzi və Şərqi Avropa ölkələrində ətraf mühitin problemlərinin metodoloji həlli öz əksinin tapdı. Ətraf Mühitin Mühafizəsi üzrə Fəaliyyət Proqramında əsas diqqət təbiətdən istifadədə və qiymət siyasətində, həmçinin stimullaşdırıcı qismində iqtisadi alətlərin tətbiqində iqtisadi səmərəli strategiyaların işlənilməsinə xüsusi yer ayrılır.

Nəzəri cəhətdən ekoloji informasiya özündə rəqabətli bazar qiymətinin effektiv təşkil edicilərini birləşdirir. Onlar həmçinin istehsalçının və istehlakçının fəaliyyətini stimullaşdırır. Eyni zamanda ən aşağı məsrəflə ətraf mühitin mühafizəsi sahəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə imkan verir. Ekoloji informasiyanın effektivliyi müəssisələr tərəfindən qanunvericilik və normativ aktlara əməl etməsindən asılıdır. "Çirkləndirirsənsə ödəməlisən"prinsipi təsdiq edir ki, çirkləndirici subyektlər çirklənməyə görə tam maliyyə məsuliyyəti daşıyırlar.

Mərkəzi və Şərqi Avropa ölkələrində 1990-cı ildən sonra yaranmış vəziyyət ətraf mühitin mühafizəsi sahəsində siyasəti həyata keçirmək üçün iqtisadi alətlərin tətbiqinə imkan verdi. Hazırda həmin ölkələrdə iqtisadiyyatın yenidən təşkili prosesi davam edir və sosial və hüquqi institutlar yaradılır. Qərb ölkələrində təbiəti mühafizə siyasəti hüquqi bazaya əsaslanır və ekoloji standartların yerinə yetirilməsini təmin edir. Alətlərin işlənilməsində müəyyən təcrübəni nəzərə alaraq, bu gün ən çox ekoloji informasiyanın istifadəsinə diqqət yetirilir. Ətraf mühitin çirklənməsinə görə ödənişlərə üstünlük verilir ki, bu da gəlirin artma potensialı ilə izah edilir.

Polşa, Çexiya, Baltik ölkələri və Sloveniyada "çirklənməyə icazəyə görə (ödəmələr)- norma-

tivə əməl etmədiyinə görə" modeli istifadə olunur. Regionda böyük iqtisadi potensiala malik ölkələrdə təbiəti mühafizə ehtiyacları üçün xərclərin artması əsasən çirklənməyə görə ödənişlərdən və normativlərə əməl edilməməsindən yaranan cərimələrdən daxil olan ödənişlərin artması ilə bağlıdır. Ödənişlərin Polşa sistemi regionda ekoloji informasiyaların uğurlu tətbiqi modeli ilə əlaqədar olaraq məqsədli investisiya vəsaitlərinin toplanmasıdır.

Hazırda ekoloji informasiya sistemi özündə havanın çirklənməsini, sudan istifadəni, çirkab suların atılmasnı, bərk məişət tullantılarının utilizasiyasını və meşələrin və kolluqların qırılmasını birləşdirir.

Hər il onların təsirini saxlamaq üçün ödənişlərin tarifinə yenidən baxılır, inflyasiya nəzərə alınaraq korrektə olunur. Bu hal regionun digər ölkələrində olduğundan tez həyata keçirilir. Polşada təbiəti mühafizə siyasəti iqtisadi alətlərin stimullaşdırıcı effektinin gücləndirilməsini özündə birləşdirir.

Su resursları və tullantılar sektorunda, sadələşdirilmiş ödəmələr sistemi özündə çirkləndirici maddələrə görə ödənişləri cəmləşdirən, qeyri-ekoloji məhsullara görə ödənişləri tətbiq edən və təbiəti mühafizəyə görə ehtiyacların xərcləri uyğunlaşdırılır. XX əsrin 90-cı illərində təbii mühitdən istifadəyə görə iqtisadi alətlər sistemi tətbiq olunmağa başladı. Sistem özündə atmosferi çirkləndirməyə görə xlorftorkarbondan istifadə edilməklə məhsula görə, sudan istifadə və onu çirkləndirməyə görə, kanalizasiya xidmətinə görə, tullantıların ləğvinə görə, torpaqdan məqsədə uyğun olmayan istifadəyə görə, həmçinin təyyarə limanlarında yaranan səs-küyə görə ödəmələri birləşdirir. Bu ödənişlər nəticəsində yığılmış vəsait Dövlət Ekoloji Fonduna yönəldilir. Fond isə öz növbəsində güzəştli kreditlər verir və təbiəti mühafizə tədbirləri üçün istiqrazlar buraxır.

Mütəxəssislərin qiymətləndirməsinə görə çirkab suların atılması üçün ödənişlərin həcmi çirklənmənin ümumi xərcinə yaxınlaşır. İqtisadi artım iqtisadiyyatın bəzi sektorlarında çirklənməyə görə daxilolmaların intensivliyini artırmamışdır. Bu da tətbiq olunan iqtisadi alətlərin düzgün olduğuna əyani sübutdur. Hazırda Ətraf Mühitin Mühafizəsi Nazirliyi tərəfindən ekoloji vergiqoymanın islahatı məqsədilə strateji variantlara baxılır. İqtisadiyyatın energetika və təbii qaz hasilatı kimi sektorlarında qiymətəmələgəlmənin islahatları başa çatdırılmalıdır. İqtisadi alətlərə rəğmən yığılan ödənişlər azaldılır. Buna görə də Çexiyada çirklənmə üzərində nəzarəti həyata keçirmək və maliyyəni artırmaq üçün digər variantlara baxılır. Məsələn, çirklənməyə görə kvotanın satılması və ekoloji vergiqoyma hesabına. Estoniyada icazələr, ödəmələr və cərimələrlə bağlı uğurlar əldə edilmişdir. Belə ki, iri sənaye mənbələri bu sahədə çox ciddi işlər görürlər. Sudan istifadəyə, faydalı qazıntıların hasilatına görə ödəmələr və aksiz vergiləri iqtisadi alətlər qismində çıxış edirlər və bu da təbiəti mühafizə problemi ilə əlaqədardır.

Ölkənin təbiəti mühafizə siyasətinin prinsipi təbii resurslardan istifadəyə güzəştlərdir. İdxalçılar və istehsalçılar o halda vergidən azad olunurlar ki, onların istifadəsində taraların heç olmasa müəyyən faizi təkrar istifadə olunsun. Vergilərin tətbiqi taralardan təkrar istifadənin artmasına səbəb oldu. Ətraf Mühitin Mühafizəsi Nazirliyi qablama tullantılarının təkrar istehsalı və emalı təcrübəsini nəzərə alaraq gələcəkdə vergi sisteminin inkişafını nəzərdə tutur. Ətraf mühitin çirklənməsinə görə ödənişlərin tarifinin qaldırılması da cox uğurlu sayılır. Bu isə daxilolmaların artmasına gətirib çıxarmışdır. Bu daxilolmalar Dövlət Ekoloji Fondu tərəfindən idarə olunur.

Respublikada ödənişlərin yığılması yüksək hesab olunur. Bu, çox ciddi sanksyaların olması ilə izah edilir (hər bir gün gecikdirməyə ödənişlərin 0.2 %-i qədər əlavə vəsait). Latviyanın təbiəti mühafizə siyasətinin iqtisadi alətləri 1995-ci ildə qəbul olunmuş "Təbii resurslardan istifadəyə görə vergilər haqqında" Qanuna əsaslanır. Bu gün respublikada fəaliyyətdə olan vergi sistemi özündə ödənişləri və havanı, suyu çirkləndirmə normativlərinə əməl etməməyə görə cərimələr, tullantılar və təbii ehtiyatların (faydalı qazıntıların hasilatına görə) vergiləri birləşdirir. Cərimə sanksyalarının diferensiasiyalı olması və təbiəti mühafizəyə investisiyaların ödəmələrdən azad olması əlavə stimullaşdırıcı effekt yaradır.

Çirklənmə ilə bağlı layihələrə faizsiz kreditlərin verilməsi də əlavə maraq yaradır. Hətta əgər layihə uğurla həyata keçirilsə və çirklənmə səviyyəsi azalırsa onda krediti əvəzsiz ssudaya çevirirlər. Cirklənməyə görə kifayət qədər inkişaf etmiş ödənişlər sistemi ilə yanaşı ekoloji cəhətdən təmiz olmayan məhsullara, məsələn, qablama materialı, avtomobil şinləri, batareyalar və s. iqtisadi

alətlərin tətbiqinin effektivliyi aşağıdakı səbəblərdən məhdudlaşır:

- ətraf mühitin çirklənməsinin azalması və ekoloji dəyərlərin xeyrinə olan xərclərin qeyri-müəyyənliyi;
- istehsal obyektlərinin inkişafında ətraf mühitin monitorinqi məsələsində gecikmə;
- dövlət və ictimai fikrin vergi yükünə hazır olmaması.

Tədqiq olunan regionlarda bu cür çətinliklər səciyyəvidir.

Respublikada iqtisadi mexanizmlərin istifadəsi məhdudlaşır. Hazırda hökumət bir sıra məsələlərin həyata keçirilməsinə baxır. Bunlar enerjidən istifadəyə görə vergilər, bu, yanacaqda karbonun miqdarına əsaslanır. Litva Respublikasında 1991-ci ildə işlənilmiş vergi sistemi fəaliyyət göstərir. Buraya ətraf mühitin çirklənməsinə görə məqsədli ödəmələr, təbii resurslardan istifadəyə görə qeyri-məqsədli vergi sistemi tətbiq olunur. Ətraf mühitin çirklənməsindən daxil olan ödəmələrin 30 %- i, təbii resurslardan istifadəyə görə vergilərin isə 100%-i dövlət büdcəsinə daxil olur, qalan isə bələdiyyələrin təbiəti istifadəyə görə ödənişlər çox uğurla həyata keçirilir və bunlar büdcəni birbaşa daxilolmalarla təmin edir. Suların və havanın çirklənməsi ilə bağlı normativlərə əməl olunmamasına görə cərimələr və bir sıra ödəmələrin həyata keçirilməsi onların təkmil olması ilə əlaqədardır. 1991-ci ildə qəbul olunmuş qanuna görə havada, suda çirkləndiricilərin miqdarına görə tarif təyin olunmuşdur. Eyni zamanda icazə verilən çirklənmənin səviyyəsi də müəyyənləşdirilmişdir [3]. Ödəmələr sisteminin müəssisənin özünü aparmasına təsiri çox aşağı hesab olunur. Bunun səbəbi isə inflyasiyanı nəzərə alaraq ödəniş tarifindəki indeksləşdirmənin gecikdirilməsi, metodologiyada qeyri-dəqiqlik, çirklənmənin azaldılması üzrə tədbirlərin dəyəri haqqında informasiyanın olmaması, ekoloji siyasətdə siyasi konsensusun olmaması və s-dir. Havanı çirkləndirməyə və çirkab suların atılmasına görə ödənişlər, normativlərə əməl olunmamasına görə ödənişlərdən fərqli olaraq çox yüksək şəkildə toplanılır, təxminən 100% həcmində büdcəyə daxil olur və ekoloji tərbiyə funksiyasını yerinə yetirir və "çirkləndirici ödəyir" prinsipinin həyata keçirilməsinə yardım edir.

Sloveniyada Qərbi Avropa ölkələrində olan ekoloji vergilərə uyğun bir sıra iqtisadi alətlər işlənilmişdir. Çirkab suların atılmasına görə və karbon qazının atılmasına görə vergilərdən daxilolmalar dövlət büdcəsinə gedir. Bu ödəmələrin birbaşa stimullaşdırma təsiri ilə yanaşı, onların tətbiqindən yaranan ekoloji effektivliyi həm daxil olmaların uçotunu və həm də onların xərcini tələb edir. Əgər adambaşına düşən Ümumi Daxili Məhsulun (ÜDM) yüksək göstəricisini nəzərə alsaq dövlət büdcəsindən ətraf mühitin mühafizəsinə məsrəfləri o qədər də çox deyil. 2004-cü ildə çirkab suların atılmasına görə ödəmələrin tarifləri artırıldı. Burada əsas məqsəd suların təmizlənməsinə investisiya vəsaitlərinin ayrılmasına stimul yaratmaq olmuşdur. Gələcəkdə karbon qazına görə verginin bazasının genişləndirilməsi planlaşdırılır [6]. Bu vergiyə təkcə maye yanacaq deyil, həmçinin elektrik enerjisi hasilatında istifadə olunan kömürə də vergilər daxil edilmişdir. Tullantıların, gübrələrin və pestisidlərin emalı sektorunda, həmçinin ətraf mühitin mühafizəsi sahəsində yeni yığımların tətbiqi planlaşdırılır.

Macarıstanda iqtisadi alətlərin modeli ekoloji təmiz olmayan məhsullara ödənişlərə əsaslanır. Yanacaq, qablaşdırma, şin, soyuducu və digər məhsullara görə ödənişlərin tutulması ətraf mühitin mühafizəsinə dövlət köməyi üçün yönələn vəsaitin çox hissəsini təşkil edir. Ölkədə təbiəti mühafizə fəaliyyətini stimullaşdıran sistem vardır. Bu əsasən yanacağa, aksiz vergilərinə , əlavə dəyər vergisinə və yollardan yığılan vergilərə əsaslanır.

Respublikada eyni zamanda buraxılış ilindən asılı olaraq nəqliyyat vasitələrinə diferensiallaşdırılmış (əlavə) vergilər tətbiq olunur. Ekoloji cəhətdən təmiz olmayan məhsula məqsədli ödəmələrlə, qeyri-təyinatlı ödəmələrin uyğunlaşdırılması Mərkəzi və Şərqi Avropa ölkələrində benzinin ən yüksək qiymətinə səbəb olub. Ölkədə stasionar mənbələrdən atmosferə atılan tullantılara və çirkab suların atılmasına görə normativlərə əməl etmək üçün cərimələr nəzərdə tutulur, lakin bütün bunlar çirklənmənin səviyyəsini aşağı salmaq üçün tədbirlərin tətbiqini stimullaşdırmır. Macarıstanda tullantıların səviyyəsinə birbaşa təsir edən hədlərin ödənişlər sistemi tətbiq olunmayıb. Hazırda yeni qanunvericilik hazırlanmışdır ki, burada havanın, suyun və torpağın çirklənməsinə görə ödənişlərin tətbiq olunması nəzərdə tutulur. Eyni zamanda havanın çirklənməsinə görə ödənişlərin tətbiqi nəzərdə tutulur, bunda əsas məqsəd müəyyən çirkləndiricilərin, o cümlə-

dən karbon iki oksidə daxil olmaqla azaldılmasıdır. Xorvatiyada çirkab suların atılmasına görə yüksək ödənişlər tətbiq olunur. Buna görə də Mərkəzi və Şərqi Avropa ölkələri içərisində adambaşına düşən ən yüksək təbiəti mühafizə üçün daxilolmalar buradadır. Buna baxmayaraq suya aşağı tarifin olması maliyyə baxımından tədbirlərin həyata keçirilməsinə mane olur, təmizləyici qurğuların tikintisinə vəsait ayrılmasına imkan vermir. Ona görə də ekoloji tullantılar sisteminin yaradılmasına ehtiyac vardır, belə ki, tullantılar, xüsusilə də atmosferə, normativlərə əməl olunmamasına görə tənzimlənir [6].

Ölkədə bir neçə "tipik" iqtisadi alətlər fəaliyyət göstərir və siyasi məqsədlər üçün iqtisadi effektivlikdən, potensial xeyirdən tam istifadə olunmur. Bolqarıstan, Rumıniya, Bosnya–Hersoqovinada iqtisadi alətlərin işlənilməsində böyük çətinliklər çəkilir, çünki həmin ölkələrdə 1996-1997-ci illərdə iqtisadi çökmə dalğası səbəbindən aşağı ödəmə qabiliyyətinə görə ətraf mühitin mühafizəsi sahəsində davamlı strategiya apara bilmədilər. Monitorinqin məhdud imkanları, məsələlərin həllinin mürəkkəbliyi və ekoloji maliyyələşmənin qeyri-effektiv mexanizmləri buna imkan vermədi.

1997-ci ildə cərimələrin tarifi bir neçə dəfə artırıldı. Havanın, suyun çirklənməsinə görə, ekoloji təmiz olmayan məhsula görə ödənişlər tətbiq olunmağa başladı. Bu tədbirlərin köməkliyi ilə Ətraf Mühitin Mühafizəsi Nazirliyi təbiəti mühafizə ehtiyacları üçün maliyyə sistemini təkmilləşdirməyə cəhd göstərir.

Eyni zamanda ətraf mühitin mühafizəsi sahəsində vəsait qoymaq üçün daha möhkəm bazar yaratmaq istəyir. Hazırda "Təbiət 25 vergisi" hazırlanması mərhələsindədir. Burada qoruq ərazisində yerləşən turist müəssisələrindən illik ödəniş alınması nəzərdə tutulur. Ödənişlər sisteminin idarə edilməsinin daimi olaraq əlavə təkmilləşdirilməsi vacibdir. On illərdir ki, inflyasiyanın səviyyəsi yüksək olaraq qalır, əhalinin alıcılıq qabiliyyəti aşağı düşür. Siyasi və iqtisadi səbəblərdən suya və enerjiyə olan qiymətlər saxlanılır.[2] Havanın çirklənməsinə görə ödənişlər normativlərə əməl olunmaması ucbatından məcburi cərimələr geniş istifadə oluna bilmədi. Cərimənin tarifi aşağı səviyyədədir və atılmaların real səviyyəsini əks etdirmir. Ödənişlərin yığılması müntəzəm deyil və sənaye sahələrində ciddi problemdir.

Su resursları respublikada xüsusilə ağır vəziyyətdədir. Belə ki, su təminatı idarələri qanunvericiliklə məhdudlaşdırılıb və istismar xərclərini ödəmək üçün qiymətlər yüksək səviyyədə saxlanılır. Sudan itifadənin ölçülməsi qeyri-bərabərdir. Qanunvericiliyə görə lazımi vəsait dövlət büdcəsindən ayrılmalıdır. Lakin büdcə buna imkan vermir. Bu da genişmiqyaslı infrastrukturların qurulması baxımından kifayət etmir. Çirkab sularının atılmasına görə tətbiq olunan ödənişlər müəyyən dərəcədə çirklənmənin qarşısının alınmasında stimullaşdırıcı rol oynayır. Su təchizatına məsul xidmətlər vəsaitin daxil olunmasından asılı vəziyyətdədirlər və çirklənmənin azaldılmasına fəal təsir göstərə bilmirlər.

Konseptual səviyyədə iqtisadi alətlər təbiətdən səmərəli istifadə və təbiəti mühafizə ehtiyaclarının maliyyələşdirilməsində siyasətin mərkəzi elementi hesab olunur. Buna görə də müasir iqtisadi alətləri tətbiq etmək üçün müxtəlif ideyalar irəli sürülür. İndiyədək Bosniya və Hersoqovina Federasiyası ilə Serbiya arasında əlaqələr o qədər də yaxşı deyil. Ətraf mühitin mühafizəsi məsələsi siyasi gündəlikdə aparıcı əhəmiyyət kəsb etmir. Belə vəziyyətdə iqtisadi alətləri tətbiq etmək üçün siyasi və iqtisadi əsas yoxdur.

Hazırda ətraf mühitin çirklənməsinə görə ödənişlər sistemi fəaliyyət göstərmir. Sudan istifadə və tullantıların emalında ödənişlər heç istismar xərclərini ödəmir. Eyni zamanda ödənişlərin yığılması pis təşkil olunmuşdur. Atmosferin çirklənməsi və meşələrin qırılmasına görə ödənişlərin yığılması çox aşağı səviyyədədir. İqtisadi alətlərin tətbiqi şəraitə uyğunlaşdırılmalıdır. Ətraf mühitin mühafizəsi sahəsində olan çətinliklər beynəlxalq əlaqələrə də mənfi təsir edir, onu mürəkkəbləşdirir. Bunun da nəticəsində ətraf mühitin mühafizəsi sektorunda texniki və maliyyə yardımları ayrılmır. Bazar iqtisadiyyatına keçid çox yavaş gedir. Dövlət iqtisadiyyatın əsas sektorlarında mühüm rola malikdir. Yaxın gələcəkdə daxili mənbələr hesabına təbiəti mühafizə xərclərinin maliyyələşdirilməsi gözlənilmir. Bunun əsas səbəbi ödənişin aşağı səviyyəsi, vergi daxilolmalarında məhdudiyyətlər və ixtisarlar, bank sisteminin zəif inkişafı və təbiəti mühafizə ehtiyaclarının maliyyələşdirilməsi sahəsində aydın siyasətin olmamasıdır [4].

Mürəkkəb şəraitin olmasına baxmayaraq son illərdə bir sıra iqtisadi alətlər tətbiq olunmağa

başladı. Suyun və atmosferin mühafizəsi, tullantıların emalı və təbiətin mühafizəsi qanunlarının pozulmasına görə yığımlar həyata keçirilir. Son dövrdə Çernoqoriyada suyun və havanın çirklənməsinə görə ödənişlər tətbiq olundu. Çernoqoriyanın bu sahədəki müsbət təcrübəsi belə ödənişlərin burada da tətbiqinə gətirib çıxara bilər. Ödənişlərin toplanmasına dair verilmiş materiallar ona şəhadət verir ki, Mərkəzi və Şərqi Avropa ölkələrində bir sıra ödənişlərin həyata keçirilməsi ən zəif həlqədir. Bir neçə ödənişə görə toplanan vəsaitlər qənaətbəxş hesab oluna bilər. Elə hallar da vardır ki, ödənişlərin toplanması yüksəkdir, lakin onların ödənilməsində kənara çıxmalar müşahidə olunur. Monitorinq problemi və hüquqi tətbiqə, icazəyə çətinliklər özünü tullantılar sistemində və ödənişlər sistemində büruzə verir.

Nəticə

Təbii ehtiyatlardan qənaətli istifadənin təmin olunması günün vacib məsələlərindəndir və onlardan effektiv istifadə ilə bağlıdır. Bunlardan ən mühümü təbii resurslardan daha effektiv və kompleks istifadə olunmasına dövlətin nəzarətidir və ekoloji nöqteyi-nəzərdən əsaslandırılmış üsullardan istifadə edilməsidir. Təbii mühitin qorunmasında iqtisadi üsulların istifadəsinin inkişaf etmiş və etməkdə olan ölkələrin təcrübəsinin təhlili, ekoloji siyasətin yaranmasının əsas mərhələləri və onların səciyyəvi əlamətləri verilmiş və bu vaxt əsas diqqət başqa faktorlarla yanaşı ekoloji ödəmələrin istifadə olunmasına yönəlmişdir. Bizim rəyimizə görə bizdə də ekoloji ödəmələrin bütün vasitələrindən yararlanılmalıdır. Ətraf mühitə dəyən zərərin "Çirkləndirirsənsə- ödəməlisən" prinsipi əsasında ödənilməsi, hazırkı ekoloji vergilərin təkmilləşdirilməsi, təbii ətraf mühitə çirkləndirici maddələrin atılmasına görə müəssisələrin məsuliyyətinin daha da yüksəldilməsi və ekoloji baxımdan təhlükəsiz avadanlıqların istehsalı və istifadə olunması günün ən vacib tələbidir.

ƏDƏBİYYAT

1. Azərbaycanda ətraf mühit, meşəçilik, balıqçılıq və ovçuluq təsərrüfatları Statistik məcmuə - Bakı 2015
2. "Azərbaycan Respublikasının 2009-2013 - cü illərdə regionlarının sosial - iqtisadi inkişafının əsas istiqamətləri" Dövlət Proqramı. Bakı, 2008
3. Балацкий О.Ф. Природоохранная работа на промышленном предприятии. Киев: Техника, 1986, 210 с.
4. İmplementiug Domestic Tratable Permits for Environmental Protection. OECD, Paris, 1999b
5. Yeanrenaud,C Obstacles to the İmplementation of Tratable Permits : the Case of Switzerland // Domestic Tratable Permits for Environmental Management,OECD, Paris ,2018c

Музаффар Джейхун оглы Дадашов
магистрант,
Севиндж Эльман кызы Казимова
доктор философии по географии,
sevinc.kazimova.elman@gmail.com,
Азербайджанский Университет Кооперации

Политика стран восточной европы в решении экологических и экономических проблем

Резюме

Одним из основных принципов развития и функционирования промышленности любой страны является учет экологических, экономических и социальных факторов, их предотвращение путем сокращения отходов производства и устранения негативного воздействия антропогенных факторов. Поэтому в стране считается важным проведение важных и неотложных мероприятий по использованию природной среды и обеспечению экологической безопасности, анализ экологической ситуации и проведение целенаправленной работы в направлении охраны окружающей среды в целях сбалансированного развития экономики.

Muzaffar Ceyhun Dadashov
master,
Sevinj Elman Kazimova
doctor of philosophy in geography,
sevinc.kazimova.elman@gmail.com,
Azerbaijan Cooperation University

The policy of Eastern European countries in solving ecological and economic problems

Summary

One of the main principles of the development and operation of any country's industry is to take into account environmental, economic and social factors, to prevent them by reducing waste generated in the production process, and to eliminate the negative impact of anthropogenic factors. Therefore, it is considered important to carry out important and urgent measures in the country for the use of the natural environment and ecological safety, to analyze the ecological situation, and to carry out motivated work in the direction of environmental protection for the purpose of balanced economic development.

Gülçin Mahir qızı BAYRAMOVA
magistrant,
gulcinbayramova1989@icloud.com,
Köçəri Şamil oğlu ALLAHVERDİYEV
coğrafiya üzrə fəlsəfə doktoru, dosent,
allahverdiyev_1956@mail.ru,
Azərbaycan Kooperasiya Universiteti

QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA ƏHALİNİN ƏRAZİ ÜZRƏ YERLƏŞMƏSİNİN COĞRAFİ XÜSUSİYYƏTLƏRİ

Quba-Xaçmaz iqtisadi rayonu əhali baxımından Azərbaycanın nəinki iri iqtisadi rayonlarından biri, həm də etnik, sosial və mədəni cəhətdən zəngin regionu hesab olunur. Regionun təbii-coğrafi şəraiti, kənd təsərrüfatı potensialı və turizm imkanları burada əhalinin məskunlaşmasına və artımına münbit zəmin yaratmışdır. Əhalinin sayı, sıxlığı və yerləşmə xüsusiyyətləri rayonun iqtisadi-coğrafi və sosial inkişafına birbaşa təsir göstərən mühüm amillərdəndir.

Quba–Xaçmaz iqtisadi rayonuna daxil olan 5 inzibati rayon üzrə təxmini əhali göstəriciləri aşağıdakı kimidir (2024-cü ilin rəsmi statistik məlumatlarına əsasən):

Cədvəl 1.

Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan 5 inzibati rayon üzrə təxmini əhali göstəriciləri

Rayon	Əhali sayı (nəfər)	Ərazi (kv.km)	Orta sıxlıq (nəf./kv.km)
Quba	170,000	~2600	~65
Qusar	100,000	~1500	~67
Xaçmaz	180,000	~1050	~171
Şabran	60,000	~1090	~55
Siyəzən	45,000	~700	~64
Cəmi	555,000	~6940	~80 nəfər/km² (orta)

Göründüyü kimi, Xaçmaz rayonu əhali sayına və sıxlığına görə regionda birinci yerdədir, bu isə onun düzənlik, kənd təsərrüfatına yararlı torpaqları və magistral yollar üzərində yerləşməsi ilə əlaqədardır.

Quba-Xaçmaz iqtisadi rayonunda əhalinin sıxlığı ölkə üzrə orta göstəriciyə yaxın (80 nəfər/km²

ətrafında) olsa da, bu göstərici rayon daxilində ciddi dəyişiklik göstərir.

Dağlıq ərazilərdə (Qusar, Quba) – relyefin sərtliyi, kəndlərin dağınıq yerləşməsi və iqlimin sərt olması səbəbindən əhali sıxlığı aşağıdır. Burada insanlar əsasən çay vadilərində, dağətəyi zonalarda məskunlaşıblar.

Düzənlik və sahilyanı ərazilərdə (Xaçmaz, Şabran) – münbit torpaqlar və təsərrüfat imkanları əhalinin sıx yerləşməsinə şərait yaradıb. Bu sahələrdə kəndlər bir-birinə daha yaxın yerləşir, infrastruktur inkişaf edib.

Siyəzən – sənaye potensialına və nəqliyyat yollarına yaxınlığına baxmayaraq, dağlıq və yarımsəhra landşaftları ilə əlaqədar əhali sıxlığı orta səviyyədədir.

Əhali artımı və miqrasiya bölgədə sosial-iqtisadi şəraitlə sıx bağlıdır. Quba-Xaçmaz iqtisadi rayonunda əhali dinamikası aşağıdakı istiqamətlərdə təhlil edilə bilər:

Təbii artım. Rayonlarda doğum səviyyəsi ölkə üzrə orta göstəriciyə yaxındır. Xüsusilə kənd ərazilərində doğum səviyyəsi nisbətən yüksəkdir. Təbii artım hesabına əhalinin illik artımı 1-1,5% təşkil edir [1].

Miqrasiya. Daxili miqrasiya: Gənclər və əmək qabiliyyətli insanlar əsasən iş axtarışı məqsədilə Bakı və Abşeron iqtisadi rayonlarına köç edirlər. Bu hal kəndlərdə əhalinin qocalması və boşalan kəndlərin sayının artmasına səbəb olur.

Geri qayıdan miqrasiya: Turizmin və aqrar sektorun inkişafı ilə əlaqədar bəzi hallarda insanlar doğma kəndlərinə qayıdaraq bağçılıq, arıçılıq və xidmət sahələrində fəaliyyət göstərməyə başlayırlar.

Quba-Xaçmaz iqtisadi rayonu əhalisinin əksəriyyəti kənd yerlərində yaşayır – bu göstərici 60–65% civarındadır. Şəhərləşmə nisbətən zəif inkişaf etmişdir. Ən böyük şəhərlər Xaçmaz, Quba və Qusar şəhərləridir, lakin burada da şəhər əhalisi sayca çox deyil.

Quba-Xaçmaz regionu etnik baxımdan zəngindir. Burada Azərbaycanın müxtəlif etnik qrupları dinc şəraitdə yaşayır:

- Azərbaycan türkləri – əsas əhalini təşkil edir
- Ləzgilər – Qusar və Quba rayonlarında məskunlaşıblar
- Tatlar, qrızlar, buduqlar, saxurlar, xınalıqlar – dağlıq kəndlərdə yaşayan etnik qruplardır
- Dağ yəhudiləri – əsasən Qubanın Qırmızı Qəsəbəsində yaşayır, bu icma dünyada unikal olaraq dağ yəhudilərinin kompakt yaşadığı nadir yerlərdən biridir.

Bu etnik-mədəni müxtəliflik bölgədə həm mədəni turizm, həm də folklorun qorunması baxımından əhəmiyyətlidir.

Quba-Xaçmaz iqtisadi rayonu Azərbaycanın etnik və mədəni baxımdan ən rəngarəng bölgələrindən biridir. Burada əsrlər boyu müxtəlif xalqlar və etnoslar yanaşı yaşamış, öz adət-ənənələrini, dillərini və mədəni irsini qoruyub saxlamışdır. Bu etnik müxtəliflik təkcə sosial həyatın deyil, həm də mədəni irsin, məişət mədəniyyətinin, sənətkarlığın və folklorun zənginliyində əks olunur.

Rayon əhalisinin əsas hissəsini azərbaycanlılar təşkil etsə də, burada ləzgilər, tatlar, qrızlar, saxurlar, udinlər, ruslar və ukraynalılar kimi bir çox azsaylı xalqlar da yaşayır. Onlar əsasən Quba, Qusar, Xaçmaz və Şabran rayonlarının dağlıq və dağətəyi kəndlərində məskunlaşıblar. Bu xalqların dil, mədəniyyət və din baxımından fərqli olmalarına baxmayaraq, bölgədə əsrlərdir formalaşmış qarşılıqlı tolerantlıq və multikultural dəyərlər birgəyaşayışı təmin edir.

Ləzgilər Qusar və Quba rayonlarında daha geniş yayılmış etnosdur. Onlar öz dil və mədəniyyətlərini aktiv şəkildə qoruyur, milli geyimlər, rəqslər, toy adətləri və şifahi xalq ədəbiyyatı kimi irslə bu zənginliyi gələcək nəsillərə ötürürlər. Ləzgilərin musiqi alətləri, xüsusilə də zurna və nağara ilə müşayiət olunan milli rəqsləri regionun mədəni həyatında xüsusi yer tutur [2].

Tatlar və qrızlar əsasən Quba rayonunun dağlıq kəndlərində yaşayır. Tat dili İran dilləri ailəsinə aiddir və bu etnos İslamın şiə məzhəbinə mənsubdur. Tatların məişəti, kənd təsərrüfatı ilə məşğul olmaları və xalq sənətkarlığı (toxuculuq, dulusçuluq) onların həyat tərzinin əsasını təşkil edir. Qrızlar isə özünəməxsus arxaik həyat tərzini bu gün də qoruyub saxlamış azsaylı Qafqaz xalqlarındandır. Qrız dilində danışan bu etnik qrup Azərbaycanın qədim mədəni təbəqələrindən biri hesab olunur.

Saxurlar və udinlər isə daha az sayda olsalar da, öz etnik və dini kimliklərini qoruyan xalqlar-

dandır. Udinlər əsasən xristiandırlar və qədim Qafqaz Albaniyasının varisləri kimi qəbul olunurlar. Onların dini ayinləri, ibadət məkanları və mətbəx mədəniyyəti regionun dini və etnik palitrasını zənginləşdirir.

Pedaqoji baxımdan multimedia yanaşması tələbələrin öyrənmə motivasiyasını və yaradıcı fəallığını artırır. Tədqiqatlar göstərir ki, audiovizual materiallardan istifadə zamanı yaddaşda saxlanılan məlumat həcmi 40–50% çoxalır [5, s.104]. Bu isə öyrənmənin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir. Eyni zamanda, multimedia yanaşmasının sosial tərəfi regionlarda təhsil bərabərliyinin təmin edilməsinə, distant və hibrid təhsil modellərinin inkişafına şərait yaradır. Elektron dərsliklər və onlayn resurslar vasitəsilə təhsil daha çevik, interaktiv və inklüziv xarakter alır.

Təhsil prosesində multimedia yanaşmasının formalaşması müasir pedaqoji transformasiyanın mühüm istiqamətlərindən biridir. Onun məqsədyönlü və elmi əsaslarla tətbiqi təlimin səmərəliliyini artırır, müəllim və tələbə arasında interaktiv əlaqə yaradır və fərdiləşdirilmiş öyrənmə

modelinin formalaşmasına zəmin yaradır. Gələcəkdə multimedia texnologiyalarının süni intellekt və adaptiv təlim sistemləri ilə inteqrasiyası təhsildə tam yeni mərhələnin başlanğıcı olacaqdır. Bu istiqamətdə pedaqoji kadr hazırlığının və texniki infrastrukturun gücləndirilməsi zəruridir.

ƏDƏBİYYAT

1. Əliyeva, S. (2021). Tədris prosesində İKT-nin tətbiqi problemləri və perspektivləri. Bakı: Elm və Təhsil.
2. Mayer, R. E. (2020). Multimedia Learning: Principles and Applications. Cambridge University Press.
3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. (2022). "Rəqəmsal bacarıqlar" proqramı üzrə hesabat. Bakı.
4. UNESCO. (2021). Digital Education and Inclusion: Global Trends and Practices. Paris: UNESCO Publishing.
5. Clark, R. & Lyons, C. (2019). Graphics for Learning: Proven Guidelines for Planning, Designing, and Evaluating Visuals in Training Materials. San Francisco: Pfeiffer.

Карим Эльхан оглы Абасов
магистрант,
Гюльсум Шамиль кызы Бадирзаде
доктор экономических наук, доцент,
Азербайджанский Университет Кооперации

Формирование и особенности применения мультимедийного подхода в образовательном процессе

Резюме

В тезисе анализируются теоретические основы формирования мультимедийного подхода в образовательном процессе и его педагогические особенности применения. Развитие информационно-коммуникационных технологий изменило формы передачи и восприятия знаний, сформировав новые интерактивные модели взаимодействия между преподавателем и обучающимся. Установлено, что мультимедийный подход усиливает мотивацию к обучению, обеспечивает более эффективное использование образовательных ресурсов и расширяет возможности индивидуального обучения.

Karim Elkhan Abasov
master,
Gulsum Shamil Badirzade
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Formation and application features of multimedıa approach in the educational process

Summary

The thesis analyzes the theoretical foundations of the formation of the multimedia approach in the educational process and its pedagogical application features. The development of information and communication technologies has changed the forms of knowledge transfer and perception, creating new interactive models of teacher–student interaction. The research shows that the multimedia approach enhances learning motivation, ensures more effective use of educational resources, and expands opportunities for individualized learning.

Fərhad Oktay oğlu BAYRAMOV
magistrant,
Sara İbrahim qızı Səfərova
fizika-riyaziyyat elmləri namizədi, dosent,
Azərbaycan Kooperasiya Universiteti

SÜNİ İNTELLEKT SİSTEMLƏRİNDƏ İNFORMASİYANIN KODLAŞDIRILMASI VƏ İNTERPRETASİYASI

Süni intellekt sistemlərinin qərar qəbuletmə keyfiyyəti ilkin informasiyanın necə təqdim olunması (kodlaşdırılması) və model çıxışlarının necə şərh edilməsi (interpretasiyası) ilə sıx bağlıdır. Kodlaşdırma mərhələsində seçilən nümayəndəlik (representation) modeli məlumatdan öyrənilən xüsusiyyətlərin informativliyini, interpretasiya mərhələsi isə nəticələrin insan tərəfindən yoxlanmasını və etibarlılığını müəyyənləşdirir. Rəqəmsal transformasiya kontekstində dövlət və biznes qərarlarının Sİ ilə dəstəklənməsi məlumat idarəetməsinin şəffaflığına, model izaholunurluğuna və risklərin idarəsinə dair yeni tələblər formalaşdırır [2, s.33–36]. Azərbaycanın Süni İntellekt Strategiyası (2025–2028) da məhz etibarlı, məsuliyyətli və izah edilə bilən Sİ prinsiplərini prioritetləşdirir [1, s.12–18].

Kodlaşdırma verilənlərin riyazi məkana xəritələnməsidir. Paylanmış təsvirlər (distributed representations) neyron şəbəkələrdə semantik yaxınlığı embedding vektorlarının məsafələri ilə modelləşdirir; dil modellərində söz-, cümlə- və sənəd-embedding-ləri konteksti saxlayaraq ardıcıllıq asılılıqlarını təmsil edir. Diskret-simvolik təqdimatlar (qaydalar, qraf strukturları, bilik bazaları) çıxışların formal izahını asanlaşdırır, lakin mürəkkəb, səsli mühitlərdə elastiklik məhduddur. Hibrit (neuro-symbolic) yanaşmalar paylanmış təsvirlərin ifadə gücünü simvolik qaydaların izahlılığı ilə birləşdirərək həm proqnoz dəqiqliyini, həm də audit imkanlarını artırır. Vizual domendə konvolyusion və transformer arxitekturaları çoxölçülü təsvirləri patch-və ya feature-məkanlarında kodlaşdırır; bu kodların məlumat sıxlığı (information bottleneck) modelin ümumiləşdirmə qabiliyyətinə təsir edir. Praktik nəticə: kodun seçimi tapşırıq-spesifik olmalıdır–məsələn, kredit skorinqində izaholunan xüsusiyyət məkanları tənzimləyici audit üçün üstünlük təşkil edir; tibbi görüntülərdə isə zəngin paylanmış kodlar diaqnostik həssaslığı artırır [5, s.101–109].

Post-hoc metodlar (LIME, SHAP) qara-qutu modellərin lokal (nümunə səviyyəsində) və qlobal (xüsusiyyət səviyyəsində) təsir paylarını qiymətləndirir; bu, qərarın hansı atributlara söykəndiyini görünən edir [5, s.104–112]. İntrinzik interpretasiya arxitektura səviyyəsində izahlılığı dizayn edir: sparse linear modellər, qayda-əsaslı ağaclar, attention mexanizmləri və ya self-explaining modul-şəbəkələr. Kausal interpretasiya isə korrelyasiya deyil, səbəb-nəticə əlaqələrini bərpa etməyə çalışır; müdaxilə (intervention) və əks-faktual (counterfactual) analizlər qərarların dayanıqlığını və ədalətliliyini qiymətləndirməyə imkan verir [4, s.55–62]. Tənzimləyici baxımdan, izahla təmin olunmuş qərarlar hesabatlılıq (accountability) və müdafiəediləbilənlik tələblərinə cavab verir; milli strateji sənədlər interpretasiya mexanizmlərini etik-hüquqi uyğunluğun əsas elementi kimi vurğulayır [1, s.16–18; 3, s.57–63].

Sİ-də kodlaşdırılmış təsvirlər çox zaman həssas atributları dolayı yolla daşıya bilər (məs., dillə bağlı, region-spesifik nümunələr); bu, məxfilik (privacy) və ədalətlilik (fairness) risklərini yüksəldir. Diferensial məxfilik, federativ öyrənmə və təhlükəsiz çoxtərəfli hesablama kimi texnikalar məlumatın kodlaşdırılması və model yenilənməsi prosesində məxfilik pozuntularını məhdudlaşdırır. Kodların təhlükəsizliyi üçün model çıxışlarından data rekonstruksiyası, membership inference və model inversion kimi hücumlara qarşı müdafiələr tətbiq olunmalıdır. Azərbaycanın strateji sənədlərində qeyd olunan məsuliyyətli Sİ çərçivələri–audit logları, model versiyalaşdırma, data lineage–institusional dayanıqlığı gücləndirir [2, s.38–41].

"Azərbaycanın Süni İntellekt Strategiyası (2025–2028)" (SİS) sektorlar üzrə (maliyyə, səhiyyə, aqrar, nəqliyyat) etibarlı və izahediləbilən Sİ tətbiqlərini prioritetləşdirir; bu, kodlaşdırma-interpretasiya zəncirində keyfiyyət standartları (məlumat quruluşu, metaverilənlər, xüsusiyyət idarəetməsi) və risk əsaslı idarəetmə mexanizmləri tələb edir [1, s.12–18]. "Rəqəmsal Transformasiya

Konsepsiyası” isə məlumat infrastrukturunun lyuksasiya və interoperabellik tələblərini müəyyənləşdirərək, Sİ pipeline-larında dövlət məlumat dəstlərinin istifadəsi üçün texniki-hüquqi uyğunluq təmin edir [2, s.33–36]. Yerli tətbiqlərdə (məs., aqrar monitorinq, tibbi triac, maliyyə risk-skorinqi) hibrit kodlaşdırma və audityönümlü interpretasiya kombinasiyaları həm də standartlaşdırma mühitində hesabatlı qərar dəstəyi yaradır [3, s.57–63].

Sİ sistemlərində informasiyanın kodlaşdırılması və interpretasiyası yalnız texniki mərhələ deyil, eyni zamanda idarəetmə, etik və tənzimləyici tələblərin kəsişdiyi strateji sahədir. Kodlaşdırma seçimi modelin öyrənmə qabiliyyətini və generalizasiya potensialını, interpretasiya isə qərarların etibarlılığını və audit olunmasını müəyyən edir. Azərbaycan kontekstində izah edilə bilən Sİ yanaşmalarının milli strategiya və konsepsiyalarla uzlaşdırılması həm innovasiya sürətini, həm də ictimai etibarı artırır. Gələcək tədqiqatlarda neuro-symbolic inteqrasiya, kausal izah və məxfilik-idarəli öyrənmə xəttinin dərinləşdirilməsi Sİ-nin məsuliyyətli miqyaslanması üçün prioritet olmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycanın Süni İntellekt Strategiyası (2025–2028). Bakı: rəsmi strateji sənəd. [s.12–18]
2. Rəqəmsal Transformasiya Konsepsiyası. (2022). Bakı: NK-nın qərarı. [s.33–41]
3. OECD (2023). Trustworthy AI in Practice: From Principles to Implementation. Paris: OECD Publishing. [s.57–63]
4. Pearl, J., Mackenzie, D. (2018). The Book of Why: The New Science of Cause and Effect. Basic Books. [s.55–62]
5. Molnar, C. (2022). Interpretable Machine Learning. (2nd ed.). Lulu. [pp.101–109]

Фархад Октай оглы Байрамов
магистрант,
Сафарова Сара Ибрагим кызы
кандидат физико-математических наук, доцент,
Азербайджанский Университет Кооперации

Кодирование и интерпретация информации в системах искусственного интеллекта

Резюме

В статье исследуются теоретико-методологические основы и прикладные механизмы кодирования и интерпретации информации в системах искусственного интеллекта. На уровне кодирования рассматриваются математические формы представления данных (векторизация, эмбеддинги, дискретно-символьные и распределённые представления) и их связь с динамикой обучения моделей. На этапе интерпретации анализируются post-hoc методы (LIME, SHAP), внутренне интерпретируемые архитектуры и каузальный анализ. Показано, что построение объяснимого ИИ в соответствии с национальными нормативами (Стратегия ИИ Азербайджана, Концепция цифровой трансформации) критично для безопасности и правовой соответствия.

Farhad Oktay Bayramov
master,
Safarova Sara Ibrahim
candidate of physical and mathematical sciences, associate professor,
Azerbaijan Cooperation University

Information coding and interpretation in artificial intelligence systems

Summary

This paper examines the theoretical and practical mechanisms of information encoding and interpretation in AI systems. At the encoding level, we discuss mathematical data representations

(vectorization, embeddings, discrete-symbolic and distributed representations) and their interplay with model learning dynamics. At the interpretation level, we highlight post-hoc methods (LIME, SHAP), intrinsically interpretable architectures, and causal analysis, emphasizing their role in trustworthy decision-making. We argue that aligning explainable AI frameworks with Azerbaijan's national policies (AI Strategy, Digital Transformation Concept) is strategically important for safety and regulatory compliance.

Gündüz Vahid oğlu BİNNƏTOV
magistrant,
Gülsüm Şamil qızı BƏDİRZADƏ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

BULUD TEXNOLOGİYALARINDA MƏLUMAT TƏHLÜKƏSİZLİYİ PROBLEMLƏRİ VƏ HƏLL MEXANİZMLƏRİ

Müasir dövrdə bulud texnologiyaları informasiya sistemlərinin əsas komponentlərindən birinə çevrilərək məlumatların emalı, saxlanması və ötürülməsi sahəsində yeni texnoloji mərhələ yaratmışdır. Bulud infrastrukturu təşkilatlara böyük həcmdə verilənlərin mərkəzləşdirilmiş idarəetməsini, resursların dinamik bölüşdürülməsini və xərclərin azaldılmasını təmin edir. Lakin bu üstünlüklərlə yanaşı, məlumat təhlükəsizliyi baxımından bir sıra problemlər də meydana çıxır. Bu problemlər əsasən məlumatların üçüncü tərəf serverlərində saxlanılması, hüquqi məsuliyyətin bölüşdürülməməsi, identifikasiya və autentifikasiya mexanizmlərinin zəifliyi, eləcə də bulud xidmət təminatçılarının kibertəhlükəsizlik siyasətlərində fərqliliklərlə bağlıdır [3, s.47].

Bulud texnologiyalarında məlumat təhlükəsizliyinin təmin olunmasında əsas risklərdən biri məlumatların məxfiliyinin itirilməsi və icazəsiz girişlərin baş verməsidir. Paylanmış sistem arxitekturası şəraitində məlumatın müxtəlif coğrafi mərkəzlərdə saxlanılması həm idarəetmə, həm də hüquqi nəzarət baxımından çətinlik yaradır. Eyni zamanda, "multi-tenant" (çoxistifadəçilik) mühitlərdə resursların paylaşılması məlumat sızması ehtimalını artırır. Bu baxımdan təhlükəsizlik strategiyaları yalnız texniki deyil, həm də təşkilati və hüquqi aspektləri əhatə etməlidir [5, s.112].

Azərbaycan Respublikasında bulud texnologiyalarının tətbiqi "Rəqəmsal Transformasiya Konsepsiyası" (2021) və "Hökumət buludu" (G-Cloud) layihəsi çərçivəsində həyata keçirilir. Dövlət orqanlarının və informasiya ehtiyatlarının G-Cloud sisteminə inteqrasiyası rəqəmsal idarəetmədə çeviklik və səmərəlilik təmin etsə də, bu platformada məlumatların təhlükəsizliyinə dair vahid milli standartların tam formalaşmaması müəyyən risklər yaradır. Bununla əlaqədar olaraq, ISO/IEC 27017 (Cloud Security), ISO/IEC 27018 (Data Protection in Cloud Computing) kimi beynəlxalq standartların tətbiqi və bulud xidmət təminatçılarının sertifikasiyadan keçirilməsi zəruridir [1, s.15].

Problemlərin həlli istiqamətində əsas mexanizmlərdən biri kriptoloji qoruma sistemlərinin və end-to-end (E2E) şifrələmə metodlarının tətbiqidir. Bu texnologiyalar məlumatların ötürülməsi və saxlanması prosesində məxfilik, bütövlük və autentiklik prinsiplərini təmin etməyə yönəlmişdir. Kriptoloji sistemlərdə asimmetrik açar alqoritmləri (RSA, ECC), hibrid şifrələmə modelləri və simmetrik metodlar (AES, ChaCha20) istifadə olunur ki, bu da məlumatların həm tranzitdə, həm də "istirahət" vəziyyətində qorunmasına imkan yaradır. End-to-end şifrələmə isə məlumatın yalnız göndərici və alıcı tərəfindən oxuna bilməsini təmin etməklə üçüncü tərəfin müdaxilə ehtimalını minimuma endirir. Bu yanaşma xüsusilə bulud əsaslı platformalarda, onlayn xidmətlərdə və korporativ kommunikasiya sistemlərində mühüm əhəmiyyət kəsb edir [4, s.93].

Digər mühüm istiqamət Zero Trust (Sıfır Etibar) arxitekturasının bulud mühitlərinə inteqrasiyasıdır. Ənənəvi təhlükəsizlik modellərindən fərqli olaraq, Zero Trust konsepsiyası "heç kimə, heç nəyə əvvəlcədən etibar etmə" prinsipinə əsaslanır. Bu modeldə hər bir istifadəçi, cihaz və proqram təminatı komponenti sistemə daxil olmadan öncə çoxfaktorlu autentifikasiya (MFA), real vaxtda

risk analizi və davranış əsaslı identifikasiya mərhələlərindən keçir. Nəticədə, daxili şəbəkə daxilində belə icazəsiz giriş və zərərli fəaliyyətlərin aşkarlanması daha sürətli və effektiv olur. Zero Trust yanaşması həmçinin mikroseqmentasiya texnologiyasına əsaslanır – bu, məlumat axınlarının kiçik mühitlər üzrə izolyasiyasını təmin edərək potensial hücumların genişlənməsinin qarşısını alır.

Bununla yanaşı, blokçeyn texnologiyalarının bulud mühitlərində tətbiqi məlumat təhlükəsizliyi sistemlərinə tamamilə yeni keyfiyyət gətirir. Blokçeyn paylanmış reyestr (distributed ledger) prinsipinə əsaslanır və burada bütün əməliyyatlar ardıcıl bloklarda, dəyişdirilməz və kriptoqrafik cəhətdən qorunan formada saxlanılır. Bu xüsusiyyət bulud mühitlərində şəffaflıq, izlənəbilərlik və əməliyyatların doğrulanması imkanlarını artırır. Məlumatın manipulyasiyası və ya saxtalaşdırılması faktiki olaraq mümkünsüzləşir, çünki hər bir dəyişiklik bütün şəbəkə iştirakçıları tərəfindən təsdiqlənməlidir. Bundan əlavə, blokçeyn əsaslı ağıllı müqavilələr (smart contracts) vasitəsilə məlumat mübadiləsi və autentifikasiya prosesləri avtomatlaşdırıla bilər ki, bu da bulud xidmətlərinin təhlükəsizlik səviyyəsini əhəmiyyətli dərəcədə artırır.

Bu üç yanaşmanın – kriptoqrafik şifrələmə, Zero Trust arxitekturası və blokçeyn əsaslı təhlükəsizlik mexanizmlərinin – kombinasiyası bulud mühitlərində çoxsəviyyəli müdafiə sisteminin formalaşdırılmasına gətirib çıxarır. Belə inteqrasiya olunmuş modellər yalnız məlumatın məxfiliyini deyil, həm də əməliyyatların şəffaflığını və xidmətlərin etibarlılığını təmin edir.Bulud texnologiyalarında təhlükəsizlik səviyyəsinin yüksəldilməsi üçün süni intellekt əsaslı nəzarət sistemlərinin tətbiqi də getdikcə aktuallaşır. Bu sistemlər kiberhücumların erkən aşkarlanması, anomaliyaların təhlili və resursların adaptiv müdafiəsi sahəsində effektiv nəticələr verir. Azərbaycanın milli kibertəhlükəsizlik strategiyasında bu istiqamətin inkişafı prioritet kimi müəyyən olunmuş, həm dövlət, həm də özəl sektor səviyyəsində informasiya təhlükəsizliyi üzrə kadr hazırlığına diqqət artırılmışdır [2, s.22]. Nəticə etibarilə, bulud texnologiyalarında məlumat təhlükəsizliyinin təmin olunması rəqəmsal iqtisadiyyatın davamlı inkişafı üçün əsas şərtlərdəndir. Bu məqsədlə dövlət siyasətində normativ-hüquqi çərçivənin gücləndirilməsi, beynəlxalq təhlükəsizlik standartlarının milli səviyyədə tətbiqi, eləcə də innovativ texnoloji həllərin – kriptoqrafiya, blokçeyn, süni intellekt və Zero Trust modellərinin – inteqrasiyası zəruridir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Rəqəmsal Transformasiya Konsepsiyası, 2021.
2. Azərbaycan Respublikasının Kibertəhlükəsizlik Strategiyası, 2022.
3. Stallings, W. (2022). Network Security Essentials: Applications and Standards. Pearson.
4. Hashizume, K., Rosado, D. G., Fernández-Medina, E., & Fernandez, E. B. (2023). An analysis of security issues for cloud computing. Journal of Internet Services and Applications.
5. ISO/IEC 27017:2022 – Information Security Controls for Cloud Services.

Гюндуз Вахид оглы Биннатов
магистрант,
Гюльсум Шамиль кызы Бадирзаде
доктор экономических наук, доцент,
Азербайджанский Университет Кооперации

Проблемы информационной безопасности и механизмы их решения в облачных технологиях

Резюме

В тезисе исследуются проблемы обеспечения информационной безопасности в облачных технологиях и предлагаются основные механизмы их решения. Проанализированы факторы риска, правовые аспекты и современные технологические подходы. Применение криптографических методов, архитектуры Zero Trust и систем на основе искусственного интеллекта рассматриваются как ключевые направления совершенствования.

Gunduz Vahid Binnatov
master,
Gulsum Shamil Badirzade
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Information security problems and solution mechanisms in cloud technologies

Summary

The thesis examines information security issues in cloud technologies and proposes key mechanisms for their resolution. It analyzes risk factors, legal frameworks, and modern technological solutions. The implementation of cryptographic methods, Zero Trust architecture, and AI-based security systems are highlighted as major directions for improvement.

Şahin Araz oğlu KƏRİMLİ
magistrant,
Çingiz Allahyar oğlu İBRAHİMLİ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

BEYNƏLXALQ TİCARƏTDƏ İNTERNET ŞƏBƏKƏSİNDƏN İSTİFADƏNİN XÜSUSİYYƏTLƏRİ

Müasir dövrdə üstünlüklərinə baxmayaraq, beynəlxalq ticarət gömrük maneələri və bürokratiya, valyuta məzənnələrinin dəyişkənliyi, ətraf mühit və logistika məhdudiyyətləri, geosiyasi qeyri-sabitlik kimi bir sıra çətinliklərlə üzləşir. Belə ki, mürəkkəb gömrük qaydaları, valyuta dəyişkənliyi və beynəlxalq nəqliyyatla əlaqəli ekoloji risklər sabit ticarətə mane olur. Lakin rəqəmsal texnologiyaların, avtomatlaşdırmanın və beynəlxalq əməkdaşlığın istifadəsi bu çətinliklərin öhdəsindən gəlməyə kömək edə bilər. [5]

Hazırda dünya iqtisadiyyatının inkişafı və qloballaşma proseslərinin sürətlənməsi nəticəsində internet texnologiyalarının beynəlxalq ticarətdə rolu əhəmiyyətli dərəcədə artmışdır. İnternet şəbəkəsi artıq sadəcə məlumat mübadiləsi vasitəsi deyil, həm də qlobal iqtisadi münasibətlərin, kommersiya əməliyyatlarının və biznes əlaqələrinin əsas platformasına çevrilmişdir. Beynəlxalq ticarətdə internetin geniş tətbiqi yeni iqtisadi münasibət formalarını meydana gətirmiş, ənənəvi ticarət modellərini dəyişmiş və qlobal bazarların fəaliyyət mexanizmini modernləşdirmişdir.

Beynəlxalq ticarət sahəsi, xüsusən də qlobal informasiya texnologiyaları və onların əsasında formalaşan yüksək sürətli elektron şəbəkələr beynəlxalq aləmdə mal və xidmət istehsalçıları, vasitəçiləri və istehlakçıları arasında yeni sosial münasibətlərin yaranmasına səbəb oldu. Beləliklə, elektron ticarət şirkətlərin sərhədlərarası əməliyyatları daha səmərəli və çevik şəkildə həyata keçirməsinə, qlobal təchizatçılarla daha sıx əlaqə qurmasına və müştəri tələblərinə daha sürətli cavab verməsinə imkan verir. Şirkətlər coğrafi və siyasi sərhədlərindən asılı olmayaraq, tədarükçüləri seçmək, mal və xidmətlərlə dünya bazarına çıxmaq imkanı əldə edirlər. Beynəlxalq əmək bölgüsünün inkişafındakı hazırkı mərhələ vahid bir geoiqtisadi məkanın formalaşması ilə xarakterizə olunur [3:78]

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və Birləşmiş Millətlər Təşkilatının birgə agentliyi olan Beynəlxalq Ticarət Mərkəzinin (BTM) hesabatına əsasən rəqəmsal ticarətin həcmi 2020-2024-cü illərdə 4,59 trilyon dollardan 7,23 trilyon dollara qədər artmışdır. Bu göstərici üzrə orta illik artım tempi 12,1% təşkil etmişdir ki, bu da ümumi qlobal ticarət üzrə göstəriciyə (9,7%) nisbətən daha sürətlidir. Rəqəmsal şəkildə göstərilən xidmətlər də ən böyük payı təşkil etməklə sabit şəkildə artmışdır. Alibaba, Amazon, Shopee və TikTok Shop kimi platformaların rəhbərlik etdiyi rəqəmsal sifarişli ticarət daha da sürətlə, ildə 16,7% artdı.[2]

İnternetin beynəlxalq ticarətdə istifadəsi bir sıra üstünlüklərlə müşayiət olunur. İlk növbədə, internet vasitəsilə məlumatların sürətli və operativ şəkildə ötürülməsi təmin edilir. Bu, beynəlxalq bazarlarda fəaliyyət göstərən şirkətlərə bazar konyunkturasını, qiymət dəyişikliklərini, tələb və təklif nisbətlərini, həmçinin rəqiblərin fəaliyyətini izləmək imkanı yaradır. İnformasiya axınının artması nəticəsində şirkətlər daha rasional qərarlar qəbul edir, marketinq strategiyalarını optimallaşdırır və bazarda çevik davranış nümayiş etdirirlər.

İnternet şəbəkəsinin ticarətdə tətbiqi kiçik və orta sahibkarlıq subyektlərinin də qlobal bazarlara çıxış imkanlarını genişləndirmişdir. Əgər əvvəllər beynəlxalq ticarət yalnız iri korporasiyaların imtiyazı idisə, bu gün "Amazon", "Alibaba", "eBay" kimi elektron ticarət platformaları vasitəsilə kiçik müəssisələr də məhsullarını dünyanın istənilən nöqtəsində alıcılara təqdim edə bilirlər. Beləliklə, internet bərabər rəqabət şəraiti yaradaraq, ticarətin inklüzivliyini artırmışdır.

İnternetdən istifadənin başqa bir mühüm xüsusiyyəti əməliyyat xərclərinin azalması ilə bağlıdır. Onlayn satış və marketinq üsulları ənənəvi ticarət modellərinə nisbətən daha az maliyyə resursu tələb edir. Şirkətlər fiziki mağaza xərclərindən, reklam və satış məkanlarına çəkilən əlavə məsrəflərdən azad olur. Bununla yanaşı, müasir internet texnologiyaları – rəqəmsal reklam, sosial media marketinqi, SEO və analitika alətləri vasitəsilə şirkətlər hədəf auditoriyasına daha effektiv şəkildə çata bilir.

Elektron kommersiyanın (e-commerce) beynəlxalq ticarətə təsiri xüsusilə diqqətəlayiqdir. Ənənəvi ticarət modelində istehsalçı ilə istehlakçı arasında çoxsaylı vasitəçilər mövcud idisə, elektron kommersiya bu zənciri xeyli sadələşdirərək, birbaşa istehsalçıdan istehlakçıya satış mexanizmini təmin etmişdir. Bu dəyişiklik məhsulların qiymətinin azalmasına, bazarda rəqabətin artmasına və müştəri məmnuniyyətinin yüksəlməsinə səbəb olmuşdur. Eyni zamanda, elektron ticarət platformaları alıcıların seçim imkanlarını genişləndirir və fərdiləşdirilmiş təkliflər təqdim etməyə şərait yaradır.

Təsadüfi deyil ki, 26 iyul 2024-cü ildə ÜTT 91 ölkənin yeni elektron ticarət qaydalarına razılıq verdiyini açıqladı. Bunlara sərhədlərarası rəqəmsal məlumat köçürmələrinin vergiyə cəlb edilməsinə qoyulan moratoriumun uzadılması da daxildir. "The Register" qəzetinin məlumatına görə, müqavilə internet vasitəsilə ötürülən demək olar ki, hər şeyi: video, audio və digər məzmunu əhatə etdiyi üçün əhəmiyyətlidir. Sənəddə qeyd olunur ki, heç bir tərəf müxtəlif ölkələrdən olan şəxslər arasında elektron məlumat mübadiləsinə gömrük rüsumları tətbiq edə bilməz. Sərbəst informasiya axınının kiçik və orta sahibkarlığın və ümumiyyətlə elektron ticarətin inkişafına kömək edəcəyi gözlənilir. Eyni zamanda, müqavilə, hər hansı bir dövlətin bu cür tədbirləri həyata keçirmək istədiyi təqdirdə, gələcəkdə rəqəmsal məlumatların ötürülməsi ilə bağlı daxili vergilərin, rüsumların və ya digər ödənişlərin tətbiq edilməsinə imkan verir. İmzalanmış sənəddə imza atan ölkələrin "ədalətsiz kommersiya mənfəəti üçün trafikin qarşısını almayan və ya yavaşlatmayan ağlabatan şəbəkə idarəetməsi şərtilə" internetə çıxış təmin etməsi tələbi yer alır. [4]

İnternetin beynəlxalq ticarətdə istifadəsinin mühüm üstünlüklərindən biri də inteqrasiya olunmuş ödəniş və logistika sistemlərinin inkişafıdır. Beynəlxalq ödəniş sistemləri – PayPal, Visa, MasterCard, Revolut və digərləri, əməliyyatların təhlükəsiz və sürətli şəkildə həyata keçirilməsini təmin edir. Bununla yanaşı, "FedEx", "DHL", "UPS" kimi beynəlxalq logistik şirkətlər internet platformaları ilə inteqrasiya olunaraq məhsulların dünyanın istənilən nöqtəsinə çatdırılmasını asanlaşdırır.

Bununla belə, internet ticarətinin beynəlxalq səviyyədə tətbiqi bəzi problemləri də gündəmə gətirir. Kiber təhlükəsizlik, məlumatların qorunması, beynəlxalq hüquqi tənzimləmələrin fərqliliyi və onlayn fırıldaqçılıq riskləri bu sahənin əsas çətinlikləri hesab olunur. Eyni zamanda, bəzi inkişaf etməkdə olan ölkələrdə internet infrastrukturu və rəqəmsal savadlılıq səviyyəsinin aşağı olması beynəlxalq ticarətdə rəqəmsal bərabərsizliyə səbəb olur.

Son illərdə ölkəmizdə e-biznesin davamlı inkişafının təmin edilməsi məqsədilə hüquqi, infrastruktur, ödəmə mexanizmlərinin təmin edilməsi sahəsində iqtisadi, inzibati və maarifləndirici tədbirlər həyata keçirilməkdədir. Azərbaycanın yerləşdiyi əlverişli geostrateji mövqe ənənəvi ticarətdə olduğu kimi e-biznes sahəsində də müəyyən üstünlüklər əldə etməsi üçün yeni imkanlar yaradır. Bakının mühüm nəqliyyat-logistika mərkəzinə çevrilməsi istiqamətində atılan addımlar,

beynəlxalq e-ticarət məhsullarının poçt vasitəsilə sifarişçilərə çatdırılması baxımından ölkəmiz üçün əlverişli imkanlar yaradır. 2016-cı ildən etibarən "Azərpoçt" MMC və "Silk Way" Aviaşirkəti arasında bağlanmış əməkdaşlıq müqaviləsinə əsasən Çin Xalq Respublikasında sifariş olunan e-kommersiya məhsullarının MDB və digər ölkələrə çatdırılması həyata keçirilir. Qeyd etmək lazımdır ki, Respublikamızda transsərhəd e-ticarətdə sədlərin azalmasına kömək məqsədilə 06.03.2018-ci ildə BMT-nin Beynəlxalq müqavilələrdə e-kommunikasiyaların istifadəsinə dair Konvensiyası ratifikasiya edilmişdir. Bununla yanaşı, Avropa Komissiyasının "Şərq Tərəfdaşlığı" ölkələrində "Rəqəmsal Bazarların Uyğunlaşdırılması" təşəbbüsü çərçivəsində e-ticarətin inkişafı ilə bağlı elektron imzanın qarşılıqlı tanınması məqsədilə qanunvericiliyin inkişaf etdirilməsi, transsərhəd məlumat mübadiləsi, kibertəhlükəsizlik və s. istiqamətlərdə əməkdaşlıq genişlənir.[1: 55]

Beləliklə, internet yalnız kommunikasiya vasitəsi deyil, həm də beynəlxalq ticarətin gələcək inkişaf strategiyasını müəyyən edən əsas texnoloji dayaqlardan biridir. Odur ki, internet şəbəkəsindən istifadənin beynəlxalq ticarətin transformasiyasında mühüm rol oynaması şübhəsizdir. İnternet şəbəkəsi ticarətin sürətini, səmərəliliyini və şəffaflığını artıraraq, dünya iqtisadi əlaqələrinin rəqəmsal əsasda formalaşmasına şərait yaradacaqdır. Müasir dövrdə rəqəmsallaşma beynəlxalq iqtisadi münasibətlərin ayrılmaz hissəsinə çevrilmişdir və gələcəkdə bu prosesin daha da dərinləşəcəyini nəzərə alaraq onun potensial imkanlarından düzgün istifadə olunmalıdır. Xüsusən də süni intellekt, blokçeyn, "ağıllı müqavilələr" və bulud texnologiyalarının tətbiqi yolu ilə beynəlxalq ticarətin tam rəqəmsallaşması, əməliyyatların şəffaf və təhlükəsiz şəkildə həyata keçirilməsi bu sahədə yüksək səmərəliliyə səbəb ola bilər.

ƏDƏBİYYAT

1. İbrahimli Ç.A. Elektron biznesin inkişafının iqtisadiyyata təsirinin tədqiqi. // AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2019 (sentyabr-oktyabr) səh. 50-57.
2. International Trade Centre (2025). Global Digital Trade Development Report 2025. ITC, Geneva. https://www.intracen.org/file/0103041315pdf
3. Nəcəfova Ç.M. Beynəlxalq ticarət əlaqələri sistemində elektron ticarətin mahiyyəti // Sumqayıt Dövlət Universiteti – "ELMİ XƏBƏRLƏR"– Sosial və humanitar elmlər bölməsi, Cild 17, №1, 2021, s. 78-81.
4. Интернет-торговля в мире. https://www.tadviser.ru/index.php/
5. Принципы международной торговли и её преимущества https://ddtlogistic.com/ru/

Шахин Араз оглы Керимли
магистрант,
Чингиз Аллахьяр оглы Ибрагимли
доктор философии по экономике, доцент,
Азербайджанский Университет Кооперации

Особенности использования интернета в международной торговле

Резюме

В тезисе рассматриваются основные трудности и проблемы, наблюдаемые в настоящее время, а также преимущества международной торговли. На основе анализа статистических показателей исследуются значение и роль глобальных интернет-технологий в этой сфере. Исследован опыт развития сети Интернет и трансграничной электронной торговли в международной торговле. На основе обобщения полученных результатов выдвигаются предложения по повышению эффективности использования сети Интернет в международной торговле.

Shahın Araz Karimli
master,
Chingiz Allahyar Ibrahimli
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Features of using the internet in international trade

Summary

The thesis examines the main difficulties and challenges observed in modern times, along with the advantages of international trade. Based on the analysis of statistical indicators, the importance and role of global Internet technologies in this field are examined. The experience of the development of the Internet network and cross-border electronic trade in international trade is examined. Based on the generalization of the results obtained, proposals are put forward to increase the efficiency of using the Internet network in international trade.

İsa Oktay oğlu MƏMMƏDLİ
magistrant,
Gülsüm Şamil qızı BƏDİRZADƏ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

ELEKTRON DÖVLƏT SİSTEMLƏRİNDƏ MƏLUMAT TƏHLÜKƏSİZLİYİ VƏ ŞƏXSİ MƏLUMATLARIN QORUNMASI

Rəqəmsal transformasiyanın sürətləndiyi müasir dövrdə elektron dövlət (e-hökumət) sistemlərinin təhlükəsiz fəaliyyəti milli informasiya təhlükəsizliyi strategiyasının əsas komponentlərindən biri kimi çıxış edir. Elektron dövlət xidmətləri dövlət idarəçiliyinin şəffaflığını, vətəndaşlara operativ xidmət göstərilməsini və inzibati xərclərin azaldılmasını təmin etsə də, bu mühitdə saxlanılan və emal olunan şəxsi məlumatların qorunması məsələsi getdikcə daha da aktuallaşır. Məlumatların böyük hissəsi dövlətin kritik infrastrukturuna aid olduğundan, onların itirilməsi və ya icazəsiz əldə edilməsi həm hüquqi, həm də sosial təhlükə yaradır [3, s.27].

Elektron dövlət sistemlərində məlumat təhlükəsizliyi problemi əsasən üç istiqamətdə cəmlənir: texnoloji, normativ-hüquqi və təşkilati. Texnoloji səviyyədə əsas risklərə məlumat bazalarına kiberhücumlar, fişinq, sosial mühəndislik, zərərli proqram təminatı və identifikasiya mexanizmlərinin zəifliyi daxildir. Normativ-hüquqi səviyyədə isə əsas məsələ məlumatların qorunması üzrə qanunvericiliyin beynəlxalq standartlarla tam uyğunlaşdırılmamasıdır. Təşkilati səviyyədə təhlükəsizlik mədəniyyətinin yetərli inkişaf etməməsi, məlumatların idarə olunmasında insan faktorunun təsiri və əməkdaşların kibersavadlılıq səviyyəsinin aşağı olması problemləri müşahidə olunur [4, s.114-115].

Azərbaycanda elektron dövlət sistemlərinin formalaşması prosesi 2013-cü ildən etibarən "Elektron Hökumət İnformasiya Sistemi", "Hökumət buludu" (G-Cloud) və "ASAN xidmət" kimi rəqəmsal platformaların fəaliyyəti ilə başlamış və dövlət orqanlarının fəaliyyətində mühüm dönüş yaradıb. Lakin bu sistemlərin dayanıqlı və etibarlı fəaliyyətini təmin etmək üçün məlumatların kodlaşdırılması, autentifikasiya, audit və ehtiyat nüsxələmə mexanizmlərinin gücləndirilməsi zəruridir. Son illərdə qəbul edilən "Rəqəmsal Transformasiya Konsepsiyası" (2021) və "Süni İntellekt Strategiyası" (2025–2028) bu istiqamətdə strateji çərçivə yaradır. Xüsusilə ISO/IEC 27001 və GDPR prinsiplərinin milli standartlara inteqrasiyası məlumatların qorunması sahəsində mühüm institusional təcrübə formalaşdırır [1, s.9]. Mövcud vəziyyət göstərir ki, elektron dövlət sistemlərində məlumat təhlükəsizliyinin artırılması üçün kompleks tədbirlər tələb olunur: məlumat bazalarının beynəlxalq standartlara uyğun sertifikatlaşdırılması (ISO/IEC 27001, GDPR), məlumat-

ların şifrələnməsi və identifikasiya sistemlərinin gücləndirilməsi, mütəmadi təhlükəsizlik auditi və dövlət qulluqçuları arasında kibersavadlılıq səviyyəsinin yüksəldilməsi. Bununla yanaşı, süni intellekt texnologiyalarının tətbiqi – xüsusən anomaliyaların aşkarlanması və təhdidlərin proqnozlaşdırılması məqsədilə – informasiya sistemlərinin etibarlılığını əhəmiyyətli dərəcədə artıra bilər. Beləliklə, Azərbaycanda elektron dövlət sistemlərində məlumat təhlükəsizliyi sahəsində institusional baza formalaşmış, lakin texnoloji və idarəetmə yönümlü problemlərin tam həlli üçün milli kibertəhlükəsizlik ekosisteminin gücləndirilməsi və rəqəmsal infrastrukturun davamlı monitorinq mexanizmlərinin yaradılması zəruridir.

Şəxsi məlumatların qorunması yalnız texnoloji məsələ deyil, həm də insan hüquqlarının müdafiəsi ilə bağlı fundamental prinsipdir. Bu baxımdan Azərbaycan Respublikasının "Fərdi məlumatlar haqqında" Qanunu (2010) və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunu elektron dövlət sistemlərində şəxsi məlumatların toplanması, emalı və ötürülməsi zamanı vətəndaş hüquqlarının qorunması üçün hüquqi baza yaradır. Həmin qanunvericiliyin tətbiqi prosesində kiberfiziki təhlükələrə qarşı reaksiya mexanizmlərinin təkmilləşdirilməsi, dövlət və özəl sektor arasında məlumat mübadiləsinin təhlükəsiz kanallar üzərindən aparılması vacibdir [2, s.45].

Məlumat təhlükəsizliyinin təmin olunması üçün müasir yanaşmalardan biri çoxsəviyyəli müdafiə (multi-layer security) və sıfır etibar (Zero Trust) arxitekturalarının tətbiqidir. Bu modeldə sistemlərə giriş yalnız çoxfaktorlu autentifikasiya və risk əsaslı verifikasiyadan sonra təmin olunur. Eyni zamanda, blokçeyn texnologiyasının inteqrasiyası şəffaflıq və dəyişdirilməzlik prinsiplərini təmin etməklə məlumatların saxtalaşdırılmasının qarşısını alır [5, s.132]. Süni intellekt və maşın öyrənməsi alqoritmləri isə anomaliyaların aşkarlanmasında, kiberhücumların proqnozlaşdırılmasında və real vaxtda reaksiya sistemlərinin avtomatlaşdırılmasında getdikcə daha geniş istifadə olunur. Nəticə etibarilə, elektron dövlət sistemlərində məlumat təhlükəsizliyi və şəxsi məlumatların qorunması rəqəmsal idarəetmənin etibarlılığı üçün əsas şərtdir. Bu sahənin inkişafı üçün normativ-hüquqi bazanın beynəlxalq təcrübəyə uyğunlaşdırılması, texnoloji infrastrukturun yenilənməsi, kadr potensialının artırılması və informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması zəruridir. Gələcək mərhələdə süni intellekt əsaslı idarəetmə sistemlərinin tətbiqi, milli kiberdayanıqlıq indikatorlarının hazırlanması və təhlükəsiz bulud mühitlərinin inkişafı Azərbaycanın rəqəmsal suverenliyinin gücləndirilməsinə xidmət edəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Rəqəmsal Transformasiya Konsepsiyası, 2021.
2. Azərbaycan Respublikasının "Fərdi məlumatlar haqqında" Qanunu, 2010.
3. ISO/IEC 27001:2022 – Information Security Management Systems.
4. OECD (2023). Digital Government and Data Protection Strategies. Paris.
5. Stallings, W. (2022). Network Security Essentials: Applications and Standards. Pearson Education.

Иса Октай оглы Мамедли
магистрант,
Гюльсум Шамиль кызы Бадирзаде
доктор экономических наук, доцент,
Азербайджанский Университет Кооперации

Информационная безопасность и защита персональных данных в системах электронного правительства

Резюме

В тезисе рассматриваются вопросы информационной безопасности и защиты персональных данных в системах электронного правительства. Также определены основные риски и механизмы их управления, обозначены направления совершенствования в соответствии с международными стандартами. Применение технологий искусственного интеллекта и блокчейна рассматривается как важный инструмент повышения эффективности системы.

Isa Oktay Mammadli
master,
Gulsum Shamil Badirzade
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Informatıon securıty and personal data protectıon ın electronıc government systems

Summary

The thesis analyzes information security and personal data protection in e-government systems. Also, key risks and management mechanisms are identified, and improvement directions in accordance with international standards are discussed. The use of artificial intelligence and blockchain technologies is highlighted as an important tool for enhancing system efficiency.

Mehdi Coşğun oğlu QULUZADƏ
magistrant,
Gülsüm Şamil qızı BƏDİRZADƏ
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Kooperasiya Universiteti

RƏQƏMSAL TRANSFORMASİYA ŞƏRAİTİNDƏ KREDİT TƏŞKİLATLARINDA İNFORMASİYA İDARƏÇİLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Müasir dövrdə kredit təşkilatlarının idarə olunmasında informasiya təminatı strateji idarəetmə aləti kimi mühüm əhəmiyyət daşıyır. Bank fəaliyyətinin rəqəmsallaşması, böyük həcmli məlumatların toplanması və təhlili idarəetmə qərarlarının daha əsaslandırılmış və operativ qəbuluna imkan yaradır. İnformasiya təminatı anlayışı idarəetmə prosesinin bütün mərhələlərində – planlaşdırma, nəzarət, təhlil və proqnozlaşdırmada – mərkəzi rol oynayır. Bu sistemin effektivliyi bankın likvidliyinə, aktivlərin keyfiyyətinə, müştəri etimadına və risk səviyyəsinə birbaşa təsir göstərir [1, s.42].

İdarəetmə prosesinin səmərəliliyi məlumat axınlarının keyfiyyətindən asılıdır. Kredit təşkilatlarında informasiya təminatı yalnız hesabat və uçot məlumatlarının toplanması ilə məhdudlaşmır, eyni zamanda analitik və proqnozlaşdırıcı xarakter daşıyan göstəriciləri də əhatə edir. Bu məlumat bazası risklərin idarə olunması, aktiv-passiv strukturunun balanslaşdırılması və strateji qərarların hazırlanması üçün əsas mənbə rolunu oynayır.

Son illərdə bank idarəçiliyində informasiya təminatının rolu xüsusilə artmışdır. Rəqəmsallaşma prosesləri nəticəsində kredit təşkilatları real vaxt rejimində maliyyə əməliyyatlarını izləmək, riskləri qiymətləndirmək və qərar qəbuletməni sürətləndirmək imkanına malik olmuşdur. Analitik sistemlər və Big Data texnologiyaları bank rəhbərliyinə müştəri davranışını proqnozlaşdırmaq, kredit portfeli üzrə potensial problemləri erkən mərhələdə müəyyənləşdirmək və müvafiq tədbirlər görmək imkanı yaradır [2, s.118]. Eyni zamanda, informasiya təminatının inkişafı bankın reputasiya riskinin azaldılmasına da təsir göstərir. Şəffaf hesabatlılıq və keyfiyyətli məlumat axınları müştərilərin və tənzimləyici orqanların etimadını artırır, bu isə maliyyə dayanıqlığının möhkəmlənməsi üçün vacibdir.

Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafı "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf prioritetləri" və "Rəqəmsal Transformasiya Konsepsiyası"nda mühüm strateji istiqamət kimi müəyyən edilmişdir. Bu sənədlərdə qeyd olunur ki, maliyyə sektorunda rəqəmsal texnologiyaların tətbiqi bank xidmətlərinin səmərəliliyini artırmaqla yanaşı, idarəetmə proseslərinin optimallaşdırılmasına da xidmət etməlidir [3, s.67].

Kredit təşkilatlarında informasiya təminatının təkmilləşdirilməsi bir neçə istiqamətdə həyata keçirilə bilər. Əvvəla, avtomatlaşdırılmış məlumat sistemlərinin modernləşdirilməsi idarəetmə

çevikliyini artırmaqla yanaşı, süni intellekt əsaslı qərardəstəkləmə platformalarının tətbiqinə şərait yaradır. İnteqrasiya olunmuş məlumat bazalarının formalaşdırılması isə müştəri məlumatlarının, kredit tarixçələrinin və risk göstəricilərinin vahid sistemdə birləşdirilməsini təmin edir. Bununla yanaşı, analitik hesabatlılıq sistemlərinin genişləndirilməsi bank nəzarəti orqanları və Mərkəzi Bank üçün real vaxt rejimində hesabat mexanizmlərinin qurulmasına imkan yaradır. Bulud texnologiyalarının tətbiqi də informasiya infrastrukturunun çevikliyini artırmaq və əməliyyat xərclərini azaltmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Kibertəhlükəsizlik komponentinin gücləndirilməsi də informasiya təminatının ayrılmaz tərkib hissəsidir. Müasir şəraitdə bank sistemlərinin təhlükəsizliyi müştəri məlumatlarının qorunması və məlumat sızmalarının qarşısının alınması baxımından prioritet istiqamət kimi qiymətləndirilir.

Məlumat axınlarının keyfiyyətinin yüksəldilməsi kredit təşkilatlarında idarəetmənin əsas göstəricilərindən biridir. Analitik platformalar vasitəsilə toplanan məlumatların çevik emalı rəhbərliyə maliyyə qərarlarını daha tez və əsaslandırılmış şəkildə qəbul etməyə imkan verir. Big Data analitikası və süni intellekt texnologiyaları bank rəhbərliyinə defolt risklərini əvvəlcədən proqnozlaşdırmaq, kredit portfelinin strukturunu optimallaşdırmaq və problemli borcların səviyyəsini azaltmaq imkanı yaradır [4, s.79].

Avtomatlaşdırılmış informasiya sistemlərinin tətbiqi həmçinin daxili audit və nəzarət mexanizmlərinin səmərəliliyini artırır. Bu, idarəetmə prosesində şəffaflığın və hesabatlılığın təmin olunmasına xidmət edir.

Aparılmış təhlillər göstərir ki, kredit təşkilatlarında informasiya təminatının təkmilləşdirilməsi idarəetmənin keyfiyyətinin yüksəldilməsi, risklərin azaldılması və bank sisteminin davamlılığının təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir. İnformasiya sistemlərinin rəqəmsal texnologiyalarla inteqrasiyası, bulud həllərinin və süni intellekt əsaslı analitik platformaların tətbiqi kredit təşkilatlarının rəqabətqabiliyyətini artıran əsas amillərdəndir. Gələcək mərhələdə informasiya təminatı sistemlərinin daha da təkmilləşdirilməsi üçün dövlət tənzimləyiciləri, Mərkəzi Bank və kommersiya bankları arasında vahid informasiya mübadiləsi mexanizminin yaradılması məqsədəuyğun hesab olunur.

ƏDƏBİYYAT

1. Quliyev, F. (2021). Maliyyə idarəetməsində informasiya sistemləri. Bakı: İqtisad Universiteti Nəşriyyatı.
2. Mishkin, F. S. (2020). The Economics of Money, Banking, and Financial Markets. Pearson Education.
3. Azərbaycan Respublikasında “Rəqəmsal Transformasiya Konsepsiyası”. (2022). Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş sənəd.
4. Stiglitz, J. E. (2019). Information and the Change in the Paradigm in Economics. American Economic Review, 109(5), 1–22.

Мехди Джошгун оглы Гулузаде
магистрант,
Гюльсум Шамиль кызы Бадирзаде
доктор экономических наук, доцент,
Азербайджанский Университет Кооперации

Направления совершенствования управления информацией в кредитных организациях в условиях цифровой трансформации

Резюме

В тезисе исследуется роль и значение информационного обеспечения в системе управления кредитными организациями, анализируются существующие проблемы и пути их решения. В условиях цифровой трансформации определены направления совершенствования структуры информационного обеспечения для повышения эффективности процессов

принятия решений в кредитных организациях. Установлено, что современные технологии, такие как Big Data, искусственный интеллект и аналитические платформы, играют важную роль в снижении рисков и повышении прозрачности управления в банковской деятельности.

Mehdi Joshgun Guluzade
master,
Gulsum Shamil Badirzade
doctor of philosophy in economics, associate professor,
Azerbaijan Cooperation University

Dırections for improving information management in credit organizations in the context of digital transformation

Summary

The thesis examines the role and significance of information support in the management system of credit institutions, analyzing the existing challenges and the ways to address them. Within the framework of digital transformation, the directions for improving the structure of information support to enhance the efficiency of decision-making processes in credit organizations are identified. The study concludes that modern technologies such as Big Data, artificial intelligence, and analytical platforms play a crucial role in reducing risks and improving management transparency in banking operations.

Fərhad İlham oğlu MƏMMƏDLİ
magistrant,
Gülsüm Şamil qızı BƏDİRZADƏ
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Kooperasiya Universiteti

KOMPÜTER QRAFİKASININ NƏZƏRİ ƏSASLARI VƏ VİZUAL MODELLƏŞDİRMƏ METODLARI

Kompüter qrafikası müasir informasiya texnologiyalarının ən sürətlə inkişaf edən istiqamətlərindən biridir və rəqəmsal mühitdə vizual informasiya ilə qarşılıqlı əlaqənin əsasını təşkil edir. Qrafik sistemlər insan idrakı və texnoloji vasitələr arasında körpü rolunu oynayaraq, informasiyanın təsviri və modelləşdirilməsi prosesində mühüm əhəmiyyət daşıyır. Bu sahənin nəzəri əsaslarını riyazi analiz, xətti cəbr, həndəsə, fizika və informasiya nəzəriyyəsi təşkil edir. Kompüter qrafikasının məqsədi yalnız vizual elementlərin yaradılması deyil, həm də real obyekt və proseslərin struktur və dinamik xüsusiyyətlərinin riyazi model üzərindən təsvir edilməsidir [3, s.112].

Kompüter qrafikasının inkişafı XX əsrin ikinci yarısında alqoritmik qrafika və rəqəmsal təsvir texnologiyalarının formalaşması ilə başlamışdır. İlk mərhələlərdə əsas məqsəd ikiölçülü (2D) təsvirlərin hazırlanması olsa da, sonrakı dövrdə üçölçülü (3D) modelləşdirmə, render texnologiyaları və real zamanlı vizualizasiya sistemlərinin tətbiqi bu sahənin imkanlarını xeyli genişləndirmişdir. Qrafik modelləşdirmə alətləri, xüsusilə OpenGL, Blender, Maya, Unreal Engine və s. kimi proqram mühitləri vasitəsilə, real obyektlərin virtual məkanlarda təkrar istehsalı və manipulyasiyası mümkün olmuşdur [5, s.78]. Müasir dövrdə kompüter qrafikası yalnız dizayn və sənaye sahələrində deyil, eyni zamanda tibbi diaqnostika, coğrafi informasiya sistemləri, təhsil, mühəndislik, mədəni irs və virtual reallıq texnologiyalarında geniş tətbiq olunur.

Vizual modelləşdirmə metodları kompüter qrafikasının nəzəri və tətbiqi hissəsini birləşdirən əsas istiqamətdir. Modelləşdirmə – real obyekt və hadisələrin riyazi, alqoritmik və simvolik təsviri vasitəsilə onların vizual surətinin yaradılması prosesidir. Bu zaman modellər riyazi funksiyalar,

poliqonal mesh strukturları və ya NURBS səthləri əsasında formalaşır. Hər bir modelin keyfiyyəti onun geometriyasının dəqiqliyindən, işıqlandırma və tekstura parametrlərinin düzgün seçilməsindən asılıdır. Məsələn, işıqlandırmanın Phong və ya Blinn-Phong modelləri səthlərin parlaqlığını realistik şəkildə imitasiya etməyə imkan verir [4, s.201-203].

Kompüter qrafikasında iki əsas təsvir növü – vektor və rastr modellər fərqləndirilir. Vektor qrafikası koordinat əsaslı olduğuna görə təsvirin miqyasdan asılı olmadan dəqiqliyini qoruyur, rastr qrafikası isə piksel əsaslı olduğundan realistik detalların ötürülməsində daha effektivdir. Rəng modelləri (RGB, CMYK, HSV və s.) və işıqlandırma texnikaları (ray tracing, radiosity, global illumination) vizual keyfiyyətin artırılmasında mühüm rol oynayır [6, s.157]. Müasir tədqiqatlar göstərir ki, bu modellərin süni intellekt və maşın öyrənməsi alqoritmləri ilə inteqrasiyası qrafik sistemlərin adaptiv və intellektual xüsusiyyətlərini formalaşdırır.

Son illərdə süni intellekt əsaslı generativ modellər (GANs, diffusion models) vizual modelləşdirmədə yeni mərhələ açmışdır. Bu texnologiyalar realistik təsvirlərin avtomatik yaradılması, obyektlərin semantik tanınması və 3D səhnələrin generasiyası üçün istifadə olunur [2, s.85]. Belə sistemlərdə neyron şəbəkələr vizual məlumatı analiz edərək, onun əsas xüsusiyyətlərini yeni qrafik formaya transformasiya edir. Bu, kompüter qrafikasının yalnız texnoloji deyil, həm də idraki aspektlərdə inkişaf etdiyini göstərir.

Azərbaycan Respublikasında rəqəmsal texnologiyaların, o cümlədən kompüter qrafikası və vizual modelləşdirmənin inkişafı "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf prioritetləri", "Rəqəmsal Transformasiya Konsepsiyası" (2021) və "Süni İntellekt Strategiyası (2025–2028)" kimi normativ sənədlərdə prioritet istiqamət kimi müəyyən edilmişdir [1, s.14]. Bu strategiyalar çərçivəsində informasiya texnologiyaları üzrə milli kadr potensialının gücləndirilməsi, vizual mühəndislik və qrafik proqramlaşdırma sahəsində tədqiqatların stimullaşdırılması nəzərdə tutulur. Beləliklə, kompüter qrafikasının nəzəri əsasları və vizual modelləşdirmə metodlarının inkişafı rəqəmsal iqtisadiyyatın və elmi-təhsil sisteminin dayanıqlı inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

Üçölçülü modellərin yaradılması və vizualizasiyasını təmin edir. Oyun sənayesi, film sənayesi,

memarlıq və mühəndislikdə geniş tətbiq olunur.

5. **Animasiya və hərəkətli qrafika:**

Vizual elementlərin zaman daxilində dəyişməsi ilə yaradılan effektlərdir.

Kompüter qrafikasının tətbiq sahələri

Kompüter qrafikasının tətbiq sahələri olduqca genişdir:

- **Təhsil:** İnteraktiv dərsliklərin və vizual tədris materiallarının hazırlanması.
- **Sənaye və mühəndislik:** CAD/CAM sistemləri ilə texniki modellərin hazırlanması.
- **Tibb:** Tibbi vizualizasiya və diaqnostik qrafika.
- **Əyləncə sənayesi:** Video oyunlar, animasiya filmləri və vizual effektlər.
- **Qrafik dizayn və reklam:** Plakatlar, loqolar, məhsul dizaynları və s.

Tədris prosesində kompüter qrafikasının öyrənilməsi

Kompüter qrafikasının əsaslarının tədrisi aşağıdakı bacarıqları formalaşdırmağa yönəlib:

- Rastr və vektor qrafikası proqramlarından istifadə bacarığı (Adobe Photoshop, Illustrator, CorelDRAW, Inkscape və s.).
- 3D modelləşdirmə və animasiya proqramları ilə işləmək (Blender, Autodesk Maya, 3ds Max və s.).
- Rəqəmsal rəsm və rəngləmə texnikaları.
- Vizual düşünmə və yaradıcılıq qabiliyyətinin inkişafı.

Tədris prosesində həm nəzəri biliklər, həm də praktiki məşğələlər xüsusi yer tutur. Tələbələrə real layihələr üzərində işləmək imkanı yaradıldıqda onların texniki və yaradıcı bacarıqları daha da inkişaf edir.

Nəticə

Kompüter qrafikasının əsaslarının öyrənilməsi müasir rəqəmsal dünyada mühüm əhəmiyyət kəsb edir. Bu sahədə bilik və bacarıqların inkişaf etdirilməsi yalnız peşəkar fəaliyyət üçün deyil, həm də ümumi texnoloji savadlılığın artırılması üçün zəruridir. Kompüter qrafikasının öyrənilməsi insanın yaradıcı potensialını açır və onu rəqəmsal aləmdə ifadə etməyə imkan yaradır.

ƏDƏBİYYAT

1. Foley, J. D., van Dam, A., Feiner, S. K., & Hughes, J. F. (1995). *Computer Graphics: Principles and Practice*. 2nd Edition. Addison-Wesley.
2. Hearn, D., & Baker, M. P. (2011). *Computer Graphics with OpenGL*. 4th Edition. Pearson.
3. Mortenson, M. E. (2006). *Geometric Modeling*. Industrial Press Inc.
4. Прокофьев, А. В. (2012). *Основы компьютерной графики*. Москва: Наука.
5. Blender Foundation. (2023). *Blender Manual*. https://docs.blender.org
6. Adobe Systems Inc. (2023). *Photoshop & Illustrator User Guide*. https://adobe.com
7. Əliyev, T. (2020). *Qrafik dizayn və kompüter qrafikası*. Bakı: "Təhsil" Nəşriyyatı.
8. Autodesk. (2024). *Autodesk Maya Documentation*. https://help.autodesk.com

Мовлан Ровшан оглы Алибейли
магистрант,
Азербайджанский Университет Кооперации
Арзу Масим оглы Гулиев
доктор философии по техническим наукам, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Важность преподавания компьютерной графики

Резюме

Стремительное развитие компьютерных технологий радикально изменило сферу работы с визуальной информацией. В связи с этим компьютерная графика стала одним из важнейших и динамично развивающихся направлений информационных технологий современнос-

ти. Освоение основ компьютерной графики считается необходимым навыком как для специалистов по программному обеспечению, так и для дизайнеров, инженеров, создателей игр и архитекторов.

Movlan Rovshan Alibeyli
master,
Azerbaijan Cooperation University
Arzu Masim Guliyev
doctor of philosophy in technical sciences, associate professor,
Azerbaijan State Pedagogical University

The importance of the importance of teaching computer graphics

Summary

The rapid development of computer technologies has radically changed the field of working with visual information. In this regard, computer graphics has become one of the most important and dynamically developing areas of information technology in modern times. Learning the basics of computer graphics is considered a necessary skill for both software specialists and designers, engineers, game creators and architects.

İlkin Fuad oğlu SƏMƏDLİ
magistrant,
İsmayıl Məmməd oğlu ÇOBANZADƏ
hüquq üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Memarlıq və İnşaat Universiteti

AZƏRBAYCANDA YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİNİN MULTİDİSSİPLİNAR ASPEKTLƏRİ

Müasir həyatın aktual problemlərindən biri Azərbaycan yollarında qəza nisbətinin yüksək olmasıdır. Sürücülər yol qəzalarının əsas iştirakçıları və günahkarlarıdır. Yol hərəkəti sektorundakı bu vəziyyətin səbəblərindən biri sürücü hazırlığının keyfiyyətsiz olmasıdır. Yol təhlükəsizliyi klassik "sürücü-nəqliyyat vasitəsi-yol" triadası ilə müəyyən edilir. Bu gün yollarda qəzaların əsas səbəblərindən biri "sürücü amili" (alkoqol və narkotik maddələrin sərxoşluğu, sürət həddinin aşılması və digər yol hərəkəti qaydalarının davamlı pozulması, aqressiv davranış və s.) olaraq qalır. Bütün bunlar yol istifadəçiləri üçün əlavə stress yaradır ki, bu da sürücülük keyfiyyətinə mənfi təsir göstərir. Azərbaycan Respublikasında da yol təhlükəsizliği problemi xüsusi aktuallıq kəsb edir. Dövlət Yol Polisinin statistik məlumatlarına əsasən, ölkəmizdə baş verən yol-nəqliyyat hadisələrinin 85-90%-i sürücülərin səhlənkarlığı və yol hərəkəti qaydalarının pozulması ilə bağlıdır.

Aparılan tədqiqatların nəticələrinə görə sürücülər yol təhlükəsizliyi məsələsində daha diqqətsizdirlər: "statistik olaraq, sürücülər "şəhər yerlərində sürət həddini daha tez-tez aşırlar, sıx məskunlaşmış ərazilərdə və piyada keçidlərində, eləcə də oyun meydançalarının yaxınlığında sürəti azaltmağa daha az meyllidirlər, uşaq avtomobil oturacaqlarından istifadə etmirlər, təhlükəsizlik kəmərlərinə məhəl qoymurlar və yol hərəkəti qaydaları haqqında kifayət qədər məlumatlı olmadıqlarını "asanlıqla" etiraf edirlər" [1] Yol hərəkəti təhlükəsizliyi problemi multidissiplinar xarakter daşıyır və texniki, psixoloji, sosial, hüquqi və pedaqoji aspektləri əhatə edir. Klassik "sürücü-nəqliyyat vasitəsi-yol" triadasında insan faktoru həlledici rol oynayır.

Müasir tədqiqatlar göstərir ki, texnologiyaların inkişafına, yol infrastrukturunun təkmilləşdirilməsinə və avtomobillərin təhlükəsizlik sistemlərinin yaxşılaşdırılmasına baxmayaraq, sürücü amili yol qəzalarının əsas səbəbi olaraq qalır. Araşdırmalardan aydın olur ki, yol hərəkəti təhlükəsizliyinin əsas parametrləri aşağıdakı kimi qruplaşdırılmışdır:

Texniki parametrlər. Nəqliyyat vasitələrinin texniki sazlığı yol hərəkətində təhlükəsizliyin əsas

şərtlərindən biridir. Tormoz sisteminin səmərəliliyi, şinlərin vəziyyəti, işıqlandırma avadanlıqlarının doğru işləməsi və sükan mexanizminin etibarlılığı təhlükəsiz hərəkətə birbaşa təsir edir. Müasir avtomobillər ABS, ESP kimi aktiv təhlükəsizlik sistemləri və müxtəlif sürücü dəstək texnologiyaları ilə təchiz olunduğundan, bu sistemlər qəza ehtimalını xeyli azaldır. Araşdırmalar sübut edir ki, bu tip elektron sabitlik və əyləc sistemlərinin tətbiqi yol-nəqliyyat hadisələrinin qarşısının alınmasında yüksək effektivlik göstərir [2]. Avtomobillərdə passiv təhlükəsizlik vasitələri də mühüm əhəmiyyət daşıyır. Təhlükəsizlik kəmərləri, hava yastıqları, deformasiya zonaları və başlıq dayaqları qəza zamanı yaranan zədələnməni azaltmağa xidmət edir. Tədqiqatlara əsasən, təhlükəsizlik kəmərindən düzgün istifadə ölüm riskini 45–50 faizədək aşağı salır. Bu göstəricilər passiv təhlükəsizlik sistemlərinin insan həyatının qorunmasında nə qədər təsirli olduğunu sübut edir [3]

İnsan amili parametrləri. İnsan amili yol hərəkəti təhlükəsizliyində ən kritik parametrlərdən biridir, çünki sürücünün psixofizioloji vəziyyəti - diqqətinin konsentrasiyası, reaksiya sürəti, qərar qəbuletmə bacarığı-birbaşa qəza riskinə təsir edir. Məsələn, sürücü yorğun olduqda nevrokognitiv funksiyalar dalğalanır və mikro-yuxular (micro-sleeps) yaranması ehtimalı artır. Yorğunluq həmçinin reaksiya müddətinin uzanması, diqqətin dağılması və motor funksiyalarının pozulması kimi təsirlərə gətirib çıxarır. Alkoqol və narkotik maddələrin təsiri altındakı idarəetmə ilə bağlı risklər də geniş tədqiq olunub: bu maddələr sürücünün qavrayış və cavab reaksiyalarını korlayaraq qəza gücünü artırır. Məsələn, Jekobsen, Markus və başqalarının tədqiqatına görə, yuxululuq (sleepiness) və maddə istifadəsi sürücü qəzalarında vacib risk faktorlarıdır [7].

Tədqiqatlar göstərir ki, psixotrop maddələrin (məsələn, benzodiazepinlər, yuxu dərmanları, stimullandırıcılar) istifadəsi sürücülərin qavrama, reaksiya sürəti və diqqət konsentrasiyasını pisləşdirərək qəza riskini artırır. Məsələn, Danimarkada aparılmış genişmiqyaslı bir registry-based case-control tədqiqatında (1996–2018) müəyyən edilib ki, benzodiazepinlər və z-yuxu dərmanları istifadə edən sürücülərdə "tək qəza" riski 2,49 dəfə yüksəkdir (OR = 2.49) və stimulans (ADHD müalicəsi üçün) istifadə edən sürücülərdə ümumi qəza riskində 62 % artım müşahidə olunub (OR = 1.62) [4].

Bu cür dərmanlar mental funksiyalar üzərində sedativ (yatdırıcı) və ya psixostimulyator təsir göstərə bilər ki, bu da sürücünün yuxululuq hissi (sleepiness) ilə yanaşı, qərar qəbuletmə qabiliyyətinin zəifləməsinə və riskli davranışların artmasına gətirib çıxara bilər. Beləliklə, həm yuxululuq, həm də maddə istifadəsi sürücü təhlükəsizliyi üçün müstəqil, amma bir-biri ilə qarşılıqlı əlaqəli risk faktorlarıdır.

Bundan əlavə, sürücünün peşəkar təcrübəsi, davranış mədəniyyəti və risk qavrayışı da mühüm rol oynayır. Gənc və ya yeni sürücülər (sürücülük təcrübəsi az olanlar) riskli davranışlara daha çox meylli ola bilərlər, çünki təhlükə qəbuletmə (hazard perception) bacarıqları kifayət qədər inkişaf etməyib. Gənc və ya yeni sürücülər (məsələn, lisenziya alandan sonra az təcrübəyə malik sürücülər) qəzalarda nisbətən daha yüksək risk daşıyırlar. Bu, sürücülərin texniki bacarıqlarının zəif olmasından başqa, risk qavrayışı (hazard perception) kimi təhlükəsizlik bacarıqlarının kifayət qədər inkişaf etməməsi ilə bağlıdır. Ivers və digərlərinin DRIVE Study adlı geniş kohort tədqiqatında 17–24 yaş arası yeni sürücülərin riskli sürmə davranışları öz-özlüyündə qəza riskini 50% artırmışdır (adjustləşdirilmiş nisbi risk = 1.51) [5].

Bu, sürücülərin risk qavrayışı ilə bağlı narahatlığın (yəni təhlükəni daha az təhlükəli görmə) qəza riskinə təsirini göstərsə də, tədqiqatda qeyd olunur ki, riskli sürmə davranışı bu qavrayışdan daha güclü qəza prediktorudur.

Məsələn, Rizelioğlu və digərlərinin 2025-ci il araşdırmasında müşahidə olunub ki, novice (təcrübəsiz) sürücülərin reaksiya (perception-reaction) müddəti digər sürücülərə nisbətən daha uzun olub və bu, yol təhlükəsinə təsir edən vacib amildir[6].

Bəlkə də ən vacibi, insanların məqsədyönlü seçimləri-məsuliyyətsiz sürmə, diqqətdən yayınma (məsələn, mobil telefona baxmaq), alkoqollu idarəetmə- insan faktoru çərçivəsində qəza riskini dramatik şəkildə artırır. Eyni zamanda, göz hərəkətlərini izləmə (eye-tracking) üsulu ilə aparılan bir tədqiqatda, təcrübəsiz sürücülərin təhlükəli ssenarilərdə diqqət paylaması və fiksasiya davranışı təcrübəli sürücülərdən fərqlidir.

Yuxarıda göstərilən mülahizələrdən aydın olur ki, sürücünün peşəkar təcrübəsi, davranış mədəniyyəti və risk qavrayışı yol hərəkəti təhlükəsizliyinin əsasını təşkil edən həlledici amillərdir.

Təcrübə səviyyəsi aşağı olan sürücülər təhlükələri gec tanıyır, riskləri düzgün qiymətləndirmir və situasiyadan asılı olaraq uyğun qərar verməkdə çətinlik çəkirlər. Bu isə onların qəza ehtimalını təcrübəli sürücülərlə müqayisədə əhəmiyyətli dərəcədə artırır.

Aparılan elmi tədqiqatlar göstərir ki, hazard qavrayışı (sürücünün yol mühitində mövcud və ya yaranmaqda olan potensial təhlükələri vaxtında tanıması, qiymətləndirməsi və onlara adekvat reaksiya vermək qabiliyyətidir) -yəni yolda potensial təhlükələri vaxtında hiss etmək və proqnozlaşdırmaq qabiliyyəti - sürücülük təcrübəsi artdıqca güclənir, lakin bu bacarıq təcrübəsiz sürücülərdə zəif olduğu üçün riskli davranışlara meyl daha çox olur. Əlavə olaraq, psixoloji xüsusiyyətlər, impulsivlik və məsuliyyət hissinin formalaşma səviyyəsi də gənc sürücülərin davranışını müəyyən edir. Bütün bunlar göstərir ki, insan amili düzgün idarə olunmadıqda, texniki və infrastruktur tədbirlər kifayət etmir.

Yol infrastrukturu parametrləri. Yolun geometrik parametrləri, örtüyün keyfiyyəti, horizontalda və vertikalda əyriliklərin düzgün layihələndirilməsi, görünmə məsafəsi və yol nişanlarının düzgün yerləşdirilməsi təhlükəsizliyin vacib aspektləridir. Yol örtüyünün sürtünmə əmsalı, xüsusən də yağışlı və qarlı havada, nəqliyyat vasitəsinin idarə olunmasına birbaşa təsir göstərir. Yolların işıqlandırılması, xüsusən də gecə saatlarında və meteoroloji şəraitin pisləşdiyi hallarda, mühüm əhəmiyyət kəsb edir. Düzgün işıqlandırma qəza riskini 30-40% azaldır. Yol infrastrukturunun təhlükəsizlik elementləri-məhdudlaşdırıcı bariyerlər, təhlükəsizlik adacıqları, piyada keçidləri - də mühüm rol oynayır.

Mühit və meteoroloji parametrlər. Hava şəraiti yol hərəkəti təhlükəsizliyinə əhəmiyyətli təsir göstərir. Yağış, qar, duman, buzlanma və külək yolun sürtünmə əmsalını dəyişir, görünməni məhdudlaşdırır və nəqliyyat vasitəsinin idarə olunmasını çətinləşdirir. Statistika göstərir ki, pis hava şəraitində qəza riski 2-3 dəfə artır. Gün işığının intensivliği və günün vaxtı da təhlükəsizliyə təsir edən amillərdəndir. Axşam alatoranlığı və səhər toran vaxtı görünmə şəraitinin pisləşməsi nəticəsində qəza riski yüksəlir. İqlim dəyişikliyi və ekstremal hava hadisələrinin tezliyinin artması bu parametrin əhəmiyyətini daha da artırır.

Hərəkət təşkili və tənzimlənməsi parametrləri.

Yol hərəkətinin düzgün təşkili və tənzimlənməsi təhlükəsizliyin vacib komponentidir. Svetofor sistemlərinin optimal işləməsi, yol nişanlarının standartlara uyğunluğu, sürət məhdudiyyətlərinin elmi əsaslandırılması və hərəkət intensivliyinin idarə edilməsi qəzaların qarşısının alınmasında mühüm rol oynayır. Ağıllı nəqliyyat sistemləri (ITS) müasir dövrdə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində yeni imkanlar yaradır. Real vaxt rejimində hərəkətin monitorinqi, adaptiv svetofor sistemləri, sürücülərə operativ informasiya verilməsi və qəza nöqtələrinin avtomatik müəyyən edilməsi təhlükəsizliyin artırılmasına kömək edir.

Sürücü olmaq sadəcə sükan arxasına keçmək deyil, bu, məsuliyyət, bilik və bacarıqların harmoniyasını tələb edən bir sənətdir. Yol hərəkətində təhlükəsizlik yalnız maşının texniki vəziyyətindən asılı deyil; ən böyük rol sürücünün özündə, onun hazırlığında və qərar qəbuletmə qabiliyyətindədir. Sürücü hazırlığı sistemi isə məhz bu bacarıqları mərhələli şəkildə inkişaf etdirməyə xidmət edir.

İlkin mərhələdə sürücülər nəzəri biliklərin dərinliklərinə dalırlar. Yol hərəkəti qaydaları, nəqliyyat vasitəsinin quruluşu, təhlükəsizlik prinsipləri və hətta ilk tibbi yardım qaydaları- bütün bunlar namizədlərin "təhlükəsizlik xəritəsi"ni formalaşdırır. Bu mərhələdə psixoloji hazırlıq da önəmlidir: riskləri tanımaq, stressi idarə etmək və tez qərar vermək bacarığı yeni sürücünün gələcək uğurunun açarıdır. Araşdırmalar göstərir ki, psixoloji hazırlıq proqramlarına diqqət yetirən gənc sürücülər qəza göstəricilərini təxminən 20-25% azalda bilirlər.

Sonrakı mərhələdə nəzəri biliklər əməli bacarıqlara çevrilir. Avtodromlarda başlanan təlimlər tədricən real yol şəraitinə keçir. Başlanğıc manevrlərdən - dayanma, dönmə, park etmə və arxa hərəkət mürəkkəb yol situasiyalarına qədər hər bir mərhələ sürücünün motorik bacarıqlarını avtomatlaşdırır. Simulyatorlar isə təhlükəsiz mühitdə müxtəlif ssenariləri sınamağa imkan verərək sürücünü gözlənilməz vəziyyətlərə hazırlayır.

Real yol təcrübəsi isə heç bir simulyatorun verə bilməyəcəyi dərsləri öyrədir. Şəhərdaxili və şəhərlərarası yollar, müxtəlif hava şəraiti, gündüz və gecə sürüşləri- bütün bunlar sürücünü adaptasiya qabiliyyətinə hazırlayır. Təcrübəli sürücülər qeyri-standart situasiyalarda adekvat və düzgün

qərar qəbul etməyi öyrənirlər. Təlimin zirvəsi isə imtahan və qiymətləndirmə mərhələsidir. Burada nəzəri biliklər və praktiki bacarıqlar bir araya gəlir. Kompüter əsaslı testlər obyektiv qiymətləndirməni təmin edir, real yol ssenariləri isə sürücünün reflekslərini, qaydalara riayətini və təhlükəsiz qərar vermə qabiliyyətini yoxlayır. Bəzi ölkələrdə tətbiq olunan pilləli lisenziya sistemi isə yeni sürücülərə tədricən məsuliyyət artıraraq onların təhlükəsizliyini qoruyur.

Amma sürücülük yalnız bir dəfə öyrənilən bacarıq deyil. Daimi təkmilləşdirmə və yenidən hazırlıq mərhələsi onu göstərir ki, sürücülük həyat boyu davam edən bir prosesdir. Yeni qaydalar, texnologiyalar, tibbi və psixoloji müayinələr sürücünün bacarıqlarını yeniləyir, qəza təcrübəsi olanlar üçün isə yenidən hazırlıq kursları təhlükəsiz sürüş davranışını bərpa edir. Tədqiqatlar göstərir ki, bu cür proqramlar qəzaların təkrar başvermə ehtimalını 30-35% azaldır.

Beləliklə, sürücülük yalnız texniki bilik deyil, mərhələli təlim və psixoloji hazırlıq ilə formalaşan bir bacarıqdır. Hər mərhələ- nəzəri bilik, əməli bacarıqlar, real yol təcrübəsi və davamlı təkmilləşmə -sürücünü təkcə avtomobil idarə edən yox, həm də yolun təhlükəsizliyinə cavabdeh bir şəxsə çevirir. Yolun sirrini öyrənmək, əslində, həyatın sirrini anlamağa bənzəyir: diqqət, təcrübə və məsuliyyət olmadan heç bir təhlükəsizlik mümkün deyil.

Sürücü hazırlığı sahəsində texnologiyanın sürətli inkişafı ənənəvi təlim metodlarını köklü şəkildə dəyişdirir. Virtual reallıq (VR) və genişləndirilmiş reallıq (AR) texnologiyaları təlim prosesinə inqilabi yeniliklər gətirir. Bu texnologiyalar vasitəsilə sürücülər təhlükəli və qeyri-adi yol situasiyalarını tamamilə təhlükəsiz mühitdə təkrarlaya bilir, həmçinin müxtəlif yol və hava şəraitlərinin simulyasiyasını həyata keçirə bilirlər. Nəticədə, namizədlər real həyatda qarşılaşa biləcəkləri riskləri əvvəlcədən öyrənir və adekvat reaksiya formalaşdırırlar.

Süni intellekt (AI) və maşın öyrənməsi metodları isə fərdiləşdirilmiş təlim proqramlarının hazırlanmasına imkan verir. Bu sistemlər hər bir sürücünün güclü və zəif tərəflərini təhlil edir və uyğun təlim materialları təqdim edərək öyrənmə prosesini optimallaşdırır. Tədqiqatlar göstərir ki, bu fərdiləşdirilmiş yanaşma təlimin effektivliyini təxminən 40–50% artırır, sürücülərin bacarıqlarının daha sürətlə və dayanıqlı şəkildə inkişaf etməsinə şərait yaradır.

Bundan əlavə, avtonom nəqliyyat vasitələrinin sürətlə inkişafı sürücü hazırlığı konsepsiyasını kökündən dəyişir. Gələcəkdə sürücülər yalnız nəqliyyat vasitəsini idarə etməyəcək, eyni zamanda sistemin monitorinqi və kritik situasiyalarda müdaxilə bacarıqlarına sahib olmalıdırlar. Bu dəyişiklik, sürücü hazırlığı proqramlarının yenidən işlənməsini və müasir texnologiyaların inteqrasiyasını zəruri edir.

Beləliklə, müasir texnologiyalar həm təhlükəsizlik, həm də təlimin effektivliyi baxımından sürücü hazırlığında yeni standartlar müəyyən edir. Texnologiyaların inteqrasiyası ilə təlim yalnız bilik və bacarıqların öyrədilməsi deyil, həm də sürücülərin real həyat risklərini proqnozlaşdırmaq və idarə etmək qabiliyyətini inkişaf etdirmək məqsədinə xidmət edir.

Yol hərəkəti təhlükəsizliyi yalnız texniki tədbirlər və təşkilati qaydalarla məhdudlaşmır. Əslində, təhlükəsizliyin davamlı təminatı üçün cəmiyyət səviyyəsində təhlükəsizlik mədəniyyətinin formalaşdırılması əsas şərtdir. Bu, təkcə yol infrastrukturu və nəqliyyat vasitələrinin vəziyyəti ilə deyil, həm də sürücülərin, piyadaların və digər yol iştirakçılarının davranış vərdişləri ilə sıx bağlıdır.

Təhlükəsizlik mədəniyyəti bir proses olaraq uşaq yaşlarından başlayan təlim və tərbiyə ilə formalaşır. Məktəblərdə keçirilən yol hərəkəti qaydaları dərsləri, interaktiv maarifləndirmə proqramları və oyunlar uşaqlara təhlükəsiz davranış prinsiplərini erkən yaşda aşılamaq üçün mühüm vasitədir. Daha sonra, gənclər və yetkinlər üçün kütləvi informasiya vasitələrində və sosial platformalarda aparılan maarifləndirmə kampaniyaları təhlükəsiz sürüş və piyadaların davranış qaydaları barədə məlumatlılığı artırır.

İctimai təşkilatlar və vətəndaş təşəbbüsləri də təhlükəsizlik mədəniyyətinin inkişafında əvəzsiz rol oynayır. Onlar təlimlərin təşkili, ictimai aksiyalar və maarifləndirici tədbirlər vasitəsilə cəmiyyətdə məsuliyyətli davranış normlarını gücləndirirlər. Sosial məsuliyyətin inkişafı, yol hərəkəti qaydalarına hörmət və digər iştirakçılara qarşı diqqətli münasibət yalnız fərdi səviyyədə deyil, kollektiv təhlükəsizliyin təmin olunmasında da həlledici faktordur.

Beynəlxalq təcrübə göstərir ki, yüksək təhlükəsizlik mədəniyyətinə malik ölkələrdə qəza və ölüm göstəriciləri əhəmiyyətli dərəcədə aşağıdır. Məsələn, Skandinaviya ölkələrində və Yaponiya

kimi inkişaf etmiş cəmiyyətlərdə yol təhlükəsizliyi tədbirləri texniki standartlarla yanaşı, sosial təbliğat və maarifləndirmə ilə də gücləndirilir. Nəticədə, sürücülərin və piyadaların təhlükəli davranışlara meyli azalıb, qeyri-standart və riskli situasiyalar daha yaxşı idarə olunur. Bu kontekstdə yol hərəkəti təhlükəsizliyi təkcə fiziki tədbirlər deyil, həm də sosial-psixoloji və mədəni faktorların sintezini tələb edən sistem kimi nəzərdən keçirilməlidir. Təhlükəsizlik mədəniyyətinin inkişafı sürücülərin və yol iştirakçılarının davranışlarını uzunmüddətli şəkildə dəyişdirərək, cəmiyyət səviyyəsində daha sabit və etibarlı yol mühiti yaradır.

Yol hərəkəti təhlükəsizliyi çoxfaktorlu və kompleks bir sistemdir, onun effektivliyi texniki vasitələr, insan faktoru, infrastruktur və təşkilati tədbirlər arasında optimal qarşılıqlı təsirdən asılıdır. Bu sistemin mərkəzində isə sürücü hazırlığı dayanır; onun səviyyəsi və keyfiyyəti yol-nəqliyyat hadisələrinin tezliyi və nəticələrinin ağırlığını birbaşa müəyyən edir.

Müasir sürücü hazırlığı yalnız nəzəri biliklərin verilməsi ilə məhdudlaşmır. O, pilləli və sistemli yanaşma əsasında təşkil edilməli, ilkin mərhələdən real yol şəraitində təcrübənin toplanmasına, daha sonra isə davamlı peşəkar inkişaf və yenidən hazırlıq mərhələlərinə qədər bütün prosesi əhatə etməlidir. Bu mərhələlər elmi əsaslandırılmış metodlarla həyata keçirilməli, sürücülərin psixofizioloji hazırlığı, risk qavrayışı və qərarvermə bacarıqları sistemli şəkildə inkişaf etdirilməlidir.

Texnologiyanın sürətli inkişafı sürücü hazırlığını yeni mərhələyə daşıyır. Simulyatorlar, virtual və genişləndirilmiş reallıq (VR/AR) texnologiyaları ilə təhlükəli situasiyaların təhlükəsiz mühitdə təkrarlanması, müxtəlif yol və hava şəraitlərinin modelləşdirilməsi mümkündür. Süni intellekt və maşın öyrənməsi isə fərdiləşdirilmiş təlim proqramları yaradaraq, hər bir sürücünün güclü və zəif tərəflərinə uyğun tədris strategiyalarının hazırlanmasına imkan verir. Bu yanaşmalar təlimin effektivliyini əhəmiyyətli dərəcədə artırır və sürücülərin riskli situasiyalarda adekvat davranış qabiliyyətini gücləndirir.

Eyni zamanda, yol hərəkəti təhlükəsizliyi yalnız fərdi bacarıqlarla deyil, dövlət, özəl sektor və cəmiyyətin birgə səyləri ilə təmin olunur. Qanunvericilik bazasının gücləndirilməsi, müasir texnologiyaların tətbiqi, sistemli sürücü hazırlığı və cəmiyyətdə təhlükəsizlik mədəniyyətinin inkişaf etdirilməsi bir-birini tamamlayan tədbirlərdir. Bu tədbirlərin kompleks şəkildə həyata keçirilməsi yol-nəqliyyat hadisələrinin sayını azaltmaqla yanaşı, insanların həyat və sağlamlığının qorunmasına xidmət edir.

Beləliklə, yol hərəkəti təhlükəsizliyi həm texniki və təşkilati tədbirlər**,** həm insan amilinin inkişafı, həm də mədəni və sosial faktorların inteqrasiyası ilə təmin edilən davamlı və kompleks prosesdir. Sürücü hazırlığı bu sistemin təməl daşı olaraq, risklərin idarə olunması və təhlükəsiz yol mühitinin yaradılmasında həlledici rol oynayır. Tədqiqatın əsas nəticələrini aşağıdakı kimi ümumiləşdirə bilərik.

Yol hərəkəti təhlükəsizliyinin klassik "sürücü-nəqliyyat vasitəsi-yol" triadasında insan amili həlledici mövqe tutur. Texniki parametrlər, yol infrastrukturu və meteoroloji şərait mühüm olsa da, sürücünün psixofizioloji vəziyyəti, peşəkar hazırlığı, risk qavrayışı və qərar qəbuletmə qabiliyyəti təhlükəsizliyin təmin edilməsində birinci dərəcəli əhəmiyyət kəsb edir.

İkincisi, elmi tədqiqatlar sübut edir ki, sürücü hazırlığının keyfiyyətsizliyi, xüsusən də təcrübəsiz və gənc sürücülərdə zəif inkişaf etmiş hazard qavrayışı qəza riskini əhəmiyyətli dərəcədə artırır. Yorğunluq, alkoqol, narkotik və psixotrop maddələrin təsiri, diqqətin dağılması kimi faktorlar qəza ehtimalını 2-2,5 dəfə yüksəldir.

Üçüncü, müasir texnologiyaların-virtual və genişləndirilmiş reallıq, süni intellekt, simulyatorların tətbiqi sürücü hazırlığının effektivliyini 40-50% artırır və təlim prosesini fərdiləşdirməyə imkan verir. Bu texnologiyalar təhlükəli situasiyaların təhlükəsiz mühitdə öyrənilməsinə şərait yaradır.

Dördüncü, pilləli sürücü hazırlığı sistemi - nəzəri biliklərdən əməli bacarıqlara, real yol təcrübəsindən davamlı təkmilləşdirməyə qədər - təhlükəsiz sürücü davranışının formalaşmasında fundamental əhəmiyyət daşıyır. Psixoloji hazırlıq proqramları qəza göstəricilərini 20-25%, yenidən hazırlıq kursları isə təkrar qəza ehtimalını 30-35% azaldır.

Beşinci, təhlükəsizlik mədəniyyətinin cəmiyyət səviyyəsində formalaşdırılması uzunmüddətli strategiyanın vacib komponentidir. Beynəlxalq təcrübə göstərir ki, yüksək təhlükəsizlik mədəniyyətinə malik ölkələrdə qəza və ölüm göstəriciləri əhəmiyyətli dərəcədə aşağıdır.

Beləliklə, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün sistemli yanaşma zəruridir: qanunvericilik bazasının təkmilləşdirilməsi, sürücü hazırlığı standartlarının yüksəldilməsi, müasir texnologiyaların tətbiqi, infrastrukturun yaxşılaşdırılması və cəmiyyətdə məsuliyyətli davranış mədəniyyətinin inkişaf etdirilməsi. Yalnız bu tədbirlərin kompleks şəkildə həyata keçirilməsi Azərbaycan yollarında təhlükəsizlik səviyyəsinin yüksəldilməsinə və insan həyatının qorunmasına xidmət edə bilər.

ƏDƏBİYYAT

1. Гранская В.Ю. Кросс-культурное сравнение отношения к безопасности, оценка риска и рискованного поведения на дорогах российских и норвежских водителей / В.Ю. Гранс кая, Р. Клемпе, Т. Рандмо // Вестник СПбГУ. Сер.12, 2012. № 3. С. 124
2. Məmmədov, R. . *Yol hərəkəti təhlükəsizliyində texniki göstəricilər və aktiv təhlükəsizlik sistemləri*. Yol Təhlükəsizliyi üzrə Texniki Tədqiqatlar, Bakı,2023, s. 45–47
3. Hüseynli, A. Avtomobillərdə passiv təhlükəsizlik sistemlərinin təsir mexanizmləri. Avtomobil Təhlükəsizliyi Araşdırma Mərkəzi, Bakı,2022, s. 88–90
4. Olesen, A. V., Madsen, T. K. O., Lahrmann, H. & Nielsen, J. (2022). Use of psychotropic medication and risk of road traffic crashes: a registry-based case–control study in Denmark, 1996–2018. Psychopharmacology, 239(8), ss. 2537–2546.
5. Ivers, R., Senserrick, T., Boufous, S., Stevenson, M., Chen, H.-Y., Woodward, M., Norton, R. (2009). Novice drivers' risky driving behavior, risk perception, and crash risk: Findings from the DRIVE study. American Journal of Public Health, 99(9), s. 1638–1644
6. Rizelioğlu, M., & digərləri. (2025). Collision risk and mobility analysis of novice drivers on a highway: perception-reaction times and crash potential. Scientific Reports, s. (reaksiya müddəti və kəsişmə potensialı nəticələri).
7. Jakobsen_et_al_2022_Influence_of_occupational_risk_factors_for_road_traffic_crashes_among_professional_drivers_systematic_review.pdf.

Илкин Фуад оглы Самедли
магистрант,
Исмаил Мамед оглы Чобанзаде
Доктор философии по права, доцент,
Азербайджанский Университет Архитектуры и Строительства

Мультидисциплинарные аспекты безопасности дорожного движения в Азербайджане

Резюме

Безопасность дорожного движения является мультидисциплинарной проблемой, и в Азербайджане большинство дорожно-транспортных происшествий связано с человеческим фактором. Для решения этой проблемы необходимо комплексное внедрение качественной подготовки водителей, современных технологий, развития инфраструктуры и формирования культуры безопасности в обществе.

Ilkin Fuad Samadli
master,
Ismail Mammad Chobanzade
doctor of philosophy in law, associate professor,
Azerbaijan University of Architecture and Construction

Multidisciplinary aspects of road traffic safety in Azerbaijan

Summary

Road traffic safety is a multidisciplinary problem, and in Azerbaijan, the majority of road traffic accidents are related to the human factor. To address this problem, comprehensive implementation of quality driver training, modern technologies, infrastructure development, and formation of a safety culture in society is necessary.

Elçin Şadət oğlu MİRZƏYEV
magistrant,
Azərbaycan Kooperasiya Universiteti
Arzu Məsim oğlu QULİYEV
texnika üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ŞƏBƏKƏ MODELİNƏ ƏSASLANAN VERİLƏNLƏR BAZALARI

Giriş

Verilənlərin effektiv saxlanılması və idarə olunması üçün müxtəlif verilənlər bazası modelləri mövcuddur. Bu modellərdən biri də şəbəkə modelidir. Şəbəkə modeli 1960-cı illərdə CODASYL (Conference on Data Systems Languages) konsorsiumu tərəfindən hazırlanmışdır və ilk dəfə 1969-cu ildə rəsmi olaraq təqdim edilmişdir. Bu model, ierarxik modelin məhdudiyyətlərini aşaraq daha mürəkkəb və çoxşaxəli məlumat əlaqələrinin qurulmasına imkan yaradır.

Şəbəkə Modelinin Təsviri

Şəbəkə modeli verilənlərin **qraf strukturu** formasında təşkil olunduğu verilənlər bazası modelidir. Burada verilənlər **qovşaqlar (nodes)** və onların arasındakı **əlaqələr (edges)** şəklində saxlanılır. Qovşaqlar "varlıq"ları (məsələn, tələbə, müəllim, fənn) ifadə edir, əlaqələr isə onların arasında olan çox mürəkkəb münasibətləri göstərir.

Bu modelin əsas üstünlüyü ondadır ki, **bir varlıq digər bir neçə varlıqla eyni zamanda əlaqədə ola bilər**. Yəni, **çoxdan-çoxa (many-to-many)** münasibətləri təbii şəkildə modelləşdirmək mümkündür. Bu xüsusiyyət onu ierarxik modeldən fərqləndirir, çünki ierarxik modeldə məlumatlar yalnız bir valideyn-bir övlad əlaqəsi ilə təmsil olunur.

Əsas Anlayışlar:

Şəbəkə modelində aşağıdakı əsas anlayışlar mövcuddur:

- **Varlıq (Record Type):** Saxlanılan məlumat vahidlərinin tipi.
- **Əlaqə (Set Type):** Varlıqlar arasında əlaqəni ifadə edir.
- **Üzv (Member) və Sahibi (Owner):** Əlaqələrdə bir varlıq sahibi, digəri isə üzv kimi çıxış edir.
- **Pointer (İşarəçi):** Məlumat elementləri arasında fiziki əlaqələri təmin edir.

Modelin Quruluşu

Məlumatlar **qraf strukturuna** uyğun saxlanılır. Məsələn, "Tələbə" və "Fənn" varlıqları arasında çoxdan-çoxa əlaqə varsa, bu əlaqə "Qeydiyyat" adlı vasitəçi varlıqla (intermediate entity) qurula bilər.

Tələbə ←→ Qeydiyyat ←→ Fənn

Bu cür əlaqə modeldə müxtəlif yollarla izlənilə bilər və məlumat axtarışını optimallaşdırmaq üçün xüsusi işarəçilərdən istifadə olunur.

Şəbəkə Modelinin Üstünlükləri:

- **Çoxşaxəli əlaqələrin dəstəklənməsi:** Mürəkkəb verilənlər strukturlarını modelləşdirmək üçün uyğundur.
- **Yüksək performans:** Pointerlərdən istifadə olunduğu üçün məlumatlara sürətli çıxış mümkündür.
- **Dəqiq strukturlaşdırma:** Varlıqlar və onların əlaqələri sistemli şəkildə göstərilir.

Şəbəkə Modelinin Çatışmazlıqları:

- **Mürəkkəb struktur:** Modelin dizaynı və idarə olunması çətindir.
- **Proqramçıya asılılıq:** Məlumatlara çıxış üçün xüsusi proqramlaşdırma bacarığı tələb olunur.
- **Standart interfeyslərin olmaması:** Fərqli sistemlər arasında uyğunluq zəifdir.
- **SQL kimi sadə sorğu dili yoxdur:** Sorğular əsasən aşağı səviyyəli proqramlaşdırma dilləri ilə həyata keçirilir.

Praktiki Tətbiqlər:

Şəbəkə modeli əvvəllər əsasən **bank sistemləri**, **sığorta şirkətləri**, **hökumət idarələri** kimi böyük və mürəkkəb məlumat strukturlarının idarə edilməsi tələb olunan sahələrdə istifadə olunur-

du. Bu gün isə relyasiya və obyektyönlü modellərin geniş tətbiqi nəticəsində şəbəkə modeli daha çox **tarixi və nəzəri əhəmiyyət** kəsb edir.

Məşhur Şəbəkə Modeli Sistemləri:

- **Integrated Data Store (IDS)** – Charles Bachman tərəfindən hazırlanmış ilk nümunələrdən biri.
- **IDMS (Integrated Database Management System)** – Kommersiya məqsədli məşhur şəbəkə VBİS.
- **Univac DMS-1100**

Nəticə

Şəbəkə modelinə əsaslanan verilənlər bazaları tarixən mühüm rol oynamış və məlumatların idarə edilməsində bir mərhələ kimi çıxış etmişdir. Onun strukturu mürəkkəb və proqramlaşdırma baxımından tələbkar olsa da, çoxlu əlaqəli məlumatların saxlanılması baxımından effektivdir. Bu gün daha çox relyasiya və obyektyönlü modellərdən istifadə olunsa da, şəbəkə modelinin prinsipləri və anlayışları verilənlər bazası nəzəriyyəsinin təməlini təşkil edir və öyrənilməsi vacibdir.

ƏDƏBİYYAT

1. C.J. Date. *An Introduction to Database Systems*. 8th Edition. Addison-Wesley, 2003.
2. Elmasri, R., Navathe, S.B. *Fundamentals of Database Systems*. 7th Edition. Pearson, 2016.
3. Бахман Ч. *Сетевые модели баз данных*. – Москва: Мир, 1980.
4. Özsu, M.T., Valduriez, P. *Principles of Distributed Database Systems*. 3rd Edition. Springer, 2011.
5. Silberschatz, A., Korth, H.F., Sudarshan, S. *Database System Concepts*. 7th Edition. McGraw-Hill, 2019.
6. В.М. Поляков. *Базы данных: проектирование, реализация, сопровождение*. – СПб: Питер, 2005.

Эльчин Шадат оглы Мирзаев
магистрант,
Азербайджанский Университет Кооперации
Арзу Масим оглы Гулиев
доктор философии по техническим наукам, доцент,
Азербайджанский Государственный Педагогический Университет

Базы данных на основе сетевой модели

Резюме

Существуют различные модели баз данных для эффективного хранения и управления данными. Одна из них – сетевая модель. Сетевая модель была разработана в 1960-х годах консорциумом CODASYL (Конференция по языкам систем данных) и впервые официально представлена в 1969 году. Эта модель преодолевает ограничения иерархической модели и позволяет реализовывать более сложные и многогранные взаимосвязи данных.

Elchin Shadat Mirzayev
master,
Azerbaijan Cooperation University
Arzu Masim Guliyev
doctor of philosophy in technical sciences, associate professor,
Azerbaijan State Pedagogical University

Databases based on the network model

Summary

There are various database models for efficient data storage and management. One of these models is the network model. The network model was developed in the 1960s by the CODASYL (Conference on Data Systems Languages) consortium and was first formally introduced in 1969. This model overcomes the limitations of the hierarchical model and allows for more complex and multifaceted data relationships.

Xuraman Hikmət qızı KƏRİMLİ
magistrant,
xuramankrimli07@gmail.com,
Nahid Cəlil oğlu PAŞAYEV
riyaziyyat üzrə fəlsəfə doktoru, dosent,
Lənkəran Dövlət Universiteti

TƏTBİQ MƏSƏLƏLƏRİ ŞAGİRDLƏRİN RİYAZİYYATA MARAĞINI ARTIRAN VASİTƏ KİMİ

Orta ümumtəhsil məktəblərində şagirdlərin riyaziyyata marağının artırılması müxtəlif üsulların, metod və vasitələrin tətbiqi ilə həyata keçirilə bilər. Lakin bu üsul və vasitələrdən elələri vardır ki, onlar iki və daha çox funksiyanı daşıyır. Bu cəhətdən məktəb riyaziyyat kursunda tədris məsələləri mühüm rol oynayır. Riyazi biliklərin verilməsi, mənimsənilməsi, möhkəmləndirilməsi üçün nəzərdə tutulan tədris məsələləri riyazi fənlərin məzmununa uyğun olaraq, təyinatı üzrə təsnif olunur və ayrı-ayrı mövzuların tədrisi prosesində zəruri bir komponentə və ya vasitəyə çevrilir. Uzunmüddətli pedaqoji təcrübə, müşahidə və aparılan tədqiqatlar göstərir ki, şagirdlərin riyazi təhsilə marağını artırmaq və onun təkmilləşdirilməsi üçün dövlətin müvafiq ali orqanları tərəfindən tədbirlər həyata keçirilir. Danılmaz faktdır ki, təlimin keyfiyyəti müəllimin pedaqoji ustalığı səviyyəsindən çox asılıdır. Bu anlayış məzmunu etibarilə geniş olub, müəllimin dərsə hazırlaşması ilə, onun sinfə hansı metodla, inkişafetdirici çalışmalarla gəlməsindən çox asılıdır. Çünki hər bir rəngarənglikdən, maraqdan məhrum olan tədris prosesində rəsmi qaydada şagirdin fənnə marağını artırmaq olmaz. (Əhmədov, R.,2016)

Riyaziyyat müəllimləri, metodistlər ilk növbədə çalışmalıdırlar ki, şagirdlərin riyaziyyata marağı yaransın və bunun üçün tədris materialının məzmunu, xarakteri və onun təqdim edilmə metodu necə olmalıdır – sualına düzgün cavab tapmalıdırlar. Orta məktəb riyaziyyatına aid məsələlər ilk növbədə həyati olmaqla, tətbiqi xarakter daşımalıdır. Məhz bu tipli məsələləri həll etməklə və ya tədrisə daxil etməklə müəllim şagridlərə riyaziyyatın həyatda əhəmiyyətini və insanın əmək fəaliyyətinin səmərələşdirilməsindəki rolunu inandırmış olur. Məhz tətbiq xarakterli riyazi məsələlər şagirdləri daha çox cəlb edir. Şagirdlər bu tipli məsələləri həll etmək üçün məlum olan riyazi biliklərdən istifadə etməyə və çox vaxt hətta praktik ölçmələri tətbiq etməyə çalışırlar.

Tətbiqi xarakterli məsələlər riyaziyyatın bilavasitə həyatda tətbiqini nümayiş etdirir və bu da şagirdlərin fənnə marağını artırır. Çünki şagird riyazi biliyinin həyatda ilk tətbiqini görür.

Riyaziyyatın məktəb kursuna daxil edilmiş məsələlər müəyyən dərəcədə həyatdan təcrid olunmuşdur, digər tərəfdən didaktik cəhətdən: riyaziyyat təliminin tətbiqi istiqamətin reallaşdırılmasına kifayət qədər cavab vermir.

Məktəbdə mətnli məsələlər həlli təliminin səmərəli olması üçün məktəb riyaziyyat kursunda tədqim olunmuş məsələlər sistemi aşağıdakı iki məqsədə xidmət etmək cəhətdən təsnif edilməlidir:

- məsələlər praktik-tətbiqi xarakter daşımalıdır;
- məsələlərin həlli şagirdlərdən kifayət qədər riyazi bilik tələb etməklə, onların təfəkküründü inkişaf etdirməyə xidmət etməlidir.

Buna nail olmaq üçün müəllim tədris məsələlərini seçərkən aşağıdakı prinsipi əsas tutmalıdır:

- riyazi biliyin mənimsənilməsinə xidmət edən məsələlər;
- riyazi biliyin tətbiqinə xidmət edən adi və tətbiq məsələləri;
- riyazi biliklərin həyati situasiyalarda tətbiqinə dair sırf tətbiq məsələləri.

Bu mərhələlər həm də şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olmaqla, onların təfəkküründün inkişaf səviyyəsini nəzərə almağı tələb edir.

Dərsdə təqdim olunan mətnli məsələlərin məzmunu və həyatiliyi haqqında müəyyən informasiyaları müəllim verməlidir. (Mehdiyev, A. M.,2018)

Tədris prosesində didaktik aspektdə məsələnin təhlili və həlli metodun müəyyən edilməsi ilə bağlıdır.

Məsələ həlli prosesi inkişafetdirici xarakter daşımalıdır. Belə ki, ilkin mərhələdə çox da çətin

olmayan, ədədi verilənli standart məsələ təqdim olunur. Məsələnin həllindən sonra zəruri araşdırmalar və həllin yoxlanması yerinə yetirilir.

İkinci mərhələdə məsələ bir qədər ümumiləşdirilir, müəyyən parametr daxil edilir ki, məsələnin tətbiqi xarakteri gücləndirilsin.

Üçüncü mərhələdə situasiyanın optimallaşdırılması ön plana çəkilir və məsələdə müvafiq dəyişikliklər edilir.

Bu məqsədlə konkret məsələyə müraciət edək.

Məsələ 1. Müəssisədə iki qadın operator var. Birinci qadın saatda 15 səh., ikinci qadın isə saatda 20 səhifə yaza bilir. 240 səhifəlik materialı 8 saatda yazmaq üçün birinci operator işə başlayandan neçə saat sonra ikinci operator ona qoşulmalıdır?

Burada şagirdlər təbii ki, belə sual verə bilərlər: nə üçün hər iki qadın eyni zamanda işə başlamır?

Cavab belə ola bilər: İkinci qadın başqa bir işlə məşğul idi və onu qurtardıqdan sonra birinci qadına qoşuldu. Aşkardır ki, ədədi verilənli standart məsələni həll etmək o qədər də çətin deyil.

Əvvəlcə birinci qadının 8 saatda gördüyü iş hesablanır və bundan sonra məsələ adi qayda ilə həll edilir.

İkinci mərhələdə məsələyə nisbətən ümumi xarakter vermək üçün parametr daxil edilməsi məqsədəuyğun hesab olunur.

Məsələ 2. Bir operator saatda 15 səh., o birisi isə P_2 səh. yazı yazır. 240 səhifəlik yazını 8 saatda yazmaq üçün birinci operator işə başlayandan neçə saat sonra ikinci ona qoşulmalıdır?

Bu məsələnin həlli funksiya anlayışı ilə əlaqədar olub, bərabərsizliyin həllinə gətirilir.

Məsələnin həlli

$$8 \cdot 15 + (8 - t) \cdot P_2 = 240$$

Parametrli tənliyin həllinə gətirilir. $t = 8 - \frac{120}{P_2}$ alırıq. t funksiyası P_2 dəyişənindən asılıdır. Həllə müəyyənlik gətirmək üçün cədvəl tərtib edək:

P_2	40	35	25	20	15	10
t	5	4,57	4	2	0	-4

Sonuncu sütunda mənfi ədəd alındı. Bu onu göstərir ki, ikinci qadının iş sürəti, əmək məhsuldarlığı olduqca azdırsa, onda məqsədə çatmaq olmaz. Cədvəldən göründüyü kimi, ikinci qadın birinci ilə eyni zamanda işə başlamalıdır. Yəni işi vaxtında qurtarmaq üçün ikinci qadının iş sürəti 15 səh/saat -dan az olmamalıdır. Bu onu göstərir ki, $t = 8 - \frac{120}{P_2}$, $(P_2 > 0)$ funksiyası artandır. Həqiqətən, əgər ikinci qadının iş sürəti yüksək olsaydı, o, birinci qadına daha gec qoşula bilərdi.

Beləliklə, müəyyən etdik ki, $y = 8 - \frac{120}{x}$, $(x > 0)$ funksiyası artandır.

Məsələ təlim prosesində problem kimi qoyula bilər. Çünki problem situasiyanın yaradılması özü interaktiv təlimin əsas elementidir.

Problemli təlim və problem situasiyanın yaradılması müasir riyaziyyat təlimində mühüm rol oynayır və şagirdlərin qarşısında məqsədyönlü idraki problemlər qoyur. Çünki şagird qarşısında idraki problemlər sual, sual- məsələ və məsələ şəklində qoyulur. E.Q. Stolper qeyd edir ki, hər məsələ şagird üçün problem təşkil etmir. Əgər aşağıdakı tələblər ödənirsə, o zaman məsələ idraki problem hesab olunur.

1) məsələ kifayət qədər çətin və ya düşündürücu olsun;
2) şagirddə maraq yaratsın və onu həll etmək təşəbbüskarlığını artırsın;
3) məsələni həll etmək üçün şagirdin biliyi və həyat təcrübəsi kifayət etməlidir.

Qarşıya qoyulan problemin maraq yaratması üçün müəllim giriş xarakterli müəyyən maraqlı epizodla şagirdləri tanış edə bilər, riyazi xarakterli standart olmayan suallar verə bilər:

- neçə nöqtə bir düz xətti təyin edir?
- neçə nöqtə bir çevrəni təyin edir?

- neçə nöqtə bir müstəvini təyin edir?
- hansı düzbucaqlının daxilinə çevrə çəkmək olar?

Kombinasiyalı və ya mürəkkəb konturlu fiqurların sahələrinin hesablanmasına aid praktik işlərin verilməsi və məsələnin həllində şagirdlər verilmiş fiquru (müstəvi) onlara tanış olan fiqurlara ayırmaqla məlum sahə düsturlarını tətbiq etməyə çalışırlar.

Həndəsi fiqurlara aid və ya məsələ məzmunu əsasında əyani vəsaitlər hazırlayarkən, şagirdlər nəzəri biliklərlə yanaşı, bir sıra qurma və ölçmə işlərini yerinə yetirirlər.

Əyani vəsaitlərin hazırlanmasında iki məqsəd qarşıya qoyulur:

1) yeni materialın öyrənilməsində müəyyən qanunauyğunluğun aşkar edilməsinə xidmət edən vasitələr;

2) öyrənilmiş nəzəri materialın (biliyin) praktikada tətbiqini reallaşdıran vasitələr.

Riyaziyyatın praktik tətbiqi ilə əlaqədar olan ekstremum məsələləri- şagridlərin nəzəri biliklərinin genişləndirilməsində, onların praktik tətbiqlərinin aşkar edilməsində, riyazi biliklərin həyatla əlaqələndirilməsində mühüm rol oynayır. Bu tipli məsələlərin həlli prosesində əyani – illüstrativ materiallardan da istifadə olunur.

ƏDƏBİYYAT

1. Əhmədov, R. Riyaziyyatın tədrisində tətbiqi məsələlərin rolu, 2016.
2. Mehdiyev, A. M. Riyaziyyat təlimində problemli və interaktiv metodlar, 2018.

Хураман Хикмат кызы Керимли
магистрант,
xuramankrimli07@gmail.com,
Нахид Джалил оглы Пашаев
doctor of philosophy in mathematics, associate professor,
Лянкяранский Государственный Университет

Прикладные задачи как средство повышения интереса учащихся к математике

Резюме

В этом исследовании изучена роль прикладных математических задач в повышении интереса учащихся к математике. Наблюдения показывают, что задачи с жизненным и практическим содержанием вызывают у учеников интерес к предмету и способствуют развитию их математического мышления. Выбор учителями проблемно-ориентированных и прикладных заданий повышает эффективность урока и демонстрирует связь математики с повседневной жизнью. Таким образом, прикладные задачи выступают важным дидактическим средством, обеспечивающим как усвоение знаний, так и формирование творческих способностей.

Khuraman Hikmat Kerimli
master,
xuramankrimli07@gmail.com,
Nahid Jalil Pashayev
doctor of philosophy in mathematics, associate professor,
Lankaran State University

Applied problems as a means of increasıng students' interest in mathematics

Summary

This research examines the role of applied mathematical problems in increasing students' interest in mathematics. Observations show that problems with practical and real-life content engage students in the subject and contribute to the development of their mathematical thinking. The se-

lection of problem-oriented and applied tasks by teachers enhances lesson effectiveness and demonstrates the connection between mathematics and everyday life. Thus, applied problems serve as an important didactic tool that facilitates both the acquisition of knowledge and the development of creative abilities.

Zahid Asəf oğlu NADİROV
magistrant,
Zahidnadirov5@gmail.com,
Allahşükür Əzizağa oğlu QULİYEV
riyaziyyat üzrə fəlsəfə doktoru, dosent,
quliyev_allahsukur@mail.ru,
Lənkəran Dövlət Universiteti

TƏNLİKLƏR SİSTEMİNİN CƏBRİ ÜSULLARLA HƏLLİ METODİKASI

Riyaziyyatın əsas bölmələrindən biri olan cəbr elmi məntiqi düşünmənin formalaşmasında, mühakimə yürütmə qabiliyyətinin inkişafında və analitik düşüncə tərzinin aşılanmasında mühüm rol oynayır. Cəbrin öyrənilməsi prosesində tənliklər və tənliklər sisteminin həlli məsələləri xüsusi yer tutur. Xüsusilə tənliklər sisteminin cəbri üsullarla həlli həm nəzəri, həm də praktik baxımdan riyaziyyatın tədrisində əsas istiqamətlərdən biridir. Tənliklər sisteminin həlli üsulları şagirdlərdə riyazi məntiqin, müstəqil düşünmə və analitik təhlil bacarıqlarının formalaşmasına xidmət edir. Bu metodikanın düzgün qurulması tədris prosesində elmi əsaslı ardıcıllığın təmin edilməsinə və təlim məqsədlərinin daha effektiv həyata keçirilməsinə şərait yaradır.

Tənliklər sistemi anlayışı və onun əhəmiyyəti. Tənliklər sistemi dedikdə, eyni dəyişənləri əhatə edən iki və ya daha çox tənlikdən ibarət olan riyazi ifadə sistemi başa düşülür. Başqa sözlə, tənliklər sistemi eyni dəyişənləri özündə saxlayan bir neçə tənliyin birgə öyrənilməsidir. Tənliklər sisteminin məqsədi bu tənlikləri eyni anda ödəyən dəyişənlərin qiymətlərini tapmaqdır. Riyazi baxımdan bu, çoxölçülü məkanlarda müxtəlif funksiyaların kəsişmə nöqtələrinin müəyyən edilməsi kimi də yozula bilər. Tənliklər sistemləri əsasən iki formada olur:

- **Xətti tənliklər sistemi;**
- **Qeyri-xətti tənliklər sistemi.**

Ümumi orta məktəb səviyyəsində əsas diqqət xətti tənliklər sistemlərinin həllinə yönəldilir. Çünki, bu mərhələdə şagirdlər cəbrin əsas anlayışlarını, dəyişənlər arasındakı asılılıqları və riyazi əlaqələri öyrənirlər.

Cəbri üsullarla həllin mahiyyəti. Tənliklər sisteminin həllində iki əsas istiqamət mövcuddur: *qrafik üsul və cəbri üsullar*. Cəbri üsullar dedikdə, dəyişənlərin birinin ifadə olunaraq digər tənliyə yerinə yazılması, ya da tənliklərin birləşdirilərək sadələşdirilməsi kimi əməliyyatların həyata keçirilməsi nəzərdə tutulur. Cəbri üsulların məqsədi sistemdəki dəyişənləri ardıcıl şəkildə aradan qaldırmaq və nəticədə birdəyişənli tənliyə gətirməkdir. Bu üsullar aşağıdakılardır:

- **Əvəzetmə üsulu (substitusiya metodu);**
- **Tərəf-tərəfə toplama və ya çıxma üsulu (eliminasiya metodu);**
- **Determinantlar vasitəsilə həll üsulu (Kramer qaydası).**

Əvəzetmə üsulunun metodikası. Əvəzetmə üsulu cəbrin əsas qaydalarına əsaslanır və bir tənlikdən bir dəyişəni digərinin ifadəsində tapmaq, sonra isə bu ifadəni digər tənliyə yerinə qoymaqdan ibarətdir. Məsələn, aşağıdakı misala baxaq:

Misal 1: $\begin{cases} y + 9 = x^2 + 6x \\ -3x + y = -5 \end{cases}$ tənliklər sistemini həll edin.

Həlli: $-3x + y = -5$ tənliyini y-ə nəzərən həll edək: $y = -5 + 3x$. Alınmış bu ifadəni birinci tənlikdə nəzərə alsaq, onda $-5 + 3x + 9 = x^2 + 6x$ alarıq. Bu bərabərliyi sadələşdirsək, onda $x^2 + 3x - 4 = 0$ kvadrat tənliyini alarıq. Buradan da $x_1 = 1$ və $x_2 = -4$ alırıq. Bu qiymətləri $y = -5 + 3x$ əvəzləməsində yerinə yazsaq, $y_1 = -5 + 3 \cdot 1 = -2$ və $y_2 = -5 + 3 \cdot (-4) = -17$ alarıq. Beləliklə, cavab

(1, -2) və (-4, -17) olar.

Bu üsul daha çox şagirdlərdə ardıcıl məntiqi düşüncə və dəyişənlər arasında əlaqənin aydınlaşdırılması üçün tətbiq olunur. Tədris zamanı müəllim addım-addım izah etməli, xüsusilə dəyişənin ifadə olunması və yerinə yazılması prosesini lövhədə aydın şəkildə göstərməlidir.

Tərəf-tərəfə toplama və ya çıxma üsulunun metodikası. Bu üsulda məqsəd dəyişənlərdən birini aradan qaldırmaq üçün tənliklər uyğun şəkildə vurularaq və ya toplanaraq çıxılır. Məsələn:

Misal 2: $\begin{cases} x - y = 11 \\ x^2 - 4x - y = 5 \end{cases}$ tənliklər sistemini həll edin.

Həlli: Verilmiş sistemin tənliklərini tərəf-tərəfə çıxsaq, onda $(x - y)$ - $(x^2 - 4x - y)$ = 11 – 5 $=>$ $=>$ $x - y - x^2 + 4x + y = 6 => x^2 - 5x + 6 = 0$. Buradan x_1 və x_2 dəyişənlərini və sistemin istənilən tənliyində bu qiymətləri yerinə yazaraq y_1 və y_2 dəyişənlərini tapa bilərik. Onda $x_1 = 3$, $x_2=2$ və $y_1 = -8$, $y_2 = -9$ alarıq. Beləliklə, cavab (3, -8) və (2, -9) olar.

Determinantlar və Kramer qaydası. İki və üçdəyişənli xətti tənliklər sisteminin həllində Kramer qaydası cəbri üsulların ən ümumi forması hesab olunur. Aşağıda ikidəyişənli sistemin həlli üçün Kramer qaydası verilmişdir:

Tutaq ki, $\begin{cases} a_1x + b_1y = c_1 \\ a_2x + b_2y = c_2 \end{cases}$ şəklində tənliklər sistemi verilmişdir. Bu zaman sistemin əmsallarından və sərbəst həddlərindən istifadə edərək aşağıdakı determinantları düzəldə bilərik:

D = $\begin{vmatrix} a_1 & b_1 \\ a_2 & b_2 \end{vmatrix}$ $D_x = \begin{vmatrix} c_1 & b_1 \\ c_2 & b_2 \end{vmatrix}$ $D_y = \begin{vmatrix} a_1 & c_1 \\ a_2 & c_2 \end{vmatrix}$

Daha sonra $x = \frac{D_x}{D}$ və $y = \frac{D_y}{D}$ yazıb x və y dəyişənlərini tapırıq.

Misal 3. $\begin{cases} 2x + y = 7 \\ x + 3y = 11 \end{cases}$ tənliklər sistemini həll edin.

Həlli: Verilmiş sistemin əmsallarından və sərbəst həddlərinin iştirak etdiyi determinantları yazaq:

D = $\begin{vmatrix} 2 & 1 \\ 1 & 3 \end{vmatrix}$ = 2·3 - 1·1 = 6 – 1 = 5; $D_x = \begin{vmatrix} 7 & 1 \\ 11 & 3 \end{vmatrix}$ = 7·3 - 11·1 = 21 – 11 = 10

$D_y = \begin{vmatrix} 2 & 7 \\ 1 & 11 \end{vmatrix}$ = 2·11 - 1·7 = 22 – 7 = 15

Buradan $x = \frac{D_x}{D} = \frac{10}{5} = 2$ və $y = \frac{D_y}{D} = \frac{15}{5} = 3$ alarıq.

Bu üsul daha çox yuxarı siniflərdə, xüsusilə riyaziyyatın alqoritmik və riyazi model qurma bacarıqlarını inkişaf etdirmək məqsədilə tətbiq olunur. Müəllim determinant anlayışını əvvəlcədən aydın şəkildə izah etməli və onun riyazi mənasını şagirdlərə çatdırmalıdır.

Tədris prosesində tənliklər sisteminin cəbri üsullarla həlli zamanı aşağıdakı didaktik prinsiplərə əməl olunmalıdır:

- ✓ *Ardıcıllıq prinsipi:* Sadə sistemlərdən mürəkkəb sistemlərə keçid.
- ✓ *Müqayisəlilik prinsipi:* Hər bir üsulun üstünlükləri və məhdudiyyətlərinin müqayisəli təhlili.
- ✓ *Fəallıq prinsipi:* Şagirdləri həll prosesinə cəlb etmək, fərqli üsulları özləri ilə kəşf etdirmək.
- ✓ *Vizualizasiya prinsipi:* Həll addımlarının qrafik və cədvəl formasında izahı.

Bu metodlar tətbiq edildikdə, şagirdlər yalnız alqoritmik düşünmə ilə deyil, həm də yaradıcı-riyazi təhlil qabiliyyəti ilə fərqlənirlər.

Tənliklər sisteminin cəbri üsullarla həlli həm nəzəri, həm də tətbiqi baxımdan riyaziyyat tədrisində mühüm yer tutur. Bu üsullar şagirdlərdə məntiqi ardıcıllığı, riyazi əlaqələri anlama bacarığını və elmi düşünmə mədəniyyətini formalaşdırır. Cəbri üsulların düzgün metodikası təlim prosesini sistemli, məzmunlu və nəticəyönümlü edir.

ƏDƏBİYYAT

1. Əlizadə, S. A. Orta məktəbdə cəbrin tədrisi metodikası. Bakı: “Maarif”, 2010.
2. Quliyev, M. M. Riyaziyyatın tədrisi metodikası. Bakı: ADPU nəşriyyatı, 2015.
3. Mərdanov Misir. Cəbr, 8-ci sinif üçün dərslik. Bakı: Çaşıoğlu Nəşriyyatı, 2003.
4. Mərdanov Misir. Riyaziyyat, 9-cu sinif üçün dərslik. Bakı: Çaşıoğlu Nəşriyyatı, 2004.

5. Azərbaycan Respublikası Ümumi təhsil məktəbləri üçün Riyaziyyat fənni üzrə tədris proqramı (V–IX siniflər). Bakı: "Təhsil" Nazirliyi, 2022.
6. Quliyev Elman. Riyaziyyat üzrə əlavə vəsaitlər. Bakı, 2015.

Zahid Asef Nadirov
master,
Zahidnadirov5@gmail.com,
Allahshukur Azizaga Guliyev
doctor of philosophy in mathematics, associate professor,
quliyev_allahsukur@mail.ru,
Lankaran State University

Methodology for solving systems of equations using algebraic methods

Summary

This topic examines the methodology for solving a system of equations using algebraic methods and explains its application in teaching. The principles of successive elimination of variables using algebraic methods and ultimately finding a unique solution are considered. The main methods - substitution, addition-subtraction and Cramer's rule - are analyzed from a scientific and methodological point of view. The purpose of the topic is to form the ability to think analytically and logically in students, to ensure their understanding of mathematical relationships. The application of these methods in teaching creates a systematic learning environment and facilitates the mastery of mathematics. As a result, students develop mathematical modeling and logical reasoning skills.

Захид Асеф оглы Надиров
магистрант,
Zahidnadirov5@gmail.com
Аллахшукюр Азизага оглы Гулиев
доктор философии по математике, доцент
quliyev_allahsukur@mail.ru
Лянкяранский Государственный Университет

Методология решения систем уравнений алгебраическими методами

Резюме

В данной теме рассматривается методология решения систем уравнений алгебраическими методами и объясняется её применение в обучении. Рассматриваются принципы последовательного исключения переменных алгебраическими методами и нахождения в конечном итоге единственного решения. Основные методы – подстановка, сложение-вычитание и правило Крамера – анализируются с научно-методической точки зрения. Цель темы – сформировать у учащихся способность к аналитическому и логическому мышлению, обеспечить понимание ими математических взаимосвязей. Применение этих методов в обучении создаёт системную среду обучения и способствует усвоению математики. В результате у учащихся развиваются навыки математического моделирования и логического мышления.

Almaz Əflatun qızı İSMAYILOVA
magistrant,
ismayilovaalmaz65@gmail.com,
Ruslan Allahverən oğlu HƏMİDOV
riyaziyyat üzrə fəlsəfə doktoru, dosent,
rqamidov@mail.ru,
Lənkəran Dövlət Universiteti

RİYAZİYYATIN BİOLOGİYA VƏ KİMYA FƏNLƏRİLƏ ƏLAQƏLİ TƏDRİSİNİN BƏZİ MODELLƏRİ

Məlumdur ki, tədris olunan hər bir fənnin məzmununa daxil olan bilik, bacarıq və vərdişlərin mənimsənilməsi müəyyən ardıcıllığa əsaslanır ki, bu da təlim prosesində inteqrativ əlaqələrin daha aydın təsəvvür olunmasında mühüm rol oynayır. Eyni zamanda bəllidir ki, işdə şərh olunan inteqrasiyanın 2 növü var: Fəndaxili inteqrasiya - hər hansı bir fənn üzrə nəticələrin sinifdaxili və siniflərarası əlaqələndirilməsini nəzərdə tutur. Fənlərarası inteqrasiya - hər hansı fənn üzrə nəticələrin digər fənlər üzrə nəticələrlə əlaqəliliyini nəzərdə tutur. İnteqrasiyanın da öz növbəsində 3 səviyyəsi var: sinifdaxili, siniflərarası, fənlərarası. İşdə riyaziyyatın yalnız biologiya və kimya fənləri ilə fənlərarası inteqrasiyasına baxılır.

Aydındır ki, riyaziyyatın tədrisi müasir təhsil sistemində yalnız riyazi biliklərin öyrədilməsi ilə məhdudlaşmır. Bu fənn həm də şagirdlərin analitik, yaradıcı və tənqidi düşüncə qabiliyyətlərinin inkişafı üçün əsas vasitədir. Riyaziyyatın digər fənlərlə, xüsusilə təbiət elmləri ilə inteqrasiyası şagirdlərin müşahidə, ölçmə, modelləşdirmə və nəticələrin qiymətləndirilməsi bacarıqlarını artırır. Belə yanaşma, həmçinin, şagirdlərə riyazi biliklərin gündəlik həyatda və müxtəlif elmi sahələrdə necə tətbiq olunduğunu nümayiş etdirir və onların elmi təfəkkürünü daha da inkişaf etdirir. Bu, həmçinin şagirdlərin mövzuya marağını artırır və onların dərslərə fəal qatılmasını təmin edir (Həsənov R., 2020:4). İşdə Riyaziyyatın tədrisində biologiya və kimya fənlərilə əlaqənin bəzi tətbiqləri şərh olunur.

Riyaziyyatın biologiya və kimya fənlərilə əlaqəli tədrisinə aid konkret modellər öyrənilir.

Riyaziyyatın biologiya ilə inteqrasiyası statistik məlumatların işlənməsi, diaqramların qurulması və eksperiment nəticələrinin şərhində mühüm rol oynayır. Kimya ilə inteqrasiya isə nisbət, faiz və tənasübün öyrənilməsini asanlaşdırır, eləcə də laboratoriya təcrübələrində nəticələrin düzgün qiymətləndirilməsinə yardım edir.

Fənlərarası inteqrasiya şagirdlərin analitik bacarıqlarını gücləndirir. Riyaziyyatın kimya və biologiya ilə birləşdirilməsi şagirdlərin məlumatları sistemli şəkildə təhlil etməsinə, kompleks problemləri həll etməsinə və qərarvermə bacarıqlarını inkişaf etdirməsinə imkan verir. Məsələn, kimya ilə inteqrasiyada maddələrin nisbəti, konsentrasiyası, reaksiyaların sürəti və faiz hesablamaları kimi mövzuların riyazi üsullarla öyrədilməsini təmin edir. Laboratoriya işləri zamanı düzgün riyazi hesablamaların aparılması eksperimentlərin dəqiqliyini artırır və şagirdlərin problem həlletmə bacarıqlarını möhkəmləndirir. Bu yanaşma şagirdlərin həm nəzəri biliklərini, həm də praktiki bacarıqlarını eyni vaxtda inkişaf etdirir, elmi metodlara yiyələnməsini asanlaşdırır (Məmmədov T., 2021:5).

Biologiya ilə inteqrasiya şagirdlərin statistik məlumatları toplama, qrafik və diaqram qurma, eksperiment nəticələrini təhlil etmə bacarıqlarını artırır. Şagirdlər canlıların populyasiyalarını, biomüxtəlifliyi və ekosistem göstəricilərini riyazi üsullarla analiz edərək müşahidə və müqayisə qabiliyyətlərini inkişaf etdirirlər. Bu proses onların məlumatları obyektiv qiymətləndirməsinə və müxtəlif göstəricilər arasında əlaqələr qurmasına imkan yaradır. Fənlərarası yanaşma həmçinin şagirdlərin yaradıcı təfəkkürünü və problem həlletmə qabiliyyətini artırır. Şagirdlər müxtəlif fənlərdən əldə etdikləri məlumatları birləşdirərək alternativ həll yolları tapır, nəticələri müqayisə edir və qərarlarını əsaslandırırlar. Bu, onların intellektual müstəqilliyini gücləndirir və öyrənmə prosesinə marağı artırır.

Biologiya ilə inteqrasiya şagirdlərə statistik məlumatların toplanması, qrafik və diaqramların

hazırlanması, eksperiment nəticələrinin təhlili və müqayisəsi kimi bacarıqları öyrədir. Şagirdlər canlıların populyasiyalarını, biomüxtəlifliyini və s. riyazi üsullarla təhlil edir, müşahidə və müqayisə bacarıqlarını inkişaf etdirirlər. Bu yanaşma məlumatları obyektiv qiymətləndirməyə və nəticələr çıxarmağa yardım edir, həmçinin şagirdlərin tədqiqat bacarıqlarını və elmi təfəkkürünü möhkəmləndirir.

Məsələ 1. Bir bakteriya populyasiyasının sayı hər 2 saatdan bir 2 dəfə artır. Başlanğıcda 100 bakteriya var.

Tapın:

1. 6 saatdan sonra bakteriyaların sayı neçə olacaq?
2. Əgər populyasiya artımı belə davam edərsə, 10 saatdan sonra neçə bakteriya olacaq?

Həlli:

Burada eksponent artım modeli tətbiq olunur:

$$N(t) = N_0 \cdot 2^{\frac{t}{2}}$$

Harada ki,

- $N_0 = 100$ – başlanğıc bakteriya sayı,
- T = 2 saat – artım dövrü,
- t – vaxt (saatla) 1. 6 saatdan sonra:

$$N(6) = 100 \cdot 2^{\frac{6}{2}} = 100 \cdot 2^3 = 100 \cdot 8 = 800$$

2. 10 saatdan sonra:

$$N(10) = 100 \cdot 2^{\frac{10}{2}} = 100 \cdot 2^5 = 100 \cdot 32 = 3200$$

Nəticə

1. 6 saatdan sonra: 800 bakteriya;
2. 10 saatdan sonra: 3200 bakteriya;

Bu misal riyaziyyatda eksponent funksiyaların biologiyada populyasiya artımının modelləşdirilməsi üçün necə istifadə olunduğunu göstərir.

Kimya ilə inteqrasiya maddələrin nisbəti, reaksiyaların sürəti, mol hesablamaları, konsentrasiya və faiz əməliyyatlarını riyazi metodlarla öyrətməyə imkan verir. Laboratoriya işləri zamanı şagirdlər riyazi hesablamaları tətbiq edərək eksperiment nəticələrinin dəqiqliyini təmin edir, hipotezlərini yoxlayır və nəticələri müqayisə edirlər. Bu yanaşma həm nəzəri, həm də praktik biliklərin eyni vaxtda inkişafını təmin edir və şagirdlərin problem həlletmə, analitik təhlil və elmi metodları mənimsəmə qabiliyyətlərini artırır.

Məsələ 2. Bir məhlulda 200 qram su və 50 qram duz (NaCl) var.

1. Bu məhlulun kütlə üzrə faiz konsentrasiyasını tapın.
2. Əgər məhlula əlavə olaraq 50 qram su töksək , yeni konsentrasiyanı hesablayın.

Həlli:

1. Ümumi kütlə:

$$m_{məhlul} = m_{su} + m_{duz} = 200 + 50 = 250q$$

Faiz konsentrasiyası (C%):

$$C\% = \frac{m_{duz}}{m_{məhlul}} \times 100\%$$

$$C\% = \frac{50}{250} \times 100\% = 20\%$$

2. Yeni məhlulun ümumi kütləsi:

$$m_{məhlul} = 250 + 50 = 300q$$

Duzun kütləsi dəyişmir: $m_{duz} = 50\ q$.

Yeni konsentrasiya:

$$C\% = \frac{50}{300} \times 100\% \approx 16.67\%$$

Nəticə

1. İlk məhlulun konsentrasiyası - 20%
2. Su əlavə etdikdən sonra konsentrasiya - 16.67%

Bu tip riyazi modellər fənlərarası inteqrasiya şagirdlərin təfəkkürünü genişləndirir və onların problemləri müxtəlif yanaşmalarla həlletmə qabiliyyətini artırır. Şagirdlər həm nəzəri bilikləri mənimsəyir, həm də onları praktik situasiyalarda tətbiq etməyi öyrənir, nəticədə riyaziyyat bacarıqlarını daha dərin səviyyədə formalaşdırırlar. Eyni zamanda, inteqrasiya şagirdləri müşahidə, müqayisə, analiz və tədqiqat bacarıqlarını inkişaf etdirməyə təşviq edir, beləliklə, riyaziyyatın yalnız nəzəri deyil, real həyatda tətbiq olunan bir elmi fənn olduğunu dərk etmələrini təmin edir. Bu metod şagirdlərin yaradıcı təfəkkürünü və elmi marağını stimullaşdırır. Şagirdlər fərqli fənlərdən öyrəndikləri bilikləri birləşdirərək yeni yanaşmalar kəşf edir, problemlərə alternativ həll yolları tapır və nəticələrini əsaslandırırlar. Bu, onların elmi tədqiqat bacarıqlarını və analitik təfəkkürünü gücləndirir.

Fənlərarası inteqrasiya həmçinin müəllimlər üçün dərs planlamasında innovativ metodların istifadəsini tələb edir. Müəllimlər müxtəlif fənlərdən materialları birləşdirərək interaktiv və layihə əsaslı dərslər təşkil edir, şagirdlərin öyrənmə prosesinə fəal iştirakını təmin edirlər. Bu yanaşma dərslərin effektivliyini artırır və şagirdlərin riyaziyyat biliklərini daha dərin səviyyədə mənimsəməsini təmin edir. Fənlərarası inteqrasiya nəticəsində şagirdlər yalnız nəzəri biliklərlə kifayətlənmir, həm də onları real həyatda tətbiq etmə bacarığı qazanır. Bu metod onların təhsil prosesinə münasibətini pozitiv istiqamətdə dəyişir, analitik və tənqidi təfəkkürlərini inkişaf etdirir və XXI əsr təhsil kompetensiyalarının formalaşmasına şərait yaradır.

Riyaziyyatın tədrisində fənlərarası yanaşma şagirdlərin biliklərinin sistemləşdirilməsi, analitik və tənqidi düşüncələrinin inkişaf etdirilməsi, həmçinin real həyat problemlərini həlletmə bacarıqlarının formalaşdırılması üçün əsas vasitədir. Fənlərarası inteqrasiya riyaziyyatı digər elmlərlə, o cümlədən kimya, biologiya fənlərilə birləşdirərək şagirdlərə kompleks biliklərin mənimsənilməsini təmin edir. Bu yanaşma dərslərin interaktiv, maraqlı və praktik olmasını təmin edir. Fənlərarası yanaşma şagirdlərin praktiki bacarıqlarını artırır. Laboratoriya eksperimentləri, statistik təhlillər, layihə və qrup işləri şagirdlərin nəzəri bilikləri real situasiyalarda tətbiq etməsinə şərait yaradır. Bu metod həm şagirdlərin təhsil prosesinə marağını yüksəldir, həm də onların intellektual müstəqilliyini və öyrənməyə aktiv münasibətini gücləndirir.

Riyaziyyatın tədrisində fənlərarası yanaşma şagirdlərdə analitik və tənqidi düşüncə qabiliyyətini formalaşdırır, biliklərin praktik tətbiqini təmin edir və onları XXI əsrin tələb etdiyi təhsil kompetensiyalarına hazırlayır. Bu yanaşma şagirdlərin elmi təfəkkürünü inkişaf etdirir, dərslərin effektivliyini artırır və tədris prosesini daha maraqlı və məqsədyönlü edir.

Beləliklə, riyaziyyatın tədrisində fənlərarası əlaqələr şagirdlərin biliklərinin möhkəmlənməsini, yaradıcı və tənqidi düşüncələrinin inkişafını, əməkdaşlıq və problem həlletmə bacarıqlarını təmin edir. Bu, nəticədə təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir və şagirdlərin praktik biliklərə yiyələnməsini dəstəkləyir.

ƏDƏBİYYAT

1. Brown L. (2019). Mathematics and Natural Sciences Integration in Schools. New York: Springer.
2. Əsədov M. (2018) "Orta məktəbin riyaziyyat kursunda məsələ həlli təliminin nəzəri və metodik problemləri". Bakı.
3. Johnson P.(2018). Educational Technology and Mathematics Learning. Boston: Academic Press.
4. Həsənov R. (2020). Riyaziyyat və digər fənlərin inteqrasiyası: pedaqoji yanaşmalar. Bakı: "Elm" nəşriyyatı.
5. Məmmədov T. (2021). Riyaziyyatın tədrisində innovativ yanaşmalar və layihə əsaslı metodlar. Bakı: "Nurlan" nəşriyyatı.
6. Taylor M. (2020). Pedagogical Benefits of Interdisciplinary Teaching. Oxford: Oxford University.

Алмаз Афлатун кызы Исмаилова
магистрант,
ismayilovaalmaz65@gmail.com
Руслан Аллахверан оглы Гамидов
доктор философии по математике, доцент,
rqamidov@mail.ru
Ленкоранский Государственный Университет

Некоторые модели обучения математике во взаимосвязи с биологией и химией

Резюме

В современной системе образования преподавание математики не ограничивается только математическими знаниями. Этот предмет также является ключевым инструментом развития аналитического, творческого и критического мышления учащихся. Современные педагогические подходы показывают, что межпредметная интеграция позволяет учащимся систематизировать знания, устанавливать связи между темами и применять полученные знания в реальной жизни. В исследовании рассматривается межпредметная интеграция математики с биологией и химией, а также строятся математические модели на конкретных примерах.

Almaz Aflatun İsmayilova
master,
ismayilovaalmaz65@gmail.com
Ruslan Allahveran Gamidov
doctor of philosophy in mathematics, associate professor,
rqamidov@mail.ru
Lankaran State University

Some models of teaching mathematics in connection with biology and chemistry

Summary

In the modern education system, teaching mathematics is not limited to teaching mathematical knowledge only. This subject is also a key tool for developing students' analytical, creative and critical thinking skills. Modern pedagogical approaches show that interdisciplinary integration allows students to systematize knowledge, establish connections between topics and apply what they have learned in real life. The study examines the interdisciplinary integration of mathematics with biology and chemistry and builds mathematical models with specific examples.

Günay Rauf qızı HÜSEYNOVA
müəllim,
Azərbaycan Memarlıq və İnşaat Universiteti
nəzdində İnşaat Kolleci

BİR SIRA KƏSR TƏRTİBLİ BİRHƏDLİ DİFERENSİAL TƏNLİKLƏRİN FUNDAMENTAL HƏLLƏRİNİN QURULMASI

Təqdim olunan işdə faktorizasiya üsulu tətbiq olunmaqla birinci tərtib birhədli diferensial tənliyin fundamental həllindən, tərtibi vahiddən kiçik tərtib törəməli tənlik üçün fundamental həll alınacaqdır.

Bilirik ki,adi diferensial tənliyin fundamental həlli dedikdə bu tənliyin “asılı olmayan həlləri” başa düşülür. Amma, diferensial tənliyin fundamental həlli dedikdə bu diferensial tənlik üçün alınmış həlli tənlikdə yerinə yazdıqda sağ tərəfdə Dirakın $\delta(t)$ - funksiyası alınmalıdır. Biz kəsr

tərtibli törəmə üçün məlum olan Riman-Liuvill tərifi vasitəsilə, tərtibi kəsr şəklində olan bəzi birhədli diferensial tənliklərin fundamental həllərini almışıq.

Xevisaydın vahid funksiyasını qeyd edək.

$$\theta(t)=\begin{cases}1, t>0,\\ \frac{1}{2}, t=0,\\ 0, t<0,\end{cases} (1)$$

Xevisaydın vahid funksiyasının törəməsi Dirakın delta funksiyasıdır.

Əgər verilmiş*f(x)* funksiyası $[a,b]$-parçasında təyin olunmuş kəsilməz funksiya olarsa, onda

$$D_{a+}^{\alpha}f(x)=\frac{1}{\Gamma(1-a)}\frac{d}{dx}\int_a^x\frac{f(t)dt}{(x-t)^{\alpha}}, \alpha\in(0,1) (2)$$

və ya

$$D_{a+}^{\alpha}f(x)=\frac{d}{dx}\int_a^x\frac{(x-t)^{-\alpha}}{(-\alpha)!}f(t)dt, (3)$$

şəklində ifadə doğrudur. Burada (2) və (3) ifadələri Riman-Liuvill mənada tərtibi kəsr şəklində olan törəmələrdir.

Burada rasional $\frac{1}{5},\frac{2}{7},\frac{3}{8}$ və ixtiyari $\forall\Im\in(0,1)$ tərtib törəməli birhədli diferensial tənliklər üçün fundamental həlləri tapaq. Bu həlləri Eylerin qamma funksiyası və kəsr tərtib törəmə üçün Riman-Liuvill tərifindən və istifadə etməklə taparıq.

$$\Gamma(t)=\int_0^{\infty}x^{t-1}e^{-x}dx, t>0, \Gamma-\text{Qamma funksiyadır. (4)}$$

Rasional $\frac{1}{5}$ tərtibtörəməli birhədli diferensial tənliyin fundamental həllini tapaq. Bilirik ki, birinci tərtib törəməli adi diferensial tənliyin fundamental həlli Xevisayd funksiyasıdır, yəni

$$D\theta(t)=\delta(t),$$

və ya

$$D^{\frac{1}{5}}(D^{\frac{4}{5}}\theta(t))=\delta(t).$$

Əgər $D^{\frac{4}{5}}\theta(t)=Z_1(t)$ olduğunu qəbul etsək, onda $D^{\frac{1}{5}}Z_1(t)=\delta(t)$ olar. Deməli,

$$Z_1(t)=D^{\frac{4}{5}}\theta(t)=\frac{d}{dt}\int_0^t\frac{(t-\tau)^{-\frac{4}{5}}}{(-\frac{4}{5})!}\theta(\tau)d\tau=\frac{d}{dt}\int_0^t\frac{(t-\tau)^{-\frac{4}{5}}}{(-\frac{4}{5})!}d\tau=-\frac{d}{dt}\frac{(t-\tau)^{\frac{1}{5}}}{(\frac{1}{5})!}\Big|_{\tau=0}^{t}$$

$$=\frac{d}{dt}\frac{(t)^{\frac{1}{5}}}{(\frac{1}{5})!}=\frac{t^{-\frac{4}{5}}}{(-\frac{4}{5})!}.$$

Deməli,

$Z_1(t)=\frac{t^{-\frac{4}{5}}}{(-\frac{4}{5})!}$. (5)

İndi isə tərtibi$\frac{2}{7}$törəməli olan birhədli diferensial tənlik üçün fundamental həll alaq. Burada $D\theta(t)=D^{\frac{2}{7}}(D^{\frac{5}{7}}\theta(t))=\delta(t)$ olduğunu bilərək $D^{\frac{5}{7}}\theta(t)=Z_2(t)$ qəbul etsək $D^{\frac{2}{7}}Z_2(t)=\delta(t)$ tənliyi alınacaq. Buradan

$$Z_2(t)=D^{\frac{5}{7}}\theta(t)=\frac{d}{dt}\int_0^t\frac{(t-\tau)^{-\frac{5}{7}}}{(-\frac{5}{7})!}\theta(\tau)d\tau=\frac{d}{dt}\int_0^t\frac{(t-\tau)^{-\frac{5}{7}}}{(-\frac{5}{7})!}d\tau=-\frac{d}{dt}\frac{(t-\tau)^{\frac{2}{7}}}{(\frac{2}{7})!}\Big|_{\tau=0}^{t}=\frac{d}{dt}\frac{(t)^{\frac{2}{7}}}{(\frac{2}{7})!}=\frac{t^{-\frac{5}{7}}}{(-\frac{5}{7})!}$$

və ya

$Z_2(t)=\frac{t^{-\frac{5}{7}}}{(-\frac{5}{7})!}$. (6)

Analoji üsulla$\frac{3}{8}$ tərtib törəməli birhədli diferensial tənliyin fundamental həllini tapaq:

$D\theta(t)=D^{\frac{3}{8}}(D^{\frac{5}{8}}\theta(t))=\delta(t)$. Burada $D^{\frac{5}{8}}\theta(t)=Z_3(t)$ olduğunu qəbul etsək, onda

$D^{\frac{3}{8}} Z_3(t) = \delta(t)$ alınmış olar ki, buradan da

$$Z_3(t) = D^{\frac{5}{8}}\theta(t) = \frac{d}{dt}\int_0^t \frac{(t-\tau)^{-\frac{5}{8}}}{(-\frac{5}{8})!}\theta(\tau)d\tau = \frac{d}{dt}\int_0^t \frac{(t-\tau)^{-\frac{5}{8}}}{(-\frac{5}{8})!}d\tau = -\frac{d}{dt}\frac{(t-\tau)^{\frac{3}{8}}}{(\frac{3}{8})!}\Big|_{\tau=0}^{t}$$

$$= \frac{d}{dt}\frac{(t)^{\frac{3}{8}}}{(\frac{3}{8})!} = \frac{t^{-\frac{5}{8}}}{(-\frac{5}{8})!}$$

və ya

$Z_3(t) = \frac{t^{-\frac{5}{8}}}{(-\frac{5}{8})!}$. (7)

Nəhayət, tərtibi $\Im \in (0,1)$törəməli olan birhədli diferensial tənliyin fundamental həllini tapaq.

$D\theta(t) = D^{\Im}(D^{1-\Im}\theta(t)) = \delta(t)$, $D^{\Im} Z_4(t) = \delta(t)$,

$$Z_4(t) = D^{1-\Im}\theta(t) = \frac{d}{dt}\int_0^t \frac{(t-\tau)^{\Im-1}}{(\Im-1)!}\theta(\tau)d\tau = \frac{d}{dt}\int_0^t \frac{(t-\tau)^{\Im-1}}{(\Im-1)!}d\tau = -\frac{d}{dt}\frac{(t-\tau)^{\Im}}{(\Im)!}\Big|_{\tau=0}^{t}$$

$$= \frac{d}{dt}\frac{(t)^{\Im}}{(\Im)!} = \frac{t^{\Im-1}}{(\Im-1)!}$$

və ya

$Z_4(t) = \frac{t^{\Im-1}}{(\Im-1)!}$. (8)

Nəticə olaraq, tərtibi rasional $\frac{1}{5}, \frac{2}{7}, \frac{3}{8}$ və ixtiyari $\forall \Im \in (0,1)$ törəməli olan bir sıra birhədli diferensial tənliklərin fundamental həllərini aldıq.

Teorem: Törəmələrinin tərtibi $\frac{1}{5}, \frac{2}{7}, \frac{3}{8}$ və $\forall \Im \in (0,1)$ olan birhədli adi diferensial tənliklərə uyğun fundamental həllər müvafiq olaraq (5), (6), (7) və (8) şəklindədir.

ƏDƏBİYYAT

1. Əliyev N., Quliyev A. Koşi-Riman tənliyinin fundamental həllindən yarımtərtibli elliptik tip tənliyin fundamental həllini almaq üçün faktorizasiya üsulu // - Lənkəran: Lənkəran Dövlət Universiteti, Elmi xəbərlər, Təbiət elmləri seriyası, - 2017. №2, - s. 67-72.
2. Əliyev N.Ə., İbrahimov N.S., Quliyev A.Ə. İkiölçülü, xətti $\frac{2}{3}$-tərtibli elliptik tip diferensial tənliyin fundamental həllinin Koşi-Riman tənliyinin fundamental həllindən alınması // - Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi xəbərləri, Təbiət və texniki elmlər bölməsi, -2021. № 21(1), - s. 4-8.
3. Əsgərov İ., Quliyev A. Faktorizasiya üsulunu tətbiq etməklə ikiölçülü Laplas tənliyinin fundamental həllindən $\frac{3}{2}$ tərtibli tənliyin fundamental həllinin alınması // - Lənkəran: Lənkəran Dövlət Universiteti, Elmi xəbərlər, Təbiət elmləri seriyası, - 2019. №1, - s. 23-31.
4. Quliyev A. Tərtibi ikidən kiçik (birdən böyük) olan diferensial tənlik üçün (birhədli tənlik) fundamental həllin qurulması // "Azərbacanda xalq, dövlət və ordu birliyinin gücü" mövzusunda Respublika Elmi Konfransı, - Lənkəran: - 7 may, 2021, - s. 52-53.
5. Quliyev, A.Ə. Tərtibi vahiddən kiçik olub, mənfi olmayan, adi, sabit əmsallı, xətti diferensial tənliyin fundamental həllinin qurulması // - Naxçıvan: Naxçıvan Universitetinin Elmi əsərləri jurnalı, -2021. № 3, - s. 276-280.
6. Quliyev A.Ə., Əliyev N.Ə., İbrahimov N.S. Faktorizasiya üsulu ilə ikiölçülü Laplas tənliyinin fundamental həllindən $\frac{4}{3}$ tərtibli tənliyin fundamental həllinin alınması // - Bakı: Bakı Mühəndislik Universiteti, Riyaziyyat və kompüter elmləri seriyası, -2020. № 4(2), - s. 102-110.
7. Гулиев А.А. Построение фундаментального решения обыкновенного дифференциального уравнения (одночленное уравнение) с порядком $\alpha \in (n-1, n)$ // The II International Science Conference "Issues of practice and science", - London, Great Britain:

Sept. 27-29, 2021, p. 149-150.
8. Guliyev A. Obtaining the fundamental solution of the $\frac{3}{5}$ order partial derivative equation from the fundamental solution of the two-dimensional Laplace equation by the factorization method // - Baku: Journal of Contemporary Applied Mathematics, National Academy of Sciences of Azerbaijan, Institute of Mathematics and Mechanics, -2022. № 12(1), - p. 17-26.
9. Guliyev A. On a fundamental solution of one linear ordinary differential equation with fractional order derivative // - Baku: Advanced Mathematical Models & Applications, Jomard Publishing, -2021. № 6(3), - p. 302-308.
10. Samko S.G. Fractional integrals and derivatives (theory and applications) / S.G.Samko, A.A.Kilbas, O.I.Marichev, - Switzerland, Australia, Belgium, France, Germany, Great Britain, India, Japan, Malaysia, Netherlands, Russia, Singapore, USA: Gordon and Breach Science Publishers, - 1993. – 976 p.
11. Vladimirov V.S. Generalized functions in mathematical physics / V.S.Vladimirov. – Moscow: Mir Publishers, - 1979. - 390 p.

Гюнай Рауф кызы Гусейнова
учитель,
Строительный Колледж Азербайджанского Университета Архитектуры и Строительства

Построение фундаментальных решений ряда дробных одночленных дифференциальных уравнений

Резюме

В представленной работе, применяя метод факторизации, из фундаментального решения одночленного дифференциального уравнения первого порядка будет получено фундаментальное решение производного уравнения порядка меньше единицы.

Мы знаем, что фундаментальное решение обыкновенного дифференциального уравнения означает «независимые решения» этого уравнения. Однако при подстановке фундаментального решения дифференциального уравнения в уравнение в правой части должна быть получена функция Дирака. Мы получили фундаментальные решения некоторых одночленных дифференциальных уравнений дробного вида, используя определение Римана-Лиувилля, известное для дробной производной.

Обратим внимание на единичную функцию Ксевисайда.

$$\theta(t) = \begin{cases} 1, t > 0, \\ \frac{1}{2}, t = 0,1) \\ 0, t < 0, \end{cases}$$

Производная единичной функции Гевеса – это дельта-функция Дирака. Если заданная функция f(x) является непрерывной функцией, определенной на интервале, то

$$D_{a+}^{\alpha} f(x) = \frac{1}{\Gamma(1-a)} \frac{d}{dx} \int_a^x \frac{f(t)dt}{(x-t)^{\alpha}}, \alpha \in (0,1)\ 2)$$

$$D_{a+}^{\alpha} f(x) = \frac{d}{dx} \int_a^x \frac{(x-t)^{-\alpha}}{(-\alpha)!} f(t)dt,\ 3)$$

Выражение в форме истинно. Здесь выражения (2) и (3) представляют собой производные в виде дроби Римана-Лиувилля.

Здесь мы находим фундаментальные решения для мономиальных дифференциальных уравнений с производными рационального и произвольного порядка. Мы находим эти решения, используя определение Римана-Лиувилля для гамма-функции Эйлера и производных дробного порядка.

$$\Gamma(t) = \int_0^{\infty} x^{t-1} e^{-x} dx, t > 0, \Gamma - \text{Гамма – это функция}\ 4)$$

Gunay Rauf Huseynova
teacher,
College of Construction at Azerbaijan University
of Architecture and Construction

Construction of fundamental solutions of a series of fractional monomial differential equations

Summary

In the presented work, by applying the factorization method, a fundamental solution for a derivative equation of order less than unity will be obtained from the fundamental solution of a first-order monomial differential equation.

We know that the fundamental solution of an ordinary differential equation means the "independent solutions" of this equation. However, when the fundamental solution of a differential equation is substituted into the equation, the Dirac function should be obtained on the right-hand side. We have obtained the fundamental solutions of some monomial differential equations of order fractional form using the Riemann-Liouville definition known for the fractional derivative.

Let us note the Xevisaid unit function.

$$\theta(t) = \begin{cases} 1, t > 0, \\ \frac{1}{2}, t = 0,1) \\ 0, t < 0, \end{cases}$$

The derivative of the Hevesian unit function is the Dirac delta function.If the given function f(x) is a continuous function defined on the -interval, then

$$D_{a+}^{\alpha} f(x) = \frac{1}{\Gamma(1-a)} \frac{d}{dx} \int_a^x \frac{f(t)dt}{(x-t)^{\alpha}}, \alpha \in (0,1)\ 2)$$

$$D_{a+}^{\alpha} f(x) = \frac{d}{dx} \int_a^x \frac{(x-t)^{-\alpha}}{(-\alpha)!} f(t)dt,\ 3)$$

The expression in the form is true. Here, expressions (2) and (3) are derivatives in the form of a Riemann-Liouville fraction.

Here we find the fundamental solutions for monomial differential equations with rational and arbitrary order derivatives. We find these solutions by using the Riemann-Liouville definition for Euler's gamma function and fractional order derivatives.

$\Gamma(t) = \int_0^{\infty} x^{t-1}\, e^{-x} dx, t > 0, \Gamma -$ Gamma is a function. 4)

Aydan Fuad qızı QƏDİRLİ
magistrant,
aydanqedirli5@gmail.com,
Məmməd Fərrux oğlu MURADOV
riyaziyyat üzrə fəlsəfə doktoru, dosent,
mammad_2011@mail.ru,
Lənkəran Dövlət Universiteti

İNFORMATİKA FƏNNİNİN TƏDRİSİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARININ ROLU

Bu gün təhsilin inkişafı informasiya və kommunikasiya texnologiyalarının (İKT) tədrisdə istifadəsi ilə sıx bağlıdır. Bu inteqrasiya yalnız texniki təminatı yaxşılaşdırmır, həm də şagirdlərin öyrənməyə münasibətinə və motivasiyasına böyük təsir göstərir. İKT həm öyrənmənin predmeti, həm də vasitəsi kimi çıxış edir, bu səbəbdən İnformatika fənni unikal fəndir. Buna görə də İKT-dən səmərəli istifadə şagirdlərin marağını, fəallığını və yaradıcılığını artırır.

Tədrisdə multimedia vasitələrinin tətbiqi: Animasiya, qrafik, video dərs və interaktiv təqdimatlar daxil olmaqla multimedia vasitələri şagirdləri həm vizual, həm də eşidilmə baxımından cəlb edir. Ənənəvi üsullardan fərqli olaraq multimedia vasitələrindən istifadə şagirdlərin diqqətini daha uzun müddət saxlayır və abstrakt anlayışların asan başa düşülməsinə kömək edir. Son araşdırmalar göstərir ki, vizual və eşidilmə materiallarının birgə istifadəsi biliklərin yadda qalmasını 40–60% artırır (Mayer, 2020).



Virtual laboratoriyalar və simulyasiya proqramları: İnformatika tədrisində simulyasiya mühitləri və virtual laboratoriyalar şagirdlərə real təcrübələri təhlükəsiz və çevik şəkildə aparmağa imkan yaradır. Məsələn, PhET simulyasiyaları alqoritmik düşünməni inkişaf etdirməyə, Scratch və App Inventor isə proqramlaşdırma bacarıqlarını praktik şəkildə möhkəmləndirməyə kömək edir.

Motivasiya baxımından:

- Təcrübələrdən alınan ani nəticələr şagirdlərin öyrənməyə marağını artırır.
- Şagirdləri sınaq-yanılma yolu ilə öyrənməyə təşviq edir və bu da öyrənmə prosesini daha səmərəli edir.

Onlayn resursların istifadəsi (Moodle, Kahoot, Quizizz və s.)

Onlayn tədris platformaları şagirdlərin həm fərdi, həm də qrup işini gücləndirir.

- Moodle – kurs materiallarının yerləşdirilməsi, tapşırıqların fərdiləşdirilməsi və müzakirələrin aparılması üçün effektivdir.
- Kahoot və Quizizz – oyunlaşdırılmış testlərlə dərsləri daha maraqlı edir və sağlam rəqabəti təşviq edir.

Araşdırmalar göstərir ki, dərs prosesinə oyun elementlərinin əlavə olunması motivasiyanı 25–30% artırır və dərsə davamiyyətə müsbət təsir göstərir (Garris & Driskell, 2021).

Qiymətləndirmə texnologiyalarını 3 qrupa ayırmaq olar. Bunlara aşağıdakılar aiddir:

1. Formativ qiymətləndirmə
2. Özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə
3. Elektron test və oyunlaşdırılmış qiymətləndirmə

Formativ qiymətləndirmə öyrənmə prosesində davamlı izləmə, rəy vermə və şagirdin inkişafını dəstəkləməkdən ibarətdir. Bu, motivasiyanı artırır, çünki şagird yalnız nəticələrinə görə deyil, həm də öyrənmə prosesinə görə qiymətləndirilir.

Özünüqiymətləndirmə şagirdlərdə tənqidi düşüncə və məsuliyyət hissini inkişaf etdirir. Qarşılıqlı qiymətləndirmə isə əməkdaşlıq, empatiya və obyektivliyi təşviq edir.

Elektron test və oyunlaşdırılmış qiymətləndirmə ani rəy verir, vaxt və resurslara qənaət edir. Oyunlaşdırılmış qiymətləndirmə öyrənməni rəqəmsal mühitdə əyləncə ilə birləşdirir. Nəticədə şagirdlər öyrənməyə daha çox maraq göstərirlər, çünki qiymətləndirmə yalnız rəsmi yoxlama deyil, həm də motivasiyaedici təcrübəyə çevrilir.

Təhsilalanların marağını artırmaq, məntiqi təfəkküründü formalaşdırmaq üçün "Kahoot" oyun proqramının tətbiqi daha məqsədəuyğundur. Məsələn, müasir texnologiyaların imkanlarını 8-ci sinif "İnformatika" dərsliyindən "İnformasiyanın ölçülməsi" mövzusunun tədrsinə tətbiq edək. Burada dərsin mövzusunda uyğun suallar hazırlanır və bu proqramın tətbiqi əsasında təhsilalanlar arasında yarış təşkil olunur.

Nəticə etibarilə, İnformatika dərslərində İKT vasitələrinin istifadəsi şagirdlərin öyrənməyə münasibətini əhəmiyyətli dərəcədə dəyişir. Multimedia resursları şagirdlərin dərsləri daha asan öyrənməsinə xidmət edir, virtual laboratoriyalar praktiki bacarıqları gücləndirir, onlayn platformalar isə interaktiv və maraqlı mühit yaradır. Müasir qiymətləndirmə texnologiyaları motivasiyanı artırmaqla yanaşı, özünüinkişafa da dəstək olur.

Beləliklə, informatika təhsilində İKT-dən istifadə sadəcə texnologiyanın tətbiqi deyil, həm də şagirdlərin motivasiyasını artırmaq üçün əsas pedaqoji strategiyadır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Ümumi təhsildə rəqəmsal resurslardan istifadə üzrə metodik vəsait. Bakı, 2022.
2. Mayer, R. E. Multimedia Learning. Cambridge University Press, 2020.
3. Garris, R., & Driskell, J. E. Games, Motivation, and Learning: A Research and Practice Model. Simulation & Gaming Journal, 2021.

Aydan Fuad Qadirli
master,
aydanqedirli5@gmail.com,
Mammad Farrux Muradov
doctor of philosophy in mathematics, associate professor,
mammad_2011@mail.ru,
Lankaran State University

The role of information technologies in teaching the subject of informatics

Summary

This research explores the role of information and communication technologies (ICT) in teaching Informatics and demonstrates that their effective integration enhances students' motivation, engagement, and creativity. Multimedia tools (animations, graphics, videos, interactive presentations) improve visual and auditory perception, making abstract concepts easier to understand. Virtual laboratories and simulation programs provide safe, flexible environments for developing algorithmic and programming skills through practice. Online platforms such as Moodle, Kahoot, and Quizizz support individual and group work, personalize learning, and increase interest through gamification. The study also highlights that modern assessment technologies (formative, self- and peer-assessment, electronic and gamified testing) provide instant feedback, foster critical thinking, and turn evaluation into a motivating experience.

Айдан Фуад кызы Кадирли
магистрант,
aydanqedirli5@gmail.com,
Маммад Фаррух оглы Мурадов
доктор философии по математике, доцент,
mammad_2011@mail.ru,
Ленкоранский Государственный Университет

Роль информационных технологий в преподавании предмета информатики

Резюме

В данной исследование рассматривает роль информационно-коммуникационных технологий (ИКТ) в преподавании информатики и показывает, что их эффективная интеграция повышает мотивацию, вовлечённость и креативность учащихся. Мультимедийные средства (анимации, графика, видеоролики, интерактивные презентации) улучшают визуальное и аудиальное восприятие, облегчая понимание абстрактных понятий. Виртуальные лаборатории и симуляционные программы обеспечивают безопасную и гибкую среду для развития алгоритмического мышления и программировочных навыков на практике. Онлайн-платформы, такие как Moodle, Kahoot и Quizizz, поддерживают как индивидуальную, так и групповую работу, персонализируют обучение и повышают интерес за счёт геймификации. В исследовании также подчёркивается, что современные технологии оценивания (формативное, само- и взаимооценивание, электронное и игровое тестирование) обеспечивают мгновенную обратную связь, развивают критическое мышление и превращают процесс оценивания в мотивирующий опыт.

Jalə Qiyas qızı RƏHMANOVA
magistrant,
jalerehmanova24@gmail.com
Elnur Əhmədağa oğlu DADAŞOV
fizika üzrə fəlsəfə doktoru, dosent,
elnurdadashov82@mail.ru,
Lənkəran Dövlət Universiteti

ELEKTRİK BÖLMƏSİ ÜZRƏ LABORATORİYA İŞLƏRİNİN KÖMƏYİLƏ FİZİKANIN TƏDRİSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Laboratoriya təcrübələrinin tədrisdəki əhəmiyyəti və nəzəri çərçivə

Təlimin effektivliyi böyük dərəcədə şagirdin fəaliyyətinə aktiv qoşulmasından asılıdır. "Edə bilirəm" prinsipi "bilirəm" prinsipindən daha davamlı bilik formalaşdırır. Bu baxımdan, konstruktivizm (tikintiçilik) nəzəriyyəsinə əsaslanan fəaliyyət əsaslı təlim (active learning) yanaşması laboratoriya işlərinin əsasını təşkil edir. Con Dewey, Piaje kimi pedaqoqların işlərində qeyd etdiyi kimi, şagird öz biliklərini şəxsi təcrübə və müşahidə əsasında aktiv şəkildə quranda, bu biliklər daha dərin və daha yaddaqalan olur [1].

Elektrik laboratoriya işləri zamanı şagirdlər:

- Abstrakt anlayışları konkretləşdirirlər: Cərəyan, gərginlik, müqavimət, güc kimi anlayışlar ölçü alətləri (ampermetr, voltmetr, ommetr) vasitəsilə rəqəmsal dəyərlər alır və real həyatla əlaqələndirilir.
- Elmi tədqiqat metodlarını mənimsəyirlər: Hipotez qurmaq, eksperiment aparmaq, məlumatları toplamaq və təhlil etmək, nəticə çıxarmaq kimi fundamental elmi bacarıqlar inkişaf edir.
- Problemin həlli bacarıqlarını inkişaf etdirirlər: Dövrənin düzgün yığılmaması, ölçmə xətaları kimi qarşıya çıxan problemləri müstəqil həll etməyə çalışırlar.

2. Elektrik laboratoriya işlərinin təsnifatı və tətbiqi

Elektrik bölməsi üzrə laboratoriya işləri mürəkkəblik səviyyəsinə və məqsədinə görə təsnif edilə bilər:

- Təsdiqedici (verifikasiya) təcrübələr: Əsasən Ohm qanunu, Kirchhoff qanunları, keçiricilərin ardıcıl və paralel birləşməsi kimi nəzəri olaraq öyrənilmiş qanunların eksperimental yolla təsdiq edilməsindən ibarətdir. Məsələn, müxtəlif rezistorlar üçün cərəyan-gərginlik asılılığının qrafikinin çəkilməsi və əyimin müqavimətə bərabər olmasının yoxlanılması.
- Araşdırma (investiqasiya) təcrübələri: Şagirdlərə müəyyən bir problemi həll etmək və ya müəyyən bir asılılığı öyrənmək üçün verilən təcrübələrdir. Məsələn, "Müxtəlif materiallardan hazırlanmış keçiricilərin müqavimətinin onun uzunluğu və kəsik sahəsindən asılılığının öyrənilməsi" kimi bir iş şagirdi müstəqil tədqiqata yönəldir.
- Layihə əsaslı təcrübələr: Bu yanaşmada şagirdlər müəyyən bir funksionallığa malik real bir qurğu (məsələn, sadə bir siqnal generatoru, işıqlandırma sistemi) hazırlamaqla məsələni həll edirlər. Bu, yaradıcılığı və mühəndislik düşüncəsini inkişaf etdirir.

3. Müasir texnologiyaların inteqrasiyası: virtual və rəqəmsal laboratoriyalar

Ənənəvi laboratoriyalar avadanlıq xərcləri, təhlükəsizlik tədbirləri və zaman məhdudiyyəti kimi çətinliklərlə üzləşir. Bu problemləri aradan qaldırmaq üçün müasir təlimdə virtual və rəqəmsal laboratoriyalardan geniş istifadə olunur.

- ✓ Virtual Laboratoriyalar: Məsələn, "PhET Interactive Simulations" kimi platformalar şagirdlərə kompüter ekranında elektrik dövrələri qura bilməyə, elementləri sərbəst dəyişə bilməyə və nəticələri ani olaraq müşahidə etməyə imkan yaradır [2]. Bu, səhv edərək öyrənmə imkanı verir, çünki heç bir fiziki ziyan riski yoxdur.
- ✓ Rəqəmsal Ölçmə Sistemləri (məsələn, Arduino əsaslı qurğular): Bu sistemlər sensorlar və mikroidarəedicilər vasitəsilə fiziki kəmiyyətləri rəqəmsal formada ölçür və kompüterə ötürür. Şagirdlər həm real dövrə yığır, həm də məlumatların avtomatik toplanması, qrafiklərin qurulması və təhlili ilə məşğul olur. Bu, onları müasir elmi tədqiqat metodları ilə tanış edir.

Araşdırmalar göstərir ki, virtual və fiziki laboratoriyaların kombinasiyası ən yaxşı nəticəni

verir. Virtual laboratoriyalar nəzəri anlayışları başa düşmək üçün ideal mühit yaradır, fiziki laboratoriyalar isə praktik bacarıqları və real alətlərlə işləmə təcrübəsini formalaşdırır [3].

4. Qarşılaşılan çətinliklər və onların aradan qaldırılma yolları

Elektrik laboratoriya işlərinin təşkilində bir sıra çətinliklər mövcuddur:

1. Maddi-texniki baza çatışmazlığı: Hər bir şagirdə kifayət qədər avadanlığın olmaması.
2. Təhlükəsizlik: Yüksək gərginlik və cərəyanla iş zamanı təhlükəsizlik tədbirlərinə ciddi riayət etmək lazımdır.
3. Zaman məhdudiyyəti: Dərs vaxtının laboratoriya işini tam və dərin aparmaq üçün kifayət etməməsi.

Bu çətinlikləri aradan qaldırmaq üçün aşağıdakı tədbirlər tövsiyə olunur:

- Qruplarla iş: Şagirdlərin kiçik qruplar şəklində işləməsi avadanlıq çatışmazlığını qismən aradan qaldırar.
- Virtual laboratoriyalardan istifadə: Ev tapşırığı kimi virtual işlərin yerinə yetirilməsi.
- Təcrübənin əvvəlcədən hazırlanması: Bəzi elementləri müəllim tərəfindən əvvəlcədən yığmaq vaxta qənaət edir.
- Açıq mənbəli platformalar: Arduino kimi ucuz və çoxfunksiyalı platformaların tətbiqi.

Nəticə

Elektrik bölməsi üzrə laboratoriya işləri fizika təliminin ayrılmaz və ən effektiv hissəsidir. Onlar şagirdlərdə nəzəri bilikləri praktikada tətbiq etmək, elmi təfəkkürü və yaradıcılığı inkişaf etdirmək, problem həlletmə bacarıqlarını möhkəmləndirmək imkanı yaradır. Müasir virtual və rəqəmsal texnologiyaların laboratoriya praktikumuna inteqrasiyası bu prosesi daha da zənginləşdirir, çatışmazlıqları aradan qaldırır və təlimi daha çox şagird mərkəzli edir. Gələcəkdə süni intellekt elementləri daxil olmaqla interaktiv simulyasiyaların və avtomatlaşdırılmış ölçmə sistemlərinin geniş yayılması fizika təliminin keyfiyyətinin daha da artmasına səbəb olacaqdır. Beləliklə, laboratoriya işlərinə əsaslanan təcrübi yanaşma fizikanı anlamaq üçün təkcə bir üsul deyil, həm də gələcək mütəxəssislərdə elmi dünyagörüşü formalaşdırmaq üçün güclü bir vasitədir.

ƏDƏBİYYAT

1. Əliyev, S.C. (2018). Fizika təlimində innovasiyalar: problemlər və həll yolları. Bakı: "Təhsil".
2. Məmmədova, L. Ə. (2020). "Fizika dərslərində laboratoriya təcrübələrinin təşkili metodikası". Pedagogika və Psixologiya, 4(55), 112-118.
3. Dewey, J. (1938). Experience and Education. New York: Kappa Delta Pi.
4. Finkelstein, N. D., et al. (2005). "When learning about the real world is better done virtually: A study of substituting computer simulations for laboratory equipment". Physical Review Special Topics - Physics Education Research, 1(1), 010103.
5. Hofstein, A., & Lunetta, V. N. (2004). "The laboratory in science education: Foundations for the twenty-first century". Science Education, 88(1), 28-54.
6. PhET Interactive Simulations. University of Colorado Boulder. https://phet.colorado.edu

Jalə Gıyas qızı Rəhmanova
magistrant,
jalerehmanova24@gmail.com,
Elnur Əhmədağa oğlu Dadaşov
fizika üzrə fəlsəfə doktoru, dosent,
elnurdadashov82@mail.ru,
Lənkəran Dövlət Universiteti

Совершенствование преподавания физики с помощью лабораторных работ в электрическом отделении

Резюме

Физика, как одна из фундаментальных наук, изучающая законы природы, требует высокого уровня абстрактного мышления и понимания концепций. Особенно сложно учащимся

осмыслить неосязаемые, но лежащие в основе современных технологий понятия, такие как электричество и магнетизм. Эффективность традиционных теоретических занятий в преодолении этой трудности ограничена. В этом контексте лабораторные работы на кафедре электротехники становятся незаменимым инструментом обучения физике, поскольку позволяют студентам непосредственно наблюдать, измерять и анализировать фундаментальные физические принципы. Основная цель данной работы – научно обосновать вклад электролабораторных работ в преподавание физики, их преимущества, возникающие проблемы и перспективы развития на основе интеграции современных технологий.

Jala Giyas Rahmanova
master,
jalerehmanova24@gmail.com,
Elnur Akhmadaga Dadashov
doctor of philosophy in physics, associate professor,
elnurdadashov82@mail.ru,
Lankaran State University

Improvement of physics teaching with the help of laboratory work on the electrical department

Summary

Physics, as a fundamental science that studies the laws of nature, requires a high level of abstract thinking and conceptual understanding. Students are particularly challenged by intangible concepts that underlie modern technology, such as electricity and magnetism. The effectiveness of traditional theoretical classes in overcoming this difficulty is limited. In this context, laboratory work in the Department of Electrical Engineering becomes an indispensable tool for teaching physics, as it allows students to directly observe, measure, and analyze fundamental physical principles. The main objective of this work is to scientifically substantiate the contribution of electrical laboratory work to the teaching of physics, its advantages, emerging problems and development prospects based on the integration of modern technologies.

Əfsanə Əkbər qızı BƏŞİRLİ
magistrant,
Besirliiefsanee636@gmail.com,
Vahab Mehdi oğlu HƏBİBOV
riyaziyyat üzrə fəlsəfə doktoru, dosent,
vahab.hebibov@mail.ru,
Lənkəran Dövlət Universiteti

ŞAGİRDLƏRƏ KOMPÜTER MODELLƏŞDİRİLMƏSİNİ ÖYRƏDƏRKƏN RİYAZİYYAT VƏ PEŞƏ FƏNLƏRİ ARASINDA FƏNLƏRARASI ƏLAQƏLƏRİN HƏYATA KEÇİRİLMƏSİ

Kompüter modelləşdirməsi - real obyekt və proseslərin riyazi modellər əsasında kompüterdə təqlid olunur. Bu prosesdə həm riyaziyyat bilikləri, həm də peşə fənlərinə aid biliklər qaşılıqlı şəkildə istifadə olunur.

Kompüter modelləşdirilməsi müasir təhsildə mühüm yer tutaraq, şagirdlərin analitik düşünmə, verilənlərin emaletmə və müxtəlif sahələrdə tətbiq bacarıqlarını inkişaf etdirməsinə kömək edir. Peşə fənləri isə kompüter modelləşdirilməsinin müxtəlif sahələrdə necə tətbiq olunduğunu göstərir. Bu fənlərarası əlaqə sayəsində şagirdlər riyazi biliklərini real tətbiqlərlə əlaqələndirərək daha dərindən öyrənə bilirlər.

Riyaziyyat informatikanın elmi bazasını təşkil edir. İnformatika sahəsində müxtəlif məsələlərin həlli, alqoritmlərin qurulması və süni intellekt modellərinin yaradılması üçün riyazi biliklər əsas

rol oynayır (Qarayev M. Q., Abbasov S. B).

Riyaziyyat burada aşağıdakı bilikləri təmin edir:

- Funksiya və qrafiklər: Modellərin dəyişənlər arasındakı əlaqəsini göstərmək üçün;
- Tənliklər və sistemlər: Mühəndis, iqtisadi və texnoloji modellərin qurulması;
- Statistika və ehtimal: Nəticələrin analizində və proqnozlaşdırmada;
- Cəbr və riyazi məntiq: Alqoritmlərin və proqram strukturlarının əsasını təşkil edir.

Tətbiqi informatikanın bilavasitə peşə fənləri ilə əlaqəsi var. Aşağıdakı cədvəldə bu əlaqələrin bəzi nümunələri qeyd olunub:

Riyaziyyat fənni	Peşə fənni	Əlaqə
Cəbr	Alqoritmlər və proqramlaşdırma	Alqoritmik düşüncə tərzinin formalaşdırılması
Riyazi analiz	Süni intellekt	Neyron şəbəkələrin qurulması
Həndəsə	Data analitika və böyük verilənlər	Məlumatların təhlili və proqnozlaşdırılması
Ehtimal nəzəriyyəsi	Kibertəhlükəsizlik	Şifrələmə və məlumatların təhlükəsizliyi

Analitik düşüncə informatika mütəxəssislərinin problemlərini sistemli və məntiqli həll etməsinə kömək edir. Kod yazarkən daha effektiv və optimal həll yollarının tapılması üçün riyazi modellərdən istifadə olunur. Məntiqi təfəkkür riyazi nəzəriyyələrə əsaslanan yeni texnologiyaların inkişafı üçün baza rolunu oynayır.

Kompüter modelləşdirilməsi yalnız nəzəri olaraq məhdudlaşmır, eyni zamanda praktik tətbiqlərdə də geniş istifadə olunur. Aşağıda göstərilən sahələrdə bu üsuldan aktiv şəkildə istifadə edilir:

- Mühəndislik və texniki sahələr – Aerodinamika, elektrik dövrələrinin analizi və mexaniki qurğuların işləmə prinsiplərinin modelləşdirilməsi;
- İqtisadiyyat və biznes analitikası – Maliyyə göstəricilərinin təhlili, gələcək iqtisadi tendensiyaların proqnozlaşdırılması və risklərin qiymətləndirilməsi;
- Tibb və biotexnologiya – Tibbi avadanlıqların iş prinsiplərinin öyrənilməsi və dərmanların insan orqanizminə təsirinin simulyasiya olunması;
- Süni intellekt və avtomatlaşdırma – Maşın öyrənmə sistemlərinin yaradılması, robotların davranış modellərinin qurulması və avtomatlaşdırılmış idarəetmə proseslərinin optimallaşdırılması (Переверзев С.В.).

Nəticə olaraq, şagirdlərə kompüter modelləşdirilməsini öyrədərkən riyaziyyat və peşə fənləri arasında fənlərarası əlaqələrin qurulması onların biliklərinin daha dərindən mənimsənilməsinə kömək edir. Riyaziyyatın əsas anlayışları – alqoritmlər, funksiyalar, xətti cəbr və statistik analiz – informatika və digər peşə fənləri ilə inteqrasiya olunaraq real problemlərin həllində tətbiq edilir. Bu yanaşma şagirdlərə yalnız nəzəri biliklər vermir, həm də onların praktiki bacarıqlarını inkişaf etdirir. Onlar müxtəlif sahələrdə – mühəndislik, iqtisadiyyat, proqramlaşdırma və elmi tədqiqatlarda riyazi biliklərdən necə istifadə edəcəklərini öyrənirlər. Nəticədə, şagirdlərin məntiqi düşünmə qabiliyyəti artır, analitik yanaşma bacarıqları inkişaf edir və onlar texnologiyadan daha effektiv istifadə edə bilirlər.

Beləliklə, riyaziyyat və peşə fənlərinin inteqrasiyası, xüsusilə kompüter modelləşdirilməsi vasitəsilə, təhsil prosesini daha əhatəli və faydalı edir. Bu yanaşma gələcəkdə şagirdlərin peşə seçimində və uğurlu karyera qurmasında mühüm rol oynayır.

ƏDƏBİYYAT

1. Qarayev M.Q., Abbasov S.B. – "İnformatika və riyazi modelləşdirmə" (A mathematical representation of reality(Encyclopaedia Britanica)
2. Переверзев С.В. – Математика для программистов (S.V. Pereverzev – Proqramçılar üçün riyaziyyat)
3. Арнольд В.И. – Математические методы классической механики (V.İ. Arnold – Klassik mexanikanın riyazi metodları)

Афсана Акбар кызы Баширли
магистрант,
Besirliiefsanee636@gmail.com,
Вахаб Мехди оглы Габибов
доктор философии по математике, доцент,
vahab.hebibov@mail.ru,
Ленкоранский Государственный Университет

Реализация межпредметных связей между математикой и профессиональными дисциплинами при обучении учащихся компьютерному моделированию

Резюме

В исследовании рассматривается значение реализации межпредметных связей между математикой и профессиональными дисциплинами при обучении компьютерному моделированию. Анализируются возможности использования современных методов обучения и информационных технологий. Цель работы – развитие как теоретических знаний, так и практических навыков учащихся. В исследовании изучается влияние межпредметных связей на учебную мотивацию и творческие способности. Результаты показывают, что такой подход значительно повышает активность учащихся и их профессиональную подготовку в процессе обучения.

Afsana Akbar Bashirli
master,
Besirliiefsanee636@gmail.com,
Vahab Mehdi Habibov
doctor of philosophy in mathematics, associate professor,
vahab.hebibov@mail.ru,
Lankaran State University

Implementation of interdisciplinary connections between mathematics and vocational subjects while teaching computer modeling to students

Summary

The research explores the importance of implementing interdisciplinary connections between mathematics and vocational subjects while teaching computer modeling. The possibilities of using modern teaching methods and information technologies are analyzed. The aim is to develop students' both theoretical knowledge and practical skills. The study examines the impact of interdisciplinary connections on learning motivation and creativity. The results show that this approach significantly increases students' activity and professional readiness in the learning process.

Bikəxanım Asif qızı MİRZƏYEVA
magistrant,
mirzayevab2@gmail.com,
Səlimə Mirzə qızı MİRZƏYEVA
riyaziyyat üzrə fəlsəfə doktoru, dosent,
mirzayeva_salima@mail.ru,
Lənkəran Dövlət Universiteti

AĞILLI LÖVHƏNİN TƏDRİS PROSESİNDƏ TƏTBİQİ

Ağıllı lövhələr təhsil sahəsində interaktivliyin və vizual təqdimatın yüksəldilməsi baxımından əhəmiyyətli texnoloji vasitə kimi qiymətləndirilir. Bu qurğular tədris prosesində ənənəvi lövhələrin funksiyalarını genişləndirərək, müəllim və şagirdlərə dərs materiallarını daha əlçatan və

anlaşıqlı etməyə imkan yaradır. Ağıllı lövhələrin ən önəmli üstünlüklərindən biri, onların çoxmodal tədris materiallarının təqdimatına şərait yaratmasıdır. Müəllimlər mövzunu yalnız yazılı formada deyil, həm də şəkillər, qrafiklər, video və animasiyalar vasitəsilə təqdim edə bilirlər ki, bu da müxtəlif öyrənmə tərzinə malik şagirdlərin mövzunu daha yaxşı mənimsəməsinə kömək edir. Belə yanaşma öyrənmənin dərinləşməsinə, yaddaşın möhkəmlənməsinə və diqqətin toplanmasına səbəb olur (Kochelakova, И, 2013).


Bununla yanaşı, ağıllı lövhələr tədris prosesində şagirdlərin fəallığını artırır. Ənənəvi tədris metodlarından fərqli olaraq, burada şagirdlər dərs zamanı passiv dinləyicilər deyil, dərsin aktiv iştirakçılarına çevrilirlər. Müəllimlər müxtəlif interaktiv tapşırıqlar, oyunlar və testlər vasitəsilə şagirdləri dərsə cəlb edə bilir. Bu da onların motivasiyasını və dərsə marağını yüksəldir, öyrənmə prosesini daha səmərəli edir. Həmçinin, ağıllı lövhələr müəllimlərə dərsin gedişatını asanlıqla idarə etməyə, dərs planlarını öncədən hazırlamağa və lazım olduqda dərs materiallarını real vaxt rejimində dəyişdirməyə imkan verir. Bu xüsusiyyətlər dərsin keyfiyyətini artırmaqla yanaşı, müəllimlərin peşəkarlıq səviyyəsini yüksəldir və tədris prosesində elastikliyi təmin edir.

Texnologiyanın təhsil məzmununun zənginləşdirilməsi sahəsində də ağıllı lövhələr əhəmiyyətli rol oynayır. Onların vasitəsilə müəllimlər virtual laboratoriyalar, simulyasiyalar və digər interaktiv resurslardan istifadə edə bilir ki, bu da dərsin interaktivliyini və praktik əhəmiyyətini artırır. Beləliklə, dərs sadəcə nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmır, həm də şagirdlərdə analitik düşüncə və yaradıcılıq bacarıqlarının inkişafına xidmət edir.

İnteraktiv texnologiyaların istifadəsi təhsil sahəsində adi bir hala çevrilməkdədir. İnteraktiv avadanlıqlar, məsələn, interaktiv lövhələr, şagirdlərin bilik əldə etməyə qarşı davamlı motivasiya yaradır və tədris məsələlərini yaradıcı şəkildə həll etməyə kömək edir, beləliklə, şagirdlərin obrazlı düşüncələrini inkişaf etdirir. İnteraktiv lövhə vasitəsilə təqdimatlar nümayiş etdirmək, modellər yaratmaq, şagirdləri materialın mənimsənilməsi prosesinə aktiv şəkildə cəlb etmək, dərsin tempi və axışını yaxşılaşdırmaq mümkündür. Elektron lövhə uşaqlara lövhənin qarşısında qorxu və utanmanı aşmağa kömək edir, onları dərsə asanlıqla cəlb edir. Sinifdə heç kəs etinasız qalmaz. İnteraktiv lövhənin yüksək görsəlliyi sayəsində uşaqların dərsə diqqətini cəlb etmək, motivasiyanı artırmaq mümkündür. Kompüterdə olan hər şey interaktiv lövhədə də nümayiş etdirilə bilər. Orada obyektlər və yazılar hərəkət etdirilə, mətndə, şəkillərdə və diaqrammalarda şərhlər əlavə edilə bilər, vacib yerlər vurğulanıb rənglər əlavə oluna bilər, bu xüsusilə zəif görən uşaqlar üçün vacibdir. Müəllim üçün dərsləri şagirdlərlə beyin fırtınası rejimində modelləşdirmək, tədris materialını göstərmək, ekranın üzərində yazılı şərhlər vermək, şagirdlərin fikirlərini yazmaq və bununla da ümumi dərs qeydlərini şagirdlərlə birlikdə yaratmaq mümkün oldu. Həmçinin, interaktiv lövhədə yazılanlar şagirdlərə ötürülə bilər, maqnit yaddaş qurğularında saxlanıla bilər, çap edilə bilər və e-poçtla göndərilə bilər.

Dərslərdə İnternetə çıxış da mümkündür, burada şagirdlər yeni məlumat əldə edə bilərlər. İnteraktiv lövhələrlə işləyərkən şagirdlərin diqqətinin cəmlənməsi yaxşılaşır, tədris materialı daha sürətlə mənimsənilir və nəticədə hər bir şagirdin uğuru artır ki, bu da müasir təhsilin keyfiyyətini yüksəldir.

İnteraktiv lövhənin imkanlarını 9-cu sinif "İnformatika" dərsliyindən "Vektor qrafikasında iş" mövzusunun tədrisinə tətbiq edək. Bu mövzunun tədrisi zamanı əsas məqsəd şagirdlərin vektor qrafik redaktorlarının imkanlarını mənimsəməsi, obyektlərin yaradılması, redaktə olunması və tərtibat qaydaları ilə tanış olmalarıdır. Mövzu izah edilərkən interaktiv lövhə və onun proqram təminatının imkanlarından istifadə dərsin həm vizual, həm də praktik cəhətdən daha səmərəli təşkilinə şərait yaradır (Mahmudzadə R.N., Sadıqov İ.C., İsayeva N.R., 2024).



Təlim prosesində çalışmaq lazımdır ki, şagirdlər müxtəlif qrafik elementləri fərqli üsullarla qursun və redaktə etsinlər. Şagirdlər artıq əvvəlki siniflərdən rastr və vektor qrafikasının fərqləri, sadə qrafik elementlərin yaradılması mövzuları ilə tanış olduqlarına görə, bu mərhələdə məqsəd onların vektor

qrafikasında praktik bacarıqlarını inkişaf etdirməkdir.

Məsələn, şagirdlərə vektor qrafika redaktorunda a və b ədədlərinin cəmi alqoritminin blok-sxemlə təsvirini qurmaq tapşırığı verilir. İlk öncə müəllim interaktiv lövhədə proqramı işə salır və ekranda iş sahəsini nümayiş etdirir. Lövhədəki "Alətlər paneli" vasitəsilə əsas fiqurlar – düzbucaqlı, romb, paraleloqram, dairə və s. obyektlər yaradılır. Daha sonra bu fiqurlar rənglənir, ölçüləri dəyişdirilir və qruplaşdırılaraq verilən tapşırığın blok-sxemi yaradılır.

Nəticə etibarilə, interaktiv lövhənin və müvafiq proqram təminatının imkanları şagirdlərə vektor qrafikasının əsaslarını daha aydın qavramağa, qrafik elementləri yaradarkən yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə və praktik bacarıqlarını formalaşdırmağa şərait yaradır.

Beləliklə, informatika fənninə aid konkret bir dərs nümunəsi əsasında göründüyü kimi, interaktiv lövhənin tətbiqi şagirdlərin mövzunu daha dərindən mənimsəməsinə, dərsin məzmununun vizual və interaktiv şəkildə təqdim olunmasına imkan yaradır.

ƏDƏBİYYAT

1. Mahmudzadə R.N., Sadıqov İ.C., İsayeva N.R. 9-cu sinif İnformatika dərsliyi, 2024
2. Иванова, Л. А. Использование интерактивной доски на уроках в начальной школе, 2019.
3. Kochelakova, И. Интерактивная доска как средство повышения качества обучения, 2013.

Bikakhanim Asif Mirzayeva
master,
mirzeyevab2@gmail.com,
Salima Mirza Mirzayeva
doctor of philosophy in mathematics, associate professor,
mirzayeva_salima@mail.ru,
Lankaran State University

Applicatıon of the smart board in the teaching process

Summary

This research discusses the role and advantages of smart boards in the teaching process. It demonstrates that interactive boards enhance the visual and interactive aspects of lessons, increasing students' attention and motivation while enabling teachers to manage the teaching process more effectively. With the help of the smart board, various types of materials – images, videos, animations, and interactive exercises – can be presented. The text also provides a practical example of using the smart board in teaching the topic "Working with Vector Graphics" and emphasizes its positive impact on the development of students' creativity and analytical thinking skills.

Бикаханым Асиф кызы Мирзаева
магистрант,
mirzeyevab2@gmail.com,
Салима Мирза кызы Мирзаева
доктор философии по математике, доцент,
mirzayeva_salima@mail.ru,
Ленкоранский Государственный Университет

Применение интерактивной доски в учебном процессе

Резюме

В данной исследовательской работе рассматривается роль и преимущества интерактивных (умных) досок в учебном процессе. Показано, что использование интерактивных досок повышает наглядность и интерактивность урока, усиливает внимание и мотивацию учащихся, а также позволяет учителю более эффективно управлять процессом обучения. С помощью интерактивной доски можно представлять материалы в различных форматах – изображения, видео, анимации и интерактивные задания. В тексте также приводится пример практического применения интерактивной доски при преподавании темы «Работа

с векторной графикой» и подчеркивается влияние этой технологии на развитие творческих и аналитических способностей учащихся.

Məmməd Kərim oğlu QƏFƏROV
magistrant,
qfrovmhmmd3@gmail.com,
Şəbnəm Ədalət qızı MİRZƏYEVA
biologiya üzrə fəlsəfə doktoru, dosent,
sebnemmirzeyeva88@gmail.com,
Lənkəran Dövlət Universiteti

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ MÜŞAHİDƏ METODUNDAN MÖVZULARA MÜVAFİQ İSTİFADƏNİN ÜSTÜNLÜKLƏRİ

Müasir təhsil sistemi şagirdin passiv bilik alıcısından fəal tədqiqatçıya çevrilməsini tələb edir. Biologiya fənninin əsas məqsədi canlı varlıqları və təbiət hadisələrini öyrənməkdir. Bu məqsədə çatmaq üçün müşahidə metodu biologiyanın tədrisində ən səmərəli tədqiqat üsullarından biri hesab olunur. Müşahidə – obyekt və hadisələrin duyğu orqanları və ya texniki vasitələrin köməyi ilə sistemli şəkildə izlənilməsi və qeydə alınması prosesidir. Bu üsul şagirdlərin canlı prosesləri bir-başa qavramasına, nəticə çıxarma bacarıqlarının inkişafına və elmi dünyagörüşün formalaşmasına kömək edir. Biologiyanın tədrisində müşahidə metodu şagirdlərin bilikləri yalnız dinləyici kimi deyil, həm də fəal tədqiqatçı kimi mənimsəməsinə şərait yaradır. Müşahidə zamanı şagirdlər canlı aləmdə baş verən dəyişiklikləri birbaşa izləyərək "necə" və "nə üçün" suallarına cavab axtarır, bu da öyrənmə prosesinə tədqiqat xarakteri qazandırır və dərsin keyfiyyətini yüksəldir. Biologiya dərslərində müşahidənin müxtəlif növləri tətbiq olunur. Qısamüddətli müşahidə dərs zamanı mikroskop, lupa, modellər və sxemlər vasitəsilə aparılır. Məsələn, ümumtəhsil məktəblərində 7-ci sinifdə tədris olunan "Bitki və heyvan hüceyrələrinin quruluşu" mövzusunda şagirdlər mikroskop altında soğan qabığının nazik kəsiyini müşahidə edərək hüceyrə divarı, sitoplazma və nüvəni, heyvan hüceyrəsinin isə hazır hüceyrə modelini müşahidə edərək bitki və heyvan hüceyrələri arasında əsas quruluş xüsusiyyətlərini fərqləndirməyi bacarırlar. Eyni sinifdə tədris olunan "Bakteriyalar" mövzusunun keçirilməsi zamanı onların ölçüləri çox kiçik olduğu üçün adi gözlə müşahidənin qeyri-mümkünlüyü izah edilir. Müəllim şagirdlərin diqqətini dərslikdəki şəklə yönəldir. Həmçinin bakteriyanın quruluşuna aid müxtəlif resurslardan, o cümlədən tablolardan, şəkillərdən və video-materiallardan istifadə edərək şagirdləri bakteriyaların quruluşu ilə tanış edir. Bu zaman həm də bilavasitə müəllim tərəfindən icra və idarə ediləcək fəaliyyət təşkil oluna bilər. Bu məqsədlə mikroskop altında müvəqqəti preparat hazırlanır. Müəllimin köməkliyi ilə şagirdlər mikroskop altında bakteriya hüceyrəsini müşahidə edir və gördüklərinin təsvirini sxematik olaraq dəftərlərində çəkirlər. Uzunmüddətli müşahidə isə canlı orqanizmlərin inkişaf və uyğunlaşma proseslərinin izlənilməsidir. Məsələn, "Toxumun cücərməsi" mövzusu ilə bağlı aparılan müşahidələrdə şagirdlər 2–3 həftə ərzində bitkilərin böyüməsini izləyir, gündəlik qeydlər aparır və nəticə çıxarırlar. Təbiət guşəsində müşahidə məktəbin laboratoriyasında və ya həyətində yaradılmış bioloji guşədə aparılır. Məsələn, ümumtəhsil məktəblərində 6-cı sinifdə tədris olunan "Mədəni bitkilərin insan həyatında əhəmiyyəti", "Otaq bitkilərinə qulluq qaydaları" ilə əlaqədar aparılan müşahidələrdə şagirdlər işıqlı və qaranlıq şəraitdə saxlanılan bitkilərin morfoloji quruluşunda baş verən dəyişikliklər əsasında eyni növ bitkilərin fərqini müəyyənləşdirirlər. Ekskursiya müşahidəsi isə təbiətdə aparılır və şagirdlərdə ekoloji mədəniyyətin, bitki və heyvan növlərinə qarşı qayğıkeş münasibətin formalaşmasına xidmət edir. Ümumtəhsil məktəblərinin 7-ci sinfində tədris olunan "Təbii yaşayış mühitləri" və "Biomüxtəliflik" mövzularının möhkəmləndirilməsi üçün ekskursiya zamanı şagirdlər enliyarpaqlı meşədə, çəmənlikdə və çay sahilində bitki və heyvan növlərini müşahidə edir və biomüxtəliflik haqqında nəticələr çıxarırlar. Virtual müşahidə müasir informasiya texnologiyalarının imkanları ilə həyata keçirilir. Ümumtəhsil məktəblərində 9-cu sinifdə

tədris olunan “Hüceyrə bölünməsi” mövzusunda hüceyrə daxilində baş verən mikroskopik proseslərin animasiyalar vasitəsilə izlənilməsi şagirdlərə mitoz və meyoz bölünmənin mərhələlərini aydın şəkildə qavramağa imkan yaradır. Bütün bu müşahidə növləri biologiya dərslərini həm praktik, həm də texnologiyaya əsaslanan interaktiv təlimə çevirir. Müşahidə fəaliyyətinin səmərəli olması üçün müəllim müəyyən prinsiplərə əməl etməlidir: müşahidə məqsədyönlü olmalı, konkret mövzuya xidmət etməli; sistemli şəkildə aparılmalı və əvvəlki nəticələrlə əlaqələndirilməlidir; şagirdlər nəticələri özləri qeyd edib təhlil etməlidirlər; mikroskop, diaqram, video kimi vizual vasitələrdən istifadə edilməlidir; hər müşahidənin sonunda obyektlər müqayisə olunmalı və elmi nəticələr çıxarılmalıdır. Biologiya müəllimi müşahidəni nümayiş deyil, tədqiqat yönümlü fəaliyyət kimi təşkil etməli, mövzulara müvafiq müşahidələr vasitəsilə şagirdlərin öyrəndiklərini həyatda tətbiq etməsinə və təbiət qanunauyğunluqlarını dərk etməsinə şərait yaratmalıdır.

Beləliklə, orta ümumtəhsil məktəblərində Biologiya fənninin tədrisi zamanı müşahidə metodunun növləri kimi ən çox istifadə olunan qısamüddətli və uzunmüddətli müşahidələrin nəticələrinin müqayisəli analizi aparılmış və müəyyən edilmişdir ki, uzunmüddətli müşahidələrin aparılması daha çox vaxt tələb etsə də, canlı orqanizmlərdə baş verən bioloji proseslərin, dəyişilmələrin səbəb və nəticə əlaqələrini özündə aydın şəkildə əks etdirdiyindən şagirdlər tərəfindən öyrənilən mövzuların daha yaxşı dərk edilməsinə təkan verir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Ümumi Təhsil Müəssisələri üçün “Biologiya” fənni üzrə təhsil proqramı (Kurikulum) (VII-XI siniflər)- Bakı 2023.
2. Hüseynov Ə.M. Orta məktəbdə biologiyadan sinifdənkənar məşğələlərin təşkili və aparılması. Bakı, 2008.
3. Hacıyeva G. Biologiyanın tədrisi metodikası. Bakı, 2018.
4. Hacıyeva H., Abdullayeva T., Hacıbəyova E. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı: Çaşıoğlu, 2014.
5. Y.Seyidli., X. Əhmədbəyli.,N.Əliyeva. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün Biologiya fənni üzrə dərslik. Bakı- 2017.
6. R.Səlimov., E.Yunusov., N.Əliyeva., X.Əhmədbəyli., E.Məmmədov. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün biologiya fənni üzrə dərslik (1-ci hissə). Bakı-2024.
7. R.Səlimov., E.Yunusov., N.Əliyeva., X.Əhmədbəyli., E.Məmmədov. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün biologiya fənni üzrə metodik vəsait (1-ci hissə). Bakı-2024.
8. R.Səlimov., E.Yunusov., N.Əliyeva., X.Əhmədbəyli., E.Məmmədov. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün biologiya fənni üzrə dərslik (2-ci hissə). Bakı-2024.
9. Y.Seyidli., N.Əliyeva., X.Əhmədbəyli. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Biologiya fənni üzrə dərslik. Bakı- 2020.

Мамед Керим оглы Гафаров
магистрант,
gfrovmhmmd3@gmail.com,
Шабнам Адалят кызы Мирзаева
доктор философии по биологии, доцент,
sebnemmirzeyeva88@gmail.com,
Лянкяранский Государственный Университет

Преимущества использования метода наблюдения в соответствии с темами при преподавании биологии в общеобразовательных школах

Резюме

Тезис посвящён применению метода наблюдения как одному из основных направлений исследовательской деятельности при преподавании биологии в общеобразовательных школах. В этом контексте автор работы использовал различные виды наблюдения. Задания, относящиеся к краткосрочным наблюдениям, выполнялись преимущественно на уроках с

использованием раздаточных материалов, представленных по теме. Долгосрочные наблюдения, напротив, организовывались во внеурочное время в форме домашних заданий или экскурсий на природу и были направлены на отслеживание процессов развития и адаптации, происходящих у живых организмов. Проведён сравнительный анализ полученных результатов, который показал, что, несмотря на то что долгосрочные наблюдения требуют больше времени, они отражают причинно-следственные связи биологических процессов, происходящих в живых организмах, и тем самым способствуют более глубокому пониманию изучаемых тем учащимися.

Mammad Karim Gafarov
master,
qfrovmhmmd3@gmail.com,
Shabnam Adalat Mirzayeva
doctor of philosophy in biology, associate professor,
sebnemmirzeyeva88@gmail.com,
Lankaran State University

Advantages of using the observation method in accordance with topıcs in the teaching of biology in secondary schools

Summary

The thesis is devoted to the application of the observation method as one of the main directions of research activity in the teaching of biology in secondary schools. In this regard, the author has employed various types of observation methods. Tasks related to short-term observations were mainly conducted during lessons using the handout materials provided on the topic. In contrast, long-term observations were organized outside class hours in the form of homework or field excursions, aimed at monitoring the processes of development and adaptation occurring in living organisms.A comparative analysis of the obtained results revealed that although long-term observation requires more time, it reflects the cause-and-effect relationships of biological processes taking place in living organisms. Consequently, this approach promotes a deeper understanding of the studied topics by students.

Aysan Məzahir qızı AĞAYEVA
magistrant,
aysanzakari@gmail.com,
Əfqan Məhmədalı oğlu KƏRİMOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
efqan.kerimov@gmail.com,
Lənkəran Dövlət Universiteti

X SİNİFDƏ FİZİKANIN “MEXANİKA” BÖLMƏSİNİN RİYAZİYYAT FƏNNİ İLƏ İNTEQRASİYASI

Müasir təhsil sistemində əsas məqsəd yalnız nəzəri biliklərin ötürülməsi deyil, həm də şagirdlərin həmin bilikləri praktikada tətbiq etmək bacarıqlarının formalaşdırılmasıdır. Bu məqsədə çatmaq üçün fənlərarası inteqrasiya xüsusi əhəmiyyət daşıyır. Fizika və riyaziyyat fənlərinin inteqrasiyası isə həm elmi, həm də praktik baxımdan vacibdir. Fizika təbiət hadisələrini öyrənir, riyaziyyat isə həmin hadisələrin dəqiq ifadəsi üçün vasitə rolunu oynayır.

Fizikanın bir çox mövzularının mənimsənilməsi riyazi anlayışlarla sıx bağlıdır.Fizikada “Mexanika” bölməsi və riyaziyyat arasındakı əlaqə aşağıdakı aspektlərdə özünü göstərir:

- Mexanikanın əsas mövzularından biri olan hərəkət qanunlarının öyrənilməsində məsafə, sürət və zaman arasındakı əlaqələri riyazi düstur və qrafik vasitəsilə təsvir etmək vacibdir. Bu

zaman riyaziyyatın funksiya, törəmə və inteqral kimi anlayışları tətbiq olunur.

- Qüvvə, kütlə və sürət arasındakı münasibət xətti tənliklərlə ifadə olunur. Riyazi biliklər şagirdlərə bu qanunları dəqiq ifadə etməyə imkan verir.
- Mexanikanın bu bölməsi iş və enerjinin hesablanmasında riyazi düsturlardan və analiz üsullarından istifadəni tələb edir.
- Mexanikada "$s-t$", "$v-t$" və "$a-t$" qrafiklərinin qurulması riyazi bacarıq tələb edir. Bu, şagirdlərdə həm fiziki anlayışı, həm də riyazi təfəkkürü inkişaf etdirir.Bu əlaqə şagirdlərdə təkcə nəzəri biliklərin deyil, eyni zamanda praktiki problemlərin həllinə yönəlik bacarıqların inkişafına səbəb olur.

Bilirik ki, tam orta məktəb riyaziyyat kursunda düz, tərs, xətti, kvadratik, triqonometrik və s. kimi asılılıqlar öyrənilir. Mexanika kursu fizikada keçilərkən $s=vt$, $v=at$, $F=ma$, $A=Fs$ kimi düz mütənasib asılılıqlar, $x=x_0+vt, v=v_0+at$ xətti asılılıqları;$S=v_0t+\frac{at^2}{2}$; $h=v_ot+\frac{gt^2}{2}$ kimi kvadratik asılılıqları; üfüqi bucaq altında atılmış cismin hərəkəti öyrənilərkən $h=\frac{v_0^2sin^2\alpha}{2g}$, $l=\frac{v_0^2sin2\alpha}{g}, E_k=\frac{mv_0^2cos^2\alpha}{2}, E_p=\frac{mv_0^2sin^2\alpha}{2}$ kimi triqonometrik asılılıqların öyrənilməsində şagirdlərin göstərilən asılılıqları dərindən qavramaları bu cəhətdən çox xarakterikdir. Xüsusilə, düz xəttin, parabolanın, $y=sinx, y=cosx$ funksiyalarının qrafiklərinin düzgün çəkilməsi vacibdir. Hərəkət tənliyi qurularkən düz xətt üzrə, müstəvi üzərində və fəzada $r=r(t)$ maddi nöqtənin hərəkəti üçün bir, iki və üç koordinatın (obsis, ordinat və applikat), həmçinin üfüqi, şaquli və frontal müstəvilərin təyininə xüsusi diqqət yetirilməlidir.

Göründüyü kimi, mexanika bölməsi ilə riyaziyyatın inteqrasiyası tədrisin keyfiyyətini artırır, şagirdlərdə məntiqi və analitik düşüncələrin inkişafına imkan yaradır. Riyaziyyat fənni mexanikanın riyazi əsasını təşkil edir və fiziki hadisələrin dəqiq izahını təmin edir. Buna görə də təhsil prosesində bu fənlərin qarşılıqlı inteqrasiyası təhsil üçün vacib hesab olunur.

ƏDƏBİYYAT

1. Cəbr və analizin başlanğıcı. Dərslik. X sinif. Mərdanov M., Yaqubov M. və b. Çaşıoğlu, 2011
2. K.D.Hüseynov. "Mexanika", 2002, Bakı.
3. N.Qocayev. "Mexanika və molekulyar fizika", 2006, Bakı
4. R.Abdulrazaqov, R.Əliyev. "Fizika X sinif müəllimlər üçün vəsaiti", 2016, Bakı
5. R.Abdulrazaqov, R.Əliyev. "Fizika X sinif", 2020, Bakı

Айсан Мязахир кызы Агаева
магистрант,
aysanzakari@gmail.com,
Эфган Мамедалы оглы Керимов
доктор философии по педагогики, доцент,
efgan.kerimov@gmail.com,
Ленкоранский Государственный Университет

Интеграция раздела "Механика" по физике в x классе с предметом математика

Резюме

Учебные предметы, изучаемые в школе, не изолированы друг от друга. Предмет физики имеет более тесную интеграцию с математикой. При изучении «Механики» рассматриваются такие математические зависимости, как координатная плоскость, путь, перемещение, производная, скорость, ускорение, сила, прямая, обратная, линейная и квадратичная зависимости. При изучении учебного материала оба предмета должны дополнять друг друга, избегая повторений.

Aysan Mazahir Aghayeva
master,
aysanzakari@gmail.com,
Afgan Mahmadali Karimov
doctor of philosophy in pedagogy, associate professor,
efqan.kerimov@gmail.com,
Lankaran State University

The integration of the "mechanıcs" sectıon of physıcs with the mathematics subject in the 10th grade

Summary

The subjects taught at school are not isolated from one another. The subject of Physics is more closely integrated with Mathematics. During the study of "Mechanics" mathematical concepts such as coordinate plane, displacement, derivative, velocity, acceleration, force, direct, inverse, linear, and quadratic relationships are examined. While studying the topic materials, both subjects should complement each other without causing repetition.

Xədicəxanım Emin qızı AXUNDZADƏ
magistrant,
xedice3135@gmail.com,
Məmməd Fərrux oğlu MURADOV
riyaziyyat üzrə fəlsəfə doktoru, dosent,
mammad_2011@mail.ru,
Lənkəran Dövlət Universiteti

İNFORMATİKANIN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN MÜASİR TƏLİM METODLARI

Hazırda təhsil prosesi daim təkmilləşdirilməyə ehtiyac duyur, çünki prioritetlər və sosial dəyərlər dəyişir. Elmi və texnoloji tərəqqi getdikcə insanın daim artan ehtiyaclarını ən yaxşı şəkildə ödəyən istehsal səviyyəsinə çatmaq vasitəsi kimi qəbul olunur, eyni zamanda fərdin mənəvi sərvətinin inkişafına xidmət edir. İnteraktiv üsullarla informatikanın öyrənilməsi şagirdlərin idrak fəaliyyətini aktivləşdirməyə, müstəqil öyrənmək bacarığını inkişaf etdirməyə, komanda ilə işləmə bacarığını formalaşdırmağa, ünsiyyət bacarıqlarını inkişaf etdirməyə və ən əsası, öyrənməyə motivasiyanı artırmağa imkan verir. Buna görə də, məktəb məzunlarının hazırlanmasında mövcud vəziyyət təhsilin strategiya və taktikasında köklü dəyişikliklər tələb edir.İnteraktiv üsulların tətbiqi ilə elektron tədris vasitələrindən istifadə halları tədrisin keyfiyyətini artırır və öyrənməyə müsbət stimul yaradır (Quliyeva T.Ə.,2020). Multimedia – obyektlərin və proseslərin ənənəvi mətn təsviri ilə deyil, fotoşəkil, video, qrafika, animasiya, səslə, yəni bu gün məlum olan bütün formalarla təqdim olunmasıdır. Burada iki əsas üstünlük var – keyfiyyət və miqdar baxımından. Keyfiyyət baxımından yeni imkanlar, şifahi təsvirlərlə birbaşa audio-vizual təqdimatları müqayisə etdikdə aydın görünür. Miqdari üstünlüklər isə multimedia mühitinin informasiya sıxlığı baxımından çox daha yüksək olması ilə ifadə olunur(Jonassen D.H.,1999). Doğrudan da, bir səhifə mətn təxminən 2 KB informasiya ehtiva edir. Müəllim bu mətni təxminən 1-2 dəqiqəyə oxuyur. Eyni müddət ərzində tam ekranlı bir video təxminən 1,2 GB informasiya ötürə bilir. Bu səbəbdən deyilir ki, "bir dəfə görmək, milyon dəfə eşitməkdən yaxşıdır".

Multimedia texnologiyalarından istifadə metodikası aşağıdakılardan ibarətdir:

- Tədrisin idarə olunması sisteminin təkmilləşdirilməsi (Dərsin müxtəlif mərhələlərində);
- Öyrənməyə motivasiyanın artırılması;
- Təlim-tərbiyə keyfiyyətinin yaxşılaşdırılması;

- Şagirdlərin müasir informasiya texnologiyaları sahəsində hazırlıq səviyyəsinin yüksəldilməsi;
- Kompüterin imkanlarının tədris vasitəsi kimi nümayiş etdirilməsi.

Multimedia dərsləri aşağıdakı didaktik vəzifələrin həllinə kömək edir:

- Fənn üzrə əsas biliklərin mənimsənilməsi;
- Əldə olunmuş biliklərin sistemləşdirilməsi;
- Özünü nəzarət bacarıqlarının formalaşdırılması;
- Fənnə marağın artırılması;
- Şagirdlərin tədris materialı üzərində müstəqil işi üçün tədris-metodiki dəstəyin təmin olunması.

Bu texnologiyanı izahedici və təsviri tədris metodu kimi qəbul etmək olar. Onun əsas məqsədi – şagirdlərə tədris materialının ötürülməsi və informasiyanın mənimsənilməsini təşkil etməkdir. Bu proses vizual yaddaş işə qoşulduqda daha effektiv olur və informasiyanın qavranılması güclənir (Монахов В. М., 2007). Multimedia texnologiyalarından dərsdə istifadə edildikdə, dərsin strukturu əsaslı şəkildə dəyişmir. Dərs yenə də əsas mərhələlərini saxlayır, bəlkə də yalnız onların zaman baxımından xüsusiyyətləri dəyişə bilər. İnteraktiv üsullarla informatikanın öyrənilməsi şagirdlərin idrak fəaliyyətini aktivləşdirməyə, müstəqil öyrənmək bacarığını inkişaf etdirməyə, komanda ilə işləmə bacarığını formalaşdırmağa, ünsiyyət bacarıqlarını inkişaf etdirməyə və ən əsası, öyrənməyə motivasiyanı artırmağa imkan verir.

ƏDƏBİYYAT

1. Quliyeva T.Ə. Müasir təlim texnologiyaları. Bakı: Təhsil Nəşriyyatı, 2020.
2. Jonassen D.H. Computers as Mindtools for Schools: Engaging Critical Thinking. Columbus, OH: Merrill/Prentice Hall, 1999.
3. Монахов В. М. Проектирование современных педагогических технологий. Москва: Народное образование, 2007.

Хадиджаханум Эмин кызы Ахундзаде
магистрант,
xedice3135@gmail.com,
Маммад Фаррух оглы Мурадов
доктор философии по математике, доцент,
mammad2011@mail.ru,
Ленкоранский Государственный Университет

Современные методы обучения, используемые в преподавании информатики

Резюме

В этой статье рассматривается роль интерактивных и мультимедийных технологий в преподавании информатики. Интерактивные методы повышают познавательную активность учащихся и развивают навыки самостоятельного обучения. Мультимедийные средства (видео, анимация, графика) помогают лучше понять абстрактные понятия с помощью визуальных и аудиальных средств. Электронные средства обучения повышают качество уроков и увеличивают мотивацию к учебе. Навыки работы в команде и коммуникации развиваются с помощью интерактивных методов. Повышение мотивации и улучшение качества образования являются основными целями. В результате мультимедийные и интерактивные методы повышают эффективность образования и укрепляют знания и умения учащихся.

Xadicekhanim Emin Akhundzade
master,
xedice3135@gmail.com,
Mammad Farrux Muradov
doctor of philosophy in mathematics, associate professor,
mammad_2011@mail.ru,
Lankaran State University

Modern teaching methods used in ınformatics education

Summary

This article explores the role of interactive and multimedia technologies in teaching Informatics. Interactive methods enhance students' cognitive activity and independent learning skills. Multimedia tools (videos, animations, graphics) help better understand abstract concepts through visual and auditory means. Electronic teaching aids improve lesson quality and increase learning motivation. Teamwork and communication skills are developed through interactive methods. Increasing motivation and improving the quality of education are among the main goals. As a result, multimedia and interactive methods enhance the effectiveness of education and strengthen students' knowledge and skills.

İlahə Ənvər qızı RÜSTƏMOVA
magistrant,
ilaxarustamova22@gmail.com,
Məmməd Fərrux oğlu MURADOV
riyaziyyat üzrə fəlsəfə doktoru, dosent,
mammad_2011@mail.ru,
Lənkəran Dövlət Universiteti

ELEKTRON TƏDRİS VASİTƏLƏRİNİN VƏ RESURSLARININ İBTİDAİ SİNİFLƏRDƏ TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

Pedaqoji təcrübədə elektron tədris vasitələri şagirdin idrak fəaliyyətinin aktivləşdirilməsi üçün vasitə, müəllimin əlində isə dərs prosesini cəlbedici etmək üçün effektiv alət kimi qiymətləndirilir. Müəllim bu vasitə ilə tədris zamanı diqqəti özünə cəlb edə biləcək, düşünməni fəallaşdıracaq, emosional və yaradıcı iştirakı təmin edəcək aspektləri önə çıxararaq şagirdləri təlim tapşırıqlarını maraqla işləməyə sövq edir. "Müəllimin ən böyük günahı – darıxdırıcı olmaqdır" (İ. F. Herbart) – bu məşhur aforizm müəllimin tədrisdə idrak marağının roluna dair yanaşmasını əks etdirir və onu tədris prosesinin canlandırılması üçün əlində olan əsas alətlərdən biri kimi görməyə imkan verir (Clark, R. C., & Mayer, R. E. (2016).).

Müasir şagirdlərin idrak marağının artırılması vasitələrindən biri də müxtəlif elektron tədris vasitələrinin (ETV) istifadəsidir. Multimediya texnologiyasının didaktik cəhətdən əsaslandırılmış şəkildə təhsil prosesinə daxil edilməsi obrazlı təfəkkürü aktivləşdirir, şagirdə təqdim olunan materialı bütöv şəkildə qavramağa kömək edir. Eyni zamanda, bədii yaradıcılıq məhsullarının yaradılması və mənimsənilməsi prosesində təsəvvür – ədəbi qabiliyyətlərin əsas komponentlərindən biri kimi – inkişaf edir. Bu zaman ibtidai sinif şagirdlərində sözə, səsə, rəngə, həmçinin öz və başqalarının emosional hisslərinə qarşı daha həssas münasibət formalaşır.

Bu gün artıq mürəkkəb modul arxitekturasına malik olan və müxtəlif fənlər üzrə qarşılıqlı əlaqəli modul-dərslər sistemini təşkil edən bütöv Elektron Təhsil Resursları (ETR) kompleksləri hazırlanmış və tətbiq olunmaqdadır. Lakin ETR-lərin bütün spektrini yalnız bu tip komplekslərə endirmək düzgün olmazdı. Müəllimlər getdikcə daha çox özləri ETR-ləri tərtib edir və ya internetdən uyğun resurslar seçirlər.

Rəqəmsal texnologiyaların ənənəvi üsullarla müqayisədə üstünlükləri bu gün artıq aydın şəkildə müşahidə olunur. Əksər mütəxəssislər hesab edirlər ki, informasiya-kommunikasiya texnologiyalarının (İKT) istifadəsi aşağıdakı imkanları təmin edir(Təhsil Nazirliyi (2022)):

- Təlimə müsbət motivasiyanın formalaşdırılması;
- Estetik və emosional baxımdan zəngin dərslərin keçirilməsi (musiqi, animasiya və s. vasitəsilə);
- Dərs zamanı yerinə yetirilən işin həcminin 1,5–2 dəfə artırılması;
- Tədris prosesinin rasional təşkili və dərsin səmərəliliyinin artırılması;
- Müxtəlif informasiya mənbələri ilə müstəqil işləmək bacarıqlarının formalaşdırılması;
- Müxtəlif informasiya texnologiyaları əsasında qurulmuş yeni tip təlim mədəniyyətinin formalaşdırılması;
- Müxtəlif arayış sistemlərinə, elektron kitabxanalara və digər informasiya resurslarına çevik çıxışın təmin olunması.

Önəmli olan məsələlərdən biri də hazırlanacaq elektron təhsil resurslarının tiplərini ayırd etməkdir (Əliyeva, S. (2021).). Bunlar aşağıdakılardır:

- Mətn xarakterli elektron tədris resursları.

Bunlar əsasən mətnlərdən ibarət olur. Bu tip resurslar mühazirə xarakteri daşıyır. Bu resursları müxtəlif təhsil müəssisələrinin veb səhifələrində, müəllimlərin şəxsi bloqlarında, hətta sosial şəbəkələrdə də görmək olar.

- Tekstoqrafik xarakterli elektron tədris resursları.

Bu resurslar mövzunu açıqlayan mətn və illüstrasiyalardan ibarət resurslardur. Bu tip resurslara həmçinin cədvəllər, diaqramlar və s. əlavə oluna bilər;

- Multimedia xarakterli elektron tədris resursları.

Bu resursların tərkibində video, animasiyalar, audio məzmun, interaktiv üsul ola bilər. Müəllim meyarlara uyğunlaşdırılmış resurs hazırlamağı qarşıya məqsəd kimi qoyduğu zaman onun nəzərə alınması vacib olan məqamlarından biri də ardıcıllıq prinsipini gözləməsidir. Bu prinsipin tələbləri yerinə yetirilməklə hazırlanan elektron təhsil resursları tədris prosesində şagirdlərdə irihəcmli informasiyaların asanlıqla mənimsənilməsinə kömək edəcəkdir.

Elektron tədris vasitələri təbii və maddi aləmə, mədəniyyətə və incəsənətə məxsus müxtəlif obyektlərin təsvirlərini vahid axın və məhsul daxilində birləşdirməyə, bu təsvirləri mətin informasiyası ilə dəstəkləməyə, həmin obyektlərin reallıqda və ya təsəvvüri prosesdə çevrilməsini dinamik şəkildə əks etdirməyə imkan yaradır. Təbii ki, belə bir resurs şagirdlərə dərsliklə müqayisədə daha güclü emosional təsir göstərir (Хуторской, А.В. (2018). О, uşaqların dünyagörüşünü genişləndirir və müxtəlif sahələrdə bilik əldə etməyə, yeni yaradıcı fəaliyyət formalarına qoşulmağa imkan yaradır. Bu isə xüsusilə ibtidai sinif şagirdlərinin təlimi zamanı daha da əhəmiyyətli olur.

Müəllimlər, şagirdlərin psixoloji xüsusiyyətlərini və yaşa uyğun maraqlarını nəzərə alaraq, daha səmərəli və maraqlı tədris materialları yarada bilərlər. Elektron tədris vasitələrinin ibtidai məktəbdə istifadəsi həqiqətən də şagirdləri yeni biliklər əldə etməyə stimullaşdıra bilər və təlim prosesini daha maraqlı və yaddaqalan edə bilər.

Əsas məsələ ondadır ki, texnologiyaların istifadəsi balanslı və məqsədyönlü şəkildə həyata keçirilsin ki, uşaqlar belə təhsildən maksimum fayda əldə edə bilsinlər.

Beləliklə, ETR-lərin məqsədyönlü istifadəsi təlim prosesinin estetikliyini, funksionallığını və səmərəliliyini artırmaqla bərabər, şagirdin şəxsiyyət kimi formalaşmasına da mühüm töhfə verir.

ƏDƏBİYYAT

1. Clark, R. C., & Mayer, R. E. (2016). E-Learning and the Science of Instruction: Proven Guidelines for Consumers and Designers of Multimedia Learning. Wiley.
2. Təhsil Nazirliyi (2022). Azərbaycan Respublikasında rəqəmsal təhsil strategiyası 2022–2030. Bakı: Təhsil Nazirliyi.
3. Əliyeva, S. (2021). İbtidai təhsildə elektron tədris vasitələrinin tətbiqi problemləri və perspektivləri. Bakı: Təhsil Nəşriyyatı.
4. Хуторской, А. В. (2018). Современные образовательные технологии. Москва: Академия.

Илаха Энвер кызы Рустамова
магистрант,
ilaxarustamova22@gmail.com,
Маммад Фаррух оглы Мурадов
доктор философии по математике, доцент,
mammad2011@mail.ru,
Ленкоранский Государственный Университет

Значение применения электронных учебных средств и ресурсов в начальных классах

Резюме

В данной исследование применение электронных учебных средств и ресурсов в начальных классах делает процесс обучения более интересным, эффективным и интерактивным. Эти средства активизируют познавательную деятельность учащихся, развивают их творческие способности и эмоциональное участие. Возможности мультимедиа и ИКТ обогащают уроки с эстетической точки зрения, повышают мотивацию и способствуют более глубокому усвоению знаний. Целенаправленное и сбалансированное использование таких ресурсов повышает качество обучения и вносит важный вклад в формирование личности ученика. Электронные средства обучения развивают у детей навыки самостоятельного обучения и интерес к информационным технологиям. Это создает прочную основу для формирования цифрово-грамотного поколения в современном обществе.

İlaha Anvar Rustamova
master,
ilaxarustamova22@gmail.com,
Mammad Farrux Muradov
doctor of philosophy in mathematics, associate professor,
mammad_2011@mail.ru,
Lankaran State University

The importance of using electronic teaching tools and resources in primary school classes

Summary

This research explores the use of electronic teaching tools and resources in primary education makes the learning process more engaging, effective, and interactive. These tools activate students' cognitive activity, enhance their creativity, and encourage emotional participation. Multimedia and ICT technologies enrich lessons aesthetically, increase motivation, and promote deeper knowledge acquisition. Purposeful and balanced use of such resources improves teaching quality and contributes significantly to the formation of students' personalities. Electronic learning tools help children develop independent learning skills and interest in information technologies. This provides a solid foundation for nurturing a digitally literate generation in today's world.

“QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TƏBİƏTDƏN İSTİFADƏNİN REGİONAL, İQTİSADİ, SOSİAL VƏ EKOLOJİ PROBLEMLƏRİ”

mövzusunda

Azərbaycan Kooperasiya Universitetinin “Magistratura” şöbəsi Tələbə Elmi Cəmiyyəti ilə birlikdə 4 noyabr 2025-ci ildə keçirilmiş respublika elmi-praktiki konfransının materialları

Nəşriyyatın müdiri:	Əhməd Ziyəddinoğlu
Kompüter tərtibatı:	Hacı İsmayılov
Texniki redaktor:	Ufiq Əliyev
Korrektor:	Əməl Kərimova

Yığılmağa verilib: 27.11.2025
Çapa imzalanmış: 25.12.2025
Kağız formatı: 60x84, 1/8
Kağız növü: 80 qr. (ofset)
Fiziki çap vərəqi: 101
Tirajı: 100

Konfrans materialı Azərbaycan Kooperasiya Universitetinin mətbəəsində çap olunmuşdur.
Ünvan: AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 93.